


Azərbaycan dünyaya Günəş kimi doğacaq!

Heydər Əliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

HEYDƏR ƏLİYEV

Azərbaycan elminin keşiyində

SƏNƏDLƏR VƏ MATERİALLAR

II cild

Iwixan
Bakı - 2013

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

Layihənin rəhbəri, elmi redaktor və on sözun müəllifi:
Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü,
t.e.d., prof. **Yaqub Mahmudov**

Redaksiya heyəti:
Y.M.Mahmudov, C.Ə.Bəhramov, Ə.Q.Qasımov *(buraxılışa məsul),*
E.Ə.Məhərrəmov, M.H.Xanbabayeva *(dizayner və texniki redaktor)*

Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. 2 cilddə. II cild. Bakı: Turxan NPB, 2013. - 640 səhifə.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nəşri olan «**Heydər Əliyev. Azərbaycan elminin keşiyində**» sənədlər və materiallar toplusunun II cildinə Heydər Əliyevin Azərbaycanda hakimiyyətinin ikinci dövründə (1993-2003) həyata keçirdiyi elm siyasəti ilə bağlı sənədlər və materiallar daxil edilmişdir. Topluya daxil edilmiş sənədlər içərisində Ulu Öndərin imzaladığı fərmanlar, sərəncamlar, müxtəlif vaxtlarda söylədiyi nitqlər, alim və ziyalılarla görüşlərindəki çıxışları, görkəmli elm və mədəniyyət xadimlərinin yubileyləri ilə bağlı, eləcə də respublikada keçirilən simpozium və konfranslara təbrik məktubları və digər materiallar üstünlük təşkil edir.

Heydər Əliyev irsində elm tarixi məsələləri ilə bağlı ilk mənbə olan bu sənəd və materiallar toplusu tədqiqatçılar, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-8211-1-6

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2013
© «Turxan» Nəşriyyat-Poliqrafiya Birliyi, 2013

AZƏRBAYCAN TARİXİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ

«Heydər Əliyev. Azərbaycan elminin keşiyində» sənədlər və materiallar toplusunun II cildinə

ÖN SÖZ

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Şah Abbas, Nadir şah Əfşar kimi neçə-neçə qüdrətli şəxsiyyətlər bəxş etmişdir.

Əsrlər keçdikdən sonra – XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, De Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, min cür maneələrdən, çətinliklərdən keçərək Sovet İttifaqı kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan Heydər Əliyev tarixə Azərbaycan xalqının ***Qurtuluş Mübarizəsinin Qalibi*** *kimi daxil olmuşdur.*

Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmi bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzəyir. Misilsiz dövlət xadimi kimi ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı ona bəxş olunmuş Allah vergisi idi.

Heydər Əliyev ***bütün zamanların və bütün məkanların Böyük Azərbaycanlısıdır.***

Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi olan Heydər Əliyev dünyanın bütün başqa dahi şəxsiyyətlərindən fərqli olaraq iki müxtəlif ictimai-siyasi sistemdə yaşamışdır. Və hər iki sistemdə siyasət nərdivanının ən yüksək pilləsinə ucala bilmişdir.

Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidmətlərindən biri də budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə ***Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtuldu.***

Doğma xalqının ***«olum, ya ölüm»*** *savaşına başçılıq edən Heydər Əliyev Azərbaycanı dibi görünməyən uçurumların, yarğanların üstündən keçirərək tarixi qələbəyə qovuşdurdu. Və bu gün zəfərdən-zəfərə qovuşan demokratik, dünyəvi, hüquqi Azərbaycan dövlətini yaratdı.*

Heydər Əliyev irsi akademik səviyyədə daha dərindən və daha ətraflı araşdırıldıqca, yeni-yeni arxiv sənədləri üzə çıxdıqca bu dahi şəxsiyyətin şərəfli ömür yolunun bugünkü nəsillərə məlum olmayan yeni-yeni səhifələri açılacaqdır.

Heydər Əliyev doğma Vətəninə iki dəfə rəhbərlik etmişdir: bir kommunist rejiminin hökmranlığı dövründə, 1969-1982-ci illərdə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsində; bir də müstəqil Azərbaycan Respublikasının Prezidenti (1993-2003) kimi.

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİNİN BİRİNCİ DÖVRÜ:
Milli oyanışın başlanması və müstəqilliyə doğru böyük dönüş

Azərbaycan xalqının qurub-yaratmaq dühası sayəsində əldə olunmuş mühüm uğurlara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən XX yüzilliyin 60-cı illərində Azərbaycan iqtisadiyyatının bir çox sahələrində – həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyllər özünü göstərməyə başladı. Respublikanın inkişafı getdikcə ləngidi və bu, əhalinin sosial vəziyyətinə məntiqi təsir göstərməyə başladı. İstehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan ittifaq səviyyəsindən geri qalırdı. Və bu gerilik getdikcə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda, demək olar ki, tətbiq olunmurdu. Sonralar tariximizin bu dövrünə qiymət verərkən Heydər Əliyev deyirdi: «*Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi*».

Respublikanın düşdüyü bu ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin Birinci dövrü başlandı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.

Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. HEYDƏR ƏLİYEV YENİ AZƏRBAYCANIN QURUCUSUDUR. O, bu quruculuğa hələ XX yüzilliyin 50-ci illərindən başlamışdır.

XX əsrin uzaq 20-30-cu illərində ermənilərin və qeyri millətlərin nümayəndələrinin yuva salmış olduğu və xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-nın) azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə – hələ sovet rejiminin ən güclü vaxtında məhz Heydər Əliyev girişmişdir. Bu gün

bütün azərbaycanlılar, o cümlədən xalqımızın hər bir nümayəndəsi aydın dərk etməli və unutmamalıdırlar ki, daşnaklar xalqımıza qarşı həyata keçirdikləri 1918-ci ilin Mart soyqırımından sonra, 1920-ci ilin Sovet işğalında da yaxından iştirak etdilər. Bolşevik libası geyinmiş daşnaklar bu dəfə sovet hakimiyyətinin «qurucuları» cildinə girərək xalqımızı qırdılar. KQB-də (Dövlət Təhlükəsizlik Komitəsində) və NKVD-də (Xalq Daxili İşlər Komissarlığında) əsas mövqeləri ələ keçirdilər. Erməni «çekistləri» uydurma «cinayət işləri» qaldıraraq 20-30-cu illərdə xalqımıza qarşı kütləvi repressiyalar həyata keçirdilər, neçə-neçə Cavidləri, Müşfiqləri – Azərbaycan xalqının qaymağını məhv etdilər. Bu baxımdan Heydər Əliyevin KQB-ni azərbaycanlılaşdırmaq sahəsindəki xidmətləri Vətən və xalq qarşısında adi xidmətlər deyildi! Başqa sözlə, Heydər Əliyev qeyrətli və milli ruhlu Vətən oğullarını Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb etməklə, əslində xalqımızın namuslu övladlarına qarşı yönəlmiş növbəti təqiblərin qarşısını alırdı.

XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxsahəli, qaynar fəaliyyət dövrü başlandı. 1969-cu ildə – Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi və ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Xalq ilk addımlarındanca Heydər Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Azərbaycan xalqının tarixində HEYDƏR ƏLİYEV DÖVRÜ başlandı. Xalqın dahi oğlu Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı. Bütün ömrünü doğma xalqına həsr etdi.

Böyük siyasətçi iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli

qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparırdı. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə (o vaxtkı terminologiya ilə desək, inzibati-iqtisadi vahidə) çevirmək onun planlarının başında gəlirdi. Bir sözlə, Vətənimizin müstəqilliyə gələn yolunu hələ o zaman Heydər Əliyev başlamışdı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən xüsusi qərarlar qəbul etməsinə nail oldu. Və eyni qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub-yaratmaq dühası tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Nəticədə 1970–1985-ci illər Sovet Azərbaycanının tarixinə, bütün varlığı ərzində, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı. Sonralar tariximizin bu dövrünü Heydər Əliyev belə qiymətləndirirdi: «*1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur*».

1970–1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu.

Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Paytaxt Bakıya, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, mədəniyyət sarayları, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, dəryaçalar, Kür su kəməri, yaşıllıq zonaları, istirahət ocaqları, neçə-neçə yollar, o cümlədən yurdun şimal-qərb ucqarını paytaxta bağlayan Bakı – Balakən dəmir yolu, Dağlıq Qarabağın mərkəzə – Bakıya bağlılığını artırmaq və orada Azərbaycan mühitini canlandırmaq üçün görülən mühüm tədbirlər, o cümlədən Xankəndinə dəmiryolu çəkilməsi Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

1970–1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyaraçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Azərbaycanın gələcək inkişafına ünvanlanmış strateji əhəmiyyətli bütün bu işlərə Heydər Əliyev şəxsən özü başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hələ o vaxtlar zamanı qabaqlayaraq XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı.

Heydər Əliyevin XX yüzilliyin 70-80-ci illərinin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Şimali Azərbaycan o zaman dağılmağa başlamış böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi. Heydər Əliyevin özü demişkən: «*Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial res-*

publikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır».

Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Böyük düha sahibi yeni Azərbaycanı – bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı!

Dahi dövlət xadimi Heydər Əliyev kommunist rejiminin hökmranlığı dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilməyəcəyi mübarizəni apardı, Kreml rejiminin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq, Azərbaycanın gələcəyi naminə olduqca uzaqgörən və çox cəsarətli addımlar atdı. Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərinin heykəllərini ucaltdırdı, repressiya qurbanı olmuş böyük Cavidi ölümündən illər keçdikdən sonra Vətənə qaytardı, Kerçdə, Krımda həlak olmuş minlərlə azərbaycanlının şərəfinə Sapun Qora yaxınlığında abidə ucaltdırdı...

Məhz bu dövrdə – Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, ilk dəfə olaraq, Azərbaycanın görkəmli sənət adamlarının böyük bir dəstəsinə – şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza ilk dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi də təkzibolunmaz tarixi faktlardır.

Doğma xalqı, el-obası üçün canını qoyan, elə buna görə də Moskvaya «irəli çəkilib» müəmmalı şəkildə həyat çırağı söndürülən, sonra da «millətçi» damğası yapışdırılan və adının çəkilməsi belə yasaq olunan Nəriman Nərimanovun Bakıda əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidməti idi. Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan Heydər Əliyev bir daha sübut etdi ki, onu Vətən – xalq təəssübkeşliyindən döndərmək heç kəsin hünəri deyil, o cümlədən hakim sovet rejiminin də!

Heydər Əliyevin rəhbərliyi dövründə, XX əsrin 60-cı illərinin sonu – 70-ci illərində, Azərbaycanın ümumi yüksəlişi fonunda xalqımızın tarixi keçmişinə də maraq artdı, bu sahədə də oyanış başlandı. Xalqımızın milli-mənəvi həyatında da dirçəliş başlandı. O zaman ölkəmizdə milli oyanışın əsas mərkəzlərindən biri böyük mütəfəkkirimiz Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Ensiklopediyası idi. Ensiklopediyanın Baş redaksiyası, redaksiya ətrafında toplanmış alimlərin böyük əksəriyyəti çox cəsarətli çıxışlar edirdilər. Xalqımızın təşəkkülündə türk etnoslarının həlledici rol oynaması, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin tariximizdə mütərəqqi rol oynaması, Cümhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi, 1920-ci ilin Aprel işğalı kimi bir çox məsələləri o zaman məhz ensiklopediyaçılar qaldırdılar. Rəsul Rzanın həlledici köməyi ilə

bu sətirlərin müəllifi Kiyevin xəritə fabrikində ilk dəfə olaraq Azərbaycan tarixi xəritələrinin hazırlanması və çapına nail oldu. 1972-ci ildə Ensiklopediyanın Baş redaksiyası Rəsul Rzanın redaktorluğu ilə «Azərbaycan SSR xəritələri» (Azərbaycan və rus dillərində) adlı atlas nəşr etdi. Göstərilən tarix xəritələri həmin atlasa daxil edildi. Lakin «sapı özümüzdən olan baltalar» bütün bu məsələləri Moskvaya çuğulladılar, Ermənistandakı tarixçi «dostlarını» köməyə çağırdılar. Bizə «millətçi», «burjua məfkuraçiləri», «sovet hökumətinin və Rusiyanın düşmənləri» damğasını vurmaq məqsədilə xalqımıza qarşı 1918-ci ilin Mart soyqırımını törətmiş Stepan Şaumyanın oğlu L.S.Şaumyanı Bakıya gətirtdilər. O zaman «Böyük Sovet Ensiklopediyası» baş redaktorunun birinci müavini, həm də sovet ideologiyasının başında duranlardan biri olan oğul – Şaumyan əlinə düşən fürsətdən istifadə edərək Azərbaycan ziyalılarına zərbə vurmaq üçün özünü oda-közə vurdu. Lakin məqsədinə çata bilmədi. Çünki Azərbaycana doğma yurdunun təəssübkeşi olan qüdrətli bir şəxsiyyət başçılıq edirdi. Məhz Heydər Əliyevin müdrikliyi və cəsarəti sayəsində o zaman həm ensiklopediyaçılar, həm də ziyalılarımızın böyük bir dəstəsi nəinki KQB-nin təqiblərinə düçar olmadı, hətta partiya cəzasından da yaxa qurtara bildilər!!!

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli-azadlıq hərəkatının yeni mərhələyə–yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir.

Bu inkarolunmaz tarixi faktdır ki, dünya sosializm sisteminin və böyük Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

Heydər Əliyev yeni, müstəqil Azərbaycanı qurduğu illərdə tariximizin yuxarıda bəhs etdiyimiz dövrünü yada salaraq deyirdi:

«Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır».

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİNİN İKİNCİ DÖVRÜ:
Qurtuluş mübarizəsinin qalibi, Azərbaycan dövlətçiliyinin xilaskarı

Mütəqilliyin ilk illərində baş vermiş hərc-mərclik, xaos və anarxiyadan sonra doğma xalqının təkidli tələbi ilə Azərbaycanda hakimiyyət sükanının arxasına qüdrətli bir siyasətçi keçdi – düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların dayanmadan dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri-yüzilləri qabaqlayan, qalın-qalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içi kimi görən Heydər Əliyev başçılıq etdi Azərbaycana! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi!

Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi Birinci dövrlə İkinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəridir. Uğursuz Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki ağalara daha sədaqətlə nökərçilik etmək üçün bəhsə-bəhs, vaxtı ilə Nərimanovun qətlə yetirildiyi Kreml labirintlərindən salamat qurtarıb xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət adamımız Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, onu hətta Naxçıvanda da hakimiyyətdən götürmək cəhdi kimi rüsvayçılıqlar tariximizin ən qara səhifələri, ən bağışlanmaz səhvləridir. Əgər o zaman – müstəqilliyin ilk illərində bu müdrik siyasətçi hakimiyyət sükanının arxasında əyləşsəydi, bunca müsibətlərə düçar olardıqmı?!

Bu suala Heydər Əliyev ömrünün Naxçıvan səhifələri daha aydın cavab verir: **milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından «sovet», «sosialist» sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması, nəhayət, böyük Vətəndən – Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də amansız hərbi-iqtisadi blokada**

şəraitində vətən torpağının düşməndən qorunub saxlanması – bax, bunlardır böyük şəxsiyyətimizin Naxçıvanda ağır blokada şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu!

Bəs Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmadığı həmin dövrdə böyük Vətəndə – Azərbaycanda nələr baş verdi?

Sərt tarixi həqiqət belədir: **1993-cü ilin iyununda – Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çabalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, satqınlıq, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımızın hərraca qoyulması adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində faktiki olaraq silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə və təşviş içərisində idi. Atışma səslərindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi. O dövrün başabəla rəhbərləri təyyarələrini hazır saxlayır, vəziyyət bir az mürəkkəbləşən kimi qaçıb aradan çıxırdılar. Üzdə xalqdan danışan, əslində isə sərvət düşkünləri olan bir qrup vəzifəpərəst sovet hakimiyyəti illərində toplanmış xalq əmlakına sırışt olmuşdu. Talançılıq baş alıb gedirdi. Faktiki olaraq dövlət yox idi. Ölkəni xalq adından idarə edən, əslində isə heç bir səriştəsi olmayan, ən adi idarəçilik qaydalarının belə nə olduğunu bilməyən və xaricdəki ağalarının göstərişi ilə hərəkət edən məhdud bir qrup məmləkəti milli fəlakət həddinə çatdırmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Ululalarımızın müqəddəs əmanəti olan Vətən torpaqları hərraca qoyulmuşdu. Azərbaycan xarici aləmdəki olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların «Böyük Ermənistan» yaratmaq niyyətləri, tarixi düşmənlərimizin – qonşu ölkələrin paytaxtlarında hazırlanmış və Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında – Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmış, qardaş qanı axıdılmışdı...**

Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və

daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. **Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan xalqının qurtuluş mübarizəsində həlledici dönüş baş verdi.**

Müdrik siyasətçi bir neçə gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı üçün, doğma Vətən üçün nələr etdi? Və ya 1993-cü ilin 15 İyun gününü nə üçün Qurtuluş günü adlandırmaq olar?! Görülən böyük işlərin hamısını sadalamaq mümkün olmasa da, heç olmasa, onların ən mühümlərini, ən böyüklərini sıraya düzməyə çalışaq!

Ən başlıcası: azadlıq, müstəqillik həm hər bir ayrıca vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, minlərlə şəhid vermişik bu yolda. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmayan yerdə azadlıq və müstəqillik də yoxdur. Dövləti olmayan xalq ölümə məhkumdur. Azərbaycan dövləti bizim «olum, ya ölüm» məsələmizdir. **Ulu öndər Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtuldu.** Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. **Qurtuluş deməkdir!**

Azərbaycan dövlətçiliyi və prezident Heydər Əliyevin qətiyyəti 1994-cü ilin Oktyabr və 1995-ci ilin Mart qiyamları, habelə digər qəsdlər və şantajlar zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev andına sadiq qalan, dar ayaqda Vətənin müstəqilliyi, xalqın azadlığı naminə həlak olmağa hazır olan prezident olduğunu nümayiş etdirdi. Özündən əvvəlki «rəhbərlər»dən fərqli olaraq, dar ayaqda xalqını, Vətənini qoyub qaçmadı. Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. **Sabitlik və əmin-amanlıq yarandı. Böyük dövlət xadimi kimi Heydər Əliyevin digər tarixi qələbəsi məhz budur – sabitlikdir.**

Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: ***Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!***

Heydər Əliyev müharibə məsələsində düzgün mövqe tutdu. Müdrik bir strateq kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs rejiminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırılmasının qarşısını aldı – genefondumuzu xilas etdi. Bu, Azərbaycan xalqının yaşaması, gələcəyi demək idi...

Prezident Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəlki «rəhbərlərin» tarixi keçmişin ibrət dərslərinə, dəyişən dünyanın real həqiqətlərinə, daxili həyatın və beynəlxalq vəziyyətin gerçəkliklərinə deyil, emosiyalara əsaslanaraq qəbul etdikləri səhv qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi «Azərbaycan» möhürü özümüzə qaytarıldı. Bununla Vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan islam-türk birliyi bərpa olundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Düşmənlərimizin oxu bu məsələdə də daşa dəydi!

Heydər Əliyevin həyata keçirdiyi uğurlu daxili islahatlar və xarici siyasət nəticəsində müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti sürətlə artdı. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazandı.

Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz – Azərbaycan Respublikasının Konstitusiyası dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biri kimi beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırdı.

Yurdumuzda hökmranlıq edən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərdi.

Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrildi.

Prezident Heydər Əliyevin xarici siyasət sahəsində ən mühüm uğurlarından biri də budur ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq münasibətlərimiz bərpa olundu. Azərbaycan Respublikası qardaş türk

dövlətləri ailəsinin bərabərhüquqlu üzvünə çevrildi. **Heydər Əliyev isə bütün türk dünyasının müdrik yolgöstərəni, öz zəmanəsinin Atatürkü kimi dərin ehtiram və nüfuz qazandı!**

Heydər Əliyevin yorulmaz səyləri nəticəsində müstəqil Azərbaycan dövlətinin islam dünyasındakı nüfuzu da artdı.

Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatlara üzv qəbul olundu. Azərbaycan Avropa Şurasında xüsusilə böyük uğurlar qazandı. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğururdu.

Heydər Əliyev bütün tarixi dövrlərdə, ənənəvi düşmənlərimizin həmişə Azərbaycanı diz çökdürmək üçün istifadə etdikləri «erməni kartı»na qarşı neft siyasəti strategiyasını işləyib hazırladı. Və sübut etdi ki, Qafqaz problemlərinin həllində «erməni kartı»ndan daha güclü vasitələr vardır. Uzaqgörən siyasətçilər indi yaxşı başa düşürlər ki, neft strategiyasının «erməni kartı»na və xarici ölkələrdəki erməni lobbisinə qalib gələcəyi gün uzaqda deyil. Yaxın gələcəkdə müəllifi Heydər Əliyev olan bu siyasətin nə qədər dərindən düşünülmüş və uzaqgörən bir siyasət olduğunu zaman özü indikindən daha qabarıq göstərəcəkdir!

Heydər Əliyev zəkasının, onun gərgin, ardıcıl və inadlı fəaliyyətinin nəticəsi olan Bakı–Tiflis–Ceyhan əsas neft ixracı kəmərinin, həmçinin Bakı – Ərzurum qaz kəmərinin region ölkələri üçün, o cümlədən türk dünyasından ötrü nə demək olduğu hələ neçə-neçə nəsillər keçəndən sonra daha aydın və daha dərindən başa düşüləcəkdir!

Heydər Əliyev Azərbaycan Respublikasını şimaldan və cənubdan mənggənəyə salıb sıxan, onun xarici ölkələrlə ənənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq – Qərb dəhlizini açdı. Böyük İpək Yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. Dünya bunun şahididir. Dünya siyasətçiləri bunu qiymətləndirirlər. Gizli deyil ki, ermənilər də bu siyasətin uğuru qarşısında təlaş keçirməyə başladılar. İndi isə qaçılmaz məğlubiyyətlə üz-üzədirlər!

Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7–8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda – məşhur «Gülüstan» sarayında keçirilmiş beynəlxalq konfrans bütün varlığı dövründə Azərbaycanın xarici siyasət tarixinin ən böyük hadisələrindən biridir. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dirçəlişində, onun iqtisadi – mənəvi oyanışında misilsiz rol oynayacaqdır. Bu gün həmin siyasətin uğurları da göz qabağındadır!

Heydər Əliyevlə siyasi mükalimədə uduzan ənənəvi düşmənlərimiz, çox keçmədən Qafqazda itirilmiş mövqeləri qaytarmaq, neft siyasətini uduz-

mamaq üçün siyasi şantajlara, hərbi təzyiq və terror aktlarına, bir sözlə, siyasət cığallığına əl atmağa başladılar. Ermənistanda rusiyapərəst dəvakarların və Qarabağda Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımları qatillərinin hakimiyyətə gətirilməsi, Gürcüstan prezidenti E.A.Şevardnadzeyə qarşı təşkil olunmuş sui-qəsd və s. bu baxımdan uduzmuş oyunçuların cığallığından başqa bir şey deyildi. **Bir sözlə, dahi dövlət xadimi, qüdrətli siyasətçi Heydər Əliyev öz doğma xalqını dibi görünməyən yarğanların, uçurumların üzərindən böyük müdriklikl̀ə, incə və çevik siyasətlə, nazik tellər üzərindən keçirib işıqlı həyata qovuşdurdu.**

Bu gün yaşadığımız regionda təkcə Azərbaycanda xarici dövlətlərin əsgəri qüvvələri və hərbi bazaları yoxdur. Vətənimiz Azərbaycan bütün Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bunun özü də Heydər Əliyevin başladığı uzaqgörən siyasi gedişlərin uğurlu davamıdır.

Heydər Əliyevin Xəzərlə bağlı müdrik və uzaqgörən xarici siyasət strategiyası, bu dənizi sülh və əmin-amanlıq dənizinə çevirmək planları da öz reallığına görə Xəzərsahili ölkələr tərəfindən, faktiki olaraq, əsaslı bir etiraz doğurmadı! Beynəlxalq mənafelərin, o cümlədən böyük dövlətlərin və qonşuların mənafelərinin düyünləşdiyi Azərbaycan kimi çox mühüm hərbi-strateji və zəngin sərvətli bir ölkədə bütün bunlara nail olmaq hər siyasətçinin işi deyildi!!!

Heydər Əliyev özünün ölkəmiqyaslı qəbullarından tutmuş beynəlxalq miqyaslı görüşlərə, yüksək səviyyəli danışıqlarınadək hər yerdə, hər an Azərbaycan həqiqətini dünyaya yaydı. Bunun nəticəsində **Azərbaycan vaxtilə ona qarşı yaradılmış beynəlxalq informasiya blokadasını yara bildi. Dünya Azərbaycan həqiqətini qəbul etməyə başladı.**

Heydər Əliyev vaxtilə onun öz qayğısı sayəsində Moskva, Sankt-Peterburq, Kiyev və başqa şəhərlərin ali məktəblərində təhsil almış, özü də Azərbaycanın müxtəlif bölgələrini təmsil edən gənclərin qabaqcıl bir dəstəsini Prezident Aparatına, müxtəlif dövlət strukturlarına toplayıb onlara idarəçilik qaydaları öyrətdi, gələcəyin yeni, qüdrətli Azərbaycanı üçün hazırladı!

Başqa bir məsələ barədə. Gecəli-gündüzlü, son dərəcə ağır, hətta dözülməz bir rejimlə işləməsinə baxmayaraq, Azərbaycan prezidenti yurdumuzda baş verən heç bir hadisəni, heç bir prosesi nəzərdən qaçırmır, onlardan ən mühümünü ön plana çəkir, şəxsi nəzarəti altına götürür, prezident andına sadiq qalaraq Vətəni zərgər dəqiqliyi ilə idarə edirdi.

Heydər Əliyevin öz doğma el-obası qarşısında danılmaz tarixi xidmətlərinin hamısını dərindən-dərinə araşdırmaq, yerli-yerində ipə-sapa düzmək, incələmək və gələcək nəsillərə doğru-düzgün çatdırmaq o qədər də asan məsələ deyil. Və bu hər tarixçinin də işi deyil! Əlbəttə, bütün bunlar xüsusi tədqiqatların və gələcəyin işidir. Mən isə bu yığcam

yazıda müasirlərimə təkcə bir həqiqəti yetirmək istədim: **keçid dövrlərində qüvvətli şəxsiyyət olmadan qələbə yoxdur!** Hazırda tərəqqi dövrünü yaşayan bütün xalqları, millətləri, ölkələri keçid dövrünün keçilməz labirintlərindən dahi şəxsiyyətlər – Atatürklər, Vaşinqtonlar, Bismarklar, Nehrular, De Qollar çıxarmışlar! Heydər Əliyev də belə şəxsiyyətdir! Bunu bütün dünya qəbul edir. Bunu Azərbaycanın çağdaş və gələcək nəsillərinin də daha dərindən dərk etməsi gərəkdir!..

Heç kəsin istəyindən asılı olmayaraq, XX yüzilliyin 90-cı illərində Azərbaycanın tarixinə daha bir silinməz səhifə həkk olundu. Zaman, tarix özü həkk etdi bu səhifəni. «**İstiqlal savaşı**» adlanır həmin qızıl səhifənin adı. Xalqımızı bu müqəddəs savaşdan – İstiqlal savaşından **Heydər Əliyev** şəxsiyyəti qələbə ilə çıxartdı! Və tamamilə təbii olaraq **İstiqlal savaşının qalibi** kimi dünyanın dahi şəxsiyyətləri sırasında öz layiqli yerini tutdu. Tanrı yazısına pozu yoxdur!

Çağdaş Azərbaycan bu gün – XXI yüzilliyin başlanğıcında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda uğurdan-uğura qovuşur. Tarixin ən qanlı burulğanı içərisində çabaladığımız günlər arxada qalmış, tarixə çevrilmişdir! Azərbaycan dövlətçiliyi məkrli düşmənlərin qanlı caynağından həmişəlik xilas edilmişdir! Bütün bunlar üçün hər bir Vətən övladı, qədirbilən xalqımız dahi xilaskara – Ata yurdumuzun Atatürkünə borcludur!

Bu gün Heydər Əliyev ideyalarının zəfər yürüşü davam edir! Azərbaycan Cənubi Qafqazın lider dövlətinə və dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrilmişdir. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvüdür. Azərbaycan xalqı müasir dünyanın böyük dövlət xadimi İlham Əliyevin rəhbərliyi ilə özünün daha parlaq gələcəyinə doğru inamla irəliləyir.

* * *

Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycan Respublikasının prezidenti olduğu dövrdə ölkə həyatının bütün digər sahələri kimi, elmi də düşdüyü ağır böhran və burulğanlardan xilas etmiş, mövcud elmi strukturların, elmin maddi-texniki bazasının, kadr potensialının qorunub saxlanılması və inkişaf etdirilməsi üçün mühüm tədbirlər həyata keçirmişdir. Əlamətdar haldır ki, Heydər Əliyev Azərbaycan milli dövlətçiliyi üçün ağır sınaqlar dövründə böyük siyasətə qayıdışının ilk anlarından ən vacib görüşlərindən birini ziyalılarla və elm nümayəndələri ilə keçirməyi özünə mənəvi borc bilmiş, bununla da o yeni cəmiyyət quruculuğunun elmi əsaslarla həyata keçiriləcəyini, onun xalqın intellektual potensialına, mənəvi dəyərlərinə söykənəcəyini bir daha bütün ölkəyə bəyan etmişdi.

Azərbaycan elminin flaqmanı sayılan Milli Elmlər Akademiyası və onun çoxsaylı kollektivi Ümummilli lider Heydər Əliyevin qayğısını və diqqətini həmişə hiss etmişdir. İnkişafın bütün sahələrində elmin, alim mövqeyinin vacibliyini düzgün qiymətləndirən Heydər Əliyev hakimiyyətə gəldiyi ilk günlərdə ölkənin ağır siyasi, hərbi böhran içində olmasına baxmayaraq, Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri ilə görüşərək onların fikirlərini öyrənmiş, AMEA-nın statusunun artırılması, alim və elmi işçilərin sosial problemlərinin həlli istiqamətində təsirli addımlar atmışdır. O, fəxrlə bildirirdi ki, Azərbaycan Milli Elmlər Akademiyasının keçdiyi yol Azərbaycan xalqının tarixində parlaq bir səhifədir. Çoxəsrlik tariximizdə yüksək inkişaf etmiş elmimiz, dünyaca məşhur alimlərimiz olmuşdur. Ancaq Azərbaycan elmi heç vaxt bu qədər qüvvətli, güclü, çoxsahəli olmamışdır.

Müstəqil Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası ölkənin əsas elmi potensialını özündə birləşdirərək, xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstərmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasına dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verilməsinin, elmin inkişafı ilə bağlı islahatlar strategiyasının təşəbbüskarı da məhz Heydər Əliyev olmuşdur. Ümummilli liderin elmin inkişaf strategiyası bu gün dövlət siyasətinin tərkib hissəsi kimi ölkə prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin elmin inkişafı ilə bağlı qəbul etdiyi qərarlar Azərbaycan elminin müasir tələblər səviyyəsində qurulması və dünya elminə inteqrasiyası baxımından mühüm əhəmiyyət kəsb edir.

Oxucuların istifadəsinə verilən «**Heydər Əliyev. Azərbaycan elminin keşiyində**» sənədlər və materiallar toplusunun ikinci cildində Heydər Əliyevin elm barədə, elmin ictimai inkişafda yeri və rolu, elm xadimləri haqqında sənəd və materiallar toplanmışdır. Topluda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Respublikasında siyasi hakimiyyətə gəlişindən sonra elmin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar, müxtəlif vaxtlarda söylədiyi nitqlər, alim və ziyalılarla görüşündə çıxışları, müsahibə və söhbətləri əhatəli şəkildə öz əksini tapmışdır.

Topluda yer almış sənəd və materiallar üç bölmədə yerləşdirilmişdir. Birinci bölmədə Heydər Əliyevin elm sahəsi ilə bağlı çıxışlarını, nitqlərini, söhbətlərini əks etdirən materiallar, ikinci bölmədə Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti kimi imzaladığı fərmanlar, sərəncamlar, üçüncü bölmədə isə elm, təhsil, mədəniyyət müəssisələrinin, görkəmli elm və mədəniyyət xadimlərinin yubileyləri ilə bağlı, eləcə də Azərbaycan Respublikasında keçirilən elmi konfrans və məclislərə ünvanladığı təbrik və məktubları yer almışdır

Sənədlərlə tanışlıq göstərir ki, elmi həyatın elə bir sahəsi yoxdur ki, Heydər Əliyevin diqqətindən kənarda qalmış olsun. Elmi-texniki potensialın yaradılması və yeni məzmunda üzə çıxarılması, yeni elmi fəaliyyət istiqamətlərinə himayə göstərilməsi, Azərbaycan elminin dünya elmi ilə əlaqəli şəkildə inkişaf etdirilməsi kimi vacib məsələlərin həllinə Heydər Əliyevin böyük qayğısı kitabda yer almış hər bir sənəddə aydın görünür.

Sənədlərlə tanış olan oxucuda belə bir qənaət formalaşır ki, Heydər Əliyevin imzası ilə qəbul edilmiş hər bir qərar və sərəncamın dəyəri onun dövlət rəhbəri kimi vəzifəsinə yüksək məsuliyyətlə yanaşmasını təsdiq etməkdən daha çox bu böyük şəxsiyyətin milli təəssübkeşliyini, şəxsi mərdliyini və əsl humanizmini ifadə etməsidir.

Ümumiyyətlə, Heydər Əliyevin çoxcəhətli fəaliyyətinin mühüm bir istiqamətini əks etdirən «**Heydər Əliyev. Azərbaycan elminin keşiyində**» sənədlər toplusu Ümummilli lider məfkurəsinin təntənəsi kimi gələcək nəsillərə həyata yanaşmanın əsas nümunəsi kimi örnək olacaqdır.

«**Heydər Əliyev. Azərbaycan elminin keşiyində**» adlı ikicildlik sənədlər toplusunun II cildi işıq üzü görərkən bu dəyərli nəşrin ərsəyə gəlməsinə və çapa hazırlanmasına elmi işlər üzrə direktor müavinləri tarix üzrə fəlsəfə doktorları Cəbi Bəhramov və Tofiq Nəcəfli, şöbə müdiri tarix üzrə fəlsəfə doktoru Elmar Məhərrəmov, şöbə müdiri tarix üzrə elmlər doktoru Ədalət Qasımov, institutun əməkdaşları Aliyə Ələsgərova, Elnarə Əliyeva, Günel Aslanlı, Leyla Hüseynova, Nailə Məmmədova, Nazilə Əliyeva, Nigar Abuşova, Ramilə Şıxəliyeva, Rəhilə Kazımova, Səbinə Məmmədova, Vüsalə Əlləzova və Zakirə Əliyevanın böyük əmək sərf etdiklərini, kitabın dizayneri və texniki redaktoru, riyaziyyat üzrə fəlsəfə doktoru Mehri Xanbabayevanın qarşıya çıxan çətinliklərin həllində yüksək peşəkarlıq nümayiş etdirdiyini məmnuniyyətlə qeyd etməyi özümə borc bilirəm.

Ümid edirəm ki, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nəşri olan «**Heydər Əliyev. Azərbaycan elminin keşiyində**» sənədlər və materiallar toplusu Əliyevşünaslığa layiqli töhfə olacaq, tədqiqatçılar və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaqdır.

Yaqub Mahmudov
Əməkdar elm xadimi,
AMEA-nın müxbir üzvü

1. ÇIXIŞLAR, NİTQLƏR, SÖHBƏTLƏR

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASINDA ZİYALILARLA GÖRÜŞDƏ ÇIXIŞ*

21 sentyabr 1993-cü il

Hörmətli ziyalılar, əziz dostlar və həmvətənlər! Uzun fasilədən sonra Azərbaycan ziyalıları ilə görüşmək mənə nəsib olduğu üçün məmnun olduğumu bildirmək istəyirəm və görüşdə iştirak etdiyinizə görə, burada çıxış edən natiqlərin mənim haqqımda dediyi sözlərə görə hamınıza ürəkdən təşəkkür edirəm.

Ziyalılarla görüşmək həmişə böyük bir bayram təsəvvürü yaradır. Mən həyatım boyu belə düşünmüşəm, belə fikirləşmişəm. Ona görə, bəlkə görüş sizin üçün də əhəmiyyətlidir, ancaq mənim üçün həddindən artıq dəyərlidir. Çünki uzun müddət belə bir imkandan məhrum olmuşdum. Yalnız qəlbim, ürəyim həmişə Vətənlə, xalqımla və xalqımızın qabaqcıl dəstəsi olan ziyalılarla, onların yaradıcılığı, işləri ilə bağlı olmuşdur. Ancaq indi yan-yanayıq, üz-üzə durmuşuq. Bu mənim üçün böyük hadisədir. Təşəkkür edirəm.

Bu gün, şübhəsiz ki, hər bir kəsi, o cümlədən ziyalıları ən çox maraqlandıran və eyni zamanda ən çox narahat edən Azərbaycan Respublikasının indiki vəziyyətidir. Bu hər bir Azərbaycan vətəndaşını düşündürür, narahat edir və ən çox, şübhəsiz ki, ziyalıları, intellektual səviyyəli adamları düşündürür. Bizi də, sizi də düşündürür. Azərbaycan öz həyatının çətin və ağır bir dövrünü yaşayır, böyük imtahanlardan keçir. Bu imtahanlar müəyyən mənada bizim əsrin əvvəlində başlayıbsa, XX əsrin sonunda daha ciddi bir xarakter alıb. Bu imtahanların çox ağır dövrü indiki mərhələdir. Bizim belə əzab-əziyyətə düşməyimizin səbəbləri çoxdur. Bunun obyektiv səbəbləri də, subyektiv səbəbləri də var.

Mən bu səbəbləri xarakterizə etmək məqsədində deyiləm, buna imkan da yoxdur. Şübhəsiz ki, bunlarla siz də, biz də bərabər məşğul olmalıyıq. Bu, çox vacibdir. Ancaq bir neçə kəlmə deməyə ehtiyac duyuram.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, s. 148-163

Birincisi, şübhəsiz ki, bizim respublikanı bu ağır vəziyyətə salan Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı beş ildən artıq davam edən hərbi təcavüzdür və bu təcavüzün nəticəsində Azərbaycan torpaqlarının bir qisminin işğal olunması, Azərbaycan vətəndaşlarının, sakinlərinin bir qisminin yurdunu-yuvasını itirməsi, qaçqın düşməsidir. Bu müddətdə Azərbaycanın nəinki torpaqları işğal edilib, əsrlər boyu yaranan şəhərlər, kəndlər, qəsəbələr, binalar, insanların yaşayışı üçün lazımi olan qurğular dağılıb viran olur, yandırılır. Bir çox insanlar ağır həyat şəraiti keçirir.

Azərbaycan Respublikası, Azərbaycan xalqı qəsbkarlıq etmir, başqa respublikanın, başqa xalqın, başqa dövlətin torpaqlarına göz dikmir, hücum etmir, yalnız müdafiə olunur. Ancaq bəzi səbəblərə görə biz məğlubiyyətlərə uğrayırıq. Dediyim kimi, torpağımızın bir hissəsi əlimizdən gedib, lakin bu gün şəksiz-şübhəsizdir ki, Azərbaycan xalqı əsrlər boyu torpağını qoruduğu kimi, indi də Azərbaycanın qeyrətli, namuslu, cəsarətli oğulları Vətəni qoruyaraq şəhid olurlar, canlarını qurban verirlər. Bu müddətdə minlərlə həmvətənimiz həlak olub. Onların çoxu döyüşərək, cəsarət, qəhrəmanlıq göstərərək, xalqına, torpağına sədaqətli olaraq dünyasını tərk edib. Bu, bizim üçün bir tərəfdən faciədirsə, digər tərəfdən Azərbaycan xalqının qüdrətini, mətanətini, cəsarətini bir daha nümayiş etdirən amildir. Azərbaycan torpaqlarını müdafiə edərək həyatlarını qurban vermiş, şəhid olmuş həmvətənlərimizin ruhunu bir dəqiqəlik sükutla yad edək. Allah onlara rəhmət eləsin, qəbirləri nurla dolsun.

Bu gün biz müdafiə vəziyyətindəyik, ancaq xalq ümidlərini itirmir. Azərbaycan xalqı öz torpaqlarını geri qaytarmalıdır, ərazi bütövlüyünü bərpa etməlidir. Xalqımız öz suverenliyini, öz müstəqilliyini qorumağa -qadir xalqdır. Təəssüf ki, Azərbaycan xalqının içində, mənəviyyatında olan imkanlardan bu dövrdə istifadə olunmayıbdır. Aparıcı adamlar, siyasi rəhbərlər, dövlət adamları, yaxud özlərini sərkərdə adlandıranlar da olubdur, ancaq onlar xalqın böyük qüdrətindən, böyük imkanlarından istifadə edə bilməyiblər. Lakin bunların hamısı müvəqqəti xarakter daşıyır. Bir də deyirəm, xalqımız qüdrətli xalqdır, əsrlər boyu ciddi imtahanlardan keçmişdir, bu imtahandan da çıxacaqdır və mən buna şübhə etmirəm ki, Azərbaycan bir müstəqil dövlət kimi öz taleyinin sahibi, öz torpaqlarının sahibi, öz hüquqlarının sahibi olacaq və gələcək firavan həyatını özü quracaqdır.

Ancaq bu o qədər də asan iş deyil. Bunun üçün hamı birləşməli, Azərbaycan xalqının gücü bir yerə toplanmalı, hamı bir hədəfə vurmalıdır. İndi gərək hər kəs Vətən, torpaq, namus yolunda öz payını versin, öz borcunu versin. Hamı borcludur. Heç kəs deyə bilməz ki, borclu deyil.

Xalqın övladları bu torpaqda doğulub dünyaya gəliblərsə, atalarımızın, babalarımızın ruhu bizim üçün müqəddəs və əzizdirsə, öz borcumuzu verməliyik. Bu, hamının borcudur. Təəssüf ki, bəzi adamlar belə hesab edirlər ki, kimsə qoy gedib torpağı müdafiə etsin, amma o birisi öz şəxsi işi ilə məşğul olsun. Kimsə vuruşsun, o birisi isə kənarda dursun, gözləsin görək nə olur.

Son illərin ən əcaib hadisəsi ondan ibarətdir ki, Azərbaycanın bu ağır dövründə birləşib torpaqlarımızı qorumaq, millətimizin, xalqımızın şərəfini qorumaq, tariximizi qorumaq əvəzinə ayrı-ayrı qruplar, ayrı-ayrı şəxslər bu fürsətdən istifadə ediblər, vəzifə, məqam hərisliyinə düşüblər, öz şəxsi mənafelərinə, şəxsi məqsədlərinə nail olmağa çalışıblar. Meydana gündə bir siyasətçi çıxıb, ancaq sonra iç üzləri açılıbdır. Təəssüf. Ancaq yəqin ki, xalqımız bunları da görməlidir. Yəqin ki, cəmiyyətin içində olan bu ünsürlər də meydana çıxmalı idilər.

Heç də bu fikirdə deyiləm ki, Azərbaycanı bürümüş bulanıq su indi artıq durulub, yox bu su hələ çox bulanıqdır. Biz bulanıq göl içindəyik. Bəli, hamımızın gücü ilə gərək bu palçıqdan, bulanıq sudan çıxaq, təmizlənək. Gərək hər kəs birinci növbədə xalqın ümumi mənəviyyatına sədaqət göstərərək öz mənəviyyatını nümayiş etdirsin və xalqı bu vəziyyətdən çıxarmağa kömək etsin.

Bu sahədə biz çox tədbirlər görməliyik. Qarşımızda vəzifələr çoxdur. Ancaq şübhəsiz ki, tək mən, yaxud da ki, mənimlə bərabər bir neçə adam bunların hamısının öhdəsindən gələ bilməz. Xalq birləşməlidir. Xalqın ağlı, zəkası, biliyi birləşməlidir. Elə etməliyik ki, bu ağır müharibə vəziyyətindən çıxaq. Mən indi bunun çıxış yolları haqqında danışmaq istəmirəm. Biz həm siyasi fəaliyyəti gücləndirməliyik, həm respublikamızın müdafiə qüdrətini möhkəmlətməliyik, həm də ordu sıralarında, yaxud da ayrı-ayrı yığma batalyonlarda olan quldurları kənarlaşdırıb sağlam qüvvələri toplamalıyıq.

Ancaq hamımız gərək bilək ki, indi Azərbaycan Respublikası qan içindədir. Respublikamız öz müstəqilliyini qorumaq üçün çox işlər görməlidir. Müstəqillik təkcə siyasi xarakter daşımır. Müstəqillik tək ondan ibarət deyildir ki, bizi beynəlxalq təşkilatlar tanıyıblar. Müstəqillik birinci növbədə odur ki, işğal olunmuş torpaqlarımız geri qaytarılsın. Ona görə də hamı birləşməlidir. Hamı ayağa qalxmalıdır. Hamı səfərbər olmalıdır. Rəhmətlik Səməd Vurğunun dahiyanə sözləri daim yadıma gəlir. O vaxt, 41-ci, ya da 42-ci ildə o dedi ki, müsəlləh əsgərəm mən də bu gündən. O vaxt biz ümumi sovet vətənini qoruyurduq. İndi biz öz doğma torpağımızı, müstəqil Azərbaycan dövlətini qoruyuruq, ona görə də peşəsindən, vəzifəsindən asılı olmayaraq indi hər kəsdə, hər vətəndaşda

bu hissiyyat daha güclü olmalıdır, güman edirəm ki, biz buna nail ola biləcəyik, hamımız birləşib bu ağır müharibə vəziyyətindən çıxa biləcəyik.

İndi Azərbaycan müstəqil dövlətdir. Müstəqillik Azərbaycan üçün böyük tarixi bir hadisədir, taleyin xalqımıza verdiyi böyük bir fürsətdir. Şübhəsiz ki, biz bununla fəxr etməliyik. Eyni zamanda bu tarixi nailiyyəti qiymətləndirməliyik, əlimizdə möhkəm saxlamalıyıq. Bu müstəqillik dünyada, o cümlədən keçmiş sovetlər birliyində əsrin ikinci yarısında, xüsusən 70-ci, 80-ci illərdən başlayaraq gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsidir.

Biz müstəqilliyi silahla, dava ilə, üsyanla əldə etməmişik. Bu müstəqillik tarixi prosesdir, onu ictimai-siyasi proseslər əsasında əldə etmişik. Qoy heç kəs deməsin ki, kimsə bir qəhrəman kimi bu müstəqilliyin sərkərdəsidir, yaxud müstəqilliyi əldə edən bir siyasi xadimdir. Müstəqillik heç kəsə, heç bir təşkilata mənsub deyildir. Müstəqillik xalqa mənsubdur. Bu, tarixin, taleyin xalqa bəxş etdiyi böyük bir nemətdir. Biz bunu qiymətləndirməliyik.

Ancaq müstəqilliyi əldə etmək siyasi nöqteyi-nəzərdən o demək deyil ki, müstəqillik tamamdır və dönülməzdir. Müstəqilliyi inkişaf etdirmək, möhkəm saxlamaq, bütün sahələrdə tətbiq etmək lazımdır. Bu sahədə çox iş görməliyik. Təəssüf ki, müstəqillik əldə ediləndən indiyə qədər iş görülməyibdir. «Müstəqillik, müstəqillik» deyə bağıran adamlar belə hesab edirlər ki, onlar bu müstəqilliyin qəhrəmanıdırlar və müstəqillik Azərbaycan üçün artıq bütün şəraitləri yaradıbdır. Bax buna görə də Azərbaycan belə vəziyyətə düşübdür. Son illər Azərbaycanda gedən proseslər təəssüf ki, respublikanın iqtisadiyyatına, sosial həyatına, elminə, mədəniyyətinə çox böyük zərər vurub.

Burada çıxış edən natiqlər bəzi fikirlər söylədilər. Mən onlarla razıyam. Lakin bu fikirlər də Azərbaycan Respublikasının həyatına həmin proseslərin vurduğu zərərlərin hamısını əks etdirə bilmir. İndi biz müstəqillik şəraitindən istifadə edərək, Azərbaycan Respublikasının iqtisadi, sosial, intellektual, elmi, mədəni potensialından səmərəli istifadə edərək nəinki vurulan zərərləri aradan götürməli, həm də daha yüksək səviyyəyə qalxmalıyıq. Biz müstəqillik şəraitində həyatımızın bütün sahələrini vətəndaşlarımızın tələbatına uyğun olaraq inkişaf etdirməli, qurub-yaratmalıyıq.

Azərbaycan bundan sonra hansı yolla gedəcək, hansı iqtisadi-siyasi sistemi seçib inkişaf edəcək? İndi bu sual qarşıda durur. Bu yolun enişyoxuşlarını, çətinliklərini dərk etməyən adamlar, sadəcə olaraq, şüarlarla yaşamışlar. Buna görə də onlar bu yolun daha da genişlənməsi, yəni müstəqillik yolunun çoxşaxəli olması lüzumu, daha da müvəffəqiyyətlə

irəliyə getmək lüzumu meydana çıxan kimi öz cılız fikirlərini ortaya atır, başqalarını günahlandırmağa çalışırlar ki, yox, siz bizim müstəqilliyimizi əldən vermək, geri qaytarmaq istəyirsiniz.

Mən Milli Məclisin iclaslarında da öz fikrimi bildirmişəm, sizin qarşınızda da bunu deməyi özümə borc bilirəm ki, Azərbaycan müstəqillik yolundan dönməməlidir. Azərbaycan ilk dəfə əldə etdiyi bu tarixi fürsəti əldən verməməlidir, nəyin bahasına olursa-olsun müstəqilliyini qoruyub saxlamalı və müstəqil dövlət kimi inkişaf etməlidir. Buna Azərbaycan Respublikasının təbii sərvətləri, iqtisadi, elmi-mədəni, intellektual potensialı imkan verir. Lakin bu potensialların bəziləri qurumuş vəziyyətdədir, bəziləri durğun haldadır. Bunları canlandırmaq, hərəkətə gətirmək, inkişaf etdirmək, bunlardan səmərəli istifadə etmək lazımdır. Təəssüf ki, müstəqillik haqqında çox bağıran adamlar bu milli sərvətlərimizi həm görməyiblər, həm də onlardan istifadə etməyi bacarmayıblar, yaxud da ki, istifadə etmək istəməyiblər.

Dediyim kimi, çox vacibdir ki, respublikamız müstəqil bir dövlət kimi hansı siyasi, ictimai, iqtisadi sistem üzrə gedəcəkdir. Bizim yolumuz demokratiya yoludur, biz demokratiya yolundan dönməməliyik. Bizim yolumuz siyasi plüralizm yoludur, biz bu yoldan dönməməliyik. Biz Azərbaycanda çoxpartiyalı sistem, çoxpartiyalı cəmiyyət üçün şərait yaratmalıyıq. Əmin olun ki, mən bu mövqeyimdən dönməyəcəyəm. Azərbaycanda insan azadlığı, təşəbbüs azadlığı, din azadlığı, dil azadlığı, sahibkarlıq azadlığı – bütün azadlıqlar təmin olunub. İnsan hüquqları, insan haqları qorunmalıdır. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir. Azərbaycan keçmiş kommunist rejiminə, sosialist sisteminə, keçmiş iqtisadi-siyasi sistemə qayıtmamalıdır. Mən Azərbaycanda yenidən fəaliyyətə başlamışam, bu mövqedə dururam və güman edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti belə fikirdədir və ziyalılar da yəqin ki, bu fikirləri qəbul edərlər. Bilirəm ki, ziyalıların əksəriyyəti bu fikirlərlə yaşayır.

Ancaq bu prinsiplərin gerçəkliyini təbliğ etmək, onları həyatımızın bütün sahələrində tətbiq etmək asan məsələ deyil. Çünki bəzən ayrı-ayrı qüvvələr, ayrı-ayrı şəxslər öz şəxsi məqsədlərinə nail olmaq üçün bu prinsiplərdən sui-istifadə edirlər. Bəzən də, siz bunun şahidi olmusunuz, demokratiyanı özbaşınalıq kimi, qanunsuzluq kimi, xaos kimi anlayan adamlar, hətta dövlət başında olan adamlar Azərbaycanı gətirib bu ağır vəziyyətə salıblar.

Lakin bu prinsipləri həyata keçirmək üçün xalqın, millətin qabaqcıl qüvvələri, ağıllı, zəkalı, elmli adamları, ziyalı adamları siyasi meydana çıxıblar, siyasi, ictimai fəaliyyətdə olublar. Son illəri, yəni təkcə bu bir ili,

Xalq Cəbhəsinin hakimiyyətdə olduğu dövrü yox, 90-cı ili, 89-cu, 88-ci, ondan qabaqkı illəri götürün. Bu dövrlərdə böyük bir qarmaqarışıqlıq içərisində doğrudan da milli azadlıq uğrunda mübarizə aparan qüvvələrlə, şəxslərlə yanaşı, bu şəraitdən öz şəxsi məqsədləri üçün sui-istifadə edən adamlar da meydana çıxdılar. Bəzi hallarda onlar üstün gəldilər. Mən Moskvada yaşayırdım. 88-ci ildə Bakının Azadlıq meydanında yüz minlərlə adamın iştirakı ilə keçirilən mitinqlərin sədası bəzən oraya da gəlib çatırdı...

Sonra bu meydan bizim ziyalıları da cəlb etdi. Ancaq təəssüf ki, bundan sonra həmin proseslərdən ayrı-ayrı adamların şəxsi məqsədləri üçün istifadə olundu. Ona görə də xalq hərəkatdan müəyyən qədər uzaqlaşdı, soyudu.

Mən demirəm ki, daim gərginlik olmalı idi. Ancaq bu, xalq azadlıq hərəkatı idi. Torpaqları qorumaq əzmi ilə yaşayan Azərbaycan xalqının öz təzahürünü meydanlarda tapan coşqunluğu, həyəcanı, narahatlığı bundan sonra ayrı-ayrı qüvvələr tərəfindən bir yandan söndürüldü, bir yandan da təzyiq altına alındı. Digər tərəfdən də meydana elə adamlar çıxdılar ki, bu hərəkatdan öz mənfur məqsədləri üçün istifadə etməyə çalışdılar və təəssüf ki, bir çoxları buna nail oldular.

Azərbaycanda demokratiya prinsiplərini bərqərar etmək, tətbiq etmək üçün respublikamızın və dövlət orqanlarının ziyalılara çox böyük ehtiyacı var. Burada bəzi natiqlər Azərbaycan parlamentinin tərkibi haqqında öz fikirlərini söylədilər. Doğrudur, kiminsə dediyi kimi, vaxtilə norma qoyulurdu – neçə nəfər kolxozçu, neçə nəfər fəhlə olmalıdır. Bunlar artıq tarixə keçmiş hallardır. Şübhəsiz ki, həqiqi demokratiya bu yolla təmin edilə bilməzdi. Lakin sonrakı parlament seçkilərində, – mənim xatirimdədir, o vaxtlar Moskvada idim, sonra Naxçıvana gəldim, – bəzi qəzetlərdə oxuyurdum ki, səkkiz nəfərin namizədliyi irəli sürülüb. Onların arasında professor da, akademik də var idi. Məsələn, Ziya Bünyadov kimi məşhur akademik də var idi. Amma seçicilər nədənsə bir nəfər tanınmayan və Azərbaycan xalqı qarşısında heç bir xidməti olmayan adama səs verdilər. Şübhəsiz ki, bu, təbii hal deyildi. Ancaq o adam kiməsə lazım idi, Azərbaycanın o vaxtkı kommunist rəhbərliyinə lazım idi. Buna görə də imkan vermədilər ki, məsələn, alim seçilsin, ya da böyük bir dövlət xadimi, mədəniyyət xadimi seçilsin, yaxud yaxşı bir hüquqçu seçilsin ki, gəlib burada sözünü desin. Elə adamlar seçildilər ki, onlar da, şübhəsiz, Azərbaycan parlamentində Azərbaycanın ictimai-siyasi intellektual mənzərəsini, məzmununu təmsil edə bilmədilər.

Ona görə də biz (mən şəxsən öz tərəfimdən deyirəm) demokratiyaya geniş yol açacağıq. Azərbaycan bundan sonra öz dövlətini demokratik

prinsiplər əsasında qurmalıdır və dövlət orqanları cəmiyyətdə demokratik prinsiplərin bərqərar olması üçün təminat yaratmalıdırlar. Ancaq gərək alimlərimiz də, ziyalılarımız da kənarda qalmasınlar, çalışsınlar, çarpışsınlar, həyatımızın bu ağır dövründə biganəlik etməsinlər. Əgər onların sözü bir dəfə qəbul olunmayıbsa, ikinci dəfə gəlsinlər, ikinci dəfə qəbul olunmayıbsa, üçüncü dəfə gəlsinlər. Anar burada şikayətləndi, mən onun şikayətləri ilə razıyam. Çünki doğrudan da belədir – bu, həqiqətdir. Ancaq bu da o demək deyil ki, inciyib kənara çəkilsin. Heç birimizin inciməyə ixtiyarımız yoxdur.

Burada mən bir çıxışdan belə başa düşdüm ki, mən kimdənsə inciməliyəm. Bilirsinizmi xalqdan heç kəs inciyə bilməz. Ola bilər, ayrı-ayrı adamlardan inciyəsən. Ancaq incikliyi saxlamaq lazım deyil, kinli olmaq da lazım deyil. Çünki xalqımızın bu ağır dövründə gərək bu hisslər kənara atılsın. Labüdlük hissiyyatı var. Hamımızın şüurunda bu hissiyyat gərək hakim mövqe tutsun. Biz bu ülvi hissiyyatla yaşamalıyıq.

Güman edirəm ki, mən fikirlərimi sizə çatdıra bildim. Azərbaycan Respublikası bundan sonra bütün demokratik prinsiplərə sadiq qalacaq, onların həyata keçirilməsini təmin edəcəkdir və hamımız birlikdə Azərbaycanı böyük bir demokratik respublika kimi dünya demokratiyasına uyğun səviyyəyə çatdıraraq dünya mədəniyyətinə, dünya ictimaiyyətinə tanıtdıra biləcəyik.

Azərbaycanda 1918-ci ildə ilk demokratik respublika yaradıldı. Bu, şübhəsiz ki, tarixi bir hadisədir. Azərbaycanın müstəqilliyi uğrunda son dövrlərdə gedən proseslərdə – həm mətbuatda, həm də ictimai-siyasi proseslərdə ilk Azərbaycan Demokratik Respublikası böyük bir nailiyyət kimi qeyd olunub və onun gördüyü işlər yüksək qiymətləndirilibdir. Bu, təbii bir haldır, tariximizin böyük və parlaq bir mərhələsidir. Bu mərhələni biz layiqincə qiymətləndirməliyik və mən də bu gün sizin qarşınızda bunu bildirmək istəyirəm. Bəli, 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan tarixində böyük siyasi-ictimai hadisədir. Belə bir demokratik dövlətin mövcud olması və müəyyən qədər fəaliyyət göstərməsi Azərbaycanın sonrakı dövrlərinə təsir edibdir.

Düzdür, bu demokratik respublika cəmi 23 ay fəaliyyət göstərdi, sonra isə təslim oldu. Mən bu fikrə yenə qayıdacağam. Biz tariximizi həmişə obyektiv təhlil etməliyik və bugünkü nəslə, gələcək nəsillərə düzgün çatdırmalıyıq. Təəssüf ki, əvvəlki dövrlərə aid tariximizdə çox faktlar təhrif olunubdur, indi də təhrif edilir. Əgər o vaxt bir istiqamətdə təhrif olunurdusa, indi başqa bir istiqamətdə təhrif edilir. Tarixçilərimizin borcudur ki, bu qüsuru aradan götürsünlər. Ancaq biz deməliyik ki,

demokratik respublika, onun liderləri Məmmədəmin Rəsulzadə, Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyov, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Onlar Azərbaycanı müstəqil bir dövlət kimi dünyanın bir qismində tanıtdılar, bir neçə tədbir gördülər. Eyni zamanda onların fəaliyyətinin, ümumiyyətlə, uğursuzluğu təkcə ondan ibarət deyil ki, Azərbaycan 20-ci il aprel ayının 28-də qızıl ordu tərəfindən işğal olundu. Hələ həmin işğala qədər bu demokratik dövlət, demək olar, öz süqutuna gəlib çatmışdı. Tarixçilər yaxşı bilirlər ki, 23 ay ərzində bu dövlətin tərkibi beş dəfə dəyişib, bu dövlətdə, bu parlamentdə beş partiya iştirak edib: Müsavat Partiyası, İttihad Partiyası, Əhrar Partiyası, Sosialist Partiyası, hətta Daşnaksütyun Partiyası. Bu parlament sistemi dövlətin yaşamasına imkan vermədi və ayrı-ayrı qruplar, partiyalar arasında gedən çəkişmələr, çarpışmalar, intriqalar özü-özlüyündə bu dövlətin adına ləkə vurdu. Mən bunu nə üçün deyirəm? Ona görə ki, biz bundan ibrət dərsi almalıyıq. Biz o dövrü, o demokratik hökumətin fəaliyyətini qiymətləndiririksə və belə bir mərhələnin tariximizdə olması ilə fəxr ediriksə, həmin proseslərin qüsurlarını da bilməliyik ki, o səhvləri daha buraxmayaq.

Bununla əlaqədar olaraq mən tarixçilər haqqında bir neçə kəlmə demək istəyirəm. Tarixçilərimizin xatirində olmalıdır ki, mən Azərbaycanda işləyən dövrdə – 70-ci illərdə və 80-ci illərin əvvəllərində dəfələrlə onlara müraciət etmişdim ki, bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb. Tarixçilərin yadındadır ki, mən alimlərlə dəfələrlə görüşmüşdüm, hər dəfə də öz narahatlığımı bildirirdim. O vaxtlar Sovetlər İttifaqının çərçivəsində başqa respublikalarla öz işimizi müqayisə edirdik. Həmin respublikaların tarixçilərinin işləri ilə tanış olarkən daha da narahat olurduq ki, nə üçün onlar öz tarixlərini yaxşı yaza bilirlər, biz isə yaza bilmirik.

Düzdür, bunun müəyyən obyektiv səbəbləri var idi. Məsələn, bəzi xalqların əsrlər boyu yaxşı tarixçiləri olub. Onlar tarixi yazıblar, sonrakı nəsillər üçün böyük tarixi abidələr qoyublar. Bunlar bizdə də var. Məsələn, bizim Əlyazmalar Fondunda çox dəyərli, zəngin məlumat verən kitablar var. Amma məsələ tək bunda deyildir. Dünyanın ən böyük kitabxanalarında, muzeylərində tariximizi əks etdirən çox zəngin kitablar, əlyazmaları, tarixi sənədlər var. Ancaq bizim tarixçilərimiz onlardan səmərəli istifadə edə bilmirlər. Ola bilər ki, Sovetlər İttifaqında yaranmış şərait də buna imkan vermirdi. Lakin yadınızdadır ki, bizim Ali Sovetin binası (mən təzə binanı nəzərdə tuturam) hazır olanda köhnə bina haqqında cürbəcür müraciətlər olmuşdu. Bir nazirlik istəyirdi ki, bu binanı ona verək, deyirdilər ki, bu bina rəhmətlik Hacı Zeynalabdin Tağıyevdən bizə yadigar qalıb, başqa təşkilatlar da istəyirdi. Çox düşündük, nəhayət, mən o binanın akademiyanın Əlyazmalar Fonduna verilməsi haqqında qərar qəbul etdim. Nə üçün? Çünki Əlyazmalar Fondu, əsrlərdən bəri qalmış o kitablar bizim üçün böyük bir sərvətdir. Onlar burada bu binanın zirzəmilərində pis vəziyyətdə idi. Onları çıxarıb bir muzey nümunəsi kimi yaxşı saxlayıb istifadə etmək üçün bu binanı Əlyazmalar Fonduna verdik və onun əsasında elmi institut yaratmaq haqqında qərar qəbul etdik. Tarixçilərimiz üçün böyük imkan acdıq, şərait yaratdıq ki, bunlardan istifadə olunsun.

Təəssüf ki, bunlardan lazımi qədər istifadə edilməyib. Bu gün nə üçün bu mövzuya toxunuram? Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək həm öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamıza maraq göstərən adamlara tanıdaq. Bu sahədə də tarixçilərimizin qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür. Mən o vaxtlar – Azərbaycanda işlədiyim dövrdə də deyirdim, indi də bu sözlərin üstündə dururam ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazıram. Bir şərtlə ki, bu şəraitin əvəzində biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün və bütün gələcək üçün yaxşı əks etdirən əsərlər ala bilək. Odur ki, bu baxımdan bir məsələyə də toxunmaq istəyirik: tarixi təhrif etmək olmaz. Bu 70 illik sovet dövründə tarix, ümumiyyətlə dünya tarixi, o cümlədən Azərbaycan tarixi, habelə keçmiş Sovetlər İttifaqının ərazisində yaşayan digər millətlərin tarixi təhrif edilib. Nə üçün təhrif edilib? Çünki o vaxt vəziyyət belə idi və bu, çox adi bir hal idi.

Bunu deməklə biz heç də özümüz-özümüzü ləkələmirik. Bu, bizdən asılı olmayan bir şeydir. Çünki marksizm-leninizm ideologiyası vardı. Hər bir sistemin ideologiyası olmalıdır. Məsələn, o zaman tarixçilər bir şəxsin fəlsəfi görüşlərini araşdırarkən, bir əsər yazarkən çalışırdılar ki, bunu marksizm-leninizm ideologiyasına uyğunlaşdırsınlar. Çalışırdılar bir sənəd tapsınlar ki, guya Nizami Gəncəvi də marksist-leninçi olmaq istəyirmiş. Axı bu belə deyildir. Düzdür, məsələn, əgər axtarıb tapsaydılar və layiqincə göstərə bilsəydilər ki, dünyanın böyük filosofu Höte özünün bəzi fəlsəfi müddəalarını Nizami Gəncəvinin fəlsəfi fikirləri əsasında izah etmişdir – bu isə tarixi həqiqətdir – əgər bunu sübut etsəydilər, əlbəttə ki, obyektivlik olardı. Ancaq bu, bizim tarixçiləri o qədər də maraqlandırmırdı. Bu da onların günahı deyildir, mən heç kimi təqsirləndirmək istəmirəm. Bu, o zamankı quruluşumuzun, dövrün ümumi bəlaları idi.

Bu fikri tamamlayaraq demək istəyirəm ki, ötən 70 illik dövrdə tariximiz təhrif edilmişdir, həm XX əsrin, həm XIX əsrin tarixi, həm də ondan

əvvəlki dövrlərin tarixi təhrif olunmuşdur. Demirəm ki, tamam təhrif edilmişdir, amma tarixə dair əsərlərimizdə təhrif ünsürləri var. İndi isə bir qütbdən o biri qütbə keçmək meyli görünür. O nədən ibarətdir? Ondan ibarətdir ki, deyirlər bütün bu 70 ildə olanların hamısı yaramazdır, pisdir. Azərbaycan xalqı üçün bəladır, xalqımızın ən parlaq dövrü yalnız 1918-ci ildən 1920-ci ilədək olan dövrdür. Heç ondan əvvəlki dövrlərə də fikir verilmir. Əlbəttə ki, «Bir dəfə qalxan bayraq bir daha enməz» fikri dəyərli sözlərdir. Amma bu sözləri dəfələrlə təkrar etməklə Azərbaycanın müstəqilliyini təmin etmək mümkün deyildir. Azərbaycanın həqiqi tarixini bu gün xalqımıza, vətəndaşlarımıza və respublikadan kənarda olub ona maraq göstərən adamlara çatdırmaq mümkün deyildir.

Ona görə də heç bir dövrü, heç bir şəxsi ideallaşdırmaq lazım deyildir. Təəssüf ki, bu ideallaşdırma xəstəliyi 70 ildir beynimizə girmişdir. Bundan xilas olmaq lazımdır. Əgər 70 il müddətində bütün ideoloji sistemimiz marksizm-leninizm elmini, onun prinsiplərini, Marksı, Lenini ideallaşdırmışdırsa, indi də ancaq Məmmədəmin Rəsulzadəni ideallaşdırırlar. Mən yenə də deyirəm: Məmmədəmin Rəsulzadə və onunla bərabər Azərbaycan Respublikasının böyük şəxsiyyətləri XX əsrin əvvəlində və xüsusən 1918-ci ildə, Azərbaycan Demokratik Respublikası qurarkən böyük şücaət göstərmişlər, böyük iş görmüşlər. Bu, şəksiz-şübhəsizdir. Ancaq gəlin açıq danışaq: belə çıxır ki, bir vaxtlar deyirdilər, tariximizdə Kommunist Partiyasının, Sovet hökumətinin tarixindən savayı heç nə yoxdur. Bir müddət də deyirdilər ki, Stalindən, sonra isə Lenindən savayı heç kəs yoxdur. Burada da deyirlər ki, Məmmədəmin Rəsulzadədən başqa heç kim yoxdur. Bəs Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyov, Hacınski, Əlimərdan bəy Topçubaşov, Behbud bəy Şahtaxtinski və başqaları? Mən bu adların hamısını saymaq fikrində deyiləm, bəlkə də siz bu adları məndən də çox bilirsiniz. Ancaq bir adamı bütləşdirmək, ideallaşdırmaq lazım deyildir. Bu xəstəlikdən yaxa qurtarıb tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır. Bu tarixçilərimizin əsas vəzifəsidir. Azərbaycan müstəqil dövlət kimi, şübhəsiz ki, öz tarixi, adət-ənənələri ilə və əsrlər boyu xalqın yaratdığı mədəniyyət əsərləri ilə fəxr edir. Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, azərbaycanlılıq hissini yüksəldərik. Müstəqillik dövründə torpaqlarımızı müdafiə etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bu, çox gərəklidir, lazımdır.

Tariximizin böyük səhifələrini, intibah dövrünü – XI-XII əsrlərdə Nizamini, Xaqanini, Fələkini, Məhsətini götürsək, onların hamısının

yaradıcılığı geniş yayılmışdır. Ancaq təkcə bir cəhəti xatırlatmaq istəyirəm. Nizami Gəncəvinin 800 illiyi 1948-ci ildə keçirilmişdir. 1981-ci ildə biz Nizaminin ədəbi irsinin öyrənilməsi haqqında böyük bir qərar qəbul etdik. Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tuturdular ki, 840 il yuvarlaq tarix deyildir. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər.

Təsəvvür edin, əgər biz Nizami Gəncəvini yaxşı tanıyırıqsa, yaxud da Qərb ölkələrinin, o cümlədən İngiltərənin kitabxanalarında, muzeylərində vaxtilə onun yaradıcılığını təhlil edən alimlər müəyyən əsərlər yazmışlarsa, Azərbaycanda 1948-ci ildən sonra dahi şairimizin əsərləri lazımi səviyyədə çap olunmamışdır. Nizami Gəncəvinin əsərlərinin Moskvada rus dilində nəşr olunması barədə qərar qəbul edilmişdir. Lakin sonra öyrəndik ki, «Xudojestvennaya literatura» nəşriyyatında bu əsərlər çap olunmamışdır. Böyük bir nailiyyət kimi yox, sadəcə olaraq xalqıma xidmət kimi deyə bilərəm ki, Moskvada işlədiyim dövrdə Nizami Gəncəvinin «Xəmsə»sinə daxil olan əsərlərin rus dilində ayrı-ayrılıqda nəşr olunmasına nəzarət etdim. Lakin Moskvada mənə dedilər ki, Nizaminin əsərlərinin rus dilinə tərcüməsi istənilən səviyyədə deyildir. O zaman Mirzə İbrahimovdan və başqalarından xahiş etdim ki, mən artıq Azərbaycanda deyiləm, görün nə etmək olar ki, Nizami Gəncəvinin əsərləri rus dilinə yenidən tərcümə edilsin. Bəzi adamlar isə buna etiraz edirdilər. Axı rus dili böyük dildir, Rusiya böyük dövlətdir. Rusiyadan kənarda, başqa dövlətlərdə də rus dilində oxuyurlar. Əgər məktəblilərimiz ingilis, fransız, alman dillərində dərs keçirlərsə, bu, böyük nailiyyətdir, əgər rus dilində də təhsil alırlarsa, bu da böyük nailiyyətdir.

Nizaminin əsərlərini böyük çətinliklə Moskvada nəşr etdirdik. Sonra mən Bakıya gələrkən Nizami muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir.

Nizami Gəncəvinin 850 illiyi qeyd edilmişdir. Hansı səviyyədə qeyd edildiyini deyə bilmərəm. Ona görə yox ki, bu yubiley böyük bayram kimi keçirilməlidir. Bu, Azərbaycanı, onun tarixini bir daha dünyaya tanıtmaq üçün imkandır. Nizami Gəncəvinin əsərləri təkcə ədəbi cəhətdən deyil, fəlsəfi baxımdan da əvəzsizdir. Lakin 1948-ci ildən ötən 50 ilə yaxın vaxtda biz onların istənilən səviyyədə tətbiq edilib yayılmasına nail ola bilməmişik.

Demək istəyirəm ki, bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam

olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini təkcə «Leyli və Məcnun» poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq. Təkcə ədəbiyyatçılar və yaxud Yazıçılar Birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidirlər.

Yenə də qeyd edirəm, tariximiz çox zəngindir və biz bunu vaxtaşırı xalqa çatdırmalıyıq. Xatirinizdədirmi, Nəsiminin 600 illik yubileyini qeyd etdiyimiz zaman bu, dünyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdı! Nəhayət, 600 ildən sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedən adamlar üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına mənsub olan Nəsimi kimi nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə, elminə, dünya mədəniyyətinə tanıtmaq, şübhəsiz ki, xalqımızın hörmətini qaldırmaq deməkdir. Mən təkcə şairlər haqqında danışmaq istəmirəm. Nəsimi də yalnız şair deyil, həm də alim, filosofdur. Eyni zamanda böyük alimlərimiz – Bəhmənyar, Nəsirəddin Tusi və başqalarını qeyd etmək istəyirəm.

Müstəqil dövlət olmaq üçün xalqın gərək mentalitet səviyyəsi olsun. Xalqın mentalitetini qaldırmaq isə bir-iki günün işi deyil. Bir çox nəsillərin işidir, bununla məşğul olmaq lazımdır. Xalqımızın böyük şəxsiyyətlərinin həm yaradıcılığını, həm də Azərbaycan xalqı qarşısındakı xidmətlərini daim tədqiq etmək, şübhəsiz ki, mühüm vəzifələrdən biridir. Məsələn, Mirzə Fətəli Axundov kimi şəxsiyyətlərin. Gələn il Abbasqulu ağa Bakıxanovun 200 illiyi, bu il Abbas Mirzə Şərifzadənin 100 illiyi, Ülvi Rəcəbin 90 illiyi, Əlağa Vahidin 100 illiyi tamam olur. Bunlar Azərbaycanın böyük şəxsiyyətləridir. Mən böyük şəxsiyyətlərimizin hamısını yada salmaq fikrində deyiləm. Yalnız bəzilərinin adlarını çəkərək öz fikirlərimi ifadə etmək istəyirəm.

Tariximizdə hər bir şəxsiyyətin öz yeri var. Bu fikrə bir də qayıtmaq istəyirəm ki, tarixi təhrif etmək lazım deyil. 1920-ci ildən başlayaraq müstəqillik əldə etdiyimiz vaxtadək Azərbaycan xalqı böyük bir tarixi yol keçmişdir. Bu dövrdə xalqımız yüksəlmiş, onun mentaliteti, təhsil səviyyəsi qalxmışdır. Azərbaycanda böyük elm, mədəniyyət yaranmışdır. Ölkənin sənayesi, kənd təsərrüfatı inkişaf etmişdir. Bu dövrü tarixdən silmək olarmı? Hansı siyasi-iqtisadi sistemin, ideologiyanın olmasının fərqi yoxdur. Şübhəsiz, bu dövrün çox qaranlıq səhifələri də var – 37-38-ci illər, elə 20-ci illərin əvvəlləri, 30-cu illər, repressiya illəri, qanunsuzluq, insan hüquqlarının pozulması, Azərbaycan xalqına böyük zərbələr vurulması. Bunlar həqiqətdir. Eyni zamanda o da həqiqətdir ki, bu dövrdə əzab-əziyyətlərlə, çətinliklərlə yanaşı, Azərbaycan xalqı öz iqtisadiyyatını yaratmışdır. Əgər 70 il ərzində yaranmış bu iqtisadiyyat olmasaydı, indi Azərbaycan Respublikası müstəqil dövlət kimi yaşaya bilərdimi?

Azərbaycanda savadsız adam tapmaq çətindir. Ətrafdakı Şərq ölkələrinə baxın, orada nə qədər savadsız adam var. Azərbaycanda ali təhsil səviyyəsi çox yüksəyə qalxmışdır. Dünənə qədər ali məktəblərimizi bəyənmirdilər. Düzdür, ali məktəblərin işində çoxlu nöqsan var, xüsusən rüşvətxorluq və sair kimi çirkin hallar var. Bu, həqiqətdir. Ancaq bütün bunlarla yanaşı, ali məktəblərimizin yaranması və inkişaf etməsi bu gün üçün nə qədər böyük nailiyyətdir! İndi siz başqa ölkələrin ali məktəbləri ilə müqayisə etdikdə görə bilərsiniz ki, biz ötən dövrdə böyük nailiyyətlər əldə etmişik. Bunları itirmək olmaz.

Eləcə də şəxsiyyətləri itirmək olmaz. Bizdən ötrü Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmmədəmin Rəsulzadə də böyük şəxsiyyətlərdir, Nəriman Nərimanov da. Ancaq son zamanlar Nəriman Nərimanovdan başlayaraq Azərbaycanda bütün siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə deyilən fikirlərlə heç cür razılaşmaq olmaz. Bunu deyən adamların Nəriman Nərimanov səviyyəsinə qalxmaları üçün bəlkə də on illərlə siyasi fəaliyyət göstərmələri lazımdır. Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir. Amma onu da bilin ki, Nəriman Nərimanov müstəqil demokratik dövlətin xadimlərinin hamısını qoruyub saxlayan adamlardan olmuşdur. Məmmədəmin Rəsulzadəni də o qoruyub saxlamışdır. Məşhur generallar Mehmandarovu və Şıxlinskini həbs etmək istəyirdilər. O zaman Nərimanov Leninə məktub yazaraq bildirmişdir ki, əvvəllər çar ordusunda, sonra isə müstəqil dövlətin ordusunda xidmət etmiş bu adamlar dəyərli şəxsiyyətlərdir və onlardan istifadə etmək lazımdır. Bütün bunlarla mən öz fikrimi açıq demək istəyirəm: tarixi təhrif etmək olmaz. Tarixi təhrif edənlər xalqa xəyanət edir, onu çaşdırırlar. Buna son qoymaq lazımdır. Gələcəkdə buna yol vermək olmaz. Biz Bakıda Nəriman Nərimanovun ev-muzeyini yaratmışıq, özü də böyük bir çətinliklə düzəltmişik. Eşidirəm ki, sonra vəzifəyə gələn adamlardan kim isə gözünü bu evə dikib. Muzeyi dağıdaraq özləri üçün mənzil edirlər. Bəs bu hansı mənəviyyata sığışar? Nəriman Nərimanov elm, mədəniyyət xadimi kimi Azərbaycan tarixində olan bir adamdırsa, böyük bir ədəbi irs qoyub gedibsə, belə etmək olarmı? Şübhəsiz ki, belə hallara yol verilməməlidir.

Tariximizdə olan şəxsiyyətlərin hamısı bizim üçün qiymətlidir. Onların heç birinə toxunmaq olmaz. Dahi bəstəkarımız Üzeyir Hacıbəyovu götürək. O, əsrin əvvəlində Azərbaycanda klassik musiqinin yaradıcısı, opera sənətinin banisidir, Müsavat Partiyasının üzvü, Azərbaycan Demokratik Respublikası himninin müəllifi olmuşdur. Sonrakı dövrdə «Koroğlu» operası və başqa əsərlər yaradaraq sovet dövründə Azərbaycanın

mədəniyyətini zənginləşdirmiş bir adamdır. İndi gərək Üzeyir Hacıbəyovu iki yerə bölək? Müsavat dövründəki və sovet quruluşundakı fəaliyyətinə bölək? Ola bilməz axı! Üzeyir Hacıbəyov həddən artıq dəyərli şəxsiyyətdir.

Onu günahlandıraq ki, 1938-ci ildə Moskvada böyük iftixar hissi ilə Stalinlə görüşmüş, Kalinin ona Lenin ordeni təqdim etmişdir?

Cəfər Cabbarlını götürək. Böyük yazıçımız, böyük dramaturqumuz, Azərbaycan mədəniyyətinə böyük töhfə vermiş bir adamdır. Axı o da Müsavat Partiyasının üzvü olmuşdur. Bunu yaxşı bilirsiniz. Cəfər Cabbarlı sovet dövründə ən böyük əsərlər yazmış adamdır. Bizim nəslin əksəriyyəti onun əsərləri ilə tərbiyə olunmuşdur. «Od gəlini», «Yaşar», «Almas», «1905-ci ildə», «Oqtay Eloğlu», «Solğun çiçəklər», «Firuzə» və s. nə qədər gözəl əsərlərdir! Sonralar mən eşidirdim, deyirdilər yaxşı ki, Cəfər Cabbarlı 1934-cü ildə vəfat etdi, yoxsa həbs olunacaqdı. Axı bunlar bizə yaraşan sözlər deyildir.

Ola bilər həbs edərdilər. Məsələn, böyük filosof şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi. Ancaq təəssüf edirəm ki, 1981-ci ildə Hüseyn Cavidin 100 illiyi haqqında Kommunist Partiyasının qəbul etdiyi qərarı Azərbaycanda on il ərzində həyata keçirmədilər. O zaman Bakıda Hüseyn Cavidin böyük abidəsini ucaltmaq haqqında qərar qəbul etmişdik. Tanınmış heykəltəraş Ömər Eldarov bu abidəni yaratdı, mən emalatxanada onu gördüm. Amma abidə neçə illər elə emalatxanada qaldı. Deyəsən, son vaxtlar abidə qoyulmuşdur. Təəssüf ki, mən vaxt tapıb onu ziyarət edə bilməmişəm. İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu? Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırdılar. Ancaq onu, bəlkə də, Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır. Hüseyn Cavidin «İblis» əsəri heç də Hötenin «Faust»undan geri qalmır. Ancaq biz belə inciləri lazımi qədər qiymətləndirə bilmirik.

Güman edirəm ki, bunların hamısını Azərbaycanın müstəqilliyi dövründə təmin edə biləcəyik. Azərbaycan Respublikasının həm elmi, həm də mədəni potensialı böyükdür. Keçmişdə yaşayıb-yaratmış alimlərimiz, yazıçılarımız, şairlərimiz, bəstəkarlarımız böyük irs qoyub getmişdir. İndiki nəslin borcudur ki, bunların əsasında elmimizi, mədəniyyətimizi inkişaf etdirsin. Ancaq bir tərəfdən biz müstəqillik əldə edərək böyük iftixar hissi ilə yaşayırıq, digər tərəfdən isə təəssüf ki, elmi dağıdır, mədəniyyətə biganə yanaşırıq. Bazar iqtisadiyyatına keçmək o

demək deyildir ki, elmə, mədəniyyətə ayrılan vəsait azaldılmalı, bu sahələr ağır maddi vəziyyətə salınmalıdır.

Məsələn, buna necə dözmək olar ki, Azərbaycan Dram Teatrının binası dörd ildir təmir olunur? Halbuki biz o zaman iki il ərzində, 1971-ci ilin əvvəlindən 1972-ci ilin sonunadək saray tikdik – o vaxtlar Lenin adına saray adlanırdı, indi Respublika sarayı deyilir. Həmin saray Bakıda indiyədək tikilmiş mədəniyyət binalarından ən böyüyüdür və Allaha şükür, iyirmi ildən artıqdır ki, Azərbaycan xalqına, Bakı əhalisinə xidmət edir. Təkrar edirəm ki, biz onu iki il müddətində tikmişdik. Bəs nə üçün dörd il ərzində Dram Teatrını təmir edə bilmirlər? Bu, nə çətin işdir? Əgər bu dörd il ərzində Azərbaycanın rəhbərləri mədəniyyətə bir balaca qayğı göstərsəydilər, ayrı-ayrı silahlı dəstələr (məsələn, biri Xalq Cəbhəsinin, biri «Qardaşlığ»ın, biri Mütəllibovun, biri, nə bilim, Rəhim Qazıyevin, biri başqasının) yaratmaq əvəzinə həmin teatrın binasını təmir etsəydilər, bu, Azərbaycan xalqı üçün daha yaxşı olmazdımı?

1873-cü ildə Nəcəf bəy Vəzirov və başqa böyük şəxsiyyətlərimiz ilk Azərbaycan teatrını, Şərqdə ilk teatrı yaratdılar, özü də o şəraitdə, dini təzyiqin mədəniyyətimizə böyük məhdudiyyətlər qoyduğu bir vaxtda. 1973-cü ildə biz bütün dünyaya car çəkdik və böyük iftixar hissi ilə Şərqdə ilk müsəlman teatrının yüz illiyini qeyd etdik. Bu yubileyin necə təmtəraqla, hörmətlə keçirildiyi, yəqin ki, xatirinizdədir. İndi o teatrı xatırlamırlar. Məgər bu, Mirzə Fətəli Axundovun, Nəcəfbəy Vəzirovun, Abbas Mirzə Şərifzadənin, Ülvi Rəcəbin, Mirzağa Əliyevin, Sidqi Ruhullanın, Ələsgər Ələkbərovun ruhuna hörmətdirmi? Heç olmasa, onların ruhu qarşısında məsuliyyətinizi hiss edin. Əgər Hüseyn Ərəblinski o dövrdə böyük teatr, mədəniyyət xadimi kimi fəaliyyət göstərərək bu yolda öz həyatını qurban vermişsə, indi mədəniyyət xadimləri nə üçün həyəcan təbili çalmırlar ki, mədəniyyətimiz batır, dağılır.

Deyirlər ki, sağ olsun filankəslər mədəniyyətə kömək edirlər. Lakin mən bunu bu şəkildə qəbul edə bilmirəm. Necə yəni, dövlətin teatrı təmir etməyə imkanı yoxdur? Bu, nə məsələdir? Mən hələ görməmişəm, deyirlər ki, ayrı-ayrı adamlar özlərinə üçmərtəbəli bağ evləri, binalar tikdirmişlər. Allah sağlıqlarına qismət eləsin, heç kəsə paxıllığım yoxdur. Ancaq birinci növbədə teatr tikmək lazımdır. Xalq üçün, onun mədəniyyətinin inkişafı üçün teatrın nə qədər əhəmiyyətli olduğunu yaxşı bilirsiniz. Bir daha deyirəm, o dövrdə, ötən əsrin sonunda və XX əsrin əvvəlində qabaqcıl fikirli, xalqın mədəniyyəti haqqında düşünən, həm də imkansız adamlar teatrın qayğısına qalırdılarsa, indi dövlətin bizim əlimizdə olduğu bir vaxtda nə üçün qayğını hiss etmirik.

Hacı Zeynalabdin Tağıyevə Allah rəhmət eləsin, vaxtilə teatr binası qoyub getmişdir. Sonra isə o bina dağıldı. İndi yenidən tikinti işləri yaxşı gedir, ancaq binanın memarlığına baxanda narahat oldum. Axı Azərbaycanın böyük memarlıq, rəssamlıq məktəbi var. 800-900 il bundan əvvəl Azərbaycan memarları bütün Şərqdə məşhur olan abidələr yaratmışlar. Əcəmi Naxçıvaninin yaratdığı abidələr təkcə Naxçıvanda deyil, Şərq ölkələrinin bir neçəsində indi də qalmaqdadır. Şirvanşahlar sarayını tikən memarlar öz işlərinə əsl milli təfəkkürlə yanaşmışlar. Bəs indikilər? Yeni tikilməkdə olan teatr binasında Azərbaycan memarlığının bir nümunəsini də görə bilmədim. Həmin binanın hansı üslubda tikildiyini başa düşmədim. Musa Nağıyevə Allah rəhmət eləsin, bu binanı qoyub getmişdir. Gözəl binadır. Azərbaycan xalqı ondan istifadə edir. Memarlıq baxımından burada da qarmaqarışıqlıq çoxdur, mən bunu təhlil etmək istəmirəm. Ancaq Azərbaycan xalqının memarlıq, incəsənət nümunələri burada çoxdur. Səhv etmirəmsə, bu bina 1913-cü ildə tikilmişdir. Əgər Musa Nağıyev, binanı tikdirərkən bu məsələyə fikir vermişsə, indi 1992-1993-cü illərdə tikilən yeni bina niyə milli memarlıq üslubunda olmasın?

Güman edirəm ki, dediklərimi düzgün qəbul edəcəksiniz. Tənqidi fikirlər çox oldu, lakin bu, ünvansız tənqiddir. Eyni zamanda, sizə də, mənə də, başqalarına da aiddir. Bəlkə də mən özümə bəraət qazandıra bilərəm ki, on ildən çox müddətdə burada olmamışam, ancaq fikrən burada olmuşam. Bir sözlə, elmimiz, mədəniyyətimiz yaşamalı, inkişaf etməlidir.

Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, son qoyacağıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan adamlar, Azərbaycanın böyük alimləri çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Akademiyanın fəaliyyətini tənqid etmək də olar, naqis cəhətlər də var. Ancaq ümumən götürüldükdə şübhəsiz ki, elmin keçdiyi inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, itirməməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. 1945-ci ildə Elmlər Akademiyasını yaratmaq, sonra isə onu inkişaf etdirmək, yeni-yeni institutlar təşkil etmək asan iş idimi? Əlbəttə, yox.

Son bir il ərzində akademiya haqqında fikir söyləyənlər özləri əvvəllər akademiyada işləmiş adamlar idi. İki gün əvvəl Ziya Bünyadovla söhbət edirdim. Dedim ki, günahlar hamısı səndədir. Çünki kimdən söz düşürsə, deyir ki, o mənim aspirantım, laborantım olub. Dedim ki, yaxşı, o adamları sən belə öyrətmişdin, nədir? (Salonda gülüşmə) Yeganə bir

şeylə təsəlli tapır: Əbülfəz Elçibəy deyib ki, Ziya Bünyadova dəyməyin, o mənim müəllimim olub. (Salonda gülüşmə).

Bir daha deyirəm ki, dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər, yaxud da tarixə mənfi rol oynamış adamlar kimi daxil olmuşlar. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər, ali məktəblər də inkişaf etməlidir. Ancaq bunlarda qayda-qanun olmalıdır. Əgər biz xalqımızda mənəvi dəyərləri inkişaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər. Biz isə bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün başqa istiqamətləri inkişaf edəcəkdir. Şübhəsiz ki, bazar iqtisadiyyatına keçdiyimiz indiki şəraitdə burada müəyyən çətinliklərlə rastlaşacağıq. Ancaq güman edirəm ki, bunların öhdəsindən gələ bilərik.

Bu gün buraya, sadəcə olaraq, sizinlə görüşmək üçün gəlmişəm. Lakin mən belə başa düşdüm ki, siz buraya prezident seçkiləri ilə əlaqədar toplaşmısınız. Mən sizə açıq demək istəyirəm, buna inanın, dəfələrlə də demişəm, – Azərbaycanda yenidən böyük bir vəzifə tutmaq arzusunda olmamışam. Bilirsiniz ki, 1982-ci ilin dekabrında Azərbaycandan getmişdim. 1987-ci ilin oktyabrın sonunda tutduğum vəzifələrdən – Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən azad edilmişdim. Ondan sonrakı illər məndən ötrü ağır, çətin dövr olmuşdur. Ancaq bu ağır, çətin dövrdən, imtahanlardan da çıxdım, iradəm qırılmadı, əqidəmdən dönmədim.

Mənə qarşı böhtançılıq kampaniyası başlayanda bu işə qoşulanlar az idi, xalq isə Azərbaycanda işlədiyim dövrdəki fəaliyyətimə lazımınca qiymət: verirdi. Buna görə də mən Azərbaycan xalqına minnətdaram. Düzdür, xalqın belə nümayəndələrinin bəzən səsi çıxmırdı, bəzən onlara imkan vermirdilər. Ancaq mən bunu qəlbən hiss edirdim. Azərbaycan xalqı məni böyüdüb, geniş ictimai-siyasi fəaliyyətlə məşğul olmağım üçün yol açmış, uzun illər mənə böyük etimad göstərmişdir. Həyatımın ağır dövründə də daim Azərbaycan xalqının mənə olan müsbət münasibətini, hörmətini, uzaqda olsam da, duymuşam, hiss etmişəm. Bu tellər heç vaxt qırılmayıb, məni ağır imtahanlardan, əzab-əziyyətlərdən və hətta təqiblərə məruz qaldığım ağır dövrdən də çıxarmışdır.

Mən yenidən siyasi fəaliyyətə başlamaq fikrində olmamışam, sadəcə olaraq, Moskvada və Bakıda yaşamağım üçün şərait olmadığına görə, doğulduğum Naxçıvan şəhərinə sığındım, orada bir müddət yaşadım.

Heç bir başqa iddiam olmadı. Orada yaşadığım dövrdən çox razıyam. Həyat şəraitim çətin olsa da, ictimai mənəvi mühit məndən ötrü çox yaxşı idi. Çünki sadə insanların arasında yaşayırdım, sadə, çox kasıb həyat sürən adamlarla bir yerdə idim. Əgər belə şəraitdə yaşadığım gənclik dövrünü nəzərə almasam, bəlkə də bu, həyatımın mənəvi baxımdan ən zəngin dövrü olmuşdur. Ona görə də heç vaxt yenidən Azərbaycanda dövlət vəzifəsi tutmaq fikrində və arzusunda olmamışam.

Ancaq tale belə gətirdi ki, özümdən asılı olmayaraq yenidən Bakıya gəlməli oldum. Xalqın mənə ehtiyacı olduğunu duyarkən bu fikirdən boyun qaçırmadım. Mən nə vəzifə tutmaq üçün, nə də Azərbaycanın dövlət başçısı olmaq üçün mübarizə aparmamışam, indi də aparmıram. Ancaq doğrudan da, əgər indi Azərbaycan xalqının, respublikanın mənə ehtiyacı varsa, özümü kənara çəkə bilmərəm. Baxmayaraq ki, indi respublika dağılmış vəziyyətdədir. Təsəvvür edin ki, dənizdə qasırğanın dağıtdığı gəmini dalğalar sahilə atmışdır. Həmin gəmini yenidən tikmək, elə vəziyyətə salmaq lazımdır ki, bir daha dənizə çıxa bilsin. Bəlkə də mən səhv edirəm, lakin Azərbaycan indi təxminən belə vəziyyətdədir. Belə bir vəziyyətdə gəlib bütün məsuliyyəti öz üzərimə götürmək, şübhəsiz ki, şəxsi nöqteyi-nəzərdən yanaşılsa, lazımlı şey deyildi.

Amma məsələyə bütünlükdə xalqın, respublikanın mənafeyi baxımından yanaşaraq Ali Sovetin sədri vəzifəsini aparmağa etiraz etməmişəm. İndi də prezidentliyə namizəd göstərilməyimə etiraz etmədim. Ancaq bu vəzifə üçün mübarizə aparmıram. Mənə dedilər ki, qaydaya görə, prezidentliyə namizədliyi göstərilən adamın vəkilləri olmalıdır. Dedim ki, mənə lazım deyil. Elə hesab edirəm ki, əgər xalqa lazımamsa, mənim vəkilim bütünlükdə xalqdır. Yox, əgər lazım deyiləmsə, nə ehtiyac var ki, 15-20 nəfər məni təbliğ etsin, desinlər ki, Heydər Əliyev yaxşı adamdır, bunu edəcək, onu edəcəkdir. Bu, mənə lazım deyildir.

Mən sizə səmimi deyirəm. İndi heç kimə heç bir vəd vermək istəmirəm. Ali Sovetin sədri seçiləndə də məndən soruşdular ki, nə vəd edirəm? Cavab verdim ki, mən peyğəmbər deyiləm. Azərbaycanın bu vəziyyətdən necə çıxacağını deyə bilmərəm. Ancaq əgər mən bu vəzifəni öz üzərimə götürürəmsə, deməli, Azərbaycanı bu vəziyyətdən çıxarmağın yollarını (əlbəttə, xalqla, onun ağıllı, düşünən adamları ilə birlikdə) arayıb-axtarmağı bacararam. İndi də təkrar edirəm ki, mən heç bir vəd vermirəm. Yalnız bir şeyi vəd edə bilərəm: Azərbaycan xalqına, millətimə, torpağıma sadiq olmuşam və ömrüm boyu da sadiq olacağam. Həyatımın son dəqiqəsinədək xalqıma xidmət edəcəyəm və ömrümün bundan sonrakı illərini də xalqıma bəxş edirəm. Bu sözlərlə də çıxışımı bitirirəm. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN RƏHBƏRLƏRİ, NEFTÇİ ALİM VƏ MÜTƏXƏSSİSLƏRİLƏ GÖRÜŞDƏ ÇIXIŞ*

5 fevral 1994-cü il

Neft sənayesi Azərbaycan iqtisadiyyatında mühüm yer tutur. Müstəqil Azərbaycanın gələcək iqtisadiyyatının inkişafı neft sənayesindən çox asılıdır. Ona görə də dövlət bu sahəyə xüsusi fikir verir.

Azərbaycanda olan neftin çıxarılması və emalının sürətləndirilməsi üçün üç ildir ki, xarici neft şirkətləri ilə danışıqlar aparılır. Bu yaxınlarda AMOKO Neft Şirkətinin rəhbəri ilə görüşümdə o, müqavilələrin gecikməsindən narazılığını bildirdi. Bəlkə də üç il belə danışıqların aparılması üçün çoxdur. Lakin 7 müqavilə 30 il müddətinə bağlanılır. Gələcəkdə Azərbaycan dövlətinin iqtisadi inkişafı və onun vətəndaşlarının maddi rifahı bu müqavilədən çox asılı olduğu üçün bizim səhv etməyə haqqımız yoxdur. Ona görə də biz əmin olmalıyıq ki, bu müqavilələr Azərbaycan dövlətinin və Azərbaycan xalqının mənafeyinə uyğundur. Mən bu barədəki fikirlərimi AMOKO Neft Şirkətinin prezidenti Robert Blantona da açıq şəkildə bəyan etdim. Xatirinizdədirsə, 1993-cü ilin I yarısında xarici neft şirkətləri ilə müqavilə bağlamaq üçün layihələr hazır idi. Lakin biz bu müqavilələrin Azərbaycanın mənafeyinə cavab verib-vermədiyini yoxlamağı qərara aldıq. Düzdür, bu qərarımıza heç də maraqlı olan tərəflərin hamısı birmənalı yanaşmadılar. Açıq şəkildə narazılıqlarını bildirənlər də oldu. Bunun üçün də biz müstəqil ekspertlərə və öz mütəxəssislərimizə bu layihələrin öyrənməsini təklif etdik. Məlum oldu ki, bu layihələrdə Azərbaycanın iqtisadi mənafeyi tam nəzərə alınmayıb. Söz-söhbətlərə son qoymaq üçün xarici firmaların rəhbərlərini və həmin ölkələrin səfirlərini qəbul etdim. Xatirinizdədirsə, mən onlara da bəyan etdim ki, Azərbaycan dövləti xarici neft şirkətləri ilə əməkdaşlığı davam etdirmək niyyətindədir. Bir şərtlə ki, bu əməkdaşlıq hər iki tərəfin mənafeyinə cavab versin. Bu gün mənim sizinlə görüşməyimin əsas səbəbi də budur ki, hazırlanan layihələr barədə siz öz təklif və fikirlərinizi burda açıq şəkildə bildirəsiniz.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, s. 352

ANKARA HÖCƏTTƏPƏ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ*

9 fevral 1994-cü il
Hörmətli rektor.
Əziz rektor yardımçıları.
Dəyərli professor və müəllimlər, tələbələr.
Əziz dostlar və qardaşlar!

Bu gün Türkiyənin çox hörmətli, böyük universitetində – Höcəttəpə Universitetində olduğuma görə özümü xoşbəxt hesab edirəm. Buraya dəvət olunduğuma görə universitetin rektorluğuna və bütün professor-müəllim heyətinə öz təşəkkür və minnətdarlığımı bildirirəm.

Burada siz son vaxtlar mənim Azərbaycan prezidenti kimi gördüyüm işlərdən danışdınız, keçdiyim həyat yolu barədə qısa da olsa məlumat verdiniz. Siz məni öz universitetinizin fəxri doktoru adına layiq gördünüz. Mən bütün bunlara görə sizə təşəkkür edir və hədsiz minnətdarlığımı bildirirəm. Sağ olun!

Bildiyiniz kimi, müstəqil Azərbaycan Respublikasının böyük elmi, intellektual potensialı var. Azərbaycanda böyük universitetlər fəaliyyət göstərir, professorlar, elm adamları, mədəniyyət xadimləri, görkəmli sənətkarlar var. Onların böyük bir dəstəsi mənimlə birlikdə Türkiyəyə gəlib, burada bu salondadırlar. Onların adları bütün dünyada məşhurdur, onlar Azərbaycan elmini, mədəniyyətini bütün dünyaya tanıdıblar. Azərbaycan xalqı uzun illər həsrətində olduğu müstəqilliyini əldə edib. İndi Azərbaycan müstəqil bir dövlətdir, dünya dövlətləri birliyinin üzvüdür və onların tərəfindən tanınıbdır. Bunların hamısı Azərbaycan ziyalılarının, siyasətçilərinin, görkəmli şəxsiyyətlərinin xidmətlərinin nəticəsidir. Ona görə də sizin mənə verdiyiniz doktorluq adını bütün Azərbaycan elminin, siyasətinin, dövlətçiliyinin qazandığı nailiyyətlərə verdiyiniz yüksək qiymət hesab edirəm.

Höcəttəpə Universiteti kimi təhsil ocağının doktoru adını almaq böyük iftixar hissi oyadır. Bir daha deyirəm, mən bunu bütün Azərbaycana şamil edir, bütün Azərbaycana verilən qiymət kimi qarşılayıram. Burada mənim də xidmətim, payım var. Odur ki, şəxsən öz adımdan sizə

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, s. 376-379

minnətdarlığımı bildirirəm və sizi əmin etmək istəyirəm ki, bugünkü görüşümüz və sizin mənə verdiyiniz yüksək ad Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsi və inkişaf etməsi üçün yeni bir addımdır. Əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı, bütün azərbaycanlılar Türkiyə ilə dostluğa, qardaşlığa, əbədi birliyə daim sadiq qalacaqlar.

Azərbaycan öz müstəqilliyinə nail olub, öz dövlətini qurubdur, öz ordusunu yaradır, öz ərazi bütövlüyünü qorumağa çalışır və qarşıda duran sosial-iqtisadi məsələlərin həlli ilə məşğuldur. Bunların hamısı birlikdə Azərbaycanda vəziyyəti həddindən artıq çətinləşdirir. Lakin siz bilin ki, Azərbaycan xalqı müstəqillik yolundan dönməyəcək və öz müstəqilliyini heç vaxt əlindən verməyəcəkdir.

Azərbaycan xalqı artıq öz taleyinin, öz sərvətlərinin, öz torpaqlarının və öz ölkəsinin sahibidir. Bu məsuliyyəti aydın duyan Azərbaycan xalqı bundan sonra öz həyatını, öz dövlətini demokratik prinsiplər əsasında quracaqdır. Azərbaycanda demokratik quruculuq prosesi gedir və inkişaf edir, hüquqi demokratik cəmiyyət qurulur, hər bir vətəndaşın hüquqları qorunur və qorunacaqdır. Azərbaycanda bütün vətəndaşlar bərabər hüquqa malikdirlər. Respublikamızda çoxpartiyalı sistem artıq bərqərar olmuşdur. Sözlərim eləcə də fikir müxtəlifliyinə, siyasi plüralizm prinsiplərinə aiddir. Bu prinsiplər gələcəkdə daha da güclənəcəkdir. Yəni Azərbaycan dövləti, Azərbaycan hökuməti tam demokratiya yolu ilə, hüquqi dövlət quruculuğu yolu ilə gedəcək və beləliklə də, Azərbaycan dünya demokratik dövlətlər birliyinin üzvü kimi bu yoldan dönməyəcəkdir.

Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Ölkəmiz bütün dövlətlərlə sülh və əmin-amanlıq əlaqələri yaratmaq istəyir. Azərbaycan dövləti öz xarici siyasətini məhz bu istiqamətdə yeridəcəkdir. Buna görə də Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələr yaratmağı xüsusilə önəmli hesab edir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir. Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik və Azərbaycan ilə Türkiyə arasında əlaqələr dostluq, qardaşlıq əlaqələri olmaqla yanaşı, həm də iş əlaqələridir. Biz bu əlaqələri də sürətlə davam etdirəcəyik.

İndi Azərbaycan Respublikasının ən çətin, ağır problemi onun Ermənistan tərəfindən məruz qaldığı təcavüzdən qurtarması və müharibəyə

son qoyulmasıdır. Bildiyiniz kimi, Ermənistan tərəfindən altı ildir Azərbaycan torpaqlarına təcavüz edilir, torpaqlarımızın bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunun nəticəsində Azərbaycan Respublikası vətəndaşlarının bir milyondan çoxu öz ölkəsində qaçqın vəziyyətinə düşüb, köçkün vəziyyətində yaşayır, öz el-obasından, ev-eşiyindən didərgin salınıbdır. Onlar ağır şəraitdə yaşayırlar. Bütün bunlar ölkəmizin daxili vəziyyətini olduqca gərginləşdirmiş və Azərbaycan xalqının, Azərbaycan dövlətinin üzərinə böyük və məsuliyyətli vəzifələr qoymuşdur.

Biz öz torpaqlarımızı qorumağa, Vətənimizi müdafiə etməyə çalışırıq. Azərbaycan Respublikasının ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini qoruyub saxlamağa çalışırıq. Buna görə də apardığımız müharibə ədalətli müharibədir. Biz hücum etmirik, torpaqlarımızı müdafiə edirik. Biz hücum etmirik, bizə hücum edən erməni silahlı qüvvələrini torpaqlarımızdan qovub çıxarmağa çalışırıq. Biz işğal olunmuş torpaqlarımızı azad etmək istəyirik. Bu, ədalətli işdir və biz onu davam etdirəcəyik. Bu sahədə Türkiyə dövlətinin, türk xalqının bizə mənəvi dayaq olması, bizimlə birlikdə olması bizə daha böyük qüvvət verir. Odur ki, bu müddətdə Türkiyə tərəfindən, türk xalqı tərəfindən, hər bir Türkiyə vətəndaşı tərəfindən Azərbaycana göstərilmiş kömək və yardıma görə minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Son illər Azərbaycan Respublikası erməni təcavüzünə məruz qalmaqla yanaşı, ölkəmizin daxilində də ictimai-siyasi vəziyyət çox gərgin olmuşdur. Bildiyiniz kimi, ayrı-ayrı qruplar hakimiyyət uğrunda mübarizə apararaq, Azərbaycanın daxili vəziyyətini mürəkkəbləşdirmiş və ağırlaşdırmışlar. Bunlar isə erməni silahlı qüvvələrinə Azərbaycan torpaqlarını işğal etmək üçün çox əlverişli imkanlar yaratmış və 1993-cü ildə ölkəmizdə olduqca ağır bir vəziyyətə gətirib çıxarmışdır. Hətta vəziyyət vətəndaş müharibəsi həddinə gəlib çatmışdı. Mən sizə böyük iftixar hissilə deyə bilərəm ki, biz bu çətinliklərin də öhdəsindən gəldik. İndi Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət, demək olar, sabitdir, gərginlik aradan götürülüb. Ayrı-ayrı siyasi qüvvələrin, ayrı-ayrı siyasi partiyaların fəaliyyətinə tam şərait yaradılıbdır. Lakin onların hamısının fəaliyyəti Azərbaycanın bütövlüyünə, birliyinə və müdafiə olunmasına yönəldilməlidir. Elə Azərbaycan dövləti, mən də bir prezident kimi çalışıram ki, bu qüvvələrin hamısını birləşdirib, bir yerə cəmləşdirib, Azərbaycanda milli həmrəyliyi, vətəndaş həmrəyliyini gücləndirib respublikamızı bu ağır vəziyyətdən çıxaraq.

Azərbaycan iqtisadi-sosial böhran içərisindədir. Bu böhrandan da çıxmaq üçün biz bütün qüvvələrimizi birləşdirməliyik. Mən sizi əmin

etmək istəyirəm ki, Azərbaycan hökuməti, Azərbaycan dövləti və şəxsən mən bir prezident kimi bu sahədə daim fəaliyyət göstəririk və bundan sonra da fəaliyyətdə olacağıq. Ölkəmizdəki bütün siyasi qüvvələri, siyasi partiyaları birləşdirərək Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa, onun ərazi bütövlüyünü təmin etməyə çalışacağıq. Əmin olun ki, biz buna nail olacağıq, çünki bizim işimiz haqq işidir, bizim işimiz ədalət işidir və bizim Türkiyə kimi, türk xalqı kimi yaxın dostumuz və qardaşımız vardır.

Bu gün mənim üçün unudulmaz bir gündür. Mən Türkiyənin böyük bir təhsil ocağında – Höcəttəpə Universitetindəyəm. Burada fəaliyyət göstərən professor-müəllim heyəti ilə, türk ziyalıları ilə görüşürəm. Mən bununla fəxr edirəm. Əmin ola bilərsiniz ki, mən bu görüşləri öz həyatımda əlamətdar bir hadisə kimi qəbul edərək, eyni zamanda Azərbaycan ilə Türkiyə arasında elmi, mədəni əlaqələrin bundan sonra daha da möhkəmlənməsinə və inkişaf etməsinə çalışacağam, Azərbaycan və Türkiyə universitetləri arasındakı əlaqələrin inkişaf etməsinə səy göstərəcəyəm. Azərbaycan gənclərinin burada, sizin universitetdə və başqa universitetlərdə təhsil almalarını bundan sonra da davam etdirəcəyik. Professor və müəllimlərimiz arasında əlaqələr xalqlarımız arasında əlaqələrin inkişafına daha da kömək edəcək və bizi daha da yaxınlaşdırıb qovuşduracaq, daha möhkəm birləşdirəcəkdir.

Mən sizə bir daha öz minnətdarlığımı və təşəkkürümü bildirir və sizi əmin etmək istəyirəm ki, Höcəttəpə Universitetinin fəxri doktoru adını ləyaqətlə daşıyacağam.

PEKİN İCTİMAİ ELMLƏR AKADEMİYASINDA ÇIXIŞ*

9 mart 1994-cü il

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar! Hədsiz xoşbəxtəm ki, Pekində mənə sizinlə – İctimai Elmlər Akademiyasının alimləri, mütəxəssisləri, əməkdaşları ilə görüşmək imkanı verilmişdir. Həm də şadam ki, mən belə nüfuzlu və yüksək səviyyəli auditoriya qarşısında çıxış edirəm. Mənə yaxşı məlumdur, bunu ölkəmizdə, Azərbaycanda da bilirlər ki, 1949-cu ildə Çin inqilabı həyata keçirildikdən sonrakı dövrdə Çində böyük sosial-iqtisadi dəyişikliklər baş vermiş, həmin dövrdə ictimai elmlər güclü inkişaf etmişdir. Həm də akademiya ÇXR-də ictimai elmlər mərkəzidir. Bu gün bizə buraya gəlmək xoşbəxtliyi nəsib olmuşdur.

Siz Çində nəinki ictimai elmlərin inkişafına ciddi töhfə vermisiniz, həm də bəşəriyyətin inkişaf prosesləri haqqında elmi və cəmiyyəti yeni tədqiqatlarla, yeni müddəalarla zənginləşdirmisiniz. Çin alimlərinin ictimai elmlər sahəsində tədqiqatlarını, sizin ölkənizin inkişafının da və şübhəsiz, bütün dünyanın ictimai-siyasi inkişafının da müxtəlif mərhələlərində çıxarılan çox maraqlı müddəaları bu yaxınlaradək tərkibində olduğumuz keçmiş Sovet İttifaqında da həmişə böyük maraq və diqqətlə izləyirdilər. Mən sizə və ictimai elmlər sahəsində çalışan bütün mütəxəssislərə, dünya elminə olduqca böyük töhfə verən və təbii ki, ÇXR-in mövcudluğunun 45 ili ərzində edilmiş dəyişikliklərdə mühüm rol oynayan bütün Çin alimlərinə öz ehtiramımı bildirirəm.

Çin xalqı böyük xalqdır, Çin böyük ölkədir. Biz də böyük məmnunluq hissi ilə qeyd edirik ki, inqilabdan sonra ÇXR-in mövcud olduğu illər ərzində Çin xalqı dünya birliyində layiqli yer tutmuş, Çin Xalq Respublikası bütün dünyada böyük beynəlxalq nüfuz qazanmışdır və indi dünya miqyasında ictimai-siyasi inkişaf proseslərinə olduqca böyük təsir göstərir.

Çin ilə Azərbaycan arasında münasibətlər bu yaxınlarda yaradılmışdır. Belə ki, bildiyiniz kimi, Azərbaycan Sovet İttifaqının tərkibinə daxil idi və öz dövlət müstəqilliyini iki il bundan əvvəl, Sovet İttifaqı dağıldıqdan sonra əldə etmişdir. Bu müddət ərzində ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmışdır, ticarət-iqtisadi əlaqələr inkişaf

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, s. 470-475

edir. Buna görə də biz tam əsasla deyə bilərik ki, Çin Xalq Respublikası ilə müstəqil Azərbaycan Respublikası arasında dostluq münasibətləri yaranmışdır. Əslinə qalsa, mənim ÇXR-ə rəsmi səfərim və bizim burada keçirdiyimiz görüşlər və apardığımız danışıqlar da həmin münasibətlərdən irəli gəlir.

Biz Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszemin, Dövlət Şurasının baş naziri cənab Li Pen ilə görüşlər və danışıqlar zamanı dövlətlərarası münasibətlərimizlə bağlı bir çox məsələləri müzakirə etmişik. Biz Çin ilə Azərbaycan arasında münasibətlərin gələcək inkişafının perspektivlərini müəyyənləşdirən mühüm sənədlər imzalamışıq. Çin Xalq Respublikasının sədri və mən ölkələrimiz arasında əməkdaşlığın prinsipləri haqqında bəyannamə imzalamışıq. Bu sənəd dostluq əlaqələrimizin gələcək inkişafının proqramıdır. İqtisadi, elmi-texniki, mədəni əməkdaşlığın müxtəlif məsələlərinə dair daha yeddi sənəd imzalanmışdır. Bütün bunlar Çin Xalq Respublikası ilə Azərbaycan arasında münasibətlərin yeni mərhələsi deməkdir.

Səfərimiz başa çatır. Bu gün biz Şanxaya yola düşürük, sabah isə Vətənə qayıdacağıq. Demək istəyirəm ki, səfərimizin nəticələrindən, burada olmağımızdan son dərəcə məmnun qalmışıq. Biz Vətənə xoş əhvalruhiyyə ilə qayıdırıq. Pekində, ümumən Çin Xalq Respublikasında olduğumuz zaman qarşılaşdığımız səmimiyyəti və qonaqpərvərliyi xüsusilə qeyd etmək istəyirəm.

Zənnimcə, ictimai elmlər sahəsində çalışan mütəxəssislər kimi, siz keçmiş Sovet İttifaqında baş vermiş, həmin İttifaqın dağılmasına və onun ərazisində müstəqil dövlətlərin yaranmasına gətirib çıxarmış prosesləri, habelə, təbii ki, Azərbaycanda, Zaqafqaziyada, Qafqaz regionunda baş vermiş və indi də davam edən prosesləri yaxşı təsəvvür edirsiniz. Bununla belə, sizə qısaca olaraq öz ölkəmiz haqqında – Azərbaycan Respublikası barədə danışmaq istərdim.

Yenidənqurma deyilən dövrdə keçmiş Sovet İttifaqında gedən proseslər, sizə məlum olduğu kimi, çox mürəkkəb, ziddiyyətli proseslər idi və o zaman gözlənilən nəticələri vermədi. Sovet İttifaqının dağılması və yeni müstəqil dövlətlərin yaranması son onilliklər ərzində keçmiş SSRİ-də və bütün dünyada baş verən ictimai-tarixi proseslərin qanunauyğun nəticəsidir.

Bunun nəticəsində Azərbaycan xalqı bir çox onilliklər ərzində can atdığı dövlət istiqlaliyyətinə nail olmuşdur. İndi Azərbaycan dünya birliyi tərəfindən tanınmış müstəqil dövlət, Birləşmiş Millətlər Təşkilatının, başqa beynəlxalq təşkilatların üzvüdür. Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz,

məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir. Biz çalışırıq və gələcəkdə də çalışacağıq ki, Azərbaycan indən belə heç vaxt hər hansı başqa ölkənin vassalı və ya bir hissəsi olmasın. Bundan ötrü hər cür şərait və imkan var, baxmayaraq ki, yolumuz üzərində çətinliklər və maneələr də az deyildir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan xalqı öz istiqlaliyyətinin əldən getməsinə heç vaxt yol verməyəcəkdir.

Azərbaycan kifayət qədər iqtisadi potensiala, zəngin yeraltı və yerüstü sərvətlərə, güclü intellektual, elmi-texniki potensiala malikdir. Respublikamızın çox əlverişli coğrafi-siyasi mövqeyi var, bildiyiniz kimi, Azərbaycan Avropa və Asiyanın qovuşuğunda yerləşir, Rusiya, İran, Türkiyə və hazırda müstəqil dövlət olan Gürcüstanla və müharibə vəziyyətində olduğumuz – bu barədə sonra danışacağam – Ermənistanla həmsərhəddir. Bütün bunlar Azərbaycanın müstəqil dövlət kimi yaşaması üçün şərait yaradır. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan çox zəngin tarixi olan qədim ölkədir, Azərbaycan xalqı dünya sivilizasiyasına xeyli töhfə vermişdir. Azərbaycanın ədəbiyyatı, incəsənəti, mədəniyyəti qədim dövrlərdən başlayaraq Şərqdə, həm də təkcə Şərqdə deyil, habelə Qərbdə, Avropada da məlumdur. Bütün bunlar bizim bugünümüz və gələcəyimiz üçün etibarlı bünövrə yaradır.

Keçmişdə, orta əsrlərdə və sonralar Azərbaycan dünyanın bir çox ölkəsi ilə sıx ticarət-iqtisadi və mədəni əlaqələr saxlamışdır. Hələ XII-XIII əsrlərdən başlayaraq Çinlə də belə əlaqələr olmuşdur. Böyük ipək yolu Azərbaycandan keçirdi, buraya Çin tacirləri də gəlirdi. Bir sözlə, Avropa ilə Asiyanı birləşdirən yolların qovuşuğunda yerləşən Azərbaycan ta qədimdən həm Şərqlə, həm də Qərblə bağlı olmuşdur. Bir daha deyirəm ki, bütün bunlar bizim zəngin keçmişimizdən, ənənələrimizdən, imkanlarımızdan xəbər verir, göstərir ki, Azərbaycan indi də müstəqil dövlət kimi yaşaya bilər.

Bu gün daxili siyasətdə fəaliyyətimizin əsas istiqaməti şəxsiyyət azadlığını, sərbəst sahibkarlığı, təşəbbüskarlığı təmin etmək əsasında, insan hüquqlarının qorunmasına möhkəm zəmanət verilməsi, siyasi plüralizmi, çoxpartiyalı sistemi təmin etmək zəminində demokratik hüquqi dövlət, demokratik cəmiyyət qurmaqdır. İqtisadiyyat sahəsində biz bazar iqtisadiyyatı yolunu tutmuşuq. Aydındır ki, bütün bunlar heç də sadə proseslər olmayıb, çoxlu çətinliklərlə qarşılaşır. Lakin biz əminik ki, Azərbaycan özünün daxili həyatını həmin prinsiplər üzərində quracaqdır.

Xarici siyasət sahəsində Azərbaycan dünyanın bütün ölkələri ilə, lakin ilk növbədə qonşu dövlətlərlə və əməkdaşlığın konkret praktiki nəticələr verə biləcəyi ölkələrlə dostluq, bərabərhüquqlu, qarşılıqlı

surətdə faydalı münasibətlər yaratmaq prinsiplərini həyata keçirir. Bununla əlaqədar Azərbaycan Çin Xalq Respublikası ilə mehriban münasibətlər və ticarət-iqtisadi, elmi-texniki, mədəni əlaqələr yaratmağa, daha doğrusu, bunları inkişaf etdirməyə böyük əhəmiyyət verir. Məhz bu məqsədlə biz dəvəti qəbul edərək Çinə gəlmişik. Bizim buraya gəlməyimiz, keçirdiyimiz görüşlər və apardığımız danışıqlar bizi əmin edir ki, həm Çin, həm də Azərbaycan milli mənafeləri və təbii ki, dünya birliyini möhkəmləndirmək mənafelərini əsas tutaraq qarşılıqlı addım atır.

Cəmi iki il bundan əvvəl istiqlaliyyət qazanmış Azərbaycan indi dünyanın bir çox ölkəsi ilə diplomatik münasibətlər yaratmışdır, müxtəlif beynəlxalq təşkilatların fəaliyyətində iştirak edir. Lakin bu, yalnız başlanğıcdır. Əlbəttə, biz beynəlxalq fəaliyyətimizi genişləndirməyə, başqa ölkələrlə əlaqələri inkişaf etdirməyə səy göstəririk və bundan sonra da səy göstərəcəyik.

Ictimai elmlər sahəsində çalışan mütəxəssislər kimi, siz qədim tarixə malik, son dərəcə çoxmillətli, özünəməxsusluğu və çoxsaylı mürəkkəb ziddiyyətləri olan Qafqazın, o cümlədən Zaqafqaziyanın nə demək olduğunu yaxşı bilirsiniz.

Zaqafqaziyada keçmiş Sovet İttifaqının üç respublikası, indi müstəqil dövlətlər olan Gürcüstan, Azərbaycan və Ermənistan yerləşir. Gürcüstanla bizim normal dostluq münasibətlərimiz var. Ermənistanla isə, təəssüf ki, müharibə vəziyyətindəyik. Altıncı ildir ki, Ermənistan Azərbaycana qarşı hərbi təcavüz edir. Bu hərbi münaqişə barədə hər yerdə, o cümlədən də Çində doğru-düzgün, həqiqi təsəvvürün olması mühümdür. Həqiqət isə bundan ibarətdir ki, qonşu Ermənistan Azərbaycanın bir hissəsini – təkcə ermənilərin deyil, həm də azərbaycanlıların yaşadıqları Dağlıq Qarabağı özünə birləşdirməyə cəhd göstərir.

Altı ilə yaxındır ki, Ermənistan müharibəyə başlamışdır, bundan da məqsəd məhz Dağlıq Qarabağı Azərbaycandan qoparmaq və Ermənistana birləşdirməkdir, Azərbaycan xalqı isə, şübhəsiz, bununla heç cür razılaşa bilməz. Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir. Lakin oranın əhalisinin bir hissəsini ermənilər təşkil etməsi ilə əlaqədar 1923-cü ildə Azərbaycanın tərkibində muxtar vilayət yaradılmışdı. Həmin vilayət ötən illərdə Azərbaycan Respublikasının və əlbəttə ki, bütün Sovet İttifaqının tərkibində müvəffəqiyyətlə inkişaf edirdi. Dağlıq Qarabağda əhalinin 70 faizə qədəri ermənilər, 30 faizi isə azərbaycanlılar idi. Onun ərazisi çox da böyük deyildi, təxminən 4 min kvadratkilometr idi. Ermənistanın millətçi dairələri, sonra isə Ermənistan Respublikasının rəhbərliyi də Dağlıq Qarabağda müəyyən sayda ermənilərin yaşamasını

əsas tutaraq Azərbaycan ərazisinin bu hissəsini ondan qopararaq Ermənistana birləşdirməyi qarşılarına məqsəd qoymuşlar.

Həmin münaqişə bu cür başladı. Əlbəttə, münaqişə hələ o zaman, vahid dövlət olan Sovet İttifaqının çərçivəsində aradan qaldırıla bilərdi. Doğrudur, hansısa qüvvələr buna mane oldular. İndi, Ermənistan və Azərbaycan müstəqillik qazandıqdan sonra həmin məsələni dövlətlərarası zəmində, beynəlxalq hüquq prinsipləri əsasında, beynəlxalq təşkilatların iştirakı ilə həll etmək lazımdır. Biz buna çalışırıq. Lakin Ermənistan tərəfi müvəqqəti hərbi üstünlüyündən istifadə edərək öz niyyətlərini zorakılıq yolu ilə, silah gücünə həyata keçirməyə cəhd göstərir və son illər ərzində Ermənistan tərəfi Azərbaycan ərazisinin 20 faizə qədərini işğal etmişdir.

Azərbaycan bu məsələni sülh yolu ilə, danışıqlar vasitəsilə həll etməyə çalışır. Biz BMT Təhlükəsizlik Şurasının, ATƏM-in, onun Minsk qrupunun və başqa beynəlxalq təşkilatların imkanlarından, münaqişənin sülh yolu ilə aradan qaldırılmasında rol oynaya biləcək böyük dövlətlərin imkanlarından istifadə edirik və bundan sonra da istifadə edəcəyik, lakin bir şərtlə – işğalçı erməni qoşunları Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalı, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Əgər həmin tədbirlər bir nəticə verməsə, Azərbaycan özünün hərbi imkanlarından istifadə edərək ölkənin ərazi bütövlüyünü, dövlətin müstəqilliyini və suverenliyini, sərhədlərinin toxunulmazlığını müdafiə edə biləcəkdir.

Çin rəhbərləri ilə görüşlər və söhbətlər zamanı biz bu məsələyə münasibətdə Çin Xalq Respublikasının və onun rəhbərliyinin prinsipial, ədalətli mövqeyi ilə bir daha məmnuniyyətlə tanış olduq. Bu mövqe onu əsas tutur ki, hər hansı dövlətin, o cümlədən də Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, – bu beynəlxalq hüququn sarsılmaz prinsipidir, – bir dövlətin başqa dövlətin ərazi bütövlüyünə qəsd etməsinə yol vermək olmaz. Sərhədlərin toxunulmazlığı da sarsılmaz prinsipdir və sərhədləri silah gücünə dəyişdirmək cəhdi yolverilməzdir. Bu mövqe BMT Təhlükəsizlik Şurasının iclaslarında da bildirilmiş və burada, Pekində Çin rəhbərləri ilə görüşlər və söhbətlər zamanı bir daha təsdiq edilmişdir.

Heç də az əhəmiyyəti olmayan daha bir cəhəti qeyd etmək istəyirəm. Azərbaycan çoxmillətli dövlətdir, milli mənsubiyyətindən asılı olmayaraq onun bütün vətəndaşları bərabər hüquqlara malikdirlər. Dağlıq Qarabağın erməni əhalisi barədə də mövqeyimiz eynidir, biz onların təhlükəsizliyinə və bütün vətəndaş hüquqlarından istifadə etmələrinə tam təminat veririk. Dediyim kimi, vaxtilə Dağlıq Qarabağ

Muxtar Vilayət idi və biz indi də orada erməni milli azlığı üçün muxtariyyət verilməsinin mümkünlüyü prinsipini inkar etmirik. Azərbaycan rəhbərliyi bu məsələlərdə məlum beynəlxalq prinsipləri əsas tutur.

Belə hesab edirəm ki, Azərbaycan haqqında, onun bugünkü vəziyyəti, gənc müstəqil Azərbaycan dövlətinin qarşısında duran problemlər barədə verdiyim bu informasiya sizin üçün maraqlıdır. Əgər suallarınız olarsa, məmnuniyyətlə cavab verə bilərəm.

Sual: Cənab prezident, maraqlı söhbətinizə görə sağ olun. Mən ictimai Elmlər Akademiyasının Orta Asiya və Şərqi Avropa Elmi Tədqiqat İnstitutunun əməkdaşıyam. Sulım Rusiyanın Zaqafqaziyadakı rolu ilə bağlıdır. Hamıya məlumdur ki, Rusiya Zaqafqaziyada gedən proseslərdə fəal iştirak edir. Siz bu proseslərdə Rusiyanın rolunu necə şərh edərdiniz? İkinci sual. Rusiyadakı ekstremist, millətçi meyllərin inkişafını bütün dünya böyük diqqətlə izləyir, çünki belə hesab edirlər ki, Rusiya keçmiş Sovet Ittifaqı respublikalarının müstəqilliyini tanımağa hazır deyildir. Millətçilər və ekstremistlər Rusiyanın roluna nə dərəcədə təsir göstərirlər və bu təsir narahatlıq doğururmu?

H. Əliyev: Bilirsiniz ki, Zaqafqaziya, mən Azərbaycan, Gürcüstan və Ermənistanı nəzərdə tuturam, təqribən 200 il ərzində əvvəlcə çar Rusiyasının, sonra isə Sovet İttifaqının tərkibində olmuşdur. Təbii ki, ənənə üzrə Rusiyanın Zaqafqaziya regionunda öz marağı, öz təsiri var. Sizə yəqin məlumdur, Ermənistanın ərazisində Rusiyanın qoşunları və hərbi bazaları yerləşir. Gürcüstan ərazisində də Rusiya qoşunları var, Abxaziya ilə Gürcüstan arasında münaqişənin kəskinləşməsi ilə əlaqədar oraya Rusiya qoşunlarının əlavə kontingenti gətirilmişdir. Bu yaxınlarda Rusiya prezidenti Yeltsin Tbilisidə olarkən hərbi əməkdaşlıq haqqında Gürcüstan ilə Rusiya arasında saziş də imzalanmışdır.

Azərbaycanda xarici dövlətlərin, o cümlədən də Rusiyanın qoşunları yoxdur. Mən qeyd etdim ki, Azərbaycan İran, Türkiyə, Rusiya ilə həmsərhəddir, Zaqafqaziyadakı qonşularımız isə Gürcüstan və Ermənistandır. Lakin Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qaldığına görə, Azərbaycan indi çətin vəziyyətdədir. Ermənistan bu təcavüzü məhz ona görə uğurla həyata keçirə bilir ki, o, ölkənin hüdudlarından kənardakı müxtəlif dairələrdən kömək alır.

Rusiya Zaqafqaziyadakı – Gürcüstandakı, Ermənistan ilə Azərbaycan arasındakı münaqişələrin aradan qaldırılmasında fəal iştirak etməyə səy göstərir. Biz istərdik ki, Rusiyanın səyləri, xüsusən Ermənistan ilə Azərbaycan arasındakı müharibəni başa çatdırmaq və respublikamıza qarşı Ermənistanın təcavüzünü dayandırmaq üçün göstərdiyi səylər daha səmərəli, uğurlu olsun.

Rusiyadakı millətçilik meyllərinə və ya əhval-ruhiyyəsinə, sizin dediyiniz kimi, keçmiş Sovet İttifaqının sərhədlərinə nəzarət etmək istəyən ekstremist qüvvələrə gəldikdə isə, belə meyllər var və bunlar keçmiş sovet respublikalarının əsasında yaranmış müstəqil dövlətlər üçün təhlükəlidir. Ümid etmək istərdik ki, hər halda Rusiyada sağlam qüvvələr üstün gələcək və bu meyllər yayılmayacaq, Rusiya keçmiş Sovet İttifaqının bütün respublikaları ilə ağıllı münasibətlər yaratmaq yolu ilə gedəcəkdir.

Diqqətinizə görə, dostcasına səmimi görüş üçün hamınıza təşəkkür edirəm.

MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNİN 75 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ*

26 noyabr 1994-cü il
Respublika Sarayı

Hörmətli xanımlar və cənablar, əziz müəllimlər, tələbələr, hörmətli qonaqlar! Sizi, bütün Azərbaycan xalqını Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin yaradılmasının 75-ci ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir, maarifçilik Azərbaycanın mütəfəkkir adamlarının əsas vəzifəsi olmuş və xalqımızın görkəmli simaları bu sahədə tarix boyu böyük xidmətlər göstərmişlər. Ancaq Azərbaycan xalqının geniş miqyasda, kütləvi surətdə maariflənməsi, təhsillənməsi, savadlanması prosesi XX əsrin əvvəlindən başlanmışdır. Bu prosesdə Azərbaycanın ilk ali məktəbinin – Bakı Dövlət Universitetinin yaranması tarixi, əlamətdar bir hadisədir. Bakı Dövlət Universiteti 75 illik tarixi ərzində Azərbaycan xalqı qarşısında, Azərbaycan Respublikası qarşısında böyük xidmətlər göstərmiş və Azərbaycanın indi bu yüksək səviyyəyə gəlib çatmasında böyük işlər görmüşdür.

Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır və onun 75 illik yubileyi bütün Azərbaycan xalqının böyük bayramıdır.

Bakı Dövlət Universitetinin yaranmasında ilk Azərbaycan Demokratik Respublikasının böyük xidmətləri olmuşdur. Eyni zamanda əsrin əvvəlində Azərbaycanda ilk ali təhsil ocağının yaranması o dövrdə gedən tarixi proseslərin zərurətindən doğan bir hadisədir. 75 il ərzində universitet Azərbaycanın həyatının bütün sahələrinə həm təsir göstərmiş, həm də bütün hadisələrin inkişafında iştirak etmişdir. 80 min nəfər adam, azərbaycanlı, gənc bu universitetdə ali təhsil almış, öz xalqına, öz torpağına, öz millətinə xidmət etmiş və edir.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İkinci kitab. B., Azərnəşr, 1997, s. 540-547

Bakı Dövlət Universitetinin xidmətləri haqqında geniş danışıldı. Mən onu qeyd etmək istəyirəm ki, Azərbaycanda ali təhsilin, ümumi təhsilin, elmin, mədəniyyətin, iqtisadiyyatın inkişafında Bakı Dövlət Universitetinin xidmətləri əvəzsizdir. Universitetin 75 illik tarixi Azərbaycan Respublikasının elminin, mədəniyyətinin, təhsilinin inkişaf tarixidir. Bakı Dövlət Universitetinin Azərbaycanda ali təhsilin inkişafı sahəsindəki xidmətlərini xüsusi qeyd etmək lazımdır. İndi Azərbaycan böyük ali təhsil ölkəsidir. Xalqımızın hamısı savadlıdır. Bu 75 il müddətində xalqımızın savadlanmasında, eyni zamanda təhsilin yaranmasında, inkişafında böyük işlər görülmüşdür. Yeni-yeni təhsil ocaqlarının – ali məktəblərin, universitetlərin yaranması indi müstəqil Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olmasının əsasını qoymuşdur. Əgər bu 75 il ərzində həmin işlər görülməsəydi, indi müstəqil Azərbaycan Respublikası özünün böyük elmi, mədəni, intellektual potensialı ilə fəxr edə bilməzdi.

Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir. Bakı Dövlət Universiteti yarandığı gündən Azərbaycanda elmi inkişaf etdirən mərkəzə çevrilmişdir. Sonrakı dövrlərdə Azərbaycanda yaranmış elmi tədqiqat institutlarının əksəriyyəti, elmi ocaqların hamısı öz başlanğıcını Bakı Dövlət Universitetindən götürmüşdür. Təsadüfi deyil ki, 1945-ci ildə Azərbaycanda ilk Dövlət Milli Akademiyasının yaranması da Bakı Dövlət Universitetinin və onun əsasında, onun şəxsləri olaraq yaranmış başqa ali məktəblərin yetişdirdiyi alimlərin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Ona görə də biz Bakı Dövlət Universiteti haqqında danışanda Azərbaycanın həm elmini, həm təhsilini, həm mədəniyyətini, həm də bütün xalqımızın savadlanmasını düşünürük.

75 il ərzində Bakı Dövlət Universitetində bir çox müəllim, professor nəsilləri fəaliyyət göstərmiş, bizim ali məktəbimizi, ali təhsilimizi, elmimizi inkişaf etdirmiş, böyük xidmətlər göstərmişlər. Ona görə bu gün – bu bayram, yubiley günü həm Bakı Dövlət Universitetinin əsasını qoyanları, həm də 75 il ərzində universitetin inkişaf etməsində xidmət göstərənləri böyük hörmət hissi ilə yad edirik. Mən Bakı Dövlət Universitetində fəaliyyət göstərmiş, xidməti olan şəxslərin hamısına Azərbaycan dövləti adından təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bakı Dövlət Universiteti yarananda Azərbaycanın milli kadrları az idi, demək olar ki, yox idi. Ona görə də təsadüfi deyil ki, ilk milli Azərbaycan Demokratik Respublikası Bakıda dövlət universitetinin təşkili üçün Rusiya alimlərini dəvət etmiş və onların xidmətləri ilə Bakıda dövlət universiteti yaranmışdır. Dövlət universitetinin ilk rektoru Razumovski,

ondan sonra Devidenko, daha sonra Qulyayev olmuşdur. Ancaq 1926-cı ildə Bakı Dövlət Universitetinin rektoru bizim həmvətənimiz, məşhur şəxsiyyət Tağı Şahbazi təyin edilmişdir.

Bakı Dövlət Universiteti yaranan vaxt qəbul olunan tələbələrin əksəriyyəti azərbaycanlı olmamışdır. Ancaq sonrakı dövrlərdə azərbaycanlı gənclər savadlanmış, universitet təhsili almışlar. Bu gün burada qeyd edildi ki, hazırda universitetin tələbələrinin 90 faizi azərbaycanlılardır. Yəni Bakı Dövlət Universiteti mürəkkəb tarixi bir yol keçmişdir. Onu yaradanlar da Azərbaycan xalqına böyük xidmətlər göstərmiş və sonrakı mərhələlərdə universiteti inkişaf etdirənlər də, fəaliyyət göstərənlər də Azərbaycan Respublikasına çox xidmətlər etmişlər. Ona görə də biz 75 il ərzində universitetin həyatında fəaliyyət göstərən adamların hamısının işlərini yüksək qiymətləndirməliyik.

Siz, yəni universitetin müəllimləri, tələbələri elmi konfranslar keçirmisiniz, universitetin tarixini təhlil etmisiniz. Ancaq mən bir-iki nöqtəyə toxunmaq istəyirəm. Bakı Dövlət Universitetinin bütün digər xidmətləri ilə yanaşı, Azərbaycan xalqının ana dilinin inkişafındakı xidmətlərini xüsusi qeyd etməliyik. Universitet yaranarkən müəllimlərin əksəriyyəti azərbaycanlı olmamışdır. Ancaq sonrakı mərhələlərdə universitet Azərbaycanda xalqımızın ana dilinin inkişaf etməsi üçün, təbliğ olunması üçün böyük işlər görmüşdür. Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Ancaq əgər keçmişə nəzər salsaq, bu gün zəngin, yüksək mədəni səviyyədə olan, çox geniş söz ehtiyatına malik olan ədəbi, mədəni dilimiz həmişə belə olmamışdır. Onu yaradanlar olub, elmi əsasını quranlar olub, inkişaf etdirənlər olub. Bu, müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur. Bu baxımdan Bakı Dövlət Universitetinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Bakı Dövlət Universitetinin əsas fakültələri – tarix fakültəsi, filologiya fakültəsi, fəlsəfə fakültəsi, yəni bütün bu humanitar fakültələr Azərbaycan dilinin, Azərbaycan elminin inkişafında müstəsna yer tutur. Şübhəsiz ki, bütün başqa elmlər də Azərbaycanın həm elmi, həm intellektual potensialının, həm də iqtisadi potensialının inkişafı üçün xidmətlər göstərmişlər. Ancaq bu elmlərin inkişafı xüsusi əhəmiyyət kəsb edir və bu sahədə Bakı Dövlət Universitetində 75 il ərzində görülən işlər yüksək qiymətə layiqdir.

Bakı Dövlət Universitetinin auditoriyalarında, dərs otaqlarında, kafedralarında Azərbaycan xalqının mənliyinin, milli şüurunun, milli

ruhunun inkişaf etdirilməsi üçün də çox işlər görülmüşdür. Mən bu gün bunu xüsusi qeyd edirəm. Çünki öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, inkişaf etdirən, tarixini əks etdirən alim, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, elmiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim – onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəliyə getməsinə xidmət göstərir. Azərbaycanda milli azadlıq hərəkatının yaranması, meydana çıxması, inkişaf etməsi, tariximizin səhifələrinin təxribatdan, təhrifdən qorunması, əsrlərdən-əsrlərə xalqımızın böyük tarixə, böyük mədəniyyətə malik olması, böyük mənəviyyat sahibi olması – bunlar hamısı XX əsrdə alimlərimizin, müəllimlərimizin, ali təhsil ocaqlarında çalışanların fəaliyyəti nəticəsində olmuşdur. Bu sahədə Bakı Dövlət Universitetinin xidmətləri çox böyükdür və mən bu gün onu xüsusi qeyd etməyi lüzumlu hesab edirəm.

Biz bu il dahi şairimiz Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edirik. Fəxr edirik ki, 500 il bundan öncə Məhəmməd Füzuli öz ana dilində – Azərbaycan dilində, türk dilində əsərlərini yazmışdır. Eyni zamanda onu da unutmayaq ki, elə bu əsrin əvvəlində də, ortasında da ana dilimizdə yazanlarımız çox olmuşdur. Ancaq ana dilini, Azərbaycan dilini yüksəklərə qaldırmaq istəyənlər, zənginləşdirməyə çalışanlar fədakar adamlar olublar. Onların əksəriyyəti Azərbaycan Dövlət Universitetində olublar.

Burada Bakı Dövlət Universitetinin yubileylərini xatırladılar. Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam. Eyni zamanda xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin 50 illik yubileyinin də, 60 illik yubileyinin də iştirakçısı olmuşam. İndi universitetin 75 illik yubileyinin iştirakçısıyam. Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu, təəccüb doğurdu, – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlığını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir.

O illəri xatırlayıram. O vaxt, 1968-ci ildə mən respublikada Dövlət Təhlükəsizliyi Komitəsinin sədri idim. Universitetdə bir neçə alim Azərbaycanın tarixini araşdırarkən Azərbaycanın Rusiyaya birləşməsi

haqqında mübahisə aparmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü surətdə girmişdir, yaxud elə-belə girmişdir, ya da məcburi girmişdir. Bunu o vaxtlar şişirtdilər. Şübhəsiz ki, elm adamları elmi axtarışlar zamanı gərək həmişə bütün versiyaları yoxlasınlar. O vaxt isə ümumi qərar belə idi ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü daxil olmuş, özü bunu xahiş etmişdir. Şübhəsiz ki, bu, tarixi həqiqətdən uzaqdır. Ancaq belə olmuşdu və bu hadisə də bayram kimi qeyd edilmişdi. Amma bir neçə alim o vaxt bunu şübhə altına alaraq öz fikirlərini söyləmişdi. Bu, böyük bir iğtişaş yaratdı. Başladılar araşdırmağa ki, bunlar millətçidirlər, yaxud başqa fikirləri var, dövlət mövqeyindən kənar fikirlə yaşayırlar və s. Düzdür, bundan ötrü o vaxtlar bəzi adamları xırdaca cəzalandırdılar. Ancaq mən bilirəm ki, o adamların hamısı indi də fəaliyyətdədir, işləyir və ondan sonra da yaxşı fəaliyyətdə olmuşlar.

Bunu nə üçün xatırlayıram? Xatırlatmaq istəyirəm ki, universitet həqiqəti axtaran, milli ruhu inkişaf etdirən bir ocaq, mənbə olmuşdur. Təsadüfi deyildir ki, bir də deyirəm, Azərbaycanın müstəqilliyi, milli azadlığı uğrunda mübarizə aparan insanların da çoxu burada təhsil almış, universitet divarları arasında işləmiş, fəaliyyət göstərmişlər və bu gün də göstərirlər. Ona görə də Bakı Dövlət Universitetinin Azərbaycan dilinin inkişafında, milli ruhun, milli şüurun inkişafında, vətənpərvərlik ruhunun inkişafında olan xidmətlərini bir daha xüsusi qeyd edirəm və bu gün müstəqil Azərbaycan dövlətində belə insanlara, belə axtarışlara öz hörmət və ehtiramımı bildirirəm.

75 illik tarix cürbəcür mərhələlərdən keçmişdir. Bu 75 ilin hər biri bizim üçün əzizdir. Keçmişdə tariximizi yazarkən bəzən ya o tərəfə, ya da bu tərəfə əyilirdik. İndi isə müstəqil Azərbaycan Respublikasında öz məmləkətimizin, öz taleyimizin sahibi olduğumuz halda, müstəqil siyasət apardığımız halda gərək tariximiz doğru, düzgün, ədalətli, obyektiv yazılsın. Universitetin 50 illiyi, 60 illiyi qeyd olunmuşdur. Amma təəssüf ki, 70 illiyi nədənsə qeyd edilməmişdir. Bunu yaddan çıxarmışlar. İndi 75 illiyi qeyd olunur. Bu 75 illik tarixi ədalətli, düzgün yazmaq üçün indi ən gözəl şərait yaranmışdır. Amma bu, təkcə universitetin tarixi deyil, bu, Azərbaycan xalqının tarixidir, Azərbaycan Respublikasının tarixidir, Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin tarixidir. Ona görə bunu təhrif etmək olmaz.

Keçən vaxtlarda da təhrif olmuşdur, ancaq bu yaxın keçmişdə də təhrif olmuşdur. Keçən vaxtlar – Sovet hakimiyyəti vaxtı bütün tarixçilər ümumi tarixi yazarkən, o cümlədən də universitetin tarixini yazarkən hər bir şeyi marksist-leninçi ideologiya əsasında və bir də o tarix ki, qurulmuşdu, onun əsasında yazmağa çalışırdılar, ona görə də təhriflərə yol

verirdilər, amma iki-üç il bundan qabaq, respublikamızda yeni bir dövr yarananda bəziləri hesab etdilər ki, 1920-ci ildən 1992-ci ilədək Azərbaycanda nə olmuşdursa, bunlar heç bir şey deyil. Tarix indidən başlayır. Belə münasibət yaramaz! Xalqın hər bir günü tarixdə öz yerini tapmalıdır. Tariximizin hər bir nöqtəsi, hər bir günü bizim üçün əzizdir, – nə cür olur-olsun.

İki-üç il bundan qabaq mən eşitdim: bəzi yeni siyasətçilər deyəndə ki, Nəriman Nərimanovdan başlayan və indiyə qədər, bizə qədər olan dövr tarix deyildir, mən dəhşətə gəldim. Belə ədalətsizliyə yol vermək olmaz. Əgər Bakı Dövlət Universiteti 1919-cu ildə ilk, demokratik respublika vaxtında yaranmışsa, sonrakı inkişafı Nəriman Nərimanov və onun kimi böyük şəxsiyyətlərin fəaliyyəti nəticəsində indiki səviyyəyə gəlib çatmışdır. Təsəvvür edin, əgər bu dövr olmasaydı, bu gün burada professor Murtuz Ələsgərovun və başqa natiqlərin 75 il ərzində universitetin əldə etdiyi nailiyyətlər barədə gətirdikləri çox heyranedici rəqəmlər, məlumatlar olardımı? Olmazdı! Yenə də deyirəm, bütün başqa şeyləri kənara qoyaq. Azərbaycanın maariflənməsində, Azərbaycan xalqının savadlanmasında, elmimizin inkişafında, Azərbaycan dilinin bugünkü yüksək səviyyəyə gəlib çatmasında bu dövrün nə qədər böyük mənası, nə qədər böyük xidməti var. Bunu nə pozmaq olar, nə də unutmaq olar. Bunu etmək istəyənlər tarixinə xor baxan, tarixinə düşmən çıxan adamlardır.

Universitet 50 illik yubileyində o vaxtkı Sovetlər İttifaqının yüksək mükafatı – Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdu. Bu, tarixdir və bu tarixi dəyişdirmək olmaz. Azərbaycan Dövlət Universiteti o dövrün ən yüksək mükafatlarından birini aldı, 50 illik fəaliyyətinə görə aldı. Ondan sonrakı dövrlərdə Bakı Dövlət Universiteti yeni yüksək adlara, mükafatlara layiq görüldü. Bunlar da hamısı tarixdir, heç birisini dəyişdirmək olmaz. Hamısına hörmətlə, ehtiramla yanaşmaq lazımdır. Ona görə bütün Azərbaycan xalqının, Azərbaycan Respublikasının, o cümlədən onun elminin, təhsilinin XX əsrdəki tarixi böyük hörmət və ehtirama layiq tarixdir. Biz bu tarixin hər səhifəsini, hər vərəqini hörmət və ehtiramla yad etməliyik, bu tarixin qarşısında, Azərbaycan Respublikasını yaradıb, yaşadıb, Azərbaycan elmini, təhsilini bu səviyyəyə gətirən insanların hamısının qarşısında baş əyməliyik.

Keçmişdə, ölkəmiz xarici dövlətlərlə çox əlaqədə olmadığı vaxtda bəzən belə düşünürdük ki, başqa ölkələrdə elm, ali təhsil bizimkindən çox yüksəkdir. Şübhəsiz ki, dünyanın 800-900 illik tarixi olan məşhur universitetləri var, Avropa universitetlərini, Şərq universitetlərini, Rusiya universitetlərini götürün, 100 illik tarixi olan universitetləri var. Şübhəsiz ki,

onların yüksək səviyyəsi var. Ancaq indi biz dünyaya açıldıq, bizim alimlərimiz, universitetin müəllimləri, professorları dünyanın bir çox ölkələrinə getdilər, gəldilər. İndi onlar bir çox ölkələrdə dərs deyirlər, elmi iş aparırlar. Aydın oldu ki, bu müddətdə Azərbaycanın elmində, təhsilində əldə edilən nailiyyətlər başqa dövlətlərinkindən aşağı deyildir, bəzi hallarda yüksəkdir. Əgər belə olmasaydı, indi Bakı Dövlət Universitetinin, yaxud da ki, digər universitetlərimizin, elmi tədqiqat institutlarımızın alimləri, elmi işçiləri gedib başqa ölkələrdə yüksək səviyyədə fəaliyyət göstərə bilərdilərmi? Bunlar hamısı bu 75 illik tarixin bəhrələridir. Ona görə də biz bunu qiymətləndirməliyik.

Bir sözlə, 75 illik yol şanlı yoldur, şərəfli yoldur. Mən bir daha sizi təbrik edirəm. Universitetin 75 illik yubileyi Azərbaycan xalqının böyük bayramıdır.

Ancaq hər bir yubiley, ildönümü bizi geriyə yox, irəliyə baxmağa, qarşıdakı vəzifələr haqqında düşünməyə dəvət edir. Vəzifələr böyükdür. Respublikamız keçid dövründə yaşayır. Bütün sahələrdə, o cümlədən tədris, təhsil sahəsində islahatlar keçirilir. Bunlar zəruridir, ancaq eyni zamanda bu islahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir. İslahat naminə, dəb naminə aparılmamalıdır. Adını dəyişdirməklə, bir qədər formasını dəyişdirməklə ki, yeni bir qiyafəyə girsin, dəbə düşsün – bunun naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün, təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır. Bütün bu islahatlar ancaq bu yolla, bu istiqamətdə getməlidir, bu məqsədi daşımalıdır və biz bu məqsədə nail olmalıyıq. Mən bu arzularımı sizə bildirirəm və güman edirəm ki, siz də belə düşünürsünüz, siz də məhz bu yolla gedəcək və səhvlərə yol verməyəcəksiniz.

Universitet, ali məktəb gənclərə məxsusdur. Bakı Dövlət Universitetində 1200 nəfərlik professor – müəllim heyəti, 12 min tələbə var. Müəllimlər tələbələr üçündür, onlara təhsil vermək, onları həyata hazırlamaq, yaxşı tərbiyə vermək müəllimlərin şərəfli borcudur. 75 il ərzində bütün çətinliklərə baxmayaraq, həyatımızda olan bəzi mənfi hallara baxmayaraq, universitet bu şərəfli vəzifəsini yerinə yetirmişdir. Bakı Dövlət Universitetini bitirmiş adamların tam əksəriyyəti həqiqətən Azərbaycanın bugünkü həyatını inkişaf etdirənlərdir. Ancaq gənclərə diqqət, qayğı bu gün daha çox lazımdır. Ona görə də mən bu bayram günü gənclərə müraciət edirəm, həm də təkcə Bakı Universitetinin tələbələrinə yox, bütün Azərbaycan gənclərinə müraciət edirəm.

Müstəqil Azərbaycan üç ildir ki, yaşayır. Qarşımızda böyük yol var. Biz bu ağır, çətin yoldan keçməliyik. Ona görə də mən bu gün, univer-

sitetin 75 illik yubileyi qeyd edilərkən ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın gəncləri atalarının, babalarının adət-ənənələrinə, onların keçdiyi yola sadiq qalacaqlar, özlərini universitetlərdə, digər təhsil ocaqlarında, iş yerlərində müstəqil Azərbaycana xidmət etmək üçün hazırlayacaqlar və Azərbaycanın üçrəngli bayrağını uğurla irəli aparacaqlar.

Gənclərimizin bir qismi ordu sıralarındadır. Sizin universiteti, bütün ali məktəblərimizi bitirənlərin bir qismi vuruşmuş, döyüşmüş, torpaqlarımızın qorunması yolunda şəhid olmuşdur. Bir qismi hazırda ordu sıralarında, torpaqlarımızın keşiyində dayanmışdır, müstəqilliyimizi, Azərbaycanın ərazi bütövlüyünü qoruyurlar, Azərbaycanı erməni işğalçılarından qoruyurlar. Onlar cəbhədə, hərbi hissələrdədirlər, hərbi geyimdə, silah altındadırlar. Azərbaycan xalqı onlara, yəni ordumuza, Milli Ordu sıralarında olan gənclərə ümid bəsləyir. Xalqımız bu ümidlə yaşayır ki, Azərbaycan Milli Ordusunda olan gənclər bundan sonra torpaqlarımızı tam qətiyyətlə qoruyacaqlar, Azərbaycanın sərhədlərinin keşiyində möhkəm dayanacaqlar, ölkəmizin suverenliyini müdafiə edəcəklər. Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi yaşaması üçün öz xidmətlərini göstərəcəklər. Mən sizi əmin edə bilərəm ki, Milli Ordumuzun sıralarında olan gənclərin tam əksəriyyəti belə əhval-ruhiyyə ilə vətənpərvərlik ruhu ilə, cəsarət, qəhrəmanlıq ruhu ilə yaşayır və xidmət edir. Ona görə də bu gün, bu gənclik günü – universitetin bayramı gənclik bayramıdır, – ordu sıralarında olan universitet məzunlarını, bütün ali məktəblərin məzunlarını sizin adınızdan, öz adımdan xüsusi olaraq ürəkdən təbrik edirəm, ordu sıralarında olan bütün gənclərimizə salamımızı göndərirəm, onlara hörmət və ehtiramımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar Azərbaycan Respublikasının ərazi bütövlüyünün keşiyində bundan sonra da cəsarətlə, mətanətlə dayanacaqlar.

Qarşımızda duran vəzifələr gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir. Professorlar, müəllimlər bu vəzifələrini bundan sonra da indiyə qədər olduğu kimi ləyaqətlə yerinə yetirməlidirlər. Məlumdur, hamımız bu dərdin içində yaşayırıq, respublikamız ağır vəziyyətdədir. Torpaqların bir qismi işğal olunmuşdur, bir milyondan artıq qaçqın var, respublikanın sosial-iqtisadi vəziyyəti çətinləşir, böhran içindəyik, böhran dərinləşir, insanların həyat tərzi ağırlaşır. Bunlar hamısı dövrümüzün xarakterik cəhətləridir, obyektiv səbəblərdən doğan cəhətlərdir. Belə bir şəraitdə müəllimlər də, professorlar da, ali məktəblərdə çalışan digər ziyalılarımız da çətin dövr keçirirlər. Yaşayış çətinləşmişdir. Yaxşı işləmək üçün bəzən istənilən şərait yoxdur. Bunlar hamısı həyatımızın gerçəkliyidir.

Ancaq eyni zamanda belə düşünürəm ki, xalqımız dözümlü olduğu kimi, ziyalılarımız da, alimlərimiz də, müəllimlərimiz də ən dözümlülərdəndir, ən mətanətlilərdəndir. Mən bütün bu çətinlikləri bilərək və bu çətinliklərə görə qəlbən narahat olaraq ziyalılarımıza, müəllimlərimizə müraciət edirəm: gənclərimizin təlim- tərbiyəsi işinə, təhsil, tədris işinə diqqətinizi azaltmayın. Əksinə, belə bir şəraitdə diqqət, qayğı daha da artmalıdır. Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın, alimlərimizin əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq, öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yerinə yetirəcəkdir.

Bu gün universitetin 75 illiyini bayram edərkən bütün bu çətin problemlərlə rastlaşdığımız halda, eyni zamanda hamımız nikbin əhval-ruhiyyə ilə yaşamalıyıq. Biz bu çətinlikləri görərək, eyni zamanda onu dərk etməliyik ki, milli azadlığımıza nail olmuşuq, müstəqilliyimizi əldə etmişik. Azərbaycan xalqı artıq öz taleyinin sahibidir. Azərbaycan müstəqil dövlətdir. Azərbaycan Respublikası müstəqil dövlət kimi Dünya Birliyində görkəmli yer tutmuşdur, Dünya Birliyində öz sözünü deməyə qadirdir, öz taleyini özü həll edir. Bunlar xalqımızın, zəmanəmizin böyük nailiyyətləridir və bu nailiyyətlərə görə bütün çətinliklərə dözməli, gələcəyə nikbinliklə baxmalıyıq. Çalışmalıyıq ki, bu çətinlikləri tezliklə aradan qaldıraq, müstəqil Azərbaycan Respublikası bütün ərazisinin sahibi olaraq qarşısına qoyulmuş məqsədlərə nail olsun və biz gələcək nəsillər üçün yeni-yeni töhfələr hazırlayaq.

Əminəm ki, biz bunlara nail olacağıq. İnanıram ki, bizim ziyalılar da, alimlər də, müəllimlər də bu duyğularla yaşayırlar və əminəm ki, bu duyğular bizi daha da möhkəmləndirəcək, daha da birləşdirəcək, sıralarımızı daha da sıxlaşdıracaq və biz müstəqil Azərbaycanın xoşbəxt gələcəyinə birlikdə nail olacağıq.

Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, Azərbaycan xalqını onun elminin, mədəniyyətinin bayramı münasibətilə bir daha təbrik edirəm. Hamınıza, bütün ziyalılara, bütün müəllimlərə, Azərbaycanın çoxmilyonlu gənclərinə səadət və xoşbəxtlik arzulayıram. Yaşasın Bakı Dövlət Universiteti! Yaşasın elm, yaşasın mədəniyyət, yaşasın təhsil! Yaşasın müstəqil Azərbaycan Respublikası! Sağ olun.

TƏHSİL İŞÇİLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ*

Prezident sarayı
12 fevral 1995-ci il

Azərbaycan müəllimlərinin ayrı-ayrı dəstələri və Müəllimlər Şurası bir neçə dəfə mənə müraciət edib mənimlə görüşmək istədiklərini bildirmişlər. Mən də həmişə müəllimlərlə görüşmək istəmişəm. Yadınızda olar, bir dəfə müəllimlərlə, xüsusən bizim müəllimlər ordusunun əsasını təşkil edən orta məktəb müəllimləri ilə böyük bir görüş keçirdik. Mən o vaxt da təhsilimizə, müəllimlərimizə dövlətin münasibətini, o cümlədən öz münasibətimi bildirdim və cəmiyyətimizin bu hissəsinin Azərbaycan üçün, dövlətimiz üçün nə dərəcədə gərəkli və əhəmiyyətli olduğunu söylədim.

Son vaxtlar mənə gələn xahişlərə əsaslanaraq, bu gün mən müəllimlərin bir qrupu ilə görüş təşkil etmişəm. Budur, siz indi bu görüşə toplaşmısınız. Hamınızı və sizin simanızda bütün Azərbaycan müəllimlərini salamlayıram, təhsil sahəsində çalışanların hamısına hörmət və ehtiramımı bildirirəm.

İndi Azərbaycanın həyatında çox ağır və çətin problemlər var. Onlardan biri də təhsil sahəsində yaranmış mürəkkəb vəziyyətdir. Biz bu problemləri həll etməyə çalışırıq. Ancaq müəyyən obyektiv, bəzən də subyektiv səbəblərə görə onların həlli ləng gedir, həll edildikdə də istənilən səviyyədə olmur. Eyni zamanda hər bir məsələni həll etmək üçün məsləhət də, fikir mübadiləsi də lazımdır. Bunları nəzərə alaraq sizinlə görüşə gəlmişəm və istərdim ki, əvvəlcə sizi dinləyim, fikirlərinizi öyrənim. Hərçənd fikirlərinizin bir çoxu məlumdur, onlar bizim məsul şəxslər tərəfindən mənə çatdırılıb. Onlar elə sizin müraciətinizdə də qeyd edilir. Lakin indi biz canlı söhbət aparırıq. Ona görə də mən istərdim görüm, sizin bu arzularınız, fikirləriniz nədən ibarətdir.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. B., Azərnəşr, 1997, s. 177-192

YEKUN SÖZÜ

Mən müəllimlərlə görüşməyimdən çox məmnun olduğumu bildirmək istəyirəm. Hər bir cəmiyyətdə savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında müəllimin oynadığı rolu daim qiymətləndirməlidir. Mən müəllimlərə böyük hörmət və ehtiramımı həyatımda dəfələrlə bildirmişəm. Orta məktəbdə mənə dərs deyən, uşaq vaxtlarımdan, gənclik çağlarımdan məni tərbiyə edən müəllimləri heç vaxt unutmamışam, həmişə onlara minnətdarlığımı bildirmişəm.

Mən bunu həm cəmiyyətdə müəllimlərə hörməti daha da artırmaq üçün, həm də böyük bir həyat yolu keçmiş insan kimi, müəllimin cəmiyyətdə nə qədər mühüm rol oynadığını qeyd etmək üçün deyirəm. Əgər müəllim olmasa, heç birimiz cəmiyyətdə indi tutduğumuz yeri tuta bilməzdik və bugünkü kimi fəaliyyət göstərə bilməzdik. Orta məktəbdə mənə dərs demiş müəllimləri bu gün də xatırlayıram.

1990-cı ildə həyat, tale başıma bir çox bəlalar gətirdiyinə görə mən doğulduğum, gənclik çağlarını keçirdiyim Naxçıvan şəhərinə getməyə məcbur oldum. Oraya gəldikdə Naxçıvan Muxtar Respublikasının bütün əhalisi məni çox hərarətlə, hörmətlə qarşıladı. Mən elə ilk günlərdən müəllimlərimi axtarmağa başladım, onların harada olması ilə maraqlanır, onları soruşurdum. Düzdür, aradan çox vaxt keçmişdi. Mən Naxçıvanda orta məktəbi 1939-cu ildə bitirmişəm. Gördüyünüz kimi, nə qədər vaxt keçib. Çox sevinirdim ki, mənə dərs deyən müəllimlərin bir qismi hələ yaşayır, dünyasını dəyişməyibdir. O dövrdə orada mənim çox görüşlərim oldu. Lakın mənim üçün ən əhəmiyyətli, ən dəyərli görüşlər müəllimlərlə, mənə dərs deyən adamlarla olan görüşlərim idi.

Şübhəsiz ki, illər keçir, zaman gündən-günə dəyişir. Dünyada heç kəs daimi deyildir. Ancaq mən dünyasını dəyişmiş olan müəllimlərimi də ehtiramla yad edirəm, bu gün yaşayanları da çox böyük hörmətlə xatırlayıram. O vaxtlar, yəni 1990-cı ildə çox böyük təzyiq altında idim. Vaxtilə mənimlə çiyin-çiyinə işləmiş adamlardan bir çoxu da mənimlə görüşməkdən çəkinirdi. Lakin sevib hörmət bəslədiyim müəllimlər mənə olan ehtiramlarını saxlamışdılar. Odur ki, gəlib mənimlə görüşürdülər, biz saatlarla söhbət edirdik. Hətta xatirimdədir ki, Bakıda yaşayan, mənim çox istədiyim, mənə yaxşı dərs demiş müəllimlərdən biri – Tofiq Bəktaşi, o vaxtlar səhhəti o qədər yaxşı olmasa da, məhz mənimlə görüşmək üçün Naxçıvana gəldi. Mən onun gəlişinə çox sevindim. Bir müddət bundan

əvvəl o da dünyasını dəyişdi. Tofiq müəllimin mənimlə görüşə gəlməsi faktı nəyi göstərir? Bu fakt həm tələbənin müəllimə, həm də müəllimin dərs dediyi adamlara bağlılığına dəlalətdir. Mən bunu öz həyatımda, təcrübəmdə görmüşəm.

Bu gün mən burada Sona xanımı görəndə çox sevindim. Mən 1969-cu ildə Azərbaycana rəhbərliyə başladığım vaxtdan biz Sona xanımla maarif işində daim əməkdaşlıq etmişik. O, Azərbaycanın ən nümunəvi məktəblərindən olan 190 nömrəli məktəbin direktoru idi, mən isə respublikanın rəhbəri idim. Müəllimlərlə daim təmasda olurdum. Müəllimlərin qurultaylarında, toplantılarında iştirak edirdim. Sona xanım da qabaqcıl bir müəllim kimi, hörmətli, təcrübəli müəllim kimi, məktəb direktoru kimi həmişə bizim toplantılarda olurdu, dövlət tədbirlərində iştirak edirdi. Onun dəfələrlə dövlətin ən yüksək ordenləri ilə təltif edildiyi xatirimdədir. Fəxr edirdim ki, Sona xanım kimi müəllim var. Mən burada yenidən işə başlayanda da Sona xanımı soruşdum. Dedilər ki, öz işini davam etdirir. Lakin bu gün Sona xanımı burada görəndə daha çox sevindim. Ona görə sevindim ki, Sona xanım öz işindədir, məktəbi indi ağır vəziyyətdə olsa da, fəaliyyətini davam etdirir. Sona xanımın rəhbərliyi altında minlərlə adam təhsil və tərbiyə alıb, hazırda onlar ölkəmizdə və onun hüdudlarından kənarda müxtəlif sahələrdə işləyirlər. Bunların hamısı müəllimin xidmətidir. Mən Sona xanımın xidmətindən danışarkən ümumiyyətlə, müəllimin xidmətini nəzərdə tuturam.

Bilirsiniz ki, 1982-ci ilin sonundan Moskvada işləyirdim, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sov. İKP MK Siyasi Bürosunun üzvü idim. O vaxtlar mən təhsil sahəsinə – həm Maarif Nazirliyinə, həm də Ali və Orta İxtisas Təhsili Nazirliyinə rəhbərlik edirdim. Ona görə də bu məsələ ilə çox yaxından məşğul olurdum. O zaman Sovet İttifaqında, bir dövlətin tərkibində idik. Biz tariximizi heç vaxt unutmamalıyıq və tariximizə də heç vaxt xor baxmamalıyıq. Tarix tarixdir, həyat isə həyatdır. Sona xanım həyatını Azərbaycanın təhsilinə həsr edib və Azərbaycan məktəbinə xidmət edibdir. Fərqi yoxdur ki, bu, Sovet İttifaqında olubdur, yoxsa indi müstəqil Azərbaycan dövlətində baş verir. Müəllim müəllim olaraq qalır. O vaxtlar da Sovet İttifaqında məktəb işinə çox fikir verilirdi. Biz 1983-cü ildən başlayaraq məktəb islahatı hazırladıq. Bu, o zaman işləyən müəllimlərin yadındadır. Mən bütün Sovet İttifaqı üzrə məktəb islahatını hazırlayan komissiyanın sədri idim.

Sovet İttifaqının bütün respublikalarının ən tanınmış müəllimləri, alimləri, elmi-tədqiqat pedaqogika institutlarının nümayəndələri ilə, akademiklərlə dəfələrlə görüşüb məsləhətləşirdim. İstəyirdim ki, islahatı elə keçirək ki, məktəb daha yaxşı təhsil versin.

Bu gün çox böyük iftixar hissi ilə deyə bilərəm ki, o vaxtlar Sovet İttifaqı kimi böyük bir dövlətin maarif, təhsil sahəsində islahatlarının hazırlanmasına və həyata keçirilməsinə rəhbərlik edirdim. Mən həmin islahat haqqında, qəbul olunmuş qərarlar barədə Ali Sovetin sessiyasında məruzə etmişdim. Bunlar bizim o dövrdə işləyən müəllimlərin xatirindədir. Demək istəyirəm ki, məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. İndi burada bir məktəb direktoru xatırlatdı ki, 1971-ci ildə mən onların məktəbinin açılışında iştirak etmişəm. Belə hallar bir deyil, on deyil, yüzlərlədir. Özü də təkcə Azərbaycanda yox. Moskvada işlədiyim dövrdə başqa respublikaların – indi müstəqil dövlətlər olan ölkələrin ərazisində, Rusiya ərazisində bu işlərlə məşğul olmuşam. Ona görə də məktəb işi, müəllimlik sənəti mənim üçün ən doğma işdir. Müəllimlik sənətini, müəllimin işini, zəhmətini həmişə yüksək qiymətləndirmişəm. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir. 25 il bundan öncə Azərbaycana rəhbər seçiləndə də bu mövqedə olmuşam, indi müstəqil Azərbaycanın dövlət başçısı kimi də bu mövqedəyəm. Mən həyatımın bütün mərhələlərində məhz belə mövqedə durmuşam. Mən sizinlə söhbəti də bu mövqedən aparıram. Öz mövqeyimə sadiq qalaraq bu gün sizi görüşə dəvət etmişəm. Sizin dərd-sərinizi, vəziyyətinizi öyrənmək istəyirəm.

Burada çıxış edənlər də dedilər, mən də bir daha qeyd etmək istəyirəm ki, indi Azərbaycanın sosial-iqtisadi vəziyyəti həddindən artıq ağırdır, gərgindir. Özü də tək Azərbaycanın yox, bütün keçmiş sovet respublikalarının, indi müstəqil dövlətlər olan ölkələrin də sosial-iqtisadi vəziyyəti çox ağır, çox gərgindir. Şübhəsiz ki, müəyyən fərqlər var. Birində, ola bilər, bir az yaxşıdır, digərində pisdir. Məsələn, demək olmaz ki, biz hamısından pis vəziyyətdəyik. Yaxud da vəziyyətimiz hamısından yaxşıdır. Yox, belə deyildir.

Mən iki-üç gün bundan qabaq, fevralın 9-da Almatıya getmişdim. Ayın 9-10-da orada oldum. Almatıda MDB-nin dövlət başçılarının görüşü keçirilirdi. Orada mən söhbətlər zamanı bu məsələlərlə də maraqlanırdım. Almatıda nəşr olunan qəzetlərin birində Qazaxıstan prezidenti Nursultan Nazarbayevin çıxışını oxudum. O, bu fikirlərini sonra mənimlə görüşəndə də dedi. Müəllimlərin məvacibi az, iqtisadi vəziyyəti çətindir. Bu, qəzetdə prezidentin çıxışında yazılıb. Qazaxıstan kimi bir ölkədə müəllimlər üç aydır ki, maaş almırlar. Sonra mən onunla təkbətək söhbət edərkən bir çox məsələlərlə yanaşı, bu məsələni də soruşdum. Dedi ki, axtarıram, görüm haradan vəsait tapa biləcəyəm. Halbuki onların imkanları böyükdür. Qazaxıstan böyük bir respublikadır, çoxlu neft çıxarır, təbii

qazı var, qızıl, gümüş, mis, daş kömür istehsal edir. Müharibə aparmır, işğal edilmiş torpaqları, qaçqınları yoxdur. Sözümün canı budur ki, iqtisadi imkanları bizimkinə nisbətən həddindən artıq çoxdur. Amma buna baxmayaraq, Qazaxıstan prezidenti deyir ki, böyük çətinliklər içərisindəyik, müəllimlərin məvacibini artırmaq üçün vəsait axtarıram. Çünki onların vəziyyəti çox ağırdır. Dedim, qəzetdə oxudum ki, müəllimləriniz üç aydır məvacib almırlar. Dedi ki, bəli, bu da həqiqətdir.

Əlbəttə, bunu mən özümə təskinlik saymıram. Ümumiyyətlə, əgər 70-ci illəri xatırlasanız, deməliyəm ki, respublika həmin respublikadır, müəllimlər həmin müəllimlərdir, məktəblər də həmin məktəblərdir. İndi tale elə gətirib ki, respublikaya o vaxt rəhbərlik edən də, bu gün rəhbərlik edən də Heydər Əliyevdir. O vaxta nisbətən Heydər Əliyev də çox mərhələlərdən, çox çətinliklərdən keçibdir. Elə təcrübəsi də qat-qat artıbdır. İndi necə olur ki, məsələn, 70-ci illərdə müəllimlərin bu cür problemləri yox idi, məvaciblərini də alırdılar. Ləvazimat da vardı, dəftər-qələm də, dərslik də, nə bilim, mebel də vardı. Məktəblərdə yemək də verilirdi, uşaq bağçaları da yaxşı idi. Amma indi bunlar yoxdur. Sizin də əksəriyyətiniz həmin adamlardır. Azərbaycan da həmin Azərbaycandır, rəhbəriniz də həmin Heydər Əliyevdir. Deməli, bunun başqa səbəbi var. Səbəb də bax, bu son altı-yeddi ildə gedən proseslərlə bağlıdır. Bu proseslər keçmiş Sovet İttifaqının hər yerinə, o cümlədən də Azərbaycana öz təsirini göstəribdir. Ona görə də biz bu məsələlərdən çıxış yolu axtarmalıyıq.

Şübhəsiz ki, müəllimlərin maddi vəziyyətini yaxşılaşdırmaq lazımdır. Buna söz ola bilməz. Tələbələrə yardım etmək gərəkdir. Buna da söz ola bilməz. Amma bunu necə edək, hansı mənbədən edək? Məsələ bax belədir! İndi bizim də, başqa respublikaların da iqtisadi-sosial problemləri eynidir. Axı biz bir iqtisadiyyat formasından başqa iqtisadiyyat formasına keçirik. Məsələn, elə təhsil sistemini götürün. Burada çıxış edənlər deyirlər ki, dərslik tapa bilmirlər, müəllim o kitabxanaya, bu kitabxanaya gedib dərsə hazırlaşır. Təbiidir ki, o, dərsə hazırlaşmalıdır. Çünki o vaxtkı dərsliklərin bir çoxu indi yaramır.

Əlbəttə, riyaziyyatda, fizikada, yaxud kimyada elə bir dəyişiklik yoxdur. Elədir, ya yox? Amma tarixdə dəyişiklik var. Ona görə də o vaxtkı tarix dərsliyi ilə indiki tarix dərsliyi bir deyil. Ədəbiyyatda da dəyişiklik var. Yəni ictimai fənlərdə böyük dəyişikliklər var. O vaxtlar riyaziyyat, fizika, yaxud kimya fənlərinin dərslikləri hər il hazırlanırdı, gətirilib məktəblərə verilirdi. İndi isə bu imkan yoxdur. Ona görə dərslik də çatışmır. Bəzi fənlərdən isə dərsliklər tamamilə yoxdur. Bütün bunlar keçid dövrünün bəlalarıdır, çətinliyidir. Əgər siz bunu təhsildə hiss edirsinizsə, bir görün keçid dövrünün iqtisadiyyatında nə qədər böyük bəlalar var.

Biz indi bir iqtisadi sistemdən başqa iqtisadi sistemə keçirik. Azərbaycanın iqtisadi potensialı on illər ərzində yaranmışdır. Bu potensial həm də sizin xatırladığınız 70-ci illərdə, yəni mənim burada işlədiyim dövrdə Azərbaycan xalqının fədakar əməyi nəticəsində yaradılmışdır. Apardığımız düzgün iqtisadi siyasət nəticəsində o zaman respublikamızda nəhəng zavod və fabriklər tikildi, kənd təsərrüfatı inkişaf etdi. Azərbaycanın iqtisadiyyatı yüksək səviyyəyə çatdı. İndi Bakıda, Sumqayıtda olan zavodları, fabrikləri işlədə bilsək, bizə başqa bir şey lazım deyildir. Onlar Azərbaycanı yüksək səviyyədə saxlayar.

Bilməlisiniz ki, keçmişdə Sovet İttifaqında on beş respublikadan ancaq ikisi dövlət büdcəsindən dotasiya almırdı. Bunlar Rusiya və Azərbaycan idi. Başqa respublikalar öz iqtisadiyyatını saxlamaq üçün dövlət büdcəsindən dotasiya alırdılar. Rusiya. ilə Azərbaycan isə özlərini dolandıra bilirdi. Bəli, Azərbaycanın iqtisadi potensialı güclü idi. Bunu iqtisadçılar bilirdilər. Moskvada da bilirdilər, bizə hücum edən bədxah qonşular da bilirdilər. Hamı bilirdi ki, əgər Azərbaycan müstəqil olsa və öz imkanlarından müstəqil surətdə istifadə edə bilsə ona heç bir respublika çata bilməyəcəkdir. Amma Sumqayıtdan bir nəfər burada çıxış edib dedi ki, zavodlarda fəhlələri məcburi məzuniyyətə buraxırlar. Nə üçün? Axı orada böyük kimya, metallurgiya, tikinti kompleksləri, yüngül sənaye, maşınqayırma müəssisələri var. Elə təkcə Sumqayıtda bunlar işləyə bilsəydi, indi nəinki Sumqayıtın, heç bütün Azərbaycanın da dərdi olmazdı.

Yenə də deyirəm. Hazırda biz bir sistemdən başqa sistemə keçirik. Elə bunun özü böyük çətinlik yaradır. Digər tərəfdən, respublikamızın xüsusiyyəti, yəni başqa respublikalardan fərqi ondan ibarətdir ki, əlaqələrimiz kəsilibdir. Biz müstəqil siyasət yeridirik. Müstəqil siyasət də bəzi əlaqələrin, o cümlədən iqtisadi əlaqələrin kəsilməsinə gətirib çıxarmışdır. Bununla yanaşı, son altı ayda Şimaldan gələn bütün yollar – dəmir yolu, avtomobil yolu, dəniz yolu bağlanıbdır, Şimal ilə; Rusiya ilə heç bir əlaqəmiz yoxdur. Mən fevralın 10-da Almatıda Rusiya prezidenti Borıs Yeltsinlə bu barədə ciddi danışdım. Rusiyanın baş naziri Viktor Çernomırdinlə də danışdım. Xahiş etdim, heç olmasa yolları açsınlar ki, iqtisadi məsələlərimiz həll olunsun. Onlar Rusiyanın Sərhəd Qoşunları komandanına göstəriş verdilər. O buraya gələcəkdir. Yolların açılıb-açılmayacağını deyə bilmərəm. Amma bu, bizi böyük bir bəlaya salıb. Əgər belə ağır şəraitdə blokadaya düşməsəydik, yollarımız kəsilməsəydi, son vaxtlar iqtisadiyyatımız bu cür çətin vəziyyətdə olmazdı.

Altı ildən artıqdır ki, müharibə gedir, ərazimizin 20 faizi işğal olunub, bir milyondan çox qaçqın var, bu qaçqınları, ev-eşiyindən didərgin düşmüş adamları saxlamaq da bizim üçün böyük bir dərddir. Bu gün

fevralın 12-dir, düz doqquz aydır ki, müharibə getmir, atəş açılmır, güllə atılmır, qan tökülmür, şəhidlər yoxdur. Bu Qarabağ problemi ortaya atılandan bəri, yəni Azərbaycana qarşı Ermənistanın təcavüzü başlanandan bəri, 1988-ci ildən indiyədək ilk haldır ki, uzun müddət, doqquz ay müddətində sülh hökm sürür. Bu, tam sülh deyildir, atəşkəsdir. Ancaq doqquz ay davam edən atəşkəs böyük bir hadisədir. Təsəvvür edin ki, müharibə getsəydi, hər gün döyüşlər olsaydı, vəziyyət nə dərəcədə ağırlaşardı. Biz atəşkəsə istədiyimizə nail olmaq üçün getmişik. İstəyirik ki, işğal olunmuş torpaqlarımız azad edilsin, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun. Mən Almatıda həm Rusiya prezidenti ilə, həm Qazaxıstan prezidenti, həm Gürcüstan prezidenti, həm də Ermənistan prezidenti ilə görüşlərimdə, eləcə də başqaları ilə söhbətlərimdə və danışıqlarımda qeyd edirdim ki, millətlərarası, dövlətlərarası münaqişələrdə ümumiyyətlə, ilk hadisədir ki, bölgəyə ayırıcı qoşunlar, yəni sülhü mühafizə qüvvələri daxil olmadan özümüz birbaşa danışıqlar aparıb atəşi dayandırmışıq və uzun müddət, doqquz ay müddətində sülhü qoruyub saxlamışıq. Doğrudur, müəyyən vasitəçilik, o cümlədən ATƏT-in Minsk qrupunun, Rusiyanın vasitəçiliyi olmuşdur. İndi «Azərbaycanın xarici siyasəti» və «Azərbaycanın daxili siyasəti» barədə danışırlar. Müxalifətdəki bəzi şəxslər deyirlər ki, Azərbaycanın xarici siyasəti yaxşıdır, amma daxili siyasəti, nə bilim, belədir filandır. Doqquz ay müharibə getməməsi məgər Azərbaycanın daxili siyasətinin nəticəsi deyilmi? Bu, dünya praktikasında nadir haldır, bəlkə də heç bənzəri olmayan bir haldır!

Almatıda Ter-Petrosyanla danışıqlarımızda, – bu danışıqlarda Nursultan Nazarbayev də iştirak edirdi, – Ermənistan prezidenti də bəyan etdi, mən də bəyan etdim ki, biz bu atəşkəs rejimini tam sülh yaranan vaxta qədər saxlayacağıq. Dəfələrlə dediyim kimi, tam sülh yaranmasının şərtləri var. Şərtlərimiz ondan ibarətdir ki, işğal olunmuş torpaqlardan, o cümlədən Laçın və Şuşa rayonlarından erməni silahlı qüvvələri çıxmalı və qaçqınlarımızın hamısı öz yerlərinə qayıtmalıdır. Biz böyük sülh müqaviləsini də bu şərtlər əsasında bağlayacağıq.

Dekabrın 6-da Budapeştdə qəbul edilmiş qətnamə də tarixi bir qətnamədir. Daha doğrusu, bizim üçün, 1988-ci ildən indiyədək gedən müharibə dövründə qəbul olunmuş tarixi bir qətnamədir. Ona nail olmaq da asan məsələ deyildi. İndi bunları açıb sizə danışmağa ehtiyac yoxdur. Vaxt gələcək, tarixçilər bunu təhlil edəcəklər. Bu qətnamənin nə qədər böyük əhəmiyyəti olduğunu və necə böyük zəhmət sayəsində qəbul edildiyini hamı biləcəkdir. Lakin bu da böyük bir nailiyyətdir ki, münaqişənin başlandığı vaxtdan bəri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi, indi ATƏT adlandırılan təşkilat məhz Budapeştdə Ermənistan

ilə Azərbaycan arasındakı münaqişəni söndürmək və sülh yaratmaq üçün çoxmillətli sülhü mühafizə qüvvələri təşkil olunması haqqında qətnamə qəbul etdi. Bu, həmin təşkilatın 20 illik fəaliyyəti ərzində qəbul edilən ilk belə qətnamə idi.

Bir daha qeyd edirəm ki, biz o qətnaməyə nail olmaq üçün aylarla gecə-gündüz çalışmışıq, mən böyük dövlətlərin başçıları ilə danışıqlar aparmışam, özü də ciddi danışıqlar aparmışam. Bu qətnaməyə məhz bizim iradəmiz sayəsində, siyasətimizin düzgün istiqamətdə getməsi nəticəsində nail ola bildik. Biz, – iki prezident orada, Budapeştdə də, fevralın 10-da Almatıda da bəyan etdik ki, bu atəşkəs rejimini saxlayacağıq...

Şübhəsiz ki, indi çörək də lazımdır, paltar da. Dəftər də, kitab da. Bir sözlə, hər şey lazımdır. Amma biz böyük-böyük məsələlər həll edirik. Bu işləri də görmək gərəkdir. Məhz bunlara görə indi burada camaat, xalq rahat yaşayır. Ona görə də deyirlər ki, bu da olsun, o da olsun. Bəli, bu da olmalıdır, o da olmalıdır, hər şey olmalıdır.

Bütün bunlar, bir tərəfdən, nailiyyətlərimizdir. Məsələn, atəşi dayandırmışıq, Budapeştdə qəbul edilmiş qətnamənin əsasında hazırda Moskvada danışıqlar gedir. Artıq ATƏT-in Minsk qrupunun iki rəhbəri var. Onlardan biri Qərb tərəfdən, digəri isə Rusiya tərəfdəndir. Bundan məqsəd beynəlxalq qüvvələri toplamaq və sülh proqramını hazırlamaqdır. Bunların hamısı görülən işlərdir, həm də xalqın rahat yaşaması üçün görülən işlərdir. Amma eyni zamanda düşdüyümüz bu müharibə vəziyyəti, blokada vəziyyəti, yolların kəsilməsi, iqtisadiyyatın formasının dəyişməsi, mülkiyyət formalarının dəyişməsi – bunların hamısı bizi gətirib belə ağır vəziyyətə salmışdır.

Burada müəllimlərdən biri çıxış edib dedi ki, cəmiyyətdə təbəqələşmə gedir, məsələn, birinin uşağı məktəbə gələndə özü ilə yemək gətirir, onun yeməyi var, başqasının isə yoxdur, götürüb ondan yeyir. İnanın ki, belə hallar ürəyimi ağrıdır. Ancaq nə edək? Biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Başqa yolumuz yoxdur. İqtisadi islahatlar aparmalıyıq. Aparırıq da. Düzdür, bəzi populist adamlar, Azərbaycanın bu sabitliyini pozmağa can atanlar orada-burada söz gəzdirirlər ki, guya islahat aparılmır, gecikdirilir. İslahatı bir paraları keçirmək istəyir, digərləri istəmir. Bunlar da boş söhbətlərdir. Azərbaycanı belə hala salanlar da məhz bu cür adamlardır.

Amma həqiqət ondan ibarətdir ki, biz iqtisadi islahatlar aparırıq. Bu islahatlar lazımdır və şübhə yoxdur ki, onlar cəmiyyəti müəyyən qədər təbəqələşməyə gətirib çıxaracaqdır. Bizim də borcumuz budur ki, əhalinin ehtiyacı olan təbəqələrinin sosial müdafiəsini təmin edək. Məsələn, qiymətlərin sərbəstləş dirilməsi haqqında son vaxtlar qərarlar qəbul

olunması ilə yanaşı, əhalinin sosial müdafiəsinin təmin edilməsi qeydinə də qalınmışdır. Aztəminatlı ailələrə, çoxuşaqlı ailələrə kompensasiyalar verilməsi buna misaldır. Doğrudur, bu kompensasiyalar bəlkə də kifayət qədər deyildir. Ancaq gərək büdcəmizin vəziyyətini də nəzərə alaq. Baxıb görək ki, istehsal nədən ibarətdir. Əgər nəhəng-nəhəng fabrik və zavodlarımız dayanmışsa, yaxud tam gücü ilə işləmirsə, çox böyük imkanlarımızdan istifadə edilmirsə, vəsaiti haradan götürə bilərik? Sosial vəziyyətimizi bunlar gərginləşdirir.

Lakin bir şeyi də demək lazımdır. Dövlət, hökumət çalışmalıdır, çalışır və bundan sonra da çalışacaqlar ki, xalqın bu ağır vəziyyətdən çıxması üçün lazımi tədbirlər görsün. Bu tədbirlər görülür və görüləcəkdir. Biz bu tədbirləri ardıcıl surətdə həyata keçiririk və keçirəcəyik ki, onlar xalqın sosial müdafiəsini təmin etsin. Biz bunu edirik və edəcəyik.

Amma eyni zamanda adamlarımız da respublikanın düşdüyü vəziyyəti dərk etməlidirlər. Burada müəllimlərdən biri çıxış edib dedi ki, çoxdan aldığımız paltarı geyinirik, biri də dedi ki, müəllimlər yamaqlı şalvar geyiblər. Bunlar həqiqətdir. Burada olan yaşlı adamlar yəqin ki, 1941-45-ci illər müharibəsini xatırlayırlar. Məsələn, ola bilsin, Sona xanımın yadındadır. Elə mən özüm də xatırlayıram. Biz o müharibə dövründə yaşamış, o müharibəni görüb keçmiş adamlarıq. 1941-45-ci illər müharibəsində yamaqlı paltar, yamaqlı şalvar da tapmaq çətin idi, mənim xatirimdədir, Naxçıvanda adamlar ayaqqabı tapa bilmir, çarıq geyirdilər. Özü də təkcə müharibə dövründə yox. Bilirsinizmi, mən heç nəyi gizlətmirəm. Həyatımda olan hər bir şeylə fəxr edirəm. Mən orta məktəbə gedəndə həmişə yamaqlı paltarla getmişəm. Yamaqsız paltarım olmayıb. Anam gecələr lampa işığında corablarımı yamayırdı. Məni bağışlayın, bir yamaq vururdu cırılırdı, sonra birini də vururdu. Belə vəziyyətdə idik. Həm də tək mən yox, bu nəslin hamısı belə böyüyübdür. Biz o müharibənin çətinliklərini gördük, yaşadıq. O günləri indi ilə heç müqayisə etmək olarmı? O vaxt insanlar acından ölürdülər, nə paltarı vardı, nə də yemək-içməyi. Bəli, o vaxtlar da müəllimlər çox ağır vəziyyətdə idilər. Mən də gənc idim, ağır vəziyyətdə idim. Amma görürdüm ki, mənə dərs deyən müəllim gedib bazarda nəsə xırda bir şey satır. Bunu görəndə ürəyim ağrıyırdı. Əslində mən özüm ondan da pis vəziyyətdə idim.

İndi yamaqlı paltar bəzilərinə qəribə görünür, amma 20-ci, 30-cu, 40-cı illəri görmüş adamlar məhz yamağın içində yaşayıblar. Bununla heç də demək istəmirəm ki, o vaxt yaxşı idi. Xeyr, belə demək istəmirəm. Demək istədiyim budur ki, insanın iradəsi bütün bu çətinliklərə üstün gəlir, yenə də deyirəm, biz tədbirlər görürük, amma adamlarımız da dözməlidirlər. Zaqafqaziya regionunda bizdən savayı respublikalar, mən

onların adlarını çəkmək istəmirəm – var ki, orada camaat bizdəkindən on qat pis vəziyyətdə yaşayır. Ancaq dözür.

Biz indi blokadaya düşmüşük. Çeçenistan hadisələrinə görə. Amma başqaları 4-5 ildir blokadadır. Bizdə elektrik işığı var, orada yoxdur. Mənim özüm üç il Naxçıvanda yaşadım, neft lampasının işığında oturub işləyirdim. Nə elektrik vardı, nə də su. Qışda biz 20 dərəcə şaxtada elektrik işığı olmadan, binalar qızdırılmadan yaşayırdıq. Yaxşı ki, burada, Bakıda şaxta yoxdur. O insanlar indi də orada elə o cür yaşayırlar. Düzdür, onda mən öz imkanlarımdan istifadə etdim. İrandan, Türkiyədən oraya elektrik xətti çəkdik, çünki Bakıdan gələn xətlərin hamısı Ermənistanda kəsilmişdi. Naxçıvanda qaz da yox idi. Bu gün mən Səməd Sadıqovun başçılığı ilə İrana nümayəndə heyəti göndərirəm. Onlar gedib İranda Naxçıvanın elektrik enerjisi məsələsini, digər təchizat məsələlərini həll etmək üçün danışıqlar aparacaqlar.

Bunları söyləməklə mən heç də demək istəmirəm ki, elə belə də olmalıdır. Yox. Sadəcə olaraq vəziyyəti təhlil edirəm, gerçəkliyimizi bildirirəm, həqiqəti deyirəm. Mən burada çıxış edənlərin hamısına minnətdaram, ona görə ki, vəziyyəti açıqlamaqla yanaşı, nikbin əhval-ruhiyyə ilə danışdılar. Bəli, inam var. Bizim hamımızda inam olmalıdır ki, bu çətinliyi keçib gedək. Bu çətinliyi keçib getmək üçün bir-birimizə kömək etməliyik, bir-birimizə əl uzatmalıyıq. Amma təəssüf ki, bəziləri bu çətinliklərdən istifadə edib öz şəxsi məqsədlərinə nail olmaq üçün cürbəcür çirkin yollara gedirlər. Şübhəsiz ki, xalq belələrinin qarşısını alacaqdır. Lazım olsa, onların qarşısını dövlət də alacaqdır. Buna dövlətin imkanları var.

Azərbaycanın düşdüyü vəziyyəti başqa respublikalardakı vəziyyətdən fərqləndirən cəhətlərdən biri də budur ki, bizim daxilimizdə belə çətinliklərdən istifadə edib ictimai-siyasi sabitliyi pozmağa can atan qüvvələr var. O qüvvələr ki, özləri xalqı bu vəziyyətdən çıxarmaq üçün zərrəcə iş görməyiblər və görməyə də qadir deyildir. Elələri də var ki, bu fürsətdən istifadə edib özlərinə hörmət qazanmaq istəyirlər. Belə ucuz hörmət isə heç vaxt daimi ola bilməz.

Bir daha qeyd edirəm ki, mən bildiyim məlumatlardan əlavə, bu gün sizdən yeni məlumatlar aldım, müəllimlərin, təhsilin vəziyyətinə daha yaxşı bələd oldum. Ona görə sizə təşəkkür edirəm. Eyni zamanda hesab edirəm ki, bizim üçün, iqtisadiyyatımız, maliyyəmiz üçün nə qədər çətin olsa da, gərək lazımi tədbirlər görək.

Bilirsinizmi, indi həyatımız elədir ki, bu gün qəbul etdiyimiz bir qərarın sabah uyğun olmadığını görsək, dəyişdirə də bilərik. Məsələn, fevralın 9-da mən Almatıya getdim. Mənim xəbərim olmadan Bakı şəhər icra hakimiyyəti nəqliyyatda gediş haqqını artırmışdı. Şübhəsiz ki, bu,

müəyyən narazılığa səbəb olmuşdu. Mən fevralın 10-da axşam Almatıdan döndüm, elə aeroportdaca müşavirə keçirdim. Düzdür, səfərim uzun sürməmişdi. Ayın 9-da gedib 10-da qayıtdım. Lakin mənim üçün hər saatın əhəmiyyəti var. Nəqliyyatda minik haqqının qaldırılmasının doğurduğu narazılıqdan Milli Məclisdə bəzi adamlar sadəcə sui-istifadə etməyə çalışıblar. Ancaq mən Bakıya qayıdanda nəqliyyatda qiymətlərin qaldırıldığından xəbər tutan kimi, icra hakimiyyətinin başçısı Rəfael Allahverdiyevə göstəriş verdim ki, gediş haqqını dəyişdirsin. O qiymətlər elə həmin axşam da dəyişdirildi. Mən aeroportdan şəhərə gələn kimi tapşırdım ki, bu xəbər təcili olaraq televiziya ilə verilsin. Belə də oldu və dediyim kimi, nəqliyyatda qiymətlər dəyişdirildi.

Mən bununla onu demək istəyirəm ki, bu gün görülən bir tədbir, yaxud qəbul edilən bir qərar sabah, ola bilsin ki, əl verməsin, buna görə də onları dəyişdirmək mümkündür. Siz indi Təhsil qanunu haqqında danışdınız. Bu qanun, gərək ki, iki il bundan əvvəl qəbul edilib. Kimsə qanuna dəyişikliklər etmək istəyib. Amma bu, etirazla qarşılanıb. Kimsə hesab edir ki, qanuna ümumiyyətlə dəyişiklik etmək olmaz. Məsələn, burada bir müəllim çıxış edib dedi ki, bəlkə fərman verib qanunu müvəqqəti olaraq dayandırasınız. Çünki hesab edir ki, qanunu sabit saxlamaq lazımdır. Bu da təbiidir. Ona görə ki, indi biz demokratik bir cəmiyyətdə yaşayırıq, hər kəs öz sözünü deyə bilər. Hər kəs öz təklifini verə bilər. Lakin şübhəsiz ki, qəti qərar qəbul edilməsi dövlət orqanlarının səlahiyyətinə aiddir.

Mən belə başa düşdüm ki, burada bir neçə məsələni təcili olaraq həll etmək, bir neçə məsələnin isə üzərində işləmək lazımdır. Əvvəla, Maliyyə Nazirliyinin büdcə ilə əlaqədar təklifi, deyəsən, belədir ki, Təhsil qanununa görə müəllimlərə nəzərdə tutulmuş güzəştlərin tətbiqi dayandırılsın. Maliyyə naziri də bunu büdcənin vəziyyəti ilə, ümumi maliyyə vəziyyətimizlə izah edir. Onu da günahlandırmaq istəmirəm. Mən Azərbaycanın da, Sovet İttifaqının da maliyyə nazirlərini görmüşəm. Maliyyə nazirinin vəzifəsi ondan ibarətdir ki, gərək maliyyəni həmişə sıxsın, həmişə çalışsın ki, maliyyə vəziyyəti möhkəm olsun. Ona görə mən də bir dövlət başçısı kimi onu təqsirləndirmirəm. Amma sizin təkliflərinizi nəzərə alaraq hesab edirəm ki, maliyyə naziri öz təklifini geri götürməlidir. Yəni qanunda müəllimlər üçün nəzərdə tutulmuş güzəştlər yanvarın 1-dən tətbiq olunmalıdır və müəllimlər bu güzəştlərdən istifadə etməlidirlər. Zənnimcə, bu, qaldırılan məsələlərdən biri idi və həll olundu. Elədirmi?

İkinci məsələ müəllimlər üçün dərs yükü məsələsidir. Siz ona gərək ki, stavka deyirsiniz. Bu məsələ bir neçə gün öncə mənim yanımda müzakirə edilmişdir. Təhsil naziri Lidiya Rəsulova məsələ qaldırıb ki, Təhsil qa-

nununda dəyişiklik etmək lazımdır. İndi görürsünüzmü, iki il bundan qabaq qəbul olunmuş qanunun bir tərəfi sizin üçün xeyirlidir. Maliyyə naziri də sizi bundan məhrum etmək istəyirdi. Siz də onun əleyhinə çıxırdınız. Amma dediyiniz o məhdudiyyət məsələsi sizin üçün sərfəli deyildir. Bu gün üçün sərfəsizdir. Bir neçə gün öncə biz toplaşıb bir neçə iqtisadi məsələyə baxırdıq. Mən müəllimlərin maddi vəziyyəti məsələsinin də müzakirəsini təklif etdim. Onu da bilin ki, mən müəllimlərin vəziyyəti ilə heç də birinci dəfə deyildir ki, maraqlanırdım. Lidiya Rəsulova burada dedi ki, mən bu məsələni bir neçə dəfə müzakirə etmişəm. Lidiya Rəsulova öz təklifini irəli sürdü. Mən də respublika prokuroruna göstəriş verdim. Respublika prokuroru qanunun həmin hissəsini sizin indiki mənafeyinizə uyğun olaraq dəyişdirmək barədə təkliflə Milli Məclisə müraciət etdi. Siz bunu bilirsiniz. Bu gün mən bir daha deyirəm ki, qanunun həmin hissəsi dəyişdirilməlidir. O təklif mənim təşəbbüsümlə verilibdir. Prokurora bunu mən tapşırmışam. Mən həmin məsələdən xəbərsiz idim. Bunu mənə müzakirə zamanı təhsil naziri Lidiya Rəsulova çatdırdı. Çərşənbə axşamı Milli Məclisin iclası olacaq və mən əminəm ki, Milli Məclis bu təklifi qəbul edəcəkdir. Bu məsələ də həll olunacaqdır.

Əlbəttə, bunlar bütün problemləri həll etmir. Mən bu görüşə bir az gecikdim. Ona görə ki, bizim rəhbər işçiləri yanıma çağırıb məsləhətləşirdim. Mən onlarla təxminən saat yarım məsləhətləşdim ki, daha nə etmək olar, nə kimi imkanlarımız var? Mən elə insan deyiləm ki, gəlib deyəm: bunu hökmən belə et, onu da belə. Mənimlə işləyən adamlar bilirlər ki, mən hər şeyi qanun çərçivəsində, imkan daxilində nəzərdən keçirir, məsləhətlə qərar qəbul edirəm. Yığışıb uşaqların məktəbdə yemək məsələsi, dərs ləvazimatı, aztəminatlı ailələrdən olan uşaqlara kömək göstərilməsi və bir sıra digər məsələlər barəsində söhbət etdik, məsləhətləşdik. Bütün bu məsələlərlə əlaqədar belə qərara gəldim və Maliyyə Nazirliyinə göstəriş verdim ki, məktəb problemlərinin, uşaqların və müəllimlərin məsələlərinin həlli üçün indi müzakirə olunan büdcədə 35 milyard manat əlavə vəsait tapsın. Bu 35 milyard manatın hansı məqsədlər üçün xərclənməsi barədə Təhsil Nazirliyi, Müəllimlər Şurası, Maliyyə Nazirliyi öz təkliflərini versinlər və biz həmin vəsaiti yaxın müddətdə məktəblərin, müəllimlərin, tələbələrin maddi vəziyyətini yaxşılaşdırmağa yönəldək. Bu da indiki görüşlə əlaqədar bir qərardır. Qaldı müəllimlərin məvacibinin verilməsinə, onu Milli Bankın prezidentindən öyrənərik, deyin görüm, onların məvacibi vaxtlı-vaxtında verilirmi? Deyə bilərsinizmi, hansı ay verilib, hansı ay yox?

Milli Bankın prezidenti: Yanvar ayının məvacibi verilib. Fevral ayının maliyyələşdirilməsinə isə başlanmışdır.

Heydər Əliyev: Mən sizə tapşırıram, başqa sahələr də təmin olunmalıdır, amma həm şəhərlərdə, həm də kəndlərdə müəllimlərin dekabr və yanvar ayları üçün məvacibləri təcili surətdə bir həftənin içində ödənilməlidir. Aydındırmı? Bir həftənin içində ödəyib, mənə şəxsən məlumat verməlisiniz!

İşğal olunmuş ərazilərdən qaçqın düşən müəllimlərin, habelə onların yerləşdirildiyi məktəblərin vəziyyətinə xüsusi diqqət yetirilməlidir. Ona görə də maliyyə nazirinə, Milli Bankın prezidentinə, təhsil nazirinə tapşırıram ki, məsələyə birlikdə baxsınlar, həmin müəllimlərin məvaciblərinin ödənilməsi gecikdirilirsə, belə hallar aradan qaldırılsın, onların maddi vəziyyətini müəyyən səviyyədə saxlamaq üçün əlavə nə kimi tədbirlər lazımdırsa həyata keçirilsin. Şübhəsiz ki, bunların hamısına Nazirlər Kabineti nəzarət etməlidir. Fuad Quliyev, Səməd Sadıqov, Elçin Əfəndiyev bu məsələləri nəzarət altında saxlamalıdırlar. Prezident Aparatından Fatma xanım Abdullazadə bu işlərə ciddi nəzarət etməlidir. Xahiş edirəm bu məsələyə də baxın. Mən indi konkret bir şey deyə bilmərəm.

Amma eşitdiyimə görə, həmin məktəblərin təminatında da çox gərginlik var, müəllimlərin məvacibləri də gecikdirilir. Xahiş edirəm bunu da nəzərə alın.

Bu gün sizin çıxışlarınızı, fikirlərinizi dinləyərkən mən belə qənaətə gəldim ki, əlavə tədbirlər görmək lazımdır. Fikirləşirəm ki, bəlkə biz Təhsil Fondu yaradaq. Siz bu təklifə necə baxırsınız?

Yerdən səslər: Təhsil Nazirliyinə Firudin Cəlilov rəhbərlik edərkən belə bir fond var idi.

Heydər Əliyev: İndi nə təhsil naziri Firudin Cəlilovdur, nə də Təhsil Fondu var. Belə hesab edirəm ki, keçmişdə nə olubsa, kim nə edibsə, bunlar bir kənarda qalsın. Biz Təhsil Fondu yaratmalıyıq. Fikirləşməliyik ki, bu fonda haradan vəsait toplayaq və vəsaiti nəyə sərf edək? Çıxış edənlərdən kimsə dedi ki, kommersiya strukturlarının gəlirindən 0,1 faiz ayrılıb məktəb üçün yönəldilsin. Ola bilsin ki, bu təklifdə də müəyyən bir əsas var. Amma məsələ tək bundan ibarət deyildir. Təhsil Fonduna müxtəlif mənbələrdən vəsait yönəltmək olar. Təhsilimizin problemlərini, çətinliklərini aradan qaldırmaq üçün dövlət büdcəsinin vəsaiti ilə yanaşı, Təhsil Fondunun vəsaitindən də istifadə etmək olar. Necə bilirsiniz? Yaxşımı olar? Onda mən Ramiz Mehdiyevə, Fatma Abdullazadəyə, Elçin Əfəndiyevə tapşırıram ki, Təhsil Fondu yaratmaq üçün təcili surətdə mənim fərmanımı hazırlasınlar. Bəri başdan deyirəm, sərəncam verirəm ki, bu fonda Prezident Fondundan 10 milyard manat köçürülsün. 10 milyard manat!

Hesab edirəm ki, biz Təhsil Fondunu lazımi səviyyədə təşkil edə bilsək, onun başqa mənbələrdən maliyyələşdirilməsini təmin etsək, onda bu

fondun geniş imkanları olar və o, təhsilin, məktəbin, müəllimlərin çətinliklərinin aradan qaldırılmasında bir vasitəyə çevrilər. Mən bu qərarı qəbul etdim və indi sadəcə olaraq fərmanı hazırlayıb mənə vermək lazımdır. Təhsil Fondunun hüquqi cəhətlərini işləməyi Şahin Əliyevə tapşırıram. Buna baxmayaraq, mən bu fondun əsasını qoyaraq 10 milyard manat ayırıram.

Burada çıxış edənlər təklif verdilər ki, keçmişdəki kimi yenə də yerli hakimiyyət orqanları məktəblərə, uşaq bağçalarına və digər uşaq tərbiyə ocaqlarına qayğı göstərsinlər, lazımi işlər görsünlər. Zənnimcə, bu da məqsədəuyğun təklifdir. Təhsil Fondu haqqında mənim fərmanımda belə bir bənd də ola bilər ki, şəhər, rayon icra hakimiyyəti orqanlarına bu barədə tapşırıq verilsin. Amma bunu fərmanda rəsmiləşdirmək lazımdır. Qoy onlar kömək etsinlər. Şübhəsiz ki, icra hakimiyyəti orqanları da büdcə hesabına yaşayırlar. Amma hər bir rayonun, hər bir şəhərin ərazisində geniş imkanlar var, özəl sektor da imkanlara malikdir. Bu imkanlardan istifadə etməklə təhsil ocaqlarının bəzi çətin problemlərini aradan qaldırmaq mümkündür. Ona görə gərək bu işdə də bir sistem yaradaq. Məncə bu da vacibdir.

Mən bu qərarları qəbul etdim və düşünürəm ki, bunların hamısı qəbul olunduğu andan həyata keçirilməlidir. İndi iş sizdən, yəni Nazirlər Kabinetindən, Prezident Aparatından, Təhsil Nazirliyindən, Müəllimlər Şurasından, müəllimlərdən və ictimaiyyətdən asılıdır. Bir tərəfdən, çalışmalısınız ki, mənim qəbul etdiyim bu qərarlar təcili olaraq həyata keçirilsin və onlardan səmərəli istifadə edilsin. Digər tərəfdən isə, bizim bu görüşümüzdən istifadə edərək, ictimaiyyətin diqqətini bir daha məktəbə, müəllimin həyatına, tələbənin həyatına qayğının artırılmasına cəlb etmək lazımdır. Hesab edirəm ki, bizim səsimizə səs verəcəklər və məktəb, müəllim indiyədək olduğu kimi, bundan sonra da həm dövlətin, həm də ictimaiyyətin diqqət mərkəzində, qayğısı altında olacaq. Əminəm ki, biz bu çətinliklərdən çıxacağıq.

Dövlətçiliyimiz haqqında, mənim fəaliyyətim haqqında bu gün burada dediyiniz sözlərə görə minnətdaram və bildirmək istəyirəm ki, mənim bütün fəaliyyətim yalnız və yalnız Azərbaycan xalqını bu ağır vəziyyətdən çıxarmağa həsr olunmuşdur və bundan sonra da buna həsr ediləcəkdir. Həyatda mənim məqsədim, amalım ancaq bundan ibarətdir və bu sahədə bütün cəmiyyətimizin, bütün xalqın həmrəy olmasını arzuladığımı bir daha bildirirəm və xalqımızı, cəmiyyətimizi bu həmrəyliyə dəvət edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu sahədəki fəaliyyətimdə müəllimlərə, təhsil sahəsinin bütün işçilərinə bel bağlaya bilərəm, onlar dövlətçiliyimizin dayağı olacaqlar.

Sağ olun, gələn görüşlərədək!

GÖRKƏMLİ TÜRK ALİMİ İHSAN DOĞRAMACININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ ÇIXIŞ*

Azərbaycan Dövlə Opera və Balet Teatrı
25 aprel 1995-ci il
Əziz dostumuz, qardaşımız İhsan Doğramacı!

80 illik yubileyiniz münasibətilə Sizi Azərbaycan xalqı, dövləti, bütün vətəndaşlarımız adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm, Sizə cansağlığı, üzün ömür, gələcək fəaliyyətinizdə böyük uğurlar diləyirəm.

Sizin 80 illik yubileyiniz Türkiyədə təntənə ilə başlayıb, Ankarada böyük mərasimlər keçirilib. Ancaq dəfələrlə dediyiniz kimi – və bizim də fikrimiz eynidir – Sizin vətəniniz eyni zamanda Azərbaycandır. Ona görə də bu yubiley təntənələri bir aydır ki, davam edir və yeni mərhələ Azərbaycandır, Bakıdır.

Yubileyiniz Ankarada təntənə ilə qeyd olunanda mən Sizə müraciət etdim. Sizi Azərbaycana, Bakıya təşrif gətirməyə dəvət etdim ki, 80 illik yubileyinizi ölkəmizdə də qeyd edək. Bu gün Sizə təşəkkür edirəm ki, mənim dəvətimi qəbul etmisiniz, Azərbaycana, öz vətəninizə, öz torpağınıza gəlmisiniz. Azərbaycan xalqı, Sizin həmvətənləriniz, soydaşlarınız Sizi görür, Sizinlə görüşür, Sizə öz ürək sözlərini deyir və Azərbaycanın qədim, çox əzəmətli, eyni zamanda çox hörmətli mədəniyyət ocağı olan Opera və Balet Teatrında Sizin yubileyinizi qeyd edir.

Siz böyük həyat yolu keçmisiniz, həyatınız yaradıcılıq, quruculuq yoludur.

Sizin həyatınız nadir bir şəxsiyyətin həyat yoludur. Fitri istedadınızla, eyni zamanda böyük fədakarlığınızla, zəkanızla, ağlınızla Siz bu həyat yolunu şərəflə, müvəffəqiyyətlə keçmisiniz, böyük izlər qoymusunuz, böyük əsərlər yaratmısınız. Siz xalqınıza, vətəninizə, torpağınıza böyük xidmətlər göstərmisiniz. Məhz buna görədir ki, həm öz vətəninizdə, həm də vətəninizin hüdudlarından kənarda – bütün dünyada, dünyanın ən böyük ölkələrində hörmət, ehtiram qazanmısınız. İndi Siz 80 illik həyat yolunu yekunlaşdırarkən nə qədər böyük işlər gördüyünüz həm özünüz tərəfindən, həm də Sizi tanıyanlar tərəfindən böyük məmnuniyyətlə qəbul olunur.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. B., Azərnəşr, 1997, s. 389-391

Sizin həyat və yaradıcılığınız haqqında burada danışdılar. Bunu genişləndirmək də, ona əlavələr də etmək olar. Ancaq güman edirəm ki, indi buna ehtiyac yoxdur. Çünki, yenə də deyirəm, Sizin gördüyünüz işlər, xidmətləriniz əsrlər boyu unudulmayacaqdır. Sizin həyatda qoyduğunuz izlər daim yaşayacaqdır. Elmdə, mədəniyyətdə, səhiyyədə, ictimai-siyasi fəaliyyətdə Siz ən yüksək zirvələrə qalxmısınız. Bütün bunlar Sizin üçün böyük şəxsi nailiyyətdir. Bütün bunlar türk xalqı, Türkiyə üçün, Azərbaycan xalqı, respublikamız, dövlətimiz üçün və bütün türkdilli xalqlar üçün böyük iftixar mənbəyidir. Biz Sizin bu həyat yolunuzla, yaradıcılığınızla, gördüyünüz işlərlə fəxr edirik. Fəxr edirik ki, bizim belə böyük həmvətənimiz var. Fəxr edirik ki, belə bir insan türk millətinə mənsubdur. Fəxr edirik ki, belə bir insan Azərbaycana mənsubdur. Fəxr edirik ki, belə bir insan bizim doğma Azərbaycan torpağına mənsubdur.

Bütün həyat yolunuza görə, böyük fəaliyyətinizə görə mən Sizə Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti adından təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Siz bundan sonra da dünya xalqları üçün, dünyada sülh və əmin-amanlıq, tərəqqi üçün, eyni zamanda Türkiyə Cümhuriyyəti üçün, Azərbaycan Respublikası üçün, türkdilli bütün xalqlar üçün böyük işlər görəcəksiniz. Mən buna tam əminəm.

Bu gün Sizin yubileyinizi qeyd edərkən mən bir xüsusiyyətə toxunmaq istəyirəm. Sizi hər yerdə – Türkiyədə də, Avropada da, Amerikada da sevirlər. Sizi fədakar əməyinizə görə, ağlınıza, zəkanıza görə sevirlər. Sizi dünya mədəniyyətinə, elminə böyük töhfələr verdiyinizə görə, onu zənginləşdirdiyinizə görə sevirlər. Sizi həm də böyük insan olduğunuza görə, geniş qəlbinizə görə sevirlər. Azərbaycanda isə Sizi hədsiz dərəcədə sevirlər. Yəqin ki, bu günlər özünüz bunun şahidi oldunuz.

Azərbaycan xalqı Sizi bax, belə sevgi ilə, belə məhəbbətlə, hörmətlə qarşılayır, Sizi qucaqlayıb öpür, Sizi gözünün üstündə qəbul edir. Bu hörmətlə, sevgi ilə, bu məhəbbətlə mən Sizi bir daha təbrik edirəm. Sizə uzun illər ömür arzulayıram və əminəm ki, Siz bundan sonra da böyük işlər görəcəksiniz.

Mənim əziz dostum, qardaşım, yüz yaşa çatasan, yüz ildən də o tərəfə keçəsən. Əminəm ki, bu olacaqdır. Bir də təbrik edirəm, cansağlığı, xoşbəxtlik arzulayıram...

Azərbaycanda incəsənət xadimləri, mədəniyyət işçiləri çox fəaldırlar. Siz onların bir hissəsini Bilkəndə öz yanınıza aparmısınız, onlar orada çalışırlar, Sizinlə bərabər işləyirlər. Bu, yaxşı bir haldır. Bizim bir rəssamımız Sizin rəsminizi çəkib. Güman edirəm ki, bu, dəyərli bir rəsmdir. Yubiley münasibətilə mən onu Sizə təqdim edirəm.

1992-ci İLDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ İŞLƏYƏRKƏN HEYDƏR ƏLİYEVƏ «SƏS» QƏZETİ VASİTƏSİLƏ MÜRACİƏT ETMİŞ AZƏRBAYCAN ZİYALILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ*

Prezident Sarayı
9 sentyabr 1995-ci il
Əziz və hörmətli dostlar!

Bu gün biz qeyri-adi bir görüş keçiririk. Mən bu şənbə günü sizi istirahətinizdən ayırmışam və bura dəvət etmişəm. Təxminən üç il bundan əvvəl baş vermiş bəzi hadisələri yada salmaq, xatırlamaq üçün. Eyni zamanda üç il bundan əvvəl Azərbaycanın bu günü, gələcəyi haqqında düşünən adamların bir qisminin o vaxtkı təşəbbüslərinin zaman keçəndən sonra cəmiyyətimiz, xalqımız, millətimiz üçün nə qədər əhəmiyyətli olduğuna bir daha (mən «bir daha» deyirəm, çünki bu barədə öz fikirlərimi daim demişəm) qiymət vermək və bu barədə düşündüklərimi söyləmək üçün.

Bura dəvət olunan şəxslər 1992-ci ildə Azərbaycanın, respublikamızın həyatında ağır proseslər getdiyi zaman mənə çox müraciət edən Azərbaycan vətəndaşlarının bir qrupudur. Məlumdur, amma mən bunu qeyd etməliyəm ki, 1987-ci ildə mən Moskvada işləyərkən o vaxtkı Siyasi Büronun üzvlüyündən, Sovetlər İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefaya gedəndən sonra həyatımda, mənim üçün doğma, əziz olan Azərbaycan Respublikasının, xalqımızın həyatında çox böyük dəyişikliklər əmələ gəldi.

O vaxtlar mən Moskvada yaşayarkən, demək olar ki, cəmiyyətdən tamamilə təcrid edilmiş bir vəziyyətdə olduğum dövrdə Azərbaycanla, doğma xalqımla daim maraqlanırdım və onun qayğıları ilə yaşayırdım. Onun keçirdiyi çətin proseslər məni narahat edir, incidirdi. O vaxtkı şəraitə görə etdiyimdən artıq bir şey edə bilmirdim. Ancaq bəzi şeylər də edirdim.

Məlumdur ki, sonra 20 Yanvar faciəsi baş verdi. Xalq çox hiddətləndi. 1990-cı il yanvarın 20-də xalqımıza qarşı çox qatı hərbi, siyasi təcavüz oldu. Xalqımıza böyük zərbə vuruldu. Cəmiyyətdə böyük

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab. B., Azərnəşr, 1997, s.241-269

canlanma əmələ gəldi. O zaman mən də kənarda qalmadım, öz sözümü dedim, münasibətimi bildirdim. O vaxta qədər mənim Azərbaycana qayıtmaq fikrim yox idi. Bunu sizə açıq demək istəyirəm. Şübhəsiz ki, mən Azərbaycanın həsrəti ilə yaşayırdım. Ancaq hesab edirdim ki, mən artıq siyasi fəaliyyətdən kənardayam, Moskvada yaşayıram, – nə qədər ağır, çətin olsa da, orada yaşayıram. Belə hesab edirdim ki, qayıtmağa can atmağa ehtiyac da yoxdur. Şübhəsiz ki, ürəyim istəyirdi və başqa cür də ola bilməzdi.

20 Yanvar faciəsi məni dəhşətə gətirdi, çox həyəcanlandırdı. Mənə qarşı olan bütün təzyiqlərə, təqiblərə baxmayaraq, həyatım və ailəm üçün yaranmış təhlükəyə baxmayaraq, mən artıq siyasi fəaliyyətə qoşuldum. O mənada yox ki, bir siyasi mövqe, vəzifə tutum. Sadəcə – kənarda qalmamaq üçün. Bir də ona görə yox ki, kənarda qalmağım mənim üçün pis olar. Ona görə ki, hiss etdim ki, mənim sözümə, fikrimə Azərbaycan xalqının indiki bu ağır dövründə böyük ehtiyacı var. Məhz buna görə, başqa məqsədə görə yox.

O vaxt mən Azərbaycana gəlməyə çox can atdım. Hər vəchlə mənim qarşımı aldılar, çox maneələr törətdilər, hətta bunu mənə qadağan etdilər, inzibati təzyiq tədbirlərinə əl atdılar. Buraya gəlməyimi nə Sovetlər İttifaqının o vaxtkı rəhbərliyi istəyirdi («istəyirdi» demək olmaz, buna qəti etiraz edirdi), eyni zamanda Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyi buna etiraz edirdi. Tək etiraz deyil, onlar birlikdə bütün tədbirləri görürdülər ki, məni insan hüquqlarından məhrum etsinlər. O vaxt mən adi bir vətəndaş idim. Şübhəsiz, vətəndaş kimi istədiyim yerə. gedə bilərdim. Axı, mən xaricə getmək istəmirdim. Sovetlər İttifaqı dövlət idi, onun daxilində istədiyim yerə gedə bilərdim, o cümlədən doğulduğum, yaşadığım, işlədiyim vətənimə də qayıda bilərdim. Ancaq onlar mənim hüquqlarımı tamamilə pozdular, dağıtdılar, tapdaladılar.

Mənim cəhdlərim bir neçə ay nəticə vermədi və bir sıra inzibati tədbirlərlə mənim Azərbaycana gəlməyimin qarşısını aldılar. Ancaq mən öz niyyətimdən əl çəkmədim, çalışdım, mübarizə apardım. O vaxtdan sonra mən mətbuatda – Moskva mətbuatında, xarici ölkələrin mətbuatında, informasiya orqanlarında açıq bəyanatlar verdim, fikirlərimi bildirdim. Faktiki olaraq 1990-cı ilin 21 yanvarında mən Kommunist Partiyasını mənən tərk etdim və açıq mübarizəyə başladım. Bu mübarizə şəxsən özümə yeni bir vəzifə almaq üçün deyildi. Sadəcə, görürdüm ki, xalq ağır vəziyyətdədir, respublikanın rəhbərləri xalqa xəyanət edirlər, xalqın ziyalı, dəyərli adamları ayağa qalxıblar, ancaq onları boğurlar. Hesab etdim ki, burada mənim səsim onların səsinə güc verə bilər. Beləliklə də biz bu ağır vəziyyətdə xalqımızı, onun milli mənliyini, mənəviyyatını qoruya bilərik.

Bütün bu cəhdlərin qarşısının alınmasına baxmayaraq, 1990-cı ilin yayında mən təyyarə ilə Bakıya uçmaq üçün çox ciddi bir addım atdım. Qarşıma qoyulan o inzibati tədbirlər nəticə vermədi. O vaxt burada çox böyük bir cinayət, sui-qəsd etdilər. «Azərnəşr»in direktoru Əjdər Xanbabayev o zaman vaxtaşırı mənimlə telefon əlaqəsi saxlayan şəxs idi. Adi bir adam idi. Burada oturanların çoxları kimi, nə vəzifə sahibi idi, nə də mənim vaxtımda bir vəzifə almış adam idi. Adi ziyalı, vətənpərvər bir adam idi. Burada işlədiyim vaxtda mənimlə heç bir şəxsi münasibəti olmayan bir adam idi. Ancaq sadəcə olaraq Vətənə ürəyi yandığına görə, görünür, daxili mənəviyyatı çox yüksək olduğuna görə o mənimlə vaxtaşırı əlaqə saxlayırdı. Onu burada vəhşicəsinə qətlə yetirdilər, öldürdülər. Bu hadisə mənim buraya gəlməyimdən bir gün əvvəl oldu: mən Bakıya uçmalı idim, ondan bir gün əvvəl onu burada qətlə yetirdilər.

Təəssüf ki, bundan beş il keçsə də, bu cinayət hələ açılmayıb. Ancaq indi, güman edirəm ki, istintaq orqanları bu cinayətin açılmasına çox yaxın bir mərhələdədirlər. Əminəm ki, bu cinayət açılacaq, cinayətkarlar da tamamilə aşkar olunacaqlar.

Bu adamın vəhşicəsinə qətlə yetirilməsi şübhəsiz ki, mənə ağır təsir etdi, bir insan kimi məni çox sarsıtdı. Ancaq eyni zamanda məni daha da ruhlandırdı ki, əgər belə adi insanlar öz amalına görə özünü qurban verə bilirlərsə, demək, Azərbaycanda bələləri az deyil. Demək, xalqımız öz milli mənliyini itirməyibdir və mən bu fəaliyyətimi davam etdirməliyəm.

Bunun üstündən bir müddət keçəndən sonra yenə də böyük çətinliklərlə mən nəhayət, Bakıya gəldim. Vaxtınızı almaq istəmirəm, bunlar hamısı məlumdur. Məni Bakıda .yaşamağa qoymadılar, Naxçıvana getdim. Mən hesab etdim ki, doğulduğum, gəncliyimi yaşadığım torpaqda – Naxçıvanda həyatımı sona çatdıracağam. Ancaq orada Naxçıvanın əhalisi, xalq mənə çox böyük qayğı göstərdi. Mənə böyük hörmət etdilər və parlament seçkiləri zamanı – 1990-cı ilin sentyabr ayında mənim Azərbaycan və Naxçıvan parlamentlərinə seçilməyim haqqında cürbəcür təşəbbüslər etdilər.

Doğrudur, mən gedib orada evdə sakit oturmamışdım. Mən o vaxt çoxlu görüşlərə gedirdim, yanvar faciəsi ilə əlaqədar, Azərbaycanın müstəqil olması üçün, ölkəmizin milli azadlığı haqqında, Ermənistanın Azərbaycana təcavüzü və bu təcavüzün qarşısını almaq üçün Azərbaycanın lazımi tədbirlər görməməsi barədə öz fikirlərimi söyləyirdim. O vaxtlar mənim fikirlərim çox təsirli idi. Mən xalqla əlaqədə idim. Demək olar ki, o vaxt Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində, böyük şəhərlərində, kəndlərində oldum, insanlarla görüşdüm. Bu görüşlər onlar üçün böyük dayaq, mənim üçün də bır təsəlli oldu. Hər

halda mən uzun müddət təcrid olunduğum bir vəziyyətdən çıxdım.

Nəhayət, məni həm Naxçıvan Muxtar Respublikasının, həm də Azərbaycan Respublikasının parlamentinə deputat seçdilər. Mənim parlamentdəki çıxışlarım da, mənə qarşı olan ədalətsiz hərəkətlər, təhqirlər də məlumdur. Hər halda hesab edirəm ki, o vaxtlar Naxçıvan Muxtar Respublikasında milli azadlıq hərəkatım qaldırmaq üçün, müstəqillik barədə fikirləri möhkəmləndirmək üçün orada milli azadlıq arzusunda olan insanlarla bərabər biz çox iş gördük. O vaxt Naxçıvan Azərbaycana çox böyük bir örnək oldu, çox təsir etdi. Bunlar da hamısı sizə məlumdur. Mən sadəcə olaraq əsas mövzuya gəlmək üçün bunları bir balaca xatirinizə salıram.

Kommunist Partiyası dağılandan sonra və Sovet İttifaqı artıq dağılmaq ərəfəsində ikən – 1991-ci ilin yayında mən bir müddət Moskvada yaşadım. Sonra buraya gəldim. Moskvadakı qiyam barədə Bakıda eşitdim. Mən Naxçıvana getdim. Muxtar respublikanın, Naxçıvanın əhalisi meydanlara toplaşdı – on minlərlə, biri deyirdi 60 min, biri deyirdi 70 min adam, demək olar ki, əhalinin əksəriyyəti mənim Ali Məclisə sədr seçilməyimi tələb etdi. Mən də buna razılıq verdim. Orada da mən buna əvvəlcə çox müqavimət göstərirdim, istəmirdim. Razılığımın səbəbi o oldu ki, Naxçıvan ağır vəziyyətdə idi, ona kömək etmək lazım idi. Bu da mənim borcum idi. Şübhəsiz ki, kənarda duran bir adam kimi, mən bu köməyi edə bilməzdim. Ancaq həmin vəzifəni üzərimə götürəndən sonra bu köməyi etməyə imkanlarım oldu və işlər də gördük.

Sonra Xalq Cəbhəsi hakimiyyətə gəldi və onun hakimiyyətə gəlməsinə mən bir siyasi xadim kimi dəstə k verdim, bir şəxs kimi kömək etdim. Ancaq onların da hakimiyyət dövrü nə cür oldu, nə təhər oldu – sizə məlumdur. Bilirsiniz ki, 1992-ci ildə Ayaz Mütəllibov hakimiyyətdən gedəndən sonra burada çox proseslər cərəyan edirdi. Burada prezident seçkiləri təyin olunmuşdu. Böyük-böyük qruplar mitinqlər keçirirdilər ki, o vaxtlar konstitusiyada qoyulmuş yaş həddi götürülsün və Heydər Əliyev də prezidentliyə namizədliyini verə bilsin. Düzdür, mənim onlarla heç bir əlaqəm yox idi. O mitinqdə iştirak edənlərin bəziləri indi buradadırlar, mən bunu tam səmimi olaraq deyirəm, heç bir əlaqəm yox idi. Naxçıvanda televiziya o qədər də normal işləmirdi, bu məlumatları biz çox gec alırdıq. Bəzən hamısını da ala bilmirdik, ancaq qulağıma dəyirdi. Mənim yanıma çox adamlar gəlirdi, belə məsələlər haqqında məlumatlar verirdilər. Mənimlə söhbət edənlərin – o cümlədən burada iştirak edənlərin çoxu mənim yanıma gəlirdi – hamısına deyirdim ki, siz bunları nahaq edirsiniz, mən nə prezident olmaq fikrindəyəm, nə Azərbaycanın rəhbərliyinə qayıtmaq fikrindəyəm, nə də Bakıya dönmək fikrindəyəm.

Mən yalnız və yalnız Naxçıvanda yaşayıram və əlimdən gələni edirəm ki, Naxçıvan blokada şəraitindən, bu ağır vəziyyətdən çıxsın.

1992-ci ilin mayında burada parlamentin sədri seçilirdi. O vaxt bu məsələlər parlamentdə də qaldırıldı. Mən buna da tamamilə etiraz etdim. Yəni məndən soruşan olmadı, ancaq mən özüm buraya gəlməyimi, parlamentə sədr seçilməyimi heç lüzumlu hesab etmirdim. O təkliflərlə, orada təşəbbüs qaldıranlarla da mənim qətiyyən heç bir əlaqəm yox idi.

Təəssüf ki, həmin gündən bir gün qabaq Naxçıvanla Ermənistan arasında hərbi münaqişə başladı. Onun səbəbləri mənə məlumdur ki, bunu kim, nə üçün etmişdi. Biz orada şəhidlər verdik, qurbanlar verdik, Naxçıvanın ərazisini Ermənistan silahlı qüvvələrinin hücumundan qorumaq üçün 40 gün müharibə apardıq.

Sonra, 1992-ci ilin payızında mənim yanıma cürbəcür xahişlərlə, tələblərlə adamlar gəlirdi ki, siz Bakıya gəlməlisiniz, respublikanın siyasi həyatında iştirak etməlisiniz, Azərbaycanda vəziyyət ağırdır. Mən bunun zəruriliyini hiss edirdim. Ancaq burada proseslər o qədər gərgin idi və cürbəcür iddiada olan adamlar o qədər çox idi ki, mən sadəcə olaraq özümü o səviyyəyə endirmək, gəlib bu işlərlə məşğul olmaq istəmirdim. Tam səmimiyyətlə sizə deyirəm ki, mənim yenidən Bakıya qayıtmaq fikrim yox idi. Bir tərəfdən ürəyimdə daxili inciklik var idi, ikinci tərəfdən isə hesab edirdim ki, indi yeni meydana gəlmiş siyasətçilər var, qoy Azərbaycanın işlərini onlar aparsınlar, onlara imkan vermək lazımdır.

Ancaq buna baxmayaraq, mənim yanıma, Naxçıvana qruplarla ayrı-ayrı adamlar gəldilər, çox xahişlər etdilər. Burada oturanların çoxu şahiddir ki, mən hər dəfə onları çox mehriban qarşılayıb, ətraflı söhbət edib, onlara öz təşəkkürümü bildirib, hər dəfə də demişdim ki, çox sağ olun, sizin bu münasibətinizdən mən çox məmnunam, ancaq mən bu təkliflərin heç biri ilə razı deyiləm, bunların heç birini qəbul etmirəm və qəbul etməyəcəyəm.

1987-ci ilin sonundan, demək olar ki, 1988-ci ildən mənə qarşı ədalətsizlik, böhtançılıq kampaniyası başlanan zamandan mən şübhəsiz ki, mənəvi əzab çəkirdim. Ayrı-ayrı adamların, şəxslərin, ziyalıların gəlib Naxçıvanda məni ziyarət etmələri, mənimlə görüşmələri, söhbət etmələri mənim üçün xoş bir hal idi. Mənəvi təskinlik idi. Ona görə ki, təəssüflər olsun, çoxları – mənimlə bərabər işləmiş, uzun müddət mənimlə əməkdaşlıq etmiş, mənim rəhbərliyim altında yaşamış, inkişaf etmiş, vəzifələrdən-vəzifələrə çıxmış adamlar ya məni unutdular, ya da bəziləri o böhtançıların tərəfinə keçdilər.

Belə bir şəraitdə yanıma gələn adamların çoxunu mən keçmiş zamanlarda tanımırdım. Gəlirdilər, özlərini təqdim edirdilər, özləri

haqqında məlumat verirdilər. Onları qəbul edirdim və tam səmimiyyətlə demək istəyirəm ki, bundan məmnun olurdum. Çünki təsəvvür edin, mənəvi cəhətdən çox ağır vəziyyətdə yaşayan insan – cəmiyyətdən təcrid olunmuş, bəzi adamların xəyanətkarlığını, nankorluğunu görən insan bir də baxır ki, qapı açılır, heç gözlənilmədən, tanımadığı bir adam gəlib özünü təqdim edir və öz münasibətini bildirir. Şübhəsiz ki, dara düşən hər bir adam üçün, o cümlədən mənim üçün bu, müsbət hadisədir. Ancaq yenə də deyirəm, mən bu təkliflərin heç birisini qəbul etmirdim.

Son zamanlar ən çox Sirus Təbrizli gəldi, uzun müddət Naxçıvanda yaşadı. Hətta mən gördüm ki, o istəyir Naxçıvanda ümumiyyətlə bizimlə bərabər yaşasın. Dəfələrlə mənim yanıma gəldi. Tək öz adından yox, çox böyük ziyalı qrupu adından mənimlə söhbət apardı ki, mən Bakıya gəlməliyəm. Mən hər dəfə ona çox səmimiyyətlə deyirdim ki, dediyin sözlərin hamısı əsaslıdır, ancaq mən indi bu təklifləri qəbul edə bilmərəm.

Nəhayət, mənim üçün gözlənilmədən «Səs» qəzetində Sirus Təbrizlinin böyük bir müsahibəsi çıxdı. Gətirdilər Naxçıvanda mən o müsahibəni oxudum. Şübhəsiz ki, bu, mənə görə yox, respublikanın həyatından narahat olduğuna görə yazdığı çox səmimi bir müsahibə idi – Sirus Təbrizli: Heydər bəyi biz çağırmalıyıq. Qəzetin 1-ci, 2-ci, 3-cü səhifələri, bəlkə də 4-cü səhifəsi də, bəli, qəzetin nömrəsi bütünlüklə buna həsr olunub.

Mən bu müsahibəni çox məmnuniyyətlə oxudum. Sirus Təbrizlinin bu cəsarətli hərəkətinə, ədalətli mövqeyinə çox yüksək qiymət verdim. Bundan sonra, xatirimdədir, Sirus Təbrizli ora gəldi. Mən ona yenə dedim ki, çox sağ ol, bunu yazmısan. Ancaq mən heç bir şeyi qəbul edə bilmərəm.

Yeri gəlmişkən, mən «Səs» qəzeti haqqında demək istəyirəm. Bilirsiniz ki, Azərbaycanda qəzetlər çoxdur. Mən bu gün «Səs» qəzetinə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Mən 1991-ci il fevralın əvvəlində Azərbaycan parlamentinin birinci sessiyasında çıxış etdim, sizə məlumdur. Mənim çıxışımı heç kəs dərc etmək istəmirdi. O vaxt «Aydınlıq» qəzeti və onun müxbiri Mahal İsmayılov – mən onu da çox minnətdarlıqla xatırlayıram. İki il burada olduğum müddətdə çox çalışmışam onunla görüşüm, təəssüf ki, görüşə bilməmişəm, – o mənim yanıma, yaşadığım evə gəldi. Xahiş etdi ki, çıxışımın mətnini ona verim, dərc etsinlər. Mənim bu çıxışımı ilk dəfə «Aydınlıq» qəzeti tamamilə dərc elədi. Mənim üçün lazım idi ki, ictimaiyyət, əhali çıxışımı olduğu kimi oxusun. Çünki o vaxt rəsmi qəzetdə bu çıxış olduğu kimi verilməmişdi – bir hissəsi verilmişdi, bir hissəsi verilməmişdi. Mən istəyirdim ki, bu çıxış olduğu kimi, necə var elə də verilsin. Özü də mənim çıxışım əvvəldən yazılmış çıxış deyildi. O vaxt Moskvadan gətirdiyim bir diktofonum var idi. Naxçı-

vandan olan bir deputatla bir yerdə otururduq. Həmin diktofonu ona verdim, dedim ki, mən ora gedəndə, sən bunun düyməsini bas mən çıxışı qurtaranadək yaz ki, sonra mən onu götürə bilim. Mən hər şeyi sizə açıq danışıram. O da bunu çox yaxşı elədi. Bu adam indi gərək ki, haradasa polis rəisidir. Naxçıvandan deputat idi – Allahverdi Həsənov. O vaxt salonda oturarkən çoxları mənə yaxın gəlmirdilər, bu isə həmişə mənim yanımda otururdu və sübut etmək istəyirdi ki, mənim yanımda oturub. Çox sağ olsun. Bəzən rəyasət heyətinə qeydlərimi də ona verirdim və deyirdim ki, apar ver. Onu da edirdi. Çox yaxşı xidmət edirdi.

Ona görə də mənim çıxışımı sonra gətirib kağıza köçürmüşdük. «Aydınlıq» qəzeti bu çıxışı verdi. Onda mənim «Səs» qəzetindən xəbərim yox idi.

Xatirinizdədir ki, ondan bir ay sonra, mart ayının əvvəlində Sovetlər İttifaqının saxlanılması haqqında referendum barədə bir sessiya oldu. Mən orada çox kəskin çıxış etdim ki, Sovetlər İttifaqı dağılır, o saxlanıla bilməz... «Aydınlıq» qəzeti birinci dəfə çıxışımı dərc etdiyinə görə mən hesab etdim ki, indi bunu da dərc edəcəkdir. Mən o vaxt «Aydınlıq» qəzetinə müraciət etdim ki, siz bir yaxşı iş görmüsünüz, bunu da dərc edin. Mən hər şeyi olduğu kimi deyirəm... Xidmətlərini də deyirəm... «Aydınlıq» qəzeti ikinci dəfə bunu dərc etmədi: «Yox, olmaz, mümkün deyil, birinci dəfə dərc edəndən sonra bizi sıxdılar, əzdilər» və sair.

«Səs» qəzetinin nümayəndəsi özü mənim yanıma gəldi ki, bəs, sizin çıxışınız var? Dedim ki, var. Verə bilərsiniz? Verə bilərəm. Verdim apardılar, dərc etdilər. Bax, o vaxtdan mənim həyatım bu «Səs» qəzeti ilə bağlanıb. Ona görə «Səs» qəzetinə mənim xüsusi hörmətim var. Bu qəzetin təsisçisi Fərəməz Maqsudovdur. Fərəməz Maqsudov o vaxt «Əlincə» cəmiyyəti yaratmışdı. «Əlincə» cəmiyyəti də bu qəzeti buraxırdı. Mən o vaxtdan bu «Səs» qəzeti ilə bağlıyam. İndi bugünkü danışığımızın mövzusu olan məsələlərin hamısı o vaxt «Səs» qəzetində dərc olunmuşdur. Sirus Təbrizlinin həmin bu böyük müsahibəsi «Səs» qəzetində dərc olundu və bundan sonra «Səs» qəzeti ilə bizim əməkdaşlığımız sonadək davam etdi.

Mən dedim ki, Sirus Təbrizli gəldi, bu müsahibəsini təqdim etdi, danışdıq, mən təşəkkürümü bildirdim. Ancaq yenə də dedim ki, çox sağ olun. Mən heç bir şeyi qəbul etmirəm. Çünki burada yazılmışdı ki, Heydər bəyi biz çağırmalıyıq. Mən dedim ki, çağırırsınız çağırın, ancaq mən yerimdən tərpənən deyiləm, sağ olun. Şübhəsiz ki, burada, Azərbaycanda məni çağırmaq istəyən bir Sirus Təbrizli deyildi, çoxları idi. Mən o vaxt nəinki Bakıdan, digər şəhərlərdən, rayonlardan, qəsəbələrdən də məktublar alırdım. O məktubların bəzilərini poçtlarda saxlayırdılar, buraxmırdılar, – mən bunu bilirdim, amma bəziləri də gəlib çatırdı.

Bir müddətdən sonra «Səs» qəzetində Azərbaycanın bir qrup ziyalısının mənə müraciəti dərc olundu. Bu da mənim üçün gözlənilməz bir şey idi. «Azərbaycan sizin sözünüzü gözləyir» müraciətini 91 nəfər ziyalı imzalayıbdır. Mən bu müraciəti də, imza atanların adlarını, familiyalarını da oxudum. Çoxunu mən tanıyıram. Amma bir çoxunu, mən səmimi deyirəm, həqiqətən şəxsən tanımıram. Bu siyahının xarakterik cəhəti nədən ibarətdir? Ondan ibarətdir ki, bu siyahıda olan adamların əksəriyyəti şübhəsiz, ziyalılardır. Amma əksəriyyəti heç bir vəzifə tutmayan adamlardır və mən burada işləyən vaxtda da, yəni mənim dövrümdə bir vəzifə, imtiyazlar alan adamlar deyillər. Bunlar özləri öz əməyi ilə yaşamış, işləmiş adamlardır. Ancaq görünür, respublikanın həyatı üçün çox ürəyi yanan adamlardır. Eyni zamanda cəsarətli adamlardır. Onlar o vaxt – Naxçıvana qarşı, şəxsən mənə qarşı böyük təzyiqlər olduğu zaman belə bir məktuba imza atmışlar.

Bu, 1992-ci il oktyabr ayının əvvəlində olmuşdu. O vaxt Naxçıvana qarşı təzyiq doğrudan da çox böyük idi. Sizə düzünü deyim, bəzən fikirləşirdim: bəlkə mən Naxçıvandan çıxıb gedim ki, Naxçıvana qarşı bu təzyiq azalsın? Amma ölçürdüm-biçirdim ki, bəlkə mən gedəndən sonra Naxçıvan daha da pis vəziyyətə düşə bilər. Yəni mən özümü, necə deyərlər, qurban verməyə də hazır idim. Moskvaya dönmək mənim üçün çətin idi. Başqa bir yerə getmək imkanı axtarırdım ki, bəlkə Naxçıvandan çıxım gedim. Niyə? 1990-cı ildə ki, Naxçıvana gəldim, orada xalq məni qarşıladı. O vaxt burada Azərbaycanın rəhbərliyi – mənim vaxtilə yetişdirmələrim. mənim vaxtımda işləmiş adamlar mənə görə Naxçıvana qarşı mənfi hərəkətlər etməyə, Naxçıvanı blokadaya salmağa və sair hallara başladılar. O vaxt Afiyəddin Cəlilov Naxçıvanda həm Vilayət Partiya Komitəsinin katibi idi, həm də, Ali Sovetin sədri idi. Onu oradan götürdülər. Rəhbərliyi dəyişdirdilər. Elə etdilər ki, orada dəyişəkliklər aparsınlar. Dəyişiklik apardılar. Naxçıvanın rəhbərliyini dəyişdirdilər. Onlar da çalışırdılar ki, orada məni bir balaca sıxışdırsınlar. Amma mənim nəyimi sıxışdıracaqlar? Mən oturmuşdum evdə. Bir şey edə bilmədilər.

Mən bunu da qeyd etməliyəm ki, sonra, sentyabr ayının əvvəlində Naxçıvanın vətənpərvər adamları, müstəqillik sevən adamları o vaxt Moskvada qiyam zamanı Azərbaycan rəhbərliyinin o qiyamı dəstəklədiyinə görə Naxçıvanda ayağa qalxmışdılar. Mən o vaxt Naxçıvanda deyildim. Qiyam baş verməmişdən bir neçə gün əvvəl Moskvadan çıxıb Bakıya gəlmişdim. Burada yaşayırdım.

Amma mən orada olmadan, mənim xəbərim olmadan Naxçıvanda xalq ayağa qalxmışdı, o qiyamı dəstəkləyən Azərbaycan rəhbərliyinə qarşı böyük mitinqlər keçirmişdilər, gedib Vilayət Partiya Komitəsinin binasını

bağlamışdılar, partiyanı ləğv eləmişdilər. Bunu Naxçıvanın vətənpərvər, müstəqillik sevən insanları etmişdilər.

Burada avqustun 30-da bu sessiya oldu. Sentyabrın 1-də mən Naxçıvana gəldim. İndi vaxtınızı almaq istəmirəm. Düzdür, mənim yolumu kəsdilər, Naxçıvana buraxmaq istəmirdilər. Hər halda çıxdım getdim. O vaxt gəldim ki, Naxçıvanda aləm qarışıb. Mən Naxçıvana gələn axşam böyük bir mitinq çağırdılar, demək olar ki, 70 min adam toplaşdı. Mən gedib həmin mitinqdə iştirak etdim. Bu vaxt prezident seçkisi keçirilirdi və Mütəllibov prezident seçilməli idi. Mən burada sessiyada olarkən açıqca dedim ki, bu prezident seçkisi indi keçirilə bilməz və Ayaz Mütəllibovun prezident seçilməyə haqqı yoxdur. Mütəllibovun özünün yanında – burada oturmuşdu, mən bunu dedim. Getdim Naxçıvana. Sentyabr ayının 8-nə prezident seçkiləri təyin olunmuşdu, Naxçıvanda sessiya keçirildi, məni Ali Məclisin sədri seçdilər. Birinci qərarımız o oldu ki, Naxçıvanda prezident seçkilərini qadağan edək. Amma ondan qabaq Vilayət Partiya Komitəsi prezident seçkiləri üçün Naxçıvanda dairələr, məntəqələr yaratmışdı, bülletenlər gətirtdirmişdilər. Böyük məsrəf, xərc olmuşdu. Bunlar hamısı var idi.

Biz bunu qadağan etdik. Dərhal Bakıdan, Azərbaycandan böyük təzyiqlər oldu. Buradan Naxçıvana 9 deputat göndərdilər. Xatirimdədir, onlardan üçü general idi: general Nəsirov, general İsrafilov, respublika prokurorunun müavini Cəfər Quliyev, o da yəqin ki, general idi. Doqquz deputat, daxili işlər nazirinin birinci müavini başda olmaqla bir 60 nəfər də daxili qoşunlardan və sairə zabit göndərdilər. Çətin bir vəziyyət yarandı. Mən onlara ultimatum verdim ki, Naxçıvanı tərk etməlidirlər. Naxçıvanı tərk etməsələr xalq qalxacaq və şübhəsiz, vəziyyət çox gərginləşəcək. Onlar qorxdular, çəkildilər, Naxçıvanı tərk etdilər. Naxçıvanda prezident seçkiləri keçmədi.

Ondan sonra Naxçıvana təzyiqlər daha da artdı. Burada bir qrup naxçıvanlı hüquqşünası ortaya çıxartdılar ki, Heydər Əliyev Naxçıvanı Azərbaycandan ayırır və sair. Yəni bu, Naxçıvana olan təzyiqlərin bir mərhələsi idi. Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra Xalq Cəbhəsinin rəhbərliyi Naxçıvana təzyiqlər etməyə başladı. Mən bunu ona görə danışıram ki, bu sənədlər, müraciətlər o vaxt qalxdı ki, Naxçıvana qarşı təzyiqlər başlandı. Artıq Mütəllibov hakimiyyəti tərəfindən yox, Xalq Cəbhəsi hakimiyyəti tərəfindən.

Məsələn, bu müraciət oktyabrın 4-də olmuşdu və oktyabrın 24-də Xalq Cəbhəsi Naxçıvanda çevriliş etmək istədi. Bunu da etdi. Silahlı dəstələrlə gedib Daxili İşlər Nazirliyini, Televiziyanı zəbt etdilər və televiziya ilə bizim əleyhimizə çıxış etdilər. Biz bunun qarşısını yenə də

kütlənin köməyi ilə aldıq. Bax, məhz bu zaman, bu gərgin dövrdə mən istəyirdim ki, Naxçıvana bu təzyiqlər olmasın. Ona görə də istəmirdim heç bir başqa siyasətə qarışım. Mən sadəcə olaraq Naxçıvanı bu ağır vəziyyətdən çıxarmağa çalışırdım. İranla, Türkiyə ilə əlaqələr yaradıb onlardan ərzaq və sair almaqla məşğul idim. Bax, belə bir zamanda belə bir müraciət mənə gəldi.

Bu müraciəti alandan sonra mən çox düşündüm. Sirus Təbrizli mənim yanıma gəldi, hətta mənə bir sənəd də gətirdi ki, biz bir cavab layihəsi hazırlamışıq. Mən bu cavabı da vermək istəmədim və nəhayət, çox ölçüb-biçdim və özüm bir cavab yazdım, o da yenə «Səs» qəzetində dərc olundu.

Bax, bu tarixi bir balaca xatırlayaraq mən sizinlə bu görüşümün məqsədini açıram. Məqsəd ondan ibarətdir ki, o vaxt şübhəsiz, Azərbaycanın vəziyyətini, bu gününü, gələcəyini düşünən adamların əksəriyyəti məni bir ümid yeri kimi axtarıb tapırdı və mənə müraciət edirdi. Mən belə hesab edirəm. Müraciət edən adamların bəziləri bunu şifahi edirdilər, bəziləri gəlib edirdilər. Amma bir qrup, 91 adam da rəsmi müraciətə imza atıb qəzetə vermişdi, heç bir təzyiqdən, təqibdən qorxmayaraq. Mənim sizə danışdıqlarım onu göstərir ki, təzyiqlər, təqiblər var idi. Güman edirəm ki, imza atan bu adamların bəziləri sonra təqib olunmuşdular.

Mən iki ildən artıqdır ki, Bakıdayam. Ola bilər, indi siz soruşasınız ki, biz o vaxt sizə müraciət etmişik, siz bizi indi yada salmısınız. Yox, siz həmişə mənim qəlbimdə olmusunuz, heç vaxt unutmamışam. Amma sadəcə olaraq, mən hesab edirdim ki, siz müraciət edəndə heç biriniz şəxsi bir məqsəd daşımırsınız, elədirmi? Siz Azərbaycanın dövlətçiliyi, müqəddəratı, Azərbaycanın taleyi haqqında düşünürdünüz. Bir halda tale belə gətirdi ki, mən Azərbaycana gələsi oldum və burada işlərə başlayası oldum, demək, mən birinci növbədə bu işlərlə məşğul olmalı idim. Ancaq inanın, mən elə o vaxtdan imkan axtarırdım ki, sizi dəvət edim, sizinlə görüşüm. Mümkün olmurdu. İndi nə edək, üzərimizə düşən məsuliyyət o qədərdir ki, sutkanın 24 saatını da işləsən çatdırmaq mümkün olmur. Ona görə də mən bu planları qururdum ki, gələn həftə, o birisi həftə görüşəcəyəm. Ancaq nəhayət, indi bu imkan əldə olunub. Ona görə mən xahiş etdim ki, bu 91 şəxsi dəvət etsinlər. Yenə də deyirəm, bəziləri ilə şəxsən tanışlığım yoxdur, yəni şəxsi görüşüm olmayıb. Mən hamınıza təşəkkür edirəm.

Ona görə yox ki, mən buraya gəlmişəm. Ona görə ki, siz doğrudan da millətin, xalqın taleyi haqqında düşünən adamlar və cəsarətli adamlar olmusunuz, belə adamlar da varsınız. Bu müraciət olsa da, olmasa da proseslər gedirdi, nəsə olacaq idi. Ola bilərdi ki, mən gələydim, ola bilərdi

mən gəlməyəydim, bunun fərqi yoxdur. Əsas məna ondan ibarətdir ki, siz öz vətəndaşlıq, vətənpərvərlik hissiyyatlarınızı açıq bildirmisiniz. Bu birinci. İkinci də, şübhəsiz, mənə qarşı ədalətsizlik olan bir dövrdə və uzun müddət mənimlə bərabər işləyən adamların mənə qarşı nankor çıxdıqları, vəfasız olduqları bir dövrdə siz o daxili sədaqətinizi büruzə vermisiniz, açmısınız və hətta qəzetə vermisiniz. Ona görə təşəkkür edirəm.

Mən çox təəssüflə demək istəyirəm ki, bu müraciətə imza atanlardan, 91 nəfərdən bir qismi rəhmətə gedibdir. Bu, Kərim Kərimovdur. Q çox böyük bir alim idi. Gərək ki, son vaxtlar Memarlıq və İncəsənət İnstitutunun direktoru idi. Çox dəyərli bir insan idi. Xüsusən Azərbaycanın qədim miniatür sənətinin tədqiq olunması və elmi surətdə əsaslandırılması mövzusunda onun çox gözəl kitabları var. Mən onu yaxşı tanıyırdım. Rəhmətə gedibdir.

Xəlil Rza, bizim məşhur şairimiz. Rəhmətə gedibdir. Bilirsiniz ki, vəfatından sonra mənim fərmanımla o, respublikanın ən yüksək ordeni – «İstiqlal» ordeni ilə təltif olunubdur.

Ağababa Mahmudov, Tusi adına Pedaqoji Universitetin müəllimi. Çox təəssüf edirəm ki, onunla şəxsən tanış deyildim.

Əmir Mərdanov, Elmlər Akademiyası Botanika İnstitutunun laboratoriya müdiri. Onunla da mənim şəxsi tanışlığım olmayıbdır, təəssüf edirəm.

Mövsüm Mövsümov, bu, yaxşı bir jurnalist idi. Mən onu tanıyırdım. Vəfat edibdir.

Mirzə Əsgərov, bu da çox gözəl jurnalistlərdən biri idi və «Naxçıvan» qəzeti ki var, indi çox yaxşı fəaliyyət göstərir, onun təsisçisidir, onun əsasını qoyan adamdır. Çox dəyərli bir insan idi.

Məmməd Məmmədov, Texniki Universitetin dosenti. Onunla da şəxsi tanışlığım olmayıb, şübhəsiz, ola bilər, mən işləyən vaxtlar görüşmüşük, amma xatırlaya bilmirəm.

Mən rica edirəm, bu şəxslərin xatirəsini bir dəqiqəlik sükutla yad edək. Allah rəhmət eləsin.

İndi isə mən istərdim, Sirus Təbrizli bu işlərdə ən çox fəal olmuş bir adam kimi əvvəlcə o şəxslərin siyahısını oxusun ki, bu müraciətə imza atıblar.

HEYDƏR ƏLİYEVƏ MÜRACİƏT

Möhtərəm Heydər bəy! Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, «real vəziyyətə uyğun» fəaliyyət göstərməklə, əslində iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir.

Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir. Qəribə burasındadır ki, prezidentdən tutmuş respublikanın müxtəlif vəzifəli şəxsləri dəfələrlə öz müsahibələrində bildiriblər ki, artıq hakimiyyəti bizim əlimizdən heç kəs ala bilməz, çünki ordu və polis bizə xidmət edir.

Dünənə kimi küçə, meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar, görünür, demokratiyanın mahiyyətinin nə olduğunu dərk etmirlər. Əsl demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardır və bütün bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqamətdə daşınıb aparılırdısa, indi var-dövlətimiz bir neçə səmtə axıdılır. Bir sıra Şərq ölkələrindən qovulmuş Qərb inhisarları indi asanlıqla çoxdan həsrətində olduqları Bakı neftini ələ keçirirlər. Belə gedərsə biz siyasi əsarətdən qurtarmamış, tezliklə iqtisadi əsarətə məruz qalacağıq. Çünki respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağılır, təbii sərvətlərimiz talan edilir.

Vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı-yüksək ixtisaslı kadrlar tərk edir. Sözsüz ki, ən ağır zərbə geniş xalq kütləsinə, aşağı təbəqəyə dəyir. Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial-ədalətdən heç əsər-əlamət də qalmayacaq. Halbuki uzun illər boyu imperiya boyunduruğu və totalitar rejim altında inləyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır.

Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyllərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi, respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir.

Xalqımıza qarşı törədilən ən böyük dəhşətli cinayətləri – 20 Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axın görünməyən, minlərlə insan ömrü aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönübdür. Azərbaycanda «sürətli artım» ancaq yeni-yeni partiyaların və onların liderlərinin meydana çıxması sayəsindədir. Bu siyasi partiyaların sayı gündən-günə çoxalsa da, respublikada ictimai-siyasi həmrəylik yaratmaq yolunda əməli iş görülmür, siyasi vakuum mövcuddur. Çünki bu siyasi partiyaların rəhbərləri arasında sözün əsl mənasında geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatı olan güclü lider yoxdur.

Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Sız, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və ya yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin

öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar.

Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz. Bütün çətinliklərə baxmayaraq, hələ Baltik respublikalarında belə qalan rus ordusunun Naxçıvandakı hissələrini Siz çox bacarıqla, qayda-qanunla yola saldınız. Qardaş Türkiyə və İranın köməyi ilə Naxçıvan əhalisini dözülməz vəziyyətdən çıxarırsınız. İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz.

Heydər bəy! Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunun bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.

Hörmətlə və ehtiramla

Azərbaycan Respublikası EA-nın akademikləri – Ziya Bünyadov, Fərəməz Maqsudov, Heykəltəraşlıq akademiyasının akademiki – Ömər Eldarov, Azərbaycan EA-nın müxbir üzvləri – İqrar Əliyev, Kərim Kərimov, Məmmədtağı Cəfərov, Sabir Hacıyev; Xəlil Rza Ulutürk – xalq şairi; Sirus Təbrizli – yazıçı-publisist; Azərbaycan Respublikasının xalq deputatları – Zeynəb Xanlarova – xalq artisti, Əli Ömərov, Eldar İbrahimov, Mixail Zabelin, Əlfəddin Abdullayev; professorlar: – Murtuz Ələsgərov – əməkdar hüquqşünas; Əkbər Bayramov – əməkdar elm xadimi; Zahid Qaralov – əməkdar müəllim; Həsən Quliyev, Adil Qasımov, Əjdər İsmayılov, Fikrət İsmayılov – respublika dövlət mükafatı laureatı, Şahlar Əsgərov, Mübariz Əhmədov, Əli Nuriyev, Ədalət Fərəcov, Həsən Mirzəyev, Zahid Xəlilov, Vilayət Əliyev, Abbas Səmədov; Ağababa Mahmudov, Şəmistan Mikayılov, Səfyar Musayev, Əsədulla Qurbanov, Musa İlyasov, Tələt Qayıbov, Məmməd Məmmədov, Rafiq Əmənzadə, Lalə Hacıyeva, Eldar Abbasov, Əli İnsanov, Fuad İsmayılov, Əlişir Musayev, Hüsü Kərimov, Rafiq Məmmədhəsənov, Məmməd Nəsirov, İbrahim İsayev, Faiq Cəfərov, Sudef İmamverdiyev, Liliya Luqovaya, dosent, əməkdar həkim; elmlər doktorları – Hacıbala Abutalıbov, Novruz Quliyev, Əmir Mərdanov; dosentlər: Sabir Xəlilov, Pənah Mahmudov, İsgəndər Quliyev, Zakir Sərdarov, Əli Əhmədov, Əli Nağıyev, Maqsud Nəcəfov, Heydər Hüseynov, Nəbi Əsgərov, Allahverdi Hacıyev, Tofiq Hüseynov, Məmməd Məmmədov, Musa Heydərov; Hacan Hacıyev – elmlər namizədi, «Qaraçöp» xeyriyyə cəmiyyətinin sədri; elmlər namizədləri: – Nəzir Əhmədov, Allahyar Hüseynov, İbrahim Əzizov, Aydın Əhmədzadə, Vidadi Acalov, Səbirə Dünyamalıyeva; Georgi Savoskin – «Sodrujestvo» cəmiyyətinin üzvü, Lüdviq Muradov – «Azərbaycan-Rusiya» cəmiyyətinin məsul katibi, Rafael Al-

lahverdiyev – «Azərbaycan-Rusiya» cəmiyyətinin vitse-prezidenti, Asif Cahangirov – BXTŞ-nin müdiri, Rafiq Qasımov – «Azərelektroterm»in baş direktor müavini, Kərim Kərimov – Bakı Kondisioner zavodunun şöbə müdiri, Munis Bayramov – Azərbaycan «Əlillər» cəmiyyəti sədrinin köməkçisi, Möhsün Möhsünov – yazıçı-jurnalist, Ağabəy Əsgərov – elmlər namizədi, «Səs» qəzetinin baş redaktoru, Vüqar Rəhimzadə – «İki sahil» qəzetinin baş redaktoru, Rizvan Cəbiyev – «Naxçıvan» qəzetinin baş redaktoru, Ariz Abduləliyev – «Axtarış» qəzetinin baş redaktoru, Əziz Axundov – «Gənc müəllim» qəzetinin redaktoru, Mirzə Əsgərov – «Real» agentliyinin direktoru, Xeyrəddin Qoca – «Açıq söz» qəzetinin redaktor müavini, jurnalistlər: Səlahəddin Quliyev, Ziya Paşa, Vüqar İsmayılov, Tahir Məmmədov.

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ZİYALILARININ MÜRACİƏTİNƏ CAVABI

Hörmətli ziyalılar!

16 oktyabr 1992-ci il tarixli «Səs» qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirəlayiqdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını həddsiz dərəcədə sevindirir.

Eyni zamanda bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, millidemokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir.

Bununla bağlı və Sizin müraciətinizə cavab olaraq bəzi fikirlərimi və arzularımı açıqlamaq istəyirəm.

Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlanmış, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu tarixi-obyektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist partiyasının tarixin səh-

nəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bundan sonrakı hadisələr – yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif Beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq, dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür.

Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən də Xalq Cəbhəsinin xidməti saymaq olmaz. Təkrar edirəm, bu tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol vermək olmaz ki, bu ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, millidemokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması bütün ictimai-siyasi, sosial-iqtisadi potensialdan maksimum istifadə olunmasını tələb edir. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur. Güman edirəm ki, bu yolda əsas vəzifələr aşağıdakından ibarətdir.

Birinci. Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik. Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşlar. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. Respublikaya misli görünməmiş həddsiz maddi və mənəvi ziyan dəyib. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.

İkinci. Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir. Milli gəlirin istehsalı 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycanın iqtisadiy-

yatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur.

Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə də çox işlər kortəbii aparılır.

Üçüncü. Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə təyinatlar iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız, Xalq Cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil, ağır nəticələr verə bilər. Xalq, Xalq Cəbhəsinə heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq fəal quruculuğa cəlb edilməlidirlər.

Azərbaycandan kənarda, Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz vətənlərində müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər.

Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir.

Dördüncü. Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız

demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib seçilmək azadlığından gedir.

Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir.

Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.

Beşinci. Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin təzahürü böyük təhlükə yaradır. Belə meyllərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivilizasiya və demokratik yollarla həll edilməlidir.

Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanması və inkişaf etdirilməsi, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir.

Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur.

Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğulur.

Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

Əgər belə partiya yaradılarsa onun fəaliyyətində fəal iştirak etməyə hazıram.

Dərin hörmətlə

HEYDƏR ƏLİYEV

24 oktyabr 1992-ci il
Naxçıvan şəhəri

YEKUN NİTQİ

Mən görüşümüzə başlayarkən dedim ki, bu görüş müəyyən dərəcədə xatirə xarakteri daşıyır. Ona görə də təxminən üç il bundan öncə mövcud olmuş vəziyyəti və irəli sürülmüş təşəbbüsləri, dərc edilmiş sənədləri yada salmağa ehtiyac var. Lakin məqsədim, bir daha deyirəm, sizinlə görüşmək, sizə öz təşəkkürümü bildirməkdir. Ona görə yox ki, siz o vaxt bu müraciətə imza atmısınız və buna cavab olaraq mən Azərbaycanın siyasi vəziyyəti barədə öz fikirlərimi bəyan etmişəm, Yeni Azərbaycan Partiyasının yaradılmasına razı olmuşam və bu partiyada fəal iştirak etməyə söz vermişəm. Ona görə ki, Yeni Azərbaycan Partiyasının yaradılması ilə, yaxud mənim yenidən siyasi fəaliyyətə qayıtmağımla deyil, təkcə elə bu addımla siz özünüzün vətəndaşlıq borcunuzu yerinə yetirmisiniz, vətəndaşlıq mövqeyinizi bəyan etmisiniz və bir daha bildirirəm, o ağır, çətin dövrdə, biz hamımız təzyiqlər altında olduğumuz bir zamanda cəsarət, qeyrət, qəhrəmanlıq göstərmisiniz. Mən bunu tam qətiyyətlə deyə bilərəm. Sizin bax, bu vətəndaşlıq mövqeyinizə görə, mənəvi saflığınıza görə, Azərbaycan naminə ümumi işlərimizə sədaqətinizə görə hamınıza təşəkkür edir, cansağlığı arzulayır və bütün işlərinizdə uğurlar diləyirəm.

Azərbaycanda vəziyyət indi də ağırdır və qoy heç kəs elə təsəvvür etməsin ki, bu vəziyyəti çox qısa bir zamanda ciddi səkildə dəyişdirmək mümkündür. Çünki hər hansı bir problem həll edildikdən sonra başqa birisi meydana çıxır. Bu da həll olunursa, yeni bir problem yaranır. Burada bir təbiilik, yəni obyektiv səbəblər var. Şübhəsiz ki, respublikamızda vəziyyətin gərgin olmasının başqa səbəbləri də mövcuddur. Təbiilik, obyektiv səbəblər ondan ibarətdir ki, Sovet İttifaqı dağıldıqdan sonra müstəqillik əldə edən respublikaların hər biri keçid dövrü yaşayır. Bu dövrü keçirən respublikaların hamısında ağır proseslər gedir. Həmin proseslər onların bəzilərində daha ağır gedir, digərində nisbətən yüngül keçir.

Dünən mən Moldovanın baş naziri cənab Sangelini qəbul etdim. Mən bir müddət öncə Buxarestdə Qara dəniz hövzəsi ölkələrinin iqtisadi əməkdaşlıq toplantısında iştirak edərkən Moldova prezidenti cənab Snequrla görüşdük. Bu görüşün təşəbbüsçüsü o idi. Biz respublikalarımız arasında əməkdaşlığın genişləndirilməsi barədə ətraflı söhbət etdik. Həmin görüşün nəticəsi olaraq sentyabrın 8-də Moldova nümayəndə heyəti buraya gəlmişdi. Biz onlarla görüşdük, Fuad Quliyev danışıqlar apardı. Onlarla mənim də söhbətim oldu. Nəhayət, yaxşı bir müqavilə

imzaladıq, iqtisadi əməkdaşlığı inkişaf etdirmək üçün bəzi tədbirlər müəyyənləşdirdik.

Mən Moldovada vəziyyətlə maraqlandım. Şübhəsiz ki, onlarda müharibə getmir. Doğrudur, onlarda «Pridnestrovye problemi» deyilən problem var. Lakin buna baxmayaraq, onlar müharibə aparmırlar. Pridnestrovye özünü muxtar bir qurum elan edib, amma onlarda sərhəd açıqdır, ziddiyyət yoxdur, Pridnestrovye və Moldova rəhbərləri bir-birinin yanına gedib-gəlir, danışıqlar aparırlar. Bir sözlə, onların da problemləri var. Amma bizimki kimi problemləri yoxdur. Qərb ölkələri onlar üçün tamamilə açıqdır. Şərqdəki ölkələrlə də bütün sərhədlər açıqdır, blokadaları və başqa çox ağrılı problemləri yoxdur.

Bir məsələni qeyd edim. Onlar da keçmişdən üzümçülüklə, şərabçılıqla məşğuldurlar. Bildiyiniz kimi, Moldova vaxtilə Sovet İttifaqında ən çox üzüm istehsal edən respublika idi. Biz üzümçülüyü inkişaf etdirməyə başladıqdan sonra Azərbaycanda üzüm məhsulunun miqdarı onlardakına nisbətən daha artıq oldu. Onlar ildə təxminən 1 milyon 100 min ton – 1 milyon 200 min ton, biz isə 80-81-ci illərdə təqribən 1 milyon 500 min ton – 1 milyon 600 min ton üzüm məhsulu istehsal edirdik. O vaxtlar biz tez-tez görüşür, əlaqə saxlayırdıq. Aramızda yarış var idi.

Mən onlardan soruşdum ki, vəziyyət nə təhərdir? Onlar elə o dövrdə də ağıllı tərpəniblər. Söylədilər ki, alkoqolizmə qarşı mübarizə aparılan dövrdə bizə çox təzyiq etdilər, lakin biz üzüm bağlarının əksər hissəsini saxladıq.

Bəs Azərbaycanda necə oldu? Bir tərəfdən, Azərbaycanda üzümçülüyün belə geniş inkişaf etdirilməsini Sovet İttifaqı rəhbərliyinin gözü götürmürdü. Ona görə gözləri götürmürdü ki, Azərbaycan iqtisadiyyatı belə yüksək sürətlə inkişaf edirdi. Azərbaycan Sovet İttifaqında ən böyük üzümçülük, şərabçılıq respublikası, bu sahədə inhisarçı olmuşdu. Mən bilirdim ki, bütün bunları onların gözləri götürmür. Onlar təzyiq göstərirdilər ki, burada üzüm bağları məhv edilsin.

Bəs Azərbaycanın o vaxtkı rəhbərləri nə iş gördülər? Yəqin ki, qəzetlərin nədən yazdığı da, planlar da, yadınızdadır. Bəli, bunu mənə günah kimi yazırdılar ki, Heydər Əliyev Azərbaycanda böyük üzüm bağları yaradıbdır. Hətta ermənilər yazmışdılar ki, Əliyev Azərbaycanı çaxır anbarına çevirib. Bilirsiniz niyə belə yazırdılar? Çünki Ermənistan çox böyük üzümçülük respublikası olduğu halda, ildə 240 min tondan artıq üzüm istehsal edə bilmirdi. Onlar bizimlə yarışa girmişdilər. Bir dəfə Ermənistan KP MK-nın birinci katibi ilə danışarkən mən dedim ki, sən respublikamızla yox, bizim Cəlilabad rayonu ilə yarışmalısan. Çünki onlar 260 min ton üzüm veriblər.

Bəs axırı nə oldu? O qədər əziyyətlə, zəhmətlə yaradılmış bağları 85-87-ci illərdə dağıdıb viran qoydular. Nə var ki, bunu bir tərəfdən Moskva istəyirdi, digər tərəfdən isə bu bağları Heydər Əliyev yaratmışdı. Məgər bu bağları Heydər Əliyev özü üçünmü saldırmışdı?! Halbuki bağ demirəm, bir dənə də olsun öz şəxsi tənəyim yoxdur. Biz bu bağları xalq üçün yaratmışdıq. Amma moldovalılar dedilər ki, üzüm bağlarının əksəriyyətini qoruyub saxlayıblar, indi onların şərabları Avropa bazarına çıxarılır, orada satılır. Tək üzümçülükdə deyil, başqa sahələrdə də belə olmuşdur. Onlar, bir tərəfdən, bağları məhv etməyə qoymamışlar, digər tərəfdən isə onların coğrafi vəziyyəti elədir ki, ölkələrlə əlaqə yaradır, saxlayır, ticarət edirlər. Buna baxmayaraq, çətinlikləri, problemləri çoxdur, yanacaqları çatmır. Gəlib bizimlə yanacaq məsələsini həll etdilər, biz onlara yanacaq satacağıq.

Lakin bizimlə müqayisə etdikdə onların problemləri, əlbəttə, azdır. Onlarda nə müharibə gedir, nə də qaçqınlar, köçkünlər, didərginlər var. Ona görə də respublikamızın vəziyyəti başqa respublikaların vəziyyətindən fərqlidir. Bununla yanaşı, hər bir respublikanın özünə görə problemi var. Bunlar obyektiv proseslərdir. Bu proseslər getməlidir. Biz bu keçid dövrünü yaşamalıyıq. Bu dövrü bir respublika tez, digəri gec keçir. Şübhə yoxdur ki, keçid dövrü qurtardıqdan sonra müstəqil dövlətlər iqtisadi cəhətdən normal bir səviyyəyə gəlib çıxacaqlar. Əlbəttə ki, bu səviyyəyə Azərbaycan da nail olacaqdır. Amma Azərbaycanı bu yolda ləngidən səbəblər sizə məlumdur: bir tərəfdən müharibə, Ermənistanın təcavüzü, digər tərəfdən isə daxili vəziyyət.

Biz müharibəni müəyyən qədər dayandırmışıq, on beş aydır ki, atəş açılmır, atəşkəsə nail olmuşuq. Bu, şübhəsiz, böyük nailiyyətdir. Biz danışıqlar aparırıq. Məsələni danışıqlar yolu ilə tamamilə həll etmək istəyirik. Sirus Təbrizli qeyd etdi ki, Rusiya prezidenti cənab Boris Yeltsin dünən çox geniş bir müsahibə vermiş və çox dəyərli də sözlər demişdir. Respublikamıza aid etsək, onun dəyərli sözlərindən biri bundan ibarətdir ki, ərazi bütövlüyü beynəlxalq normalara uyğun olan haldır. Amma bunun Rusiya dövlətinin rəhbəri tərəfindən bir daha qətiyyətlə bildirilməsi və Rusiyanın ərazi bütövlüyünün əsas şərt kimi götürülməsi həm də hər bir müstəqil dövlətin ərazi bütövlüyünün şərti kimi qəbul edilməlidir.

Biz bunu qiymətləndiririk, çünki Rusiya, bir tərəfdən, böyük dövlətdir, digər tərəfdən, qonşumuzdur, üçüncü tərəfdən isə Rusiya Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması üçün daim fəaliyyət göstərir, Qarabağ münaqişəsinin həlli üzrə Minsk qrupunun həmsədridir.

Ona görə də bu atəşkəs rejiminin yaranması, danışıqların getməsi əvvəlki dövrə nisbətən, şübhəsiz, bir nailiyyətdir. Bu, eyni zamanda bizə sakitlik yaradıbdır. On beş aydır ki, biz şəhidlər dəfn etmirik, on beş aydır ki, qan tökülmür, on beş aydır ki, insanlar bir az sakit yaşaya bilirlər, iqtisadi problemlərin həlli üçün müəyyən qədər macal tapıblar. Əlbəttə ki, bu, məsələnin heç də həll olunması demək deyildir. Məsələnin həlli Azərbaycanın ərazi bütövlüyünün tamamilə təmin edilməsindən, işğal olunmuş torpaqlardan, o cümlədən də Laçın və Şuşa rayonlarından Ermənistan silahlı qüvvələrinin çıxarılmasından və şübhəsiz ki, aparılan danışıqlar nəticəsində Dağlıq Qarabağa Azərbaycanın tərkibində, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün qorunması şərti ilə müəyyən status verilməsindən ibarətdir.

Hazırda danışıqlar prosesi gedir. Mətbuatda da yazırlar, orada-burada da deyirlər ki, danışıqlar istənilən nəticəni vermir. Söz yox ki, hər şey birdən ola bilməz. Məsələn, Sankt-Peterburqda Rusiya parlamentinin başçısı cənab Şumeykonun təşəbbüsü ilə Gürcüstan, Azərbaycan, Ermənistan və Rusiya parlamentlərinin başçıları görüşüblər. Bizim parlamentin başçısı Rəsul Quliyev orada layihə təqdim etmişdir. Bu yeni bir şey deyildi. Biz dövlətlərin ərazi bütövlüyünü sadəcə olaraq bir daha təsdiq edirik, separatçılığın yolverilməzliyini bir daha deyirik. Təcavüzkarlığın yolverilməzliyini bir daha bəyan edirik. Yəni bunlar yeni bir şey deyildir. Amma Ermənistan buna etiraz etdi. Belə olan halda Ermənistan göstərdi ki, o, istəsə də, istəməsə də təcavüzkardır və ərazi bütövlüyü prinsipini təsdiq etmək istəmir. Deməli, Ermənistan başqa ölkənin, konkret olaraq Azərbaycanın torpağım zəbt etmək istəyir, onun torpağına göz dikibdir. Ermənistan separatçılığı pisləmək istəmir, deməli, Dağlıq Qarabağ ermənilərinin separatçılığını dəstəkləyir.

Düzdür, istədiyimiz bir layihəyə imza ata bilmədik. Lakin elə bunun özü də bir daha nümayiş etdirdi ki, Ermənistan təcavüzkar mövqedədir, Ermənistan separatçılığı müdafiə edir, Ermənistan başqa ölkənin, konkret olaraq Azərbaycanın torpağını ələ keçirmək istəyir. Odur ki, bu proseslər asan proseslər deyildir. Onlar gedir və gedəcəkdir. Əminəm ki, biz var qüvvə ilə səy göstərib bu məsələlərin həllinə nail olacağıq.

Ancaq Azərbaycanın iqtisadi və sosial vəziyyətinin indiyədək istənilən səviyyəyə qaldırılmamasının əsas səbəblərindən biri də respublikamızın daxilində gedən bu proseslərdir. Həmin müraciətdə ziyalılar yazırdılar: «Hakimiyyətdə olan qüvvələr deyirlər ki, ordu da, polis də bizim əlimizdədir, biz hakimiyyəti nə olur-olsun əldən verməyəcəyik». Bəs ordu, polis, bir sözlə, hər şey onların ixtiyarında olduğu halda nə üçün 93-cü ilin may-iyun aylarında Azərbaycanda vətəndaş müharibəsi baş ver-

mişdir? Bəli, vətəndaş müharibəsi! Bax, sizin o müraciətiniz həyəcan təbili idi. Mən də öz cavabımda yazmışam ki, Azərbaycanı parçalamaq meylləri var. Mən bunu hələ oktyabr ayında göndərdiyim cavabımda yazmışdım. Əlbəttə, o vaxt nə mən, nə də siz bunu havadan götürməmişdik. Siz bu sözləri bir ziyalı kimi yazırdınız. Reallığa söykənərək yazırdınız. Həqiqətdə də belə oldu. 93-cü ilin may-iyun aylarında burada vətəndaş müharibəsi başladı, Azərbaycanı parçalamaq niyyəti reallaşdı. Azərbaycan parçalandı, cənub zonası əldən getdi, Gəncə Azərbaycanın dövlət hakimiyyətindən tamamilə çıxdı, burada dövlət dağıldı.

Əgər o vaxtlar sizin çağırışınıza qoşularaq gəlmədimsə, 93-cü ilin iyun ayında vəziyyət artıq belə gərgin olduğu halda mən bir adamın deyil, minlərlə adamın çağırışma səs verərək buraya gəldim. Ancaq ondan sonra belə fikirləşmək olardı ki, gərək hərə özü üçün bir nəticə çıxarsın. Bir il hakimiyyətdə olub, hakimiyyəti əldə saxlaya bilməyən adamlar indi qoy özləri üçün bir nəticə çıxarsınlar. Gəlib, dövləti möhkəmlətmək üçün ələlə versinlər, indi bu dövlətə başçılıq edən adamlarla işləsinlər. Amma bunun əvəzində onlar müxalifətə keçdilər və iki ildir ki, dövlətə qarşı müxalifətdə durublar, iki ildir ki, dövlətə qarşı təxribatla məşğuldurlar. Bütün bunlar, yəni həm onların təxribatları, həm respublikadan qaçıb Moskvada yerləşən adamların təxribatları, həm də burada böyük vəzifələr iddiası ilə yaşayan adamların əməlləri gətirib 94-cü ildə oktyabr hadisələrinə çıxartdı. Dövlət çevrilişinə cəhdin qarşısı alındı. Bundan sonra nəticə çıxarılmalı idi, amma çıxarılmadı. Yenə həmin qüvvələr birləşib XTPD-ni ortaya atdılar ki, bunların vasitəsilə dövləti devirsinlər. Bu niyyət də baş tutmadı. Bunlar da dağıldı. Onların bir hissəsi qaçıb yenə də xarici ölkələrdə, əksəriyyəti də Moskvada yerləş di. Ondan sonra nə etdilər? Körpünü partlatmaq istədilər, terror hərəkətlərinə əl atdılar. İstədilər ki, körpünü partladıb dövlət başçısını öldürsünlər. O da baş tutmadı. Lakin sonralar aydınlaşdırdıq ki, burada keçmişdə və indi xidmətdə olan bir qrup hərbi qulluqçu – generallar, zabitlər hələ may ayından başlayaraq yığışıb, respublikadan qaçmış və Moskvada olan cinayətkarların və bəzi xarici ölkələrdə gizlənmiş cinayətkarların göstərişi ilə yenə də hərbi çevriliş etmək istəyirdilər. Biz onları da üzə çıxartdıq.

Gördüyünüz kimi, qısa bir müddətdə nə qədər ağır proseslər getmişdir. Keçmiş Sovet İttifaqının respublikaları arasında ikinci bir respublika tapmaq çətindir ki, orada bu cür ağır proseslər getsin. Şübhə yoxdur ki, bütün bunlar qarşımızda duran planların həyata keçirilməsinə maneçilik törədir. Ancaq eyni zamanda müsbət nəticə ondan ibarətdir ki, bütün bunlara baxmayaraq, respublikanın daxilində ictimai-siyasi sabitlik yaranmışdır, respublika bütün dünya ölkələri ilə əlaqələr qurmuş və bu

əlaqələri inkişaf etdirir, bütün beynəlxalq təşkilatlarda fəal iştirak edir. Biz böyük neft müqaviləsi imzaladıq. Bu müqavilə imzalandıqdan sonra bizə çox təzyiqlər oldu, nə qədər təxribat halları oldu. Lakin biz bunun qarşısını aldıq. Bizə təzyiq göstərmək istəyən dövlətlər bizimlə hesablaşmalıdırlar və hesablaşır da. Biz başqa işləri də görürük, dövləti də möhkəmləndiririk. Yenə də deyirəm, ən böyük nailiyyət ondan ibarətdir ki, insanlar heç olmasa sakit yaşaya bilirlər. Problemlər həll edilməyib, lakin həll olunmalıdır, iqtisadiyyat sahəsində də, aqrar sahədə də islahatlar getməlidir. Özəlləşdirmə həyata keçirilməlidir. Əlbəttə, bunların hamısı olmalıdır. Amma bunlar üçün şərait yaradılmalıdır. Deyə bilərəm ki, indi biz bu şəraiti yaratmışıq. Odur ki, yaranmış şəraitdən istifadə edərək, gecikmədən bu tədbirlərin həyata keçirilməsinə nail olmalıyıq.

Biz belə hesab edirik və dünya ictimaiyyəti də bu fikirdədir ki, bu baxımdan parlament seçkiləri çox böyük əhəmiyyətə malikdir. 90-cı ildə seçilmiş parlament işləsə də, onun fəaliyyətində çox ciddi dəyişikliklər edilibdir. Bu günədək məhz həmin parlament fəaliyyət göstərir. Noyabrın 12-də parlament seçkiləri keçiriləcək. Biz qanun qəbul etmişik. Zənnimcə bu, çox demokratik qanundur. Hər halda bu qanunun demokratik olması haqqında biz heç bir mötəbər mənbədən, demokratiyanı doğrudan da dərk edən mənbədən heç bir irad almamışıq. Buna çox diqqət yetirirlər. Məsələn, Amerikanın Demokratiya İnstitutu var. Onun başçısı cənab Ledski bir neçə ay öncə buraya gəlmişdi. Mən onu qəbul etdim. Biz ətraflı söhbət etdik. Onlar burada artıq öz ofisini açıblar və fəaliyyətə başlayıblar. Onlar bu qanuna baxıblar. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının da nümayəndələri yaxın günlərdə Bakıya gələcək və seçkilərədək burada olacaqlar. Onlar da bizim qanuna baxıblar. Demokratiya sahəsində yüksək səviyyədə inkişaf etmiş olan Qərb ölkələrinin nümayəndələri də bizim qanuna baxıblar. Bu qanuna qarşı heç bir irad yoxdur. Deməli, o, tam demokratik bir qanundur.

Biz birinci addımı atmışıq, yəni seçkilərin vaxtını təyin etmişik. İkinci addımı da atmışıq: demokratik prinsiplərə xidmət edən qanun qəbul etmişik. Bu qanun Azərbaycanda hüquqi demokratik dövlət qurulması sahəsində çox böyük bir addımdır. Biz müstəqil Azərbaycanın demokratik konstitusiyasını hazırlayırıq. Konstitusiya komissiyasında müzakirədən sonra yaxın vaxtlarda onu da mətbuata, ictimaiyyətin müzakirəsinə verəcəyik. Şübhəsiz ki, indi əsas məsələ qarşıdakı seçkilərin tam demokratik şəraitdə keçirilməsidir. Biz buna da çox ciddi fikir veririk.

Partiyalarla bağlı gedən proseslər də sizə məlumdur. Əvvəllər deyirdilər ki, 43, yaxud 44 partiya var, amma qeydiyyatdan, deyəsən, 33 partiya keçib. Bəli, 33 partiya. Bəziləri qeydiyyatdan keçə bilməyiblər.

Bunun səbəblərini mətbuat işıqlandırır. Bu məsələyə Ədliyyə Nazirliyi, sonra Ali Məhkəmə baxır. Biz bu işlərə qarışmırıq. Məsələn, Xalq Cəbhəsi çox narahat idi, indi o da qeydiyyatdan keçib. Amma qəzetlərində yazırlar, yenə də ədalətsiz yazırlar. Bu gün səhər elə mən özüm də oxudum. Ədliyyə Nazirliyinin bizə verdiyi məlumatda göstərilir ki, onların yenidən təqdim etdikləri sənədlərdə qanun nöqteyi-nəzərindən həddindən çox qüsurlar var. Ədliyyə Nazirliyi bu qüsurlara görə onları gərək qeydiyyatdan keçirməyəydi. Ancaq Ədliyyə Nazirliyi də yəqin ölçüb-biçir, ümumi ictimai-siyasi vəziyyəti nəzərə alaraq onları qeydiyyatdan keçiribdir. Buna sağ ol deməkdənsə, onlara güzəştə gedilməsinə görə minnətdar olmaqdansa, yenə də hoqqabazlıqla məşğuldurlar. Lakin bu hoqqabazlıq bir nəticə verəsi deyildir. Çünki artıq biz bunları görmüşük və görürük.

Azərbaycanda demokratiyam inkişaf etdirmək istəyən qüvvələr bax, burada əyləşən qüvvələrdir. Bəli, demokratiyanın tərəfdarları bizik! Əgər mən 90-cı ildə kommunist rejimi vaxtında Naxçıvanda böyük təqiblər altında olduğum zamanda «demokratiya» deyərək qışqırırdımsa və mənə qarşı nə qədər hörmətsizlik, nə qədər təhqirlər olacağını əvvəlcədən bilsəm də, qəlib parlamentin ilk sessiyasında demokratiya, Azərbaycanın müstəqilliyi haqqında car çəkirdimsə, indi mən Azərbaycanın prezidenti olduğum halda bunları – öz arzularımı, öz istəklərimi, şübhəsiz, yerinə yetirirəm və yerinə yetirəcəyəm də!

Ona görə də, mən dəfələrlə demişəm, müxalifətdə olan qüvvələr qoy hesab etməsinlər ki, demokratiyanın daşıyıcıları onlardır. Yox, demokratiyanın daşıyıcıları Azərbaycanın ağıllı, zəkalı insanlarıdır, ziyalılarıdır. Azərbaycanda həqiqi demokratiya, qanun çərçivəsində olan demokratiya yolunda fədakarcasına çalışan insanlarıdır. Azərbaycan xalqının mənəviyyatıdır. Daha ayrı-ayrı adamlar deyildirlər – onların bəziləri demokratiyanın həqiqətən nə demək olduğunu bəlkə də bilmirlər. Sadəcə olaraq vaxtilə bu şüardan istifadə edərək müəyyən mövqe tutduqlarına görə o köhnə bayatını yenidən oxumağa çalışırlar.

İndi o tarixi hadisələri yada salarkən mən bu sözləri deməyi lazım bildim. Ümidvar olduğumu bildirmək istəyirəm ki, o illərdə olduğu kimi, yenə də biz hamımız birlikdə, bundan sonra da Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi üçün çalışacağıq, Azərbaycanda dövlət quruculuğunun müvəffəqiyyətlə həyata keçirilməsi üçün birlikdə səy göstərəcəyik. Azərbaycanda müstəqil demokratik hüquqi dövlət yaradıb hüquqi demokratik cəmiyyətin bərqərar edilməsinə nail olacağıq. Mən buna tam əminəm.

Sizə bir daha təşəkkürümü, minnətdarlığımı bildirirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

GÖRKƏMLİ ALİM VƏ CƏRRAH MUSTAFA BƏY TOPÇUBAŞOVUN ANADAN OLMASININ 100 İLLİYİ YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ ÇIXIŞ

Azərbaycan Dövlət Opera və Balet teatrı
14 oktyabr 1995-ci il

Hörmətli xanımlar və cənablar!

Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illik yubileyi Azərbaycan xalqının elminin, təhsilinin, səhiyyəsinin, mədəniyyətinin bayramıdır. Bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm. Mustafa bəy Topçubaşovun davamçılarına, bütün Azərbaycan xalqına və vətəndaşlarına elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafında uğurlar arzulayıram.

Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır.

XX əsr sona çatır. Bu əsrdə xalqımız bir çox mərhələlərdən, sınaqlardan, imtahanlardan keçib və nəhayət, öz milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur. Bütün bu mərhələlərdə Azərbaycan xalqını yaşadan, irəliyə aparan, xalqımıza güc, ruh verən Azərbaycan xalqının görkəmli şəxsiyyətləri, böyük alimləri və dahi insanları olmuşlar.

Mustafa bəy Topçubaşov XX əsrdə Azərbaycanın ən görkəmli şəxsiyyətlərindən biridir. O, İrəvan şəhərində, qədim Azərbaycan torpağında dünyaya göz açıb, Kiyev Universitetini bitirib, sonra isə Bakıya gəlib və burada fəaliyyətə başlamışdır. Çox maraqlıdır ki, o, 24 yaşı olanda Azərbaycanın tarixində ilk dəfə olaraq yaranmış Bakı Dövlət Universitetində azərbaycanlı müəllim kimi dərs deməyə başlamışdır. Məlumdur ki, o vaxt Azərbaycanda ilk universitet yaranarkən milli kadrlarımız çox az idi. Universiteti yaradanlar Rusiyadan və başqa ölkələrdən professorlar, mütəxəssislər dəvət etmişdilər. Ancaq eyni zamanda, təhsil almış və yetişmiş azərbaycanlılar da var idi. Gənc Mustafa bəy də o vaxt fəaliyyətə başlayıbdır. Yəni o, gənclik dövründən daim irəliyə baxmış və böyük təhsil almağa çalışmışdır, xalqına xidmət etməyi öz qarşısına məqsəd qoymuş və buna nail olmuşdur. Mustafa bəy Topçubaşov o vaxtdan həyatının

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab. B., Azərnəşr, 1997, s.354-359

son dəqiqələrinə qədər fəaliyyət göstərib, işləyib, çalışıbdır və demək olar ki, XX əsrin əvvəlindən sonuna qədər Azərbaycanın elmi, təhsili, səhiyyəsi, mədəniyyəti onun adı və fəaliyyəti ilə, xalqımıza bəxş etdiyi elmi əsərləri ilə bağlıdır.

Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Adamlar üçün ən vacib olan sahə – onların sağlamlığının qorunması, insanların xəstəliklərdən xilas olması, sağlam insan yetişdirilməsi cəmiyyət üçün həm keçmişdə, həm indi, həm də gələcəkdə mühüm olan sahədir. Mustafa bəy Topçubaşovun öz fəaliyyətini məhz bu sahəyə həsr etməsi heç də təsadüfi deyildir. Bu, onun daxili mənəviyyatı ilə bağlıdır. Bütün həyatı, yaradıcılığı, fəaliyyəti göstərir ki, o, şüurlu olaraq bu sənətdən başlayıbdır. Ancaq yaşadıqca, yaratdıqca onun fəaliyyət dairəsi genişlənib, böyük alim, ictimai-siyasi xadim olubdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtarmasında, elmimizin, təhsilimizin inkişafında böyük xidmətlər göstəribdir. Onun xidmətləri məlumdur. Azərbaycan xalqının qazandığı böyük nailiyyətlərdə möhkəm yeri də hamıya məlumdur. Biz bu gün buraya toplaşaraq, onun xidmətlərinə yüksək qiymət verərək, xatirəsinin nə qədər əziz olduğunu nümayiş etdiririk.

Biz çox vaxt yazıçıların, şairlərin, mədəniyyət xadimlərinin yubileylərini qeyd edirik. Bu, təbiidir. Çünki əsrlər boyu yaşamış, yaratmış Azərbaycan xalqı öz tarixində böyük yazıçılarla, şairlərlə, mədəniyyət xadimləri ilə məşhur olubdur. Keçmiş əsrlərdə də böyük alimlərimiz yaşayıblar. Bu gün biz məhz böyük alim, müəllim, ictimai-siyasi xadim Mustafa bəy Topçubaşovun 100 illik yubileyinə toplaşmışıq. Bu, onu göstərir ki, elmə, müəllimliyə, səhiyyəyə xalqımızın hörmət və ehtiramı mənəviyyatın bütün sahələrinə olan hörmət və ehtiramdan az deyildir. Biz sentyabr ayında böyük bəstəkar, dahi filosof Üzeyir Hacıbəyovun 110 illik yubileyini qeyd etdik. Bu gün Mustafa bəy Topçubaşovun 100 illik yubileyini qeyd edirik. Bu iki böyük şəxsiyyət, iki böyük sima XX əsrdə demək olar ki, yan-yana gedib, xalqımızı birlikdə irəli aparıb, birlikdə çalışıb və özləri də ucalıblar, xalqı da ucaldıblar. Özləri də məşhurlaşıb – dünyada məşhur olan şəxsiyyətlərə çevrilib, xalqımızı da məşhurlaşdırıblar, dünyaya tanıdıblar. Buna görə onların xidmətləri əvəzsizdir.

Mustafa bəy Topçubaşov elm, təhsil, səhiyyə ilə məşğul olduğu qədər də ictimai sahədə böyük xidmətlər göstərmişdir. Azərbaycan ictimaiyyəti arasında Mustafa Topçubaşov həmişə çoxsahəli ictimai fəaliyyəti ilə məşhur olubdur. O, Azərbaycan parlamentinin uzun illər üzvü olmuş, Ali Sovetə xeyli müddət sədrlik etmiş, keçmişdə Sovetlər İttifaqı Ali Sovetinin deputatı olmuşdur. Təkcə beynəlxalq elmi konfrans və simpoziumlarda

çıxışları ilə yox, İkinci dünya müharibəsindən, Böyük Vətən müharibəsindən sonra dünyada sülhün saxlanması və qorunması üçün ümumdünya təşkilatlarında fəaliyyət göstərib, bu təşkilatların üzvü olubdur. Mustafa bəy Topçubaşov Azərbaycan Sülhü Müdafiə Komitəsi yarananından ömrünün sonuna qədər bu mötəbər sahəyə rəhbərlik edibdir.

Mustafa bəy Topçubaşov Böyük Vətən müharibəsi zamanı, dünyanı faşizm təhlükəsi bürüdüyü bir vaxtda – 1942-ci ildə Kommunist Partiyasına daxil olubdur və ömrünün sonuna qədər bu partiyanın üzvü olubdur. O, bu partiyaya xidmət edərkən xalqına, millətinə, Vətəninə, torpağına xidmət edibdir. Ona görə də Mustafa Topçubaşov həmişə yüksək qiymətləndirilib, həmişə mötəbər məclislərin yuxarı tərəfində oturub, ən yüksək vəzifələr tutmuş adamlar ona həmişə hörmət və ehtiramla yanaşıblar. Mustafa bəy Topçubaşov bu fəaliyyətlərinə görə böyük mükafatlar alıbdır, ordenlərə, dövlət mükafatlarına layiq görülübdür. 1975-ci ildə onun 80 yaşı tamam olan zaman o vaxtlar Sovet İttifaqının ən yüksək mükafatına – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Bilirsiniz, tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır. Biz yaşadığımız uzun bir dövrü silib-poza bilmərik. Əgər onu silib atsaq, onda gərək Mustafa bəy Topçubaşovu tariximizdən tamamilə çıxaraq. Mustafa bəy Topçubaşovun həyatı, yaradıcılığı, Azərbaycan xalqı qarşısında xidmətləri o dövrdə məhz həmin dövlətin tərkibində, həmin cəmiyyətin içərisində, həmin ictimai-siyasi rejimin tərkibində olmuşdur. Bu, eyni zamanda Azərbaycan xalqına da xidmətdir. Əgər o vaxtlar hamımız bir dövlətin tərkibində idiksə, xalqımızın ayrı-ayrı nümayəndələrinin bu dövlətin mükafatları ilə fərqləndirildiyini görürüksə, deməli, bu bizim Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının mükafatıdır. Mustafa bəy Topçubaşov bütün həyatı və fəaliyyəti ilə Azərbaycan xalqını bugünkü gün üçün hazırlayıbdır.

Bizim xalqın əsrin əvvəlində olan təhsil, elm, mədəniyyət. səviyyəsini təsəvvürünüzə gətirin və onu bu günlə müqayisə edin. Nə qədər fərq görünür! Biz nə qədər irəliləmişik, dünya səviyyəsinə nə qədər çatmışıq! Bax, bunların hamısında Topçubaşov kimi insanların, böyük şəxsiyyətlərin rolu unudulmazdır, əvəzsizdir. Beləliklə, Topçubaşov 62 illik fəaliyyətində, yaradıcılığında Azərbaycan xalqının inkişaf etməsi üçün, Azərbaycanın elmi potensialının yaranması üçün, xalqımızın bu günə gəlib çıxması üçün, Azərbaycan xalqının öz müstəqilliyini əldə etmək imkanının yaranması üçün çalışıbdır.

Bu il biz Azərbaycan Elmlər Akademiyasının yaranmasının 50 illik yubileyini qeyd edirik. Bu, Azərbaycan xalqının tarixində böyük bir

səhifədir. Çoxəsrlik tariximizdə böyük elmimiz, alimlərimiz olubdur. Ancaq Azərbaycan elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxsahəli olmayıbdır. 50 il ərzində Azərbaycan Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək xalqımızın elm, yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir.

Xalqımız istedadlı xalqdır, ağıllı xalqdır. Xalqımızın istedadlı, ağıllı, elmli, zəkalı olmasını biz Mustafa bəy Topçubaşov kimi adamların şəxsiyyətində görürük, bunu dünya da görür.

Mustafa bəy Topçubaşov ömrünün 30 ilini Azərbaycan Elmlər Akademiyasının yaranmasına və inkişafına sərf edibdir. O, böyük bir məktəb – cərrahlıq məktəbi, təbiblər məktəbi, alimlər məktəbi yaradıbdır. Amma respublika Elmlər Akademiyasının 50 illik tarixinin 30 ili ərzində Mustafa bəy Topçubaşov onun rəhbərliyində duran adam, akademiyanın vitse-prezidenti olmuşdur.

Mənim Mustafa bəy Topçubaşovla uzun illər şəxsi tanışlığım, bizim yaxşı münasibətimiz olubdur. Onu yaxından tanımışam. Xüsusən 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığım gündən mən Mustafa bəy Topçubaşovla əməkdaşlıq etmişəm. Bizim çoxlu görüşlərimiz olubdur. Azərbaycan elminin, səhiyyəsinin, mədəniyyətinin inkişafına dair onunla çoxlu fikir mübadiləsi aparmışam. O insanda mən həmişə nuranilik, alicənablıq, yüksək ziyalılıq gördüm. Bəzən mənə elə gəlirdi ki, – yəqin, bu bir həqiqətdir, – Mustafa bəy Topçubaşov anadan ziyalı kimi doğulubdur. Çünki o, əsl ziyalı adam idi. Onun ziyalılığı təkcə elmində də yox, xasiyyətində, davranışında, insanlara münasibətində idi – hər bir sahədə onun ziyalılığı, alicənablığı özünü parlaq surətdə göstərirdi.

O həm də olduqca təvazökar bir adam idi. Mustafa bəy Topçubaşov haqqında şübhəsiz ki, onunla bir yerdə işləyənlər, tələbələri çoxlu xatirələr yazıblar və indən sonra da yazacaqlar. Mənim də çoxlu xatirələrim var. Ancaq vaxtınızı çox almaq istəmirəm. Xatirimdədir, bir dəfə bir nəfər mənim yanıma gəlib dedi ki, Mustafa bəy Topçubaşov akademiyada özünü elə aparır ki, elə bil heç vitse-prezident deyildir. Mən dedim nə olubdur ki? O dedi ki, Mustafa bəy Topçubaşov akademiyanın bufetində oturur, kefir, bir dənə də peraşki götürür və camaat, hamı ilə birlikdə orada yemək yeyir. Mən dedim burada nə var ki? O dedi: akademikdir, professordur, akademiyanın vitse-prezidentidir, hamı ilə bərabər gəlib bufetdə oturur. Mən təəccübləndim. Demək, insanlar başqa cür də düşünürlər. Ancaq eyni zamanda – mən Mustafa bəy Topçubaşovun təvazökarlığını bilirdim – bu, mənim xatirimdə qaldı. Nə qədər təvazökar adam idi o! Bu, onun alicənablığının, ziyalılığının, təvazökarlığının parlaq təzahürüdür. İnsanlar var ki, bir xırda vəzifə tutan kimi ya evində, ya

dövlət işində özlərinə xüsusi xidmət tələb edirlər, özləri üçün cürbəcür şərait yaratmaq istəyirlər, işdən əvvəl və ya sonra ancaq bununla məşğul olurlar. Lakin xalqına bu qədər xidmət etmiş adam, həmin o Elmlər Akademiyasının bünövrəsini qoyanlardan biri bu cür təvazökar həyat keçirirdi.

Bir bu deyil. Ümumiyyətlə, onu tanıyanlar, onunla təmasda olanlar bilirlər ki, Mustafa bəy Topçubaşov nə qədər təvazökar, nə qədər insan adam olubdur. Yüz minlərlə adamın həyatını xilas edibdir, onlara şəfa veribdir. Xəstəliklərdən xilas edibdir, yaşadıbdır, nə qədər insana tərbiyə veribdir, təhsil veribdir və nəhayət, onun ən yüksək keyfiyyəti bundan ibarətdir ki, öz siması ilə, öz şəxsiyyəti ilə, öz həyat yolu və yaradıcılığı ilə bizim üçün – bugünkü və gələcək nəsillərimiz üçün böyük bir nümunə yaradıbdır. Bu, böyük bir sərvətdir.

Mustafa bəy Topçubaşov 1981-ci ildə vəfat etdi. Biz onu böyük təntənə ilə son mənzilə yola saldıq. Xatirəmdədir, bunu da deməyi lazım bilirəm, çünki belə şeylərdən ibrət dərsi götürmək lazımdır – bəziləri gəlib deyirdilər ki, Mustafa bəy Topçubaşov artıq qocalıbdır. Bəlkə o, istefaya getsin, yaxud kafedra müdirliyini başqa adama tapşırsın? Çünki belə adət var ki, kafedra müdirləri müəyyən bir yaşdan sonra kafedrada professor vəzifəsinə keçirlər və kafedraya rəhbərliyi başqa adama verirlər. Onun ətrafında belə sözlər danışan, belə təkliflər verən adamlar var idi. Akademiyanın vitse-prezidenti olduğu vaxt da deyirdilər. Bunların hamısı mənim xatirimdədir. Mən bunları eşidərkən həmişə bir cavab vermişəm: o dediyiniz qanun-qaydalar Mustafa bəy Topçubaşova aid deyil. O elə bir insandır ki, elə bir fədakar adamdır ki, həyatının, yaşının son dəqiqəsinə qədər göstərdiyi fəaliyyət bizim üçün gərəkli və əhəmiyyətlidir. Bəli, Mustafa bəy Topçubaşov həyatının son dəqiqəsinə qədər fəaliyyətdə oldu. Xalqına xidmət etdi və şərəflə də dünyasını dəyişdi.

Mustafa bəy Topçubaşovun həyatı, yaradıcılığı, qoyduğu irs bizim üçün böyük təcrübə mənbəyidir, böyük mənəviyyat mənbəyidir. Bir daha deyirəm ki, biz onunla fəxr edirik. Bu gün onun anadan olmasının 100 illik yubileyini təntənə ilə qeyd edərək biz elmimizə, mədəniyyətimizə yüksək qiymət verməyimizi nümayiş etdiririk. Eyni zamanda Azərbaycan xalqını yüksək səviyyəyə qaldırmış Mustafa bəy Topçubaşovun xatirəsinə hörmət və ehtiramımızı bildiririk. Mən Mustafa bəy Topçubaşovun xatirəsi qarşısında baş əyirəm və deyirəm ki, onun xatirəsi bizim üçün həmişə əziz olacaqdır, onun adı Azərbaycanın gələcək nəsilləri üçün örnək olacaq və daim yaşayacaqdır.

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ FƏXRİ AKADEMİKİ ADINA LAYİQ GÖRÜLMƏSİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ*

Respublika EA Rəyasət Heyətinin iclas salonu
8 dekabr 1995-ci il

Türkiyə Respublikasının hörmətli prezidenti, əziz dostumuz və qardaşımız Süleyman Dəmirəl! Hörmətli Nəzmiyyə xanım! Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycanın böyük, ən yüksək elm mərkəzi olan Elmlər Akademiyasında Azərbaycanın elm adamları, ziyalıları bizim əziz qonağımız, dostumuz, qardaşımız, Türkiyənin prezidenti Süleyman Dəmirəlin görüşünə gəlmişlər. Bu gün Azərbaycanın Elmlər Akademiyası dünyanın böyük ictimai-siyasi, dövlət xadimlərindən biri olan, Türkiyə Cümhuriyyətinin tarixində böyük xidmətləri olan, böyük iz qoymuş, bu gün də Türkiyə Cümhuriyyətinin başında duran hörmətli Süleyman Dəmirələ Azərbaycan Elmlər Akademiyasının fəxri akademiki adı vermişdir.

Bu, əlamətdar bir hadisədir. Əziz qardaşım, dostum, bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət arzulayıram və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ən yüksək elm mərkəzi olan Elmlər Akademiyasının fəxri üzvü kimi siz bütün başqa sahələrdə olduğu kimi, Azərbaycanın elminə də öz qayğınızı, diqqətinizi göstərəcəksiniz və Azərbaycan elmi ilə Türkiyə elmi arasında əlaqələrin gələcək inkişafına səylərinizi qoyacaqsınız. Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Azərbaycan elminin tarixi böyükdür. Əsrlərdən əsrlərə Azərbaycanın elm adamları ixtiralar edib, dünya elminə böyük töhfələr veriblər və Azərbaycanın bilik, elm səviyyəsini qaldırıblar. XX əsrin əvvəlindən Azərbaycanda elmin inkişafı yeni vüsət alıbdır. Azərbaycanda elmi müəssisələr yaranıb, 1919-cu ildə ilk universitet yaranıbdır. Bu universitet həm yüksək təhsil ocağı, həm də Azərbaycan elmini birləşdirən, onu inkişaf etdirən böyük bir müəssisə, böyük elm ocağı olubdur. Ondan sonrakı illərdə də Azərbaycan elmi çox inkişaf edibdir. Məhz bunların nəticəsində İkinci dünya müharibəsindən sonra, 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası yaranıbdır.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. B., Azərnəşr, 1998, s. 151-154.

Elmlər Akademiyası 50 ildir ki, fəaliyyət göstərir. Keçdiyi bu 50 illik yolda Elmlər Akademiyası Azərbaycan elmini inkişaf etdirib, xalqımızın elm, bilik səviyyəsini daha yüksəklərə qaldırıbdır. Azərbaycan elmini dünyada tanıdıbdır və dünya elminə, bəşər elminə öz böyük töhfələrini veribdir. Elmlər Akademiyasının yaranması Azərbaycan xalqının, Azərbaycan Respublikasının həyatında əvəzsiz, tarixi bir hadisə olubdur. Elmlər Akademiyasının 50 il müddətində keçdiyi yol, bir də qeyd edirəm, Azərbaycan xalqının həyatında çox görkəmli yer tutubdur.

Bu illər ərzində Azərbaycan Elmlər Akademiyasının üzvləri – həqiqi üzvləri, müxbir üzvləri olub. Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, idarəsi altında toplaşmış elmi müəssisələr böyük ixtiralar ediblər, böyük tədqiqatlar aparıblar, böyük işlər görüblər, sanballı elmi kitablar, əsərlər yaradıblar, tam qətiyyətlə demək olar ki, dünya elminə böyük töhfələr veriblər. Bizi sevindirən hal ondan ibarətdir ki, Azərbaycan Elmlər Akademiyasının fəaliyyəti çoxsahəli olubdur. Dünya elminin demək olar, bütün sahələri Azərbaycan Elmlər Akademiyasının fəaliyyətində öz əksini tapıb və akademiyanın tədqiqat institutlarında, ayrı-ayrı laboratoriyalarında, ayrı-ayrı bölmələrində dünya elminin demək olar ki, bütün sahələri təmsil olunub və bu sahələrdə çox böyük işlər görülübdür.

Elmlər Akademiyasının ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, Azərbaycan xalqının tarixini araşdırmaqda böyük işlər görülüb və sanballı əsərlər yaradılıbdır. Türk dünyasının tarixini araşdırmaq, təhlil, tədqiq etmək sahəsində Azərbaycan alimləri, Elmlər Akademiyası əvəzsiz xidmətlər göstərmiş və çox böyük əsərlər yaradıblar.

Keçmiş Sovetlər İttifaqında türkologiya, türk dilləri ilə, türk dünyası ilə məşğul olan elmi idarələr çox az idi. Ancaq mən tam qətiyyətlə deyə bilərəm ki, onların əsas mərkəzi Azərbaycan olmuşdur. Azərbaycan Elmlər Akademiyası olmuşdur. Azərbaycan keçmiş Sovetlər İttifaqında türk dünyasının tədqiqində, təhlilində, onun tarixinin araşdırılmasında, türkdilli xalqların dillərinin inkişaf etməsində çox böyük xidmətlər göstərmişdir. Bu da onu göstərir ki, bizim alimlərimiz bütün sahələrdə çalışaraq, xalqımız üçün ən önəmli, ən əsas, ən əhəmiyyətli olan sahəyə – tariximizə, tarixi köklərimizə, dilimizin, tariximizin inkişafına, xalqımızın əsrlər boyu qəhrəmanlıq səhifələrinə çox diqqət yetirmiş, onları araşdıraraq elmi surətdə sübut etmişlər və elmi əsərlərlə dünyaya yaymışlar, xalqımıza, türk dünyasına çatdırmışlar. Beləliklə də, türk

xalqlarının, o cümlədən Azərbaycan xalqının nə qədər böyük, əzəmətli, möhtəşəm və şərəfli yol keçdiyini elmi əsərlərlə dünyaya bəyan etmişlər. Bu, Azərbaycan alimlərinin və xüsusən Elmlər Akademiyasının böyük xidmətlərindən biridir.

Azərbaycan Elmlər Akademiyası və alimlərimiz elmi tədqiqatlar apararkən daim Türkiyə ilə, Türkiyə Cümhuriyyətinin həyatı ilə maraqlanmışlar. O dövrlərdə, Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu zaman, Türkiyə ilə Azərbaycan arasında böyük sədlər mövcud olduğu zaman alimlərimiz bu sədləri özlərinin fədakarlığı, cəsurluğu, vətənpərvərliyi ilə yararaq, ayrı-ayrı cığırlar açaraq Türkiyəyə, Türkiyə Cümhuriyyətinə həmişə meyl göstərmişlər, əlaqə saxlamışlar, araşdırmalar aparmışlar və o dövrdə də böyük işlər görmüşlər.

Müstəqil Azərbaycan müstəqil həyatını yaşayan dövrdən respublikamızın elmi müəssisələri, Elmlər Akademiyası ilə Türkiyə Cümhuriyyətinin elm ocaqları, elm mərkəzləri, alimləri arasında çox sıx əlaqələr yaranmışdır. Alimlərimizin, elmi müəssisələrimizin, Akademiyanın rəhbərlərinin Türkiyəyə gediş-gəlişi və eyni zamanda Türkiyə Cümhuriyyətindən elm adamlarının Azərbaycana gəlişi indi adi hal olmuşdur. Bu, bizi çox sevindirir. Çünki əgər keçmiş zamanlarda alimlərimiz və bütün xalqımız buna daim can atmışsa, çalışmışsa və qarşıda olan sədləri aşıb keçərək öz əlaqələrini yaratmışsa, indi ölkəmiz müstəqil dövlətdir, sərhədlərimiz açıqdır və bizim üçün ən yaxın dost olan Türkiyə Cümhuriyyəti ilə əlaqələrimiz artıq çoxsahəlidir və genişdir. Ümidvaram ki, bu əlaqələr günü-gündən daha da genişlənəcək, möhkəmlənəcək və sarsılmaz, qırılmaz olacaqdır.

Bu baxımdan Elmlər Akademiyası tərəfindən Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirələ fəxri akademik adı verilməsi tamamilə əsaslıdır, məqsədəuyğundur. Bu gün mən səmimi qəlbdən deyirəm ki, dostumuz, qardaşımız Süleyman Dəmirəl bu ada layiqdir və bu ada öz fəaliyyəti ilə layiq olubdur.

Hörmətli dostumuz Süleyman Dəmirəlin həyat yolu, onun yaradıcılığı, fəaliyyəti Azərbaycan xalqına yaxşı məlumdur. O, həm mühəndisdir, həm alimdir, həm də ixtiraçıdır. Ancaq onun elm sahəsində ən böyük xidmətləri siyasət sahəsindəki xidmətləridir. Şübhəsiz ki, bütün elmlər cəmiyyət üçün, xalq üçün, bəşər üçün əhəmiyyətlidir. Amma siyasət elmi, deyə bilərəm ki, ən çətin bir sahədir. Siyasət sahəsində həm fəaliyyət göstərmək, həm də bu sahədə elmi nailiyyətlər əldə etmək, siyasətin elmi əsaslarını mənimsəmək və siyasəti bu əsaslar üzərində aparmaq böyük məharət, böyük fitri istedad tələb edir. Bunların hamısı da bizim dostumuz, qardaşımız Süleyman Dəmirələ məxsusdur. 35 ildən

artıqdır ki, dostumuz, qardaşımız, hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətində, onun siyasi həyatında siyasi fəaliyyət göstərir, dövlətçilik fəaliyyətindədir. Bu dövrdə Türkiyə Cümhuriyyətinin, dövlətinin inkişaf etməsi, demokratiyanın inkişaf etməsi, xalqın səviyyəsinin qalxması və Türkiyə Cümhuriyyətinin dünyada bu qədər görkəmli yer tutması, şübhəsiz ki, hörmətli dostumuz Süleyman Dəmirəlin siyasi, dövlətçilik fəaliyyəti ilə bağlıdır və ona borcludur.

Ona görə də hörmətli Süleyman Dəmirəl siyasət sahəsində dünya miqyasında böyük alimdir, böyük ictimai-siyasi xadim, dövlət xadimidir. O, hörmət edib bu gün Azərbaycan Elmlər Akademiyasına gəlib və Azərbaycan alimləri, elm xadimləri, Elmlər Akademiyası ona böyük hörmət, ehtiram göstərərək akademiyanın fəxri akademiki seçibdir. Mən hesab edirəm ki, bu, tariximizdə parlaq səhifələrdən biridir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu hadisə xalqlarımız arasında, dövlətlərimiz, ölkələrimiz arasında olan əlaqələrin daha da inkişaf etməsinə xidmət edəcəkdir və Azərbaycan elmi ilə Türkiyə Cümhuriyyətinin elmini daha da s ıx bağlayacaqdır.

Əziz dostum, qardaşım Süleyman Dəmirəl! Mən bir daha Sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, səadət arzu edirəm, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə yeni-yeni böyük nailiyyətlər arzulayıram. Təbrik edirəm Sizi.

TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ*

9 mart 1996-cı il

Hörmətli cənab prezident Eduard Şevardnadze!

Hörmətli cənab rektor Roin Metreveli, hörmətli alimlər, hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük iftixar hissi ilə sizin qarşınızda çıxış edirəm. Bu dəqiqələri, bu günü həyatımın xoşbəxt anları sayıram. Çünki dünyada ən məşhur universitetlərdən biri olan Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin məşhur alimlərindən ibarət elmi şurası mənə bu təhsil ocağının fəxri doktoru adı verilməsi haqqında qərar qəbul edib və bu fəxri mükafat artıq mənə təqdim olunubdur. Sizin bu qərarınıza görə, mənim fəaliyyətimə, xidmətlərimə, xüsusən gürcü və Azərbaycan xalqları arasındakı dostluq əlaqələrinin möhkəmlənməsi sahəsində xidmətlərimə verdiyiniz yüksək qiymətə görə mən sizə təşəkkürümü bildirirəm. Çox sağ olun.

Mən bu mükafatı, yəni fəxri doktorluq adını eyni zamanda müstəqil Azərbaycan Respublikasına, onun əldə etdiyi nailiyyətlərə və onun müstəqillik yolunda uğurlar qazanmasına göstərdikləri gözəl bir münasibət kimi qəbul edirəm. Əmin ola bilərsiniz ki, mən çalışacağam, sizin mənə göstərdiyiniz yüksək şərəfi və dostluq, qardaşlıq münasibətlərini, mənim siyasi fəaliyyətimə və xidmətlərimə verdiyiniz yüksək qiyməti bundan sonrakı əməli işlərimlə doğruldum.

İki gündür ki, mən və mənimlə bərabər Azərbaycandan gəlmiş böyük nümayəndə heyəti dost və qardaş gürcü xalqının qonaqpərvərliyi, dostpərvərliyi ilə əhatə olunmuşuq. Biz iki gündür ki, böyük bir bayram keçiririk. Müstəqil Gürcüstan ilə müstəqil Azərbaycan Respublikası arasında, xalqlarımız arasında dostluğun, qardaşlığın, əməkdaşlığın, möhkəmlənməsi və inkişaf etməsi üçün çox dəyərli və cəsarətli addımlar atırıq. Güman edirəm ki, bu günlər bizim birgə gördüyümüz işlər və imzaladığımız çox böyük əhəmiyyətə malik sənədlər xalqımızın və dövlətimizin gələcəyi üçün olduqca böyük xidmətlər göstərəcəkdir.

Mənim əziz dostum, qardaşım Eduard Şevardnadze bizim bu iki gün müddətində gördüyümüz işlər və əldə etdiyimiz nailiyyətlər

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. B., Azərnəşr, 1998, s. 427-431

haqqında sizə məlumat verdi. Mən təkrar etmək istəmirəm. Sadəcə demək istəyirəm ki, mən onun bütün fikirləri ilə razıyam, onun dediyi sözlər mənim dediyim sözlərdir. Bu da çox əhəmiyyətli haldır. Biz həm Gürcüstan-Azərbaycan əlaqələrinin bu günü və gələcəyi haqqında, həm də dünya problemləri, Qafqaz problemləri haqqında eyni fikirdəyik. Bu böyük problemlər haqqında bizim eyni fikirdə olmağımız xalqlarımızın və ölkələrimizin qarşısındakı vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə çox kömək edəcəkdir.

Biz Gürcüstan ilə Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında çox dəyərli bir sənəd imzalamışıq. Əminəm ki, hər iki tərəf bu sənədin bütün müddəalarının həyata keçirilməsi üçün əzmlə çalışacaqdır. Bizim bu görüşümüzün mühüm nəticələrindən biri cənab Şevardnadze ilə mənim Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olunması haqqında imzaladığımız birgə bəyannamədir. Bu, çox əhəmiyyətli sənəddir. Eyni zamanda bu, dünya miqyasında qiymətləndirilə biləcək böyük bir təşəbbüsdür. Bu bəyannamə bütün Qafqaz dövlətləri üçün də, başqa dövlətlər üçün də açıqdır. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Qafqazda sülhün, əmin-amanlığın bərqərar olmasını istəyən başqa sülhsevər dövlətlər, respublikalar da bu bəyannaməyə qoşulacaqlar.

Adətən, alimlər tarixi hadisələrə onların mənasını əks etdirən xüsusi adlar verirlər. Mən dünən imzalanmış bəyannaməni sizin qarşınızda «Tbilisi bəyannaməsi» adlandırmaq istəyirəm. Bir daha əmin olduğumu bildirmək istəyirəm ki, Tbilisi bəyannaməsi Qafqazda sülhün möhkəmləndirilməsi üçün çox faydalı olacaqdır.

Gürcüstanın və Azərbaycan Respublikasının son illərdəki vəziyyəti bir-birinə çox bənzərdir və bir çox hallarda eynidir. Biz həm ölkələrimizin daxilində, həm də ölkələrimizin təhlükəsizliyinin və ərazi bütövlüyünü qorumaq üçün eyni problemlərlə qarşılaşmışıq. Bu problemlər bizim həyatımızı çox gərginləşdiribdir. Ancaq mən ümidvaram ki, həm gürcü xalqı, həm də Azərbaycan xalqı bu problemlərin öhdəsindən gələcəkdir, həm Gürcüstanın, həm də Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunacaqdır.

Ölkələrimizin daxilində baş vermiş problemləri də xalqın dəstəyi ilə, xalqın həmrəyliyi ilə müvəffəqiyyətlə həll edirik. Gürcüstanın həyatında 1992-ci ildən indiyədək baş vermiş çox ağır və çətin problemlərin həll olunmasında gürcü xalqının milli həmrəyliyini və gürcü xalqının görkəmli oğlu, mənim dəyərli dostum Eduard Şevardnadzenin xüsusi fəaliyyətini mən burada qeyd etmək istəyirəm. Eduard Şevardnadzenin gürcü xalqı qarşısında xidmətləri keçmişdə də çox böyük olmuşdur.

Ancaq Gürcüstan müstəqil dövlət kimi yaşamağa başladığı bir zamanda, Gürcüstan xarici qüvvələr tərəfindən böyük təzyiqlər altında olduğu bir zamanda, Gürcüstanın ərazi bütövlüyü pozulduğu bir zamanda, Gürcüstanın daxilində çox gərgin və mürəkkəb proseslər getdiyi bir zamanda Eduard Şevardnadzenin Gürcüstan rəhbərliyinə qayıtması və onun böyük siyasi təcrübəsi, gərgin əməyi, hesab edirəm ki, gürcü xalqının, Gürcüstanın tarixində əvəzsizdir, yüksək qiymətə layiqdir.

Biz Azərbaycanda Gürcüstanı sevdiyimizə görə, gürcü xalqına əsrlər boyu böyük hörmət etdiyimizə görə Gürcüstanda gedən prosesləri daim çox maraqla izləmiş və çalışmışıq ki, bu proseslərin normal istiqamətdə getməsi üçün kənardan da olsa həm öz həmrəyliyimizi bildirək, həm də dost əlimizi uzadaq. Ona görə də indi artıq Gürcüstanda ictimai-siyasi sabitlik bərqərar olduğu üçün, bir çox proseslərin qarşısı alındığı üçün və ölkəmizdə demokratik hüquqi dövlət quruculuğu sürətlə həyata keçirildiyi üçün, Gürcüstanda dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda çox gərəkli addımlar atıldığı üçün biz bir qonşu kimi, dost kimi ürəkdən sevinirik və mən Azərbaycan xalqı adından sizi bu nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Əmin ola bilərsiniz ki, biz, azərbaycanlılar, Azərbaycan xalqı dostluğa sadiqik və dostluğumuzun əbədi olması üçün bundan sonra da əlimizdən gələni edəcəyik.

Azərbaycanda çıxarılan təbii qaz 1959-cu ildə ilk dəfə Gürcüstan torpağına gəldi, Tbilisidə ilk dəfə olaraq qaz məşəli yandırıldı. İndi isə bizim ölkələrimiz müstəqil dövlətlər olduğu bir zamanda Azərbaycanın zəngin neft yataqlarından çıxarılan neftin Gürcüstan ərazisindən keçməsi haqqında və böyük neft kəmərinin çəkilməsi haqqında qəbul edilmiş qərar da Azərbaycan ilə Gürcüstan arasında, xalqlarımız arasında mövcud dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Şəxsən mən ən gənc yaşlarımdan Gürcüstana, gürcü xalqına çox böyük hörmət və ehtiram hissi ilə yanaşdığıma görə bu hisslərimin keçmişdə də əməli surətdə həyata keçirilməsinə çalışmışam, indi də çalışıram və gələcəkdə də çalışacağam. Bizim dostluğumuzun gözəl nümunələrindən biri də Gürcüstanda yaşayan azərbaycanlılara göstərilən qayğı və diqqətdir. Biz bu gün mənim dostum, cənab Eduard Şevardnadze ilə bərabər, Azərbaycanın dəyərli şəxsiyyətləri olan Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin və ilk Azərbaycan Demokratik Respublikasının baş naziri, 1920-ci ildə Tbilisidə erməni terrorçularının güllələsindən həlak olmuş Fətəli xan Xoyskinin məzarlarını ziyarət etdik.

Buraya toplaşan azərbaycanlıların və bu gün məsciddə olan azərbaycanlıların hamısı Azərbaycan xalqının adət və ənənələrini, o cümlədən

Azərbaycan xalqının dəyərli şəxsiyyətlərinin ruhunu və qəbirlərini Gürcüstan torpağında qoruyub saxladığınıza görə sizə böyük minnətdarlıq və təşəkkürlərini bildirirlər. Şübhəsiz ki, bu sahədə alimlərin, müəllimlərin, Gürcüstan ziyalılarının xüsusi rolu var və mən sizə Azərbaycan xalqı adından minnətdarlıq və təşəkkürümü yetirirəm.

Burada Tbilisi universitetində təhsil alan gənc bir azərbaycanlı çıxış etdi. Bu, məni sevindirdi ki, Gürcüstan torpağı burada yaşayan azərbaycanlıların da vətənidir və azərbaycanlılar bu son illərdə, Gürcüstanda çox ağır vəziyyət olduğu dövrdə də Gürcüstan torpağını heç vaxt tərk etməmişlər. Eyni zamanda Gürcüstanda əmin- amanlıq bərqərar olduğuna görə həddindən artıq sevinmiş və bu əmin-amanlığın yaranması üçün əllərindən gələni etmiş, Gürcüstan parlamentinə seçkilərdə, Gürcüstan prezidentinin seçkilərində iştirak etmişlər. Mənə verilən məlumatlara görə, Gürcüstanda yaşayan azərbaycanlıların 99 faizi Eduard Şevardnadzenin Gürcüstan prezidenti seçilməsinə səs vermişdir. Bütün bunlar, bir tərəfdən, əziz dostlarım, sizin tərəfinizdən, Gürcüstan dövləti tərəfindən, hər bir gürcü tərəfindən azərbaycanlılara göstərilən diqqətin və qayğının təzahürüdür, digər tərəfdən isə Gürcüstanda yaşayan azərbaycanlıların Gürcüstan vətəndaşı kimi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini nümayiş etdirir.

Bunların hamısı birlikdə gürcü – Azərbaycan dostluğu deməkdir. Zənnimcə, dünən və bu gün biz bu dostluğun daha da möhkəmlənməsi üçün çox dəyərli addımlar atdıq. Hörmətli alimlər, hörmətli universitet rəhbərləri, bu münasibətlə sizinlə görüşmək mənim üçün unudulmaz bir hadisədir. Bu görüş münasibətilə, sizin mənə göstərdiyiniz bu diqqət və hörmətə görə sizə bir daha təşəkkür edirəm. Sizi əmin edirəm ki, mən bu günləri heç vaxt unutmayacağam və Gürcüstan ilə Azərbaycan arasında olan əlaqələrin, dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Burada Gürcüstanın görkəmli alimi Maryam xanım Lordkipanidze çox dəyərli sözlər dedi. Mən Gürcüstan və Azərbaycan alimlərinin, universitetlərinin əlaqələrinin möhkəmləndirilməsi və inkişafı ilə bağlı təklifləri nəzərdə tuturam. Mən bu təklifləri məmnuniyyətlə qəbul edirəm və hesab edirəm ki, bizim ölkələrimizin alimlərinin, ziyalılarının, elm və mədəniyyət xadimlərinin, o cümlədən universitetlərin, akademiyaların əlaqələrinin daha da sıx olması xalqlarımız və ölkələrimiz arasında əlaqələrin daha da sıx olması üçün çox lazımdır. Mənim tərəfimdən siz bu sahədə hər bir dəstəyi ala bilərsiniz.

Sizə bir daha təşəkkür edirəm. Elmə, mədəniyyətə, ali təhsilə öz hörmət və ehtiramımı bildirirəm. Gürcüstan alimlərinə daim olan hörmət və

ehtiramımı bildirirəm. Sizə cansağlığı və xoşbəxtlik arzulayıram. Çox sağ olun, təşəkkür edirəm. Gələn görüşlərədək.

Şota Rustavelinin dövründə yaşayıb-yaratmış, Azərbaycan xalqının böyük şairi Nizami Gəncəvinin portreti toxunmuş xalçanı bu görüşümdən yadigar olaraq Tbilisi Dövlət Universitetinə bağışlayıram.

GÖRKƏMLİ ALİM VƏ DÖVLƏT XADİMİ VƏLİ YUSİF OĞLU AXUNDOVUN 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY YIĞINCAĞINDA NİTQ*

Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu
21 iyun 1996-cı il

Hörmətli xanımlar və cənablar!

Mən sizi — Vəli Axundovun xatirəsinə hörmət edib bu yubiley mərasiminə toplaşanları səmimi qəlbdən salamlayıram və sizinlə bir daha görüşümdən məmnun olduğumu bildirirəm. Vəli Axundovun 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam qəbul edərkən mən iki məqsədi nəzərə almışam. Birincisi, xalqımızın, millətimizin, respublikamızın, dövlətimizin tarixinə daimi hörmət və ehtiramın zəruriliyini, bununla yanaşı olaraq Vəli Axundovun xidmətlərinə və onun şəxsiyyətinə olan hörmət və ehtiramımı nəzərə almışam.

Görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsi demək olar ki, dünyanın hər yerində ənənəvi xarakter daşıyır. Respublikamızda da bu ənənə uzun illərdir ki, yaşayır və mən bunu gözəl ənənələrdən biri hesab edirəm. Ancaq təcrübədə belə hallar müşahidə olunur ki, demək olar, çox vaxt, adətən mədəniyyət, elm, ədəbiyyat xadimlərinin yubileyləri qeyd edilir, amma ictimai-siyasi, dövlət xadimlərinin yubileyləri çox nadir hallarda qeyd olunur, yaxud da bunlar unudulur. Hesab edirəm ki, həyat öz qanun-qaydalarını get-gedə özü tənzimləyir, nizama salır. Amma eyni zamanda, bu adət-ənənələri, qanun-qaydaları nizamlamaq, tənzimləmək üçün təşəbbüslər göstərmək lazımdır.

Şübhəsiz ki, hər bir xalqın şairi, yazıçısı, müğənnisi, bəstəkarı, rəssamı, incəsənət xadimi onun iftixarıdır. Xalq onları qiymətləndirir və qiymətləndirməlidir. Ona görə də onların yubileyləri keçirilir. Hesab edirəm ki, biz bu ənənəni genişləndirməli, inkişaf etdirməliyik. Amma tarixdə, cəmiyyətdə insanların bir qismi həyatını, fəaliyyətini dövlət işinə, siyasətə, xalqın bu gününün, gələcəyinin qurulmasına, yaradılmasına həsr edir. Təəssüf ki, onların əksəriyyəti ya vəzifədən gedəndən sonra unudulur, yaxud da həyatdan köçəndən sonra tamamilə unudulur. Bu, nor-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. B., Azərnəşr, 1998, s. 446-460

mal hal deyildir. Ona görə də Vəli Axundovun 80 illiyi haqqında sərəncam qəbul edərkən şəxsən mən bu cəhətə üstünlük vermişdim.

Vəli Axundov görkəmli alimdir, respublikada səhiyyə işinin böyük təşkilatçılarından biri olubdur. Amma onun xalq qarşısındakı xidmətlərini ölçüyə götürsək, respublikaya rəhbərlik etdiyi zaman gördüyü işlər və xalqa etdiyi xidmətlər səhiyyə sahəsindəki xidmətlərindən qat-qat üstündür. Məhz buna görə də mən belə bir yubileyin keçirilməsi haqqında sərəncam qəbul etmişəm.

Sizin qarşınızda mən həmişə səmimi olmuşam. Bu gün də səmimi danışıram. Təəssüflər olsun ki, belə bir yubileyin keçirilməsi haqqında mən heç bir təşkilatdan, şəxsən təşəbbüs almamışam. Bu gün bu salona ziyalılarımız, Vəli Axundovu tanıyanlar, ona hörmət edənlər, onun qohum-əqrəbası toplaşıblar. Amma heç kim təşəbbüs göstərmədi ki, Vəli Axundovun yubileyi yaxınlaşır, onu qeyd etmək lazımdır. Yada salmadılar. Mən çox düşündüm. Uzun illər siyasi fəaliyyətim zamanı mən belə adamlarla rastlaşmışam. Hər dəfə də belə insanların bir-birinə, xalqımızın dəyərli insanlarının xatirəsinə belə biganəliyi məni narahat edibdir və bu gün də narahat edir. Ona görə də mən bu addımımla istəyirəm xalqımızı, millətimizi, cəmiyyətimizi tariximizə, insanlara lazımi münasibət göstərmək istiqamətinə yönəldim.

Əsrlər boyu xalqımız böyük tarixi yol keçibdir. Tariximizin hər bir səhifəsi bizim üçün əzizdir. Şübhəsiz ki, tariximizin parlaq səhifələri də, qaranlıq səhifələri də var, təntənəli səhifələri də, faciəli səhifələri də var. Tariximizdə xalqımızın başına bəlalar da gətirilibdir. Faciələrin çoxu bununla əlaqədar olubdur. Ancaq bir çox əsaslı, əsassız səbəblərdən içimizdə bir-birinə düşmənçilik, ədavət, ziddiyyət hissiyyatları da olub, xalqımızı ötən əsrlərdə, minilliklərdə çox ağır, faciəli məqamlara gətirib çıxarıbdır. Birincisi, gərək biz bunları obyektiv, düzgün təhlil edək. İkincisi də, gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq. Ona görə də belə yubileylər keçirmək, eyni zamanda ayrı-ayrı şəxsiyyətlərin xidmətlərinə qiymət vermək, tariximizi yada salmaq, tariximizə verilən qiymət kimi dəyərləndirilməlidir.

Mən qeyd etdim ki, dövlət xadimlərinin, ictimai-siyasi xadimlərin fəaliyyəti təəssüf ki, unudulur, yaxud da hakimiyyətdən gedəndən, həyatdan köçəndən sonra onların xidmətləri haqqında danışılmır. Əksinə, oradan-buradan axtarıb tapırlar ki, o bunu pis edib, bunu etməli idi — etməyib və s. Bunlar aradan götürülməlidir. Bilirsiniz, biz indi elə bir mərhələyə gəlib çatmışıq ki, özümüz öz taleyimizin sahibiyik, həyatımızı özümüz qururuq. Ona görə də bu həyatı elə qurmalı, yaratmalı, bu günü də, sabahı da, keçmişi də elə təmin etməliyik ki, səhv, yanlışlıq olmasın.

Hələ ötən il mən Nəriman Nərimanovun anadan olmasının 125 illiyinin respublikamızda qeyd olunması barədə fərman verdim. Nəriman Nərimanov məşhur şəxsdir. Onun haqqında burada geniş danışmağa bəlkə də ehtiyac yoxdur. Mən, eyni zamanda Fətəli xan Xoyskinin 125 illiyini qeyd etmək barədə fərman verdim. O da indi tanınır, amma ola bilər ki, o, Nəriman Nərimanov qədər məşhur bir şəxs deyil. Ancaq bu iki şəxsiyyət arasında böyük oxşarlıq var.

Fətəli xan Xoyski 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının qısa zamanda baş naziri olubdur. Nəriman Nərimanov isə 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Xalq Komissarları Sovetinin sədri, yəni baş nazir olubdur. Tutduqları vəzifəyə görə yox, şəxsiyyətlərinə və ictimai-siyasi fəaliyyətlərinə görə onların ikisi də çox dəyərli insanlar olubdur.

Onlar təsadüfi adamlar deyildilər. Məsələn, Fətəli xan Xoyski 1918-ci ildə təsadüfən gəlib bizim ilk demokratik respublikamızın baş naziri olmamışdır. O, əvvəlki illərdə də siyasi fəaliyyət göstərmişdi, çar Rusiyası Dumasının Azərbaycandan deputatı olmuşdu. Doğrudur, Sovet hakimiyyəti dövründə tariximiz çox təhrif edilmişdi. O zaman Fətəli xan Xoyski tamamilə unudulmuşdu. Biz son illər tariximizi düzgün təhlil etmək imkanı əldə edəndən sonra Fətəli xan Xoyskinin kimliyini və onun fəaliyyətinin nədən ibarət olduğunu artıq dərk etmişik.

Yəqin mətbuatdan sizə məlumdur ki, Gürcüstan prezidenti Eduard Şevardnadzenin dəvəti ilə mən bu ilin martında bu respublikada rəsmi səfərdə olarkən Fətəli xan Xoyskinin qəbri üzərində onun abidəsinin açılması mərasimində iştirak etdim. Onun qəbri Mirzə Fətəli Axundovun qəbri ilə yan-yanadır. Mən Mirzə Fətəli Axundovun qəbrini ilk dəfə 1970-ci ildə, Tbilisidə olarkən ziyarət etmişəm. Onun qəbri o vaxt istənilən şəkildə deyildi. Onun qəbrinin müəyyən qədər abadlaşdırılması barədə o vaxt mən lazımi tədbirlər görmüşdüm. Amma o vaxt heç kəs mənə deməmişdi ki, Mirzə Fətəli Axundovun qəbrindən bir metr o yanda Fətəli xan Xoyskinin qəbri yerləşir. Bunu mən də bilməmişdim. Çünki mənə deyən olmamışdı. Fətəli xan Xoyski ona görə unudulmuşdu ki, o Sovet hökumətinin düşməni olubdur. Xalqının mənafeyi uğrunda fədakarlıq göstərən insan olduğuna görə o, erməni daşnaklarının gülləsi ilə Tbilisidə qətlə yetirilmişdi.

Fətəli xan Xoyskinin adı indi bərpa olunub. Amma görürəm ki, respublikamızın bəzi ictimai-siyasi təşkilatları ona yenə də lazımi fikir vermirlər. Ona görə də mən onun yubileyinin qeyd olunması barədə fərman verdim, Azərbaycanda son illər, xüsusən 1989, 1990-cı illərdə gedən bəzi cərəyanlar nəticəsində meydana çıxmış bir sıra siyasətçilər tariximizin

ötən 70-80 ilini tamamilə pozmağa, Nəriman Nərimanovun xidmətlərini kənara qoyaraq onu unutmağa cəhd göstərirdilər. Öz tarixinə, öz millətinə bu qədər ədalətsizlik etmək olarmı?

Nəriman Nərimanovun 100 illiyini qeyd edərkən, xatirəsini əbədiləşdirərək Bakının çox görkəmli bir yerində onun abidəsini ucaltdıq. Biz onun o vaxtkı Kommunist, indiki İstiqlaliyyət küçəsində olan evini muzey etdik. Amma sonra bir il müddətinə hakimiyyətə gələn insanlar bu evi zəbt edib, onu mənzilə çevirməyə çalışdılar. Onlar Nəriman Nərimanovu tariximizdən tamamilə silməyə cəhd etdilər. Əgər biz tariximizə və görkəmli şəxsiyyətlərimizə belə münasibət göstərsək, onda elə çıxacaq ki, nə tariximiz, nə kökümüz, nə əsl-nəcabətimiz, nə də keçmişimiz var, heç bir şeyimiz yoxdur.

Burada çıxış edən Cəmil Quliyev tarixin bir neçə məqamını yada saldı. Əgər sona çatmaqda olan XX əsri götürsək, 1918-ci ilə qədər Azərbaycanda hakimiyyət çar Rusiyasının qubernatorlarının, eyni zamanda ayrı-ayrı bölgələrdəki xanların, bəylərin əlində olmuşdur. Yəni o dövrdə vahid Azərbaycan dövləti, demək, Azərbaycanın vahid rəhbərliyi də olmayıb.

1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranıb, 23 ay fəaliyyət göstərib. Onlar çox ağır şəraitdə yaşayıblar, işləyiblər. Sonra Azərbaycanda Sovet Sosialist Respublikası yaranıb. Bu respublika Moskva ilə bağlı olsa da, yenə də iki 11 müstəqil respublika kimi yaşayıb. 1922-ci ildən isə bu respublika Sovetlər İttifaqının tərkibinə daxil olub. 1918-ci ilə qədər Azərbaycan vahid dövlət olmayıb, 1918-ci ildən 1920-ci ilədək onun rəhbərləri altı aydan bir dəyişdirilib, 1920-ci ildən 1934-cü ilədək, – burada düzgün deyildi, — o vaxtkı sistemə görə Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində respublikamıza öz millətimizdən olan adam, azərbaycanlı rəhbərlik etməyib. Respublikamıza rəhbərlik edənlər o vaxt həmişə kənardan gələnlər və cürbəcür millətlərin nümayəndələri, o cümlədən ermənilər olublar.

Belə bir dövrdə 1920-ci ildə Nəriman Nərimanov kimi bir şəxsiyyət meydana çıxmış və Azərbaycan Respublikası Xalq Komissarları Sovetinin sədri olmuşdur. O, Moskvada iki il SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olub, 1925-ci ildə qəflətən dünyasını dəyişmişdir.

Sonrakı dövr tariximizi götürək. 1934-cü ildən 1953-cü ilə qədər Mircəfər Bağırov, ondan sonra beş il İmam Mustafayev, sonra 10 il Vəli Axundov respublikaya rəhbərlik etmişlər. Bundan sonrakı dövr isə sizə məlumdur. Məgər biz bunları unuda bilərikmi? Axı, ötən bu illərin hər birində Azərbaycanın həyatında böyük dəyişikliklər olubdur. Mübarizə də, gərginlik də, çətinlik də, faciələr də, repressiyalar da olubdur. Amma

xalq yaşayıb, yaradıb, inkişaf edibdir. Məgər biz bunları unuda bilərikmi və yaxud deyə bilərikmi ki, tariximizin bu hissəsi tamamilə unudulmalıdır, bu hissəsi mənim xoşuma gəlir, ona görə də gəlin bunu tərifləyək?

Bir meyl də meydana çıxıb. Sovet hakimiyyəti vaxtı tariximizdə hansı şeylər ki, sovet ideologiyasına uyğun deyildi, onları ya tamamilə unudurdular, yaxud gizlədirdilər, tərsinə çatdırırdılar; o şeylər ki, mənfəətli idi, onu gətirib mənfəətli şəkildə də göstərirdilər. Bu da o dövrün əcaibliyi idi. Mən bir dəfə demişdim, bu gün bir daha deyirəm, bəzi alimlərimiz sübut etməyə çalışırdılar ki, elə Nizaminin də, Füzulinin də əsərlərində sosializm ideyaları olubdur. Belə cəhdlər də var idi. 1990, 1991, 1992-ci illərdə isə meyl o biri tərəfə idi; 1920-ci ildən 1992-ci ilədək olan nə varsa hamısını pisləmək. Deyirdilər ki, nə varsa hər şey 1918-ci ildən 1920-ci ilədək olubdur, ondan sonra nə Azərbaycan, nə millət, nə dövlət olubdur – heç bir şey olmayıbdır və hər şeyi unutmaq lazımdır. Bax, keçmişdəki xəstəlik indi başqa istiqamətdə sirayət etməyə başlamışdı. Biz bunlara yol verə bilməzdik.

Ona görə də mən dəfələrlə demişəm, bu gün bu salonda bir daha deyirəm. Bilirəm ki, buraya toplaşanların əksəriyyəti alimlərdir, akademiklərdir, akademiyanın üzvləridir. Biz qısa vaxtda heç olmasa XX əsrin tarixini yazmalıyıq. Mən bu mövzuya bir daha qayıdacağam.

Bax, bunlara görə bu gün Vəli Axundovun yubileyinin keçirilməsi yubiley çərçivəsindən çıxan bir tədbirdir. Bilirsiniz ki, üç ildir mən yenidən Azərbaycana qayıtmışam və respublikaya rəhbərlik edirəm. Bu üç il müddətində mənim istirahət etməyə bir gün də vaxtım olmayıb. Bu müddətdə bir çox yubileylər keçirilib. Bu yubileylərin hamısında iştirak etməyə mənim vaxtım olmayıb. Ancaq bu gün, bu yubileyə mən birincisi, Vəli Axundovla olan şəxsi münasibətimə görə, ikincisi, mənim nöqteyi-nəzərimcə, bu yubiley adi yubiley çərçivəsindən kənara çıxdığına görə gəlmişəm. Mən bu fikirləri, sözləri burada bax, ona görə deyirəm.

Vəli Axundovun həyat yolu, fəaliyyəti haqqında məndən əvvəl burada çıxış edən natiqlər geniş məlumat verdilər. Deyilənlərin hamısı ilə razıyam və onları təsdiq edirəm. Vəli Axundovu mən uzun illər ərzində tanımışam. Ola bilər ki, onu o qədər yaxından tanıyan adamlar burada azdır. Mən Vəli Axundovu təxminən 1953-cü ildən tanıyırdım və hətta sonralar lap yaxından tanış olmuşdum, bir yerdə işləmişdik. Onun elmi fəaliyyəti, səhiyyə sahəsində gördüyü işlər qiymətlidir və bu barədə burada danışdılar. Ancaq Azərbaycan Respublikasına on il rəhbərlik etmək onun gördüyü bütün işlərin hamısından ağır, çətin olubdur, bir daha qeyd edirəm, bütün xidmətlərindən şərəfli və üstün olubdur.

Vəli Axundovun Azərbaycana rəhbərlik etdiyi dövr – 1959-cu ilin iyulundan 1969-cu ilin iyulunadək – Sovetlər İttifaqının, o cümlədən Azərbaycanın həyatında çox gərgin və mürəkkəb bir dövr idi. Bu, elə bir dövr idi ki, Stalin öləndən sonra Xruşşovun hakimiyyəti dövründə Sovetlər İttifaqının həyatında çoxlu dəyişikliklər gedirdi, cürbəcür tədbirlər aparılırdı. Xruşşov hakimiyyətinin ikinci mərhələsi idi. O, on il hakimiyyətdə olmuşdu. Xruşşovun hakimiyyətinin birinci mərhələsində Azərbaycana İmam Mustafayev rəhbərlik edib, bu dövrün beş ili onun üzərinə düşüb. Sonrakı beş il isə Vəli Axundovun üzərinə düşüb. Yenə də deyirəm, o illər çox ağır, çətin, gərgin dəyişikliklər illəri olub. O vaxt, Xruşşov dövründə bir çox yuxarı dövlət orqanlarında dəyişikliklər gedirdi, Stalin dövründə işləmiş adamlar işdən çıxarılırdı və s. Bundan sonra 1937-38-ci illərin repressiyalarının aşkar olunması, repressiyaya məruz qalmış insanların reabilitasiyası gedirdi.

Bilirsiniz, o dövr Azərbaycan üçün ona görə çox gərgin idi ki, 1953-cü ildə respublikanın rəhbəri olan Mircəfər Bağırov həbs edilmişdi. Azərbaycanın həyatında. çox gərgin bir vəziyyət yaranmışdı. Bu dövrdə Azərbaycana İmam Mustafayev rəhbərlik edirdi. Bundan sonra Xruşşovun hakimiyyəti zəifləməyə başlamışdı. 1964-cü ildə Xruşşov hakimiyyətdən getmiş və Brejnev, onun tərəfdarları hakimiyyətə gəlmişdilər. Bu dövr mürəkkəb bir dövr idi. Şübhəsiz ki, bu dövrdə işləmək, respublikaya rəhbərlik etmək asan məsələ deyildi.

Vəli Axundovun üzərinə düşən çətin vəzifələrdən biri də ondan ibarət idi ki, – fürsətdən istifadə edərək demək istəyirəm, təəssüf ki, bu, bizim milli bəlamız, dərdimizdir – içimizdən içimizi dağıdanların, yeyənlərin günahı üzündən 1959-cu ildə Azərbaycan Respublikasında millətçilik meyllərinin mövcud olması haqqında o vaxtlar Sovetlər İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi qərar qəbul etmişdi. Bilirsiniz, o vaxtlar da mən kənarda duran adam deyildim – bir vətəndaş kimi, bu, məni yandırmışdı, indi də yandırır ki, o vaxt Azərbaycan kimi beynəlmiləlçi bir millət, respublika tapmaq bəlkə də çətin idi. İndi görün bizim bəlamız nə dərəcədə idi ki, o vaxt gətirib Azərbaycana millətçilik damğası vurdular. Azərbaycanın rəhbərliyini işdən götürdülər, respublikamızın başına çox bəlalar gətirdilər. Bu, böyük bir tarixdir. Azərbaycanın başına gələn bu bəlalar sadə məsələlər deyildi. Hansı millətçilikdən söhbət gedə bilərdi? Nə var-nə var, siz «Nəriman Nərimanovu başlamısınız tərifləməyə, Şaumyanı az təbliğ edirsiniz» və sairə. Vəziyyət belə idi.

Vəli Axundov bax, belə bir qərardan sonra respublikaya rəhbərlik etməyə başlamışdı. Asan deyildi. Ancaq həm biliyinə, həm təcrübəsinə,

həm də zəkasına, təmkinliliyinə görə Vəli Axundov bu ağır, çətin bir dövrdə on il respublikaya rəhbərlik etdi. Bu on il müddətində respublikamızda böyük nailiyyətlər də olmuşdu, xalqımız yaşamışdı, qurmuşdu. Bütün bunlar heç də avtomatik olaraq getməmişdi. Şübhəsiz ki, bunlar Azərbaycan Respublikasının dövləti, hakim dairələri tərəfindən idarə olunmuşdu, istiqamətləndirilmişdi, tənzimlənmişdi. Respublikanın rəhbərliyində birinci şəxsin bunların hamısında rolu, şübhəsiz ki, hər bir kəsin rolundan üstün idi. Bunu heç kəs, heç vaxt unutmaz.

Bilirsiniz, o vaxt – Stalin tənqid edilən zaman belə bir əhval-ruhiyyə yarandı ki, bəli, Sovetlər İttifaqı yaşayır, böyüyür. Amma Stalin olmasaydı daha da yaxşı olardı. İkinci dünya, Böyük Vətən müharibəsində Sovet İttifaqı qalib gəlibdir, amma Stalinin burada rolu yox imiş. Bilirsiniz, bu, adi xəstəlik deyildi, bəlkə də kommunist ideologiyasının xəstəliyi idi, bu ideologiyanı həyata keçirən ayrı-ayrı qrupların, dəstələrin xəstəliyi idi. Onlar öz şəxsi mənafeləri, məqsədləri naminə başqasının rolunu ya ləkələmək, yaxud onu qiymətdən salmaq istəyirdilər.

Ona görə də həmin dövrdə görülən işlərdə, əldə edilən nailiyyətlərdə Azərbaycanın birinci rəhbəri kimi Vəli Axundovun rolu böyükdür, yüksək qiymətə layiqdir və mən bunu bu gün böyük məmnuniyyət hissi ilə qeyd edirəm.

O dövrdə səhvlər də, əyintilər də olub. Bunlar bəzən cürbəcür obyektiv səbəblərdən, bəzən də subyektiv səbəblərdən meydana çıxıb. O dövrdə, yəni 60-cı illərdə Azərbaycanın həyatında şübhəsiz ki, iqtisadiyyatda gerilik, ayrı-ayrı sahələrdə səhvlər, ayrı-ayrı sahələrdə bəzi mənfi hallar mövcud idi. 70-ci illərdə biz bunları tənqid etmişdik, şəxsən mən öz çıxışlarımda, məruzələrimdə tənqid etmişdim. Ona görə yox ki, kimi isə pisləmək istəmişəm. Bu səhvləri buraxmamaq üçün, işləri yaxşı qurmaq üçün tənqid etmişəm. Məlumdur ki, işlər bundan sonra daha yaxşı qurulmuşdur. Ancaq bunların heç birisi Vəli Axundovun Azərbaycan Respublikasının rəhbəri kimi, ona 10 il rəhbərlik etmiş bir şəxs kimi fəaliyyətini heç də azaltmır, əksinə, onun fəaliyyəti yüksək qiymətə layiqdir.

Mən o illərdə, yəni Vəli Axundov respublikaya rəhbərlik etdiyi illərdə onunla birlikdə, onun rəhbərliyi altında işləmişəm. Bilirsiniz ki, mən Dövlət Təhlükəsizliyi Komitəsində işləmişəm və iş prosesində onunla sıx əlaqədə olmuşam. Bəzən onun dərdlərini də hiss edirdim, çətinliklərini də. Onun ürək ağrısını görür, hiss edirdim. Bunların bəziləri obyektiv xarakter daşıyırdı, bəziləri də işlərin görülməsi üçün bəlkə də onun özünün lazımi imkanı olmamasından irəli gəlirdi. Bunların bəziləri onun ətrafında olan ayrı-ayrı adamların ona etdikləri maneçiliyin nəticəsi idi.

Cəmil Quliyev burada bir-iki faktı xatırlatdı. Doğrudan da, o illərdə Ermənistanın millətçi dairələri, Moskvada oturan millətçilər Azərbaycana həmişə təzyiq göstərməyə və Azərbaycanın nailiyyətlərinə həmişə mane olmağa, xüsusən ermənilərin Azərbaycana təsirini daim saxlamağa çalışırdılar. Vəli Axundov bunların qarşısını almağa səy göstərir, müəyyən iş görürdü. Mən səmimi danışıram, indi bunlar tarixə döndüyünə, keçmişdə qaldığına görə danışmaq olar. Sonralar mən respublikaya rəhbərlik etməyə başladıqda biz vaxtaşırı görüşürdük, o, mənim yanıma gəlirdi. Bəzən gəlib danışırdı ki, siz, misal üçün, bu məsələni həll etdiniz. Amma mən neçə il çalışdımsa, onu həll edə bilmədim. Mən bilirdim ki, o, doğrudan da çalışır, amma həll edə bilmirdi. Ona görə yox ki, həll etmək istəmirdi. Buna bəzi səbəblərə görə gücü çatmırdı.

Bunlar təbiidir, hər bir kəsdə ola bilər. Amma onu da, şəxsən məni də çox narahat edən bu idi ki, onun ətrafında olan adamlar, irəli çəkdiyi adamlar işinə mane oldular. Bu, həqiqətən belədir – onun işinə mane oldular.

Bilirsinizmi, bu xəstəlik sonralar da davam etdi, indi də davam edir. Vəzifə hərisliyi insanları bəzən çox ləyaqətsiz hərəkətlərə təhrik edir. Vaxtilə Vəli Axundovun irəli çəkdiyi adamlar sonra onun yerini tutmaq üçün onu vəzifədən kənarlaşdırmağa çalışdılar. Mən bunları görürdüm. O da bəzən öz dərdini mənə deyirdi. Onun səhhəti o qədər də yaxşı deyildi, ona bu da mane olurdu. Ona görə də bəzən dərdini açıb söyləyərkən mən onun dərdinə şərik olurdum və imkan dairəsində çalışırdım ki, ona kömək edim. O vaxt Vəli Axundov birinci katib, yəni Azərbaycanın birinci rəhbəri olarkən mən respublikanın dövlət təhlükəsizliyi orqanının başçısı kimi həmişə prinsipial mövqedə dururdum və işlərin prinsipial surətdə həyata keçirilməsinə çalışırdım. Onun bütün məsələlərdə hamıdan fərqli olaraq həmişə sağlam mövqe tutduğunun şahidi olmuşam.

O vaxtlar doğrudan da, Qarabağ məsələsi qaldırılmışdı. Xatirimdədir, bir dəfə hətta yenə məcbur etmə k istəyirdilər ki, Qarabağ məsələsinə baxılsın. O, bir neçə dəfə mənimlə məsləhətləşdi. Bu məsələnin qarşısı alındı. Ancaq sonra, – Cəmil Quliyev onu burada dedi, – bir neçə erməni, eləcə də Ermənistan çalışırdı ki, Azərbaycanın Ermənistanla sərhəd rayonlarında bəzi torpaqlarımızı öz torpaqları kimi ələlərinə keçirsinlər. Onlar köhnə xəritələri – 28-ci ilin, yaxud da 29-cu ilin xəritələrini ortaya çıxarmışdılar. İki-üç il danışıqlar getdi. Bu danışıqları tək Vəli Axundov deyil, Məmməd İsgəndərov, Ənvər Əlixanov, ikinci katib Yelistratov birlikdə aparırdılar. Təəssüf ki, bu danışıqlar nəticəsində 1969-cu ilin may ayında Azərbaycanın Ali Soveti elə bir qərar qəbul etmişdi ki, həmin sərhədyanı torpaqlar guya Ermənistana mənsubdur və ona verilməlidir. Mən iyul ayında Azərbaycana rəhbər seçilən kimi bu məsələni bir ay müddətində təhlil etdim və həmin qərardan imtina etdim. Çox çalışdılar ki, bu qərar həyata keçirilsin, lakin mən buna imkan vermədim. Bu qərarın o vaxt necə qəbul olunduğunu da bilirəm. İndi bunu danışmağa ehtiyac yoxdur. Amma bununla onu demək istəyirəm ki, şübhəsiz, o da həmin torpaqların verilməsini istəməmişdi. Ancaq həm yuxarıdan, Moskvadan olan təzyiqlər, həm sağdan, həm də soldan olan təzyiqlər birlikdə bu cür qərarın qəbul edilməsinə gətirib çıxarmışdı.

İşlədiyi son illərdə Vəli Axundovun səhhəti zəifləmişdi. Bəzi şəxslər bundan istifadə edərək onu vəzifədən götürməyə çalışırdılar. Çünki hər birisi hesab edirdi ki, Vəli Axundov vəzifədən götürülsə, onun yerinə o keçəcəkdir. Bax, bu, bizim bəlamızdır. O vaxtlar mən müşahidə edirdim və bu barədə Vəli Axundovla söhbət aparırdım. Mən ona böyük ürək ağrısı ilə dedim ki, bizim adamlar öz şəxsi məqsədləri üçün belə yollara gedirlər.

Lakin siz həqiqəti bilməlisiniz. Həqiqət də belə oldu ki, o adamlar, – onların bəziləri dünyasını dəyişib, bəziləri isə hələ sağdır, – çalışırdılar ki, Vəli Axundov vəzifədən getsin və onlar da onun vəzifəsini tutsunlar. Amma onların heç birisi bu vəzifəni tuta bilmədi. Siz soruşa bilərsiniz, bəs necə oldu ki, bu vəzifəyə Heydər Əliyev gəldi? Bunu hamı bilir, rəhmətlik Vəli Axundov da çox yaxşı bilirdi ki, o vaxt məndə respublikanın rəhbəri olmaq fikri qətiyyən yox idi. Özünüz yaxşı bilirsiniz ki, mən gənc yaşlarımdan hərbi xidmətdə olmuşam, zabit, general rütbələri almışam, təhlükəsizlik orqanlarında işləmişəm. Mən bu işi çox sevən bir adam idim. Odur ki, həyatımı ancaq bu sahə ilə bağlamışdım. İkincisi də, mən təsəvvür edə bilməzdim ki, respublikaya rəhbərlik edəcəyəm. Çünki mən bu işlərdən çox kənar idim, daim öz peşəmlə məşğul olurdum.

Lakin Vəli Axundovu yıxmaq uğrunda mübarizə aparan adamlar sonra da bir-birini yıxdılar. Nəticədə belə oldu ki, artıq Vəli Axundov vəzifədən getməli idi, onların isə heç biri yararlı olmadı. Bir neçə adamla söhbət etmişdilər, amma onlar yararlı olmadılar. Sonra mənə müraciət etdilər. Bilirsiniz ki, mən 69-cu ildə həmin vəzifəyə seçildim.

O vaxtlar Vəli Axundovun öz yerinə təqdim etdiyi adam o qədər də layiqli olmamışdı. Bu həqiqəti də demək lazımdır. O adam sonra bunu etiraf etdi. O da öz yerinə bir adam təqdim etmişdi. Lakin bu adam da qəbul olunmamışdı. Bunu sonra onun özü etiraf etdi.

Bu xəstəlik, yəni bir-birinə mane olmaq, bir-birinə zərər vurmaq, bir vəzifəni tutmaqdan ötrü həmin vəzifədə olan adamın ayağının altını qazmaq xəstəliyi bizdə keçmişdə də olubdur, təəssüf ki, sonralar da olubdur.

O vaxtlar bu barədə mənim Vəli Axundovla bir-iki dəfə söhbətim oldu. Bu da tarixdir və bunu da bilmək lazımdır. 1920-ci ildə Nəriman Nərimanov Azərbaycanda Xalq Komissarları Sovetinin sədri olarkən şübhəsiz ki, o, həmin dövrdə ən hörmətli və ən dəyərli bir şəxsiyyət idi. Amma Azərbaycana zidd olan qüvvələr, Moskvadan gəlmiş şovinistlər, həm də Azərbaycanda o vaxt çox böyük vəzifələrdə olan ermənilər Nəriman Nərimanov kimi adamın Azərbaycanda olmasını istəmirdilər.

Ona görə də Nəriman Nərimanovun ətrafında olan o vaxtkı bəzi rəhbər şəxsləri qızışdırıb onun üstünə salmışdılar. Bu, tarixdən məlumdur. Onlar Nəriman Nərimanovun əleyhinə cürbəcür təxribatlar aparırdılar. Əgər onun Moskvaya getməsinə səbəb bir tərəfdən, doğrudan da Sovet İttifaqının Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri vəzifəsinə seçilməsi idisə, digər tərəfdən bu, Nəriman Nərimanovu – Azərbaycanda milliliyi möhkəmləndirmək üçün fəaliyyət göstərən bir adamı aradan götürmək məqsədi daşıyırdı.

Yəqin yadınızdadır, dörd-beş il əvvəl mən hansısa qəzetdə oxumuşdum, Məmməd Səid Ordubadi yazmışdı ki, Nəriman Nərimanov Moskvada olarkən bir dəfə Tiflisə gəlmişdi, amma onun oradan Bakıya gəlməsinə burada bəziləri imkan verməmişdi. Deyəsən, o, Dadaş Bünyadzadənin adını çəkirdi. O, Nəriman Nərimanova hətta imkan verməmişdi ki, gəlib burada haradasa çıxış etsin. Bunu tarixçilərimiz bilməlidirlər.

Bu hadisələri, yəni keçmiş tariximizin həmin səhifələrini mən Vəli Axundovla bir neçə dəfə müzakirə etmişdim. O, vəzifədə olan zaman da, ondan sonra mən respublikanın rəhbəri olan zaman da görüşlərimizdə müzakirə etmişdik. O da belə fikirdə idi, mən də belə fikirdə idim ki, biz gərək elə edək, bu daxili çəkişmələrə daha yol verilməsin. Məhz bu daxili çəkişmələrə görə 1920-ci ildən başlayaraq 1934-cü ilə qədər Azərbaycanda birinci rəhbər azərbaycanlı olmadı. Bütün bu daxili çəkişmələrin nəticəsi idi ki, 37-38-ci illərdə bir belə qurbanlar verdik, onlar repressiya qurbanı oldular. O daxili çəkişmələrin nəticəsində 59-cu ildə Azərbaycan haqqında millətçilik damğası ilə bir qərar qəbul edildi. Hörmətli İmam Mustafayev bunları yəqin ki, xatırlayır. O, Azərbaycanın rəhbəri olarkən ona sağdan da, soldan da təxribatlar edirdilər. Bəs nəticədə nə oldu? Nəticə də bu oldu ki, 59-cu ildə qərar çıxararaq hamını işdən götürdülər. Ona görə də mən Vəli Axundovla işlədiyim zaman söhbətlər edərkən ikimiz də eyni fikirdə idik ki, bu hallara son qoyulmasına çalışmalıyıq.

Mən 1982-ci ilin dekabr ayında Moskvaya işləməyə gedərkən burada qalan həmkarlarıma iki tövsiyə etdim: birincisi, çalışın ki, rəhbərlikdə qruplaşma olmasın, çəkişmə olmasın. Azərbaycana düşmən

qüvvələr bunlardan istifadə edəcək, Azərbaycana zərbələr vuracaqlar. İkincisi isə, Dağlıq Qarabağ məsələsinə diqqət yetirin. Təəssüf ki, mənim bu tövsiyələrimə riayət etmədilər və nəticədə respublikamız son illər belə ağır vəziyyətə düşdü. Mən bunları bu gün, Vəli Axundovun yubileyi günü ona görə deyirəm ki, onlar tariximiz üçün ümumiyyətlə, əhəmiyyətli faktlardır. Eyni zamanda bunu deməkdə məqsədim Vəli Axundovun işlədiyi 10 il müddətində nə qədər çətinliklərlə, nə qədər problemlərlə rastlaşmasını qeyd etməkdir.

Məsələn, o vaxtlar, yəni Vəli Axundov işləyən dövrdə bizim tarixçilər ona iradlar tuturdular ki, Vəli Axundov Azərbaycanın könüllü surətdə Rusiya tərkibinə daxil olmasının 150 illik yubileyini keçirdi və bu da tarixə zidd olan bir haldır. O vaxt burada Vəli Axundovun əleyhinə açıq olmasa da, üstüörtülü cürbəcür çıxışlar olurdu. Mən Vəli Axundovla bu barədə bir-iki dəfə söhbət etmişdim. Mən onun mövqeyi ilə, izahı ilə tamam razı idim. Hər dövrün bir hökmü var. O mənə deyirdi ki, «Gülüstan» müqaviləsi ilə, Türkmənçay müqaviləsi ilə Azərbaycan parçalanıbdır və bir hissəsi Rusiyanın tərkibinə keçibdir. Biz indi Sovet İttifaqı kimi bir dövlətin tərkibindəyik, Rusiya da bu dövlətdə dominantdır. Belə bir halda o tarixi bu cür təqdim edərək bu beynəlmiləlçiliyi, Rusiya-Azərbaycan dostluğunu daha da təbliğ etmək mümkündür.

O, şikayətlənirdi ki, bəzi adamlar bunu ona irad tuturlar. Bir dəfə söhbət əsnasında dedi ki, «Yaxşı, biz burada nə itiririk? Bayram keçirdik. Bu, böyük xalq bayramı idi. Beləliklə, Azərbaycan Respublikasının bayrağında daha bir Lenin ordeni peyda oldu. Biz heç nə itirmədik».

Bilirsinizmi, bu fikrə bəlkə də kimsə yenə də etiraz edə bilər. Ancaq hesab edirəm ki, o dövr üçün, o zaman üçün onun atdığı həmin addım bu gün ona gərək heç də günah sayılmasın. Əgər belə günahlar axtarmalı olsaq, onda hər adamda bir günah tapmaq olar. Şübhəsiz ki, sonrakı dövrdə bu məsələlərin hamısı aydınlaşdı, aşkara çıxarıldı.

Mən bununla bir daha qeyd etmək istəyirəm ki, o dövr ağır, çətin bir dövr olub və Vəli Axundov bütün imkanlardan istifadə edərək Azərbaycana layiqli rəhbərlik edibdir. Vəli Axundovu tanıyan adamlar bilirlər, – mən də onu yaxından tanıyan adamam, – o, çox hazırlıqlı insan idi, geniş dünyagörüşünə malik idi. Öz elmindən, öz sahəsindən savayı, siyasi sahədə çox hazırlıqlı idi. Mədəniyyəti yaxşı bilirdi, tarixlə çox maraqlanırdı, ziyalı və mədəni insan idi, təvazökar idi. O, şəxsi həyatında da, davranışında da təvazökar idi. İnsanlara xoş münasibət göstərirdi. Bəzən deyirdilər ki, çox liberaldır. İşdə liberallıq edirdi, amma görünür, bu da onun xasiyyətinin yumşaqlığından irəli gəlirdi. O, mülayim təbiətli adam idi. Lakin bunların hamısı, ümumiyyətlə, onun obrazını həmişə

müsbət bir obraz kimi göstərirdi. Mənim ona həmişə çox böyük hörmətim olmuşdur. Ailəsi də çox təvazökardır. Mən onun ailəsi ilə tanış idim. Həyat yoldaşı Sara xanım çox təvazökar bir qadındır.

Deyə bilərəm ki, Vəli Axundov o vaxt onun ətrafında olan rəhbər şəxslərin hamısından həm biliyinə görə, həm insani mədəniyyətinə görə, həm alicənablığına görə, həm də özünün və ailəsinin təvazökarlığına görə seçilirdi və onların hamısından üstün idi. Mən işləyən vaxt Vəli Axundov bir müddət akademiyada vitse-prezident, sonra isə ömrünün axırına qədər Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru oldu.

Mən bu gün deyə bilərəm ki, ona olan şəxsi insani münasibətimi heç vaxt dəyişmədim, əksinə, o, institut direktoru olarkən, mən isə respublikanın rəhbəri vəzifəsində çalışarkən ona daim qayğı göstərmişəm, həmişə onun problemlərini vaxtında həll etmişəm, onun hər müraciətinə həmişə diqqətlə baxmışam və ona əlimdən gələn köməyi əsirgəməmişəm. Bizdə belədir ki, böyük vəzifədən gedən adamın sonra vəziyyəti ağır olur. Mən özüm belə bir vəziyyəti keçirmişəm. 1987-ci ilin oktyabr ayında mən Moskvada istefa verəndən sonra başıma gələn bəlalar, işlər çoxlarına bəlkə də hələ məlum deyildir. Ancaq bir şey məlumdur ki, ətrafımda olan adamların böyük əksəriyyəti məni unutdu, mən Moskvada, qərib bir yerdə tamam yalqız qaldım və üstəlik də mənə qarşı ədalətsiz hərəkətlər, böhtanlar, cürbəcür çirkin əməllər oldu. Düzdür, bütün bunlar mənim başıma vəzifədən getdikdən sonra gəlibdir. Amma mən indi bu fikri ona görə demirəm ki, bütün bunlar başıma gəlibdir. Mən 69-cu ildə Azərbaycana rəhbər seçiləndə hesab etmirdim ki, vəzifədən gedəndən sonra başıma belə işlər gələcəkdir. Mən hesab edirdim ki, vəzifədə, özü də yüksək vəzifədə olmuş adam vəzifədən getdikdən sonra onun vəziyyətinə həmişə diqqətlə yanaşmalıdırlar. Xüsusən də respublikanın birinci şəxsiyyətinə.

Buna görə də mən respublikada işlədiyim zaman Vəli Axundovla daim əlaqə saxlayırdım, onun bütün məsələlərini, o cümlədən də mənzil məsələsini istədiyi kimi həll etmişdim, göstəriş verirdim ki, institutuna lazım olan maddi-texniki vəsait ayrılsın və ayrılırdı. Onun rəhbərlik etdiyi institut xüsusi bir vəziyyətdə idi və mən ona xüsusi hörmət edirdim.

Ona görə ki, bu şəxs on il Azərbaycana rəhbərlik etmişdir və bələlərini heç vaxt unutmaq lazım deyildir və unutmaq da olmaz.

Mən Moskvada olarkən Vəli Axundov mənə hərdənbir məktub da göndərirdi. Məni bayramlar, ayrı-ayrı hadisələr münasibətilə təbrik edirdi. Amma təəssüflər olsun ki, o, həyatdan gedəndən sonra on il müddətində onun xatirəsinə lazımi qayğı göstərilməyib, demək olar, heç bir

qayğı göstərilməyibdir. Mən bunu da qeyri-normal hal hesab edirəm. Mən buraya, Azərbaycana dönəndən sonra maraqlandım, indi onun 80 illiyi ərəfəsində bu qərarı qəbul etdim. Bilirsiniz ki, dünən mən sərəncam imzalamışam. Onun işlədiyi institutun adı dəyişdirilib, üç institut birləşdirilib, artıq o institut dünən verdiyim sərəncamla Vəli Axundovun adını daşıyır. Onun yaşadığı evə xatirə lövhəsi vurulması haqqında qərar qəbul etmişəm. Tibb Universitetində onun adına iki təqaüd təsis etmişəm. Güman edirəm ki, Vəli Axundovun xatirəsinə ictimaiyyətimiz və dövlət tərəfindən qayğı bundan sonra da davam edəcəkdir.

Nitqimin əvvəlində dediyim kimi, mən bu gün buraya çox dərin hisslərlə gəlmişəm, çünki Vəli Axundov kimi bir insanla bir yerdə işləmişəm, onu uzun illər ərzində tanımışam. Eyni zamanda bir Azərbaycan vətəndaşı kimi onun Azərbaycana on il rəhbərlik etməsini çox qiymətli hesab edirəm.

Mən sizin hamınızı bugünkü yubiley münasibətilə təbrik edirəm, ümidvaram ki, Vəli Axundovun xatirəsi hamımızın qəlbində yaşayacaqdır, onun nəcib işləri heç vaxt unudulmayacaq və bir çox alimlərimiz üçün, dövlət xadimlərimiz üçün örnək olacaq, nümunə olacaqdır. Sizi bir daha təbrik edirəm, sizə cansağlığı, səadət, xoşbəxtlik arzulayıram. Sağ olun.

AKADEMİK YUSİF MƏMMƏDƏLİYEVİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ NİTQ*

Respublika Sarayı
10 sentyabr 1996-cı il

Hörmətli xanımlar və cənablar! Hörmətli alimlər, müəllimlər!

Yusif Məmmədəliyevin 90 illik yubileyi münasibətilə sizi təbrik edirəm, hamınıza cansağlığı, səadət, Azərbaycan elminə yeni uğurlar arzulayıram.

Yusif Məmmədəliyevin 90 illik yubileyinin respublikamızda geniş miqyasda keçirilməsi, yubileyə həsr olunmuş bu təntənəli mərasim xalqımızın öz tarixində olan hörmətli, Azərbaycanın tarixi görkəmli şəxsiyyətlərinə verilən qiyməti göstərir, xalqımızın, millətimizin Azərbaycan elminə hörmətini göstərir.

Yusif Məmmədəliyev 1905-ci ildə Azərbaycanın gözəl guşələrindən biri Ordubad şəhərində anadan olub, öz fitri istedadı, fədakarlığı, vətənpərvərliyi ilə qısa bir müddətdə dünyada, xalqımızın arasında, respublikamızda görkəmli yer tutub və tarixi şəxsiyyətlərdən birinə çevrilmişdir. Xalqımız Yusif Məmmədəliyev kimi şəxsiyyətlərlə tanınır və fəxr edir. Çünki belə insanlar, şəxsiyyətlər Azərbaycan xalqının zəkasını, elmini, mədəniyyətini, daxili mənəviyyatını dünyaya nümayiş etdirir. Elə bunun özü Yusif Məmmədəliyev kimi şəxsiyyətlərin xalq qarşısında olan böyük xidmətidir.

Yusif Məmmədəliyev xalqımızın tarixinə böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. O, öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir. Yusif Məmmədəliyevin elmi fəaliyyəti, alimliyi həm geniş nəzəri xarakter, eyni zamanda çox əməli, tətbiqi xarakter daşıyır. Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur. Yusif Məmmədəliyev məhz belə alim olmuşdur.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. B., Azərnəşr, 1998, s. 291-299

Onun elmi axtarışları böyük ixtiralara, yeni elmi konsepsiyaların, əsərlərin yaranmasına gətirib çıxarmışdır. Yusif Məmmədəliyev ixtiraları, elmi tapıntıları, fikirləri Azərbaycanın neft kimyası sənayesində böyük inqilab yaratmışdır. O, təkcə Azərbaycanın yox, Sovetlər İttifaqı adlanan böyük ölkənin neft kimyası sənayesində böyük inqilab yaratmış, hadisəyə çevrilmiş və bütün bunlar da neftdən yeni yüksək keyfiyyətli məhsulların istehsal olunub ölkənin istifadəsinə verilməsi kimi əməli nəticəyə gətirib çıxarmışdır. Yusif Məmmədəliyevin alimliyinin, elmi xidmətinin, elmə verdiyi faydanın mənası bundan ibarətdir.

Azərbaycan neft diyarıdır. Bizim alimlərimiz neft sahəsində - neft yataqlarının axtarılması, tapılması, kəşf olunması, neftin hasilatı və xüsusən neftdən, onun emalından məhsullar alınması sahəsində daim işləmişlər. Hesab edirəm ki, bu, sənayenin ən əsas hissəsidir. Çünki yerin altında olan neft təbiətin yaratdığı sərvətdir. Amma neftdən alınan cürbəcür məhsullar, şübhəsiz ki, insanların elmi ixtiralarının, istedadının nəticəsidir. Yusif Məmmədəliyevin nəinki Azərbaycanda, keçmiş Sovetlər İttifaqında, böyük bir ölkədə bu sahədə - neft kimyası sənayesində gördüyü işlər böyük fayda vermişdir, yenə də deyirəm, yüksək qiymət almışdır.

Xüsusən İkinci dünya, Böyük Vətən müharibəsi zamanı, faşizmlə ölüm-dirim mübarizəsi zamanı Azərbaycan neftinin nə qədər əhəmiyyətli və hansı xidmətləri olduğunu bütün dünya artıq bilir, İkinci dünya müharibəsi zamanı - faşist Almaniyası Sovetlər İttifaqına hücum edəndən, Böyük Vətən müharibəsi başlanandan sonra dörd il gedən müharibədə Azərbaycan nefti olmasaydı, faşizm üzərində qələbə çalmağın necə, hansı səviyyədə olacağını demək çətin olardı. O vaxt Sovetlər ölkəsində hasil edilən neftin 70-80 faizi Azərbaycanda, Bakıda çıxarılırdı. Ancaq iş təkcə bu neftin çıxarılması deyildi, əsas məsələ bundan neft məhsulları alınması və o məhsulların keyfiyyəti idi. Bax, bu sahədə Yusif Məmmədəliyevin xidmətləri həddindən artıq qiymətlidir və tarixi əhəmiyyət kəsb edir.

Böyük Vətən müharibəsi zamanı o böyüklükdə ölkənin neft təchizatının 70-80 faizi Azərbaycandan gedirdi. Müharibə aparan motorların - təyyarələrin, tankların, avtomobillərin, zirehli maşınların, cürbəcür digər döyüş texnikasının işləməsi üçün istifadə edilən neft məhsullarının hamısı respublikamızda istehsal olunurdu. Onların keyfiyyətindən çox şey asılı idi. Bəli, bu gün biz tarixdə qeyd edə bilərik ki, o illərdə Azərbaycanda on milyon tondan artıq yüksək keyfiyyətli, yüksək oktanlı benzin istehsal olunub, Vətənin müdafiəsi, müharibənin aparılması üçün göndərilibdir. Bunların hamısı Yusif Məmmədəliyevin icad etdiyi, axtarıb tapdığı, tətbiq etdiyi, elmi nəticələr əsasında olmuşdur. Ona görə də Yusif Məmmədəliyevin elm sahəsindəki xidmətlərini onun təkcə elmi məqalələri,

başqa əsərləri ilə yox, bax, bunlarla qiymətləndirmək lazımdır. Yusif Məmmədəliyev həqiqətən, sözün əsl mənasında çoxşaxəli, çoxsahəli fəaliyyəti olan böyük bir alimdir.

Yusif Məmmədəliyev böyük maarifçi olubdur. O, ilk əmək fəaliyyətinə müəllimliklə başlayıb. Ordubadda, Gəncədə, Bakıda, Yerevanda və başqa yerlərdə müəllim işləyib. Müəllimlik çox şöhrətli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün, doğrudan da, çox qiymətlidir. Yusif Məmmədəliyev də ilk addımlan müəllimliklə atıb. Ancaq onun maarifçiliyi müəllimlik fəaliyyəti ilə bitmir. Bəli, o, Ordubadda da, Gəncədə də müəllim olubdur. Ancaq o Azərbaycan Dövlət Universitetində, Dövlət Neft və Kimya İnstitutunda, başqa institutlarda da, Moskva ali məktəblərində də müəllimlik edibdir. Eyni zamanda o, çox böyük maarifçi olubdur. Azərbaycan maarifinin inkişaf etdirilməsində onun böyük xidmətləri vardır. Onun mühazirələri, tələbələrə verdiyi biliklər, göstərdiyi qayğı Yusif Məmmədəliyevin həqiqi mənada müəllim olduğunu nümayiş etdiribdir. Ona görə də hafizəmizdə, xatirəmizdə o böyük müəllim kimi yaşayır və müəllim kimi də yaşayacaqdır.

Yusif Məmmədəliyev Azərbaycanda elm təşkilatçılığında da böyük rol oynayıbdır. Ayrı-ayrı alimlər öz əsərləri ilə tanınır. Amma elmi təşkil edənlər, elmi inkişaf etdirənlər öz əsərlərindən savayı, xidmətləri ilə də tanınır və qiymətləndirilir. Yusif Məmmədəliyev daim elmin təşkilatçısı olubdur. O, kafedra müdiri olanda da elmin təşkilatçısı olmuş, ətrafına yığdığı adamlara elmi öyrətmişdir.

O, Elmlər Akademiyasının prezidenti, universitetin rektoru işləyərkən də Azərbaycan elminin böyük təşkilatçısı olmuşdur. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası yaranarkən Yusif Məmmədəliyev Elmlər Akademiyasını təsis edən 15 görkəmli şəxsiyyətdən biri olubdur. Ona görə də onlar Azərbaycanın ilk akademikləri hesab ediliblər. Mirəsədulla Mirqasımovla, Mustafabəy Topçubaşovla, Səməd Vurğunla, Şirokoqorovla, Yesmanla, Mikayıl Hüseynovla birlikdə Yusif Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının təsisçisi olmuşdur. Amma eyni zamanda, Elmlər Akademiyası təşkil olunandan cəmi iki il sonra, yəni Azərbaycanda Elmlər Akademiyası ilk addımlarını atmağa başlayarkən Yusif Məmmədəliyev respublika EA-nın prezidenti seçilmiş, prezident kimi çox böyük işlər görmüşdür. Burada onun həyat yolu haqqında danışanlar bu barədə dedilər. Ancaq qeyd etmək istəyirəm ki, indi artıq 50 il yaşı olan Azərbaycan Elmlər Akademiyasının elmi tədqiqat institutlarının əksəriyyəti məhz Yusif Məmmədəliyevin Elmlər Akademiyasının prezidenti işlədiyi zaman təşkil olunubdur. Bax, elmin təşkilatçısı budur. Buna görə də Yusif Məmmədəliyev çox yüksək qiymətə layiq bir alimdir.

Yusif Məmmədəliyev 1947-ci ildən 1950-ci ilə qədər, sonra da 1958-ci ildən 1961-ci ilədək akademiyanın prezidenti olmuşdur. Akademiyanın prezidenti vəzifəsinə bu görkəmli alimin ikinci dəfə dəvət edilməsi onu göstərmişdir ki, Yusif Məmmədəliyev 1950-ci ildə subyektiv səbəblərə görə vəzifədən azad olunmuşdur. O, akademiyanın tərkibində öz işini davam etdirmiş, sonra universitetin rektoru işləmiş və Elmlər Akademiyası Yusif Məmmədəliyevə yenidən ehtiyac duymuşdur. O, 1958-ci ildə Elmlər Akademiyasına prezident seçilmiş və ömrünün sonuna qədər prezident kimi yaşamışdır.

Elmlər Akademiyasının prezidenti, Azərbaycan elminin ən yüksək zirvəsində duran bir alim kimi, şəxs kimi Yusif Məmmədəliyev respublika elminin bütün sahələrinin inkişaf etdirilməsində xidmətlər göstərmişdir. Onun bu xidmətləri unudulmur və bu gün də, gələcəkdə də yad ediləcəkdir.

Dedim ki, Yusif Məmmədəliyev böyük maarifçi olmuşdur. Onun maarifçiliyi görkəmli alimin Azərbaycan Dövlət Universitetinə rektorluq etdiyi zaman özünü ən yüksək səviyyədə, bariz şəkildə göstərmişdir. Yusif Məmmədəliyev Azərbaycan Dövlət Universitetinə rəhbərlik etdiyi zaman çox işlər görmüş, universiteti genişləndirmiş, inkişaf etdirmiş, yeni kafedralar açılmışdır. Ən önəmlisi odur ki, o, universitetin elmi, ümumi mədəni səviyyəsini qaldırmışdır.

Elm xadimi kimi, ictimai-siyasi xadim kimi Azərbaycan elmində görkəmli yer tutan və respublikamızın ziyalıları içərisində çox böyük hörmət qazanan Yusif Məmmədəliyev Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının inkişafında da əvəzsiz xidmətlər göstərmişdir. O, Üzeyir Hacıbəyovla, Səməd Vurğunla çiyin-çiyinə respublikamızın incəsənətini, mədəniyyətini irəliyə aparmaq üçün çox işlər görmüşdür. O, humanitar sahələrə, elmin mədəniyyətlə, ədəbiyyatla, tarixlə əlaqədar sahələrinə həddindən artıq fikir vermiş və onlarla bilavasitə məşğul olmuşdur. Buna görə də Yusif Məmmədəliyev bir alim kimi, bir insan kimi, hərtərəfli yüksək keyfiyyətlərə malik şəxsiyyət kimi tanınmışdır.

Mən Yusif Məmmədəliyevin 1941-1945-ci illərdəki elmi nailiyyətləri nəticəsində neft kimyası sənayesində baş vermiş böyük dəyişikliklərdən danışdım. Ancaq qeyd etmək istəyirəm ki, Yusif Məmmədəliyevin elmi əsərləri, ixtiraları, qoyduğu elmi iz və yaratdığı elmi-texniki müəssisələr Azərbaycanda sonrakı dövrdə neft kimyası elminin və xüsusən neft kimyası sənayesinin inkişafında əvəzsiz rol oynamışdır. Burada məndən öncə çıxış edən natiqlər bu barədə məlumat verdilər. 70-80-ci illərdə Azərbaycan sənayesində aparıcı və çox böyük əhəmiyyətli sahələrdən biri olan neft kimyası sənayesini biz sürətlə inkişaf etdirməyə nail olduq. Bilindiyi

kimi, o vaxtlar Bakıda da, Sumqayıtda da, Azərbaycanın başqa bölgələrində də nəhəng neft kimyası kompleksləri tikildi. Onların əksəriyyəti Yusif Məmmədəliyevin əsərləri, onun qoyduğu elmi irs və onun tələbələrinin əsərləri əsasında yaradılmışdır. Xatirimdədir, 70-ci illərin əvvəllərində mən Azərbaycanda neft emalının tamamilə yenidən qurulmasına dair məsələləri Moskvada qaldırarkən, Azərbaycanda yeni neft kimyası sənayesinin yaranması haqqında təkliflər irəli sürərkən və çox böyük müqaviməti dəf edərək həmin təklifləri həyata keçirməyə nail olarkən respublikada yaranmış elmi-texniki potensiala əsaslanırdım, Azərbaycanda Yusif Məmmədəliyevin və onun tələbələrinin, silahdaşlarının qoyduğu elmi irsə əsaslanırdım və onların nəticəsində Azərbaycan kimyasının, neft kimyasının inkişaf etdirilməsi üçün yeni-yeni böyük sənaye müəssisələrinin yaradılmasına nail olmağa çalışırdım. Biz buna nail olduq.

Bu gün iftixar hissi ilə demək olar ki, biz o vaxt bütün neft emalı sənayesini yenidən yaratdıq, yüksək keyfiyyətə nail olduq, Sumqayıtda müasir tələblərə cavab verən böyük kimya kompleksləri yaratdıq. Bu barədə burada məlumat verildi. Bunların hamısı, bir tərəfdən Azərbaycanın iqtisadi potensialının güclənməsinə, digər tərəfdən isə, Azərbaycan xalqının rifahının yüksəlməsinə gətirib çıxarmışdır. Burada da Yusif Məmmədəliyevin xidmətləri həmişə xatırlanıbdır və biz bunu heç vaxt unutmamışıq, unutmayacağıq da. Bütün bunlara görə də Yusif Məmmədəliyev təkcə Azərbaycanda yox, o vaxtlar keçmiş Sovet İttifaqında da tanınmış böyük alim idi və ölkədə Azərbaycanı layiqincə təmsil etmişdir. 1945-46-cı illərdə Sovet İttifaqının Neft Sənayesi Nazirliyinin elmi-texniki şurası yaradılanda bu şuraya rəhbərlik Yusif Məmmədəliyevə həvalə olunmuşdur. Bu, heç də təsadüfi bir hal deyildi. Amma eyni zamanda bilmək lazımdır ki, bu, adi bir şey də deyildi. Çünki o zaman, o dövrdə Sovet İttifaqının sənaye sistemində neft sənayesi ən görkəmli yer tuturdu, ən böyük sənaye kompleksi idi. Orada, Moskvada böyük bir dövlətin yüksək sənaye kompleksinin elmi-texniki şurasının rəhbəri Yusif Məmmədəliyevin - azərbaycanlının, Azərbaycan xalqının nümayəndəsinin olması təkcə Yusif Məmmədəliyev üçün deyil, həm də bütün Azərbaycan xalqı üçün iftixar hissi doğururdu. Bunları da heç vaxt unutmaq lazım deyil.

Yusif Məmmədəliyev 1958-ci ildə SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçildi. Bu da Azərbaycan elminin tarixində ilk hadisə idi, yəni ilk azərbaycanlı elə mötəbər elm ocağının üzvü seçildi. Bilirsiniz, zaman dəyişir, bəzən insanlar ayrı-ayrı məsələlərə cürbəcür qiymət vermək istəyirlər. Amma elə məfhumlar var ki, onlar heç vaxt dəyiş-

məyəcəkdir. SSRİ Elmlər Akademiyası 250 il tarixi olan, dünyada ən məşhur Rusiya Elmlər Akademiyasının davamı idi, dünyada tanınmış elm mərkəzi və dünyanın ən tanınmış alimlərinin toplandığı bir yer idi. Bəli, Azərbaycan elmi gənc elmdir. O vaxtlar Azərbaycanda da alimlər vardı. Amma Yusif Məmmədəliyev ilk Azərbaycan alimi idi ki, həmin akademiyanın müxbir üzvü seçildi. Mən heç şübhə etmirəm ki, vaxtsız ölüm onu bizim əlimizdən almasaydı, o, akademiyanın mütləq həqiqi üzvü də olacaqdı, Azərbaycanı elm sahəsində daha yüksək səviyyələrdə də təmsil edəcəkdi.

Dediyim kimi, Yusif Məmmədəliyevin alim kimi, ictimai-siyasi xadim kimi fəaliyyəti çoxşaxəli, çoxsahəli olmuşdur. Bu da onun təkcə sırf alim olduğundan irəli gəlmirdi. Bu, onun şəxsi keyfiyyətlərindən, şəxsi xüsusiyyətlərindən irəli gələn bir hal idi. Çünki Yusif Məmmədəliyev hərtərəfli hazırlığa malik bir adam idi. Bir tərəfdən o, fitri istedadına görə cəmiyyətdə, təbiətdə olan hər bir şeyi çox yüksək səviyyədə dərk edirdi və bunlardan istifadə edirdi. Digər tərəfdən isə, öz üzərində çox işlədiyinə görə, öz bilik sahəsini daim genişləndirdiyinə görə belə keyfiyyətlərə malik bir adam idi.

Yusif Məmmədəliyev çox mədəni bir insan idi. Mən onu şəxsən tanıyırdım, onunla dəfələrlə görüşmüşdüm və buna görə də mənim bu sözlərim kitablardan oxuduğum, yaxud kimdənsə eşitdiyim sözlər deyildir. Bunlar onunla şəxsi təmasdan aldığım təəssüratlardır. O, həddindən artıq mədəni və eyni zamanda çox təvazökar bir insan idi, millətini, xalqını həddindən artıq sevən adam idi, vətənpərvər bir insan idi, Vətəni haqqında, milləti haqqında, xalqı haqqında daim düşünən bir insan idi. Bu insanın siması həm zahirdən, həm də daxildən onun nə qədər yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirirdi. O, sözün əsl mənasında ziyalı idi. Təkcə biliyinə görə yox, davranışına görə də, zahiri görünüşünə görə də, insanlarla danışıq tərzinə görə də, münasibətlərinə görə də ziyalı idi. Ona baxdıqda insan onun nə qədər yüksək mədəniyyətə malik olduğunu hiss edirdi. Mən yenə də bu ifadəni tam dolğunluğu ilə sizə çatdırmaq üçün demək istəyirəm ki, o, sözün əsl mənasında ziyalı idi.

Mən onun təvazökarlığını da şəxsən dəfələrlə hiss etmişəm. Xatirimdədir, bizim hamımızın, Bakı sakinlərinin çox sevdiyi Dənizkənarı bulvarda bazar günü gəzişərkən mən onunla dəfələrlə görüşmüşəm, birlikdə gəzişmişik. Bazar günü o, bulvara çıxanda adətən özü ilə fotoaparat da götürər, şəkillər çəkərdi. O vaxtlar akademiyanın prezidenti kimi adamlara yaxın gəlmək də çətin idi. Lakin buna baxmayaraq, Yusif Məmmədəliyev insanlara o qədər mehriban münasibət göstərirdi ki, onlar istər-istəməz ona yaxınlaşır, onunla söhbət edirdilər.

Onun həyatı çox zəngin olubdur. Az yaşasa da çox xoşbəxt həyat sürübdür. Ancaq onun həyat yolu o qədər də hamar olmayıbdır. Məsələn, 1950-ci ildə, akademiyanın işini güclü surətdə inkişaf etdirdiyi bir zamanda heç bir səbəb olmadan o, akademiyanın prezidenti vəzifəsindən azad edildi. Amma bu, onu əsla sıxmadı və sındırmadı. Akademiyanın tərkibində bir şöbəyə akademik katib kimi rəhbərlik etməkdə davam etdi. Amma sonra hiss etdilər ki, o, lazımdır və onu Azərbaycan Dövlət Universitetinə rektor vəzifəsinə dəvət etdilər. Nəhayət, hiss etdilər ki, o, akademiyaya yenə də lazımdır. Buna görə də onu Elmlər Akademiyasına prezident vəzifəsinə yenə də dəvət etdilər.

Qəfil ölüm onun həyatını dayandırdı. Xatirimdədir, 1961-ci ildə onun vəfatı haqqında məlumat yayılarkən Azərbaycan böyük kədərə büründü. Bu dəfə də o, təvazökarlıq etmişdi. Bir xəstəliyə görə cərrahiyyə əməliyyatı aparmaq lazım imiş. Ona təklif etmişdilər ki, bəlkə Moskvaya getsin və bu əməliyyatı Moskva cərrahları aparsınlar. Amma o demişdi ki, yox, mən öz cərrahlarımıza inanıram və öz Vətənimə inanıram. Ancaq təəssüflər olsun ki, cərrahiyyə əməliyyatından sonra o, qəflətən həyatdan getdi.

Qeyd edim ki, o kədərli günlər mənim xatirimdədir. Mən onun dəfn mərasimində əvvəldən axıradək iştirak etdim və bir vətəndaş kimi, Yusif Məmmədəliyevə böyük hörməti olan bir insan kimi kədərli günləri xalqla birlikdə yaşadım. Yusif Məmmədəliyev 35 ildir həyatdan gedib. Ancaq onun irsi yaşayır, tələbələri onun işini davam etdirirlər, onun adı xalqımızın qəlbində yaşayır. Onun xatirəsi əbədiləşdirilib. Bu barədə deyildi. Ordubadda onun doğulduğu evi 70-ci illərdə biz Yusif Məmmədəliyevin ev-muzeyinə çevirdik, orada ev-muzeyi təşkil olundu. Mən o evi bir-iki dəfə ziyarət etmişdim. İlk dəfə oraya gedərkən çox maraqlanırdım ki, görüm, Yusif Məmmədəliyev hansı evdə doğulub. Ondan sonra isə mənim sərəncamımla orada ev-muzeyi yaradıldı.

Doğrudur, Azərbaycanda bu qarmaqarışıq illərdə o ev-muzeyi də unudulmuşdu. Mən 90-cı ildə Naxçıvana gedəndə bununla dərhal maraqlandım. Sonra o ev-muzeyi bərpa olundu və Ordubadda Yusif Məmmədəliyevin doğulduğu ev indi ev-muzeyi kimi fəaliyyət göstərir. Bu gün mən bir qərar da qəbul etdim: İstiqlal küçəsində, yəni akademiyanın köhnə binasının yanında Yusif Məmmədəliyevin heykəli qoyulsun.

Yusif Məmmədəliyev kimi şəxsiyyətlər daim yaşayırlar. Bu gün bu möhtəşəm salona toplaşanların hamısı Vətənini sevən insanlardır, buraya gəliblər ki, öz millətinə, öz tarixinə olan hörmətini və Yusif Məmmədəliyev şəxsiyyətinə olan hörmətini bildirsinlər.

Yusif Məmmədəliyev heç vaxt unudulmayacaq, zaman keçdikcə onun Azərbaycan xalqının tarixindəki yeri daha da açıq görünəcəkdir

və insanlar, gələcək nəsillər Azərbaycanın belə şəxsiyyətləri ilə fəxr edəcəklər.

Biz bu gün buraya məhz Yusif Məmmədəliyevə, Azərbaycan elminə olan hörmət və ehtiramımızın hökmü ilə gəlmişik. Yusif Məmmədəliyevin gördüyü işlər, onun siması, onun xatirəsi qəlbimizdə daim yaşayacaq və Azərbaycan xalqının dövlət müstəqilliyi yolu ilə irəli getməsinə kömək edəcəkdir. Sağ olun.

YUBİLEY GECƏSİNİN BƏDİİ HİSSƏSİ BAŞA ÇATDIQDAN SONRA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Yusif Məmmədəliyevin xatirəsini bu gün hamımız birlikdə yad etdik. Hazırladığınız bu ədəbi-musiqili kompozisiya hesab edirəm ki, Yusif Məmmədəliyevin təbiətinə, mənəviyyatına uyğundur. Ona görə də mən sizə təşəkkür edirəm. Gördüm ki, bu gecəni siz hamınız ürəklə, candan-qəlbdən aparırdınız. Bunların hamısı məni çox sevindirir. Həyatımızın bu çətinliklərinə baxmayaraq, mədəniyyət xadimlərimiz öz sənətlərini sevirlər və onu xalqa çatdırmaq istəyirlər. Çox gözəl gecə oldu.

Sənətinizi nə qədər sevdiyinizi mən bilirəm. Xor kapellası yaşamalıdır. Məhz sənətinizi sevdiyinizə görə də xoru itirmirsiniz. Bu, məni çox sevindirir. Keçmiş vaxtlarda da mən xor kapellasının yaşamasına və ümumiyyətlə, Azərbaycanda xor sənətinin inkişaf etməsinə çalışırdım. Bu, bizim üçün lazımdır. Sağ olun ki, bunu yaşadırsınız. Hamınıza təşəkkür edirəm...

Mən hesab edirəm ki, Yusif Məmmədəliyev bu təntənəli mərasimlərin hamısına layiqdir və öz nitqimdə qəlbimdən gələn sözləri bildirdim. Bunlar sadəcə söz deyil, hamısı Yusif Məmmədəliyevin şəxsiyyəti, xidmətləri və onun Azərbaycan xalqına qoyub getdiyi irs haqqında çox düşünülmüş, formalaşmış fikirlərdir. Yusif Məmmədəliyevin indiyədək belə yubileyi keçirilməmişdir. Arzu edirəm ki, bu yubiley tədbiri sonuncu olmasın. Hər halda mən elə bir ənənə yaratdım ki, onu sonralar sındırmaq çətin olacaqdır. Biz belə şəxsiyyətləri birinci yad etməliyik. Xalq məhz belə insanlarla tanınır. Yusif Məmmədəliyev də onlardan biridir. O, xalqımızın fəxridir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRK DÜNYASI YAZIÇILARININ III QURULTAYINDA NİTQİ*

(Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu, 6 noyabr, 1996-cı il)

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Sizi, türk dünyası yazıçılarının III qurultayını Azərbaycan xalqı, vətəndaşları adından, Azərbaycan dövləti adından səmimi qəlbdən salamlayır, bu şərəfli işinizdə uğurlar arzulayıram.

Türk dünyasının, türkdilli xalqların, ölkələrin yazıçılarının III qurultayının Azərbaycanda keçirilməsini ölkəmiz üçün əlamətdar hadisə hesab edirəm və bunu Azərbaycan Respublikasına, xalqına olan hörmət və ehtiramın təzahürü kimi qiymətləndirirəm.

Türk dünyası yazıçılarının qurultayı üçüncü dəfədir ki, toplaşır. Bu qurultay ilk dəfə 1992-ci ildə Türkiyədə, Ankarada öz əsasını qoymuş və Allaha şükürlər olsun ki, artıq ənənəyə çevrilmişdir. Heç şübhə etmirəm ki, bu, daim davam edəcəkdir. 1992-ci ildə Türkiyədə, Ankarada, Türkiyə Cümhuriyyətinin, onun mərhum prezidenti Turqut Özalın təşəbbüsü ilə başlanan bu qurultay türkdilli xalqların, türk dünyasının qədim, böyük tarixini yenidən canlandırmaq üçün çox gözəl və dəyərli təşəbbüs olmuşdur. Sonra, bu qurultay ikinci dəfə Türkiyədə, Ankarada keçirilərkən bizim əziz dostumuz, qardaşımız, Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəlin təşəbbüsü və iştirakı ilə bu qurultaya güc verilmiş və bu ənənənin köklənməsini göstərmişdir.

Bu dəyərli təşəbbüs bu gün davam edir. Əmin olduğumu bildirmək istəyirəm ki, türk dünyasının yazıçıları və bizim ölkələrimiz, xalqlarımız bu işi davam etdirəcəklər, türkdilli xalqların, ölkələrin yazıçıları gündən-günə bir-birinə yaxınlaşacaq, bir-birinə kömək edəcək, xalqlarımızın ədəbiyyatını, mədəniyyətini, keçmişini, bu gününü daha geniş təhlil edib yeni-yeni dəyərli əsərlər yaradacaqlar.

Türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. B., Azərnəşr, 1998, s. 5-12

vermiş, onu zənginləşdirmişlər. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bugünkü günlərə gətirib çıxarmışdır. Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tarixmizlə fəxr edə bilərik.

Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası, bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır. Xalqlarımız tarix boyu insan həyatının bütün sahələrində, bəşəriyyətin bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş elmi ixtiraları, qəhrəmanlıq nümunələri, böyük tarixi-memarlıq abidələri və böyük bədii əsərləri, musiqisi ilə parlaq səhifələr yazmışlar. Bunların arasında şairlərimizin, yazıçılarımızın xidməti və tariximizin yaranmasında, saxlanmasında onların əsərlərinin qiyməti çox böyükdür.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi isə yaşadanlar, zənginləşdirənlər, inkişaf etdirənlər şairlərimiz, yazıçılarımız olmuşdur. Biz adətən böyük tariximiz haqqında, xalqlarımızın böyük mədəniyyəti haqqında danışarkən birinci növbədə onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın əsərlərinə istinad edir, bunları nümunə gətirir və təbliğ edərək, eyni zamanda öz tariximizi, mədəniyyətimizi təbliğ edirik. Qədim dövrlərdə «Dədə Qorqud», «Manas», «Alpamış», «Koroğlu» dastanları, xalqlarımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız - Nizami, Yunus İmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, xalqlarımızı dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə xalqlarımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən, ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, Vətənə sədaqət hisslərini daim gücləndirmişdir.

Bunlar bizim keçmiş, uzaq tariximizdir. Amma eyni zamanda xalqlarımızın mədəniyyəti, ədəbiyyatı, şeri bir çox məhrumiyyətlərə, çətinliklərə məruz qalmışdır. Bu çətinliklər tarixin, ola bilər ki, bəzən çox böyük mərhələlərində mədəniyyətimizə zərbələr vurmuş, ancaq mədəniyyətimizi, ədəbiyyatımızı, şerimizi öldürə, məhv edə, yox edə bilməmişdir. Türkdilli xalqların bütün bu çətinliklərdən, sınaqlardan keçib gəlmiş mədəniyyəti, ədəbiyyatı, şeri indi dünyada, bəşəriyyətdə özünəməxsus görkəmli yerini tutubdur.

XX əsr dünya tarixində çox mürəkkəb, ziddiyyətli, gərgin proseslər dövrü olmuşdur. Bizim əksəriyyətimiz, demək olar, hamımız bu əsrdə doğulmuşuq və artıq bu əsri başa çatdırırıq. Xalqlarımızın - türkdilli xalqların, ölkələrin mədəniyyəti, ədəbiyyatı XX əsrdə ziddiyyətli, eyni zamanda çox şərəfli və müvəffəqiyyətli yol keçmişdir. Bir tərəfdən, bizim mənəviyyatımızı, mədəniyyətimizi, ədəbiyyatımızı bir-birindən ayırmaq, parçalamaq, milliliyin qarşısını almaq cəhdləri çox güclü olmuş, ikinci tərəfdən də yaranmış, ictimai-siyasi vəziyyət və xalqlarımızın cürbəcür imkanlardan istifadə edib dünya mədəniyyəti ilə daha sıx əlaqələr qurması nəticəsində ədəbiyyatımız, mədəniyyətimiz çox inkişaf etmişdir.

Bu baxımdan Şərq mədəniyyətinin, Şərq ədəbiyyatının nə qədər zəngin olduğunu bu gün bir daha qeyd edərək, eyni zamanda XIX-XX əsrlərdə xalqlarımızın mədəniyyətinin, ədəbiyyatının Avropa mədəniyyəti, Rusiya mədəniyyəti ilə yaranmış əlaqələrdən istifadə edib çox böyük nailiyyətlər qazanmasını xüsusi qeyd etmək lazımdır. Bu, yeni bir şey deyil, təbiidir. Keçmişdə də böyük, dahi şairlərimiz, yazıçılarımız, tarixçilərimiz qədim yunan, Roma ədəbiyyatından, qədim Avropa ədəbiyyatından istifadə etmişlər. Eyni zamanda Qərb də həmişə Şərqin və xüsusən türkdilli xalqların, müsəlman Şərqinin yaratdığı böyük, tarixi əsərlərdən istifadə etmişdir. Şərqin və Qərbin mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin sintezi həm Qərbə, həm də Şərqə çox böyük müsbət nəticələr gətirmişdir. Bu proses XIX-XX əsrlərdə bizim xalqlarımız üçün çox müvəffəqiyyətli olmuşdur və onların ədəbiyyatının, mədəniyyətinin inkişafına çox güclü, müsbət təsir göstərmişdir.

Beləliklə, milli mədəniyyətimizin, ədəbiyyatımızın inkişafının qarşısını almaq cəhdləri nə qədər çox olmuşdursa da, milli ədəbiyyatımızda, mənəviyyatımızda, mədəniyyətimizdə olan bir o qədər, bəlkə də ondan da çox olan güclər özünə cürbəcür yollar açmış və ümumbəşəri dəyərlərdən istifadə edərək daha da yüksək səviyyələrə çatmışdır. Bunu bizim türkdilli xalqların, türk dünyasına mənsub olan ölkələrin XX əsr ədəbiyyatında, mədəniyyətində yaranmış əsərlərdə çox açıq-aydın görmək olar. Bizim hamımız bu əsərlərlə fəxr edirik.

Bu proseslər xüsusən Sovetlər İttifaqına mənsub olmuş türkdilli respublikaların həyatında baş vermişdir. Özbəkistanda da, Qazaxıstanda da, Türkmənistanda da, Qırğızıstanda da, Tatarıstanda da, Başqırdıstanda da, Azərbaycanda da və başqalarında da. Bu illərdə bizim çox itkilərimiz olmuşdur. Böyük, dahi şəxsiyyətlərimiz repressiya qurbanları olmuş, onların əsərləri uzun illər qadağan edilmişdir. Ancaq bununla yanaşı mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə vurulan bu zərbələrlə

yanaşı, bu illərdə milli mədəniyyətimiz inkişaf etmiş, çox yüksək zirvələr fəth etmişdir. Bunların hamısının əldə olunmasında, bu nailiyyətlərimizdə yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünaslarımızın xüsusi xidmətləri var.

XX əsrdə mədəniyyətimizi inkişaf etdirmək üçün cürbəcür qurultaylarda iştirak etmişik, cürbəcür formalarda əlaqələr yaratmışıq. Bunların əksəriyyəti səmərəli olubdur, bunların müsbət nəticələrini inkar etmək düzgün olmazdı. Çəkdiyimiz zərərləri, bizə vurulan zərbələri əldə etdiyimiz nailiyyətlərlə müqayisə edəndə hər iki sahəyə ədalətli qiymət verməliyik.

Ancaq indi, XX əsrin sonunda bizim xalqlarımız, ölkələrimiz üçün yeni, gözəl fürsət, yeni bir şərait yaranmışdır. O da ondan ibarətdir ki, dünyada gedən ictimai-siyasi proseslər, baş vermiş dəyişikliklər, Sovetlər İttifaqının dağılması türkdilli, türk dünyasına mənsub olan xalqların tam azad olmasına, müstəqillik əldə etməsinə və müstəqil dövlət qurmasına imkanlar yaratmış və bu, qısa bir müddətdə öz gözəl nəticələrini vermişdir.

Keçmiş Sovetlər İttifaqına mənsub olan respublikalar, o cümlədən, türkdilli ölkələr beş ildir ki, öz dövlət müstəqilliyini əldə ediblər. Tarix nöqteyi-nəzərindən beş il çox az bir zamandır. Ancaq bu beş il içərisində xalqlarımızın həyatında çox böyük müsbət dəyişikliklər baş vermişdir. Doğrudur, xalqlarımız keçid dövrünü yaşayır, keçid dövrünün özünün sosial-iqtisadi çətinlikləri var. Yenidən dövlətlər qurulur, demokratik proseslər bərqərar olur. Bununla yanaşı, bəzi münaqişələr və başqa hadisələr də bizim ölkələrin həyatının sürətlə inkişaf etməsinə maneçilik törədir. Ancaq bunların hamısına baxmayaraq xalqlarımızın əldə etdiyi nailiyyət ən yüksək qiymətə malikdir. Milli azadlıq, dövlət müstəqilliyi bizim xalqlarımız üçün hər bir şeydən üstündür və bunun naminə bütün əzabəziyyətlərə dözmüşük, bu gün də dözürük, gələcəkdə də dözəcəyik. Ona görə ki, biz əbədi olaraq azad, sərbəst, müstəqil yaşamaq istəyirik.

Milli azadlığın, sərbəstliyin, müstəqilliyin xalqlarımıza bəxş etdiyi töhfələr göz qabağındadır. Ancaq biz bunun böyük gələcəyini də görürük. Bunlardan da biri ondan ibarətdir ki, biz sərbəst, müstəqil olaraq, heç bir kəsdən, heç bir dövlətdən asılı olmayaraq, öz istədiyimiz kimi əlaqələrimizi qururuq və əməkdaşlıq edirik, milli ənənələrimizi, milli dəyərlərimizi, mədəniyyətimizi birlikdə inkişaf etdirməyə çalışırıq. Türk dünyası yazıçılarının III qurultayı da və ümumiyyətlə, belə bir qurultayın yaranması, ənənəyə çevrilməsi də əldə etdiyimiz azadlığın, müstəqilliyin bəhrələridir.

Türkdilli ölkələr bu illərdə keçmiş, hamımıza mənsub olan mədəniyyətimizi, ədəbiyyatımızı yenidən təhlil etmək üçün, bu mənəvi dəyərlərimizin qiymətini birlikdə anlamaq üçün çox iş görübdür. Türkdilli ölkələrin dövlət başçılarının görüşü bu baxımdan çox mühüm amildir. Bu görüşün də əsası, 1992-ci ildə Türkiyə Cümhuriyyətində türkdilli dövlət başçılarının təşəbbüsü ilə qoyulubdur. Bu il oktyabrın 21-də biz Daşkənddə türkdilli ölkələrin dövlət başçılarının dördüncü görüşünü keçirdik. Onu bildirmək istəyirəm ki, görüşdən-görüşə bu qurumun, yəni türkdilli dövlətlərin başçılarının, bu təşkilatın bu gün və gələcək üçün nə qədər əhəmiyyətli olduğunu biz dərk edirik.

Keçən görüşlərlə Daşkənd görüşünü müqayisə edərkən tam aydın görünür ki, bizim dövlətlərimiz, ölkələrimiz, dövlət orqanlarımız belə görüşlərin hər bir ölkə, xalq üçün son dərəcə əhəmiyyətli və səmərəli olduğunu dərk ediblər və mən tam əminəm ki, gələcək görüşlər daha da səmərəli olacaq və bu təşkilat daim yaşayacaqdır.

Bizim bu təşkilatın, görüşlərin əsas məna-məqsədi aydındır. Biz birinci növbədə ölkələrimiz arasında olan iqtisadi əməkdaşlığı genişləndirməyə çalışırıq. Bir dilə, bir kökə mənsub olmağımız, ölkələrimizin bir ərazidə, bir-birinə qonşu olan ərazidə yerləşməsi və coğrafi cəhətdən bir-birimizə çox yaxın olmağımız, şübhəsiz ki, iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün əsas yaradır. Hər bir iqtisadiyyat eyni zamanda milli mentalitetlə, milli-mənəvi dəyərlərlə də əlaqədardır. Bu baxımdan ölkələrimizin bir-biri ilə iqtisadi əməkdaşlıq etməsi üçün daha çox imkanlar var.

Amma eyni zamanda xalqlarımızın böyük tarixini yenidən təhlil etmək, yenidən qiymətləndirmək, ona düzgün, ədalətli qiymət vermək və hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, ədəbiyyat, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran prinsiplərdir, vəzifələrdir. Bu sahədə yenə də mədəniyyətin, ədəbiyyatın, yazıçıların rolu böyükdür.

Təsəvvür edin, biz, türkdilli dövlətlər birlikdə «Manas»ın 1000 illiyini qeyd etdik, böyük qazax şairi, filosofu Abayın 150 illiyini qeyd etdik. Özbəkistanın böyük dövlət xadimi, bütün türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660 illiyini qeyd etdik. Bu günlərdə biz böyük Azərbaycan şairi, eyni zamanda bütün türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illiyini bir yerdə qeyd edəcəyik.

Bizim tarixi köklərimiz xalqlarımızın öz iradəsi ilə bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və qeyd etdim, mənəvi dəyərlərimizin inkişafı tarixin bütün mərhələlərində nə qədər

çətinliklərlə, keçilməz yollarla rastlaşıbsa da, dayanmayıb, inkişaf edib, qalxıbdır. Amma indi isə, türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim vəzifəmizdir, borcumuzdur. Bir də qeyd etmək istəyirəm ki, bu sahədə yazıçıların böyük xidməti, böyük rolu var və onların üzərinə bundan sonra da böyük vəzifələr düşür.

Bizim xalqlarımız uzun illər cürbəcür dövlətlərin tərkibində olduqlarına görə bir çox hallarda dillərindən və milli dəyərlərindən lazımi qədər istifadə etməkdən məhrum olublar, yaxud da ki, onların bu imkanları məhdudlaşdırılıbdır. Ancaq bizim dilimizi, mədəniyyətimizi. milli dəyərlərimizi yaşadanlar həmişə, bütün mərhələlərdə yazıçılar olublar. Ona görə də bu gün türk dünyası yazıçılarının III qurultayında mən bütün xalqlarımızın bütün dövrlərdə yaşayıb-yaratmış yazıçılarına və bu gün həyatımızda yaşayıb-yaradan yazıçılara təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Siz, şübhəsiz ki, burada öz yazıçılıq işlərinizin gələcəkdə qurulması ilə əlaqədar lazımi tədbirlər görəcək, lazımi qərarlar qəbul edəcəksiniz. Ancaq mənim tövsiyəm ondan ibarət olardı ki, bizim xalqlarımızın bir-biri ilə daha da yaxınlaşması üçün, bir-birini bilavasitə daha da anlaşması üçün, dillərimizin inkişaf etməsi üçün və bir kökdən olan dillərimizin bir-birinə daha da yaxınlaşması üçün yazıçılar öz xidmətlərini göstərsinlər. Bizim dillərimiz bir kökə mənsubdur və bir-birimizi anlayırıq. Ancaq yaxşı olardı ki, dediyim bu sözləri mənim özbək, qırğız, qazax qardaşlarım da azərbaycanlı kimi anlasınlar və eyni zamanda bu qurultayda Başqırdıstandan, Qırğızıstandan olan yazıçıların çıxışlarını bizim azərbaycanlılar da tamam anlaya bilsinlər.

Şübhəsiz ki, bizim xalqlarımızın dilləri bir kökdən olaraq, hərəsi öz tarixi yolu ilə gedərək böyük inkişaf dövrü keçmişdir. Ancaq mən Azərbaycan dili haqqında danışarkən deyə bilərəm ki, bizim Azərbaycan dilimiz XX əsrdə çox inkişaf etmiş, çox zənginləşmişdir. Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik. Burada mən Azərbaycan yazıçılarının, dilçilərinin, ədəbiyyatşünaslarının xidmətlərini xüsusi qeyd edirəm. Çünki hər bir respublikada proseslər cürbəcür gedibdir.

Bizim respublikamızda - Azərbaycanda təxminən 30-cu, 40-cı, 50-ci illərdə, hətta 60-cı illərə qədər Azərbaycan dili hakim bir dil deyildi. Ona görə də Azərbaycan dilinin inkişaf etməsi, zənginləşməsi üçün dövlət

tərəfindən lazımi işlər görülmürdü. Ancaq bunların hamısına baxmayaraq, bizim yazıçılarımız, şairlərimiz, ədəbiyyatşünaslarımız, dilçi alimlərimiz öz işlərini görüblər və məlumdur ki, 70-ci illərdə onlar Azərbaycan Respublikasının dövlət dəstəyini də alıblar və bütün bunların nəticəsində biz indi, dövlət müstəqilliyimizi əldə edən zaman, müstəqil dövlət kimi Dünya Birliyinə daxil olduğumuz zaman zəngin Azərbaycan dövlət dili ilə fəxr edə bilərik.

Son illər bizim ölkələrimizdə gedən cürbəcür proseslər mədəni, elmi, ədəbi əlaqələrimizi müəyyən qədər zəiflədibdir. Ona görə də indi xalqlarımızın böyük simalarının yubileylərinin keçirilməsi ilə əlaqədar, türk dünyası yazıçılarının bu qurultaylarının keçirilməsi, TÜRKSOY təşkilatının fəaliyyəti ilə əlaqədar biz keçən illərdə müəyyən sahələrdə yaranmış boşluğu aradan götürməliyik. Biz çalışmalıyıq ki, ölkələrimiz, xalqlarımız arasında olan əlaqələr bundan sonra bütün sahələrdə sürətlə inkişaf etsin. Dövlət nöqteyi-nəzərindən, dövlət tərəfindən biz bunu edirik və türkdilli dövlətlərin başçılarının görüşləri buna çox böyük imkan verir. Dövlət başçılarının ikitərəfli görüşləri də buna çox böyük imkanlar verir, dövlətlərimiz, ölkələrimiz arasında imzalanmış sazişlər və surətlə inkişaf edən iqtisadi əlaqələr bunların hamısına imkan yaradır. Alimlərimiz, mədəniyyət xadimlərimiz, yazıçılarımız bütün bu imkanlardan səmərəli istifadə etməli və bizim mədəni, ədəbi əlaqələrimizi daha da gücləndirməlidirlər. Əmin ola bilərsiniz ki, Azərbaycan hökuməti bu sahədə əlindən gələni əsirgəməyəcəkdir.

Biz bu günlər böyük şair Məhəmməd Füzulinin 500 illik yubileyini qeyd edəcəyik və bu münasibətlə də burada keçirilən görüşlər hesab edirəm ki, mədəni və ədəbi əlaqələrimizin inkişaf etməsi üçün yeni bir imkandır. Bu gün, türk dünyası yazıçılarının III qurultayı işə başladığı zaman bu qurultayın yaranması və inkişaf etməsi üçün Türkiyə Cümhuriyyətinin və onun dövlət orqanlarının xidmətlərini bir daha xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə, dövlət müstəqilliyi əldə edəndən sonra türkdilli dövlətlərin bir-biri ilə əlaqələrinin sürətlə inkişaf etdirilməsi, mədəni əlaqələrin yaranması üçün və bunlarla əlaqədar cürbəcür tədbirlərin keçirilməsi üçün Türkiyə Cümhuriyyətinin və xüsusən onun prezidenti, bizim böyük dostumuz hörmətli Süleyman Dəmirəlin xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Bu gün burada, türk dünyası yazıçılarının III qurultayında çıxış edən dəyərli qonaqlarımız çox qiymətli sözlər dedilər. Mən hesab edirəm ki, bunlar hamısı Azərbaycanın ictimai-siyasi həyatı, Azərbaycanın ictimaiyyəti üçün çox əhəmiyyətlidir. Əmin olduğumu bildirmək istəyirəm

ki, bu günlər keçirilən cürbəcür görüşlər bizim əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. Yazıçılıq sənətinə, ədəbiyyata, mədəniyyətə bir daha öz hörmət və ehtiramımı bildirir, türk dünyası yazıçılarının III qurultayının işində sizə uğurlar arzulayıram. Sağ olun.

M. QƏDİRLİ ADINA MƏRKƏZİ HÖVZƏ XƏSTƏXANASINDA MÜALİCƏ OLUNAN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT*

19 yanvar 1997-ci il

Heydər Əliyev: Biz səni Türkiyəyə müalicəyə göndərdik ki, sağalıb gələsən. Gələndən sonra dedin ki, hər şey yaxşıdır. İndi necə oldu ki, yenə də xəstələndin?

Bəxtiyar Vahabzadə: Cənab prezident, Türkiyədə həkim prostat vəzini kəsib, lakin azca hissəsi qalıb, o da əngəl yaradıb. Əvvəl bundan yaxşı idim. Mən Türkiyədən Bakıya qayıdandan sonra Sizə də zəng etdim. Bir müddətdən sonra Türkiyədə məni müalicə edən həkimlə telefonla əlaqə saxladım. O dedi ki, düzələcək. Sonra gördüm ki, yox, düzəlmir. Sonra Azərbaycan Milli Məclisinin üzvü, Yeni Azərbaycan Partiyasının üzvü professor Sudeif İmamverdiyevə müraciət etdim. Baxan kimi dedi ki, əməliyyat keçirmək lazımdır. O, əməliyyat keçirdi, prostat vəzinin artıq hissəsini kəsib götürdü. İndi 3-4 gündür özümü yaxşı hiss edirəm. Demək, səhhətim düzəlib.

İndi müxalifət qəzetləri də ağızlarına gələni yazırlar. Lalə Şövkət Partiyasının qəzeti bu barədə material verib.

Heydər Əliyev: Belə məsələlərdən də yazırlar. Görünür, belə şeylərlə sensasiya yaratmaq istəyirlər. Yaxşı, qoy həkim gəlib məlumat versin, görək vəziyyət necədir?

Sudeif İmamverdiyev: Cənab prezident, ikinci gün əməliyyat keçirmişik. Bu əməliyyat hər cəhətdən çox yaxşı keçdi. Türkiyədə bu prostat vəzini aparatla götürmək çətin olub. Yəni texnika elə nahiyədə yerləşən vəzi tam təmizləyə bilmir. Vəzin orada qalmış hissəsi qapama yaradırdı, bu isə narahatlığa səbəb olurdu. Bəxtiyar müəllimin vəziyyəti də ona görə gündən-günə pisləşirdi.

Biz əməliyyatı elə-belə keçirmədik. Əvvəlcə yaxşıca yoxladıq, aparatla baxdıq. Gördük ki, maneə var və əməliyyat keçirib həmin artıq hissəni götürdük.

İndi Bəxtiyar müəllimin vəziyyəti gündən-günə yaxşılaşır. Biz düşünürük ki, bu vəziyyət get-gedə daha da yaxşılaşacaq. Müalicə yük-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. B., Azərnəşr, 1998, s. 331-341

sək keyfiyyətlə, düşünülmüş qaydada aparılır. Bəxtiyar müəllim özü də razıdır ki, vəziyyəti gündən-günə yaxşılaşır. İnşallah, hər şey yaxşı olacaq.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, Allah Sizdən razı olsun. Mən Sizə çox minnətdaram.

Cənab prezident, Yaşar Əliyev mənimlə bir palatada müalicə olunur. Onun da üzərində əməliyyat keçirilib. Siz Azərbaycana əvvəlki dövrdə rəhbərlik etdiyiniz zaman Gəncədə xalq hakimi işləyib. İndi də hüquq-mühafizə orqanlarında çalışır. İcazə verin, Yaşar müəllim «Respublika» qəzetində dərc olunmuş müsahibəni Sizə oxusun.

Yaşar Əliyev: Cənab prezident, biz Bəxtiyar Vahabzadə ilə dostuq. Xəstəliyimiz bir vaxta düşüb. Mənim də üzərimdə əməliyyat keçirilib. «Respublika» qəzetində dərc olunmuş bu müsahibənin sərlövhəsi belədir: «Xalq şairi Bəxtiyar Vahabzadə: sessiyanı çağırmaq şəxsi təşəbbüsüm idi».

Müxbir 1990-cı ilin yanvar hadisələri ilə əlaqədar belə bir sual verir: Bəxtiyar müəllim, sizcə o vaxt Azərbaycana qüvvətli bir adam rəhbərlik etsəydi, bu qırğın törəyərdimi?

Bəxtiyar müəllim bu suala belə cavab verir:

- Mən belə hesab edirəm ki, yox. Bilirsən, ay oğul, milli qanı olan, qüvvətli şəxsiyyət olan, vəzifə stolundan qorxmayan adam belə bir işə qətiyyən qol qoymazdı. Ermənilər bu işə çoxdan hazırlaşmışdılar. Onlar Qorbaçovun əli ilə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasına nail olan kimi daha da fəallaşdılar. Əgər o zaman Heydər Əliyev Azərbaycana rəhbərlik etsəydi, bu qırğın olmazdı, heç kəs belə bir işə cəsarət etməzdi. Yeri gəlmişkən, mən Türkiyədə müalicə olunarkən ölkə prezidenti Süleyman Dəmirəl cənabları tərəfindən qəbul edildim. Onda Lissabonda olan hadisələrin çoxundan xəbərim yox idi. Süleyman Dəmirəldən bu barədə soruşdum. O, Heydər Əliyevin Lissabonda gördüyü işlərdən, çevikliklə, cəsarətlə diplomatik gedişlər edərək 53 dövlətin dəstəyini almağa necə nail olmasından danışaraq dedi ki, «Heydər Əliyevin qədrini bilin».

Bəxtiyar Vahabzadə: Cənab prezident, Süleyman Dəmirəl ilə görüşümdə o mənə dedi ki, mən siz ziyalılardan narazıyam. Ona görə ki, prezident Heydər Əliyevə lazımi səviyyədə dəstək vermirsiniz.

Heydər Əliyev: Sağ olun. O da sağ olsun, siz də sağ olun. Amma kimin dəstək verib-verməməsi əhəmiyyətli deyil, mən öz işimi aparıram.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, Allah Sizdən razı olsun. Fransa səfəriniz necə keçdi?

Heydər Əliyev: Fransaya səfərim çox yüksək səviyyədə keçdi. Fransa-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox yaxşı danışıqlarımız

oldu. Fransanın prezidenti Jak Şirakla çox maraqlı söhbətlərimiz oldu. Xarici işlər naziri və digər nazirlərlə, senatın, parlamentin sədrləri ilə, Fransanın ən yüksək vəzifəli adamlarının hamısı ilə görüşlərimiz, danışıqlarımız oldu. Biz orada Yelisey sarayında Jak Şirakın və mənim iştirakımla beşinci neft müqaviləsini imzaladıq, o da, mən də nitq söylədik.

Bəxtiyar Vahabzadə: Fransanın Minsk qrupuna həmsədrliyi məsələsi də müzakirə olundumu?

Heydər Əliyev: Bu məsələ ilə əlaqədar mürəkkəb danışıqlar oldu. Ancaq bu danışıqlar hələ davam edəcək. Görək sonra necə olacaq?

Bəxtiyar Vahabzadə: Allah yaxşı eləsin.

Heydər Əliyev: Bilirsiniz, Azərbaycanın səhiyyəsi, həkimləri yüksək səviyyədədir. Adam bəzən özününkünün qədrini bilmir. Mən hələ 70-ci illərdə də respublikaya rəhbərlik edərkən görürdüm ki, bizim tanınmış müxtəlif adamlar belə bir xəstəlik haqqında tez-tez şikayətlənirdilər. Mən də kömək edirdim, respublikamızın cərrahları belə əməliyyatlar keçirirdilər və çox yaxşı nəticələr də əldə edirdilər. Haqqına demək lazımdır, o vaxt Moskvada da çox yüksək səviyyəli mütəxəssislər var idi.

Bəxtiyar Vahabzadə: Mütəxəssislərin hamısı orada yetişirdi.

Heydər Əliyev: Bəli, hamısı orada yetişirdi. Sudeif İmamverdiyev də orada yetişib. Azərbaycanın ən böyük uroloqu Cavadzadə də, başqaları da Moskvada təcrübə keçiblər. O vaxt respublikamız üçün ən yüksək səviyyə ora idi. İndi həqiqəti demək lazımdır ki, səhiyyənin təşkili və tibbi yardımı sayəsində yaranmış sistem çox gözəl sistemdir. Heyf ki, o dağılır.

Bəxtiyar Vahabzadə: Elə təhsil sistemi də belə idi. Bizim təhsil sisteminin dünyada əvəzi yox idi.

Heydər Əliyev: Rus, sovet təhsil sisteminin əvəzi yoxdur. Dünyada Moskva Universitetinə bərabər universitet yoxdur. Mənim oğlum İlham Moskvada Beynəlxalq Əlaqələr Universitetini bitiribdir. Bu, dünyada ən məşhur universitetdir. Dünyanın ən böyük diplomatlarının çoxu orada təhsil alıbdır. Dünyada elə bir ikinci universitet yoxdur. Amma biz vaxtilə bunların qədrini bilməmişik. Biz elə bilirdik ki, hardasa bundan da yaxşısı var.

İndi bir tərəfdən yaxşı oldu ki, dünya dəyişdi, hər şey açıldı, biz harada nəyin olub-olmadığını bildik. Mənim Türkiyəyə də, Fransaya, İngiltərəyə, Amerikaya da – hamısına böyük hörmətim var. Hər bir ölkədə çox yüksək səviyyədə mütəxəssislər var. Ancaq axı Azərbaycan da böyük mütəxəssislər, kadrlar yetişdirib. Elm, səhiyyə, tibb, təhsil, tibb xidməti sahəsində biz nə qədər yüksək səviyyəli adamlar yetişdirmişik, bunların qədrini bilmək lazımdır. Mən dəfələrlə demişəm ki, bəziləri dünyanı anlamayan, burnunun ucundan o tərəfi görməyən adamlar indi hər şeyi pis-

ləyirlər. Elə deyil. Təsəvvür edin, Azərbaycanda olan mədəniyyət xadimləri harada var?

Bəxtiyar Vahabzadə: Üzeyir bəy, Qara Qarayev, Fikrət Əmirov?

Heydər Əliyev: Belə şəxsiyyətlər harada var? Yoxdur. Azərbaycanda olan şairlər harada var? Azərbaycanda şairə, bəstəkara, aktyora, rəssama olan hörmət harada var? Xarici ölkədə rəssam şəkil çəkir, aparıb küçədə qoyur ki, görsün onu sata bilir, yoxsa yox. Amma bizdə rəssam bir şəkil çəkir, gətirib sərgiyə qoyuruq, onu tərifləyirik, hörmətini qaldırırıq. Xaricdə şair şer yazır, haradasa dərc olunur, ya olunmur, tanınmır.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, ən mühümü teatr sənətidir. İnanın ki, keçmiş SSRİ-də olan rejissorluq məktəbi dünyanın heç yerində yoxdur. Moskvadakı 10-15 dram teatrının hər birinin öz yolu var. Stanislavskinin, Efrosun, Yefremovun teatrları, rejissurası bir-birindən tamamilə fərqlənirdi. Orada məktəblər var ki, adamı dəhşətə gətirir. Respublikamızdakı rejissorlar da orada təhsil alıb gəliblər. Ona görə də, hətta 5-6 ildir teatr olmasa da, respublikamızda teatr da, aktyorlarımız da yüksək səviyyədədir.

Gərək ki, Sizə demişdim. Mən göytürklər haqqında, yəni 1.500 il bundan əvvəlki tariximiz haqqında bir pyes yazmışam. Bizim teatr indi onu hazırlayır. Mən onu aparıb həm də Türkiyə teatrına verdim. Birinci pyesimdir ki, onlara verirəm. Sizi inandırıram, baxdılar, təəccüb etdilər ki, bu nə məktəbdir, nə yenilikdir, bu teatrda bu yeniliyi necə yaratmaq olar? Amma onu bizim teatrda, səhnədə yaratmaq mümkündür. Çünki mən bu məktəbi keçmişəm. Məsələn, teatrın səhnəsində ekran onların təsəvvürlərində yoxdur. Ekranı səhnəyə gətirmək, kino ilə teatrı birləşdirmək rus rejissorluq məktəbinə məxsusdur.

Heydər müəllim, bilirsiniz ki, mən həmişə, ömrüm boyu «türk-türk» demişəm, respublikamızın müstəqilliyini istəmişəm. Amma bir həqiqət var ki, biz onu deməliyik. Biz böyük bir məktəb keçmişik – biz böyük rus mədəniyyəti məktəbini keçmişik. Xüsusən XIX əsr rus mədəniyyəti dünya mədəniyyətinin zirvəsidir.

Heydər Əliyev: Tamamilə doğrudur.

Bəxtiyar Vahabzadə: Biz o bulaqdan su içmişik. Fikrət Əmirov, Qara Qarayev yaradıcılığı başqa-başqa üslublardır. Amma hərəsinin öz böyüklüyü, üstünlüyü var. Üzeyir bəy tamam başqa bir zirvədir. Rəssamlığımızı götürək, Səttar Bəhlulzadə tamam başqa bir dünyadır, Tahir Salahov, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev başqa-başqa məktəblərdir.

Ədəbiyyatımız da belədir. Götürək Süleyman Rəhimovu. O diapazonda, genişlikdə, nəfəsdə dünya ədəbiyyatında çox nadir yazıçılar var. Onu ancaq Aleksey Tolstoyla, Lev Tolstoyla müqayisə etmək olar. Onlar

böyük nəfəslərdir. Biz o bulaqdan su içməyimizə təəssüflənməməliyik, biz onları təbliğ etməliyik.

Qurban olum, aman günüdür, hər şey ola bilər, ancaq müstəqilliyimizi əlimizdə möhkəm saxlamalıyıq.

Heydər Əliyev: Bilmirəm, burada televizor var, yoxsa yox. Mənim Fransadakı çıxışımı dünən də, srağagün də verirdilər. Fransada Beynəlxalq Əlaqələr İnstitutu var. Mən 1993-cü ildə də, bu dəfə də Fransaya gedəndə orada çıxış etdim. Fransaya səfərə gələn dünya ölkələri başçılarının hamısı orada mütləq çıxış edirlər.

Klinton da, Kol da, Mitteran da – hamısı orada çıxış ediblər.

Böyük mütəxəssislər, Fransada olan səfirlər oraya toplaşmışdılar. Salon ağzınadək dolu idi. Mən orada çıxış etdim, suallar da verdilər. Mən təkcə orada yox, hər yerdə, demişəm ki, respublikamızın müstəqilliyi tarixi nailiyyətimizdir, müstəqilliyimiz sarsılmazdır, dönməzdir və biz onu heç vaxt əlimizdən verə bilmərik. Buna arxayın ola bilərsiniz. Dünyada da bilirlər ki, Azərbaycan nəinki müstəqilliyə nail olmuşdur, həm də respublikamızın hazırkı dövləti həqiqi müstəqillik siyasəti aparır. Mən orada çoxlu suallara cavab verdim. Bu, sirr deyil. Bu görüş televiziya vasitəsilə verilib.

Məsələn, mənə belə bir sualla müraciət etdilər ki, niyə siz Müstəqil Dövlətlər Birliyində bir çox sənədlərə imza atmırsınız və hər şeylə razı deyilsiniz? Cavab verdim ki, bu da bizim müstəqilliyimizi göstərir. Biz bu təşkilata daxil olmuşuq, o bizə lazımdır. Amma bu təşkilatın hansı qərarları respublikamızın müstəqilliyinə zərrə qədər də toxunursa, biz onu imzalamırıq, qəbul etmirik. Bu da təbiidir. Bir ölkə tamam qəbul edir - özü bilər, başqa bir ölkə də qəbul etmir. Görürsünüz, bu məsələləri Qərb ölkələrində bilirlər və mənə belə suallar verirlər. Yəni müstəqilliyimizi gündən-günə möhkəmləndirmək, onu müdafiə etmək sahəsində həyata keçirdiyimiz tədbirlərimizi Qərb ölkələrində bilirlər. Fransada da məndən bu barədə soruşurdular.

Müstəqilliyimiz haqqında narahat olmayın. Bu gün yanvarın 19-u, sabah 20-sidir. Bu günlər biz 20 Yanvar hadisəsinin yeddinci ildönümünü qeyd edirik. Yeddi il bundan əvvəl şəhidlər vermişik. Mən Fransaya səfərimdə də bu barədə danışdım. Dedim ki, mənim buraya səfərim Azərbaycana qarşı olmuş hərbi təcavüzün, bizim o faciəmizin, şəhidlərimizin yeddinci ildönümünə təsadüf edir.

Azərbaycana nə üçün belə hərbi təcavüz etdilər? Azərbaycanda ayağa qalxmış xalqın azadlıq hərəkatını boğmaq üçün bunu etdilər. Biz şəhidlər verdik, insanlarımız qırıldı. Azərbaycanın başına gələn bu bəla o vaxt heç bir respublikada baş verməmişdi.

Xalq da, siz də arxayın ola bilərsiniz ki, ölkəmizin müstəqilliyi sarsılmazdır. Doğrudur, bu, asan deyil, çox çətindir. Amma nə qədər çətin olsa da, bəlkə də başqa məsələlərdə biz nəyi isə itirə bilərik, ancaq müstəqillik məsələsində heç bir şeyi itirə bilmərik.

Fürsətdən istifadə edərək, Yanvar faciəsinin yeddinci ildönümü münasibətilə demək istəyirəm ki, Bəxtiyar müəllim, biz sizin bu sahədəki xidmətlərinizi həmişə qeyd etmişik və bu gün də mən bunu bildirirəm. Bilirsiniz ki, biz Yanvar faciəsinə siyasi qiymət verilməsi ilə əlaqədar 1994-cü ildə qərar qəbul etmişik. Yadımdadır, 1990-cı il yanvarın 22-də sizin sədrliyinizlə sessiya keçirildi. Təsəvvür edin, respublikanı, hökuməti idarə edən adamlar qaçdılar, sessiyaya Bəxtiyar Vahabzadə sədrlik edirdi. Əgər sən dünənədək bu hökumətə, xalqa, dövlətə, respublikaya rəhbərlik edirdinsə, onun ağır günündə də gəl xalqla bir yerdə ol. Sən qaçıb evdə gizlənmisən, Bəxtiyar Vahabzadə isə özünü burada fəda, necə deyərlər, şəhid edir. Yəni Bəxtiyar Vahabzadə burada bu qərarı qəbul edir, amma sən gedib dörd gündən sonra özünü Azərbaycana hakim təyin etdirirsən və bu faciənin üstünü örtməyə, basdırmağa başlayırsan.

Onlar bu faciənin üstünü basdırdılar, sizin qəbul etdiyiniz qərar isə qərar kimi qaldı. Yanvarın 22-də sessiyada siz qərar qəbul etdiniz ki, Sovet Ordusunun qoşunları əgər buradan tezliklə çıxmasa, Azərbaycan Sovet İttifaqının tərkibindən çıxacaqdır. Amma sovet ordusunun qoşunları Azərbaycandan çıxmadı. Bir neçə gün ondan sonra Azərbaycana təyin edilmiş rəhbərlər də sizin qəbul etdiyiniz qərarı yerinə yetirmədilər, Rusiyanın qoşunlarını buradan çıxarmadılar.

Sovet ordusunun qoşunlarını nəinki buradan çıxarmadılar, Bakı 1990-cı ili tamamilə fövqəladə vəziyyətdə, əsgərlərin avtomatı altında yaşadı. Qoşunları yalnız 1991-ci ilin sonunda Bakıdan çıxardılar. Bu da o vaxt baş verdi ki, artıq Moskvada qiyam olmuşdu. Sovet İttifaqı dağılırdı. Qoşunları da Bakıdan məhz bu vaxt çıxardılar.

Bəxtiyar Vahabzadə: Cənab prezident, o vaxt onlar qiyamçıları dəstəklədilər, onlara səs verdilər.

Heydər Əliyev: Bəli, onlar qiyamçılara səs verdilər, amma bundan da bir şey çıxmadı.

Bəxtiyar Vahabzadə: Cənab prezident, o vaxtkı sessiyada hökumət adamlarından yalnız Həsən Həsənov iştirak edirdi.

Heydər Əliyev: Onlar nə sessiyada iştirak etdilər, nə də şəhidlərin matəm, dəfn mərasiminə gəlmədilər.

Bəxtiyar Vahabzadə: Ondan 5-6 gün sonra qəzetdə elan etdilər ki, bu sessiya qeyri-qanunidir və onun heç bir hüquqi əsası yoxdur.

Heydər Əliyev: Bəli, bax, satqınlıq, milləti satmaq budur. Şübhəsiz ki, belə adamlar nə millətin qayğısına qala, nə də respublikamızın müstəqilliyini qoruya bilərdilər.

20 Yanvar hadisəsi faciəli olsa da, o, xalqımızın müstəqilliyə nə qədər meylli olduğunu, bu arzu ilə yaşadığını göstərdi və onu nümayiş etdirdi. Qan töküldü, faciə oldu, şəhidlər verdik, amma xalqımızın iradəsini dünyaya sübut etdik. Bunun da böyük əhəmiyyəti var. Ona görə də mən bu faciə haqqında danışanda deyirəm ki, əlbəttə, biz itkilər verdik, günahsız insanlar qırıldı, amma digər tərəfdən, Sovet İttifaqının o vaxtkı rəhbərliyinin irticaçı, təcavüzkar siyasəti büruzə verildi və Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsi ən yüksək zirvəyə qalxdı.

Bəxtiyar Vahabzadə: Heydər müəllim, o vaxt Siz Moskvada çıxış etdiniz.

Heydər Əliyev: Bəli, yanvarın 21-də mən Moskvada çıxış etdim. İndi bunu demək istəmirəm, o vaxt mən Moskvada təcrid edilmiş, cəmiyyətdən tamamilə uzaqlaşdırılmış və təqib altında olan bir adam idim. Məni daim təqib edirdilər. Hətta hazırlaşırdılar ki, orada məni həbs etsinlər.

Sizə danışmışam, o vaxt mən Moskvada deyildim. Xəstə idim, Moskvadan kənarda sanatoriyada müalicə olunurdum. Axşam bu hadisəni eşitdim, gecə ikən Moskvaya gəldim. Uşaqlarım – oğlum İlham, qızım Sevil, qızımın əri Mahmud evdə idilər. Onlara dedim ki, mən oraya gedirəm. Bildirdilər ki, axı bu, təhlükəlidir. Onlar mənim ətrafımda olan vəziyyəti bilirdilər. Onların üçü də ayağa durdu və dedilər ki, ata, biz də sənlə gedirik. Dedim ki, siz getməyin. Bəlkə təkcə Mahmud mənimlə getsin, siz getməyin. Çünki orada cürbəcür hadisələr ola bilərdi. Nə olursa, qoy mənimlə olsun, heç olmasa sizinlə olmasın. Oğlum dedi ki, yox, mən də gedirəm. Hətta qızım uşaqlarını evdə qoyub dedi ki, mən də gedirəm. Yaxşı ki, o vaxt kimsə lentə alıb – oğlumla, qızımla, qızımın əri ilə birlikdə oraya gəldik. Necə deyərlər, sözümü də dedim, münasibətimi də bildirdim. Mən – vəzifədə olmayan bir adam, orada münasibətimi bildirdim, amma vəzifədə olan adamların heç biri bu faciəyə münasibətini bildirmədi, bəyanat vermədi.

Eybi yoxdur, yeddi il keçdi. Şəhidlərin ruhu, əlbəttə ki, qəlbimizdə yaşayır və daim yaşayacaqdır. Biz bu günü heç vaxt unutmayacağıq. Ona görə də mən yanvar faciəsinin yeddinci ildönümünün qeyd edilməsi ilə əlaqədar sərəncam verdim ki, xalqımız o günləri bir daha yad etsin. Mən buraya gələrkən gördüm ki, camaat indidən Şəhidlər xiyabanına axışır. Respublika sarayında sabah böyük bir mərasim olacaqdır, mən də orada iştirak edəcəyəm.

Bu söhbəti sən saldın, mən də bir daha deyirəm ki, Azərbaycanın müstəqilliyi uğrunda, mübarizədə Bəxtiyar Vahadzadənin xidmətləri böyükdür. Ölkəmizin, xüsusən o çox gərgin vəziyyətində siz vətəndaşlıq, ziyalılıq cəsarəti göstərmisiniz. Ona görə də nə mən, nə də xalqımız bunu unuda bilmərik və onu yüksək qiymətləndiririk.

Təhsil, teatr barədə sizin fikirlərinizlə mən tamamilə razıyam. Məsələn, siz Süleyman Rəhimov haqqında söz açdınız. Mənim xatirimdədir o vaxt mən işləyəndə ilk dəfə Süleyman Rəhimov və sonra yazıçılarımızdan, şairlərimizdən bir çoxları Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Bu, o vaxt dövlətimizin ən yüksək mükafatı idi. Bunları bu gün heç vaxt təhlil etmək lazım deyil. Kim hansı dövrdə, hansı dövlətdən hansı mükafatı alıbsa, o, yüksək bir nişanədir. O vaxt mən yazıçılarımızdan, şairlərimizdən ilk dəfə Süleyman Rəhimovun belə yüksək mükafata layiq görülməsi barədə təklif verdim və ona nail oldum. Süleyman Rəhimova Sosialist Əməyi Qəhrəmanı adı verildi.

Bilirsiniz ki, insanlar arasında paxıllıq da, rəqabət də var. Bəziləri dedilər ki, niyə Süleyman Rəhimova belə yüksək ad verirlər? Süleyman Rəhimov haqqında sizin dediyiniz bu fikirlərlə razıyam. Çünki mən Süleyman Rəhimov haqqında hələ o vaxt belə düşünürdüm. Düşünürdüm ki, Süleyman Rəhimov ədəbiyyatımızda həqiqətən özünəməxsus yer tutub.

Ümumiyyətlə, ədəbiyyatımızda, mədəniyyətimizdə çox şəxsiyyətlər olub. Amma elə şəxsiyyətlər olur ki, onlar özünəməxsus bir yer tutur, təkrarolunmazdırlar, onları heç kəs əvəz edə bilmir. Məsələn, Süleyman Rəhimov da, Mirzə İbrahimov da, Hüseyn Cavid də, Rəsul Rza da, Səməd Vurğun da, Cəlil Məmmədquluzadə də, Sabir də, Süleyman Rüstəm də belədir. Bu gün bizim dövrümüzdə yaşayanlardan söhbət açsaq, Bəxtiyar Vahabzadə də belədir. İkinci bir Bəxtiyar Vahabzadə yoxdur. O, başqasına bənzəmir və onu heç kəs əvəz edə bilməz. Sabah başqa bir şəxs yaranacaqdır, onun bəlkə də başqa xüsusiyyətləri olacaqdır.

Bəli, xalqımız elə xalqdır ki, tarixin hər bir mərhələsində böyük, dahi insanlar yetişdirir və biz bununla fəxr etməliyik. Biz kasıb xalq deyilik. Yəni biz intellekt cəhətdən kasıb deyilik. Bəli, xalqımızın zəkası çox zəngindir.

Bəxtiyar Vahabzadə: Cənab prezident, indi cavanlarımız yetişir. Bizə tamamilə bənzəməyən, yaxın gəlməyən, təzə bir yolla gedən cavan şairlərimiz yetişirlər. Dünən «Ata şapalağı» adlı bir şeir oxudum, o, nə gözəl yazır! Atası rəhmətə gedib, şair deyir ki, mənim ata şapalağına ehtiyacım var. Deyir ki, ata, qalx mənə bir şapalaq vur – mən bu dünyanı dərk edə bilmirəm, bəlkə sənin şapalağın məni ayıltdı, bu dünyanı dərk edə bildim. Bizim ata nəsihətinə, ata öyüdünə həmişə ehtiyacımız var.

Üzr istəyirəm, mənim tamam başqa bir yolum var.

Heydər Əliyev: Sənin öz yolun var, bu yolu dəyişdirə bilməzsən. Amma onun da öz yolu var.

Bəxtiyar Vahabzadə: Bəli, onun da öz yolu var. Onu təqdir etmək lazımdır. Onun qolundan tutub irəli aparmaq lazımdır.

Heydər Əliyev: Düz deyirsən. Mən Anarla danışmışam, sizə də deyirəm, vaxt ayırıram, istəyirəm ki, bu yaxınlarda yazıçıların hamısı ilə, eyni zamanda, ya bir yerdə, ya da ayrıca gənc nəsillə görüşək. Çünki biz vaxtilə bunu edirdik. Məsələn, Anar, Elçin, Yusif Səmədoğlu – xatirimdədir, 25 il bundan əvvəl biz onlarla cavanlar kimi görüşürdük. İndi onlar yaşlaşıblar. Amma gərək bugünkü gənclərlə də görüşək. Belə cavanlarımız var və olacaqdır.

Bilirsiniz, bəzən mən çox görkəmli şairlərimiz, yazıçılarımız, bəstəkarlarımız, müğənnilərimiz haqqında düşünəndə deyirdim ki, görəsən bu gedəndən sonra onu kim əvəz edəcək? Amma sonra fikirləşib gördüm ki, yer boş qalmır. Gedən gedir, amma yenisi də başqa ruhda yaranır. Bəlkə də Bülbül kimisi olmayacaq, amma Bülbülün yerini verənlər olacaq.

Bəxtiyar Vahabzadə: Azər Zeynalov var. İlahi, o nə gözəl, şirin oxuyur!

Heydər Əliyev: Bəli, Azər Zeynalov. Mən Rəşid Behbudovu çox sevirdim. Rəşid Behbudov yaşlaşdıqca mən daim narahat olurdum ki, onun yerini kim tutacaq. İndi baxıram, Azər Zeynalov gözəl oxuyur.

Fəxr etməliyik ki, bizim Rəşid Behbudov kimi böyük bir müğənnimiz olubdur. Bu yaxınlarda Moskvada onun çox böyük yubileyini keçirdik. Moskvadan gələn böyük-böyük adamlar mənə deyirdilər ki, son illər Moskvada belə bir şey olmamışdır. Oradakı «Rossiya» salonuna Moskvanın bütün elitası, ziyalıları toplaşmışdılar. Bunun mənası nədir? Biz, birincisi, Rəşid Behbudovu xatırladıq, onu yada saldıq. İkincisi, Azərbaycanın musiqisini, mədəniyyətini göstərdik, üçüncüsü, Rusiya və Azərbaycan mədəniyyətlərini bir-birinə yaxınlaşdırdıq. Görürsünüz, bir tədbirlə nə qədər məsələ həll olundu.

Bəxtiyar Vahabzadə: Cənab prezident, Füzulinin yubileyi bir möcüzə idi. Yadınıza gəlir. İhsan Doğramacının köməyi ilə Türkiyədə Füzulinin yubileyi qeyd olundu. Amma respublikamızda keçirilən yubiley, yenə də deyirəm, möcüzə idi.

Heydər Əliyev: Bəli, xalqımızı tanıtmaq lazımdır. Mən neçə ildir çalışıram, işləyirəm, bir məqsədim var: xalqımızı tanıtmaq.

Siz indi Fransaya səfərim haqqında soruşdunuz. Mən Fransada üç gün oldum. Mən buradan təyyarə ilə saat 8-də uçdum, otelə çatandan

yarım saat sonra biz Fransa prezidenti ilə görüşə başladıq. Həmin gün gecə saat 1-dək görüşlər davam etdi. O birisi gün də bütün gün görüşlər oldu. Üçüncü gün mən Fransada işlərimi qurtardım, saat 4-də oradan çıxdım. Həddindən çox görüşlər, böyük auditoriyalar oldu. Bunlar bir çox məqsəd daşıyır. Amma bunun ən böyük məqsədi Azərbaycanı tanıtmaqdan, ölkəmizin bu gün nə olduğunu göstərməkdən ibarətdir. Biz buna nail olduq.

Füzulinin yubileyi də həm Füzulinin yubileyinə, xatirəsinə hörmət idi, həm də Füzulini və xalqımızı dünyada tanıtmaq məqsədi daşıyırdı. Bax, xalqımız belə xalqdır ki, 500 il bundan əvvəl onun dahi bir şairi olubdur və onun əsərləri 500 ildir ki, yaşayır.

Bəxtiyar müəllim, daha sizin vaxtınızı almaq istəmirəm, xəstəsiniz. Allah şəfa versin. Mən inanıram ki, bu, son əməliyyatdır, daha belə əməliyyat olmayacaq, sağalacaqsınız, çıxacaqsınız, möhkəm işləyəcəksiniz və öz yerinizdə möhkəm dayanacaqsınız.

Bəxtiyar Vahabzadə: Cənab prezident, Allah sizdən razı olsun. Çox sağ olun.

Heydər Əliyev: Mən sizə öz hörmət və ehtiramımı bildirirəm. Təşəkkür edirəm ki, cərrahımız belə yaxşı əməliyyat aparıbdır. O, Yeni Azərbaycan Partiyasının üzvüdür və həmin partiyanın siyahısı ilə Milli Məclisə deputat seçilib. Bax, Milli Məclisdə belə cərrahımız var. Biz bununla da fəxr etməliyik. Fəxr etməliyik ki, Milli Məclisimizdə bu cür mütəxəssislər, ziyalı adamlar var. İndi Milli Məclisimiz keçmişdə Milli Məclisdə olan bazarkomlardan ibarət deyil. Xalqı təmsil edən ziyalılardır, sizsiniz, elm adamları, bilikli adamlardır. Mən çox məmnunam. Sağ olun.

Bəxtiyar Vahabzadə: Cənab prezident, çox sağ olun. Allah Sizdən razı olsun. Allah ömrünüzü uzun eləsin.

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ RƏHBƏRLİYİ, HƏQİQİ VƏ MÜXBİR ÜZVLƏRİ, İNSTİTUT DİREKTORLARI VƏ APARICI ALİMLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ*

Prezident sarayı
31 yanvar 1997-ci il

Hörmətli alimlər, xanımlar və cənablar!

Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram və sizinlə bugünkü görüşümdən çox məmnun olduğumu bildirirəm.

Sizinlə son illər, mən Azərbaycan Respublikasının prezidenti seçiləndən sonra ayrı-ayrı toplantılarda, yığıncaqlarda, mərasimlərdə görüşmüşük. Ancaq bu gün mən sizi bu görüşə dəvət edərkən Elmlər Akademiyasının rəhbərliyi ilə, aparıcı alimlərlə, akademiyanın həqiqi üzvləri, müxbir üzvləri, institut direktorları ilə görüşüb, akademiyanın işi ilə əlaqədar bəzi məsələlər haqqında fikir mübadiləsi aparmaq məqsədi daşıyıram. Buna böyük ehtiyac var. Mən çoxdan belə bir görüşə həm sizin üçün, həm də mənim üçün ehtiyac olduğunu düşünürdüm və belə bir görüşü planlaşdırırdım. Təəssüflər olsun ki, bir çox başqa məsələlər vaxtı aldığına görə bu görüş müəyyən qədər gecikibdir. Amma geciksə də, bu gün görüşüb, söhbət edib, fikir mübadiləsi aparıb akademiyanın işləri ilə daha da yaxından tanış olaraq akademiyanın işlərini gücləndirmək üçün lazımi tədbirlər görmək imkanımız var.

Siz bilirsiniz ki, Elmlər Akademiyasına keçmiş illərdə də və son illərdə də mənim daim hörmətim və diqqətim, qayğım olmuşdur. Ancaq hesab edirəm ki, bizim elmimizə, xüsusən Elmlər Akademiyasına qayğı, diqqət daha da artıq olmalıdır.

Respublikamız keçid dövrünü yaşayır. Dövlət müstəqilliyinin beşinci ili başa çatıbdır. Bu beş il müddətində ölkəmizin həyatında baş vermiş hadisələr, gedən proseslər, dəyişikliklər sizə yaxşı məlumdur. Bu dəyişikliklər sırasında Elmlər Akademiyasının da işində müəyyən dəyişikliklər əmələ gəlmişdir və bütün sahələrdə olduğu kimi, bir çox çətinliklər, problemlər də meydana çıxmışdır və çox qüsurlar, nöqsanlar da mövcuddur.

Ancaq ümumi çətinliklər nə qədər çox olsa da, biz elmə təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. B., Azərnəşr, 1998, s. 359-381

çox istifadə etməliyik.

XX əsr sona çatır. XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir. Biz tarixi keçmişimiz haqqında söhbət açanda tarixin bütün mərhələlərində Azərbaycan xalqının görkəmli elm xadimləri haqqında qürur hissi ilə danışırıq və bu, xalqımızın nə qədər istedadlı olduğunu nümayiş etdirir. Biz bununla daim fəxr edirik. Ancaq eyni zamanda o da həqiqətdir ki, ölkəmizdə – Azərbaycanda elm XX əsrdə çox sürətlə inkişaf etmişdir. XX əsrdə Azərbaycanda xalqın təhsillənməsi, yüksək təhsil ocaqlarının, institutların yaranması, xalqın təhsilə cəlb olunması, elmi tədqiqat institutlarının yaranması, elmi tədqiqat işlərinin təşkil olunması və bunların nəticəsində 50 il bundan öncə Azərbaycanda ilk dəfə Elmlər Akademiyasının yaranması – bunların hamısı XX əsrdə Azərbaycanda elmin sürətlə inkişafını nümayiş etdirən faktlardır.

Bunlar bizim milli sərvətimizdir, biz bu nailiyyətlərlə fəxr edirik və yaranmış elmi potensialı qorumalı, saxlamalı, ondan indi və gələcəkdə də müstəqil Azərbaycanın inkişafı naminə daha səmərəli istifadə etməliyik.

Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi tarixi nailiyyətdir və bu, hər bir azərbaycanlı üçün ən böyük xoşbəxtlikdir. Amma bu müstəqilliyi əldə edərkən nəyimiz vardı, nəyimiz yox idi – bunun da çox böyük əhəmiyyəti var. Biz dövlət müstəqilliyini əldə edərkən müstəqil dövlət kimi yaşamaq üçün, demək olar, hər şeyimiz var idi. O cümlədən böyük elmimiz var idi. Bizim bu böyük elmimiz Az ərbaycanın istedadlı insanları, alimləri tərəfindən, elmi tədqiqat institutları, təşkilatları, Elmlər Akademiyası tərəfindən, sahə institutları tərəfindən yaranmış elmdir. Ona görə də Azərbaycanın güclü elmi potensialı haqqında həmişə böyük iftixar hissi ilə danışarkən, şübhəsiz ki, birinci növbədə elmi nailiyyətlərimizi nəzərdə tuturuq və xüsusən Elmlər Akademiyasının əldə etdiyi nailiyyətləri nəzərdə tuturuq.

Biz həmişə öz işlərimizdən narazı olmuşuq. Bu, təbiidir, çünki nailiyyətlər bizimdir, ancaq daha da çox nailiyyətlər əldə etmək prinsipi həyatımızda bizi həmişə müşayiət edibdir. Bu gün də bu fikirlərlə, bu duyğularla yaşayırıq. Ona görə də çox vaxt özümüz öz elmi nailiyyətlərimizi tənqid etmişik, bu gün də tənqid edirik – çox imkanlarımızdan istifadə olunmasını da daim qeyd edirik, bunlar təbiidir. Ancaq eyni zamanda əldə olunan nailiyyətləri də qiymətləndirməliyik, çünki bunlar hamısı göz qabağındadır.

Bütün bu nailiyyətlərin əldə olunmasında Azərbaycan Elmlər Akademiyasının xidmətləri çox böyükdür. Əlli il bundan öncə Elmlər Akademiyasının yaranması Azərbaycanın çoxəsrlik tarixində mühüm bir

hadisədir. Ona görə də mən bir neçə dəfə bəyan etmişəm ki, biz Elmlər Akademiyasının yarım əsrlik yubileyini qeyd etməliyik. Qeyd etməliyik ona görə yox ki, bizə bir bayram lazımdır: ona görə ki, həm xalqımıza, həm də dünyaya bir daha nümayiş etdirək, sübut edək ki, xalqımız böyük istedada, elmi potensiala malikdir və bu nailiyyətlərimiz də dünya elminə özünə görə müəyyən töhfələr veribdir.

Doğrudur, əlli illik yubileyin keçirilməsi gecikib, ancaq – bu gün mən sizinlə səmimi danışıram – bunun gecikməsinin səbəbi daha çox sizin üzərinizə düşür, nəinki bizim. Çünki həyatımız indi o qədər gərgindir, işlər o qədər çoxdur, hər gün yeni-yeni problemlər meydana çıxır, ona görə də nəzərdə tutulmuş bəzi tədbirlərin təxirə salınması, vaxtında keçirilməsi təbiidir. Ancaq eyni zamanda təşəbbüs olanda və belə tədbirlərin keçirilməməsi üçün cəhdlər çox göstəriləndə biz məcbur oluruq bəzi vacib məsələləri kənara qoyub onlarla məşğul olaq.

Təəssüf ki, belə təşəbbüs, cəhdlər Elmlər Akademiyasının rəhbərliyi tərəfindən göstərilməyibdir. Mən dünən akademiyanın prezidenti Eldar Salayev ilə danışarkən ona bu barədə dedim. Dedim ki, mən demişdim akademiyanın əlli illik yubileyini keçirmək lazımdır, sizin də borcunuz o idi ki, yaxamızdan tutaydınız ki, gəlin bunu keçirək. Belə olsaydı, bu yubiley çoxdan, yəni bir il bundan öncə keçirilmiş olardı. Ancaq güman edirəm, bunun o qədər əhəmiyyəti yoxdur ki, heç bir il gec, bir il tez keçirilsin. Mühüm odur ki, belə bir yubiley mərasimini keçirmək zərurəti bu gün də var, onu keçirmək lazımdır və biz yubiley mərasimini mütləq keçirəcəyik.

Ancaq iş təkcə yubiley keçirib akademiyanın əlli illik fəaliyyətinə, yaxud da ümumiyyətlə elmi nailiyyətlərimizə qiymət verməkdən ibarət deyildir. Başlıca məqsəd əldə edilən nailiyyətlər əsasında elmi bundan sonra daha sürətlə inkişaf etdirməkdən ibarətdir.

Aydındır ki, indi elmin istənilən səviyyədə yaşaması, inkişaf etməsi üçün tələb olunan şərait yoxdur. Çünki son illər respublikamızın sosial-iqtisadi böhran dövrü keçirməsi, iqtisadi çətinliklər, Azərbaycanın uzun müddət müharibə şəraitində olması, Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın işğal edilməsi, bir milyondan artıq vətəndaşımızın qaçqın vəziyyətinə düşməsi və cürbəcür başqa səbəblər iqtisadiyyatımızda çox çətinliklər yaradıbdır. Bu çətinliklər təkcə bizim respublikamızda, ölkəmizdə deyil, keçmiş Sovetlər İttifaqına mənsub olmuş digər respublikalarda, müstəqil dövlətlərdə də var. Ancaq bir tərəfdən Ermənistanın təcavüzü ilə əlaqədar olaraq, digər tərəfdən son iki ildə Azərbaycanın Şimaldan nəqliyyat blokadasına alınması ilə əlaqədar olaraq, – Çeçenistandakı hadisələrə və başqa səbəblərə görə, – bizim respublikamızda olan

çətinliklər başqa respublikalara nisbətən daha çoxdur. Bunlar hamısı indi bizim sosial-iqtisadi vəziyyətimizin istənilən səviyyədə olmamasına gətirib çıxarıbdır. Ancaq bu çətinliklərə baxmayaraq, biz bütün mövcud imkanlardan istifadə edib elmin inkişafını təmin etməliyik və Elmlər Akademiyasının işinin daha da səmərəli aparılması üçün lazımi tədbirlər görməliyik. Bu tədbirləri də görürük.

Elmin inkişafı, akademiyanın səmərəli işləməsi üçün birinci növbədə maliyyə vəsaiti tələb olunur. Keçmiş illərə nisbətən indi bu imkanlar azdır. Ancaq buna baxmayaraq, biz 1997-ci ildə Elmlər Akademiyasına ayrılan vəsaiti xeyli artırmışıq. Məsələn, əgər 1996-cı ildə Elmlər Akademiyasına büdcədən 17 milyard manat ayrılmışdısa, 1997-ci ildə 26 milyard manat nəzərdə tutulubdur. Güman edirəm ki, bu, yaxşı artımdır. Məlumdur ki, bu akademiyanın bütün tələblərini ödəməyəcək, ancaq keçən ilə nisbətən artım çoxdur. Bəlkə də bizim büdcənin həyata keçirilməsi zamanı, əgər sizin işləriniz səmərəli olsa bu, müəyyən qədər artırıla da bilər.

Məlumdur ki, elm sahəsində, xüsusən Elmlər Akademiyasında işləyənlərin, alimlərin, elmi işçilərin məvacibi də azdır. Vaxtilə Elmlər Akademiyasının işçiləri, alimlər təkcə Azərbaycanda deyil, keçmiş Sovetlər İttifaqında ən yüksək məvacib alırdılar. 50-ci, 60-cı illərdə məvaciblər artırılmışdı, sonralar da bu davam edirdi. Sizin də xatirinizdədir, mənim də xatirimdədir ki, məsələn, 70-ci illərdə Elmi Tədqiqat İnstitutu direktorunun məvacibi Azərbaycanda ən yüksək rəhbər vəzifələrdə olanların, – Mərkəzi Komitənin katibləri, Nazirlər Soveti sədrinin müavinləri, – məvaciblərindən artıq idi. Elmi rütbəyə görə verilən məvacibi də – bəzi alimlərimiz həm akademiyada, həm də başqa yerdə işləyirdilər – bunun üstünə gələndə alimlərimiz respublikanın ən yüksək rəhbər vəzifəli şəxslərindən iki-üç dəfə çox pul alırdılar. Xatirimdədir, elə buna görə 60-cı illərdə Azərbaycanda bir xəstəlik əmələ gəlmişdi – yəqin ki, bunu siz də xatırlaya bilərsiniz – partiya, sovet, dövlət işində işləyən çox adamlar bununla yanaşı özlərinə mütləq elmi dərəcələr almaq istəyirdilər, namizədlik, doktorluq dissertasiyaları hazırladılar. Hesab edirdilər ki, gələcək üçün lazımdır, sabah işdən çıxarılanda elmi dərəcələri var, gedib bundan da çox məvacib alacaqlar.

Bunlar hamısı sizə məlumdur. Sizə məlumdur ki, mən 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra bu hallarla ciddi mübarizəyə başladım, dövlət, partiya işindəki şəxslərin belə məsələlərlə məşğul olmasının qarşısını almağa çalışdım, hətta bəzi adamlar gizlin şəkildə belə işlər gördüklərinə görə cəzalandırıldılar.

Mən o vaxt yalnız və yalnız elmin zibillənməsinin qarşısını almaq istəyirdim. Çünki o insanlar vəzifələrindən sui-istifadə edirdilər. Şübhə-

siz ki, özləri elmi əsər, yaxud dissertasiya yazmırdılar, kiməsə yazdırır, müdafiə edirdilər. Bir tərəfdən lazımi elmi biliyi olmadığı halda elmi ad alır, ikinci tərəfdən də, öz vəzifəsindən istifadə edirdilər. Mən o vaxt da bunun əleyhinə olmuşam, indi də əleyhinəyəm. Bu, mənim mənəvi prinsipimdir. Ancaq bunu o mənada xatırlayıram ki, elm sahəsində – akademiyada, yaxud başqa elmi tədqiqat institutlarında işləyən adamların məvacibi yüksək olduğuna görə bəzi vəzifəli şəxslər də bu yollara əl atırdılar.

İndi də sizin məvacibiniz dövlət orqanlarında işləyən adamların məvaciblərindən az deyil, ancaq onlarınkı da, sizinki də azdır, hamınınkı azdır. Bilirəm ki, bu da böyük çətinliklər yaradır. Bu, şəxsən məni narahat edir. Ümumiyyətlə, əhalinin sosial-iqtisadi vəziyyəti, maddi vəziyyəti, o cümlədən, xüsusən bizim ziyalıların, alimlərin maddi vəziyyəti məni narahat edir. Ona görə bu sahədə də çalışırıq və bundan sonra da çalışacağıq ki, mövcud imkanlardan istifadə edək və sizin, yəni Elmlər Akademiyası işçilərinin məvacibini artıraq.

Mən bu sahədə ilk addımı atmışam – sizin Elmlər Akademiyasında çalışan bütün işçilərin məvacibinin 50 faiz artırılması haqqında bu gün qərar qəbul etmişəm. Bununla yanaşı, bizim görkəmli alimlərimiz – hansılar ki, Elmlər Akademiyasının həqiqi, müxbir üzvləridir – şübhəsiz ki, seçilməlidirlər. Keçmişdə rütbə məvacibləri olub, indi də var. Bu rütbə münasibətlərinin də xeyli artırılması haqqında qərar qəbul etmişəm. İndi akademiklivə görə nə qədər alırsınız?

Yerdən: Əlli min manat.

Heydər Əliyev: Müxbir üzvü nə qədər alır?

Yerdən: İyirmi beş min manat.

Heydər Əliyev: Bunu on dəfə artırsam necə olar? (Alqışlar) On dəfə artırmışam. Sizin üçün daha da sübutlu olmaq üçün istəyirəm ki, mənim imzaladığım sərəncam elan edilsin. Sərəncamı mən bu gün imzalamışam. («Azərbaycan Respublikasının Elmlər Akademiyası işçilərinin aylıq əmək haqlarının artırılması haqqında» Azərbaycan Respublikası prezidentinin sərəncamı oxundu).

Doğrudur, bəlkə bundan da çox olmalı idi, ancaq hesab edirəm ki, bu artım müəyyən qədər təsirli olacaqdır. Təkcə akademiklər, yaxud da müxbir üzvlər üçün yox, bütün Elmlər Akademiyasında işləyənlər üçün müəyyən qədər kömək olacaqdır. Ümidvaram ki, respublikanın iqtisadiyyatında 1997-ci ildə müəyyən irəliləyişə nail olunacaq, bunun nəticəsində həm sizin, həm də ümumiyyətlə respublikamızdakı bütün insanların maddi vəziyyətinin yaxşılaşması üçün yeni qərarlar qəbul etmək imkanı əldə edəcəyik.

Akademiyanın qarşısında duran vəzifələr çox böyükdür, işləriniz çoxdur. Bu gün mən bu barədə çox geniş hesabat, yaxud məruzə dinləmək fikrində deyiləm və məsələlərə toxunmaq məqsədində deyiləm. Ancaq bəzi məsələlər haqqında fikir mübadiləsi aparmaq olar.

Birincisi, mən bir daha bu fikrə qayıdıram, – hazırlaşıb yaxın vaxtlarda Elmlər Akademiyasının əlli illik yubileyini qeyd etmək lazımdır. Bu barədə sizdən konkret təkliflər gözləyəcəyəm, mənim aparatım bu haqda göstərişimi alıbdır. İş proqramımıza uyğun olaraq münasib vaxt tapılacaq və bu yubileyi geniş və təntənəli qeyd edəcəyik.

Mən xatırlayıram, 22 il bundan əvvəl – 1975-ci ildə biz Azərbaycan Elmlər Akademiyasının 30 illik yubileyini qeyd edirdik. O vaxtlar Sovetlər İttifaqı, yəni Rusiya Elmlər Akademiyasının 250 illik yubileyi qeyd olunurdu. Həmin dövrdə Elmlər Akademiyası «Xalqlar Dostluğu» ordeni ilə təltif edilmişdi. Təntənəli bir iclas keçirdik. O iclasdakı nitqim də mənim xatirimdədir. Akademiyanın işçilərinin çoxu təltif olundu. O zaman biz respublika akademiyasının 30 illiyi haqqında söhbət aparırdıq. İndi isə 50 illik yubileyindən bəhs edirik. Ondan fərqli olaraq indi bu akademiya müstəqil Azərbaycan dövlətinin akademiyasıdır. Müstəqil dövlət kimi biz öz milli akademiyamızın yubileyini keçirəcəyik. Mən çox məmnunam ki, biz akademiyanın yaranmasının yubileyini 22 il bundan əvvəl də bir yerdə keçirmişik. İndi, illər keçəndən sonra yenə də bir yerdəyik və bu tarixi hadisəni bir yerdə qeyd edəcəyik.

O vaxtlar akademiya çox problemlərlə məşğul olurdu. Bu da ondan irəli gəlirdi ki, istəyirdik Sovet İttifaqının akademiyasındakı bütün istiqamətlərdə biz də işləyək, özümüzü göstərək. Biz o vaxtlar da düşünürdük ki, bu o qədər də düzgün siyasət deyil. Çünki Sovetlər İttifaqının akademiyası bütün ölkəni əhatə edirdi və şübhəsiz ki, elmin bütün sahələrində səmərəli iş aparırdı və buna da imkan vardı. Amma Azərbaycanda, nisbətən böyük olmayan bir respublikada bütün sahələri əhatə etmək mümkün deyildi. Belə hal təkcə bizim respublikamıza aid deyildi, hər bir müttəfiq respublikanın akademiyası Sovet İttifaqı akademiyası kimi olmaq istəyirdi. Beləliklə də, qüvvələr, vəsait dağılırdı, çox şeyləri əhatə etməklə işlərin də çoxu bəzən yarımçıq qalırdı.

İndi Azərbaycan müstəqil bir dövlətdir. Azərbaycanın Elmlər Akademiyası dövlət elmlər akademiyasıdır. Bizim akademiyamızın gərək strategiyası olsun, akademiya gərək özü işini bu strategiya əsasında qursun. Bu strategiyanı da gərək siz respublikamızın həm elmi tədqiqat sahəsindəki imkanları əsasında quraşınız, həm də elmi tədqiqat işlərinin nəticəsinə görə respublikamıza lazım olan sahələri əhatə etməyə

çalışasınız. Elm elə bir şey deyil ki, gəlib bir yerdə zavod tikəsən, başqa yerlərdən ona xammal, yaxud cihazlar gətirəsən, orada texnika qurasan və nəsə istehsal edəsən.

Elmi inkişaf etdirmək üçün gərək elmi kadrlar olsun. Bu, bizdə var. Hansı sahədə hansı kadrlarımız var? Bu, əsas amillərdən biridir. İkinci amil hansı sahənin respublikamızın iqtisadiyyatının, sosial həyatının, tariximizin, mədəniyyətimizin inkişafı üçün elmi tədqiqat nöqteyi-nəzərindən daha lazımlı olması ilə bağlıdır. Ola bilər, elə sahələr var ki, o respublikamız üçün bu gün bəlkə o qədər də bilavasitə lazım deyil. Amma imkanlar varsa ki, biz bu sahədə dünya elminə hansısa bir yenilik gətirə bilərik, şübhəsiz, bunlar nəzərə alınmalıdır. Mən hamısını əhatə etmək fikrində deyiləm. Mənim dediyim bu sözlərdən istifadə edib siz özünüz konkret strateji prinsiplər yarada bilərsiniz. Bunların əsasında Azərbaycan elminin inkişafının strategiyası yaranmalıdır. Bu strategiyanın həyata keçirilməsi üçün, tutaq ki, 5-10 il vaxt olmalıdır, bunun əsasında iş görülməlidir. Həmin işləri həyata keçirmək üçün hansı vəsait lazımdır, bunu haradan əldə etmək olar? Bunu dövlət büdcəsindən almaq, yaxud başqa ölkələrlə inteqrasiya, başqa elmi mərkəzlərlə əlaqə nəticəsində əldə etmək olar? İndi belə imkanlar çoxdur. Keçmişdə, biz Sovetlər İttifaqının tərkibində olarkən yalnız bu ittifaq çərçivəsində hərəkət edə bilərdiksə, indi bütün dünya ilə əlaqə qururuq və qura bilirik.

Əgər biz iqtisadiyyatı elmi nöqteyi-nəzərdən inkişaf etdirmək, xüsusən Azərbaycanın iqtisadi potensialından, ölkəmizin təbii sərvətlərindən istifadə etmək üçün dünya iqtisadiyyatı ilə inteqrasiyaya gedirdiksə, demək, burada da baxmaq lazımdır ki, elmin bəzi sahələrini inkişaf etdirməkdən ötrü hansı elmi mərkəzlərlə, yaxud hansı böyük şirkətlərlə əlaqə qurmaq və onlardan müəyyən maliyyə vəsaiti əldə edib bu işləri aparmaq olar. Ona görə də sizin indiki iş planınız, elmi strategiyanız gələcəkdə o keçmiş işlərdən tamamilə fərqli olmalıdır.

İndi ümumiyyətlə, qüsurlarımızdan biri ondan ibarətdir ki, çalışırıq keçmişdə necə olub, onu təkrar edək. Təsadüfi deyil ki, müxtəlif sahələrdə işləyən insanlarımızın əksəriyyətindən bir şey soruşsan, deyəcək ki, biz bunu elə həmişə belə etmişik – əvvəl də belə etmişik, indi də belə edirik. Bundan uzaqlaşmaq lazımdır. Şübhəsiz ki, keçmişdə olan, bu gün üçün dəyərli təcrübədən istifadə etmək lazımdır, ondan imtina etmək olmaz. Mən dələlərlə demişəm, keçmişimiz zəngindir və ondan istifadə etmək lazımdır. Amma keçmiş üsul-idarəni, metodları, qanun-qaydaları əsas götürüb onları təkrar etmək düzgün deyil. Ona görə də indi siz elmin inkişafı üçün akademiyanın strategiyasını müəyyən edərkən, gərək işə bax, bu prinsiplər əsasında yanaşasınız.

Bir şeyi bilməlisiniz ki, – bu mənim fikrimdir, – Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir. O, Azərbaycan dövlətinə məxsusdur. Son illər təkcə Azərbaycanda yox, dünyanın hər yerində müxtəlif akademiyalar yaranır. Eşidirsən ki, filan yerdə akademiya yaranıb, filankəs o akademiyaya üzv seçilib. Respublikamızda gərək ki, kimlərsə akademiyalar yaratdılar. Əgər belə desək, bu, özəl akademiyalardır. Bəlkə də bunlar lazımdır, mən bu barədə mübahisə aparmaq istəmirəm, qoy olsun. Amma Azərbaycan dövlətinin ən yüksək elm müəssisəsi respublikamızın Elmlər Akademiyasıdır. O dövlətə məxsusdur. Bu akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaqdır.

Biz bu akademiyanın hörmətini də həmişə qoruyub saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, akademiyamız yüksək səviyyəli elmi tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi məsələlər arasında əriyib itsin. Buna yol vermək olmaz.

İndi mən elmin inkişafı üçün strategiya haqqında ümumi fikirlərimi deyirəm, amma konkret olaraq bu məsələlərlə siz özünüz məşğul olmalısınız. Ancaq bir məsələ barəsində mən konkret təkliflərimi vermək istəyirəm. Bu da Azərbaycanın tarixi ilə bağlıdır. Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir və xüsusən millətin, xalqın tarixi, ya ümumiyyətlə tarix onun ədəbiyyatının, mədəniyyətinin tarixidir. Bu, indi bizim üçün xüsusilə lazımdır. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır. O cümlədən, mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır.

Ona görə də biz indi xalqımızın tarixinin yaradılması işini gərək diqqət mərkəzinə alaq. Xatırlaya bilərsiniz, 70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır. Amma bu gün mənim haqqım var deyəm ki, tarixçilərimiz bu vəzifəni yerinə yetirmədilər, Azərbaycanın tarixi yazılmamışdır. Bizim tarixçilərimiz bir tərəfdən çəkişmə ilə məşğul oldular, hərə öz konsepsiyasını irəliyə aparmağa çalışdı. Amma Azərbaycanın tarixi yazılmalıdır. Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz.

Məktəbə gedən gənc gərək Azərbaycanın tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Dərsliyi də hərə öz istədiyi kimi yazmamalıdır. Gərək bizim xalqımızın tarixi yazılsın

ki, onun əsasında da gənclər üçün, orta və ali təhsil məktəbləri üçün tarix dərslikləri yazılsın.

Mən bilirəm ki, bu çətin məsələdir. Əgər o illər – 1970-1980-ci illərdə bu, bir tərəfdən çətin məsələ olduğu üçün yaranmadısa, amma eyni zamanda bilirik ki, başqa respublikalarda tarixçilər pis də, yaxşı da olsa, hər halda öz xalqlarının tarixini yaza bildilər. Biz bunu edə bilmədik. Ancaq indi bir tərəfdən bəlkə yaxşıdır ki, bunu edə bilməmişik. Çünki etsəydik də, onu yenidən yazmalıydıq. Necə deyərlər, yanlış da bir naxışdır. İndi olan olub, keçən keçib. Mən sadəcə olaraq bu keçmiş haqqında deyirəm ki, bu səhvləri bundan sonra da təkrar etməyək. Ancaq heç kəsi də günahlandırmaq istəmirəm.

İndi vəzifə ondan ibarətdir ki, Azərbaycanın tarixi yazılmalıdır. Mən bunu bir neçə dəfə demişəm. Ancaq təəssüflər olsun ki, mənim bu təkliflərim müqabilində Elmlər Akademiyası tərəfindən konkret bir təklif almamışam. Mən bir-iki dəfə demişəm ki, Azərbaycanın XX əsr tarixi yazılmalıdır. Mən bunu niyə belə demişəm? XX əsr çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur. Ona görə də mən çox çalışırdım ki, biz XX əsrin tarixini tez yazaq. Çünki, bilirsiniz, tariximiz bir tərəfdən təhrif olunub, digər tərəfdən isə bəziləri keçmişdir nə varsa, götürüb qəzetlərdə, kitablarda qaralamağa, pisləməyə başlayıblar. Vaxtilə hamımız gənc idik, o vaxtkı ideologiya bizə nə verirdisə, onu da qəbul edirdik. Biz Kommunist Partiyasının, Oktyabr inqilabının tarixini, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının, 26 Bakı komissarının tarixini – hamısını olduğu kimi qəbul edirdik. Buna heç kəs günahkar deyil.

Mən 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik edən bir şəxsəm. O vaxt biz 26 Bakı komissarının yubileylərini keçirirdik, o cümlədən Şaumyanın da yubileyini keçirirdik. Bir tarixçi gəlib dedimi ki, Şaumyan haqqında yazılanların hamısı düz deyil, başqa cür yazmaq lazımdır? Heç bir tarixçi gəlib demədi. Xatirimdədir, biz Şaumyanın yubileyini keçirərkən mən bu Tarix İnstitutundan, Partiya Tarixi İnstitutundan nə qədər materiallar tələb edirdim ki, onu, bunu verin, oxuyub gətirin. İki-üç ay mən tələblər edirdim. Hamısı Şaumyanın elə sözlərini gətirirdilər ki, deyirdin bu, dahidir.

Yenə də mən sizi günahlandırmıram. Çünki bizə qalmış miras o idi. Siz də, bizim o yaşlı tarixçilərimiz də, 1970-ci illərdən fəallıq göstərən tarixçilərimiz də onlardan istifadə edirdilər. Ona görə də biz onların hamısını o ideologiyanın konsepsiyasında bizə verilən kimi əks etdirirdik.

Sonra nə oldu? 1990-cı ildən başladılar ki, hamısı pisdir. Başqa adamları qaldırdılar və onları bir tarixi şəxsiyyət kimi şişirtdilər. Yəni o kommunist ideologiyasının vaxtında buraxılan səhvlər indi də təkrar edilir. Həmin səhvlər o vaxtlar bir istiqamətdə, indi başqa istiqamətdə buraxılır.

Belə subyektivliyə və tariximizin bundan sonra da təhrif edilməsinə yol verməmək üçün mən bir neçə dəfə təklif verdim ki, XX əsrin tarixi necə var, elə də yazılsın. Amma bu son günlər, sizinlə bu görüşə gələrkən, fikirləşirdim ki, təkcə XX əsrin tarixi yazılsa, bəlkə də bu, az olar. Mən bilirəm ki, indi götürülüb tariximizin hamısını yazmaq çətindir. Bunun üçün bir neçə il vaxt lazımdır. Gəlin bunu əsr-əsr yazaq. Götürək XIX əsrlə XX əsri yazaq. Bunlar bizim üçün həm yaxındır, həm məlumat, arxiv materialı çoxdur, həm də onlar çox işlənilibdir. Amma harada hansı səhv olubsa, gətirib düzəldək və yeni səhvlərə də yol verməyək.

Mən bu barədə daha geniş danışmaq istəmirəm, bunun əhəmiyyəti məlumdur. Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır. Bunun üçün mən bu gün konkret bir təklif vermək istəyirəm. Məsələn, mən bunu dedim, siz gedib müzakirə edəcəksiniz. Tarix institutuna göstəriş verəcəksiniz, plan quracaqsınız, – bu, öz yerində. Ancaq mən sizdə n xahiş edirəm. Siz bir müəllif kollektivi yaradın və onun tərkibini mənə təqdim edin. XIX-XX əsrlər tarixinin yazılması üçün mən xüsusi vəsait ayıracağam. Mən sizə söz verirəm ki, çox yüksək vəsait ayıracağam. Yəni bu işlə məşğul olan adamlar öz iş yerindən məvacibini alır-alsın. Akademikdirsə, müxbir üzvdürsə, bu gün qəbul etdiyim sərəncamla ona nə çatırsa, alsın. Amma bundan əlavə, mən qrant verirəm. Bəli mən Azərbaycanın XIX-XX əsrlər tarixinin yaranmasına qarant verirəm. Ola bilərdi, mən müsabiqə elan edim və böyük bir mükafat təyin edim ki, kim yazıb gətirəcəksə, onu alacaq. Bilirsiniz, onda kim nə cür yazacaq, sonra necə olacaq – bu, bir az qarışıq məsələdir. Ancaq güclü bir müəllif kollektivi yaransın, o müəllif kollektivi planını gətirib ortaya qoysun, müəyyən edək ki, onlara nə qədər vaxt lazımdır. Onlar başqa işlərdən azad olunsunlar, bu işin üstündə otursunlar. Bu vaxt müddətində sizə ayda bunun üçün nə qədər vəsait lazımdır – mən bunu verirəm. Mən bunu dövlətin büdcəsindən ayırıram. Çünki bu, dövlət üçün ən vacib bir məsələdir. Mən başqa vəsaitlərdən kəsib buna yönəldəcəyəm.

Mən güman edirəm ki, bu, yaxşı təklifdir. Elədirmi? Əgər bu təklifi qəbul edirsinizsə, onda mən sizdən qısa müddətdə əməli təkliflər gözləyəcəyəm. Siz təklifinizi verən kimi xüsusi sərəncam olacaq, o müəllif kollektivi elan ediləcək, onların işləməsi üçün şərait yaradılacaqdır. Əgər

bütün arxivlərin, sənədlərin onların sərəncamına verilməsi üçün mənim göstərişim lazımdırsa – olacaqdır. Müəyyən edək ki, biz bu tarixi nə vaxt alacağıq və belə bir əsər nə vaxt nəşr olunacaqdır.

Sizin qarşınızda bir çox başqa məsələlər də var. Mən bu barədə əlavə söz demək istəmirəm. Çünki mənim əsas fikrim ondan ibarətdir ki, Azərbaycanın milli akademiyası respublikamızın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rolunu oynamalıdır. Azərbaycanın prezidenti, hökuməti bunun üçün bütün imkanları yaradacaqdır.

Bu vəzifələri yerinə yetirmək üçün siz isə elmin inkişafı haqqında müəyyən bir mərhələdə strategiyanızı və taktikanızı müəyyən etməlisiniz, onu təsdiq etməlisiniz və Azərbaycan prezidentinə təqdim etməlisiniz . Elmlər Akademiyası Azərbaycan prezidentinin bilavasitə rəhbərliyi altında işləməlidir, ona bilavasitə tabe olmalıdır və onun bilavasitə himayəsi altında olacaqdır.

Mən bu sözlərlə sizə imkan verirəm ki, kim nə demək istəyirsə, buyursun.

YEKUN NİTQİ

Fikir mübadiləsini davam etdirmək mümkündür, amma görürəm ki, bununla yekunlaşdırmaq da olar. Ona görə sizin çıxışlarınızda olan bəzi məsələlər haqqında öz fikrimi demək istəyirəm.

Birincisi, burada elmin əlaqələndirilməsi və keçmiş təcrübə haqqında deyildi. Mən belə fikirdəyəm və hesab edirəm ki, elmi tədqiqat işlərinin əlaqələndirilməsi ilə bizim Elmlər Akademiyası məşğul olmalıdır. Dediyim sözləri bəlkə bir daha təkrar edəcəyəm, bunu deməyə məcburam ki, Azərbaycan Respublikasının, müstəqil Azərbaycan Elmlər Akademiyası Azərbaycanın ən yüksək müəssisəsi, elmi təşkilatıdır. Gərək siz də çalışasınız ki, buna layiq olasınız. Azərbaycan Elmlər Akademiyası dövlətin akademiyasıdır, prezidentin birbaşa himayəsi altındadır, tabeliyindədir və prezidentin qarşısında cavabdehdir.

Eldar Salayev burada dedi ki, qanun qəbul olunub, indiyə qədər imzalanmayıbdır. Bilirsiniz, bunda sizin günahınız var, elə qanun qəbul edin ki, o, imzalansın. Bir tərəfdən deyirsiniz ki, akademiyanı kimsə dağıtmaq istəyir, o biri tərəfdən də 1992-ci ildə qərar qəbul etmisiniz ki, akademiya özünü idarə edən təşkilatdır, müstəqildir, filandır heç kəsdən asılı deyil, bir Allaha tabedir. Elə bu dağıntı işini özünüz etmisiniz. Nizam-intizam pozulanda, dövlətçilik pozulanda hər şey ola bilər. O vaxt ki, –

1992-ci ildə – dövlətçiliyi pozurdular onda siz bu fürsətdən istifadə edib bunu pozmusunuz. Elə bildiniz ki, bu, sizə xeyir gətirəcəkdir? Xeyir gətirməyəcəkdir. Görürsünüz gəlib nə günə düşdünüz? Ona görə öz səhvlərinizin bəlasını çəkirsiniz və mən bu səhvlərə yol verə bilmərəm.

Bəli, mən göstəriş vermişəm o qanunu işləsinlər. Şübhəsiz ki, elm müstəqildir, başqa sahələrdəki kimi elmdə də demokratik prinsiplər tam tətbiq olunmalıdır. Amma Azərbaycanın Elmlər Akademiyası Azərbaycan dövlətinindir və Azərbaycanın prezidentinə tabedir. Bu, özəl təşkilat deyil ki, özünüz-özünüzdən bir şey çıxarasınız. Siz dediniz qanun. Akademiya haqqında nə qanun qəbul olunacaq? Elm və texnika haqqında qanun qəbul ediləcək, amma akademiya, onun prinsipləri haqqında, ola bilər prezidentin fərmanı olsun. Hazırlayın, verin, mən fərman imzalayaram, bütün səlahiyyətləri verə bilərəm.

Bunları edə bilərəm. Amma bunları siz özünüz həyata keçirməlisiniz. Özünüz bəzi səhvlər buraxmısınız, sonra da fəallıq göstərməmisiniz, bu işlərin həyata keçirilməsi ilə məşğul olmamısınız. Ona görə də akademiya bu günə düşüb. İndi mən sizi bu vəziyyətdən çıxarmaq istəyirəm, yenə də deyirəm, akademiya bizim ən yüksək elm müəssisəmizdir, bütün elmin zirvəsində duran təşkilatdır. Bundan sonra akademiyaya bu statusla baxacağıq və o, bu statusla da fəaliyyət göstərməlidir.

Mən tapşırıram ki, Mahmud İsmayılovun qaldırdığı məsələyə baxın. Heç kəsə özbaşınalıq etmək imkanı vermək olmaz. Azərbaycanda da, başqa yerlərdə də bəlaların çoxu ondan irəli gəldi ki, dağıntı, özbaşınalıq, sahibsizlik gətirib bu vəziyyətə çıxardı. Mən imkan verə bilmərəm ki, Azərbaycanda özbaşınalıq olsun. Qanun-qayda, qanunun aliliyi hamı üçün eyni olmalıdır. Heç kəs özü üçün xüsusi qanun icad edə bilməz. Bizim dövlətimiz var, dövlətin qanunları var və hamı bunlara tabe olmalı, riayət etməlidir. Bu məsələyə baxın.

Ziya Bünyadov Qazaxıstan variantı dedi. Mənə belə gəlir ki, dediyim sözlər Ziya Bünyadovun sözlərinə cavabdır. Narahat olmayın, burada heç bir Qazaxıstan variantı ola bilməz Akademiyanın indiyə qədər, əlli ildən artıq yaşadığı müddətdə topladığı təcrübə bizim üçün əzizdir, bunu qorumalı, saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, kimsə, o cümlədən prezident öz əhval-ruhiyyəsi ilə bunu dağıtsın. Ola bilər, başqa prezident bunu etsin, amma mən heç vaxt edə bilmərəm. Bayaq dedim, əgər akademiyanın əlli yaşı varsa, on yeddi il respublikaya rəhbərlik edərkən bilavasitə akademiyaya da rəhbərlik etmişəm. Əgər beş il də götürsəniz, onda gəlib iyirmi üç ilə çıxır. O illərdə də ki, mən kənarda olmuşam, amma ürəyim akademiya ilə olub, demək akademiyanın əlli ilinin yarısından çoxu mənim həyatımla, rəhbərliyimlə bağlıdır.

Sizin hamınızı görürəm, kim nə vaxt akademik seçilibdir bilirəm. Ola bilər İmam Mustafayev məndən qabaq seçilib, amma qalan hamınız mənim vaxtımda seçilmisiniz. Mən bunların hamısını bilirəm, görürəm. Ona görə də akademiya mənim üçün doğma bir yerdir. Həqiqətən, elm məbədidir. Mən ona belə də baxmışam, heç vaxt da fikrimi dəyişə bilmərəm. Bu, xalqımızın iftixarı, fəxridir, bunu dağıtmaq olarmı. Ona görə də bundan narahat olmayın.

Burada məsələlər qaldırıldı. Ola bilər, ümumi büdcədən ayırdığımız vəsaitdən əlavə, ayrı-ayrı nəşr. iş üçün vəsait lazım olsa, konkret proqram üçün də vəsait ayırmaq olar. Məsələn, Coğrafiya İnstitutunun direktoru dedi ki, atlas hazırlanıbdır. Hesab edirəm ki, bu, 1963-cü ildən indiyə qədər ilk dəfədirsə, Azərbaycanın coğrafiyası, tarixi üçün çox vacib bir şeydir. Ona görə baxın, haqq-hesab edin, mənə təklif verin ki, onun nəşr olunması üçün nə lazımdır. Mən onun üçün xüsusi sərəncam verə, xüsusi vəsait ayıra bilərəm. Amma təkcə bu yox. Ümummilli xarakter daşıyan, Azərbaycan dövləti üçün lazım olan belə əsərlər, yaxud proqramlar varsa və bundan sonra da meydana çıxacaqsa onları müstəqil olaraq maliyyələşdirmək, himayə altına götürmək olar. Mən bunu da sizə elan edir və sizdən təkliflər gözləyirəm. Yenə də deyirəm, xalqımızın, millətimizin, müstəqilliyimizin yaşaması, inkişafı üçün yeni nə yarada bilərsiniz, bu barədə nə təkliflərniz var – bunları hazırlayıb verin. Bu, elmin inkişafı strategiyasından doğacaqdır. Amma hazır işlər varsa mən bunlara baxıb lazımi tədbirlər görə bilərəm.

Burada ekologiya fondu barədə təkliflər oldu. Mən hesab edirəm ki, bu da maraqlı təklifdir. Həqiqətən, 150 il, bəlkə bundan da öncə bizim Azərbaycanda, Bakıda, Abşeronda neft istehsalı başlananda Abşeronun torpaqlarına çox böyük zərər vurulub. Mənim xatirimdədir. 70-ci illərdə biz İttifaq dövləti qarşısında dəfələrlə bu məsələni qaldırırdıq. Abşeron torpaqlarını təmizləmək, rekultivasiya aparmaq və torpağa hopmuş nefti təmizləmək, torpaqları münbitləşdirmək qarşımızda duran əsas vəzifələrdən biri idi. Şübhəsiz ki, bu çox böyük işlər görülməli idi. O vaxt bu vəsait də sovet dövlətində yox idi.

Ancaq bu problem yaşayır, durur. Aydındır ki, biz indiki vəziyyətimizdə Abşeronda bu problemi həll edə bilmərik. Ancaq indi dünyanın böyük neft şirkətlərini Azərbaycan cəlb edərkən, onlarla müştərək iş görərkən ekologiya məsələsini xüsusi nəzarətdə saxlamalıyıq. Doğrudur, imzaladığımız müqavilələrin hamısında ekologiya problemləri qeyd olunubdur. Ancaq istərdim ki, Azərbaycan Elmlər Akademiyası bu işlərlə daha da ciddi məşğul olsun. Burada verilən təklif də çox maraqlıdır, o mənada ki, biz neft boru kəmərləri çəkəcəyik. Biri – Şimala gedən –

keçmişdən olan boru kəməridir. Onu bərpa etdik, bu yaxınlarda istismara verəcəyik. O birisini də Gürcüstan ərazisindən Qara dəniz istiqamətində çəkirik. Onun tikintisi mart ayında başlanacaq, 1998-ci ilin sonunda başa çatacaqdır. Bir də böyük neft kəməri var, indi onun haqqında da axtarışlar aparırıq. Şübhəsiz ki, bu neft kəmərləri bizim ərazimizdən, torpağımızdan keçir, torpağımızın bir hissəsi onların altına düşür. Bu, çox mühüm məsələdir. Ona görə də torpaq işi ilə məşğul olan alimlərimiz, institutlarımız, eyni zamanda ekologiya ilə məşğul olan təşkilatlarımız, birincisi, bu işə ciddi yanaşmalıdırlar ki, neft kəmərinin marşrutunda torpaqlarımız onun altına çox düşməsin, ikincisi də o yerlərdə ekologiyanın, təbiətin mühafizəsi üçün həqiqətən tam təminat yaranmalıdır. Hesab edirəm, bu məsələ də akademiyanın iş proqramına daxil olmalıdır.

Eyni zamanda mənə belə gəlir ki, ekologiya fondu məsələsi də elə fikirdir ki, onun haqqında düşünmək olar. Tapşırıram ki, Neft Şirkəti, Akademiya, Ekologiya Komitəsi ilə birlikdə fikirləşin, görün bu təklif nə şəkil ala bilər və bundan nə cür istifadə edə bilərik.

Arxiv haqqında burada söz deyildi. Bu, mühüm məsələdir. Bilirsiniz, ümumiyyətlə, biz indiyə qədər arxivlərə fikir verməmişik. Keçmişdə Sovet İttifaqı vaxtında Arxiv İdarəsi beşinci-altıncı dərəcəli idarə kimi olubdur. Mən indi xatırlayıram, o illərdə Azərbaycanda işləyərkən deyə bilmərəm ki, arxivlə həqiqətən ciddi məşğul olurduq. O vaxtlar müstəqil olmadığımıza, böyük dövlətin bir hissəsi olduğumuza görə bəlkə də bu qayğılar bizdə yox idi. Amma indi arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, xalqımızın tarixini əks etdirən yeganə mənbədir, ikincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir.

Akademiyanın özünün arxivi yoxdur, siz Dövlət Arxivindən istifadə edirsiniz, ya akademiyanın arxivi var?

Eldar Salayev: Akademiyanın da arxivi var, amma materialların çox hissəsini Dövlət Arxivinə veririk.

Heydər Əliyev: Siz özünüzdə müasir materialları saxlayırsınız?

Eldar Salayev: Bəli, on il.

Heydər Əliyev: Mən bu barədə qəti fikir deyə bilmərəm. Sadəcə bu təklif məndə müəyyən düşüncələr oyadır. Ona görə də siz fikirləşin. Həqiqətən bizim böyük alimlərimiz, şəxsiyyətlərimiz yaşayırlar, yaradırlar. Onların yaradıcılığı kitablarında əks olunur. Onların fəaliyyəti, həyatı bizim tariximizdir. Burada deyildiyi kimi, bu materialların bəziləri ailələrinin şəxsi arxivində qalır. Düşünmək lazımdır.

Mənim yadımdadır, rəhmətlik Qara Qarayev – bizim böyük bəstəkarımız vaxtilə Moskvada yaşayırdı. Moskvada bir dəfə gəldi mənim

yanıma, söylədi ki, burada öz mənzilimi yarı böldüm, yarısını verdim oğluma, yarısını ailə üzvlərimə, artıq burada mənzilim yoxdur. Deyəsən dedi ki, arxivini də aparıb verdim ya Əlyazmalar Fonduna, ya da akademiyanın arxivinə. Mən bundan çox narahat oldum. Dedim ki, sən niyə belə edirsən? Moskvada yaşayırsan, yaşa, amma öz evini də saxla. Əgər sənin oğluna ev lazımdırsa, biz ev də verək, amma evini də saxla, arxivin də qalsın, ələ düşər. Dedi mən hamısını aparıb təhvil vermişəm. Bax, bu fakt indi mənim yadıma düşür. Qara Qarayevin şəxsi arxivləri bizim üçün böyük bir mənbədir – onun əlyazmaları, əsərlərinin əlyazmaları, notları, bütün həyatı. Qara Qarayevin həyatının timsalında, demək istəyirəm ki, bizim bütün alimlərimizin, şəxsiyyətlərimizin arxivləri dövlət əhəmiyyəti kəsb edən sərvətdir. Ona görə də siz düşünün. Mən bu barədə konkret bir şey deyə bilmərəm. Ancaq mənə belə gəlir ki, təklif diqqətəlayiqdir və bu barədə düşünüb müəyyən qərar qəbul etmək lazımdır. Mən heç bir şey deyə bilmərəm, çünki bu məsələni bilmirəm.

Ziya Bünyadov: Xüsusi arxivlər də var. Daxili İşlər Nazirliyinin Arxivi? Bunlar da xalqımızın tarixidir.

Heydər Əliyev: Bilirəm, onlar tamam başqa arxivlərdir. Onlar qorunur. Mən o arxivləri deyirəm ki, onlar dağılmasın.

Ziya Bünyadov: Partiya Mərkəzi Komitəsinin də arxivi olub.

Heydər Əliyev: Partiya dağılanda onu veriblər partiya tarixi arxivinə, o da götürüb veribdir Dövlət Arxivinə. Partiya Tarixi İnstitutu üçün biz vaxtilə gözəl bina tikmişdik. O binanı götürüb veriblər kommersiya strukturlarına, ora-bura dağıdıblar. Bilirsiniz, millətin tarixinə o qədər böyük zərbə vurublar ki, mən dəhşətə gəlirəm. İndi biz bəzi materialları axtarırıq, tapa bilmirik. Yanvar hadisələri ilə əlaqədar olan sənədlərin çoxunu tapa bilmirik. O vaxtlar bəzilərini dağıdıblar, yandırıblar. Mən burada uzun illər işləmişəm, heç vaxt düşünə bilməzdim ki, bu arxivləri kimsə dağıdacaq, yandıracaqdır. Ona görə arxivlərə münasibət tamamilə dəyişməlidir. Həm keçmiş partiya arxivi, həm dövlət arxivimiz, həm milli təhlükəsizlik və həm də daxili işlər nazirliklərində olan arxivlər qorunub saxlanmalıdır. Ancaq şəxsi arxivləri də qoruyub saxlamaq lazımdır.

Püstə Əzizbəyova: Bizim muzeyin binasının birinci mərtəbəsində arxiv var. Siz Moskvaya gedəndə, yadınızdadırsa, dedim ki, rəhmətlik Babayev oranı vermir, ala bilmirəm. Tapşırdınız, Nazirlər Soveti də qərar qəbul etdi.

Heydər Əliyev: Yadımdadır.

Püstə Əzizbəyova: Ancaq o qərar indiyəcən həyata keçirilmir, arxiv də orada qalır.

Heydər Əliyev: İndi yenə də oradadır?

Püstə Əzizbəyova: Bəli. Özünüz baxsanız görəcəksiniz ki, bina da xeyli çöküb. Özü də arxiv ən gözəl salonun – Şərq salonunun altındadır. Mənə demişdilər ki, o arxivi partiya arxivinə köçürəcəklər. Sonra xəbər tutdum ki, oranı hansı assosiasiya isə alıb, qaytaran da deyillər, çünki çox pul veriblər.

Heydər Əliyev: Narahat olmayın, onların hamısını alacağıq. Pul veriblər, pulları qalar özlərində, yaxud başqalarında. Dövlətə mənsub olan şeylərin hamısı dövlətdə olacaqdır. Bərpa edəcəyik, narahat olmayın: Dağıtmaq asandır, amma qurmaq, yenidən bərpa etmək bir o qədər çətindir. Amma nə qədər çətin olsa da bunu edəcəyik.

Nəhayət, bir məsələ haqqında da öz fikrimi demək istəyirəm. Eldar Salayev öz çıxışında yanvar hadisələri ilə əlaqədar televiziya verilişləri və tarixin yenidən xalqa çatdırılması haqqında dedi. İndi bizim tariximiz nə qədər qorunub saxlanmalıdır və arxivlərimiz nə qədər qorunub saxlanmalıdır – elə bu yanvar hadisələri ilə əlaqədar olan məsələlər bunu göstərir. Yeddi il bundan öncə olubdur, elə bir uzaq zaman deyil ki! Amma təəssüf ki, o vaxtkı sənədlərin, materialların çoxunu tapmaq mümkün deyildir. İnsanlar gəlirlər, – bəzən mən də televiziya verilişlərinə baxır, onları dinləyirəm, – deyirlər ki, o yadımda deyil, bu yadımda deyil. Əgər yeddi il bundan öncə bizim başımıza gələn bu bəla unudulubsa və sənədlər də itibsə, tapılmırsa, təsəvvür edin, yüz il, iki yüz il bundan qabaq olan şeyləri bərpa etmək nə qədər çətindir.

Ziya Bünyadov: Bunlar hamısı çəkilib, bir kişi çəkib.

Heydər Əliyev: Deyirsən bir kişi çəkib onu tap, kasetləri gətirsin.

Ziya Bünyadov: Tapdım da, göndərdim də.

Heydər Əliyev: Göndərdin, çox sağ ol.

Hesab edirəm, bizim televiziya şirkəti çox əhəmiyyətli iş görür. Elan edib ki, kimdə nə kaset, lent varsa, yığsınlar. Kasetləri dağıdıblar, keçmiş Mərkəzi Komitədə, arxiv materiallarını yandırıblar, dağıdıblar, stenoqramları saxtalaşdırıblar. Dəhşətli vəziyyətdir. Bu da onu göstərir ki, bundan nəticə çıxarmaq lazımdır. Xalqımızın tarixinə, həyatında baş verən hadisələrə biganə qalmaq olmaz. Yanvar hadisələri ilə əlaqədar olan bu televiziya verilişləri, – ola bilər, bunun çatışmazlıqları da var, bəzi adamlar nəyisə düz deyir, nəyisə düz demirlər – ümumən bizim tariximizin yenidən bərpa olunmasıdır və təqdirəlayiqdir, eyni zamanda çox lazımdır. Həyat da göstərir ki, bu, lazımdır.

O ki, qaldı Eldar Salayevin narazılığına ki, o yanvar plenumunda çıxış etməyibdir, Parisdə idi, filandı, – Eldar müəllim, iş onda deyil. Mən dünən də bunu sizə dedim, – iş onda deyil kim haradaydı. Bir halda ki, Eldar Salayev bu söhbəti saldı, mən bu məsələyə qayıtmalıyam. İş ondadır

ki, Azərbaycanın başına o cür bəla, faciə gəldi, – mən dünən axşam da sənə dedim, – camaat coşdu, Azərbaycanın deputatlarının bir qismi öz təşəbbüsləri ilə yığışdılar, yanvarın 21-22-də bir qərar qəbul etdilər. Televiziyada deyildi, mən də deyirəm ki, o qərar o dövr üçün həqiqətən çox cəsarətli və tarixi əhəmiyyətə malik olan bir qərar idi.

O gecə camaat, yəni deputatlar və deputat olmayan adamlar özləri toplaşıb Azərbaycanın milli mənafeyini müdafiə etmək üçün o irticaya, təcavüzə, hərbi təcavüzə qiymət veriblər. Ancaq bundan iki gün sonra hər şey soyuyub. İş onda deyil ki, sən yanvar plenumunda olmamışdın, çıxış etməmisən, amma mart plenumunda çıxış etdin. İş ondadır ki, o vaxt siz hamınız birlikdə nə etdiniz? Mən dünən sənə deyirdim, 1989-cu ildə Tbilisi hadisələri olmuşdu. Orada 16 adam həlak olmuşdu, özü də oraya kənardan qoşun gəlməmişdi, Zaqafqaziya hərbi dairəsinin qoşunları idi. Meydanda 16 adam həlak olmuşdu. Amma gürcülər bu məsələni qaldırdılar. Moskvada xalq deputatları, – sizlər də onların arasında vardınız, – həmin o Qurultaylar sarayında hamını ayağa qaldırdılar ki, həlak olanların xatirəsi yad edilsin. Qorbaçovu məcbur elədilər – o, gürcü xalqından üzr istədi.

Amma ondan yarım il, yaxud yeddi-səkkiz ay sonra Azərbaycanın başına bundan on qat artıq bəla gəldi. Nə etdiniz? Bizdən, xalqımızdan üzr istədilərmi? Yox! Buna qiymət verildi? Yox! Həmin o yanvarın 24-25-də keçirilən plenumda, – indi vəzifədə olan bəzi adamlar da var, deyirlər ki, biz nə edəcəkdik? – Görün, nə edərdiniz. O vaxt Kommunist Partiyasının Mərkəzi Komitəsi ən yüksək, hakim dövlət strukturu idi. Sessiyada qəbul olunmuş qərarı təsdiq edəydiniz, təkrar edəydiniz, – əgər bundan artığına gücünüz, yaxud qüdrətiniz çatmırdısa. O plenumda iştirak edənlərin bəziləri buradadır, mən sizin üzünüzə deyirəm – onu təsdiq edəydiniz, təkrar edəydiniz, yaxud da ona bənzər bir bəyanat qəbul edəydiniz ki, Azərbaycan Kommunist Partiyasının MK plenumu Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzü pisləyir və tələb edir ki, buna son qoyulsun.

Bunu etmədiniz. Camaat küçələrdə qırıldı. Küçələrdə partiya biletlərini atanlar atdı, yandıranlar yandırdı. Amma Mərkəzi Komitənin üzvləri, deputatlar faciədən beş gün sonra yığışdılar, ağızlarına su alıb oturdular, cinayətkarları da başladılar müdafiə etməyə. Budur, bizim tariximiz! Bu, həqiqətdir. Bu həqiqətdən heç kim qaça bilməz. Ona görə də, Eldar, sən necə çıxış etmisən, hansı cür çıxış etsən də onun qiyməti yoxdur. Çünki niyə, mən bunu belə hesab edirəm. Sənin mart ayındakı çıxışını oxumamışam, bilmirəm. Amma əgər sən orada çıxış edib məhkum etmisənsə, doğrudan da öz etirazını bildirmisənsə, nəyisə tələb etmisənsə, gətir o sənədi, qoy mənim qabağıma, deyim onu sabah televiziya ilə

versinlər. Gətir o stenoqramı. Amma sən orada durub onu bir balaca tənqid etmisənsə, bunu bir balaca tənqid etmisənsə, – hesab edirsən ki, böyük iş görmüsən – bu, böyük iş deyil.

Bəs ondan sonrakı dövr? Bu məsələnin üstünü örtdülər, basdırdılar. Arxivdənmi, haradansa o kaseti çıxarıb göstərirdilər – 1991-ci ildə mən Naxçıvandan gəldim, çıxış etdim, siz televiziyada gördünüz. Mən çıxış edir, deyirəm ki, Azərbaycandan fövqəladə vəziyyəti götürmək lazımdır, yanvar hadisələrinə qiymət vermək lazımdır. Yerdən sözümü kəsirlər: reqlament, filan, bəsməkan. Axı mən adi bir adam deyildim. O salonda oturanlar əgər xalqını sevən adamlardırsa, axı mən heç kimin əleyhinə getmirdim, xalqımın mənafeyini müdafiə edirdim. Mənim sözüm qaldı orada.

Amma bu gün mənim deməyə mənəvi haqqım var ki, Naxçıvandan ağır vəziyyətdə gəldim. Məni buraya gəlməyə qoymurdular, qarşımı alırdılar, həyatım böyük təhlükə altında idi. Mən gəldim, çıxış da etdim və öz mövqeyimi də bildirdim. Bilirsiniz, xahiş edirəm məni düzgün başa düşün, mən burada heç də öz şəxsiyyətimi şişirtmək istəmirəm, olan həqiqəti demək istəyirəm. Ona görə Qanlı Yanvar faciəsinin günahkarları, – şübhəsiz ki, onlar məlumdurlar, həm Moskvada, həm də Azərbaycanda – başqaları da, o cümlədən sizlərin çoxları da ki, bu işlərə biganə qalmısınız, özünüzü kənara çəkmisiniz – bağışlanılası deyil. Qətiyyən bağışlanılası deyil.

Bunu ona görə demirəm ki, kimsə cəzalansın, kiməsə nə isə etsinlər. Ona görə deyirəm ki, xalqımız bundan tarixi nəticə çıxarmalıdır. Biz gərək heç vaxt əyilməyək, heç vaxt sınmayaq. Bilirsiniz, millətin mənafeyi hər bir insanın həyatından üstün olmalıdır. Yanvarın 21-də mən xəstəxanadan gəlib övladlarımla birlikdə mitinqə gedəndə bilmirdim, oradan qayıdacağam, ya qayıtmayacağam. Ancaq mən getdim, orada öz mövqeyimi bildirdim, ona görə yox ki, mənə nə isə lazım idi. Onsuz da orada həyatdan təcrid olunmuş adam idim. Getdim, xalqın qarşısında çıxış etdim, mövqeyimi bildirdim. Ona görə bildirdim ki, xalqım oyansın, dirçəlsin.

Mən dəfələrlə demişəm – Azərbaycanda Kommunist Partiyasına məndən çox xidmət edən adamlar az tapılar – partiya stajına görə burada bəlkə İmam Mustafayev partiyada məndən çox olubdur – ancaq mən Kommunist Partiyasını tərk etdim. Tərk edəndə də beş maddədən ibarət ittiham verdim. Biri də ondan ibarətdir ki, 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı hərbi təcavüz edilib və indiyə qədər də bu təcavüzə qiymət verilməyibdir, ona görə də mən bu partiyada qalmaq istəmirəm.

Mən bunları danışanda həyəcanlanıram, çünki həqiqətən 20 yanvarda xalqımıza zərbə vurulub. Ermənistan ölkəmizə təcavüz edibdir, Er-

mənistanı dəstəkləyiblər – Moskva dəstəkləyib, Qorbaçov dəstəkləyibdir, Sovet hökuməti birtərəfli mövqe tutubdur. Azərbaycanın özü səhvlər buraxıbdır, başımıza bəlalar gəlibdir, – bu, başqa məsələ. Amma xalqımıza qarşı bu qədər güc, silah işlətmək – Sovet İttifaqının tarixində belə hadisə heç bir yerdə, heç bir regionda, heç bir ölkədə olmamışdır. Bəli, 1956-cı ildə Macarıstana sovet qoşunları yeridildi, – belə bir hadisə olmuşdu. Amma başqa heç bir yerdə belə şey olmamışdı. Heç bir respublikaya, xalqa qarşı belə hərbi təcavüz edilməmişdi. Belə hərbi təcavüz edildi və xalqımız da susanda dedilər ki, ona nə istəsən edə bilərsən.

Ona görə də biz gərək nəticə çıxaraq və hamı bilsin ki, yox, bizim xalqımız elə xalq deyil, bizim xalqımızla hörmətlə davranmaq lazımdır, hesablaşmaq lazımdır. İndi, biz müstəqil dövlət olanda mən bunu deyirəm – bu müstəqil dövlətimizlə, xalqımızla hesablaşmaq lazımdır. Biz heç kəsə tabe olmayacağıq və heç kəs də güman etməsin ki, bu gün-sabah kimsə bizi özünə tabe edə bilər. Yox! Ya bu cür yaşayacağıq, ya da, mümkün olmasa, yaxşı olar ki, heç yaşamayaq, nəinki əsarət altına düşüb yaşayaq.

Mənim fikirlərim bundan ibarətdir. Ona görə hər biriniz özünüzə tənqidi yanaşın, bir faktı götürüb özünüzü müdafiə etməyə çalışmayın. Hər biriniz tənqidi şəkildə götür-qoy edin ki, doğrudan da o vaxtlar niyə mən onu etmədim, bunu etmədim. Ona görə yox ki, özünüzü cəzalandırasınız, yox. Heç kəsi cəzalandırmaq lazım deyil. Ona görə lazımdır ki, nəticə çıxarasınız. Nəticəni də hərə özü üçün çıxarmalıdır və xalqımız da nəticə çıxarmalıdır ki, xalqımızın başına bir də belə bəlalar gəlməsin.

Mən bir balaca həyəcanlandım, ola bilər, əvvəlki əhval-ruhiyyə bir az pozulsun. Amma istəmirəm pozulsun. Söhbətimi qurtararaq bir daha bildirmək istəyirəm ki, bizim bugünkü görüşümüz mənim üçün xüsusən çox əhəmiyyətlidir. Sizinlə bir neçə saat bir yerdə olub bu məsələləri müzakirə etmək mənim üçün də böyük əhəmiyyət kəsb edir. Güman edirəm ki, sizinlə birlikdə irəli sürdüyümüz vəzifələrin həyata keçirilməsi ilə məşğul olacaqsınız, konkret təkliflərinizi hazırlayıb təqdim edəcəksiniz. Akademiyanın, Azərbaycan Dövlət Elmlər Akademiyasının yubileyini də bu yaxınlarda keçirmək lazımdır. Vaxtını yəqin ki, bizim iş proqramımızda araşdırarsınız, çünki bir neçə tədbirlərimiz var – mənim xaricə səfərlərim, burada ayrı-ayrı beynəlxalq görüşlər var. Bunlarla uyğunlaşdırıb vaxt müəyyən edərsiniz, onu da layiqincə keçirəcəyik.

Yusif Məmmədəliyevin yubileyinin, Mustafa bəy Topçubaşovun yubileyinin təntənəli keçirilməsi və son illər ümumiyyətlə bizim elm, mədəniyyət xadimlərinin xatirəsinə göstərilən hörmət və ehtiram yəqin sübut edir ki, dövlətimiz – müstəqil Azərbaycanın dövləti və mən prezi-

dent kimi qayğımızı göstəririk və bundan sonra da göstərəcəyik. Buna tam arxayın ola bilərsiniz.

Son olaraq bir məsələ də. Dünən Eldar Salayev ilə danışarkən belə məsələ meydana çıxdı ki, o vəzifəsindən istefa vermək istəyir. Mənə müraciət etdi ki, on üç ildir işləyirəm, yaxşı olar, bu vəzifədən istefa verim. Mən onun bu fikri ilə razıyam və istefası haqqında təklifini qəbul etdim. Ancaq şübhəsiz ki, bunu siz öz iclasınızda həyata keçirəcəksiniz. Bu gün Eldar Salayev mənə dedi ki, gələn beşinci gün – bir həftədən sonra akademiyanın iclası təyin olunubdur və sizin nizamnamə əsasında Eldar Salayevin istefası qəbul edilər və yeni prezident seçərsiniz.

Eldar Salayev: Növbəti prezident seçkisində mən öz namizədliyimi irəli sürməyəcəyəm. Son zamanlar mənim elmi axtarışlarıma xaricdə maraq çoxdur, ona görə də bununla məşğul olmaq istəyirəm.

Heydər Əliyev: Eldar Salayev on üç ildir Azərbaycan Elmlər Akademiyasının prezidentidir. Həm alim kimi, həm prezident kimi xidmətləri olubdur. Ona görə də mən Eldar Salayevi Azərbaycanın yüksək ordeni ilə təltif etmişəm. (Eldar Salayevin «Şöhrət» ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası prezidentinin fərmanı oxundu).

Bir həftədən sonra siz məsələni öz nizamnamənizlə həyata keçirəcəksiniz. Mənim də bir təklifim var. Bu da ondan ibarətdir ki, akademiyanın prezident seçkilərində Fəraməz Maqsudov Azərbaycan Elmlər Akademiyasının prezidenti seçilsin. Fəraməz Maqsudovu hamınız tanıyırsınız, gənc vaxtlarından istedadı ilə riyaziyyat elmi sahəsində böyük işlər görübdür. Uzun illər riyaziyyat institutunun direktoru, akademiyanın həmin bölməsinin başçısı olubdur. Bununla yanaşı, Fəraməz Maqsudov respublikada gedən ictimai-siyasi proseslərdə öz prinsipial mövqeyini bildirən adamdır. Mən buraya gələndən sonra, 1991-1992-ci illərdə, həm də ki, 1993-cü ildə, xüsusən Azərbaycanda vətəndaş müharibəsi baş verdiyi zaman bunun şahidi olmuşam. Xatirimdədir, Fəraməz Maqsudov o vaxt bir qrup alimlə Gəncəyə getmişdi, böyük çətinliklərlə məsələləri araşdırırdılar. İmam Mustafayevin başçılığı ilə komissiya yaradılmışdı, Fəraməz Maqsudov da o komissiyada iştirak edirdi. Xatirimdədir, mən Milli Məclisin iclaslarını aparanda o, öz prinsipial fikirlərini, mövqelərini bildirirdi. Sonrakı dövrdə də respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir, Milli Məclisin üzvüdür. Hesab edirəm ki, Fəraməz Maqsudov alim, təşkilatçı və ictimai-siyasi xadim kimi Elmlər Akademiyasına yaxşı prezident olar.

Bununla da gəlin bu görüşümüzü qurtaraq. Gələn görüşlərə qədər. Sağ olun.

AKADEMİK ZİYA BÜNYADOVUN AİLƏSİNƏ BAŞSAĞLIĞI*

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Musa oğlu Bünyadovun faciəli ölümündən kədərləndiyimi bildirir, mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Bu itki təkcə sizin deyil, bütün Azərbaycan xalqının itkisidir.

Allah rəhmət eləsin!

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

21 fevral 1997-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. B., Azərnəşr, 1998, s. 447

GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM, AKADEMİK ZİYA BÜNYADOVLA VİDALAŞMA MƏRASİMİNDƏ NİTQ*

Şəhriyar adına Mədəniyyət Mərkəzi
23 fevral 1997-ci il

Hörmətli bacılar, qardaşlar, əziz həmvətənlər!

İkinci gündür ki, Azərbaycan Respublikası, Azərbaycan xalqı matəm içindədir. Xalqımıza böyük itki üz veribdir. Xalqımızın böyük oğlu Ziya Bünyadovun vəhşicəsinə qətlə yetirilməsi hamımızı kədərləndirib, qəzəbimizi coşdurub, hiddətləndiribdir. Biz hamımız matəmə qərq olmuşuq.

Dəhşətli bir hadisədir, təsəvvür etmək mümkün deyil. Azərbaycanın ən dəyərli insanlarından, şəxsiyyətlərindən biri vəhşi, namərd gülləsi ilə qətlə yetirilibdir. Hər bir itki insanı kədərləndirir. Ziya Bünyadov kimi insanların dünyadan getməsi, şübhəsiz ki, böyük itkidir və böyük qəmqüssə doğurur. Ancaq bu qədər vəhşicəsinə, bu qədər amansız cinayət nəticəsində itkimiz bizi həddindən artıq kədərləndirib, həddindən artıq hiddətləndiribdir və hamımızı ağrıdır, incidir.

Bir də qeyd edirəm, Ziya Bünyadovun həyatdan getməsi bizim üçün böyük itkidir. Çünki o, xalqımızın XX əsrdə yetirdiyi ən görkəmli alimlərdən, ən görkəmli tarixçilərdən və ən görkəmli insanlardan biri idi. Ziya Bünyadov haqqında çox danışmaq olar və güman edirəm, bundan sonra daha da çox danışılacaq, haqqında kitablar, xatirələr yazılacaqdır. Çünki o, öz varlığı ilə elə bir nadir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik. Bir daha deyirəm, o, xalqımızın XX əsrdə dünyaya gətirdiyi, xüsusi fitri istedada malik olan, eyni zamanda öz cəsurluğu, rəşadəti, zəkası, fədakarlığı, zəhmətkeşliyi, işgüzarlığı ilə cəmiyyətdə görkəmli yer tutmuş insandır. Deyə bilərəm ki, bəlkə də təkrarsız bir insandır. Çünki o, insan üçün xas olan, bəzən də yalnız nadir insanlara xas olan keyfiyyətləri özündə cəm edən bir insandır.

Bir baxın, gənc ikən hərbi qulluğa həvəs göstərib, hərbi məktəbə gedibdir. Bu, onun xasiyyətinin bir cinahıdır, əvvəldən axıra qədər, ömrü boyu bu xüsusiyyət onu müşayiət edibdir. İkinci dünya müharibəsi, Vətən müharibəsi başlayan kimi orduya gedib, müharibənin əvvəlindən sonuna

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. B., Azərnəşr, 1998, s. 448-460

qədər cəbhədə olub, döyüşüb qəhrəmanlıq göstəribdir. Çox yüksək qəhrəmanlıq göstəribdir. Alman faşizminə qarşı müharibənin qəhrəmanlarından biri olubdur. Hamımız bilirik ki, bu nə qədər dəhşətli müharibə olubdur. Hamımız bilirik o müharibə nə qədər insan ömrü apardı, nə qədər qurbanlar getdi, nə qədər insanlar həlak oldu. Amma Ziya Bünyadovun qəhrəmanlığı, cəsurluğu və eyni zamanda Allahın bəxş etdiyi aqibət onu müharibədən qəhrəmanlıqla çıxardı. Sovet İttifaqı Qəhrəmanı kimi yüksək, şərəfli ad aldı.

Xatirənizdədir, İkinci dünya müharibəsi, Böyük Vətən müharibəsi qurtarandan sonra, – ondan əlli ildən çox, əlli bir il keçib, Vətən müharibəsinin qəhrəmanları həmişə cəmiyyətə mötəbər, ən sayılan adamları idi. O müharibədə Sovet İttifaqı Qəhrəmanı adı almış şəxslər isə ən yüksək hörmətə layiq idilər və onlar da o qədər çox deyildilər. Azərbaycanlılardan İkinci dünya müharibəsində iştirak edib, alman faşizminin qarşısını almaqda rəşadət göstərərək yüksək adlar alanları, həmvətənlərimizi, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən insanları həmişə yüksək qiymətləndirmişik.

Ziya Bünyadov azərbaycanlıların içərisindən çıxmış az – yüz nəfərdən bəlkə bir az çox olan Sovet İttifaqı qəhrəmanlarından biri idi və bu adı həmişə şərəflə, böyük iftixar hissi ilə daşıyırdı.

Son illər, Sovet İttifaqı dağılandan sonra dünyada, keçmiş Sovet İttifaqında, Azərbaycanda gedən cürbəcür ictimai proseslər zamanı, hətta burada, Azərbaycanda tarixinə, millətinin qəhrəmanlıq səhifələrinə ləkə yaxmaq istəyən bəzi adamlar Vətən müharibəsi qəhrəmanlarının adlarını tarixdən silməyə cəhd göstərən zaman, Qələbə gününü Azərbaycanda ləğv edən adamlar belə şəxslərə mənfi münasibət göstərən zaman da Ziya Bünyadov Sovet İttifaqı Qəhrəmanının Qızıl Ulduzunu döşündə həmişə iftixarla gəzdirirdi.

Xatirəmdədir, fevralın 19-da, dörd gün bundan öncə Gürcüstan prezidenti Eduard Şevardnadzenin Azərbaycana səfəri münasibətilə «Gülüstan» Sarayında rəsmi qəbulda Ziya Bünyadov bizə yaxınlaşdı, Eduard Şevardnadzeni salamladı, mənimlə görüşdü və onun sinəsində Sovet İttifaqı Qəhrəmanının Qızıl Ulduzu yenə də parlayırdı. Yəni o, öz əqidəsinə sadiq bir insan idi. Ziya Bünyadovun o qəhrəmanlığı tək onun qəhrəmanlığı deyildi, həm də Azərbaycan xalqının, Azərbaycan övladlarının nəyə qadir olduğunu dünyaya nümayiş etdirən, sübut edən böyük bir nümunə idi. Mən bunu həmişə belə hesab etmişdim və Ziya Bünyadov da bu hisslərlə yaşayaraq, o Qızıl Ulduzu döşündə daim daşıyırdı.

1995-ci ilin may ayında Böyük Vətən müharibəsinin, İkinci dünya müharibəsinin qurtarmasını, alman faşizmi üzərində Qələbənin 50 illik yubileyini dünya böyük təntənə ilə qeyd etdi. O vaxt Hitler faşizminə

qarşı koalisiyam təşkil edən dövlətlərin paytaxtlarında böyük bayram mərasimləri keçirildi. Dünyanın dövlət başçıları və nümayəndə heyətləri Londona – Böyük Britaniyaya, Parisə – Fransaya, Moskvaya – Rusiyaya dəvət edilmişdilər. Orada müstəqil Azərbaycan dövləti də təmsil olunmuşdu. Mən nümayəndə heyətinə Ziya Bünyadovu böyük ehtiram hissi ilə daxil etmişdim. Biz birlikdə orada bayram mərasimlərində iştirak etdik. Londonda da, Parisdə də, Moskvada da görürdüm ki, İkinci dünya müharibəsinin veteranları – döşlərində ordenlər, medallar, nişanlar gəzdirən ingilislər, fransızlar, ruslar və başqa .millətlərə mənsub olan veteranlar Azərbaycandan gəlmiş İkinci dünya müharibəsi veteranlarını və xüsusən Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovu çox böyük ehtiram və hörmətlə qarşılayırdılar.

Ömrünün son dəqiqələrinədək Ziya Bünyadov öz həyatının bu istiqamətini, bu cinahını həmişə yüksək qiymətləndirmiş, veteranlarla daim bir yerdə olmuş, öz cəbhə yoldaşlarını həmişə xatırlamış, onlara kömək etmişdir. Amma eyni zamanda Ziya Bünyadovun xüsusi keyfiyyəti ondan ibarətdir ki, hərbçi zabit, qəhrəman, döyüşçü keyfiyyətləri ilə yanaşı, o həm də, İkinci dünya müharibəsi bitəndən sonra özünü elmə həsr etmişdir. Onda olan həqiqi fitri istedad onu böyük elmə gətirib çıxarmışdır. Moskvada yüksək təhsil aldıqdan sonra Azərbaycanda 50-ci illərin əvvəllərindən ömrünün sonunadək elmimizin inkişafında əvəzsiz xidmətlər göstərmişdir.

Biz hər bir elm adamını qiymətləndiririk, hər bir alimin elmimizə verdiyi töhfəni, xidməti qiymətləndiririk. Amma hərənin öz yeri var. Ziya Bünyadovun Azərbaycan elmində öz dəst-xətti, öz yolu, müstəqil fikri olmuşdur və özünəməxsus böyük xidmətləri var. O, adi bir alim, adi bir professor deyildir. O, adi bir akademik deyildir. O, alimlərin, akademiklərin, professorların içərisində öz elmi yaradıcılığına, elmi əsərlərinə görə və elmdə tutduğu mövqelərinə, prinsipiallığına görə seçilən, fərqlənən bir alim idi. Bunu anlamaq, bilmək lazımdır. Bunu bütün xalqımız bilməlidir. Onun elmi yaradıcılığı, Azərbaycana, Azərbaycan elminin inkişafına göstərdiyi xidmətlər haqqında kitablar, əsərlər yazılmalıdır.

Lakin bu gün, bu matəm günü onun cənazəsi qarşısında bir neçə məqamı xüsusi qeyd etmək istəyirəm. Əvvəla, onun elmdə, elmi axtarışlarında birinci növbədə elmi mənbələri, ilkin mənbələri axtarıb tapması, onlara istinad etməsi və onlardan şəxsən istifadə etməsi, ikincisi, onun elmi axtarışlarında və elmi fikirlərində olan prinsipiallığı, dəyişməzliyi, üçüncüsü, onun elmi yaradıcılığında Azərbaycan tarixinin həqiqətlərini üzə çıxarması və elmi cəhətdən əsaslandırması, tarixə salmasıdır.

Biz bu gün də etiraf etməliyik ki, Azərbaycan xalqının böyük tarixi indiyədək lazımınca tədqiq edilməyibdir, hələ tədqiq edilməli olan çox-çox

mərhələlər, dövrlər var. Lakin Ziya Bünyadov yaradıcılığının xüsusiyyəti ondan ibarətdir ki, o, məhz özünü onadək tədqiq olunmamış hissələrə, mərhələlərə, sahələrə yönəldirdi və onun hər bir əsəri eyni zamanda elmi ixtira idi. O, Azərbaycan elmini, Azərbaycan tarix elmini, şərqşünaslıq elmini həqiqətən zənginləşdirən əsərlər yaradırdı. Onun orta əsrlərə aid əsərlərinin böyük tarixi əhəmiyyəti var, yəni tariximizin ona qədər məlum olmayan böyük mərhələlərini tədqiq edib, elmi surətdə əsaslandırıb xalqımıza çatdırmışdır. Amma eyni zamanda onun bu tədqiqatlarının, elmi əsərlərinin qiyməti, xüsusiyyəti ondan ibarətdir ki, o bizim tariximizi saxtalaşdıran, yaxud tariximiz haqqında yalan məlumat verən başqa dövlətlərin, başqa millətlərin tarixçilərinin bizim tariximiz haqqında yanlış, əsası olmayan fikirlərinin əleyhinə çıxmış, mübahisəyə qoşulmuş və elmi cəhətdən öz tarixi ixtiralarının, yaxud da öz tarixi əsərlərinin daha əsaslı olduğunu sübuta yetirmişdir.

Ziya Bünyadov adi bir tarixçi, adi bir tarix tədqiqatçısı deyildi. O, mübariz bir tarixçi idi. O, daim mübarizə aparan tarixçi idi. Onun mübarizəsi də Azərbaycanın milli mənafelərinin müdafiəsi ilə bağlı olmuşdur. IX-X əsrlərdə, orta əsrlərin başqa mərhələlərində Azərbaycanın hansı hissəsi kimə mənsub olub, harada kim və necə olub – bütün bunları Azərbaycan xalqının milli mənafelərini qorumaq nöqteyi-nəzərindən və tarixi həqiqəti bugünkü nəsillərə və gələcək nəsillərə, dünya tarixinə çatdırmaq baxımından Ziya Bünyadovun əsərləri əvəzsizdir. Bu onun elmi fəaliyyətinin və elmi yaradıcılığının məhz ona məxsus xüsusiyyətidir və xüsusi qiymətə malikdir.

Bu elmi tədqiqatları ilə əlaqədar Ziya Bünyadov, dediyim kimi çox prinsipial, çox mübariz mövqedə durmuşdu. 60-70-ci illərdə Ermənistanın millətçi və separatçı qüvvələri tərəfindən Qafqaz tarixinə aid, o cümlədən Ermənistan-Azərbaycan tarixinə aid cürbəcür və tariximizi təhrif edən, saxtalaşdıran, Ermənistanda meydana çıxmış müxtəlif yazıların, məqalələrin əleyhinə ilk dəfə səsini qaldıran və onlara əsaslı, dəlilli və tarixi mənbələrə istinadla cavab verən, onların qarşısını alan alim Ziya Bünyadov idi.

Bilirsinizmi, burada Ziya Bünyadovun bütün xüsusiyyətləri gözlərimiz önünə gəlir. Əvvəla, o, çox dərin və zəngin bilikli alim idi. İkincisi, mübarizliyi, prinsipiallığı, üçüncüsü isə onun öz fikirlərini, yəni elmi qaynaqlara söykənən fikirlərini sübuta yetirməyə qadir olduğunu göstərən xüsusiyyətləridir.

O vaxtlar Sovet İttifaqı mətbuatında, Ermənistan mətbuatında, onların kitablarında, elmi yazılarında, Azərbaycan və Moskva mətbuatındakı məqalələrdə ged ən mübahisələr çoxlarının yadındadır. Hər tərəfdən dəstə ilə alimlər, yaxud da alim adı daşıyan cürbəcür adamlar Azərbaycan tarixinə o vaxtlar təcavüz edirdilərsə, bu tərəfdən Ziya Bünyadov, yenə

də deyirəm, öz iradəsi, biliyi ilə, elmi əsərləri ilə onlara layiqli cavab verirdi və Azərbaycan tarixinin doğru-düzgün olduğunu dünyaya sübut edirdi və onu qoruyurdu.

Buna görə də erməni millətçiləri, erməni separatçıları və ümumiyyətlə, Azərbaycana mənfi münasibət göstərən cürbəcür xarici qüvvələr Ziya Bünyadovu özlərinə düşmən kimi qəbul edirdilər. Lakin ölkəmizdə, xalqımızın içində isə, o cümlədən tək bizim xalqımızın arasında deyil, bütün dünyada Ziya Bünyadov öz elmi obyektivliyi ilə, elmi biliyi ilə, elmi əsərləri ilə böyük hörmət və ehtiram qazanmışdı və burada da qəhrəmanlığını göstərirdi.

Ziya Bünyadovun elmdə prinsipiallığını və dəyişməzliyini sübuta yetirən faktlar çoxdur. Bunların əksəriyyəti şəxsən mənə məlumdur. Mən Ziya Bünyadovla təxminən 40 ildir tanış və dost idim. Keçmiş illərdə, 70-ci illərdə də Azərbaycana rəhbərlik etdiyim zaman Ziya Bünyadov ilə həmişə sıx əlaqədə olmuşdum, ona görə də bu məsələlərin çoxunu şəxsən bilirəm və bildiyimə görə də bu gün bunları onun cənazəsi qarşısında deməyi özümə borc sanıram.

Xatirəmdədir, 60-cı illərin ikinci yarısında Azərbaycanın 150 il öncə Rusiyaya könüllü surətdə qəbul olunması haqqında elmi mübahisələr gedirdi. Məlumdur ki, 1964-cü ildə qərar qəbul edilmişdi ki, 150 il öncə Azərbaycan könüllü surətdə Rusiyanın tərkibinə daxil olmuşdu. Biz bunu bir bayram kimi qeyd etmişdik. Bu münasibətlə Azərbaycan Lenin ordeni ilə təltif olunmuşdu. Bunların hamısı da tariximizin səhifələridir.

Amma Ziya Bünyadov bir alim kimi heç nədən qorxmayaraq, heç kəsdən çəkinməyərək öz elmi fikirlərini söyləyirdi. Xatirimdədir, 67-68-ci illərdə Ziya Bünyadov bu barədə artıq bir neçə dəfə açıq bildirmişdi ki, doğrudur, Azərbaycan Rusiyanın tərkibinə daxil olubdur. Amma bu, könüllü olmayıbdır. Odur ki, tarixi həqiqəti demək lazımdır.

O vaxtkı siyasi mühit, siyasi konyunktura bunu qəbul etmirdi. Ziya Bünyadov hətta buna görə günahlandırılırdı, onu hətta cəzalandırmaq istəyirdilər. Əgər səhv etmirəmsə, onu Elmlər Akademiyasının Partiya Komitəsinin müzakirəsinə də çağırmışdılar. Lakin Ziya Bünyadov dediyinin üstündə durmuşdu. Bilirsinizmi, indi bu məsələlərə adi bir hal kimi baxırlar. Ancaq xahiş edirəm, 60-cı illərə, o dövrə, o illərdə hökm sürmüş ideologiyaya, ümumi mühitə, ümumi konyunkturaya qayıdasınız. Belə fikir söyləmək o vaxtlar hökumətin, partiyanın əleyhinə getmək demək idi. Amma Ziya Bünyadov çəkinmirdi, öz elmi fikirlərini cəsarətlə, doğru-düzgün deyirdi. Ziya Bünyadovun dedikləri də doğru idi. Sonralar, əvvəlki bütün tarix araşdırıldıqdan sonra hamı bu fikrə gəldi ki, o vaxtlar Ziya Bünyadov doğru deyirdi. Həqiqət bunda idi. Həqiqəti Ziya

Bünyadov deyirdi, öz yazılarında göstərirdi. Amma Ziya Bünyadov bunu sübut edə bilmirdi. O vaxtlar çox çalışırdılar ki, Ziya Bünyadovu cəzalandırsınlar. Lakin Ziya Bünyadovun şəxsiyyəti, böyük alim kimi, Sovet İttifaqı Qəhrəmanı kimi və onun özünəməxsus bir neçə keyfiyyəti Ziya Bünyadovu qoruyub saxladı.

Mən şəxsən Ziya Bünyadovun o illərdə xidmətlərinə çox yüksək qiymət vermiş və bu xidmətləri qiymətləndirmək üçün əlimdən gələni etmişdim. Ona Dövlət mükafatı verilməsi də məhz Azərbaycan tarixinin ən mühüm dövrlərinin elmi cəhətdən əsaslandırılması və elmi əsərinin təqdim olunması ilə bağlı idi. Yaxud onun instituta direktor təyin olunması, akademik seçilməsi – bunların hamısı Ziya Bünyadovun məhz özünün zəhməti, özünün elmi xidmətləri və həqiqi alim kimi elmi əsərlərinin nəticəsi idi. Bəlkə də bütün mərhələlərdə Ziya Bünyadovun xidmətləri lazımınca qiymətləndirilməmişdir. Bunu da deyə bilərəm, bu da həqiqətdir. İndi bu həqiqəti də etiraf etmək lazımdır.

Nəhayət, Azərbaycanda milli azadlıq hərəkatı başlayarkən Ziya Bünyadovun elmi, ictimai-siyasi fəaliyyəti haqqında. Əvvəla, onu demək istəyirəm və qeyd etmək lazımdır ki, əgər millətimizdə, gənclərimizdə o illərdə milli dirçəliş və milli oyanış hissləri gündən-günə inkişaf edirdisə, bunların səbəbi bizim Ziya Bünyadov kimi alimlərin əsərlərinin təsiri ilə bağlı idi, Ziya Bünyadov kimi alimlərimizin, yazıçılarımızın və şairlərimizin milli ruhu qaldırmağa, milli əhval-ruhiyyəni inkişaf etdirməyə yönəldilmiş yazıları ilə, əsərləri ilə bağlı idi. Ona görə də o illərdə milli azadlıq hərəkatımızın cücərməsində, boy atmasında, inkişaf etməsində Ziya Bünyadovun əsərlərinin böyük təsiri, böyük xidməti var. Lakin Ziya Bünyadov, bizim üçün çox vacib olan bu milli oyanış, milli dirçəliş hisslərinin inkişaf etməsinə bir tərəfdən öz əsərləri ilə, digər tərəfdən isə məhz ictimai-siyasi fəaliyyəti ilə xidmət etmişdir.

O illərdə Ziya Bünyadov meydanlarda nitq söyləyən, Ermənistanın Azərbaycana təcavüzünə qarşı səsini qaldıran və erməni qəsbkarların haqsız iddiaları əleyhinə etiraz edən, bu sahədə ən qabaqda gedən insanlardan biri idi. Məhz Ziya Bünyadov kimi hörmətli adamların sözü ilə, Ziya Bünyadov kimi mötəbər adamların hərəkətləri ilə bizim minlərlə, on minlərlə insanlarımız, gənclərimiz bu hərəkatlara, bu cərəyanlara qoşuldular. Onlar Azərbaycanın milli azadlığına, müstəqilliyinə, Azərbaycanın ərazi bütövlüyünə qarşı edilən təcavüz əleyhinə öz etirazını bildirir, milli azadlıq uğrunda, müstəqillik uğrunda mübarizəyə qoşulurdular. Burada da Ziya Bünyadovun xidmətləri çoxdur və onun ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, 80-ci illərin axırlarında – 90-cı illərin əvvəllərində o, bir daha böyük alim kimi, tədqiqatçı kimi Azərbaycanın açılmamış arxivlərinə

bir daha getdi, o arxivlərdən Azərbaycan tarixinin XX əsrə aid səhifələrini açdı, tədqiq etdi, öz kitablarında, dövri mətbuatda yazılar verdi və beləliklə də əgər əvvəllər Azərbaycan tarixinin orta əsrlərə aid çox mühüm dövrlərini elmi əsərlərində işıqlandırdısa, açdısa, göstərdisə, son illərdə də özünü buna həsr etdi. O cümlədən, ilk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərdən biri də Ziya Bünyadovdur.

Onun böyük xidmətlərindən biri də bolşevizm terroru nəticəsində 20-30-cu illərdə Azərbaycanda aparılmış repressiyalar haqqında həqiqətləri aşkara çıxarmaqdan, repressiya qurbanlarının adlarını açıb göstərməkdən, onlara bəraət qazandırmaqdan, onların adlarını tarixdə bərpa etməkdən və beləliklə o dövrü və doğru-düzgün işıqlandırmaqdan ibarət olmuşdur.

Gördüyünüz kimi, döyüşçü, müharibə iştirakçısı, bəşər tarixində ən dəhşətli müharibə olan İkinci dünya müharibəsinin, alman faşizminə qarşı müharibənin qəhrəmanı, eyni zamanda sonralar 50 il müddətində elmi axtarışlarla məşğul olmuş, həm də Azərbaycan elmindən dünya elminə töhfələr vermiş insan idi. Bunlarla yanaşı, onun həmişə bir xüsusiyyəti də olubdur, o, Azərbaycanın ictimai-siyasi həyatından, Azərbaycanda gedən ictimai-siyasi proseslərdən heç vaxt kənarda qalmamışdır.

Doğrudur, bunu da etiraf etmək lazımdır ki, onun bu sahədə də xidmətləri və fəaliyyəti müəyyən mərhələlərdə lazımınca qiymətləndirilməyibdir. Bilirsinizmi, Ziya Bünyadov xüsusi bir xarakterə malik adam idi. Onun özünəməxsus elə keyfiyyətləri var idi ki, bunun təkrarını mən cəmiyyətimizdə görməmişəm, bəlkə də olmayacaqdır. Buna görə də onun özünəməxsus keyfiyyətləri, xüsusiyyətləri, yəni müstəqilliyi, yenilməzliyi, mübarizliyi, prinsipiallığı bəzi adamlarda ona, şübhəsiz, qeyri-obyektiv, mənfi münasibət doğururdu. Ona görə də bəzən adamlar hissiyyata qapılaraq, onun xidmətlərini, müsbət keyfiyyətlərini unudaraq, nədənsə ondan inciyib onun xidmətlərinə qiymət verilməsinin qarşısını alırdılar. Bunlar da olubdur.

Məsələn, Ermənistanın Azərbaycana təcavüzü başlayandan bəri Ziya Bünyadov xalqı Ermənistana qarşı mübarizəyə və torpaqlarımızın müdafiəsi uğrunda mübarizəyə səfərbər etməkdə həmişə ön sıralarda getmiş adam olubdur, həmişə mübarizə aparıbdır, həmişə öz sözünü deyibdir, heç vaxt çəkinməyib, heç vaxt kənarda durmayıb, heç vaxt gizlənməyibdir. Amma eyni zamanda, xatirimdədir, Naxçıvanda yaşayırdım, 90-cı illərin əvvəllərində Azərbaycan parlamentinə seçkilər keçirilirdi. Ziya Bünyadov da öz namizədliyini vermişdi. Mən bunu o vaxtlar qəzetlərdə oxuyurdum. Bəli, o öz namizədliyini vermişdi. Baxırdım ki, 5-6 layiqli adam vardırsa,

onlardan biri də Ziya Bünyadov idi. Fikirləşirdim ki, əlbəttə, Ziya Bünyadov seçilməlidir. Amma sonra gördüm ki, Ziya Bünyadov seçilmədi. Onun yerinə bir nəfər alverçi, yaxud ticarət işçisi, bazar müdiri seçildi.

Sonralar Ziya Bünyadov öz namizədliyini başqa bir dairədən də vermişdi. Mən bunların hamısını uzaqdan müşahidə edirdim, baxırdım və ürəyim ağrıyırdı. Fikirləşirdim ki, görəsən, Ziyanın namizədliyi keçəcəkmi? Ziya Bünyadov o dairədən də seçilmədi. Amma Ziya Bünyadovun əlinin altında kiçik elmi əməkdaş işləmiş bir nəfər seçildi. Bilirsinizmi, həyatımızda, bax, belə ədalətsizliklər də olubdur: ümumi ədalətsizliklər, o cümlədən də Ziya Bünyadova qarşı ədalətsizliklər.

Amma bunların heç birisi Ziya Bünyadovun iradəsini sındırmayıbdır. O, heç vaxt əyilmədi, heç vaxt sınmadı, heç vaxt heç kəsə baş əymədi. Ona görə də Ziya Bünyadovu çoxları sevirdi, mən də sevirdim, ona xüsusi hörmət edirdim. Bəzən o, kiməsə acı söz deyə bilərdi, lakin onu anlamaq lazım idi ki, o acı sözün içində xeyirxah münasibət vardı, onun arxasında vətəndaşlıq vardı, onun arxasında Azərbaycan xalqına sevgi, məhəbbət vardı, onun arxasında böyük insan dururdu.

Nəhayət, Ziya Bünyadovun son illərdəki fəaliyyətini də xüsusi qeyd etmək istəyirəm. O da Ziya Bünyadovun daim ictimai-siyasi fəaliyyətdə olmasından və bu fəaliyyətlə əlaqədar Yeni Azərbaycan Partiyasının yaranmasında iştirak etməsindən ibarətdir. Xatirəmdədir, mən Naxçıvanda idim, Azərbaycanda vəziyyət qarışan zaman bir neçə dəfə Ziya Bünyadov bir çox alimlərlə, ziyalılarla birlikdə Naxçıvana gəldi, mənimlə söhbətlər apardı, məni Bakıya dəvət etdi. Beş il bundan öncə, 1992-ci ilin fevral ayında, ya da martın əvvəllərində Azərbaycanda hakimiyyət, dövlət böhranı oldu. O vaxtlar yəqin ki, xatirənizdədir. Ziya Bünyadov ağır bir vəziyyətdə Naxçıvana gəldi, mənimlə 3-4 saat söhbət apardı. Onun söhbətinin mənası bundan ibarət idi ki, Azərbaycan ağır vəziyyətdədir. Mənə müraciət edirdi ki, mən, yəni Heydər Əliyev Bakıya qayıtmalıdır. Mən keçmiş vaxtlarda olduğu kimi, Naxçıvandakı görüşlərimizdə də Ziya müəllimə böyük hörmətlə yanaşaraq ona bildirməyə çalışırdım ki, indi mənim Bakıya gəlməyim mümkün deyil, yaxud şəxsən mən bunu istəmirəm. O, hər dəfə də məndən narazı qayıdırdı. O, yanıma bir neçə dəfə gəlmişdi. 1992-ci ilin şaxtalı noyabr ayında bir dəstə ziyalı, o cümlədən Ziya Bünyadov Naxçıvana gəldilər, biz orada Yeni Azərbaycan Partiyasının təsis konfransını birlikdə keçirdik. Şaxta, soyuq idi, elektrik işığı yox idi. Biz o günləri orada kerosin lampasının işığında keçirdik və Yeni Azərbaycan Partiyası yarandı. Ziya Bünyadov Yeni Azərbaycan Partiyası sədrinin müavini seçildi.

Bəli, o vaxtlar Yeni Azərbaycan Partiyasının yaranmasına iqtidar mane olurdu və bunu istəmirdi. Bu işə qoşulan adamları burada təqib edir

və onları bəzən tutur, bəzən sıxırdılar, bəzilərini incidirdilər. Ziya Bünyadov bunların heç birisindən nə qorxur, nə də çəkinirdi, heç birisindən! Həqiqətən, ilk dövrlərdə Yeni Azərbaycan Partiyası idarə heyətinin iclasları akademiyada Ziya Bünyadovun iş otağında, kabinetində keçirilirdi. O, heç bir şeydən qorxmurdu. Niyə qorxmurdu? Çünki o, həmişə olduğu kimi, gənc vaxtlarında Hitler faşizmi ilə döyüşən zaman olduğu kimi, 50 il ondan sonra da öz əqidəsinə sadiq idi. O, əqidə adamı idi, əqidəsinə sadiq idi. Mən bunu çox yüksək qiymətləndirirəm.

Bunlar olsa da, olmasa da, Ziya Bünyadovun qiyməti yüksəkdir və onun xidmətləri əvəzsizdir. Azərbaycan vətəndaşı kimi və keçmiş illərdə Ziya Bünyadovla bir yerdə işləmiş və Azərbaycana rəhbərlik etmiş bir şəxs kimi, indi isə Azərbaycan prezidenti kimi mən də Ziya Bünyadovun xidmətlərini yüksək qiymətləndirirəm. Amma bu mərhələni də, bu dövrü də ona görə xüsusi qeyd edirəm ki, Ziya Bünyadov ahıl yaşa çatdığı bir zamanda da öz əqidəsinə sadiq qaldığını göstərirdi və Yeni Azərbaycan Partiyasına da öz əqidəsi ilə gəlmişdi. Ona görə 1995-ci ilin noyabrında müstəqil Azərbaycanın ilk parlament seçkilərində Ziya Bünyadovun adı Yeni Azərbaycan Partiyasının siyahısında birinci yazılmışdı və o, Milli Məclisə deputat seçildi. Milli Məclisin deputatı olduğu vaxtlarda Ziya Bünyadov fəal, prinsipial, mərd, obyektiv olmuşdur.

Ziya Bünyadovun akademiyada vitse-prezident kimi, alim kimi fəaliyyəti böyükdür, yenə də deyirəm, bu barədə çox danışmaq olar. Bilirsinizmi, bu gün bu matəm mitinqində mənim bu qədər danışmağıma ehtiyac yox idi. Ancaq qəlbim Ziya Bünyadovun xidmətləri haqqında sözlərlə o qədər doludur, eyni zamanda bu faciə mənə də, xalqımıza da o qədər təsir edibdir ki, bu gün bu sözləri deməyi özümə borc bilirəm.

Ziya Bünyadovun vəhşicəsinə qətlə yetirilməsi dəhşətli bir hadisədir. Bilirsinizmi, son illər biz belə dəhşətli hadisələrlə qarşılaşırıq. Son illərdə Azərbaycanda bir çox müsbət amillərlə, nailiyyətlərlə, Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar gedən müsbət proseslərlə yanaşı, təəssüflər olsun ki, belə qatı cinayətkarlar da, vəhşilər də meydana çıxıbdır. Məsələn, 50 il bundan qabaqkı tarixi götürsək, yadıma gəlməz ki, Ziya Bünyadov kimi adama kiminsə əli qalxıb güllə atsın, ona bıçaq vursun. Gərək nə qədər vəhşi olasan, nə qədər imansız olasan, xalqına nə qədər düşmən olasan ki, bu cür qatillik edəsən. Qatil qatildir. Hər bir insanı qətlə yetirən insan qatildir. Ancaq bu cür qatillik hədsiz-hüdudsuz qatillikdir. Kimə qarşı? Ziya Bünyadov kimi şəxsiyyətə qarşı! Bu qədər dahi, bu qədər ali, bu qədər böyük həyat yolu keçmiş şəxsiyyətə atılan güllə, onun qətlə yetirilməsi bütün Azərbaycan xalqına edilən təcavüzdür. Azərbaycan xalqına atılan güllədir. Çünki Ziya Bünyadov Azərbaycan xalqını ən gözəl

təmsil edən şəxsiyyətlərdən biri və o şəxsiyyətlərin içində ən seçiləni idi. Belə bir adamı, bu qədər həyat yolu keçmiş adamı necə qətlə yetirmək olardı! Bu cinayət tək onu qətlə yetirən adamların cinayəti deyildir, onları bu işə sövq edən, bu cinayətə yönəldən, bu cinayət yoluna salan adamların əməlidir, o qüvvələrin işidir, o terroristlərin işidir.

Biz son illər belə terror hərəkətləri ilə rastlaşmışıq. Bəli, son illərdə burada belə terror hərəkətlərinə əsas qoyan qüvvələr, adamlar da var.

1990-cı ildə gözəl bir ziyalını, günahsız bir adamı – Əjdər Xanbabayevi qətlə yetirdilər. 1994-cü ildə Afiyəddin Cəlilovu, Şəmsi Rəhimovu qətlə yetirdilər. Neçə dəfə terror etmək cəhdi olmuşdu. Allaha şükürlər olsun ki, biz bu cəhdlərin qarşısını ala bildik. Neçə dəfə belə cəhdlər olmuşdu. O cəhdləri göstərmiş olan adamlar indi istintaq altındadırlar, yaxud da məhkəmə onların barəsində hökm çıxarmış və onlar cəzalarını çəkirlər.

Nəhayət, belə bir cinayət, belə bir terror, belə bir qətl xalqımıza qarşı qətldir. Bu, Azərbaycanın dövlətçiliyinə qarşı, Azərbaycanın müstəqilliyinə qarşı olan terrordur. Bu, Azərbaycanın iqtidarına qarşı olan terrordur. Ona görə də bu, bizim üçün ağırdır.

Burada Ziya Bünyadovun ailəsi, ailə üzvləri matəm, qəm içindədirlər. Onlar ağır itki ilə üzləşiblər. Bizim hamımız da eyni qəmqüssə içindəyik. Bu itki hamı üçün itkidir, bütün xalq üçün itkidir, dövlətimiz üçün itkidir. Bu, şəxsən mənim üçün böyük itkidir.

Görünür ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, Azərbaycanı müstəqil bir dövlət kimi yaşatmaq, Azərbaycanda həqiqi demokratik, hüquqi dövlət qurmaq, Azərbaycan xalqını bu ağır vəziyyətdən çıxarmaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızı öz el-obasına qaytarmaq yolu hələ çətin yoldur, ağır yoldur. Amma biz bu yol ilə gedirik, gedəcəyik, biz mübarizə aparırıq, aparacağıq və heç kəs iradəmizi sındıra bilməyəcəkdir, heç kəs bizi sarsıda bilməyəcəkdir! Qoy, o terroru təşkil edən qüvvələr bilsinlər ki, bu cinayət açılacaq, cinayətkarlar mühakimə ediləcəklər. Lakin bu cinayətkarlar, bu cinayəti təşkil edənlər, terroru təşkil edən qüvvələr təkcə məhkəmə tərəfindən deyil, bütün xalq tərəfindən bu gün lənətlənirlər, sabah da lənətlənəcəklər. Qatı cinayətkar kimi onlar xalq qarşısında cavab verəcəklər. Mən buna əminəm. Biz buna nail olacağıq!

Ola bilsin ki, biz gələcəkdə də itki verəcəyik. Mən dəfələrlə demişəm, heç kəsin heç şeydən zəmanəti yoxdur ki, nə isə ola bilər, ya ola bilməz. Hər şey ola bilər. Ancaq biz mübarizəmizdən dönməyəcəyik! Biz irəli gedirik, Azərbaycanın müstəqilliyini möhkəmlətmək yolu ilə gedirik.

Azərbaycanda demokratik dövlət qurmaq yolu ilə, Azərbaycanın milli mənafelərini qorumaq yolu ilə irəliləyirik və irəliləyəcəyik!

Ziya Bünyadov mübarizəmizin ön cərgəsində duran şəxsiyyətlərdən biri idi. Ziya Bünyadov bu mübarizənin qurbanı oldu. Ziya Bünyadov bu mübarizədə şəhid oldu. Bu gün biz onu millət yolunda, dövlət yolunda şəhid kimi son mənzilə yola salırıq.

Lakin gələcəkdə itkilərimiz olsa da biz yolumuzdan dönməyəcəyik. Hər bir belə hadisə, əksinə, bizi daha da səfərbər edəcək, sayıq edəcək və daha mübariz edəcəkdir. Bu gün mən bütün terrorçu qüvvələrə və onların arxasında duran cürbəcür siyasi qruplara, başqa qüvvələrə xəbərdarlıq edirəm, Azərbaycanın daxilində və xaricində olan qüvvələrə xəbərdarlıq edirəm – qoy bilsinlər ki, onlar bu yolla heç nəyə nail ola bilməyəcəklər. Qoy bilsinlər ki, onlar məğlub olublar və məğlub olacaqlar. Qoy bilsinlər ki, Ziya Bünyadovun qanı yerdə qalmayacaqdır!

Ziya Bünyadov mübarizəmizin şəhididir. O, Sovet İttifaqı Qəhrəmanı kimi öz mübarizəsi ilə, şəhidliyi ilə həm də müstəqil Azərbaycan Respublikasının Milli Qəhrəmanı səviyyəsinə qalxmış bir insandır.

Ziya Bünyadov öz yaradıcılığı ilə, öz böyük həyat yolu ilə özünə böyük heykəl yaratmışdır, özünə böyük bir abidə qoymuşdur. Biz Ziya Bünyadovun xidmətlərini heç vaxt unutmayacağıq. Hesab edirəm ki, Ziya Bünyadovun Azərbaycan xalqı qarşısındakı xidmətləri günü-gündən daha geniş, daha parlaq açılacaq, görünəcəkdir. Ziya Bünyadovun gördüyü iş, xalqımıza qoyduğu irs, onun xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Mən Ziya Bünyadovun müqəddəs cənazəsi qarşısında baş əyirəm və sizi əmin edirəm ki, biz tutduğumuz yoldan dönməyəcəyik. Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi bizim məqsədimiz, amalımızdır. Bu amal uğrunda Ziya Bünyadov fədakarcasına mübarizə aparıb şəhid oldu. Bu amal uğrunda biz axıradək mübarizə aparacağıq!

Allah Ziya Bünyadova rəhmət eləsin.

Mən bütün Azərbaycan xalqına bu faciə ilə əlaqədar başsağlığı verirəm.

Ziya Bünyadovun ailəsinə başsağlığı verirəm və bəyan edirəm ki, onun ailəsi Azərbaycan dövlətinin daim qayğısı altında olacaqdır. Ziya Bünyadovun qoyduğu irs, onun əsərləri yaşayacaq, bizim gənclərimiz Ziya Bünyadovun simasını, yaradıcılığını örnək edərək təhsil alacaq, tərbiyələnəcək, vətənpərvərlik duyğularını özlərində inkişaf etdirəcəklər.

Allah rəhmət eləsin. Allah sizə və Ziya Bünyadovun ailəsinə, bütün xalqımıza səbir versin.

XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ*

Respublika Sarayı, 7 mart 1997-ci il

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Böyük şair Səməd Vurğunun 90 illik yubileyi şeir, mədəniyyət bayramıdır, Azərbaycan xalqının bayramıdır. Bu bayram münasibətilə mən sizi, bütün Azərbaycan vətəndaşlarını ürəkdən təbrik edirəm.

Bu bayram mərasimlərində iştirak etmək üçün dost ölkələrdən zəhmət çəkib Azərbaycana gəlmiş hörmətli qonaqlarımıza təşəkkür edirəm.

Azərbaycan bir ildir ki, Səməd Vurğunun 90 illik yubileyini qeyd edir, ölkəmizdə yubiley mərasimləri keçirir. Bu təbiidir, çünki Səməd Vurğun xalqımız, millətimiz üçün o qədər dəyərli bir şəxsiyyət olub, o qədər zəngin bir irs qoyub ki, onun 90 illik yubileyi bir gün, bir ay yox, məhz bir il müddətində keçirilməli idi. Bu müddətdə hər yerdə, hər evdə, hər şəhərdə, hər kənddə Səməd Vurğun yad olunur, onun şeirləri oxunur, əsərləri yenidən canlanır və bunlar hamısı müasirlərimizə, gənclərimizə ruh verir, onları sevindirir, şadlandırır.

Səməd Vurğun XX əsrin əvvəllərində dünyaya gəlib və az ömür sürərək 50 ildən sonra dünyasını dəyişibdir. XX əsr bəşər tarixində çox ziddiyyətli, mürəkkəb proseslər dövrüdür. Səməd Vurğunun yaşadığı illər həddindən artıq mürəkkəb, qarışıq, çətin olub. Birinci dünya müharibəsi dünyaya nə qədər ziyanlar vurubdur. Ondan sonra Yer kürəsinin altında bir hissəsində yeni bir quruluş, yeni ideologiya hökm sürməyə başlayıbdır. Sonra bəşəriyyət üçün təhlükəli olan faşizm meydana çıxıb, İkinci dünya müharibəsi başlanıb, nə qədər insanlar qurban gedib. İkinci dünya müharibəsindən sonra «soyuq müharibə» başlayıb, yer üzündə yenə də gərginlik yaranıb, eyni zamanda sülhü müdafiə etmək üçün qüvvələr yaranıbdır. Bunlar o dövrün ən böyük, tarixi hadisələridir. Belə bir dövrdə yaşamaq, yaratmaq və yüksək yaradıcılıq səviyyəsinə çatmaq hər bir insana nəsib ola bilməzdi.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. B., Azərnəşr, 2000, s.16-23

Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb-yaradıb və Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstəribdir, Azərbaycan ədəbiyyatını, mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdiribdir. Fitri, parlaq istedadı, çox nadir xüsusiyyətə malik olan istedadı, eyni zamanda ən gənc yaşlarından yazıb yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirmiş və o, həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə tanınmış, sayılan bir insan olmuşdur.

Səməd Vurğunun yaradıcılığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib. Hesab edirəm ki, onun yaradıcılığı və qoyduğu irs bu gün də, gələcəkdə də tədqiq olunacaq və bu barədə yeni-yeni əsərlər yaranacaqdır.

Səməd Vurğun böyük şairdir. Şərq aləmində şair həmişə ən yüksək hörmətə layiq olubdur. Səməd Vurğun isə öz dövrünün şairlərinin şairi olubdur.

Səməd Vurğun Azərbaycan şerinə çox böyük yeniliklər gətiribdir. Ancaq mən bir məqama toxunmaq istəyirəm. Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şer dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şerləri xalqın bütün təbəqələri həm anlaya, həm qavraya bildi, həm də sevdi. Beləliklə, o, Azərbaycan şeirində yeni bir yol açdı. Səməd Vurğun Azərbaycan klassiklərinin ənənələrini davam etdirərək, bizim dövrümüzdə - məhz 20-ci, 30-cu, 40-cı illərdə Azərbaycan şeirini daha da yüksək səviyyələrə qaldırdı.

Səməd Vurğunun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdiribdir. Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edibdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi böyük xidmətlərdən biridir.

Səməd Vurğun şerinin böyüklüyü, eyni zamanda, gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azərbaycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz təsiri altına salırdı. Səməd Vurğunun şeiri bu gün də müasirlərimizə, gənc nəslə ilham, ruh verir, onları coşdurur, daha da vətənpərvər edir, onlara vətəni, milləti, torpağı sevməyi öyrədir.

Səməd Vurğunun ədəbi yaradıcılığı çox genişdir, çoxşaxəlidir. Bu gün burada məndən əvvəl çıxış edən natiqlər bu barədə çox gözəl və əsaslı fikirlər söylədilər. Səməd Vurğunun bütün yaradıcılığında ən görkəmli yer tutan onun «Vaqif» tarixi mənzum dramıdır və Azərbaycan milli teatrında onun əsasında yaranmış «Vaqif» tamaşasıdır. Bu gün tam qətiyyətlə demək olar ki, böyük Səməd Vurğunun 60 il bundan əvvəl

yaratdığı və teatrımızı daim inkişaf etdirən «Vaqif» pyesi XX əsr mədəniyyət, ədəbiyyat tariximizdə ən görkəmli yer tutubdur.

«Vaqif» əsərinin xüsusiyyəti, şübhəsiz ki, birinci növbədə bu əsərin Azərbaycan xalqının tarixinin müəyyən bir hissəsini əks etdirməkdən ibarətdir. O, eyni zamanda, dərin fəlsəfi fikirləri əks etdirən bir əsərdir, hər bir azərbaycanlının ürəyinə yatan, onu sevindirən şeir misralarıdır.

«Vaqif» əsəri Azərbaycan xalqına onun Molla Pənah Vaqif kimi bir şəxsiyyətini tanıdan əsərdir. Etiraf etməliyik ki, Səməd Vurğunun «Vaqif» əsəri yarananadək Molla Pənah Vaqif xalqın arasında geniş təbliq olunmamışdı və xalq onu o qədər də tanımırdı. Şübhəsiz ki, ədəbiyyatçılar, ziyalılar, şeir pərəstişkarları Vaqifin şeirlərini yaxşı bilirdilər. XVIII əsrdə Azərbaycan ədəbiyyatının, şeirinin inkişafında Vaqifin xidmətləri haqqında mən dedim. Ancaq Vaqifi geniş tanımaq, onu xalqa daha da yaxınlaşdırmaq, Vaqifin şəxsiyyətini açmaq, onun surətini xalqa göstərmək və Vaqifi xalqa doğma etmək - bunların hamısını Səməd Vurğun etdi.

Xatırlayın, 1937-ci ilədək - «Vaqif» əsəri yaranana qədər Azərbaycanda Vaqif adı daşıyan adam da olmayıb, ya da çox az olubdur. Bəlkə də heç kəs buna fikir verməyib. Bəlkə də hamı güman edir ki, Azərbaycanda geniş yayılmış Vaqif adı elə dövri-qədimdəndir. Amma «Vaqif» əsəri meydana çıxandan sonra insanlar Vaqifi, yəni Səməd Vurğunun yaratdığı Vaqif obrazını o qədər sevdi ki, həddindən çox ailə yeni doğulan övladlarına Vaqif adı verdi.

Bilirsiniz, bu təhlili genişləndirmək, bu barədə daha geniş fikirlər, mülahizələr söyləmək olar. Ancaq mən bu məqamları xatırladıram ki, Səməd Vurğunun yaradıcılığının nə qədər dərin iz buraxdığını bu gün biz bir daha dərk edək.

Yenə də «Vaqif» pyesinə qayıtmalıyam. Azərbaycanın milli teatrı qədim tarixə, böyük ənənələrə malikdir. Biz 1873-cü ildə Şərqdə ilk dəfə yaranmış, Azərbaycan teatrı ilə, onun tarixi ilə həmişə fəxr etmişik, edirik. Ancaq Azərbaycan Dram Teatrının tarixində «Vaqif» pyesi bir inqilab oldu. O illəri yaşayan adamlar xatırlamalıdırlar - bu, mənim də xatirimdədir - həmin tamaşa o vaxt bir inqilab oldu.

Azərbaycan teatrının ən parlaq səhifələrindən biri «Vaqif» pyesidir, onun yaranmasıdır və uzun illər onun teatrımızın səhnəsində olmasıdır. «Vaqif» pyesi, eyni zamanda teatrımızın görkəmli sənətkarlarını daha da yüksəltdi.

Bu gün biz Vaqifin şəkillərini, heykəlini görürük. Amma həqiqətdə Vaqifin fotoşəkli olmayıbdır. Vaqifin şəklini də Səməd Vurğun və Vaqif

rolunu oynayan böyük sənətkarımız, aktyorumuz Ələsgər Ələsgərov və Azərbaycan Dövlət Dram Teatrı yaratmışdır.

Görürsünüz, Səməd Vurğun bir əsərlə bizim milli mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza aid nə qədər böyük məsələləri həll edibdir. Səməd Vurğun xalqımıza nə qədər böyük xidmətlər göstəribdir. Biz də Səməd Vurğunun yolu ilə gedərək Vaqifin adını əbədiləşdirməyə çalışdıq, onun ölümündən 200 il sonra Şuşada, Cıdır düzündə Vaqifin qəbri üzərində böyük məqbərə yaratdıq. Həmin məqbərədə Səməd Vurğun, Azərbaycan teatrı və Ələsgər Ələkbərov tərəfindən yaradılmış Vaqif surətinin heykəlini qoyduq.

Səməd Vurğunun digər dram əsərləri də yüksək qiymətə layiqdir. «Fərhad və Şirin»də, «Xanlar»da, «İnsan»da Azərbaycan ədəbiyyatına, şeirinə, teatrına böyük töhfələrdir. Onlar əbədi yaşayacaqlar.

Səməd Vurğun həddindən çox şeirlər, poemalar yazıbdır. Bütün bu poemalarının, şeirlərinin və pyeslərindəki şeirlərinin hamısı məhz Səməd Vurğuna məxsusdur. Bütün bunlar onu göstərir ki, Səməd Vurğun ana dilimizi - Azərbaycan dilini təkmilləşdirib, inkişaf etdiribdir. Bu, Səməd Vurğunun ən böyük xidmətlərindən biridir. Bizim hazırkı dilimiz 70, 80, 90 il bundan əvvəl olan dil deyil. İndiki dilimiz - türk dilləri qrupuna məxsus olan Azərbaycan dili türk dillərinin kökündən gələn Azərbaycan dili məhz Səməd Vurğun kimi şəxsiyyətlərin yaradıcılığı nəticəsində, onların şeirlərinin, əsərlərinin nəticəsində bu qədər gözəllişib, bu qədər zənginləşib, səlisləşib, şirinləşibdir. Biz bu dilimizlə fəxr edirik və fəxr edə bilərik.

Səməd Vurğun eyni zamanda böyük alim, filosof idi. Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biridir. Səməd Vurğun Elmlər Akademiyasının yaradılmasının təşəbbüsçülərindən biridir. O, sadəcə akademik seçilmiş bir adam deyil. Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafabəy Topçubaşov, Mirzə İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranıbdır. Bu, böyük tarixi hadisədir. Burada Səməd Vurğunun xidmətləri böyükdür. Ən böyük xoşbəxtlik ondadır ki, Səməd Vurğun ömrünün son illərində həmin akademiyanın vitse-prezidenti vəzifəsini daşımışdır və Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafında çox əvəzsiz xidmətlər göstərmişdir.

Səməd Vurğunun bütün əsərləri Vətənə məhəbbətlə, Azərbaycana, xalqımızın dilinə, milli ənənələrinə məhəbbətlə doludur. Səməd Vurğunun şəxsiyyətini ifadə edən, onun əsərlərinin əsas mənası və məzmunu bax, budur.

Şübhəsiz ki, Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə Səməd Vurğunun əvəzindən üzr istəməməlidir. Səməd Vurğunun bütün əsərləri ilə Azərbaycan xalqı əvvəldən axıradək fəxr edir, bundan sonra da fəxr edəcəkdir.

Səməd Vurğun komsomola həsr etdiyi poemasında da, Kommunist Partiyasına həsr etdiyi «Zamanın bayraqdarı» poemasında da öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda yüksək şeir sənətini nümayiş etdiribdir. Şərqdə həmişə şer böyük hörmətə layiq olubdur və hər bir şair öz dövrünün aşiqi olubdur, öz dövrünü yazıbdır. Biz buna görə keçmiş əsrlərin heç bir şairinə hər hansı bir mənfi münasibət göstərə bilmərik və kimisə qınaya bilmərik. Səməd Vurğunu da heç kəs qınaya bilməz ki, o şeirləri, poemaları yazıbdır.

Səməd Vurğun öz xalqına, millətinə sadiq insan olubdur. O, öz millətinin oyanışına, milli dirçəlişinə xidmət edibdir. Məhz Səməd Vurğunun şeirləri, poemaları, pyesləri, dramları - hamısı birlikdə xalqımızı xırdaxırda bu yüksək səviyyəyə çıxarıbdır.

Səməd Vurğunun yaradıcılığının əsas xüsusiyyətləri bax, budur. Məhz buna görə Səməd Vurğun qiymətlidir. Səməd Vurğun bütün yaradıcılığı boyu öz xalqını azad görmək istəyibdir. Səməd Vurğun həmişə azadlıq, müstəqillik tərəfdarı olubdur. Səməd Vurğun Üzeyir Hacıbəyovla, Cəfər Cabbarlı ilə çiyin-çiyinə gedibdir. Onlar - Səməd Vurğun da, Üzeyir Hacıbəyov da, Cəfər Cabbarlı da Azərbaycanı azad, müstəqil, sərbəst görmək istəyiblər.

Biz bu günümüzə görə - xalqımızın mədəniyyətinin, ədəbiyyatının, elminin, təhsilinin ümumi səviyyəsinin bu mərtəbəyə qalxmasına görə Səməd Vurğuna minnətdarlığımızı bildirməliyik.

Bilirsiniz, hər bir insanın özünəməxsus taleyi vardır. Az ömür yaşamasına baxmayaraq, Səməd Vurğunun taleyi xoşbəxt taledir. Ona görə xoşbəxt taledir ki, Səməd Vurğun 50 il yaşasa da, amma 40 ildir Azərbaycan xalqının dilindən və dünyanın çox xalqlarının dilindən düşmür.

Bu gün biz azad, müstəqil ölkəmizdə yaşayarkən keçmiş nəsillərə minnətdar olmalıyıq, bizdən qabaq yaşamış, yaratmış insanlara daim minnətdarlığımızı bildirməliyik. Çünki bugünkü Azərbaycan əzəmətli, böyük bir binadır. Bu binanı kərpic-kərpic qoyan indiyə qədər yaşamış, yaratmış nəsillərdir. Bu binaya hərə öz payını qoyubdur - kimi çox, kimi az. Amma bu insanların tam əksəriyyəti Azərbaycanı qurmağa, yaratmağa və inkişaf etdirməyə çalışmışdır. Onlardan da ən görkəmlisi böyük şairimiz Səməd Vurğundur.

Səməd Vurğun öz yaradıcılığı, əsərləri, ictimai-siyasi fəaliyyəti ilə XX əsr Azərbaycan tarixində ən görkəmli şəxsiyyətlərdən biri olubdur. Biz Səməd Vurğun ilə fəxr edirik. Çox sevindirici haldır ki, biz bu yubileyi dostlarımızla - Türkiyə Cümhuriyyətinin, Qazaxıstan, Rusiya, Gürcüstan, Dağıstan respublikalarının nümayəndələri ilə bir yerdə keçiririk. Bu da təbiidir. Buradakı çıxışların hamısı çox səmimidir və Səməd Vurğunun yaradıcılığına, onun qoyduğu irsə böyük hörmət hissi ilə doludur.

Burada şəxsi xatirələr də söylənildi. Mənim də şəxsi xatirələrim vardır. Biz gənclər vaxtilə Səməd Vurğunu sadəcə olaraq görməkdən özümüzü xoşbəxt hesab edirdik. Biz özümüzü xoşbəxt hesab edirdik ki, Səməd Vurğunu haradasa gördük, dinlədik, eşitdik. Biz o illərdə bax, belə yaşamışdıq.

Xatirimdədir, 1952-ci ildə Opera və Balet Teatrının binasında Azərbaycan ziyalılarının iclası keçirilirdi. Azərbaycanın o vaxtkı rəhbəri də ziyalılara çox təzyiq edirdi. Səməd Vurğuna söz verildi. Onun o çıxışı qulağımda bugünkü kimi səslənir. Səməd Vurğuna söz veriləndə salona toplaşanlar onu çox böyük hərarətlə qarşıladılar. Səməd Vurğun çox dərin məzmunlu və həyəcanlı bir nitq söylədi. Həmin nitq yəqin, haradasa dərc olunub və onu oxuyanlar bunları bilirlər. Onun o nitqi də məhz Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, ziyalılarına aid qayğılarla dolu idi. O vaxt ona iki-üç dəfə replika verdilər, amma Səməd Vurğun heç bir dəfə də əyilmədi, sınmadı, iradəsini itirmədi, öz nitqini mərdi-mərdanə, böyük iftixar hissi ilə başa çatdırdı.

Səməd Vurğun o vaxt bizim hamımız üçün nümunə - xalqına, millətinə, ölkəsinə, vətəninə sədaqətlikdə nümunə idi. Səməd Vurğun Azərbaycanı, öz xalqını, öz dilini nə qədər sevirdi! Bunları hər dəfə yada saldıqca insan coşur, həyəcanlanır. Səməd Vurğun əgər bu günləri - Azərbaycanın müstəqilliyini, azadlığını görmədisə də, onun ruhu bu gün bizimlədir. Mən hesab edirəm, onun ruhu bu gün həddindən artıq şaddır ki, Azərbaycan xalqı azaddır, sərbəstdir və Azərbaycan Respublikası müstəqildir.

Səməd Vurğunun «Azərbaycan» şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib, təkrar edərkən öz xalqına, ölkəsinə bir daha öz məhəbbətini, sevgisini, sədaqətini ifadə edir:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən!
Anam, doğma Vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Biz Səməd Vurğunun ruhu qarşısında baş əyərək deyə bilərik: əziz şairimiz, sənin canın qədər sevdiyin Azərbaycan bu gün müstəqil dövlətdir. Sənin canın qədər sevdiyin xalqın bu gün azaddır. Bu gün mən bir daha bəyan edirəm ki, biz Səməd Vurğunun ruhunu gələcəkdə də şad edəcəyik. Müstəqil Azərbaycan yaşayacaq. Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaqdır. Xalqımız daim sərbəst, öz taleyinin sahibi olacaqdır.

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın Səməd Vurğun yaradıcılığı!

Səməd Vurğuna eşq olsun!

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ MOSKVA DÖVLƏT HÜQUQ AKADEMİYASININ FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ*

29 mart 1997-ci il

Hörmətli nazir, hörmətli rektor, hörmətli xanımlar və cənablar!

Sizi səmimi salamlayır və gözəl görüş münasibətilə ürəkdən sevindiyimi bildirirəm. Mənə Moskva Dövlət Hüquq Akademiyasının fəxri doktoru adı verərək mənə göstərdiyiniz böyük şərəfə görə Moskva Dövlət Hüquq Akademiyasının rektoru hörmətli akademik Oleq Yemelyanoviç Kutafinə, akademiyanın Elmi Şurasına, sizin hamınıza təşəkkür edirəm. Sözün düzü, bu qərardan xəbər tutduqda təəccübləndim və həyəcanlandım ki, axı bu, nə üçün, nə ilə əlaqədar baş verdi. Sonra belə qənaətə gəldim ki, bu akademiya çox nüfuzlu akademiyadır, burada görkəmli hüquqşünaslar, alimlər, professorlar işləyirlər, onlar isə çətin ki, səhv etsinlər. Bir də ki, bizdə həmişə belə olurdu, – mən bunu öz təcrübəmə əsasən deyə bilərəm ki, hər hansı bir sənəd və ya məsələ müəyyən şübhə doğurduqda, mütləq hüquqşünasların rəyini soruşurdular. İndi imzalamalı olduğum hər hansı sənədə hüquqşünas imza qoymasa, o mənə çatdırılmır. Axı söhbət qanundan gedir. Əgər belə alimlər, hüquqşünaslar belə qərar qəbul etmişlərsə, deməli, bu, qanunidir. Ona görə də mən bu qərarla razılaşdım; sözün düzü, indi də çox böyük həyəcan və sevinc hissi keçirirəm. Çox sağ olun.

Hesab edirəm ki, bu fakt Azərbaycanın və Rusiyanın təhsil müəssisələri arasında, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq münasibətlərinin bundan sonra da möhkəmlənməsinə və inkişaf etdirilməsinə yönəldilmişdir. Əmin ola bilərsiniz ki, bu yüksək adı almağımla əlaqədar mən öz vəzifəmi, öz məsuliyyətimi başa düşürəm və Rusiya ilə Azərbaycan arasında mehriban münasibətlərin, dostluq münasibətlərinin gündən-günə inkişaf etməsi və möhkəmlənməsi üçün, Rusiyanın və Azərbaycanın ali təhsil müəssisələri arasında, təhsil orqanları arasında əlaqələrin uğurlu və səmərəli olması üçün səylərimi əsirgəməyəcəyəm.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. B., Azərnəşr, 2000, s. 97-106

Burada çıxış edənləri dinləyərkən xatırladım ki, keçmişdə öz işimdə həqiqətən qanunla, qanunvericiliklə, hüquqşünaslıqla, hüquq elmi ilə sıx bağlı olmuşam. Sizin vaxtınızı almaq və bütün bunlar haqqında danışmaq istəmirəm, çünki buna çox vaxt gedərdi. Ancaq bəzi epizodlar haqqında danışmaq istəyirəm.

Hər şeydən öncə Moskva Dövlət Hüquq Akademiyasının rolu və əhəmiyyəti barədə demək istəyirəm. Müasir mərhələdə bu təhsil müəssisəsinin çox böyük əhəmiyyəti var. Şübhəsiz ki, hüquq təmayüllü, yaxud hüquqşünaslar hazırlayan hər hansı ali məktəbin keçmiş dövrlərdə də əhəmiyyəti var idi. Ona görə də 1931-ci ildə yaradılmış, böyük tarixi yol keçmiş və o vaxtkı Sovetlər İttifaqı üçün, onun müttəfiq respublikaları üçün hüquqşünaslar, alimlər, əməli işçilər hazırlanması işinə çox böyük töhfə vermiş Ümumittifaq Qiyabi Hüquq İnstitutu bu gün də çox mühüm rol oynayır. 80-ci illərin ortalarında Qiyabi Hüquq İnstitutunun zəruri olub-olmaması haqqında məsələnin meydana çıxmasını xatırladan Oleq Yemelyanoviç haqlı idi, mən həqiqətən bu məsələyə dair qərar qəbul etməli olmuşam. Özü də ona görə yox ki, mən bu kollektiv üçün nə isə yaxşı bir iş görmək istəyirdim, ona görə ki, bu ali məktəbin gələcəkdə də mövcud olmasının zəruriliyinə şübhə edənlər səhv edə bilərdilər, mən isə elə etdim ki, bu səhvə yol verilməsin.

Siz bilirsiniz ki, keçmişdə mən bir çox illər dövlət təhlükəsizliyi orqanlarında işləmişəm. Şübhəsiz ki, bu orqanlar digər hüquq-mühafizə orqanları, hüquq xidmətləri ilə çox sıx bağlı idi. Xatirimdədir, o illərdə, 50-ci, 60-cı illərdə Azərbaycandan çoxları Ümumittifaq Qiyabi Hüquq İnstitutuna daxil olmaq üçün Moskvaya gəlirdi və onlar burada oxuduqlarına görə fəxr edirdilər. Onlar bu gün də institutun diplomu ilə yaşayır, işləyirlər, bəziləri yüksək vəzifələr tuturlar. Bu institut o vaxtlar Sovetlər İttifaqında, o cümlədən də Azərbaycanda böyük şöhrət və nüfuz qazanmışdı.

Bu institut nə üçün lazım idi? Açığını deyək, keçmişdə bizim Sovetlər İttifaqında hüquq təhsilinə kifayət qədər diqqət verilmirdi. Lakin bu, onda, ola bilsin o qədər də başa düşülmürdü. İndi isə, böyük dəyişikliklər baş verdiyi, ictimai dövlət sisteminin dəyişdiyi bir vaxtda hər şey aydın oldu. Sovet sosialist idarəetmə sisteminin hüquqşünaslara bir o qədər də ehtiyacı yox idi, çünki ümumiyyətlə, ölkə bir qanunla yaşayırdı. Buna görə də hüquq sahəsində kadrlara, əsl hüquqşünaslara çox da böyük tələbat yox idi, onların nüfuzu da yüksək deyildi, yalnız prokurorluqda, məhkəmədə, daxili işlər orqanlarında və sairədə işləmək üçün hazırlanırdı. O illərdə, – mən 40-cı, 50-ci illəri deyirəm, – bu orqanlarda işləmək də çox da şərəfli olmadığına görə, hüquq fakültəsinə daxil

olmaq istəyən adamlar da az idi. Şəxsi həyatımdan xatirimdədir, mən 1939-cu ildə Bakı Universitetinin memarlıq fakültəsinə daxil olanda hüquq fakültəsində yerlər dolmamışdı. İnsanlar o fakültəyə getmirdilər. Bu, onların günahı deyildi, cəmiyyətin günahı idi, çünki hüquq təhsili olan bu qədər saylı adamlara ehtiyac yox idi. Ancaq Sovetlər İttifaqında qanuna hörmətin artması prosesi getdikcə, hüquq təhsilinin nüfuzu da yüksəlirdi. Lakin mənfi proses də gedirdi, hər halda Azərbaycanda belə idi, hüquq fakültəsinə daxil olmaq üçün gözlənilmədən ajiotaj yarandı. Bizim universitetdə hüquq fakültəsinə hər il 50 nəfər – rus və Azərbaycan bölmələrinin hər birinə 25 nəfər qəbul edirdilər. Müsabiqə çox yüksək idi. Mən maraqlandım ki, bu, nə məsələdir və aydın etdik ki, bu hüquqşünas işinə olan maraqla deyil, sadəcə olaraq milisdə, prokurorluqda, məhkəmələrdə işləmək arzusu ilə izah edilir.

Sonralar mən gördüm ki, müsabiqə böyük olduğuna görə oraya ən çox hüquq-mühafizə orqanları işçilərinin və rəhbər vəzifəli işçilərin uşaqları daxil olurlar. Bir il ərzindəki qəbulu təhlil edib aydınlaşdırdım ki, oraya bir nəfər də olsun sıravi adam girməyib, yalnız prokurorların, milis rəislərinin, raykom katiblərinin uşaqlarıdır. Mən onda düşünməyə başladım ki, belə halda bizdə deformasiya baş verə bilər, bəs həqiqətən yaxşı hüquqşünas ola biləcək istedadlı, qabiliyyətli insanlar nə etsinlər ki, onların valideynləri raykom katibləri, prokuror, milis rəisləri deyil? Bax, onda mən ixtiyarı öz əlimə alıb yüksək vəzifəli adamların uşaqlarının Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul edilməsinə qadağa qoydum. Bu, mənfi münasibət doğurdu. Burada, Moskvada bəzi hüquqşünaslar etiraz etməyə başladılar. Mərhum Yuri Vladimiroviç Andropov bir dəfə mənə zəng etdi. Həmin dövrdə o, Dövlət Təhlükəsizlik Komitəsinin sədri idi və bizim aramızda çox yaxşı dostluq münasibətləri vardı. O, mənim qərarımın narazılıq doğurduğunu bildirdi. Mən «Literaturnaya qazeta»da dərc olunmuş müsahibəm haqqında onun rəyini soruşdum, dedi: «Əladır». Mən soruşdum: bəs onda nə məsələdir? Cavabında mənə dedi ki, bəzi hüquqşünaslar Əliyevin qərarından şikayət etmək niyyətindədirlər, çünki o, insan hüquqlarını tapdalayır. Mən bu barədə onun fikrini xəbər aldım. Andropov dedi ki, mən düzgün hərəkət etmişəm və mənim əleyhimə çox da çıxmasınlar deyə, bu məsələni burada yoluna qoymağa söz verdi. Ancaq deməliyəm ki, sonra, 1987-ci ilin axırında mən istefaya çıxanda – sizin xatirinizdədir, 1988, 1989, 1990-cı illərdə burada, Moskvada mənim əleyhimə böyük təqib başlamışdı, müxtəlif qəzetlərdə məni gözdən salan, başdan-başa iftiralarla dolu yazılar dərc edilirdi, məni özbaşınalıqda və sairədə günahlandırmaq üçün bu faktdan istifadə edildi. Ancaq hesab edirəm ki, mən o zaman düzgün

hərəkət etmişdim və keçmişdə qəbul etdiyim heç bir qərardan imtina etmirəm.

Mən bu barədə məhz ona görə danışıram ki, hüquqşünas peşəsinə marağın birdən-birə artmasını, hüquq təhsilinə birdən-birə yaranmış böyük marağı nəzərə çarpdırım. Ancaq bu, qeyri-sağlam maraq idi.

Bu mərhələlər arxada qalmışdı. İndi Rusiya da, Azərbaycan da, keçmiş Sovetlər İttifaqının ölkələri də özlərində demokratik, hüquqi dövlət qurduqları zaman bu peşə, bu ixtisas birinci dərəcəli əhəmiyyət kəsb edir. Bir vaxtlar Sovetlər İttifaqında biz təəccüblənirdik ki, nə üçün Amerika Birləşmiş Ştatlarında hüquq kontorundan olan hansısa vəkilin böyük nüfuzu var, üstəlik də o, varlı adamdır. Fikirləşirdik ki, ilahi, bizdə hüquqşünas, hansısa bir notarius, hansısa icraçı ən kasıb adamdır, heç nəyi yoxdur. Düzdür, milis rəisinə əlavə nə isə gəlir. Biz təəccüblənirdik, çünki həqiqətən qanunlarla yaşayan ölkələrdən büsbütün fərqlənən bir ölkədə yaşayırdıq. İndi Rusiyada da, Azərbaycanda da qanun hər şeydən yüksəkdir. Qanun isə səriştəli hüquqşünaslar tərəfindən yaradılır və hüquqşünas bütün sahələrdə lazımdır. Hesab edirəm ki, bu ixtisas, bu peşə indi xüsusi nüfuz qazanır. Ona görə də həmin Ümumittifaq qiyabi institutdan böyük yol keçərək yaranmış bu akademiya, Rusiya Hüquq Akademiyası Rusiyanın təhsil sistemində belə layiqli yer tutur. Çünki, əvvələn, böyük tədris və elmi potensialı var, ikincisi isə, hüquqi Rusiya dövlətində bu akademiya hüquqşünas kadrlar, bir çox məsələlərin həlli üçün mütəxəssislər hazırlanmasında hələ çox, uzun illər fayda gətirəcəkdir. Ona görə də burada belə ad almağımdan, sizinlə bir yerdə olmağımdan və bəzi fikirlərimi söyləmək imkanına malik olmağımdan son dərəcə məmnunam.

Bununla yanaşı, keçmiş Sovetlər İttifaqında hətta həmin sistemdə, – indi mən burada Sov.İKP MK Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini işlədiyim dövrləri xatırlayıram, – biz dövləti, cəmiyyəti və başqa sahələri demokratikləşdirmək üçün az iş görməmişdik. Bu xətt Andropov ölkənin rəhbərliyinə gəldikdən sonra götürülmüşdü. Həmin dövrdə mən görkəmli hüquqşünaslarla, hüquq institutları ilə çox fəal əməkdaşlıq edirdim və xatırlamağa şadam ki, o illərdə mən dərin hüquqi mənaya malik olan çox mühüm sənədlərin hazırlanmasında yaxından iştirak edirdim.

Məsələn, 1983-cü ilin əvvəllərində əmək kollektivləri haqqında qanun hazırlamaq qərara alınmışdı. Buna görə MK Siyasi Bürosunun qərarı ilə mən bu qanunun layihəsini hazırlayan komissiyanın sədri təyin olunmuşdum. Mənim komissiyamda hüquqşünaslar, professorlar, akademiklər, o cümlədən Kudryavtsev və başqaları var idi. Biz bu qanunu bir neçə aya hazırladıq. Elə olurdu ki, mən günlərlə şəhər ətrafında

komissiyanın üzvləri ilə otururdum və biz müzakirə edirdik. 1983-cü ilin iyununda Ali Sovetin sessiyasında mən layihə haqqında məruzə etdim və biz əmək kollektivləri haqqında ilk qanun qəbul etdik. Bu, onu göstərirdi ki, biz dövlətimizdə qanunçuluğu möhkəmləndirmək yolu ilə gedirik. Sonralar, 1985-ci, 1986-cı illərdə isə biz dövlət müəssisəsi haqqında qanun üzərində işlədik. Bu, yəqin ki, yadınızdadır. O vaxtlar bu komissiyaya Nazirlər Sovetinin sədri Rıjkovun özü başçılıq edirdi, mən bu komissiya sədrinin müavini idim və işçi qrupuna başçılıq edirdim. Biz bu qanunu da hazırlayıb qəbul etdik. Doğrudur, bunların hamısı indi tarixə çevrilmişdir, çünki həmin sistem, həmin dövlət daha yoxdur. Lakin bunlar dövlət idarəçiliyində qanunçuluq prinsiplərinin bərqərar edilməsinə doğru, dövlətdə və cəmiyyətdə qanunun nüfuzunun yüksəldilməsinə doğru ilk addımlar idi.

Yeri gəlmişkən, mən öz aktuallığını bu gün də itirməmiş olan belə bir mühüm faktı da xatırlayıram. Mən Dövlət Arbitrajının islahatı üzrə komissiyanın sədri idim. Siz yuristlər yaxşı bilirsiniz ki, Dövlət Arbitrajı dövlətə bir əlavə idi, müstəqil statusa malik deyildi, Nazirlər Sovetinə tabe idi. Bu məsələni bir çox hüquqşünaslar qaldıraraq dedilər, bir halda ki, biz demokratikləşdirməyə doğru gedirik, onda Dövlət Arbitrajında islahatlar aparmaq lazımdır. Mən Nazirlər Sovetinin rəhbərlərindən biri idim, burada hamı Dövlət Arbitrajını Nazirlər Sovetinin tərkibindən çıxarmağın və ona müstəqil status verməyin əleyhinə idi. Yadınızdadırsa, Dövlət Arbitrajının sədri Anisimov idi. O da Dövlət Arbitrajının statusunun vacibliyindən danışırdı. O vaxtlar biz Siyasi Büroda Dövlət Arbitrajında islahatın zəruriliyi məsələsinin həll edilməsinə müvəffəq olduq. Mən sənədin üzərində işləmişdim və şadam ki, hazırlayıb müzakirəyə çıxara bilmişdim. Beləliklə, Dövlət Arbitrajının statusu haqqında qərar qəbul edildi. Dövlət Arbitrajına böyük müstəqillik verdilər, onu Nazirlər Sovetinin tərkibindən çıxartdılar. Mən bu epizodları sizin peşənizlə bağlı olduğunu təsdiqləmək üçün xatırlayıram.

Hazırda Rusiyada da, Azərbaycanda da bütün sahələrdə islahatlar aparılır. Bu islahatların qanunvericilik bazasına böyük ehtiyacı var. Bizdə də, Rusiyada da qanunlar qəbul edilir. Lakin nə qədər qanun qəbul etsək də, məsələn, respublikamızda biz islahatları aparmaqdan ötrü qanunlara, qanunvericilik bazasına, bazar iqtisadiyyatı, demokratiya, qanunvericilik yolu ilə tam irəliləmək üçün, şəxsiyyətin hüquqlarına əməl etmək və s. üçün lazım olan dəyişikliklərin həyata keçirilməsindən ötrü qanunlara hələ çox böyük ehtiyac duyuruq.

Lakin demək istəyirəm ki, Azərbaycan müstəqil dövlət yolunda qətiyyətlə durmuşdur. Azərbaycanın dövlət müstəqilliyi tarixi nailiyyət-

dir, biz onu möhkəmləndirəcək və inkişaf etdirəcəyik. Azərbaycan demokratiya, tərəqqi yolu ilə gedir və hüquqi dövlət qurur. Bu, quruca söz deyil, gerçəklikdir. Bununla bərabər, dövlət bir kəlmə ilə, bir ifadə ilə hüquqi dövlət olmur. Dövləti hüquqi, əsl demokratik dövlət etmək üçün qanunlar, digər tədbirlər gərəkdir. Odur ki, biz bu yolla gedirik. Biz iqtisadiyyatı yenidən qururuq, özəlləşdirmə haqqında qanun qəbul etmişik və onu həyata keçiririk. Amma ağıl-kamalla, iqtisadiyyatımızın sosial yönümünü nəzərə alaraq. Zənnimcə demək olmaz ki, səhv buraxmayacağıq, səhvlərdən heç kəs sığorta olunmayıb. Lakin biz bu yolu daha az nöqsanlarla keçəcəyik. Torpaq islahatı haqqında çox sanballı bir qanun qəbul etmişik. Bu qanunda torpağı alıb-satmaq, vermək hüquqi ilə onun şəxsi mülkiyyətə verilməsi nəzərdə tutulur və biz bu qanunu 2-3 il ərzində real surətdə həyata keçirəcəyik, torpaq sahibkarların, adamların, vətəndaşların tam ixtiyarında olacaqdır. Biz artıq onun əməli səmərəsini görürük.

Bütün bunlarla yanaşı, biz öz fəaliyyətimizdə bunu əsas tuturuq ki, Rusiya ilə, digər MDB ölkələri ilə inteqrasiya əlaqələri son dərəcə böyük əhəmiyyətə malikdir. Odur ki, bu məsələyə xüsusi diqqət yetiririk. Dünən dövlət başçılarının iclasında, xüsusən qapalı iclasda biz bu məsələləri müzakirə etdik. Deməliyəm ki, müzakirə çox yaxşı oldu. Rusiya prezidenti, MDB-nin Dövlət Başçıları Şurasının sədri Boris Nikolayeviç Yeltsinin olduqca məzmunlu, ağıllı, yaxşı çıxışını qeyd etmək istəyirəm. Bu gün mən onunla görüşdüm və biz ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdik. Mən bu görüşdən, söhbətdən çox məmnun qaldım. Bütün bunlar Rusiya ilə dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmlətmək niyyətlərimizə uyğundur. Bizi Rusiya ilə bir il deyil, on il deyil, yüz illərdən bəri çox şey bağlayır. Bu əlaqələri qırmaq olmaz. Bu əlaqələrin qırılması tarix qarşısında da, bu illər, bu onilliklər ərzində bir-biri ilə son dərəcə bağlı olmuş bir çox insanlar qarşısında da cinayət olardı.

Aprelin 1-də bizdə Rusiya mədəniyyəti günləri başlayır. Mənə elə gəlir ki, bu da böyük hadisə olacaq və Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə xidmət edəcəkdir. Əlbəttə ki, imkanlar var. Siz əmin ola bilərsiniz ki, Azərbaycanda biz bundan sonra da təhsil sahəsində əməkdaşlığımızı daha da genişləndirmək xətti tutacağıq. Yenə də təhsildən danışarkən mən o illəri, Nazirlər Soveti sədrinin birinci müavini kimi təhsil, ali təhsil, maarif, texniki peşə təhsili sahələrini idarə etdiyim illəri xatırlayıram. O illərdə də işləmiş, indi də işləyən bir çox adamlarla – universitetlərin, təhsil orqanlarının rəhbərləri ilə yaxşı tanışam. Ali təhsil, maarif nazirliklərinin,

texniki peşə komitəsinin kollegiyalarında öz görüşlərimi çox səmimiyyətlə xatırlayıram. Bunların hamısı mənim üçün çox əzizdir. Keçmiş həyatımın parlaq səhifələridir. Mən burada öz həyat fəaliyyətimin həmin dövrünə minnətdaram, çünki bu da elə bir təməl olmuşdur ki, indi belə bir çətin dövrdə prezident kimi Azərbaycan Respublikasına rəhbərlik etmək üçün mənə imkan verir.

Burada Azərbaycanda görülmüş tədbirlərdən danışıldı. Vaxtınızı almaq istəmirəm. Həqiqətən, Azərbaycan dövlət müstəqilliyinə nail olduğu vaxtdan bəri respublikada vəziyyət çox mürəkkəb idi. Əvvəla, bu, onda da, indi də bununla bağlı idi ki, 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmışdı. Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər, ölkəmizin bir milyondan çox sakini bu işğal olunmuş torpaqlardan didərgin salınmışdır, indi onlar ağır şəraitdə, çadırlarda yaşayırlar. Digər tərəfdən, daxili siyasi vəziyyət çox mürəkkəb idi, müxtəlif qruplar, silahlı dəstələr hakimiyyət uğrunda mübarizə aparırdılar.

Bu beş il ərzində hakimiyyət 1992-ci ildə, sonra 1993-cü ildə, Azərbaycanda vətəndaş müharibəsi başlayanda dəyişdi. O zaman məni Bakıya dəvət etdilər, mən bu dəvəti qəbul etdim və tezliklə dörd il olacaqdır ki, mən Azərbaycanın rəhbəriyəm. Əlbəttə, çətin idi. İndi də çətindir. Ancaq mühüm cəhət odur ki, biz vəziyyəti sabitləşdirə, bütün daxili ziddiyyətləri və çətinlikləri aradan qaldıra, bir çox silahlı, qanunsuz quldur dəstələrini təcrid edə və zərərsizləşdirə, ölkədə ictimai-siyasi sabitlik yarada bildik.

Digər böyük nailiyyət də odur ki, artıq üç ildir hərbi əməliyyatlar yoxdur, qan tökülmür. Mən dünən Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdüm. Bu gün Boris Nikolayeviç Yeltsin ilə görüş zamanı da biz bu məsələni müzakirə etdik. Biz məsələnin sülh yolu ilə həll olunması üçün addımlar atırıq. Respublikamızdakı vəziyyəti dərindən bildiyinə görə, – bunu onun çıxışından hiss etdim, – Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasının prinsipləri haqqında ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş sənədə verdiyi, – həm də təkcə o yox, – əhəmiyyətə görə mən professor Bekeşevə çox minnətdaram. Biz bu gün də, dünən də dedik ki, Ermənistan istisna olmaqla, həmin prinsiplər ilk dəfədir ATƏT- in bütün üzvləri tərəfindən təsdiq edilmişdir. Bu prinsiplər münaqişənin sülh yolu ilə aradan qaldırılmasının əsasını təşkil edir. Əmin ola bilərsiniz ki, biz öz tərəfimizdən hərbi əməliyyatların yenidən başlanmasına heç vaxt yol verməyəcəyik. Biz Zaqafqaziyada da, bütün Qafqazda da keçmiş Sovetlər İttifaqının bütün ərazisində, bütün dünyada sülh olmasını istəyirik. Biz sülh

uğrunda mübarizə aparırıq, bütün qonşularımızla sülh şəraitində yaşamaq istəyirik, istəyirik ki, hər yerdə, xüsusən Qafqazda əmin-amanlıq olsun. Qafqaz xüsusi regiondur, onun öz xüsusiyyəti var. Ancaq eyni zamanda indi onu bir çox münaqişələr – Ermənistan-Azərbaycan, abxaz-gürcü münaqişələri, Çeçenistandakı münaqişə bürümüşdür. Bir baxın, kiçik ərazidə nə qədər münaqişə var və bunlar MDB məkanının dinc yolla həllinə, sülhün bərqərar edilməsinə nail olmaq üçün tədbirlər görəcəyik. Əminəm ki, biz Ermənistanla sülhü bərpa edəndə, – şübhəsiz ki, Azərbaycan ərazisindən erməni silahlı birləşmələrinin tamamilə çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, onun suverenliyinə və sərhədlərinin toxunulmazlığına əməl olunması şərtilə – onunla da mehriban münasibətləri çox uğurla inkişaf etdirə bilərik. Mən buna inanıram.

Çıxışımın sonunda bugünkü səmimi görüş üçün mənə verdiyiniz fəxri ad üçün sizə bir daha təşəkkür etmək istəyirəm.

Sizə, Moskva Dövlət Hüquq Akademiyasının bütün kollektivinə hüquq kadrları hazırlanması işində bundan sonra da uğurlar diləmək istəyirəm.

Hesab edirəm ki, Azərbaycan ilə Moskva Dövlət Hüquq Akademiyası arasında əməkdaşlıq uğurlu ola bilər. Biz Azərbaycanda yüksək ixtisaslı kadrlar hazırlamaq üçün gələcəkdə də sizin akademiyanın imkanlarından və şübhəsiz ki, böyük təcrübənizi, elmi potensialınızı nəzərə alaraq köməyinizdən istifadə edəcəyik. Sizə təşəkkür edir, cansağlığı, xoş həyat, uğurlar arzulayıram.

TİBB ELMLƏRİ DOKTORU, ƏMƏKDAR ELM XADİMİ, DÖVLƏT MÜKAFATI LAUREATI TAMERLAN ƏZİZ OĞLU ƏLİYEVİN MATƏM MƏRASİMİNDƏ ÇIXIŞ*

Şəhriyar adına Mədəniyyət Mərkəzi
7 aprel 1997-ci il

Hörmətli dostlar!

Tamerlanın vəfatı bizim ailəmiz üçün ağır, böyük itkidir, şəxsən mənim üçün ağır itkidir. Eyni zamanda Tamerlanın vəfatı Azərbaycanın tibb elmi üçün, Azərbaycanın elmi, ali təhsili üçün böyük itkidir.

Tamerlan uzun illər mənim yaxın dostum olmuşdur. Əlli il bundan öncə mən onunla tanış olmuşam, sonra qohum olmuşuq. Amma bu illər ərzində o, mənim yaxın dostum olub, çox sədaqətli dostum olubdur. Ona görə belə bir dostu, belə bir yaxın adamı itirmək çox ağırdır.

Əlli il müddətində mən Tamerlanı yaxşı tanımışam, onun həyatını, fəaliyyətini həmişə müşahidə etmişəm. Burada onun haqqında deyilən sözlər tam həqiqətdir. O özü çox istedadlı bir insan, fitri istedada malik adam olubdur. Bununla yanaşı çox fədakar, əməksevər, işgüzar adam olubdur. Seçdiyi peşəni daim sevib və bu sevgi ilə, məhəbbətlə peşəsinə, insanlara xidmət edib və cəmiyyətdə özünə layiq yer tutubdur.

Tibb, səhiyyə hər bir insan üçün çox vacib olan sahədir. Özünü tibb, səhiyyə işinə, insanların sağlamlığının keşiyində durmaq işinə həsr edən adamlar həqiqətən çox yüksək hörmət və ehtirama layiq olan insanlardır. Azərbaycanda belə insanların içərisində Tamerlan Əliyevin xüsusi yeri olubdur. O, doğrudan da Azərbaycanda tibb elminin inkişafına öz töhfələrini verib, xidmətlərini göstərib, minlərlə, on minlərlə insanları müalicə edib, onların ömrünü uzadıbdır. Ancaq indi özü həyatdan gedibdir.

Tamerlan, gözəl xüsusiyyətlərə malik bir insan, yüksək mədəniyyətli, sözün əsl mənasında ziyalı, deyə bilərəm ki, Azərbaycan ziyalılarının görkəmli nümayəndəsi, bir Azərbaycan ziyalısı kimi əsl nümunə olmuşdur. O, həddindən artıq təvazökar bir adam idi. Bəlkə do onun təvazökarlığı bəzən ifrat dərəcəyə gəlib çatırdı, o qədər təvazökar idi. Sadə, çox sadə bir insan idi, ancaq çox zəkalı, çox mədəni, çox xeyirxah, insanpərvər, sülhsevər insan idi. O, daim insanlar arasında xoş münasibətlər

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. B., Azərnəşr, 2000, s. 144-146

yaranmasına çalışırdı, daim xeyirxahlıq edirdi, insanları bir-birinə yaxınlaşdırmağa çalışırdı.

Dediyim kimi, işinə çox sədaqətli idi, öz işinə çox məsuliyyətlə yanaşırdı. Mənim xatirimdədir, gənc vaxtlarında da müəyyən bir gün işə gecikmiş olsun, yaxud üzərinə düşən vəzifəni yerinə yetirməmiş olsun və ya işində bir səhlənkarlığa əl vermiş olsun – belə şeylər mümkün deyildi. O qədər məsuliyyətli idi ki. öz işinə, peşəsinə o qədər məsuliyyətlə yanaşırdı ki, bəzən bu. insanları təəccübləndirirdi. Onu fərqləndirən xüsusiyyətlərdən biri də ondan ibarət idi ki, çox təmənnasız adam idi. Burada artıq deyildi, məktəbdə də. ali təhsildə də fərqlənibdir, fərqlənmə diplomları, yüksək adlar alıb, çox elmi əsərlər yazıb, böyük xidmətlər göstəribdir.

Ancaq heç bir vəzifədə, heç bir mənsəbdə gözü yox idi. Nəinki gözü yox idi. hətta belə təkliflərdən dəfələrlə imtina etmişdir. Bu, mənim xatirimədir. O, ancaq öz sənəti sahəsinə çalışmaq istəyirik. Şübhəsiz ki, həm Tibb İnstitutunun, universitetinin, həm də Azərbaycanın tibb ictimaiyyətinin, elminin həyatında fəal iştirak edirdi. Ancaq bununla yanaşı, o heç vaxt bu fəaliyyətini hansısa bir vəzifə, mənsəb tutmaq naminə, yaxud o arzularına etmirdi. Bir də qeyd edirəm, ona bir neçə dəfə həm institut çərçivəsində, həm do səhiyyə çərçivəsində vəzifələr təklif olunmuş, hamısından imtina etmişdi. Ona görə də ki. bu istər bacara bilməzdi. Ona görə ki, öz işini, sənətini özünün dərk etdiyi çərçivədə o qədər sevir, o qədər qiymətli və vacib hesab edirdi ki, ondan başqa çərçivəyə keçmək istəmirdi. Alicənablığı. yüksək mədəniyyəti, ziyalılığı, fədakarlığı, sadəliyi, insanpərvərliyi ilə həqiqətən o, atasının – mərhum Əziz Əliyevin xüsusiyyətlərinin əksəriyyətini özündə əks etdirirdi. Bu gün Tamerlanı son mənzilə yola salarkən demək olar ki, o, atası Əziz Əliyevin layiqli oğlu olmuşdur.

Mənim üçün isə onun bütün bu xüsusiyyətlərindən başqa ən dəyərlisi dostluğa sədaqətli olması idi. Sədaqətli insan idi. Bilirsiniz ki, insanlar cürbəcür vaxtlarda sınanırlar, hətta yaxın qohumlar, dostlar da sınanırlar. Mənim həyatımda da əlli il müddətində bu sınaq dövrləri olubdur. Tamerlan bütün mərhələlərdə mərd, sədaqətli dost olubdur. Hesab edirəm ki, insan mənəviyyatının ən yüksək keyfiyyəti, ən yüksək göstəricisi səmimilikdir, sədaqətlilikdir. Tamerlan bu keyfiyyətlərə malik bir adam idi. Hətta deyə bilərəm ki, bu keyfiyyətlərə görə yüksək nümunə idi. Ona görə də bu gün mənim üçün və Tamerlanın bütün ailə üzvləri üçün, bizim qohum-əqrəba üçün ağır gündür. Bu, bizim matəmimizdir.

Ancaq eyni zamanda təsəlli verən odur ki, Tamerlan şərəfli həyat yaşayıbdır, öz işi ilə xalqına, millətinə, respublikasına göstərdiyi xidməti

ilə, qazandığı yüksək adı ilə bizim qəlbimizdə və tələbələrinin, onu tanıyanların, onunla bir yerdə işləyənlərin qəlbində böyük iz buraxıbdır. Ona görə də Tamerlanın xatirəsi heç vaxt unudulmayacaq, şəxsən mənim qəlbimdə daim yaşayacaqdır. Güman edirəm ki, onu yaxından tanıyanların, onunla təmasda olanların da qəlbində daim yaşayacaqdır.

Deyə bilərəm ki, bu, mənim həyatımda ən ağır itkilərdən biridir. Mən dostum Tamerlanın müqəddəs cənazəsi qarşısında baş əyirəm. Allahdan ona rəhmət diləyirəm.

MƏŞHUR HEYKƏLTƏRAŞ, XALQ RƏSSAMI ÖMƏR ELDAROVUN GÖRKƏMLİ OFTALMOLOQ, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR ETDİYİ «ELEGİYA» ƏSƏRİNİN – MƏRMƏR ABİDƏNİN VƏ BU ABİDƏDƏN BƏHS EDƏN ALBOMUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ*

Bakı İncəsənət Mərkəzi
15 aprel 1997-ci il

Hörmətli dostlar!

Bu gün bizim üçün əziz, eyni zamanda kədərli gündür. Əzizdir o mənada ki, Zərifə xanımın xatirə günüdür. Kədərlidir o mənada ki, Zərifə xanım 12 ildir bizdən ayrılıbdır. Ancaq bu hadisə bu gün bizim buraya toplanmağımızda bir məna daşımır. Ailəmiz üçün bir xatirə günü olaraq biz bu günü həmişə yad edirik. Eyni zamanda, bu gün Zərifə xanımın surətini əks etdirən gözəl bir incəsənət, heykəltəraşlıq əsəri nümayiş etdirilir. Ona görə də bu, bizim respublikamızın mədəniyyətində, heykəltəraşlıq, incəsənət sahəsində yeni bir əsərin meydana çıxmasını nümayiş etdirir.

Ola bilər, mənim fikirlərim subyektiv olsun. Ancaq mən həmişə düşündüyümü demişəm. Ömər Eldarovun yaratdığı heykəl – Zərifə xanımın surətini əks etdirən heykəl həqiqətən böyük, gözəl bir əsərdir. Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişdir. Mən Ömər Eldarovu çox illərdir ki, yaxından tanıyıram. Onun əsərlərinin demək olar ki, hamısı ilə tanışam. Hələ on, iyirmi il bundan əvvəl mən Ömər Eldarovu Azərbaycan mədəniyyətinin, incəsənətinin ən görkəmli simalarından biri hesab etmişəm. İndiyədək onun heykəltəraşlıq sahəsindəki xidmətləri bu fikri ardıcıl olaraq təsdiq edibdir və mən bu fikri bir daha deyiləm. Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir.

Məlumdur ki, bizim xalqımızın keçmiş tarixində, mədəniyyət tarixində heykəltəraşlıq olmamışdır. Bu, bizim dini, mənəvi ənənələrimizlə bağlı olmuşdur. Azərbaycanda heykəltəraşlıq məktəbi demək olar ki, XX əsrdə yaranmış və bu əsrdə çox böyük sürətlə inkişaf etmişdir. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan Respublikasının

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. B., Azərnəşr, 2000, s 152-161

ərazisində, ölkəmizin muzeylərində, şəhərlərində, o cümlədən, xüsusən Bakıda meydanlarda, bağçalarda, parklarda çox dəyərli heykəltəraşlıq əsərləri qoyulmuşdur. Bunlar bizim mədəniyyətimizə, memarlığımıza, incəsənətimizə böyük yenilik gətirmişdir.

Bu illər ərzində bizim böyük heykəltəraşlarımız yaranmışdır. Bu gün onların heykəllərinə baxarkən xalqımız bunları qiymətləndirir, xatırlayır. Fuad Əbdürrəhmanov gözəl əsərlər yaradıbdır. Cəlal Qaryağdı, Tokay Məmmədov və başqaları da həmçinin. Biz sevinməliyik ki, heykəltəraşlarımız çoxdur. Bu görkəmli Azərbaycan heykəltəraşları içərisində Ömər Eldarov xüsusi yer tutur – həm yaratdığı əsərlərin bədiiliyinə, yüksək təsirliyinə, gözəlliyinə görə, eyni zamanda, öz sənəti sahəsində çox məhsuldar işinə görə.

Ömər Eldarov nə qədər yüksək səviyyəli heykəltəraşdırsa, o qədər də zəhmətkeş, fədakar və işgüzar bir adamdır. O, daim çalışır, işləyir. Mən vaxtilə, hələ çox illər bundan əvvəl Ömər Eldarovun emalatxanasında olmuşam. Orada onun nə qədər çox heykəltəraşlıq eskizlərinin, işlərinin nümunələrini görmüşəm, cürbəcür heykəllərin hazırlanması ilə əlaqədar hazırlıq işlərini əks etdirən əlamətləri görmüşəm. Bunlar həddindən artıq idi. Yenə də deyirəm, bir, iki, üç böyük və gözəl heykəl yaradan heykəltəraşlar da tarixdədirlər. Qədim yunan, İtaliya, Avropa, Rusiya və Qərb ölkələrinin heykəltəraşları bizə məlumdur.

Onların bir çoxu iki-üç əsəri ilə məşhurluq əldə etmişlər, əsrlər boyu sayılırlar, yeni gələn nəsillər tərəfindən qiymətləndirilirlər. Hesab edirəm ki, Ömər Eldarov belə heykəltəraşlardan biridir. Amma onu dünyanın ən məşhur heykəltəraşlarından, onların bəzilərindən fərqləndirən cəhət bir də bundan ibarətdir ki, o, həddindən artıq işləyir və çox əsərlər yaradıbdır.

Azərbaycanın görkəmli mədəniyyət, incəsənət xadimlərinin, ədəbiyyatımızın görkəmli simalarının, ictimai xadimlərin heykəllərinin əksəriyyətini yaradan Ömər Eldarovdur. Ona görə də mən bu günü eyni zamanda, heykəltəraş Ömər Eldarovun yaradıcılığı ilə bağlı olan bir gün hesab edirəm. O, yaratdığı əsəri, nəhayət, bu gün nümayiş etdirərkən mən onun bütün yaradıcılığına öz münasibətimi bildirmək istəyirəm və bildirməyə çalışaram.

Azərbaycan dövlətinin başçısı kimi, bəlkə də bu mərasim mənim üçün şəxsi xarakter daşıyır. Ancaq bu fürsətdən istifadə edib, Azərbaycan dövlətinin başçısı kimi mən Ömər Eldarova onun böyük yaradıcılığına, Azərbaycan mədəniyyətinə göstərdiyi xidmətlərə və yaratdığı dəyərli, hesab edirəm, ölməz əsərlərə görə təşəkkürümü bildirirəm.

Bu gün önünə toplaşdığımız heykəl isə mənim üçün çox əziz olan bir insanın surətini əks etdirən heykəldir. Ömər Eldarov burada onun

yaranma tarixi haqqında danışdı. Ancaq bu gün xatirə günü olduğuna görə mən də xatirələrimin bəzi məqamlarına toxunmaq istəyirəm.

Zərifə xanımın həyatdan getməsi bizim ailəmizi, şəxsən məni və mənim övladlarımı çox sarsıtdı. Hər bir ailə üçün itki itkidir. Burada heç bir şeyə fərq qoymaq olmaz. Ancaq hər bir insan da, ailə də özünün daxili mənəviyyatına, yaxud xüsusiyyətinə uyğun olaraq, ailəyə baş vermiş faciəyə, bədbəxt hadisəyə, yaxud itkiyə öz münasibətini bildirir. Ümumiyyətlə, ailəmiz çox həssas ailə olduğuna görə Zərifə xanımın vəfatı bizim üçün çox ağır olmuşdur. Bunun üstündən 12 il keçibdir. Biz bu gün də razılaşa bilmirik ki, biz onsuz yaşayırıq. Onun xatirəsi bizim qəlbimizdə, nəinki bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində daim yaşayacaqdır.

Şübhəsiz ki, Zərifə xanımın vəfatından sonra onun Moskvada, Novodeviçye qəbiristanındakı məzarının üstündə abidə yaranması mənim və övladlarımın arzusu olmuşdur. Bilirsiniz ki, Moskvada da heykəltəraşlar çoxdur və çox görkəmli heykəltəraşlar vardır, bunu qeyd etmək lazımdır. Bizim Azərbaycanın heykəltəraşları da – adını çəkdiklərimin də, çəkmədiklərimin o əksəriyyəti, etiraf etmək və minnətdarlıq hissi ilə demək lazımdır ki, Rusiya heykəltəraşlarının təsiri altında yaradıcılıq yolunu keçiblər, onların tələbələri olublar və onlardan aldıqları dərs və təcrübə nəticəsində formalaşıb böyük heykəltəraş olublar.

Ömər Eldarovun özü də keçmiş Sovetlər İttifaqında, Rusiyada, Moskvada heykəltəraşlar içərisində çox yüksək qiymətə layiq olan bir heykəltəraş idi. Ona görə də təsadüfi deyildir ki, Ömər Eldarov o vaxt Sovetlər İttifaqı Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilmişdir, – indi bu, Rusiyanın akademiyasıdır. Məlumdur ki, həmin akademiyaya seçkilər çox ciddi aparılırdı. O vaxt Sovetlər İttifaqında olan çoxsaylı heykəltəraşlardan az-az sənətkar belə bir ada layiq görülürdü. Onlardan biri bizim azərbaycanlımız, soydaşımız Ömər Eldarovdur.

Onu demək istəyirəm ki, Moskvada heykəltəraşlar çox idi. Onların əksəriyyəti mənim yaxın tanışlarım, dostlarım idi. Mən vaxtilə Azərbaycanda da, Moskvada da işləyərkən onlarla yaxın təmasda olmuşdum. Şübhəsiz, Moskva heykəltəraşları tərəfindən bir neçə təklif gəldi ki, onlar mənə kömək etmək, bu arzumu yerinə yetirmək istəyirlər. Amma bunların hamısını nəzərdən keçirəndən sonra fikirləşdim ki, mənim istədiyim bu abidənin müəllifi mütləq azərbaycanlı, öz həmvətənim olmalıdır. Həmvətənlərim içərisindən də Ömər Eldarovu seçdim. Onu Moskvaya dəvət etdim, o vaxt görüşdük, söhbət etdik. İlk söhbətlərimiz rəssam Tahir Salahovun iştirakı ilə gedirdi. Xatırlayıram, biz Kremldə də, mənim yaşadığım xüsusi villada da söhbət etdik. Beləliklə, birgə yaradıcılıq işinə başladıq.

Şübhəsiz ki, mən Ömər Eldarova öz arzularımı bildirdim. O isə bir usta, incəsənət xadimi, heykəltəraş kimi mənim bu arzularımı necə yerinə yetirəcəyi barədə düşünərdi, onu ölçərdi-biçərdi. Çünki həqiqi incəsənət əsəri yaratmaq çox çətin işdir. Hər bir adam həqiqi rəssamın yaratdığı rəsm əsərini yarada bilməz. Hər bir adam həqiqi bəstəkarın bəstələdiyi musiqini bəstələyə, yarada bilməz, onun müəllifi ola bilməz. Hər bir adam böyük şairin, yazıçının yazdığı əsərlər kimi əsərlər yarada bilməz. Şübhəsiz ki, hər bir adam yüksək istedada malik musiqiçi ola bilməz. Eləcə də hər bir adam Ömər Eldarov kimi və başqa heykəltəraşlar kimi heykəltəraş ola bilməz. Bunun üçün xüsusi bir istedad, bilik, təcrübə, xüsusi daxili, fitri istedad lazımdır.

Ona görə də, ola bilər, hər birimiz, o cümlədən mən də arzu edim, tövsiyəmi verim, ancaq həqiqi incəsənət ustası istənilən, arzu edilən o incəsənət əsərini yaratmaq üçün gərək bunu öz daxili aləmindən keçirsin, gərək bunu özü dərk etsin. Ona görə də Ömər Eldarov da çox düşündü və həqiqətən bir çox hazırlıq işləri gördü, eskizlər hazırladı. Bizim bir neçə görüşümüz oldu, nəhayət, bunların nəticəsində Ömər Eldarov bu gün nümayiş etdirilən heykəlin eskizini hazırlayıb mənə təqdim etdi. Mən eskizi bəyəndim və xahiş etdim ki, o, bunu icra etməyə başlasın.

Görürsünüz, bu, adi bir əsər deyil. Bu əsərdə məni valeh edən, – bu sözü tam həqiqətlə deyirəm – sevindirən və məndə böyük hissiyyatlar doğuran odur ki, bu əsərdə böyük fəlsəfə, məna vardır. Ən birincisi odur ki, Zərifə xanımın daxili mənəviyyatını, onun simasını, daxili və zahiri simasını Ömər Eldarov əks etdirə bilibdir. Eyni zamanda, o, gözəl bir heykəltəraş kimi heykəltəraşlıq sənətinin, məktəbinin, – nəinki Azərbaycan heykəltəraşlıq məktəbinin, dünya heykəltəraşlıq məktəbinin elementlərini, yaxud onların müəyyən cəhətlərini – bu əsərində həyata keçirə, tətbiq edə bilibdir.

Bu, heykəltəraşlıq əsəri kimi mürəkkəb əsərdir. Çünki burada heykəltəraş üçün, xüsusən daş, ağ mərmər üzərində işləyən heykəltəraş üçün çox çətinliklər vardır. Görürsünüz, bu heykəlin çox incə, nazik, zərif fraqmentləri vardır. Yenə də deyirəm, bunların hamısı bir tərəfdən bir heykəltəraş kimi Ömər Eldarovun əsərinin dəyərini nümayiş etdirir, amma eyni zamanda, mənim üçün bu, mücərrəd əsər deyil. Deyə bilərəm ki, Zərifə xanımın mərhum ata-anası da bəlkə onu mənim kimi tanımayıblar. Ona görə də mən Zərifə xanımın daxili mənəviyyatını tam bildiyim üçün görürəm ki, bu əsərdə bunların hamısı öz əksini nə qədər tapıbdır. Ona görə də bu əsər həm bədii, həm də fəlsəfi xarakter daşıyır və yüksək heykəltəraşlıq səviyyəsini nümayiş etdirir.

Şübhəsiz, mənim fikrim var idi ki, bu heykəli Moskvada Zərifə xanımın qəbrinin üstündə yerləşdirək. Ancaq əsər hazır oldu, – indi keçən günləri xatırlayıram, – mənim üçün problem oldu ki, bunu necə gətirim. O vaxt bunların hamısı mənim üçün böyük çətinlik yaradırdı. Sonra necə olsun, gələcək necə olacaq?

Bunların hamısı mənim qarşımda duran məsələlər idi. Ona görə də mən Ömər Eldarova bildirdim ki, təşəkkür edirəm, ancaq bu əsəri saxla, yaqin, bir zaman gələcək. Dünya elə idi ki, bu gündən sabaha ümid yox idi. Mənim özüm də bu işi axıra çatdırmasam, övladlarımdan kimsə bunu axıra çatdıra biləcək. Ömər Eldarov bu əsəri həqiqətən bu illər müddətində – bu gün burada dedi ki, səkkiz ildir – öz emalatxanasında qorudu, saxladı.

Mən Bakıya gələndən sonra dəfələrlə emalatxanaya gedib, saatlarla heykəlin qarşısında durub, ona həmişə böyük heyranlıqla tamaşa etmişəm. Bilirsiniz ki, mənim heyranlığımın bir tərəfi Zərifə xanımın xatirəsi idisə, ikinci tərəfi həqiqətən bu əsərin incəsənət, heykəltəraşlıq nöqteyi-nəzərindən yüksək keyfiyyətə malik olması idi. 1994-cü ildə Zərifə xanımın cənazəsini Moskvadan Bakıya gətirəndən sonra isə yeni bir mərhələ başlandı ki, bunu harada qoyaq? Ancaq Ömər Eldarov fikirləşdi, mənə məsləhət verdi, mən də onun məsləhətinə qulaq asdım ki, bu əsər həqiqətən elə bir əsərdir ki, ola bilər, heykəltəraşlıq, incəsənət əsəri kimi onu muzeydə qoruyub saxlamaq lazım olsun. Mən də buna razılıq verdim. Bu, 1994-cü ildə olan söhbətdir. Qəbirin üzərinə həmin heykəl əsasında tuncdan hazırlanmış heykəl qoyuldu. Bu əsər isə yenə də Ömər Eldarovun emalatxanasında qaldı. Nəhayət, bu yaxın vaxtlarda mənə xəbər verdilər ki, Ömər Eldarov deyir, onu daha bu qədər saxlamaq olmaz, onu göstərmək, nümayiş etdirmək istəyirəm, çünki bu mənim əsərimdir.

Beləliklə də, bu gün biz buraya toplaşmışıq.

Bu heykəlin hazırlanması üçün Ömər Eldarov məndən xahiş etdi ki, yüksək keyfiyyətli ağ mərmər lazımdır, Azərbaycanda da bu yoxdur. O vaxt mənim Moskvada imkanım var idi. Bilirsiniz ki, bu mərmər bütövdür, bir hissədən ibarətdir, ayrı-ayrı hissələrdən ibarət deyil. Ömər Eldarov da bunu xahiş etmişdi.

Mən həyatımda iki dəfə belə hadisə ilə rastlaşmışam. Biz Cəfər Cabbarlının heykəlini yaradırdıq. Onun müəllifi, indi burada olan Mirqasımov məsələ qoydu ki, bu heykəli yaratmaq üçün gərək elə böyük qranit gətirəsiniz ki, bütöv olsun, heç bir parça olmasın. O vaxt mən burada işləyirdim. Gəlib mənə dedilər ki, bu mümkün deyildir. Mirələsgər Mirqasımov öz xanımı ilə, – o da buradadır, – mənim yanıma gəlib dedilər

ki, əgər belə olmasa, biz bu heykəli qoymayacağıq. Şübhəsiz, mən də istəyirdim ki, Cəfər Cabbarlının heykəlini yaradaq və yaratdıq, bilirsiniz – şəhərin gözəl bir guşəsində qoyduq. Çox gözəl bir heykəltəraşlıq əsəridir. Amma o vaxt mən tədbir gördüm və Ukraynada belə böyük qranit tapıldı. Siz onu görmüsünüz, rəngini də görmüsünüz.

Bu gün biz xatirə gecəsinə toplaşmışıq, ona görə bəzi xatirələri yada salmaq lazımdır. Mənə dedilər ki, bu həcmdə qranit tapılıb, ancaq vaqona qoyub gətirmək mümkün deyildir. Çünki elə bir vaqon tapmaq mümkün deyil ki, bu ağırlığa dözsün. Onu mütləq parçalamaq lazımdır. Yenə də Mirələsgər Mirqasımovun tələbləri mənim qarşımda durdu və mən də dedim ki, yox, nə edirsiniz – edin, vəzifə yerinə yetirilməlidir. Biz buna nail olduq. O heykəlin qoyulmasından neçə il keçir? 1980-ci ildə qoyulub? 1981-ci ildən 16 il keçir ki, biz o heykəli qoymuşuq. Hesab edirəm ki, Cəfər Cabbarlıya layiq olan heykəl Bakının gözəl guşələrindən birində yüz illər yaşayacaq və bizdən sonra gələn nəsillər də birinci növbədə Mirələsgər Mirqasımova dua edəcəklər. Ola bilər duanın bir hissəsi də bizə çatsın.

Hər halda, bilirsiniz, rəssam, heykəltəraş – incəsənət ustası öz istəyini yerinə yetirmək istəyəndə, – əgər bu istək doğrudan da yeni bir əsərin yaranmasına kömək edəcəksə, – bunu etmək lazımdır. Dövlət adamlarının, dövlət işində olan insanların borcu odur ki, bunu etsinlər. O vaxt mən bunu etdim və öz həyatımda gördüyüm çoxsaylı işlərin ən dəyərlilərindən biri hesab edirəm. Cəfər Cabbarlı 1934-cü ildə vəfat etmişdir. Mən bunu bir dəfə demişəm, – Azərbaycan ədəbiyyatının, Azərbaycan milli şüurunun inkişafında onun nə qədər böyük xidmətləri olubdur! Onun yaratdığı əsərlər neçə-neçə nəsilləri tərbiyə edib və yüksəldibdir. Bunu hamımız bilirik, amma onun abidəsini 1981-ci ildə biz qoyduq. Onun yaşadığı binada ev-muzeyini 1981-ci ildə biz yaratdıq. Mən bu işlərlə fəxr edirəm.

Bundan sonra ikinci dəfə idi mənə heykəltəraş müraciət etdi ki, gərək böyük həcmli ağ mərmər tapılsın. Bu dəfə mənim imkanlarım 1980-1981-ci illərdə olandan çox idi və ağ mərmərin tapılıb Bakıya göndərilməsini təmin etdim. Ancaq Ömər Eldarov da çox cəld hərəkət elədi. O qədər çox sifariş vermişdi ki, mən də hamısını icra etdim, onun xahişlərini yerinə yetirdim. Beş blok mərmər buraya gətirildi. Sonra bunu da biləndə çox məmnun oldum. Çünki mənim buraya göndərdiyim ağ mərmərlərin bir bloku Zərifə xanımın indi gördüyümüz heykəlinin yaranması üçün istifadə olunubsa, o birilərindən Ömər Eldarov bizim hamımız üçün, xüsusən mənim üçün çox əziz olan insanların – Fikrət Əmirovun, Niyazinin gözəl heykəllərini yaradıbdır. O biriləri bilmirəm harada istifadə eləmisən

– özün bilərsən. Amma Niyazi ilə Fikrət Əmirovun heykəllərini mən bilirəm.

Ömər Eldarov: Müslüm Maqomayevin abidəsi.

Heydər Əliyev: Müslüm Maqomayevin heykəli, tamamilə doğrudur. Vaxtilə, bizdən qabaq Fəxri xiyabanda onun qəbrinin üstündə gipsdən heykəl qoymuşdular, yadınızdadırmı? O da uçub dağılırdı. Biz Müslüm Maqomayevin 100 illik yubileyini qeyd edəndə mən dedim ki, heykəli dəyişmək lazımdır və dəyişdik. Filarmoniyanın qarşısında da büstü qoyuldu. Çox gözəl büstdür.

Beləliklə, mən bu işlərimlə o vaxt Ömər Eldarovun da yeni-yeni əsərlər yaratmasına kömək etdim. Eyni zamanda, onlardan biri də Zərifə xanımın heykəlinin yaranmasına sərf olunubdur.

Bu işlərin görülməsində çox adamlar iştirak ediblər, hamısına təşəkkür edirəm. Ancaq xüsusi xidmətləri Rəfael Allahverdiyev göstəribdir. O vaxt Ömər Eldarovla sıx əməkdaşlıq edibdir. Bilirsiniz ki, 1987-ci ildə mən böyük vəzifələrdən istefa verəndən sonra həyatımda qaranlıq bir dövr yarandı. O dövrdə Rəfael Allahverdiyevi də burada tutduğu vəzifədən çıxardılar. Ancaq Ömər Eldarovla o, bu işə sadiq qaldılar, bütün təzyiqlərə, təqiblərə baxmayaraq, bu işi birlikdə apardılar və heykəli 1989-cu ildə hazırladılar. Xatırlayın, o illər mənim həyatım üçün çox ağır illər idi. O mənada ağır ki, mənə qarşı ədalətsiz ittihamlar, böhtanlar, keçmiş fəaliyyətimi ləkələmək məqsədi ilə cürbəcür hərəkətlər xatirinizdədir. Amma o vaxt Ömər Eldarov da, Rəfael Allahverdiyev də mənəviyyata sadiq olduqlarını göstərdilər və o sınaqlardan keçdilər. Mən təkcə bu işi gördüklərinə görə yox, sədaqətlərinə görə onlara – Ömər Eldarova da, Rəfael Allahverdiyevə də təşəkkür edirəm. Sonra Ömər Eldarov bu heykəlin rəsmlərini gətirib mənə göstərdi. Həqiqətən, mən ona məsləhət verdim ki, bir albom yaratsın. Məni düzgün başa düşün, ona görə yox ki, bu, Zərifə xanımın heykəlidir. Ona görə ki, bu, həqiqətən çox dəyərli bir əsərdir, heykəltəraşlıq əsəridir. Bu heykəltəraşlıq əsərini bir fikirlə nümayiş etdirmək mümkün deyildir.

Ömər Eldarov bilir, bəzi başqaları da bilir, mən keçmişdə memarlıq fakültəsində təhsil almışdım. O illərdə, gənc yaşlarımda mən ayrı-ayrı memarlıq əsərlərinin, həmçinin antik yunan heykəllərinin, yaxud da Romada, İtaliyada yaranmış heykəllərin fraqmentlərinin şəkillərini görmüşəm. O vaxt bizim müəllimlərimiz, – vaxtilə mənim heykəltəraş, memar müəllimlərim də olub, – bu albomlar əsasında bizə dərs verirdilər, bunlar hamısı mənim xatirimdədir. Ona görə də mən Ömər Eldarova dedim ki, belə təcrübələr var. Belə bir albom yarat, bu, sənin əsərini tam nümayiş etdirəcəkdir. Ola bilər, əsərin bir-iki şəkli olsun. Amma indi

hazırladığın həmin albomda bu əsər çoxcəhətli, çoxtərəfli, çoxsaheli əks olunmuşdur. Çünki onun hər bir nöqtəsinin özünəməxsus heykəltəraşlıq xüsusiyyəti var. Ömər Eldarov bunu da edibdir, bu gün təqdim edir. Buna görə də mən çox məmnunam.

Ömər, sənə bir daha, xüsusən bu əsərinə görə təşəkkür edirəm. Səni təbrik edir, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra daha yeni, daha gözəl heykəllər, əsərlər yaradacaq, Azərbaycan mədəniyyətinə çox xidmətlər göstərəcəksən və Azərbaycanın monumental sənətinə öz töhfələrini verəcəksən. Sənin hələ böyük imkanların var. Təşəkkür edirəm. Səni təbrik edirəm.

Sizə də təşəkkür edirəm ki, Ömər Eldarovun dəvətini qəbul edib bugünkü görüşə gəlmisiniz. Güman edirəm ki, bu əsər, şübhəsiz ki, bir muzeydə olmalıdır. İncəsənət əsəri kimi muzeydə olmağa onun haqqı var. Sağ olun, təbrik edirəm.

* * *

... Mənim xatirimdən çıxdı, Ömər burada Nosovun adını çəkdi, o, çox iş işləmişdir. Mən yaxşı bilirəm ki, Nosov çox iş görmüşdür, onu o vaxt Leninqraddan dəvət etmişdik. Ancaq Ömər özü çəkiclə çox işləmişdir. Heykəltəraş kimi, Ömərin bir xüsusiyyəti də ondan ibarətdir ki, özü həm yaradır, həm də fəhləlik işini görür. O, həm böyük heykəltəraşdır, həm də çox zəhmətkeş bir fəhlədir. Çox, həddindən artıq nadir bir insandır. Çünki bəzən böyük rəssamlar, heykəltəraşlar əsərin ümumi konsepsiyasını, kompozisiyasını verirlər, sonra onların köməkçiləri bu işi başa çatdırırlar. Amma bu adam bilavasitə özü işləyir. Bunların hamısını incəliklərinə qədər yonmaq nə qədər çətin işdir! Bu, daşdır, mərmərdir, amma elə bil ki, parçadır. Mərmərə, daşa bu qədər incəlik vermək böyük məharətdir, böyük ustalıqdır. Mənəviyyatca pak, təmiz insanlar həmişə yüksək zirvələrə qalxıblar. Ömər Eldarov belə insanlardan biridir. Ona görə yox ki, sən bunu etmisən, bu mənim əziz adamımdır. Mən səni 20-30 ildir tanıyıram, o illərdə də sənin əsərlərin haqqında bu sözləri demişəm. İndi yaradıcılığının lap yüksək zirvəsinə çatanda bunu yaratmısan, amma o illərdə yaratdıqlarının hamısı barədə mən öz sözümü demişəm. Bu abidəyə gəldikdə isə, Zərifə xanımın xarakterini başqa bir adam açа bilməzdi. Mən isə Ömər Eldarovu tanıyıram, – o, sınaqdan çıxmış adamdır. Mənə başqa təkliflər də olmuşdu, onlarla görüşmüşdüm də, ancaq Ömərin yerini verə bilməzdilər.

TÜRKİYƏNİN BİLKƏND UNİVERSİTETİNDƏ ÇIXIŞ*

Ankara
6 may 1997-ci il

Əziz dostum, qardaşım, hörmətli İhsan Doğramacı!

Hörmətli dostlar, xanımlar və cənablar!

Bu gün yenidən Bilkənddə hörmətli Doğramacının qonağı olmağımdan çox məmnunam və mənə göstərilən bu diqqət və qayğıya görə təşəkkür edirəm.

İhsan Doğramacı çox böyük, nadir şəxsiyyətdir, Türk dünyasının görkəmli oğludur. Eyni zamanda bizi sevindirən, bizdə iftixar hissi doğuran odur ki, Doğramacı dünya miqyasında böyük şəxsiyyətdir və türkün, türk xalqının nə qədər yüksəklərə qalxa bilməsini, nə qədər böyük zəkaya, fəaliyyətə malik ola bilməsini dünyaya nümayiş etdirən bir insandır. Ona görə də hər dəfə bu böyük şəxsiyyətlə görüşmək mənim üçün bayramdır, mənə böyük sevinc hissi gətirir.

Eyni zamanda Doğramacı Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsində əvəzsiz xidmətlər göstərir. Bu, onun vəzifəsi deyil, qəlbindən, içindən, ürəyindən gələn hissiyyatlardır, onun mənəviyyatıdır. Bu onu göstərir ki, Allah-təala belə bir insanı yaradarkən ona belə yüksək fəaliyyətlər bəxş edibdir ki, o, bunları xalqın, millətin, insanın inkişafına həsr edir. Yenə də deyirəm, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında əziz dostum Doğramacının fəaliyyəti hədsiz-hüdudsuzdur. Ancaq o, bunu həm Türkiyəni və Azərbaycanı çox istədiyinə görə, həm də türk dünyasını həddindən çox sevdiyinə və türk dünyasının yüksəlməsinə, inkişafına xidmətini öz həyatının mənası kimi hiss etdiyinə görə edir.

Əziz dostum, bu böyük fəaliyyətinizə görə, dünya miqyasında Türk xalqının, millətinin, türkdilli xalqların elmdə, mədəniyyətdə, birlikdə görkəmli yer tutması üçün göstərdiyiniz böyük xidmətlərə görə sizə təşəkkür edirəm. Azərbaycan xalqı sizə bir də ona görə minnətdardır ki, burada, Bilkənddə Azərbaycanın görkəmli alimlərini, sənət ustalarını – bəstəkarları, musiqiçiləri, sənətçiləri başınıza toplayıb onlara atalıq qayğısı göstərərək yaradıcılıq fəaliyyətinin inkişaf etməsi üçün yardımlar

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. B., Azərnəşr, 2000, s.305-307

etmisiniz. Eyni zamanda onların burada sizinlə birlikdə əməkdaşlığı Bilkəndin simasının da yüksəlməsinə kömək edibdir. Ona görə də mən keçən dəfələr də buraya gələrkən Azərbaycan alimlərini, sənətçilərini burada görüb sevinmişəm ki, onlar sizin ətrafınızdadır. Ona görə sizin ətrafınızdadır ki, siz onları sevirsiniz, onlar da sizi sevirlər. Bu əlaqələr yalnız və yalnız sevgi və məhəbbət əsasında qurulur. Burada heç bir başqa əsas, başqa təmənna yoxdur.

Hörmətli dostum, sizin yaratdığınız Türkiyə-Azərbaycan vəqfi ölkələrimizin əlaqələrində görkəmli hadisədir. Hesab edirəm ki, siz tarixi addım atmısınız, çox dəyərli iş görmüsünüz. Ümidvaram ki, bu vəqf fəaliyyətini gündən-günə genişləndirəcək və Türkiyə-Azərbaycan əlaqələrinin daha sürətlə inkişaf etməsi üçün öz xidmətlərini göstərəcəkdir.

Siz mənə böyük etimad, böyük şərəf göstərmisiniz – əziz dostum, qardaşım, Türkiyənin cümhur başqanı Süleyman Dəmirəl ilə bərabər məni bu vəqfin başqanı seçmisiniz. Mən həyatımda bir çox yüksək qurumlara, vəzifələrə seçilmiş bir adamam. Həyatımda belə hadisələri çox görmüşəm. Ancaq əziz dostum Süleyman Dəmirəl ilə bərabər bu vəqfə başqan seçilməyimi xüsusi qiymətləndirirəm.

Sizin pediatriya sahəsində, çocuqların, uşaqların sağlamlığının qorunması sahəsində fəaliyyətiniz çox qiymətli, dəyərlidir, dünyada məşhurdur. Hamımız bilirik ki, siz dünyanın nə qədər böyük səhiyyə, pediatriya təşkilatlarının üzvü, fəxri üzvüsünüz və daim onların işində iştirak edirsiniz. İndi, türk dövlətlərinin, respublikalarının, cümhuriyyətlərinin pediatriya sahəsində çalışan alimlərinin, həkimlərinin bir araya toplanması sahəsində gördüyünüz iş də çox yüksək qiymətə layiqdir. Bu ilin sentyabrında, yəni eylül ayında Azərbaycanda bu tədbiri keçirməyinizi mən bəyənir, alqışlayıram. Sizi əmin edirəm ki, Azərbaycanda keçirəcəyiniz bu toplantı indiyə qədər keçirdiyiniz bütün toplantılardan daha yüksək səviyyədə olacaqdır.

Sizin öz həmvətənlərinizə, türkmənlərə göstərdiyiniz qayğı təbiidir. Çünki onlar sizin həmvətənlərinizdir, bizim həmvətənlərimizdir. Ancaq eyni zamanda bu, sizin nə qədər böyük insan olduğunuzu göstərir. Mən iki gəncin burada şərqi söyləməsinə, mahnılarla çıxış etməsinə çox sevindim. Birincinin türkmən dilində çıxışı, ikincinin müasir, klassik Avropa musiqisini ifa etməsi çox sevindirici haldır.

Mən sizinlə bərabər sevinirəm ki, orada türkmən diyarında məktəblər açmısınız, çocuqları öz dillərində təhsilə cəlb edirsiniz. Mən bilirəm, bu nədir. Çünki Azərbaycan xalqının da XX əsrin əvvəlində öz dilində məktəbi yox idi. Ancaq məktəblər açıldı, indi Azərbaycan xalqı tam, başdan-başa təhsil almış millətdir. Ancaq ürək ağrısı ilə deyirəm ki,

dünyanın başqa bölgələrində çoxsaylı, on milyonlarla azərbaycanlılar yaşayır ki, hələ öz dilində təhsil almaq imkanına malik deyillər. Gün o gün olar ki, onlar da öz dillərində məktəblər açacaq, öz dillərində kitablar oxuyacaq, təhsil alacaqlar.

Türkmən dili ilə Azərbaycan dili arasında heç bir fərq yoxdur. Mən 70-ci illərin əvvəllərində türkmənlərlə Bakıda çox görüşmüşəm. Orada məşhur yazıçı-şair var – Bəndəroğlu, tanıyırsanmı? Bakıya gəlirdi, bir neçə dəfə görüşmüşdüm. İraqdan gəlmişdi, elə bizim kimi, Azərbaycan dilində danışırdı. Deyirdim ki, sən buradan getmisən, orda yaşayırsan? Deyirdi, yox, mən türkmənəm. Bu dildə heç bir fərq yoxdur. Ona görə də sən də, mən də çox böyük sevinc və şövq ilə oxuyuruq ki, «Samovara od salmışam, küçələrə su səpmişəm, yar gələndə toz olmasın, elə gəlsin, elə getsin, aramızda söz olmasın».

Çox sağ olun, sevimli xanımınızla, oğlunuzla, bütün ailənizlə birlikdə sizə cansağlığı, uzun ömür, xoşbəxtlik arzu edirəm. Çox sağ olun, təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİNƏ «9 EYLÜL» UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ *

İzmir
7 may 1997-ci il

Hörmətli cənab rektor!
Hörmətli xanımlar və cənablar!
Hörmətli dostlar, əziz tələbələr!

Mən sizin hamınıza dostunuz, qardaşınız əlan Azərbaycandan hərarətli salam gətirmişəm. Sizin simanızda Türkiyə Cümhuriyyətinin bütün universitetlərinə, bütün professorlarına. bütün alimlərinə bütün müəllimlərinə, bütün tələbələrinə hörmət və ehtiramımı bildirirəm, sizə səadət, xoşbəxtlik və bütün işlərində uğurlar arzulayıram.

Türkiyənin böyük və çox gözəl şəhəri əlan İzmir şəhərinin sakinlərini, vətəndaşlarını ürəkdən salamlayıram. İzmir ilə Azərbaycanın paytaxtı Bakı qardaşlaşmış şəhərlərdir. Həm Bakı sakinləri adından, həm də Azərbaycan vətəndaşları adından İzmir şəhərinin bütün sakinlərini və vətəndaşlarını salamlayıram.

Üçüncü gündür ki, Türkiyə Cümhuriyyətinin cümhur başqanı, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvətilə mən Türkiyə Cümhuriyyətində rəsmi səfərdəyəm. Mən və mənimlə bərabər sizin ölkəyə gəlmiş Azərbaycan nümayəndə heyəti bu üç günün içərisində türk qardaşlarımızın, türk xalqının, Türkiyə dövlətinin və hökumətinin qonaqpərvərliyi və sevgi-məhəbbəti içində yaşayırıq. Bu, bizim üçün böyük səadətdir. Bu, bizim üçün unudulmaz günlərdir. Bu Türkiyə-Azərbaycan əlaqələrinin həm türk xalqı üçün, həm də Azərbaycan xalqı üçün nə qədər əziz, nə qədər gərəkli və nə qədər dəyərli olduğunu bir daha nümayiş etdirir.

Türkiyədə, Ankarada olduğumuz zaman biz bir çox görüşlər keçirmişik və Türkiyə-Azərbaycan əlaqələrinin genişlənməsi və inkişaf etdirilməsi üçün dəyərli işlər görmüşük, çox əhəmiyyətli dövlətlərarası, hökumətlərarası müqavilələr imzalamışıq. Onların içərisində Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında müqavilə xüsusi əhəmiyyət kəsb edir. Bu müqaviləni Türkiyə prezidenti və Azərbaycan prezidenti imzalamışlar. Bu müqavilə ilə

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. B., Azərnəşr, 2000, s.349-358

Türkiyə-Azərbaycan əlaqələri keyfiyyətcə yeni səviyyəyə qalxır və bu əlaqələrin gələcəkdə daha sürətlə, eyni zamanda çox geniş və hərtərəfli inkişaf etməsi üçün yeni bir mərhələ açılır.

Mən bu günlərdə Türkiyədə apardığımız danışıqlardan və keçirdiyimiz görüşlərdən, imzalanmış sənədlərdən həddindən artıq razıyam və hesab edirəm ki, bunların hamısı Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirir.

Azərbaycan nümayəndə heyətinə və şəxsən mənə göstərilən bu hörmətə görə, bu məhəbbətə görə, bu qayğıya görə, bu qonaqpərvərliyə görə Türkiyə Cümhuriyyətinə, onun hörmətli prezidentinə, bütün Türkiyə xalqına təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Türkiyəyə səfər zamanı İzmiri ziyarət etmək mənim üçün çox əzizdir. Mən İzmir şəhərində ilk dəfə 1992-ci ildə olmuşdum və o vaxt Türkiyənin prezidenti mərhum Turqut Özalın və baş nazir hörmətli Süleyman Dəmirəlin dəvəti ilə ölkənizə gələrək, İzmirdə keçirilən III Beynəlxalq İqtisadi Konqresdə iştirak etmişdim. Həmin konqresdə mənə söz deməyə, konqresə müraciət etməyə imkan verilmişdi. Bu, mənim həyatımda, tərcümeyi-halımda çox əlamətdar və əziz bir hadisə olmuşdur. Mən o günləri daim xatırlayıram. İzmir şəhərinin nə qədər gözəl, nə qədər yaraşıqlı və nə qədər də mehriban şəhər olduğunu hiss etdim. Bu, mənim daim xatirimdədir.

Yenidən İzmirə gəlməyimdən çox məmnunam və xüsusən sizinlə görüşmək mənim üçün çox əzizdir, çox qiymətlidir.

Əziz dostlar, siz mənə çox böyük hörmət və ehtiram göstərmisiniz. Siz mənə həm də çox böyük etimad göstərmisiniz – mənə sizin universitetin Fəxri doktoru adını vermisiniz. Mən bu barədə qəbul etdiyiniz qərarlarla və fəxri doktor adını vermək üçün sizin qərarlarınızda əks etdirilən əsaslarla çox diqqətlə və məmnuniyyət hissi ilə tanış oldum. Mənə göstərdiyiniz bu qayğıya görə, mənim fəaliyyətimə və xüsusən Azərbaycan Respublikasının dövlət başçısı kimi göstərdiyim fəaliyyətə bu qədər yüksək qiymət verdiyinizə görə, bu qədər hörmət etdiyinizə görə sizə səmimi qəlbdən təşəkkür edirəm. Çox sağ olun. «9 Eylül» Universiteti yaşca gəncdir, onun 15 yaşı var, ancaq bu 15 ildə o, sürətlə inkişaf edib, genişlənib və Türkiyənin, burada deyildiyi kimi, sıra hesabı ilə 4-cü universiteti yerinə gəlib çatıbdır. Bu, çox maraqlı göstəricidir. Yəni cəmi 15 yaşın olsun və həmin illər içərisində bir çox qocaman, yaşlı universitetləri ötüb keçəsən və dördüncü yerə çatasan – bu, böyük qəhrəmanlıqdır.

Mən yaxşı bilirəm ki, Türkiyədə təhsilin yaxşı təşkil olunmasına, ali təhsilin əldə etdiyi nailiyyətlərə qiymət verilməsinə çox ciddi yanaşılır, çox böyük tələblər qoyulur və belə nailiyyətləri əldə etmək, belə qiymət

almaq da asan deyildir. Görünür, bu, universitetdə qısa müddətdə, 15 ilin içərisində toplaşmış yüksək səviyyəli müəllimlərin, professorların, doktorların, alimlərin ümumi səyi və birgə əməyi, zəhməti nəticəsində olubdur. Əziz dostlar, ona görə də mən sizi əldə etdiyiniz nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm, sizin universitetinizə bütün gələcək işlərinizdə uğurlar arzulayıram və arzu edirəm ki, universitetiniz bu sırada dördüncü yerdən daha da irəliləsin, o birisi universitetləri də ötə bilsin.

Rəqabət həmişə insanların, eləcə də təhsil ocaqlarının, universitetlərin sürətlə inkişaf etməsinə şərait yaradır. Güman edirəm ki, sizin əldə etdiyiniz bu nailiyyətlər sizdən yaşlı, qocaman Türkiyə universitetlərini də müəyyən qədər narahat edəcək, onlar da çalışacaqlar ki, öz işlərini daha yaxşı qursunlar. Beləliklə, siz onlara kömək edəcəksiniz və siz də irəli gedəcəksiniz. Mən istəyirəm ki, qardaş, dost Türkiyənin ali təhsili daha da yüksəlsin, Türkiyə universitetləri daha da inkişaf etsin və dünyanın ən görkəmli universitetləri sırasında olsunlar.

Güman edirəm ki, sizin universitetin nailiyyətlərinin səbəblərindən biri də odur ki, universitetiniz «9 Eylül» adını daşıyır. 9 Eylül Türkiyə Cümhuriyyətinin tarixində çox önəmli bir nöqtədir, önəmli bir mərhələdir. Biz hamımız çox yaxşı bilirik ki, Türkiyədə Osmanlı imperatorluğu dağıldıqdan sonra çox gərgin vəziyyət yaranmışdı və Türkiyənin xarici düşmənləri Türkiyəni dağıtmaq, parçalamaq, yenidən ələ keçirmək məqsədi güdürdülər. Türkiyəyə hərbi təcavüzlər olmuşdur və türk xalqının qəhrəmanlığı, rəşadəti o illərdə Türkiyəni bu böyük təhlükələrdən, böyük bəlalardan xilas etdi. Türkiyənin bu qurtuluş savaşında İzmir 9 Eylül hadisəsi, 9 Eylül qələbəsi ölkənin tarixində çox görkəmli yer tutur. Məlumdur ki, Türkiyədə qurtuluş savaşının, qələbənin yaradıcısı, qurucusu və sərkərdəsi, qurtuluş savaşını qələbə ilə sona çatdıran türk xalqının görkəmli oğlu böyük Mustafa Kamal Atatürk olmuşdur.

Mustafa Kamal Atatürkün rəhbərliyi altında burada – İzmirdə yadelli düşmənləri ölkədən çıxarmaq üçün planlar qurulmuş, hərbi əməliyyatlar keçirilmişdir. Onun rəhbərliyi altında Türkiyənin düşmənləri 9 Eylüldə dənizə atılmış, İzmir azad olunmuş və Mustafa Kamal Atatürk bu hərbi əməliyyata, bu qələbəyə bilavasitə rəhbərlik etmişdir.

Bütün bunlar Türkiyə Cümhuriyyətinin tarixinin gözəl səhifələridir. Siz universitetinizi yaradarkən ona 9 Eylül adı verməyiniz də 9 Eylül gününü nə qədər əziz və qiymətli tutduğunuzu göstərir, eyni zamanda Türkiyə Cümhuriyyətinin yarandığı gündən onun banisi olan böyük Mustafa Kamal Atatürkün ideyalarına, qoyduğu yola sizin nə qədər sadiq olduğunuzu göstərir. Universitetiniz gələcəkdə də bu yolla gedərək yeni

nailiyyətlər əldə edəcəkdir. Sizin universitetiniz artıq mənim də doğma universitetimdir. Çünki mən artıq sizin universitetin Fəxri doktoru kimi, universitetinizin həyatına qatılıram və sizin universitetin həyatı mənim üçün doğma iş olur. Demək, sizin, bizim universitetimiz bundan sonra da yeni nailiyyətlər əldə edəcəkdir. Mən buna əminəm.

Hörmətli dostlar, bu günlərdə biz Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün çox ciddi addımlar atmışıq. Bu gün mən bir daha bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan əlaqələri gündən-günə möhkəmlənir, inkişaf edir, bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Bizim dostluğumuz tarixi köklərimizlə, milli birliyimizlə, bir dilə, bir dinə mənsub olmağımızla, eyni adət-ənənələrə, eyni mənəvi dəyərlərə mənsub olmağımızla əlaqədar gündən-günə möhkəmlənəcək, gündən-günə inkişaf edəcəkdir. Biz Azərbaycanda bu dostluğa xüsusi əhəmiyyət, xüsusi yer veririk və əmin ola bilərsiniz, biz bundan sonra da çalışacağıq ki, bu əlaqələr daha da inkişaf etsin.

Azərbaycan müstəqil dövlət kimi gənc bir dövlətdir. O, dövlət müstəqilliyinin 6-cı ilini yaşayır. Bu gün universitetin qəbul etdiyi qərardan da hiss etdim ki, Azərbaycanda gedən proseslər, işlər sizə məlumdur və siz bilirsiniz ki, bu illər içində daim ardıcıl olaraq Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, Azərbaycanın suverenliyini təmin etmək, Azərbaycanı Ermənistan işğalından azad etmək üçün çalışırıq. Bu illər ərzində işlərimiz çox ağır, gərgin şəraitdə keçir. Bilirsiniz ki, 1988-ci ildən Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz edilibdir və bu təcavüz ardıcıl olaraq bəzi başqa ölkələrin Ermənistana yardımı ilə əlaqədar və bəzi başqa səbəblərlə əlaqədar genişlənibdir və nəhayət, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı didərgin, qaçqın düşübdür, onlar ağır vəziyyətdə yaşayırlar, əksəriyyəti 4-5 ildir ki, çadırlarda qalır.

Üç il bundan öncə biz Ermənistanla Azərbaycan arasında gedən döyüşləri dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Üç ildir ki, atəş yoxdur, biz atəşkəs rejimində yaşayırıq, ancaq eyni zamanda tam sülh də yoxdur. Azərbaycanın ərazi bütövlüyü pozulub, Azərbaycanın dövlət sərhədləri pozulub və bir də qeyd edirəm. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Biz üç ildir davam edən bu atəşkəs rejimi zamanı məsələnin sülh yolu ilə həll olunmasına çalışmışıq və çalışırıq, bundan sonra da çalışacağıq. Keçən ilin sonunda ATƏT-in Zirvə görüşündə qəbul olunmuş sənəd bu məsələnin həll edilməsi üçün daha yaxşı imkanlar yaradır.

ATƏT-in Zirvə görüşündə ATƏT-in 53 üzvünün dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasının prinsiplərini qəbul etdilər. Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması, yəni torpaq bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək muxtariyyət statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin – həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat verilməsi prinsiplərini biz qəbul etmişik, ancaq Ermənistan qəbul etmir. İndi məqsəd və xüsusən ATƏT-in Minsk qrupu üzvlərinin və ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa nümayəndələrinin vəzifəsi bu prinsiplər əsasında danışıqları sürətləndirmək və sülh əldə etməkdir.

Türkiyə ATƏT-in üzvü kimi və ATƏT-in yaratdığı Minsk qrupunun üzvü kimi Azərbaycana hərbi təcavüz başlandığı vaxtdan indiyə qədər Azərbaycanla sıx əlaqədədir, Azərbaycanın yanındadır, bizimlə sıx əməkdaşlıq edir və Lissabonda həmin tarixi sənədin qəbul olunmasında Türkiyə Cümhuriyyətinin və onun prezidenti cənab Süleyman Dəmirəlin də çox böyük rolu olmuşdur. Ümidvarıq ki, bundan sonra da Türkiyə Azərbaycanın bu probleminin həll olunması üçün, həm Azərbaycana, həm də Türkiyəyə böyük dərd olan bu erməni işğalına, bu erməni təcavüzünə son qoymaq üçün öz səylərini əsirgəməyəcəkdir. Ümid edirəm ki, biz hamımız birlikdə, ümumi səylərimizlə bu məsələni, nəhayət, sülh yolu ilə həll edəcəyik.

Ancaq eyni zamanda bilməlisiniz ki, Ermənistan tək Azərbaycan üçün yox, ümumiyyətlə, Qafqaz üçün, habelə Türkiyə üçün də böyük təhlükə törədir. Sizə məlumdur ki, son zamanlar Rusiyanın Ermənistana bir milyard dollar dəyərində ağır silahlar verməsi aşkar olunubdur. Bir tərəfdən, biz üç ildir atəşkəs rejimində yaşayırıq, digər tərəfdən isə bu üç ildə Rusiya Ermənistana bir milyard dollar dəyərində silahlar veribdir. Şübhəsiz ki, kiçik bir dövlətə, Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş bir dövlətə, Türkiyənin qulağı dibində olan bir dövlətə bu qədər güclü silahların verilməsi hamını narahat etməlidir, o cümlədən Türkiyəni, onun ictimai fikrini, rəyini də narahat etməlidir. Bu gün mən sizin hamınızın diqqətini bu məsələyə xüsusi cəlb edirəm və bilin ki, bu, tək Azərbaycana qarşı yönəldilməyibdir, həm də bu bölgədəki bütün başqa ölkələrə qarşı yönəldilmiş bir hərəkətdir.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan öz müstəqilliyini ildən-ilə möhkəmləndirməyə çalışır. Lakin bununla əlaqədar öz daxilimizdə də çox çətinliklər olmuşdur. Sizə məlumdur ki, Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra onun daxili vəziyyəti sabit olmamış, aminamanlıq olmamışdır. Bizim ən böyük nailiyyətimiz bir də ondan ibarətdir ki,

son iki-üç il içərisində Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirdik, əmin-amanlıq yaratdıq. İndi Azərbaycanda əmin-amanlıq mövcuddur.

Biz Azərbaycanda hüquqi demokratik dövlət qururuq, dünyəvi dövlət qururuq. Bu, bizim strateji yolumuzdur. Biz bu strateji yolla gedirik. Bilirsiniz ki, Azərbaycan uzun illər öz müstəqilliyindən məhrum idi.

İndi biz müstəqil olmuşuq, öz taleyimizin sahibiyik və müstəqil demokratik dövlət qururuq. Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüququn aliliyinin təmin olunması bizim əsas vəzifəmizdir və bunu da yerinə yetirməyə çalışırıq.

Biz bu xətti, siyasəti aparmaqda böyük müqavimətlərə, çətinliklərə də rast gəldik. Ancaq biz onların qarşısını aldıq, öhdəsindən gəldik. Əziz dostlar, qardaşlar sizə deyə bilərəm ki, indi Azərbaycanda ictimai-siyasi vəziyyət tam sabitdir, Azərbaycan xalqı öz həyatını özü qurur. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, yenilməzdir, sarsılmazdır. Biz Azərbaycanın dövlət müstəqilliyini bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq, yüksəldəcəyik. Əmin olun ki, Azərbaycan Dünya Birliyində özünəməxsus, özünə layiq yerini tutacaqdır.

Sizə dediyim problemlərlə əlaqədar Azərbaycan son illər böyük iqtisadi böhran içərisindədir. Şübhəsiz ki, bu böhran insanların rifah halını çox pisləşdirib, sosial vəziyyət çox ağırlaşıbdır. Ancaq eyni zamanda biz iqtisadiyyatda çox ciddi dəyişikliklər edir, iqtisadi islahatlar həyata keçirir, iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə aparır, sahibkarlığı inkişaf etdiririk.

«Torpaq islahatı haqqında» qanun qəbul etmişik və bunun əsasında bütün torpaqları şəxsi mülkiyyətə veririk. Beləliklə, Azərbaycanın iqtisadiyyatı inkişaf etmiş dövlətlərin, ölkələrin, o cümlədən Türkiyə Cümhuriyyətinin iqtisadiyyatının tutduğu, getdiyi yolla gedir. Bu sahədə bəzi nailiyyətlər də əldə etmişik. Ümidvaram ki, bu yolla gedərək Azərbaycanın iqtisadiyyatını da yüksəldəcəyik və Azərbaycanın böyük təbii sərvətləri, xüsusən neft-qaz yataqları, başqa təbii sərvətləri, iqtisadi potensialı, elmi-intellektual potensialı xalqımızın rifahı naminə daha səmərəli istifadə olunacaqdır.

Bütün bu məsələlərin həllində biz Türkiyə Cümhuriyyəti ilə iqtisadi əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk və bundan sonra da Türkiyə-Azərbaycan iqtisadi əlaqələri bizim bütün xarici iqtisadi əlaqələrimizin mərkəzində duracaqdır.

Azərbaycanda bu dəyişiklikləri həyata keçirmək, yeni həyat qurmaq, yeni bir dövlət qurmaq üçün bizə yeni fikirli, yüksək səviyyəli

mütəxəssislər lazımdır. Ona görə də Azərbaycanın elmi, ali təhsili nə qədər inkişaf etmiş olsa da, gələcəyimiz üçün biz Türkiyədə də kadrların hazırlanmasını lazım bilmişik.

Sizə bildirmək istəyirəm ki, XX əsrdə Azərbaycanda elm, maarif, mədəniyyət, təhsil çox sürətlə inkişaf edibdir. Bizim müstəqilliyimiz, bağımsızlığımız olmayıbsa da, ancaq eyni zamanda xalqımız üçün bu vacib sahələrdə böyük nailiyyətlərimiz olubdur. Bizim nailiyyətimiz o olubdur ki, başqa bir rejim, başqa bir ölkənin tərkibində yaşayaraq dilimizi, islam dinini, mənəvi dəyərlərimizi, adət-ənənələrimizi saxlamışıq, mədəniyyətimizi inkişaf etdirmişik. Azərbaycanda bütün əhali savadlıdır. savadsız adam yoxdur. Azərbaycanda orta, yəni 10 illik təhsil həmişə məcburi olub və bu gün də məcburidir. Azərbaycanın bir çox universitetləri var. Bakı universitetinin 77 illik tarixi var. Digər universitetlərin 60-70 illik tarixi var. Azərbaycanın böyük Elmlər Akademiyası var, onun prezidenti burada bizim nümayəndə heyətinin tərkibindədir. Bizim şairlərimizin, mədəniyyət xadimlərimizin bəziləri mənimlə bir yerdə buradadırlar. Yəni, XX əsrdə Azərbaycanın mədəniyyətinin, elminin, təhsilinin inkişafında çox böyük nailiyyətlər əldə olunubdur.

Ancaq biz bu gün hesab edirik ki, bundan daha yüksəklərə qalxmalıyıq. Ona görə biz təhsildə də, ali məktəbdə də islahatlar aparırıq. Bu baxımdan Türkiyənin universitetləri ilə əməkdaşlığa xüsusi fikir veririk. Güman edirəm, mən sizin fəxri doktorunuz olandan sonra sizin universitetlə də əlaqələri daha yaxşı qurmalıyıq. Türkiyənin universitetlərində bizim gənclərin təhsil, ixtisas almasına xüsusi fikir veririk.

Bu baxımdan mən Türkiyənin universitetlərində Azərbaycan gənclərinə, Azərbaycanlı tələbələrə təhsil verən müəllimlərə, professorlara və universitetlərin rəhbərlərinə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bizim bu əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

İzmirdə, sizin universitetdə də Azərbaycan gəncləri təhsil alırlar, bu salonda da onlardan var. Üzümü onlara tutaraq demək istəyirəm ki, əziz övladlarımız, balalarımız, siz müstəqil Azərbaycanın gələcəyi üçün çox lazımsınız, gərəklisiniz. Müstəqil, bağımsız Azərbaycanı yaşatmaq, inkişaf etdirmək, daha qüdrətli etmək üçün siz gərək yüksək təhsilə malik olasınız, müasir tələblərə uyğun ixtisaslar əldə edəsiniz. Bunların, hamısını Türkiyədə, Türkiyənin universitetlərində, o cümlədən «9 Eylül» Universitetində almağa imkan var. Sizə tövsiyəm, sizdən xahişim ondan ibarətdir ki, burada olduğunuz günləri, ayları, illəri səmərəli keçirəsiniz, yaxşı təhsil alasınız, Türkiyədən ən gözəl ənənələri mənimsəyəsiniz, Azərbaycana gətirəsiniz, Türkiyə-Azərbaycan dostluğunu möhkəm-

ləndirəsiniz və özünüzü müstəqil Azərbaycanın gələcəyi üçün hazırlayasınız.

Hörmətli dostlar, mən sizə bir daha öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, mən «9 Eylül» Universitetinin Fəxri doktoru adını daim böyük iftixarla daşıyacağam və bütün gələcək işlərimdə sizin etimadınızı doğrultmağa çalışacağam. Sizin universitetə, bütün İzmir şəhərinə, İzmirin sakinlərinə, vətəndaşlarına səadət, xoşbəxtlik arzu edirəm. Şübhə etmirəm ki, Türkiyə Cümhuriyyəti, o cümlədən Türkiyənin universitetləri, elm adamları böyük öndər Mustafa Kamal Atatürkün qoyduğu yolla gedərək Türkiyəni gündən-günə gücləndirəcək, onu daha qüdrətli dövlət edəcək, daha firavan, xoşbəxt ölkə edəcəklər və Türkiyə vətəndaşlarının rifah halını yaxşılaşdıracaqlar. Bu yolda, Türkiyə-Azərbaycan dostluğunun möhkəmlənməsi yolunda hamınıza uğurlar arzulayıram.

Yaşasın «9 Eylül» Universiteti!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın əbədi sarsılmaz Türkiyə-Azərbaycan dostluğu!

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİNƏ «FATİH» UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ *

İstanbul
8 may 1997-ci il

Hörmətli dövlət naziri! Hörmətli vali!

Hörmətli rektor!

Hörmətli professorlar, müəllimlər!

Əziz tələbələr, bacılar və qardaşlar! Sizə Azərbaycan xalqından hərarətli salam yetirirəm. Sizə, «Fatih» Universitetinə və böyük türk xalqına səadət və xoşbəxtlik arzulayıram.

Biz bu salona daxil olarkən burada Azərbaycanın çox sevimli mahnılarından biri olan «Sizə salam gətirmişəm» mahnısı səslənirdi. Bu gün burada hər bir insan bir-birini salamlayır və mahnı ilə də sizə Azərbaycan salamı gəlibdir. Mən bu sözlərimlə do sizə salamımı, hörmət-ehtiramımı və sevgi-məhəbbətimi bildirirəm.

Əziz dostlar, mən Türkiyənin prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə dörd gündür ki. Rəsmi səfərdəyəm. Mənimlə bərabər buraya gəlmiş Azərbaycan nümayəndə heyətinin tərkibində ölkəmizin görkəmli şəxsləri, nazirlər, dövlət adamları, millət vəkilləri, elm, mədəniyyət xadimləri, yazıçılar, şairlər, musiqiçilər vardır. Dörd gündür bizim hamımız Türkiyənin qucağındayıq. Biz Türkiyə xalqı. Cümhuriyyəti, qardaş-bacılarımız tərəfindən həddindən ziyadə dostluq münasibəti və qardaşlıq hissiyyatları görürük və hiss edirik. Türkiyə Cümhuriyyətinə, onun prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə xalqına və sizə bütün bunlara görə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

Biz bütün bu günlər Türkiyədə Azərbaycan xalqına, respublikasına, müstəqil Azərbaycana və şəxsən bizə çox böyük hörmət və ehtiram görürük. Bunlar cürbəcür formada ifadə olunur. Ancaq hamısı birlikdə Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının indi nə qədər yüksək zirvələrdə olduğunu bütün dünyaya nümayiş etdirir. Bu, bizim üçün böyük iftixar hissidir.

Azərbaycana göstərilən bu hörmət və ehtiramın, qardaşlıq təzahürü olaraq Türkiyə dövləti məni – Azərbaycanın prezidentini Türkiyənin yük-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. B., Azərnəşr, 2000, s.381-394

sək mükafatı olan «Dövlət nişanı» ilə mükafatlandırdı. Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl bu mükafatı təntənəli şəkildə mənə təqdim etdi. Mən bu hadisəni çox yüksək qiymətləndirirəm. Bu, mənim faaliyyətimə, indiyədək keçdiyim yola və mənim Azərbaycan xalqı qarşısında göstərdiyim xidmətlərə, o cümlədən Türkiyə-Azərbaycan dostluğunun inkişaf etdirilməsində göstərdiyim xidmətlərə verilən yüksək qiymətdir. Bu, eyni zamanda Azərbaycan xalqına, onun azadlıq, dövlət müstəqilliyi yolunda apardığı mübarizəyə və əldə etdiyi nailiyyətlərə verilən yüksək qiymətdir. Bu, eyni zamanda Azərbaycan xalqına, onun azadlıq, dövlət müstəqilliyi yolunda apardığı mübarizəyə və əldə etdiyi nailiyyətlərə verilən yüksək qiymətdir.

Mən bu mükafata görə təşəkkür edirəm. Bir daha sizi, Türkiyə Cümhuriyyətini əmin edirəm ki, Azərbaycan xalqına, mənə göstərilən bu yüksək etimadı Türkiyə-Azərbaycan dostluğunu möhkəmləndirmək, respublikamızın dövlət müstəqilliyini daha da yüksəklərə qaldırmaq yolunda doğruldacağam.

Dünən biz İzmir şəhərində olduq. İzmirdə «9 Eylül» Universitetində görüşlər keçdi. «9 Eylül» Universiteti mənə bu universitetin fəxri doktoru adını verdi. Bu, mənim üçün böyük hadisədir. Mən çox minnətdaram.

Bu gün biz «Fatih» Universitetindəyik. Siz mənə, Azərbaycanın dövlət başçısına universitetin Fəxri doktoru adı verilməsi münasibətilə toplaşmısınız. Mən universitetə, universitetin rektorluğuna, idarə heyətinə və universitetin bütün kollektivinə mənə göstərilən bu hörmət və ehtirama, şərəfə görə, mənə verilən yüksək ada görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, «Fatih» Universitetinin həm Fəxri doktoru kimi, həm də onun yaxın dostu kimi mən bu universitetin gələcək işlərinin uğurlu olmasına daim öz köməyimi göstərəcəyəm.

«Fatih» Universiteti yaşca gənc universitetdir. Ancaq sevindirici hal odur ki, təşkil olunduğu qısa müddətdən sonra universitet sürətlə inkişaf edibdir. İndi universitetin böyük tərkibdə professor-müəllim kollektivi, gözəl tələbələri, belə dəyərli insanları vardır.

Universitet Türkiyənin böyük şəxsiyyəti Fatihin adını daşıyır. Universitetin qurulması məramı çox xoş məramdır. Universitet və onunla bağlı olan vəqf türk dünyasında türk xalqının, türkün tarixini, milli ənənələrini, keçdiyi yolu təbliğ etməkdə və türk dilini, təhsilini, tədrisini qurmaqda, yaratmaqda, Türk Cümhuriyyətlərində yeni-yeni tədris ocaqları – universitetlər, kolleclər, liseylər açmaqda çox böyük xidmətlər göstərir. Bu, tək bir universitet deyil, onun çox böyük qol-qanadı vardır. Yəni bu vəqfin çox böyük qol-qanadı var. Onun böyük qanadlarından biri bu universitetdir. Mən fürsətdən istifadə edib bu vəqfin Türkiyənin və

Türk Cümhuriyyətlərinin həyatında son illər gördüyü işlərə yüksək qiymət verirəm. Görülən bu işlər münasibətilə sizi təbrik edirəm. Bu vəqfin yaranmasında, yaşamasında çox böyük xidmətlər göstərmiş Xoca Fətullah Günelin xidmətlərini qeyd edirəm.

Biz Azərbaycanda çox sevinirik, iftixar hissi keçiririk ki, Türkiyənin təhsil ocaqları gündən-günə genişlənir, güclənir və sayca artır. Türkiyənin yüksək təhsil ocaqları, universitetləri Türkiyə Cümhuriyyəti, türk dünyasının gələcəyi üçün yüksək ixtisaslı mütəxəssislər hazırlayırlar. Bizi sevindirən bir də odur ki, Türkiyənin siyasəti, mədəniyyəti də, mənəviyyatı, təhsili də, elmi də Türkiyə Cümhuriyyətinin banisi, qurucusu böyük Mustafa Kamal Atatürkün qoyduğu yolla, onun vəsiyyətlərini yerinə yetirmək yolu ilə gedir.

Mustafa Kamal Atatürk bütün türk dünyasının tarixi şəxsiyyətidir. Türkiyə Cümhuriyyətinin yüksək zirvəyə çatmasında, türk xalqının 70 ildən artıq bir zamanda əldə etdiyi nailiyyətlərin qazanılmasında onun göstərdiyi xidmətlər əvəzsizdir. Türkiyə Cümhuriyyətinin yaranması ilə türk dünyasında gedən proseslərə göstərilən təsirdə, Türk Cümhuriyyətlərinin, türkdilli xalqların bir-birinə daha sıx qovuşmasının təmin olunmasında, türk köklü millətlərin milli azadlıq və müstəqillik uğrunda mübarizəsi sahəsində aparılan işlərdə də onun xidmətləri və onun ideyalarının təsiri böyükdür. Ona görə də Mustafa Kamal Atatürk bütün türk dünyasının əvəzsiz, ölməz lideridir.

Əziz dostlar!

Bu günlər bizim buradakı bütün görüşlərimiz, danışıqlarımız və imzaladığımız müqavilələr, digər sənədlərin hamısı Türkiyə-Azərbaycan əlaqələrini genişləndirmək, ölkələrimizin dostluğunu, qardaşlığını möhkəmləndirmək və daha da yüksəklərə qaldırmaq məqsədi daşıyır.

Biz bir neçə saatdan sonra Türkiyəni tərk edəcəyik. Mənim səfərim başa çatır. Bu anlarda mən böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bizim bu səfərimiz uğurlu olubdur. Qarşımıza qoyduğumuz məqsəd yolunda biz ciddi addımlar atmışıq. Bizim bu günlərdəki danışıqlarımız, əldə etdiyimiz razılıqlar və müqavilələr Türkiyə-Azərbaycan əlaqələrinin gələcək inkişafında yeni bir mərhələ açıbdır. Bu baxımdan xüsusən, Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Türkiyə və Azərbaycan prezidentlərinin imzaladığı sənədin xüsusi əhəmiyyət daşıdığını mən bir daha vurğulamaq istəyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu müqavilənin əsasında bizim strateji əməkdaşlığımız, iş birliyimiz bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Türkiyə və Azərbaycan bundan sonra daim bir yerdə olacaq, bizim qardaşlıq əlaqələrimiz sarsılmaz olacaqdır.

Bu gün biz bir çox məsələləri müzakirə etdik. Mən məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bütün məsələlərin hamısında biz Türkiyənin dövlət və hökumət başçıları ilə yekdil olduğumuzu müşahidə etdik. Biz eyni fikirdəyik, mövqedəyik. Həm dünya siyasətinə, həm də bölgədə olan vəziyyətə və bütün başqa məsələlərə eyni düşüncələrlə, eyni fikirlərlə baxırıq. Bu, çox əhəmiyyətlidir. Bu, bizim üçün xüsusi əhəmiyyətlidir, eyni zamanda Türkiyə üçün də əhəmiyyətlidir. Çünki Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət yoxdur. Hesab edirəm ki, Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur.

Bizim danışıqlarımız həm iqtisadi sahədə, həm də dünya siyasəti sahəsində əməkdaşlığı artırmaqdan, genişləndirməkdən ibarət olubdur, eyni zamanda bölgəmizdə, Qafqazda yaranmış gərgin vəziyyəti, Ermənistanın Azərbaycana etdiyi təcavüzü aradan qaldırmaq problemləri ilə əlaqədar olubdur. Biz bu məsələləri ətraflı müzakirə etmişik, ümumi fikrə gəlmişik və mən əldə etdiyimiz razılıqlardan və danışıqlardan çox razı olduğumu bildirmək istəyirəm.

Bizim iqtisadi əlaqələrimiz inkişaf edir, ancaq hesab edirəm ki, bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. İqtisadi əlaqələrimizin ən mühüm cəhəti ölkəmizin Xəzər dənizində və Azərbaycan ərazisində olan neft və qaz yataqlarından müştərək istifadə olunmasında Türkiyənin iştirakı ilə bağlıdır. Siz bilirsiniz ki, 1994-cü ilin sentyabr ayında ölkəmiz dünyanın böyük neft şirkətləri ilə Azərbaycan neft yataqlarının müştərək istifadə edilməsi üçün «Əsrin müqaviləsi» adlanan böyük bir müqavilə imzalayıbdır. Bu müqavilə imzalanarkən burada Türkiyənin kiçik bir hissə payı vardı. Sonra Azərbaycan öz hissəsindən Türkiyənin payını artırdı. Ondan sonra imzalanan müqavilədə Türkiyənin payı daha da çoxdur. Beləliklə, Türkiyə Azərbaycanın ən böyük sərvəti olan neft yataqlarından istifadə olunmasında bizimlə bərabər, müştərək istifadə edir.

Gələcəkdə Azərbaycanda böyük həcmdə neft hasil olunacağı gözlənilir. İndi bu neftin dünya bazarına çıxarılması üçün yollar araşdırılır. Bu neftin haradan, hansı yolla keçəcəyi, necə olacağı məsələsi indi dünyanın bütün ölkələrində – həm Qərbdə, həm Şərqdə, həm Avropada, həm Amerikada, həm Rusiyada, həm də başqa ölkələrdə müzakirə olunur. Çünki bu neft borusu hansı ölkənin ərazisindən keçsə, həmin ölkə böyük qazanc əldə edəcəkdir.

Bilirsiniz ki, ilkin neftin ixracı üçün biz iki neft borusunun tikilməsi haqqında qərar qəbul etmişik. Bunlardan biri şimal istiqamətində – Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına, ikincisi qərb istiqamətində Gürcüstan ərazisindən Qara dənizin Türkiyəyə çox yaxın

olan Supsa limanına gedəcəkdir. Ən böyük neft kəməri haqqında çox söhbətlər gedir, bu günlərdə mənə burada da çox suallar verilib. Mən demişəm və sizə də bildirmək istəyirəm ki, bu neft borusunun Türkiyə içərisindən Ceyhana keçirilməsi bizim istəyimiz, arzumuzdur. Biz bu yolda çalışırıq və çalışacağıq.

Burada müzakirə olunan məsələlərdən biri, bizim üçün ən əsası və əhəmiyyətlisi, ən vacibi Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulmasıdır. Bilirsiniz ki, 1988-ci ildə Ermənistan Azərbaycanın ayrılmaz bir hissəsi olan Dağlıq Qarabağı ələ keçirmək üçün ölkəmizə qarşı hərbi təcavüzə başlayıbdır. Bu, həm Ermənistanın, həm də Azərbaycanın hələ Sovetlər Birliyinin tərkibində olduğu bir zamanda başlayıbdır. Ancaq təəssüf ki, o zamanlar Sovetlər Birliyinin başçıları Azərbaycana qarşı ədalətsiz münasibət göstəriblər və bu münaqişənin baş verməsinin qarşısı alınmayıbdır.

Mən sizə bildirmək istəyirəm ki, bu Dağlıq Qarabağ məsələsi yeni bir məsələ deyil. Ümumiyyətlə, ermənilər «böyük Ermənistan» xülyası ilə yaşayırlar. Onlar hesab edirlər ki, Türkiyənin çox hissəsi də, Azərbaycanın bir hissəsi də, Gürcüstanın çox hissəsi də, İranın da bir hissəsi Ermənistanın torpağıdır. Onlar bu fikirlərlə yaşayırlar və təəssüflər olsun ki, bəziləri bu fikirlərlə indi də yaşayırlar. Ancaq o vaxt, 1988-ci ildə onlar bu istəklərini, yəni bu planlarını həyata keçirmək üçün ən zəif nöqtə Azərbaycanı gördülər və o vaxt Sovetlər İttifaqı başçılarının gizli dəstəyi nəticəsində belə bir təcavüz başladı.

Bu gün mən sizinlə çox səmimi söhbət edirəm. Bəlkə də bu, bir az çox vaxt alır. Ancaq bu tarixi hamı bilməlidir. Burada mənim tərcümeyihalım haqqında deyildi. 1987-ci ilin oktyabr ayında mən Moskvada tutduğum ən yüksək vəzifələrdən istefa verdim. Mən istefa verəndən düz 20 gün sonra erməni millətçiləri Fransa mətbuatında yazdılar ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir. Həmin bu məsələni yayan, erməni millətindən olan professor Aqanbekyan – o, həmişə Moskvada yaşayıb, orada da çalışır və Sovetlər Birliyinin başçılarına çox yaxın olan bir adam olubdur, – Fransada bəyanat verdi ki, bu məsələ Sovetlər Birliyinin başçısı Qorbaçovla da razılaşdırılıbdır. Bundan sonra erməni millətçiləri Azərbaycana təzyiq göstərməyə, təcavüz etməyə başladılar.

Yəni mənim Moskvada, Sovetlər Birliyinin başında duran bir orqanın ən yüksək nöqtələrindən birində olmağım ermənilərin qarşısını alırdı. Mən ondan əvvəlki illərdə də – Azərbaycana 14 il başçılıq etdiyim zaman və Moskvada olduğum 5 il ərzində ermənilərin Dağlıq Qarabağa olan bu iddialarının qarşısını almışdım. Demək, bu məsələyə başlamaq üçün Heydər Əliyevi aradan çıxarmaq, onu uzaqlaşdırmaq lazım idi. Bu

da oldu. Mən istefa verdim, bundan 20 gün sonra bu proses başlandı. Sonra bu, hərbi təcavüzə çevrildi. Hərbi təcavüz 1988-1989-cu illərdə davam etdi. O vaxt – Azərbaycan da, Ermənistan da Sovetlər Birliyinin tərkibində olan zaman bu münaqişənin qarşısını almaq mümkün idi. Çünki biz keçmiş zamanlarda bunların qarşısını almışdıq. Almaq mümkün idi, ancaq bunu etmədilər. Çünki Ermənistanı dəstəklədilər və Azərbaycanın bir hissəsini Ermənistana verməyə razılıq verdilər.

Bu səbəbdən və Azərbaycanın daxilində olan səbəblərdən, günahlardan da Ermənistan son illərdə təcavüzünü artırdı.

Nəticədə o dövrdə Azərbaycanın ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş bu torpaqlardan bir milyondan artıq vətəndaş yerindən-yurdundan zorla çıxarılıb, qaçqın vəziyyətində yaşayır. 7 milyon əhalidən bir milyonu qaçqın vəziyyətindədir. Onların tam əksəriyyəti çadırlarda yaşayır. Siz də, biz də bilirik ki, çadırda yaşamaq nə qədər olar – bir ay, iki ay, üç ay olar, bunun yayı da, qışı da, yazı da var, istisi, soyuğu da vardır. Dörd ildir bizim bu qədər insanlarımız ailəsi, uşaqları ilə birlikdə çadırlarda yaşayırlar. Təsəvvür edin, insanlar çadırlarda ailə qurur, çadırda uşaq doğulur, çadırda insanlar xəstəlikdən vəfat edirlər. Bu, Azərbaycan üçün nə qədər böyük faciədir. Bu, heç vaxt unudulmamalıdır.

Əgər biz üç ildir atəşi dayandırmışıqsa, kəskin müharibə getmirsə də, ancaq Azərbaycanın həyatında bu ağır, çətin problem, faciə var, durubdur. Bunu heç kəs unutmamalıdır. Biz də unutmuruq. Şübhəsiz ki, biz bu məsələ ilə məşğul oluruq. Bu məsələni Türkiyədə də heç kəs unutmamalıdır.

Beləliklə, Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Biz döyüşlər apardıq, vuruşlar getdi, insanlar həlak oldu, şəhidlər verdik. Ancaq üç il bundan əvvəl biz ümumi bir fikrə gəldik ki, atəşi dayandırmaq lazımdır. 1994-cü il mayın 12-də – üç il bundan əvvəl biz atəşin dayandırılması üçün atəşkəs haqqında saziş imzaladıq. Üç ildir ki, atəş yoxdur, ancaq eyni zamanda sülh də yoxdur. Atəş yoxdur, amma ermənilər üstünlük əldə ediblər. Azərbaycan torpaqları işğal olunubdur. Dağlıq Qarabağ ermənilərin əlinə keçib. Dağlıq Qarabağdan olan azərbaycanlılar çoxdan qovulublar. İşğal olunmuş torpaqlardan azərbaycanlıların hamısı zorla çıxarılıbdır. İşğal olunmuş torpaqlar viran edilibdir, dağıdılıbdır. Bizim oradakı məscidlərimiz, müqəddəs dini, tarixi, mədəni abidələrimiz, Azərbaycanın əmlakı dağıdılıbdır. Belə vəhşilik, barbarlıq tarixdə görünməmiş bir şeydir. Amma təəssüf ki, biz belə bir vəziyyətə dözürük.

Hesab edirik ki, keçmiş illərə nisbətən indi üç il atəşkəs dövrü daha münasibdir. Ona görə də biz bu atəşkəs dövrünü qoruyub saxlayırıq. Ona görə qoruyub saxlayırıq ki, münaqişəni sülh yolu ilə həll edək. Çünki Er-

mənistanı dəstəkləyən ölkələr çoxdur. Ermənistanın ərazisində başqa ölkələrin ordusu, hərbi hissələri vardır. Məsələni sülh yolu ilə həll etmək lazımdır. Biz bu sahədə çox çalışırıq.

Görülən bütün bu işlərin müsbət nəticəsi ondan ibarətdir ki, keçən ilin dekabrında ATƏT-in Lissabon Zirvə görüşündə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları Ermənistan Azərbaycan münaqişəsini müzakirə etdilər. Qərar qəbul edildi ki, məsələnin sülh yolu ilə həlli üçün prinsiplər qəbul olunsun. Həmin prinsiplər qəbul olundu və üç bənddən ibarətdir. Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək dərəcəli muxtariyyət hüququnun verilməsi və Dağlıq Qarabağın bütün əhalisinə həm erməni, həm də azərbaycanlı əhalisinə gələcəkdə təhlükəsizlik üçün təminat verilməsi.

Bu, bizim tərəfimizdən kompromis bir qərardır. Ancaq biz bu qərarı qəbul etdik ki, məsələni sülh yolu ilə həll edək. Ermənistan tərəfi bunu qəbul etmədi. ATƏT-in üzvü olan 54 dövlətdən 53 dövlətin başçısı, – bir Ermənistandan savayı, – bunu qəbul etdi, təsdiq etdi.

İndi biz bu prinsiplər əsasında sülh danışıqları aparırıq. ATƏT-in Minsk qrupu bu işlə məşğul olur. Bu ilin əvvəlindən ATƏT-in Minsk qrupunda üç dövlət həmsədr təyin olunubdur – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Onların köməyi və vasitəçiliyi ilə biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik.

Bu gün fürsətdən istifadə edib bir daha bildirmək istəyirəm ki, Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz başlanandan indiyədək, bütün mərhələlərdə, bütün dövrdə Türkiyə həmişə Azərbaycanla bərabər olub, Azərbaycanı dəstəkləyibdir, beynəlxalq təşkilatlarda məsələlərin müzakirəsi zamanı Azərbaycana çox yardımlar edibdir. Nəhayət, keçən il Lissabon Zirvə görüşündə dediyim həmin prinsiplərin qəbul olunmasında Türkiyə Cümhuriyyətinin və onun prezidenti hörmətli Süleyman Dəmirəlin xüsusi xidmətləri olmuşdur. Biz Lissabonda onunla görüşüb danışmışdıq, bu məsələləri müzakirə etmişdik. Bunların nəticəsində Lissabon bəyanatı əldə olunmuşdur və birgə hərəkət etmişdik. Ona görə də Türkiyənin bu məsələlərlə əlaqədar Azərbaycana verdiyi dəstəyi və mənəvi yardımı, beynəlxalq təşkilatlarda, başqa təşkilatlarda göstərdiyi yardımı biz yüksək qiymətləndiririk. Buna görə mən bir daha təşəkkürümü bildirirəm.

Ancaq məsələnin həlli indi yeni səylər tələb edir. Biz Ankarada bu məsələləri müzakirə etdik. Türkiyə bu məsələlərdə bundan sonra daha fəal olacağını bildirdi. Biz əminik ki, bu, belə də olacaqdır, ancaq eyni zamanda, Ermənistanı yerində oturtmaq, təcavüzkar hərəkətlərindən əl çəkməyi Ermənistana anlatmaq lazımdır. Ermənistan bilməlidir ki, o, ədalətsizdir, təcavüzkardır, beynəlxalq hüquq normalarını pozubdur.

Mən bu baxımdan Ermənistan-Türkiyə münasibətləri barədə bir neçə kəlmə demək istəyirəm. Son vaxtlar Türkiyənin mətbuat orqanlarında bəzi yazılar gedir ki, Ermənistanla Türkiyə arasında sərhəd xətlərini bəzi yerlərdə açmaq, ticarət etmək, iqtisadi əlaqələr qurmaq lazımdır. Təəssüflər olsun ki, son vaxtlar Ermənistandan daha çox adamlar Türkiyəyə, o cümlədən İstanbula gəlirlər. Guya burada iş adamları ilə görüşürlər, danışıqlar aparırlar.

Mətbuatda artıq bəzi fikirlər dolaşır ki, Ermənistanla bu qədər sərt münasibətdə, yəni ticarət nöqteyi-nəzərindən, nəsə itiririk. Bunlar bizi narahat edir. Mən bu barədə bizim mövqeyimizi, fikrimizi Türkiyənin dövlət və hökumət başçılarına bildirdim. Bildirdim ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır, bir milyondan çox azərbaycanlını, türkü öz yerindən-yurdundan çıxarıbdır, bu qaçqınlar ağır vəziyyətdə yaşayırlar. Ermənistan Azərbaycana təcavüz edibdir. Ermənistana heç bir güzəşt ola bilməz, onunla heç bir ticarət aparmaq olmaz, heç bir qapı açıla bilməz.

Hesab edirəm ki, əgər Türkiyədə kimsə qazanc, para, iqtisadi əlaqələr naminə belə yolla getsə, türk xalqı, Türkiyənin ictimaiyyəti buna qətiyyən yol verməz. Hörmətli professorlar və hörmətli dövlət naziri bu gün burada türk dünyası haqqında çox gözəl sözlər dedilər. Bəli, türk dünyası yeni mərhələ yaşayır. Biz çox məmnunuq ki, bütün cümhuriyyətlər öz müstəqilliyini əldə ediblər. Türkiyə Cümhuriyyətinin keçdiyi yol, yaratdığı hüquqi, dünyəviliyə layiq dövlət yeni müstəqillik əldə etmiş türkdilli, türk köklü dövlətlər üçün örnəkdir, nümunədir.

Belə olan halda biz həmişə baxmalıyıq – bizim böyük dünyamızda, böyük bədənimizdə hansı nöqtə ağrıyır, yaralıdır, xəstədir, oraya daha da diqqət yetirmək lazımdır. Bax, yaranmış bu böyük dünyanın içində türk dünyasının ən yaralı yeri Azərbaycandır. Çünki Azərbaycanın torpaqları işğal olunubdur.

Çünki bizim türk dünyasının bir milyon azərbaycanlısı yerindən-yurdundan didərgin düşübdür, çadırlarda qaçqın vəziyyətində yaşayır. Ona görə də Türkiyədə yaşayan hər bir dostumuz, qardaşımız, bacımız düşünməlidir ki, o çadırda olan adam necə yaşayır, nə cür yaşayır.

Mən hesab edirəm ki, bu məsələlərdə Türkiyənin dövlət siyasəti çox ciddi olmalıdır. Türkiyənin bütün ictimai rəyi, fikri də sağlam olmalıdır. Əgər kimsə bu məsələlərdə o tərəfə, bu tərəfə əyirsə, güman edirəm ki, qəhrəman, çox qüdrətli, namuslu, qeyrətli türk xalqı onları öz yerində oturdar.

Bu məsələlər haqqında mən çox açıq və kəskin danışıram, bir də ona görə ki, biz üç ildir Ermənistanla atəşkəs rejimi şəraitində yaşayırıq. Biz istəyirik ki, bu məsələni sülh yolu ilə həll edək. Ancaq bir-iki ay bundan

əvvəl aşkar edilib ki, həmin bu üç il müddətində Rusiya Ermənistana gizli olaraq, qeyri-qanuni yolla çoxsaylı silahlar, özü də çox ağır, həddindən artıq təhlükəli silahlar veribdir.

Rusiya Ermənistana gizli yolla 1 milyard dollar dəyərində silah veribdir. Onların içərisində müasir silahlar, onlarca, yüzlərcə müasir tanklar, raketlər, toplar vardır. Bu həmin raketlərdəndir ki, vaxtilə Rusiya onlardan Kiprə vermişdi və burada tamamilə doğru, düzgün olaraq böyük bir narahatlıq yaranmışdı. Rusiya həmin raketlərdən Ermənistana da veribdir. Yəni 1 milyard dollar dəyərində olan silahlar nəinki Azərbaycanı, bütün bölgəni dağıda bilər. Görürsünüz, vəziyyət necədir?

Siz bilirsiniz ki, eyni zamanda Rusiyanın Ermənistanda hərbi bazaları, hərbi , əsgəri hissələri vardır. Bu hərbi bazaların orada qalması artıq hüquqlaşdırılıbdır və bununla əlaqədar bağlanmış müqavilə Rusiyanın və Ermənistanın parlamentlərində təsdiq olunubdur. Rusiyanın Gürcüstanda da hərbi bazası vardır, onların sərhədlərində də Rusiyanın əsgərləri durubdur. Amma Azərbaycan tam müstəqildir. Azərbaycanda heç bir xarici ölkənin əsgəri yoxdur. Çünki biz həm müstəqilliyimizi qoruyuruq, həm də sülh siyasəti aparırıq. Sülh siyasəti aparırıqsa, demək, başqa bir ölkənin əsgərinin bizim ölkəmizdə olmasına ehtiyac yoxdur.

Əgər müstəqilliyimizi qoruyuruqsa, müstəqilliyimiz tam olmalıdır. Əgər başqa bir ölkənin ordusu və yaxud ordu hissəsi gəlib bizim torpağımızda olsa, şübhəsiz ki, bu, bizim müstəqilliyimizin tam olmağını göstərməyəcəkdir. Ona görə də biz müstəqilliyimizi qorumağı özümüz üçün ən böyük vəzifə hesab edirik. Bu baxımdan indi bu bölgədə, Qafqazda, o cümlədən Türkiyənin mənsub olduğu bölgədə yaranmış hərbi vəziyyət çox narahatedicidir, qorxuncdur və bunu bilmək, bunu nəzərə almaq lazımdır. Bizim sülh siyasətimiz, Türkiyənin sülh yolunda mübarizəsi və Azərbaycana bundan sonra göstərəcəyi dəstək daha güclü, daha yetərli olmalıdır. Bu baxımdan mən hesab edirəm ki, Türkiyə Azərbaycanın ən yaxın dostu, qardaşıdır və eyni zamanda böyük qüdrətli dövlət kimi hər cür yardımını Azərbaycandan əsirgəməməlidir.

Azərbaycanın iqtisadiyyatında çox ciddi dəyişikliklər gedir.

Siz bilirsiniz ki, biz demokratiya yolu ilə gedirik, hüquqi demokratik, dünyəvi dövlət qururuq, bazar iqtisadiyyatını inkişaf etdiririk. «Torpaq islahatı haqqında» qanun qəbul etmişik, torpağı şəxsi mülkiyyətə veririk. Bunlar hamısı Azərbaycanın iqtisadiyyatını dəyişdirir. Azərbaycan bir neçə ildən sonra iqtisadi dirçəliş dövrünü keçirəcəkdir.

Azərbaycanda dünyanın böyük neft şirkətləri ilə beş neft müqaviləsi imzalanıbdır. Bu neft müqavilələrinin böyük gələcəyi vardır. Yəni bizim gələcəkdə haradansa iqtisadi yardım almağa ehtiyacımız olmaya-

caqdır. Amma bu gün bizim bu ehtiyacımız vardır. Bizim bu ehtiyacımızı da heç kim ödəmir, o cümlədən Türkiyə də ödəmir. Ermənistana Rusiya da, Amerika da, başqa dövlətlər də kömək edir. Ermənilərin bu ölkələrdə olan diasporu da onlara kömək edir. 1992-ci ildə Amerika konqresi Azərbaycana köməyə embarqo, yəni qadağan qoyubdur. Nəyə görə? Guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Amma həqiqətdə Ermənistan Azərbaycanın ərazilərini işğal edibdir, respublikamızı blokadaya alıbdır.

ABŞ konqresi tərəfindən belə bir ədalətsiz qərar qəbul olunubdur. Bu da Amerikada yaşayan erməni diasporunun vasitəsilə qəbul edilibdir. Amerika Ermənistana hər il 100 milyon dollarla kömək etdiyi halda Azərbaycana heç bir kömək etmir, başqa ölkələrə kömək etdiyi halda Azərbaycana kömək etmir. Rusiya Ermənistana kömək edir, Ermənistanda olan atom elektrik stansiyasının bərpa olunmasına, işləməsinə kömək etdi, çoxlu maliyyə yardımı və başqa yardımlar, köməklər göstərdi. Amma Azərbaycana heç kim kömək etmir.

Azərbaycan müstəqil dövlət kimi yaşayacaqdır. Azərbaycanın gələcəyi çox gözəl olacaqdır. Ancaq hesab edirəm ki, Azərbaycan-Türkiyə əlaqələri o qədər yüksək səviyyədədir ki, indi respublikamızın iqtisadiyyatının daha da irəliyə getməsi üçün bizim Türkiyədən yardım istəməyə haqqımız vardır. Hesab edirəm ki, Türkiyənin dövlət və hökumət başçıları da bu məsələ barədə düşünməlidirlər.

Əziz dostlar, qardaşlar!

Bu günlər bizim üçün xoşbəxt günlərdir. Çünki biz bir-birimizə canla, qanla yaxın olan qardaş və bacılarımızla bir yerdəyik. Bizim tarixi keçmişimiz həqiqətən zəngindir. Bizim ulu babalarımız öz həyatını bir yerdə qurublar. Bizim dilimizi də onlar yaşadıb inkişaf etdiriblər, milli ənənələrimizi, adətlərimizi də, mədəniyyətimizi də onlar yaşadıb inkişaf etdiriblər və bizə böyük sərvətlər veriblər. İndi biz bunların sahibiyik. Biz bir dildən, bir dindən, bir kökdən olan xalqlarıq. Canımız da, qanımız da birdir. Hamısı birdir. Ona görə də bu günlər biz həddindən artıq sevinc içindəyik. Bizim tarixi şəxsiyyətlərimiz Yunus İmrə. Dədə Qorqud, Manas, Füzuli, Nizami və başqa böyük şəxsiyyətlər türk dilini, mədəniyyətini, mənəviyyatını yaşadıblar, nəsillərdən – nəsillərə veriblər. Biz bununla fəxr edirik. Biz fəxr edirik ki, bizim müştərək bir kökümüz var. Biz fəxr edirik ki, indi Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra biz bu əlaqələri inkişaf etdirməyə daha da böyük imkan tapmışıq.

Azərbaycan öz dövlət müstəqilliyinin altıncı ilini yaşayır.

Bu illər Azərbaycan üçün çox ağır, çətin illərdir. Dağlıq Qarabağ haqqında və Ermənistanın Azərbaycana təcavüzü haqqında dedim. Amma bilirsiniz ki, Azərbaycanın daxilində də nə qədər çətin, ağır pro-

seslər olmuş, vətəndaş müharibəsi baş vermiş, insanlar bir-birinə qarşı çıxmış, silahlı dəstələr hakimiyyəti silahla ələ keçirmək istəmişdir. Biz bunların hamısını aradan götürə bildik. Mən sizə bildirmək istəyirəm ki, indi Azərbaycanda ictimai-siyasi vəziyyət tam sərbəstdir, sabitdir, əmin-amanlıq təmin olunubdur. Azərbaycanın dövləti bütün Azərbaycana hakimdir, respublikaya tam nəzarət edir.

Bizim, Azərbaycan dövlətinin çox gözəl gələcəyi var. Biz bu gələcəyi müstəqillik yolunda görürük. Azərbaycan üçün dövlət müstəqilliyi tarixi nailiyyətdir, ən böyük sərvətdir. Bu gün mən sizə, əziz bacı-qardaşlarımıza bildirmək istəyirəm ki, biz dövlət müstəqilliyini günügündən möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik, qoruyub saxlayacağıq. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əyilməzdir, əbədidir.

Bütün bu işlərdə biz daim Türkiyə Cümhuriyyətinin tarixi təcrübəsindən bəhrələnirik. Mən dedim, bir də qeyd edirəm ki, Türkiyə Cümhuriyyətinin keçdiyi şanlı yol, əldə etdiyi nailiyyətlər və xüsusən demokratik, hüquqi dövlət quruculuğu, sərbəst iqtisadiyyat quruculuğu sahəsində əldə etdiyi nailiyyətlər bizim üçün örnəkdir. Bu gün bir daha böyük iftixar hissi ilə demək olar ki, türk xalqı cümhuriyyət qurulandan indiyədək bu cümhuriyyətin qurucusu, yaradıcısı, banisi böyük Mustafa Kamal Atatürkün tutduğu yol ilə gedir və biz hesab edirik ki, bu yol, yalnız bu yol türk xalqını bundan sonra daha da yüksəklərə qaldıracaq, qələbədən-qələbəyə aparacaqdır.

Mən bir daha sizə təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm. Bir daha bildirmək istəyirəm ki, Azərbaycanda Türkiyənin xüsusi yeri var. Sizin vəqfin və universitetin Azərbaycanda gördüyü işlər respublikamızın təhsil sistemində müəyyən müsbət dəyişikliklər meydana gətirir. Ona görə də mən bu işlərə həmişə dəstək vermişəm, bundan sonra da dəstək verəcəyəm.

Əziz dostlar, bacılar, qardaşlar!

Sizə cansağlığı arzu edirəm. Sizə səadət arzu edirəm. Universitetinizə işlərində yeni-yeni uğurlar arzulayıram. Türk xalqına, Türkiyə Cümhuriyyətinə səadət, əmin-amanlıq və daim yüksəliş arzu edirəm.

Eşq olsun Türkiyə Cümhuriyyətinə!

Eşq olsun türk xalqına!

Yaşasın böyük Türkiyə!

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğu!

Sağ olun!

AZƏRBAYCAN PREZİDENTİNƏ ƏL-FƏRABİ ADINA QAZAX MİLLİ DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ*

11 iyun 1997-ci il

Hörmətli prezident Nursultan Abişoviç Nazarbayev!

Qazax Milli Universitetinin hörmətli rektoru, möhtərəm professorlar, müəllimlər, tələbələr!

Mən sizin hamınızı Azərbaycan xalqı adından salamlayır və sizə, sizin simanızda bütün Qazaxıstan ziyalılarına, bütün Qazaxıstan gənclərinə Azərbaycan xalqının ən xoş arzularını yetirirəm.

Mən Qazax Dövlət Universitetinin elmi şurasına mənə göstərilən şərəfə görə, mənə universitetin fəxri professoru adı verilməsinə görə və fəxri professor diplomu təqdim olunması ilə əlaqədar, hörmətli rektor, dediyiniz səmimi sözlərə görə təşəkkür edirəm. Mən bunu Azərbaycan xalqına, Azərbaycan Respublikasına, Azərbaycan ziyalılarına, Azərbaycan gənclərinə dostluq və hörmət hisslərinin ifadəsi kimi qiymətləndirirəm. Əminəm ki, bu fakt qazax və Azərbaycan xalqları arasında, ölkələrimiz, dövlətlərimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənib genişlənməsinə xidmət edəcəkdir.

Bu universitetin professoru olan prezident Nursultan Nazarbayevin burada mənimlə birlikdə olmasına görə və deyəcəklərimi dinləmək, sizinlə görüşmək imkanına görə ona təşəkkürümü bildirirəm.

Siz bilirsiniz ki, Qazaxıstan prezidentinin dəvəti ilə mən dünəndən bəri burada, Qazaxıstanda, Almatıda rəsmi səfərdəyəm. Qazaxıstan prezidenti, hörmətli Nursultan Nazarbayev mənim dəvətimlə ötən ilin sentyabrında Azərbaycanda olmuşdur. Xalqlarımız çoxəsrlik dostluq, qarşılıqlı fəaliyyət, əməkdaşlıq tarixinə malikdirlər. Sizin universitet Şərqin böyük mütəfəkkiri əl-Fərabinin adını daşıyır. Əl-Fərabi eyni dərəcədə həm qazax xalqına, həm də Azərbaycan xalqına və bütün türk xalqlarına məxsusdur. Məhz bu ad və bir çox digər adlar tarixən bunun rəmzi olmuşdur ki, biz eyni köklərə mənsubuq, taleyimiz birdir, tariximiz birdir, dilimiz birdir, dinimiz birdir, adət və ənənələrimiz, mənəvi və əxlaqi-etik dəyərlərimiz də birdir, eynidir, oxşardır.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Onuncu kitab. B., Azərnəşr, 2002, s.107-123

Bütün bunlar elə bir etibarlı əsas, elə bir möhkəm bünövrədir ki, qazax və Azərbaycan xalqları arasında dostluq onların üzərində dayanır. Dahi əcdadlarımız — əl-Fərabi də, Dədə Qorqud da, Alpamış da, Manas da, Nizami, Füzuli, Nəsimi, Koroğlu da bizi həmişə birləşdirmişlər və öz yaradıcılığı, öz hünərləri ilə xalqlarımızı sivilizasiyaya, tərəqqiyə, azadlığa, müstəqilliyə səsləmişlər. Xalqlarımızın fəxr edə biləcəkləri bax bu zəngin keçmişimiz indi yeni mərhələdə əməkdaşlığımız üçün zəmindir.

Mən burada, Qazax Dövlət Universitetində olduğum bir vaxtda tarixi keçmişimizə, milli ənənələrimizə, milli adətləri-mizə, əcdadlarımızın yaratdıqları misilsiz və əvəzsiz sərvətlərə dərin ehtiram hissi ifadə etmək istəyirəm. Biz fəxr edə bilərik ki, Şərq, müsəlman sivilizasiyası, türk sivilizasiyası dünya sivilizasiyasını zənginləşdirmişdir. Biz fəxr edə bilərik ki, onların varisləri bu gün də Dünya Birliyində layiqli yer tuturlar. İndi, həyatımızın yeni mərhələsində biz təmaslarımızı və əlaqələrimizi, əməkdaşlığımızı fəallaşdırmaq üçün tədbirlər görürük. Prezident Nursultan Nazarbayevin 1996-cı ilin sentyabrında Azərbaycana səfəri bunun təməlini qoydu. Mənim buraya səfərim birlikdə başladığımız o böyük işin davamıdır.

Mən dünəndən burada olduğuma son dərəcə şadam. Mən əhatə olunduğumuz dostluq, yoldaşlıq, səmimilik şəraitindən on dərəcə məmnunam. Bizə göstərdiyiniz qonaqpərvərliyə görə, dostluq hisslərinə görə mən prezident Nursultan Nazarbayevə və Qazaxıstandakı, Almatıdakı bütün qardaşlarımıza, dostlarımıza minnətdaram. Çox sağ olun.

Sizi əmin edirəm ki, universitetinizin professoru kimi yüksək ada layiq olmaq üçün bütün fəaliyyətimlə və həyatımla çalışacağam. Ancaq eyni zamanda hesab edirəm ki, bu, Qazaxıstan və Azərbaycan universitetləri arasında, 1919-cu ildə yaradılmış Bakı Dövlət Universiteti ilə hazırda olduğum Qazax Milli Universiteti arasında gələcək əməkdaşlığa doğru daha bir addıma çevriləcəkdir.

Bilirsinizmi, bizim nümayəndə heyətinə Bakı Dövlət Universitetinin – Azərbaycanın baş universitetinin rektoru da da-Kildir və zənnimcə, sizin gələcək əməkdaşlıq və əlaqələri daha da möhkəmlətmək məsələlərini müzakirə etmək imkanınız olacaqdır. Universitetlərimizin yaşaması və gənclərimizin ali təhsil alması üçün, ziyalılarımızın öz yaradıcılıq imkanlarından, elmin, təhsilin, xalqlarımızın mənəvi həyatının daha da inkişaf etməsindən ötrü yaradıcılıq potensialından istifadə edə bilməsi üçün ən başlıcası bizim malik olduğumuz müstəqillikdir – Qazaxıstanın müstəqilliyidir, Azərbaycanın müstəqilliyidir.

Bu günlərdə Qazaxıstanın həyatı ilə və burada, Qazaxıstanda işlərlə yaxından tanış olarkən biz dönə-dönə yəqin edirik ki, qazax xalqı müstəqillik illərində çox böyük yol keçmişdir. Qazaxıstan dünyanın

böyük ölkələrindən biridir, Asiyanın ən böyük ölkələrindən biridir, çox geniş məkana, olduqca zəngin yeraltı və yerüstü sərvətlərə, vasitələrə, böyük iqtisadi potensiala, gözəl insanlara, mahir kadrlara malik ölkədir. Dövlət müstəqilliyi şəraitində Qazaxıstanın bütün bu imkanları daha yüksək sürətlə inkişaf etmişdir və Qazaxıstan bu gün də gözəldir və onun gələcəyi də, şübhəsiz, gözəldir.

Dünən imzaladığımız sənədlər və keçən il Bakıda imzalanmış sənədlər ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən də elm sahəsində, təhsil sahəsində, mədəniyyət sahəsində əməkdaşlıq üçün yaxşı zəmin yaratmışdır. Əlbəttə, burada bizim ümumi cəhətlərimiz olduqca çoxdur, oxşar cəhətlərimiz olduqca çoxdur və biz bir-birimizə çox faydalı ola bilərik. İndi biz neft və qaz sənayesi sahəsində geniş, çox səmərəli əməkdaşlıq üçün böyük imkanlara malikik və Xəzər dənizinin sərvətlərindən intensiv istifadə etmək üçün, Qazaxıstan və Azərbaycan nefti və qazının hasilatı üçün, beynəlxalq bazarlara daşınması üçün səylərimizi birləşdiririk. Bunlar mühüm planlardır, mühüm tədbirlərdir. Mən də əminəm ki, onlar həyata keçiriləcəkdir.

Lakin eyni zamanda iqtisadiyyatın və sosial həyatın bütün sahələrində Qazaxıstanın və Azərbaycanın malik olduqları çox böyük sərvətlərdən istifadə etmək üçün alimlərimizin, ali təhsilimizin, gənclərimizin geniş potensialı var. Şübhə yoxdur ki, biz məhz belə böyük xarüqələrin və böyük hadisələrin ərəfəsindəyik.

Bu gün səhər mən Qazaxıstanın müstəqillik abidəsini ziyarət etdim. Mən bu abidəyə olduqca böyük ehtiram hissi ilə təzim etdim və öz xalqının müstəqilliyi, azadlığı, səadəti yolunda əsrlər boyu mübarizə aparmış qazax xalqının bütün görkəmli oğulları qarşısında baş əydim.

Nəhayət, bir çox əsrlərdən sonra Qazaxıstan da, Azərbaycan da bu müstəqilliyi qazandı. Müstəqillikdən əvvəlki son dövr, yəni müstəqilliyə aparan yol da asan yox, çox mürəkkəb və çətin olmuşdur. Bizim respublikalarımız Sovetlər İttifaqının tərkibində idilər. Mən bu gün deməliyəm ki, Sovetlər İttifaqının tərkibində Qazaxıstan və Azərbaycan iqtisadiyyatda da, elmdə də, mədəniyyətdə də, təhsildə də böyük inkişaf yolu keçmişlər. Bu illər, onilliklər ərzində biz çox şey əldə etmişik. Ancaq ən başlıcası – azadlığımız, müstəqilliyimiz yox idi. Öz potensialımızı tam şəkildə reallaşdırmaq, hər şey haqqında istədiyinizi açıq demək imkanımız yox idi. İndi bunları aradan qaldırmışıq. Ona görə də keçmişdə nə olmuşdursa, onu lazımınca qiymətləndirmək, eyni zamanda mənfi cəhətləri, bizim üçün məqbul olmayanları da demək lazımdır.

Hörmətli rektor bizim birgə işlədiyimiz illəri, mənim SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sov.İKP MK Siyasi bürosunun üzvü

kimi Moskvada çalışdığım illəri xatırladı. Mən həmin vəzifələrdə digər sahələrlə yanaşı, ali və orta təhsilə, bütün təhsil sisteminə də rəhbərlik edirdim. O. düzgün xatırladı, buna görə ona minnətdaram – həqiqətən o zaman orta təhsil sahəsində, ali təhsil sahəsində islahatlar aparmaq, ali təhsilin maddi-texniki bazasını möhkəmləndirmək üçün, gənclərimizin biliklərə yiyələnməsinə tam imkan yaratmaq üçün çox səy göstərilmişdir.

Bəli, çox iş görülmüş, çoxlu qərarlar qəbul olunmuşdu. Ancaq təəssüf ki, bu qərarların heç də hamısı yerinə yetirilmədi. Lakin bunlar keçmişdə olmuşdur. İndi təəssüflənmək, yada salmaq ki, daha Sovetlər İttifaqı yoxdur – bunu heç kəs etməməlidir, gərək deyildir. Biz məmnun qalmalıyıq ki, Sovetlər İttifaqı dağıldı, müstəqillik qazandıq və öz taleyimizin, öz imkanlarımızın sahibi ola bilmişik. Axı təsəvvür edin, siz o vaxt ali təhsil naziri idiniz, amma bir çox məsələləri Moskvanın icazəsi olmadan həll edə bilmirdiniz, düzdürmü? İndi siz sərbəstsiniz, bu məsələləri özünüz həll edirsiniz. Hətta prezident ilə sizə sərbəstlik vermişdir, indicə dediyiniz kimi, təklif etmişdir ki, məsələlərinizi özünüz həll edəsiniz.

Ona görə də nə baş vermişdirsə, bu, tarixi zərurətdir, Sovetlər İttifaqının dağılması labüd idi. Nə yaxşı ki, belə oldu, əks təqdirdə biz bu müstəqilliyi qazana bilməzdik. Biz Azərbaycanda belə hesab edirik ki, bu müstəqilliyi qorumalı, onun qədrini bilməli, onu möhkəmləndirməli və onun itirilməsinə heç vaxt yol verməməliyik. Bundan sonra biz heç vaxt hansısa bir dövlətin tərkibində ola bilmərik. İndən belə heç vaxt razılaşa bilmərik ki, əvvəlki quruluş, əvvəlki sistem, keçmiş ittifaq hansısa formada bərpa edilsin.

Bəli, bizim əcdadlarımız həqiqətən azadlıq, müstəqillik, ədalət uğrunda mübarizə aparmışlar, bəzən qalib gəlmişlər, əlbəttə, bəzən məğlubiyyətə də uğramışlar, böyük çətinliklərdən keçmişlər. 80-ci illərdə isə Sovetlər İttifaqında mürəkkəb sosial-siyasi proseslər, iqtisadi proseslər gedəndə bir çox respublikalarda, o cümlədən Qazaxıstanda da milli azadlıq və milli müstəqillik haqqında əhval-ruhiyyələr yarandı. Bunu görən, daha çox hiss edən Mərkəz, Sovet hökumətinin, Sovetlər İttifaqının, Kommunist Partiyasının rəhbərliyi buna yol verməmək, boğmaq üçün tədbirlər görürdü. Mən bunların hamısının şahidi olmuşam. Həmin tədbirlər milli siyasətdə çox ciddi səhvlərə, nöqsanlara, təhriflərə, kadr siyasətində səhvlərə, nöqsanlara səbəb oldu.

Biz bunu Azərbaycanın taleyində hiss etmişik. Siz bilirsiniz ki, Azərbaycanın kiçik bir muxtar vilayəti olan Dağlıq Qarabağı qoparıb Ermənistana birləşdirmək məqsədi ilə 1988-ci ildə qonşu Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz başlanmışdır. Bunun nə kimi ağır

nəticələrə gətirib çıxardığını indi bütün dünya bilir. Halbuki həm Azərbaycan, həm də Ermənistan vahid Sovet İttifaqının tərkibinə daxil olduqları, bərabərhüquqlu Sovet respublikaları olduqları dövrdə Sovet İttifaqının, Kommunist Partiyasının rəhbərliyi bu münaqişənin daha da genişlənməsinə yol verməmək, onun qarşısını almaq, qardaş qırğını törədilməsinə şərait yaratmamaq üçün tam imkana malik idi. Lakin onlar bunun nəinki qarşısını almadılar, əksinə, buna yol verdilər. Elə Mixail Qorbaçovun özü də buna yol verdi. Bu, faciəyə gətirib çıxardı, ona gətirib çıxardı ki, sonralar müxtəlif hallara görə, müxtəlif səbəblərə görə bu təcavüz öz miqyaslarına görə genişləndi. Nəticədə Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olundu. İşğal edilmiş torpaqlardan bir milyon azərbaycanlı sakin öz yaşayış yerlərindən qovulub didərgin salındı, əsrlər boyu yığıb yaratdıqları hər şeyi itirdi. İşğal olunmuş torpaqlar dağıdılır, yağmalanır, qarət edilir. Bu bir milyon adam çox ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır.

Görün, o dövrün səhvləri, xətaları nəyə gətirib çıxarmışdır. Yaxud götürək Azərbaycanda 1990-cı ilin yanvar hadisələrini. O vaxt Sovet İttifaqı rəhbərliyinin Azərbaycan xalqına qarşı, Azərbaycan Respublikasına qarşı ədalətsizliyi əleyhinə xalqın etirazı Bakı şəhərində Sovet ordusu qoşunlarının iri kontingenti ilə yatırıldı, qan töküldü, çoxlu adam həlak oldu, gənclər, qadınlar, uşaqlar, qocalar Sovet qoşunlarının Azərbaycan xalqına qarşı bu hərbi təcavüzünün qurbanları oldular. Biz bunların hamısını görüb yaşadıq. Bu, Azərbaycan xalqının bədənində, qəlbində sağalmaz aradır və eyni zamanda bizə dərs oldu ki, gərək öz müstəqilliyini əziz tutasan, onun qədir-qiymətini biləsən.

Qazaxıstan da bu cür faktlarla, bu cür hadisələrlə qarşılaşdı. Başabəla yenidənqurmanın başlandığı 1985-86-cı illəri xatırlayıram. Moskvada, müxtəlif ictimai-siyasi dairələrdə Orta Asiyanın milli respublikaları, Qazaxıstan, Azərbaycan barəsində qəsdən neqativ münasibət formalaşdırılırdı. Guya ki, neqativ hesab edilən və durğunluq dövrünün qüsurlarına aid olan nə vardısa, hamısı ancaq bu respublikalarda – Qazaxıstanda, Özbəkistanda, Türkmənistanda, Qırğızıstanda baş vermişdi, yalnız bu respublikalarda olmuşdu (belə çıxırdı ki, Sovet İttifaqının qalan respublikaları, qalan regionları aydan arı, sudan duru idi). Bu respublikalar, bu xalqlar hədəf altına alınmışdı, atəşə tutulurdu. Azərbaycanı da, Qazaxıstanı da gözdən salmaq, nüfuzları salmaq üçün hər şey edilirdi. Xatirimdədir, nə qədər saxta sənədlər üzə çıxarılıb mərkəzi mətbuatda dərc olunurdu. Bütün bunlar ədalətsizlik idi, bütün bunlar yaranmaqda, meydana gəlməkdə, baş qaldırmaqda olan hər şeyi, o cümlədən milli hissləri, milli ləyaqəti, milli mənliyi yatırtmaq, boğmaq istəyinin bariz təzahürü idi.

Odur ki, 1986-cı ildə Qazaxıstan rəhbərliyini dəyişdirmək məsələsi qalxdı. Bu, təbii hal idi. Qazaxıstan rəhbəri Dinmühəmməd Kunayev artıq yaşa dolmuşdu və səhhətinə görə işləri daha təmin edə bilmirdi. Qazaxıstana kim rəhbərlik etməlidir bu məsələnin həlli bir neçə ay çəkdi. Tədricən də belə bir fikir formalaşdı ki, Qazaxıstanda, zəngin kadr potensialı olan belə böyük bir respublikada Kunayevi əvəz edə biləcək layiqli adam yoxdur. Bu, sadəcə olaraq təəccüblü bir hal idi.

Məni fikir götürdü, düşündüm ki, aman Allah, hətta o illərdə – otuzuncu, qırxıncı illərdə, Böyük Vətən müharibəsi illərində Qazaxıstana rəhbərlik etmək üçün respublikada qazaxlardan adamlar tapılmışdı. Sizin ki yadınızdadır. Belə adamlar müharibədən sonrakı dövrdə də olmuşlar. Doğrudur, qısa bir zaman olmadı, sonra isə 20 ildən artıq bir dövrdə Kunayev Qazaxıstana rəhbərlik etdi. Başqaları da meydana çıxdı. Elə isə nə üçün indi, Qazaxıstanın belə bir yüksək səviyyəyə çatdığı, adamların, kadrların yetişdiyi, gənc kadrların yetişdiyi bir dövrdə deyilirdi: «Milli kadrlar yoxdur, oraya yerli millətdən olmayan adam göndərmək lazımdır». Bu ideya elə hey gəzib dolaşırdı, dillərdən düşmürdü, halbuki Qazaxıstanda layiqli adamlar vardı və layiqli adamlar Qazaxıstan rəhbərliyinin özündə də vardı. Onların ən layiqlilərindən biri Nazirlər Sovetinin sədri vəzifəsində çalışırdı və Qazaxıstan rəhbərliyində əslində ikinci sima idi. O, bütün funksiyaları, özünün bütün bu vəzifələrini uğurla yerinə yetirirdi. Yeri gəlmişkən, onun barəsində nə Qazaxıstanda, nə Moskvada, nə Siyasi Büroda, nə də Nazirlər Sovetində heç bir irad yox idi. Belə bir vəziyyətdə əhval-ruhiyyə yaradırdılar ki, Qazaxıstana rəhbər təyin etməyə guya layiqli adam yoxdur.

Bütün bunlar ona gətirib çıxardı ki, Qorbaçov bəzi adamların köməyilə qərar qəbul edib, Kolbini buraya birinci rəhbər göndərdi. O vaxt mən hansısa bir ümumi müzakirədən sonra ona telefonla zəng vurub dedim ki, siz düz iş tutmursunuz. Bu səhvdir, nə üçün belə edirsiniz? Dedi ki, orada elə bir adam yoxdur. Necə yəni elə bir adam yoxdur. Axı orada Nazarbayev var. Əgər o, sizin xoşunuza gəlmirsə, başqa birisi var, üçüncü var. Axı siz nə üçün belə hərəkət edirsiniz? Qorbaçov Siyasi Büronun iclasında bir neçə dəfə bildirmişdi: qazaxların özləri deyirlər ki, indi bizə Moskvadan adam, qazax millətindən olmayan adam göndərmək lazımdır. Çox təəssüflər olsun ki, o, iki dəfə Dinmühəmməd Kunayevin adını çəkdi, guya Kunayevin özü ona zəng vurub deyib ki, mən onsuz da gedirəm, buna görə də siz düşünməlisiniz və buraya qazax millətindən olmayan adam göndərməlisiniz, vəziyyət elədir ki, onun öhdəsindən yerli millətdən olan adam gələ bilməz.

Təəssüf ki, bu hal bizdə, Azərbaycanda da olmuşdu. Mən bunu söyləməklə bəlkə də vaxtınızı alıram. Amma bu, tarixin dərsidir. Bəli, belə

hallar bizdə, Azərbaycanda da, Qazaxıstanda da, digər milli respublikalarda da olmuşdur. Biz özümüz bir-birimizi etibardan, nüfuzdan salmağa çalışırdıq. Biz bir-birimizi pisləməyə, ləkələməyə başlamışdıq. Təkcə Kunayev deyil, burada bəzi digər adamlar da Qorbaçovun yanına gedib deyirdilər ki, filankəs pisdir, filankəs də pisdir, mərkəzdən adam göndərin. Bu, nəyə gətirib çıxardı? Ona gətirib çıxardı ki, xalq bu qərarla razılaşmadı. Yadımdadır, o vaxt deyirdilər, Mərkəzi Komitə çıxış etmədi, bu iclas bir növ matəm yığıncağı kimi guya dinməz-söyləməz keçdi. Lakin buna baxmayaraq, həmin adamı təyin etdilər, yaxud seçdilər. Ancaq elə həmin axşam gənclər ayağa qalxaraq öz rəyini bildirdilər.

Bilirsinizmi, o vaxt bu, fövqəladə hadisə idi. Xatirimdədir, ertəsi gün Siyasi Büronun iclasını çağırıb baş vermiş hadisəni müzakirə etməyə başladılar və dedilər ki, bu, necə olmuşdur, nə üçün baş vermişdir, niyə Nazarbayev bunun qarşısını almadı, niyə başqası bunun qarşısını almadı, nə üçün Kunayev bunun qarşısını almadı. Artıq bütün bu söhbətlər başdan-ayağa cəfəngiyat idi. Oraya komissiya göndərdilər. Yadımdadır, komissiyaya Solomentsev başçılıq edirdi. Söz düşmüşkən, o da bir vaxtlar burada, sizdə işləyib, təbii ki, qazax xalqının xeyirxah münasibətini görüb. Burada ona çox böyük hörmət edirdilər. Lakin o, buradan anlaşılmaz, təəccüblü məlumatlarla qayıtdı.

Məsələn, xatirimdədir, o, Siyasi Büroda məlumat verərək dedi: onlar Qazax Universitetində, misal üçün, hüquq fakültəsini tutublar. Sizin yadınızdadır, o vaxt Siz nazir idiniz, – budur, hüquq fakültəsini tutublar, orada isə qazaxlar çoxdur. Halbuki qazaxlar qalanlarından bir qədər çoxdur. Orada hansısa bir fakültəni də – tarix fakültəsini, daha bir fakültəni tutublar. Mən oturub düşünürdüm, aman Allah, gör nələr danışırlar. Soruşdum ki, yoxsa, qazaxlar oxumaq hüququna malik deyillər, bu, qazax universitetidir, yoxsa hansısa başqa bir universitet – ərəb universiteti və ya fransız universitetidir? Qazaxlar oxumalıdırlar. Əlbəttə, başqaları da oxumalıdır. Bunların hamısını elə qələmə verirdilər ki, guya bütün bunlar təşkil edilmişdi, tənzimlənib istiqamətləndirilirdi, guya başqa millətdən olan şəxsləri qəbul etmirdilər, ancaq qazaxları götürürdülər, ona görə də bütün bunlar qazax millətçiliyinə gətirib çıxarmışdır.

Bax, belə cəfəng şeylər danışırdılar, həm də bununla kifayətlənmirdilər. Onun təqdim etdiyi arayış dəhşətli idi. Nursultan Abişoviç sonralar bu arayışla tanış olmuşdu. Həmin arayışdan sonra daha bir böyük komissiya təyin etdilər. Sonra isə yayda həmin məsələ barəsində plenum keçirib qazax millətçiliyi haqqında qərar çıxartdılar. Lakin mən onda xəstələnib xəstəxanaya düşmüşdüm və buna görə də sonra bu prosesdə daha iştirak etmədim və bu plenumda olmadım. Bəli, qazax millətçiliyi

haqqında qərar qəbul etdilər. Axı hansı millətçilikdən söhbət gedə bilərdi? Qazaxıstandakı beynəlmiləlçilik bütün adamlar, respublikalar üçün nümunə idi – bu faktdır. Qazaxıstan çoxmillətli respublikadır. O vaxtlar Qazaxıstana mən də gəlirdim. Moskvada işləsəm də bilirdim ki, burada, Qazaxıstanda bütün xalqlar birlikdə, mehriban yaşayır və işləyirlər. Bütün xalqların nümayəndələri bütün idarəetmə orqanlarında, hər yerdə, o cümlədən də təhsildə təmsil edilmişlər. Qazax millətçiliyindən dəm vurub bütün qazax xalqına belə qara yaxmaq olardımı?

Onlar bundan əvvəl də qazax xalqını millətçilikdə təqsirləndirməyə cəhd göstərmişdilər. Zənnimcə, 1977-ci, yaxud 1978-ci ildə, – o vaxtlar mən hələ Bakıda, Azərbaycanda işləyirdim, – Oljas Süleymenovun «Az i ya» kitabı haqqında xüsusi qərar qəbul etmişdilər. Bu kitabda məgər pis bir şey var idimi? Yeri gəlmişkən, o vaxtlar bu kitab böyük şöhrətə malik idi, eləcə də Moskvada, Rusiyada da böyük şöhrət qazanmışdı. Beləliklə, düşünüb bir şey uydurdular və xüsusi qərar qəbul etdilər və onu da millətçilikdə təqsirləndirdilər.

Bir görün, Azərbaycan xalqı kimi, qazax xalqı da öz azadlığına, öz müstəqilliyinə doğru necə böyük çətinliklərdən keçib gəlmişdir. Lakin tarix onların hamısını mühakimə etdi, tarix 1986-cı ilin dekabrında Sovet rəhbərliyinin ədalətsiz qərarına qarşı ayağa qalxan insanlara haqq qazandırdı. Tarix həqiqəti bərpa etdi və onlar artıq 1989-cu ildə Nursultan Abişoviç Nazarbayevin Qazaxıstan rəhbəri seçilməsinə razılıq verməli oldular. O, belə bir məsuliyyəti öz üzərinə götürməyə artıq çoxdan hazır idi. Budur, o vaxtdan ötən 8-9 ildir ki, Nursultan Abişoviç bu respublikaya başçılıq edir və keçid dövrünün bütün bu çətin mərhələləri – müstəqilliyin əldə edilməsi, müstəqil dövlət yaradılması, islahatlar aparılması onun rəhbərliyi ilə, onun fəal iştirakı ilə, əlbəttə, onun məhz zəngin təcrübəsi, onun bacarığı sayəsində, onun qabiliyyəti sayəsində həyata keçirilir və tamamilə qanunauyğun haldır ki, qazax xalqı ümumxalq səsverməsi yolu ilə Nursultan Nazarbayevi prezident seçmişdir. O, Qazaxıstanın layiqli prezidentidir və qazax xalqını indi artıq bütün dünyada layiqincə təmsil edir.

Mən Nursultan Abişoviçi lap çoxdan, o hələ Qazaxıstan KP MK-nın sənaye üzrə katibi işlədiyi vaxtlardan tanıyıram. Mən onunla burada da görüşmüşdüm, biz Moskvada da görüşürdük. Sonralar, o artıq Qazaxıstan Nazirlər Sovetinin sədri işləyəndə və mən isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyəndə biz tez-tez görüşür, toplaşırdıq. İndi böyük fərəh hissi ilə deyə bilərəm ki, Nazirlər Soveti sədrinin birinci müavini kimi, mən Qazaxıstan üçün, Qazaxıstan Respublikası üçün öz fəaliyyət dairəmə daxil olan çox məsələləri həll edirdim. Aramızda çox

işgüzar, çox mehriban münasibət yaranmışdı və aramızda yaxşı münasibət, dostluq münasibəti vardı. Artıq neçə illərdir ki, mən ona göz qoyuram. O öz istedadını, öz qabiliyyətini gənclik illərindən göstərməyə başlamış və hələ həmin illərdə, MK katibi və Nazirlər Sovetinin sədri işlədiyi illərdə Qazaxıstanın bütün çoxsaylı kadrları arasında seçilirdi.

Onu bu vəzifəyə hadisələrin bütün gedişi, Qazaxıstan tarixinin bütün gedişi, əslinə qalsa, tarixin özü, həyatın özü irəli çəkmişdir. O ki, qaldı buna yol vermək istəməyən adamlara, onlar yanılmışlar və mən bilən, sonralar ondan hətta üzr istəmişlər. Mən bu faktlardan ona görə danışıram ki, mən bu faktların şahidiyəm, onları görmüşəm. Mənim bildiklərimi bəlkə də az adam bilir. Buna görə də siz də bilməlisiniz ki, bu, tarixdə qalsın, bilməlisiniz ki, qazax xalqı barəsində və Nursultan Abişoviç barəsində haqsız-ədalətsiz hərəkətlərə yol verilmişdir.

Lakin təkrar edirəm, tarix hər şeyi öz yerinə qoymuşdur. İndi Qazaxıstan azad, müstəqil respublikadır və iqtisadi islahatlar sosial islahatlar, siyasi islahatlar apar ır və şübhəsiz ki, parlaq gələcəyə baxır. Qazaxıstan da, qazax xalqı da Nursultan Abişoviç Nazarbayevin şəxsində layiqli liderə, rəhbərə, prezidentə malikdir. Mən buna şadam. Mən sizi bu münasibətlə səmimi qəlbdən təbrik edirəm və sizə, bütün qazax xalqına və dostum Nursultan Abişoviçə xoşbəxtlik, firavanlıq və yeni uğurlar arzulayıram.

Respublikamızda şərait sizdə olduğundan daha mürəkkəb, daha çətindir. Dediyim kimi, Azərbaycan xalqına qarşı 1988-ci ildə Ermənistan tərəfindən hərbi təcavüz, 1990-cı ildə isə Sovet qoşunları tərəfindən hərbi təcavüz oldu, Azərbaycanda daxili siyasi mübarizə getdi, müxtəlif silahlı qruplar hakimiyyət uğrunda mübarizə apardılar, müxtəlif qanunsuz silahlı dəstələr, cinayətkar qruplar meydana çıxdı. Onlar Azərbaycanda daxili siyasi vəziyyəti mürəkkəbləşdirirdilər və əslinə qalsa, məhz bu səbəbdən erməni silahlı birləşmələri Azərbaycan ərazisinin bir hissəsini işğal edə bildilər, çünki ölkənin daxilində sabitlik yox idi, adamlar, müxtəlif qruplar hakimiyyət uğrunda öz aralarında savaşırdılar. Bu da müəyyən dərəcədə kənardan qızışdırılırdı. Lakin bütün bunlar Azərbaycanda daxili həyatımızın reallığı idi. Məhz buna görə də erməni silahlı birləşmələri ərazimizin bir hissəsini işğal edə bildilər. Məhz buna görə də 1992-ci ildə Azərbaycanda hakimiyyət dəyişdi. Bir ildən sonra, 1993-cü ildə hakimiyyət başında olan Xalq Cəbhəsi xalqın etimadını itirdi və silahlı birləşmələr ona qarşı ayağa qalxdıqda hakimiyyətdən getməli oldu. Azərbaycanda vətəndaş müharibəsi başlayırdı. Biz bundan sonra bu çətinlikləri aradan qaldırmağa və vətəndaş müharibəsinin daha da genişlənməsinə yol verməməyə, vəziyyəti tədricən sabitləşdirməyə müvəffəq olduq, hərçənd, bu, asanlıqla başa gəlmədi.

1994-cü ilin oktyabrında dövlət çevrilişi etməyə cəhd göstərildi. Biz məhz xalqın gücü ilə, xalqın köməyi ilə bu cəhdin qarşısını almağa müvəffəq olduq. Mən televiziya ilə xalqa müraciət etdim, xalq bir neçə saatın içərisində Prezident sarayının ətrafına toplaşdı və konstitusiya hakimiyyətini müdafiə etdi. Xüsusi təyinatlı silahlı dəstə – böyük qüvvələri və böyük miqdarda silahı olan xüsusi təyinatlı polis dəstəsi 1995-ci ildə çevriliş etməyə, prezidentə qarşı terror törətməyə cəhd göstərdi. Biz bunun da qarşısını almağa müvəffəq olduq. Bəzi terror hərəkətlərinin də qarşısını almaq mümkün oldu.

Bütün bunlar respublikamızın inkişafının gedişini ləngitdi. Lakin təxminən 1995-ci ilin axırlarından başlayaraq, 1996-cı ildə biz respublikada vəziyyəti sabitləşdirə bildik. İndi respublikada vəziyyət sabit, normaldır. Bütün bu qanunsuz silahlı dəstələr əsas etibarilə ləğv edilmişdir. Üç il bundan əvvəl biz Ermənistanla atəşkəs haqqında saziş bağladıq, indi hərbi əməliyyatlar yoxdur. Lakin bununla belə, torpaqlarımız işğal altında qalmaqdadır, qaçqın insanlar çadırlarda yaşayırlar. Buna görə də biz bu məsələni dincliklə həll etməyə çalışırıq. ATƏT-in Minsk qrupu bununla məşğul olur. O, tədbirlər görür. 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündən sonra indi ATƏT-in üç həmsədri var — Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Ümidvarıq ki, onlar məsələnin dincliklə tənzimlənməsi üçün daha səmərəli tədbirlər görəcəklər.

Biz sülh istəyirik. Bizim Ermənistana və digər qonşulara qarşı heç bir iddiamız yoxdur, halbuki bundan ötrü əsaslar var. Lakin biz istəyirik ki, ərazimiz azad edilsin. Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olunsun və qaçqınlar öz doğma yerlərinə qayıtsınlar.

Məhz bu şərtlərlə Dağlıq Qarabağ Azərbaycan dövlətinin tərkibində ən yüksək özünüidarə statusu ala bilər. Buna görə də Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması prinsipləri haqqında ATƏT-in Lissabon zirvə görüşünün qərarı məsələnin dincliklə həlli üçün yaxşı əsasdır. Orada üç prinsip ifadə edilmişdir: Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək özünüidarə statusu verilməsi və üçüncüsü – bütün Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinə zəmanətin təmin edilməsi. Biz bu prinsiplərlə razıyıq. ATƏT-in 54 üzvündən 53-ü onları dəstəkləmiş, təkcə Ermənistan razılaşmamışdır. Buna baxmayaraq, bu prinsiplər qəbul olunmuşdur.

Mən bu imkandan istifadə edərək, Dağlıq Qarabağ münaqişəsində, Ermənistan-Azərbaycan münaqişəsində daim ədalətli, prinsipial mövqe tutduqlarına görə Nursultan Abişoviçə və Qazaxıstan Respublikasına bir daha təşəkkür etmək istəyirəm. Prezident Nursultan Nazarbayev hələ

1991-ci ildə təşəbbüs göstərmişdir. Rusiya prezidenti Boris Yeltsinlə birlikdə onlar Azərbaycana gələrək, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün səmərəli iş görmüşlər. Təəssüf ki, o vaxtlar vəziyyət, bu münaqişənin aradan qaldırılmasını istəməyən bəzi qüvvələr və digər səbəblər bu təşəbbüsün inkişaf etməsinə imkan vermədilər.

Lissabonda həmin məsələnin müzakirəsi zamanı Qazaxıstan, Nursultan Nazarbayev münaqişəni dincliklə aradan qaldırmaq prinsipləri haqqında Azərbaycanın bu ədalətli mövqeyini büsbütün və tamamilə dəstəklədi. Bu il martın 27-də MDB-nin dövlət başçılarının görüşündə prezident Nursultan Nazarbayev ümumiyyətlə, MDB problemləri barəsində, xüsusən münaqişələr və o cümlədən də Dağlıq Qarabağ münaqişəsi barədə böyük, çox məzmunlu və hətta deyərdim, çox cəsarətli, çox düzgün, ədalətli nitq söylədi. Bütün bunlara görə mən Nursultan Nazarbayevə, Qazaxıstan Respublikasına minnətdaram. Mən minnətdaram ki, dünən, görüşlərimiz zamanı, rəsmi bəyanatlar zamanı da Qazaxıstan prezidenti öz mövqeyinin separatçılığı pisləyən, hər bir dövlətin, hər bir ölkənin ərazi bütövlüyünə hörmət bəsləməyə çağıran mövqeyinin dəyişməz olduğunu bəyan etdi. Bu, beynəlxalq hüquq normasıdır, bu, BMT-nin prinsipləridir, bu, ATƏT-in prinsipləridir. Biz buna görə minnətdarıq.

Amma bununla bərabər, təəssüflər olsun ki, heç də hamı belə hərəkət etmir. Bir neçə ay bundan əvvəl məlum olmuşdur ki, atəşkəsin davam etdiyi bu üç ildə Rusiya Federasiyasının bəzi vəzifəli şəxsləri qeyri-leqal surətdə Ermənistana bir milyard dollardan artıq dəyərdə silah, döyüş sursatı vermişlər. Bunlar ağır silahlar, müasir tanklar, müasir zenit raketləri, müasir «Qrad» qurğuları, zirehli piyada maşınları və bir çox başqa vasitələrdir. Əlbəttə, bu, biabırçılıqdır. Biz Rusiya prezidentinə müraciət etdik. Mən Boris Nikolayeviç Yeltsinə şəxsən müraciət etmişəm, məktub göndərmişəm. Onlar etiraf etdilər ki, belə hadisə həqiqətən olmuşdur. O, prokurorluğa bu məsələ ilə məşğul olmağı tapşırıb. Biz cavab gözləyirik, biz nəticəni gözləyirik. Biz bununla razılaşa bilmərik. Bu üç ildə Ermənistana göndərilən o qədər silah təkcə Azərbaycanı deyil, bütün ətrafdakı ölkələri də dağıda bilər. Məgər buna yol vermək olarmı? Bir tərəfdən, söhbət demokratiyanın inkişafından, suverenliyin inkişafından, ölkələr arasında, o cümlədən MDB-yə daxil olan ölkələr arasında bərabərhüquqlu münasibətlərin inkişafından gedir. Digər tərəfdən isə, Rusiya Federasiyasının ayrı-ayrı strukturları, həmçinin MDB-yə daxil olan Azərbaycanla münaqişədə olan ölkəyə qeyri-leqal, qeyri-qanuni surətdə belə böyük miqdarda silah göndərirlər.

Əlbəttə, bu səhvlər, bu çatışmazlıqlar çox ciddidir. Onlar MDB-də vəziyyəti, regionumuzda vəziyyəti bütövlükdə çətinləşdirir. Lakin

bununla bərabər, biz məsələnin dincliklə həll olunması, təmkinlə, ədalətlə araşdırılması, daha başqa münaqişələrə yol verilməməsi, hər hansı yeni təcavüzkar hərəkətlərə yol verilməməsi mövqelərində dayanmışıq.

Respublikamız barədə qısaca olaraq demək istədiyim bunlardır. Bu hadisələrlə əlaqədar respublikamızda iqtisadi islahatların aparılması ləngimişdi. Lakin indi biz islahatları yüksək sürətlə həyata keçiririk. Mülkiyyətin tamamilə özəlləşdirilməsi prosesi gedir. Biz torpaq islahatı haqqında qanun qəbul etmişik. Bu qanunda kənd təsərrüfatı istehsalında olan bütün torpaqların xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulur. Xarici iqtisadi fəaliyyəti liberallaşdırmaq tədbirləri görülür. Bütün bu islahatlar nəticəsində 1996-cı ildə bizdə iqtisadiyyatda durğunluq, istehsalda durğunluq dayandırılmışdır. Keçən ildə də, xüsusən cari ilin ötən aylarında az da olsa yüksəliş əmələ gəlmişdir. Ümidvarıq ki, bu meyl davam etdiriləcək və 1997-ci il Azərbaycanda iqtisadi islahatların fəal həyata keçirilməsi ili və təbii olaraq, Azərbaycanda iqtisadiyyatın və adamların rifahının yüksəlişi ili olacaqdır.

Təbii ki, biz Qazaxıstanla bütün bu sahələrdə də əməkdaşlıq edir, Qazaxıstanın təcrübəsindən faydalanırıq. Biz Qazaxıstanda islahatlar aparılması və keçid dövrünün müxtəlif tədbirlərinin həyata keçirilməsi təcrübəsini öyrənmək üçün Qazaxıstana əvvəllər də nümayəndə heyətləri göndərirdik. Elə indi, bu günlərdə burada olarkən biz Qazaxıstanda görülən bütün işlərlə çox fəal maraqlanırıq ki, sizin təcrübənizdən ölkəmizdə imkan daxilində istifadə edək. Bu da dostcasına əməkdaşlığımızın, dostluq münasib ətlərimizin bir hissəsidir.

Hörmətli dostlar, qardaşlar, bacılar! Burada, Qazax Universitetində, qazax xalqının Qazaxıstanın elm, təhsil və mədəniyyət mərkəzində olduğuma görə son dərəcə şadam. Mən şadam ki, belə yüksək ada, belə yüksək şərəfə layiq görülmüşəm. Bir daha əmin edirəm ki, sizin yüksək etimadınızı doğrultmağa bütün həyatımla, öz fəaliyyətimlə çalışacağam. Qazax və Azərbaycan xalqlarının qardaş dostluğunu möhkəmlətmək üçün hər şey edəcəyəm. Hər şey edəcəyəm ki, Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlıq gələcəkdə daha uğurla inkişaf etsin. Diqqətinizə görə sağ olun.

Hədiyyənizə – əl-Fərabinin portretinə görə sağ olun. Mən də sizə yadigar olaraq hədiyyə – 500 illiyini ötən il birlikdə qeyd etdiyimiz ulu babamız, böyük Məhəmməd Füzulinin portretini vermək istəyirəm. Xahiş edirəm qəbul edəsiniz. Mən sizə bundan əlavə çoxlu kitab da hədiyyə vermək istəyirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ DAŞKƏND UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ*

19 iyun 1997-ci il

Çox hörmətli prezident İslam Kərimov!

Hörmətli rektor!Hörmətli qardaşlar, bacılar, dostlar!

Mən sizə Azərbaycan xalqının, Azərbaycan ziyalılarının, Azərbaycan gənclərinin hərarətli salamını və ən xoş arzularını yetirir və özümün ən səmimi dostluq, məhəbbət və hörmət hisslərimi ifadə edirəm.

Şərqdə, Asiyada elmin və ali təhsilin ən böyük mərkəzlərindən biri olan, zəngin tarixə və ənənələrə malik Daşkənd Universitetinin Fəxri Doktoru adı verməklə mənə göstərilən yüksək şərəfə görə Mirzə Uluqbəy adına Daşkənd Dövlət Universitetinin elmi şurasına minnətdaram. Daşkənd və Bakı universitetləri həmyaşıddırlar. 1921-ci ildə yaradılmış Daşkənd Universiteti də, 1919-cu ildə təşkil olunmuş Bakı Universiteti də xalqlarımızın mənəvi mədəniyyətinin, maarifinin, ali təhsilinin, elminin inkişafında böyük rol oynamışlar. Ona görə də burada – bu gözəl elm və təhsil mərkəzində – Daşkənd Universitetində olmaq məndən ötrü son dərəcə xoş və sevindiricidir. Daşkənd Universitetinin Fəxri Doktoru adına layiq görülməyim isə xüsusilə daha xoş və daha sevindiricidir.

Mənə göstərdiyiniz bu diqqətə görə sizə təşəkkür edirəm. Mən bunu Azərbaycan xalqına. Azərbaycan Respublikasına, Azərbaycan ziyalılarına olan böyük hörmət və ehtiramın ifadəsi kimi qiymətləndirir, sizi əmin edirəm ki, bu yüksək adı şərəflə və ləyaqətlə daşıyacaq, özbək və Azərbaycan xalqları arasında dostluq və qardaşlığı bundan sonra da möhkəmlənmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Özbək xalqının böyük tarixi, zəngin, dəyərli qədim mədəniyyəti var. Özbək xalqı özünün elmi, görkəmli mədəniyyət, incəsənət, memarlıq əsərləri ilə bəşər sivilizasiyasına layiqli töhfələr verməsi ilə haqlı olaraq fəxr edir. Özbək xalqı haqlı olaraq fəxr edir ki, görkəmli alimlər, mütəfəkkirlər, şairlər, filosoflar, dövlət xadimləri yetirmişdir və onlar öz kəşfləri, əsərləri, elmi nailiyyətləri ilə təkcə Şərqdə deyil, həm də bütün dünyada tərəqqiyə xidmət göstərmişlər.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Onuncu kitab. B., Azərnəşr, 2002, s.200-217

Burada, bütün tarix ərzində özbək torpağında mövcud olmuş görkəmli elmi məktəblərin haqlı olaraq hüquqi varisi sayılan Daşkənd Universitetində olarkən Özbəkistanın görkəmli övladlarının dühaları qarşısında, onların yaratdıqları və özbək xalqının, bütün başqa xalqların müasir nəsillərinə irs qoyduqları əsərlər qarşısında böyük hörmət hissi ilə baş əyirəm.

Bizim xalqlarımızı ümumi köklər, ümumi tale, çoxəsrlik tarixi dostluq, əməkdaşlıq birləşdirir. Dilimizin, xalqımızın mənəvi dəyərlərinin ümumiliyi, eyni dinə mənsub olmağımız – bunların hamısı xalqlarımızın və onların ən yaxşı nümayəndələrinin yaxın, birgə fəaliyyətini şərtləndirmişdir. Bəli, biz görkəmli alim Mirzə Uluqbəyi çox böyük ehtiram hissi ilə xatırlayırıq. Azərbaycanın görkəmli alimi Nəsirəddin Tusini də eynilə çox böyük ehtiram hissi ilə xatırlayırıq. Mirzə Uluqbəyin dühası ilə yaradılmış Səmərqənd rəsədxanasını və Nəsirəddin Tusinin dühası ilə yaradılmış Marağa rəsədxanasını yada salın. Bunlar o çox uzaq keçmişdə, Avropada hələ elmi tərəqqi üçün əsas ola biləcək kəşflərin olmadığı bir vaxtda böyük əsərlər, elmi fikrin, elmi sözün ən yüksək nümunələrini yaratmışlar və biz bunlarla fəxr edirik.

Biz fəxr edirik ki, xalqlarımız dünyaya Nizami Gəncəvi və Əlişir Nəvai kimi dühalar verib. Onlar öz əsərləri ilə bütün dünyada məşhurdurlar. Bununla bərabər, bu gün biz iftixar hissi ilə deyirik ki, onlar bir-birinə çox yaxın, bir-irilə sıx bağlı olmuşlar, hərçənd müxtəlif dövrlərdə yaşamışlar – Nizami XII əsrdə, Əlişir Nəvai XV əsrdə. Əlişir Nəvai Nizaminin yaradıcılığına çox böyük diqqət yetirirdi. Bu da bizim üçün son dərəcə dəyərli ümumi bir sərvətdir ki, tarix Nizaminin dahi «Xəmsə» əsərini və Əlişir Nəvainin dahi «Xəmsə» əsərini hifz edib saxlayır. Bir diqqət yetirin, onların arasında necə də yaxın əlaqə var. Bu əlaqə təsadüfi deyil. Bu, rəmzi məna daşıyan bir əlaqədir. Bu əlaqə qanunauyğundur. Ona görə ki, xalqlarımızın məhz qohumluğunu, qəlblərimizin məhz yaxınlığını, mənəvi dəyərlərimizin oxşarlığını əks etdirir. Nizaminin yaradıcılığı Əlişir Nəvainin yaradıcılığına nə dərəcədə təsir göstərmişdirsə, Əlişir Nəvainin yaradıcılığı da Məhəmməd Füzulinin yaradıcılığına bir o dərəcədə böyük təsir göstərmişdir. Bir fikir verin, zəngin keçmişimizin tarixi, mənəvi, mədəni əlaqələrinin necə gözəl, qarşılıqlı bağlılığı olmuşdur.

Belə zəngin keçmişi olan özbək xalqı da, Azərbaycan xalqı da öz tarixi ilə fəxr etmək haqqına malikdir. Özbək xalqının da, Azərbaycan xalqının da müasir mədəniyyəti, müasir elmi məhz bu tarixi keçmiş əsasında, bu elmi, mənəvi baza əsasında meydana gəlmişdir. Bizim belə deməyə tam haqqımız var. Özbək xalqı da, Azərbaycan xalqı da tarixən

qohum olmaqla, tarixən yaxın olmaqla bərabər, zəngin tarixi keçmişə malikdir. Bu da bizə əsas verir deyək ki, indi də, yeni şəraitdə, dövlət müstəqilliyi şəraitində biz öz həyatımızı istədiyimiz kimi, milli ənənələrimiz, mənəvi dəyərlərimiz əsasında, görkəmli əcdadlarımızdan qalmış böyük elmi, mənəvi irs əsasında qura bilərik. Odur ki, tərəqqipərvər xalqlar, mütərəqqi ölkələr ilə birlikdə, çiyin-çiyinə irəliləyə bilərik.

Keçmişdə nə olmuşdursa, şübhəsiz, dəyərlidir. Məsələn, mən belə hesab edirəm ki, bizlərdən hər biri öz tarixinə, öz keçmişinə, öz köklərinə böyük ehtiramla yanaşmalıdır, çünki, təkrar edirəm, bu, yüzdən artıq yaşı olan nəhəng bir palıd, Özbəkistanda, Daşkənddə olan nəhəng palıdlar kimidir. Söz düşmüşkən, dünəndən bəri yaşadığım yerdə mən bu palıd ağaclarını görmüşəm – qədim və qəvi ağaclardır. Budur bizim tariximiz, Özbəkistanın və Azərbaycanın tarixi. Budur bizim zəngin keçmişimiz – həmin palıd ağacı özbək və Azərbaycan xalqlarının səadəti və firavanlığı naminə qol-budaq atmış və bundan sonra da atacaqdır.

XX əsrdə özbək xalqı və Azərbaycan xalqı da tarixin çox keşməkeşli bir yolunu keçmişlər. Xalqlarımız Şərqdə qədim dövlətçiliyə malik olmuşlar. Özbək torpağındakı qüdrətli dövlətlər dərin iz buraxmışlar. Azərbaycan torpağında da belə olmuşdur. Lakin sonralar biz onların hamısını müxtəlif imperiyaların tərkibində olduğumuza görə itirdik. Bununla əlaqədar XX əsr – sona yetməkdə olan yüzillik xalqlarımız üçün xüsusilə ağır və çətin olmuşdur. Bu illər, onilliklər ərzində başımıza çox işlər, çox müsibətlər gəldi. Amma bununla yanaşı, çox nailiyyətlər də əldə etdik.

Biz uzaq keçmişi də, yaxın keçmişi də həmişə obyektiv qiymətləndirməliyik. Biz keçmişdə dəyərli, yaxşı nə olmuşdursa, hamısını qiymətləndirməliyik. Yaxın keçmişimizdə yaxşı şeylər çox olmuşdur. Xalqlarımız çağdaş dünya sivilizasiyasına, təhsilinə, elminə qovuşmuşdur. Sözlərimə misal olaraq 1921-ci ildə burada, Daşkənddə yaradılan belə bir universiteti göstərə bilərəm. Əlbəttə, o, istər Mirzə Uluqbəyin, istər İbn Sinanın, istər Fərabinin, istərsə də Şərqin digər adamlarının yaratdıqlarının irsidir. Lakin 1921-ci ildə, böyük tarixi fasilədən sonra universitet yaradıldı və o, ötən bu illər ərzində böyük inkişaf tapdı. Bu gün bu universitet şəhərciyini gördükdə sevindik.

Lakin məsələ heç də bu gözəl kompleksdə, bu gözəl binada deyil, ondadır ki, bu universitet bu illər ərzində nə qədər görkəmli şəxsiyyətlər yetirmişdir; elə şəxsiyyətlər ki, özbək xalqının rifahı naminə, Özbəkistan elminin, mədəniyyət və təhsilinin inkişafı naminə xidmət etmiş və edirlər. Bu sözləri Azərbaycan Universiteti haqqında, digər ali məktəblər haqqında, Özbəkistan Elmlər Akademiyası və Azərbaycan Elmlər Akademiyası haqqında da demək olar. Bunlar əldə etdiyimiz ürəkaçan, gözəl nailiyyətlərdir. Biz məhsuldar qüvvələrin inkişafı baxımından,

şəhər və kəndlərimizin abadlaşdırılması baxımından çox nailiyyətlərə malikik. Azərbaycan və özbək torpağında müasir, mütərəqqi nə varsa, hamısı məhz o illərdə yaradılıb.

Bununla belə, çox itkilərimiz də olub, çox qurbanlar da vermişik. Malik olmadığımız başlıca şey isə bu idi ki, milli azadlığımız yox idi, müstəqilliyə malik deyildik. Bizim öz müstəqil dövlətçiliyimiz yox idi. Bu, tarixi bir hadisədir ki, XX əsrin axırlarında özbək xalqı da, Azərbaycan xalqı da dövlət müstəqilliyi, milli azadlıq əldə etdilər, öz talelərinin sahibi oldular. Bugünkü Özbəkistan da, dövlət müstəqilliyi qazanıldıqdan sonra bu qısa zaman kəsiyində özbək xalqının keçdiyi yolda müstəqillik əldə etməyin necə böyük bir tarixi hadisə, bizim üçün necə bir xoşbəxtlik olduğunu, bunun xalqlarımızın gələcəyi üçün necə böyük əhəmiyyəti olduğunu inandırıcı surətdə göstərir.

Buna görə də, fürsətdən istifadə edərək, sizi və bütün Özbəkistan vətəndaşlarını müstəqillik illərində qazandığınız çox böyük mənəvi, əxlaqi, maddi, intellektual nailiyyətlər münasibətilə təbrik etmək, sizə cansağlığı, firavanlıq və milli azadlıq, dövlət I müstəqilliyi yolunda yeni-yeni uğurlar arzulamaq istəyirəm.

Xalqlarımız bir-birilə bağlıdırlar. Mən Azərbaycan və özbək xalqlarını nəzərdə tuturam. Son illərdə, onilliklərdə də bütün sahələrdə çox yaxın ünsiyyət və təmaslarımız olub, bir-birimizə gedib-gəlirdik. Keçmiş vaxtlarda burada, Özbəkistanda, Daşkənddə mən də olurdum. Düzünü və açığını deyəcəyəm: indi, Daşkəndə bu səfərim zamanı keçirdiyim böyük məmnunluq hissləri məndə əvvəllər heç vaxt olmayıbdır. Hərçənd məni burada o vaxtlar da çox səmimi, qardaşcasına, qonaqpərvərliklə, mehriban qarşılayırdılar, çünki bunların hamısı xalqlarımıza xas keyfiyyətlərdir. Lakin bu gün müstəqil Özbəkistan dövlətində olmaq, azad Özbəkistanda olmaq mənə çox böyük sevinc gətirir.

Bu, bir də ona görə qiymətlidir ki, yaxın keçmişdə, xalqlarımızın malik olduqları xoş və gözəl cəhətlərlə yanaşı, onlar özlərinə qarşı bir çox ədalətsiz münasibət faktları ilə, bir çox ayrı-seçkilik faktları ilə, xalqlarımızın milli ləyaqətini alçaltmaq cəhdləri ilə də qarşılaşırdılar. Bu təhqirlər, bəzən ağır təqiblər həddini aşır və mənəvi, əxlaqi genosid halını alırdı. Biz bunlara da məruz qaldıq. Bunlar da keçmişimizin mərhələləridir. Buraya 20-ci və 30-cu illərdə xalqlarımızın məruz qaldıqları repressiyalar – siyasi repressiyalar və sonrakı illərdə xalqlarımızın məruz qaldıqları digər məhrumiyyətlər də daxildir. Bədnam yenidənqurma illəri, 80-ci illər həm özbək xalqı üçün, həm də Azərbaycan xalqı üçün xüsusilə ağır dövr olmuşdur.

Sovetlər İttifaqının o zamankı rəhbərliyi, Sovetlər İttifaqının rəhbərliyindəki ayrı-ayrı şəxslər tərəfindən edilən bu cür ədalətsizlik, bu cür

hörmətsiz münasibət, mən deyərdim, o vaxtadək heç zaman görünməmişdi. Bununla əlaqədar, mən şahidi olduğum bəzi şeylər barədə danışmaq istərdim. Bilirsiniz ki, mən 1982-ci ilin sonunda Azərbaycanın rəhbəri vəzifəsindən Moskvaya dəvət olundum və beş ildən artıq bir müddətdə Sov. İKP MK Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışdım. Həmin illərdə mən o quruluşun, o dövlət quruluşunun, o ideologiyanın, xüsusən də o illərdə ölkəyə, Sovetlər İttifaqına rəhbərlik edən adamların ciddi qüsurları sayıla biləcək çox şeylər görmüşəm.

Bədnam yenidənqurma başlandı. Keçmişdə nə olmuşdusa, durğunluq dövrü adlandıraraq pisləməyə başladılar. Təəssüf ki, belə kampaniyalar Sovetlər İttifaqının tarixində əvvəllər də olmuşdur. Rəhbərlik dəyişən kimi, keçmişdə olan hər şeyi pisləməyə, təqiblərə, repressiyalara başlayırdılar. İndi də növbəti belə mərhələ başlamışdı. Onu da deyim ki, bu, həmin quruluşun, ideologiyanın, cəmiyyətin xarakterik cəhəti idi və bu quruluşun hansı qüsurlardan əziyyət çəkdiyini çox aydın göstərirdi.

Məlumdur ki, tənqid həmişə işə kömək etmişdir. Sağlam, ədalətli tənqid həmişə lazımdır və bu gün də gərəkdir, ondan heç kəs və heç vaxt imtina edə bilməz. Əksinə, öz nailiyyətlərimizi də və gələcəkdə aradan qaldırmaq, yol verməmək üçün səhvlərimizi, nöqsanlarımızı da görməliyik, burada elə bir xüsusi şey yoxdur. Ancaq bütün bunlar hansısa adamları, siyasi xadimləri, xüsusən də bütöv xalqları, respublikaları gözdən salmaq vasitəsinə çevriləndə dəhşətli olur.

Həmin bu dəhşət də bizim xalqlarımız – özbək xalqı və Azərbaycan xalqı barəsində baş verdi. Böyük təbii ehtiyatları, əmək ehtiyatları, çox ağıllı adamları olan Özbəkistan həmin illərdə hamımızın daxil olduğumuz Sovetlər İttifaqının iqtisadiyyatına böyük töhfə verirdi, çoxlu nailiyyətləri, uğurları var idi. Bunu heç kəs inkar edə bilməz. Biz bu gün buraya gələrkən İslam Abduqəniyeviç ilə söhbət edir və o dövrdə Özbəkistanın nə qədər pambıq istehsal etdiyini xatırlayırdıq. Sovetlər İttifaqında pambığın əsas hissəsi – 80 faizi Özbəkistanda istehsal olunurdu.

Pambıq isə o zaman ağ qızıl adlandırılırdı və Sovetlər İttifaqının başlıca ixrac məhsullarından biri idi, yəni Sovet dövlətinin xəzinəsinə böyük məbləğdə valyuta gətirən məhsul idi. Bunun hamısı da burada, Özbəkistanda, özbək xalqının əməyi, bacarığı sayəsində istehsal olunurdu. Sovetlər İttifaqının toxuculuq sənayesi neçə-neçə illər Özbəkistan pambığı ilə işləmişdir. Sovetlər İttifaqının isə çox böyük toxuculuq sənayesi var idi. Yeri gəlmişkən deyim ki, indi Rusiyada bu müəssisələrin çoxu dayanmışdır, çünki pambıq yoxdur, əlbəttə, başqa səbəblər də var. Ancaq Özbəkistanda təkcə pambıq deyil, bir çox başqa kənd təsərrüfatı

məhsulları, çoxlu sənaye malı da istehsal edilirdi. Özbəkistanın mineral ehtiyatlarının bir çoxu tamamilə bütün Sovetlər İttifaqı üçün istifadə olunurdu.

Burada çıxarılan, istehsal olunan hər şeydən özbək xalqının özünə çox az pay çatırdı. Özbəkistan xalqı Özbəkistan Sovetlər İttifaqının ümumi iqtisadiyyatına bax, belə töhfə verirdi. Bütün bunları qiymətləndirmək, layiqincə dəyərləndirmək lazım idi. Bir vaxt var idi ki, həqiqətən qiymətləndirilirdi, Özbəkistanda çox adamlar mükafatlandırılır, onların bir çoxunun böyük hörməti var idi. Amma birdən-birə hər şeyi tamamilə başqa tərəfə döndərmək nəyə lazım idi, bütün bunları pisləmək, gözdən salmaq nəyə lazım idi? Bunun vasitəsilə də bütün özbək xalqına qarşı əslində ideoloji, mənəvi soyqırımı törətmək nəyə lazım idi?

Mən sizə açığını deyəcəyəm, o illərdə Moskvada işləyərkən bütün bu ədalətsizlikləri, haqsızlıqları, vicdansızlıqları gördükdə çox əzab çəkirdim. Belə zəngin tarixi, belə zəngin müasir imkanları olan bütöv bir xalqın taleyi yaramaz bir adamın – Qdlyanın və onun kimilərin ixtiyarına verilmişdi, onlar da hər cür yolverilməz üsullara, saxtakarlıqlara, digər fitnə-fəsadlara əl ataraq «Özbəkistanda pambıq işi» deyilən iş uydurmuşdular, kütləvi həbslər keçirir və Sovet İttifaqının rəhbərliyinə, Qorbaçova uydurma məlumatlar göndərirdilər. Bu məlumatlar əsasında isə bütöv bir xalq haqqında qərar çıxarılırdı.

Heç cür sakit xatırlaya bilmirəm. Bir dəfə MK-nın baş katibi Qorbaçov Qdlyanı şəxsən qəbul etdi və onun məlumatı Siyasi Büroda müxtəlif məsələlərin müzakirəsi və bütöv bir xalq, belə gözəl bir respublika barəsində qərarlar qəbul edilməsi üçün əsas oldu. Görün, necə ədalətsizlik idi, burada nə qədər adam qanunsuz həbs olundu, təqiblərə, təhqirlərə məruz qaldı. Bütün Sovet İttifaqına, nəinki Sovet İttifaqına, hətta bütün dünyaya car çəkirdilər ki, guya Sovet İttifaqında bütün korrupsiya ancaq Özbəkistanda cəmləşmişdir. Sonralar bu üsulu Azərbaycanda, bəzi Orta Asiya respublikalarında tətbiq etməyə çalışdılar.

Qəribədir, olmaya korrupsiya nəsə yeni bir təzahür idi? Halbuki bəşər cəmiyyəti nə qədər mövcuddursa, korrupsiya da bir o qədər mövcuddur. Korrupsiya həmişə olmuşdur, Sovet hakimiyyəti dövründə də, Sovet İttifaqının bütün regionlarında da mövcud olmuşdur. Amma bu işi həddindən ziyadə şişirdilmiş bir şəkildə qələmə vermək, yəni bunların hamısının guya yalnız Özbəkistanda kök atdığını, ittifaqın qalan bütün regionlarında hər şeyin öz qaydasında olduğunu iddia etmək o demək idi ki, Sovet İttifaqının bütün müsibətlərinə, bəlalarına sanki Özbəkistan, özbək xalqı günahkar idi. Mən sizə açığını deyəcəyəm, o dövr ədalətsizlik, vicdansızlıq və hətta alçaqlıq, əclaflıq dövrü idi.

Özbək xalqı bu faciəni yaşadı. Bununla yanaşı, bu da faciəli idi ki, hər həftə Rusiyanın müxtəlif regionlarından adamların – sıravi işdə, partiya, təsərrüfat işlərində çalışanların siyahısını tutub onları Özbəkistana göndərirdilər. Bunu Sov. İKP MK-da edirdilər. Mən bir neçə dəfə soruşdum: siz niyə belə edirsiniz? Cavab verirdilər ki, guya, Özbəkistanda iş aparmağı bacaran adamlar yoxdur, onlara daha etibar etmək olmaz. Özü də elə bir ölkədə ki, o, dünyaya hələ uzaq dövrlərdə, orta əsrlərdə görkəmli alimlər, mütəfəkkirlər vermişdir; elə bir ölkədə ki, XX əsrdə gözəl alimlər, qabiliyyətli dövlət xadimləri yetirmişdir. İndi isə birdən məlum olur ki, orada iş aparmağa qadir adamlar yoxdur. Odur ki, Ryazan və ya Tambov vilayətindən rayon partiya komitəsinin hansısa bir təlimatçısı, yaxud şöbə müdiri buraya rəhbər partiya işinə göndərilirdi. Bu, bütöv bir kampaniya idi.

Təkrar edirəm, o dövr Özbəkistanın həyatında ağır bir dövr idi. Özbək xalqı buna sinə gərdi, dözdü. O vaxtlar sizdə itkilər oldu. Lakin bununla bərabər, bu, o vaxtlar Sovet İttifaqının rəhbərliyində olmuş rəhbərlərin və rəhbər özəyin iç üzünü, xislətini çox əyani şəkildə nümayiş etdirir. Bunlar heç də xırda məsələlər deyildir. Mən hesab edirəm ki, ümumiyyətlə, bu, milli respublikalar – həm Orta Asiya respublikaları, həm də Azərbaycan barəsində bir xətt idi.

Xüsusilə 1987-ci ilin axırında mən bütün yüksək vəzifələrdən istefa verdikdən sonra ikinci bir «Özbəkistan işi»ni Azərbaycanda törətməyə cəhd göstərmişdilər. Mən bilirdim ki, buraya müxtəlif hüquq – mühafizə orqanlarından – prokurorluqdan, DİN-dən, DTK-dan və s. bir neçə yüz nəfər işçi göndərilmişdi və onlar yalnız bir şeyə, bütün vilayətlərdə, bütün sahələrdə müxtəlif saxta cinayət işləri qurmağa çalışırdılar. Təxminən 1988-1989-cu illərdən etibarən Azərbaycan barəsində də eyni işlər başlandı. Azərbaycan Respublikasına, Azərbaycan xalqına da böyük zərər vuruldu. Bir çox adamlar nahaqdan repressiyaya məruz qaldılar. Ola bilsin, bu, Özbəkistandakı qədər geniş miqyas almadı, o dərəcəyə çatmadı. Ola bilsin, buna vaxt çatmadı, yaxud sonrakı hadisələr buna imkan vermədi. Ancaq bütün bunlar Azərbaycanda da oldu.

Bu dərəcədə olmasa da, belə münasibət Qazaxıstana və qonşu respublikalara – Türkmənistana, Qırğızıstana qarşı da özünü göstərdi. Bunların hamısı məndən ötrü, uzun illər, on illər ərzində kommunist partiyasının ideallarına vicdanla və sədaqətlə xidmət etmiş, Sovetlər İttifaqına xidmət göstərmiş bir adamdan ötrü faciə idi. Bu, məndən ötrü dəhşətli hadisə idi.

Ancaq eyni zamanda bunların hamısı bizim xalqlarımıza qarşı yekəxana, bəzi hallarda isə şovinist münasibətin, – ayrı cür qiymətləndirə

bilmirəm, – təzahürü idi. Eyni zamanda həm də ona görə baş verirdi ki, xalqlarımızın özünün daxilində natəmiz, vicdansız, şəxsi rifahı naminə xalqının, öz dövlətinin milli mənafelərini satmağa hazır olan, şəxsi mənafeləri naminə ayrı-ayrı rəhbərlər qarşısında qulluq göstərməyə çalışan, milli mənafeləri, xalqının, torpağının mənafelərini qurban verən adamlar var idi. Beləliklə Özbəkistanda da, Azərbaycanda da, bəzi başqa qonşu respublikalarda da var idi.

Qəribədir, Qafqazda üç respublika var – Azərbaycan, Gürcüstan və Ermənistan. Özbəkistana yönəldilən bütün bu zərbələrin hamısı Zaqafqaziyada yalnız Azərbaycana tuşlanırdı, elə bil, bizimlə qonşu olanlar başqa cür idilər. Bunu necə ədalətli saymaq olar? Heç cür. Ona görə də bir də deyirəm, keçmişdən nəticələr çıxararkən ətrafımızdakılar barədə, xalqımızın içərisində yaşamış, çalışmış insanlar haqqında da ciddi düşünməliyik.

Xatirimdədir, mən 1983-cü ildə Sovetlər İttifaqının böyük bir partiya-hökumət nümayəndə heyətinin başçısı kimi Vyetnama getmişdim. 1983-cü il sentyabrın axın idi, biz Daşkənddə dayandıq. O zaman mən Özbəkistanın rəhbəri olan Şərəf Rəşidov ilə bir neçə saat söhbət etdim. Onun çox ağır əhval-ruhiyyəsini başa düşdüm, o zaman təqiblər, cürbəcür ədalətsiz yoxlamalar və sairə başlanmışdı. Mən ona dedim ki, Moskvaya qayıdan kimi Siyasi Büroda bu barədə danışacağam, – onda baş katib Andropov idi, – ona danışacağam və Özbəkistana olan bu ədalətsiz meyllərin qarşısını almaq üçün öz tərəfimdən tədbirlər görməyə çalışacağam. Ancaq biz Vyetnamda olanda xəbər gəldi ki, Şərəf Rəşidov vəfat etmişdir.

Moskvaya qayıdarkən yolüstü yenə burada, Daşkənddə dayandım. Artıq respublikanın rəhbərləri Usmanxocayev və Xudayberdiyev idi. Mən hava limanında onlarla söhbət etdim. Mən indi bunu açıq deyirəm, çünki bu, tarixdir, onu çoxları bilməlidir. Mən onlara dedim ki, Vyetnama gedərkən burada məlumat aldım və hiss edirəm ki, xalqınıza qarşı, respublikanıza qarşı ədalətsiz niyyətlər, meyllər var. Mən Moskvada öz tərəfimdən lazımi tədbirlər görəcəyəm, amma siz də ləyaqətli olun. İndi siz respublikaya başçılıq edirsiniz, bu işə layiq olun, öz xalqınızı öz respublikanızı müdafiə edin. Çünki mən artıq yaranmış olan vəziyyəti başa düşürdüm.

Çox təəssüf ki, onlar layiqli olmadılar. Qınamağa haqqım da yoxdur, onlar sizin adamlardır, siz də qiymət verməlisiniz. Mən sadəcə olaraq öz təəssüratımdan və sonralar burada, Özbəkistanda nələr olduğundan və Moskvada nə kimi qərarlar çıxarıldığından danışıram. Sonralar onların hər ikisi öz vəzifələrini itirdi, onlar da repressiyalara məruz qaldı, gözümçıxdıya salındılar və sair. Bunlar məlumdur. Əgər onlar öz xalqının milli mənafelərini müdafiə etmək üçün prinsipial mövqe tutsaydılar, şübhəsiz, onda belə hadisələr baş verməzdi.

Belə hallar sonra da oldu. Siz məni bağışlayın, bəlkə kiməsə elə görünə bilər ki, mən familiyalarını çəkməklə düz iş görmürəm. Sonra sizdə bir rəhbər peyda oldu – Nişanovu deyirəm.

Axı nə qədər hallandırmaq olardı, o, elə hey, oturub-durub «rəşidovçuluq», «kunayevçilik» deyirdi, mən istefa verdikdən sonra isə hətta bir neçə dəfə «əliyevçilik» demişdi. Bəs niyə başqa «çilik» yox idi, elə təkcə «rəşidovçuluqmu», «kunayevçilikmi», «əliyevçilikmi» vardı? Yoxsa, bütün Sovet İttifaqı yalnız bu şəxslərin üzərində qərar tutmuşdu? 1990-cı ilin yanvarında – Azərbaycana iri qoşun kontingenti yeridib, Sovet İttifaqının, Moskvanın da, Azərbaycanın da kommunist rəhbərliyinin ədalətsizliyinə, ədalətsiz qərarlarına qarşı ayağa qalxan xalqı qan içində boğduqları və bir gecədə nə qədər adamı məhv etdikləri günün ertəsi mən Moskvada mitinqdə çıxış edərək həmin hərbi əməliyyata qarşı öz etirazımı bildirəndən təxminən 10 gün sonra «Pravda» qəzetində «Əliyevçilik» adlı böyük bir məqalə dərc edildi.

Başa düşürsünüzmü nə olmuşdu? «Pravda»nın bu hərəkəti, Moskvada oturan ayrı-ayrı şərəfsiz xadimlərin dilindən çıxan belə sözlər adama ağır gəlirdi. Ancaq bunu hələ birtəhər başa düşmək olardı, çünki onlar bunu bir məqsədlə edirdilər. Amma bu sözləri öz xalqlarımızın nümayəndələri dilinə gətirdikdə, buna, açığını deyim, dözmək mümkün deyildi.

Budur, Özbəkistan bu cür vəziyyətə düşmüşdü. İndi mən Özbəkistanın bu ağır vəziyyətdən çıxmasına sevinirəm, ona görə ki, Özbəkistan məhz bu ağır vəziyyətdən çıxmışdır. Burada adamlar, nəhayət, başa düşmüşlər ki, öz şərəfini, öz milli ləyaqətini və öz milli mənafelərini qorumaq lazımdır. Həm də bütün bunlara Özbəkistanın indiki prezidenti İslam Abduqəniyeviç Kərimov başçılıq etmişdir.

Açığını deyəcəyəm, mən İslam Abduqəniyeviçi əvvəllər, Moskvada işlədiyim vaxtlardan tanıyıram. O, Özbəkistanda rəhbər vəzifələrdə işləyirdi. Amma Özbəkistana rəhbərlik etməyə başladıqdan sonra öz xalqının, öz respublikasının milli mənafelərinin müdafiəsində mərdliklə və cəsarətlə durduqda, uzun illər ərzində mərkəzdə, Moskvada Sovet İttifaqının rəhbərliyi tərəfindən Özbəkistana qarşı törədilmiş ədalətsizliyin əleyhinə mərdliklə və cəsarətlə çıxış etdikdə İslam Kərimov mənim nəzərimdə daha da ucaldı. Mənə elə gəlir ki, bununla da o, dərhal öz xalqının, öz respublikasının adamlarının nüfuz və hörmətini qazandı. Məhz onun ədalətli, vicdanlı, düz adam olması, cəsarəti, qəhrəmanlığı o ağır illərdə Özbəkistanın sağlam qüvvələrini sıx birləşdirdi və Özbəkistana qarşı, Özbəkistan ətrafında və Özbəkistanın özündə törədilmiş bütün bu rüsvayçılıqlara, eybəcərliklərə son qoydu.

Mən bunu onun özbək xalqı qarşısında tarixi xidməti hesab edirəm. Zənnimcə, bunun heç də təkcə Özbəkistan üçün deyil, başqa məmləkətlər üçün də çox böyük əhəmiyyəti var. Bu onu göstərir ki, rəhbər işçi necə olmalıdır. Rəhbər işçi öz xalqının mənafelərini qorumağı bacarmalı, ədalətli olmalı, öz xalqının mənafelərini müdafiə etmək naminə heç nədən qorxub çəkinməməlidir. İslam Abduqəniyeviç məhz belə rəhbər işçi oldu.

Buna görə də, tamamilə qanunauyğundur ki, həmin vaxtdan bəri o, Özbəkistana dəyişmədən rəhbərlik edir. Məncə, sizin xalqınız üçün böyük xoşbəxtlikdir ki, həmin ağır dövrdə – keçid dövründə, Sovet İttifaqının dağılmağa başladığı, Özbəkistan öz dövlət müstəqilliyinə nail olduğu dövrdə Özbəkistana, özbək xalqına belə müdrik, təcrübəli dövlət xadimi rəhbərlik etmişdir; elə xadim ki, o keşməkeşli dövrdə öz xalqını bu çətinliklərdən heç bir itki, tələfat vermədən, nöqsansız, qüsursuz keçirə bilmişdir.

Dövlət müstəqilliyinin təşəkkül tapması mürəkkəb prosesdir, heç də sadə proses deyildir. Sizə deyim ki, dövlət müstəqilliyi əldə edilməsi ölkələrimiz üçün ilahi vergisi, bir nemət idi, çünki Sovet İttifaqı parçalanıb yox oldu. Amma bununla bərabər, milli dövlət quruculuğunun təşəkkülü, müstəqilliyin təşəkkülü mürəkkəb bir proses idi. Bu proses, məsələn, Azərbaycanda çox ağır getmişdir. 1988-ci ildə Azərbaycana qarşı erməni təcavüzü başlandı və bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olundu, bir milyondan çox Azərbaycan sakini öz yurd-yuvasından – işğal edilmiş rayonlardan didərgin salındı və onlar qaçqın vəziyyətində ağır şəraitdə, çadırlarda yaşayırlar. 1990-cı il 20 Yanvar faciəsi barədə danışdım. O vaxt xalq Azərbaycan barəsində ədalətsizliklərə qarşı çıxaraq kütləvi mitinqlər, yığıncaqlar keçirirdi, Sovet qoşunlarının iri kontingentini Azərbaycana yeridib çoxlu adamı məhv etdilər. Bu da əslində xalqa qarşı soyqırımı idi.

Bundan əlavə, Azərbaycanın özündə daxili vəziyyət sabit deyildi. Müxtəlif siyasi qruplaşmalar, qanunsuz silahlı dəstələr peyda olmuşdu və hakimiyyət uğrunda mübarizə başlanmışdı. Nəticədə həmin dövrdə hakimiyyət üç dəfə dəyişdi. Hakimiyyət dəyişikliyi 1992-ci ildə baş verdi. Xalq Cəbhəsi hakimiyyətə gəldi və bir il ərzində nüfuzunu itirdi. 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlandı. Azərbaycanda müxtəlif silahlı dəstələr arasında hakimiyyət uğrunda mübarizə və eyni zamanda təcavüz davam edir, Azərbaycan öz ərazisinin müdafiəsi uğrunda vuruşurdu.

Lakin 1993-cü ildən sonra biz vəziyyəti tədricən sabitləşdirməyə, – siz bunu bilirsiniz, – vətəndaş müharibəsini dayandırmağa müvəffəq olduq, hərçənd 1994-cü və 1995-ci illərdə Azərbaycanda konstitusiyalı hakimiyyəti silahlı yolla devirməyə yenidən cəhd göstərildi. Biz bunun da

qarşısını aldıq. Son iki ildə Azərbaycanda daxili siyasi, ictimai vəziyyət sabitləşibdir. Camaat sabit və dinc yaşayır. Üç il bundan əvvəl biz Ermənistanla atəşkəs haqqında saziş bağladıq. İndi müharibə getmir, qan tökülmür, tələfat yoxdur. Biz Ermənistan-Azərbaycan münaqişəsini dinclikla aradan qaldırmağa çalışır, danışıqlar aparırıq. 1988-ci ildən 1993-cü ilədək Azərbaycanda vəziyyət barədə qısa məlumat proseslərin Azərbaycanda və Özbəkistanda necə getdiyi haqqında sizdə təsəvvür yaradır.

Şübhəsiz ki, Azərbaycanda özünəməxsus şərait var idi – erməni təcavüzü daxildə çox şeyi dəyişmişdi. Ancaq bununla belə, Azərbaycanda layiqli lider olmadı ki, xalqı birləşdirə bilsin, hətta xarici hərbi təcavüzü də nəzərə alaraq Azərbaycan Respublikasına, Azərbaycan xalqına çox böyük zərər vuran daxili qarşıdurmaya, daxili mübarizəyə yol verməsin.

Özbəkistanda siz öz dövlət müstəqilliyinizi əldə etdikdən sonra respublikanızda keçdiyiniz yolu məhz bu baxımdan təhlil edib qiymətləndirməlisiniz. Sizin də problemləriniz, çətinlikləriniz var. Bu, təbiidir. Keçid dövrü heç kim üçün, heç bir ölkə üçün asan olmamışdır. Ancaq siz bu çətinlikləri uğurla aradan qaldırır, bütün bu mərhələlərdən müvəffəqiyyətlə keçir, iqtisadi islahatları həyata keçirirsiniz. Demokratikləşdirmə prosesi gedir, Özbəkistanın özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla bütün sahələrdə demokratiya prinsipləri bərqərar olur. Bir də deyirəm, bunların hamısı məhz ona görə mümkün olmuşdur ki, həmin tarixi məqamda sizin respublikanızın başında İslam Kərimov durmuşdur. O, öz üzərinə çox böyük məsuliyyət və bütün bu prosesin böyük ağırlığını götürmüşdür və müstəqillik şəraitində Özbəkistanı bacarıqla, uğurla irəliyə doğru aparır.

Liderin, şəxsiyyətin rolunun nə demək olduğunu konkret olaraq bu misal və bir çox digər misallar inandırıcı şəkildə göstərir. Özbəkistanda tarixin yaxşı bildiyim son dövründə belə lider, belə şəxsiyyət, məhz görkəmli şəxsiyyət İslam Abduqəniyeviçdir. Dünən və bu gün biz bir çox məsələlər barəsində ətraflı fikir mübadiləsi etmişik. Bütün məsələlərdə mövqelərimiz eyni, baxışlarımız oxşardır. Hər ikimizin qəti mövqeyi belədir ki, ölkələrimiz üçün dövlət müstəqilliyi dönməz hadisədir, bizim gələcəyimizdir. Ən başlıcası isə odur ki, Özbəkistan üçün, Azərbaycan üçün dövlət müstəqilliyi əbədidir. Dünən və bu gün İslam Abduqəniyeviç ilə keçirdiyimiz bütün görüşlərdən çıxardığım ən böyük nəticə budur.

Mən şadam ki, bütün tarix boyu dostluq etmiş, bir-birini dəstəkləmiş, sıx bağlı olmuş xalqlarımız indi, tarixin bu çox mühüm kəsiyində, XX əsrin başa çatdığı, XXI əsrə daxil olduğumuz bir vaxtda milli dövlət quruculuğumuzun, müstəqil dövlətimizin təşəkkülü və formalaşması prosesinin getdiyi bir dövrdə biz yenə də bir-birimizlə sıx bağlıyıq. Biz bir sıra sənədlər, o cümlədən də dostluq və əməkdaşlıq haqqında sənəd,

tərəfdaşlıq haqqında sənəd, əməkdaşlığımızın daha da genişləndirilməsi haqqında sənəd imzalamışıq. Bu sənədlərin hamısı yaxşı hüquqi bazadır. Ancaq ən başlıcası odur ki, bizim düşüncələrimiz, arzularımız, respublikalarımızı, xalqlarımızı haqqında dünən və bu gün İslam Abduqəniyeviçlə razılığa gəldiyimiz prinsiplər əsasında daha sıx birləşdirir.

Mən şadam ki, hazırda Özbəkistan yüksəlişdədir. Özbəkistanda bu cür müsbət proseslər gedir. Mən şadam ki, Özbəkistan Dünya Birliyində layiqli yerini tutubdur. Bu illər ərzində Özbəkistanın nüfuzu xeyli yüksəlibdir. Mən yenə müqayisə etmək istəyirəm. Özbəkistan həmişə diqqəti cəlb edən ölkə olubdur. Ancaq nə vaxtsa onun bugünkü kimi belə beynəlxalq nüfuzu olubmu? Müstəqillik – Özbəkistan Respublikasının apardığı, Özbəkistan prezidenti İslam Kərimovun apardığı ağıllı, düzgün xarici siyasət deməkdir.

Bütün bunlar Özbəkistanın parlaq gələcəyin astanasında olmasından xəbər verir. Əziz dostlar, mən sizə və sizin şəxsinizdə bütün özbək xalqına səmimi qəlbdən səadət və xoş həyat arzulayıram. Əminəm ki, müstəqillik yolunda sizin hamınızı gözəl gələcək gözləyir və biz həmişə sizin uğurlarınıza sevinəcəyik. Şübhəsiz ki, bizim sıx əlaqələrimiz, əməkdaşlığımız bu işə xidmət edəcək, Özbəkistanda da, Azərbaycanda da sosial-siyasi sahədə, iqtisadi həyatda bütün dəyişikliklərin daha uğurla keçirilməsinə, bir də deyirəm, daha yüksək sürətlə irəliləməyimizə imkan yaradacaqdır.

Mən başa düşürəm ki, bütün bu işlərdə alimlərin, professorların, elmin, ali təhsilin, universitetin rolu çox böyükdür. Mən şübhə etmirəm ki, Özbəkistanın elmi mərkəzi olan, yüksək ixtisaslı kadrlar hazırlanmasında mühüm rol oynayan Daşkənd Dövlət Universiteti bu gözəl prosesin fəal iştirakçısı olacaq, Daşkənd Universiteti ilə Bakı Universiteti, Özbəkistanın və Azərbaycanın alimləri, elm və mədəniyyət xadimləri arasında əlaqələr özbək və Azərbaycan xalqlarının dostluq və qardaşlığını bundan sonra da möhkəmləndirməkdə bizə kömək edəcəkdir.

Mənə burada göstərdiyiniz yüksək şərəfə görə bir daha təşəkkürümü bildirmək, universitetin professor-müəllim heyətinə, tələbələrinə, Özbəkistanın bütün gənclərinə səadət və xoş həyat arzulamaq istəyirəm. Prezident İslam Kərimov başda olmaqla özbək xalqına gələcək uğurlar, gələcək tərəqqi diləmək istəyirəm. Sağ olun.

Sizə Özbəkistanda da, Azərbaycanda da eyni dərəcədə əziz tutulan böyük Məhəmməd Füzulinin portretini hədiyyə etmək istəyirəm. Bu, bizim qohumluğumuzu, zəngin keçmişimizi bir daha və bir daha xatırladacaq və gözəl gələcəyimizə xidmət edəcəkdir.

Sizin kitabxananız üçün Azərbaycan haqqında kitablar, Azərbaycanın müxtəlif müəlliflərinin kitablarını bağışlamaq istəyirəm. Hesab edirəm ki, bunlar da sizin kitabxananızı zənginləşdirəcəkdir.

RUSİYA ELMLƏR AKADEMİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ*

3 iyul 1997-ci il

Hörmətli Yuri Sergeyeviç!

Hörmətli dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Rusiya Elmlər Akademiyasına elmi və yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar arzulayıram, ən səmimi və ən xoş arzularımı bildirirəm. Mən olduqca şadam ki, siz məni bu görüşə dəvət etmisiniz. Mən bunu Azərbaycan dövlətinə, şəxsən mənə Rusiya Akademiyasının böyük hörməti kimi qiymətləndirirəm. Buna görə də mən bu dəvəti böyük məmnuniyyətlə qəbul edib buraya sizin yanınıza gəldim.

Rusiya akademiyası zəngin və böyük tarixə malikdir. Onun 275 yaşı var. O vaxtlar Sovet İttifaqının akademiyası olan bu akademiyanın 250 illiyini necə bayram etdiyimizi xatırlayıram. Bundan sonra biz bütün akademiyaların yubileylərini bayram etdik. İttifaq akademiyasının yubileyinə həsr olunmuş yubileylər müttəfiq respublikalarda da qeyd edilirdi. Sovet İttifaqı akademiyasının da, müttəfiq respublikaların akademiyalarının da yüksək hökumət mükafatlarına layiq görüldüyü yadımdadır.

Yuri Sergeyeviç, siz dediniz ki, akademiya əvvəlcə imperator, Rusiya, sonra da Sovet İttifaqının akademiyası olmuşdur. Zənnimcə, indi bu akademiya özünün əsl adına malikdir, çünki bu akademiya 275 il bundan əvvəl məhz görkəmli rus alimləri, Rusiya alimləri tərəfindən yaradılmışdır və onun 275 il ərzində keçdiyi yol böyük, şanlı, zəngin bir yoldur, bu illər ərzində rus alimləri, Rusiya akademiyası olduqca böyük iş görmüşlər, başlıcası isə rus alimləri, Rusiya akademiyası dünya elminin, dünya sivilizasiyasının inkişafına olduqca böyük töhfələr vermişlər. Bu, şübhəsizdir və mənca, rus xalqının, Rusiyanın milli iftixar obyektidir. Bu, bizdə də qürur hissi doğurur, çünki biz də uzun illər, onilliklər ərzində Rusiya akademiyası ilə bağlı olmuşuq.

Son illərdə Rusiya akademiyasının çətin bir dövr, eləcə də indi müstəqil dövlətlər olan keçmiş sovet respublikalarının bütün akademiyalarının ağır bir dövr keçirməsi aydındır və hətta müəyyən dərəcədə qa-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Onuncu kitab. B., Azərnəşr, 2002, s.259-274

nunauyğundur. Nəinki elm, nəinki akademiya, həm də bütün cəmiyyət, bizim hamımız, vaxtilə Sovet İttifaqında yaşamış, indi isə müxtəlif dövlətlərdə yaşayan adamlar mürəkkəb, ağır keçid dövrünü keçirirlər.

Bununla bərabər belə hesab edirəm ki, Rusiyada, Azərbaycanda və bizə yaxın olan digər ölkələrdə yaşamış əvvəlki nəsillərin adamları tarix ərzində neçə-neçə çətin illər və hətta onilliklər keçirmişlər. Lakin insanlar yaşayır, insanlar yaradır, çətinlikləri dəf edirdilər. Buna görə də heç bir şübhə yoxdur ki, ümumən xalqlarımız, o cümlədən ölkələrimizin elmi bu çətinlikləri dəf edəcəklər, biz tarixin bu çətin, mürəkkəb mərhələsini keçib gedəcəyik və şəxsən mən hesab edirəm ki, bizim hamımızı gözəl gələcək gözləyir.

Gələcək isə bundan ibarətdir ki, indi bütün sistem – ictimai, iqtisadi, sosial sistem, dövlət sistemi yenidən təşkil edilir, o cümlədən elm sahəsində böyük proseslər gedir, dəyişikliklər həyata keçirilir. Bunlar tarixən, obyektiv surətdə zəruridir və biz bu mərhələni nəzərə almalı idik. Rusiyanın götürdüyü xətt də, Azərbaycanda götürülmüş xətt də – həm dövlət siyasətində, həm iqtisadi siyasətdə, həm də sosial siyasətdə – zənnimcə, doğru xətdir, düzgün xətdir və bu xətt belə ağır şəraitdən çıxmağı təmin edəcək, iqtisadi yüksəlişi, cəmiyyətin sosial vəziyyətini və təbii olaraq, akademiyalarımızın elmi idarələrinin daha səmərəli fəaliyyəti üçün müvafiq imkanları təmin edəcəkdir.

Mən buna inanıram və bu inamla da biz Azərbaycanda öz işimizi aparırıq. Amma, ola bilsin, Rusiyada bu məqsədə Azərbaycandakından xeyli tez çatacaqlar, çünki Rusiyada demokratikləşdirmə də, sosial-iqtisadi islahatlar da, siyasi islahatlar da Azərbaycandan əvvəl həyata keçirilməyə başlanmışdır. Müxtəlif səbəblərə görə biz Azərbaycanda bu işə gec başlamışıq. Ona görə də hesab edirəm ki, siz bu ağır vəziyyətdən başqalarından hətta tez çıxacaqsınız və Rusiya akademiyasının daha səmərəli fəaliyyət göstərmək imkanı olacaqdır.

Bilirsiniz, insanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşflər etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar. Ona görə də təsadüfi deyil ki, bəşər tarixinin müxtəlif mərhələlərində elmi kəşflər etmiş və bu kəşfləri ilə cəmiyyəti irəliyə doğru aparan görkəmli insanları biz həmişə böyük məmnunluq hissi ilə xatırlayırıq. Şübhəsiz ki, indi biz elmi – texniki tərəqqinin ən yüksək pilləsində, bəşər sivilizasiyasının ən yüksək pilləsindəyik.

Bir də deyirəm, bu baxımdan Rusiya elminin, alimlərinin dünya elmində xüsusi yer tutmağa hüququ var. Rusiyada elm xeyli əvvəl, 275 il bundan öncə Rusiya akademiyası yaranandan qabaq inkişaf etməyə

başlamış, elmi kəşflər edilmiş və görkəmli şəxslər olmuşdur. Akademiyanın yarandığı vaxtdan etibarən Rusiya elmi özünün təşkilat dövrünü keçirir.

Şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam. Bu gün də sizin hər birinizə ən dərin ehtiramımı bildirirəm. Ona görə ki, cəmiyyətdə, şübhəsiz, müxtəlif adamlar olur, amma elm adamları müstəsna adamlardır. Onlar insana əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və ya digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdırlar. Əlbəttə, bu insanlar ən yüksək hörmətə layiqdirlər.

O ki qaldı Azərbaycan elminə, Azərbaycan öz qədim tarixi, qədim özgün mədəniyyəti və qədim böyük alimləri olan qədim bir ölkədir. Bu onu göstərir ki, Azərbaycan elmi, mədəniyyəti ümumbəşəri sivilizasiyaya çox böyük töhfə vermişdir. Siz yaxşı bilirsiniz ki, Şərq sivilizasiyası, Şərqdə elm çox-çox əvvəllər inkişaf etmiş və dünyaya misilsiz elm nümunələri təqdim etmişdir. Azərbaycanda biz də öz görkəmli adamlarımızla fəxr edirik. Elə adamlar ki, o vaxtlar elmlə məşğul olur, elmi kəşflər edirdilər.

Riyaziyyat həmişə ən mürəkkəb, ən yüksək elm sayılmışdır. Mən bəlkə də səhv edirəm, lakin hər halda bizim nəslin adamları hesab edirdilər ki, riyaziyyat elmində ən görkəmli kəşfləri olan alimlərdən biri məşhur Nəsirəddin Tusidir. O, orta əsrlərdə Marağada gözəl rəsədxanaya malik idi və böyük elmi irs qoyub getmişdir. Mən Azərbaycan millətinə, Azərbaycan xalqına məxsus olan bir çox digər adları da çəkə bilərəm.

Lakin bununla bərabər onların hamısı, şübhəsiz, ümumbəşəri elmin bir hissəsidir, hamısı birlikdə dünya elmini yaratmışdır.

Lakin sonralar, xüsusən XVII-XVIII əsrlərdən sonra Azərbaycanda elmdə durğunluq əmələ gəldi. Bunu da demək lazımdır. Əvəzində, Azərbaycanda elm XIX əsrdə böyük inkişafa başladı, özünü göstərdi. Burada rus alimlərinin olduqca böyük xidməti var. Rus alimləri – Azərbaycanda, Bakıda yaşayıb çalışmış olan alimlər də, istər Sankt-Peterburqda, istər Moskvada, istərsə də Rusiyanın digər şəhərlərində yaşayaraq Azərbaycanla, Azərbaycan alimləri ilə fəal əlaqə saxlamış alimlər Azərbaycanda elmin inkişafı üçün çox işlər görmüşlər. Elə 1945-ci ildə Azərbaycanda yaradılan Elmlər Akademiyası da, əslinə qalsa, rus alimlərinin köməyi ilə hazırlanmışdır. Onlar Azərbaycanda yaşayıb işləyir və Azərbaycanın milli elmi kadrlarını hazırlayır və Azərbaycan Elmlər Akademiyasının təşkilinə və yaradılmasına nail olmuşlar.

1945-ci ildə bizim Elmlər Akademiyası təşkil edilməzdən əvvəl Sovet İttifaqı Elmlər Akademiyasının Azərbaycan filialı mövcud idi. 30-cu illərin ortalarında Azərbaycan filialı yaradıldı. Bu filial böyük iş aparır, milli

kadrlar hazırlayır, elmi tədqiqat institutları, müəssisələri təşkil edirdi. Bunların hamısı öz milli Elmlər Akademiyamıza malik olmaq üçün yaxşı hazırlıq oldu. Mən çox ad çəkə bilərəm. Onlardan biri də akademik Qubkindir. O, Elmlər Akademiyasının Azərbaycan filialının rəhbəri olmuşdur. Digər bir çox alimləri də göstərə bilərəm.

1919-cu ildə Azərbaycanda ilk universitet – ali məktəb təşkil edildi. Bu universitetin təşkilatçıları da dəvət edilmiş rus alimləri idi. Onlardan biri də Razumovski olmuşdur. Sonralar bütün sahələrdə – istər neft elminin, istər yerin təki haqqında elmin inkişafında, təbiət elmlərinin və kimyanın inkişafında rus alimləri olduqca böyük rol oynamışlar. Onların adları məlumdur. Biz onları xatırlayırıq, onların xatirəsini yad edirik və xalqımız Azərbaycan elminin inkişafında, Azərbaycan xalqının təhsilinin, maarifinin inkişafında, Azərbaycanda xüsusən ali təhsilin təşkilində, bütün mədəniyyətin inkişafında rus alimlərinin rolunu heç vaxt unutmayacaqdır.

Bu gün mən daha ətraflı danışa bilərdim, lakin ayrılmış vaxtın çərçivəsindən kənara çıxmaq istəmirəm. Biz mədəniyyətimizlə fəxr edirik, biz görkəmli sənət, musiqi, teatr, opera, balet, rəssamlıq, heykəltəraşlıq əsərləri ilə, görkəmli ədəbiyyat əsərləri ilə fəxr edirik. Bütün bunlarda Rusiya xadimlərinin, rus bəstəkarlarının, rus yazıçılarının, rus rəssamlarının çox böyük təsiri olmuşdur. Biz bunların hamısını yüksək qiymətləndirir və xatırlayırıq.

Buna görə də Yuri Sergeyeviç, Siz dünən, biz sənədləri imzalayarkən, mənim rəsmi səfərimlə əlaqədar Kremldə qəbul olarkən öz qısa çıxışınızda bütövlükdə Azərbaycan xalqının həyatında elmin oynadığı rolu, Rusiya ilə Azərbaycan arasında, rus xalqı ilə Azərbaycan xalqı arasında dostluq münasibətlərinin inkişafında və möhkəmlənməsində rus elminin, Rusiya elminin oynadığı rolu xatırlatdınız. Mən xoşbəxtəm ki, Rusiyanın bir çox görkəmli alimləri ilə şəxsən tanışam, onlardan bəziləri indi buradadırlar. Mən onları burada görməyimə şadam, lakin bəziləri artıq dünyasını dəyişmişlər. Mən akademiyanın prezidenti mərhum Keldışı Azərbaycanda böyük məmnunluqla qəbul etmişəm. Keldış sizdə də, bizdə, Azərbaycanda da olduqca böyük nüfuza malik idi. Onun yeni tədqiqat institutunun yaradılmasında fəal iştirakını biz Azərbaycanda unutmuruq. O vaxtlar, 70-ci illər dövründə bu, Azərbaycan elminin inkişafında olduqca böyük rol oynadı.

Bu gün biz söhbət edib akademik Boqolyubovu, akademik Petrovu xatırladıq, akademik Millionşikovu, akademik Kotelnikovu xatırladıq. Onların çoxu Azərbaycanla olduqca sıx əlaqə saxlamış, Azərbaycanda olmuş, bizim alimlərə kömək etmişlər. Görkəmli alimimiz, Elmlər Akademiyasının prezidenti, məşhur kimyaçı Yusif Məmmədəliyev

akademik Zelinskinin yetişdirməsi olmuşdur. Məhz Zelinskinin rəhbərliyi altında bir alim kimi yetişməsi sayəsində o, Azərbaycan Elmlər Akademiyasına onun mövcudluğunun məhz ilk illərində başçılıq etmiş və kimya elminin inkişafında, xüsusən bir çox elmi tədqiqat institutlarının təşkilində, yaradılmasında mühüm rol oynamışdır.

Bu yaxınlarda biz onun anadan olmasının 90 illiyini təntənəli surətdə qeyd etdik, – təəssüflər olsun ki, o, həyatdan vaxtsız getmişdir, – və akademik Zelinskini və onun əməkdaşlıq etdiyi və onun müəllimləri olduğu bir çox başqa alimləri də xatırladıq. Yadımdadır, mən Moskvada işləyərkən Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olduğum dövrdə təhsil, ali təhsil, maarif, elm sahələrinə rəhbərlik edirdim. Elmlər Akademiyası ilə sıx bağlı idim və öz imkanlarım daxilində, öz səlahiyyətim daxilində Elmlər Akademiyası ilə bağlı bir çox problemlərin həllində fəal iştirak edirdim. Anatoli Petroviç Aleksandrovla istər Kremldə, istər müxtəlif müşavirələr zamanı, istərsə də şəxsi görüşlərimiz zamanı söhbətlərimizi xatırlayıram. Biz onu həmin dövrdə keçirilən sessiyalarda, forumlarda dəfələrlə dinləmişdik. Buna görə də bu gün çox şadam ki, akademik Kudryavtsevlə görüşürəm. Biz onunla müxtəlif qanunlar üzərində, müxtəlif sənədlər üzərində çox işləyirdik – mən bu komissiyaya başçılıq edirdim. O vaxtlar 1983-cü ildə biz dövlətimizin, cəmiyyətimizin qanunlar üzrə yaşayıb işləməsi üçün qanunları yaratmağa yenicə başladığımıza görə çox qanunlar yaratmaq lazım gəlirdi və bu işdə hüquqşünasların, mütəxəssislərin, alimlərin iştirakı tələb olunurdu. Buna görə də onlar bu işə cəlb edilirdilər. Mən akademik Kudryavtsevin rolunu xüsusi qeyd edirəm, çünki o, həmin dövrdə böyük rol oynamış sənədlərin yaradılmasında, hazırlanmasında iştirak edirdi.

O illərdə, 1983-cü ildən başlayaraq, cəmiyyətimizi modernləşdirmək, müxtəlif hüquqi sənədlər, müxtəlif qanunlar yaratmaq işi genişlənən vaxtlarda bu işdə Elmlər Akademiyası da, akademik Kudryavtsev də iştirak edirdilər.

Şadam ki, Rusiya Elmlər Akademiyası yaşayır, mövcuddur və indi siz belə normal, yaxşı vəziyyətdəsiniz. Azərbaycanda akademiya da çətinliklərə məruz qalmışdır. Biz Azərbaycan Elmlər Akademiyasına kömək etmişik, edirik və edəcəyik ki, akademiyamız bu çətinlikləri aradan qaldırsın. Lakin Rusiya Akademiyası ilə Azərbaycan Elmlər Akademiyası arasında daha sıx əlaqələr gərəkdir. Odur ki, mən akademiyalarımız arasında saziş bağlamaq təklifini alqışlayıram.

Mən belə bir məlumatı böyük məmnunluqla qarşıladım ki, bunu oktyabrda Bakıda etmək mümkündür. Mən Yuri Sergeyeviç, Sizi və özünüzlə birlikdə gətirmək istədiyiniz alimlərin hamısını dəvət edirəm.

Buyurub gələ bilərsiniz. Mən sizin hər birinizi dəvət edirəm. Əlaqələri fəallaşdırmaq və əməkdaşlığımızı həqiqətən inkişaf etdirmək üçün sizi Azərbaycanda görməyimə şad olacağam.

Fürsətdən istifadə edərək, bugünkü Azərbaycan haqqında bir neçə söz demək istəyirəm. Sovet İttifaqı parçalandıqdan sonra keçmiş Sovet İttifaqının digər respublikaları kimi, Azərbaycan da dövlət müstəqilliyi əldə etdi. Keçmiş Sovet İttifaqı məkanında indi baş verən hadisələri mən qanunauyğun təzahür hesab edirəm. Keçmiş ittifaq respublikalarının dövlət müstəqilliyi əldə etməsi də qanunauyğun haldır. Əgər bunu kimsə qeyri-normal hal sayırsa və ya kimsə bunu səhv sayırsa, mən hesab edirəm ki, bu, tamamilə qanunauyğun haldır və biz bunu bir fakt kimi qəbul edirik. Hərçənd bu, böyük çətinliklərlə bağlı olmuşdur.

Biz Azərbaycanda müstəqil, hüquqi, sivilizasiyalı dövlət, sivilizasiyalı cəmiyyət quruculuğu yolu tutmuşuq. Azərbaycanda bütün demokratik azadlıqlar təmin edilmişdir, demokratik təsisatlar fəaliyyət göstərir, bütün insan hüquqlarını həyata keçirmək üçün şərait yaradılmışdır. İnsan hüquqlarının müdafiəsi dövlət fəaliyyətimizin təməl prinsiplərindən biridir. Milliyyətindən, dini etiqadından, siyasi əqidəsindən asılı olmayaraq insanların hüquq bərabərliyi, siyasi plüralizm, mətbuat azadlığı – bunların hamısı Azərbaycanda təmin olunmuşdur.

Azərbaycan çoxmillətli ölkədir. Azərbaycanda digər millətlərlə yanaşı, ruslar da yaşayırlar, onlar 400 min nəfərdən çoxdur. Onlar qalan bütün millətlər kimi yaxşı şəraitdə yaşayır, bütün hüquqlara malikdirlər. Azərbaycanda üç konfessiya – müsəlman, pravoslav-xristian və yəhudi konfessiyaları fəaliyyət göstərir. Onlar öz aralarında dostluq edir, sıx əlaqə saxlayırlar. Bir sözlə, bu məsələlər bizdə həll edilmişdir.

Lakin Azərbaycan üçün çox ağır problem budur ki, biz Ermənistanla münaqişə vəziyyətindəyik. Siz bilirsiniz ki, 1988-ci ildə qonşu Ermənistan Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini ilhaq etmək məqsədilə fəal əməliyyatlara başladı, bütün bunlar hərbi təcavüzə çevrildi, döyüş əməliyyatları getdi, çoxlu qan töküldü. Nəticə çox kədərlidir. Müxtəlif obyektiv və subyektiv səbəblər üzündən erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etdi, işğal olunmuş torpaqlardan Azərbaycan millətindən bir milyon nəfərdən çox sakin didərgin salındı, onlar artıq dörd-beş ildir ki, ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır.

Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın, Sovet İttifaqının tərkibində olarkən onun 170 min əhalisi var idi. Onların 70 faizini ermənilər, 30 faizini azərbaycanlılar təşkil edirdilər. Azərbaycanlıların hamısı oradan qovuldu, ermənilərin bir hissəsi də köçüb getdi. İndi bu vilayətin ərazisində cəmi 80 min adam var, onların hamısı erməni mil-

lətindən olan şəxslərdir. Lakin Ermənistanın silahlı birləşmələri öz əməliyyatlarını genişləndirərək Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı yeddi rayonu da işğal etdi. Bu rayonlarda ancaq azərbaycanlılar yaşayırdılar. Oradan bir milyon nəfərdən çox azərbaycanlı qovulub didərgin salınmışdır və onlar olduqca ağır şəraitdə yaşayırlar.

Müharibə gedirdi, döyüş əməliyyatları aparılırdı, qan tökülürdü, hər iki tərəfdən insanlar qırılırdı. 1994- cü ildə biz atəşkəs haqqında saziş bağlamağa razılıq verdik. 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalandı və budur, üç ildən çoxdur ki, müharibə yoxdur. Mən bunu böyük nailiyyət sayıram ki, biz qan tökülməsini dayandırdıq. Biz sülh danışıqları aparırıq. Danışıqlar çətin, ağır gedir. Danışıqlar ATƏT-in Minsk konfransının vasitəçiliyi ilə gedir. İndi, ATƏT dövlətləri başçılarının 1996-cı ilin dekabrında keçirilmiş Lissabon zirvə görüşündən sonra Minsk konfransının üç həmsədri var. Bunlar Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Onlar Lissabon zirvə görüşünün münaqişəni dinclikla aradan qaldırmaq prinsipləri nəzərdə tutulan bəyanatının həyata keçirilməsini təmin etməli, münaqişənin dinclikla aradan qaldırılmasına və müharibəyə son qoyulmasına nail olmalıdırlar.

Biz müharibə istəmirik, biz hərbi əməliyyatlara yenidən başlanmasını istəmirik. Biz bu məsələni dinclikla nizama salmaq istəyirik, baxmayaraq ki, itkilər vermişik, baxmayaraq ki, işğal olunmuş torpaqlarda hər şey dağıdılmış, talan edilmişdir, baxmayaraq ki, on minlərlə adam həlak olmuşdur, baxmayaraq ki, işğal olunmuş torpaqlarda, – bu isə respublika ərazisinin 20 faizinə bərabərdir, – tarixi abidələrimizin hamısı qarət edilmiş, dağıdılmışdır. Bütün bunlara baxmayaraq, biz sülh istəyirik. Ermənistanla dinc münasibətlər, mehriban qonşuluq münasibətləri olmasını istəyirik.

Biz ATƏT-in Lissabon zirvə görüşünün müəyyənləşdirdiyi şərtlər üstündə dururuq – bunlar üç prinsipdən ibarətdir. Birinci prinsip – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınmasıdır. İkinci prinsip – Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcədə özünüidarə statusu verilməsidir. Üçüncü prinsip – Dağlıq Qarabağın bütün əhalisi üçün – erməni və azərbaycanlı əhalisi üçün təhlükəsizliyə təminat verilməsidir. Biz bu prinsiplərlə razıyıq.

Amma təəssüflər olsun, erməni tərəfi bunlarla razılaşmadı, halbuki ötən ilin dekabrında Lissabonda 54 dövlətdən 53-ü, Ermənistan istisna olmaqla, bu prinsiplərə səs verdi. Siz bilirsinizmi ki, iyunun 20-də Denverdə, Birləşmiş Ştatlarda yeddilərin, səkkizlərin, – Rusiya prezidenti Boris Nikolayeviç Yeltsin də orada idi, – görüşü zamanı üç prezident – Rusiya prezidenti, Birləşmiş Ştatların prezidenti, Fransa prezidenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinclikla aradan qaldırılmasının zəruriliyi barədə birgə bəyanat vermişlər.

Dünən prezident Boris Nikolayeviç Yeltsinlə söhbətlər və danışıqlar zamanı bu məsələ əsas yer tutdu və Boris Nikolayeviç bir daha əmin etdi ki, yeri gəlmişkən, dünən bu, mətbuat nümayəndələrinin yanında bəyan olundu, – indi danışıqlar prosesi fəallaşdırılacaq, bu məsələnin nizama salınmasına nail olmaq üçün Rusiyanın səyləri gücləndiriləcəkdir. Şübhə yoxdur ki, Rusiyanın burada olduqca böyük rolu var. Həmsədr kimi Rusiya Minsk konfransının digər həmsədrlərinə nisbətən hətta böyük, daha böyük imkanlara malikdir. Prezident Boris Nikolayeviç Yeltsin tədbirlər görəcəyini vəd etdi.

Mən sizə üz tuturam, bu məsələnin dinc yolla nizama salınması üçün öz nüfuzunuzdan, öz imkanlarınızdan istifadə edin. Qafqazda sülh gərəkdir, Zaqafqaziyada sülh gərəkdir sülh Gürcüstanda da gərəkdir, sülh Ermənistanda da gərəkdir, sülh Azərbaycanda da gərəkdir. Biz özgə ərazisinin bir qarışını da istəmirik. Lakin bununla bərabər, biz Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yol verə bilmərik. Biz Azərbaycan ərazisinin hər hansı bir hissəsini başqa dövlətə verə bilmərik. Biz yol verə bilmərik ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın.

Təəssüf ki, erməni tərəfi Dağlıq Qarabağa göz dikib və ona müstəqillik statusu verilməsini təkid edir. Bu Azərbaycan üçün mümkün deyildir. Yeri gəlmişkən, bu, Rusiya üçün də, Dünya Birliyi üçün də mümkün deyildir – dünyada belə problemlər çoxdur. Bu, 1975-ci il Helsinki aktına ziddir. Bu, BMT nizam-naməsinin prinsiplərinə ziddir. Bu, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının – ATƏT-in prinsiplərinə ziddir. Odur ki, bu, bizim şıltaqlığımız deyildir. Bu bizim tərsliyimiz deyildir. Bunlar beynəlxalq aləmdə tanınmış normalardır. Əgər onlar haradasa pozularsa, əgər haradasa nümunə yaradılarsa, bu, bütün Dünya Birliyi üçün çox ağır nəticələrə gətirib çıxaracaqdır. Bunu baş tutmaz məqsədlər uğrunda mübarizə aparan, hüquqa zidd əməllərin həyata keçirilməsi uğrunda mübarizə aparan adamlar, nəhayət, dərk edib anlamalıdırlar.

Buna görə də sizə müraciət edirəm, sizə açığını deyirəm ki, Azərbaycan ilə Ermənistan arasında sülh bağlanması, əlbəttə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcədə özünüidarə statusu verilməsi şərtilə sülh bağlanması Zaqafqaziyada və bütün Qafqazda dinc gələcəyi təmin edəcəkdir. Yeri gəlmişkən, bu, Rusiya üçün də lazımdır. Qafqazın, Zaqafqaziyanın Rusiya üçün xüsusi əhəmiyyəti var. Qafqazda, Zaqafqaziyada sülh və əmin-amanlıq bütün Rusiya Federasiyası məkanında sabitlik və sülh üçün əhəmiyyətə malik olacaqdır.

Daha bir məsələ barəsində. Azərbaycan neft məmləkətidir. Bax, indi mən burada olan və artıq akademiyada çalışan Nikolay Konstantinoviç Baybakova böyük iftixar və məmnunluq hissi ilə baxıram. O, ömrünün bir çox onilliklərini Rusiyanın, Sovet İttifaqının, Azərbaycanın neft sənayesinin inkişafına və bütövlükdə keçmiş Sovet İttifaqının iqtisadiyyatının inkişafına həsr etmişdir, indi isə elmlə məşğul olur. O, bizim dostumuz, həmyerlimizdir, bakılıdır, hesab edirəm ki, dünyanın ən görkəmli neftçilərindən biridir.

Bakı neft səltənətidir. Azərbaycan neft ölkəsidir. Bu, sizə yaxşı məlumdur. Sonra Rusiyada «İkinci Bakı», «Üçüncü Bakı», «Dördüncü Bakı» oldu – bütün bunlar da Bakı adlanır. İndi Azərbaycan neft sənayesinin inkişafında yeni dövr keçirir. Biz hazırda Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından fəal istifadə edirik. Orada neft ehtiyatları olduqca böyükdür. Biz onlardan istifadə edirik, özü də xarici sərmayələri cəlb etməklə ən iri transmilli şirkətləri – həm Avropa, həm Amerika, həm də Rusiya şirkətlərini cəlb etməklə istifadə edirik.

Son bir neçə ildə burada, Moskvada, Rusiyada bir qədər yanlış, qeyri-düzgün əhval-ruhiyyə yaranmışdı. Deyirlər ki, Azərbaycan öz yataqlarını yalnız Qərb ölkələrinin üzünə açmışdır. Bunların heç biri doğru deyildir. Dünən biz bu barədə açıq-aşkar danışdıq. Biz «Əsrin müqaviləsi» kimi məlum olan birinci sazişi 1994-cü ilin sentyabrında iri transmilli şirkətlərilə bağladıq və burada layihənin sanballı bir hissəsi Rusiyanın «LUKoyl» şirkətinə mənsubdur. Biz ikinci layihəni də imzalamışıq və artıq burada payların mütləq çox hissəsini Rusiyanın «LUKoyl» şirkətinə vermişik. O, əslinə qalsa, bütün konsorsiumun operatorudur. Bu konsorsiumda isə bir neçə transmilli şirkət var. Biz üçüncü sazişi «Statoyl», «Bi-Pi» ilə bağlamışıq, orada Fransa şirkətləri, İran şirkəti də var. Orada da «LUKoyl» çox sanballı yerə malikdir. Nəhayət, dünən iki prezidentin – Boris Nikolayeviç Yeltsinin və Azərbaycan prezidentinin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorundakı iri yataq haqqında ancaq Rusiyanın «LUKoyl» şirkəti ilə xüsusi saziş imzalandı. Lakin biz başqa şirkətləri də cəlb etməliyik. Bu gün səhər mən Rusiyanın neft şirkətlərinin rəhbərləri ilə, maliyyə mərkəzlərinin rəhbərləri ilə, o cümlədən Rusiya hökuməti sədrinin birinci müavini Boris Yefimoviç Nemtsovla görüşdüm. Biz çox ətraflı söhbət etdik. Bu gün Xəzər dənizinin həmçinin Azərbaycan sektorundakı «Kəpəz» yatağının birgə işlənməsi haqqında Rusiyanın «LUKoyl» və «Rosneft» şirkətləri ilə daha bir sənəd imzaladıq. Bu gün biz «Yuqos», «Sidanko» şirkətlərinin, digər şirkətlərin nümayəndələri ilə görüşdük. Onlar yataqların işlənməsində iştirak etmək üçün bizimlə danışıqlar apardılar. Bir sözlə, biz Rusiya ilə əməkdaşlıq edirik və edəcəyik.

Lakin bununla birlikdə, bizə sərmayələr də lazımdır. Bu gün mən şirkətlərin, maliyyə qruplarının rəhbərləri ilə görüşlərdə dedim ki, Norveç kiçik bir ölkədir, amma Bakıda özünün 60 iri şirkətinin ofisləri var. «Statoyl» çox iri neft şirkətidir, neft və qaz hasilatı məsələləri ilə məşğul olur. Bu əsas layihə ilə bağlı müxtəlif layihələri həyata keçirməyə başqa şirkətlər də cəlb edilmişdir. Yeri gəlmişkən, bu sözləri Böyük Britaniya barəsində də demək olar – onun bizdə 60-dək ofisi var. Sözlərim eləcə də Birləşmiş Ştatlara və Fransaya aiddir. Bəs nə üçün Rusiyanın payı azdır? Burada obyektiv səbəblər var. Hazırda yeni şirkətlər, müxtəlif sənaye strukturları yaradılır. Ona görə də bu, müəyyən dərəcədə aydındır. Lakin biz hər halda yenə də xarici sərmayələri cəlb edirik ki, yataqların işlənməsini bacardıqca tez bir zamanda genişləndirək. Çünki bu, sənayemizin inkişafı üçün, adamlarımızın rifahı üçün gərəkdir və bu da tamamilə qanunauyğundur.

Demək istəyirəm ki, Azərbaycanda iqtisadi islahatlar uğurla gedir. 1989-cu ildən başlayaraq məruz qaldığımız böyük durğunluqdan və böyük itkilərdən sonra ötən ildən etibarən bizdə iqtisadiyyatda yüksəliş başlamışdır. Keçən il Azərbaycanda daxili ümumi məhsulun artımı 1,3 faiz olmuşdur. Artım ilk dəfə əldə edilmişdir, halbuki onadək tənəzzül var idi. Bu ilin birinci yarısında isə artım 4,5 faiz təşkil etmişdir. 1989-cu ildən başlayaraq sənaye istehsalı azalmışdı. Ötən il biz sənaye istehsalını sabitləşdirdik və cari ilin birinci yarısında 1 faiz artıma nail olduq. Kənd təsərrüfatında istehsal aşağı düşməkdə davam edirdi. Keçən il üç faiz artım əldə edildi, bu il isə 3 faizdən çox olacaqdır. Biz «Torpaq islahatı haqqında», bütün torpağın xüsusi mülkiyyətə verilməsi haqqında qanun qəbul etmişik. Bu qanun həyata keçirilir və deməliyəm ki, yaxşı nəticələr verir. Aqrar kompleksdəki bütün heyvandarlıq sektoru özəlləşdirilib. Deməliyəm ki, bu, yaxşı nəticələr verir.

Nikolay Konstantinoviç çox yaxşı bilir ki, Azərbaycan əti, südü və bütün məhsulları həmişə ittifaq fondundan alırdı. Doğrudur, biz buraya neft verirdik, pambıq verirdik, tərəvəz, üzüm, meyvə verirdik. Lakin biz kifayət qədər ətə, südə, yağa malik deyildik və bunların hamısını ittifaq fondundan alırdıq. Nikolay Konstantinoviç də yaxşı xatırlayır ki, xüsusən 70-ci illərin axırlarında necə böyük çətinliklər olmuşdur. Nikolay Konstantinoviç, indi ət, süd problemi tamamilə həll edilmişdir. Daha başım ağrımır, hər inəkdən nə qədər süd sağılır, hər toyuq nə qədər yumurta verir, hər qoyundan neçə baş quzu alınır. Məndə daha belə problemlər yoxdur.

Biz qiymətləri tamamilə sərbəstləşdirmişik. Bizdə daha belə bir problem yoxdur ki, bizə taxıl haradan gəlir, çörəyi kim bişirir, kim satır. Halbuki iki il bundan əvvəl mən ağır bir problemlə qarşılaşmışdım. Bizdə

inflyasiya tamamilə dayandırılmışdır. 1994-cü ildə bizdə inflyasiya 1600 faiz olduğu halda, ötən il cəmi 6 faiz təşkil etmişdir. İlin birinci yarısında cəmi 2 faiz olmuşdur. Bizi sərmayələr də sevindirir. Məsələn, bu gün mənim iqtisadi məsələlər üzrə müşavirim deyir ki, adambaşına düşən sərmayələrin miqdarına görə Azərbaycan MDB ölkələri arasında ilk yerlərdən birinə çıxmışdır. İndi mən bu rəqəmlərdən çox misal gətirmək istəmirəm, çünki bunlar köhnə ənənələrdir. Lakin hər halda bu da göstəricidir.

Ötən il bizdə xarici ticarət əmtəə dövriyyəsi 30 faiz artmışdır. Cari ilin birinci yarısında problem yoxdur, bütün pensiyalar, əmək haqqı ödənilmişdir. İlin birinci yarısında bütün vergilər yığılmışdır. Bizdə ilin birinci yarısında büdcə kəsiri cəmi 2 faiz olmuşdur. Mən öyünmək istəmirəm, xahiş edirəm məni düz başa düşəsiniz. Mən sizi ancaq bəzi göstəricilərlə tanış edirəm. Bu göstəricilər iqtisadi islahatların həyata keçirilməsinin nəticəsidir və iqtisadiyyatımızda məhz bazar dəyişiklikləri edilməsinin nəticəsidir. Nəticə etibarı ilə bunların hamısı elmimizə xidmət edə bilər. Milli gəlirimiz nə qədər çox olarsa, nə qədər çox vəsait qazanarıqsa, biz onları elm sahəsində də bir o qədər çox ayıracağıq. Sizi əmin edirəm ki, biz bunların hamısını həyata keçirəcəyik.

Bu gün belə bir görüşün keçirildiyinə görə sizin hamınıza bir daha təşəkkür etmək istəyirəm. Məni diqqətlə dinlədiyinizə görə sizə təşəkkür etmək istəyirəm. Bu görüşlə əlaqədar çox böyük sevinc hissi keçirdiyimi bir daha bildirmək istəyirəm. Mənim müxtəlif ölkələrdə, o cümlədən də Moskvada çoxlu görüşüm olur. Lakin bu görüş mənim üçün xüsusilə qiymətlidir, çünki mən elə insanlarla görüşürəm ki, cəmiyyət onları çox yüksək qiymətləndirir və onlara çox böyük hörmət bəsləyir. Mənim də bir insan kimi sizə çox hörmətim var və sizi yüksək qiymətləndirirəm.

Sizə cansağlığı, uzun ömür, səmərəli fəaliyyət və Rusiya elminin, bütün dünya elminin inkişafında yeni-yeni uğurlar arzulayıram. Çox sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN SOYDAŞIMIZ PROFESSOR İREN MƏLİKOVA İLƏ GÖRÜŞDƏ SÖHBƏTİNDƏN*

Strasburq, «Sofitel» oteli, 11 oktyabr 1997-ci il

Çox hörmətli İren xanım! Sizi, görkəmli alimi Fransa torpağında salamlamaqdan və bu cür tanınmış soydaşımızın Strasburqda yaşamasından və burada Sizinlə görüşməyimdən şad olduğumu bildirirəm.

Biz bilirik ki, 1917-ci ildə ailənizlə birgə Azərbaycandan mühacirət etmiş, əvvəlcə Finlandiyaya, oradan da Fransaya köçmüsünüz, 1968-ci ildən Strasburq şəhərində yaşayırsınız. O da, məlumdur ki, Siz tanınmış türkoloqsunuz və uzun illər Strasburq universitetində dərs demisiniz. Hazırda pensiyadasınız və həmin universitetin əməkdar professoru, Qərbi Avropada çıxan yeganə türkologiya jurnalının - «Türkika»nin baş redaktoru, həm də Bakı Dövlət Universitetinin fəxri professorusunuz. Türkologiyaya dair dəyərli tədqiqatlarınız var.

İren Məlikova: Çox hörmətli cənab Prezident Əliyev! Çox sevinirəm ki, uzaq Fransada Sizinlə görüşürəm. İnanın ki, mən belə bir görüşü çoxdan arzulayırdım. Mən Bakıya axırıncı səfərimi xatırlayaraq son illərdə Prezident Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda baş vermiş müsbət dəyişiklikləri görməkdən son dərəcə məmnun qaldığımı bildirirəm. Vurğulayıram ki, özümün azərbaycanlı soyköküm ilə fəxr edirəm, respublikanın alimləri ilə əlaqə saxlayıram.

Heydər Əliyev: İren xanım, səmimi söhbətinizə və Azərbaycanla yaxından əlaqə saxladığınıza görə təşəkkür edirəm. Arzu edirəm ki, nəinki Strasburqda, həm də bütün Fransada yaşayan soydaşlarımız Azərbaycanla əlaqəni daim gücləndirsinlər. Bunu mütləq bilməli və dərindən dərk etməliyik ki, haradan gəlməsindən asılı olmayaraq, xaricdə yaşayan hər bir soydaşımız azərbaycanlı olduğunu unutmamalı, hamımızın ümumi vətəni olan müstəqil Azərbaycan Respublikasına öz köməyini göstərməlidir.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On ikinci kitab. B., Azərnəşr, 2004, s. 324-325

İren Məlikova: Cənab Prezident, qiymətli fikirlərinizə görə ürəkdən təşəkkür edirəm və öz əsərlərimi Sizə hədiyyə etməkdən məmnunluq duyduğumu bildirirəm.

Heydər Əliyev: Görüşə gəldiyiniz, səmimi söhbətiniz və hədiyyəniz üçün bir daha təşəkkür edirəm. Sizə möhkəm cansağlığı və yaradıcılıq uğurları arzulayıram.

«AZƏRELEKTROMAŞ» ELM-İSTEHSALAT BİRLİYİNİN NƏSRULLA NƏSRULLAYEV ADINA BAKI ELEKTRİK MAŞINQAYIRMA ZAVODUNUN 50 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ*

Bakı Elektrik Maşınqayırma zavodu
16 oktyabr 1997-ci il

Əziz dostlar, bacılar, qardaşlar!

Hörmətli xanımlar, cənablar, qonaqlar!

Mən sizi Bakı Elektrik Maşınqayırma zavodunun 50 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Sizə, zavodun bütün kollektivinə cansağlığı, səadət və gələcək işlərinizdə böyük uğurlar diləyirəm.

Zavodun 50 illik yubileyi sizin həyatınızda çox əlamətdar hadisədir, bayram günüdür. Bu, eyni zamanda bütün Azərbaycan Respublikasının həyatında əlamətdar gündür, hesab edirəm ki, bütün Azərbaycan sənaye işçilərinin, ölkəmizin fəhlələrinin böyük bayramıdır.

Sizin zavod yarım əsr ərzində böyük, şanlı bir yol keçmişdir. Bu yolun ən böyük nəticəsi odur ki, siz çox ağır sınaqlardan keçmisiniz, çox çətinliklərlə rastlaşmısınız, çox mürəkkəb problemləri həll etmək məcburiyyəti qarşısında qalmısınız. Ancaq tutduğunuz yoldan çəkilməmisiniz, zavodu yaşatmısınız. Zavod böyüyüb və bu gün Azərbaycan Respublikasının ən nəhəng və eyni zamanda məhsuldar sənaye müəssisələrindən biridir.

Zavodun yaranması respublika sənayesinin inkişaf etdirilməsinə yönəldilmiş tədbir olmuşdur. Biz bu gün böyük məmnuniyyət hissi ilə deyə bilərik ki, qısa bir zamanda zavod müasir tələblərə uyğun olan müəssisəyə çevrilmiş və burada insanları — fəhlələri, mühəndisləri, mütəxəssisləri özündə toplayan çox gözəl bir kollektiv yaranmışdır.

Mən zavodun tarixini bilirəm. Eyni zamanda siz də, mən də bilirik ki, zavodun sürətlə inkişaf etməsi, genişlənməsi, müasir avadanlıqla təmin olunması, məhsulun keyfiyyətinin artırılması 1970-ci ildən başlanmışdır. Mən uzun bir fasilədən sonra bu gün zavodun sexlərini gəzərkən çox böyük sevgi, məhəbbət hissi ilə burada keçmişdə gördüyüm işləri,

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On ikinci kitab. B., Azərnəşr, 2004, s. 337-351

ondan sonra yarananları və biz birlikdə işlədiyimiz zaman qurub-yaratdıqlarınızı görəndə böyük qürur hissi keçirirdim.

Mən bu gün ona görə çox sevinirəm ki, çəkdiyimiz zəhmət, qoyduğumuz səylər, burada yaranmış nəhəng sexlər, istehsal sahələri, yüksək səviyyəli avadanlıq – bunlar hamısı sizə, bu zavodun kollektivinə daim mənfəət gətirir və hamınızın bir yerdə gördüyünüz iş Azərbaycan iqtisadiyyatının inkişaf etməsində öz görkəmli yerini tutur, ona öz müsbət təsirini göstərir.

Zavodun həqiqətən böyük inkişafı 1970-ci illərdə başladı. O günlər mənim xatirimdədir. Bu zavodda mənim görüşlərim, toplantılarda iştirak etməyim, ayrı-ayrı insanlarla söhbətlərim – hamısı xatirimdədir. Siz də yəqin bilirsiniz, amma mən daha yaxşı bilirəm ki, bu zavodda yeni böyük sexlər yaratmaq, buraya xarici ölkələrdən yüksək keyfiyyətli məhsul istehsal edə bilən qurğular, avadanlıq gətirmək asan məsələ deyildi.

O vaxt biz bu məsələləri keçmiş Sovetlər İttifaqı hökuməti, Elektrotexnika Nazirliyi qarşısında çox qətiyyətlə, ciddi qoyurduq və onların həll edilməsinə nail olurduq.

Hamımızın birgə səyləri nəticəsində zavod o illərdə böyüdü, öz gücünü artırdı və yüksək keyfiyyətli, rəqabətə davam gətirə bilən elektrik mühərrikləri istehsal edilməsinə nail oldu. İndi zavodda bu mühərriklər istehsal olunur. Biz onları görərkən həddindən artıq sevinirik.

Zavodun tarixi haqqında danışarkən onu da qeyd etmək lazımdır ki, bizim bütün səylərimiz, texniki, maliyyə məsələlərinin, başqa problemlərin həll olunması ilə bərabər, bu müəssisəni yaşadan, inkişaf etdirən, bu gün onu bu gözəl səviyyəyə qaldıran sizsiniz – zavodun fədakar fəhlələri, texnikləri, mühəndisləri, mütəxəssisləridir, zavodun rəhbərləridir.

Şübhəsiz ki, bu nəhəng, işıqlı sexlər də, yenidən gördüyüm, o illərdə buraya xarici ölkələrdən çətinliklərlə gətirdiyimiz avadanlıq da, istehsal etdiyiniz mühərriklər də məni sevindirir. On milyonuncu mühərrikin hazırlanması münasibətilə mən sizi böyük sevinclə təbrik etdim və onu qəbul etdim. Ancaq məni ən çox sevindirən odur ki, kollektiv – siz sınmamısınız, kollektiviniz pozulmayıb. Bu gün mən kollektivdə kiminlə danışıramsa, biri deyir 40 ildir, digəri deyir 30 ildir, o birisi deyir 25 ildir burada işləyirəm. Ən gənc hesab etdiyimiz adam da mənə dedi ki, 18 ildir burada işləyirəm. Mən hesab edirəm ki, kollektivin ən gözəl xüsusiyyəti və sizin ən gözəl nailiyyətiniz budur. Buna görə mən sizi xüsusi təbrik edirəm. Mən məmnunam ki, bu kollektivə bağlanan, burada işə başlayan adamlar öz peşəsini, işini seviblər. Onlar Azərbaycanın həyatında getmiş cürbəcür mürəkkəb ictimai-siyasi, iqtisadi, sosial proseslərə baxmayaraq öz işindən əl çəkməyiblər, bu gün də işləyirlər.

Bununla bərabər, sizin böyük nailiyyətiniz ondan ibarətdir ki, kollektiviniz çoxmillətlidir. Siz keçmişdə yaranmış bu ənənəni, bu çoxmillətlilik ənənəsini, milli mənsubiyyətindən asılı olmayaraq bir-birinə xoş, dostluq münasibəti göstərmək ənənəsini, burada yaranmış xalqlar dostluğu ənənəsini nəinki itirməmisiniz, bunu qoruyub saxlamısınız. Bu da bizim ən böyük nailiyyətimizdir.

Bizim respublikamız çoxmillətli respublikadır. Biz bununla daim fəxr etmişik. Müstəqil dövlət olan Azərbaycan Respublikasının bu gün yenə də çoxmillətli olması ölkəmizin, dövlətimizin üstünlüyüdür. Bu, nəyin əsasındadır? Bu, süni surətdə yaranan bir şey deyil. Bu, yuxarıdan verilən göstərişlərlə həyata keçirilən bir məsələ deyil. Bu bizim Azərbaycan xalqına xas olan ən yüksək mənəvi keyfiyyətdir. Bizim Azərbaycan xalqı başqa xalqlara, millətlərə həmişə dostluq, mehribanlıq münasibəti göstərmişdir. Bu bizim həyatımızda on illərlə, əsrlərlə yaranmış ənənədir. Allaha şükürlər olsun ki, sizin kollektiviniz son illərin qarmaqarışıq proseslərinə baxmayaraq, bu ənənəni qoruyub saxlayıbdır. Bu gün bir müstəqil dövlət kimi Azərbaycanın da çoxmillətli olması hər bir kollektivin, məhəllənin, evin, hər bir mikrorayonun çoxmillətli olmasından meydana gəlibdir. Bunu indiyədək qoruyub saxladığımız kimi, bundan sonra da qoruyub saxlayacağıq. Mən buna əminəm, inanıram. Ona görə inanıram ki, burada məhz bu dostluğu, bu mehribanlığı görürəm.

Sizin zavod bütün bu nailiyyətlərlə yanaşı, böhran dövrü də keçiribdir. Həmin böhran dövrü təxminən 1989-1990-cı illərdən başlayıbdır. Bu iqtisadi böhran dövrü Azərbaycanda o illərdən başlayaraq hökm sürən mürəkkəb vəziyyətlə bağlı olubdur, ayrı-ayrı pozucu, dağıdıcı qüvvələrin fəaliyyətinin nəticəsində, Azərbaycanın rəhbərliyində olan boşluğun, hərc-mərcliyin və məsuliyyətsizliyin nəticəsində olubdur. Sizin zavodun timsalında bunu bu gün daha da qətiyyətlə demək olar. Çünki bu 50 il içərisində, xüsusən 1970-1980-ci illər zavodunuzun yüksəliş illəri olmuşdur. Bundan sonra isə zavodun tənəzzül illəri olmuşdur. Nə üçün? Zavodun sexləri də, divarları da yerindədir, ərazisinin hamısı sağsalamatdır, avadanlıq da yerindədir, siz də yerinizdəsiniz. Ancaq bu təkcə sizin kollektivinizə aid deyildir.

1970-ci illərdə, 1980-ci illərin birinci yarısında Azərbaycan öz iqtisadiyyatını çox sürətlə inkişaf etdirmişdir. Bu, artıq hamıya məlumdur. Düzdür, bunu inkar etmək istəyənlər oldu. Təxminən 1988-ci ildən Azərbaycana başçılıq edən şəxslər istədilər əksini sübut etsinlər. Ancaq bu, mümkün deyil, həqiqətin üstünü bir az örtmək, onu qaralamaq olar, amma həqiqəti məhv etmək mümkün deyil. O illərdə Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmişdir. Sizin zavod da, sizin gördüyünüz işlər

də bu sürətli inkişafın iştirakçısı və bu inkişafı təmin edənlərdən biri idi. Ancaq qurmaq, yaratmaq çətindir, dağıtmaq asandır. Təəssüflər olsun ki, 1989-cu ildən başlayaraq Azərbaycanda qurmaq, yaratmaq əvəzinə dağıtmağa, pozmağa başladılar. Bu dağıdıcı, pozucu qüvvələr Azərbaycanın həyatının bütün sahələrinə – iqtisadiyyatına, sosial sahəsinə, o cümlədən belə gözəl müəssisələrə də öz zərbəsini vurdular.

Bəli, o illər, xüsusən 1992-ci ildə, 1993-cü ilin əvvəllərində Azərbaycanda hakimiyyətdə olan şəxslər iddia edirdilər ki, guya respublikamızda heç vaxt heç bir şey olmayıbdır, Azərbaycanda indiyə qədər yaranmış şeylərin hamısı yaramazdır və onlar yenidən Azərbaycan qurmağa çalışırlar. O da ondan ibarət oldu ki, bir çox nəsillərin on illərlə qurub yaratdıqlarını bir, iki, beş aya, bir ilə vurub dağıtdılar. Onların bəziləri bu gün də özlərini müxalifət hesab edərək yenə də hakimiyyətə can atırlar, hakimiyyət uğrunda mübarizə edirlər. Yox, xalq artıq ağla qaranı bir-birindən seçməyi bacarır. Azərbaycanın aqibətini xalq bir də belə əllərə dünyasında verməz. Çünki bu dağılanları biz son illərdə zorla bərpa edirik. Bunu da hamı görür.

Məni bu gün sevindirən hal bir də ondan ibarətdir ki, bu tənəzzül, böhran dövrünü siz keçdiniz. Bu gün söhbət zamanı mən zavodun direktorundan və başqa mütəxəssislərdən soruşdum ki, siz bu tənəzzül dövrünü nə vaxt keçdiniz? Onlar cavab verdilər ki, keçən il və bu il. Axı həmin zavoddur, həmin insanlardır, həmin maddi-texniki vəsaitlərdir. Bəs nə üçün belə işləyə bilmirdiniz? Mən sizi günahlandırmıram. Çünki respublikada yaranmış hərc-mərclik, qanunsuzluq və ayrı-ayrı pozucu qüvvələr Azərbaycanın iqtisadiyyatını bərbad hala salmışdılar. O cümlədən sizin kollektiviniz də belə bir vəziyyətə düşmüşdü.

Bu gün burada mənə danışdılar, zavodun direktoru da öz çıxışında rəqəmlər gətirdi ki, bu ilin doqquz ayında istehsal keçən ilə nisbətən 36 faiz artıbdır. Bilirsiniz, bu qədər artım bəzən ağla sığası deyil. Ancaq bu həqiqətdir. Siz bunu etmisiniz. Burada bildirdiniz ki, doqquz ayın içərisində zavodun debitor borcu yoxdur. Dedilər ki, əksinə, başqa sahələrdən zavoda borclu olanlar var. Zavodun bütün fəhlələrinin, işçilərinin, kollektiv üzvlərinin hamısının məvacibi vaxtında verilir. Bu da yaxşı nailiyyətdir. Azərbaycanda bəzi yerlərdə məvaciblər vaxtlı-vaxtında verilmir. Ancaq biz radio, televiziya vasitəsilə bilirik, eşidirik ki, bizə yaxın, tanış olan başqa respublikalarda fəhlələrə, qulluqçulara 5-6 aylarla, hətta yerin altında işləyən şaxtaçılara da məvaciblər verilmir. Amma sizin zavodda məvaciblər verilibdir. Zavodunuzda fəhlənin orta aylıq əmək haqqı 250 min manatdan artıqdır. Başqa yüksək göstəriciləriniz də vardır. Burada deyildi, mən təkrar etmək istəmirəm. Bunlar

hamısı onu göstərir ki, demək, hər şey təşkilatçılıqdan, işi təşkil etməkdən asılıdır. Yenə də deyirəm, burada siz də var idiniz, zavod da, sexlər də, avadanlıq da – hamısı var idi. Amma bir neçə il əziyyət çəkdiniz, bir neçə il ağır dövr keçirdiniz. İndi isə çox sürətli artımla irəliləyirsiniz və yüksək nailiyyətlər əldə etməyə başlamısınız.

Mən bu barədə danışarkən onu da xüsusi qeyd etməliyəm, – sizin bu kollektivə nə qədər bağlı olduğunuzu sübut edən odur ki, siz o ağır illərdə də, çətin illərdə də, məhsul istehsalı aşağı düşən illərdə də zavodunuzu qoyub getməmisiniz, zavoddan ayrılmamısınız. Yəni kollektivin üzvləri bir-biri ilə o qədər doğmalaşıblar ki, siz bu çətinliklərə bir yerdə dözmüsünüz və indi bir yerdə də ümumi işinizin, səylərinizin, şübhəsiz ki, zavod direktorunun, zavod rəhbərliyinin təşkilatçılığı nəticəsində bu nailiyyətləri əldə etmisiniz.

Bu gün siz on milyonuncu mühərriki istehsal etmisiniz və onu bu yubileyə hədiyyə verirsiniz. Mən sizi bütün bu nailiyyətlərinizə, on milyonuncu mühərrik istehsal etdiyinizə, yüksək iqtisadi göstəricilər əldə etdiyinizə görə təbrik edirəm. Nəhayət, zavodunuzun işinin müsbət istiqamətdə inkişaf etməsi münasibətilə sizi təbrik edirəm. Çox sağ olun.

Məlumdur ki, indi keçmiş illərə nisbətən məsələ təkcə məhsul istehsal etməklə bitmir. Məhsul istehsal edən müəssisə gərək əvvəlcədən bilsin, – bu məhsulu hara satacaq, necə satacaq, hansı qiymətə satacaqdır ki, istehsaldan qazanc götürsün. İndi ölkəmizin iqtisadiyyatı iqtisadi qanunlar prinsipi əsasında qurulur. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı istiqamətində aparırıq. Ona görə də hər bir istehsalçı istehsal etdiyi məhsulun satılması haqqında gərək əvvəlcədən düşünsün və bundan sonra onu istehsal etsin. Çox sevindirici haldır ki, siz bu məsələni də həll edirsiniz və həll etmisiniz. Siz istehsal etdiyiniz mühərriklərin hamısını sata bilirsiniz, onu münasib qiymətə satırsınız, qazanc götürürsünüz. Bu da gələcəkdə sizin daha yaxşı iqtisadi nailiyyətlər əldə etməyiniz üçün möhkəm əsasdır.

Direktor bu gün mənə danışdı, mən bunu çox məmnuniyyət hissi ilə qəbul etdim ki, zavod keçmiş iqtisadi əlaqələrini bərpa edibdir. Mən ondan soruşdum ki, axı zavodunuzun istehsal etdiyi mühərriklərin hamısının Azərbaycanda satılmasına yer yoxdur, bazarınız varmı? Doğrudur, direktor məlumat verdi ki, bir çox ölkələrlə iqtisadi əlaqələr keçmiş illərə – 1970-1980-ci illərə nisbətən pozulubdur, bazarlar itibdir, ancaq bir çox ölkələrdə olan bazarları saxlaya bilmisiniz və mən gördüm ki, bunların bəzilərini yenidən yaradırsınız. Bu baxımdan sizin Rusiya ilə əməkdaşlığınız xüsusi əhəmiyyətə malikdir. Çünki mühərriklərin bir qismi, hətta çox qismi Rusiyaya gedir, elədirmi? Bu mühərriklərin 90 faizi

Rusiyaya gedir. Siz Rusiyadan polad və başqa xammal alırsınız. Demək, bu əlaqələri daha da qurmaq, inkişaf etdirmək lazımdır. Sizin başqa ölkələrlə də iqtisadi əlaqələriniz artıq yaranıbdır. Güman edirəm, bu cür artımınız varsa, demək, sizin bazarınız da genişlənəcəkdir. Bazarınız genişləndikcə, sizin hazırladığınız mühərriklərin keyfiyyəti də artacaqdır və artmalıdır. Çünki bilin ki, xarici bazarda rəqabət gündən-günə güclənir. Siz bu rəqabətə dözməlisiniz və bu rəqabət sizin məhsullarınızın satılmasına mane olmamalıdır.

Mən çox məmnunam ki, bir sıra ölkələrin Azərbaycandakı səfirləri bu gün burada iştirak edirlər. Mən onları burada görərkən belə anladım ki, zavodunuzun bu ölkələrlə daha sıx iqtisadi əlaqələri vardır. Həmin ölkələrin səfirləri də zavodunuzun işi ilə daha yaxından maraqlanırlar və bu yubileyinizə də maraq göstərib gəliblər. Bu da çox sevindirici haldır.

Bunlar hamısı onu göstərir ki, sizin kollektiviniz keçmişdə olduğu kimi, çox möhkəm dayaqlar üzərində durubdur və sürətlə inkişaf edəcəkdir. Doğrudur, zavodun direktoru mənə bir astronomik rəqəm dedi. Dedi ki, artım guya bu ilin axırınadək 50 faiz olacaqdır. Bilmirəm, ola bilər, yoxsa yox. Deyirsiniz ki, ola bilər. Bu, həqiqətən yüksək rəqəmdir. Əgər bu belə ola bilərsə, mən çox sevinəcəyəm. Ancaq indi bizim həyatımız belədir ki, biz heç kəsə nə plan veririk, nə də öhdəlik tələb edirik. Bütün bunlar kollektivin öz işidir. Əgər kollektiv belə imkanlara, doğrudan da, malikdirsə, istehsalı həqiqətən deyilən qədər artıra bilərsə, biz buna sevinəcəyik. Ancaq hesab edirəm ki, sizin özünüz bizdən də çox sevinəcəksiniz. Çünki bu sizə daha çox xeyir gətirəcəkdir.

Zavodun direktoru müəssisənizin gələcəyi haqqında öz fikirlərini bildirdi, yəni zavodun səhmdar cəmiyyətə çevrilməsi və gələcəkdə özəlləşdirilməsi məsələsindən danışdı. Mən bu fikirlərlə razıyam. Respublikamızda özəlləşdirmə proqramı həyata keçirilir və sizin kollektiv də özəlləşdirmə prosesində bu proqram əsasında iştirak etməlidir. Əmin ola bilərsiniz ki, özəlləşdirmə prosesində zavodun kollektivinin bütün istəkləri, arzuları təmin ediləcəkdir. Bundan heç narahat olmayın. Ancaq bu məsələləri siz özünüz yaxşı ölçün – biçin, təkliflərinizi özünüz elə hazırlayın ki, özəlləşdirmə sizin üçün formal bir hadisə olmasın. Əksinə, özəlləşdirmə məhsul istehsalının daha da artmasına, keyfiyyətinin yüksəlməsinə kömək etsin və kollektivin üzvlərinin, burada işləyənlərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırsın. Özəlləşdirmənin məqsədi ancaq budur. Biz ancaq özəlləşdirmə naminə özəlləşdirmə aparmırıq. Özəlləşdirmə bütün sahələrdə keyfiyyət dəyişikliyinə gətirməlidir, məhsul istehsalının artmasına kömək etməlidir və insanlara daha da çox mənfəət verməlidir. Siz öz təkliflərinizi bu prinsiplər əsasında hazırlayın. Siz bizə

nə cür təkliflər etsəniz, bunlar o cür də qəbul olunacaqdır. Mən sizi bu barədə tam əmin edirəm.

Sizin kollektivdəki əhval-ruhiyyə bu gün Azərbaycanda mövcud olan əhval-ruhiyyənin təcəssümüdür, onun əksidir, ifadəsidir. Bilirsiniz ki, biz böyük çətinliklərdən keçərək Azərbaycanda daxili ictimai sabitliyi təmin etdik.

Mən çox məmnunam ki, burada çıxış edənlər Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsin əldə edilməsini və üç ildən artıqdır ki, atəşin olmamasını yüksək qiymətləndirirlər. Mənim üçün bu, çox əhəmiyyətlidir. Çünki mən istəyirəm ki, Azərbaycanın prezidenti kimi atdığım addımlar cəmiyyətin, xalqımızın rəyini qazansın, onların istəyini əks etdirsin. Sizin bu barədə bugünkü fikirləriniz çox dəyərlidir. Şübhəsiz ki, sülh, atəşkəs bizə Azərbaycanda bu sabitliyi yaratmağa imkan verdi, ölkəmizin daxilindəki cinayətkar dəstələrdən Azərbaycanı təmizləməyə imkan verdi, bizə ayrı-ayrı cinayətkar qrupların qarşısını almağa imkan verdi. Nəhayət, bizə sizin rahat yaşamağınız üçün şərait yaratmağa imkan verdi.

Biz bu gün də çalışırıq, gələcəkdə də çalışacağıq ki, Ermənistan – Azərbaycan münaqişəsi sülh yolu ilə həll olunsun. Müharibə xalqımıza böyük bəlalar gətirdi, böyük itkilər verdik. Bu gün mən zavodun ərazisinə daxil olarkən zavodun işçilərindən şəhid olmuş Azərbaycan oğullarının xatirə abidəsi qarşısına getdim, ora gül-çiçək qoydum və onların xatirəsi qarşısında baş əydim. Şəhidlərin xatirəsini daim qəlbimizdə saxlamaq, onların xidmətlərini unutmamaq bizim müqəddəs borcumuzdur. Onların ailələrinə, şəhidlərin xatirəsinə qayğı göstərmək bizim borcumuzdur. Biz bu borcumuzu bundan sonra da yerinə yetirəcəyik. Hər bir Azərbaycan vətəndaşı bu sahədə öz borcunu yerinə yetirməlidir.

Bununla yanaşı, biz çalışmalıyıq ki, bundan sonra daha müharibə olmasın, qan tökülməsin, bizim insanlarımız gedib həlak olmasınlar. Şübhəsiz ki, əgər Azərbaycan torpaqlarının müdafiəsi zərurəti meydana çıxsa, hər birimiz şəhid olmağa hazır olmalıyıq. Təkcə şəhid olmağa yox, sinəmizi irəli verib Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, torpaqlarını qorumağa hazır olmalıyıq. Ancaq əgər məsələləri sülh yolu ilə həll etməyə imkan varsa, onda biz sülh yolunu seçməliyik. Ona görə də biz sülh yolunu seçmişik.

Hazırda biz sülh danışıqları aparırıq, 1994-cü ilin mayından atəş yoxdur. Biz üç ildən artıqdır ki, atəşkəs rejimində yaşayırıq. Atəşkəs rejimini bundan sonra da qoruyub saxlayacağıq. Mən dövlətin adından bu barədə dəfələrlə bəyanat vermişəm. Bizim son vaxtlar apardığımız işlər onu göstərir ki, nəhayət, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə nail ola biləcəyik.

Bilirsiniz ki, son vaxtlar Minsk qrupu və onun həmsədrləri bu məsələ ilə çox ciddi məşğul olurlar. Minsk qrupu həmsədrlərinin bir neçə təklifləri olmuşdur, biz onlara baxmışıq, bunlar təkmilləşmişdir. Mən məhz bu ildə, ilin əvvəlindən indiyədək bir çox dövlət başçıları ilə görüşlər aparıb, bu məsələləri müzakirə etmişik. O cümlədən xüsusən Minsk qrupunun həmsədrləri olan dövlətlərin – Rusiyanın prezidenti Boris Yeltsinlə, Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintonla, Fransanın prezidenti Jak Şirakla, onların hər biri ilə ilin əvvəlindən bəri dəfələrlə görüşüb danışıqlar aparmışam. Bütün bu danışıqlar zamanı həmin böyük dövlətlərin — Minsk qrupunun həmsədrləri olan ölkələrin dövlət başçıları hər dəfə bildiriblər ki, onlar da bu məsələnin ədalətlə, sülh yolu ilə həll olunmasına çalışırlar və çalışacaqlar.

Bilirsiniz ki, bunun da əsası 1996-cı ilin dekabrında ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərdir. Bunlar üç prinsipdir: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünün təmin olunması, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə hüququ verilməsi, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və işğal olunmuş bu torpaqlardan zorla çıxarılmış azərbaycanlıların öz yerinə-yurduna qaytarılması. Bu, Lissabon Zirvə görüşünün əsas prinsipləridir.

Minsk qrupunun həmsədrləri bu prinsiplər əsasında yeni təkliflər vermişlər. Bu təkliflər təxminən sentyabr ayının sonunda verilmişdir. Biz onları əsas olaraq qəbul etmişik. Son vaxtlar aparılan danışıqlar və o cümlədən mən son günlər Strasburqda olarkən bir neçə dövlətin başçıları ilə keçirdiyim görüşlər, xüsusən Fransanın prezidenti Jak Şirakla keçirdiyim görüşlər, apardığım danışıqlar zamanı biz bir daha bəyan etmişik ki, Minsk qrupu həmsədrlərinin son təkliflərini əsasən qəbul etmişik.

Bu təkliflər nəzərdə tutur ki, məsələ iki mərhələdə həll olunsun. Birinci mərhələdə Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş 6 rayonu işğalçı qüvvələrdən azad edilsin. Bunlar Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcər rayonlarıdır. İşğalçı qüvvələr bu rayonlardan çıxmalıdır, ATƏT-in sülhü mühafizə qüvvələri buraya daxil olmalıdır, bu rayonlardan didərgin düşmüş həmin rayonların sakinləri öz yerlərinə-yurdlarına qaytarılmalıdır. Belə olan halda müharibə nəticəsində dağıdılmış kommunikasiyalar bərpa edilməlidir. İkinci mərhələdə isə Azərbaycanın Laçın və Şuşa rayonları işğalçı qüvvələrdən azad olunmalıdır və bununla bərabər Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli özünüidarəetmə sta-

tusu verilməlidir. Bu plan, iki mərhələ bundan ibarətdir. Biz bunu əsas olaraq qəbul etmişik. Verilən yazılı təkliflərə bizim müəyyən düzəlişlərimiz, qeydlərimiz var. O qeydlər, düzəlişlər şübhəsiz ki, müzakirə olunacaqdır. Ancaq biz bu təklifləri prinsip etibarilə qəbul etmişik.

Mən Strasburqda Ermənistan prezidenti Levon Ter-Petrosyanla da görüşdüm. Onunla danışdığımız zaman o da bəyan etdi ki, Ermənistan da bu təklifləri əsasən qəbul edibdir. Hesab edirəm ki, belə olan halda biz müsbət nəticə əldə edə bilərik. Doğrudur, Dağlıq Qarabağı idarə edən şəxslər tərəfindən bu təkliflərə münasibət barədə bizdə dəqiq məlumat yoxdur. Gah deyirlər ki, onlar razı deyil, gah da deyirlər ki, hansısa şərtlərlə razı ola bilərlər. Güman edirəm ki, bu da prosesin bir hissəsidir.

Mən Strasburqdan gələndən sonra son günlərdə iki dəfədir ki, Fransanın prezidenti Jak Şirakla telefonla danışmışam. Məhz bu telefon danışıqlarımız da bu məsələnin həlli barədə apardığımız danışıqların davamı olmuşdur. Bunlar hamısı onu sübut edir ki, artıq dünya ictimaiyyəti də, dünyanın aparıcı ölkələri də bu münaqişəyə son qoyulmasına çalışırlar və bizə kömək etmək istəyirlər. Biz bu imkanlardan istifadə edirik və bundan sonra da istifadə edəcəyik, məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq.

Bu bizə lazımdır, çünki biz istəyirik ki, ölkəmizin işğal olunmuş torpaqlarının hamısı azad edilsin, doğma yurdundan didərgin düşmüş, çadırlarda yaşayan bir milyondan artıq vətəndaşlarımız öz yerlərinə qayıtsınlar. Biz istəyirik ki, Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olunsun və Azərbaycanın sərhədləri – beynəlxalq hüquq normalarına uyğun olaraq tanınmış sərhədləri bərpa edilsin və onlar daim toxunulmaz olsun. Biz buna nail olmaq istəyirik. Bunlar hamısı lazımdır. Çünki bizim respublikamızın yaxşı iqtisadi imkanları var. Bu iqtisadi imkanları hərəkətə gətirmək, iqtisadiyyatı inkişaf etdirmək, əhalinin həyat tərzini, rifah halını yaxşılaşdırmaq üçün bizə sülh lazımdır, ərazimizin bütövlüyünün bərpa olunması lazımdır.

Siz bilirsiniz ki, son vaxtlar biz dünyanın bir çox neft şirkətləri ilə, başqa böyük şirkətlərlə çox səmərəli əlaqələr yaratmışıq, Azərbaycanın neft və qaz yataqlarının müştərək istifadə olunması üçün böyük müqavilələr imzalamışıq. Bunların nəticəsində Azərbaycana xarici sərmayə gəlir və məmnuniyyət hissi ilə deyə bilərəm ki, bu sərmayə böyük miqdarda gəlir. Azərbaycanda aparılan iqtisadi islahatlar, torpaq islahatı, torpağın xüsusi mülkiyyətə verilməsi, iqtisadiyyatın sərbəstləşdirilməsi, iqtisadiyyatda insanlara sərbəstlik verilməsi, özəlləşdirmə – bunlar hamısı respublikamızın həyatında böyük müsbət dəyişikliklər yaradıbdır. Ancaq bunlar hələ bizim gördüyümüz işlərin ilk nəticələridir. Biz bundan sonra

daha da yaxşı nəticələr əldə edəcəyik. İqtisadiyyatımız inkişaf edəcəkdir. İnsanlarımızın, sizin həyat tərziniz daha da yaxşılaşacaqdır. Buna əmin ola bilərsiniz. Bunun üçün də biz sülh əldə etməliyik, işğal olunmuş torpaqlarımızı azad etməliyik və bütün qonşu ölkələrlə sülh, əmin-amanlıq şəraitində əməkdaşlıq etməliyik. Ermənistanla da uzunmüddətli, etibarlı sülh əldə etməliyik. Çünki bu həm Ermənistan, həm də Azərbaycan üçün ən əlverişli yoldur.

Mən bu barədə fikirlərimizi, gördüyümüz işləri və qarşımızda duran vəzifələri sizə ona görə çatdırıram ki, bizim gördüyümüz işlər, apardığımız siyasət gərək xalq tərəfindən dəstəklənsin, bəyənilsin. Biz gərək əmin olaq ki, gördüyümüz işləri, o cümlədən xarici siyasətimizi xalqımız dəstəkləyir. Əgər haradasa, nədəsə narazılıq törəyirsə, biz onu aydınlaşdırmalıyıq. Ancaq mən məmnunam ki, indiyədək aldığım məlumatlar onu göstərir ki, Azərbaycan dövlətinin, prezidentinin daxili və xarici siyasəti ölkəmizin ictimaiyyətinin, xalqımızın tam əksəriyyəti tərəfindən tamamilə dəstəklənir və bəyənilir. Bu da bizə daha çox ruh, güc verir, bu istiqamətdə işləmək üçün bizə daha da geniş imkanlar yaradır.

Mən sizi bu görüş münasibətilə bir daha təbrik edirəm. Çox sevinirəm ki, sizinlə görüşürəm. Bu görüşlər hamısı mənim özümdə də böyük ruh yüksəkliyi yaradır, mənə də ilham, güc verir. Mən zavodu yenidən belə gözəl şəraitdə görməkdən çox məmnunam.

Ancaq eyni zamanda mənə aid olan bir şəxsi məqamı da vurğulamaq istəyirəm. Çox sağ olun ki, mənim keçmiş zamanlarda sizə, sizin zavodunuza etdiyim xidmətləri unutmamısınız. Çox sağ olun. Bu, mənim üçün əzizdir. Çünki sizə məlumdur ki, 1988-ci ildən sonra Azərbaycan xalqına düşmən olan bəzi qüvvələr tərəfindən mənim əleyhimə aparılan kampaniya zamanı mənə qarşı çox ədalətsizliklər etmişlər. Ancaq həyat göstərdi ki, o ədalətsiz işlər görən adamlar çox azmış, – mən o vaxt da belə bilirdim. Amma ədalət mövqeyində duranlar, yaxşılığı, xidməti unutmayanlar bizim cəmiyyətimizin, xalqımızın əksəriyyətini təşkil edir. Bilirdim ki, xalq, o cümlədən siz mənim gördüyüm işləri unutmayacaqsınız. Ancaq bu gün bunları bir daha müşahidə etmək məni daha da sevindirdi. Buna görə çox sağ olun.

Mən sizin hamınıza cansağlığı, səadət arzu edirəm. Bütün işlərinizdə sizə uğurlar arzulayıram. Mən burada bir stend gördüm. O bizim keçmiş əlaqələrimizə həsr olunmuş bir stenddir. Siz orada yazmısınız ki, «Heydər Əliyev, biz sizinləyik». Mən onu oxudum. Mən də sizə deyirəm ki, əziz bacılar, qardaşlar, dostlar, mən daim sizinləyəm! Sağ olun.

GÖRKƏMLİ DÖVLƏT, İCTİMAİ VƏ ELM XADİMİ ƏZİZ ƏLİYEVİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ*

16 may, 1998-ci il

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, dostlar!

Bugünkü təntənəli yubiley gecəsi Azərbaycan və Dağıstan xalqlarının görkəmli oğlu Əziz Əliyevin nurlu şəxsiyyətinə, onun 100 illik yubileyinə həsr olunmuşdur. Eyni zamanda, bugünkü mərasim Dağıstan və Azərbaycan xalqlarının dostluq və qardaşlıq bayramıdır.

Biz son illər bu möhtəşəm sarayda Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin yubileylərini təntənə ilə qeyd etmişik. Bu, çox gözəl ənənədir, bugünkü nəsillərin öz tarixi keçmişinə, görkəmli şəxsiyyətlərinə hörmət və ehtiramını, təşəkkür və minnətdarlığını ifadə edir. Ancaq bugünkü təntənəli yubiley gecəsinin fərqi vardır. Bu da ondan ibarətdir ki, biz Əziz Əliyevin 100 illik yubileyini qeyd edirik, eyni zamanda Dağıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluq, qardaşlıq tarixinə yeni gözəl, parlaq səhifələr yazılır.

Aprelin 27-də Dağıstanda, Mahaçqalada Əziz Əliyevin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycanın yüksək səviyyəli nümayəndə heyəti də orada iştirak etmişdir. Bu gün biz Dağıstanın yüksək səviyyəli, çox mötəbər nümayəndə heyətini Azərbaycanda qəbul edirik, Əziz Əliyevin yubileyini birlikdə qeyd edirik, eyni zamanda, Azərbaycan və Dağıstan xalqlarının dostluq, qardaşlıq bayramını keçiririk.

Mən bütün Azərbaycan xalqı adından Dağıstan xalqına hörmət və ehtiramımızı bildirərək, Dağıstan Respublikasının baş naziri Xızrı Şıxsəidovun rəhbərliyi ilə bu gün Azərbaycana gəlmiş Dağıstan nümayəndə heyətini səmimi qəlbdən salamlayıram, onlara «Xoş gəlmisiniz!» deyirəm, Dağıstan və Azərbaycan xalqlarının dostluğunun sarsılmaz olduğunu bir daha bəyan edirəm.

---

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. B., Azərnəşr, 2004, s. 324-335

Dağıstan xalqına və Dağıstan nümayəndə heyətinə dərin hörmət bəsləyərək və deyəcəyim sözləri onların da dinləməsini arzu edərək, nitqimin qalan hissəsini hamımız üçün aydın olan rus dilində davam edəcəyəm.

Hörmətli qonaqlar, bizim dostlarımız!

Ümidvaram ki, siz mənim Azərbaycan dilində dediklərimi olduğu kimi başa düşdünüz. Mənim dediklərimi olduğu kimi başa düşməyiniz üçün rus dilində danışacağam, yəqin ki, həmvətənlərim məni düz başa düşəcəklər. Azərbaycanda rus dilini, demək olar, hamı bilir, ona görə də hesab edirəm ki, məni başa düşəcəklər.

Bugünkü təntənə, Əziz Əliyevin 100 illiyinə həsr olunmuş, Dağıstanda və Azərbaycanda keçirilmiş yubiley tədbirləri xalqlarımız, ölkələrimiz, dövlətlərimiz arasında, insanlar arasında olan səmimi dostluq münasibətlərini bir daha nümayiş etdirir. Əziz Əliyev özünün çoxcəhətli fəaliyyəti, humanizmi və qayğıkeşliyi sayəsində Dağıstan və Azərbaycan xalqlarının sarsılmaz dostluğunun simvollarından birinə çevrilmişdir.

Burada Əziz Əliyevin həyat yolu haqqında çox sözlər deyildi. Mən daha çox, daha yaxşı, daha dolğun danışa bilərəm, çünki onu şəxsən tanıyırdım, bir çox illər onunla birlikdə olmuşam. Özü də mənim bildiklərimin bir çoxunu bəlkə də heç kim bilmir. Ancaq bununla belə vaxtınızı almayacağam. Hesab edirəm ki, deyilənlər tamamilə kifayətdir. Mən yalnız bəzi məqamlar üzərində dayanacağam.

Mən əminəm ki, Əziz Əliyev, - bu aylar ərzində dəfələrlə deyildiyi kimi, - Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O, lap əvvəldən qeyri-adi insan idi. Onun tərcümeyi-halına diqqət yetirin. İrəvanda rus gimnaziyasında təhsil almaq və oranı qızıl medalla bitirmək, gənc ikən kömək üçün milyonçu Hacı Zeynalabdin Tağıyevə müraciət etmək, ondan bu köməyi almaq və bütün dünyada məşhur olan hərbi tibb akademiyasında ali tibb təhsili almaq üçün Peterburqa getmək - gənclik illərində bunu heç də hər kəs bacarmazdı. Heç də hər kəs bu qədər məqsədyönlü ola bilməzdi. Başqa sözlə, bu qeyri-adi istedadı ilahidən gələn insan özünün məqsədyönlülüyü, fədakarlığı, zəhmətsevərliyi, biliklərə can atması sayəsində çox şey qazanmış, hərtərəfli insani keyfiyyətlər əldə etmişdir. O, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı. Ancaq eyni zamanda, onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Amma bunların hamısını aradan qaldırır və yolundan dönmürdü.

Bizim üçün xüsusi əhəmiyyəti olan odur ki, Azərbaycan xalqının oğlu Əziz Əliyev yüksək bacarığını, fayda vermək qabiliyyətini yalnız təkcə öz respublikasında, ölkəsində nümayiş etdirməmişdir. O, müharibə illərində İranda çox məsul işi uğurla yerinə yetirmiş, Dağıstanın rəhbəri kimi son dərəcə məsuliyyətli vəzifənin öhdəsindən çox gözəl gəlmiş, Moskvada - tərkibində yaşadığımız Sovetlər İttifaqı kimi bir dövlətin paytaxtında müvəffəqiyyətlə çalışmışdır.

Bizim xalqımız üçün bunun xüsusi əhəmiyyəti var, ona görə ki, xalqımız, Azərbaycanın ən yaxşı oğulları təkcə öz ölkəsində deyil, həm də başqa ölkələrdə, respublikalarda layiqli yer tuta bilir. Bu, hər bir azərbaycanlının qəlbində çox böyük iftixar hissi doğurur.

İkinci dünya müharibəsi bəşər tarixində ən ağır müharibədir. Böyük Vətən müharibəsi faşizmə, cəhalətə, təcavüzə qarşı müharibə idi. Faşizmə qarşı vuruşanlar, qələbənin təmin olunması işinə öz töhfəsini verənlər, öz fəaliyyəti ilə bu qələbənin çalınmasına kömək edənlər, şübhəsiz, ən yüksək qiymətə və ən yüksək hörmətə layiqdirlər.

Bəli, faşist qoşunları Sovet İttifaqına hücuma keçdikdən sonra qısa bir vaxtda çox irəliləmiş və Qafqaz dağlarının ətəklərinə, Dağıstanın həndəvərinə çatmışdılar. Dağıstan istisna olmaqla, bütün Şimali Qafqaz faşist qoşunları tərəfindən işğal edilmişdi. Onlar Bakıya can atır, Bakı neftini ələ keçirmək istəyirdilər. Bu baş tutsaydı müharibənin nəticəsi bəlkə də başqa cür olardı. Sovet Ordusu, Vətənin müdafiəsinə qalxan insanlar kütləvi qəhrəmanlıq göstərdilər. Bir neçə gün əvvəl, mayın 9-da biz alman faşizmi üzərində qələbənin 53-cü ildönümünü qeyd etdik. Biz cəbhədə vuruşmuş, arxada qələbəni təmin etmiş, faşizmin qarşısını kəsə bilmiş insanlara indiki nəslin bəslədiyi hissləri bir daha və dönə-dönə ifadə etdik. Belə görkəmli insanlardan biri də Əziz Əliyev idi.

O, ön xətdə, Dağıstanda olmuşdur. Onun qismətinə olduqca çox çətin vəzifələr düşmüş və o, bu vəzifələrin öhdəsindən uğurla gəlmişdir. 1941-ci ilin yayında, Sovet İttifaqına faşistlərin hücumu başlandıqdan az sonra sovet qoşunları İrana daxil oldular. Əziz Əliyev Azərbaycan nümayəndələrinin böyük bir qrupuna başçılıq etdi və İranda mürəkkəb şəraitdə xüsusi missiyanı yerinə yetirdi.

Bəli, vaxt gələcək və onun həmin dövrdəki fəaliyyətinin təfərrüatı da aşkara çıxarılacaqdır. Lakin, məsələn, mənə məlumdur ki, o görkəmli Azərbaycan yazıçıları Süleyman Rüstəm, Mirzə İbrahimov, Süleyman Rəhimov və bir çox başqaları ilə birlikdə orada necə cəsarətlə və ağılla iş aparırdı. Ancaq faşist qoşunları Dağıstan sərhədlərinə yaxınlaşan kimi, - orada son dərəcə mürəkkəb vəziyyət yaranmışdı, - Dövlət Müdafiə Komitəsinin qərarı

ilə Əziz Əliyev Dağıstana göndərildi. Dağıstanlılar 1942-ci ilin sentyabrında onların respublikasında vəziyyətin necə olduğunu yaxşı bilirlər. Orada əvvəllər yaşamamış, işləməmiş olan bu adam oraya gəldi və qısa müddətdə bu çoxmillətli diyarı öz ətrafında sıx birləşdirməyə, hamını öz ətrafına toplamağa və onları Dağıstanın müdafiəsinə, deməli, həm də Zaqafqaziyanın, Bakı neftinin müdafiəsinə qaldırmağa müvəffəq oldu. Bu, böyük iş idi və o, həmin işi gördü. Bu işi o özünün qeyri-adi insani keyfiyyətləri, istedadı, ağıl-zəkası sayəsində həyata keçirdi.

Açığını deyək ki, o vaxtlar Əziz Əliyev Azərbaycanın dövlət xadimləri arasında ali təhsili olan, ziyalılığı, zəngin elmi biliyi ilə fərqlənən bir neçə adamdan biri, bəlkə də yeganə adam idi. Bütün bu keyfiyyətlər qısa müddətdə Dağıstanda vəziyyəti sabitləşdirməkdə, bu respublikanın xalqını Qafqazın müdafiəsi üçün birləşdirməkdə ona kömək etdi. Dağıstanlılar Əziz Əliyev başda olmaqla və bizim ordumuzla, o vaxtkı sovet ordusu ilə birlikdə çox böyük vəzifəni yerinə yetirdilər. Onlar Qafqazı müdafiə etdilər, faşist qoşunlarını irəliləməyə qoymadılar, Bakı neftini xilas etdilər.

Təbii ki, bütün bunlar ali komandanlığın, qoşunların, Qafqazın müdafiəsinə səfərbər edilmiş bütün şəxslərin çox böyük, qəhrəmancasına fəaliyyətinin nəticəsi idi. Lakin Əziz Əliyev başda olmaqla dağıstanlıların töhfəsi də çox böyük və sanballı olmuşdur.

Sonra Əziz Əliyev Moskvada işlədi. Daha sonra, 50-ci ildə onu yenidən Azərbaycana qaytardılar, burada Nazirlər Soveti sədrinin müavini işlədi, bir il sonra isə bütün vəzifələrdən çıxardılar, partiya cəzası verdilər, beləliklə də, əslində ona qarşı cinayət etdilər. Mən bunu xatırlayıram.

İndi deyə bilərik ki, onun çox çətin, ancaq eyni zamanda xoşbəxt taleyi olubdur. O, öz həyat yolunda bir çox çətinliklərlə, maneələrlə rastlaşmış, ancaq onları aradan qaldırmışdır. Ədalətsizliklə də qarşılaşmış, amma ruhdan düşməmişdir.

Əziz Əliyev İrəvanda anadan olmuş və artıq 1918-ci ildə özü və bütün ailəsi soyqırıma, deportasiyaya məruz qalmışdır. O, ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı çox gənc yaşında özü görmüş və doğma diyarını tərk edərək Naxçıvana, oradan da Bakıya köçməyə məcbur olmuşdur. O, çalışır, çox iş görürdü, əvəzində 40-cı ildə ona töhmət elan edirlər ki, guya tibb institutunu antisovet ünsürlərdən, millətçilərdən və sairdən təmizləməmişdir.

O, müharibə vaxtı İranda, Dağıstanda nə qədər böyük iş görmüş, Moskvada müvəffəqiyyətlə işləmiş, sonra vətənə qayıtmışdı. Bir il sonra

isə onu işdən çıxarmışdılar ki, guya valideynlərinin sosial mənşəyini, bacısının İranda olmasını gizlətmişdir. Bu paradoks indi artıq bizə məlumdur.

Əziz Əliyev mənə danışırdı ki, o, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxardılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına adi həkim göndərdilər və o, üç il orada işlədi. Bu, onun o vaxtkı rejimin bilavasitə Mir Cəfər Bağırov tərəfindən həyata keçirdiyi repressiyalara məruz qaldığı dövr idi.

Əziz Əliyevin heç bir günahı yox idi. Hamı yaxşı bilirdi ki, əri kimi özü də İran təbəəsi olan böyük bacısı 1938-ci ildə, İran təbəəli azərbaycanlılar buradan çıxarılan vaxt İrana köçməyə məcbur olmuşdu. Bu, məlum idi və heç kim bunu gizlətmirdi. Onun isə boynuna qoydular ki, bu faktı gizlətmişdir.

Onun ailəsinin sosial mənşəyi də məlum idi. 1926-cı ildə o, Kommunist Partiyasına daxil olmuş, yüksək vəzifələrdə işləmiş, SSRİ, Azərbaycan, Dağıstan ali sovetlərinin deputatı seçilmişdi və sairə. O, müharibə zamanı necə hünər göstərmişdir. 1951-ci ildə isə birdən-birə deyirlər ki, guya o, özünün sosial mənşəyini gizlətmişdir. Onu repressiyaya məruz qoymaq üçün sadəcə olaraq nəyəsə öcəşmək lazım idi.

Deməliyəm ki, mən özüm də bu repressiyadan əziyyət çəkmişəm. O vaxt mənim Əziz Əliyev ilə qohumluq münasibətlərim yox idi və bu gün geniş ictimaiyyətə bəlkə də ilk dəfə deyəcəyəm ki, mərhum həyat yoldaşım Zərifə xanımla 1948-ci ildə tanış olmuşdum. Az sonra mən Leninqrada oxumağa getdim. 50-ci ildə oradan Bakıya qayıdandan sonra, şübhəsiz ki, öz ailə həyatımı qurmaq, evlənmək fikrində idim. Ancaq mənim mənzil-məişət şəraitim buna imkan vermirdi - anam və qardaşlarımla İçərişəhərdə zirzəmidə kirayədə yaşayırdım. Şərait yox idi və mən mənzil almağımı gözləyirdim.

1952-ci ildə mən ikiotaqlı mənzil aldım. Lakin o vaxt mənə Əziz Əliyevin ailəsi ilə ünsiyyətdə olmaq qadağan edilmişdi. Xatirimdədir, 1951-ci ildə Əziz Əliyev işdən çıxarıldıqda Zərifə xanımla biz görüşdük və o, mənə dedi: «Deyəsən, biz bir daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irəli sürüblər. Sən isə dövlət təhlükəsizliyi orqanlarında işləyirsən və bu, sənə zərər gətirə bilər. Odur ki, deyəsən, bizə birlikdə olmaq qismət deyilmiş». Mən, əlbəttə, etirazımı bildirdim və münasibətlərimiz davam etdi.

Bundan az sonra, - həmin vaxtlar Əziz Əliyevin ailəsini isə izləyir və onu həbsə almaq üçün fəal məşğul olurdular, - o vaxtkı dövlət təhlükəsizliyi naziri general Yemelyanov məni yanına çağırıb bu sözləri dedi: «Sən cavan və bacarıqlı işçisən, Leninqradda çox yüksək təhsil alıbsan, təhsili uğurla başa çatdırıbsan, sənin gələcəyin var. Ancaq sən Əziz Əliyevin ailəsi ilə bütün əlaqələri kəsməlisən, yoxsa, biz səni işdən çıxarmalı olacağıq». Orqanlarda işlədiyimə və məsələnin nə yerdə olduğunu bildiyimə görə, ondan belə ittihamlar üçün nə kimi əsaslar olduğunu soruşdum. O, məni danlayıb dedi: «Sən hələ cavansan və başa düşmürsən. Yoldaş Mircəfər Bağırov göstəriş verib və biz onu yerinə yetirməliyik».

Aradan bir il keçdi. Mənim əlaqələrim qeyri-leqal xarakter aldı, əks halda başqa cür mümkün deyildi. Bir ildən sonra, 1953-cü ilin əvvəllərində general Yemelyanov yenidən məni yanına çağırdı və qəti şəkildə xəbərdarlıq etdi: «Əgər sən öz əlaqələrini kəsməsən, onda nəzərə al ki, işdən çıxarılacaqsan, həm də nəinki işdən çıxarılacaqsan, eyni zamanda, ciddi şəkildə cəzalandırılacaqsan». Artıq o vaxt bilirdim ki, hər şey ona doğru gedir ki, Əziz Əliyevi həbs etməli, onun ailəsini isə Mircəfər Bağırovun göstərişi ilə buradan sürgün etməli idilər.

Amma Allah kömək etdi. 1953-cü ilin martında Stalin öldü, həmin ilin yayında isə Mircəfər Bağırovu əvvəlcə işdən çıxardılar, sonra da həbs etdilər. Bütün bu müddətdə Əziz Əliyev Sabunçuda həkim işləyirdi və onu öz əvvəlki vəzifəsinə - Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru vəzifəsinə yalnız 1954-cü ilin martında qaytardılar. Bundan sonra mən, necə deyərlər, azadlığa çıxdım və 1954-cü ilin noyabrında öz ailə həyatımı qura bildim.

Qohum olduğumuz illərdə mən Əziz Əliyev ilə çox yaxından ünsiyyət saxlayırdım. Açığını deyim ki, bütün burada deyilənlərlə yanaşı, o, həm də olduqca gözəl insan idi. Bir insan kimi, bir ata kimi olduqca gözəl adam idi. Sadə, məhrəm, ağıllı həmsöhbət olan bu insan tarixdən, ədəbiyyat və incəsənətdən çox şey bilirdi. Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə çox sıx təmasda olurdu. Bütün tibb professorları onun dostları idi, onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban və ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər. O, hər cəhətdən gözəl insan idi.

Əlbəttə, o, vaxtilə məruz qaldığı repressiyalara görə son illərdə çox həyəcan keçirirdi. Lakin, bununla yanaşı, Əziz Əliyev ona qarşı ədalətsizlik edərək repressiya törədənləri də, onların özlərinin nə kimi cəzalar çəkdiyini də görmüşdür. O, nəinki Mircəfər Bağırovun tutulduğunu, həm də 1956-cı ildə Bakıda onun və digər cinayətkarların məhkəmə prosesini də görmüşdür.

Müttəhimlər kürsüsündə Mircəfər Bağırovla birlikdə həmin general Stepan Yemelyanov da əyləşmişdi, o Yemelyanov ki, Əziz Əliyevlə əlaqə saxladığıma görə mənə iki dəfə xəbərdarlıq etmiş və məni danlamışdı. Ona 25 il həbs cəzası kəsdilər. Görün, tale necə olur. Sonralar, 70-ci illərdə mən MK-nın birinci katibi işləyərkən, Yemelyanov öz cəzasını çəkib Bakıya qayıtdı və mənə məktub yazaraq ona bəzi şəxsi işlərində kömək göstərməyi xahiş etdi. Həyat bax, belədir.

Bütün bunları ona görə deyirəm ki, öz təəssüratlarımı bölüşmək istəyirəm, həmçinin bildirmək üçün ki, keçmişdə bizim çox xoş, yaxşı münasibətlərimiz olubdur, biz onları qiymətləndirməli və unutmamalıyıq. Amma keçmişdə çox ağır hallar da olubdur. Biz elə hallara gərək heç zaman yol verməyək. Xalqımız XIX və XX əsrlər ərzində, 1918-ci ildə soyqırımlara məruz qalıbdır. Sonra Ermənistanda yaşamış azərbaycanlıları 1948-ci ildən etibarən Stalinin xüsusi qərarı ilə və yenə də Mircəfər Bağırovun iştirakı ilə zor gücünə Azərbaycana deportasiya etmişlər. Birinci deportasiya əsrin əvvəllərində başlanmışdır. 1918-ci ildə Əziz Əliyevin ailəsi soyqırıma məruz qalaraq deportasiya edilmişdir. Onun orada qalan nəsilləri 1948-1953-cü illərdə köçürülmüşlər. Ermənistanda qalanlar isə 1988-ci ildə Ermənistanla Azərbaycan arasında münaqişə başlandıqda gözümçıxdıya salınmış, məhv edilmiş, zorla oradan çıxarılmışlar.

20-ci, 30-cu, 40-cı, 50-ci illərin repressiyaları totalitar sovet rejiminin bütün sovet xalqına qarşı, xüsusən Azərbaycan xalqına qarşı törətdiyi ən ağır cinayətdir. 37-38-ci illərdə Azərbaycan xalqının məruz qaldığı repressiyalar, zənnimcə, heç bir respublikada olmayıbdır. Azərbaycanın ən görkəmli elm və mədəniyyət, təhsil xadimləri məhv edilmişlər. Bunu da unutmaq olmaz. Bununla birlikdə, belə hallar bir daha təkrar edilməməlidir.

Bu gün Azərbaycan müstəqil respublikadır. İndi biz azad insanlarıq. O illərdə çalışan, Azərbaycanın elmini, təhsilini, səhiyyəsini, iqtisadi potensialını və sənayesini yaratmış insanlar Azərbaycanın bugünkü müstəqilliyinin bünövrəsini qoymuşlar. Biz onları unutmamalıyıq, onları xatırlamalı, onların xidmətlərini lazımınca qiymətləndirməliyik. Bu adamlar arasında Əziz Əliyev də var.

Mən çıxışımın əvvəlində dedim və bir daha demək istəyirəm ki, bugünkü gün Dağıstan və Azərbaycan xalqları arasında dostluğun parlaq bir səhifəsidir. Xalqlarımız həmişə dostluq etmişlər və indi biz bu dostluğu, münasibətlərimizi möhkəmləndiririk. Ötən ilin noyabrında biz Qafqazın böyük oğlu, bütün Qafqaz xalqlarının görkəmli qəhrəmanı Şeyx Şamilin 200 illiyini birlikdə qeyd etdik. Xalq Məclisinin sədri Muxu Əliyev başda olmaqla Dağıstandan Bakıya böyük bir nümayəndə heyəti gəlmişdi. Bizim nümayəndə heyəti Mahaçqalaya getmişdi. Biz bir yerdə olduq və Şeyx Şamil bizim ümumi qəhrəmanımızdır. Təsadüfi deyil ki, həmin gecədə Şeyx Şamilin indi Şəki rayonunda yaşayan nəticəsi Məryət Əsgərova da çıxış etdi.

Biz həmişə bir-birimizin yanında olmuşuq və azərbaycanlılarla dağıstanlıları bir-birindən heç vaxt ayırmamışıq. Əslən Dağıstan xalqlarından olan adamlar bu gün Azərbaycanda tamhüquqlu vətəndaşlar kimi yaşayırlar. Dağıstanda da azərbaycanlılar yaşayırlar, təkcə azərbaycanlılar deyil, başqa millətlər də yaşayırlar. Dağıstanda yaşayanların hamısı bizim qardaşlarımız, dostlarımızdır. Hesab edirəm ki, Azərbaycanda yaşayanların da hamısı bütün dağıstanlıların qardaşları və dostlarıdır.

Mən artıq dedim, Əziz Əliyev kimi görkəmli insanlar Dağıstan və Azərbaycan xalqları arasında dostluğun və qardaşlığın möhkəmlənməsinə çox böyük töhfə vermişlər. İndi bu işə biz də öz töhfəmizi verməliyik. Ona görə ki, heç nə bir yerdə donub qalmır, hər şey inkişafda, hərəkətdədir. Həyatımızın indiki dövrü keçmişdəkindən - biz bir dövlətin, bir ölkənin tərkibində olduğumuz dövrdəkindən fərqlidir. İndi Azərbaycan müstəqil dövlətdir. Respublika olan Dağıstan eyni zamanda Rusiya Federasiyasının bir hissəsidir. Bizim Dağıstanla olan münasibətlərimiz - Rusiya ilə dostluq münasibətləri deməkdir. Biz Rusiya, rus xalqı ilə həmişə dostluq və mehriban münasibətlər şəraitində yaşamışıq. İndi də bu cür münasibətlər şəraitində yaşayırıq. Biz Azərbaycan ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlığı gələcəkdə də möhkəmləndirəcəyik.

Dağıstan özünün coğrafi mövqeyi, Azərbaycana xüsusi yaxınlığı baxımından Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsində xüsusi rol oynayır. Biz Dağıstanla Azərbaycan arasında dostluğu nə qədər çox möhkəmləndirsək, Rusiya Federasiyası ilə Azərbaycan arasındakı dostluq da bir o qədər möhkəm olacaqdır.

Keçmişimizə dair gözəl nümunələr çoxdur, bugünkü həyatımızda da xeyirxah, yaxşı cəhətlər az deyildir. Mən buna böyük hörmət hissi ilə yanaşıram ki, Dağıstanın həm Dövlət Şurası, həm hökuməti, həm də par-

lamenti, Məhəmmədəli Məhəmmədov da, Xizri Şıxsəidov da, Muxu Əliyev də, bütün başqa dostlarımız da Azərbaycanla münasibətləri möhkəmləndirir və inkişaf etdirirlər. Əziz dostlar, Sizi əmin etmək istəyirəm ki, bu dostluğun daha da möhkəm, sarsılmaz olması üçün biz Azərbaycanda hər şeyi edirik və bundan sonra da edəcəyik.

Bizim necə birgə tariximiz olduğunu sübut etməyə ehtiyac yoxdur. Gözəl şair Fazu Əliyevanın dediyi kimi, Dağıstan qadınlarının Azərbaycan kişilərini və Azərbaycan kişilərinin, cavanlarının Dağıstan gözəllərini necə sevdiklərini sübut etməyə lüzum yoxdur. Gözəl deyilmişdir, özü də bunu belə bir gözəl dağlı qızı, bizim böyük dostumuz Rəsul Həmzətovla birlikdə öz yaradıcılığı, şerləri ilə Dağıstan xalqlarını şöhrətləndirən gözəl şair Fazu Əliyeva demişdir.

Bütün bunlar bizim ümumi, misilsiz sərvətimizdir. Bizim borcumuz, vəzifəmiz, gələcək nəsillərin borcu və vəzifəsi isə bu sərvəti, nə varsa hamısını qoruyub saxlamaq, möhkəmləndirmək və inkişaf etdirməkdir. Əminəm ki, Dağıstan və Azərbaycan xalqları arasında dostluq və qardaşlıq əbədi olacaqdır. Əziz Əliyev bu dostluğun simvoludur. Onun davamçıları olan biz isə bu dostluğun əbədi olması üçün hər şeyi edirik.

Azərbaycan xalqına bəslədiyi çox böyük hisslərə, Əziz Əliyevin xatirəsinə göstərdiyi diqqətə görə Dağıstan xalqına bir daha ən dərin minnətdarlığımı bildirirəm.

Yaşasın Dağıstan! Yaşasın Azərbaycan! Dağıstan və Azərbaycan xalqlarının əbədi və sarsılmaz dostluğuna eşq olsun!

ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPUNA «İSTİQLAL» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİNDƏ NİTQ*

Prezident iqamətgahı
26 may 1998-ci il

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 80 illik yubileyini bayram edirik. Bu yubileylə əlaqədar son aylar müxtəlif tədbirlər, təntənəli mərasimlər keçirilir. Milli Məclisin bugünkü iclası da xüsusən buna həsr olunubdur. Mən indi Milli Məclisin iclasından gəlirəm. Sabah Respublika sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş Ümumrespublika təntənəli mərasimi keçiriləcəkdir. Beləliklə, biz Azərbaycanın müstəqil dövlət kimi yaşamasını bir daha dünyaya nümayiş etdiririk, onu təsdiq edirik və sübut edirik.

Azərbaycan müstəqil bir dövlət kimi öz atributlarını yaradıbdır. Dövlət atributlarından biri də müstəqil Azərbaycanın dövlət mükafatlarıdır. Bunlar da ordenlərdən, medallardan, milli qəhrəman adı və bu adla əlaqədar səkkizguşəli Qızıl Ulduz nişanından ibarətdir.

Biz respublikamızın görkəmli insanlarının bir hissəsini Azərbaycanın ordenləri və medalları ilə təltif etmişik. Təltif olunanların əksəriyyəti Azərbaycanın torpaqlarının Ermənistan silahlı qüvvələrinin təcavüzündən qorunması ilə əlaqədar döyüşlərdə iştirak etmiş, qəhrəmanlıq nümunələri göstərmiş, fərqlənmiş insanlardır. Bununla yanaşı, onların arasında Azərbaycanın elm, mədəniyyət, incəsənət sahəsində görkəmli xidmətlər göstərmiş insanlar da vardır.

Bilirsiniz ki, Azərbaycanın milli qəhrəmanlarının bir dəstəsinə Qızıl Ulduz nişanını artıq təqdim etmişəm. Azərbaycanın bir neçə ordeni vardır. Onlardan ən yüksəyi Azərbaycanın «İstiqlal» ordenidir. «İstiqlal» ordeni ilə təltif olunanlar yalnız Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət xadimləridir. Bu da təsadüfi deyildir, təbiidir. Çünki Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizələr müxtəlif yollarla gedibdir. Ancaq Azərbaycanın milli azadlığı, istiqlaliyyəti yolunda ən çox bizim ədəbiyyatımız, mədəniyyətimiz, incəsənətimiz xidmətlər göstəribdir. Çünki əgər biz 70 illik totalitar rejim çərçivəsində milli ədəbiyyatımızı, mədəniyyətimizi, dilimizi, adət-ənənələrimizi qoruyub saxlaya bilmişiksə, hesab edirəm, bunlar böyük nailiyyətlərdir. Millət birinci növbədə bu amillərə görə millətliyini təsdiq edir, millət olur və bir millət kimi tanınır.

Bizim mədəniyyət, incəsənət xadimlərimiz, yazıçılarımız, şairlərimiz, alimlərimiz bu sahədə böyük xidmətlər göstəriblər. Əsrimizin ötən bütün illərindəki milli ənənələrimiz, ana dilimiz, milliliyimiz, adət-ənənələrimiz məhz onların əsərlərində yaşayıbdır. Bunlar böyük nailiyyətlərdir. Bununla yanaşı bizim yazıçılarımız, şairlərimiz, rəssamlarımız, incəsənət xadimlərimiz öz əsərləri ilə insanları daim milli ruhda tərbiyə etməyə çalışıblar və buna da nail olublar. İnsanlarda milli ruhun yaşamasının özü çox böyük nailiyyətdir. Amma yaranan əsərlər bu milli ruhu nəinki yaşadıb, hətta inkişaf etdiribdir. Milli oyanış, dirçəliş prosesində də bizim yazıçılarımızın, şairlərimizin, incəsənət xadimlərimizin, musiqimizin, mahnılarımızın böyük xidmətləri olubdur.

Məhz buna görə də təsadüfi deyil ki, «İstiqlal» ordeni – Azərbaycanın ən yüksək ordeni ilə ilk təltif olunanlar xalqımızın yazıçıları, şairləri, mədəniyyət, incəsənət xadimləridir.

Mən bu gün sizi – təltif olunanları buraya dəvət etmişəm. Görürəm ki, təltif olunanlarla yanaşı, onların həmkarları da buraya gəliblər. Yəqin ki, təltif olunanlar kimi, onlar da sevinirlər. Güman edirəm ki, «İstiqlal» ordeninə layiq görülən insanlar bu yüksək ordeni onların yaradıcılığına verilən qiymət kimi qəbul edirlər. Belə hesab edirəm ki, «İstiqlal» ordeni ilə təltif olunanlarla yanaşı, bizim mədəniyyət xadimlərimizin bir qismi də məhz ona görə burada iştirak edir.

Əziz dostlar, Azərbaycanın ilk ən yüksək ordeni – «İstiqlal» ordeni ilə təltif olunmağınız münasibətilə mən sizi təbrik edirəm. Sizə, Azərbaycanın bütün mədəniyyət, incəsənət xadimlərinə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Sizi təbrik edirəm.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. B., Azərnəşr, 2004, s. 372-374

AZƏRBAYCANIN ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, ELM, DİN VƏ İDMAN XADİMLƏRİNİN BÖYÜK BİR QRUPUNA «ŞÖHRƏT» ORDENLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ*

Prezident iqamətgahı
21 avqust 1998-ci il

Hörmətli xanımlar və cənablar!

Müstəqil Azərbaycan dövlətinin dövlətçilik atributlarından biri dövlətin mükafatlarıdır – ordenlər, medallar və başqa mükafatlardır.

Bildiyiniz kimi, Azərbaycan dövlətinin ordenləri, medalları təsis olunub və ötən illərdə Azərbaycanın görkəmli şəxsləri bu ordenlərlə, medallarla təltif ediliblər. Təltif olunanların əksəriyyəti Azərbaycanın mədəniyyət, elm xadimləri – ədəbiyyatda, incəsənətdə, elmdə xalq qarşısında xidmət göstərmiş, fərqlənmiş şəxslərdir.

Bu gün siz təltif olunanlara ordenlərin təqdim edilməsi mərasiminə dəvət olunmusunuz. Mən də bu şərəfli vəzifəni, yəni ordenləri sizə təqdim etmək kimi şərəfli vəzifəni həyata keçirməyimdən çox məmnunam.

Mərhum xalq yazıçısı İlyas Əfəndiyevin layiq görüldüyü «Şöhrət» ordenini onun oğlu Elçin Əfəndiyevə təqdim edirəm. Heyf ki, mən bu ordeni İlyas Əfəndiyevin özünə təqdim edə bilmədim, çox təəssüf edirəm. Çünki o vaxt, sadəcə, bizim bu nişanlarımız hazır deyildi. Ancaq, eyni zamanda, mən məmnunam ki, Elçin, sən onun yaradıcılığını davam etdirirsən. Həm oğlu kimi, həm də Azərbaycanın mədəniyyət xadimi kimi sənin İlyas Əfəndiyevə məxsus olan ordeni almağa tam hüququn var.

Elçin Əfəndiyev: Hörmətli prezident! Əziz dostlar!

Sizin dediyiniz kimi, mən də böyük bir ağrılı-acılı duyğu ilə təəssüf edirəm ki, layiq olduğu bu yüksək mükafatı bu gün Sizdən bilavasitə İlyas Əfəndiyev özü almadı. Ancaq təskinliyi onda tapıram ki, bu gün İlyas Əfəndiyevin ruhu burada, bu salonda, bizimlə bir yerdədir və onun ruhu şad olur. Şad olur ona görə ki, İlyas Əfəndiyev bütün varlığı, canı-qanı ilə Azərbaycan xalqına bağlı olan sənətkar, yazıçı idi. Bütün varlığı ilə Azərbaycan Respublikasına, onun müstəqilliyinə və ərazi bütövlüyünə bağlı bir sənətkar idi. İlyas Əfəndiyev Azərbaycan Respublikasının prezi-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab. B., Azərnəşr, 2006, s. 132-167

dentinə, cənab Heydər Əliyev, şəxsən Sizə son dərəcə böyük hörmət və ehtiram bəsləyən bir insan idi.

Mən bu yüksək mükafata görə İlyas Əfəndiyevin ailə üzvləri adından Sizə bir daha dərin təşəkkürümüzü və minnətdarlığımızı bildirirəm. Çox sağ olun.

Heydər Əliyev: Xalq yazıçısı Hüseyn İbrahimovu orden alması münasibətilə təbrik edirəm.

Hüseyn İbrahimov: Hörmətli prezident! Dörd il bundan əvvəl Siz məni Azərbaycanın şöhrət rəmzi olan «Şöhrət» ordeni ilə təltif edəndə və 75 yaşım münasibətilə təbrik edəndə ürəyimdən çox qəribə bir hiss keçmişdi. Düşünürdüm ki, gün o gün olsun, mən Sizin 75 yaşınızı təbrik edim. Düzdür, mən uzaqda yaşadığım üçün Sizi bilavasitə təbrik edə bilmədim. Ancaq bu il çıxan üç kitabımı Sizə hədiyyə göndərdim və onlardan birində Sizə avtoqraf-təbrik yazdım. Bunlar mənim seçilmiş əsərlərimdir və oraya böyük memar Əcəmi Əbubəkr oğluna həsr etdiyim «Əsrin onda biri» romanım daxil edilmişdir. Mən avtoqraf-təbriki ona görə bu roman olan kitabda yazdım ki, Sizi XX əsr Azərbaycanının Atabəyi hesab edirəm. Ona görə öz ürək sözlərimi yazdım ki, bəlkə Sizi üzbəüz görüb öz təşəkkürümü çatdıra bilmədim.

Bu gün özümü xoşbəxt sayıram ki, üzbəüz Sizin 75 illiyinizi təbrik edirəm. Fürsətdən istifadə edərək onu demək istəyirəm ki, bu xalqa lazım olan şəxsiyyət olduğunuz üçün allah-təala Sizə uzunömürlülük kimi bir bəxtəvərlik, xoşbəxtlik nəsib edibdir. Bir də ona görə Sizə təşəkkürümü bildirirəm ki, bu yaxınlarda bir qrup yazıçı ilə birlikdə mənə də «Xalq yazıçısı» kimi yüksək ad vermisiniz. Mən bu fəxri adı Sizin ürəkdən bağlandığınız, sevdiyiniz Naxçıvan torpağına məhəbbətiniz və ehtiramınız kimi qiymətləndirirəm. Lev Tolstoyun gözəl bir kəlamı var, deyir ki, Yasnaya Polyanasız bütün Rusiyanı təsəvvür etmək çətindir. Naxçıvansız da bütün Azərbaycanı təsəvvür etmək çətindir.

Arzu edirəm ki, Siz həmişə xeyirxah fərmanlar imzalayasınız, xoş niyyətli, xoş məramlı, xoş müjdəli sərəncamlar verəsiniz. İstərəm ki, Siz xalqımızı XXI əsrə aparan bələdçi olasınız. Mən istərəm ki, ölkəmizin haqq qafiləsinin sarbanı Siz olasınız və onu XXI əsrə aparasınız. İstərəm ki, Siz XXI əsrin ilk illərində də Azərbaycanın prezidenti olasınız və xalqımıza başçılıq edəsiniz. Biz torpaqlarımızı erməni işğalçılarından dinc yolla azad edə bilsək, ona Siz rəhbərlik edəsiniz. Lazım gəlsə, böyük intiqam günü üçün ayağa qalxmalı olsaq, ordumuzun baş komandanı Siz olasınız. Gələn il Sizin 76 yaşınız tamam olur, mənim isə 80 yaşım. Mən bu 80 yaşı Naxçıvan torpağında yaşamışam. Ona görə də Sizə xeyir-dua vermək istəyirəm. Allah-təala Sizi həmişə hifz eləsin, Sizi bu xalqa çox

görməsin. Mənim bu sözlərimi də ixtiyar bir yazıçının həmişə cavan görünən prezidentə xeyir-duası kimi qəbul edin.

Heydər Əliyev: Mərhum xalq şairi İsmayıl Şıxlının oğlu Elçin Şıxlıya atasının ordenini təqdim edərək, – İlyas Əfəndiyev haqqında dediyim sözləri İsmayıl Şıxlı haqqında da təkrar etmək istəyirəm. Mənim İsmayıl Şıxlıya olan böyük hörmətim məlumdur. Onun Azərbaycan xalqı qarşısındakı xidmətləri də hamıya məlumdur. Təəssüflər olsun ki, o, həyatı vaxtsız tərk etdi və mən bu ordeni şəxsən ona təqdim edə bilmədim. Sənə, onun oğluna təqdim edirəm. Allah bundan sonra sizin ailənizə heç bir qəm-kədər verməsin.

Elçin Şıxlı: Məndən əvvəl burada İlyas Əfəndiyevin oğlu, – onunla da adaşıq, – Elçin müəllim bir söz dedi, onu təkrar etmək istəyirəm. Çox təəssüf ki, atam özü bu böyük mükafatı Sizdən ala bilmədi. Sağ olun.

Heydər Əliyev: Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Hacı Allahşükür Paşazadəni orden alması münasibətilə təbrik edirəm. Şeyx həzrətləri, siz Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmiş və bunlara görə də bu yüksək mükafata layiq olmusunuz. Bu ordeni məmnuniyyətlə təqdim edir, sizə cansağlığı arzulayıram.

Şeyxülislam Hacı Allahşükür Paşazadə: Möhtərəm prezident! Mən hesab edirəm ki, bu təltif bütün Qafqaz müsəlmanlarına, mənəviyyatımıza verilən qiymətdir. Müstəqil Azərbaycan dövlətinin rəhbərinin mənəviyyatımıza verdiyi qiymətdir. Ona görə də mən Allah-təaladan Sizə cansağlığı, uzun ömür, başda Siz olmaqla bütün xalqımıza xoşbəxtlik arzu edirəm. Çox sağ olun.

Heydər Əliyev: Mərhum akademik İmam Mustafayevin təltif olunduğu ordeni onun qızı Tərlan Mustafayevaya təqdim edirəm. Təəssüf edirəm ki, bizim dəyərli insanlarımız həyatdan gediblər. Ancaq onların gördükləri işlər durur, o cümlədən İmam Mustafayevin gördüyü işlər də yaşayır. Ordeni də böyük məmnuniyyətlə sizə təqdim edirəm.

Tərlan Mustafayeva: Bu gün mənim üçün çox təsirli, gözəl gündür ki, atamın layiq görüldüyü mükafatı Sizdən alıram. Məni buraya dəvət etməyi lazım bildiyinizə görə ailəmiz Sizə minnətdardır. Otuz ildir ki, Siz həmişə bizim ailəmizə böyük diqqət göstərmisiniz. Ailəmizin, atamın çətin günlərində həmişə elə etmisiniz ki, ədalət öz yerini tutubdur. Bunu unutmaq olmaz.

Mən Sizi ad gününüz münasibətilə təbrik edənlərə həmişə qibtə edirdim. İcazə verin, bu gün mən də Sizi təbrik edim. Çünki bu il Sizin ilinizdir, ona görə də dekabrın 31-dək təbrik etmək olar. Sizə xoşbəxtlik, cansağlığı, tükənməz enerji arzulayıram. Qoy Sizin bütün ülvi arzularınız həyata keçsin.

Sizə kiçik bir hədiyyə etmək istəyirəm. Ərəb ustalarının hazırladıqları bu metal nimçədə Allahın 99 adı həkk olunmuşdur. Qoy bu Sizi hifz eləsin.

Heydər Əliyev: XXV olimpiya oyunlarının çempionu Nazim Hüseynovu orden alması münasibətilə təbrik edirəm.

Nazim Hüseynov: Möhtərəm prezident! Fəxr edirəm ki, Siz mənə yüksək «Şöhrət» ordenini təqdim etdiniz. Sizə uzun ömür, cansağlığı arzulayıram.

Heydər Əliyev: Xalq artisti Qəmər Almaszadəyə ordeni təqdim edir və onu təbrik edirəm. Sizi yubileyiniz münasibətilə təbrik edirəm. Ancaq hesab edirəm ki, bir müddətdən sonra sizi daha bir yubiley münasibətilə təbrik edəcəyik. Bu mükafat əvvəlki yubileyə görədir. Elə bilirəm ki, sonrakı yubileyi daha yaxşı qeyd edəcəyik və siz daha yüksək mükafata layiq görüləcəksiniz.

Azərbaycanda maarifin inkişafında böyük xidmətləri olan Sona xanım Tağıyevaya bu yüksək mükafatı təqdim edirəm. Mən sizi təbrik edirəm. On illərdir sizinlə əməkdaşlıq edirik. Şadam ki, bu gün də varsınız və Azərbaycan ordenini sizə təqdim edirəm.

Sona Tağıyeva: Hörmətli prezident! Bu, dördüncü ordendir ki, mənə verirsiniz. Bu, maarifə olan böyük hörmətdir. Siz 1969-cu ildən 1982-ci ilədək maarifimizin inkişafına nə qədər böyük qayğı göstərmisiniz. Mən 1969-cu ildən 1982-ci ilə qədər Heydər Əliyevin Mərkəzi Komitədə işləməsini görmüşəm. Plenumlardan qayıdanda həmişə müəllimlərə danışardım – nə qədər diqqət, qayğı göstərirdi. 1982-ci ildən sonra maarifimiz çox kasıbladı, 1990-cı ildən sonra isə birdən dağıldı. Amma indi Siz əvvəlki maarifimizi bizə qaytardınız. İndi hamı bilir ki, arxasında Heydər Əliyev kimi çox qayğıkeş prezidentimiz var. Siz uşaqların bayramlarında əyilib onları öpür, qucağınıza götürürsünüz, görün, ürəyinizdə nə qədər atalıq, babalıq qayğısı var! Nə qədər sevinirəm ki, prezidentimiz işinin bu cür çoxluğuna baxmayaraq, məni də yaddan çıxarmır. İlham 6 nömrəli məktəbdə oxuyanda onun buraxılış gecəsində olmağınız da yadımdadır. Biz bunların hamısını müəllimlərə, uşaqlara danışırıq. Tədrisimizə daxil etmişik ki, aşağı siniflərdən on birinci sinfə qədər şagirdlərimiz prezidentimizin həyat və fəaliyyətini bilsinlər. Hər dəfə dərs zamanı uşaqlara deyirəm ki, Siz Heydər Əliyevə baxırsınızmı, görürsünüzmü necə olmaq lazımdır?

Siz mənə qardaşlıq etmisiniz, bəlkə də özünüz bilmirsiniz. Mən Sizə ailəm adından cansağlığı arzu edirəm. İki gün qabaq Səbail rayonunda maarif işçiləri toplaşmış, seçkidə hamı Sizə səs verəcəyini bildirmişdir.

Heydər Əliyev: Əməkdar idman ustası **Ələkbər Məmmədovu** təbrik edirəm. Futbolumuz da yaşayır, inkişaf edir və edəcəkdir.

Xalq şairi Fikrət Qocanı yüksək mükafat alması münasibətilə təbrik edirəm.

Fikrət Qoca: Cənab prezident! Keçən dəfə «İstiqlal» ordeni təqdim ediləndə mənim dostum, qardaşım Anarın dediyi sözləri təkrar eləmək istəmirəm. Amma demək istəyirəm ki, onunla yüz faiz razıyam. Ancaq həm 75 illiyinizi təbrik etmək üçün, həm də bugünkü gün münasibətilə Sizə zarafatyana balaca bir şer yazmışam:

İstiqlal verdiniz,
şöhrət gətirdiz bizə,
Bu yerdə ehtiyac var
qafiyələnmiş sözə.
Çox yaxşılıq etmisiz,
demirəm ki, aman ver,
Bir yaxşılıq da elə,
bir az bizə zaman ver,-
Bir yetmiş il də yaşa
Belə cavan,
Firavan,
Hər gün zövq ala-ala.
Mən də o yetmiş ildə Sizin yaxşılığınızdan
Çıxaram bala-bala.

Heydər Əliyev: Üzeyir Hacıbəyovun Dövlət Ev Muzeyinin direktoru Ramazan Xəlilovu təbrik edirəm.

Mən istəyirəm ki, sizin 100 illiyinizi qeyd edək, mən bunu gözləyirəm. İstəyirəm özüm də o vaxtadək yaşayım və 100 illik yubileyiniz münasibətilə sizə mükafat təqdim edim.

Ramazan Xəlilov: Zati-aliləri, bizim əziz, çox hörmətli prezidentimiz!

80 il bundan əvvəl 3-cü Ləzgi Süvari Alayının komandiri mənə poqonlar və başlıq təqdim edərək dedi ki, poqonları şərəflə, başlığı isə ləyaqətlə daşı. Bugünkü gün təkcə məndən ötrü deyil, hamı üçün, bizim bütün ziyalılarımız üçün böyük bayramdır. Bu gün mən yaradıcılığıma görə Sizin əlinizdən yüksək mükafat alıram. Ürəyim Sizin ünvanınıza demək istədiyim səmimi sözlərlə doludur. Mən Sizin çıxışlarınızı diqqətlə izləyir və hər gün ən müxtəlif səviyyəli adamlarla gördüyünüz nəhəng işə heyran qalıram.

Allah Sizə böyük istedad bəxş edibdir. Lakin bu istedad misilsiz zəhmətlə birləşibdir. Siz elə bir insansınız ki, istənilən səviyyədə, istənilən diplomatlarla danışıqlar apara bilirsiniz. Bunu hər kəs bacarmır. Ona görə də demək istəyirəm ki, Heydər Əliyevin ətrafında birləşmək lazımdır,

bəziləri kimi ona mane olmaq yox, kömək etmək lazımdır. Mane olmaq istəyən miskin adamlardır, onlar xalqa xidmət etmək üçün yox, öz ciblərini doldurmaq üçün vəzifə tutmaq istəyirlər. Xalqın əsl xidmətçisi Sizsiniz. Siz bütün biliyinizi, qüvvənizi, sağlamlığınızı öz xalqınıza həsr edirsiniz.

Mən II Nikolaydan başlamış çox adamlarla görüşmüşəm, sonuncu görüşüm Cövhər Dudayevlə olubdur. Təhlil etməyə imkanım var. Heydər Əliyeviç, deyə bilərəm ki, Allahın verdiyi xoşbəxtlikdir ki, Azərbaycanın Sizin kimi övladı var. Siz hər şeyi, hamını yadda saxlayırsınız, Sizin fövqəladə yaddaşınız var. Elə burada müxtəlif sahələrdən olan nə qədər adam əyləşib, Siz onların hər birini tanıyırsınız. Allah Sizə uzun ömür versin ki, respublikamıza rəhbərlik edəsiniz. Çünki mən respublikanı bu çətin vəziyyətdən çıxara biləcək ikinci adam tanımıram.

Öz ölkəsinin «Şöhrət» ordeninə layiq görülmək hər adama qismət olmur. Siz bizim hər birimizin əməyinə qiymət vermisiniz. Çox sağ olun, Allah Sizə cansağlığı versin. Mən isə çalışacağam ki, Sizin istəyinizi yerinə yetirim.

Heydər Əliyev: Sovet İttifaqı qəhrəmanı Məlik Məhərrəmovu orden alması münasibəti ilə təbrik edirəm. Sən İkinci Dünya, Böyük Vətən müharibəsində qəhrəmanlıq göstərib «Qızıl ulduz» medalına layiq görülmüsən. İndi ictimaiyyətimiz də bilir ki, azərbaycanlılardan Sovet İttifaqı Qəhrəmanı adı daşıyanların əksəriyyəti həyatını dəyişibdir. Xoşbəxtlikdir ki, Məlik Məhərrəmov bizim sıralarımızdadır, özü də möhkəm durubdur. Müharibədə qəhrəmanlıq göstərmisən, 1945-ci ildən 1998-ci ilə qədər 53 ildir ki, sən öz xalqına yenə də sədaqətlə xidmət edirsən. Həm xalq, həm də dövlət bunu yüksək qiymətləndirir. Ona görə də mən Azərbaycanın yüksək mükafatını – «Şöhrət» ordenini böyük məmnuniyyətlə sənə təqdim edib, cansağlığı arzulayıram. Təbrik edirəm.

Məlik Məhərrəmov: Möhtərəm prezident. Mən bir neçə ordenlə təltif olunmuşam və bu ordenləri mənə ayrı-ayrı yüksək vəzifəli adamlar təqdim ediblər. Bu gün mənim üçün ona görə daha şərəflidir ki, müstəqil Azərbaycan dövlətinin «Şöhrət» ordenini mənə Siz təqdim edirsiniz. Bu gün bir daha fərəhlidir ki, bu yüksək mükafatı mənə həm hörmətli prezidentimiz, həm də ondan qabaq bir-birimizin xətrimizi istədiyimiz, ən çox sevdiyim adam təqdim edir. Hörmətli prezident, buna görə Sizə «Çox sağ olun» deyirəm, minnətdarlığımı bildirirəm.

Heydər Əliyev: Xalq artisti, bəstəkar Vasif Adıgözəlova bu ordeni təqdim edirəm. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Vasif Adıgözəlov: Möhtərəm cənab prezident. Mən müstəqil dövlətimizin bu yüksək mükafatını Azərbaycanın bütün musiqi xadimlərinin, sənətşünaslarının yaradıcılığına Sizin tərəfinizdən verilən böyük qiymət

kimi qəbul edirəm. Çünki, bir Allah bilir ki, Azərbaycan musiqisinin inkişafında rolunuz Siz hələ prezident olmamışdan xeyli əvvəl – 1960-cı illərin axırlarında başlamışdır. Mən Sizinlə tanış olduğum illəri nəzərdə tuturam. Siz ondan da əvvəl Azərbaycan musiqisinin inkişafına çox kömək etmisiniz. Bilirsiniz ki, musiqi xadimlərinin həyatı çoxlu problemlərlə qarşılaşır. Bizim həyatımız asan yolla getmir. Bu da təbiidir. Çünki musiqi elə bir sənətdir ki, həyatı rahatlıqla axıra çatdırmaq çox çətindir. Bu çətinliklərə, xüsusən də son illərdə qarşılaşdığımız çətinliklərə baxmayaraq, biz Azərbaycan musiqisini qorumaq, saxlamaq və daha da inkişaf etdirmək yolunda əlimizdən gələni əsirgəməmişik. Biz bunu ona görə etmişik ki, Siz bizdə bu inamı yaratmısınız. Biz Sizə arxalanıb bunu etmişik, ən çətin anlarda belə heç nədən çəkinməmişik. Çünki həmişə bilmişik ki, Azərbaycan musiqisinin böyük dostu, musiqimizi sevən, musiqi xadimlərinin yaradıcılığına yüksək qiymət verən vardır. Bugünkü gün mənim dediklərimin sübutudur.

Heydər Əlirza oğlu, bu gün bütün bəstəkarlar, musiqişünaslar adından mən Sizə öz minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqının siyasi həyatında böyük hadisələr gözlənilir. Yəni xalqımız prezident seçkilərinə hazırlaşır. Möhtərəm prezident, mən Sizi əmin edirəm ki, bütün bəstəkarlar, musiqişünaslar ancaq bir prezident tanıyırlar, o da Sizsiniz. Biz hamımız ancaq Sizə səs verəcəyik. Mən Sizi əmin edirəm ki, biz 2000-ci ildə və ondan sonra da musiqimizin inkişafı üçün əlimizdən gələni edəcəyik və Siz də bizə həmişə kömək olacaqsınız. Çox sağ olun, Sizə minnətdaram.

Heydər Əliyev: Xalq artisti Səyavuş Aslanı təbrik edirəm. Sənə yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Əgər çıxış edəcəksənsə, gülməli bir söz de. Yoxsa sən də siyasətdən danışacaqsan.

Səyavuş Aslan: Hörmətli prezident, mənim siyasətlə işim yoxdur. O gün olsun ki, 80 illiyinizdə də prezident olasınız, biz də yubileyinizdə səhnəyə çıxıb Sizi doyunca güldürək. Mən söz verirəm ki, 80 illiyinizdə Sizi doyunca güldürəcəyəm. Sağ olun.

Heydər Əliyev: Tarix elmləri doktoru Sara Aşurbəyliyə bu yüksək mükafatı təqdim edirəm. Sara xanım, biz sizin yubileyinizi də qeyd etdik. Çox məmnunam ki, indi bu ordeni də şəxsən mən sizə təqdim edirəm.

Sara Aşurbəyli: Cənab prezident. Sizə öz minnətdarlığımı bildirirəm. Siz həmişə mənə yaxşı münasibət bəsləmisiniz. Çox arzu edirdim ki, Sizinlə görüşüm və Sizə yeni-yeni uğurlar diləyim.

Heydər Əliyev: Sara xanım, Azərbaycan elmində, xüsusən tarix elmində və Bakının tarixinin yazılmasında sizin misilsiz xidmətləriniz vardır. Sağ olun. Sizə cansağlığı arzu edirəm.

Naxçıvan Dövlət Filarmoniyasının solisti Abdulla Babayevi orden alması münasibətilə təbrik edirəm. Sən Naxçıvanın, Azərbaycanın müğənnisisən, həmişə yaxşı oxumusan, indi də yaxşı oxuyursan. Arzu edirəm ki, yeni-yeni mahnılar oxuyasan.

Abdulla Babayev: Çox sağ olun, möhtərəm prezident. Mən Sizə həsr etdiyim mahnılarımı həmişə oxuyacağam və Sizə dua edəcəyəm.

Heydər Əliyev: Mərhum akademik Mark Dalinin təltif olunduğu ordeni onun qızı Alla Markovna Knyazyuka təqdim edirəm. Sizin atanızı həmişə xatırlayacağıq. O, Azərbaycan elminin inkişafı üçün çox iş görmüşdür və Azərbaycan xalqının, elminin tarixində həmişə qalacaqdır.

Alla Knyazyuk: Əziz Heydər Əliyeviç! Mən çox xoşbəxtəm və özüm üçün böyük şərəf sayıram ki, bu təntənəli mərasimə dəvət olunmuşam. Mən ikili hiss keçirirəm: bir tərəfdən, fəxr edirəm ki, atamın təltif olunduğu bu ordeni mənə şəxsən Siz təqdim edirsiniz, digər tərəfdən də təəssüflənirəm ki, atam bu xoşbəxt günü görə bilmədi.

Atam çox təvazökar, şöhrətpərəstlikdən uzaq adam idi. Ancaq o, «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında fərmanı eşidəndə bunu böyük minnətdarlıqla qarşılamış və özünü çox xoşbəxt saymışdı. Çünki bu, onun Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərə verilən qiymət, şəxsən Sizin verdiyiniz qiymət idi. Atam Bakıda doğulmuş və bütün ömrünü burada yaşamışdır. Azərbaycan onun vətəni idi. Atam əsl vətənpərvər idi və öz vətənini sevirdi, ona sadiq idi. Onun yaratdığı və rəhbərlik etdiyi institut məşhur idi və hələ atamın sağlığında ona «Dalin İnstitutu» deyirdilər. Bunu xaricdə də bilirdilər. Hələ o vaxtlar atam «Britiş Petroleum», «Mobil» kimi şirkətlərlə elmi əlaqələr saxlayırdı.

O, Sizinlə olan görüşlərini tez-tez xatırlayır, hələ o illərdə Azərbaycanda neft, neft kimyası sənayesinin sürətlə inkişafında Sizin misilsiz rolunuzdan danışırdı. Sizinlə olan görüşlərini «Azərbaycanda neft kimyasının inkişaf yolları» monoqrafiyasında əks etdirmişdir.

Mən çox xoşbəxtəm ki, atamın adı Azərbaycanın Məmmədəliyev, İsmayılov, Quliyev, Nağıyev və başqa kimyaçı alimləri ilə bir sırada durur. Əlbəttə, atam sağ olsaydı, Sizə minnətdarlıq etmək üçün daha yaxşı sözlər deyə bilərdi. Mən isə onun xatirəsini əziz tutduğunuza görə Sizə minnətdaram. Atamın adının unudulmayacağı barədə dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm.

İcazə yerin, Sizi 75 illiyiniz münasibətilə təbrik edim, Sizə cansağlığı, xoşbəxtik, qarşıdakı prezident seçkilərində parlaq qələbə arzulayıram. Biz hesab edirik ki, Azərbaycanın işıqlı gələcəyi yalnız Sizin adınızla bağlıdır.

Heydər Əliyev: Xalq artisti Sofya Hüseynovanı orden alması münasibətilə təbrik edirəm. Mən sənə yeni-yeni yaradıcılıq uğurları arzu-

layıram. Mən Naxçıvanda olanda sənin anan sağ idi. O, çox gözəl aktrisa olubdur. Sənin anan Xədicə xanım Qazıyeva Naxçıvan teatrının uzun illər ən aparıcı aktrisası olub, baş rolları oynayıbdır. Mən teatrla həmişə bağlı olmuşam. Hələ uşaqlıq, gənclik illərimdə teatra gedərkən Xədicə xanım Qazıyevanın oynadığı baş rollara heyranlıqla baxmışam.

Sofya Hüseynova: Azərbaycan xalqının əziz, çox hörmətli, görkəmli və əvəzolunmaz prezidenti cənab Heydər Əliyev!

Hörmətli mərasim iştirakçıları!

Ömrümün 50 ilini teatr aləminə bağlamağıma baxmayaraq, bu gün mən öz sevincimi, həyəcanımı gizlədə bilmirəm. Çünki mən bu anı səbirsizliklə gözləyirdim.

Möhtərəm prezident, burada, Sizin qarşınızda öz ürək sözlərimi bildirmək həm çətin, həm də çox xoşdur. Mən bundan qürur hissi keçirirəm, fərəh duyuram. Hörmətli prezidentim, məni fərəhləndirən, yüksəklərə qaldıran, sadə əməyimə qiymət verən Sizsiniz. Bu, biz incəsənət adamları üçün mənəvi qidadır. Mənə verilən ali mükafatı Naxçıvan teatrında çalışan öz yoldaşlarımla bölmək istəyirəm. Çünki mən tək heç nə edə bilməzdim. Yəqin anam Xədicə xanım məni vaxtilə teatra gətirməsəydi, mən bu günü, bu anı yaşamazdım. Mənə verdiyiniz qiymət, göstərdiyiniz qayğı Naxçıvan teatrında çalışan bütün sənət yoldaşlarıma aiddir.

Əziz prezident, Sizin 75 illiyiniz münasibətilə Naxçıvanda keçirilən mərasimdə mən öz ürək sözlərimi bildirmişdim və Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbova demişdim ki, mən cənab Heydər Əliyevlə görüşmək arzusundayam. Nəhayət ki, bu gün mənə nəsib oldu. Mən Sizə öz minnətdarlığımı bildirirəm.

Hörmətli prezidentim, Sizin həyat yolunuz hamar olmayıbdır, ancaq xalqımıza məhəbbətiniz daimidir. Siz xalqın məhəbbətini işinizlə, düzgün apardığınız siyasətlə qazanmısınız. Bizim Sizə olan məhəbbətimiz, inamımız tükənməzdir.

Bütün Azərbaycan xalqı, Naxçıvan Muxtar Respublikasının əhalisi qarşıdan gələn prezident seçkilərində yalnız Sizə səs verəcəkdir və yalnız Sizə ümid bağlayır. Azərbaycan xalqı nicatını yalnız Sizdə görür. Əziz prezidentimiz, Azərbaycan xalqının yeganə xilaskarı Sizsiniz. Mən ümidvaram ki, qarşıdakı prezident seçkilərində hamı bir nəfər kimi yalnız və yalnız Sizə səs verəcəkdir.

Möhtərəm prezident, mənə göstərdiyiniz qayğıya və verdiyiniz mükafata görə Hüseynovlar ailəsi adından Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, möhkəm cansağlığı arzulayıram. Allah Sizi qorusun.

Heydər Əliyev: Xalq rəssamı Maral Rəhmanzadə, Sizi orden almağınız münasibətilə təbrik edirəm. Çox məmnunam ki, bu gün görüşürük. Sizə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Maral Rəhmanzadə: Möhtərəm prezident, böyük qayğı və diqqətə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Xalq şairi Qabil, orden almağınız münasibətilə səni təbrik edirəm. Qabil, Səni xoş gördük. Mən sənə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Qabil: Möhtərəm prezidentimiz! Mən həmişə Sizə «Heydər müəllim», – deyə müraciət etmişəm. Çünki Siz doğrudan da, sözün geniş mənasında, ismin bütün hallarında əsl müəllimsiniz.

Bu orden mənim üçün çox əzizdir. Birincisi, ona görə ki, bu, mənim həyatımda aldığım ilk ordendir, ona görə də əzizdir. Doğrudur, dövlət mükafatı nişanını mənim sinəmə Siz taxmısınız. O da öz yerində əladır. İkincisi, bu, müstəqil Azərbaycanımızın ilk «Şöhrət» ordenidir ki, mən ona layiq görülürəm. Üçüncüsü, bu orden mənim üçün ona görə əzizdir ki, onu mənə Siz – ədəbiyyatımızın, şerimizin, sənətimizin, mədəniyyətimizin, yazıçılarımızın, alimlərimizin, ziyalılarımızın əziz, xiridar dostu təqdim edir. Şair yaxşı deyib ki, «Mətahın atma bazarə, xiridar olmayan yerdə». Mən bu mükafatı qiymət verən, xiridar dostun, Heydər müəllimin əlindən alıram. Sağ olun.

Heydər Əliyev: Akademik Adilə Namazova, Sizi orden almağınız münasibətilə təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram.

Adilə Namazova: Sevimli, möhtərəm prezidentimiz Heydər Əlirza oğlu! Mən hesab edirəm ki, bu orden təkcə mənim yox, Azərbaycanın bütün səhiyyə işçilərinin, pediatrlarının əməyinə verdiyiniz yüksək qiymətdir. Mən və mənim həmkarlarım gələcək nəslin, uşaqların sağlamlığı keşiyində möhkəm dayanmaq və müstəqil, azad Azərbaycan üçün sağlam vətəndaşlar yetişdirmək üçün bundan sonra da var gücümüzlə çalışacağıq.

Möhtərəm prezident, mən Sizə minnətdaram, çox sağ olun. Mən bütün tibb işçiləri adından Sizə təşəkkür edirəm.

Heydər Əliyev: Xalq rəssamı, heykəltəraş Mirələsgər Mirqasımovu orden alması münasibətilə təbrik edirəm. Siz respublikamızın görkəmli heykəltəraşısınız. Sizin yaratdığınız Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə abidələri yüksək qiymətə layiqdir.

Mirələsgər Mirqasımov: Cənab prezident. Siz olmasaydınız, bu abidələr ucaldılmazdı. Ona görə də Sizə minnətdaram.

Heydər Əliyev: Yeri gəlmişkən, mən həmişə narahat olmuşam ki, sizin atanız Mirəsədulla Mirqasımovun məzarı üzərində nə üçün

qəbirüstü abidə yoxdur. Görkəmli alim Mirəsədulla Mirqasımov Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti olmuşdur. Deyirsiniz ki, onun məzarı üzərində indi abidə ucaldılır, mən onun açılışına mütləq gələcəyəm. Sizi təbrik edirəm.

Xalq artisti Zeynəb Xanlarovaya «Şöhrət» ordenini təqdim edirəm. Mən sənə cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Zeynəb Xanlarova: Hörmətli prezident. Xalqımız Sizin haqqınızda həmişə xoş sözlər deyir. Mənim Sizə olan məhəbbətim ürəyimdədir. Sizi hamı çox tərifləyir, bunlar mənim ürəyimə yatır. Amma hərdən əsəbiləşirəm ki, bu görünən günəşi, dağı bu qədər tərifləmək lazım deyildir. Azərbaycanımız, millətimiz üçün Sizin gördüyünüz işlər göz qabağındadır, uşaqdan böyüyə qədər bunu hamı bilir.

Mən SSRİ xalq artisti adına qədər yüksəlmişəm. Hər yerdə doğma Azərbaycanı təmsil edirəm. Bəlkə də dünyanın yarısında məni tanıyırlar. Belə hesab edirəm ki, əməyimə, sənətimə Sizin verdiyiniz yüksək qiymət sayəsində mən bir azərbaycanlı qızı kimi dünyada tanınmışam.

Heydər müəllim, mənim bu mərasimə gələcəyimi eşidən bir ailə dünən mənə bir söz dedi, mən onu Sizə çatdırmalıyam. Möhtərəm prezident, milyonlarla insan Sizi qəlbən sevir. Sizi istəməyənləri barmaqla saymaq olar. Amma yenə də deyirəm, milyonlarla insan sizi sevir. Belə ailələrdən birinin dünən dediyi söz məni qəhərləndirdi, inanın ki, səhərədək yata bilmədim.

Həmin ailənin üzvləri mənə zəng edib dedilər ki, Zeynəb xanım, prezidentlə görüşə gedirsiniz, xahiş edirik, bizim sevgimizi, məhəbbətimizi Heydər müəllimə çatdırın. Biz görmüşük ki, bir insan can verəndə uzaqda olan oğlunun, qızının şəklini ürəyinin üstünə qoyur. Bizim anamız isə ürəyinin üstünə prezidentimizin şəklini qoyub can verdi. 95 yaşlı həmin qadın can verərkən vəsiyyət edib ki, Heydər Əliyevin şəkli mənim ürəyimin üstündə olmasa, can verə bilmərəm. Demək, bu xalq üçün yaşamağa dəyər. Doğrudan da bu xalq üçün prezident olmağa dəyər.

Hörmətli prezident, mən həmin ailənin adından Sizi bir daha öpmək istəyirəm. Biz sənətkarlara, bütün millətimizə Siz həmişə qayğı göstərmisiniz. Siz hər bir dildə danışırsınız. Demək istəyirəm ki, Siz həkimlə həkim kimi, heykəltəraşla heykəltəraş kimi danışırsınız. Ona görə də Sizi sevən milyonlarla insanın əvəzinə Sizi öpmək istəyirəm.

Heydər Əliyev: Həmin ailəyə mənim salamımı söyləyin.

Akademik Nəriman Quliyevi orden alması münasibətilə təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram.

Nəriman Quliyev: Bu yüksək mükafata görə dövlətimizin başçısına, – Sizə, cənab prezident, öz minnətdarlığımı bildirirəm.

Heydər Əliyev: Bakı Xoreoqrafiya Məktəbinin direktor müavini, xalq artisti Leyla Vəkilovaya «Şöhrət» ordenini təqdim edirəm. Sizə cansağlığı, yeni uğurlar diləyirəm.

Leyla Vəkilova: Mənə göstərilən diqqətə görə təşəkkür edirəm.

Heydər Əliyev: Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının quruluşçu rejissoru Lütfi Məmmədbəyovu təltif olunması münasibətilə təbrik edirəm. Sizə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Lütfi Məmmədbəyov: Cənab prezident, Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Heydər Əliyev: Xalq şairi Balaş Azəroğluna «Şöhrət» ordenini təqdim edirəm, sənə cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Balaş Azəroğlu: Möhtərəm prezident, mən Sizə dərin minnətdarlığımı bildirirəm. Xalqımız Sizi ürəkdən sevir. Mənim ürəyimdə də Sizə deyiləsi sözüm çoxdur, vaxtınızı almaq istəmirəm. Çox sağ olun.

Heydər Əliyev: Azərbaycan teatr sənətinin inkişafındakı böyük xidmətlərinə görə xalq artisti Nəsibə Zeynalovaya «Şöhrət» ordenini təqdim edirəm. Səni bağrıma basıram, sənə cansağlığı arzulayıram. Möhkəm ol, öz sənətinlə bizi yenə də sevindir, güldür.

Nəsibə Zeynalova: Böyük qayğı və diqqətə görə Sizə minnətdaram. Möhtərəm prezident, təəssüflənirəm ki, xəstələndiyimə görə yubileyinizdə iştirak edib, Sizə gülüş bəxş edə bilmədim. Arzu edirəm ki, həmişə üzünüz gülər olsun. Mən Sizi sevirəm, qəlbimdə Sizin xüsusi yeriniz vardır.

Heydər Əliyev: Bizim xalqımız Sizi çox sevir, mən isə hamıdan çox sevirəm. Mən Sizi bir daha təbrik edirəm, bu gülü də Sizə özüm təqdim edirəm.

Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, akademik Mirməmməd Cavadzadəni orden alması münasibətilə təbrik edirəm. Ona daha böyük uğurlar arzulayıram.

Mirməmməd Cavadzadə: Cənab prezident, mənim üçün böyük şərəfdir ki, bu yüksək ordeni mənə Siz təqdim edirsiniz. Çox sağ olun. Mən Sizə uzun ömür, cansağlığı arzulayıram.

Heydər Əliyev: Xalq artisti, bəstəkar Aqşin Əlizadəni təbrik edirəm. Çoxdandır, neçə illərdir səni görmürəm. Mən ad günün münasibətilə sənə zəng etdim, səni təbrik etdim. Yadımdadır, mən vaxtilə səni görəndə sən gənc bir oğlan idin. Adətən, sən ananla birlikdə Mehdi Hüseynzadənin heykəlinin yanına gəlirdin. Rəhmətlik Aslan Əzizbəyov da sizinlə birlikdə olardı. Sonra sən böyük bir bəstəkar oldun. Mənə də söz verdin ki, «Babək» baletini yaradacaqsan, yaratdın. Mən səni bir daha təbrik edirəm, cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

Aqşin Əlizadə: Cənab prezident. Bunlar hamısı mənim yaxşı yadımdadır. Qazandığım bütün nailiyyətləri Sizin diqqət və qayğınız sayəsində əldə etmişəm.

Bu yüksək ordeni də mənə təqdim etməyinizdən sonsuz şərəf duyuram. Sizə dərin təşəkkürümü bildirirəm və cansağlığı arzulayıram.

Heydər Əliyev: Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə xalq artisti Habil Əliyevə «Şöhrət» ordenini təqdim edirəm. Sənə daha böyük uğurlar arzulayıram. Habil, yenə kamança çalırsan, yoxsa yox? Sən sözünü kamança ilə deyəndə daha yaxşı olur.

Habil Əliyev: Möhtərəm prezident. Mən Ağdaşdan Bakıya kamançaçı kimi gəlmişdim. Özümə başqa sənət axtarmaq artıq gec idi, amma kamança çaldığıma görə də xəcalət çəkirdim. Çünki istəyirdim, mən də elə bir işdən yapışım, özümə elə bir sənət seçim ki, o, xalqıma çox lazımlı olsun. Ancaq atalar yaxşı deyib ki, «Arxalıya arxa durmaq hər kişinin işidir, arxasıza arxa durmaq nər kişinin işidir». Cənab prezident, Siz mənə arxa durdunuz, sahib oldunuz. Siz mənə xalq artisti adı, «Şöhrət» ordeni, prezidentin fərdi pensiyasını verdiniz. Məni o xəcalətdən qurtardınız ki, mən kamança çalanam.

Möhtərəm prezident, ürək sözlərimi Sizə demək üçün böyük bir şair, yazıçı lazımdır ki, mənim Sizə olan məhəbbətimi, hörmətimi bildirsin. Onsuz da Sizi bütün Azərbaycan sevir. Sizi hamı sevir. Özünüz bilirsiniz ki, bu aksiomadır. Amma incəsənət ustaları Sizin bizə göstərdiyiniz qayğıya cavab verən söz tapıb deyə bilmirlər. Mən incəsənət ustaları, xüsusən xalq musiqisi ifaçıları adından deyə bilərəm. Siz 3-4 günlük bir xarici ölkəyə səfərə gedəndə, vallah, elə hesab edirik ki, Azərbaycan boşalıbdır. Allah Sizi əskik etməsin. Cənab prezident, Sizə prezidentlik yaraşır, Siz də prezidentliyə yaraşırsınız. Allah həmişə Sizi var etsin.

Heydər Əliyev: Səmimi sözlərə görə sənə təşəkkür edirəm. Mən sənin dediyin bu sözlərə bir neçə kəlmə əlavə edəcəyəm. Bu sözlərin hamısını düz dedin. Amma bizim xalqımız kamançanı həmişə yüksək qiymətləndiribdir. Ulu babalarımızdan qalan musiqi alətlərimiz tar və kamançadır. Başqa sənətlərə çox adamlar gedə bilərlər: Hər adam mühəndis də, həkim də, müəllim də, tacir də ola bilər, amma tar, kamança çala bilməz. Hər adam kamança çala bilər, ancaq sənin kimi çala bilməz. Ona görə də sən bu sənəti seçməyinlə fəxr edə bilərsən. Biz də sənin kimi kamança çalan Habillə fəxr edirik. Sağ ol.

Xalq artisti Sara Qədimovanı orden alması münasibətilə təbrik edirəm.

Sara xanım, sizi xoş gördük. Mən nə deyə bilərəm. Azərbaycan incəsənətinin tarixi sizdə əks olunubdur. Mən çox şadam ki, siz varsınız və bu ordeni sizə məmnuniyyətlə təqdim edirəm.

Sara Qədimova: Bu qayğıya və diqqətə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm.

Mənim hörmətli, əziz prezidentim! Əziz məclis əhli!

Mən 1942-1943-cü illərdə cəbhədə olmuşam, medallar almışam. 15 il səhnədə olandan sonra 1954-cü ildə əməkdar artist adı almışam. Bunları deməkdə mənim məqsədim vardır. Siz hamınız görmüsünüz, 1959-cu ildə ongünlükdə Xan əmi ilə, Şövkət xanımla birlikdə «Qarabağ şikəstəsi» oxuduq. Orada mənə «Şərəf nişanı» ordeni verdilər. 1960-cı ildə xalq artisti adını aldım. Sonra gözüm yollarda qaldı ki, bizim Heydər Əlirza oğlu bəs, mənə heç nə vermədi. Elə bir məqam da olmadı ki, mən nəsə bir şey alım.

Möhtərəm prezident, Allah adamı istəyəndə, Allahın nəzəri bəndəsinin üstündə olanda prezidentlərin də, prezidentimin də yadına düşürsən. Prezident bu üç ay ərzində hansı müğənni ilə telefonla danışıb? Bu, mənim üçün böyük fəxrdir. Mən bunlara böyük qiymət verirəm.

Mənim aldığım mükafatların hamısını kənara qoyuram, bir məsələni isə heç vaxt unutmuram. Mən 59 il səhnədə olmuşam. 1992-ci ildə mədəniyyət naziri məni məcbur etdi ki, 70 illik yubileyini keçir, il başa çatır. Mən may ayında anadan olmuşam, nazirlə mənim aramda belə bir söhbət isə dekabrın 18-də gedibdir.

Nazirə cavab verdim ki, mən yubiley keçirmək istəmirəm. Çünki doğma kəndim Gülablı işğal edilib, ölkəmizin tələtümlü vaxtıdır. Xülasə, başınızı da ağrıdıram. Rəhmətlik Gülağa da bizdə idi. Bir də gördüm ki, Naxçıvandan mənə zəng oldu. Məndən iki dəfə soruşdular ki, bu, Sara xanımın evidir? Cavab verdim ki, bəli. Mənə dedilər ki, Heydər Əlirza oğlu sizinlə danışmaq istəyir. Çox həyəcan keçirdim, bilmədim ki, nə edim. Gülağa da oturmuşdu, ona dedim ki, səs eləmə. Qərəz, telefon xəttini birləşdirdilər, biz danışdıq. Siz mənə xeyir-dua verdiniz.

Ordenin də, medalın da öz yeri var, bunları almağın da öz yeri var, çünki zəhmət çəkmişik. Biz indikilər kimi yaşamamışıq, öküz arabasında, palçıqlı yollarla gedib camaat, əsgərlər qarşısında çıxış etmişik. İndi yaxşı yollar, maşınlar, şərait vardır. Biz çox ağır günlər keçirmişik, bir qarnı ac, bir qarnı tox yaşamışıq.

Şükürlər olsun ki, bizim hörmətli prezidentimiz incəsənətə həmişə böyük diqqət yetirir, qayğı göstərir. Hər bir sənətkara öz zəhmətinə layiq olan adlar, mükafatlar verilir. Bəzi cavanlar da var ki, eybi yoxdur, onlar da alarlar. Bütün bunları ona görə danışdım ki, mən o günü, dəqiqəni – Heydər Əlirza oğlunun Naxçıvandan mənə zəng etdiyini heç vaxt yaddan çıxara bilmərəm.

Mənim əziz prezidentim, ailə üzvlərinizlə bərabər Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Biz də Sizin sayənizdə fərəhlənirik, yaxşı günlər görürük. Çox sağ olun. Siz mənə həmişə diqqətli olmusunuz. Sağ olun.

Heydər Əliyev: Çox sağ olun. İnşallah, Gülablı kəndini də düşməndən azad edəcəyik, Qarabağ da azad olacaqdır, oraya bir yerdə gedəcəyik.

Sara Qədimova: Allah qoysa. Əziz prezidentim, çox sağ olun.

Heydər Əliyev: Xalq artisti, müğənni Fidan Qasımovanı orden alması münasibətilə təbrik edirəm.

Fidan Qasımova: Bu yüksək mükafata görə Sizə minnətdarlığımı bildirirəm. Prezident Heydər Əliyev bizi həmişə ruhlandırır. Mən öz xalqıma, vətənimə və dünyanın ən gözəl prezidenti olan prezidentimizə xidmət etməyə hazıram.

Heydər Əliyev: Xalq artisti, bəstəkar Əhməd Cövdət Hacıyevə yüksək mükafatı təqdim edirəm. Cövdət müəllim, Sizi təbrik edir, Sizə cansağlığı, bundan sonra da çox illər ömür, yeni-yeni uğurlar arzulayıram.

Cövdət Hacıyev: Hörmətli, sevimli prezident!

Mən Sizin fəaliyyətinizin bütün cəhətlərini bacardıqca izləmişəm. O qərara gəlmişəm ki, Siz elə şaxəli insansınız ki, bunu bir sözlə, bir əsərlə əhatə eləmək mümkün deyildir. Mən öz bacarığım çərçivəsində Sizə səkkizinci simfoniyamı ithaf eləmişəm. Simfoniya belə adlanır; «Onu zaman seçib. Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyevə həsr olunur».

Mən bu simfoniyanın İsmayıl Hacıyevin dirijorluğu ilə lentə yazılmış audiokassetini Sizə hədiyyə edirəm.

Heydər Əliyev: Yüksək mükafat almağınız münasibətilə əziz Müslüm Maqomayev səni təbrik edirəm.

Müslüm Maqomayev: Heydər Əliyeviç, Sizə olan məhəbbətimiz barədə danışmağa, zənnimcə, ehtiyac yoxdur. Mən Sizin şərəfinizə simfoniya yazmamışam, amma «Azərbaycan» adlı bir mahnı bəstələmişəm. Vaxtilə, sovet hakimiyyəti zamanı Siz onu qəbul etmədiniz. Bu yaxınlarda isə təsdiqlədiniz ki, onu qəbul edirsiniz. O vaxt bu mahnıda demək istədiklərimi indi Tamara ilə birlikdə oxuyuruq, başqa sözlə, Sizə olan məhəbbət ikiqat artmışdır.

Hamı bilir ki, Azərbaycanda incəsənət Sizin sayənizdə çiçəklənir. Ona görə biz istəyirik ki, Siz hələ uzun illər prezident olasınız. Sizə xoşbəxtlik və enerji arzulayıram.

Heydər Əliyev: Müslüm Maqomayev 70-ci illərdə şair Nəbi Xəzrinin sözlərinə bəstələdiyi «Azərbaycan» mahnısının not yazısını mənə təqdim edərək demişdi ki, bu mahnı Sizə həsr olunmuşdur. O zaman mən bu fikrin yayılmasını istəmədim. Xatirə sözləri yazılmış notları evə apardım, kitablarımla bərabər Moskvaya da apardım, sonra buraya, Bakıya

gətirdim. İndi, üstündən illər keçəndən sonra bu mahnının mənə ithaf olunduğunu bildirməsinə etiraz etmədim. Mən sənə təşəkkür edirəm, sağ ol.

Lidiya Rəsulova, Sizi «Şöhrət» ordeninə layiq olmağınıza görə təbrik edirəm.

Lidiya Rəsulova: Hörmətli cənab prezident!

«Şöhrət» ordeni ilə təltif olunduğuma görə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Mən Azərbaycanda çox işləmişəm. Amma bunun ən maraqlı illərini Sizin rəhbərliyiniz altında işləmişəm. Siz məni vicdanla, haqq-ədalətlə, xalqımızın sevincini, kədərini bölüşməklə işləməyə, əqidədən dönməməyə öyrətmisiniz. Sizin gözəl təcrübənizdən həmişə faydalanmışam. Əməyimə böyük qiymət verdiyinizə görə dərin təşəkkürümü bildirir, Sizə qüdrət və qüvvət, cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Heydər Əliyev dirijor, xalq artisti Rauf Abdullayevə, Azərbaycan EA-nın akademik katibi Cəmil Quliyevə, Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti Fərhad Bədəlbəyliyə «Şöhrət» ordeni təqdim etdi.

Heydər Əliyev: Bəstəkar Emin Sabitoğlunu orden alması münasibətilə təbrik edirəm. Sənə cansağlığı, yeni-yeni mahnılar yazmağı arzulayıram. Sənin son vaxtlar yazdığın «Şükriyyə» mahnısı yaxşıdır, mənim xoşuma gəldi. Yəqin ki, onu hamı bəyənibdir.

Emin Sabitoğlu: Mən Sizə təşəkkür edirəm. Cənab prezident. Mən neçə vaxtdır ki, Türkiyədə yaşayıram, işləyirəm. Amma buna baxmayaraq, Azərbaycanı unutmuram, xalqım üçün işləyirəm. Ürəyim həmişə Sizinlə bir yerdədir. Çox sağ olun ki, Siz bunu hiss etdiniz və məni «Şöhrət» ordeni ilə təltif etdiniz. Mən Sizə bir daha təşəkkür edirəm.

Heydər Əliyev: Əlbəttə, Türkiyədə işləmək Azərbaycandan ayrılmaq demək deyildir. Bizim də ürəyimiz sənindədir.

Emin Sabitoğlu: Cənab prezident, çox var olun. İcazə verin, bu yeni kasetlərimi sizə təqdim edim.

Heydər Əliyev: Xalq artisti, müğənni Arif Babayevə «Şöhrət» ordenini təqdim edirəm. Səni təbrik edir, cansağlığı arzulayıram. Şübhəsiz ki, burada «Qarabağ şikəstəsi» çox yerinə düşərdi.

Arif Babayev: Hörmətli prezident! Mənə verilən bu mükafat muğam sənətinə, xalq musiqisinə, əvəzolunmaz sərvətimizə verdiyiniz yüksək qiymətdir. Bütün sənət adamları Sizi ürəkdən sevir, salamlayır, minnətdarlıq edirlər.

Mənim ürəyimdə böyük bir nisgil vardır. O nisgil budur ki, gün o gün olsun, Qarabağ torpağımız düşməndən azad edilsin, dediyiniz kimi, Siz başda olmaqla biz orada gözəl bir tədbir keçirək və mən Sizin

qarşınızda, xalqın qarşısında «Qarabağ şikəstəsi»ni var gücümlə oxuyum. Çox sağ olun.

Heydər Əliyev: İnşallah. İndi isə İdman veteranı, məşqçi Muxtar Dadaşova «Şöhrət» ordenini təqdim edirəm. Mən sənə yeni-yeni uğurlar diləyirəm. Azərbaycan idmanının daha uca zirvələrə çatması naminə böyük işlər görməyinizi istəyirəm.

Muxtar Dadaşov: Hörmətli prezidentim! Hörmətli xanımlar və cənablar!

Cənab prezident. Bu yüksək ordeni mənə təqdim etməyinizdən böyük şərəf duyuram. Bu, təkcə mənim əməyimə yox, Azərbaycan pəhləvanlarının qazandığı nailiyyətlərə verilən yüksək qiymətdir. Allah Sizin ömrünüzü uzun eləsin! Siz biz idmançıları heç vaxt yaddan çıxarmırsınız. İdmana böyük qayğı göstərmisiniz.

Möhtərəm prezident, mən öz adımdan və idmançılar adından Sizə daha böyük uğurlar, cansağlığı, uzun ömür arzulayıram. Sizə söz verirəm ki, öz biliyimi, təcrübəmi bundan sonra da gənclərə həvəslə öyrədəcəyəm. Bu, mənim müqəddəs borcumdur.

Bu yaxınlarda respublikamızda prezident seçkiləri keçiriləcəkdir. Cənab prezident, biz – bütün idmançılar yalnız Sizə səs verəcəyik. Allah Sizə cansağlığı versin! Sağ olun.

Heydər Əliyev: Xalq rəssamı Böyükağa Mirzəzadəyə «Şöhrət» ordenini təqdim edirəm. Sənə daha böyük yaradıcılıq uğurları arzulayıram.

Böyükağa Mirzəzadə: Əziz və hörmətli prezident!

Hər bir insanın həyatında baş verən xoşbəxtlik mənə də qismət olubdur. Birincisi, mən rəssam olmuşam. Həyatda yaşamaq çox qəribədir, ancaq rəssama qiymət vermək hər kəsin işi deyildir.

Mən vaxtınızı çox almaq istəmirəm, ona görə də fikrimi qısaca olaraq bir neçə kəlmə ilə deyəcəyəm.

Möhtərəm prezident, Sizin mənə verdiyiniz qiyməti son nəfəsimə qədər yaddan çıxarmaram. 1981-ci ildə mənim 60 yaşım tamam oldu. Sizin kimi dahi bir insan həyatımda birinci dəfə mənə zəng etdi.

Cənab prezident, mən Sizi bəlkə də lap cavanlığınızdan tanıyıram. Mənim həmişə Sizə böyük hörmətim olubdur. Mən Sizə həmişə böyük məhəbbət hissləri bəsləmişəm. Möhtərəm prezident, 1981-ci ildə Siz evimə zəng edib məni təbrik etdiniz, mən indiyədək onun təsiri altında yaşayıram. Bir də bu gün mənim həyatımda böyük, xoşbəxt bir gün oldu.

Möhtərəm prezident, mən özümü xoşbəxt hesab edirəm ki, Sizinlə bir vaxtda yaşamışam, Sizin müasirinizəm. Dahi insanla, rəhbərlə bir dövrdə yaşamaq hər adama qismət olmur. Bu, mənə qismət olubdur.

İndi 80 yaşa çatmaq üzrəyəm. Azərbaycanlılarda yaxşı bir söz vardır: Cənab prezident, Allah mənim ömrümdən kəssin, Sizin ömrünüzə calasın.

Heydər Əliyev: Yox, sənin ömrün sənin, mənim ömrüm mənim olsun.

Böyükağa Mirzəzadə: Cənab prezident, Siz Azərbaycan xalqına lazımsınız. Azərbaycan xalqı Sizsiz nə edə bilər? Bunu Allah bilir. Sizi istəməyən beş-altı nəfər var, bilmirəm, onlara ya «beşlik», ya da «üçlük» deyirlər. Mən xalqın arasındayam, dəqiq bilirəm ki, Sizi istəməyən adam yoxdur.

Cənab prezident, mən Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Heydər Əliyev: Böyükağa, mən gənc vaxtlarımdan səni Azərbaycanın böyük rəssamı kimi tanımışam. Bilirsən ki, mən rəssamlıqla o vaxtdan çox maraqlanan bir adamam. Gənc yaşlarımda mən də rəssam olmaq istəyirdim, rəsmlər çəkirdim. Böyükağa Mirzəzadə bizim qarşımızda böyük bir rəssam idi. Ona görə də mən səni heç vaxt unuda bilmərəm və heç vaxt unutmamışam.

Böyükağa Mirzəzadə: Cənab prezident, çox sağ olun. Mən Sizə minnətdaram.

Heydər Əliyev: Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri professor Zəhra Quliyevanı «Şöhrət» ordeni ilə təltif olunması münasibətilə təbrik edirəm.

Zəhra Quliyeva: Hörmətli cənab Heydər Əliyev!

Əvvəla, bu yüksək mükafata görə Sizə təşəkkürümü, minnətdarlığımı bildirirəm. Həmin mükafatı təkcə özümə aid etmirəm, – bu, bizim səhiyyə işçilərimizə, oftalmoloqlarımıza, qadınlarımıza göstərilən diqqət və qayğıdır.

Qəzetlərdən məlum olduğu kimi, bu yaxınlarda, sentyabrın 14-15-də müstəqil respublikamızda qadınlar qurultayı keçiriləcəkdir. Bu münasibətlə mən Azərbaycanın bütün ərazisini gəzərək, zona qadın konfransları keçirmişəm. Həmin konfranslarda qadınların problemləri müzakirə olunmuşdur. Eyni zamanda, məndən xahiş etmişlər ki, onların sözlərini Sizə, xalqımıza yetirim. Cənab Heydər Əliyev, bizim qadınlarımız Sizin müdrik daxili və xarici siyasətinizi ürəkdən bəyənir, dəstəkləyirlər, ətrafınızda sıx birləşərək Sizin dayağınıza, istinadgahınıza çevrilmək istəyirlər. Məndən dəfələrlə xahiş etmişlər ki, qadınlarımızın təşəkkürünü, minnətdarlığımı, ünvanınıza deyilən bütün xoş sözləri Sizə yetirim. Allah Sizə uzun ömür, cansağlığı, ailə, övlad səadəti qismət eləsin.

Seçkilərlə əlaqədar olaraq qeyd etmək istəyirəm ki, biz qadınlar 11 təşəbbüs qrupundan birini təşkil etdik. Siz biləydiniz ki, qadınlarımız necə həvəslə, səylə imza toplayırdılar. Əsas mükafat da o oldu ki, Siz tele-

viziya ilə çıxış edərək, prezidentliyə namizəd kimi seçkilərdə iştirak etməyə razılığınızı verdiniz və təşəbbüs qruplarında çalışanların əməyini yüksək qiymətləndirdiniz. Buna görə mən bütün qadınlarımızın adından Sizə təşəkkür edirəm. Minnətdarıq, çox sağ olun. Həmişə Siz olasınız!

Azərbaycan akademik Milli Dram Teatrının direktoru, xalq artisti Həsən Turabova «Şöhrət» ordeni təqdim olundu.

Heydər Əliyev: Xalq artisti, Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru Hacıbaba Bağırova bu yüksək mükafatı təqdim edirəm.

Hacıbaba Bağırov: Cənab prezident, mükafata görə də, Musiqili Komediya Teatrının yeni binasına görə də çox sağ olun.

Heydər Əliyev: Xalq rəssamı Elbəy Rzaquliyevə «Şöhrət» ordenini təqdim edirəm.

Elbəy Rzaquliyev: Azərbaycanın yüksək dövlət mükafatına layiq görüldüyüm üçün Sizə, cənab prezident, səmimi təşəkkürümü bildirirəm və bu əlamətdar gündən xatirə olaraq Sizə qələm hədiyyə edirəm.

Heydər Əliyev xalq artisti, bəstəkar Hacı Xanməmmədova, xalq artisti Rasim Balayeva, akademik Kamal Talıbzadəyə də «Şöhrət» ordeni təqdim etdi.

Heydər Əliyev: Hörmətli xanımlar və cənablar!

XX əsrdə Azərbaycan mədəniyyəti, elmi, ədəbiyyatı, musiqisi, incəsənəti çox inkişaf edibdir. Bizim xalqımız çox istedadlı xalqdır və qədim dövrlərdən də elm, mədəniyyət, incəsənət, musiqi sahəsində böyük əsərlər yaratmışdır. Ancaq biz bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanın istedadlı şəxsləri, insanları XX əsrdə, ötən bütün əsrlərin nailiyyətlərindən istifadə edərək daha da böyük, dəyərli əsərlər yaratmış, incəsənət nümunələri meydana çıxarmış, tariximizi, elmimizi, mədəniyyətimizi zənginləşdirmişlər. XX əsrin ikinci yarısı isə bu baxımdan daha da məhsuldar olmuşdur.

Bu gün Azərbaycan müstəqil dövlət olaraq xalqımız tərəfindən tarix boyu yaradılmış əsərləri, əldə edilmiş nailiyyətləri bütün dünyaya nümayiş etdirir və bununla da dünya xalqları içərisində xalqımızın nə qədər böyük, istedadlı xalq olduğunu sübut edir.

Bu əsərləri yaradanlar xalqımızın içindən çıxan ən istedadlı insanlardır. XX əsrdə, xüsusən də bu əsrin ikinci yarısında, şükürlər olsun ki, Azərbaycanda belə insanlar çox olmuşdur, böyük əsərlər yaranmışdır. Bir daha qeyd edirəm ki, bir müstəqil dövlət kimi bu gün biz hər bir xalqın, ölkənin nümayəndəsi ilə danışarkən, görüşərkən xalqımızın istedadı haqqında ümumi sözlərlə yox, yaranmış əsərlər əsasında söhbət aparırıq.

Bizim yaradıcı, elm adamlarımızın – XX əsrdə yazıb – yaradanların bir qismi dünyasını dəyişibdir. Ancaq bu gün çoxları da yaşayır, yaradır

və öz yaradıcılığını davam etdirir. Hesab edirəm, biz çox xoşbəxt adamlarıq ki, Azərbaycanın milli azadlığını, müstəqilliyini gördük, müstəqil, azad ölkədə, dövlətdə yaşayırıq.

Ölkəmiz yeddi ildir ki, müstəqildir. Bu gün bu mükafatları sizə təqdim etmək ərəfəsində mən tarixə, günə nəzər saldım. Bu gün avqust ayının 21-dir. Yadıma düşdü ki, 1991-ci ildə məhz avqust ayının 19,20,21-də Rusiyada dövlət çevrilişinə cəhd olmuşdur və onun qarşısı alınmışdır. Bundan sonra Sovetlər İttifaqının dağılması prosesi güclənmiş, nəhayət, 1991-ci ilin sonunda böyük bir dövlət kimi Sovetlər İttifaqı süqut etmişdir. Bunun nəticəsində Azərbaycan da öz müstəqilliyini əldə etmişdir.

İndi bəziləri deyirlər ki, sovet imperiyasını guya onlar dağıdıblar. Sovet imperiyası güclü bir imperiya, dövlət idi. O, 70 ildən çox hökm sürdü və bu ölkəni dağıtmaq istəyənlər çox oldu. 1941-ci ildə alman faşistləri Sovet İttifaqının üzərinə hücum etdilər, ancaq Sovet İttifaqını dağıda bilmədilər. Ondan sonra Sovet İttifaqı daha da möhkəmləndi. «Soyuq müharibə» başlandı, dünyada iki blok yarandı. Onlardan biri Qərb ölkələrinin daxil olduqları NATO bloku, ikincisi – Varşava paktına daxil olan, Sovet İttifaqı başda olmaqla digər blok idi.

O dövrdə uzun illər qarşıdurma oldu. Bu «soyuq müharibə»dən dünya da, insanlar da çox əziyyət çəkdilər. O cümlədən, Sovet İttifaqının vətəndaşları olaraq biz – Azərbaycan da bundan çox əziyyət çəkdik. Belə bir fövqəldövləti, imperiyanı küçədə qışqırmaqla, bağırmaqla, hay-küy salmaqla dağıtmaq mümkün deyildi. Ancaq bu quruluş, ölkə dağılmalı idi və dağılma prosesi gedirdi.

Mən 80-ci illərin sonlarından bu quruluşun dağılmasını görürdüm, bu quruluşun dağılması üçün öz arzularımı, istəklərimi də bildirirdim və bunu xalqa da çatdırırdım. Ancaq təəssüflər olsun ki, Azərbaycanda bəziləri bunu anlamırdılar. İndi mən tarixi yada salaraq, bir neçə məqamları deməliyəm.

1990-cı ildə mən və mənim kimi çoxları da Azərbaycanın müstəqil olması şüarı ilə çıxış edirdik. Ancaq hakimiyyətdə olan şəxslər isə Sovetlər İttifaqının qorunub saxlanmasını dəstəkləyir, müdafiə edirdilər. Hətta 1991-ci ilin mart ayında Qorbaçov və onun dəstəsi Sovetlər İttifaqını bu fəlakətdən, uçurumdan qoruyub saxlamaq üçün yeni bir islahat elan etdi. Ancaq bu islahat da ona kömək etmədi. Baxmayaraq ki, 1991-ci ilin mart ayında Azərbaycanın o vaxtkı rəhbərliyinin səyləri nəticəsində elan edildi ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti Sovetlər İttifaqının qorunub saxlanmasının tərəfdarıdır. Amma bundan bir neçə ay keçəndən sonra, yəni avqust ayının 19-da Rusiyada, Moskvada Fövqəladə Vəziyyət Komitəsi yarandı və demokratiya tərəfindən olan qüvvələr onun əleyhinə çıxdılar.

Beləliklə, Sovetlər İttifaqının dağılması prosesi gücləndi. Dediyim kimi, nəhayət, 1991-ci il dekabrın sonunda Sovetlər İttifaqı dağıldı, süqut etdi.

Bir daha qeyd edirəm, – bu, həmin illərdə dünyada və Sovetlər İttifaqında gedən ictimai-siyasi proseslərin nəticəsidir. Heç kəs deyə bilməz ki, o, Sovetlər İttifaqını təkbaşına dağıdıbdır. Bu günləri, hadisələri mən ona görə xatırlayıram ki, Sovetlər İttifaqının dağılması üçün təkan baş verdiyi məhz həmin gündən 7 il keçmiş, indi biz müstəqil Azərbaycanda yaşayaraq müstəqil dövlətimizin atributlarını təqdim edirik. Bu gün mən sizə, Azərbaycanın dəyərli insanlarına müstəqil dövlətimizin ordenlərini təqdim etdim.

Bu gün buraya toplaşanlara nəzər salarkən mən bir fikri də ifadə etmək istəyirəm. Birincisi, siz – bu gün Azərbaycanın yüksək mükafatlarını alan şəxslər – hər biriniz Azərbaycanın mədəniyyət, elm, incəsənət tarixinə öz töhfələrinizi vermiş, xalqımıza böyük xidmətlər göstərmiş insanlarsınız. Siz Azərbaycanın mənəvi dəyərlərini inkişaf etdirmiş insanlarsınız.

İkincisi, bu gün burada orden alan insanlar müxtəlif yaşlara mənsubdurlar. Ramazan Xəlilov 100 yaşına çatır. Fərhad Bədəlbəylinin, Rasim Balayevin 50 yaşı tamam olubdur. Buraya toplaşanlar 50 yaş ilə 100 yaş arasında olan insanlardır. Bu, nəyi göstərir? Bu onu göstərir ki, Azərbaycanda nəsillər bir-birini ardıcıl surətdə əvəz edir. Azərbaycanın elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri nəsilləri arasında əlaqələr qırılmır. Onlar bir-biri ilə bağlıdır, bir-birini irəliyə aparır. Gənc də, yaşlı da – hamısı bir yerdədir. Bunun xüsusi əhəmiyyəti vardır. Çünki son illərdə bəziləri Azərbaycanın tarixi keçmişini tamamilə pozmağa, qaralamağa, hörmətdən salmağa cəhdlər göstərmişlər.

Şübhəsiz ki, bu cəhdlər heç bir nəticə verə bilməz. Biz Nizamini, Füzulini, Nəsimini, Vaqifi qiymətləndirdiyimiz kimi, Mirzə Fətəli Axundovu da, Üzeyir Hacıbəyovu da, Cəlil Məmmədquluzadəni də, Cəfər Cabbarlını da, Müslüm Maqomayevi də, Səməd Vurğunu da, Rəsul Rzanı da, Süleyman Rəhimovu da, Mehdi Hüseyni də, Qara Qarayevi də, Fikrət Əmirovu da, Niyazini də, Rauf Hacıyevi də və başqalarını da qiymətləndiririk. Biz bu gün yaşayıb-yaradanları da qiymətləndiririk. Bunların hamısı bir-biri ilə üzvi surətdə bağlıdır. Xalqımızın, mədəniyyətimizin, incəsənətimizin, elmimizin çox gözəl keçmişi, tarixi və bu günü vardır. Mən tam əminəm ki, bundan da gözəl gələcəyi olacaqdır.

Kim hansı dövrdə, hansı hökmdarın dövründə, hansı ictimai-siyasi quruluşda yaşayıb, yazıb, kim müstəqil Azərbaycanda yaşayır, yazır – bunun fərqi yoxdur. Onların hər biri keçmişdə də, bu gün də xalqımıza, Azərbaycan xalqına, doğma millətimizə, vətənimizə xidmət edibdir.

Mənim əziz dostlarım, siz də həmin bu xidməti göstərən insanlarsınız. Azərbaycanın dövlət başçısı kimi mən də həm 100 yaşına çatan Ramazan Xəlilovun, həm də 50 yaşını dünən adlayan Rasim Balayevin, Fərhad Bədəlbəylinin xidmətlərini qiymətləndirirəm. Onlar da, 80 yaşını adlamış Cövdət Hacıyev də, 80 yaşına çatan Sara Qədimova da, 80 yaşına adlayan Nəsibə Zeynalova da, bu gənclər də bizim üçün əzizdirlər. Onların hamısı bizim üçün əzizdir.

Bu gün mən çox böyük iftixar hissi keçirirəm ki, mədəniyyətimizi, elmimizi, incəsənətimizi çiçəkləndirən, inkişaf etdirən, yaradan və bizim hər birimizə mənəvi, estetik qida verən insanlarla bir daha görüşürəm, bu dövlət mükafatlarını, ordenləri sizə təqdim etmək mənə nəsib olubdur.

Sara xanım xatırladı ki, 1992-ci ildə mən Naxçıvandan ona zəng etdim. Bu belədir, doğrudur. Onda mən Naxçıvanda – çox təcrid olunmuş, blokada şəraitində yaşayan bir diyarda idim. Özüm də çətin şəraitdə yaşayırdım. O vaxt eşitdim ki, Sara xanımın yubileyidir. Mən ona bir məktub göndərdim. Xatirimdədir, həmin məktubu sonra televiziya ilə verdilər. O zaman Naxçıvanda televiziyada gördüm ki, filarmoniyada keçirilən tədbirdə mənim məktubumu oxudular. Mən çox məmnun oldum ki, Sara xanımın filarmoniyadakı yubileyinə toplaşanlar həmin məktubu həyəcanla, alqışlarla qarşıladılar. Ancaq mən bu məktubla kifayətlənmədim, zəng də etdim ki, o mənim, mən də onun səsini eşidim. Sara xanımı unutmaq olarmı? Mən harada olsaydım, Naxçıvanda da – baxmayaraq ki, o vaxt Naxçıvan blokada şəraitində idi, – başqa yerdə də olsaydım, Sara xanımı unutmayacaqdım. Çünki Sara xanımın nə səsini, nə də özünü unutmaq olmaz.

Sara xanım 1940-cı illərdə mahnılar oxuyubsa, insanlara ruh veribsə, – bəli, İkinci Dünya müharibəsi zamanı gənc bir qız, müğənni olan Sara xanım gedib əsgərlərin qarşısında mahnılar oxuyub, insanlara ruh verib, – onu unutmaq olarmı? Sara xanım ondan sonrakı dövrdə də öz fəaliyyətini davam etdirib, bu gün də xalqın içindədir, ictimaiyyətin görkəmli insanlarından biridir. Bəs kimsə deyə bilərmi ki, Sara xanım o vaxt olub, biz indi onu tanımırıq, bu gün hansısa bir müğənni çıxıb mitinqdə söz deyir – onu tanıyırıq? Bu, dəhşətli bir əhvali-ruhiyyədir.

Biz heç kəsi inkar etmirik, heç kəsin də kimisə inkar etmək hüququ yoxdur. Bu hüquq heç kəsə verilməyibdir, bir Allahdan başqa, heç kəsin belə bir hüququ yoxdur.

Yenə də çox məmnunam ki, nəhayət, bu ordeni vermək imkanı əldə edildi, mən sizə bu ordeni verdim və çox mehriban görüşümüz oldu. Biz iki saatdan artıqdır ki, bir yerdəyik. Fərq təkcə ondan ibarətdir ki, siz

hamınız oturmusuz, mən isə ayaq üstə durmuşam. Amma Azərbaycanın sizin kimi dəyərli insanlarına görə mən iki saat yox, on saat da ayaq üstə durmağa hazıram.

Siz burada mənim haqqımda xoş sözlər dediniz, öz hissiyyatlarınızı bildirdiniz, məhəbbətinizi, sevgilərinizi, arzularınızı izhar etdiniz. Mən bunlara görə sizə təşəkkür edirəm.

Bilirsiniz ki, mənim həyatım xalqa, millətə, Azərbaycana həsr olunubdur. Bu, mənim həyatımın mənasıdır. Əgər insanlar bunu görürsə və qiymətləndirirsə, bu, mənim üçün ən yüksək mükafatdır. Ancaq kimsə qiymətləndirir, kimsə qiymətləndirmirsə, bu da mənim üçün heç bir narahatlıq hissi doğurmur. Cəmiyyətdə hamı üçün yaxşı olmaq mümkün deyildir. Xüsusən də hakimiyyətdə olan insan üçün. Hakimiyyətdə olan insan kimisə təltif edir, amma onun hakimiyyəti dövründə kimsə cəzalanır. Bu təbiidir. Qanunu pozan, cinayət edən cəzalanmalıdır. Amma təəssüf ki, cəzalanan həmin insan bəzən öz cinayətini unudaraq hakimiyyəti, onu cəzalandırmış orqanları günahlandırır. Bu da var. Bu da bizim reallığımızdır. Bu da məndə heç bir təəccüb doğurmur. Ancaq Azərbaycanda insanların tam əksəriyyəti dövlətimizin müstəqilliyi yolunda son beş ildə görülmüş işləri qiymətləndirir və sizin burada dediyiniz kimi, yüksək qiymətləndirir. Bu da mənim üçün, mənim gələcək işlərim üçün böyük dəstəkdir. Bu, məni daha da ruhlandırır, mənə daha da çox güc verir.

Doğrudur, gücüm onsuz da vardır. Ancaq hər bir insanın duası da tarixi missiyamı yerinə yetirməkdə mənə yardım edir. Buna görə mən sizə təşəkkür edirəm.

Mən inanıram ki, sizin hər biriniz Azərbaycan mədəniyyətini, incəsənətini, elmini bundan sonra daha da zənginləşdirmək üçün əzmlə çalışacaqsınız, yeni-yeni əsərlər yaradacaqsınız, xalqımızı sevindirəcəksiniz. İndi bunun üçün bəlkə də bir tərəfdən şərait çətindir, amma digər tərəfdən daha da əlverişlidir.

Şübhəsiz ki, sosial-iqtisadi çətinliklər cəmiyyəti də və sizləri də sıxır. Ancaq mənəvi nöqteyi-nəzərdən biz azadıq, müstəqilik, sərbəstik. Biz heç kəsdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik. Bilirsiniz, bunun üçün, yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar. Məhz bunun üçün illərlə ac qalmaq olar. Çünki əsrlər boyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, milli azadlıq, müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Bilin ki, indi bunu əlimizdə saxlamaq, qorumaq hər bir insan üçün canından da artıqdır. Mən sizə deyirəm, bunu bilin, Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, onu əbədi etmək mənim üçün öz həyatımdan, canımdan artıqdır.

Ona da əmin ola bilərsiniz ki, Azərbaycan dövlətinin, prezidentinin apardığı siyasət və həyata keçirdiyi tədbirlər Azərbaycanın dövlət müstəqilliyini günü-gündən möhkəmləndirir və yüksəklərə qaldırır. Azərbaycanın dövlət başçısı kimi mən deyirəm, bilin, – bundan sonra Azərbaycan heç kəsdən asılı, heç kəsin vassalı olmayacaqdır. Ancaq özü öz taleyini hər gün həll edəcək və öz gələcəyini müəyyənləşdirəcəkdir. Azərbaycan müstəqil, sərbəst qalacaqdır.

Mən sizi bir daha ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uzun ömür arzulayıram. Sizə yeni-yeni uğurlar, ailə səadəti arzulayıram. Ümidvaram ki, siz bundan sonra da öz gözəl işlərinizlə, əsərlərinizlə xalqımızı millətimizi sevindirəcəksiniz. Sağ olun.

BAKIDA AKADEMİK YUSİF MƏMƏMMƏDƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ*

16 sentyabr 1998-ci il

Hörmətli xanımlar və cənablar!

Bu gün mən əvvəlcə sizi, Bakının gözəl guşəsinə toplaşmış ziyalıları, elm adamlarını səmimi qəlbdən salamlayıram və Azərbaycanda, Bakıda bu gün baş verən çox əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Bizim doğma ölkəmiz Azərbaycan öz təbii gözəlliyi ilə yanaşı, torpağımızın üzərində insanların, Azərbaycan xalqının yaratdığı memarlıq, heykəltəraşlıq abidələri ilə də gözəldir.

Azərbaycan xalqının qədim adət-ənənələrinə görə bizim ölkədə, ümumiyyətlə, Şərq aləmində insan heykəli dəb olmayıbdır. Ancaq xalqımız inkişaf edib, dünya mədəniyyətinin gözəl nümunələrini öz həyatına tətbiq etməyə çalışıb, dünya mədəniyyətindən bəhrələnib və XX əsrdə Azərbaycan torpağında, Azərbaycanın paytaxtında çox qədim, gözəl, əzəmətli memarlıq abidələri ilə yanaşı, heykəltəraşlıq abidələri də yaranmışdır. Bu, bizim vətənimizin həyatını daha da zənginləşdirmiş, gözəlləşdirmişdir. Hesab edirəm ki, bu, çox gözəl bir ənənədir. Ona görə ki, heykəltəraşlıq abidələri, heykəllər adətən, insan yaşayan hər bir yeri abadlaşdırır, gözəlləşdirir. Bir də ona görə ki, bu abidələr Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinə, insanlarına, öz tarixinə, elminə, mədəniyyətinə, dövlətinə göstərilən hörmət və ehtiramı əks etdirir.

Azərbaycanda, Bakıda XX əsrdə heykəllər daha çox yazıçılara, şairlərə, mədəniyyət xadimlərinə və bəzi hallarda ictimai-siyasi xadimlərə həsr olunmuşdur. Ancaq Azərbaycan xalqının qədim tarixində bəşər mədəniyyətinə ən böyük töhfələrindən biri xalqımızın istedadlı insanlarının yaratdığı elmi əsərlər, dünya elminə verdiyi töhfələr olubdur. Biz fəxr edirik ki, qədim zamanlarda, orta əsrlərdə Azərbaycan xalqının dünya şöhrətli görkəmli alimləri olubdur. Onlar dünya elmini, bəşər mədəniyyətini zənginləşdiriblər və eyni zamanda Azərbaycan xalqını tanıdıblar, adını ucaldıblar.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab. B., Azərnəşr, 2006, s. 325-329

Biz bu gün bütün Azərbaycan alimlərinin, elm adamlarının hamısını böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq və onların qoyduqları irsi, onların yaradıcılığını heç vaxt unutmayacağıq.

XX əsrdə Azərbaycanın həyatında çox böyük hadisələr baş veribdir. XX əsr bəşər tarixində çox mürəkkəb, ziddiyyətli, böyük dəyişikliklər əsri olmuşdur, inqilablar, müharibələr, eyni zamanda elmin, mədəniyyətin sıçrayışla və sürətlə inkişaf etdiyi bir dövr olmuşdur. Biz XX əsri sona çatdıraraq ötən dövrə doğru-düzgün, ədalətli qiymət verməliyik. Yaxşıya yaxşı, pisə pis deməliyik.

Azərbaycan xalqının da həyatında XX əsr bütün bu dəyişiklikləri özündə əks etdiribdir. Biz XX əsrdə başımıza gələn faciələri, itkilərimizi, verdiyimiz qurbanları kədərlə xatırlayırıq və heç vaxt unutmayacağıq. Bununla yanaşı, XX əsrdə Azərbaycan xalqının bütün bu çətin mərhələlərdən keçdiyi böyük tarixi yolu, əldə etdiyi nailiyyətləri və bu yüksək zirvələrə çatmasını da qiymətləndiririk. Güman edirəm, gələcək nəsillər də qiymətləndirəcəklər.

XX əsrdə Azərbaycan elmi sürətlə inkişaf edibdir, Azərbaycan xalqı kütləvi surətdə savadlanıbdır. Azərbaycan xalqının elmə, mədəniyyətə, dünya sivilizasiyasına qovuşması üçün respublikamızda çoxsaylı məktəblər, universitetlər, elmi-tədqiqat ocaqları, institutlar yaranmışdır. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaranması Azərbaycan elminin əldə etdiyi böyük nailiyyətləri bütün dünyaya nümayiş etdirmişdir.

Biz bu gün fəxr edə bilərik ki, Azərbaycan xalqı XX əsrdə dünya elminə böyük töhfələr vermişdir. Azərbaycan ölkəsi elmlər ölkəsidir. Azərbaycan xalqı elmli, bilikli, yüksək təhsilli xalqdır. Bunlar da Azərbaycanın istedadlı insanlarının elmi axtarışları, elmi ixtiraları, böyük elmi əsərləri ilə dünyada tanınmışdır.

Azərbaycanın həm alim, həm gözəl insan, həm ictimai-siyasi xadim kimi görkəmli simalarından biri Yusif Məmmədəliyevdir. Biz 1996-cı ildə Yusif Məmmədəliyevin 90 illik yubileyini ümumxalq bayramı kimi qeyd etdik. Bu, onun xidmətlərinə bugünkü nəslin verdiyi yüksək qiymətin rəmzi idi. Eyni zamanda bu yubiley mərasimləri Azərbaycan xalqının yüksək elminin dünyaya bir daha nümayiş etdirilməsi idi. Ona görə də bu, həm Yusif Məmmədəliyevin xatirəsinə həsr olunan mərasim idi, həm də Azərbaycan elminin bugünkü səviyyəsini dünyaya göstərən mərasim idi.

Yusif Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir fəslidir, hissəsidir, parçasıdır. Bu insan öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları

ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur. Ona görə biz bu gün də Yusif Məmmədəliyevin xidmətlərini böyük məmnuniyyətlə xatırlayırıq və onun parlaq siması, əziz xatirəsi qarşısında baş əyirik.

Bu gün Yusif Məmmədəliyevin xatirəsinə həsr olunmuş heykəlin, abidənin burada, Bakının mərkəzində, Elmlər Akademiyasının yanında ucaldılması da əsaslıdır və ədalətlidir. Çünki onun Azərbaycan elminin inkişafındakı xidmətləri və eyni zamanda Azərbaycan elminin təşkilində, bütün elmlərin mütəşəkkil inkişafındakı xidmətləri belə bir qərarı qəbul etməyə əsas vermişdir. Güman edirəm ki, bu abidə də, Yusif Məmmədəliyevin şəxsiyyətini, simasını əks etdirən bu heykəl də həm onun xatirəsinə həsr olunubdur, həm də Azərbaycan elminin inkişafına, keçmişinə və gələcəyinə həsr olunubdur. Bu, bizim insanlara bir də onu nümayiş etdirir ki, Azərbaycanda həmişə elmə hörmət olubdur, bu gün də hörmət var və gələcəkdə də hörmət olacaqdır.

Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün, ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətimizdə böyük hörmətə layiqdirlər. Mən bu fürsətdən istifadə edərək, ölkəmizin alimlərinə, elm xadimlərinə, bütün elm işçilərinə bir daha bəyan edirəm ki, Azərbaycanda elmin inkişafı bu gün də, gələcəkdə də dövlətin əsas qayğılarından biridir, biri də olacaqdır və daim dövlətin himayəsi altında olacaqdır.

Bu gün Yusif Məmmədəliyevin xatirəsi ilə, bu heykəlin açılması ilə əlaqədar hamınızın buraya toplaşması Azərbaycanda elmə verilən qiymətdir və elm adamlarına göstərilən hörmətdir. Mən çox məmnunam ki, Yusif Məmmədəliyevin xatirəsini əbədiləşdirmək məqsədi ilə qəbul etdiyim qərar həyata keçirilibdir. Memarlar, heykəltəraşlar burada bu abidəni yaradıblar. Bakının icra hakimiyyəti və bu abidənin yaranmasında iştirak edən, sponsorluq edən bütün şirkətlər, təşkilatlar öz xidmətlərini göstəriblər.

Yusif Məmmədəliyevin qızı burada çox gözəl çıxış etdi və bu abidənin yaranmasında iştirak edənlərin hamısına təşəkkürünü bildirdi. Mən Sevda Məmmədəliyevanın bu sözlərinə qoşuluram və bu abidənin yaranmasında iştirak edənlərin hamısına təşəkkürümü bildirirəm. Çox sağ olun.

Sevda Məmmədəliyeva çıxış edərkən mən düşündüm, – o, həqiqətən atasının qızıdır. Çox gözəl, məzmunlu danışdı. Görünür ki, Yusif Məmmədəliyevin fitri istedadı onun övladlarında da öz əksini tapır. Güman edirəm ki, bu fitri istedad gələcək nəsillərdə də özünü göstərəcəkdir.

Mən böyük məmnuniyyətlə sizinlə birlikdə bu mərasimdə iştirak edirəm. Məmnunam ki, gözəl Bakının, doğma paytaxtımızın bir guşəsi daha da gözəlləşdi, yeni yaraşıq aldı. Beləliklə də biz irəliyə gedirik, xalqımızı irəliyə aparırıq. Bakı şəhərini daha da gözəlləşdiririk və onun dünyanın ən gözəl şəhərləri sırasında olmasına çalışırıq.

Mən sizə bir daha öz xoş arzularımı bildirirəm və sizi əmin edirəm ki, həm Azərbaycanın, həm də Bakının çiçəklənməsi naminə Azərbaycan dövləti bundan sonra da əzmlə çalışacaqdır. Sağ olun.

DÜNYA ŞÖHRƏTLİ KARDİOLOQ MAYKL DEBEYKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN*

Prezident sarayı
3 dekabr 1998-ci il

Heydər Əliyev: Mən Sizi, məşhur kardioloqu, «Debeyki Ürək Cərrahlığı Mərkəzi»nin direktorunu, Beyler Universitetinin fəxri prezidentini və Sizin səfər yoldaşlarınızı səmimi qəlbdən salamlayıram. Dünya şöhrətli kardioloqla yenidən görüşməyimdən məmnun qaldığımı bildirirəm. Sizin 90 illik yubileyiniz münasibətilə təbrik məktubu göndərmişdim, indi isə bu fürsətdən istifadə edərək Sizi bir daha təbrik edirəm. 90 yaşdan sonra belə fəaliyyət göstərmək dünya üçün sağlamlığa nümunədir. Siz həm tibb sahəsindəki böyük işlərinizlə, minlərlə insanın həyatını xilas etməyinizlə, həm də şəxsi həyatınızla, əməksevərliyinizlə örnəksiniz. Ona görə də Sizi çox hörmətli qonaq kimi qarşılayırıq. Belə bir böyük cərrahın, alimin Azərbaycana diqqət və qayğı göstərməsindən, ölkəmizdə də kardiocərrahiyyə mərkəzi yaradılması üçün təşəbbüs göstərməsindən məmnun qaldığımı vurğulayıram.

Debeyki: Bizi yüksək qonaqpərvərliklə qaşıladığınıza görə Sizə təşəkkür edirəm. Bildirirəm ki, bu dəfə Bakıya bir qrup mütəxəssislə gəlmişəm və bundan məqsəd ürək-damar xəstəliklərinin müalicəsi ilə məşğul olacaq mərkəzin bazasını indidən yaratmaqdır. Bununla bağlı müvafiq strukturlarla əlaqə saxlanmış, xüsusilə səhiyyə naziri ilə yaxşı fikir mübadiləsi aparılmış və o, faydalı tövsiyələr vermişdir. Azərbaycanda ürək-damar xəstəliklərinin geniş yayıldığını xatırlamaqla yanaşı, onu da vurğulamaq istəyirəm ki, hazırda belə xəstəliklərin müalicəsi mümkündür. Son 25 ildə ABŞ-da bu xəstəliklərdən ölüm halları 45 faiz azalmışdır. Təxminən 35 il əvvəl infarkt keçirib xəstəxanaya gətirilən adamların sağ qalmaq imkanı 50 faiz idisə, indi 95 faizdir. Azərbaycanda da mərkəzin yaradılmasında əsas məqsəd belə xəstələri müalicə etməkdir. Biz bunu Sizin ölkənin əhalisi üçün etmək istəyirik. Bildirirəm ki, Bakıda mərkəzin harada tikiləcəyi müəyyənləşdirilmişdir. Mənim fikrimcə, mərkəzin gözəl xarici görünüşü və müasir avadanlığı olmalıdır. Mərkəzin nəzdində ambulator-poliklinika da yaratmaq nəzərdə tutulur. Səhiyyə naziri ilə olan razılaşmaya əsasən, mərkəzin tikintisi qurtaranadək Azərbaycandan savadlı həkimləri və mütəxəssisləri Hyüstona bir illik məşğələlərə göndərmək istəyirik. Bundan əlavə, Hyüstondakı institutla Bakıda yaradılacaq mərkəz arasında yaxşı əlaqə saxlamaq üçün NASA-nın peyklərindən istifadə etmək planımız var. Onu da qeyd edim ki, ilkin maliyyələşdirmənin bir hissəsini «Eksson» şirkəti edəcək, əsas maliyyələşdirməni isə Eksimbank həyata keçirəcəkdir. Bu, bankın Azərbaycana ilk maliyyə dəstəyi olacaqdır.

Anna Peçorskaya: (Debeykinin yaxın həmkarlarından) Cənab prezident, bizə göstərilən diqqətə görə minnətdarlığımı bildirirəm, inanıram ki, Azərbaycan prezidentinin bu layihəyə böyük maraq göstərməsi öz bəhrəsini verəcəkdir.

Heydər Əliyev: Sizə təşəkkür edərək bildirirəm ki, təkliflərinizi Azərbaycan üçün çox əhəmiyyətlidir. Cənab Debeyki, Siz ürək-damar xəstəliklərinin müalicəsi sahəsində dünyada ən böyük mütəxəssis kimi, Azərbaycanda bu xəstəliklərin geniş yayılması barədə fikirlərinizi bildirdiniz. Sizin iştirakınızla Azərbaycanda ürək-damar xəstəliklərinin müalicəsi üçün böyük tibb mərkəzinin yaradılması və onun Hyüstondakı mərkəzlə birbaşa əlaqələndirilməsi, tibb heyəti kadrlarının hazırlanması barədə təşəbbüsünüz çox xeyirxah işdir. Mən bu təşəbbüsü məmnuniyyətlə qəbul edirəm. Əgər Sizinlə birlikdə bunu həyata keçirə bilsək, bu, Azərbaycan xalqı üçün böyük nemət olacaqdır. Eyni zamanda bu, təkcə Azərbaycan üçün yox, həm də Qafqaz və Orta Asiya ölkələri üçün çox əhəmiyyətli mərkəz olacaqdır.

ABŞ-ın «Eksson» şirkətinin də bu işə maraq göstərməsindən razı qaldığımı bildirirəm. Onu da xatırladım ki, ötən il Vaşinqtonda olarkən Eksimbank ilə müqavilə imzalamışdıq, ancaq ondan indiyədək istifadə edə bilməmişik. Əgər bu layihəni həyata keçirə bilsək, həmin müqavilənin reallaşdırılmasında ilk addım olacaqdır.

Son illər Azərbaycanın Amerika ilə neft sənayesi sahəsində əməkdaşlıq etdiyini məmnunluqla qeyd edirəm. İndiki təklif isə tibb sahəsində, xüsusən cənab Debeyki kimi böyük alimin iştirakı ilə əməkdaşlığa aiddir.

Bildirirəm ki, Baş nazir və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Sizinlə görüşləri barədə mənə məruzə ediblər. Mərkəz üçün şəhərin gözəl bir guşəsində yaxşı yer seçmisiniz. İndi gərək Sizinlə danışaq ki, bu gözəl, xeyirxah niyyəti necə həyata keçirək.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab. B., Azərnəşr, 2006, s. 300-302

AZƏRBAYCANIN GÖRKƏMLİ İCTİMAİ XADİMLƏRİNİN, ELM, ƏDƏBİYYAT, MƏDƏNİYYƏT XADİMLƏRİNİN VƏ İDMANÇILARIN BİR QRUPUNA «İSTİQLAL», «AZƏRBAYCAN BAYRAĞI», «ŞÖHRƏT» ORDENLƏRİ VƏ «TƏRƏQQİ» MEDALLARININ TƏQDİM OLUNMASI MƏRASİMİ*

Prezident iqamətgahı
12 dekabr 1998-ci il

Heydər Əliyev: Mən bu gün şərəfli bir vəzifəni yerinə yetiməliyəm – sizə Azərbaycanın dövlət mükafatlarını təqdim etməliyəm.

Xalq şairi Bəxtiyar Vahabzadəni «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Bəxtiyar Vahabzadə: Hörmətli prezident!

Hörmətli mərasim iştirakçıları!

Mən bu mükafatla 1995-ci ildə təltif olunmuşam. Amma xəstəliyimə və digər səbəblərə görə onu vaxtında ala bilmədim. Anadan olmağımın 70 illik yubileyi münasibətilə keçirilən mərasimdəki çıxışımda mən bir söz demişdim, indi onu təkrar etmək istəyirəm. Keçmiş Sovetlər İttifaqı dövründə mən bir çox ordenlər, medallar və digər yüksək mükafatlarla təltif olunmuşam. Desəm ki, o vaxt sevinməmişdim, yalan olar. Mən onda da sevinmişdim. Amma bu «İstiqlal» ordeni mənim öz milli, müstəqil dövlətimin ordenidir. Bundan böyük şərəf yoxdur ki, sən başqa bir dövlətin deyil, məhz öz müstəqil dövlətinin ordeninə layiq görüləsən.

Hörmətli prezident, buna görə Sizə dərin təşəkkürümü bildirirəm. Belə hesab edirəm, hələ sovet hakimiyyəti illərində də mənim gecə-gündüz bütün fəaliyyətim, arzum bu idi ki, müstəqil dövlətim yaransın və millətim heç bir millətin «quyruğu» olmasın. Allaha şükür ki, biz ona nail olduq. Cənab prezident, arzu edirəm ki, bu müstəqilliyimiz Sizin rəhbərliyiniz altında günü-gündən çiçəklənsin, müstəqilliyimizi heç kəs əlimizdən ala bilməsin. Təşəkkür edirəm.

Heydər Əliyev: Xalq yazıçısı İsa Hüseynova yüksək mükafatı təqdim edirəm.

Səni xoş gördük, təbrik edirəm. Xəstələnmişdin, ona görə də çoxdandır səni görmürəm. Xəstəliyə fikir vermə. Özünü möhkəm saxla. Sən

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab. B., Azərnəşr, 2006, s. 380-394

böyük əsərlər yaratmısan, hələ bundan sonra da yaradacaqsan. Xalqımız da, dövlətimiz də sənin əsərlərini yüksək qiymətləndiribdir. Mən səni təbrik edirəm. Sənə cansağlığı, səadət arzulayıram. Əgər səndə aritmiya varsa, ən böyük arzum odur ki, heç bir xəstəliyin olmasın. Yox, yaxşısan, gümrah görünürsən, qocalmamısan, hələ cavansan.

İsa Hüseynov: Cənab prezident, mən Sizi hər gün görürəm, hər gün Sizə səcdə edirəm. Siz təkcə Azərbaycan xalqı üçün yox, bütün bəşəriyyət üçün çox işlər görmüsünüz. Şəxsən mən bir yazıçı, ziyalı kimi Sizdə nadir insani xüsusiyyətlər müşahidə etmişəm. Sizdə olan həssaslığı heç kəsdə, heç bir dövlət başçısında görməmişəm.

Cənab prezident, mən Sizə bir məktub göndərmişdim. Həmin məktubda təxminən belə bir ifadə işlətmişdim ki, mən Sizi öz doğma atam, qardaşım kimi tanıyıram. Bütün bunlar da təbiidir. Mən Sizi çox istəyirəm. Sizə cansağlığı, daha böyük uğurlar arzulayıram.

Heydər Əliyev: Azərbaycan Elmlər Akademiyasının akademiki Cəlal Əliyevi «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Sənə cansağlığı, yeni-yeni elmi əsərlər yazmağı arzulayıram. Təbrik edirəm.

Xalq artisti, bəstəkar Arif Məlikovu «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Mən sənə cansağlığı, yeni-yeni əsərlər arzulayıram. Sən bir simfoniya hazırlayırdın, deyəsən hələ qurtarmamısan.

Arif Məlikov: Vaxtilə Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirilirdi. Siz mənə söz verdiniz, orada çıxış etdim və salonda oturanlara bir sual verdim. Soruşdum, dünya tarixindən kim bir misal gətirə bilər ki, prezident bəstəkarı Azərbaycan Dövlət Filarmoniyasının binasından uzun məsafədə qəbiristanlığa qədər çiynində aparıbdır? Heç kim ikinci belə bir adam tapa bilmədi. Mən bu faktı nəyə görə dedim? Çünki bu fakt Sizinlə, həm də mənim ikinci atam Qara Qarayevin adı ilə bağlıdır. Mən onun tələbəsiyəm.

Mən burada ikinci bir sözü də tam mənası ilə deyə bilərəm. Ola bilər ki, dünyada ən musiqisevər prezident varsa, o da Sizsiniz, cənab prezident. Musiqi xalqın ürəyidir. Musiqi xalqın gündəlik həyatıdır. İnsan anadan olandan məzara gedənə qədər musiqi ilə yaşayır. Azərbaycanda musiqiyə qayğı doğrudan da yüksək səviyyədədir. Bu qayğının bir nümunəsi də bu gün mənə bu yüksək ordeni təqdim etməyinizdir.

Mənim üçün danışmaq çətindir. Çünki bəstəkar musiqi yazmalıdır. Bir neçə gün bundan əvvəl Siz bu salonda hərbçilərə yüksək mükafatlar verirdiniz. Mən həmin mərasimi televiziya vasitəsilə izləyirdim. Orada çox gözəl çıxışlar edildi. Amma ən gözəl çıxış o idi ki, hərbçi deyirdi: «Azərbaycan xalqına xidmət edirəm». Mən də çıxışımı həmin sözlərlə bitirirəm. Cənab prezident, Sizə təşəkkür edərək demək istəyirəm ki, mən Azərbaycan xalqına xidmət edirəm.

Heydər Əliyev: Milli Məclisin sədri, hüquq elmləri doktoru, professor Murtuz Ələsgərovu yüksək dövlət mükafatı – «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm. Murtuz müəllim, hüquq elmi çox mühüm elmlərdən biridir. Müstəqil dövlət qurandan sonra bu elmin əhəmiyyətini, qədrini biz daha da çox bilirik. Siz də ömrünüzün demək olar ki, ən şüurlu hissəsini hüquq elminə və Azərbaycanda hüquq təhsilinin inkişafına həsr etmisiniz. Ona görə də bu yüksək mükafata layiq görülmüsünüz. Sizi təbrik edirəm.

Murtuz Ələsgərov: Zati-aliləri möhtərəm prezident!

Azərbaycanın yüksək mükafatına – «İstiqlal» ordeninə layiq görüldüyüm üçün Sizə ürəkdən öz təşəkkürümü bildirirəm. Bilirsiniz, Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, ona Sizin kimi müdrik bir rəhbər başçılıq edir. Sizin bütün varlığınız, həyatınız Azərbaycanın, millətimizin taleyi ilə həmişə bağlı olmuşdur.

Vaxtilə ölkəyə rəhbərlik etdiyiniz dövrlərdə Azərbaycanın iqtisadiyyatını, mədəniyyətini, elmini, təhsilini inkişaf etdirməyə böyük qayğı göstərmisiniz. Vətəndən uzaqda olduğunuz illərdə də Azərbaycanı unutmamısınız, respublikamızın qayğısına qalmısınız. Əliniz daim Azərbaycanın üzərində olubdur. 1993-cü ildə isə Sizin respublika rəhbərliyinə qayıdışınızdan sonra Azərbaycan xalqının tarixində yeni səhifə, yeni dövr başlanmışdır. Təsadüfi deyildir ki, Azərbaycan xalqı bu dövrü Qurtuluş günü kimi dəyərləndirir və Milli Məclisin Qurtuluş günü barədə qəbul etdiyi qərar Sizin sədaqətinizə böyük xalq məhəbbətinin təzahürüdür.

Oktyabrın 11-də Azərbaycanda prezident seçkiləri keçirilmişdir. Azərbaycan vətəndaşları azad, demokratik şəraitdə keçirilən bu seçkilərdə Sizə səs vermişlər, Siz parlaq qələbə əldə etmisiniz. Bu, bizi sevindirir. Siz yenidən beş il müddətinə Azərbaycanın prezidenti, rəhbəri seçilmisiniz. Bu, Sizin Azərbaycan xalqı qarşısında gördüyünüz böyük işlərin, əməllərin nəticəsidir.

Cənab prezident, mən 50 ildən, yəni yarım əsrdən çox şüurlu, mənalı həyatımı Bakı Dövlət Universitetinin divarları arasında keçirmişəm. Mən universitetdə tələbəlikdən başlayaraq rektorluğa qədər bir yol keçmişəm. Bu müddət ərzində universitetdə yaxşı günlər də, çətin günlər də olubdur. Sizin rəhbərliyiniz dövründə universitetin vaxtilə 50, 60 illik yubileyləri keçirilibdir. Mən rektor olduğum illərdə, Sizin rəhbərliyiniz və iştirakınızla və bilavasitə təşəbbüsünüzlə 1995-ci ildə universitetin 75 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir.

Mənim həyatımın böyük bir hissəsi Bakı Dövlət Universitetində keçmişdir. Mən həmişə çalışmışam ki, xalqıma, millətimə sədaqətlə xidmət edim və universitetin adını uca tutum.

İcazə verin, bu yüksək ordeni elmə, təhsilə, xüsusilə hüquq elminə verdiyiniz böyük mükafat kimi qiymətləndirim. Bu mükafatı Sizdən qəbul etmək mənim üçün çox şərəflidir. Bu yüksək mükafata görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Azərbaycanın gələcəyi, xoşbəxtliyi naminə Sizə uzun ömür, cansağlığı və işinizdə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

Heydər Əliyev: Akademik Azad Mirzəcanzadəni yüksək mükafat – «İstiqlal» ordeni alması münasibətilə təbrik edirəm.

Azərbaycanda sənin elmi xidmətlərin böyükdür. Azərbaycan xalqı bir ildir ki, sənin yubileyini qeyd edir. Bu yubiley mərasimləri respublikanın çox yerlərində keçirilibdir. Bakıdakı yubiley mərasimində mən də iştirak edirdim. Sən bunların hamısına layiqsən. Bunların hamısını elm sahəsindəki xidmətlərinə görə qazanmısan. Mən bu ordeni məmnuniyyətlə sənə təqdim edirəm. Səni təbrik edirəm, cansağlığı arzulayıram.

Heydər Əliyev: Laçın Rayon İcra Hakimiyyətinin başçısı Muradxan Cabbarova «Azərbaycan Bayrağı» ordenini təqdim edirəm.

Sizi təbrik edirəm, cansağlığı arzu edirəm. Laçınlıların hamısına salam söyləyin. Əmin ola bilərsiniz ki, Laçın rayonu azad olunacaqdır və laçınlılar öz yerlərinə qayıdacaqlar.

Muradxan Cabbarov: Möhtərəm prezident, bu yüksək mükafata, göstərdiyiniz daimi diqqət və qayğıya görə Sizə tükənməz minnətdarlığımı bildirirəm. Bu etimadı doğruldacağına söz verirəm. Çox sağ olun, Sizə ən böyük uğurlar arzulayıram.

Heydər Əliyev: General-leytenant Kərim Kərimovu «Şöhrət» ordeni alması münasibətilə təbrik edirəm. Sənlə görüşümdən çox məmnunam. Xalqımız qarşısında sənin xidmətlərin ondan ibarətdir ki, sən Azərbaycan xalqını bütün dünyaya öz işlərinlə tanıtmısan. Səni Azərbaycanda çox qiymətləndiririk. Aldığın orden və medalların, mükafatların hamısı sənin böyük elminin öz müvəffəqiyyətlərinin nəticəsində olubdur. Amma sən indi müstəqil Azərbaycanın yüksək ordenini alırsan. Təbrik edirəm.

Heydər Əliyev: Mərhum Qurban Abbasovun həyat yoldaşı Nina Kolomeytsevanı təbrik edirəm.

Təəssüflənirəm ki, Qurban Abbasova bu mükafatı – «Şöhrət» ordenini özünün alması qismət olmadı. Biz onun xidmətlərini heç vaxt unutmayacağıq, xalqımız da, ölkəmiz də unutmayacaqdır. O, görkəmli neftçi idi və çox işlər görmüşdü. Onun gördüyü işlər bugünkü və gələcək nəsillər üçün nümunədir.

Xalq şairi Nəbi Xəzriyə «Şöhrət» ordenini təqdim edərək, Nəbi müəllimi təbrik edirəm, cansağlığı arzulayıram. Maşallah, yaxşısan, cavan qalmısan, həmişə cavan olasan, yeni-yeni əsərlər yaradasan.

Nəbi Xəzri: Hörmətli prezidentim, mən Sizdən çox mükafatlar almışam. Lakin bu mükafatın mənim üçün əhəmiyyəti çox böyükdür. Çünki o, müstəqilliyin çətin, əzablı, əziyyətli yollarına qədəm qoymuş millətimizin, xalqımızın, respublikamızın ilkin ordenidir.

Mükafatların kiçiyi-böyüyü olmur. Mükafat mükafatdır. Ona görə də mən Sizə çox təşəkkür edirəm. Demək istəyirəm ki, mükafatlar xalqın səxavət xəzinəsindən bizə verilən ənam və ərməğanlardır. Biz nə qədər sağıqsa, bu ərməğanları özümüzlə gəzdiririk. Bizdən sonra isə bu ərməğanlar xalqın şöhrət muzeylərində qorunub saxlanır.

Mən vaxtilə «Mükafat» adlı bir şeir yazmışam. İstəyirəm ki, həmin şeirdən bir-iki misra deməklə çıxışımı bitirim:

O gün ki, qovuşduq sözlə, sənətlə,
Nəslə də, əsrə də səs verən bizik.
Biz onu gəzdirək böyük hörmətlə,
Mükafat xalqındır, gəzdirən bizik.
Çox sağ olun, minnətdaram.

Heydər Əliyev: Mərhum xalq yazıçısı Yusif Səmədoğlunun təltif olunduğu ordeni yazıçının qızı Mehriban Vəkilovaya və qardaşı Vaqif Vəkilova təqdim edirəm.

Vaqif Vəkilov: Hörmətli prezident!

Siz də, yəqin, biz hamımız da çox istəyirdik ki, bugünkü təntənəli mərasimdə Yusifin özü iştirak etsin. Bunun üçün hamımız, ilk növbədə Siz əlinizdən gələni əsirgəmədiniz. Fəqət, həyatın yenilməz qanunları vardır. Mehribanla mənim burada iştirakımız bu təntənəli mərasimə bir az kədər çaları verdiyi üçün bizi üzrlü hesab edin.

Hörmətli prezident, Yusif Səmədoğlu ailəsinin təşəkkürünü Mehribanla məndən qəbul edin. Çox sağ olun.

Heydər Əliyev: Xalq artisti Qədir Rüstəmova «Şöhrət» ordenini təqdim edərək, təbrik edirəm. Necəsən? Bəlkə bir oxuyasan.

Qədir Rüstəmov: Cənab prezident, Allah Sizin canınızı sağ etsin. Mən gecə-gündüz Sizə Allahdan dua edirəm. Çox sağ olun ki, mənə minik maşını da vermisiniz. İstəyirəm. Bəxtiyar müəllimin sözlərinə yazılmış bir mahnını oxuyum...

Heydər Əliyev: Mərhum alim İbrahim Səfərovun təltif olunduğu «Şöhrət» ordenini onun oğlu İbrahim Səfərova təqdim edirəm.

Akademik Böyükkişi Ağayevə yüksək mükafatı təqdim edir və onu bu münasibətlə təbrik edərək cansağlığı arzu edirəm. Çox məmnunam ki, xeyirxah işini davam etdirirsən, insanları sağaldırsan.

Böyükkişi Ağayev: Hörmətli cənab prezident!

Bu gün burada olmaqdan və Sizinlə görüşməkdən böyük sevinc hissi duyuram və özümü xoşbəxt hiss edirəm.

Keçmiş illərdə respublikanın rəhbəri və müstəqil Azərbaycanın prezidenti kimi Siz daim mənim elmi, pedaqoji, praktik fəaliyyətimə çox diqqət yetirmisiniz. Ölkənin çox yüksək mükafatını dünyanın tanınmış və müdrik bir şəxsiyyətindən, respublikamızın sevimli prezidentindən almaq mənim qəlbimdə Sizə minnətdarlıq və böyük fərəh hissi doğurur. Bu, mənim həyatımda birinci mükafatdır. Çox sevinirəm ki, onu müstəqil Azərbaycanın prezidenti cənab Heydər Əliyev mənə təqdim etdi. Bu, mənim üçün çox böyük şərəfdir. Mən onu həyatımın böyük mənası sayıram.

Respublikamızın bir vətəndaşı, öz ömrünü, sənətini, səyini xalqın səhhətinə sərf edən bir həkim kimi mən Sizə cansağlığı, uzun ömür arzulayıram. Arzu edirəm ki, Sizin həyatınız səadətlə, xoşbəxtliklə dolu olsun. Çox sağ olun.

Heydər Əliyev: Xalq artisti Həsən Məmmədova «Şöhrət» ordenini təqdim edirəm. Səni təbrik edirəm. Cansağlığı, kinoda da, səhnədə də yeni yaradıcılıq uğurları arzulayıram.

Həsən Məmmədov: Möhtərəm prezident!

Azərbaycanın kino, teatr sənəti sahəsindəki əməyimə layiqli qiymət verdiyinizə, məni ölkəmizin ali «Şöhrət» ordeni ilə təltif etdiyinizə görə Sizə öz səmimi təşəkkürümü bildirirəm. Eyni zamanda bunu Azərbaycan kino, teatr sənətinə, mədəniyyətinə Sizin verdiyiniz qiymət kimi qəbul edirəm.

Biz – elm və incəsənət xadimləri, ziyalılar 1969-cu ildə hakimiyyətə ilk gəlişinizdən bu günə kimi həmişə Sizin diqqət və qayğınızı hiss etmişik. Azərbaycan mədəniyyəti 30 ildən çoxdur ki, öz layiqli yerini tutmuş və sərhədlərimizdən çox uzaqlarda tanınmışdır. Bu, məhz Sizin zəhmətiniz sayəsində mümkün olmuşdur.

Bildiyimiz kimi, 1988-ci ildən sonra ölkəmizdə baş verən bəzi olaylar və qarışıqlıqlar xalqımıza, mədəniyyətimizə çox böyük zərbə vurubdur. Amma sevindirici haldır ki, böyük Azərbaycan xalqının istəyi ilə 1993-cü ilin iyununda respublikada yenidən hakimiyyətə gəlişinizdən sonra bu geridəqalmalar Sizin diqqət və qayğınız sayəsində aradan götürüldü. Biz bunu heç vaxt unutmarıq. Sizin diqqət və qayğınız sayəsində biz bunu həmişə hiss edirik və bundan sonra da hiss edəcəyik. Biz bu yolda bundan sonra da çalışacağıq və özümüzü doğruldacağıq.

Cənab prezident, Azərbaycan mədəniyyətinə, incəsənətinə və mənə verdiyiniz bu yüksək qiymətə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycanın müstəqilliyi, dirçəlişi, bütövlüyü, qurtuluşu uğrunda apardığınız müqəddəs mübarizədə Sizə böyük uğurlar arzulayıram. Çox sağ olun.

Heydər Əliyev: Xalq artisti rejissor Rasim Ocaqovu yüksək mükafat alması münasibətilə təbrik edirəm, cansağlığı, yeni-yeni yaradıcılıq

uğurları arzulayıram. Sən gözəl filmlər yaratmısan, inanıram ki, bundan sonra da yeni filmlər çəkəcəksən.

Rasim Ocaqov: Hörmətli və əziz prezident!

Mənim üçün çox əziz olan bu gündə bir neçə kəlmə demək istəyirəm. Hamı bilir, amma bir daha qeyd etmək istəyirəm ki, Siz Azərbaycan kinosuna həmişə böyük diqqət yetirmisiniz. Vallah, Siz hakimiyyətə gəlməsəydiniz, indinin özündə kino olmazdı. Çox sağ olun. Mənim yadımdan heç vaxt çıxmaz, Siz məni 1980-ci ildə «Ad günü» filminə görə Dövlət mükafatı laureatı, 1982-ci ildə Azərbaycanın xalq artisti adına layiq gördünüz. Biz yaxşı başa düşürük ki, Sizin qayğınız olmasaydı «İstintaq» filmi heç vaxt ekranlara çıxa bilməzdi, biz SSRİ Dövlət mükafatı almazdıq.

Cənab prezident, mən və Azərbaycanın bütün kino işçiləri bütün bunlara görə minnətdarıq və ömrümüz boyu Sizə borcluyuq. Çox sağ olun. Allah Sizə uzun ömür, cansağlığı versin. Sağ olun.

Heydər Əliyev: Xalq artisti Gülxar Həsənovanı orden alması münasibətilə təbrik edirəm.

Gülxar xanım, sizə cansağlığı, uzun ömür arzulayıram. Burada təltif olunanların əksəriyyəti bu mükafatları gözləyiblər. Amma siz gözləməmisiniz, Siz təltif olunan kimi bu mükafatı alırsınız. Onlardan sizin fərqiniz bundan ibarətdir.

Gülxar Həsənova: Əziz prezident!

Mən bu gün çox sevinirəm ki, bütün sahələr üzrə sənət adamlarımız fərəh içərisindədirlər.

Əziz, sevimli, möhtərəm prezidentimiz!

Şəxsən mən bu mükafatı gözlənilmədən aldığıma görə sevinirəm. Mən sovet dövründə çox ordenlər, medallar, adlar almışam. Amma nəticəsində bir şey görməmişəm. Bu gün mən artıq yaşa dolmuşam, necə deyərlər, «qocalıq-binəvalıq, kürkümə düşdü yamaqlıq». Bu qoca vaxtımda Siz məni yada salmısınız. Mən bunu unuda bilmərəm. Əvvəlki yüksək mükafatlarım qarşısında Sizin bu gün mənə təqdim etdiyiniz bu orden qəlbimdə, ürəyimdə onların hamısından üstün yer tutubdur.

Mənim çoxlu tələbələrim vardır. Onlardan biri hazırda Los-Ancelesdə yaşayır. O, vaxtilə Bakıda Leyli, Əsli obrazlarını ifa edibdir. O, mənim oğlumun dəfnində Bakıya gəlmişdi. Sizin haqqınızda onun danışdığı sözlər məni çox sevindirdi. Demək istəyirəm ki, Siz Azərbaycanı bütün dünyada tanıtmısınız. Mən inanıram ki, Siz təbiətin, Allahın yetirdiyi yeganə şəxsiyyətsiniz. Mən Sizin kimi ikinci şəxsiyyətin olacağını hiss etmirəm. Çünki buna qabiliyyət, bilik, dözüm lazımdır. Siz hər şeyə – yaxşıya da, yamana da dözmüsünüz, öz işinizi görmüsünüz.

Mən Üzeyir bəyin, Müslüm Maqomayevin əsərləriylə tanındığıma, sevildiyimə görə vaxtilə çox qiymətlər almışam. Amma yenə də deyirəm,

bugünkü qiymət onlardan çox yüksəkdir. Televiziyada Sizin çıxışlarınızı verəndə mən bütün işlərimi kənara qoyub Sizə qulaq asıram. Sizin yaddaşınız, biliyiniz həqiqətən Allahın vergisidir.

Mən arzu edirəm ki, o bilik, ağıl, düşüncə ömrünüzün axırınadək Sizdə möhkəm olsun və Siz gələcək nəsilləri də sevindirəsiniz.

Heydər müəllim, ona görə sevinmirəm ki, mən gec də olsa buraya gəlmişəm. Mən gec-tez buraya gələcəkdim. Ancaq müəyyən səbəblərdən belə olubdur. Mənim Sizə deyəcək çox sözlərim vardır. Amma onları burada deyə bilmərəm, ayrıca bir vaxtda deyəcəyəm.

Sizə minnətdaram. Sizə uzun ömür, cansağlığı arzulayıram. Gün o gün olsun ki, Sizin köməyinizlə Qarabağ torpaqları düşməndən azad edilsin. Biz maddi, mənəvi cəhətdən Sizdən həmişə kömək görmüşük. O gün olsun ki, biz incəsənət işçiləri gedib, düşməndən azad olunmuş Qarabağ bölgəsində çıxışlar edək. Yetirdiyim, yaxşı adlar almış yüzlərlə tələbələrim hamısı, mən Sizi hər yerdə daha gözəl, daha yaxşı qarşılayaq.

Cənab prezident, Sizə uzun ömür, cansağlığı arzulayıram*.

YÜKSƏK MÜKAFATLARIN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ

Hörmətli xanımlar və cənablar!

Mən sizi Azərbaycanın Dövlət mükafatları almağınız münasibətilə bir daha ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, uzun ömür, yeni müvəffəqiyyətlər, yeni yaradıcılıq uğurları arzulayıram.

Bu gün dövlət mükafatlarını alanlar Azərbaycanın mötəbər insanlarıdır. İndi müstəqil Azərbaycanın dövlət mükafatları əksərən ölkəmizin elm, mədəniyyət, incəsənət xadimlərinə təqdim olunur. Bu da təbiidir. Çünki bizim xalqımız həmişə elmi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti yüksək qiymətləndirmişdir. İnsan həyatının, insan fəaliyyətinin bu sahəsi bütün dövrlərdə cəmiyyətə, ölkəyə, dövlətə, hər bir insana çox bəhrələr vermişdir.

Biz fəxr edirik ki, Azərbaycanın zəngin mədəniyyəti var, zəngin elmi var, zəngin incəsənəti, musiqisi vardır. Bunu da yaradanlar yüksək

* Azərbaycan Prezidenti Heydər Əliyev daha sonra «Azərbaycan» qəzetinin baş redaktoru Əmir Mustafayevə, məşhur idmançılar Namiq Abdullayevə, Ağayar Axundzadəyə, Natiq Eyvazova, Zemfira Meftahəddinovaya, Ceyhun Məmmədova, Aynur Sofiyevaya, Rövşən Hüseynova, Sabir Hüseynova, Zülfiyyə Hüseynovaya «Tərəqqi» medallarını təqdim etdi.

istedada malik olan adamlardır, fitri istedada malik olan adamlardır, eyni zamanda fədakar insanlardır. Siz məhz belə insanlarsınız.

Bu gün təltif olunanların əksəriyyəti yaşlı nəslə mənsubdur. Hər birinizin həyatı böyük bir tarixdir. Hər birinizin çiyinlərinin arxasında böyük iz var, böyük yol var. Hər biriniz öz əsərlərinizlə öz ictimai-siyasi fəaliyyətinizlə Azərbaycanın inkişafına xidmətlərinizi göstərmisiniz və bu xidmətləri də xalq həmişə qiymətləndiribdir. Bu dövlət mükafatları müstəqil Azərbaycanın dövlət rəmzidir, dövlətçilik rəmzidir və eyni zamanda xalqın, ictimaiyyətin sizin əməyinizə, zəhmətinizə, sizin yaradıcılığınıza, əsərlərinizə verdiyi ümumi qiymətin mücəssəməsidir.

Siz xoşbəxt adamlarsınız, çünki yaradıcısınız – əsərlər yaratmısınız və bu gün də yaradırsınız, gələcəkdə də yaradacaqsınız. Sizin əsərləriniz xalqa fayda verir, bugünkü nəsillər və gələcək nəsillər üçün çox gərəklidir, əhəmiyyətlidir. Mən məmnunam ki, bu gün sizinlə bir daha görüşdüm, hər birinizin əlini sıxdım və müstəqil Azərbaycanın bu yüksək mükafatlarını sizə təqdim etdim. Mən şəxsən sizin hər birinizi çox yaxşı tanıyıram. Uzun illərdir ki, sizin fəaliyyətinizi, yaradıcılığınızı müşahidə edirəm, izləyirəm və bir azərbaycanlı kimi şəxsən bunu qiymətləndirirəm. Azərbaycanın prezidenti kimi isə mən bu cür fərmanların verilməsini və bu mərasimin keçirilməsini özümün şərəfli vəzifəm hesab edirəm.

Elm, mədəniyyət, incəsənət xadimləri ilə bərabər, burada gənc nəslin nümayəndələri də, idmançılar da bu gün Azərbaycanın dövlət mükafatlarını aldılar. Onlar da öz yüksək göstəriciləri ilə dünya miqyasında Azərbaycan idmanına uğurlar qazandırdıqlarına görə bu yüksək mükafatlara layiq olublar.

Ümumiyyətlə, bugünkü mərasim buraya toplaşanların hər birinin həyatında əlamətdar bir hadisə olduğu kimi, eyni zamanda bizim ictimai həyatımızda çox böyük bir hadisədir. Bu, onu göstərir ki, müstəqil Azərbaycanın dövləti öz vətəndaşlarının yüksək nailiyyətlərini layiqincə qiymətləndirə bilir. Bu da bizim müstəqilliyimizin, dövlətçiliyimizin gözəl göstəricisidir. Mən sizin hamınıza yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Hər birinizə cansağlığı, səadət və müstəqil Azərbaycanın bu günü, gələcəyi naminə əməli fəaliyyət arzulayıram.

Bu gün siz bu ordenləri, medalları alarkən bir xüsusiyyəti qeyd etdiniz ki, bu, müstəqil Azərbaycanın milli mükafatlarıdır. Bu, həqiqətən belədir. Sizlərin çoxunun burada qeyd etdiyiniz kimi, keçmiş illərdə də yüksək mükafatlara layiq olmusunuz. O mükafatlar da qiymətlidir, heç vaxt onları unutmaq lazım deyildir. Siz o mükafatları öz xalqınıza, vətəninizə, millətinizə xidmətə görə almısınız. Sizin yaratdığınız əsərlər, yaradıcılıq fəaliyyətiniz birinci növbədə Azərbaycanın elmini, mədəniyyətini, incəsənətini inkişaf etdiribdir. Azərbaycanın elmi, mədəniyyəti əsrlər

boyu inkişaf edibdir və heç vaxt biz fərq qoymamışıq – hansı şair, hansı yazıçı, hansı musiqiçi, hansı alim bunu hansı dövlətin vaxtında yaradıbdır, hansı hökmdarın vaxtında yaradıbdır. Bunları biz heç vaxt araşdırmamışıq və araşdırmaq da lazım deyil. Çünki insan və xüsusən yaradıcı insan öz həyatı dövründə yaratdığını birinci növbədə öz xalqı üçün yaradır, öz vətəni üçün yaradır, öz milləti üçün yaradır, öz ölkəsi üçün yaradır. Əgər onun yaratdığı əsər öz ölkəsinin hüdudlarından kənara çıxarsa və başqa bir ölkə tərəfindən də qiymətləndirilirsə, buna sadəcə sevinmək lazımdır. Buna heç vaxt mənfi münasibət göstərmək lazım deyil.

Sizin keçmişdə aldığınız mükafatlar da, ordenlər də, medallar da qiymətlidir. Onların hər biri sizin həyatınızın, tərcümeyi-halınızın parlaq bir səhifəsidir. Ancaq bununla yanaşı, bu günü görmək – Azərbaycanın müstəqilliyini görmək, bu zamana qədər yaşamaq özü-özlüyündə böyük xoşbəxtlikdir. Müstəqil Azərbaycanın dövlət mükafatını almaq, şübhəsiz ki, hər bir insanda böyük iftixar hissi doğurur. Mən sizin hissiyyatlarınızı çox yaxşı anlayıram və mən özüm də məhz bu dövrü yüksək qiymətləndirirəm. Mən dəfələrlə demişəm, bu gün də deyirəm: bu dövr bizim üçün çox çətindir, çox ağırdır. Biz böyük çətinliklərdən keçib irəliyə gedirik. Ancaq tək bir müstəqilliyimizə görə hər bir şeyə dözməliyik. Çünki bu çətinliklər – bəzən maddi çətinliklər, sosial çətinliklər, hər bir insanın həyatında olan çətinliklər – bunlar keçicidir, müvəqqətidir.

Bəzən böyük müharibələr gedir, minlərlə, milyonlarla insanlar həlak olurlar. İstənilən qələbəyə nail olmaq üçün. Biz isə indi bu ağır dövrü yaşayırıq ona görə ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlayırıq. Mən bir daha bildirmək istəyirəm ki, bu dövr, ola bilər, bir az çox olsun, ola bilər, az olsun, ancaq bu dövr keçici bir dövrdür. Biz bunu nə qədər çətin olsa da yaşamalıyıq və inanıram ki, yaşayacağıq. Azərbaycanın müstəqilliyinin əbədiliyi naminə! Mən əminəm ki, Azərbaycanın müstəqilliyi əbədi olacaqdır. Mən əminəm ki, biz bu müstəqilliyi qoruyub saxlaya biləcəyik və gələcək nəsillərə daha da qüdrətli müstəqil Azərbaycan dövləti çatdıracağıq.

Bütün bunlara görə də sizin bu mükafatlarınızın böyük əhəmiyyəti vardır. Mən inanıram ki, siz bu gün də, gələcəkdə də əmək fəaliyyətinizlə, yaradıcılığınızla, yeni-yeni əsərlərinizlə Azərbaycanın inkişafına öz xidmətlərinizi göstərəcəksiniz. Mən sizi bir daha təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNƏ, İCTİMAİ XADİMLƏRƏ AZƏRBAYCAN DÖVLƏTİNİN YÜKSƏK MÜKAFATLARININ – ORDENLƏRİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ*

Prezident iqamətgahı
7 mart 1999-cu il

Hörmətli xanımlar və cənablar!

Siz Azərbaycan dövlətinin yüksək mükafatları – ordenlərlə təltif olunmusunuz. Mən böyük məmnuniyyətlə bu yüksək mükafatları sizə təqdim edirəm.

Bundan öncə qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Onlara cansağlığı, xoşbəxtlik və bütün işlərində uğurlar arzulayıram.

Mərhum akademik Ziya Bünyadovun layiq görüldüyü «İstiqlal» ordenini alimin həyat yoldaşı Tahirə xanıma təqdim edirəm.

Tahirə xanım Bünyadova: Əziz Heydər Əliyeviç, Ziya Bünyadovun xatirəsinin əbədiləşdirilməsinə görə ailəmiz adından və şəxsən öz adımdan Sizə təşəkkürümü bildirirəm.

Bakıda prospektlərdən birinə, respublika Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna Ziya Bünyadovun adı verilmiş, Ziya Bünyadov adına təqaüd təsis edilmiş, onun yaşadığı evə xatirə lövhəsi vurulmuş, qəbri üstündə gözəl bir abidə qoyulmuşdur.

Cənab prezident, mən Sizə ürəkdən təşəkkür edirəm. Ziyanın xidmətlərinə yüksək qiymət verərək onu respublikanın ən yüksək ordeni ilə təltif etdiyinizə görə minnətdarlığımı bildirirəm. Sizə cansağlığı, gümrahlıq, xoşbəxtlik arzulayıram. Əziz Heydər Əliyeviç, heç bir günümüz Sizsiz olmasın.

Heydər Əliyev: Görkəmli sənətkar, xalq artisti Leyla Bədirdəyliyə «İstiqlal» ordeni təqdim edirəm.

Leyla Bədirbəyli: Əziz və möhtərəm prezidentimiz cənab Heydər Əliyevə hörmət və ehtiram!

Bizə göstərdiyiniz qayğı çox qiymətlidir. Çətin və gərgin işinizin içində bizi unutmursunuz, bizim haqqımızda düşünürsünüz. Ensiklopedik

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On doqquzuncu kitab. B., Azərnəşr, 2006, s. 258-273

biliyiniz Sizə hər şeyi işıqlandırır. Sizinlə fəxr edir, həmişə gözəl hisslər keçiririk. Sizin hər bir addımınız bizim üçün dəyərlidir. Xalqımızın səadəti naminə Sizə möhkəm can sağlığı, uzun ömür arzulayırıq. Həmişə belə cavan və gümrah qalın. Sonsuz minnətdarlıq, təşəkkür və razılığımızı qəbul edin.

Heydər Əliyev Rusiya-Azərbaycan Dostluğu Cəmiyyətinin sədri, həmyerlimiz, professor, ictimai xadim Nikolay Baybakova, ictimai xadim Kamran Hüseynova, professor Məzahir Abasova, xalq artisti Tükəzban İsmayılovaya, professor Abdulla Muxtarova, professor Yaqub Mahmudova, xalq artisti, bəstəkar Süleyman Ələsgərova, xalq rəssamı Oqtay Sadıqzadəyə «Şöhrət» ordenləri təqdim etdi.

Heydər Əliyev: Əziz Nikolay Konstantinoviç!

Azərbaycanın yüksək mükafatını – «Şöhrət» ordenini sizə dərin məmnuniyyətlə təqdim edirəm. Nikolay Konstantinoviç, siz bizim üçün doğma insansınız, həmyerlimizsiniz, bakılısınız, əsl azərbaycanlısınız.

Nikolay Konstantinoviç Baybakovu Azərbaycanda hamı tanıyır. Bununla belə, bir neçə söz deyəcəyəm.

O, Bakıda doğulmuş, burada təhsil almış, Azərbaycan Sənaye İnstitutunu bitirmiş, neftçi-mühəndis olmuş və əmək fəaliyyətinə Azərbaycanın neft mədənlərində başlamışdır. Onun hələ 30 yaşı yox idi, amma ən iri idarəyə – Sabunçu Neft-Mədən İdarəsinə başçılıq edirdi. Bu idarə həmin illərdə – mən 30-cu illərin ikinci yarısını nəzərdə tuturam – Azərbaycan, Bakı neftinin, demək olar, əsas hissəsini verirdi.

Nikolay Konstantinoviç Azərbaycanda gözəl məktəb – mərdlik məktəbi, şərəf məktəbi, ləyaqət məktəbi keçmiş və buradan, təkrar edirəm, hələ 30 yaşı bitməmiş daha da yüksəklərə vəsiqə aldı. O, həmin vaxtlar Sovetlər İttifaqının yenicə açılmış neft rayonlarına, «İkinci Bakı»ya göndərildi. O rayonları nə üçün «İkinci, Üçüncü Bakı» adlandırmışdılar? Çünki bütün bu neft yataqları Azərbaycan neftçilərinin fəal iştirakı ilə kəşf olunmuş və açılmışdı. Bu neftçilərdən biri də Nikolay Konstantinoviç Baybakov idi. O, «İkinci Bakı» neft yataqlarının açılması və istismarı sahəsində üzərinə qoyulmuş vəzifəni ləyaqətlə yerinə yetirdi və sonra Sovetlər İttifaqının paytaxtında – Moskvada işə irəli çəkildi.

O, 30 yaşında artıq Sovetlər İttifaqının xalq komissarı, yəni SSRİ-nin neft sənayesi naziri oldu. Onun sonrakı yolu da Sovetlər İttifaqının neft sənayesinin və iqtisadiyyatının inkişafı ilə bağlı mürəkkəb, çətin, lakin şərəfli yoldur. Nikolay Konstantinoviç Baybakov Sovetlər İttifaqının neft sənayesinin inkişafına, keçmişdə ittifaqa daxil olan indiki müstəqil respublikaların – Rusiyada və Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində neft sənayesinin belə potensialının və onun belə böyük inkişaf perspektivlərinin olmasına böyük töhfə vermişdir.

Nikolay Konstantinoviç Baybakov 20 ildən çox Sovetlər İttifaqının Dövlət Plan Komitəsinə başçılıq etmişdir. Bu, nəhəng ölkənin xalq təsərrüfatının inkişafını planlaşdıran, təşkil edən və planların həyata keçirilməsinə çalışan başlıca iqtisadi idarəsi idi. Beləliklə, o, təkcə neft sənayesinin deyil, bütün Sovetlər İttifaqının iqtisadiyyatının və xalq təsərrüfatının inkişafına böyük töhfə vermişdir.

Nikolay Konstantinoviç, keçmişin üstündən qələm çəkərək, həyatın guya onlardan başlanmasını düşünən və əlbəttə, dərin səhvə yol verən bir çoxlarından, yeri gəlmişkən, moskvadakılardan fərqli olaraq, biz keçmişdə olanları unutmuruq. Çünki belə zəngin keçmiş olmasaydı, bu gün malik olduqlarımız da olmazdı. Yox, biz keçmişdə olanların hamısını lazımınca qiymətləndiririk. Keçmiş isə o deməkdir ki, Sovetlər İttifaqına daxil olan respublikalar 20-ci illərdən başlayaraq sosial-iqtisadi, mədəni və bütün digər sahələrdə böyük inkişaf əldə etmişdilər. Hazırda bu inkişaf keçmiş Sovetlər İttifaqı respublikalarının, o cümlədən Azərbaycanın bugünkü və gələcək həyatının təməlini təşkil edir. Bütün bunlarda Nikolay Konstantinoviç Baybakovun böyük xidməti var.

Nikolay Konstantinoviç Baybakovu Azərbaycanda hamı doğma adam kimi tanıyır. O, Azərbaycandan getdikdən sonra da bütün illər ərzində bizimlə əlaqəni kəsməmiş, Azərbaycana daim gəlmiş, Moskvada işləyərkən respublikamızın inkişafı ilə bağlı bir çox problemlərlə məşğul olmuşdur. 1938-ci ildən başlayaraq o, Azərbaycandan bütün çağırışlarda SSRİ Ali Sovetinin deputatı seçilir. Məhz Azərbaycan neftçiləri, azərbaycanlı həmvətənlər ona böyük etimad göstərərək SSRİ Ali Sovetinə deputatlığa namizəd irəli sürür və deputat seçirdilər. Nikolay Konstantinoviç bu etimadı layiqincə doğruldurdu.

Şəxsən mən Nikolay Konstantinoviçi çoxdan tanıyıram. Lakin 30 il əvvəl biz onunla lap sıx əməkdaşlığa başladıq, yəni 1969-cu ildə mən Azərbaycana rəhbərlik etdikdə qarşılıqlı münasibətlərimizin yeni mərhələsi, yeni dövrü başlandı.

Azərbaycana rəhbərlik etdiyim bütün o illər ərzində biz Nikolay Konstantinoviçlə fəal əməkdaşlıq etmişik. O, mənim dəvətimlə və ya öz arzusu ilə tez-tez Azərbaycana gəlirdi, biz Azərbaycan iqtisadiyyatının problemlərini birlikdə nəzərdən keçirirdik. Hamıya məlumdur ki, 70-ci illər və 80-ci illərin birinci yarısı Azərbaycanda iqtisadiyyatın, sosial həyatın sürətli inkişaf dövrü idi. Bütün bunlarda Nikolay Konstantinoviç Baybakovun böyük xidməti var.

Sonralar biz Moskvada, SSRİ Nazirlər Sovetinin tərkibində birlikdə işlədik. Mən Nazirlər Soveti Sədrinin birinci müavini idim. Nikolay Konstantinoviç Nazirlər Soveti sədrinin müavini idi. Biz hər gün birlikdə olur-

duq, hər halda, həftədə bir dəfə Nazirlər Sovetinin iclaslarında, Siyasi Büronun iclaslarında olurduq. Biz birlikdə idik və fəal əməkdaşlıq edirdik.

Nikolay Konstantinoviç Azərbaycanla əlaqələrini bu gün də itirmir. Məhz bütün bu böyük xidmətlərinə görə və hazırda Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmlənməsində və inkişafında çox böyük rol oynadığına görə o, Rusiya – Azərbaycan Cəmiyyətinin sədri seçilmişdir və özünün bu vəzifələrini layiqincə yerinə yetirir.

Nikolay Konstantinoviç uzun ömür sürmüşdür, lakin gördüyünüz kimi, bu gün də cavan, yaraşıqlı kişidir. Bu gün onun 88 yaşı tamam olur, bu gün Nikolay Konstantinoviçin ad günüdür. Nikolay Konstantinoviç, mən şadam ki, siz öz ad gününüzdə buradasınız, Azərbaycanda, Bakıda, köhnə dostlarınız arasındasınız. Şadam ki, məhz ad gününüzdə sizə Azərbaycan dövlətinin yüksək mükafatını təqdim etmək şərəfinə malikəm.

Nikolay Konstantinoviç bu gün də enerjilidir, çox gülərüzdür, çox nikbindir, neft elminin problemləri ilə yaxından məşğul olur. O professordur, iqtisadiyyat sahəsində, neft sənayesi sahəsində görkəmli alimdir. O, böyük neftçidir, hətta deyərdim, keçmiş Sovetlər İttifaqında bir nömrəli neftçidir, çünki onun kimi ikinci beləsi Rusiyada da yoxdur, Azərbaycanda da. Nikolay Konstantinoviç elmi fəaliyyətlə də, neft sənayesinin inkişafı sahəsində fəaliyyətlə də məşğul olur və bununla əlaqədar Azərbaycan neftçiləri ilə əməkdaşlığı davam etdirir. Nikolay Konstantinoviç, bütün bunlara görə biz çox şadıq. Təkrar edirəm, mən şadam ki, bu gün biz sizinlə bir yerdəyik.

Əziz Nikolay Konstantinoviç, siz öz həyatınız boyu Sovetlər İttifaqının da, dünyanın bir çox digər dövlətlərinin də neçə-neçə yüksək mükafatlarını almısınız. Lakin siz doğma Azərbaycanınızın dövlət mükafatını ilk dəfə alırsınız. Belə düşünürəm ki, bunun sizin üçün də, bizim üçün, bu gün müstəqil dövlət kimi vətəndaşlarını da, öz hüdudlarından kənarda olan həmvətənlərini də mükafatla təltif etmək imkanına malik olan Azərbaycan üçün də əhəmiyyəti var.

Nikolay Konstantinoviç, sizi bir daha təbrik edir, cansağlığı arzulayıram. Allaha şükür, yaxşı qalmısınız. Düşünürəm ki, yüz illiyinizi sizinlə birlikdə qeyd edəcəyik. Sizə bütün işlərinizdə uğurlar, ən xoş diləklər arzulayıram.

Nikolay Baybakov: *Əziz Heydər Əliyeviç!*

Əziz dostlar və yoldaşlar!

Bu gün mənə təqdim edilən bu yüksək mükafata görə minnətdarlıq sözləri tapa bilmirəm. Bəli, Heydər Əliyeviç mənim həyatımdan çox

danışdı. Buna görə də təkrar etmək fikrində deyiləm, bir də ki, buna lüzum yoxdur, çünki çoxları məni tanıyır. Mən yalnız bir şeyi demək istəyirəm ki, faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. Dövlət Müdafiə Komitəsinin cəbhənin yanacaqla təmin olunması üzrə keçmiş müvəkkili kimi, – bu vəzifəyə məni Stalin təyin etmişdi, – bilirəm ki, almanlar Azərbaycana lap yaxınlaşan zaman ölkəmiz nə vəziyyətdə idi. Axı onlar artıq Krasnodarı işğal edərək Qroznının həndəvərinə gəlib çıxmışdılar və Azərbaycanın aqibəti həll olunurdu. Bəs Azərbaycanın aqibəti nə demək idi? Müharibədən əvvəlki dövrdə, 40-cı ildə çıxardığımız 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü. Ukrayna (o, çox az miqdarda neft verirdi), Krasnodar (xeyli neft vermirdi) faşistlər tərəfindən işğal edildikdən sonra bütün ağırlıq Azərbaycanın üzərinə düşdü. Almanlar cənubda Rostov yolunu kəsdikdə, faşistlər Stalinqrada yaxınlaşıb cəbhənin də, xalq təsərrüfatının da yanacaqla bütün təchizat yollarını kəsdikdə biz çox böyük işlər görməli olurduq. Hətta iş o yerə gəlib çatmışdı ki, cəbhə üçün və xalq təsərrüfatı üçün nefti Xəzər dənizi ilə çənlərdə daşıyıb aparırdıq. Necə deyərlər, sağ əlimizlə sol qulağımızı qaşıyırdıq.

Bu mövzuda çox danışmaq istəmirəm, lakin faşizm üzərində qələbədə vətənimin əhəmiyyətini bir daha nəzərə çarpdırmaq istəyirəm. Dekabrda buraxılmış və yaxın vaxtlarda Bakıya da gəlib çatacaq «Stalindən Yeltsinədək» kitabında faşizm üzərində qələbədə Azərbaycanın rolu və əhəmiyyətindən danışılır. Buna görə də çıxışımı bitirərək demək istəyirəm ki, Azərbaycanın neft və qaz sənayesinin inkişafına azçox kömək göstərməyə nə qədər ki, qüvvəm var, mümkün olan hər şeyi edəcəyəm, təbii ki, sizin köməyinizlə. Biz köhnə rayonların və ən əvvəl Balaxanı, Sabunçu və Ramananın canlandırılmasına dair qəbul olunan sazişlər əsasında birlikdə hərəkət edəcəyik. Mən həmin rayonlarda trest müdiri olmuşam və oradan da məni «İkinci Bakı»ya, sonra da «Üçüncü Bakı»ya aparmışdılar.

İstəyirəm ki, neftin geoloji ehtiyatlarının qalan 50 faizi əziz vətənimə xidmət üçün çıxarılsın. Sağ olun, Sizə möhkəm cansağlığı, azı 100 il ömür arzulayıram. Az olsa, yanıma gəlin, ömrünüzü uzadaram, çünki mən 150 il yaşamışam. Ona görə ki, bu «dəlixanada» – 22 il sədr işlədiyim Dövlət Plan Komitəsində bir il üç il hesab edilir. 15 il xalq komissarı və nazir işləmişəm, bunu ikiyə vurun, 5 il Şimali Qafqaz Xalq Təsərrüfatı Şurasının sədri işləmişəm, bunu ikiyə vurun, 2 il Dövlət Neft və Kimya Komitəsinin sədri olmuşam, bunu iki il hesab edirəm, çünki orada heç nəyə cavabdeh deyildim. Bunların üstünə mənim 88 yaşımı gəlib hesablayın, görərsiniz ki, hamısı birlikdə 150 ilə bərabərdir. Odur ki, sizin ömrünüzü uzatmağa

ixtiyarım var. Üstəlik, burada, mən Kirovabaddan deputat seçilərkən ilk dəfə uzunömürlü Novruz Bayramovla görüşdüm, həmin gün onun 147 yaşı tamam olurdu. O, buraya, Bakıya herontoloqlarla birlikdə gəlmişdi və təəssüf ki, burada xəstələnib vəfat etdi.

Bunu ona görə deyirəm ki, insanın potensialı çox böyükdür. Mənim keçmiş köməkçim Aleksandr Nikolayeviç Umnov burada oturur. Biz onunla 20 il Dövlət Plan Komitəsində işlədik. O, burada mənə materiallar verdi. Bu materiallardan nə qədər uzunömürlü insan olduğunu və onların nə qədər yaşadığını öyrəndim. Bax, dünyada ən çox yaşayan bir balıqçı olmuşdu – 205 il. Necə istəyirsiniz, yoxlayın, lakin rəsmi məlumat bunu təsdiq etmişdir.

Stalin məni xalq komissarı təyin edərkən nə kimi keyfiyyətlərə malik olmalı olduğumu yoxlamaq üçün məni imtahana çəkdi. Mən hər şeyi danışırdım, o isə hey soruşurdu. Daha nə, özgə nə. Mən dedim: Yoldaş Stalin, mən bildiklərimin hamısını söylədim, əgər Siz faydalı keyfiyyəti mənə desəniz, şad olaram. O, mənə yaxınlaşıb qəlyanı ilə çiynimə vuraraq dilləndi; hər şeyi doğru dediniz, amma başlıca məsələni demədiniz. Təbii ki, mən tez ayağa qalxdım. O isə yenə də qəlyanıyla çiynimə vuraraq bildirdi: Xalq komissarı möhkəm əsəblərə malik olmalı və nikbin olmalıdır. Budur, nikbinliyin nə demək olduğunu bütün həyatım boyu anlayıram. Nikbinlik mənə kömək etmişdir. Bunu Sizə də təklif etmək istəyirəm, çünki bu, ağır şəraitdə xüsusilə vacibdir.

Əziz Heydər Əliyeviç, sözün düzü, heç bilmirəm yaxşı nə deyim. Amma Azərbaycanın inkişafı üçün Heydər Əliyeviçin etdiyini, zənnimcə, heç kim etməmişdir. Mən Mircəfər Bağırovla, başqaları ilə işləmişəm. Lakin açığını deyəcəyəm, kiminsə Heydər Əliyeviç kimi işlədiyini görməmişəm. Respublikamızın, Azərbaycanımızın inkişafı, çiçəklənməsi onun dövründə olmuşdur. Arzu etmək istəyirəm ki, Siz bu məsul vəzifədə də həmişə o cür fəal olasınız, Azərbaycanı daha böyük enerji ilə möhkəmlədəsiniz. Mən Azərbaycanı, onun həyatını, rəqəmləri izləyirəm və xalq təsərrüfatının inkişafında, Azərbaycan əməkçilərinin həyat səviyyəsinin yüksəlməsində uğurlar arzulamaq istəyirəm. Çox sağ olun.

Heydər Əliyev: «Nikolay Konstantinoviç özünün bir keyfiyyətindən danışmadı – o, qadınları çox sevir və qadınlar da onu çox sevirdilər və bu gün də sevirlər. Hər halda, Dövlət Plan Komitəsində çoxlu qadın işləyirdi və o, hamısını sevirdi, onlar da onu sevirdilər. Ümumiyyətlə, nəzərə alın ki, o elə həmin kişidir.»

Mən «Şöhrət» ordenini Kamran Hüseynova təqdim edirəm.

Kamran Hüseynov: Heydər Əliyeviç, Siz indicə Nikolay Konstantinoviçdən danışdınız və o da öz sözünü dedi. Siz bir müddət

qısa müalicədə olarkən, inanın, bütün respublika həyəcan keçirirdi, hər gün hamı Sizin səhhətinizlə maraqlanırdı. Allaha şükür, Siz özünüz deyirdiniz ki, hər şey çox əladır və biz sakitləşirdik. Bu, hamının arzu və istəyi idi. Qayıdanda özünüz gördünüz ki, uşaqdan tutmuş böyüyədək bütün ölkə Sizi necə təntənə ilə qarşılamağa çıxmışdı. Çox sağ olun. Allaha şükür ki, Siz tam sağalıb qayıtdınız.

İcazə verin, Nikolay Konstantinoviç Baybakov haqqında bir neçə kəlmə deyim.

Heydər Əliyeviç, Sizin dediklərinizi təkrar etmək mümkün deyildir. Nikolay Konstantinoviç bizim doğma adamımızdır. Çox sağ olun ki, Siz bütün hallarda, heç vaxt Nikolay Konstantinoviçi unutmursunuz.

Siz respublikaya rəhbərlik etdiyiniz 70-ci illərdən danışdınız. Hesab edirəm ki, Azərbaycanın həmin dövrünü intibah, dirçəliş, bərpa, inkişaf dövrü adlandırmaq olar. Nikolay Konstantinoviç də bu işdə heç də axırıncı rol oynamırdı, görkəmli rol oynayırdı. Bizdə nəinki güclü kimya, metallurgiya, maşınqayırma sənayesi meydana gəlmişdi, neft sənayesi inkişaf edirdi, başlıcası bu idi ki, Siz maarifin maddi-texniki bazasının inkişafına diqqət yetirirdiniz. Həmin illərdə bir milyon iki yüz min şagird yeri yaradılmışdı. Demək olar, bütün şagirdlər yeni məktəblərdə oxuyurdular. Səhiyyənin, maarifin bazaları, elmi-texniki idarələr, hər yerdə çox saylı yeni müəssisələr yaradılmışdı. Siz bizi onun yanına göndərib deyirdiniz, «Baybakov oradadır, onun yanına gedin». Biz onun yanına gəlir, deyirdik: Nikolay Konstantinoviç, məktəblərin inkişafı üçün bizə bir milyard manat lazımdır. O, məktəb tikintisinin inkişafı üçün birbaşa, təyinatla 500 milyon manat tapırdı. Azərbaycan kəndinin görkəmi dəyişirdi.

Siz burada da tamamilə doğru dediniz, çox sağ olun. Siz onu unutmursunuz. O, doğma adamımızdır, həmyerlimizdir. Onun Dövlət Plan Komitəsinin sədri olması o demək deyildi ki, bizə hər şey verməli idi. O, bizə nə düşürdüsə, onu da verirdi. Bu da böyük işdir.

İki kəlmə ilə onu da demək istəyirəm ki, o, Rusiyanın müxtəlif rayonlarında işləyən bir çox Azərbaycan neftçiləri, – Komi Respublikasının baş, əməkdar geoloqu Məmmədov, qaz kəşfiyyatı təsərrüfatının başçısı Akif Səyyadov və başqaları üçün mayak olmuşdur. Beləliklə nə qədərdir! Dardüşüncəli adamlara elə gəlir ki, azərbaycanlılar yalnız göy-göyərti satırlar. Amma onların sənayeni irəlilətməsini unudurlar. Müharibə başlananda Sumqayıtdan 6 min nəfərlik kollektiv bütünlüklə Nijni-Tagilə, yerli kombinatın tikintisinə getdi və onu inşa etdi. Mingəçevirin tikintisi başa çatdı və böyük texnika, ehtiyatlar Yenisey SES-in tikintisinə göndərildi. Biz orada tikintiyə başladıq. Beləliklə, Azərbaycan borclu qalmırdı, hər şey edirdi. Çox sağ olun.

Siz Nikolay Konstantinoviçi gözəl xatırlayırsınız, ona hər zaman dostluq, yoldaşlıq əli uzadırsınız. O da Sizə son dərəcə hörmət bəsləyir. Biz bununla fəxr edirik.

Heydər Əliyev: Mən Sizi də həmişə xatırlayıram. Görürsünüz, köhnə qvardiyaya necə hörmət edirik. Öz aramızdır, bu heç də hər yerdə belə deyildir. Hamı da belə deyildir.

Kamran Hüseynov: Çox sağ olun. İcazə verin kiçik hədiyyəni – «Bir həyatın salnaməsi» kitabımı Sizə təqdim edim. Bu kitab yaxınlarda nəşr olunmuşdur, tezliklə rus dilində də çıxacaqdır.

Heydər Əliyev: Professor Məzahir Abasova «Şöhrət» ordenini təqdim edirəm.

Məzahir Abasov: Sizə minnətdarlığımı bildirirəm. Möhtərəm cənab prezident, Siz mənə zəng vuranda mən öz ürək sözlərimi bildirdim. Sizin tapşırığınızla mən general Əbilov haqqında kitab yazmışam. Sizə təqdim etmək istədiyim kitabda ürək sözlərimi belə ifadə etmişəm: «Böyük zəka və ağıl sahibi, xalqının yüksək hüsn-rəğbətini qazanmış, dünya şöhrətli, müdrik Heydər Əlirza oğluna kiçicik xatirə kimi təqdim olunur».

Heydər müəllim, bu kitab Sizin tapşırığınızla yazılıb, oxuyarsınız, əgər iradınız olsa, mən onları düzəltməyə hazıram.

Heydər Əliyev: İrad ola bilməz. Yəqin ki, yaxşıdır. Sağ olun.

Məzahir Abasov: Heydər müəllim, Sizinlə telefonla danışanda dediniz ki, mənə sözünüz var? Fikirləşdim ki, mən nə deyim, – prezident məni təbrik edir. Amma iki-üç gündən sonra Sizin adınıza bir məktub yazdım. Həmin məktuba hələlik bir cavab yoxdur. Ona görə də yenisini yazmışam.

Heydər Əliyev: Sənin məktubun mənə çatmayıb, mən onu almamışam.

Məzahir Abasov: Cənab prezident, mən Sizə minnətdaram, uzun ömür, cansağlığı arzulayıram. Siz Allah tərəfindən göndərilmiş səma elçisisiniz. Azərbaycanın taleyi yalnız Sizdən asılıdır.

Heydər Əliyev: Xalq artisti Tükəzban İsmayılovaya yüksək mükafatı təqdim edirəm.

Tükəzban İsmayılova: Əziz və möhtərəm prezidentimiz, Sizə minnətdarlığımı bildirirəm. Siz bizim əzizimizsiniz. Siz həmişə bizim ailəmizə qayğı göstərmisiniz. 75 yaşımın tamam olması münasibətilə Siz mənə zəng vuranda elə bildim ki, Allah mənə yenidən ömür bəxş etdi. Sizin danışığınız mənə çox böyük təsir etdi. Mən hər yerdə bu barədə danışıram.

İşinizin çox olmasına baxmayaraq, vaxt tapıb müğənniyə – mənə zəng etməyinizlə elə bildim ki, dünyanı mənə bağışladınız. Mən Sizə

cansağlığı, uzun ömür arzulayıram. Dünyada nə qədər yaşamaq istəyirsinizsə, Allah onu Sizə bəxş eləsin. Allah mənim ömrümdən kəsib Sizə versin. Çox sağ olun.

Heydər Əliyev: Maşallah, yaxşısınız, gözəl qalmısınız, heç dəyişməmisiniz.

Tükəzban İsmayılova: Sizin kimi prezidenti olan qocalmaz. Çox sağ olun, təşəkkür edirəm.

Heydər Əliyev: Professor Abdulla Muxtarova «Şöhrət» ordenini təqdim edirəm.

Abdulla Muxtarov: Bu yüksək mükafat üçün Sizə dərin təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Tarixçi, professor Yaqub Mahmudova «Şöhrət» ordenini təqdim edirəm.

Yaqub Mahmudov: Öz dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab prezident!

Bu gün Azərbaycan ziyalılarına, bizim sənət adamlarımıza müstəqil Azərbaycanımızın ali mükafatlarının təqdim olunması çox əlamətdar bir hadisədir. Buna görə də Azərbaycanın ən yüksək ordenini Sizdən qəbul edərkən hədsiz həyəcan hissi keçiririk. Bunun müqabilində nə isə demək son dərəcə çətindir.

Amma mən bir neçə söz demək istəyirəm. Çünki Sizin bu gün müstəqilliyini qurduğunuz, yaratdığınız, qoruduğunuz, xilas etdiyiniz Azərbaycanda gələcəkdə yüz illərlə ölkəmizin yüksək mükafatları veriləcəkdir. Tarixçi alim kimi mən bu yüksək mükafatı, ali ordeni Sizdən qəbul edərkən bilirəm ki, onu Azərbaycanın prezidentindən, dövlətçiliyimizin xilaskarından, Azərbaycan millətinin fəxrindən qəbul edirəm.

Mən böyük qürur hissi keçirirəm ki, lap bu yaxın günlərdə planetimizin ən qüdrətli siyasətçiləri arasında sorğu aparılanda Siz Kembricdə Bioqrafik Araşdırmalar Mərkəzində «XX əsrin ən görkəmli dövlət xadimi» adına layiq görülmüsünüz. Bu, hər bir azərbaycanlı üçün, şəxsən məndən ötrü böyük bir fəxrdir.

Azərbaycanın bu yüksək ordenini, ali mükafatı bu gün Sizdən qəbul edərkən belə hesab edirəm ki, Siz bu ali mükafatı təkcə mənə deyil, 1950-ci, 1960-cı, 1970-ci illərdə şəxsən Sizin qoruduğunuz milli əhval-ruhiyyəli gənclərin – Siz onları məhv olmaqdan xilas etmisiniz, zülm dəyirmanının qarşısında dayanaraq onları müdrikliklə, son dərəcə ölçüb-biçərək, amma böyük cəsarətlə xilas edirdiniz, mən onların bir nümayəndəsiyəm – onların hər birini təltif edirsiniz.

Siz 1970-ci illərdə Azərbaycanı qaldırdınız. Azərbaycan geniş SSRİ məkanında ən qüdrətli respublikalardan birinə çevrildi. O böyük

məkanda azərbaycanlı başını qaldırıb qürurla gəzirdi. O zaman mən də qürur hissi keçirirdim ki, bu mənim Azərbaycanımın qeyrətli oğlunun sayəsindədir, onun xidmətlərinin nəticəsidir ki, Azərbaycan tanınır, xalqımız xalqlar içərisində öz imzasını tapa bilir. Bax, o zaman qürur hissi keçirən azərbaycanlılardan biri kimi, mən bu gün məmnuniyyətlə belə hesab edirəm ki, bu, həmin azərbaycanlıların hamısına verilən mükafatdır.

Nəhayət, Siz 1970-ci illərdə Azərbaycana rəhbərlik edərkən ziyalılarımızın böyük bir dəstəsini məhv olmaqdan xilas etdiniz. Siz tarixçiləri, sənət adamlarını o çox ağır şəraitdə xilas etdiniz, qoruyub saxladınız. Bizim ziyalı potensialımız yaşadı, onlar bu gün Sizin arxanızdadır. Belə hesab edirəm ki, bu mükafat onların hər birinə verilən mükafatdır.

Nəhayət, biz Azərbaycanda neçə il Sizsiz yaşadıq, ağır günlərimiz oldu. Mən cəbhə bölgələrini qarış-qarış gəzmişəm. Kərkicahanda, Xocalıda, Qubadlıda, Laçında gəncləri döyüşə ruhlandıranda hamı bir ağızdan deyirdi ki, bizi bu bəladan, fəlakətdən Heydər Əliyev xilas edəcəkdir, onu hakimiyyətə gətirin.

Ölkəmizdə dövlət çevrilişinə cəhdlər göstərilərkən mən Azərbaycanın bütün guşələrini gəzmişəm. Uzaq Zaqatalada, Şəkinin Göynük kəndində, Qaxda, Balakəndə, Lənkəranda, Füzulidə Azərbaycan dövlətçiliyindən söhbət düşəndə hamı əllərini açaraq tribunaya yaxınlaşıb deyirdi: «Tale Heydər Əliyevi yaşatsın, ona cansağlığı versin, bizi o xilas edəcəkdir».

Mənim sözümün mahiyyəti ondan ibarətdir ki, bu gün bizim hamımız dərindən-dərinə dərk edir ki, 1993-cü ildə Azərbaycan məhv olmaqda ikən, daşnakların arzularının yerinə yetməsi ərəfəsində, ölkəmiz parçalananda, xalqımız ayaq altında qalanda, dövlətçiliyimiz məhv olmaq təhlükəsi qarşısında qalanda bizim bir silahımız var idi: Heydər Əliyevin zəkası! O zəkanı bizə Allah-taala bəxş etmişdir. Təkcə o silahla bizim düşmənlərimiz – xalqımızı məhv etməyə çalışan zəhmli xarici düşmənlər də, daxildəki satqınlar da məğlubiyyətə uğradılar. Bu gün Azərbaycan yaşayır!

Düzünü deyim ki, mən həmişə bu salonda yüksək mükafatların təqdim olunması mərasimini izləyəndə daxilən narahatlıq keçirirəm. Bizim hər birimizə – Azərbaycanın ziyalılarına, dövlət adamlarına bu mükafatları Heydər Əlirza oğlu verir. Bəs onun mükafatı nə olmalıdır, ona kim mükafat verməlidir?

Möhtərəm prezident, mən belə hesab edirəm ki, bizim qurtuluş mübarizəmizin qalibi Siz oldunuz. Yəni Sizin kimi şəxsiyyətlərin mükafatla təltif edilməsinə fərmanı tarix verir. Tarix isə min illər üçün

Sizi Azərbaycan xalqının qurtuluş mücadiləsinin qalibi kimi yüksək fəxri adla təltif etmişdir. Siz bizim dövlətçiliyimizin xilaskarısınız. Siz bu gün Azərbaycan xalqını planetdə təmsil edirsiniz və xalqımız Sizin sayənizdə dövlətçiliyini qoruyub saxlayır. Mən belə hesab edirəm ki, Azərbaycan dövlətçiliyinin xilaskarı olmaq Azərbaycan üçün, dünyamız, planetimiz üçün ən böyük fəxri addır. Bütün bu adlara layiq olduğunuz üçün və xalqımız Sizi öz ürəyinin başına yazdığına görə Sizi qəlbən təbrik edirik, Sizə möhkəm cansağlığı arzulayırıq.

Cənab prezident, təyyarə meydanında Sizi qarşılayanlardan ən çox sevinənlərdən biri mən oldum. İndi həmişəki kimi millətlə baş-başa vermisiniz. Arzu edirik ki, millətimizi bir də belə sınağa çəkməyəsiniz. Sizə möhkəm cansağlığı arzulayıram. Sizə eşq olsun!

Heydər Əliyev: Xalq artisti, bəstəkar Süleyman Ələsgərova vətənin yüksək mükafatını təqdim edirəm.

Süleyman Ələsgərov: Möhtərəm prezidentimiz!

57 illik zəhmətimə, Azərbaycan milli musiqisinin inkişafında gördüyüm işlərə verdiyiniz qiymətə, mənə göndərdiyiniz məktubda yazdığınız ürək sözlərinə, telefon danışığımız zamanı dediyiniz qəlbdən gələn sözlərə və məni «Şöhrət» ordeni ilə təltif etdiyinizə görə Sizə minnətdaram. Xahiş edirəm mənim təşəkkürümü qəbul edin.

Mən hər gün düşünürəm, öz-özümə sual verirəm. Deyirəm, görəsən dünyada bizim hörmətli prezidentimiz qədər mədəniyyətimizin, musiqimizin ayrı-ayrı sahələrinə bu dərəcədə diqqət, qayğı göstərən ikinci bir dövlət başçısı varmı? Özüm də o saat cavab verirəm ki, xeyr, əsla yoxdur.

Yaşının bu ahıl vaxtında bir arzumu Sizə bildirmək istəyirəm. Mənim ən böyük arzum odur ki, torpaqlarımız düşməndən azad edilsin. Şüşamız qayıtsın. Biz Şuşada, Cıdır düzündə izdihamlı bir toplantı quraq və Siz orada çıxış edəsiniz. İştirakçıların hamısı bir ağızdan desin: Xalqımızın və vətənimizin xilaskarına eşq olsun! Möhtərəm prezident, yaşayın, çox yaşayın! Allah bizi bu arzularımıza çatdırsın!

Heydər Əliyev: Xalq rəssamı Oqtay Sadıqzadəyə «Şöhrət» ordenini təqdim edirəm.

Oqtay Sadıqzadə: Bu yüksək mükafat üçün səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Əziz dostlar!

Biz bu gün Beynəlxalq Qadınlar Günü bayramı ərəfəsindəyik. Bu, təkcə qadınların deyil, bütün cəmiyyətin bayramıdır, yəni kişilərin də bayramıdır. Əgər belə olmasaydı, 8 Mart günü heç də istirahət günü olmazdı. Qadınların bayramına görə bütün cəmiyyət, kişilər də istirahət edir, bayram edir.

Bu gün təltif olunanların arasında Azərbaycanın gözəl qadınları vardır. Onlar bizimlə bir yerdədirlər. Leyla xanım Bədirbəyli, Tükəzban xanım İsmayılova Azərbaycan mədəniyyətinin tarixidirlər. Ola bilər, mən onlarla bir yaşdayam, bəlkə də bir az yaşlıyam. Mən ən gənc vaxtlarımdan həm Leyla xanımın, həm də Tükəzban xanımın sənətinə vurulan adamlardan biriyəm. Mən xoşbəxtəm ki, Leyla xanım da, Tükəzban xanım da bu gün cəmiyyətdə fəal iştirak edirlər və nəhayət, müstəqil Azərbaycanın, dövlətimizin yüksək mükafatlarını alırlar.

Mən istəyirəm ki, hamımızın adından qadınları bir daha təbrik edim, onlara xoşbəxtlik, səadət arzulayım. Qadınların özlərinə, ailələrinə, balalarına, nəvələrinə, nəticələrinə – hamısına cansağlığı, sağlam həyat, xoş güzəran arzulayıram.

Sağ olun, sizin hamınızı Qadınlar bayramı münasibətilə bir daha təbrik edirəm.

GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVAYA HƏSR EDİLMİŞ «ZƏRİFƏ XANIM ƏLİYEVA» KİTAB-ALBOMUNUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ*

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı
14 aprel 1999-cu il

Hörmətli xanımlar və cənablar! Əziz dostlar!

Bu axşam biz burada birlikdə Zərifə xanım haqqında olan kitab-albomun təqdimat mərasimini, eyni zamanda bir xatirə gecəsini yaşadıq.

Bugünkü mərasim məni və ailə üzvlərimi bir daha on dörd il bundan öncə olan günlərə, aylara qaytardı. Nə qədər çox il keçsə də, bizim ailəmiz bu itkinin ağrısını-acısını həmişə hiss edir. Hesab edirəm ki, nəinki biz, mənim nəvələrim də, onların davamçıları da bu hisslərlə yaşayacaq və bizim hamımız üçün əziz, unudulmaz Zərifə xanım həmişə qəlbimizdə yaşayacaqdır.

Zərifə xanım haqqındakı kitab onun şəxsiyyətinə, həyat yoluna, insani keyfiyyətlərinə, mənəviyyatına layiq bir kitabdır. Bu kitabı hazırlayanlara, çapdan çıxaranlara təşəkkür edirəm.

Bugünkü gecə bizim üçün çox təsirlidir, eyni zamanda olduqca maraqlıdır. Bu gecənin hazırlanması böyük incəsənət, mədəniyyət nümunəsidir. Bunun hazırlanması böyük istedad tələb edir. Bu gün biz bu istedadların şahidi olduq. Gecəni hazırlayanlara və proqramı aparanlara, burada çıxış edənlərin hamısına təşəkkür edirəm.

Bu gün buraya bizim yaxın qohumlarımız, bunlarla bərabər, dostlarımız, xarici ölkələrin Azərbaycandakı səfirləri, elm, mədəniyyət xadimləri, vaxtilə Zərifə xanımla bir yerdə çalışmış, uzun illər dostluq etmiş çox dəyərli insanlar dəvət olunublar. Bu gecədə iştirakınıza görə mən sizin hamınıza təşəkkür edirəm.

Gecənin proqramı xatirə anlayışına uyğundur. Ona görə də bu, qəmli-kədərli bir gecəyə çevrildi. Bəlkə də biz bu hissiyyatları yaşamağımızdan da məmnunuq. Eyni zamanda, hörmətli dostlarımız, qonaqlarımız, bu hissiyyatlarımızı siz bizimlə bərabər yaşadınız. Bunlara görə, bugünkü gecədə iştirak etdiyinizə görə hamınıza təşəkkür edirəm.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirminci kitab. B., Azərnəşr, 2007, s. 5-6

Bu gün burada dəfələrlə qeyd olundu ki, Zərifə xanımın ən gözəl xüsusiyyətlərindən biri o idi ki, o, həyatda çox nikbin, şən idi. İnsanlarla çox mehriban münasibətdə olmaq onun üçün əsas şərt idi. O, insanları sevirdi, insanlar da onu sevirdilər. Ona görə də mən bu gecəni bir növ dostluq, birlik gecəsi adlandırıram. Bu, Zərifə xanımın xatirəsinə ən dəyərli bir abidədir. Bu gecədə nə qədər təsirləndinizsə, eyni zamanda mən istəyirəm ki, buranı tərk edərkən şad əhval-ruhiyyədə dağılışasınız.

Sizin hamınıza cansağlığı, həyatınızda səadət, xoşbəxtlik, hər birinizə işlərinizdə uğurlar arzulayıram. Bir daha hamınıza təşəkkür edirəm. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN ELMİ TƏDQİQAT AĞ CİYƏR XƏSTƏLİKLƏRİ İNSTİTUTU BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ*

26 iyun 1999-cu il

Hörmətli xanımlar və cənablar! Hörmətli dostlar!

Mən sizi – Azərbaycan səhiyyəsinin nümayəndələrini səmimi-qəlbdən salamlayıram və sizinlə bu görüşümə görə çox şad olduğumu bildirirəm.

Həkimlik sənəti dövri-qədimdən şərəfli sənət olmuşdur, hörmətli sənət olmuşdur. Həkimlik sənəti indi də ən şərəfli, ən hörmətli sənətlərdən biridir. Mən hesab edirəm ki, dünyada heç bir sənət tapa bilməzsən ki, o, həkimlik kimi hər bir insana lazım olsun. Biz mütəxəssislərin, alimlərin, mühəndislərin gördükləri böyük işi qiymətləndiririk. Müəllimlərin işini qiymətləndiririk, çünki təhsil verir, bizim gənc nəsli yetişdirir. Kənd təsərrüfatında çalışanları qiymətləndiririk, xidmət sahəsində çalışanları qiymətləndiririk. Bunların hamısı, şübhəsiz ki, hər bir cəmiyyətin inkişafını təmin edən sahələrdir. Cəmiyyət də insanlardan ibarətdir. İnsanların isə yaşayışı üçün, sağlamlığı üçün bütün başqa vasitələrlə bərabər, ən çox həkim yardımı lazımdır, səhiyyə yardımı lazımdır.

Yəqin ki, dünyada elə bir insan tapmaq olmaz ki, o, həkim yardımından istifadə etməsin. Uşaq doğularkən onun dünyaya gəlməsini həkim təmin edir və ilk günləri həkimin nəzarəti altında keçir. İnsanlar yaşbayaş artarkən daim həkimin yardımına ehtiyacı olur və nəhayət, insanlar yaşa dolduqca həkimə daha da çox ehtiyacı olur. Amma həkim, səhiyyə təkcə insanları müalicə etmək üçün yox, həm də xəstəliklərin qarşısını almaq, geniş profilaktik iş aparmaq üçündür. Elə etmək ki, insanlar xəstələnməsinlər, insanlar, xəstələr tezliklə müalicə olunsunlar. Bu da böyük bir sahədir. Səhiyyə həddindən artıq geniş, həyatın bütün sahələrini əhatə edən və cəmiyyət üçün, dövlət üçün, hər bir insan üçün çox lazımlı bir sahədir. Ona görə də hər bir insan həkimə hörmət edir, səhiyyə işçisinə hörmət edir. Həkimlər də insanlara tibbi yardım göstərməklə, onları müalicə etməklə özlərinə böyük mənəvi hörmət, ehtiram qazanırlar.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirminci kitab. B., Azərnəşr, 2007, s. 375-382

Mən həkimi çox sevirəm, səhiyyəni çox sevirəm. Deyə bilərəm ki, mən sizlərin dostuyam. Siz isə mənim bir nömrəli dostumsunuz. Ona görə yox ki, mənim həkimə çox ehtiyacım olubdur. Allah mənə elə bir səhhət veribdir ki, demək olar, 1987-ci ilə qədər mənim heç vaxt heç bir həkimə ehtiyacım olmayıbdır.

O vaxt Moskvada xəstələndim. O xəstəlik keçdi və ondan sonrakı dövrdə, xüsusən 1990-cı ildə mən Azərbaycana qayıdandan bu ilə qədər heç bir həkimlə əlaqəm olmayıbdır, heç bir həkim yardımına ehtiyacım olmayıbdır. Yəni şəxsi nöqteyi-nəzərdən götürsək, mənim fikirlərim şəxsi əhəmiyyət daşımır. Mən sadəcə, uzun illər Azərbaycana rəhbərlik etdiyimə görə, sonra Moskvada Sovetlər İttifaqının rəhbərlərindən biri olduğuma görə və cəmiyyətin qayğısına qaldığıma görə cəmiyyət üçün həkimin, səhiyyənin nə qədər əhəmiyyətli olduğunu bildiyimə görə də həkimləri sevirəm və həkimləri özümə birinci nömrəli dost hesab edirəm.

Siz bilirsiniz ki, mən aprel ayının axırında Amerikada Klivlend klinikasında qəlb cərrahiyyə əməliyyatı keçirmişəm. Orada mən bir daha şahid oldum, gördüm, dərk etdim ki, tibb elmi, tibb texnologiyası, tibb yardımı nə qədər böyük nailiyyətlər əldə edibdir. Azərbaycana dönəndən sonra demək olar ki, bu, mənim ilk kütləvi görüşümdür və bu da sizinlədir, səhiyyə işçiləri ilə, həkimlərlədir.

Azərbaycanın səhiyyəsi bütün keçmiş Sovetlər İttifaqı respublikalarının səhiyyəsi kimi indi ağır bir dövr yaşayır. Bunu siz də bilirsiniz, biz də bilirik və heç kəs bunu inkar edə bilməz. Ancaq bir səhiyyə deyil, bütün cəmiyyətimiz ağır bir dövr yaşayır, keçid dövrünü yaşayır.

Burada dediniz və çox demək olar ki, keçmiş zamanlarda, – məsələn, mən özüm haqqımda, öz dövrüm haqqında demək istəyirəm, – 1969-cu ildə mən Azərbaycana başçı seçiləndən sonra Azərbaycanda səhiyyənin inkişafı üçün nə qədər vəsait qoyulubdur, nə qədər kadrlar hazırlanıbdır, nə qədər xəstəxanalar, binalar tikilibdir. Həddindən artıq! Azərbaycan çarpayıların sayına görə çox-çox ölkələrdən irəlidir. Bunlar hamısı o illərin nailiyyətidir. O illərin ən böyük nailiyyəti isə ondan ibarətdir ki, Azərbaycanda güclü səhiyyə kadrları yaranıbdır, həkim ordusu yaranıbdır, tibb elmini inkişaf etdirən alimlərimiz yaranıbdır. Biz bununla fəxr edirik. Bu, bizim milli sərvətimizdir. Əgər bunlar olmasaydı, bizim cəmiyyətimiz indi yaşaya bilməzdi. O illər, sovet hakimiyyəti dövründə səhiyyəyə çox vəsait ayrılırdı və biz də Azərbaycanda bu vəsaitdən səmərəli istifadə edirdik, ilbəil səhiyyə sahəsini genişləndirirdik. Ancaq Sovetlər İttifaqı dağılandan sonra, hər bir respublika müstəqillik alandan sonra biz yeni bir iqtisadi-siyasi sistemə keçirik və artıq keçmişik. İndi təsəvvür edin, bir sistem dağılıb, yeni bir sistem qururuq. Şübhəsiz ki, bu

dövr ağır dövrdür, cəmiyyət üçün, dövlət üçün ağır dövrdür, hər insan üçün ağır dövrdür. O cümlədən səhiyyə üçün də ağır dövrdür.

Məlumdur ki, indi səhiyyəyə biz 70-80-ci illərdə olduğu kimi vəsait ayıra bilmirik. Bunlar hamısı məlumdur. Amma bunu da təbii qəbul etmək lazımdır. Biz o sistemdən imtina etdik, onu dağıtdıq. Müstəqil olmaq istədik və müstəqil olmuşuq. Azad olmaq istədik, azad olmuşuq. Özümüzün azad, müstəqil dövlətimizi qururuq. Mümkün deyil ki, bu elə asan olsun ki, oradan tullandın, keçdin bura. Bu, ola bilməz. Bu mümkün deyildir. Bu, hər sahəyə toxunur, hər sahədə çətinliklər yaradıbdır. O cümlədən, səhiyyə sahəsində. Hamımız birlikdə bu ağır, çətin dövrü yaşamalıyıq, keçməliyik və mən sizə bildirmək istəyirəm ki, bu dövrün ömrü uzun deyildir.

Azərbaycanın iqtisadiyyatı uzunmüddətli tənəzzüldən sonra son üç-dörd ildə inkişafa başlayıbdır. Biz Azərbaycanda bazar iqtisadiyyatı sistemi yaradırıq. Təsəvvür edin, inkişaf etmiş kapitalist ölkələrində bazar iqtisadiyyatı sistemi on illərlə yaranıbdır. Bəzi kapitalist ölkələrində hələ indi də özəlləşdirmə prosesi gedir.

Bizim qardaş, dost Türkiyəni götürün. Mən son vaxt Türkiyədə bir az istirahət edirdim. Çox adamlarla söhbət edirdim. Yeni hökumət qurulubdur. İndi yeni hökumət mübahisə aparır ki, özəlləşdirməni nə cür aparaq – bu cür aparaq, ya başqa cür aparaq. Mən dedim, əcəba, hələ siz də ölkənizin iqtisadiyyatını indiyə qədər özəlləşdirməmisiniz. Bu, o deməkdir ki, bu proses ağır, çətin prosesdir. Amma biz bu yol ilə gedirik və sizə deyə bilərəm ki, uğurla gedirik. Hər halda, onu bilməyiniz lazımdır ki, keçmiş Sovetlər İttifaqına mənsub olmuş, indi Müstəqil Dövlətlər Birliyinin daxilində olan respublikaların içərisində Azərbaycanın iqtisadiyyatı, iqtisadi vəziyyəti hamısından üstündür. Mən deyə bilərəm ki, bu, bizi təmin edir. Yox. Bəli, bizim çətinliklərimiz vardır. Cəmiyyətdə təbəqələşmə gedir. Kasıb vəziyyətdə, ağır vəziyyətdə yaşayan insanlar vardır. Biz onlara kömək etməliyik. Amma bunun üçün gərək biz iqtisadi islahatları sürətlə həyata keçirək, o iqtisadi islahatların həyata keçirilməsindən daha da çox gəlir əldə edək və bunun nəticəsində də əhalinin bütün təbəqələrinin rifah halının yaxşılaşdırılmasına nail olaq. Bu yol belə yoldur. Başqa yol yoxdur. Amma bir şeyi bilməlisiniz ki, bu yol uğurlu yoldur. Biz bu yol ilə gedəcəyik və Azərbaycanın iqtisadiyyatı yaxın bir neçə ildə daha da sürətlə inkişaf edəcəkdir. İnsanların rifah halı yaxşılaşacaq və səhiyyənin də vəziyyəti daha da yaxşılaşacaqdır.

Səhiyyədə islahatlar aparılır. Bu da təbiidir. Apardığımız islahatların əsas məqsədləri, əsas mənası bundan ibarətdir ki, biz sosial ədalətli cəmiyyət qurmaq istəyirik. Bütün islahatlar sosial yönümlü olmalıdır,

sosial ədaləti təmin etməlidir. Bu, asan məsələ deyildir. Amma bilin, bu, bizim qarşımızda olan strateji vəzifədir və biz özəlləşdirməni həyata keçirərək, torpaq islahatı keçirərək, başqa iqtisadi islahatları keçirərək, xarici ticarəti liberallaşdıraraq, ümumiyyətlə, iqtisadiyyatda liberallaşdırmanı daha da sürətlə yayaraq bir şeyi heç vaxt unutmamışıq və unutmayacağıq: sosial vəziyyət, sosial ədalət və bütün bu görülən işlərin sosial yönümü. Ona görə də biz bu işlərin hamısını birlikdə, kompleks şəklində apararaq, şübhəsiz ki, cəmiyyəti ilbəil, aybaay daha da yaxşı vəziyyətə gətirəcəyik.

Sizin səhiyyə sistemindəki islahatlar da sürətlə getməlidir. İndi dünyanın hər yerində səhiyyə əksərən pulludur, ödənişlidir. Siz bu islahatlarla buna keçirsiniz. Burada Səhiyyə naziri dedi ki, 47 milyard manat qazanmısınız. Bu lazımdır. Bunu etmək lazımdır.

Yenə də deyirəm, məsələn, bizim qardaş Türkiyəni götürün. Bu yaxın günlərdə mən oradaydım. Orada səhiyyə xidmətində pullu xidmət də var, eyni zamanda pulsuz xidmət də vardır. Azərbaycan da bu yol ilə getməlidir. Pullu xidmətdən qazanılan vəsaitin bir qismi səhiyyənin o biri sahəsinin yaşamasına, inkişaf etməsinə yönəldilməlidir.

Bu islahatlar haqqında mən daha geniş danışmaq istəmirəm. Onu bildirmək istəyirəm ki, hər yerdə, hər sahədə olduğu kimi, səhiyyədə də islahatlar həyata keçirilməlidir. Bu labüddür və o yerlərdə ki, islahatlar həyata keçirilib, o yerlərdə ki, doğru, düzgün, ədalətli səhiyyə xidməti – həm pullu xidmət, həm pulsuz xidmət – təmin olunubdur, o yerlərdə işlər daha da yaxşı gedir. Ancaq mən etiraf edirəm ki, biz səhiyyəyə əvvəlki kimi vəsait ayıra bilmirik.

Mən bildirmək istəyirəm ki, səhiyyənin işində çox nöqsanlar da var, çox çatışmazlıqlar vardır. Bunu da anlayın. Səhiyyənin bugünkü vəziyyəti təkcə bu keçid dövrünün xüsusiyyətləri ilə bağlı deyildir. Bu, eyni zamanda ayrı-ayrı səhiyyə ocaqlarına rəhbərlik edən insanların işlərində buraxdıqları səhvlər, yaxud da vəzifəsindən sui-istifadə etməsi, yaxud da, təəssüflər olsun ki, dövlət əmlakını mənimsəməsi, rüşvətxorluqla məşğul olması nəticəsində olur. Demək, vəzifə nədən ibarətdir? Bir tərəfdən islahatları həyata keçirmək, ikinci tərəfdən isə səhiyyədə olan nöqsanları aradan götürmək. Nöqsanlar var, çoxdur. Bu gün mən sizin üzünüzə dik baxaraq deyirəm və heç kəs də düşünməsin ki, hər şey nöqsansızdır. Mən bunu nazirə də deyirəm, xəstəxana müdirinə də deyirəm, poliklinika müdirinə də deyirəm. Nöqsanlar çoxdur. Elə şeylər var ki, onları mövcud imkanlar vasitəsilə daha da yaxşı həll etmək olar. Amma həll edə bilmirlər, həll etmirlər. Nə üçün? Səhlənkarlıq edirlər. Nə üçün? Vəzifələrindən sui-istifadə edirlər. Nə üçün? Başqa-başqa pis yol-

lara gedirlər. Mən arzu edərdim ki, səhiyyə bizim üçün əziz, qiymətli bir sahə olduğuna görə, səhiyyədə hər şey təmiz olsun, hər şey pak olsun.

Bilirsiniz ki, orduda and vardır. Orduya gedən hər bir şəxs vətənə sədaqətlə xidmət edəcəyinə and içir. Bir də həkimlərdə Hippokrat andı vardır. Mən bunu 70-80-ci illərdə dəfələrlə demişəm, – Hippokrat andını içib ona xəyanət etmək olmaz.

Mən Azərbaycanda əvvəllər işlədiyim zaman da səhiyyə ilə çox məşğul olmuşam və bilirsiniz ki, mən Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü olduğum zaman bütün Sovetlər İttifaqının səhiyyə sistemi – Səhiyyə Nazirliyi və səhiyyə ilə əlaqədar olan başqa nazirliklər bilavasitə mənə tabe idi. Ona görə də beş il orada işlədiyim zaman Azərbaycan çərçivəsindən çıxıb bütün Sovetlər İttifaqında həm səhiyyənin, həm tibb elminin və səhiyyənin başqa sahələrinin vəziyyətini öyrənmişəm, bilirəm. Bu səhvlər, qüsurlar keçmişdə də, indi də təkcə Azərbaycanda deyil, başqa yerlərdə də çox olubdur. Mən bunları görmüşəm. O vaxt orada, Sovetlər Birliyinin başında olarkən də mən bu nöqsanlarla, bu qüsurlarla dəfələrlə mübarizə aparmışam.

Bu gün də sizə deyirəm, gəlin bu çətinliklərə dözək, ancaq imkanlardan hər bir sahənin inkişafı üçün, yaxşı işləməsi üçün səmərəli istifadə edək. Nə qədər çətin olsa da, şərəfi itirməyək, nə qədər çətin olsa da, Hippokrat andını ləkələməyək. Vəzifə bundan ibarətdir. Mən sizə bunları arzu edirəm.

Bu gün bir daha bildirmək istəyirəm ki, dövlət, hökumət bütün imkanlardan istifadə edib səhiyyənin inkişafı üçün əlavə tədbirlər görəcəkdir. Biz xaricdən kreditlər alırıq, qrantlar alırıq. Elə bu tibb ocağının bu səviyyəyə çatması da, artıq burada deyildi ki, Yaponiyadan alınmış qrantın nəticəsidir. Başqa şeylər də vardır. Bunların hamısından istifadə edəcəyik. Bunu edəcəyik. Amma hər bir səhiyyə işçisi, hər bir həkim öz sənətinə sadiq olmalıdır, öz şərəfini qorumalıdır. Şərəfdən yüksək heç bir şey yoxdur, Qalan şeylər gəldi-gedərdir. İnsan ləyaqəti, insan şərəfi, insan mənəviyyatı hər şeydən üstündür.

Bu gün biz buraya ağ ciyər xəstəlikləri klinikasının modernləşəndən, təmirdən sonra açılışma toplaşmışıq. Ancaq mən bu fürsətdən istifadə edib, qəlbimdə olan bəzi sözləri sizə çatdırmağı lazım bildim. O ki qaldı bu klinikaya, şübhəsiz ki, mənə verilən məlumatlara görə o, müasir tələblərə cavab verən bir klinikadır. Mən çox arzu edərdim ki, bu qurulan, yaradılan klinikadan elə istifadə olunsun ki, bütün başqa səhiyyə müəssisələrinə, ocaqlarına nümunə olsun. Hər bir şeydə nümunə lazımdır və nümunənin əsasında başqalarını da o nümunənin səviyyəsinə çatdırmaq olar. Mən arzu edərdim ki, bu, nümunə olsun.

Mən sizi bugünkü bu hadisə münasibətilə, ağ ciyər xəstəlikləri klinikasının, yenidən yaranmış klinikanın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu klinikada çalışacaq, yaxud çalışan insanların hamısına yeni-yeni uğurlar arzu edirəm. Ümidvaram ki, yeni klinika Azərbaycanda ağ ciyər xəstəliyinin səmərəli müalicəsini təmin edəcək və ən əsası – o xəstəliyin qarşısını almaq üçün profilaktika işləri aparacaqdır. Çünki bütün təbabətdə, tibdə profilaktika müalicədən həmişə vacibdir. Biz nə qədər çox xəstəliyin qarşısını ala bilsək, profilaktika tədbirlərini həyata keçirə bilsək, o qədər də cəmiyyətimiz daha da sağlam olacaqdır.

Mən bu kollektivə uğurlar arzulayıram. Eyni zamanda sizin hamınıza, buraya toplaşmış bütün səhiyyə işçilərinə cansağlığı, səadət arzu edirəm. Mən çox məmnunam ki, bu gün sizinlə görüşürəm. Sizin hər birinizə öz işinizdə yeni-yeni uğurlar, ailənizdə səadət arzulayıram. Sağ olun!

AZƏRBAYCANIN TƏHSİL İŞÇİLƏRİ VƏ BU İL ALİ MƏKTƏBLƏRƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ NİTQ*

Prezident sarayı
31 avqust 1999-cu il

Əziz dostlar!

Bu gün bizim bu görüşümüz başlanarkən tələbələr və salonda olan bəzi şəxslər Azərbaycanın dövlət himnini oxudular. Bu, çox sevindirici haldır. Biz hələ bir neçə il bundan öncə Azərbaycanın dövlət himninin bütün məktəblərdə, universitetlərdə, digər təhsil ocaqlarında öyrənilməsi və daim oxunması haqqında öz qərarımızı vermişdik. Təbiidir, keçmişimizə baxanda bu, o qədər də asan deyildir, qeyri-adi haldır. Çünki bizim yaşadığımız keçmiş illərdə Azərbaycanın himni – onun musiqisi də, sözləri də olubdur, bu himnin musiqisini bəzi təntənəli mərasimlərdə eşitmişik. Amma təəssüf olsun ki, sözlərini heç vaxt eşitməmişdik. Çünki himn oxumaq adəti yox idi. Bir də ki, biz elə bir ölkədə yaşayırdıq ki, iki himn var idi – onun biri Sovet İttifaqının, digəri Azərbaycanın himni idi. Ona görə də birini oxuyub, o birisini oxumasaydın mümkün olmazdı. Onların ikisini də oxumaq yəqin ki, ağır olardı. Amma səbəb təkcə bundan ibarət deyildi. Əsas səbəb ondan ibarət idi ki, o dövrdə himn formal xarakter daşıyırdı. Formal xarakter daşıdığına görə də himn hər bir vətəndaşın, hər bir insanın qəlbinə daxil olmamışdı. Bu, keçmiş dövlət quruculuğunun çatışmazlığı, nöqsanı idi. Ancaq bu, meydana gələn təbii hadisə idi.

Azərbaycan müstəqil dövlət kimi müstəqilliyinin bütün elementlərini, atributlarını inkişaf, təsbit etdirməli, onu insanların şüuruna yeritməlidir. İnsan öz gəncliyindən vətənini, bayrağını, millətini, himnini sevməlidir. Sevmək üçün də bunu bilməlidir.

Mən bu gün bildirmək istəyirəm ki, 1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz qanunla istifadə etdiyimiz dövlət himnidir və bir də Azərbaycanın dövlət bayrağıdır.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi birinci kitab. B., Azərnəşr, 2007, s.243-260

O vaxt vətənpərvər insanlar bu sahədə gözəl iş görmüşlər. Himnimizin sözləri də – indi o dövrdən 80 il keçib – bu gün bizim üçün doğmadır və həqiqətən Azərbaycanın müstəqilliyini, müstəqil dövlət olmağını nümayiş etdirir. Onun musiqisi də Azərbaycan musiqisidir, eyni zamanda çox əzəmətli musiqidir.

Bizim ölkəmizin vətəndaşlarının bəlkə də hamısı bunu istənilən səviyyədə dərk edə bilməyibdir. Ancaq mən xarici ölkələrdə ziyarətlərdə olarkən, Azərbaycanın və həmin dövlətin himni çalınarkən çox böyük qürur hissi keçirirəm. Həmin ziyarətlərimdə məndə bəlkə də ən yüksək əhval-ruhiyyə yaradan Azərbaycanın bayrağı altında Azərbaycanın himninin çalınmasıdır. Onu da deyə bilərəm ki, bəzi dövlət başçıları sonrakı söhbətlərdə etiraf ediblər ki, sizin himninizin musiqisi çox gözəldir, bayrağınız da gözəldir. Bu, həqiqətən belədir.

Doğrudur, Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra bəziləri hesab edirdilər ki, yeni bir himn yaratmaq, onun sözlərini dəyişdirmək lazımdır. Mən hesab edirəm ki, əgər kim bunu yaratmaq, onun sözlərini dəyişdirmək istəsə, bundan yaxşısını edə bilməzdi. Bəlkə də bundan aşağı səviyyədə olardı. Ona görə də biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.

Sevindirici haldır ki, indi təhsil ocaqlarında, məktəblərdə himni öyrənirlər, oxuyurlar və bu gün onu nümayiş etdirdilər. Ancaq bu, işin hələ başlanğıcıdır və azdır. Hər bir vətəndaş, nəinki tələbə, müəllim də, professor da, alim də, nazir də, prezident də – hamımız birlikdə gərək öz himnimizi yaxşı bilək, onu yaxşı ifa etməyi də bacaraq və onu həmişə sevək. Mən bu arzularımı sizə bildirmək istəyirəm.

Güman edirəm ki, bu iş ali məktəblərdə davam edəcək, gələn görüşümüzdə təkcə bu salonun sağında duran tələbələrin himn oxumasının yox, bütün salonda ayağa durmuş adamların himn oxumasının şahidi olacağıq. Bunu da edək.

Mən də hesab edirəm ki, bizim bugünkü görüşümüz çox əhəmiyyətlidir. Çünki biz Azərbaycan təhsilinin bu gün hansı səviyyədə olduğunu bir daha müşahidə etdik və ötən illərdə Azərbaycan təhsilinin inkişaf mərhələlərini bir daha xatırladıq, yeni dərs ilinə hazırlıq işləri ilə tanış olduq.

Hesab edirəm ki, verilən məlumatlar bizdə, güman edirəm, Azərbaycan ictimaiyyətində də bu barədə yetərli qədər təəssürat yaradır və yaradacaqdır. Son illər müstəqil Azərbaycan dövlətində təhsil sahəsində həqiqətən xeyli işlər görülübdür. Eyni zamanda, biz hamımız yaxşı bilirik ki, Azərbaycanda təhsil – orta, ali təhsil on illərlə sürətlə inkişaf edibdir.

Ali təhsilin əsasını qoyan, 1919-cu ildə yaranmış Bakı Dövlət Universiteti ondan sonra Azərbaycanda çoxlu ali məktəb yaranmasına yol açmışdır. Məmnuniyyət hissi ilə deyə bilərik ki, bizim ölkəmizdə ötən dövrlərdə vətəndaşlarımızın, yəni uşaqlarımızın, gənclərimizin bütün sahələrdə təhsil, ali təhsil alması üçün imkanlar yaranmışdır. Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, 1920-ci illərdən başlayaraq Azərbaycanda xalqın təhsillənməsi, savadsızlığın ləğv edilməsi, uşaqların icbari olaraq məktəbə cəlb olunması və təhsilin inkişaf etdirilməsi prosesi sürətlə həyata keçirilibdir. Bütün bunların nəticəsində biz indi, öz dövlət müstəqilliyimizi yenidən əldə etdiyimiz bir zaman Azərbaycan həm ali və orta təhsilin maddi-texniki bazası nöqteyi-nəzərindən, həm təhsili təmin etmək üçün yaranmış yüksək səviyyəli müəllim, professor kadrları nöqteyi-nəzərindən, həm də ümumiyyətlə, həyatımızı inkişaf etdirə bilən elmi potensialımız nöqteyi-nəzərindən böyük təhsil potensialına malikdir.

Bunlar hamısı bizim keçmiş dövrün nailiyyətləridir və Azərbaycan əsrin sonunda dövlət müstəqilliyini əldə etdiyi zaman bizim üçün çox yararlı bir amildir. Biz bununla fəxr edə bilərik, onu heç vaxt unutmamalıyıq. Bizim hamımız həmin o illərdə Azərbaycanda mövcud olmuş yüksək təhsilin yetişdirmələriyik. Bizim hamımız Azərbaycanda ilbəil artan və genişlənən məktəblərin, ali məktəblərin məzunlarıyıq. Biz bunlara görə müəllimlərimizə təşəkkürümüzü bildirməliyik, onlara minnətdar olmalıyıq. Biz buna görə Azərbaycan məktəbinə minnətdar olmalıyıq.

Beləliklə, XX əsrdə sözün geniş mənasında ölkəmizdə Azərbaycan məktəbi yaranıbdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranıbdır. Bu, ən böyük nailiyyətlərimizdən biridir. İqtisadiyyat da, həyatın başqa sahələri də bunun üzərindədir. Əgər bizim yüksək səviyyəli məktəbimiz olmasaydı, əgər bütün gənclər, uşaqlar icbari təhsilə cəlb edilməsəydi, əgər ilbəil yüksək səviyyəli müəllim, professor kadrları hazırlanmasaydı, əgər elmimiz inkişaf etməsəydi, biz indi nə bu iqtisadi potensiala, nə elmi potensiala, nə sosial potensiala, nə də təhsil potensialına malik ola bilməzdik. Ona görə də bunları unutmaq olmaz və onları qiymətləndirmək, onlarla fəxr etmək lazımdır.

Məhz Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bunun əsasında təhsil sistemini inkişaf etdirməyə başlayıbdır. Doğrudur, müstəqillik əldə olunan zaman və onun ilk illərində Azərbaycanın təhsilində çox bərbad vəziyyət var idi. Bu bərbad vəziyyət də 1988-1989-cu illərdən Azərbaycanda yaranmış çox mənfi ictimai-siyasi, gərgin daxili vəziyyətin nəticəsində idi. Bütün bunlar hamısı Azərbaycanın məktəblərinə, təhsil sisteminə çox mənfi təsirini göstərmişdi. Azərbaycan

dövlət müstəqilliyini əldə edəndən sonra isə birinci mərhələdə, yeni dövrdə, yəni müstəqil dövlət çərçivəsində təhsilin inkişaf etdirilməsi istiqamətlərini tapmaq ya mümkün olmamışdı, yaxud da bu sahədə çoxlu səhvlər buraxılmışdı. Ancaq ondan sonrakı dövrdə, son 4-5 ildə Azərbaycanın təhsil sistemində keçmiş ənənələrdən, nailiyyətlərdən, böyük potensialdan istifadə edərək təhsil sistemini yeni tələblərə uyğunlaşdırmaq, islahatlar həyata keçirmək işi başlanmışdır və bunlar da öz müsbət nəticəsini verir.

Son illərdə bizim əldə etdiyimiz ən böyük nailiyyət Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunması, ölkəmizin daxilində hərc-mərcliyə, dərəbəyliyə, özbaşınalığa, hakimiyyətsizliyə son qoyulması idi. Bu, Azərbaycanın həyatının bütün sahələrində canlanmaya, inkişafa təminat yaratdı. Bu, ümumiyyətlə, respublikamızın inkişafını təmin etdi. Məhz bu baxımdan, ona görə də təhsil sistemi öz inkişafını yenə də ardıcıl surətdə təmin edə bildi.

Təsəvvür edin, indi 8 milyona yaxın əhalimizin 2 milyonu oxuyanlar, təhsil alanlar, öyrədənlər – müəllimlər, təhsil verənlərdir. Bu 2 milyon bütün əhalinin dörddə bir hissəsidir. Mən deyə bilərəm ki, bu, nə qədər böyük, vacib bir sahədir, xalqımızın bir günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir.

Ona görə də dövlət tərəfindən bu sahəyə diqqət, qayğı günügündən artır, artacaqdır və artmalıdır. Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır. Biz bu yolla gedirik. Əmin ola bilərsiniz ki, bu yolla da gedəcəyik. Ancaq bu, asan yol deyildir. Ona görə yox ki, biz bunu bacarmırıq. Yox. Biz bunu bacarırıq, artıq öyrənmişik, yəni bunu elə əvvəldən də bilirdik. Amma yeni şəraitdə yeni sistemi də qurmağı öyrənmişik. Ancaq bunun həyata keçirilməsi bir çox amillərlə, o cümlədən vəsaitlə, maddi-texniki bazanın yaradılması ilə və başqa amillərlə bağlıdır.

Mən onu demək istəyirəm ki, əgər biz təhsil sistemində öz arzularımızı istədiyimiz qədər yerinə yetirə bilmiriksə, bu ona görə deyil ki, dövlət, hökumət bunu istəmir. Ona görədir ki, biz imkanlarımızın çərçivəsindən kənara çıxa bilmirik. Bilməlisiniz ki, biz bu imkanlarımızı ilbəil genişləndiririk və genişləndirəcəyik. Mən buna yüz faiz inanıram, ona əminəm. Bunların hamısı təhsilin inkişafında öz əksini tapacaqdır.

İndi həyatımızın bütün sahələrində islahatlar həyata keçirilir. Bu islahatlar zəruridir. Onlar ölkəmizdə dövlət quruculuğunun bütün sahələrində gedir. Biz müstəqil dövlət kimi yaşayır, müstəqil dövlətimizi

qurur və hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesini həyata keçiririk.

Bu gün biz iftixar hissi ilə deyə bilərik, – bir-iki aydan sonra 8 il tamam olacaqdır ki, Azərbaycan öz dövlət müstəqilliyini elan, bərpa edibdir. Bu, az bir zamandır. Bu müddət Azərbaycan üçün və başqa ölkələr üçün daha da çətin, mürəkkəb, daha da ağır bir zaman olubdur. Bunlar sizə məlumdur. Ancaq buna baxmayaraq, ən əsas nailiyyət ondan ibarətdir ki, biz müstəqilliyimizi müdafiə etdik, qoruduq, möhkəmləndirdik, inkişaf etdirdik və müstəqilliyimizi əbədi etdik.

Bu, ən əsas nailiyyətdir. Onun içində isə çox böyük işlər vardır. Bunlar Azərbaycanın həyatının bütün sahələrində yeni sistemdə yaşamaq üçün islahatlar aparmaqdan ibarətdir. Bu islahatlar aparılır, onlar günügündən öz nəticələrini verir. Xüsusən, sosial-iqtisadi sahədə apardığımız islahatlar öz nəticəsini verir. Ölkəmizin iqtisadiyyatı tənəzzül dövründən keçdi, hazırda inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir. İqtisadiyyatın inkişaf etməsi həm xalqımızın rifah halının yaxşılaşdırılmasını, həm də təhsil sahəsinə ardıcıl olaraq, ilbəil daha da çox vəsait ayrılmasını təmin edəcəkdir.

Təhsilin özündə aparılan islahatlar çox vacibdir. Siz onları aparırsınız. Bugünkü çıxışlarda bu barədə məlumatlar verildi. Mənim sizə tövsiyəm ondan ibarət olar ki, islahatları düşünülmüş qaydada aparasınız, formalizmə, konyunkturaya yol verməyəsiniz, Azərbaycanın milli ənənələrinin üstündən keçməyəsiniz. Bunlar həqiqətən həm Azərbaycan təhsilini dünyanın inkişaf etmiş ölkələrinin təhsil səviyyəsinə ardıcıl surətdə çatdırsın, həm də burada səhvlər buraxılmasın, mövcud yaxşı işlər pozulmasın.

Nəsə qurub-yaradan adam gərək düşünsün ki, o, mövcud olandan daha yaxşısını yaradır. Əgər onu yarada bilirsə, mövcud səviyyədən imtina edib onu yaratsın. Amma yarada bilmirsə, qoy mövcud olandan əl çəkməsin, hələlik onunla yaşasın.

Mən bunları ona görə deyirəm ki, keçmiş zamanlarda da – bu, yeni bir məsələ deyildir – Sovetlər İttifaqı dövründə də həmin sistemin içərisində cürbəcür formalarda dəyişikliklər edilirdi. «Gözə torpaq atmaq» məsəli var. Bəziləri deyir ki, «bundan ötrü onu etdim, bunu etdim, bu islahatı keçirdim, bunu dəyişdirdim, bu belə deyildi, mən onu dəyişdirdim». Nəticəsi nədir? Nəticəsi yoxdur. Keçmişdə mən belə insanları görmüşəm. Belə insanlar 3-4 il üzdə olurlar. Bəli, dəyişikliklər edir, yeniləşdirir, yenidən qurur, ona görə də tərifləyirlər. Mən bəzən elə adamlar görmüşəm ki, bir neçə il belə yaşayır, başqa yolla dəyişikliklər edir, sonra görür bunun nəticəsi yoxdur.

Yəni bu keçmiş mənfi təcrübəni bilərək, mən hamıya və xüsusən təhsil sistemində çalışanlara tövsiyə edirəm ki, siz bu islahatları cürətlə, biliklə, ağılla aparasınız, səhvlərə yol verməyəsiniz. Əgər biz iqtisadi sahədə apardığımız islahatlarda bu gün haradasa səhv ediriksə, sabah həmin səhvi düzəltmək mümkündür, haradasa ifrata yol veririksə, onun qarşısını almaq mümkündür, haradasa mühafizəkarlığa yol verilirsə, onu da məhv etmək mümkündür. Amma təhsil çox həssas sahədir. Burada cürbəcür kombinasiyalara, manipulyasiyalara – mən bu sözləri işlədirəm – yer ola bilməz.

İndi təhsil sahəsində gedən islahatlar müxtəlif xarakter daşıyır. Çox sevindirici haldır ki, biz dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemlərinin təcrübəsini öyrənirik və tətbiq edirik. Sevindirici haldır ki, biz bunun üçün yardım alırıq. Yəni Dünya Bankı Azərbaycanda təhsil sahəsində islahatların həyata keçirilməsi üçün bizimlə birgə proqram yaradıbdır. Bu bank ölkəmizə müəyyən vəsait ayırır, kömək edir. Bunlar hamısı çox sevindirici haldır. Ancaq çalışmaq lazımdır ki, islahat islahatlar naminə aparılmasın, təhsil sistemimizi daha da təkmilləşdirmək, bu günün, gələcəyin tələblərinə daha da uyğunlaşdırmaq məqsədi daşısın. Biz buna nail olmalıyıq.

Keçmişə nisbətən indi bizdə həm dövlət ali təhsil müəssisələri, universitetlər, həm də özəl müəssisələr vardır. Dövlət ali məktəblərində, universitetlərində həm ödənişli bir hissə var ki, orada tələbələr təhsil üçün haqq verirlər, amma onların əksəriyyəti hökumətin hesabına təhsil alırlar. Bunlar hamısı təbii prosesdir.

Mənim arzum və narahatlığım ondan ibarətdir ki, heç kəs təhsilə qazanc mənbəyi kimi baxmasın. Burada dedilər ki, bilmirəm, 17-18-19 özəl universitet yaranıbdır. Azərbaycan yeni sistemə keçməmişdən, ölkədə islahatların həyata keçirilməsinə başlanmamışdan əvvəl, təxminən 1991-1992-ci illərdə ölkəmiz çox sıçrayışla özəl universitetlər yaradılması dövrünü yaşadı. Belə universitetlər yaratdılar. Amma bunları kim və nəyə görə yaradıbdır?

Əgər kimsə həmin universitetdə təhsilin səviyyəsini dövlət ali məktəblərindən yüksək, keyfiyyətli etmək istəyirsə, çox sağ olsun – onlar bunu etsinlər və biz bunu müdafiə edirik, edəcəyik, dəstəkləyəcəyik. Ancaq kimsə bu dövrdə bunu biznes naminə edirsə, bu yaramaz, ondan əl çəkmək lazımdır.

Bunu açıq etiraf etmək lazımdır ki, məsələn, bizim qardaş Türkiyə Cümhuriyyətində universitetlərin, ali məktəblərin, təhsil sisteminin inkişafı Azərbaycandan sonra, xüsusən, İkinci dünya müharibəsindən sonra başlayıbdır. Orada da dövlət universitetləri olubdur, özəl univer-

sitetlər yaranıbdır. Yaranan həmin özəl universitetlərin bir çoxu indi Türkiyənin çox yüksək səviyyəli təhsil verən universitetləridir.

Məsələn, Azərbaycanın, xalqımızın böyük dostu, məşhur alim İhsan Doğramacı, bizdə olan məlumata görə, Türkiyədə 5-6 universitetin yaradıcısıdır. Amma o, bunları nə üçün yaradıbdır? O özü yüksək səviyyəli alim, mütərəqqi insan, mütəfəkkir adam olduğuna görə istəyibdir ki, öz xalqının gənclərinin ali təhsil alması üçün xidmətini göstərsin və bunu da göstəribdir. O, bunu qazanc naminə yox, millətinə xidmət göstərmək, millətinin təhsil səviyyəsini artırmaq üçün edibdir. Bu, tərifəlayiq bir fəaliyyətdir, xidmətdir.

O, bir neçə universitet yaradıbdır. Məsələn, orada Hacəttəpə Universiteti vardır. O, həmin universitetin təməlini qoyubdur, yaradıbdır. Bu universitet indi Ankarada ən böyük universitetlərdən biridir. O, həmin universiteti, necə deyərlər, təkər üstünə qoyandan sonra oradan çəkilərək, gedib başqasını yaradıbdır.

Bilirsiniz ki, o, son vaxtlar Bilkənd Universitetini və Ankaranın böyük bir hissəsində universitet şəhərciyi yaradıbdır, onun əsasını özü qoyubdur, binalarını tikdiribdir, bütün dünyadan müəllimlər, tələbələr dəvət edibdir. Son 5-6 ildə orada Azərbaycandan nə qədər mütəxəssislər işləyiblər, müəllimlik ediblər, dərs deyiblər, orada çoxlu musiqiçilər çalışıblar. Yəqin ki, professorlardan, müəllimlərdən çoxu orada olubdur. Mən orada bir neçə dəfə olmuşam. Bilirsiniz, mən hər dəfə oraya gələndə həddindən artıq sevinirəm ki, bu insan xalqına nə qədər böyük xidmət göstərir. Özü də bu xidməti tamamilə təmənnasız edir. O, elan edibdir ki, özünün orada yaratdığı şəxsi mülkiyyətinin hamısı xalqa mənsubdur. Bax, bu cür mütəfəkkir, tərəqqipərvər, millətini sevən insan, şübhəsiz ki, təhsilin heç bir sahəsindən təmənna, qazanc gözləmir. O, xalqına xidmət edir.

Təbiidir ki, biz müstəqilliyimizin keçid dövrünü yaşayırıq. Mən həmişə belə fikirdə olmuşam ki, biz daim reallığı nəzərə almalıyıq. Bəzən ayrı-ayrı adamlar hesab edirlər ki, buradan sıçrayıb oraya düşmək, bu sistemdən sıçrayıb o sistemə düşmək olar. Bu, mümkün deyildir. Həyat, cəmiyyət müəyyən bir mərhələdə öz inkişaf dövrünü keçirir. Bunu sürətləndirmək olar, amma ona zor eləyib nəyəsə nail olmaq olmaz. Ona görə də indi bizdə yaranan bu özəl təhsil sistemi, şübhəsiz ki, təqdirəlayiqdir. Şübhəsiz ki, biz bu sistemi inkişaf etdirməliyik. Ancaq yenə də deyirəm, burada birinci təhsilin səviyyəsidir.

Məsələn, nə bilim, hansısa diplomatik bir universitet yaranıbdır, filan olubdur. Diplomatiya, ümumiyyətlə, dövlətin inhisarıdır. Nədir diplomatiya? Diplomatiya hər bir dövlətin xarici siyasətini həyata keçirən təşkilatdır və onun kadrlarıdır. Buna diplomatiya deyirlər və o kadra da

diplomat deyirlər. Bunu özəl bir yerdə hazırlayırlar. Axı bu, dövlətin işidir. Özəl bir qurum, yaxud da dövlətlə bağlı olmayan bir qurum həqiqətən müstəqil Azərbaycan dövləti üçün diplomatlar hazırlaya bilərmi? İnanıram ki, lazımi səviyyədə yox. Onlar oxuyacaqlar, təhsil alacaqlar, diplom da alacaqlar. Amma ola bilər, qeyri bir özəl sektorda işləsinlər. Buna heç kəs mane ola bilməz. Amma dövlət sisteminin diplomatiyasında yer tutmaq üçün, əlbəttə ki, onlar dövlət diplomatiyası ilə tanış olmalıdırlar, dövlət diplomatiyası təhsili almalıdırlar. Hansısa bir kəsin özəl diplomatik təhsilini almamalıdırlar.

Bilirsiniz, bunlar bəlkə də mübahisəli fikirlərdir, ancaq belə fikirləri demək lazımdır ki, insanlar düşünsünlər, insanlar bilsinlər, bu sistemdə, bax bu özəl təhsil sistemlərinin yaranmasında bundan sonra səhvlər buraxılmasın. İndiyə qədər səhvlər buraxılıbdır. Mən bunu özüm üçün hər halda, tam yəqin etmişəm. Ancaq bundan sonra gərək səhvlər buraxılmasın.

Ümumi təhsilimizdə, yəni məktəblərimizdə bütün dərslər, burada bəyan edildiyi kimi, bütün fənlər bizim bu günümüzə və gələcəyimizə həsr olunmalıdır. İnsan təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb, orta ixtisas məktəbi, yaxud da ki, orta təhsil məktəbi – bunlar xüsusi yer tutmalıdır. Çünki indi bizim orta məktəbimiz gərək ki, 11 illikdir. Əgər bu 11 il müddətində uşaq birinci sinifdən başlayaraq sona qədər köklü təhsil almasa, yaxşı hazırlaşmasa, o, nəinki gedib universitetə imtahan verə bilməz – heç lazım da deyil ki, hər bir orta təhsil alan getsin universitetə imtahan versin. Bu, mümkün də deyildir. Bu, keçmişdə də mümkün olmayıbdır, bu gün də mümkün deyildir, – ancaq ola bilər, ondan sonra gedib universitetdə ali təhsil almasa da, amma həyatda yaşayacaqdır, həyatda fəaliyyət göstərəcəkdir, cəmiyyətdə olacaqdır. Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, özünü, ailəsini yaşadacaqdır. Amma ən vacibi də odur ki, cəmiyyətimizin şüurlu üzvü olacaqdır.

İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Sadəcə ona görə yox ki, Azərbaycan vətəndaşıdır. Gərək dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun. Ona görə də orta təhsil sisteminə çox ciddi fikir vermək lazımdır.

Təbiidir, fənlər çoxdur. İndi siz burada da müəyyən islahatlarla əlaqədar dəyişikliklər aparırsınız – hansının saatını artırırsınız, hansını

azaldırsınız. Bu, sizin öz işlərinizdir. Ancaq mən bu gün bir daha demək istəyirəm ki, bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən, o fənlərdə ki, ixtisaslaşmaq istəyir, – onu daha da yaxşı bilməlidirlər. Biri istəyir riyaziyyatçı olsun, biri istəyir fizik olsun, biri istəyir geoloq olsun, biri istəyir hüquqşünas olsun. Qoy olsun. Ancaq orta məktəblər üçün bizim bir neçə şərtlərimiz vardır, onları həyata keçirməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər.

«Ana dili» deyəndə, şübhəsiz ki, hər bir uşaq doğulandan sonra ailəsində atasından, anasından öz dilini öyrənir. Bir var ki, sadəcə öz dilini ailədə bilmək, bir də var ki, Azərbaycan dilini yüksək səviyyədə bilmək. Keçmişdə biz buna fikir verməmişik. Bu həqiqətdir. Yəni o qədər fikir verməmişik. Eyni zamanda onu da unutmaq lazım deyil ki, keçmiş zamanlarda Sovet İttifaqının tərkibində olarkən Azərbaycanda orta təhsil və ali təhsil sistemində Azərbaycan sektoru həmişə çoxluğu təşkil etdiyinə görə biz dilimizi yaşatmışıq və inkişaf etdirmişik. İndi isə, şübhəsiz, bizdə təhsilin tam əksəriyyəti Azərbaycan dilində gedir. Ancaq bir var ki, Azərbaycan dilində oxuyursan, bir də var ki, dilinin incəliklərini bilirsən, Azərbaycan dilində yüksək səviyyəli söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq edə bilirsən. Bu, hələ bizdə çox çatışmayan bir sahədir.

Azərbaycanın tarixini mütləq bilmək lazımdır. Ona görə yox ki, onlar tarixçi olacaqlar. Əgər riyaziyyatçı millətinin, xalqının, ölkəsinin tarixini bilmirsə bu, ona üstünlük vermir. Eləcə də başqa mütəxəssislər.

Mən sizə deyim ki, keçmişdə Azərbaycanın tarixinə, bu tarix elminə orta məktəblərdə də, ali məktəblərdə də o qədər çox fikir vermirdilər. Mən özüm bunun şahidiyəm. Hesab edirdilər ki, qoy uşaq riyaziyyatı bilsin, hesabı bilsin, fizikanı bilsin, o birisini bilsin, bu birisini bilsin. Amma tarix elə şeydir ki, onu bilsə də olar, bilməsə də. Yəni tarix dərsi məktəblərdə bəzən o qədər də hörmətli dərs deyildi.

Məsələn, təsadüfi deyil ki, bizim ali məktəblərdə o illərdə tarix fakültələrinə müsabiqə o qədər də böyük deyildi. Hüquq fakültəsinə müsabiqə böyük idi, amma tarix fakültəsinə yox. Mən, əlbəttə, o fikirdə deyiləm ki, hər bir adam, mütəxəssis tarixçi olmalıdır. Yox. Amma hər bir Azərbaycan vətəndaşı öz tarixini bilməlidir və tarixini də bilmək üçün gərək onu uşaqlıqdan bu işə cəlb edəsən, gərək orta məktəbdən cəlb edəsən. Demək, orta məktəblərdə tarixin tədrisi çox yüksək səviyyədə olmalıdır. İndi burada dedilər, bizim dərsliklər yaranır. Dərsliklər çox yüksək səviyyədə olmalıdır. Keçmişdəki dərsliklərlə indi biz tariximizi uşaqlara öyrədə bilmərik.

Ədəbiyyatımızı bilmək lazımdır. Ədəbiyyatını bilməyən adam dilini yaxşı bilməyəcəkdir. Ədəbiyyatı bilməyən adam yüksək mədəni

səviyyəyə çata bilməyəcəkdir. Bu dərslərə fikir vermək lazımdır. Xüsusən o məktəblərdə ki, Azərbaycanda dərslər rus bölməsində keçir, buna fikir vermək lazımdır.

Keçmiş zamanlarda mən bunu müşahidə etmişdim və heç vaxt unuda bilmərəm. Məsələn, Azərbaycanın başqa yerlərində yox, Bakıda rus məktəbləri çox idi. Azərbaycan məktəbləri çoxluq təşkil edirdi, amma rus məktəbləri də çox idi. Ziyalılar, dövlət işində işləyən adamlar, tam əksəriyyəti öz uşaqlarını rus məktəblərinə qoyurdular. Burada da müəyyən obyektiv səbəb var idi, heç kəsi buna görə qınamaq olmaz. Çünki rus dili Sovetlər İttifaqında hakim dil idi. O dili bilməyən adam çox çətinliklər çəkirdi, elmə geniş qatıla bilmirdi. Bunlar tamamilə təbii hal idi. Ancaq müşahidə olunurdu ki, rus məktəblərində, yəni dərslər rus dilində keçilən məktəblərdə Azərbaycan tarixini yaxşı tədris etmirdilər. Götürüb SSRİ tarixini öyrədirdilər. O tarixin də əksəriyyəti Rusiyanın tarixi idi. Amma Azərbaycan tarixinin tədrisi çox zəif idi.

Yaxud da ki, orada, rus məktəblərində Azərbaycan ədəbiyyatını, Azərbaycan dilini tədris edirdilər, amma bu, o qədər də hörmətli bir fənn hesab olunmurdu, – yəni onu bilsən də olar, bilməsən də. Bunları mən məhz o vaxtlar müşahidə etmişdim. Mən o vaxtlar rastlaşırdım ki, rus məktəblərində oxuyan gənclər şairlərimizi – Nizamini, Füzulini, başqalarını, müasir şairlərimizi tanımırdılar. Yaxud tanısalar da adlarını bilmirdilər, onların əsərlərini oxumurdular, şeirlərini oxumurdular. Çünki bunlar hamısı rus dilində oxuyurdular.

O vaxt bu nöqsan mümkün idi. Amma indi bu nöqsana yol vermək olmaz. İndi biz Azərbaycanda məhdudiyyət qoymuruq. Rusdilli məktəblər var və qarışıq – rus-Azərbaycan dilli məktəblər vardır. Gürcülər yaşayan yerdə gürcü dilli məktəblər vardır. Başqa dillərdə olan bütün bu məktəblərdə, yaxud ola bilər, başqa dillərdə də məktəblər yaransın – bunların hamısında Azərbaycanın tarixi, Azərbaycanın ədəbiyyatı, Azərbaycanın mədəniyyəti tədris olunmalıdır. Bu, mütləq lazımdır.

Ali təhsil haqqında biz çox danışmışıq. Hesab edirəm ki, artıq danışmağa ehtiyac yoxdur. Sizin bu gün verdiyiniz məlumatları mən nəzərə alıram və hesab edirəm ki, bu, işlərin başlanğıcıdır. Amma ali təhsil sahəsində əsas bir yeri ali məktəblərə qəbul prosesi tutur. Orta məktəblərdə çoxları oxuyur. Təbiidir ki, hamısı ali məktəbə gedə bilməz. Ali məktəbə ancaq daha istedadlı, daha bilikli gənclər gedirlər. Ancaq bu vəzifə bugünkü deyil, elə on il, iyirmi il, otuz il, qırx il də bundan öncə bizim qarşımızda olan vəzifədir ki, həqiqətən, çoxsaylı gənclərimizin içindən ali məktəblərə ən istedadlıları, ən biliklilәri girsin.

Bu sahədə keçmişdə çox eksperimentlər keçirilmişdir. Mən bu işlərlə şəxsən 70-ci, 80-ci illərdə, demək olar ki, həddindən çox məşğul olurdum ki, ali məktəblərə qəbulda ədalət təmin edilsin, ali məktəblərə qəbulda rüşvətxorluğun qarşısı alınsın, ali məktəblərə qəbulda tanışbazlığın, dostbazlığın, qohumbazlığın qarşısı alınsın, ali məktəblərə qəbulda rəhbər işçilərin uşaqlarına xüsusi imtiyazlar yaranmasın. Bax, bu işlərlə biz o illər məşğul olmuşuq, mübarizə aparmışıq, müəyyən nailiyyətlər, müsbət nəticələr əldə etmişik. Ancaq təəssüf ki, bu nöqsanları o dövrlərdə aradan qaldıra bilməmişik. Bu, bizim təhsil sahəsində bu gün də ən vacib məsələlərimizdən biridir.

1992-ci ildən ali məktəblərə qəbul üçün Dövlət Tələbə Qəbulu Komissiyası yaranıbdır. Bu, yaxşı bir qərardır və test üsulu tətbiq olunur. İndi bizim ictimaiyyətin fikrinə görə, məndə olan məlumat belədir ki, ictimaiyyət bu test üsulunu keçmiş üsullara nisbətən daha mütərəqqi üsul kimi qəbul edir. Sizin də burada verdiyiniz məlumatlara mən inanıram ki, doğrudan da, bu yol ilə ali məktəblərə daha da keyfiyyətli qəbul təşkil olunur. Ancaq hesab edirəm ki, burada nöqsanlar da çoxdur.

Doğrudur, bəlkə məlumatların hamısı mənə çatmır. Mənə belə gəlir ki, o dövrlərə nisbətən indi ali məktəblərə qəbul haqqında şikayətlər azdır. Ancaq eyni zamanda, danışıqlar da çoxdur, söz-söhbət də çoxdur. Bəzən deyirlər ki, ali məktəbə qəbul olunmuş uşaq, görürsən, heç bu test imtahanından nə vaxt keçib, məlum deyil. Yaxud da ki, gəlir, ali məktəbdə o test imtahanının səviyyəsində təhsilini davam etdirə bilmir. Bir neçə belə faktlar onu göstərir ki, hələ bizim Dövlət Tələbə Qəbulu Komissiyasında nöqsanlar da var, çatışmazlıqlar da vardır. Ona görə indiyə qədər görülən işləri qiymətləndirərək, güman edirəm ki, indi bizim başqa bir sistemə keçməyə heç ehtiyacımız da yoxdur. Bu sistemi təkmilləşdirərək, eyni zamanda bizim üçün ən böyük bəla olan rüşvətxorluq, vəzifəsindən sui-istifadə etmək və başqa hallara yol verilməməlidir. Heç yerdə yol verilməməlidir. Rüşvətxorluğun qarşısı hər yerdə alınmalıdır. Amma tələbə olan yerdə, gənc olan yerdə, uşağın inkişaf etdiyi dövrdə bu cinayətdir ki, belə hadisələr olsun və insanların, yəni uşaqlıq dövründən, gənclik dövründən beyinlərinə girsin ki, bəli, belə bir adət var və bunsuz cəmiyyət yaşaya bilməz.

Ədalət hər yerdə lazımdır. Amma məktəbdə ədalət hamısından çox lazımdır, ali məktəbdə ədalət hamısından çox lazımdır. Siz müəllimsiniz, siz psixoloqsunuz, siz bu işləri bizdən yaxşı bilirsiniz: uşağın, gəncin şəxsiyyətinin bir formalaşma prosesi var. O proses də uşaqlıq dövründə, orta məktəbdə, ali məktəbdə keçir. Ondan sonra şübhəsiz, insan daha da təkmilləşir iş dövründə, yaxud başqa, yeni təhsil dövründə. Ancaq əsas

o insan kimi formalaşma, şüurlu formalaşma prosesi məktəbdə gedir, ali məktəbdə, universitetdə gedir. Əgər orada gənc, uşaq ədalətsizliklə rastlaşırsa, onda belə təsəvvür yaranır ki, elə bu dünya ədalətsiz dünyadır. Buna yol vermək olmaz. Doğrudur, belə ədalətsizliklərlə mübarizə aparmaq da asan deyildir. Çünki təəssüf ki, hər bir insan, hər bir subyekt özünəməxsus bir xarakter daşıyır. Hər bir insanı, o cümlədən müəllimi, hər bir professoru tam ədalətli etmək də asan bir məsələ deyildir. Ancaq bunlar bizim qarşımızda duran vəzifələrdir, müqəddəs vəzifələrdir. Ən əsası ona görə ki, biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bu da hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır.

Əziz dostlar, ona görə də sizin qarşınızda həddindən çox vəzifələr durur. Sizin işiniz asan iş deyildir. Əgər bütün bu deyilən, yaxud deyilməyən, buna bənzər, bu qəbildən olan fikirlərin hamısı bizim təhsil ocaqlarında həyata keçirilsə, bu, asan iş deyildir.

Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Ali məktəb müəllimi, professor cəmiyyətdə ən hörmətli insan olmalıdır və insandır. Ona görə də mən çox arzu edərdim ki, sizin hamınız bu şərəfli adı həmişə, ömrünüzün axırına qədər daşıyasınız.

Əziz dostlar, güman edirəm ki, bu gün yenə də bizim həyatımızın ən vacib sahəsi olan təhsil sahəsi haqqında müəyyən fikir mübadiləsi apardıq. Mən öz qəlbimdə olan fikirlərin, demək olar ki, bir hissəsini sizə çatdıra bildim. Əmin ola bilərsiniz ki, mən indiyə qədər olduğum kimi, bundan sonra da müəllimlə, məktəblə, təhsil ilə bir yerdəyəm və bir yerdə olacağam, təhsilin inkişafı üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Biz son illər müəllimlərin əmək haqqının yüksəldilməsi barədə bir neçə tədbirlər gördük. İndi siz bilirsiniz ki, əmək haqqı keçmişdəkindən fərqlidir. Mən bu barədə də düşünürəm və maliyyə nazirinə, Nazirlər Kabinetinə göstəriş vermişəm ki, bu ilin axırına qədər müəllimlərin maaşlarının artırılması, özü də təsirli artırılması haqqında təkliflər hazırlasınlar və güman edirəm ki, biz bunu da həyata keçirə biləcəyik.

Mən sizinlə bu görüşümdən çox məmnunam. Siz mənə bu gün bir daha ruh verdiniz. Azərbaycanın müstəqilliyini qorumaq və ölkəmizi inkişaf etdirmək üçün sizə bir daha cansağlığı arzu edirəm, səadət arzu edirəm və bu şərəfli işinizdə sizə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

YUSİF MƏMMƏDƏLİYEV ADINA NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN YENİ TƏDRİS KORPUSUNUN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ*

11 oktyabr 1999-cu il

Əziz dostlar!

Əziz bacılar, qardaşlar!

Əziz naxçıvanlılar!

Əziz ziyalılar!

Mən bu gün Naxçıvan Dövlət Universitetinin müəllim, professor və tələbə kollektivi ilə burada bu görüşümdən həddən ziyadə şadam. Sizin hamınızı səmimi-qəlbdən salamlayıram və sizə - Naxçıvan Muxtar Respublikasının ziyalılarına, gənclərinə, tələbələrinə, müəllimlərinə öz hörmət, ehtiramımı bildirirəm.

Naxçıvanın böyük və zəngin tarixi vardır. Bu tarixin dünya mədəniyyətinə, bəşər mədəniyyətinə böyük töhfələri olmuşdur. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri, siyasi xadimlər olmuşlar. Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur. Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının, inkişafının məntiqi nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir. Universitetin yaranma tarixi haqqında burada artıq deyildi. Siz hamınız bunları bilirsiniz. Çox xoşbəxtəm ki, mən - bu universitetin yaranmasının təməlini qoyan insanlardan biri və onun təşəbbüskarı 30 il ondan sonra yenə də buradayam, sizinləyəm, bu universitetin ötən bu müddətdə nə qədər böyüməsini, inkişaf etməsini öz gözlərimlə görürəm.

Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Dövlət Universitetinin bu günü məni bəlkə sizdən də çox sevindirir. Təbiidir, burada zəhmət çəkmiş hər bir insan, universitet yaranandan burada çalışanlar bu gün öz zəhmətinin bəhrəsini görürlər. Bu universitetdə vaxtilə təhsil alıb, indi müəllimlik edənlər də öz zəhmətlərinin nəticəsini görürlər.

---

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi ikinci kitab. B., Azərnəşr, 2007, s. 180-186

Mən buraya gələrkən universitetin qocaman müəllimləri, professorları ilə görüşdüm. Köhnə dostlarımı - Səfərəli Babayevi, Yunis Qasımovu və başqalarını bir daha gördüm. Mən onları xatırlayıram. Mən nəinki 30 il bundan öncəni, 50 il bundan öncəni də xatırlayıram.

Mən 40-cı illərdə Naxçıvanda işləyərkən həmin bu ali məktəbdə bu gün gənclərə yüksək təhsil verənlərin çoxu mənimlə bir yerdə idilər. Biz Naxçıvanda onlarla bir yerdə çalışırdıq, Naxçıvanı inkişaf etdirmək istəyirdik. Onda biz gənc idik, ancaq əlimizdən gələni edirdik. Biz çox işlər gördük. Naxçıvanın siması nə qədər dəyişilibdir! Bu dəyişikliyin ən gözəl nümunəsi Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Dövlət Universitetidir.

Yaşlı adamlar bilirlər ki, vaxtilə, keçmişdə bu yer Çar Rusiyasının kazaklarının, ordusunun yerləşdiyi ərazi olubdur. Sonra buradakı binaları 41-ci Naxçıvan sərhəd dəstəsinə vermişdilər. Onlar burada yerləşirdilər. Uşaqlıq illərimi yadıma salıram. Mən hələ gənc ikən bəzən buraya gəlirdim, buradakı rus sərhədçilərinin at çapmalarına, yaxud at üstündə qılınc oynatmalarına baxırdım. Burada bir xəstəxana da var idi. Naxçıvanın mərkəzindən həmin xəstəxanaya gəlmək üçün xeyli yol keçmək lazım idi. Biz indi bu yolu avtomobillə tez gəlirik. Ancaq o vaxt piyada gəlib, piyada gedirdik. Bəzən yay vaxtı da buraya gəlib-getmək çox çətin olurdu.

Xatirimdədir, demək olar ki, 8-10 yaşımda mənim burnumdan qan açıldı. Anam nə qədər çalışdısa da, bu qanı saxlaya bilmədi. Anam məni yanına aldı, burnumdan qan axa-axa biz burada olan xəstəxanaya piyada gəldik. Buradakı həkimlər mənə kömək etdilər, yoxsa qan məni tamamilə aparırdı. O günlər yadımdadır. Mən bunları nə üçün xatırlayıram? Çünki bu yer keçmişdən, hələ qədim zamanlardan böyük bir məskən olmuşdur. Bura əvvəl rus ordusunun, sonra sovet ordusunun, sovet sərhəd dəstələrinin olmuşdur.

Bu universiteti, sonra isə onun filialını yaradanda fikirləşdik ki, bu, harada yerləşsin. O vaxt o, buradakı binaların bəzilərində yerləşdirildi. Bəli, amma universiteti yerləşdirmək üçün burada olan sərhəd dəstəsini köçürmək lazım idi. Mən təşəbbüs göstərdim. Sərhəd dəstələri binalarının tikilməsinin respublika büdcəsindən keçməməsinə - o vaxt bu, İttifaq büdcəsindən keçirdi - baxmayaraq, mənim xüsusi qərarımla Azərbaycan büdcəsindən pul ayrıldı. Mən indi sizə məlum olan yerdə o vaxt sərhəd dəstəsi üçün qərargah, bina tikdirdim, buranı boşaltdırdım və Naxçıvan Dövlət Pedaqoji İnstitutuna verdim.

Ancaq təbiidir ki, yeni yaranmış ali məktəb bu köhnə binalarda çox yaşaya bilməzdi. Ona görə də burada universitet şəhərciyi tikilməsi

barədə qərar qəbul etdik. Bu universitet şəhərciyinin baş planı vardır. Buradakı tədris korpusları, yataqxana və bu böyük sahənin hamısı Naxçıvan Dövlət Universitetinə verilibdir.

Şübhəsiz ki, bizim gördüyümüz işlər öz nəticəsini verdi. Naxçıvan Dövlət Universiteti artıq özü üçün müəyyən şərait əldə etdi. Amma biz bununla kifayətlənmədik. Biz universiteti daha da genişləndirmək istəyirdik. Ona görə də bir neçə yeni binanın tikilməsi haqqında qərar qəbul edilmişdir. Bu binaların biri də indi biz açılışına toplaşdığımız binadır.

Bəli, mən istəyirdim ki, bu bina qısa vaxtda tikilsin. Amma sonrakı hadisələr bunların hamısını dağıtdı. Mən 1990-cı ildə Moskvadan yenidən Naxçıvana gələrkən bu işlə dərhal maraqlandım. Ancaq o vaxt elə bir imkanım yox idi. Mən 1991-ci ilin sentyabr ayında naxçıvanlıların iradəsi ilə Naxçıvan Muxtar Respublikasına rəhbər, Ali Məclisə sədr seçildim. O vaxt da bu barədə bir iş görməyə çalışdım. Xatirinizdədir, o zaman sadəcə, lazım idi ki, Naxçıvanda insanlar yaşaya bilsinlər, soyuqdan donmasınlar, elektrik enerjisi, vaxtlı-vaxtında su, ərzaq ala bilsinlər. Çünki o vaxt Ermənistanın blokadası nəticəsində Naxçıvan Azərbaycanın əsas hissəsindən ayrı düşmüş vəziyyətdə idi. Azərbaycandan Naxçıvana gələn bütün xətlər - elektrik, qaz xətləri, avtomobil yolları, dəmir yolu kəsilmişdi. Demək, o vaxt yaşamaq uğrunda mübarizə aparmaq lazım idi və biz mübarizə aparırdıq.

İndi qaz haqqında danışanda nə yadıma düşür? Mən Azərbaycanın bütün kəndlərini qazlaşdırdım, o cümlədən Naxçıvan Muxtar Respublikasına da qaz xətti çəkdirdim. Mən həmin kəməri Dağlıq Qarabağdakı, Sisyandakı hündür dağların başından gətirdib Naxçıvana qaz çəkdirdim və muxtar respublikanın hər yerini qazlaşdırdım.

Mən 1990-cı ildə buraya gələndə Şahbuz rayonundakı Keçili kəndinə getdim. Onda hələ bura qaz gəlirdi. Mən yaşlı adamlarla görüşdüm. Bir yaşlı kişinin o vaxtkı sözü indi yadıma düşür. O dedi ki, oğlum, mən Keçilidə hər gün səhər durub kibriti çəkərək bu qazı yandıranda həmişə sənə dua etmişəm. Bu faktı nə üçün yada salıram? Bəli, o vaxtlar ki, Azərbaycanda, məndə imkanlar var idi, mən həmin imkanlardan tamamilə istifadə edib, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmağa çalışırdım. Ancaq sonra bunların hamısı kəsildi, Naxçıvan qazsız, elektrik enerjisiz, susuz, yolsuz qaldı.

Buna baxmayaraq, mən yenə də universitet haqqında düşünürdüm, əlaqə saxlayırdım. Ancaq o zaman çox iş görməyə imkan yox idi. Lakin mən 1993-cü ildə yenidən Azərbaycana rəhbər seçiləndən sonra Azərbaycanın hər yerinə, hər bir universitetinə, o cümlədən Bakı Dövlət Uni-

versitetinə göstərdiyim qayğı kimi, Naxçıvan Muxtar Respublikasının Universitetinə də qayğı göstərməyə başladım. İndi blokada şəraitində yaşayan, yolu olmayan, Bakı ilə ancaq təyyarə vasitəsilə əlaqə saxlayan Naxçıvan belə bir binanın tikilib başa çatmasını təmin edib və burada yeni bir tədris korpusu yaradıbdır. Bu, böyük hadisədir.

Amma bu, son illər Naxçıvanda gedən quruculuq işində yeganə hadisə deyildir. Biz dünən bir Ticarət-Tədris Mərkəzinin binasını açdıq. O, çox gözəl binadır. Bilirsiniz ki, dünən biz vaxtilə mənim təşəbbüsümlə tikintisinə başlanmış böyük məscid binasını da açdıq. İndi Naxçıvanda məktəblər tikilir. Azərbaycanın çox yerlərində məktəblər tikilmir, amma Naxçıvanda tikilir. Muxtar respublikada xəstəxanalar tikilir. Yəni Azərbaycanın başqa bölgələrinə nisbətən Naxçıvanda ən çətin şəraitdə yaşayan insanlar quruculuq işləri ilə məşğul olurlar, zəhmət çəkirlər, fədakarlıq, vətənpərvərlik göstərirlər. Sağ olun.

Güman edirəm ki, bunlar Naxçıvanda quruculuq işlərinin hələ yeni mərhələsidir. Bundan sonra da çox işlər görüləcəkdir. Naxçıvan yaşayıb, yaşayır, Naxçıvan blokada şəraitində əyilməyibdir, dözübdür, bundan sonra da yaşayacaqdır.

Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il bundan öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir. Qonşu ölkələrdən - Türkiyədən, İrandan buraya təhsil almaq üçün tələbələr gəlir və bu universitetin dünyanın başqa universitetləri ilə elmi, təhsil və başqa əlaqələri vardır. Bunlar hamısı bir daha onu sübut edir ki, Naxçıvanda təhsilə, elmə, mədəniyyətə həmişə qayğı göstərilir, yüksək münasibət göstərilir və naxçıvanlılar da nəyə qadir olduqlarını dünyaya həmişə nümayiş etdiriblər.

Əziz dostlar, bu gün Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin yeni təhsil binasının açılışı münasibətilə mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, siz bu gözəl binadan universitetdə təhsilin, elmin inkişaf etməsi üçün daha da səmərəli istifadə edəsiniz.

Universitetin professor-müəllim heyətinə ali təhsilin, elmin, mədəniyyətin inkişafında yeni-yeni uğurlar arzulayıram. Universitetin tələbələrinə, Naxçıvan Muxtar Respublikasının bütün tələbələrinə, gənclərinə cansağlığı, yüksək vətənpərvərlik, təhsil uğrunda daim mübarizə aparmaq üçün əzm arzulayıram. Naxçıvan gənclərinə hərbi vətənpərvərlik hisslərini daha da yüksəltməyi arzulayıram. Naxçıvan gənclərinə arzu və tövsiyə edirəm ki, onlar indiki nəsillər kimi, bizim kimi Naxçıvanı qursunlar, yaratsınlar, inkişaf etdirsinlər, daha da yüksəltsinlər.

Biz XXI əsrə qədəm qoyuruq. XXI əsr gənclərin əsridir. Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini, müstəqil Azər-

baycanı gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir. Gənclərin vəzifəsi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, elmini inkişaf etdirməkdir.

Ümidvaram ki, Azərbaycanın bugünkü gəncləri, o cümlədən Naxçıvanın gəncləri, Naxçıvan Dövlət Universitetinin tələbələri bunların hamısına qadirdir və biz gələcəkdə onların gözəl işlərinin nəticələrinin şahidi olacağıq.

Mən sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı, səadət, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzu edirəm. Sağ olun.

* * *

Universitetin rektoru İsa Həbibbəyli Azərbaycan Respublikasının Təhsil Nazirliyi Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin elmi şurasının 1999-cu il 9 oktyabr tarixli qərarı ilə Azərbaycanda milli təhsilin, elm və mədəniyyətin inkişafı sahəsində görkəmli xidmətlərinə görə Heydər Əlirza oğlu Əliyevə fəxri doktor diplomunu və onun akademik geyimini təqdim etdi.

Heydər Əliyev: Əziz dostlar!

Mən birinci növbədə Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Universitetinin elmi şurasına mənə göstərilən bu diqqət və qayğıya, fəaliyyətimə verilən bu yüksək qiymətə görə təşəkkür edirəm. Çox sağ olun.

Sizə o da məlumdur ki, mən dünyanın bir çox ölkələrinin çox mötəbər universitetlərinin fəxri doktoru adına layiq görülmüşəm, mənə fəxri doktor diplomları verilibdir. Sizin mənə geyindirdiyiniz bu geyim kimi belə libaslar da mənə verilibdir. Ancaq mən bugünkü günü daha da qiymətləndirirəm.

Mən fəxr edirəm ki, bir çox böyük dövlətlərin zəngin tarixə malik olan universitetlərinin fəxri doktoruyam. Ancaq daha da çox fəxr edirəm ki, mən Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Universitetinin doktoruyam. Sağ olun.

Mən çalışacağam ki, sizin bu etimadınızı doğruldum. Mənim üçün bu bir də ona görə əzizdir ki, mən ilk təhsilimi Naxçıvanda almışam. Əziz müəllimlərim Naxçıvanda mənə orta təhsil verib məni həyata buraxıblar. Ona görə Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin ən yüksək zirvəsidir. Mən bütün bunlara görə də fəxr edirəm. Çox sağ olun.

BİLKƏND UNİVERSİTETİNİN BANİSİ VƏ FƏXRİ REKTORU, DÜNYA ŞÖHRƏTLİ ALİM İHSAN DOĞRAMACI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN*

Ankara, «Çamlı köşk»
27 noyabr 1999-cu il

Heydər Əliyev: İhsan bəy, xoş gördük, Sizi görməyimə çox şadam. Necəsiniz, vəziyyətiniz, səhhətiniz necədir?

İhsan Doğramacı: Çox sağ olun, yaxşıyam.

Heydər Əliyev: Sədri olduğunuz Azərbaycan-Türkiyə Dostluq və Əməkdaşlıq Fondundakı fəaliyyətinizə görə, Sizə öz dərin hörmətimi, sevgimi, məhəbbətimi bildirirəm.

İhsan Doğramacı: Təşəkkürümü və minnətdarlığımı bildirirəm. Cənab prezident, «Eroziya ilə mübarizə həftəsi»nin açılış mərasimindəki yarım saata qədər olan nitqiniz çox xoşuma gəldi. Nitqinizdə söylədiyiniz fikirləri çox yüksək qiymətləndirirəm.

Heydər Əliyev: Sən çıxışımı dinlədin?

İhsan Doğramacı: Cənab prezident, dinləməmək mümkün deyildi. Çünki ən gözəli o oldu ki, Siz bildirdiniz, hörmətli Süleyman Dəmirəl Sizə dedi ki, çıxış edənləri dinləyin, ondan sonra çox gözəl danışacaqsan. Siz orada bəlkə də ona qədər mesaj verdiniz. Ən sonuncu mesajınız isə cənab Klintonun söylədiklərini Sizin də təsdiq etməyinizdir. Yəni çıxışınız çox gözəl oldu.

Heydər Əliyev: Elədir, mən təxminən yarım saat çıxış etdim.

İhsan Doğramacı: Cənab prezident, mən saatımı qurmuşdum. Çıxışınız düz 28 dəqiqə oldu.

Heydər Əliyev: Düzü, mən bu qədər danışmaq fikrində deyildim. Sadəcə, bir neçə söz demək istəyirdim. Amma gördüm ki, beynimdə bir neçə fikir var, ona görə də onları dedim.

İhsan Doğramacı: Hər şey yaxşı oldu. Dediniz ki, sovet vaxtında hər şey dövlətin idi, xalqın əlində heç nə yox idi. Amma indi baxın, millətlə dövlətin bərabər işləməsi nə qədər faydalıdır. Bir çox belə mesajlar verdiniz. Hörmətli cümhur başqanım, nitqinizin sonunda bir də onu dediniz ki,

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi üçüncü kitab. B., Azərnəşr, 2008, s. 249-250

Azərbaycana gəlsinlər, eroziyaya qarşı mübarizə sahəsində Türkiyənin təcrübəsini öyrənsinlər və istifadə etsinlər. Mən bunları çox maraqla dinlədim.

Heydər Əliyev: Mənim əziz dostum, qardaşım. Azərbaycanla Türkiyə arasında əlaqələrin inkişaf etməsi üçün var qüvvə ilə səy göstərməliyik. Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir. Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir.

SÜLEYMAN DƏMİRƏL ADINA UNİVERSİTETİN FƏXRİ DOKTORU ADININ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ*

İsparta
28 noyabr 1999-cu il

Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım hörmətli Süleyman Dəmirəl!

Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti, əziz dostum, qardaşım Rauf Denktaş!

Hörmətli nazirlər!

Hörmətli rektor, professorlar, doktorlar, tələbələr, müəllimlər!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram və Azərbaycan xalqı adından, müstəqil Azərbaycan adından sizə ən dərin, qəlbimdən gələn hörmət və ehtiramımı bildirirəm.

Mən bu gün həyatımın çox tarixi bir gününü yaşayıram. Bilirsiniz ki, mənim həyatım həm Süleyman Dəmirəlin, həm də Rauf Denktaşın həyatından yaşca böyükdür. Onlar məndən gəncdirlər.

Bəli, mən həyatımın tarixi bir gününü yaşayıram, ona görə ki, yenidən qardaş, dost Türkiyədəyəm. Ona görə ki, Türkiyənin qədim diyarı olan İspartadayam. Ona görə ki, xalqımızın böyük dostu, mənim əziz qardaşım Süleyman Dəmirəlin vətənindəyəm. Ona görə ki, sizinlə bir yerdəyəm, bərabərəm.

Türkiyənin hər bir diyarı, hər şəhəri, hər vilayəti gözəldir. Biz Azərbaycanda Türkiyəni həmişə sevmişik, indi də sevirik. Ancaq Azərbaycan xalqı doğma türk xalqından 70 il ayrı düşmüşdü. Biz ondan əvvəl Rusiya imperatorluğunun, 1920-ci ildən isə Sovetlər Birliyinin, Sovet imperiyasının tərkibində yaşamışıq. O illər Sovetlər Birliyində heç bir xarici ölkə, xalq ilə əlaqə qurmaq mümkün deyildi.

Təbiidir ki, o vaxt azərbaycanlılar dünyanın hər yeri ilə əlaqə qurmaq arzusunda deyildilər. Türkiyə, türk xalqı isə Azərbaycan üçün əziz, doğma, qardaş, bizim kökümüz, dilimiz, dinimiz, adət-ənənələrimiz bir olduğuna görə biz həmişə çalışırdıq ki, Türkiyəni görək, Türkiyə ilə əlaqə

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi üçüncü kitab. B., Azərnəşr, 2008, s. 256-268

quraq. Ancaq o illərdə bunlar mümkün deyildi. Yəni biz illərlə, on illərlə Türkiyə həsrəti ilə yaşamışıq.

Nəhayət, Sovetlər Birliyi dağıldı, Azərbaycan öz dövlət müstəqilliyini, istiqlaliyyətini əldə etdi və qısa bir zamanda, demək olar ki, bir gündə, bir ayda, bir ildə Türkiyə ilə Azərbaycan arasında elə əlaqələr yarandı ki, sanki biz 70 il bir-birimizdən ayrı olmamışıq. Biz ayrı olarkən ancaq radiodan – televiziya sonra yarandı – Türkiyədə türkcənin necə olduğunu dinləyirdik, bilirdik. Sevinirdik ki, bizim dilimiz birdir. Ancaq qovuşandan, birləşəndən sonra görürsünüz ki, biz nə qədər bir-birimizlə birik. Mən sizi yüzdə yüz faiz başa düşürəm, siz isə məni bəlkə yüzdə 95 faiz başa düşürsünüz. Türkiyəyə nə qədər çox gəlsək də, nə qədər çox görüşsək də biz Türkiyədən doymuruq.

Bugünkü gün mənim üçün çox önəmlidir. Mən bununla fəxr edirəm, sevinirəm. Çünki həm İspartanı gördüm, həm xalq ilə görüşdüm, xalqın öz dövlətinə, öz prezidentinə, onun qonaqlarına və böyük öndər Mustafa Kamal Atatürkün qoyduğu yola nə qədər məhəbbətli, sədaqətli olduğunu gözlərimlə gördüm.

Bu gün burada İsparta üçün, təkcə İsparta üçün yox, bütün Türkiyə üçün çox əlamətdar hadisələr baş verdi. Burada qəlb cərrahiyyə əməliyyatı xəstəxanası, mərkəzi açıldı. Gözəl bir orta məktəb istifadəyə verildi. Çox gözəl, möhtəşəm bir mədəniyyət mərkəzi salonları ilə birgə açıldı. Nəhayət, mənim əziz dostum Süleyman Dəmirəlin adını daşıyan universitetdəyəm. Mən bu universitetin fəxri doktoru adını almağa layiq görülmüşəm.

Mən bu ilin aprel ayında Amerika Birləşmiş Ştatlarında qəlb cərrahiyyə əməliyyatı keçirmişəm. Ondan əvvəl bunun nə olduğunu bilmirdim. Bəzən insanlar «qəlb cərrahiyyə əməliyyatı» deyəndə mən fikirləşirdim ki, yəqin hər adamda yox, çox xəstə olanlarda belə əməliyyat aparırlar. Amma belə deyilmiş. Mən Vaşinqtona NATO-nun yubileyinə getmişdim. Həmin yubiley tədbirləri başa çatan gün elə oldu ki, mən xəstəxanaya düşdüm və üzərimdə cərrahiyyə əməliyyatı keçirdilər. Bunu ona görə deyirəm ki, bu cərrahiyyə əməliyyatını keçirmiş bir insan kimi mən bilirəm – hörmətli Şövkət Dəmirəlin təşəbbüsü və fədakarlığı nəticəsində ən yüksək səviyyədə, müasir texnologiya ilə işləyəcək belə bir ürək cərrahiyyə əməliyyatı xəstəxanasının İspartada açılması həqiqətən böyük bir hadisədir. Mən sizə deyə bilərəm, Azərbaycan müstəqil dövlətdir, ölkəmizin 8 milyon əhalisi var, amma bizdə belə bir xəstəxana yoxdur. Ancaq olacaqdır.

Əgər Türkiyədə, onun böyük şəhərlərində saysız-hesabsız sağlamlıq mərkəzləri, xəstəxanalar varsa və bu gün İspartada belə bir xəstəxana

açılırsa, görün Türkiyə qısa zamanda nə qədər böyük bir inkişaf yolu keçibdir.

Əziz dostum Süleyman Dəmirəl dünən Ankarada TEMA-nın gözəl bir toplantısını keçirdi. Bu, həddən ziyadə, çox gözəl bir işdir. Məmnunam ki, mən o toplantıda iştirak etdim, hətta orada mənə nitq söyləməyə də imkan verdilər. Mən orada gördüm ki, Türkiyədə təbiətin – torpağın, suların, ormanların qorunması üçün nə qədər böyük işlər aparılır. Bu, nə üçündür? Bunlar hamısı insanlar üçündür. Əgər dünyada, o cümlədən Türkiyədə bir tərəfdən sənaye, texnologiya inkişaf edir, torpağa kimyəvi gübrələr verilib, sənaye tullantıları çaylara, sulara axıdılıb torpağı zəhərləyirsə, o biri tərəfdən ağacları qırırlarsa, digər tərəfdən isə torpağın eroziyasının qarşısını almağa, torpağı təmizləməyə, sağlamlaşdırmağa çalışırlar, meşələri, ormanları artırırlar – nə üçün? Bunlar insanların yaşaması üçündür. Bunlar türk xalqı üçündür. Bunlar hər bir türk üçündür.

Dünən ilə bu gün bir-biri ilə üzvi surətdə bağlıdır. Türkiyənin həyatında bu iki gün sadəcə, onu göstərir ki, Türkiyənin dövləti, xalqı, iş adamları və Türkiyənin prezidenti, əziz dostum Süleyman Dəmirəl ölkənin inkişafı və xalqın rifah halının yaxşılaşması, xalqın günü-gündən sağlamlaşması üçün nə qədər böyük işlər görürlər. Mən sizi bu nailiyyətlərə görə təbrik edirəm.

Bu gün mənə fəxri doktor adı verildi. Bu, mənim üçün həqiqətən böyük şərəfdir. Mən həyatımda çox böyük mükafatlar, dövlət nişanları almışam. Ancaq noyabrın 1-də Ankarada mənə böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatının verilməsini mən həyatımda ən yüksək hadisə hesab edirəm və bu nişanı böyük iftixar hissi ilə daşıyıram.

Mən bir çox ölkələrin universitetlərinin fəxri doktoru adını almışam. Mənə Türkiyə Cümhuriyyətinin bir neçə universitetlərinin də fəxri doktoru adı verilib. Bizim səfir mənə xəbər verdi ki, onları almışam. Həm də bildirir ki, bəziləri də var, gedib onları özüm almalıyam. Mən vaxt tapıb bunu edəcəyəm. Amma bu gün burada Süleyman Dəmirəlin adını daşıyan universitetin fəxri doktoru adını almaq mənim üçün çox böyük şərəfdir və mən bunu çox yüksək qiymətləndirirəm.

Süleyman Dəmirəlin adını daşıyan universitet qısa bir zamanda – 7 il ərzində nə qədər yüksəlib, böyüyübdür, inkişaf edibdir. Bunu təsəvvür etmək mümkün deyildir. Bilirsiniz, siz Türkiyədə öyrənmisiniz ki, çox böyük universitetlər yaranır. Bu universitetləri dövlət də, vəqflər də yaradır. Hətta bəziləri narazı olurlar ki, niyə daha çox yaradılmır. Amma

görün, 7 il öncə İspartada bu qədər böyük binalara, ləvazimata, texnologiyaya, cihazlara malik olan universitet yaranıbdır. 7 il içərisində o, nə qədər yüksəlib, inkişaf edib və dünyanın böyük universitetləri ilə yarışa bilən bir universitetə çevrilibdir.

Mən fəxr edirəm ki, əziz dostum Süleyman Dəmirəlin adını daşıyan universitetin fəxri doktoruyam və ömrümün sonuna qədər bu adı iftixar hissi ilə daşıyacağam. Mən anlayıram ki, bu mənim üzərimə vəzifələr qoyur. Bu vəzifələr təbii, ondan ibarət deyildir ki, gəlib burada sizinlə birlikdə dərs deyəcəyəm, yaxud başqa işlər görəcəyəm. Bunları siz özünüz bizdən yaxşı bilirsiniz. Vəzifə bunu Azərbaycan-Türkiyə dostluğunun rəmzi kimi qəbul edərək, bu dostluğu, qardaşlığı günü-gündən inkişaf etdirməkdə və əbədi, sarsılmaz etməkdən ibarətdir.

Eyni zamanda Azərbaycan universitetləri ilə Türkiyə universitetləri arasında əlaqələr inkişaf edir. Həm milli təhsil naziri, həm də ali təhsil idarəsinin rəhbəri bu gün burada bu barədə danışdılar. Mən bundan çox məmnunam. Hesab edirəm ki, bu əlaqələri daha da genişləndirmək lazımdır. Xüsusən, hesab edirəm ki, Bakı Dövlət Universiteti – bu universitet 1919-cu ildə yaranıbdır, onun böyük tarixi 80 ildən çox yaşı vardır. Süleyman Dəmirəl adına Universitet ilə birbaşa əlaqə qurmalıdır, iş birliyi aparmalıdır və onlar bir-birinə yardım etməlidirlər.

Əziz dostlar, mən noyabr ayında üçüncü dəfədir ki, Türkiyədəyəm. Əziz dostum, hörmətli Süleyman Dəmirəlin dəvəti ilə noyabrın 1-də mən buraya gəldim. Biz zəlzələ olmuş yerlərə birlikdə getdik, Kocaelidə, İzmitdə olduq, insanlarla görüşdük. Həmin insanlar üçün tikilmiş müvəqqəti evləri, çadırları gördük.

Onların dərdi, qəmi, kədəri bizim dərdimiz, qəmimiz, kədərimiz olduğu üçün mən bunları gördükcə daha da kədərləndim, üzüldüm. Ancaq eyni zamanda məmnun oldum ki, Türkiyə Cümhuriyyəti və Türkiyə hökuməti, xalqı bu böyük sınaqdan, yəni bu ağır fəlakətdən uğurla çıxmışdır və qısa zamanda, birinci növbədə insanların həyatını qurmaq, onların yaşaması üçün şərait yaratmaq işi ilə məşğuldur.

Şübhəsiz ki, dağılan binaların hamısı yenidən bərpa olunacaq, bəlkə də ondan yaxşıları tikiləcəkdir. Dünyada belə zəlzələlər olur. Türkiyədə keçmişdə də bələləri olubdur. Ancaq nə qədər insan həlak olubdur. Mən bu gün fürsətdən istifadə edib, onlara Allah-təaladan bir daha rəhmət diləyirəm və bütün Türkiyə xalqına «keçmiş olsun» deyirəm.

Dedim ki, biz Ankarada olduq və mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verildi. Sonra noyabrın 17-də yenə də Türkiyəyə gəldim, ayın 20-dək İstanbulda ATƏT-in zirvə görüşündə oldum.

Mən ATƏT-in zirvə görüşlərində əvvəllər də iştirak etmişəm. Ancaq ATƏT-in İstanbul zirvə görüşü ona görə çox önəmlidir, tarixi əhəmiyyət kəsb edir ki, o, XX əsrin sonunda keçirilən zirvə görüşüdür. Növbəti zirvə görüşü artıq XXI əsrdə olacaqdır. Bu sammit ona görə önəmlidir ki, həmin zirvə görüşündə XXI əsrə işıq saçan çox əhəmiyyətli qərarlar qəbul olundu, sənədlər imzalandı. Dövlət başçıları görüşdülər, danışdılar, bir çox məsələlər həll olundu.

Şübhəsiz ki, mən bu zirvə görüşünü çox uğurlu hesab edirəm. Ancaq eyni zamanda mən bu zirvə görüşünü Türkiyə üçün daha da çox uğurlu hesab edirəm. Türkiyə Cümhuriyyəti Dünya Birliyində nə qədər böyük yer tutubdur ki, belə bir beynəlxalq toplantının məhz Türkiyədə, İstanbulda keçirilməsi Türkiyəyə etibar edilibdir. Bu, Türkiyə Cümhuriyyətinin dünyada böyük hörmətini göstərir. Türkiyə Cümhuriyyəti, hökuməti, prezidenti, əziz dostum Süleyman Dəmirəl də dünyaya nümayiş etdirdilər ki, Türkiyə Cümhuriyyəti bu gün bundan da gözəl, böyük dünyəvi, beynəlxalq əhəmiyyəti olan toplantılar keçirməyə və həm də uğurla keçirməyə qadirdirlər.

Təbiidir, İstanbul zirvə görüşü ərəfəsində Amerika prezidenti Bill Klintonun Türkiyəni ziyarət etməsi, Türkiyəyə çox böyük önəm verməsi və gözəl nitqlər söyləməsi, Türkiyənin dünyada tutduğu yer haqqında gözəl fikirlər etməsi məni türk xalqını sevindirən kimi sevindirir. ATƏT-in zirvə görüşünün bu qədər gözəl təşkil olunması – yəni hər bir toplantının uğuru onun təşkil edilməsindən asılıdır – şübhəsiz ki, Türkiyə Cümhuriyyətinin və bu işlə şəxsən məşğul olan hörmətli Süleyman Dəmirəlin böyük xidmətləridir. Onun bu xidmətləri hər bir dövlət başçısı tərəfindən yüksək qiymətləndirildi. Onun bu xidmətləri və Türkiyənin bu gün dünyadakı strateji yeri Amerika prezidenti Bill Klinton tərəfindən bəyan edildi. Bir dost, qardaş kimi, bunlar hamısı məndə Türkiyə üçün böyük iftixar, qürur hissi doğurur.

Bəli, mən dedim, artıq üçüncü dəfədir ki, Türkiyədəyəm. Türkiyəni ziyarət etmək mənim üçün sevindiricidir. Amma eyni zamanda, görün mən Türkiyəni nə qədər sevirəm ki, bir ay içərisində üç dəfə buraya gəlmişəm.

Azərbaycan haqqında sizin bilgiləriniz vardır. Bilirsiniz ki, Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Artıq qeyd etdim ki, biz bir kökdənik. Dostum Süleyman Dəmirəl çox gözəl bir ifadə işlətdi ki, biz bir böyük çınarın budaqlarıyıq. Həmin budaqlardan biri də Azərbaycandır.

Ancaq keçmişdə də Azərbaycanın həyatında çoxlu problemlər olubdur, müstəqillik, istiqlaliyyət əldə edəndən sonra da onun həyatı çox

çətindir. Bizim üçün ən ağır problem Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzdür. Bu hərbi təcavüz 1988-ci ildə başlanıbdır. O vaxt Azərbaycan da, Ermənistan da hələ Sovetlər Birliyinin tərkibində idi. Bu təcavüzdə müəyyən səbəblərə görə Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisinin, torpaqlarının 20 faizini işğal edibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlılar – sizin qardaşlarınız, bacılarınız yeddi ildir ki, öz yerindən-yurdundan qovulub, zorla çıxarılıb və çadırlarda ağır şəraitdə yaşayırlar.

Universitetin rektoru mənim tərcümeyi-halım haqqında məlumat verəndə dedi. Bəli, Ermənistan-Azərbaycan münaqişəsi başlanandan Azərbaycanda sabitlik olmayıbdır. Xüsusən, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlamışdı. Azərbaycan dağılmaq ərəfəsində idi. Ancaq biz 1993-cü ildən başlayaraq bütün bunların qarşısını aldıq. Ölkəmizdə bir neçə dəfə dövlət çevrilişinə cəhd göstərmək istədilər, biz bunların da qarşısını aldıq.

İndi Azərbaycan sabitdir. Ölkəmizdə istiqrar təmin olunubdur. Azərbaycan yaşayır, inkişaf edir. Onun yaşamasının inkişaf etməsinin səbəblərindən də biri odur ki, biz 1994-cü ildə müharibədə atəşi dayandırdıq. Yəni atəşkəs haqqında Ermənistanla saziş imzaladıq. Biz o vaxtdan indiyədək məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq.

Bildirmək istəyirəm ki, bütün bu illərdə Türkiyə Azərbaycanla birgə olubdur. Azərbaycanın müstəqilliyini, istiqlaliyyətini dünyada tanıyan ilk dövlət Türkiyə Cümhuriyyəti olubdur. Ermənistanı Azərbaycana hərbi təcavüz etmiş dövlət kimi dünyaya bəyan edən Türkiyədir.

ATƏT-in Minsk qrupunun üzvü olan bir ölkə kimi Türkiyə – təkcə buna görə yox, bizimlə qardaşlıq əlaqələri olduğuna görə – Azərbaycana daim yardım edir və məsələnin sülh yolu ilə həll edilməsi sahəsində nə qədər biz çalışırıqsa, o qədər də Türkiyə Cümhuriyyəti və xüsusən, əziz dostum Süleyman Dəmirəl çalışır.

Bilirsiniz, bəzən mənə elə gəlir ki, hörmətli dostum Süleyman Dəmirəl Azərbaycanı ölkəmizdə yüksək vəzifələrdə çalışan bəzi adamlardan daha da yaxşı tanıyır. Çünki o, bizim işlərimizlə maraqlanır, soruşur, məlumat alır və tövsiyələr verir. Bütün bunlara görə xalqımız Türkiyə Cümhuriyyətinə və əziz dostum prezident Süleyman Dəmirələ, Türkiyə hökumətinə minnətdardır.

Mən ümid edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsi sülh yolu ilə həll olunacaqdır. Biz yenidən müharibə etmək istəmirik. Biz müharibə, savaş tərəfdarı deyilik. Biz sülh tərəfdarıyıq. Təsadüfi deyil ki, mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verilibdir. Mən bundan sonra heç vaxt

müharibə edə bilmərəm. Ancaq biz torpaqlarımızın ermənilərin əlində qalmasına da imkan verə bilmərik. Biz Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə çalışırıq və bunu edəcəyik, işğal olunmuş torpaqlardan didərgin düşmüş azərbaycanlıları öz yerlərinə-yurdlarına qaytaracağıq. Bu torpaqlar Ermənistan silahlı qüvvələrindən azad olunacaq və Azərbaycan bir müstəqil dövlət kimi daha sürətlə inkişaf edəcəkdir.

ATƏT-in İstanbul zirvə görüşü zamanı tarixi bir hadisə baş verdi. O da sizə məlum olan Bakı-Ceyhan əsas ixrac boru kəməri haqqında sazişin imzalanmasıdır. Bu, tarixi bir hadisədir. Çünki Türkiyənin, Azərbaycanın dostları və bu məsələdə bizə ötən beş ildə dəstək verənlər sevinirlər. Ancaq onun əleyhinə olanlar, onu istəməyənlər, Türkiyəni, Azərbaycanı istəməyənlər çox narahatdırlar, rahatsızdırlar. Ona görə də dünyanın müxtəlif ölkələrində indi cürbəcür yazılar yazılır. Biri deyir ki, bu, uğursuz olacaqdır. O birisi deyir, Xəzərdə o qədər neft yoxdur ki, belə bir bahalı boru xətti çəkilsin. Digəri deyir ki, buna imkan verilməyəcəkdir.

Bu yazılar, danışıqlar indi çox dolaşır. Amma biz bu layihənin əsasını 1994-cü ildə qoyduq. 1994-cü ildə Azərbaycan cəmisi üç il müstəqil dövlət olduğu zaman biz cəsarətli bir addım atdıq. Biz burada da Türkiyə ilə əməkdaşlıq edirdik, iş birliyi qururduq. O da ondan ibarət idi ki, 9 ölkədən dünyanın 11 böyük neft şirkətini Azərbaycana dəvət etdik. Azərbaycanın Xəzər dənizində olan zəngin yataqlarının müştərək işlənilməsi haqqında böyük bir müqavilə imzaladıq. Bu müqavilə bütün dünyaya səs saldı, onun adına «Əsrin müqaviləsi» dedilər. Biz bununla Xəzər dənizinin böyük neft və qaz sərvətlərindən bütün Dünya Birliyi üçün istifadə olunmasının təməlini, əsasını qoyduq. Biz bununla Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin əsasını qoyduq. Həmin müqavilədə Türkiyənin hissəsi vardır. Sonrakı müqavilələrdə də Türkiyənin hissəsi vardır.

Biz bu müqaviləni imzalayandan sonra neft haradan haraya gedəcəkdir? Şərqə, Şimala, Qərbə – haraya gedəcək? Hərə bir tərəfə çəkirdi. Ancaq biz Azərbaycan olaraq birinci gündən qərar qəbul etdik. Mən iftixar hissi ilə deyirəm, mən bu işi birinci gündən əziz dostum Süleyman Dəmirəllə birlikdə sona qədər apardım ki, bu, Bakı-Ceyhan boru xətti olmalıdır, bu, mütləq Türkiyəyə getməlidir. Bunun üzərində 5 il çalışandan sonra ona nail olduq. ATƏT-in zirvə görüşü zamanı bu sazişin yüksək səviyyədə məhz Türkiyədə, İstanbulda, «Çırağan sarayı»nda Amerika prezidenti Bill Klintonun iştirakı ilə imzalanması və onun altında Amerika prezidentinin imzasının olması da bunu uğurlu, uzunmüddətli etdi. Bu, bizim – Türkiyənin, Azərbaycanın böyük qələbəsidir. Mən bu qələbə münasibətilə sizi təbrik edirəm.

Əziz dostum Süleyman Dəmirəl bu gün çox gözəl bir nitq söylədi. O, dünən də çox gözəl nitq söylədi. Hörmətli Süleyman Dəmirəl qısa bir zamanda Türkiyənin inkişafını, yüksəlməsini sadəcə sözlə yox, rəqəmlərlə, faktlarla bir daha çatdırdı. Baxmayaraq ki, Türkiyə bunu bilir, amma insan elədir ki, gərək onu daim insanın beyninə doldurasan. Çünki bunlar bəzilərinin beynindən çıxır.

Əziz dostum Süleyman Dəmirəl gözəl bir nitq söylədi. Onun nitqinin bir hissəsi də odur ki, bəli, Adriatik dənizindən Çin səddinə qədər türkdilli dövlətlər dünyası var və gələcəkdə də olacaqdır. Mən də onu deyirəm ki, bu, pantürkizm, panislamizm deyildir. Amma bu odur ki, bir kökdən, bir mədəniyyətdən, bir dindən, bir adət-ənənədən olmuş bu xalqlar bir-biri ilə daha da yaxınlaşmalıdırlar.

Məhz bu məqsədlə hörmətli Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildə yenicə müstəqillik, istiqlaliyyət qazanmış türkdilli ölkələrin dövlət başçılarının İstanbulda toplantısı keçirilibdir. Burada bu təşkilatın əsası qoyulubdur. Bu təşkilat artıq 7 ildir ki, yaşayır. Biz ildə bir dəfə bu toplantıları türkdilli cümhuriyyətlərdə keçiririk. Mədəniyyət, iqtisadiyyat, başqa bütün sahələrdə əməkdaşlığımızı edirik və tarixi bir daha təhlil edirik. müştərək tarixi abidələrimizi yada salır və onların yubileylərini keçiririk. Bu, çox böyük əhəmiyyətə malikdir.

Bəli, bu, türk dünyasının inkişafının təməli kimi bir şeydir. Amma bu, heç də asan deyildir. Çünki onu da qısqananlar və onun əleyhinə olanlar vardır. Amma bu birliyin yaranmasında və bu birliyin 7 ildən bəri yaşamasında Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostum və türk dünyasının lideri Süleyman Dəmirəlin xüsusi xidmətləri vardır.

Bəlkə də siz bunları bilmirsiniz, amma bilməlisiniz. Biz, türkdilli ölkələrin dövlət başçıları, prezidentləri həmişə görüşürük, danışırıq. Bizim üçün Süleyman Dəmirəl – Azərbaycanda ağsaqqal deyirlər, siz baba deyirsiniz. O, babadan da babadır, mən ona babadan da yüksək ad arayıram. Ola bilər ki, həmin dövlətlər arasında hansısa bir məsələ bir-birinə xoş gəlməsin. Amma hörmətli Süleyman Dəmirəl olan yerdə türkdilli ölkələrin dövlət başçılarının hamısı onun ətrafındadır, onların hamısı onunla birdir. Əziz dostum Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin ağırlığını öz çiynində daşıyır və daşıyacaqdır.

Mən çox məmnunam ki, indi Türkiyə Cümhuriyyətinin Süleyman Dəmirəl kimi dünyada tanınmış lideri vardır. Hörmətli Süleyman Dəmirəl 50 ildən çoxdur ki, dövlət, siyasət işi ilə məşğul olur və uğurla məşğul olur. ATƏT-in İstanbul zirvə görüşündə bir fikir də qeyd edildi. Deyəsən, bunu Bill Klinton dedi. O dedi ki, 25 il bundan öncə Helsinkidə

ATƏT-in əsası qoyulubdur, orada Helsinki yekun aktı qəbul edilibdir. 35 dövlət həmin sənədə imza atıbdır. Orada Türkiyədən Süleyman Dəmirəlin imzası vardır. O sənədə imza atanlardan – bəziləri bu gün həyatda, bəziləri də dünya siyasətində yoxdur – dünya siyasətində olan yeganə şəxs Süleyman Dəmirəldir. Mən bunu bilirdim. Amma mən bunu Bill Klintondan eşidəndə nə qədər sevindim.

Bir məsələni də demək istəyirəm. O vaxt biz Sovetlər Birliyinin tərkibində idik. 1975-ci ildə bunu televiziya vasitəsilə göstərirdilər. Orada Süleyman Dəmirəlin yanında Sovetlər Birliyi kimi böyük bir dövlətin başçısı Brejnev oturmuşdu. Süleyman Dəmirəlin o biri yanında isə o vaxt çox məşhur olan adam – Broz Tito oturmuşdu. O vaxt mən Süleyman Dəmirələ baxırdım. Çünki bunların da kim olduğu əhəmiyyətlidir, amma axtarırdım ki, Türkiyə, Süleyman Dəmirəl haradadır. Mən televiziya vasitəsilə ona baxanda sevinirdim ki, Türkiyənin nümayəndəsi, o vaxtkı Baş naziri həmin 35 dövlətin başçıları ilə oturub birlikdə həmin o ATƏT Təşkilatının əsasnaməsini, qərarlarını imzalayırdı. Nə qədər böyük xoşbəxtlikdir ki, bu adam bu gün də yaşayır və Türkiyəyə liderlik edir. Əminəm ki, bundan sonra da hələ çox illər liderlik edəcəkdir.

Əziz dostlarım, ona görə də Süleyman Dəmirəli qoruyun, – gözünüz, canınız kimi qoruyun. Çünki o, sizə, Türkiyə Cümhuriyyətinə, türk dünyasına lazımdır.

Əziz dostlar, bu gün biz səhərdən indiyədək çalışırıq. Bəlkə kimsə yorulub, amma mən yorulmamışam. Çünki mən bu qədər gözəl qonaqpərvərlik, dostpərvərlik, mehribanlıq görürəm və o qədər gözəl hadisələr baş verir ki, mən yorulmamışam. Əgər hörmətli Süleyman Dəmirəlin hələ bir proqramı olsa, bundan sonra 12 saat da çalışa bilərik.

Mənə göstərilən qonaqpərvərliyə, dostluq, qardaşlıq münasibətinə görə sizə bir daha təşəkkür edirəm. Bir daha bəyan edirəm ki, Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir. Mən əmin olduğumu bildirirəm ki, Türkiyə Cümhuriyyəti böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə əbədi olaraq gedəcəkdir. Türk xalqı nə qədər ki, bu yolla gedəcək, o qədər də uğurlar əldə edəcəkdir.

Yaşasın qəhrəman türk xalqı!

Yaşasın Atatürk Türkiyə Cümhuriyyəti!

Yaşasın əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğu!

* * *

Heydər Əliyev universitetə xatirə hədiyyələri təqdim edərək dedi:

Əziz dostlar, siz mənə ərməğan verdiniz. Mənim də sizə ərməğanım vardır. Birincisi, əziz dostum Süleyman Dəmirəlin 75 illik yubileyi münasibətilə Azərbaycanda mənim himayəm altında bir kitab nəşr etmişik. Bu kitabın böyük bir hissəsini mən yazmışam. Bu kitab «İslamköydən Çankayaya qədər» adlanır. Mən bu kitabdan on nüsxəsini universitetinizin kitabxanasına verirəm.

Süleyman Dəmirəl adına Universitetə daha böyük bir ərməğanım var. Onu da sizə təqdim edirəm. Mən bilirəm ki, İspartada çox gözəl xalılar toxuyurlar. Ona görə də mən böyük risk etmişəm ki, bu əsəri xalıda gətirmişəm. Ancaq Azərbaycan xalçaçıları da gözəl xalçalar toxuyurlar və çox gözəl rəsmlər çəkirlər. Məhz bu xalını Atatürkə, Türkiyə Cümhuriyyətinə və Süleyman Dəmirələ məhəbbət hissi ilə toxuyublar, Türkiyə-Azərbaycan dostluğunun daha da güclənməsi, möhkəmlənməsi üçün yaradıblar. Sağ olun.

BAKI DÖVLƏT UNİVERSİTETİNİN 80 İLLİYİ MÜNASİBƏTİLƏ BDU-nun VƏ BİR SIRA XARİCİ ÖLKƏ UNİVERSİTETLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ*

Prezident sarayı
11 fevral 2000-ci il

Hörmətli alimlər!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycan Dövlət Universitetinin – indi ona Bakı Dövlət Universiteti deyirlər – 80 illik yubileyi münasibətilə mən həm Azərbaycana gəlmiş qonaqlarla, həm də universitetin alimləri ilə bu gün qısamüddətli bir görüş üçün fürsət əldə etmişəm.

Azərbaycan Dövlət Universiteti tariximizdə çox böyük yer tutur. Məlumdur ki, o, 1919-cu ildə Azərbaycanda xalq cümhuriyyəti hakimiyyətdə olduğu zaman təşkil edilmiş və xalqımızın tarixində ilk universitetdir. Bu universitet təkcə bizim xalqımızın yox, ümumiyyətlə, Şərq aləminin ilk dünyəvi universitetidir. O, 80 illik fəaliyyəti dövründə Azərbaycana xidmət edibdir və Azərbaycanda təhsilin, elmin inkişafında böyük nailiyyətlər əldə edibdir.

İndi Azərbaycanda universitetlər də çoxdur. Bizim 1945-ci ildə yaranmış Elmlər Akademiyamız, böyük alimlərimiz vardır. Bizdə təhsil çox inkişaf edibdir. Azərbaycanda demək olar ki, təhsil almayan adam yoxdur. Azərbaycanda ümumi icbari təhsil sistemi çoxdan yaranıbdır və həyata keçirilir. Bütün bunların hamısında Azərbaycanın universitetlərinin, yəni ali məktəblərinin çox böyük əməyi, xidməti vardır. Bunların içərisində isə Bakı Dövlət Universiteti xüsusi yer tutur. Çünki son illər Azərbaycanda yaranan bir çox universitetlər, ali təhsil ocaqları Bakı Dövlət Universitetindən ayrılaraq müstəqil ali məktəbə, universitetə çevriliblər.

Bütün bunlara görə də Bakı Dövlət Universiteti Azərbaycanda çox böyük hörmətə malikdir. Təbiidir ki, onun tarixi həmişə bizim arzu etdiyimiz, istədiyimiz kimi olmayıbdır. Yaranandan sonra onun həyatında böyük nailiyyət nümayiş etdirən dövrlər də olubdur. Ancaq totalitar rejim dövründə, xüsusən 1930-cu illərdə Azərbaycanda ziyalılara və bir

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi beşinci kitab. B., Azərnəşr, 2008, s. 35-56

çox elm, təhsil adamlarına ədalətsiz münasibət göstərilən zaman, onlar repressiya edilən zaman universitetin də görkəmli şəxsiyyətləri repressiya qurbanları olublar.

Sonrakı dövrlərdə də, xüsusən Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra da Bakı Dövlət Universitetinin bu günə gəlib çatması üçün çox işlər görmək lazım idi. Yəni demək istəyirəm ki, universitetin tarixi, ümumiyyətlə, təbiidir, hər bir tarix müxtəlif mərhələlərdən ibarətdir. Mən çox məmnunam ki, Bakı Dövlət Universiteti indiyə qədər olduğu kimi, Azərbaycan ali təhsilinin önündə gedir. O, Azərbaycanda olan bütün universitetlərin, institutların və digər ali təhsil ocaqlarının hamısına örnəkdir, gözəl təcrübə əldə edibdir.

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin 50 illik yubileyində iştirak etmişəm, Azərbaycanın o vaxtkı rəhbəri kimi, həmin yubileyin hazırlanmasında, təşkil olunmasında lazımi tədbirlər görmüşəm və universitetin professorları, müəllimləri, tələbələri ilə görüşlər keçirmişəm. Mənim ondan sonra da universitetlə əlaqəm olubdur. Universitetin 60 illiyi də, 50 illiyində olduğu kimi, mənim iştirakımla keçibdir. Çünki mən o vaxt da Azərbaycanın rəhbəri idim. Düşünürəm ki, universitetin 70 illiyi qeyd olunmayıbdır. O vaxt mən Azərbaycanda deyildim. Ancaq biz universitetin 75 illik yubileyini çox böyük təntənə ilə qeyd etdik. Biz möhtəşəm Respublika sarayında böyük yubiley tədbiri keçirdik. İndi universitetin 80 yaşı tamam olubdur və təkliflər verildi ki, bu yubileyi də qeyd edək. Belə çıxır ki, biz universitetin yubileyini hər beş ildən bir qeyd edəcəyik. Bəlkə bu da təbiidir. Çünki, yenə də deyirəm, universitet Azərbaycanın təhsil sistemində və cəmiyyətimizdə xüsusi yerə malikdir.

Son zamanlar universitetin işində böyük dəyişikliklər meydana çıxıbdır. Onlar bizim ictimaiyyət tərəfindən də böyük rəğbətlə qarşılanır. Hesab edirəm, universitetin işinin canlanması həm professor-müəllim heyətini, həm də tələbələri ruhlandırır.

İndi bizim təhsil sahəsində islahatlarımız həyata keçirilir. Təbiidir ki, bu islahatlar da müəyyən çətinliklərlə rastlaşır. Çünki biz 70 il sovet sosialist sistemində yaşamışıq və Azərbaycanda təhsil həmin hökumətin, dövlətin prinsipləri əsasında qurulubdur.

Mən qeyd etmək istəyirəm ki, o dövrün təhsil sistemi çox yaxşı təhsil sistemi olubdur. Əgər o olmasaydı, Azərbaycanda qısa bir zamanda təhsil, xalqın savadlanması, elmin inkişafı sahəsində belə müsbət dəyişikliklər olmazdı. Biz, indi yaşayan adamlar və bizdən gənc olan insanların hamısı həmin təhsil sisteminin bəhrələriyik. Biz, burada oturanların hamısı, Azərbaycanın bütün alimləri o təhsil sistemində – həm orta, həm

də ali məktəbdə təhsil almışıq. Ona görə də mən sovet hakimiyyəti dövründəki təhsil sistemini yüksək qiymətləndirirəm. İndi konyunkturaya uyan bəzi adamlar vardır. Belələri dünən bir söz, bu gün bir söz deyirlər, sabah başqa bir söz deyəcəklər. Ola bilər ki, belə adamlar cəmiyyətdə müvəqqəti uğur qazana bilsinlər. Ancaq cəmiyyət onları heç vaxt ciddi qəbul etmir.

Tarixi təhrif etmək olmaz. Tarixdə hər şeyin öz yeri vardır. O nə sizdən, nə bizdən, nə də heç kəsdən asılı deyildir. Tarix obyektiv bir prosesdir. Bu obyektiv prosesə təsir etmək, müəyyən vaxtlarda onu zəiflətmək, gücləndirmək, məcrasından çıxarmaq olar. Müxtəlif hallar ola bilər. Amma bu obyektiv prosesi dayandırmaq və ona ciddi təsir göstərmək mümkün deyildir. Bu tarixdir.

Bizdə tarixi təhrif edənlər olubdur. Sovet hakimiyyəti qurulandan sonra keçmiş tariximiz təhrif edilibdir. Təəssüflər olsun ki, indi, sovet hakimiyyəti dağılandan sonra yenə də keçmişi təhrif edirlər. Bilirsiniz, o vaxtkı dövrdən ibrət götürmürlər. Siz alimlərsiniz, bunu bilirsiniz. Hesab edirəm ki, bu sözləri sizə deməyimin elə bir əhəmiyyəti yoxdur. Ancaq bu sözləri sizə deyərkən mən öz mövqeyimi bildirirəm. Mənim də mövqeyim ondan ibarətdir ki, Azərbaycan xalqı, təhsili 70 illik sovet hakimiyyəti dövründə böyük inkişaf yolu keçibdir. Xalqımız təhsillənib, yüksək təhsilə, elmə malik olubdur. Xalqımızın mədəniyyəti yüksəlib və respublikamız o vaxt da, indi də dünyəvi dövlət, ölkə kimi bütün başqa dövlətlərlə bir yerdədir. Ola bilər, bir çox ölkələr daha da çox inkişaf edibdir. Məsələn, bəziləri az inkişaf edibdir. Bu da təbiidir: dünya da müxtəlifdir.

Ona görə də bu fikirləri sizə çatdıraraq bildirmək istəyirəm ki, o dövrün təhsil sistemi heç də pis deyildi. Mən ondan məmnunam. Çünki mən özüm də o təhsil sisteminin yetişdirməsiyəm, başqaları da, siz də həmin təhsil sisteminin yetişdirmələrisiniz. Amma o təhsil sistemi Sovetlər İttifaqı, sovet hakimiyyəti qapalı dövlət şəraitində yaşadığı bir zaman ancaq o hakimiyyətə məxsus bir sistem idi. İndi isə biz müstəqil ölkəyik. Təkcə biz yox, elə Rusiyada da, keçmiş Sovetlər İttifaqına mənsub olmuş, indi müstəqil dövlət olan ölkələrdə də bu proseslər gedir. İndi biz istəyirik ki, ölkəmizin bütün sahələrində proseslər dünya ilə tam uyğun formalarda inkişaf etsin. Təhsil sahəsində islahatların keçirilməsi məhz bu məqsədi daşıyır. Bizim təhsilin məzmunu yüksəkdir. Amma onun forması və təhsilin bəzi ayrı-ayrı mərhələlərdə müddəti, yaxud onların nəticəsi indi dünyada, xüsusən Qərb ölkələrində, inkişaf etmiş ölkələrdə olan sistemlərdən bir az fərqlidir. Ona görə də indi biz bu islahatları həyata keçiririk ki, bizim təhsil sistemi də həmin o ümumdünya

təhsil sisteminə uyğun olsun.

Azərbaycanda bu proses gedir və biz bu prosesi aparacağıq. Ümidvaram ki, hər bir keçid dövrü, hər bir proses, ola bilər, bir müddət işləri zəiflədir. Amma sonra – qarşıda qoyulan məqsəd əldə edilən zaman inkişaf sürətlənir. Təbiidir ki, bu, bizim təhsil sahəsində də, Bakı Dövlət Universitetinin həyatında da belə olacaqdır.

Bu gün burada qonaqlarımız vardır. Mənə dedilər ki, dost, qardaş Türkiyədən bir çox universitetlərin rektorları buraya gəliblər. Moskva universitetinin rektoru buraya gəlibdir. Gürcüstanın Tbilisi universitetinin rektoru buradadır. Başqa qonaqlar da vardır. Bunlar çox sevindirici haldır. Bunlar bizim həyatımızın yeni bir mənzərəsidir.

Biz keçmişdə Sovetlər İttifaqının tərkibində olanda – təbiidir ki, universitetin 50 illik, 60 illik yubileyləri mənim xatirimdədir – nümayəndələr yalnız Sovetlər İttifaqının daxilindəki cümhuriyyətlərdən, yaxud da ki, ali məktəblərdən gəlirdi. Ancaq indi dünyanın hər yerindən qonaqlar gəlir. Elə bu da bizim müstəqilliyimizin və müstəqilliklə əlaqədar olaraq ölkələrimizin – Azərbaycanın və başqa ölkələrin dünya prosesinə qoşulmasının nəticəsidir. Mən qonaqlarımızı səmimi-qəlbdən salamlayıram və onlara təşəkkür edirəm ki, vaxt tapıb gəliblər. Onlar həm universitetlə tanış olacaqlar, arzu edərdik ki, həm də Azərbaycanın bu günü ilə tanış olsunlar. Əminəm ki, bizim universitetlərin, xüsusən Bakı Dövlət Universitetinin dünyanın bir çox universitetləri ilə əlaqələri daha da geniş olacaqdır.

Mən bildiyimə görə, indi bu əlaqələr çox genişdir. Amma bu əlaqələr təkcə ondan ibarət deyildir ki, yubileyə kim gəlib, kim gəlməyibdir. Bu əlaqələr genişdir və mənim bu barədə məlumatım vardır. Bu da son illərin nailiyyətidir. Bu da bizim müstəqilliyimizin nailiyyətidir.

Bir daha qeyd edirəm, biz keçmişə layiqli qiymət verərək, eyni zamanda, Azərbaycanda əldə etdiyimiz dövlət müstəqilliyini xalqımız, millətimiz üçün tarixi hadisə, böyük nailiyyət hesab edirik. Əminəm ki, Azərbaycan bundan sonra da daim müstəqil dövlət olacaqdır.

Bu müstəqillik dövründə keçid mərhələsinin bir çox çətinliklərinə baxmayaraq – ölkəmizdə bu çətinliklər həm daxili, həm də xarici vəziyyətlə əlaqədar olubdur – Azərbaycan artıq 1995-96-cı illərdən inkişaf mərhələsinə başlayıbdır. Azərbaycanda bir zaman – 1989-90-cı illərdən iqtisadiyyat ilbəil tənəzzül etdi. Amma 1995-96-cı illərdən Azərbaycanda bu islahatların keçirilməsi və yeni iqtisadi sistemin tətbiq olunması ölkəmizin iqtisadi inkişafını təmin edibdir.

Biz bütün sahələrdə, o cümlədən iqtisadi sahədə islahatlar həyata keçiririk. İqtisadiyyat genişdir – sənaye də, infrastruktur da, nəqliyyat

da, kənd təsərrüfatı da var. Biz bütün bu sahələrdə islahatlar aparırıq, özəlləşdirmə proqramı həyata keçiririk. Bunların da nəticəsində nailiyyətlərimiz vardır. Doğrudur, bu nailiyyətlər bizim istədiyimiz səviyyədə deyildir. Birincisi, ona görə ki, keçid dövründə bundan artıq bir şeyə nail olmaq bəlkə də mümkün deyildi. İkincisi də, bilirsiniz ki, keçmiş Sovetlər İttifaqına məxsus olmuş başqa respublikalardan fərqli olaraq Azərbaycan müstəqilliyini əldə edən zamandan Ermənistanla müharibə vəziyyətindədir.

Bilirsiniz ki, 1988-ci ildən Ermənistan Azərbaycana qarşı torpaq iddiası və Dağlıq Qarabağı Ermənistana birləşdirmək iddiası irəliyə sürərək münaqişəyə başlamışdır, sonra bu münaqişə müharibəyə çevrilmişdir. Bu müharibə nəticəsində çoxlu qanlar tökülüb, çoxlu itkilər verilibdir.

Müxtəlif obyektiv və subyektiv səbəblərdən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ərazisinin 20 faizi işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı vətəndaşlarımız öz yerlərindən-yurdlarından çıxarılıblar. Onlar artıq 7 ildir ki, ağır şəraitdə və əksəriyyəti çadırlarda yaşayırlar. Bu, bizim həyatımızda həm sosial-iqtisadi, həm də siyasi nöqteyi-nəzərdən ağır, ən çətin problemdir.

Biz 1994-cü ildən Ermənistan ilə atəşin kəsilməsi haqqında saziş imzalamışıq. Biz buna həmişə riayət edirik. İndi artıq döyüş, müharibə yoxdur. Amma hələ sülh də yoxdur. Biz beynəlxalq təşkilatlar – ATƏT, onun tərkibində olan Minsk qrupu vasitəsilə, Minsk qrupunun həmsədrləri – Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın iştirakı ilə sülh danışıqları aparırıq. Amma eyni zamanda, son zamanlar Ermənistan və Azərbaycan prezidentlərinin bilavasitə görüşlərinin keçirilməsi lazım olubdur. Biz bunu da həyata keçiririk. Azərbaycana çox böyük zərbələr vurulmasına baxmayaraq, bizim məqsədimiz məsələni sülh yolu ilə həll etməkdən ibarətdir. Ümid edirəm ki, biz buna nail olacağıq.

Azərbaycanın bu ağır problemi başqa ölkələrdə yoxdur. Doğrudur, Gürcüstan da buna bənzər bir problemlə yaşayır – orada Abxaziya münaqişəsi vardır, onlarda da qaçqınlar, köçkünlər vardır. Rusiyanın da özünün problemləri vardır. Böyük Rusiya üçün Çeçenistan problemi elə böyük bir problem deyildir. Amma bizim 8 milyon əhalimizdən bir milyonu qaçqın vəziyyətindədirsə, torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadırsa, demək, bu, başqa ölkələrdən çox fərqlidir.

Yenə də deyirəm, bu, bizim həyatımızı həm gərginləşdirir, həm, təbiidir ki, iqtisadi inkişafımızın sürətinin artmasına maneçilik törədir, həm də siyasi nöqteyi-nəzərdən bizim üçün zərərlidir. Amma güman edirəm ki, biz münaqişənin sülh yolu ilə həllinə nail olacağıq.

Məmnuniyyətlə deyə bilərəm ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycanda təhsil davam edibdir. Məktəblər var, hətta o çadır şəhərciklərində də məktəblər yaradılıbdır – çadırda yaşayan uşaqlar məktəbə gedirlər, təhsil alırlar. Yəni Azərbaycanda təhsildən kənarda uşaq, gənc yoxdur. Bizim Təhsil Nazirliyimiz və universitetlərimiz də bu sahədə öz fəaliyyətlərini göstərirlər.

Bu gün mən qonaqlarımızı böyük məmnuniyyətlə salamlayıram. Moskva Dövlət Universiteti keçmiş Sovetlər İttifaqında çox böyük nüfuza malik olmuş yüksək təhsil ocağıdır. O, Sovetlər İttifaqının bütün universitetləri üçün həmişə nümunə idi. Mənim həyatım belə olubdur ki, Moskvada işləyərkən – Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən bir neçə digər sahə ilə yanaşı, bu sosial-mədəni sahəyə də rəhbərlik edirdim. O cümlədən, bütün təhsil sahəsi mənim rəhbərliyim altında idi. O vaxt Sovetlər İttifaqında təhsillə bağlı üç nazirlik – Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi (bu, orta məktəblər nazirliyi idi) və Texniki Peşə Məktəbləri Nazirliyi – var idi. Bu üç nazirlik Nazirlər Soveti sədrinin birinci müavini kimi mənə bağlı idi. Ona görə də, təbiidir ki, o vaxt mən bu nazirliklərlə yaxından işləyirdim, onların müxtəlif tədbirlərində, kollegiya iclaslarında iştirak edirdim.

Xatirimdədir, o vaxt Sovetlər İttifaqında 850-yə qədər universitet var idi. Mən o zaman Ali Təhsil Nazirliyində bütün universitet rektorlarının toplaşdığı geniş müşavirələrdə bir-iki dəfə iştirak etmişəm, nitq söyləmişəm və bu işlərlə çox ciddi məşğul olmuşam. 1983-cü ildə biz Sovetlər İttifaqında ilk dəfə məktəb islahatı keçirdik. Məktəb islahatı haqqında qanunların, bütün qərarların hazırlanması mənə həvalə olunmuşdu, həmin komissiyaya mən rəhbərlik edirdim. Mən o vaxtkı Sovetlər İttifaqının parlamentində – Ali Sovetində bu barədə böyük məruzə etmişəm və həmin islahat qanunlarının və qərarlarının, demək olar ki, müəllif heyətinə başçılıq etmişəm. Ona görə də mən bunları bilirəm.

Bu baxımdan Moskva Dövlət Universitetini də çox yaxşı tanıyıram. O vaxt bu universitetin rektoru akademik Loqunov idi. O, mənə tez-tez müraciət edərdi. Mən də Moskva Dövlət Universitetinə xüsusi qayğı göstərərdim, kömək edərdim. Xüsusən, onların inşaat, maliyyə və digər işləri ilə ciddi məşğul olardım.

Moskva Dövlət Universiteti Azərbaycanda böyük hörmətə malik olubdur. 1970-ci illərdə – mən burada işləyərkən biz Azərbaycanda yüksək səviyyəli kadrların hazırlanması ilə çox ciddi məşğul olurduq. Təbiidir ki, bu kadrların hazırlanması işinin böyük bir hissəsi Azərbaycanın universitetləri, ali məktəbləri, institutları vasitəsilə aparılırdı. Amma Azərbaycanın rəhbəri kimi, şəxsən mən bunu yetərli hesab etmirdim.

İstəyirdim ki, bizim gənclər təkcə öz respublikasında – Azərbaycanda yox, kənarda da təhsil alsınlar. Təbiidir ki, o vaxt bizim imkanımız yox idi ki, gənclərimizi Almaniyaya, İngiltərəyə, Fransaya, Amerikaya təhsil almağa göndərək – bu imkan bizdə yox idi. Amma Sovetlər İttifaqının müxtəlif universitetlərində gənclərimizin təhsil alması üçün imkan əldə etmişdik. O vaxt mənim təşəbbüsümlə, sovet hökumətinin qərarı ilə Azərbaycandan ildə 800-850 gənc, demək olar ki, güzəştli imtahanlarla Sovetlər İttifaqının təxminən 40-45 şəhərindəki universitetlərə göndərilirdi.

Biz o vaxt gənclərimizi təhsil almağa ən çox Moskva Dövlət Universitetinə göndərməyə çalışırdıq. Xatirimdədir, biz ildə təxminən 150 gənci Moskva Dövlət Universitetinə göndərirdik. İndi onların çoxu ali təhsil alıb, sonra alim olublar, elmi dərəcə qazanıblar, bəziləri Rusiyada qalıb işləyiblər, çoxları Azərbaycana qayıdıblar. Ona görə də Moskva Dövlət Universitetinin rektorunun burada olması məni çox sevindirir.

Türkiyə Cümhuriyyətinin universitetləri ilə bizim əlaqələrimiz Azərbaycanda dövlət müstəqilliyi əldə olunandan sonra yaranıbdır. Amma bu əlaqələr çox sürətlə inkişaf edir. Mən bundan çox məmnunam.

Türkiyədə universitetlər tarix nöqteyi-nəzərindən Azərbaycandan xeyli sonra yaranıbdır. İndi bizim türk dostlarımız bu barədə bilməlidirlər ki, Azərbaycan çox irəlidə olubdur. Türkiyədə universitetlər yarananda sonra bu proses çox sürətlə inkişaf edibdir. Ona görə də indi Türkiyənin çox yüksək elmi, texniki, maliyyə potensialına malik olan böyük universitetləri vardır. Mən onların bir neçəsində olmuşam və olduğum universitetlərdə mənə fəxri doktor adları verilibdir.

Mən yenə də deyirəm, biz Gürcüstanla dost, qardaş bir ölkəyik. Azərbaycan, Gürcüstan, Ermənistan Cənubi Qafqazda üç ölkədir. Təbiidir, bu ölkələr o illərdə dostluq, əmin-amanlıq şəraitində yaşayırdı. Ermənistan, Gürcüstan ilə Azərbaycan arasında da çox yaxın dostluq var idi. Ancaq sonra Ermənistanın Azərbaycana torpaq iddiası ilə əlaqədar Ermənistanla əlaqələrimiz nəinki pozuldu, hətta müharibə vəziyyətinə gəlib çıxdı.

Sovetlər İttifaqı dağılandan sonra, müstəqillik əldə edəndən sonra Gürcüstanın da həyatında çox ağır proseslər getməsinə baxmayaraq, o öz müstəqilliyini qoruyub saxlayıb, inkişaf etdirir. Gürcüstan ilə Azərbaycan arasında əlaqələr səmimi dostluq, qardaşlıq əlaqələridir. Bu, bizim üçün xüsusi əhəmiyyət daşıyır. Tbilisi universiteti də çox böyük, hörmətli bir universitetdir. Mən məmnunam ki, bu universitetin də fəxri doktoru adına layiq görülmüşəm. Mən çox şadam ki, Tbilisi universitetinin rektoru da burada iştirak edir.

Burada bizim universitetin mötəbər alimləri vardır. Mən sizinlə tez-tez görüşürəm. Amma bəlkə də daha tez-tez görüşmək istəyirəm. Təbiidir ki, mən bu 80 illik yubileydə də 50 illik, 60 illik, 75 illik yubileylərdə olduğu kimi, bilavasitə iştirak etmək istəyirdim, ancaq mən sabah səhər Amerikaya yola düşürəm, burada olmayacağam. Ona görə də belə məsləhət gördüm ki, burada bir görüş keçirək.

Mən Bakı Dövlət Universitetinin 80 illik yubileyi münasibətilə təbrik məktubu göndərmişəm, orada öz fikirlərimi, arzularımı ifadə etmişəm. Bu gün sizi bir daha təbrik edirəm və universitetə yeni-yeni uğurlar arzulayıram.

Mən bu gün Bakı Dövlət Universitetinin fəaliyyətinə yüksək qiymət verərək, universitetin alimlərinin, müəllimlərinin Azərbaycanın fəxri adlarını alması, orden və medallarla təltif edilməsi haqqında fərmanlar imzalamışam. Yəqin ki, o fərmanlar bu gün sizə çatacaqdır.

Deyə bilərəm ki, mən yeddi ildir Azərbaycana müstəqillik dövründə rəhbərlik edirəm, ilk dəfədir ki, belə bir geniş təltif fərmanı imzalayıram. Doğrudur, bizim ordumuzda, döyüşlərdə fəal iştirak etmiş və canlarını qurban vermiş, şəhid olmuş gənclərimizin qəhrəmanlığını, şücaətini qiymətləndirən fərmanlarım olubdur. Ancaq həyatımızın başqa sahəsinə aid bu gün imzaladığım kimi fərmanlarım indiyə qədər olmamışdır. Bu da mənim – Azərbaycan prezidentinin Bakı Dövlət Universitetinə verdiyim yüksək qiymətdir.

Sizi bir daha təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram və ümidvaram ki, universitet bundan sonra da öz nailiyyətləri ilə xalqımıza xidmət edəcəkdir, islahatların həyata keçirilməsini tamamlayacaqdır və öz səviyyəsini – həm təhsil, tərbiyə, həm də elm səviyyəsini daha da yüksəldəcəkdir.

Təşəkkür edirəm ki, siz məni dinlədiniz. İndi əgər siz də mənə bir söz demək istəyirsinizsə, buyurun. Mən vaxtı çox aldım, amma sizə çox vaxt verə bilmərəm. Çünki mənim bu gün işlərim çoxdur.

***Abel Məhərrəmov** (Bakı Dövlət Universitetinin rektoru, professor): Möhtərəm cənab prezident!*

İlk növbədə istərdim ki, vaxtınızın belə bir dar məqamında, gərgin anda imkan tapıb bizi, universitet ziyalılarını, müəllimlərini, qonaqlarımızı qəbul etdiyinizə, bizi təbrik etdiyinizə görə sizə öz təşəkkürümüzü bildirək.

Çox düzgün buyurdunuz, – universitet 80 il ərzində şərəfli yol keçmişdir. Bu şərəfli yolun ən intibah dövrü, tarixi sizin respublikaya rəhbərlik etdiyiniz vaxta düşür. Bu, universitetin son otuz illik fəaliyyətidir.

Azərbaycan gənclərini müəyyən ixtisaslar üzrə təhsil almaq üçün Rusiyanın ali məktəblərinə göndərirdiniz. Onlardan biri də mən

özüməm. O vaxt biz sizin qayğınızı hiss etmişik. Bu gün o insanlar universitetlərin, o cümlədən də Bakı Dövlət Universitetinin elmi potensialına çevrilən insanlardır.

Yaxşı yadımızdadır, mən o vaxt, 1969-cu ildə tələbə idim. Universitetin 50 illik yubileyini necə yüksək səviyyədə keçirdiniz! İlk dəfə olaraq orada milli dilimizdə çıxışınız bu gün hamımızın xatirindədir. Bildiyiniz kimi, universitetin 60,75 illik yubileyləri sizin adınızla bağlıdır. Mən hesab edirəm ki, bugünkü 80 illik yubiley də sizin adınızla bağlıdır.

Bakı Dövlət Universitetinin kollektivi Azərbaycan elminin bayraqdarı olan universitet təhsilini, elmini Dünya Birliyinə çıxardı, onun inteqrasiyasına zəmin yaratdı. Bu imkanı da bizə yaratdığınız üçün sizə minnətdarlığımızı yetiririk və sizi əmin edərək bildiririk ki, Bakı Dövlət Universitetinin kollektivi bütün əməli fəaliyyəti ilə bundan sonra da Azərbaycan dövlətçiliyini müdafiə edəcək və Azərbaycan dövlətinin rəhbəri, möhtərəm prezident, sizin daxili və xarici siyasətinizi bundan sonra da dəstəkləyəcəkdir.

Viktor Sadovniçi *(Moskva Dövlət Universitetinin rektoru, Avrasiya Universitetləri Assosiasiyasının prezidenti, Rusiya Elmlər Akademiyasının akademiki):* Heydər Əliyeviç, ölkənizdə təhsilə göstərdiyiniz qayğıya görə, bir prezident kimi, Sizə Moskva universiteti adından sağ olun demək istəyirəm.

Əlbəttə, biz başqa ölkələrdə nə kimi universitetlər olduğuna biganə deyilik və başa düşürük ki, Bakı Dövlət Universiteti sizin qayğınız sayəsində çiçəklənir, yaxşı yoldadır.

Bir məsələ barəsində də bir neçə kəlmə demək istərdim. Heydər Əliyeviç, mən o dövrə mənsubam ki, həmin dövrdə sizin yüzlərlə gənc aliminiz Moskva universitetində oxuyurdu. Mənim aspiranturada oxuduğum gənclik illərim sizin adamlarla – Maqsud Fərmanovla, Zülal Abverdiyevlə birlikdə keçmişdir. Mən Rəsulovun, Xəlilovun kitablarından dərs almışam. Elə burada əyləşən bir çox dekanlarla da Moskva universitetində bu və ya başqa cür görüşmüşük, yaxud bir yerdə oxumuşuq.

O illər gözəl illər idi. O vaxtlar biz məktəbimizin, elmi məktəblərimizin görünməmiş dərəcədə yüksək səviyyəsini birlikdə yaradırdıq. Buna görə də istərdik ki, bu ənənələr davam etdirilsin. Hər bir təhsil sisteminin öz xüsusiyyətləri var, lakin elm və təhsil bütövlükdə beynəlmiləldir. Əlbəttə, universitetlərimiz arasında əlaqələr gələcəkdə böyük rol oynayacaqdır.

Demək istəyirəm ki, mənə Rusiya Rektorlar İttifaqına, – bu isə min universitetdir, – və sizin universitetin də daxil olduğu Avrasiya Universitetlər Assosiasiyasına başçılıq etmək etibar olunubdur. Biz bu assosi-

asiyanı Sovet İttifaqının dağıldığı vaxtlarda yaratmışıq və dostluğumuzu çox qiymətləndiririk. Avrasiya assosiasiyasının qurultaylarından biri Bakıda keçirilmişdir. Biz mart ayında Moskva universitetində konfrans keçirmək niyyətindəyik və sizin professorların böyük bir nümayəndə heyətini dəvət etmək istəyirik. İstəyirik ki, nəinki rəhbərlik, həm də professorlar, alimlər gəlsinlər, bir-birilə ünsiyyətdə ola bilsinlər. Bu konfransın keçirilməsi qayğısını Moskva universiteti öz üzərinə götürür.

Hörmətli prezident, sözümü bitirərək, sovet məktəbinin inkişafına verdiyiniz töhfəyə görə Sizə sağ olun demək istəyirəm. Mən şəxsən Sizə çoxlu məktub yazmışam və həmişə də dəstək almışam. Heydər Əliyeviç, ona görə də biz Moskva universitetində sizi sevir, qiymətləndiririk və tutduğunuz yolda sizə çoxlu-çoxlu yaradıcılıq illəri arzulayırıq.

Moskva universiteti adından ən əziz hədiyyəmizi – vaxtilə dəstəkləmiş olduğunuz Moskva universiteti haqqında fotoalbomu, habelə ali mükafatımızı – Moskva Dövlət Universitetinin medalını sizə minnətdarlıq hissi ilə təqdim etmək istərdim. Çox sağ olun.

Heydər Əliyev: Mən Sizə təşəkkürümü bildirirəm. Mən milli dilimizdə danışırdım, lakin ümidvaram ki, sizə hər şeyi tərcümə ediblər.

Bir daha demək istəyirəm ki, dünyanın hamımız üçün açıq olduğu indiki vaxtda biz müxtəlif ölkələrin universitetlərini görürük, müqayisə etmək imkanımız var və nəyə malik olduğumuzu daha düzgün qiymətləndirə bilirik. Ola bilsin, bağlı cəmiyyətdə yaşadığımız dövrdə bizə elə gəlirdi ki, haradasa başqa yerdə xüsusi möcüzə var. Dünyada məşhur olan bəzi universitetlər bizdə həmişə qeyri-adi bir şey təəssüratı yaradırdı. Əlbəttə, bununla mən onların əhəmiyyətini və ləyaqətini azaltmaq istəmirəm, ancaq eyni zamanda Sovetlər İttifaqı dövründə fəaliyyət göstərmiş universitetlər yüksək səviyyədə idilər.

Əlbəttə, xüsusilə Moskva Dövlət Universiteti. Keçmişdə bu sahə ilə yaxından təmasda olduğum üçün cəsarətlə deyə bilərəm ki, Moskva Dövlət Universiteti dünyanın ən yüksək universitetləri ilə bir səviyyədədir. Onun hazırladığı kadrlar da, həqiqətən, ən yüksək ixtisasa malik kadrlardır. İstərdim ki, siz bu ənənəni saxlayasınız. Mənim istəyim hətta bundan da artıqdır. İstərdim ki, siz bir yerdə dayanmayasınız və indi, dünya təcrübəsindən bəhrələnərək, – bu təcrübə indi sizdə əvvəlkindən daha çoxdur, – elə edəsiniz ki, Moskva universiteti həmişə zirvədə dayansın. Mən bunu ürəkdən arzulayıram.

Xahiş edirəm kollektivinizə, professorlarınıza, mənim tanıdığım və məni tanıyan hər kəsə salamımı və ən xoş arzularımı çatdırasınız. Məsələ burasındadır ki, mən şəxsən çox adamı tanımasam da, onların hamısı məni tanıyırdı. Çox sağ olun.

Viktor Sadovniçi: Heydər Əliyeviç, çox sağ olun. Mən sizin arzularınızı çatdıracağam.

Ənvər Həsənoğlu (Ankara Qazi Universitetinin rektoru, professor): Hörmətli cümhur başkanım!

Biz Bakı Dövlət Universitetindən dəvət aldıq və canlı olaraq, üzbəüz görüşmək istədik. Çünki biz babalarımız, dədələrimiz bir olan qan qardaşlarıyıq. Hüzurunuzda bunları söyləmək istədim.

Mən Bakını çox gəzmişəm. Bakı şəhəri çox inkişaf edibdir və bu, davam etməkdədir. Bu da sizin rəhbərliyiniz altında gedir. Dünən Bakı Dövlət Universitetini gördüm. Xarici çox dəyişmişdir. Yalnız xarici deyil, məzmunu da dəyişmişdir. Elə onun üçün icazənizlə, qarşınızda bunları söylədim.

Bakı Tibb Universitetini də ziyarət etdim. Çox inkişaf etmişdir. Ona görə də biz buraya gəlməklə, bizi buraya dəvət etməklə Bakını bir daha yaxından görmək imkanı verdiniz. Sizə Allahdan cansağlığı, uzun ömür diləyir, Allah gücünüzü artırsın, – deyirəm. Təşəkkür edirəm.

Heydər Əliyev: Qazi Universiteti Türkiyənin ən mötəbər universitetlərindən biridir və bəlkə də aparıcı universitetdir. Ona görə mən çox məmnunam ki, siz buradasınız və Azərbaycan haqqında, onun bu günü haqqında belə çox xoş sözlər dediniz. Təşəkkür edirəm.

Günay Akbay (Ankara Universitetinin rektoru, professor): Görüşdə çıxış edərək dedi:

Hörmətli cümhur başkanım!

Mən Sizinlə görüşdən böyük şərəf duyduğumu söyləmək istəyirəm. Çünki doğrudan da mənim üçün bu ziyarət böyük bir şərəfdir. Təşəkkür və minnətdarlığımı ərz edirəm.

Qarşınızda hörmətli rektora təşəkkür etmək istəyirəm. Mən Bakıya sonuncu dəfə 1993-cü ildə gəlmişdim. Amma bu gəlişim zamanı həqiqətən də Azərbaycandakı inkişafı, universitetinizdəki inkişafı bir daha görməkdən böyük məmnunluq duydum. Sizi təbrik edirəm. Ankara Universiteti olaraq həyata keçirdiyimiz işbirliyini daha da genişləndirməyi, möhkəmləndirməyi arzu edirəm. Bütün Ankara Universiteti adından, öz adımdan sizə ən dərin hörmət və ehtiramımı bildirirəm.

Heydər Əliyev: Təşəkkür edirəm. Çox sağ olun.

Süha Sevik (Türkiyənin Ortadoğu Texniki Universitetinin rektoru, professor): Hörmətli cümhur başkanım!

Mən də bu ziyarətim zamanı Azərbaycanın universitetlərindəki inkişafı gördüm və böyük məmnuniyyət hissi keçirdim. Arkadaşlarımızdakı sevinci gördüm. Hörmətli naziri və hörmətli rektoru təbrik edirəm,

uğurlar arzulayıram və sizə neçə belə səksən illər yaşamağı arzulayıram. Sağ olun.

Heydər Əliyev: Təşəkkür edirəm.

Lütfü Çaxmaqçı (Süleyman Dəmirəl adına İsparta Universitetinin rektoru, professor): Hörmətli cümhur başkanım!

Səmimi dəvətinizə görə ayrıca Sizə və hörmətli nazirinizə və Bakı Dövlət Universitetinin rektoruna təşəkkür edirəm. Biz, Süleyman Dəmirəl adına İsparta Universiteti sizin universitet ilə işbirliyinə gedəcəyik. Əgər qəbul edirsinizsə, İspartada fəxri doktor adı aldığınız zaman çəkilmiş şəkilləri Sizə təqdim etmək istəyirəm.

Heydər Əliyev: Təşəkkür edirəm. Çox sağ olun. Bəli, mən Süleyman Dəmirəl adına İsparta Universitetinin fəxri doktoruyam və bir müddət bundan öncə orada oldum. Qısa bir zamanda bu universitet nə qədər böyük nailiyyətlər əldə etmişdir, nə qədər böyümüşdür, genişlənmişdir! Mən onu gördüm və çox heyran oldum. Sizi bir də təbrik edirəm.

Roin Metreveli (Tbilisi Dövlət Universitetinin rektoru, Gürcüstan Elmlər Akademiyasının akademiki): Cənab Prezident, bu gün Tbilisi universitetinin ünvanına söylədiyiniz səmimi sözlərə görə sizə çox minnətdaram.

Tbilisi universitetinin rektoru kimi fəxr edirəm ki, Siz – ali təhsil üçün çox işlər görmüş, ali məktəbə çox qüvvə sərf etmiş bir insan Tbilisi Dövlət Universitetinin fəxri doktorusunuz. Sağ olun ki, Siz nəinki özünüzün Bakı universitetini, həm də bizim universiteti dəstəkləyirsiniz.

Prezidentimiz Eduard Şevardnadze iki gün bundan əvvəl universitetimizə gəlmişdi. Mən ona məlumat verdim ki, Bakı Dövlət Universitetinin 80 illik yubileyini təbrik etmək üçün Bakıya gedirəm. O, hamıya və şəxsən Sizə ən xoş arzularını yetirməyi xahiş etdi.

Nə gizlədim, sabah çıxış edəcəyəm və iki prezident arasındakı – Heydər Əliyev ilə Eduard Şevardnadze arasındakı böyük dostluğu nümunə gətirmək istəyirəm. Bu, bizim üçün həqiqətən, böyük işdir.

Balaca bir təklifim var. Siz bizim prezidentimizlə birlikdə Ümumqafqaz evi üçün çox böyük işlər görmüsünüz – mən həm iqtisadiyyatı, həm də siyasəti nəzərdə tuturam. Olduqca maraqlı layihələr var və onların bəziləri həyata keçirilir. Biz – Bakı və Tbilisi universitetləri bu işə böyük həvəslə qoşulardıq. İstərdik ki, bizim potensialımızı nəzərə alasınız və bizi bu işə yönəldəsiniz. Sağ olun.

İcazə verin mən də Gürcüstan haqqında kitabımı sizə təqdim edim.

Tahsin Nuri Durlu (Türkiyənin Kırıkkala Universitetinin rektoru, professor): Hörmətli cümhur başkanım!

Bakı Dövlət Universiteti türk dünyasında qürur duyduğumuz bir təhsil və araşdırma abidəsi olmuşdur. Sizin qarşınızda müəllimləri təbrik edirəm. Biz Azərbaycanı və sizləri çox sevirik. Hörmət və ehtiramımı ərz edirəm.

Heydər Əliyev: Təşəkkür edirəm. Çox sağ olun.

***İbrahim Yıldırım** (İstanbul Universitetinin Akademik Əlaqələr İdarəsinin rəisi): Hörmətli cümhur başkanım!*

Biz buraya çox böyük sevinclə gəldik. Yəqin ki, xatırlayarsınız – biz qrupumuzla birlikdə Bakıya bir dəfə də gəlmişdik və siz bizi qəbul etmişdiniz. Həmin görüşdən duyduğumuz sevinci yaşayırıq və bu gün siz bizə yeni böyük sevinc bəxş etdiniz. Azərbaycanın altı universitetinin İstanbul Universiteti ilə əməkdaşlıq sazişi vardır. Universitetimizin xarici tələbələri sırasında öz arkadaşlarımız olan 260 azərbaycanlı tələbə də vardır və bizim ali təhsil ocağında oxuyurlar.

Mən son illərdə Azərbaycanın istər dövlət universitetlərinin, istərsə də özəl universitetlərinin necə nailiyyətlər əldə etdiyinin şahidi oldum, onlara necə şərait yaradıldığını gördüm. Amma məni ən çox məmnun edən orada çalışan insanların, idarəedənlərin böyük sevinc daşıması, daha gözəl, daha yaxşı iş görmək üçün çalışmalarıdır. Bu, təbii ki, sizin yaratdığınız sevinc və yardımla həyata keçirilmişdir.

Bir arzumu da ərz etmək istəyirəm. Siz Türkiyəyə gedib bir çox universitetləri ziyarət etmisiniz. Sizi Türkiyənin ən qədim universiteti olan İstanbul Universitetində də görmək istəyirik. Sizə yalnız elmə diqqət və qayğınız üçün deyil, bütün türk dünyasına göstərdiyiniz böyük qayğılar üçün də təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.

Heydər Əliyev: Təşəkkür edirəm.

Abel Məhərrəmov: Cənab prezident, siz bu gün bizim universitetin əməkdaşlarını təltif etmisiniz. Kollektivimiz deyir ki, bizim də bir arzumuz var və onu bu gün yerinə yetirməliyik. Siz bizim universitetin həm fəxri məzunu, həm də fəxri doktorusunuz. O diplomu neçə illərdir Sizə verə bilmirik. İstərdim ki, hörmətli həmkarlarımın iştirakı ilə bu missiyanı həyata keçirək, fəxri doktor diplomunu, Qızıl medalını və mantiyasını sizə təqdim edək.

***Heydər Əliyev:** (zarafatla):* Bəs 1994-cü ildən bəri niyə verməmisiniz, mənim hüquqlarımı pozmusunuz.

Çox sağ olun.

YEKUN NİTQİ

Türkiyədən bir çox universitetlərin rektorlarının Azərbaycana gəlməsi təbiidir. Çünki, – siz burada qeyd etdiniz, – Türkiyə universitetləri ilə Azərbaycan universitetləri arasında əlaqələr çox genişdir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri də sizə məlumdur. Mən bir neçə universitetdə olmuşam, mənə doktor adı veriblər. Amma mən universitetə heç də ona görə getmirəm ki, doktor adı alım. Məsələn, bizim universitet 1994-cü ildə bu adı mənə verib, amma imkanım olmayıb ki, mənə təqdim etsinlər.

Türkiyə-Azərbaycan əlaqələri genişlənir və bundan sonra daha da genişlənəcəkdir. Bizim dostluğumuz çox böyük təməllər əsasındadır. Bilirsiniz ki, mən Türkiyədə tez-tez oluram. İndi, üç ay tamam olmayıb, mən Türkiyədə üç dəfə olmuşam. Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəli də Azərbaycana bağlayan sıx dostluğu, böyük məhəbbətidir. Mən hesab edirəm ki, Türkiyə Cümhuriyyəti, onun vətəndaşları çox xoşbəxtdirlər ki, beynəlxalq aləmin bu çətin dövründə Süleyman Dəmirəl kimi böyük bir şəxsiyyət, siyasi xadim Türkiyənin cümhur başkanı, prezidentidir.

Türkiyədə çıxışlarımda, nitqlərimdə də demişəm – mən böyük iftixar hissi keçirirəm ki, Türkiyənin Mustafa Kamal Atatürk Sülh Mükafatı Komissiyası və Türkiyə dövləti keçən il mənə o mükafatı – Atatürk Sülh Mükafatını vermişdir və təntənəli şəraitdə mənə təqdim etdilər. Mən bilirəm ki, bu mükafat nə qədər səviyyəli, yüksək qiymətə layiq olan mükafatdır. Bilirəm ki, 16-18 il bundan öncə təsis olunub, amma çox az insanlar bunu alıbdır. Mənə belə yüksək qiymət verildiyinə görə çox məmnunam və təşəkkür edirəm.

Son dəfə İsparta Universitetində hörmətli dostum, qardaşım Süleyman Dəmirəl ilə bərabər idik. Bu səfər məni heyran etdi. İspartada, – təkcə orada yox, zəlzələ ilə əlaqədar mən Kocaeliyə də getmişdim, orada xalqla görüşmüşdüm, Türkiyədə çox yerlərdə xalqla görüşmüşəm, – xalqın, millətin Süleyman Dəmirələ nə qədər hörməti, böyük inamı, ehtiramı olduğunun şahidiyəm.

Siz bilməlisiniz – alimsiniz, professorsunuz, güman edirəm ki, siyasətlə də maraqlanır, siyasəti də bilirsiniz – Süleyman Dəmirəl beynəlxalq aləmdə ən yüksək səviyyədə duran, təcrübəli bir siyasi liderdir. 1975-ci ildə Helsinkidə ilk dəfə Avropa anlaşması imzalananda onu 35 ölkə imzalayıbdır. Bu ölkələrdən biri Türkiyədir. İndi ATƏT-in əsas nizamnaməsi olan bu anlaşmanı Süleyman Dəmirəl imzalayıbdır. İmza

atan 35 nəfərdən indi siyasi səhnədə qalan təkcə Süleyman Dəmirəldir, çoxları da həyatdan getmişdir. Bunun özü tarixi bir hadisədir.

Demək, Süleyman Dəmirəl nadir şəxsiyyətdir. O vaxtdan 25 ildən artıq keçib, amma o, bu gün də beynəlxalq aləmdə böyük siyasi fəaliyyətdədir.

Bilirəm ki, bu ilin may ayında sizdə prezident seçkiləri olacaqdır. Mən Türkiyədə olanda həm Süleyman Dəmirəl universitetində, həm də mənə Beynəlxalq Atatürk Sülh Mükafatı veriləndə demişdim və bu gün də deyirəm: Süleyman Dəmirəl təkcə Türkiyəyə yox, bizə də lazımdır. Qafqaza lazımdır, türk dünyasına lazımdır. Dünyanın bugünkü siyasətinə lazımdır.

Bilirsiniz ki, Süleyman Dəmirəlin və mərhum Turqut Özalın təşəbbüsü ilə 1992-ci ildə Ankarada Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Ona beş dövlət daxildir. Beş dövlətin prezidentlərinin lideri də Süleyman Dəmirəldir.

Bizim dostumuz, qonşumuz Gürcüstan və onun prezidenti hörmətli Eduard Şevardnadze Türkiyənin ən yaxın dostudur. Bu dostluq əlaqələri də çox səmimidir.

Mən bu barədə bir neçə görüşlər keçirdim və Türkiyədə olarkən bunu bəyan etdim. Moskvada olarkən biz beş nəfər – Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan prezidentləri, bir də Gürcüstan prezidenti bir daha danışdıq ki, öz birliyimizin gələcəyi haqqında düşünməliyik. Ona görə də mən altı prezidentin, dövlət başçısının fikrini ifadə edərək Türkiyədə dedim ki, Süleyman Dəmirəl təkcə Türkiyə üçün yox, bütün bizim ölkələrimiz üçün lazımdır. Ona görə də biz istəyirik ki, dostumuz, qardaşımız Süleyman Dəmirəli bu seçkilər zamanı yenidən Türkiyənin cümhur başkanı seçəsiniz.

Hörmətli rektor, siz doğru dediniz ki, Gürcüstanla Azərbaycan arasında dostluğun xüsusi xarakteri var. Bütün tarixi izləyin və görəcəksiniz ki, gürcü və Azərbaycan xalqları arasında heç vaxt münaqişələr olmayıbdır. Heç vaxt, heç bir münaqişə! Həmişə dostluq olub, həmişə qarşılıqlı yardım olub, həmişə qarşılıqlı anlaşma olubdur.

Gürcüstanda 500 min azərbaycanlı yaşayır, onlar bu torpağın yerli sakinləridir, müstəqil, suveren Gürcüstanın tam hüquqlu vətəndaşlarıdır.

Məni dostum Eduard Şevardnadze ilə 32 illik dostluq telləri bağlayır. Bu dostluq bir çox sınaqlardan keçibdir. Tale elə gətirib ki, hər ikimiz Moskvada işləmişik, sonra isə, Gürcüstan və Azərbaycanın vəziyyəti ağır olanda xalqlarımız bizdən geri, öz ölkələrimizə qayıtmağı tələb etdilər. Eduard Şevardnadze Gürcüstana qayıtdı, mən Azərbaycana qayıtdım. Belə mürəkkəb keçid dövrünün uzun illəri ərzində dövlət-

lərarası münasibətlərimizdə bir çox məsələlərin həlli üçün bizim şəxsi dostluğumuzun – Eduard Şevardnadzenin və Heydər Əliyevin dostluğunun olduqca böyük əhəmiyyəti var. Yəni xalqlarımızı möhkəm dostluq telləri bağlayır, Eduard Şevardnadze ilə bizi dostluq telləri bağlayır. Bu isə təminat verir ki, biz – Gürcüstan və Azərbaycan – Cənubi Qafqazda layiqli rol oynayacağıq, Qafqazın dinc, sabit və çiçəklənən bölgə olması üçün hər şeyi edəcəyik.

Bilirəm ki, hazırda Gürcüstanda prezident seçkiləri kampaniyası başlamışdır. Təbiidir ki, bütün seçkilər demokratiya prinsipləri əsasında keçir. Lakin hər bir kəs demokratiya prinsiplərini əsas tutaraq, öz fikrini söyləmək hüququna malikdir. Öz fikrimi ifadə edərək, bütün Gürcüstan vətəndaşlarına üzümü tutub deyirəm: gürcü xalqı, Gürcüstan vətəndaşları bunun qədrini bilməlidirlər ki, Eduard Şevardnadze ağır illərdə öz ölkəsinə, öz xalqına başçılıq edir və uğurlar qazanır. Şübhəsiz ki, gürcü xalqı, Gürcüstan vətəndaşları bunu layiqincə qiymətləndirəcək, müdriklik göstərəcək və apreldə öz səslərini Eduard Şevardnadzeyə verəcəklər.

Mən martın əvvəllərində Gürcüstanda olacağam. Orada öz fikrimi daha geniş auditoriya qarşısında deyəcəyəm. Lakin bu gün, indiki görüşümüzdən istifadə edərək, bunu deyirəm və çox xahiş edirəm ki, mənim bu sözlərimi professor və alimlərinizə, ziyalılarınızın nümayəndələrinə və mümkün olan hər bir kəsə çatdırasınız.

Deyirəm ki, hazırda ölkələrimiz inkişafın çox mürəkkəb mərhələsindədirlər. Həm öz ölkəsində, həm də Dünya Birliyində nüfuza malik siyasi liderlər gərəkdir. Eduard Şevardnadze gürcü xalqının məhz belə bir oğludur. Hesab edirəm ki, gürcü xalqı müdriklik göstərəcəkdir. Mənim salamımı, ən xoş arzularımı ona yetirin, deyin ki, mən martın əvvəllərində Gürcüstanda olacağam.

Sizin hamınızı bir daha təbrik edirəm. Doğrudur, mənim vaxtımı çox aldınız, işlərimin hamısı tökülüb qaldı. Ancaq mən heyifsilənmirəm, ona görə ki, yaxşı görüş keçdi. Sağ olun.

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ*

19 iyun 2000-ci il

Hörmətli xanımlar və cənablar!

Hörmətli professorlar, müəllimlər!

Əziz tələbələr!

Mən sizi və sizin simanızda Tibb Universitetinin bütün müəllim və tələbə kollektivini, ölkəmizin bütün səhiyyə işçilərini Azərbaycan Tibb Universitetinin 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm və universitetə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Tibb Universitetinin, Tibb İnstitutunun – vaxtilə ona hətta «medinstitut» deyirdilər, demək, onun üç adı xatirimizdədir – böyük tarixi vardır. O öz əsasını 1919-cu ildə yaranmış Bakı Dövlət Universitetindən götürmüşdür. Yəni hazırlanmış həkim, müəllim kadrlarının, müəyyən qismi tibb sahəsində olan alimlərin gücü, onların imkanları ilə nəhayət, 1930-cu ildə Azərbaycanda Tibb İnstitutu yarandı. 1990-cı ildə isə bu Tibb institutuna universitet adı, statusu verdilər.

Bu, böyük tarixdir. Tibb universiteti ötən 70 il ərzində çox böyük, şərəfli yol keçibdir, Azərbaycan xalqına, respublikasına, millətimizə əvəzsiz xidmətlər göstəribdir.

XX əsrdə həyatın bütün sahələri – təhsil, elm güclü inkişaf etməyə başlayıbdır. Bu, Azərbaycana da aiddir. Xüsusən, 1918-ci ildən etibarən Azərbaycanda da milli elmin, təhsilin, bütün sahələrdə milli kadrların yaranması prosesi başlayıbdır. Doğrudur, bu o qədər də asan keçməyibdir. Çünki hansısa bir sahədə kadrlar, mütəxəssislər yetişdirmək üçün gərək onları hazırlayan, bilik nöqteyi-nəzərindən onlardan yüksək səviyyədə duran kadrlar, müəllimlər, insanlar olsun. Ancaq Azərbaycanda onlar az olub. Az olmalarına baxmayaraq, çox işlər görüblər.

1919-cu ildə Bakı Dövlət Universitetində tibb fakültəsi yarananda orada təxminin 20, yaxud 30 nəfər müdavim var idi. Xatirimdədir, 1930-cu ilə qədər orada 1500-ə qədər həkim, səhiyyə işçisi hazırlanmışdı. Ancaq 1930-cu ildə Azərbaycan xalqı, respublikası özünün xüsusi ali tibb müəssisəsini yaratmaq imkanı əldə etdi və bunu da yaratdı.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 28-ci kitab. B., Azərnəşr, 2009, s. 196-209

Bunlar hamısı keçmişdə qalıbdır. Ancaq bunlar bizim tariximizin çox parlaq səhifələridir. Qeyd etdiyim kimi, 70 il ərzində bu universitet xalqımıza əvəzsiz xidmətlər göstəribdir.

XX əsr hər bir sahədə böyük inqilablar əsridir. «İnqilab» deyəndə təkcə siyasi inqilab nəzərdə tutulmur, elmdə, texnikada, təhsildə, mədəniyyətdə, hər bir sahədə inqilab deməkdir. Siyasi inqilab bir hakimiyyəti, yaxud bir siyasi sistemi devirir, başqasını yaradır. Bu, məhdud anlayışdır. Ancaq geniş mənada inqilab eyni zamanda təkamül xarakteri daşıyır.

Bax, bu inqilabın, prosesin içərisində Azərbaycan xalqı da öz yerini tapıbdır. Azərbaycan xalqının əsrin əvvəlindəki gününü xatırlayın. İndi biz XX əsrin son ilini yaşayırıq. Tarixi nöqteyi-nəzərdən 100 il böyük bir zaman deyildir. Təqvim üzrə bəşəriyyətin 2000 illik tarixi var. Amma bu 2000 il sadəcə, müəyyən bir nöqtədən götürülür. Lakin bəşəriyyətin, insanın, Yer kürəsində yaşayan insanların on min illərlə tarixi vardır. Ona görə də tarixi baxımdan 100 il böyük bir zaman deyildir. Amma 100 il müddətində dünyada o qədər dəyişikliklər olubdur ki, bunlar ondan öncəki bütün 1900 il ərzində əldə edilən nailiyyətlərdən qat-qat üstündür.

Bilirsiniz ki, Yer kürəsində çox insanlar yaşayır. Kimlərsə bu sıçrayışın, yaxud da inkişafın ön cərgəsində, kimlərsə onların arxasınca gedibdir – mən xalqları, millətləri deyirəm, – kimlərsə də hələ çox geri qalıbdır. Bu gün biz iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan xalqı geri qalmayıbdır. Azərbaycan xalqı irəlidə gedən xalqların arxasınca gedərək, bəşəriyyətin əldə etdiyi elmi, texniki nailiyyətlərdən istifadə etməyə çalışıbdır, bunun üçün də birinci növbədə öz milli təhsilini yaradıbdır. Bu, XX əsrdə bizim əldə etdiyimiz ən böyük nailiyyətdir. Çünki əgər xalqımız təhsillənməsəydi, savadlanmasaydı, nəhayət, Azərbaycanın özünün milli ali təhsil müəssisələri – institutları, universitetləri yaranmasaydı, indi biz müstəqil dövlət olaraq bu cür böyük imkanlara malik ola bilməzdik.

Ali təhsil və onunla bağlı olaraq elm, mədəniyyət vəhdət təşkil edir. Azərbaycan xalqı XX əsrdə bu istiqamətlərdə çox irəliyə gedib, çoxlu nailiyyətlər əldə edibdir. İndi biz müstəqil dövlət olaraq, heç bir şeydən çətinlik çəkmirik. Yəni dövlət quruculuğunda, iqtisadiyyatda və başqa sahələrdə bizim çox çətinliklərimiz, problemlərimiz vardır. Amma insan amili, insanın biliyi nöqteyi-nəzərindən bizim çətinliyimiz yoxdur.

Bizim hər sahədə yüksək səviyyəli kadrlarımız var, hətta bəlkə də həddindən çoxdur. Təbiidir ki, onların hamısının səviyyəsi bir deyildir. Bu da təbii bir haldır, çünki mənə elə gəlir, hamının bir səviyyədə olması mümkün deyildir. Təkcə adına görə yox, həm böyük, həm orta, həm də

kiçik alim vardır. Alim olmaq üçün birincisi, gərək fitri istedada malik olasan. İkincisi, gərək fitri istedadından istifadə edib, seçdiyin sənəti sevəsən və həmin elm sahəsini mənimsəmək üçün fədakarlıq göstərəsən. Üçüncüsü, gərək sən öz üzərində daim işləyəsən və bunların nəticəsində də böyük alim, müəllim ola bilərsən.

Bütün bunlar isə hər bir şəxsə mənsub olmur. Ona görə də xalqın içərisindən çox görkəmli şəxsiyyətlər – alimlər, müəllimlər çıxır, qalan bütün hissəni təhsilləndirir, insanlara elm öyrədir, onların inkişaf etməsinə səbəb olur.

Azərbaycan üçün təhsil və elm sahələri içərisində ən əhəmiyyətli sahə tibb, səhiyyə sahəsidir. Mən bununla onu demək istəmirəm ki, digər sahələr vacib deyildir. Bunu niyə vurğulayıram? Çünki Yer kürəsinin zənginliyi birincisi, onun təbiəti, faunası və florasıdır, ikincisi isə, başqa planetlərdən fərqli olaraq Yer kürəsində yaşayan insanlardır. İnsanlar yaşayır, həyat sürür, yaşamaq, yaxud başqa məqsədlərə nail olmaq üçün zəhmət çəkir. Məhz bu insanlar əsrlər, minilliklər boyu cəmiyyəti inkişaf etdiriblər. İnsanların fədakarlığı nəticəsində cəmiyyət böyük elmi tərəqqiyə nail olubdur. İndi, bizim əsrdə elmi-texniki tərəqqi o qədər yüksək səviyyəyə çatıbdır ki, təsəvvür etmək mümkün deyildir ki, bundan sonra nə olacaqdır. Amma olacaqdır. İnsanın zehni, beyni, bacarığı bizim təsəvvür etdiyimizdən də qat-qat çox güclüdür. Ona görə biz də, gələcək nəsillər də daha yeni, böyük hadisələrin şahidi olacağıq.

Yer kürəsindəki insanların hərəsi öz fəaliyyətini bir sahədə göstərir. Hər bir sahə lazımdır. Amma özünü həkim sənətinə, insanların sağlamlığına, səhhətinə həsr edənlər ən qiymətli insanlardır. Çünki hər bir sahədə işləyən insan canlı bir orqanizmdir. Bu canlı orqanizm nə qədər sağlam olsa, öz sahəsində o qədər də yeni ixtiralar edəcək, nailiyyətlər qazanacaq və cəmiyyəti irəli aparacaqdır. Demək, insan sağlamlığı ən əsas amillərdən biridir. Ona görə də mən belə hesab edirəm ki, həkimlik sənəti, yəni insanın sağlamlığının qorunması və müxtəlif xəstəliklərdən xilas edilməsi, onun daha da çox yaşaması üçün çalışan sahə tibb, səhiyyə sahəsidir. Mən bunu heç bir kitabdan oxumamışam və heç kimin fikrini demirəm. Bu mənim şəxsi fikrimdir, amma o həqiqətdir. Çünki həkim, tibb işçisi – lap kiçikdən başlayaraq yuxarıyadək – öz həyatını, biliyini, bacarığını insanların sağlamlığına sərf edir. Dünyada ən sağlam adam da həkimə möhtacdır. Ona görə ki, onu həm xəstəlikdən müalicə etsin, həm də sağlamlığının səviyyəsini müəyyənləşdirsin. Təsadüfi deyildir ki, səhiyyə sahəsində ən əsas istiqamətlərdən biri insanların vaxtaşırı profilaktikadan keçirilməsidir. Doğrudur, bu çox böyük proqramdır.

Xatırlayıram ki, mən 1983-1984-cü illərdə Moskvada işləyərkən, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olarkən səhiyyə sahəsinə də rəhbərlik edirdim. Onda biz Sovetlər İttifaqı əhalisinin ildə bir dəfə mütləq profilaktikadan keçməsi proqramını irəli sürdük. Bu çox ağıllı və dəyərli bir fikir idi. Biz onun üzərində işləməyə başladıq və müəyyən işlər də gördük. Bu o qədər ağır, çətin işdir ki, o vaxt onu təmin etmək, demək olar ki, mümkün deyildi. Bu indi də mümkün deyil. Amma vaxt gələcək, bu mümkün olacaqdır. Çünki cəmiyyət inkişaf etdikcə, səhiyyənin imkanları artdıqca, təbiidir ki, buna da nail olmaq mümkündür. Ancaq mən onu demək istəyirəm ki, hətta hər bir sağlam insanın sağlamlığının səviyyəsini vaxtaşırı yoxlamaq zərurəti onu yenə də həkimin yanına, səhiyyə müəssisəsinə – poliklinikaya, ambulatoriyaya, xəstəxanaya aparır.

Mən bunların hamısını deyərək, öz ixtisasınızın, sənətinizin, peşənizin və fəaliyyət göstərdiyiniz sahənin insan cəmiyyəti üçün nə qədər əhəmiyyətli olduğunu sizə çatdırmaq istəyirəm. Güman edirəm, bunları bilirsiniz, ancaq yəqin ki, onları məndən eşitmək sizin üçün xoş olardı.

Azərbaycanda tibbi ali təhsilin yaranması və inkişaf etməsi tarixi bir hadisədir. Biz onu yüksək qiymətləndirməliyik. Təsəvvür edin, 70 il ərzində Tibb Universiteti 50 mindən artıq həkim hazırlayıbdır. Başqa ölkələrlə müqayisə etsək, bəlkə də bizdə insanların sayına nisbətdə həkimlərin sayı müəyyən qədər daha çoxdur. Bunun eybi yoxdur, yaxşı olar ki, çox olsun, amma az olmasın.

50 min həkimin hər biri nə qədər insana şəfa veribdir, onların sağlamlığının təmin olunmasına yardım göstəribdir, onları müxtəlif xəstəliklərdən, çox vaxt ölümdən xilas edibdir. Bu nə qədər böyük, şərəfli vəzifədir!

Mən yenə də deyirəm ki, Tibb Universiteti Azərbaycanın başqa ali təhsil müəssisələri ilə müqayisədə xüsusi yer tutur. Mən başqa ali təhsil müəssisələrinin – universitetin, institutun fəaliyyətini, yaxud cəmiyyət üçün əhəmiyyətini bununla azaltmaq istəmirəm.

Azərbaycanda tibbi ali təhsil Tibb Universitetində cəmlənibdir. Ötən 70 ildə burada çox iş görülübdür, tibb sahəsində böyük alimlər hazırlanıbdır. Ən əsası odur ki, bizim universitetimiz təşkil olunaraq, həm özü üçün yüksək səviyyəli müəllim, professor kadrları, həm də səhiyyə üçün ali təhsilli çoxlu kadr hazırlayıbdır. Biz bunları çox yüksək qiymətləndirməliyik. Azərbaycan prezidenti kimi, mən bunu xüsusi qeyd etmək istəyirəm.

Bizə qonşu, bənzər ölkələr vardır. Bəzən düşünürdük ki, onlardan hansılarsa bizdən irəlidədir. Ancaq Azərbaycanda Tibb Universiteti

yarananda onların heç birində belə universitet yox idi. Doğrudur, bunu da qeyd etmək lazımdır ki, respublikamıza bənzər bəzi ölkələrdə bizdən xeyli sonra yaranmış səhiyyənin səviyyəsi daha da yüksəkdir. Birincisi, onlar dünya texnikasının və texnologiyasının imkanlarına daha tez qoşulublar, bunlardan istifadə edirlər, beləliklə də, daha tez inkişaf ediblər. Yəni həmin ölkələrdə səhiyyə gec yaranıb, amma bizdən irəli gedibdir. Bunu da etiraf etmək lazımdır. Lakin eyni zamanda, Azərbaycan Tibb Universiteti bu ölkələrdəki tibb universitetlərindən daha əvvəl yaranıbdır. Bu onu göstərir ki, Azərbaycanda cəmiyyət, dövlət, hökumət bu sahənin vacib olduğunu dərk edibdir və onun yaranması üçün lazımi tədbirlər görübdür. Ancaq qüsurumuz ondan ibarətdir ki, son illərin müxtəlif problemləri ilə əlaqədar bizim səhiyyəmizdə cərrahiyyə əməliyyatları, yaxud insanları müxtəlif ağır xəstəliklərdən müalicə etmək üçün imkanlarımız başqalarına nisbətən aşağı səviyyədədir.

Mən inanıram ki, bu boşluq da aradan qaldırılacaqdır. Mən inanıram ki, mütəxəssislərimiz, alimlərimiz, səhiyyə işçilərimiz, müxtəlif sahələrdə çalışan yüksək səviyyəli həkimlərimiz, təbiidir ki, bizim köməyimizlə və özünüzün fədakarlığınızla gəlib həmin səviyyəyə çatacaqlar. Bu lazımdır.

Bəzi xəstəlikləri müalicə etdirmək üçün indi Azərbaycandan bir çoxları müxtəlif xarici ölkələrə gedirlər. Doğrudur, bu təkcə bizə aid deyildir. Məsələn, qonşu Türkiyədə yüksək səviyyəli tibb universitetləri var, orada hər bir cərrahiyyə əməliyyatını, yaxud başqa əməliyyatları yüksək səviyyədə keçirirlər. Ancaq Türkiyədə də bəzi insanlar bu əməliyyatları aparmaq üçün, hətta geniş bir müayinədən keçmək üçün Amerikaya, Almaniyaya və yaxud başqa ölkələrə gedirlər. Bu da təbiidir.

Ancaq bəzi vətəndaşlarımız müxtəlif xəstəliklərdən xilas olmaq üçün başqa ölkələrə getmək məcburiyyəti qarşısında qalırlar. Kimin imkanı yoxdursa, bunu edə bilmir. Bu bizim çatışmazlığımız, boşluğumuzdur. Biz bu boşluğu doldurmalıyıq. Bunu doldurmaq üçün də iki əsas vasitə vardır. Bunlardan birincisi, maddi-texniki baza yaratmaqdır. Təbiidir ki, bu daha çox özümüzdən asılıdır. İkincisi isə, müxtəlif sahələrdə çalışan tibb mütəxəssislərimiz gərək öz fəaliyyətlərini indi gördükləri işlərlə məhdudlaşdırmasınlar, dünyanın elmi nailiy- yətlərinin hamısı ilə yaxşı tanış olsunlar. Belə olduqda, biz hər bir mütəxəssisin imkanını ölkəmizin imkanları ilə birləşdirərək Azərbaycan səhiyyəsinin səviyyəsini daha da yüksəklərə qaldıra bilərik.

Mən Tibb Universitetinin 50-ci ildönümü münasibətilə keçirilən mərasimdə də sizinlə bir yerdə idim. İndi Tibb Universitetinin 70 illik yubileyi qeyd olunur. Ancaq təkcə yubileyə yox, 70 illik tarixə müəyyən

qədər nəzər salsaq, mən 30 ildən artıqdır ki, sizinlə bir yerdəyəm və Azərbaycanın rəhbəri kimi, keçmişdə də, indi də Tibb Universitetinə öz qayğımı, diqqətimi həmişə göstərmişəm.

Biz Tibb Universitetinin 50 illiyini təntənə ilə qeyd etdik. O vaxt mənim heç ağlıma gəlməzdi ki, 20 ildən sonra universitetin yubileyinin keçirilməsində yenə də iştirak edəcəyəm. Çünki gələcəkdə nə olacağını insan heç vaxt bilmir. Mən isə heç vaxt heç bir şeyi planlaşdırmamışam. Əgər nəzərə alsaq ki, ondan sonra başıma çoxlu bəlalar gəlibdir, ona görə də sizinlə yenidən görüşmək və Tibb Universitetinin 70 illik yubileyində sizinlə birlikdə olmaq mənim üçün böyük xoşbəxtlikdir.

Biz 50 illik yubileyi keçirəndə də Tibb İnstitutunun müəllimlərinin, professorlarının böyük bir hissəsini o vaxtkı imkanlara görə təltif etdik. İndi 70 illik yubileyinizdə də mən sizə məlum olan fərmanları vermişəm, böyük bir dəstəni dövlət mükafatları ilə təltif etmişəm və sizə təbrik məktubu göndərmişəm. Yəqin düşünürdünüz ki, sizə təbrik məktubu göndərmişəm və bununla da öz münasibətimi bildirmişəm. Bu təbrik məktubu iki gün bundan öncə mətbuatda dərc olunubdur. Bilmirəm, siz məni dəvət edirdiniz, yaxud etmirdiniz, amma sonra mən düşündüm ki, işimin nə qədər çox olmasına baxmayaraq – həqiqətən, bugünkü iş proqramım çox gərgindir, amma hansı gün gərgin deyil, onu bilmirəm. Sabah səhər də mən Moskvaya gedirəm və ona görə də bu gün əvvəlki günlərə nisbətən çox işlər görmək lazımdır – mən qərar qəbul etdim ki, gəlib sizinlə görüşüm, məktubda göstərdiyim fikirlərdən əlavə, bəzi fikirlərimi də sizə çatdırım.

50 illik yubileyi keçirəndə, o zaman orada bizim bir çox hörmətli professorlarımız, alimlərimiz iştirak edirdilər. Ancaq onların bir qismi bu 20 il ərzində həyatlarını dəyişibdir. Mən çox məmnunam ki, uzun illər, on illərlə Tibb İnstitutunda, Universitetində fəaliyyət göstərən adamlar bu gün yenə də burada işləyirlər və universitetin çox hörmətli, qocaman alimləridir, müəllimləridirlər. Mən öz fərmanlarımla onların bir qismini təltif etmişəm.

Nazir İnsanov, rektor Əmiraslanov tibb təhsilinin yaranmasında əməyi olan və Tibb İnstitutuna rəhbərlik etmiş bəzi böyük şəxsiyyətləri burada xatırladılar. Bəli, onlar hamısı böyük hörmətə layiqdirlər. Amma bu siyahını daha da genişləndirmək olar. Çünki xatirimdədir, 1920-ci illərdən başlayaraq, 1930-cu, 1940-cı, 1950-ci, 1960-cı illərdə, 1970-ci illərdə də tibb sahəsində həqiqətən çox görkəmli alimlərimiz olubdur. Onların əksəriyyəti Tibb İnstitutunda işləyiblər.

Əgər 1940-cı, 1950-ci, 1960-cı, 1970-ci illəri xatırlasaq, Tibb İnstitutunun alimləri, müəllimləri o illər bizim Azərbaycan ziyalılarının böyük

və hörmətli bir hissəsini təşkil edirdilər. Təbiidir ki, hər bir sahədə bizim ziyalılarımız, professorlarımız var. Onlar hər sahədə hörmətlidirlər. Ancaq tibb sahəsində olan alimlər, professorlar daha da çox tanınıblar. Yəqin ki, onlar, birincisi, özlərinin şəxsi çəkilərinə görə, ikincisi isə, insanları müalicə etdiklərinə görə tanınırdılar. Çünki riyaziyyatçı da, bioloq da, neftçi də, kimyaçı da, tarixçi də, ədəbiyyatçı da – hamı, nəhayət, həkimin yanına gəlir. Ona görə də tibb alimləri həmişə çox böyük hörmətə malik idilər və çox tanınırdılar. Mən bu gün onların hamısının xatirəsini böyük minnətdarlıqla yad edirəm. Biz onları heç vaxt unutmamalıyıq.

Mən Azərbaycana rəhbərlik etdiyim zaman Tibb İnstitutuna uzun illər – 11 il Zəhra xanım Quliyeva rəhbərlik edibdir. Hesab edirəm ki, o bu instituta əvvəlki rektorların hamısından çox rəhbərlik edibdir. Ona görə də hesab edirəm ki, bu gün onun adını çəkmək çox lazımdır. O, vaxtilə universitetə rəhbərlik edib, bu gün də universitetin kollektivinin üzvüdür. Hətta böyük fəaliyyətinə görə biz onu Azərbaycanın Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri təyin etmişik və qadın hərəkatını daha da genişləndirmək istəyirik.

Səhiyyənin bir xüsusiyyəti də odur ki, burada çoxlu qadınlar çalışır. Doğrudur, mən bir az təəccüb edirəm ki, bu salonda kişilər qadınlardan çoxdur. Yəqin ki, rektor burada qadınlara müəyyən qədər ayrı-seçkiliklə yanaşır. Çünki səhiyyədə və ümumiyyətlə, tibb elmində, təhsilində qadınların sayı kişilərdən çoxdur. Gərək ki, səhiyyədə çalışanların 60 faizdən çoxu qadınlardır. Mənə elə gəlir ki, bu da təsadüfi deyil. Çünki qadın daha zərif məxluqdur və o, xəstəyə daha çox mehribanlıq göstərə bilir.

Bilirsiniz, həkimlik elə bir sənətdir ki, bəzən həkim biliyindən, dərmanından, müəyyən aparatlarından daha çox, öz münasibəti, mehribanlığı, istiqanlılığı, diqqəti ilə xəstəni daha tez müalicə edir. Bu isə qadınlarda kişilərdən daha çoxdur. Buna görə də mən tibb sahəsində, o cümlədən Tibb Universitetində fəaliyyət göstərən qadınların hamısını xüsusi salamlayıram və onları xüsusi təbrik edirəm.

Bu gün siz gözəl bir salona toplaşmısınız. Bir neçə vaxt bundan öncə biz bu yeni korpusun açılışında birlikdə iştirak etdik. Mən yenə də keçmişi xatırlayıram. 1960-cı illərə qədər Azərbaycan Tibb İnstitutu rəhbərliyinin oturduğu əsas yer Korqanov küçəsindəki ikimərtəbəli bina idi. Yaşlı adamlar yəqin ki, bunu xatırlayırlar. Mən həmin binada olmuşam. İkimərtəbəli həmin balaca binada rektor, prorektor, bəzi işçilər otururdu və belə xüsusi korpuslar yox idi. Birinci, ikinci korpuslar 1960-cı illərin əvvəllərində yaranmağa başladı. Biz xüsusən 1970-ci illərdə Tibb İnstitutunun, Universitetinin maddi-texniki bazasının inkişaf etdirilməsi, yaran-

ması, genişləndirilməsi üçün böyük bir proqram yaratdıq. Həmin bu yeni korpus da, salon da o proqramda öz əksini tapmışdı.

Xatirimdədir, bu binanın layihəsini bizim ən hörmətli memarımız Mikayıl Hüseynov tərtib etmişdi. Bilirsiniz ki, o, Azərbaycanda bir nömrəli memardır, respublikamızın ən gözəl memarlıq abidələrini yaradandır. Elə bu salon da onun layihəsi əsasında tikilibdir. O bu layihənin müəllifidir.

Mən xatırlayıram – Azərbaycan Tibb İnstitutu, Universiteti maddi-texniki təminat nöqteyi-nəzərindən haradan haraya gəlibdir. Bunlar çox lazımdır. Çünki həm müəllimlər, həm də tələbələr üçün lazımi şərait yaradılmalıdır və bu şərait də yaradılıbdır. Ancaq məsələnin ikinci tərəfi də var. Bəzən görürsən, vəsait də ayırırsan, layihə də, başqa şeylər də var. Ancaq bunu vaxtında təmin edənlər az olur, yaxud bu işə fikir vermirlər. Mən çox məmnunam ki, indi, bizim həyatımızın keçid dövründə həmin layihələr həyata keçirilir.

1970-ci illərdə biz nə qədər yaşayış evləri, inzibati binalar tikdirdik. İndi Bakıda, təkcə Bakıda yox, Azərbaycanın hər yerində belə binalar vardır. Mən bəzən düşünürəm – əgər biz o vaxt bunları yüksək sürətlə yaratmasaydıq, indi müstəqil Azərbaycan hansı vəziyyətdə olardı? O vaxt biz çox şeylər yaratdıq, amma bir hissəsi də yarımçıq qaldı. O cümlədən, burada da bir çox binalar yarımçıq qalmışdı. Yenə də deyirəm, həyatımızın iqtisadi cəhətdən çətin bir dövründə həm Səhiyyə Nazirliyi, həm də rektorluq tərəfindən bu layihələrin həyata keçirilməsinə böyük diqqət göstərilməsi yüksək qiymətə layiqdir. Mən bunu xüsusi qeyd edirəm.

Əziz dostlar, yenə də deyirəm, əvvəlcə mən bu gün buraya gəlmək fikrində deyildim. Amma sonra düşündüm və hesab etdim ki, mütləq gəlib sizinlə görüşməliyəm. Gəlməyimə də çox şadam – həm sizi, həm bu yeni salonu gördüm, həm də keçmişimizi birlikdə xatırladıq. Keçmişi heç vaxt unutmaq olmaz, keçmişə qara yaxmaq olmaz. Keçmişi qiymətləndirmək lazımdır. Həyatımızın hər mərhələsində çox parlaq səhifələr də, eyni zamanda qara səhifələr də var. Elə Tibb İnstitutunun bu 70 illik tarixində hər şey gözəl deyil.

Yenə də tarixə qayıtmaq istəyirəm. Məsələn, 1930-cu, 1940-cı, 1960-cı, 1970-ci illərdə Tibb İnstitutu, onun müəllimləri çox yüksək hörmətə malik idi. Ancaq təəssüflər olsun ki, sonra, 1980-ci illərdə və 1990-cı illərin əvvəllərində bu institutda xoşagəlməyən çoxlu çirkin işlər də olmuşdur. Bu bayram günündə mən bunları demək istəmirdim. Amma bunu deməsəm, insanlar özləri üçün nəticə çıxarmazlar. O dövrdə burada rüşvətxorluq çiçəklənmiş və yüksəklərə qalxmışdı. Hətta o vaxt Moskvada yaşayırdım, mənə xəbərlər gəlirdi ki, Azərbaycan Tibb İnsti-

tutunda olan rüşvətxorluq heç yerdə yoxdur. Bu da var, bu da həqiqətdir.

Ümumiyyətlə, bizim ali məktəblərdə, institutlarda həm çox gözəl işlər, həm əyintilər, rüşvətxorluq, həm də mənəvi çatışmazlıqlar olubdur. Bilirsiniz ki, biz bunlarla mübarizə aparırdıq. Xüsusən, 1970-ci illərdə, mən Azərbaycana rəhbərlik etdiyim zaman həyatımın böyük bir hissəsini Azərbaycanda mənəvi dəyərlərin qorunub saxlanmasına, insan mənəviyyatının paklığına, təmizliyinə həsr etmişdim. Çünki mənəviyyat insana xas olan xüsusiyyətlərin hamısından yüksəkdir. Nə qədər böyük alim olursansa-ol, nə qədər böyük mütəxəssis olursansa-ol, nə qədər böyük dövlət xadimi olursansa-ol, əgər mənəviyyatca şikəstsənsə, sənin heç bir qiymətin yoxdur.

Mənəviyyat ən yüksək insani keyfiyyətdir. İnsanlar mənəviyyatı əsrlər boyu qoruyub saxlayıblar. Bu heç də o demək deyil ki, keçmiş zamanlarda hamı yüksək mənəviyyata malik olub, amma mənəviyyatsızlar olmayıbdır. Yox. İnsan cəmiyyəti belədir ki, mənəviyyatlı ilə mənəviyyatsız arasında daim mübarizə gedir. Çünki mənəviyyatsızlıq cəmiyyətə zərbələr vurur, insanları pozur. Amma mənəviyyat insanları yüksəldir. Mənəviyyatlı çalışır ki, mənəviyyatsızlıq olmasın. Ancaq bu çətindir, ağırdır. Eyni zamanda, hər bir şəxs düşünməli, dərk etməlidir ki, onun üçün bu dünya daimi deyil. Bu dünya heç kim üçün daimi deyildir. Hamı bu dünyaya gəlir, hamı bu dünyadan gedir. Biri çox yeyir, biri az yeyir. Birinin var-dövləti çox olur, o birininki az olur. Amma hamının yeri oradadır və orada da hamı bərabərdir. O dünyada hamı bərabərdir.

Ona görə də bu dünyada yaşayan insanlar birinci növbədə yüksək mənəviyyata malik olmalıdırlar və bunu qorumalıdırlar. Çünki həyatda belə amillər var ki, bəzən insanları özlərinin xəbəri olmadan da düz yoldan çəkirlər. Ona görə də onlar özlərini qorumalıdırlar.

Həkim yüksək mənəviyyata malik olmalıdır. Təsadüfi deyil ki, heç bir sahədə «Hippokrat andı» kimi and yoxdur. Hansı bir mütəxəssis, mühəndis ali təhsilini qurtarandan sonra and içir ki, «Mən yaxşı mühəndis olacağam». Hansı bir aqronom and içir ki, «Mən yaxşı aqronom olacağam». Ancaq həkim and içir. And içir ki, «Mən bu şərəfli peşəmə sədaqətlə xidmət edəcəyəm».

Mən bunu keçmişdə də demişəm, bu gün də deyirəm. Bu mənim həyatımın kredosudur: mənəviyyat insanı yüksəldir, mənəviyyatsızlıq alçaldır. Təəssüflər olsun ki, bizim Tibb Universitetinin tarixinin müəyyən mərhələlərində belə hallar olubdur. Xüsusən, 1980-ci illərin ikinci yarısında bu, dəhşətli vəziyyətə gəlib çıxıbdır.

İndi yaxşı korpuslarınız, binalarınız var, bundan sonra da yaxşıları olacaqdır. Bunlar hamısı olacaqdır. Amma yüksək mənəviyyatı təmin

etmək ancaq sizdən, hər bir kəsdən asılıdır. Eyni zamanda hər bir kollektiv rəhbərindən asılıdır. İstər kiçik və istər böyük kollektivin rəhbəri gərək nümunə olsun. O, gərək mənəviyyat, paklıq, düzlük nümunəsi olsun. Əgər bu belə olmasa, o öz tabeliyində olan insanlardan mənəviyyat tələb edə bilməz – onun buna sadəcə, mənəvi haqqı olmayacaqdır. İnsan üçün dünyada mənəvi haqqı daimi saxlamaq böyük bir şeydir. Əgər sənin mənəvi haqqın varsa, sən başqasına deyə bilərsən ki, yolundan çıxmısan. Əgər sənin mənəvi haqqın varsa, sən tabeliyində olan adama deyərsən ki, düz yolla get, əyrilik, rüşvətxorluq etmə, dövlətin malını dağıtma, əxlaqsızlıq etmə. Bunun üçün mənəvi haqq olmalıdır.

Mən arzu edirəm ki, siz, bütün səhiyyə işçiləri birincisi, yüksək mənəviyyata malik olasınız, ikincisi də, hər bir kollektiv rəhbərinin, hər bir insanın alnı açıq, mənəvi hüququ olsun.

Əziz dostlar!

Mənim sizə deyəcəyim sözlər bu qədər. Mən sizi bir daha ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı arzu edirəm. Hamınıza hər yerdə işlərinizdə uğurlar, ailənizə səadət arzulayıram. Sağ olun.

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ PREZİDENTİ, MİLLİ MƏCLİSİN DEPUTATI, AKADEMİK FƏRAMƏZ QƏZƏNFƏR OĞLU MAQSUDOV İLƏ VİDALAŞMA MƏRASİMİNDƏ ÇIXIŞ*

31 iyul 2000-ci il

Hörmətli xanımlar və cənablar!

Azərbaycan xalqının böyük şəxsiyyətlərindən biri Fəraməz Maqsudov aramızdan getdi. Fəraməz Maqsudov şərəfli həyat yolu keçmiş, Azərbaycan elminin inkişafında böyük xidmətlər göstərmiş, ölkəmizin həyatında, onun bütün sahələrində, ictimai-siyasi həyatında fəal iştirak etmiş, Azərbaycanın dəyərli insanlarından biridir.

Bu bizim üçün, xalqımız, millətimiz üçün böyük itkidir. Bugünkü gün bizim üçün – təkcə bu salona toplaşanlar üçün yox, bütün Azərbaycan xalqı üçün matəmdir. Çünki biz belə bir böyük insanı itirdik.

Bizim imzaladığımız nekroloqda və natiqlərin buradakı çıxışlarında Fəraməz Maqsudovun həyat yolu, yaradıcılığı, elmi və ictimai-siyasi fəaliyyəti haqqında ətraflı yazılıb və deyilibdir.

Fəraməz Maqsudov fitri istedada malik olan bir gənc kimi dünyaya gəlmiş və öz fədakarlığı, cəfakeşliyi sayəsində ağır, çətin yol keçərək Azərbaycan elminin zirvələrinə ucalmışdır.

XX əsr Azərbaycan elminin böyük inkişaf dövrüdür. Azərbaycanın qədim və zəngin elmi irsi XX əsrdə sıçrayış dövrü keçiribdir. Riyaziyyat elmi dəqiq elmlər içərisində çətin bir sahədir. Bu elmlə ancaq fitri istedadı olan və bu elmi sevən insanlar məşğul olublar və məşğul ola bilərlər.

Bəlkə də 50 il bundan öncə bəşəriyyət heç təsəvvür edə bilmirdi ki, riyaziyyat, fizika elmləri insanların həyatını nə qədər dəyişdirəcək və elmi-texniki tərəqqidə nə qədər böyük sıçrayışlar yaradacaqdır. Ancaq bunlar bu günün həqiqətləridir. Dünya dəyişibdir və burada riyaziyyat, fizika elmlərinin böyük rolu vardır.

Azərbaycanda böyük riyaziyyatçılar məktəbi yaranmışdır. Bu məktəbin ən görkəmli nümayəndələrindən biri və Azərbaycanda riyaziyyat elmini dünya səviyyəsinə qaldıran alimlərdən biri Fəraməz Maqsudov olmuşdur.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 29-cu kitab. B., Azərnəşr, 2009, s.282-285

Fəraməz Maqsudov ona həvalə edilən bütün yerlərdə vicdanla çalışmış, öz əməyi, biliyi, istedadı ilə, yalnız və yalnız özünə məxsus olan xüsusiyyətləri ilə elmdə yüksəlmiş, elmimizi inkişaf etdirmişdir. O, cəmiyyətimizdə, xalqımızın içində yüksəlmişdir.

Fəraməz Maqsudov təkcə riyaziyyat elmi ilə yox, başqa sahələrlə də məşğul olmuşdur. Burada oturanların çoxu yaxşı bilir ki, o bizim mədəniyyətə, ədəbiyyata nə qədər dərindən bağlı bir insan idi. Ədəbiyyatı, doğma dilini – Azərbaycan dilini sevməsi, təbiidir ki, onun böyük üstünlüyünü təşkil edirdi.

Fəraməz Maqsudov həmişə cəmiyyətdə, insanların içində olmuşdur, heç vaxt kənara çəkilməmişdir. Xalqımızın böyük əksəriyyəti kimi, o da Azərbaycanı azad, müstəqil görmək arzusunda olmuşdur və bu arzuya da çatmışdır. Ancaq o bu yolda böyük xidmətlər göstərmiş, daim fəal vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir. 1988-ci ildən sonra Azərbaycanda yaranmış ağır ictimai-siyasi vəziyyət Fəraməz Maqsudovu həmişə narahat etmişdir. Ancaq o, sadəcə narahatlıq keçirərək müşahidəçi olmamış, bu proseslərdə fəal iştirak etmiş, xalqımızın, millətimizin, torpağımızın, vətənimizin müdafiəsi uğrunda mübarizə aparmışdır.

1993-cü ildə – Azərbaycanda vətəndaş müharibəsi başladığı, ölkəmiz parçalanmaq təhlükəsi qarşısında durduğu zaman Fəraməz Maqsudov respublikamızın bir sıra alimləri və ziyalıları ilə bərabər özünü meydana atmış, heç bir şeydən çəkinməyərək, qorxmayaraq Gəncəyə – qardaş qanı tökülən yerə getmiş, komissiyanın üzvü kimi, orada məsələləri araşdırmış və Azərbaycan parlamentində ədalətli, doğru-düzgün fikirləri ilə xalqımızın bu ağır vəziyyətdən çıxmasına kömək etmişdir.

Doğrudur, ona çoxlu təzyiqlər göstərənlər, əziyyətlər verənlər də olmuşdur. Belə böyük alimi, insanı, ziyalını hətta təhqir edənlər də olmuşdur. Ancaq bunların heç birisi Fəraməz Maqsudovu öz yolundan çəkindirməmişdir. Onun yolu isə vətəninə, millətinə xidmət etmək və millətinin azadlığı yolunda vuruşmaqdan ibarət olmuşdur.

Şükürlər olsun ki, o bu günləri – Azərbaycanın müstəqilliyini, millətimizin azadlığını gördü. Ancaq o, sadəcə vətəndaş kimi yox, böyük bir insan, böyük bir siyasi-ictimai xadim kimi, Azərbaycanın müstəqilliyi illərində öz xidmətlərini göstərmişdir.

Fəraməz Maqsudovun bütün həyatı Elmlər Akademiyası ilə bağlıdır. O, universiteti bitirəndən sonra burada çalışmışdır. Azərbaycan Elmlər Akademiyası ölkəmizin, xalqımızın fəxridir, Azərbaycan elminin əsrlər boyu keçdiyi yolu ən yüksək zirvəyə çatdırmış bir elm məbədidir.

Bu mühitdə, bu şəraitdə daim elm içərisində çalışan insan – adi insan yox, yüksək istedada malik olan insan, təbiidir ki, elmin yaradıcılarından biri olmuşdur.

Fəraməz Maqsudovun ictimai-siyasi fəaliyyətində onun Yeni Azərbaycan Partiyasının qurucularından biri olması da görkəmli yer tutur.

Fəraməz Maqsudovun ölümü bizim üçün çox ağır itkidir. Həyat heç bir insan üçün əbədi deyildir. Ancaq ömrü şərəflə başa çatdırmaq, şərəfli ömür yolu keçmək və həyatda izlər qoymaq, xalqına irs qoyub getmək hər kəsə müyəssər olmur. Fəraməz Maqsudov məhz belə yol keçmişdir. O, böyük vətəndaş, böyük alim, böyük insan, şərəfli şəxsiyyət və gələcək nəsillərə böyük mənəvi, elmi irs qoymuş insandır.

Bizim hamımız, xüsusən onu yaxşı tanıyanlar, onların içərisində mən də bu itkini çox ağır keçiririk. Ancaq bu itkidən ən çox ağırlıq çəkən onun ailəsi, yaxınları, qohum-əqrəbasıdır.

Mən bu matəm günü bütün Azərbaycan xalqına başsağlığı verirəm. Fəraməz Maqsudovun ailəsinə, qohumlarına, yaxınlarına başsağlığı verirəm. Azərbaycan elminə başsağlığı verirəm.

Fəraməz Maqsudovun parlaq siması bizim – bütün Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır. Onun qoyduğu izlər heç vaxt pozulmayacaqdır. Xalqımıza və gələcək nəsillərə onun bəxş etdiyi irs daim yaşayacaqdır.

Allah rəhmət eləsin.

MƏŞHUR NORVEÇ SƏYYAHI TUR HEYERDAL VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT*

Prezident sarayı
2 sentyabr 2000-ci il

H e y d ə r Ə l i y e v: Xoş gördük Sizi. Yenidən Azərbaycana xoş gəlmisiniz! Mən sizi Azərbaycanın böyük dostu hesab edirəm. Xatırlayıram ki, hələ keçmiş zamanlarda, Azərbaycan müstəqil olmadığı bir vaxtda, 1981-ci ildə siz Azərbaycana maraq göstərib ilk dəfə buraya gəlmişdiniz. Mən o vaxt da Azərbaycanda rəhbər idim.

Xatirimdədir, mənim böyük qardaşım akademik Həsən Əliyev ilə sizin şəxsi mehriban dostluğunuz var idi. O vaxt biz görüşdük, çox ətraflı söhbətlər etdik. Sonrakı illərdə bir neçə dəfə görüşmüşük. Çox məmnunam ki, Osloda sizinlə görüşmək və muzeyinizi ziyarət etmək mənə nəsib oldu.

Yəqin ki, sizə deyirlər, – hər dəfə Norveçdən burada nümayəndə heyəti olanda sizə həmişə salam göndərirəm. İndi də gəlmisiniz, özü də görürəm ki, böyük heyətlə gəlmisiniz. Eşitmişəm ki, sizin adamlar burada çox dəyərli arxeoloji axtarışlar aparırlar. Bunlar hamısı bizim ölkələrimiz, xalqlarımız arasındakı əlaqələrin inkişaf etməsi deməkdir. Onlar əsasən elm sahəsində olan əlaqələrdir.

Bilirsiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Azərbaycan ilə Norveç arasında dövlətlərarası çox yaxşı iqtisadi əməkdaşlıq əlaqələri yaranıbdır. Norveçin «Statoyl» şirkəti burada çox böyük işlər görür. Təkcə bir «Statoyl» deyil, gərək ki, burada 30-40-dan çox Norveç şirkəti fəaliyyət göstərir, – yəqin onu səfirin nümayəndəsi bilir. Bizim bu əlaqələr inkişaf edir.

Mən Osloda olarkən Norveç ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etdirilməsi ilə bağlı biz Baş nazir ilə müqavilə imzaladıq. Sizin ölkənizin kralı ilə mənim çox əhəmiyyətli söhbətlərim oldu. Ölkənizin Baş naziri cənab Stoltenberq vaxtilə enerji naziri olarkən Azərbaycanı bir neçə dəfə ziyarət edibdir. Bunlar da Azərbaycan ilə, müstəqil Azərbaycan dövləti ilə Norveç arasında olan iqtisadi əlaqələrdir.

Mən çox məmnunam ki, Norveç şirkətləri burada öz iqtisadi fəaliyyətləri ilə yanaşı, Azərbaycanda humanitar işlər də görürlər və elmin

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 29-cu kitab. B., Azərnəşr, 2009, s.428–439

bir neçə sahəsinə, təhsilin bir neçə sahəsinə yardımlar edirlər. Bunlar hamısı bizim ölkələrimizi daha da yaxınlaşdırır, dostluq əlaqələri yaradır.

Mən sizinlə iyirmi il bundan öncə Bakıda görüşəndə bəlkə siz və sizdən savayı az adamlar Norveçdə bilirdilər ki, Azərbaycan var, Azərbaycan hansı bir ölkədir. Çoxları bunu bilmirdi. Çünki Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər İttifaqının tərkibində olan bir respublika idi. İndi isə Norveçdə də Azərbaycanı yaxşı tanıyırlar, Azərbaycanda da Norveçi yaxşı tanıyırlar.

İki gün bundan öncə televiziyada «Səhər» proqramında-mən təsadüfi olaraq televizoru açdım, – gördüm ki, bizim incəsənət xadimləri – müğənni Nazpəri Dostəliyeva və Səyavuş Kərimli Norveçdə olublar, çox dəyərli işlər görüblər və orada onlar Norveç xoru ilə birlikdə mahnı oxuyurdular.

Polad Bülbüloğlu *(Azərbaycanın Mədəniyyət naziri):*

Cənab Prezident, onlar orada bir sıra konsertlər vermişlər.

Heydər Əliyev: Bəli, bu çox maraqlı bir işdir. İndi görürsünüz, bizim əlaqələrimiz nə qədər genişlənibdir. Amma bunun əsasını 1981-ci ildə sizinlə mən qoymuşam. Güman edirəm ki, XXI əsrdə bu əlaqələr daha da inkişaf edəcəkdir. Siz də, mən də bu əlaqələrin inkişaf etməsinin sükanı arxasında olacağıq.

Xoş gəlmisiniz! Bu dəfəki ziyarətinizin səbəbləri haqqında bir az bilirəm, amma istərdim ki, siz mənə deyəsiniz. Buyurun.

Tur Heyerdal: Cənab Prezident, Sizə öz dərin minnətdarlığımı bildirirəm. Mən də Sizin kimi, ilk görüşümüzü çox yaxşı xatırlayıram. O dövr elə bir dövr idi ki, biz qarışıq dünyada həm dostuyduq, həm də düşmən idik. Mən o dövrdə Qərbdə elə bir təlim-tərbiyə görmüşdüm, bizi elə ruhda tərbiyə etmişdilər ki, Qərbdə yaşayan bütün insanlar yaxşıdır, Şərqdə yaşayan bütün insanlar isə pisdir.

Həmin o ağır dövrdə alman nasistləri mənim ölkəmi gözlənilmədən işğal etdilər. Sonra almanlar başqa bir səhv də buraxaraq Sovet İttifaqına hücuma keçdilər. Mən azad Norveç hərbi qüvvələrinə qoşuldum və paraşütçü kimi orada iştirak etdim. Məni ilk dəfə Arktikaya göndərdilər. Gözlənilmədən bu müharibənin gedişində Sovet İttifaqı bizim müttəfiqimizə, Almaniya isə düşmənimizə çevrildi. Mən paraşütlə Murmanska endikdən sonra rus sovet qoşunları ilə bərabər Norveçə daxil oldum. Onda dərk etdim ki, bu insanlar amerikalılar, ingilislər və elə norveçlilər kimi eyni adamlardır. «Soyuq müharibə» illəri dövründə məni bir neçə dəfə Moskvaya dəvət etdilər, Moskvada Elmlər Akademiyasında elmi işimin müdafiəsini təşkil etdilər.

Beləliklə, məhz o dövrdən mənim rus və digər sovet alimləri ilə təmaslarım başladı. O dövrdə mən həm rəssamlar, fermerlər, həyatın müxtəlif sahələrində çalışan insanlarla görüşdüm. Moskva ilə təmaslarım Lomonosov medalı ilə mükafatlanmağımla nəticələndi. Sonra məni Sovet İttifaqının Elmlər Akademiyasına üzv qəbul etdilər. Mən o zaman həm də Nyu-York Akademiyasının üzvü idim.

Məhz o dövrdən Qərbdə əldə etdiyim çoxsaylı dostlarla bərabər, Şərqdə də çoxlu dost tapmağa başladım və məni o vaxtlar Azərbaycan Elmlər Akademiyasına dəvət etdilər. Biz hamımız bilirdik ki, Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru akademik Həsən Əliyev ölkənin rəhbərinin qardaşı idi. Qəribədir ki, biz ilkin vaxtda, tez bir zamanda onunla yaxından dostlaşdıq. Onu da deyim ki, Sizin qardaşınızla bərabər mən Azərbaycanın rayonlarını ziyarət etdim, ayrı-ayrı bölgələrində oldum və bizim ölkələrin arasındakı əlaqələrin lap qədim köklərə malik olması barədə ilk fikirləri məhz ondan öyrəndim. Onun təşəbbüsü ilə mən Qobustana getdim, oradakı yazılarla tanış oldum və beləliklə bizdə, Norveçdə olan bu qəbildən yazılarla onları müqayisə etməyə başladım.

Sonralar sizin ölkənizi dəfələrlə ziyarətlərim sayəsində belə qənaətə gəlməyə başladım ki, çox güman, ölkələrimiz arasında çay sistemləri vasitəsilə – Xəzər dənizindən Volqa, Don çaylarına keçmək və oradan da Baltik dənizi vasitəsilə Norveçlə təmasların olması köklərini araşdırmağım lazımdır.

Onu da deyim ki, İslandiya adlı balaca bir ada mənim diqqətimi yenidən Azərbaycana yönəltdi. O vaxt İslandiyanın prezidenti məni və xanımım Jaklini öz ölkəsinə dəvət etdi və yenicə tərcümə olunmuş saqalar ilə tanış olmağımızı xahiş etdi. Bu tanışlıqdan sonra qənaətim getdikcə daha da dolğunlaşmağa və yəqinləşməyə başladı ki, 800 il bundan öncə İslandiya ilə bu bölgə – Qafqaz arasında və türklərin torpaqları olan bu ərazilər arasında coğrafi baxımdan yaxınlıq olmuşdur. Sonrakı tədqiqatlar bilavasitə sübut etdi ki, hələ vikinqlərin dövründə indiki ölkələrimiz arasında təmaslar və əlaqələr mövcud olmuşdur.

İslandiya IX əsrdə Norveçdən ayrılmışdır. O dövrdən etibarən İslandiya ilə əlaqədar olan bütün sənədlər qorunub saxlanılmışdır.

Sonra mən dünyanın digər ölkələrində olan alimlərlə əməkdaşlığımı davam etdirdim. Bu gün böyük, geniş səpkili tədqiqatlar nəticəsində belə bir qənaətə gəlmişəm ki, ölkələrimiz arasındakı təmaslar hətta vikinqlərin dövründən də qədim tarixə gedib çıxır.

Beləliklə, Azərbaycana indiki səfərimin əsas məqsədi sizin alimlərlə birgə çalışaraq, onlarda vikinqlərdən daha əvvələ aid tarixdə Azərbay-

can barədə hansı məlumatların olduğu ilə tanış olmaq, bu sahədə onlarla əməkdaşlıq etməkdir. Burada əldə etdiyim məlumatlar nəticəsində belə qənaətə gəlmişəm ki, Skandinaviya ölkələrində mövcud olan kral ailələri öz mənşələrini məhz Azərbaycandan götürmüşlər. Onların əcdadları bizim eramızdan əvvəl birinci əsrdə və yaxud bizim eramızdan sonra bu məmləkətdən, ölkədən törəmiş, çıxmışlar.

Cənab Prezident, bütün bunlarla bərabər, onu da deməyi özümə borc bilirəm ki, Sizinlə tanış olmaq şərəfinə nail olduqdan sonra ölkələrimiz arasındakı əlaqələrin belə geniş səpkidə inkişaf etməsi və güclənməsi məni çox sevindirir. Çox məmnunam ki, ölkələrimiz arasında getdikcə daha çox və sıx əlaqələr yaranmaqdadır.

Bilirəm ki, Sizin ölkənizdə lap aşağı səviyyələrdən tutmuş, yuxarı – hökumət səviyyələrinə qədər olan adamlar arasında dövlətimiz barədə məlumatlar daha geniş yayılır və ölkəmizlə tanışlıq daha da artmışdır. Eyni sözləri norveçlilər barəsində də deyə bilərəm. Onu da söyləyim ki, məhz sizin Norveçə rəsmi səfərinizdən sonra ölkəmizdə Azərbaycan haqqında məlumatlar daha geniş yayılmışdır. İndi insanlar Azərbaycanı daha yaxşı tanıyırlar.

Ölkəmizin kralı ilə məxsusi söhbətim zamanı o, mənə Sizinlə keçirdiyi görüşü yaxşı xatırladığını söylədi və xahiş etdi ki, Sizi bir daha görsəm onun şəxsi salamını sizə yetirim.

Beləliklə, ümid və arzu edirəm ki, Azərbaycan ilə Norveç arasındakı münasibətlər və əlaqələr bundan sonra daha da inkişaf edəcək, güclənəcəkdir. Azərbaycanda Norveçin 30 yox, 30-dan daha çox şirkəti və iqtisadi qurumları təmsil olunacaqdır. Sizin ölkənizlə Norveç arasında qarşılıqlı faydalı əməkdaşlıqdan hər iki dövlət öz mənafelərinə uyğun bəhrələnəcəkdir.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Mən sizin dediyiniz bütün sözlərlə tamamilə razıyam. Bizim ölkəyə və onun tarixinə maraq göstərməyinizi yüksək qiymətləndirirəm.

Təbiidir, dünyanın böyük alimi kimi, böyük səyyahı kimi, siz birinci növbədə öz xalqınızın əcdadlarının haradan gəlməsini arayırsınız və axtarışlar apararaq gəlib bunun izlərini Azərbaycanda tapmısınız. Təbiidir ki, sizin bu axtarışlarınız, elmi tədqiqatlarınız, arxeoloji tədbirləriniz Azərbaycan alimləri ilə müştərək olmalıdır və elmi axtarışların nəticələri də bir-birinə uyğun olmalıdır.

Tarix elmi, xüsusən qədim dövrlərin elmi heç vaxt siyasətləşdirilməməlidir. Təəssüf olsun ki, indi biz, dünya, o cümlədən bizim region elə bir dövrdə yaşayır ki, ayrı-ayrı konyunktur siyasi məqsədlərə uyğun

olaraq, tarixi istəyirlər – belə yazırlar, istəyirlər – elə yazırlar. Bu, bizim keçmiş Sovetlər İttifaqına məxsus olan bir hadisə idi. Çünki Sovetlər İttifaqında, o hakimiyyət dövründə elm, xüsusən tarix elmi idealizə olunmuşdu. İndi biz bundan azad olmuşuq.

Məsələn, Cənubi Qafqaz regionunu götürsək, bilirsiniz ki, 12 il bundan öncə Ermənistan Azərbaycana torpaq iddiası ilə hərbi təcavüzə başlamışdır. Bu, münaqişəyə, müharibəyə çevrilmişdir və indi də davam edir. 1994-cü ilə qədər Ermənistan silahlı qüvvələrinin müəyyən müxtəlif səbəblərdən Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi mümkün oldu. Bu münaqişənin səbəbi – təbiidir ki, müharibəni, münaqişəni başlayan Ermənistan tərəfi olmuşdur – ondan ibarətdir ki, Azərbaycanın daxilində olan Dağlıq Qarabağ vilayəti guya Ermənistana «mənsubdur». Bəziləri tarixin ayrı-ayrı dövrlərini saxtalaşdıraraq belə fikrə gəlmişlər. Amma tarixə obyektiv qiymət verilsə, tarix düzgün təhlil olunsa, bunlar yalandır. Bunun kökü yenə də Sovet İttifaqının quruluşuna, sisteminə gedib çatır, yəni onunla bağlıdır. Məhz Sovetlər İttifaqı yaranarkən Moskvada müttəfiq respublikaların xəritələrini istədikləri kimi çəkdilər. Yəni o mənada ki, kimin gücü çox idi – həmin xəritəni öz xeyrinə çəkdi, kimin gücü az idi – o bundan məhrum oldu. Yəni ədalətsizlik, haqsızlıq olmuşdur.

Ümumiyyətlə, güclünün gücsüzü daha da incitməsi, yaxud çox şeylərdən onu məhrum etməsi yeni bir şey deyildir. Ancaq indi, XX əsri başa vurarkən, dünyada gedən bütün dəyişiklikləri nəzərə alaraq, gərək keçmişdəki mənfi hallar bundan sonra özünə yer tapmasın. Ona görə də hər şeydə obyektivlik olmalıdır. Obyektivlik o deməkdir ki, ayrı-ayrı şəxslərin subyektiv fikirləri yox, həqiqət, faktlar, dəlillər, sübutlar əsas götürülməlidir.

Bu baxımdan Azərbaycan çox böyük ədalətsizliklərə – Sovet İttifaqı yaranan zaman da, ondan sonrakı dövrlərdə də və son on il müddətində də – məruz qalıbdır. Əlbəttə, bütün bunlar barədə hamı düşünməlidir. Hamı bilməlidir ki, tarixi şəxsi məqsədlərə uyğun olaraq yaratmaq olmaz. Tarix həqiqəti əks etdirməlidir. Bunlar mənim ümumi mülahizələrimdir. Mənim dediyim bu sözlərin sizin apardığınız işlərlə heç bir əlaqəsi yoxdur. Burada həm sol tərəfdə, həm də sağ tərəfdə tarixçilər əyləşiblər. Mən fürsətdən istifadə edərək bu barədə öz fikirlərimi bildirirəm.

Bəzən ayrı-ayrı tarixçilərin subyektiv fikirləri ilə əlaqədar hətta tarixçilər arasında silah müharibəsi yox, amma söz müharibəsi gedir. Bunlara son qoymaq lazımdır.

Dövlətlər arasındakı münasibətlərdə, siyasətdə konsensus deyilən bir məsələ vardır. Amma tarixin düzgün yazılmasında konsensus ola

bilməz. Yəni «sən bununla, mən də onunla razı olum və ikimiz də eyni fikrə gələk». Tarix həqiqət deməkdir, eyni zamanda, burada qarşıdurmaya da yol vermək olmaz. Konsensus və qarşıdurma bir-birinin əksidir. Amma tarix elmində, tarixi tədqiqatlarda bunlar olmamalıdır. Yəni nə o tərəfə, nə də bu tərəfə əymək olar. Həqiqəti demək lazımdır. Həqiqəti demək lazımdır, amma bu mümkün deyilsə, yaxşı olar ki, heç deməyəsən, nəinki qeyri-həqiqi bir söz deyib problem yaradasan.

Sizin axtarışlarınız, fikirləriniz həqiqətən çox dəyərlidir. Qədim, eramızdan əvvəlki tarixi ancaq alimlər bilirlər. Başqaları, o cümlədən siyasət adamları bunları o qədər də dərindən bilmirlər. Siz ilk dəfə burada olanda irəli sürdüyünüz «Skandinaviya ölkələri, o cümlədən Norveç xalqları öz qədim keçmişini bu diyarda keçiriblər, yaxud buradan oraya köçüblər» fikrinizi ona qədər heç kəs, hətta bizim tarixçilərimiz, tədqiqatçılarımız da deməmişdilər. Bilmirəm, bəlkə də deyən olubdur. Ancaq, məncə, heç kəs deməmişdi. Bu, sizin ixtiranızdır.

Təbiidir ki, sizin bu elmi mülahizələriniz Azərbaycanda həm tarixçilərdə, həm də bu elmi fikirlərinizi bilən adamlarda iftixar hissi yaradıbdır. Bu mənada ki, biz həqiqətən çox qədim tarixə malikik. Bizim torpaqlarda hələ min illər bundan öncə yaşayan insanlar dünyanın başqa tərəflərinə, yaxud hissələrinə köçüblər və yeni xalqlar yaranıbdır, yaxud onlar inkişaf ediblər. Bunlar hər bir ölkə üçün həqiqətən iftixar hissi gətirir. Mən arzu edirəm ki, sizin bu sahədə axtarışlarınız birincisi, həqiqət əsasında olsun, ikincisi də həqiqətən, sizin ölkənin, xalqın tarixinin və Azərbaycan xalqının, bizim diyarımızın tarixinin indiyə qədər açılmamış səhifələrini açsın.

Mənə dedilər ki, bizim Şəki rayonunun Kiş kəndində gedən arxeoloji tədqiqatlar çox heyranedici nəticələr verir. Bunu mənə bizim tarixçilər deyiblər. Bəlkə bir az dərinə getsəniz, bundan daha da çox şeylər tapa bilərsiniz.

Yəni mən bu məlumatları alarkən, bu barədə fikirləşərkən, sizin kimi böyük alimlərlə görüşərkən düşünürəm ki, hələ min illər bundan sonra da dünya öz keçmişi haqqında elmə məlum olmayan yeni-yeni məlumatlar əldə edəcəkdir. Ona görə də bu böyük işlərdə həm sizə, həm də Azərbaycan alimlərinə uğurlar arzulayıram. Hesab edirəm ki, ən düzgün, ən doğru nəticəni siz müştərək işlər vasitəsilə ala bilərsiniz. Mən sizə bir daha uğurlar arzulayıram.

Norveçin əlahəzrət kralına mənim salamımı və hörmət, ehtiramımı çatdırın. Baş nazir cənab Stoltenberqə – ümumiyyətlə, Norveçdə mənim dostlarım çoxdur, onların hamısına – mənim salamımı və ehtiramımı çatdırın.

Mən əmr vermişəm ki, burada sizin fəaliyyətiniz üçün lazım olan bütün imkanlar yaradılsın. Əgər nəyəsə ehtiyac varsa, buyurun, mən onları həll edə bilərəm.

Tur Heyerdal: Cənab Prezident, çox sağ olun. Xoş sözlərinizə və Azərbaycan alimlərinin bizə göstərdikləri xoş niyyətə, dostluq münasibətinə görə təşəkkür edirəm. Bunlar mənim ümid və arzu etdiklərim idi ki, biz onlara nail olmuşuq.

Mən Sizinlə tamamilə razıyam ki, tarixdə ən mühüm keyfiyyət, məsələ məhz obyektivlik və vicdanlılıqdır. Deyərdim ki, bu, əslində elmin bütün sahələrinə aid olan keyfiyyətdir. Hesab edirəm ki, əsl həqiqətin araşdırılıb üzə çıxarılması üçün elmin müxtəlif sahələri arasında da əməkdaşlığın olmasına ehtiyac vardır. Ona görə də mən Sizin ölkənin Elmlər Akademiyası ilə əməkdaşlığımıza xüsusi önəm verirəm. Bildirirəm ki, bu əməkdaşlıqda həm coğrafiyaçılar, həm elmin genetikası ilə məşğul olan ekspertlər, mütəxəssislər, dilçilər, arxeoloqlar – hamı birgə çalışır. Hərə öz bildiyi hissədən öz töhfəsini verir. Beləliklə, bizə ayrı-ayrılıqda məlum olan elmi araşdırmaların nəticələrini bir araya gətirəndə, toplayanda məhz bu əməkdaşlıqdan həqiqət doğur.

Cənab prezident, bir daha təşəkkür edirəm. Çox sağ olun.

Heydər Əliyev: Bizim alimlərin deməyə bir sözü varmı? Deyilənlərin hamısı ilə razısınızmı?

Yerdən səslər: Bəli.

Toor Seyerstad (*Azərbaycanda Norveç Humanitar Təşkilatının prezidenti*): Cənab prezident, mən Norveç Humanitar Təşkilatının təmsilçisi kimi bir neçə kəlmə söz demək istəyirəm. Bizim təşkilatımız cənab Tur Heyerdalın və Azərbaycan alimlərinin birgə fəaliyyətinin təşkil olunmasında yaxından iştirak edir. Sizinlə görüşdən xüsusi şərəf duymaqla bərabər, ölkənizin bu sahədəki faydalı işinə töhfə verməyimizdən də məmnunluq duyduğumuzu bildirirəm.

Cənab Prezident, mən həm Sizin, həm də cənab Tur Heyerdalın dediyi sözlərə qoşularaq, onu bildirmək istəyirəm ki, bizim ölkələrimiz arasında oxşar təmaslar, əlaqələr həqiqətən olduqca çoxdur, tariximizdə yaxınlıqlar vardır. Biz məhz bu tarixi öyrənməli, ondan nəticələr çıxarmalıyıq.

Norveçin Humanitar Təşkilatı kimi biz Azərbaycanda 1994-cü ildən fəaliyyət göstəririk. Bakı, Gəncə, Şəki şəhərlərində işlər görürük və burada sizin ölkənin insanları ilə çox yaxından əməkdaşlıq edirik. Bütün bu əməkdaşlığa, bizim üçün yaratdığınız şəraitə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Sağ olun.

Heydər Əliyev: Təşəkkür edirəm. Mən dedim, bir daha bildirmək istəyirəm ki, Norveçin Azərbaycanda humanitar sahədə gördüyü işlərdən xəbərdaram, bunu qiymətləndirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu yardımlar, münasibət bundan sonra daha da artacaq, genişlənəcəkdir. Sağ olun.

Cənab Heyerdal, mən Azərbaycanın qədim tarixi ilə əlaqədar sizə bir neçə kitab bağışlamaq istəyirəm. Azərbaycanda sizin ilk dəfə nəzərdiqqətinizi çəkən Qobustan olmuşdur. Bu gün də bildirdiniz ki, məhz o vaxt mənim mərhum böyük qardaşım Həsən Əliyev ilə birlikdə Qobustanı ziyarət edəndən sonra siz Azərbaycanda bu məsələlərə geniş münasibət göstərdiniz.

Bilirsiniz ki, biz bu yaxınlarda Azərbaycan tarixinin ən böyük dastanı, Azərbaycan ədəbiyyatının ən böyük yazılı nümunəsi olan «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini keçirdik. Ona görə mən Qobustan haqqında, «Kitabi-Dədə Qorqud» haqqında, Azərbaycan barədə və sair – bütün bu kitabların hamısını sizə bağışlayıram. Doğrudur, onların əksəriyyəti Azərbaycan dilində, bəziləri isə ingilis dilindədir.

Bu kitab indi işğal altında olan Azərbaycan torpaqları – Qarabağ haqqındadır. Bu kitab Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarından zorla çıxarılmış insanların həyatı haqqındadır. Onlar bizim bu günümüzü əks etdirir.

Bu kitab isə Azərbaycanın həm keçmişini, həm də bu gününü əks etdirir. Digər bir kitab Qobustan haqqındadır. Bunlar isə «Kitabi-Dədə Qorqud»un yubileyi münasibətilə nəşr olunmuş «Kitabi-Dədə Qorqud» dastanı və «Kitabi-Dədə Qorqud» ensiklopediyası»dır.

Eyni zamanda sizə – şəxsi dostuma özüm haqqında da kitablar bağışlamaq istəyirəm. Bunlar isə mənim həyatıma aid olan fotoalbomlardır. Güman edirəm, sizin üçün maraqlı olacaqdır. Sonra, mən sizə bir neçə foto da vermək istəyirəm. Yəqin xatırlayırsınız, bu şəkil Osloda, sizin muzeyinizdə çəkilibdir. Bu şəkillər isə Osloda mənim sizinlə görüşlərimi əks etdirir.

Bu kitablar ağırdır, sizin yükünüzü ağırlaşdırmaq istəmirəm. Ona görə də onları Norveçin Azərbaycandakı səfirliyinə təqdim edirəm. Təbiidir ki, siz buradan başqa yerlərə də gedəcəksiniz. Amma mən Norveç səfirliyindən xahiş edirəm ki, bunları diplomatik poçtla Osloya, sizə göndərsinlər.

Steyn İversen *(Norveçin Azərbaycandakı səfirinin müavini):* Biz bunu məmnuniyyətlə edəcəyik.

Heydər Əliyev: Görürsünüz, sizin kitabxananızı necə zənginləşdirdim. Sağ olun.

Tur Heyerdal: Cənab Prezident, çox sağ olun. Arzu edərdim ki, verdiyiniz hədiyyələr dəyərində, qiymətində mən də Sizə hədiyyə verə biləydim. Mən də öz muzeyimdən – səyahətlərim nəticəsində əldə etdiyim eksponatlardan birini Sizə hədiyyə vermək istəyirəm.

Heydər Əliyev: Bu, onlardan da qiymətlidir. Sağ olun.

RESPUBLİKAMIZIN ƏN BÖYÜK VƏ NÜFUZLU ALİ TƏHSİL OCAQLARINDAN OLAN AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASININ 80 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ*

15 dekabr 2000-ci il

Hörmətli müəllimlər!

Əziz tələbələr, xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizi və eyni zamanda ölkəmizin bütün təhsil işçilərini Azərbaycan Dövlət Neft Akademiyasının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm və Neft Akademiyasına gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

XX əsr artıq sona çatır, bu əsrin son günlərini yaşayırıq. Biz 100 illik tarixi bir dövrə nəzər salarkən, təbiidir ki, keçdiyimiz yolu, gördüyümüz işləri təhlil edirik, qiymətləndirməyə çalışırıq və həyatımızda olmuş çətinlikləri, ayrı-ayrı bəlaları çox narahatlıq hissi ilə xatırlayırıq.

XX əsr bəşər tarixində dünyada elmin, mədəniyyətin, elmi-texniki tərəqqinin inkişafında xüsusi yer tutur. Bu, dünyanın bütün ölkələrinə, xalqlarına aiddir. Ancaq təbiidir ki, hər ölkə, hər millət, hər xalq bu əsri yaranmış tarixi şərait içərisində keçirmiş, kimsə çox nailiyyətlər əldə etmiş, daha da irəliyə getmiş, kimsə vaxt itirmişdir. Ancaq bunlara baxmayaraq, minillik tarixdə XX əsr bəşəriyyət üçün ən uğurlu əsr olmuşdur.

Biz indi XX əsrə nəzər salarkən, Azərbaycanın keçdiyi yolu təhlil etməyə və həyatımızın bütün mərhələlərinə doğru-düzgün, ədalətli qiymət verməyə qadirik. Bu əsrdə bizim xalqımız bir tərəfdən, böyük çətinliklərlə, faciələrlə rastlaşıb, ikinci tərəfdən də, çox böyük nailiyyətlər qazanıb, inkişaf edib, dünya sivilizasiyasının səviyyəsinə çatıbdır. Nəhayət, əsrin sonunda xalqımız öz milli azadlığını, dövlət müstəqilliyini əldə edərək çoxəsrlik arzularına çatıbdır.

XX əsrdə keçdiyimiz tarixi yolda xalqımızın təhsillənməsi, ali təhsilin yaranması və inkişaf etməsi, elmin, mədəniyyətin, iqtisadiyyatın inkişaf etməsi ölkəmizi yüksək səviyyələrə gətirib çatdırıbdır. İndi Azərbaycan müstəqil dövlət olaraq, Dünya Birliyində özünə layiq yerini tutubdur. Azərbaycan elmin, təhsilin, mədəniyyətin, iqtisadiyyatın inkişafına görə öncül yerlərdən birini tutur. Xalqımızın kütləvi surətdə təhsillənməsi, ali təhsil sisteminin, bütün sahələrdə milli kadrların, milli mütəxəssislərin yaranması XX əsrdə Azərbaycanın ən böyük nailiyyətlərindən biridir.

80 illik yubileyini qeyd etdiyimiz Neft Akademiyasının Azərbaycanın XX əsr tarixində xüsusi yeri və rolu vardır. Mən sizə – Azərbaycan Dövlət Neft Akademiyasına göndərdiyim təbrik məktubumda sizin institutun, akademiyanın əldə etdiyi nailiyyətlərə dövlət tərəfindən verilən qiyməti qısa şəkildə bəyan etmişəm, gördüyünüz işlərə münasibətimi bildirmişəm və akademiyanın gələcəyi haqqında arzularımı ifadə etmişəm. Ancaq bu gün sizinlə bir yerdə olmaq və bu hadisəni birlikdə qeyd etmək mənim üçün çox əhəmiyyətlidir, şərəflidir. Ona görə də mən bu gün buraya gəlmişəm, sizinlə bərabərəm və təkcə Neft Akademiyası üçün yox, Azərbaycanın bütün ali təhsili üçün, bütün xalqımız üçün əziz olan bu bayramı birlikdə qeyd edirik.

Azərbaycanda ali təhsilin bünövrəsi Azərbaycan Xalq Cümhuriyyəti parlamenti tərəfindən qəbul olunmuş qərar əsasında 1919-cu ildə Bakı Dövlət Universitetinin yaranması ilə qoyulmuşdur. Ancaq ondan bir il sonra 1920-ci ilin noyabr ayında Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun dekreti ilə Azərbaycanda yeni bir ali məktəb, ali təhsil ocağı yaranmışdır. O vaxt Azərbaycanda sənayenin, iqtisadiyyatın inkişafında ən vacib sahələrdən biri olduğunu nəzərə alaraq, Bakı Politexnik İnstitutu – sonra isə adını Azərbaycan Politexnik İnstitutu qoyublar – yaranmışdır. Azərbaycanda 1919-cu ildə Bakı Dövlət Universitetinin və ondan bir il sonra Bakı Politexnik İnstitutunun yaranması eyni əhəmiyyət kəsb edən, xalqımızın XX əsrdə inkişafını və ali təhsilin inkişafını təmin etmiş qərarlardır. Əgər nəzərə alsaq ki, o vaxt Bakı Dövlət Universitetini də, Bakı Politexnik İnstitutunu da yaradanda milli kadrlarımız yox idi – Azərbaycan bu iki təhsil ocağını yaratmaq üçün Rusiyanın alimlərindən, müəllimlərindən istifadə etmişdir – onda biz bu təhsil ocaqlarının açılmasının nə qədər qiymətli olduğunu bu gün qeyd etməliyik.

Neft Akademiyası 80 il ərzində Azərbaycanda sənayenin, iqtisadiyyatın, elmin, elmi-texniki tərəqqinin inkişafında xüsusi rol oynamışdır. Onun yaranmasının kökləri də vardır. Bu da ondan ibarətdir ki, Azərbaycan hələ əsrin əvvəlində aqrar, sənaye bölgəsi kimi tanınaraq, yeni zamanda dünyada neft hasilatı sahəsində məşhurlaşmışdır. Ona görə də Azərbaycanın zəngin neft yataqlarından istifadə olunması üçün, eyni zamanda neft yataqlarının kəşf edilməsi, neftin emalı, habelə müvafiq

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz birinci kitab. B., Azərnəşr,2010, s.206-219

maşınqayırma zavodlarının və bir çox başqa sahələrin yaradılması məhz Bakı Politexnik İnstitutunun yaranmasının əsas səbəbi olmuşdur.

Biz bu gün böyük milli qürur hissi ilə 80 illik yubileyə toplaşmışıq. 80 il ərzində bu ali təhsil ocağı ayrı-ayrı vaxtlarda ayrı-ayrı ad daşıyaraq, heç vaxt öz məzmununu, əsas təhsil istiqamətini itirməmiş və dəyişməmişdir.

Bizi ən çox sevindirən odur ki, qısa bir zamanda politexnik institutunu yaradandan sonra Azərbaycanda milli mühəndis kadrları, milli sənayenin müxtəlif sahələrində fəaliyyət göstərə bilən ali təhsilli kadrlar hazırlamağa başlamış və artıq, demək olar ki, 30-cu illərdə Azərbaycan iqtisadiyyatın bu mürəkkəb sahəsində öz milli kadrlarına malik olmuşdur.

Politexnik İnstitutu, demək olar ki, Bakı Dövlət Universiteti kimi, Azərbaycanda başqa ali təhsil məktəbləri üçün bir ana rolu oynamışdır. Əgər Bakı Dövlət Universitetində və oradakı fakültələrin əsasında, xüsusən birinci dövrdə, müəllim kadrlarının hazırlanması, dəqiq elmlər, yaxud da təbabət elmləri sahəsində kadrların hazırlanması bizim üçün vacib idisə və bunların nəticəsində Azərbaycanda həm tibb institutu, həm pedaqoji institut, ondan sonra digər institutlar yarandısa, Bakı Politexnik İnstitutu təhsilin digər sahəsinin yaranmasında, bir də deyirəm, ana rolunu oynamışdır.

Azərbaycan qədim neft diyarıdır. Neftin sənaye üsulu ilə istifadə olunması keçən əsrin ortalarından başlanmışdır. Ancaq 1920-ci ildən sonra bizim o vaxt yaşadığımız SSRİ məkanında böyük bir ölkəni, SSRİ-ni sənayeləşdirmək üçün, sənayeləşdirmə proqramını həyata keçirmək üçün neft sənayesinin xüsusi rolu və əhəmiyyəti vardı. Artıq bu gün tam qətiyyətlə demək olar ki, əgər Azərbaycan nefti olmasaydı, əgər Azərbaycanın zəngin təbii sərvətlərinin istifadə olunması üçün qısa müddətdə müvafiq işlər görülməsəydi, bu işlərin görülməsi üçün lazım olan qədər kadrlar – mühəndislər, texniklər, yaxud da ki, səviyyəli fəhlələrin hazırlanması olmasaydı, onda bəlkə də yeni yaranmış dövlət kimi SSRİ, ümumiyyətlə, aqrar ölkəsi olmuş rus-çar imperatorluğu qısa bir müddətdə belə sənayeləşmə yolu keçə və yüksək sənaye potensialı yarada bilməzdi. Ona görə də Azərbaycan nefti keçmiş SSRİ kimi böyük bir dövlətin inkişaf etməsində xüsusi rol oynamışdır. Bu neftin hasil olunması, emalı üçün o vaxtkı SSRİ-nin müxtəlif bölgələrinə, sahələrinə çatdırılması üçün kadrları hazırlayan, təbiidir ki, Azərbaycan Politexnik İnstitutu olmuşdur.

Bilirsiniz ki, İkinci dünya müharibəsində SSRİ kimi böyük bir dövlətin müharibə aparmaq imkanlarının təmin edilməsində Azərbaycan nefti xüsusi rol oynamışdır. Məlumdur ki, o vaxt SSRİ-də neftin 70

faizi Azərbaycanda hasil edilirdi və bu da SSRİ-nin İkinci dünya müharibəsində qələbə çalmasının əsas şərtlərindən biri olmuşdur.

Sizin akademiyanın – o vaxt sənaye institutu deyirdilər – məzunu, SSRİ-nin ən böyük neftçilərindən biri, həm mütəxəssis, həm alim, həm də mühəndis və uzun müddət SSRİ-nin neft naziri, sonra isə SSRİ Nazirlər Soveti sədrinin müavini vəzifələrində işləmiş, bizim həmyerlimiz Nikolay Baybakov həm Moskvada müxtəlif görüşlərdə, həm də Bakıda bunu dəfələrlə qeyd etmişdir ki, əgər Azərbaycan nefti olmasaydı İkinci dünya müharibəsində SSRİ-nin qələbəsi bəlkə də mümkün olmayacaqdı.

O illərdə sənayedə işləmiş, yaxud da bu institutda çalışmış insanlardan bəziləri, ola bilər, indi bu salondadırlar. Mən də o dövrü gözlərimlə görmüşəm. İndi arxiv materialları bugünkü gənclərə, nəsillərə göstərilir. Amma mən o dövrü gözlərimlə görmüşəm. Gözlərimlə görmüşəm ki, Bakıda, Azərbaycanda insanlar gecə-gündüz neft sənayesində yorulmadan çalışırdılar, neft hasil edirdilər və alman faşist ordusu gəlib Qafqaz sıra dağlarında duran zaman yol kəsildiyinə görə müxtəlif vasitələrdən istifadə edərək, nefti Xəzər dənizindən şimala, cəbhəyə çatdırırdılar.

Mənim xatirimdədir, müharibə illərində Amerika Birləşmiş Ştatlarından SSRİ-yə böyük yük daşımağa qadir olan avtomobillər və başqa texnika gəlirdi. Onun da bir yolu İran ərazisindən – oraya qədər isə gəmilərlə daşınırdı – keçirdi. İran ərazisindən, oradan isə bütün Qafqazı keçərək cəbhəyə getmək üçün həmin texnikaya yanacaq lazım idi. Əgər yanacaq olmasaydı, o vaxtlar Amerika tərəfindən verilən texnika heç bir iş görə bilməzdi. Bu barədə çox danışmaq olar. Ancaq mən bu faktları xatırlayaraq, onu demək istəyirəm ki, biz bu gün bu yubileydə böyük qürur hissi keçiririk. Ona görə ki, hələ 80 il bundan öncə Azərbaycanın zəngin neft yataqlarından istifadə olunmasında və Azərbaycanda sənayenin – həm neft sənayesinin, həm də sənayenin başqa sahələrinin inkişaf etdirilməsində 1920-ci ildə yaranmış Bakı Politexnik İnstututunun xüsusi tarixi yeri vardır.

Bu gün biz yubileyi keçirərək, o vaxt Politexnik İnstitutunu yaradanların və 80 il ərzində, xüsusən ilk onilliklərdə bu institutda ağır bir şəraitdə fəaliyyət göstərmiş müəllimlərin, professorların, mühəndislərin, mütəxəssislərin xatirəsini böyük minnətdarlıq hissi ilə qeyd etməliyik.

Mən dünən sizin akademiyanın qabaqcıl müəllimlərinin, professorlarının təltif olunması barədə materiallara baxarkən gördüm ki, bu gün də burada, Neft Akademiyasında yaşlı nəslə məxsus olan böyük bir qrup alimlər çalışır. Onlar yəqin ki, bu salondadırlar – yaxud da kimsə yoxdur – mən onların xidmətlərini xüsusi qeyd edirəm. Çünki ömrünün əsas

hissəsini bu mötəbər təhsil ocağında keçirmiş və bir neçə nəsil mühəndis, neftçi, yaxud sənayenin başqa sahələri üçün mütəxəssislər hazırlamış insanlar böyük hörmətə layiqdir və biz daim onları cəmiyyətimizdə hörmətli insanlar kimi aldandırmalıyıq.

Burada deyildi, Bakı Politexnik İnstitutu yaranandan sonra o, ayrı-ayrı mərhələlərdə müəyyən adlar daşımışdır. Amma Azərbaycan Sənaye İnstitutu adı daha məşhur idi. Rusca ona Azerbaydcanskiy İndustrialnıy İnstitut deyirdilər. Azərbaycanda hamı bu instituta xüsusi hörmətlə yanaşırdı. Onu da qeyd etmək lazımdır ki, – hər halda, mən öz gənclik və sonrakı dövrdəki təəssüratlarımı deyirəm – bu instituta daxil olmaq istəyənlər o qədər çox deyildi. Çünki, o vaxtlar sənayeni və sənayenin mürəkkəbliklərini gənclərin çoxu hələ o qədər də dərk edə bilmirdilər. Əgər 20-30-cu illəri götürsək, bəlkə də bu, obyektiv səbəb idi ki, respublikamızda təhsili kütləvi etmək üçün daha da çox müəllim kadrları lazım idi. Ona görə də Bakı Dövlət Universitetinə, onun əsasında yaranmış Azərbaycan Pedaqoji İnstitutuna və başqalarına axın daha çox idi. Bir də ki, mən sizə deyim, burada oxumaq o birilərindən çətin idi. Bəlkə də kimsə hesab edir ki, bu mənim subyektiv fikrimdir, ola bilər. Çünki mən vaxtilə burada təhsil almışam. Ancaq məsələ təkcə subyektivlikdə deyil. O vaxt gənclərin çoxu hesab edirdi ki, universitetdə – geologiya, tarix, filologiya fakültələrində hamı oxuya bilər. Amma gəlib burada neft sənayesi, yaxud mexanika, energetika, geologiya fakültələrində oxumaq çox çətin idi. Çünki bu fənlər hələ o vaxtlar bizim gənclər üçün o qədər yaxşı tanış deyildi.

Xatirimdədir, mən də burada bir müddət təhsil almışam. O vaxtlar biz oxuyanda materiallar müqaviməti dərsindən hamımız qorxurduq. Çünki çox çətin idi. İndi bilmirəm, bəlkə asanlaşıbdır. Amma bu çox çətin problem idi. Özü də bir müəllim, professor var idi, necə deyərlər, heç bir şeyə güzəşt edən deyildi. Gərək ki, onun familiyası Dunin idi. Ondan qiymət almaq qətiyyən mümkün deyildi.

Yenə deyirəm, mən öz dövrümü xatırlayıram, buraya daxil olmaq istəyənlər başqa institutlara daxil olmaq istəyənlərdən az idi. Amma, eyni zamanda, bu instituta daxil olmaq və burada oxumaq hər adam üçün mümkün deyildi. Bəziləri daxil olurdu, ancaq oxuya bilmirdi, sonra çıxıb başqa institutlara gedirdi. Bunun səbəbi təkcə burada olan fənlərin mürəkkəbliyi, çətinliyi ilə əlaqədar deyildi. Yenə də deyirəm, bunun səbəbi bir də onunla əlaqədar idi ki, o vaxt gənclər hələ bu sahənin nə qədər vacib olduğunu dərindən dərk edə bilmirdilər. Daha bir səbəb o idi ki, – mən o vaxtın təəssüratlarını deyirəm, ancaq bu ənənələr sonrakı illərdə də davam edibdir – bu institutda nizam-intizam, qayda-qanun,

tələbkarlıq, müəllimin, professorun tələbəyə münasibəti, tələbənin müəllimə münasibəti yüksək səviyyədə idi. Qoy o biri ali məktəblər məndən inciməsinlər. Mən Azərbaycanın uzun illər rəhbəri olmuşam, indi də prezidentiyəm. Mənim üçün hər bir ali məktəb doğmadır və hər bir ali məktəbin öz yeri vardır. Amma mən bu sözləri deməyə bilmərəm, indiki Neft Akademiyası vaxtilə bütün ali məktəblərə nümunə idi. Mən istərdim ki, o bu gün də, gələcəkdə də nümunə olsun.

Dövlət Neft Akademiyasının Azərbaycanın inkişaf etməsində gördüyü işlər çox böyük qiymətə layiqdir. İndi baxın, Azərbaycanın böyük sənaye potensialı vardır. Doğrudur, indi biz müstəqillik əldə edəndən sonra keçmiş sovet iqtisadi sistemindən yeni iqtisadi sistemə keçdiyimiz üçün böyük sənaye müəssisələrimiz lazımi səviyyədə işləyə bilmir, orada çalışan adamların bəziləri işsiz qalırlar. Bunlar müvəqqəti hallardır. Ancaq Azərbaycanın böyük sənaye potensialı vardır.

Təbiidir, Azərbaycan qədimdə aqrar ölkə olubdur – dünyadakı ölkələrin hamısı aqrar ölkələr olublar – sənaye sonra inkişaf etməyə başlayıbdır. Amma keçmiş SSRİ-nin tərkibində olmuş başqa respublikalara nisbətən Azərbaycan daha əvvəl aqrar ölkədən aqrar sənaye və sənaye ölkəsinə çevrilibdir. Ona görə də müstəqilliyimizi əldə edən zaman bizim heç bir problemimiz yox idi. Çünki Azərbaycanın inkişaf etmiş böyük sənaye kompleksi və bu sənaye kompleksini səmərəli işlədə bilən mühəndis, texnik, alim kadrları vardır.

Bakı Politexnik İnstitutu – mən Neft Akademiyasının köhnə adını deyirəm, indiki Politexnik İnstitutunu demirəm, onun da öz yeri var – Azərbaycan elminin inkişafında da böyük rol oynamışdır. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranarkən onun əsasını qoyanların əksəriyyəti məhz bu institutun məzunları olmuşdular. Elmlər Akademiyasının bir çox elmi-tədqiqat institutlarını məhz həmin kadrlar tərəfindən yaratmaq mümkün olmuşdur. Bundan başqa, bizim sənayenin bir çox sahələrində, məsələn, neft, yaxud maşınqayırma, energetika və başqa sahələrdə olduqca çox elmi-tədqiqat, layihə institutlarımız vardır. Həmin institutların yaranması da bu ali təhsil ocağında hazırlanmış kadrların vasitəsi ilə olmuşdur.

Azərbaycan Dövlət Neft Akademiyasının 80 illik tarixində onun fəaliyyəti çoxşaxəli olmuşdur. Həm sənayenin, həm elmin inkişafı, həm elmi-tədqiqat institutları, burada dedilər, bir neçə yeni ali məktəblər – Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Sumqayıt Dövlət Universiteti, Mingəçevir Politexnik İnstitutu məhz Azərbaycan Dövlət Neft Akademiyasından ayrılmış fakültələr əsasında yaranmış, qurulmuşdur.

Azərbaycan Dövlət Neft Akademiyası indi özünün yeni mərhələsini yaşayır. Birincisi, bununla əlaqədardır ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət olaraq öz təhsilini, elmini, iqtisadiyyatını, özünə lazım olan digər sahələri daha da çox inkişaf etdirməyə çalışır. Azərbaycan Dövlət Neft Akademiyası bu baxımdan da xüsusi rol oynayır.

İndi müstəqillik dövründə bizim həyata keçirdiyimiz işlərdən ən böyüyü və ən əsası Azərbaycan dövlətinin yeni neft strategiyasıdır. Biz buna 1994-cü ildə başlamışıq. Amma quru yerdən başlamamışıq. Əgər Azərbaycan neftçiləri, geoloqları, alimləri, Azərbaycanın neft sənayesini təmin edən sənaye müəssisələri yüksək səviyyədə olmasaydı, biz bu strategiyanı həyata keçirə bilməzdik. Bizim neft strategiyamızın əsasını on illərlə Azərbaycan neftçiləri və geoloqları tərəfindən ilk növbədə Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş neft və qaz yataqlarının dünyanın qabaqcıl texnikaya və texnologiyaya, böyük iqtisadi imkanlara malik olan şirkətləri ilə birlikdə işlənməsi təşkil edir. İndi düşünmək lazımdır – əgər bizim alimlərimiz, geoloqlarımız, mühəndislərimiz, neftçilərimiz uzun illər çalışaraq o neft yataqlarını kəşf etməsəydilər, indi biz yeni neft strategiyamızı nəyin əsasında yarada bilərdik? Ona görə də mən neft strategiyası haqqında danışarkən, birinci növbədə Azərbaycan neftçilərinə, neft sahəsindəki alimlərimizə, geoloqlarımıza xüsusi minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Azərbaycan dünyada ilk dəfə dənizin dərinliklərindən neft çıxarmağa nail olmuşdur. 50 il bundan öncə Neft Daşları yaranmışdır. Yəni dənizdə neft mədəni yaranmışdır. Bu, dünyada birinci təcrübə idi. Ancaq bunu kim kəşf etdi, kim yaratdı? Bu yataqları kəşf edənlər yenə də bizim bu Neft Akademiyasında təhsil almış yüksək səviyyəli geoloqlar olmuşlar. Ancaq o ağır vəziyyətdə dənizin, suyun altından nefti çıxarmaq təbiidir ki, bizim neftçilərin əməyinin və bu işdə toplanmış təcrübənin nəticəsi olmuşdur. Onlar olmasaydı, bu ola bilməzdi. Ona görə də Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsi indiyə qədər bizim on illərlə gördüyümüz işlərin nəticəsidir.

Ancaq indi bizim neftçilərin qarşısında, Neft Akademiyasının qarşısında duran vəzifələr Azərbaycana gəlmiş müxtəlif şirkətlərlə sıx əməkdaşlıq edərək, dünya təcrübəsini daha da mənimsəməkdən və dünya təcrübəsini bu gün burada təhsil alan tələbələrə çatdırmaqdan, onları bu sahədə bilikləndirməkdən ibarətdir. Eyni zamanda Neft Akademiyası və neft sahəsində çalışan elmi-tədqiqat institutlarımız, Elmlər Akademiyası gərək bu şirkətlərlə sıx əməkdaşlıq etsinlər, Azərbaycan dünya təcrübəsini – həm elmi, həm də elmi-texniki tərəqqini, təcrübəni qavrasın, gələcəkdə bu işlərin əksəriyyətini özü görə bilsin.

Neft strategiyasının istiqamətlərindən biri də budur ki, biz müəyyən bir dövrdə ayrı-ayrı dünya şirkətləri ilə əməkdaşlıq edərək, təcrübə toplayıb, vəsait əldə edib, müasir texnikanı, texnologiyanı mənimsəyib işlərin çoxunu gələcəkdə özümüz görməliyik. Ancaq bunun üçün, bax, bu keçid dövrü lazımdır.

Sevindirici hal odur ki, indi dünyanın qabaqcıl neft şirkətlərinin burada gördüyü işlərin əksəriyyətini milli kadrlar aparır. Mən bu barədə neft şirkətlərinin rəhbərləri ilə, mütəxəssisləri ilə çox söhbət etmişəm. Onlar bildirirlər ki, Azərbaycandakı kadrların, milli kadrların, yəni azərbaycanlıların bu qədər yüksək səviyyədə olduğunu təsəvvür edə bilməzdik. Bu da yenə Neft Akademiyasının xidmətlərindən biridir. Bizim neft sənayesinin xidmətlərindən biridir. Neft sahəsində fəaliyyət göstərən elmi-tədqiqat, layihə institutlarımızın xidmətlərindən biridir.

Azərbaycan Dövlət Neft Akademiyasının dünyanın bir çox ölkələrində kadrların hazırlanmasındakı xidmətlərindən burda danışıldı. Bu da bizdə böyük iftixar hissi doğurur. Amma təkcə bu yox, həm də Azərbaycan neftçilərinin müxtəlif ölkələrdə neft sənayesinin yaranması və inkişaf etməsi sahəsində gördüyü işlər. Məsələn, Vyetnamda, Kubada, Əlcəzairdə, digər Afrika ölkələrində və başqa yerlərdə Azərbaycan mütəxəssisləri neft sənayesinin təşkil olunmasında iştirak ediblər, neft sənayesi ilə əlaqədar təhsil müəssisələrində dərslər deyiblər.

Xatirimdədir, 1983-cü ildə mən SSRİ-nin dövlət nümayəndə heyətinin başçısı kimi Vyetnamda oldum. Vyetnamın o vaxtkı başçıları ilə – Fam Van Donqla və başqaları ilə danışıq apararkən, onlar bizim qarşımızda, yəni SSRİ-nin qarşısında bir məsələ qoydular ki, siz tezliklə Vyetnamın cənubunda, dənizin sahilində olan neft yataqlarının istifadə edilməsində bizə yardım edin. Xoşimin şəhərindən müəyyən məsafədə, gərək ki, Vunqtay adlı bir yerdə bizim mütəxəssislər işləyirdilər. Gördüm ki, onların əksəriyyəti azərbaycanlıdır. Həddindən artıq sevindim. Onlar orada çox işlər görmüşdülər. İndi Vyetnam çox neft hasil edir və bu onun iqtisadiyyatının inkişafına kömək edibdir.

Yaxud, burada deyildi – xarici ölkələrin gənclərinin neft sahəsində təhsil alması. Afrikanın böyük ölkələrindən biri olan Anqolanın prezidenti Joze Eduardu Duş Santuş beş il burada təhsil alıbdır, mühəndis olubdur. Sonra öz ölkəsində uzun illərdir prezident seçilir. Mən onunla həm Anqolada, həm də Moskvada bir neçə dəfə görüşmüşəm. Bəzən beynəlxalq təşkilatlarda görüşürük. O hər dəfə Bakıdakı təhsil dövrünü, müəllimlərini çox böyük məmnuniyyət hissi ilə xatırlayır. Bu da Azərbaycan Dövlət Neft Akademiyasının bir tərəfdən xidmətidir, ikinci tərəfdən, dünya miqyasında qazandığı şöhrətin əsasıdır.

Bir sözlə, bu gün Azərbaycan Dövlət Neft Akademiyasında sizinlə birlikdə mən Azərbaycan neftçilərinin bütün nəsillərinin xalqımız qarşısındakı böyük xidmətlərini xüsusi qeyd edirəm və ölkəmizdə neft sənayesinin inkişafında xidmətlər göstərmiş keçmiş nəsillərin – böyük mühəndislərin, alimlərin, geoloqların xatirəsi qarşısında baş əyirəm.

Mən burada sizinlə danışarkən beynimə bir fikir də gəlibdir. Azərbaycan neft ölkəsidir. Amma bizdə bu böyük sahəyə aid dəyərli bir abidə yoxdur.

Biz böyük şairlərimizin heykəllərini yaratmışıq. Musiqiçilərimizin heykəllərini yaratmışıq. Bunlar hamısı lazımdır, təbiidir. Amma mən bu gün düşünürəm ki, neft sahəsində bir adamın heykəlini yaratmaq çətindir. Amma Azərbaycan neft sənayesinin yarandığı vaxtdan indiyə qədər əldə etdiyi nailiyyətləri əks etdirən bir monumentin yaranmasına böyük ehtiyac vardır. Düşünürəm ki, gərək mən bu barədə müəyyən qərar qəbul edəm və onu həyata keçirəm.

Mən bu gün buraya, bu binaya gələrkən gəncliyimi xatırladım. 1939-cu ildə mən Naxçıvanda orta məktəbi qurtarandan sonra – onda 16 yaşım var idi – Bakıya gəldim. Memarlığa çox həvəsim olduğuna görə inşaat-memarlıq fakültəsinə daxil oldum. Burada iki ildən bir az çox təhsil aldım. İkinci dünya müharibəsi təhsilimin yarımçıq qalmasına, həyatımın istiqamətinin dəyişilməsinə səbəb oldu. O vaxtdan 60 il keçir. Bir-iki dəfə öz arxivimə baxanda oxuduğum o iki ildə verdiyim imtahanların qiymət kitabçasını gördüm. İndi burada siz də arxivdən tapmısınız ki, hansı fənlərdən imtahan vermişəm, hansı qiyməti almışam, orada müəllimlərin imzaları vardır. Düzdür, iki il azdır, ondan 60 il keçibdir. Mən ondan sonra hərbi işdə olmuşam, siyasətlə məşğul olmuşam. Görünür ki, mənim memarlığa olan həvəsimlə yanaşı, bu istedadım var imiş. Ancaq o illəri heç unutmuram.

Bu gün binaya daxil olarkən fikirləşdim, o şeylərin hamısı yerindədirmi? Bəli, bu giriş qapısı da yadımdadır. Səhər dərsə gəlirdik. İntizam çox möhkəm idi. Mən keçmiş Solntsev küçəsi 40-da yerləşən yataqxanada yaşayırdım. Buradan 5 nömrəli tramvay keçirdi. Oradan buraya gəlirdim. Tələbələr çalışırdılar ki, dərsə gecikməsinlər. Həmişə qapıda tıxac əmələ gəlirdi, içəri girmək çox çətin idi, bir-birini itələyir, sıxırdılar. Bunlar hamısı xatirimdədir. Burada üçüncü mərtəbədə küncdə böyük bir otaq var. O bizim memarlıq qrupunun otağı idi. Aşağıda yeməkxana var idi, o da yadımdadır. Ümumiyyətlə, bu bina o vaxtdan mənim gözümün qarşısındadır. Yəni bunun köhnə hissəsi yox, yeni hissəsi. O illər iki il müddətində burada aldığım təhsil, tərbiyə, nizam-intizam, bilik mənim gələcək həyatımda, sonrakı dövrümdə çox böyük rol

oynamışdır. Ona görə də mən o illəri böyük məmnuniyyət hissi ilə xatırlayıram. Mənə dərs vermiş müəllimləri xatırlayıram. Bu gün onlara bir daha minnətdarlığımı bildirirəm. Çünki Naxçıvanda orta məktəbi qurtarandan sonra məhz o illər mənim gələcək həyatımda böyük rol oynadı.

Mən burada çox yubileylərdə iştirak etmişəm. Xatirimdədir ki, 1940-cı ildə burada tələbə idim. Bildik ki, 20 illik yubileydir. O vaxt burada rektor Musa Əliyev idi. Bilirsiniz ki, o sonra böyük alim, akademiyanın prezidenti olmuşdur. Başqa müəllimlərimiz də var idi. Onlar yüksək dövlət ordenləri ilə təltif olunmuşlar, institut təltif edilmişdir.

Yadımdadır, bu salonda mərasim keçirilirdi. Təbiidir, onda mən burada yox, hardasa oralarda oturmuşdum. Çox sevinirdim. Yəqin təkcə mən yox, bütün tələbələr sevinirdi. Bu mənim 20 illik yubileydə iştirakım idi.

30, 40 illik yubileylər bilmirəm nə vaxt olubdur. Amma 1971-ci ildə 50 illik yubileydə iştirak etmişəm və nitq söyləmişəm. 60 illik yubileydə iştirak etmişəm, yenə də nitq söyləmişəm. Artıq burada dedilər ki, 70 illik yubiley olmayıbdır. İndi 80 illik yubileydə də iştirak etmək mənə müyəssər olubdur. Mən buna görə özümü çox xoşbəxt hiss edirəm. Çox məmnunam, mənə nəsib olubdur ki, 60 il bundan öncə burada təhsil almış adam indi bu akademiyanın 80 illik yubileyində iştirak edir.

Mən sizinlə bərabər olmağımdan bir daha çox şadam, çox sevinirəm. Ümidvaram ki, Neft Akademiyası indiyə qədər əldə edilmiş təcrübəni, gözəl ənənələrini bundan sonra da davam etdirəcək və XXI əsrdə də Azərbaycanın ən qabaqcıl ali təhsil məktəblərindən biri olacaqdır. İndiyə qədər olduğu kimi, gələcəkdə də bizim xalqımız, millətimiz üçün, müstəqil Azərbaycan dövləti üçün yüksək səviyyəli kadrlar hazırlayacaqdır.

Sizi bir daha təbrik edirəm. Hər birinizə cansağlığı arzu edirəm. İşlərinizdə uğurlar arzulayıram. Hər birinizə ailə səadəti arzu edirəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİNƏ ANKARA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ*

Ankara Universiteti
16 mart 2001-ci il

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər Ankara Universitetinə gəldilər. Universitetin rektoru, professor Nüsrət Aras, Ankara valisi Yəhya Gur, təhsil ocağının professor və müəllimləri ali qonaqları hərarətlə, mehribanlıqla qarşıladılar.

Prezident Heydər Əliyev və prezident Əhməd Necdət Sezərin Ankara Universitetinin rektoru Nüsrət Aras ilə görüşü oldu. İki qardaş ölkənin dövlət başçısını salamlamaqdan böyük şərəf duyduğunu bildirən rektor Türkiyənin bu məşhur ali təhsil ocağı haqqında məlumat verdi.

Sonra Azərbaycan prezidenti Heydər Əliyevə Ankara Universitetinin fəxri doktoru adı verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Mərasimdə Türkiyənin Dövlət naziri Əbdülxalıq Çay, Təhsil naziri Mətin Bostançıoğlu, millət vəkilləri, professor-müəllim heyəti, ölkənin çoxsaylı kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.

H e y d ə r Ə l i y e v: Türkiyə Cümhuriyyətinin prezidenti zatialiləri, əziz dostum, qardaşım Əhməd Necdət Sezər!

Ankara Universitetinin hörmətli rektoru!

Hörmətli senatorlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən, Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostum, qardaşım Əhməd Necdət Sezərin dəvəti ilə mart ayının 12-də Türkiyə Cümhuriyyətinə rəsmi səfərə gəlmişəm. Bu mənim Türkiyəyə ilk səfərim deyildir. 1992-ci ildən etibarən mən dəfələrlə Türkiyəyə gəlmişəm. Rəsmi səfərlər də, işgüzar səfərlər də olmuşdur. Sadəcə, görüşmək arzusunda olduğuma görə də gəlmişəm. Bunların hamısı mənim üçün qiymətlidir. Amma həyat inkişaf etdiyi kimi, insanların dünyaya baxışı da inkişaf edir

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 33-cü kitab. B., Azərnəşr, 2011, s.171-181

və hər yeni atılan addım, təbiidir ki, əvvəlkindən daha önəmli olur. Ona görə də mən bu səfəri çox yüksək qiymətləndirirəm. Birincisi, ona görə ki, burada biz hörmətli prezident, əziz dostumla bərabər çox ətraflı, dərin məzmunlu görüşlər keçirdik, danışıqlar apardıq. Türkiyə-Azərbaycan əlaqələrinin bugünkü vəziyyəti və gələcəyi haqqında fikirlərimizi paylaşdıq və bir daha hər ikimiz eyni fikri ifadə etdik ki, Türkiyə-Azərbaycan əlaqələri gündən-günə inkişaf edir. Bunlar dostluq, qardaşlıq əlaqələridir. Bunlar dərin tarixi köklərimizlə, milli-mənəvi dəyərlərimizlə bağlı əlaqələrdir. Bir dilə, bir dinə, bir mədəniyyətə mənsub olmağımızla bağlı əlaqələrdir. Bir millət, iki dövlət əlaqələridir. Əgər beynəlxalq, uluslararası dildə danışsaq, strateji tərəfdaşlıq əlaqələridir. Bu həm Türkiyə, həm də Azərbaycan üçün çox önəmlidir. Çünki dünya ağır bir dövr yaşayır. Dünyada çox mürəkkəb proseslər gedir. Bu proseslərin bir qismi də, bəlkə də ən ağırı, Türkiyə də daxil olmaqla, bizim bölgəmizdə – Qafqazda gedir. Burada həm savaş, həm münaqişələr, həm də çox həll ediləsi məsələlər vardır. Bütün bu proseslərdə, təbiidir ki, Türkiyə və Azərbaycan həmişə yan-yana, bərabər olmuş, bir yolla getmişlər. Mən məmnuniyyətlə deyə bilərəm ki, bu gün biz bu yolumuzun nə qədər doğru, düzgün olduğunu bir daha təsdiq etdik.

Bütün başqa görüşlər də mənim üçün əhəmiyyətli idi. Xüsusilə Türkiyənin çox hörmətli, mötəbər Böyük Millət Məclisində millət vəkillərinə, yəni xalqın təmsilçilərinə müraciətim və orada fikirlərimi izah etməyim mənim üçün çox əhəmiyyətli idi.

Türkiyədə olduğum bu günlər mənim üçün də, Azərbaycan xalqı üçün də əzizdir. Bizim buradakı görüşlərimiz, danışıqlarımız televiziya vasitəsilə hər gün Azərbaycana çatdırılır. Oradan mənə daim məlumat verirlər ki, xalqımız, millətimiz bunları böyük ruh yüksəkliyi ilə, heyranlıqla, həvəslə izləyirlər. Hamı da bundan məmnundur. Çünki biz dövlət adamları ilə bərabər, xalqımız da bu qardaşlığın nə qədər əhəmiyyətli olduğunu bilir, anlayır və istəyir.

Buradakı danışıqlarımızın əsas mövzularından biri Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik yaratmaqdan ibarətdir. Bu barədə Türkiyənin də, Azərbaycanın da təşəbbüsü olmuşdur. Bu, xalqlarımız üçün, Qafqaz üçün, bəlkə də bütün dünya üçün çox önəmlidir. Ancaq bizim üçün, yəni Azərbaycan üçün bunun daha böyük əhəmiyyəti vardır. Çünki bilirsiniz ki, 1988-ci ildən Ermənistan-Azərbaycan münaqişəsi başlayıbdır. 1988-ci ildə Ermənistan Azərbaycanın qədim torpağı, ayrılmaz hissəsi olan Dağlıq Qarabağı öz əlinə keçirmək üçün iddialarla çıxış etmişdir. O vaxtlar Azərbaycan da, Ermənistan da Sovetlər Birliyinin tərkibində olmuşlar.

Ancaq, təəssüflər olsun ki, Sovetlər Birliyinin hökuməti, onun rəhbərləri o vaxt ədalət yolu ilə getmirdilər. Ermənistana daha da çox dəstək verirdilər, Azərbaycana isə yox.

Sonra Azərbaycanın daxilində sabitliyin olmaması, xalqın birləşmək iradəsinin çatmaması, ölkənin belə ağır vəziyyətdə olduğu vaxtda ayrı-ayrı insanların hakimiyyət mübarizəsi ilə məşğul olması və silahlı dəstələrdən istifadə etməsi, təbiidir ki, o zaman bizim xalqımızı müəyyən qədər parçalamışdı. Bundan məharətlə istifadə edən ermənilər, əksinə, daxildəki bütün ziddiyyətlərin, ixtilafların hamısını kənara qoyaraq birləşmiş, Dağlıq Qarabağı ələ keçirmək üçün çalışmışlar. Məhz bu səbəblərdən Azərbaycan torpaqlarının iyirmi faizi Ermənistan tərəfindən işğal olunmuş, bu torpaqlardan bir milyondan artıq azərbaycanlı – sizin qardaşlarınız, bacılarınız yerindən-yurdundan zorla çıxarılmış, didərgin düşmüşdür və artıq 7-8 ildən çoxdur ki, çadırlarda yaşayırlar.

Biz 1994-cü ildə müharibəni dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Məsələni sülh, barış yolu ilə həll etməyə çalışdıq. Bunun özü, hesab edirəm ki, böyük hadisə idi. Çünki müharibə nəticəsində həm qan tökülür, həm şəhidlər verilirdi, həm də ki, təəssüflər olsun, Azərbaycanın torpaqları əlindən çıxmışdı.

Artıq 1994-cü ildən sülh danışıqları gedir. Bu danışıqları da ATƏT-in yaratdığı Minsk qrupu aparır. Minsk qrupu 12 dövlətdən ibarətdir. Onlardan biri də Türkiyədir. Minsk qrupunun həmsədrləri var. Bunlar Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Onların vasitəsilə, Türkiyənin bu işdə çox fəal iştirakı ilə biz sülh danışıqlarını aparırıq.

Ancaq çox təəssüflər olsun ki, hələ indiyə qədər müsbət nəticə əldə edə bilməmişik. Yəni, əsas nəticə də ondan ibarət olmalıdır ki, sülh yaransın, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin, yerindən-yurdundan zorla çıxarılmış insanlar öz yerlərinə qayıtsınlar, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı beynəlxalq hüquq əsasında təmin olunsun. Əsas məqsədimiz bundan ibarətdir.

Ermənilər isə həmişə torpaq iddiası ilə yaşayırlar, siz bunu bilirsiniz. Osmanlı imperatorluğu dövründə guya ermənilərə qarşı soyqırımı edilməsi haqqında son vaxtlar bəzi ölkələrdə çıxarılan qərarlar tamamilə əsassız, uydurma, yanlış şeylərdir. Mən bunu Böyük Millət Məclisində də demişəm, bu gün də deyirəm – bu olmayıbdır, bunu sadəcə, uydurublar.

Əgər o dövr, yaxud ondan sonrakı vaxt barədə danışsaq, əksinə, ermənilər azərbaycanlılara, türklərə qarşı soyqırımı ediblər. Məsələn, Dağlıq Qarabağ savaşında Ermənistanın silahlı qüvvələri Rusiyanın 366-

cı alayının iştirakı ilə – bu alay onda Dağlıq Qarabağda yerləşirdi – Xocalı şəhərinin əhalisini bir gecənin içərisində qırdılar. Budur soyqırımı. Əgər onlar 85 il bundan əvvəlki «soyqırımı» haqqında danışırlarsa, bu isə indi, XX əsrin sonunda ermənilər tərəfindən azərbaycanlılara, türklərə qarşı edilən soyqırımıdır. Ona görə də soyqırımı haqqında danışmağa onların haqqı yoxdur. Soyqırımı haqqında danışmağa bizim haqqımız var.

Bununla onu demək istəyirəm ki, təəssüflər olsun, ermənilər Amerika Birləşmiş Ştatlarındakı, Fransadakı, Avropanın başqa ölkələrindəki diasporundan istifadə edərək, bax, bu cür qərarlar da çıxarda bilirlər. Onlar bizim sülh danışıqlarımızda da ədalət mövqeyində durmurlar. Torpaqlarımızı işğal etdiklərinə görə, bizim üçün uyğun olmayan şərtlər irəli sürürlər. Təbiidir ki, bu şərtləri də biz qəbul edə bilmirik. Ona görə də sülh danışıqları uzanır.

Bilirsiniz ki, yanvar ayında mən Parisdə olarkən Ermənistan prezidenti Köçəryanla iki dəfə görüşdüm. Sonra Fransa prezidenti Jak Şirak vasitəsilə, onunla bərabər, üçümüz bir yerdə görüşdük. Ancaq bu görüşlər də o qədər böyük nəticə vermədi. İndi – düşünürəm ki, televiziyadan siz artıq bilirsiniz – Amerika Birləşmiş Ştatlarının hökuməti Azərbaycan prezidentini və Ermənistan prezidentini ABŞ-a dəvət edibdir. Aprelin 3-də Floridada bizim aramızda danışıqlar olacaqdır. Kolin Pauell bu təşəbbüsdədir. Ancaq prezident Buş da bu işlə məşğuldur. Onların tərəfindən bizə verilən məlumata görə, bu görüş təkcə ABŞ-ın yox, həm də Minsk qrupunun həmsədrləri olan Rusiyanın, Fransanın təmsilçilərinin iştirakı ilə keçiriləcəkdir. İndi mən oraya getməliyəm. Arzu edirəm ki, biz orada irəliyə doğru hansısa addım ata bilək. Ermənistanla-Azərbaycan arasında sülh yarada bilək. Əsas da ondan ibarətdir ki, işğal edilmiş torpaqlarımız azad olunsun.

Bunları mən sizə, sadəcə, məlumat kimi deyirəm. Ancaq eyni zamanda demək istəyirəm ki, bu mövzu bizim hörmətli cümhur başqanı ilə danışıqlarımızın əsas hissəsini təşkil edibdir. Çünki biz həmişə Türkiyə ilə bərabər olmuşuq. İndi də məsələnin həllinin bu mərhələsində yenə də Türkiyə ilə məsləhətləşmək, dövlət başçısı ilə, hökumət başçıları ilə fikir mübadiləsi aparmaq bizim üçün çox lazımdır.

Mən bütün səfər haqqında danışmaq istəmirəm. Ancaq bu mövzunu sizə çatdırıram ki, görün, bizim bu görüşlərimizin, Türkiyəyə mənim rəsmi səfərimin Azərbaycan üçün nə qədər böyük əhəmiyyəti var.

Başqa məsələlər barədə də danışdıq. Məsələn, Bakı-Ceyhan neft boru xətti – bilirəm ki, Türkiyədə bu hamını maraqlandıran məsələdir – haqqında da hər şeyin hazır olduğunu müəyyən etdik. Proqram tərtib

olunubdur. Həmin proqram üzrə iş gedir. Bakı-Ceyhan boru xətti çəkiləcək, başa çatacaqdır. Azərbaycan nefti Türkiyəyə gələcək və buradan Ağ dənizə – Aralıq dənizinə çatdırılacaqdır.

Bilirsiniz ki, Azərbaycanda böyük qaz ehtiyatları vardır. Son vaxtlar biz onun Türkiyəyə satılması haqqında danışıqlar aparırdıq. Bu görüşlər, danışıqlar nəticəsində Azərbaycanın təbii qazının Türkiyəyə satılması haqqında burada anlaşmalar imzalandı. Başqa çox əhəmiyyətli məsələlər də oldu. Ona görə də mən bu səfərimdən çox məmnunam.

Bu səfərimin daha bir, özü də çox önəmli nöqtəsi mənim Ankara Universitetinə gəlməyim, bu universitetin mənə böyük hörmət göstərməsi, məni universitetin fəxri doktoru adına layiq görməsidir. Mən bundan qürur hissi duyuram. Çox fəxr edirəm və Ankara Universitetinin senatorlarına, rektoruna, bu qərarı çıxaranların hamısına səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Çox sağ olun.

Ankara Universiteti Türkiyənin ən hörmətli, ən böyük universitetlərindən biridir. Mən əvvəlcə də bilirdim, ancaq məlumat gələndə ki, mənə fəxri doktor adı verilibdir, təbiidir, Ankara Universitetinin tarixi ilə bir də tanış oldum. Bu məni çox sevindirdi. Çünki bütün başqa nailiyyətləri, uğurları ilə yanaşı, Ankara Universitetinin ən böyük iftixar mənbəyi ondan ibarətdir ki, o, böyük Mustafa Kamal Atatürkün qəbul etdiyi qərarla Türkiyədə yaradılmış ilk universitetlərdən biridir.

İkincisi, ondan ibarətdir ki, Ankara Universiteti böyük Atatürkün vəsiyyətlərini yerinə yetirir. Çünki mən orada oxuyuram... «Həyatda ən həqiqi mürşid elmdir». Mustafa Kamal Atatürkün bu sözləri Türkiyədəki bütün universitetlər, elm adamları, o cümlədən Ankara Universiteti üçün vəsiyyətdir. Yəni bu o yoldur ki, həmin yolla getmək lazımdır. Ankara Universiteti də bu yolla gedir.

Ankara Universiteti ilə Azərbaycan arasındakı əlaqələr də məni çox sevindirir. Çünki rektor artıq söylədi ki, Azərbaycandan burada 150 tələbə təhsil alır, 7 müəllim dərs deyir. Bu da çox önəmlidir.

Ankara Universiteti Azərbaycanın universitetləri ilə elm və təhsil sahəsində əlaqələr yaradıbdır. Bakı Dövlət Universiteti – bu universitetin 81 yaşı vardır – 1919-cu ildə yaranıbdır və çox böyük təhsil ocağıdır. Ondan sonra, dediniz ki, Naxçıvan Universiteti və Lənkəran Universiteti, Elmlər Akademiyası ilə əlaqələr yaradıbdır.

Azərbaycan Elmlər Akademiyası çox böyük bir elm mərkəzidir. Bilirsinizmi, bu, vaxtilə Sovetlər Birliyinin yaratdığı bir qurumdur. Yəni, Türkiyə kimi dövlətlərdə keçmişdə də, indi də belə bir mərkəz – elm mərkəzi, Elmlər Akademiyası olmayıbdır. Bu, keçmiş rus imperatorluğundan qalmış

ənənədir. Amma Sovetlər Birliyində Elmlər Akademiyası ən yüksək elm mərkəzi idi. Sovetlər Birliyinin müsbət və mənfi cəhətlərinin hamısını biz bilirik, mənfi cəhəti daha çoxdur, nəinki müsbət cəhəti. Ancaq elm sahəsində çox işlər görübdür. Məsələn, hələ keçmişdən mövcud olan Elmlər Akademiyasının sonralar inkişaf etməsi, Sovetlər Birliyinə daxil olan 15 müttəfiq respublikanın hər birində – onlardan biri də Azərbaycan idi – akademiyanın yaradılması. Azərbaycanda Elmlər Akademiyası 1945-ci ildə yaranıbdır və o çox işlər görübdür. Doğrudur, indi, keçid dövründə onun problemləri vardır. Amma biz bu problemlərin də hamısını çözəcəyik. Mən çox məmnunam ki, Ankara Universiteti Azərbaycanın Elmlər Akademiyası ilə bağlıdır. Çünki Azərbaycanda Elmlər Akademiyası təhsillə məşğul deyildir.

Onlar elmi tədqiqatlarla məşğuldur. Buna görə də bu əlaqələr çox əhəmiyyətli və önəmlidir.

Azərbaycanda elm adamları, elm mərkəzləri, universitetlər Türkiyə ilə, türk dünyası ilə bağlı olan bir çox məsələlər barədə araşdırmalar, tədqiqatlar aparırlar. Bunlar öz yerində. Mənim təşəbbüsümlə Azərbaycanda böyük Atatürkün irsinin öyrənilməsi, araşdırılması mərkəzi yaradılıbdır. Bu mərkəz müstəqil bir təşkilat olacaqdır. Həm Elmlər Akademiyasının, həm də ölkəmizin bütün universitetlərinin bu sahədə ən bilikli adamları buraya toplaşacaqdır. Mən də – Azərbaycan prezidenti də, bu mərkəzin fəxri başqanıyam. Güman edirəm ki, bu mərkəz Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha elmi nöqteyi-nəzərdən araşdıracaq və meydana çıxaracaqdır. Bu, geniş işbirliyi yaratmaq üçün bir daha imkanlar verəcəkdir.

Mən çox məmnunam ki, sizin universitet Azərbaycan Elmlər Akademiyası ilə birbaşa bağlıdır. Ona görə də mən arzu edirəm ki, Ankara Universiteti mənim başqanlıq etdiyim mərkəzlə Atatürk irsinin araşdırılması, türk xalqlarının tarixinin və tarixi birliyinin tədqiq olunması sahəsində də iş görsün.

Bilirsinizmi, əziz dostlar, mən həyatımda çox mükafatlar almışam. Burada həyatım haqqında qısa məlumatlar verildi, hər halda, həyatımda çox işlər də görmüşəm, çox problemlərlə də rastlaşmışam. Ancaq mükafatlar çox almışam, həm Sovetlər Birliyinin, həm də bir çox ölkələrin mükafatlarını almışam. Bu mükafatlar içərisində mənim üçün ən yüksək mükafat 1999-cu ildə Türkiyə tərəfindən verilmiş Atatürk Beynəlxalq Sülh mükafatıdır. Mən bunu özüm üçün böyük şərəf hesab edirəm və bu adı həyatımın sonuna qədər böyük fəxrlə daşıyacağam.

Universitetlər də mənə çoxlu belə fəxri adlar veriblər. Məsələn, 250 illik tarixi olan Moskva Dövlət Universiteti üç ay bundan öncə – heç

mənim bundan xəbərim olmayıbdır – mənə oranın fəxri doktoru adını veribdir. Məni Moskvaya dəvət ediblər ki, gedib onu alım. Əgər gedə bilməsəm, onlar özləri Azərbaycana gələcəklər.

Mən vaxtilə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən, bütün Sovetlər Birliyinin elm və təhsil işlərinə başçılıq edirdim. O vaxt Sovetlər Birliyində 800-dən artıq universitet, Elmlər Akademiyası və sair var idi. Mən onlarla çox yaxın təmaslarda olmuşam. Amma o vaxtlar onlar bu adı verməyiblər. Çünki Sovetlər Birliyi zamanı belə şeylər bir qədər qadağan idi. Amma neçə illərdir ki, mən oradan ayrılmışam – indi mən Azərbaycan kimi müstəqil bir dövlətin başçısıyam – amma 250 illik tarixi olan Moskva Dövlət Universiteti mənə fəxri doktor adı veribdir.

Mən Türkiyədə də bəzi universitetlərdən bu adı almışam. Ancaq Ankara Universitetinin, böyük Atatürkün qərarı ilə yaradılmış universitetin və bu qədər inkişaf etmiş bir təhsil ocağının, bu qədər çoxlu kadrlar hazırlamış universitetin fəxri doktoru adı mənim üçün çox yüksəkdir. Bir də ona görə ki, Türkiyənin bir çox dövlət adamları sizin universitetin məzunudur – millət vəkilləri, nazirlər. Amma Türkiyənin bugünkü 13-cü Cümhur başqanı, mənim əziz dostum və qardaşım Əhməd Necdət Sezər də sizin universitetdə təhsil alıbdır. Buradan həyata atılıbdır və siz ona o qədər yaxşı bilik vermisiniz və burada o qədər yaxşı təhsil alıbdır ki, artıq bu gün gəlib Türkiyənin Cümhur başqanı səviyyəsinə çatıbdır.

Ona görə də mən bu gün burada hörmətli cümhur başqanı ilə bir yerdə olmağımdan çox məmnunam. Əziz dostum, mən sizi də təbrik edirəm ki, Sizin təhsil aldığınız bir universitet indi bu qədər yüksək səviyyədədir. Düşünürəm ki, Cümhur başqanı kimi, Siz təhsil aldığınız bu universitetə daha çox yardım edəcəksiniz.

Əziz dostlar, mən sizə bir daha təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, Ankara Universitetinin fəxri doktoru adını şərəflə daşıyacağam. Bu mənim üzərimə böyük vəzifələr qoyur. O da ondan ibarətdir ki, Türkiyə və Azərbaycan arasında elm, təhsil sahəsində əlaqələrin inkişaf etməsində daha çox işlər görək. Əmin ola bilərsiniz ki, mən bunu da edəcəyəm. Sizin hər birinizi Azərbaycanda görməkdən məmnun olacağam.

Sizə təşəkkür edirəm. Universitetə, hamınıza – universitetin həm müəllimlərinə, həm də tələbələrinə cansağlığı, səadət və yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Heydər Əliyev: Bilirsiniz ki, Azərbaycan rəssamları çox gözəl sənətkarlardır. Onların bir qismi indi burada, Türkiyədə çalışır. Burada həm dərs deyirlər, həm də gözəl əsərlər yaradırlar. Belə böyük rəssam-

lardan biri də Bakının bir mənzərəsini təsvir edibdir. Mən bu tablonu universitetə hədiyyə edirəm. Güman edirəm ki, o özünün mötəbər yerini tutacaqdır və siz Azərbaycanı, Bakını bu rəsm əsəri ilə daha da yaxından tanıyacaqsınız.

Nüsrət Aras: Çox təşəkkür edirəm, sayın Cümhur başqanım. Təqdim etdiyiniz tablo bu gündən sonra senator salonumuzda qalacaqdır.

Heydər Əliyev: Bu onun pasportudur, pasportsuz olmaz. Bu da ki, son iki-üç ildə, xüsusən Atatürk Sülh mükafatının mənə verilməsi zamanı mənim buradakı təmaslarım, Türkiyə-Azərbaycan əlaqələri haqqında kitabdır. Bunu da sizə təqdim edirəm. Sağ olun.

Nüsrət Aras: Sağ olun, çox təşəkkür edirəm.

GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ ƏDƏBİ-BƏDİİ GECƏDƏ ÇIXIŞ*

Rəşid Behbudov adına Mahnı Teatrı
28 aprel 2001-ci il

Gözəl insan, görkəmli oftalmoloq alim, tibb elmləri doktoru, əməkdar elm xadimi, professor, Respublika Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatı laureatı Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev gecədə iştirak etmək üçün Mahnı Teatrına gəldi.

Sükut çökmüş salonda həzin musiqi səsləndi, «Elegiya» filmindən kadrlar göstərildi. Filmdə Zərifə xanıma həsr olunmuş sənət əsərləri, ailəvi fotoşəkillər, vaxtilə onunla birgə işləmiş, ünsiyyətdə olmuş həmkarlarının xatirələri əksini tapmışdır.

Görkəmli dövlət xadimi, elm təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım çox kübar, ziyalı, işgüzar, xalqını, vətənini, torpağını ürəkdən sevən bu ailənin layiqli övladı olmuşdur. O, respublikamızda tibb elminin, xüsusilə oftalmologiyanın inkişafında böyük rol oynamış, bu sahədə yüksək ixtisaslı kadrlar hazırlanmasında yaxından iştirak etmişdir. Onun elmi axtarışları təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da yüksək qiymətləndirilmişdir. Təsadüfi deyildi ki, o, Azərbaycan oftalmoloqları arasında Averbax adına mükafata layiq görülmüş yeganə alim idi. Zərifə xanımın elmi tədqiqatları bilavasitə xalqa xidmət edirdi. Humanist alim ömrünün ən mənalı illərini ata-anasız qalmış, uşaq evlərində yaşayan balaların korluqdan xilas olunmasına, fəhlələr arasında peşə xəstəliklərinin qarşısının alınmasına həsr etmişdir.

Zərifə xanım hərtərəfli inkişaf etmiş parlaq şəxsiyyət idi. O, istedadlı alim olmaqla yanaşı, ədəbiyyatı, incəsənəti, musiqini sevir, gözəl bilirdi.

Gecədə Zərifə xanımın həyat və fəaliyyətinin müxtəlif məqamları barədə məlumat verildi, ona həsr olunmuş şeirlərdən parçalar oxundu. Tanınmış müğənnilərin ifasında muğam və xalq mahnıları səsləndi.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz dördüncü kitab. B., Azərnəşr, 2011, s.5-9

Sevil xanım Əliyevanın şair Fikrət Qocanın şeirinə bəstələdiyi «Ana» mahnısının «Bəri bax» ansamblı üzvlərinin ifasında səslənməsi gecəyə toplaşanlara bir daha xatırlatdı ki, Zərifə xanım həm də xalqımızın ən gözəl mənəvi xüsusiyyətlərini özündə birləşdirən əsl Azərbaycan qadını, ailəsinə bağlı, övladları ilə nəfəs alan ana, gözəl ailənin xanımı idi.

Bütün ömrünü zülmətlə mübarizəyə həsr etmiş bu nurlu şəxsiyyətin xatirəsi təkcə onun doğmaları və yaxınlarının deyil, xalqımızın qəlbində beləcə daim yaşayacaqdır.

Heydər Əliyev: Mərhum Zərifə xanımın xatirəsinə həsr olunmuş bu gecənin, xatirə gecəsinin təşkilatçılarına və bu ədəbi-musiqili kompozisiyanın iştirakçılarının hamısına ürəkdən təşəkkür edirəm. Bu, xatirə gecəsidir, amma hesab edirəm ki, burada bizim incəsənət ustalarının çıxışları, eyni zamanda bizim mədəniyyətimizdə, incəsənətimizdə müxtəlif janrları çox məharətlə nümayiş etdirmək qabiliyyətinin olduğunu göstərir. Mən sizin hamınıza təşəkkür edirəm.

Bilirəm ki, bunun rejissoru bizim hörmətli mədəniyyət xadimi Cənnət xanımdır. Cənnət xanım, sizə təşəkkür edirəm. Bütün iştirakçılara təşəkkür edirəm. Çox təsirli idi. Eyni zamanda Zərifə xanımı xatırlamaq üçün, bəlkə mənim üçün bu daha da təsirlidir. Çünki Zərifə xanım mənim həyat yoldaşım idi. Bəlkə də mənim qədər onu tanıyan, onu mənim qədər hiss edən adam olmayıbdır. Hətta bəlkə onun valideynləri də. Təbiidir ki, valideynləri onu bəsləyiblər, böyüdüblər, təhsil veriblər, ona həyat veriblər. Ancaq mən onunla həyat qurandan sonra birgə yaşadığımız dövrdə, təbiidir ki, mənim fikirlərim onun haqqında bütün deyilənlərdən daha genişdir. Ancaq, təbii, mən burada heç bir şey demək istəmirəm. Bunlar hamısı insanın qəlbində yaşayır və hər bir insanın, dünyasını dəyişmiş insanın, insanı tanıyanların qəlbində yaşayır. Siz isə, əziz incəsənət ustalarımız, xadimlərimiz, bununla Zərifə xanım haqqında mənim qəlbimdə yenidən hisslər oyatdınız. Güman edirəm ki, bu xatirə gecəsinə zəhmət çəkib gəlmiş insanları da təsirləndirdiniz və Zərifə xanımın nə qədər gözəl insan olduğunu burada bir daha nümayiş etdirdiniz.

Onun haqqında çox sözlər dediniz və çox sözlər də demək olar. Ancaq mənim üçün o, birinci növbədə, böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi, qəlbimdə yaşayır. Sizə təşəkkür edirəm. Çox sağ olun. Eyni zamanda bu gecəyə zəhmət çəkib gəlmiş dostlarımızın hamısına təşəkkürümü bildirirəm. Çox sağ olun ki, siz də zəhmət çəkib bu gün bu

gecədə bizimlə bərabərsiniz. Çox sağ olun. Təşəkkür edirəm. Sizə yeni uğurlar arzulayıram.

Təbiidir ki, bu, xatirə gecəsidir və siz də xatirə gecəsində onun bizdən ayrılığı ilə əlaqədar həm sözlərinizlə, həm çıxışlarınızla, həm də ifanızla bizim üçün bu ayrılığın nə qədər çətin olduğunu göstərmək istədiniz. Ona görə də burada bir kədər, qəm, qüssə əhval-ruhiyyəsi yarandı.

Ancaq eyni zamanda bu gün onun anadan olan günüdür. Biz həmişə bu günü öz ailəmizdə, ancaq öz ailəmizdə qeyd edirdik. Mən bunu xüsusi vurğulamaq istəyirəm. Çünki bizim ailəmizdə geniş mərasimlər keçirmək, ad günləri keçirmək adəti olmayıbdır. Yəqin ki, bu da həm Zərifə xanımın xasiyyətindən, həm də mənim xasiyyətimdən irəliyə gələn haldır. Ancaq bu gün onun doğum günüdür. İndi Allahın yazısı belə gətirib ki, o, aprel ayında doğulub, aprel ayında da həyatdan gedibdir.

Xatirimdədir, Moskvada xəstəxanada müalicə edilərkən, onun artıq ağır xəstəliyə düçar olduğunu bilərkən mən arzu edirdim ki, o, doğum gününə qədər, anadan olan gününə qədər yaşasın. Ancaq mənim bu arzum yerinə yetmədi və aprelin 15-də o, vəfat etdi.

Yenə də deyirəm, bu gün onun ad günüdür, doğum günüdür. Bu qəm-qüssə mənim üçün təbiidir. Ancaq mən istəməzdim ki, bu gün xatirə gecəsinə zəhmət çəkib gəlmiş adamlar qəm-qüssə, kədər hissi ilə dağılsınlar. Əksinə, biz Zərifə xanımı xatırlayaraq bu gün onun uşaqları, onun nəvələri, onun dostları ilə ad gününü qeyd edirik. Ona görə də mən istərdim ki, artıq bu əhval-ruhiyyə salondan götürülsün. Görürəm ki, masaların üzərində çox yeməli şeylər var, şirniyyat var. Hesab edirəm ki, biz bununla onun ruhunu daha da şad edərik. Ona görə də hamınızdan xahiş edirəm. Sağ olun.

* * *

Respublikamızın rəhbəri Heydər Əliyev tanınmış elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri ilə görüşdü, onlarla səmimi söhbət etdi, ədəbiyyat haqqında düşüncələrdən, xalqımızın, gənc nəslin ədəbiyyata, sənətə olan kütləvi marağından danışdı. Dövlətimizin başçısı məktəb və gənclik illərində özünün də Qərb, dünya ədəbiyyatına böyük marağı olduğunu bildirdi.

Prezident Heydər Əliyev Türkiyəyə son rəsmi və işgüzar səfərlərini, Böyük Millət Məclisindəki çıxışını, keçirdiyi görüşləri xatırladı, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması sahəsində aparılan danışıqlardan, müzakirələrdən bəhs etdi, ermənilərin uydurma «soyqırımı» məsələsi, daşnaqların azərbaycanlılara, türklərə qarşı törətdiyi

soyqırımı siyasəti barədə, ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılması və s. məsələlər haqqında danışdı, müəyyən fikirlərini açıqladı.

Yaradıcı ziyalılar, elm və mədəniyyət xadimləri prezident Heydər Əliyevə səmimi söhbətə görə təşəkkür etdilər, onun fikirləri ilə tamamilə razı olduqlarını bildirdilər, xalqımızın ağır və ağrılı problemlərinin uğurla həlli yolunda, gələcək işlərində respublikamızın rəhbərinə uğurlar arzuladılar.

* * *

Sonra Azərbaycan prezidenti Heydər Əliyev Xalq rəssamı Oqtay Sadıqzadəyə, Xalq artisti Nəsibə xanım Zeynalovaya, Xalq yazıçısı Rüstəm İbrahimbəyova, Xalq artisti, kinorejissor Eldar Quliyevə, Xalq rəssamı Ömər Eldarova və digər tanınmış şəxslərə yaxınlaşdı, onlarla səmimi görüşdü, vəziyyətləri ilə maraqlandı.

Mədəniyyət və incəsənət xadimləri gözəl insan mərhum Zərifə xanımın Azərbaycan xalqı qarşısındakı xidmətlərinin daim yaşayacağını vurğuladılar, onlara göstərilən diqqət və qayğıya görə prezident Heydər Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT, TİBB, BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN XADİMLƏRİNİN BİR QRUPUNA MÜSTƏQİL DÖVLƏTİMİZİN ALİ MÜKAFATLARININ – «İSTİQLAL» VƏ «ŞÖHRƏT» ORDENLƏRİNİN TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ*

Prezident iqamətgahı
6 iyul 2001-ci il

Heydər Əliyev: Hörmətli xanımlar və cənablar!

Siz, bu gün buraya dəvət edilənlər müstəqil Azərbaycanın vətəndaşları, ordenlərlə təltif olunanlarsız. Bu mərasimə, sizinlə görüşə gəlmişəm ki, ordenləri sizə təqdim edim. Müstəqil Azərbaycanın yüksək ordenlərinə layiq görüldüyünüzə görə sizin hamınızı təbrik edirəm, hər birinizə cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Ola bilsin, mərasim çox vaxt aparsın. Çünki burada çox adam var. Keçmiş təcrübədən bilirəm ki, mən ordenlərlə sizi təltif edəndə bu yüksək mükafatları alan şəxslərin bəziləri, bəzən çoxları öz sözlərini demək istəyirlər. Ancaq əgər belə olsa, gərək onda biz burada axşama qədər oturaq. Siz oturmusunuz, amma mən ayaq üstəyəm. Bunu nəzərə alın. Mən başa düşürəm, hər biriniz bu ordenlərə görə Azərbaycan dövlətinə minnətdarsınız. Ona görə xahiş edirəm, əlavə sözə, yəni nitq söyləməyə ehtiyac yoxdur. Əgər kimsə çox təkid etsə, onda bu mərasim bitəndən sonra yəqin ki, bir neçə adama söz verə biləram.

Bir şeyi də demək istəyirəm. Ola bilər bu mərasim çox vaxt aparsın. Düşünürəm ki, əgər kimsə narahat olsa, yaxud ona uzun müddət oturmaq çətin olsa – burada yaşlı adamlar var – onlar rahat durub gedə bilərlər. Heç nədən narahat olmasınlar. Beləliklə, mükafatları sizə təqdim etməyə başlayıram.

* * *

Ölkəmizin rəhbəri Heydər Əliyev Azərbaycan Respublikası prezidentinin fərmanları ilə Azərbaycan dövləti və xalqı qarşısında, respublikada elmin, iqtisadiyyatın, mədəniyyət və incəsənətin inkişafında böyük xidmətlərinə görə «İstiqlal» ordeni ilə təltif olunmuş Xalq rəssamı Tahir Salahova, Şeyxülislam Allahşükür Paşazadəyə, Xalq artisti Əminə Dilbaziyə, Xalq rəssamı Kamil

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab. B., Azərnəşr,2011, s.125-130

Əliyevə, ARDNŞ-in vitse-prezidenti Xoşbəxt Yusifzadəyə, Xalq artisti Vera Şiryeyə dövlətimizin ali mükafatını təqdim etdi. Mərhum akademik Fəraməz Maqsudovun mükafatı qızı Tamilla Maqsudovaya verildi. Prezident Heydər Əliyev onları «İstiqlal» ordeni almaları münasibətilə təbrik etdi, onlara uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Sonra respublikanın ictimai-siyasi həyatında fəal iştirakına, ədəbiyyat və incəsənətin, elmin, mədəniyyətin, təhsilin, səhiyyənin, memarlığın, bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə «Şöhrət» ordeni ilə təltif olunmuş şəxslərə bu yüksək mükafat təqdim edildi.

Şamaxı Rayon İcra Hakimiyyəti başçısının Çuxuryurd kəndindəki nümayəndəsi, «Şöhrət» ordeni ilə təltif edilmiş Mariya Kojevnikova Azərbaycan prezidenti Heydər Əliyevə təşəkkürünü bildirdi.

Mariya Kojevnikova: İcazə verin, kəndimizdə olduğunuz günlərdən xatirə olaraq bu albomu bütün sakinlərimiz adından Sizə təqdim edim. Sizin kəndimizə gəlişinizi əks etdirən bütün fotoşəkillər bu albomda toplanmışdır. Belə albomlar, demək olar, hər birimizin evində var. Siz bizim kənddə 6 dəfə olmusunuz və bütün camaatımız Sizə dərin ehtiram bəslədiyini yetirməyi məndən xahiş etdilər.

İcazə verin, kiçik şeirimlə təşəkkürümü bildirim.

Heydər Əliyev: Gör aradan nə qədər vaxt keçib, sən isə qocalmamısan, elə əvvəlki kimisən.

Mariya Kojevnikova rus dilində şeiri oxudu və bir daha minnətdarlıq etdi.

Mariya Kojevnikova: Heydər Əliyeviç, Sizin göstərdiyiniz yolla, bax, beləcə irəliləməyimiz üçün Sizə möhkəm cansağlığı, mətinlik və müdriklik diləyirəm!

Azərbaycan prezidenti **Heydər Əliyev** *şair Məmməd Aslanova (Məmməd Aslan) «Şöhrət» ordenini təqdim etdi.*

Heydər Əliyev: Məmməd Aslan tanınmış adamdır. Onun bir neçə kəlməsi heç vaxt mənim yadımdan çıxmır. Mən o vaxt vəzifələrdən kənarlaşdırılandan sonra ağır vəziyyətdə, Naxçıvanda yaşayırdım. Buraya, Ali Sovetin sessiyasına gəlmişdim. Məni Yazıçılar İttifaqının qurultayına dəvət etdilər. Əvvəl bir az şübhələndim ki, məni doğrudanmı dəvət ediblər. Çünki o vaxt hamı məndən kənar gəzirdi. Dedilər, yox, dəvət olunubsunuz. Bir, iki, üç dəfə yoxlayandan sonra qərara aldım ki, gedim. Filarmoniyada idi. Gəldim, rəhmətlik Xəlil Rzanın, rəhmətlik Rəfik Zəka Xəndanın yanında oturdum. Başqaları da oturmuşdu. Mənə çox mehriban baxırdılar. Qurultayın rəyasət heyətini seçməyə başladılar. Seçdilər. Bir də gördüm ki, hardansa arxada bir nəfər qışqırır ki, bəs xalqımızın filan oğlu

Heydər Əliyev rəyasət heyətinə seçilsin. Təbiidir ki, çox hərarətli alqışlar oldu. Rəyasət heyəti mat-məəttəl qaldı ki, neyləsin. Çünki orada keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi oturmuşdu. Anar mənə dedi ki, buyurun, keçin buraya. Mən dedim, bilirsiniz nə var, mən həyatımın çox hissəsini həmişə orada, rəyasət heyətində oturmuşam. Amma indi isə istəyirəm, elə burada oturam. Həmişə oradan buraya baxmışam, indi də burdan oraya baxmaq istəyirəm.

Səni təbrik edirəm, uğurlar arzulayıram.

Şair Məmməd Aslan xoş sözlərə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi, ona uzun ömür, cansağlığı arzuladı.

«Şöhrət» ordeninə layiq görülmüş akademik Bəkir Nəbiyev Azərbaycan prezidentinə təşəkkürünü bildirdi.

Bəkir Nəbiyev: Əziz Prezidentimiz, mən arzu edirəm ki, Siz bu salonda, inşallah, yaxın vaxtlarda Azərbaycan torpaqlarını azad edəcək ya diplomatik heyətimizin nümayəndələrini təltif edəsiniz, ya da Azərbaycan əsgərlərini, onların komandirlərini təltif edəsiniz. Azərbaycan torpaqlarının azad olunması münasibətilə onları təbrik edəsiniz. Mən buna inanıram.

* * *

Prezident Heydər Əliyev «Şöhrət» ordeninə layiq görülmüş professor İsmixan Rəhimovu təbrik etdi.

Heydər Əliyev: Səni təbrik edirəm. Cansağlığı arzulayıram. Sən Azərbaycanda ingilis dilinin öyrənilməsində çox böyük xidmətlər göstərmisən. Vaxtilə mənim qızım da sənin təşkil etdiyin qrupa gedirdi.

İsmixan Rəhimov: Cənab Prezident, əla tələbə idi. İndi də xatirimdədir. Maşallah, çox gözəl, qabiliyyətli qız idi.

Heydər Əliyev: Bəli, elə o əsasla qızım da, oğlum da ingilis dilini çox yaxşı bilirlər.

İsmixan Rəhimov: İlk müəllimləri mən olmuşam.

Heydər Əliyev: Bəli. Amma təkcə onların yox, o vaxtlar bütün Azərbaycanda.

İsmixan Rəhimov: Cənab Prezident, üzr istəyirəm, Xuraman xanım da mənim qrupumda oxuyubdur. Bir dəfə «Biz qalib gələcəyik» mahnısını elə gözəl oxudu ki, tələbələrə dedim, inanın, biz qalib gələcəyik, torpaqlarımız azad olacaqdır.

Cənab Prezident, bir sözüm var. Məni ilk dəfə təbrik edən institutumuzda bir müəllimə oldu. Onun ilk sözü bu oldu ki, İsmixan, sənin tələbələr arasında şöhrətin var idi, amma ordenin yox idi. Sağ olsun prezident, sənə «Şöhrət» ordeni verdi. İnanın ki, məni təbrik edənlərin birinci sözü «sağ olsun prezident!» oldu. Mən də deyirəm ki, həqiqətən prezident sağ olsun! İnanıram ki, burada oturanları mənim kimi təbrik ediblər.

Amma məni təbrik edəndə, birinci prezidenti təbrik ediblər, sonra məni. Çox sağ olun, təşəkkürümü bildirirəm.

«Şöhrət» ordeninə layiq görülmüş xalq artisti Xuraman Qasımova dövlətimizin başçısına müraciət etdi.

Xuraman Qasımova: Möhtərəm Prezident, Fidan xanım və mən bu il birlikdə yaradıcılığımızın 25 illiyini qeyd edirik. Çox xoşbəxtik ki, 25 illik yaradıcılığımız dövrü sizin respublikaya rəhbəriliyiniz zamanında keçibdir. Hər zaman bizə atalıq etmisiniz, qayğı göstərmisiniz və sənətimizə böyük qiymət vermisiniz. Sizin qarşınızda baş əyirəm, Sizə uzun ömür, cansağlığı arzu edirəm. Bütün sənət adamları və ailəm adından Sizə minnətdaram. Çox sağ olun.

Heydər Əliyev: Fidan da, sən də balaca qız idiniz. Gözümüzün qabağında böyüdünüz.

Akademik Fuad Qasımzadə aldığı mükafata görə respublikamızın rəhbərinə təşəkkürünü bildirdi.

Fuad Qasımzadə: Cənab Prezident, Sizə ikiqat borcluyam. Bu yaxınlarda akademiyaya seçkilər zamanı fəlsəfəyə yer ayırmağınız Sizin qayğınız nəticəsində oldu. Bizim ailə Sizin bu qayğınızı həmişə hiss edir. Siz o vaxtlar respublikanın birinci katibi olarkən, atamı küçədə görəndə maşınınızı saxlatdırıb «Mirzə Feyzulla, gəl əyləş» deyirdiniz. O, evə gələndə uşaq sevinci ilə ağlayırdı və deyirdi ki, mən hələ belə rəhbər görməmişəm, o, Allah adamıdır.

Heydər Əliyev: Atanı yaxşı xatırlayıram.

Fuad Qasımzadə: Çox sağ olun, var olun, Sizə minnətdaram.

«Şöhrət» ordeni ilə təltif olunmuş jurnalist Svetlana Mirzəyeva Azərbaycan prezidentinə onun 1942-ci ildə çəkdiyi rəsm əsərini təqdim etdi.

Svetlana Mirzəyeva: Hörmətli Heydər Əliyeviç, mən də Sizə hədiyyə etmək istəyirəm. Siz gənclik illərinizdən Naxçıvanda istedadlı rəssam kimi tanınırdınız. Ancaq Siz heyfsilənirdiniz ki, vaxtilə çəkdiyiniz bütün rəsm əsərləri və şəkillər itmişdir. Naxçıvanda bütöv bir qrup – İsa Həbibbəyli, Hənifə Sultanova, Ramiz Məmmədov və ilk növbədə, xalça muzeyinin direktoru Arif Qədimov və mən axtarışlar apardıq. Nəhayət, izinə düşdük və indi itirilmiş rəsmlərdən birini – 1942-ci ildə çəkdiyiniz «12 yaşlı qonşu qızın portreti» adlı rəsmi Sizə qaytarırıq.

Azərbaycan prezidenti respublikamızın ali mükafatlarına layiq görülmüş şəxsləri bir daha təbrik etdi.

Heydər Əliyev: Hörmətli xanımlar və cənablar!

Mən sizi bir daha ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, uzun ömür və yeni yaradıcılıq nailiyyətləri arzulayıram.

MÜSTƏQİL AZƏRBAYCANIN ALİ MÜKAFATLARININ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ*

Prezident iqamətgahı
6 iyul 2001-ci il

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün bu ordenlərin təqdim olunması mərasimi mənim üçün, eyni zamanda Azərbaycanın çox görkəmli şəxsiyyətləri ilə görüşümün əksidir. Siz görürsünüz ki, burada tam səmimi və bəlkə də, qeyri-rəsmi, sadə bir əhval-ruhiyyə hökm sürür. Bunun da səbəbi ondan ibarətdir ki, Azərbaycanın prezidenti olaraq mən, eyni zamanda, heç prezident olmasam da, hələ gənc vaxtlarımda elmə, mədəniyyətə, təhsilə həmişə yüksək qiymət vermişəm. Keçmişdə Azərbaycanda işlədiyim illərdə, yaxud Sovetlər Birliyinin rəhbərliyində olduğum dövrdə və indi son səkkiz ildə Azərbaycanın prezidenti vəzifəsini daşıyaraq, mən bu sahələri həmişə özüm üçün öncül sahə, yəni xüsusi əhəmiyyət kəsb edən sahə hesab etmişəm. Ona görə də bu gün buradakı görüş, aldığınız mükafatlar sizi nə qədər sevindirirsə – mən mükafat almıram – sizinlə görüşmək, sizi yenidən belə yaxından görmək, sizinlə danışmaq, söhbət etmək, hətta zarafat etmək məni də sevindirir.

Bu gün burada, bu salonda mükafat alanların əksəriyyəti XX əsrdə Azərbaycanın inkişafına böyük töhfələr vermiş insanlardır. XX əsr bir tərəfdən, Azərbaycanın böyük inkişaf, sıçrayış dövrü, ikinci tərəfdən də, faciələr, itkilər, repressiyalar və insanlara əziyyət verən başqa hallar dövrü olubdur. İndi XX əsr arxada qalıbdır. Əgər dərinə getməsək, bu barədə qısaca bir söz desək, mən hesab edirəm ki, XX əsrdə Azərbaycanın ən böyük nailiyyəti, birincisi, 1918-ci ildə öz dövlət müstəqilliyini elan etməsidir. İkincisi, 1991-ci ildə bu müstəqilliyin bərpa edilməsi və nəhayət, əldə olunmuş azadlığı, dövlət müstəqilliyini ötən on ildə çətin şəraitdə, çox ağır şəraitdə, bəlkə də, sizin hamınızın təsəvvür edə bilmədiyiniz şəraitdə qoruyub saxlamasıdır. Ancaq eyni zamanda, XX əsrdə Azərbaycanın ən böyük nailiyyətləri həm də bundan ibarətdir ki, Azərbaycan xalqı təhsil, mədəniyyət, elm sahəsində bir sıçrayış dövrü keçibdir. Əgər bütün

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab. B., Azərnəşr, 2011, s.131-135

başqa müsəlman ölkələri ilə indiki, bugünkü müstəqil Azərbaycanı müqayisə etsəniz görərsiniz ki, XX əsrdə bizim keçdiyimiz yol, insanların kütləvi savadlanması, böyük ali təhsil sisteminin, elmin yaranması və inkişaf etməsi, çox görkəmli alimlərin, maarifçilərin yaranması, Azərbaycan mədəniyyətinin – musiqisinin, ədəbiyyatının, incəsənətinin bütün sahələrinin yüksək inkişaf etməsi məhz bu dövrə aiddir.

Azərbaycan XX əsrdə çox şərəfli bir yol keçibdir və bizim fəxr edə biləcəyimiz dəyərli insanlarımız olub, bu gün də var, sabah da olacaqdır. Dünyasını dəyişmiş böyük alimlərimiz, bəstəkarlarımız, yazıçılarımız, şairlərimiz və digər sahələrdə böyük işlər görmüş insanlarımız Azərbaycanın bu səviyyəyə qalxmasında böyük xidmətlər göstərmişlər.

Siz, burada oturanların əksəriyyəti yaşlı nəslə aidsiniz. Siz də həmin bu qəbildən olan insanlarsınız. Siz Azərbaycanın mədəniyyətinin, elminin, maarifinin, ali təhsilinin, səhiyyəsinin və bütün başqa sahələrin inkişafında böyük xidmətlər göstərmisiniz. Bunlar insan cəmiyyəti üçün əsas sahələrdir.

Təbiidir ki, bizim neft sahəsində nailiyyətimiz çox böyükdür. Hörmətli Xoşbəxt Yusifzadə də bu barədə danışdı. Ancaq bizim neft sahəsində əldə etdiyimiz nailiyyətlər bir neçə nəslin qabaqcıl insanlarının, yüksək səviyyəli alimlərin, mühəndislərin və neft sənayesində işləyən fədakar adamların sayəsindədir. Bunlar hamısı bizim tariximizdir. Tarixi heç vaxt unutmaq lazım deyildir. Çünki əgər millətin tarixi yoxdursa, o, millət deyildir. Millətin tarixinin bir hissəsini silib atmaq, o biri hissəsini qabartmaq da millətə xəyanət etməkdir. Sizin hər biriniz – görürəm ki, burada 80 yaşında da, 70 yaşında da olan adamlar var, aşağı yaşda olanları demirəm, 50 yaşında bir neçə nəfər var, qalanların hamısı bundan artıq yaşdadır – siz nə qədər yol keçmisiniz. Hər birinizin arxanızda 30, 40, 50, 60 il torpağınıza, millətinizə, xalqınıza öz sahələrinizdə xidmətiniz durur. Məhz sizin bu xidmətiniz, hərənizin öz sahənizdə xalqınızın inkişafına verdiyiniz töhfələr və sizdən əvvəlki nəsillərin yaratdıqları Azərbaycanı bu yüksək səviyyəyə qaldırıbdır. Ona görə də mən müstəqil Azərbaycan dövlətinin ali, yüksək mükafatları – orden və medallar təsis ediləndən sonra çalışıram ki, birinci növbədə sizin nəsildən olan insanları qiymətləndirim və təltif edim. Birincisi, ona görə ki, bu ordenlərin, medalların qiymətini də anlamaq lazımdır, bunu aşağı salmaq olmaz. Təəssüf ki, keçmiş Sovetlər İttifaqında son 20-30 ildə belə olmuşdu ki, orden və medalları hər adam alırdı. Adi bir sağıcı da inəyi yaxşı sağırdısa, o, ən yüksək orden alırdı. Əlbəttə, həmin sağıcı, heyvan saxlayan mənim üçün də əzizdir. Bu, o vaxt ölkənin, sistemin xüsusiyyəti idi.

Amma indi bizim müstəqil ölkəmizə, milli-mənəvi dəyərlərimizə, bəşəri dəyərlərə bağlılığımız və bəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin

sintezini yaradıb inkişaf etdirmək arzumuz onu tələb edir ki, birinci növbədə sizin kimi insanlar yüksək qiymətləndirilsinlər. Çünki sizin hər biriniz öz işinizdə şəxsiyyətsiniz. Hər biriniz öz yaradıcılığınızla, öz elmi əsərlərinizlə, fəaliyyətinizlə yüzlərlə, minlərlə insana fayda vermisiniz. Bu gün də verirsiniz, gələcəkdə də fayda verəcəksiniz. Ona görə də bu gün istərdim, sizə xüsusi çatdırım ki, – görürəm, bəzilərinə oturmaq çətindir, bəzilərinə hərəkət etmək çətindir – mən nə qədər sevinirəm ki, bu insanlar hələ yaşayır. Sevinirəm, çünki mənə müyəssər olubdur ki, bu insanların gördüyü işləri qiymətləndirim, onları təltif edim və bu ordenləri şəxsən onların özlərinə təqdim edim.

Təbiidir ki, müstəqil dövlətimiz yaşayacaq, inkişaf edəcəkdir. Bu il Azərbaycanın müstəqilliyinin onuncu ildönümünü bayram edəcəyik.

Gənclər artıq fəaliyyətə başlayıblar və bizim nəsildən də çox işlər görəcəklər, müstəqil Azərbaycanı irəliyə aparacaqlar, inkişaf etdirəcəklər. Onların hər birinin zəhmətini qiymətləndirəcəyik və bizdən sonra gələn nəsillər də qiymətləndirəcəkdir. Ona görə nəsillərin bir-biri ilə bağlılığı xalq üçün, millət üçün çox əhəmiyyətlidir. İndi görürsünüz, hansısa bir ədalətsizlik nəticəsində Azərbaycanın itirdiyi böyük bir insan üçün biz nə qədər, üstündən 50-60 il keçəndən sonra da heyfsilənirik.

Məsələn, Tahir Salahov atasının aqibəti haqqında danışdı. Mən onu anladım. Ona 4 maddə vermişdilər. Maddələrdən biri də ondan ibarət idi ki, Azərbaycanı ayırmaq, müstəqil etmək istəyir. Mən anladım, indi o nə qədər sevinir ki, onun atasının arzusu, istəyi və buna görə həlak olması, bax, bu nəticəni veribdir ki, indi Azərbaycan müstəqildir və onun oğlu «İstiqlal» ordeni ilə təltif edilir. Elə təkcə Tahir deyil, çoxlarının aqibəti belə olubdur. Yəni onların valideynlərinin, qohumlarının, əqrəbalarının aqibəti belə olubdur. Amma bütün bu ağır dövrdən xalqımız keçib, yaşayır.

Nə qədər itkilərimiz olsa da, yenə də xalqımızın intellektual potensialı aşağı düşməyib, əksinə yüksəlib, yüksəlib, yüksəlibdir.

Mən daim iftixar hissi ilə deyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman respublikamız böyük iqtisadi potensiala malik idi.

Azərbaycan böyük intellektual potensiala – böyük elmə, böyük mədəniyyətə, böyük təhsilə malik idi. Əgər bunlar olmasaydı və təbiidir ki, bunları qiymətləndirən, bunlardan istifadə edən, bunların əsasında həyatımızın yeni mərhələsində işləri irəliyə aparanlar olmasaydı, indi bizim müstəqil dövlətimiz yaşaya bilməzdi. Amma yaşayır, baxmayaraq ki, başqa böyük müstəqil dövlətlərdən fərqli olaraq, bizim ağır çətinliyimiz var: Ermənistanın təcavüzü, torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyondan artıq vətəndaşımızın didərgin düşməsi, çadırlarda

yaşaması – bütün bunlara baxmayaraq, xalqımız, millətimiz yaşayır. Yaşamaq o demək deyil ki, bu dünyada, sadəcə, mövcuddur, yox, yaşayır və inkişaf edir. Elmimiz də, mədəniyyətimiz də, iqtisadiyyatımız da inkişaf edir, insanların rifah halı da günü-gündən yaxşılaşır və yaxşılaşacaqdır. Azərbaycanın müstəqilliyi ilbəil möhkəmlənəcəkdir. Təbiidir ki, sizin hamınızın arzusu yerinə yetəcək – Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcək, ərazi bütövlüyü bərpa olunacaq və Azərbaycan bu müstəqillik, yeni iqtisadi siyasət yolu ilə irəliyə gedəcək və daim müstəqil dövlət kimi yaşayacaqdır.

Şübhə etmirəm ki, gələcək nəsillər bu dövrdə yaşamış, Azərbaycanı bu çətinliklərin içərisindən çıxarmış sizin kimi dəyərli insanları heç vaxt unutmayacaqdır. Bax, bütün bunlara görə də bu gün sizinlə görüşməyim mənim üçün çox xoşdur, çox əzizdir. Mən çox məmnunam ki, bu mükafatları sizə özüm təqdim etdim. Sizi bir daha təbrik edirəm. Sizin hamınıza cansağlığı arzu edirəm, yeni-yeni uğurlar arzulayıram və əziz vətənimiz müstəqil Azərbaycana xoşbəxt gələcək arzulayıram. Sağ olun.

BİLİK GÜNÜ VƏ YENİ DƏRS İLİNİN BAŞLANMASI MÜNASİBƏTİLƏ BAKININ SƏBAİL RAYONUNDAKI TOFİQ İSMAYILOV ADINA RİYAZİYYAT VƏ İNFORMATİKA TƏMAYÜLLÜ 6 SAYLI MƏKTƏB-LİSEYDƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ*

1 sentyabr 2001-ci il

Əziz uşaqlar, əziz müəllimlər!

Hörmətli valideynlər!

Mən sizin hamınızı Azərbaycanda yeni dərs ilinin başlanması münasibətilə təbrik edirəm və Azərbaycanın bütün təhsil ocaqlarına, bütün məktəblərinə, bütün müəllimlərinə, təhsil alan uşaqlara və gənclərə uğurlar arzulayıram.

Hər il sentyabr ayının 1-i böyük bayrama çevrilir. Çünki məktəblər açılır, uşaqlar istirahət etdikdən sonra yenə də siniflərinə qayıdırlar. Ancaq bununla bərabər, hər məktəbin birinci sinfinə yeni uşaqlar gəlir. Bu il Azərbaycanda birinci sinfə 160 min uşaq qəbul olunmuşdur. Təsəvvür edin, hər bir uşaq nə qədər böyük sevinc hissi keçirir! Hər bir valideyn nə qədər çox sevinir ki, o, bir ata kimi, ana kimi, uşağını böyütdü, məktəbə göndərdi! Çünki hər bir insan üçün həyat anadan doğulduğu gündən başlayırsa, insanın şüurlu həyatı, onun gələcəyi, onun cəmiyyətdə özünə yer tutması məktəbdən başlayır.

Eyni zamanda məktəblərə bizim böyük müəllimlər ordusu gəlir. Onlar da yay istirahətlərini keçirəndən sonra, özlərini daha da yaxşı hiss edəndən sonra yenidən iş yerlərinə – məktəbə gəlir, sinfə daxil olur, öz şərəfli işlərini həyata keçirirlər. Ona görə də bu gün bütün xalqımız üçün, bütün ölkəmiz üçün, Azərbaycanın vətəndaşları üçün böyük bayramdır. Bayram münasibətilə də mən bu gün sizin məktəbə gəlmişəm, sizi bir daha təbrik etmək istəyirəm. Ümidvaram ki, Azərbaycanda məşhur olan 6 saylı məktəb indiyə qədər əldə etdiyi gözəl ənənələrini davam etdirəcək və müstəqil Azərbaycanın gələcəyi üçün yüksək təhsilli gənclər hazırlayacaqdır.

Azərbaycan dövlət müstəqilliyinin 10-cu ildönümünü qeyd edir. Bu bizim çoxəsrlik tariximizdə ən əlamətdar, ən böyük əhəmiyyətə malik

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab. B., Azərnəşr,2011, s.5-15

olan bir hadisədir. Azərbaycan əsrlər boyu müstəqil olmaq arzusu ilə yaşamış, xalqımız əsrlər boyu azad olmaq istəmiş, öz müstəqil dövlətinin olması arzusu ilə yaşamış, müstəqil ölkəsinin vətəndaşı olmaq istəmişdir.

Biz buna ilk dəfə 1918-ci ildə nail olduq. Ancaq bizim bu müstəqilliyimizin ömrü çox az oldu. Nəhayət, 1991-ci ilin sonunda Sovetlər İttifaqının dağılması ilə əlaqədar bütün müttəfiq respublikalar, o cümlədən Azərbaycan da öz dövlət müstəqilliyini elan etdi. Bizim bu on ildə keçdiyimiz yol hamar olmayıbdır. Enişli-yoxuşlu olubdur. Çətin problemlərlə rastlaşmışıq. Müstəqillik əldə edəndə Azərbaycan bir neçə il idi ki, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünə qarşı mübarizə aparırdı. Müharibə getdi, qan töküldü, gənclərimiz şəhid oldu. O cümlədən sizin məktəbin məzunlarından da şəhidlər var. Eyni zamanda Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabit olmadı. Bunlar hamısı Azərbaycanın dövlət müstəqilliyini vaxtında, ilbəil lazımi səviyyəyə qaldırmağa maneçilik törədirdi. Nəhayət, bilirsiniz ki, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başladı. Azərbaycan parçalanmaq, dağılmaq təhlükəsi ilə üzləşdi.

Ancaq şükürlər olsun ki, xalqımız bir daha öz müdrikliyini nümayiş etdirdi, xalqla dövlətin birliyi Azərbaycanı fəlakətdən xilas etdi. Sonrakı illərdə yenə də bizim dövlətçiliyimizə, müstəqilliyimizə qarşı göstərilən, deyə bilərəm ki, çox təhlükəli cəhdlərin qarşısı alındı, Azərbaycan, nəhayət, daxili ictimai-siyasi sabitliyi təmin edib, həyatın bütün sahələrini inkişaf etdirməyə imkan qazandı. İndi artıq Azərbaycan bütün sahələrdə inkişaf edir. Biz indi Azərbaycanın müstəqilliyinin 10-cu ildönümünü qeyd edərkən iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan öz müstəqilliyinin 10-cu ildönümünə bütün sahələrdə böyük nailiyyətlərlə gəlir.

Doğrudur, biz Ermənistanın Azərbaycana etdiyi təcavüzlə əlaqədar meydana gəlmiş vəziyyəti hələ normallaşdıra bilməmişik. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir. Bir milyondan artıq soydaşımız yerindən-yurdundan zorla çıxarılıbdır. Onların əksəriyyəti çadırlarda yaşayır. Biz bu məsələni həll etməyə çalışırıq. 1994-cü ildə, 7 il bundan öncə biz atəşi dayandırdıq, müharibəni dayandırdıq. Qan tökülməsinə son qoyduq.

Məsələnin sülh yolu ilə həll olunması sahəsində ardıcıl tədbirlər görmüşük, bu gün də görürük, bundan sonra da görəcəyik. Mən inanıram ki, biz bu münaqişəyə son qoyacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, işğal edilmiş torpaqlarımız azad olunacaq, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz elinə-obasına qayıdacaqlar.

Bütün bu çətinliklər içərisində yaşayan Azərbaycan inkişaf edir. İqtisadi cəhətdən inkişaf edir, siyasi cəhətdən inkişaf edir, mənəvi cəhətdən

inkişaf edir, təhsil sahəsində inkişaf edir. Təsəvvür edin, Azərbaycanda bizim əhalinin, səhv etmirəmsə, demək olar ki, beşdə bir hissəsini, yaxud dörddə bir hissəsini məktəblərdə, universitetlərdə təhsil alanlar, müəllimlər, professorlar təşkil edirlər. Görün nə qədər böyük ordudur. Amma o illər bu sahə çox dağıdılmışdı, pozulmuşdu. Təhsil sistemi tamamilə pozulmuşdu. Ona görə də insanların çoxu uşaqlarına təhsil vermək, məktəbə aparmaq imkanına malik deyildi. Onlar ancaq yaşamağa, həyatda birtəhər özünü saxlamağa çalışırdı, çarpışırdı, yəni problemlərlə çarpışırdı. Ancaq indi Azərbaycanın təhsil sistemi artıq tamam nizamlanıbdır. Təhsil sahəsində bizim son illər apardığımız islahatlar Azərbaycan məktəbinin, təhsilinin keyfiyyətini artırır və məktəblərdə, universitetlərdə müasir tələblərə uyğun təhsil verilir. Bunlar hamısı Azərbaycan xalqının sağlam, bilikli, yüksək ixtisasa malik olan gələcək nəsillərini hazırlayır.

İndi insanlar hər yerdə oxuyurlar. Mən uşaqları, gəncləri deyirəm. Sizin məktəbiniz böyük tarixə malikdir, böyük ənənələrə malikdir. İndi yenidən təmir olunubdur. Ancaq siz yəqin bilirsiniz ki, o çadırlarda yaşayan soydaşlarımızın uşaqları çadır şəhərciklərində yaratdığımız məktəblərdə oxuyurlar. Mənə dedilər ki, bu il ali məktəblərə imtahan verənlərin içərisində çadır şəhərciklərində təhsil alan məktəblilərin bir qismi çox yüksək ballar toplamışlar. Bu nəyi göstərir? Bu, Azərbaycan xalqının, Azərbaycan gəncinin fitri istedadını göstərir. Hər şeylə təchiz olunmuş çox gözəl məktəbdə də, çadır şəhərciyində də uşaq, gənc istəyir ki, inkişaf etsin, təhsil alsın. Buna görə də xalqımızın elmi potensialı, təhsil potensialı, bütün sahələrdə yüksək mütəxəssislərlə təmin olunmaq potensialı get-gedə artır. Bu da bizim müstəqillik dövründə əldə etdiyimiz əsas nailiyyətlərdən biridir.

Azərbaycanda təhsil sistemi dövlət qayğısı altındadır. Yəni Azərbaycanın məktəbləri, təhsil müəssisələri, universitetləri – az hissəsini nəzərə almasaq – demək olar ki, hamısı dövlətə məxsusdur. Dövlət təhsilin maliyyələşdirilməsini, yüksək təhsil almaq üçün müasir maddi-texniki bazanın yaradılmasını, məktəblərin şəraitinin yaxşılaşdırılmasını özünün əsas vəzifələrindən biri hesab edir. Bilməlisiniz ki, bizim büdcədə ən çox payı olan təhsil sistemidir. Bu da təsadüfi deyildir. Başqa sahədə ola bilər, kəsirlər də olsun, amma təhsildə yox.

Çünki təhsildə olan kəsir, çatışmazlıq bizim gələcəyimizə xətalar yaradacaqdır. Buna görə də təhsil dövlət tərəfindən maliyyələşdirilir – az miqdarda özəl təhsil ocaqları var – bundan sonra da biz Azərbaycanda təhsilin inkişafını özümüzün siyasətimizin öncül sahəsi hesab edəcəyik, bundan sonra da səylərimizi davam etdirəcəyik.

Mən 6 saylı məktəbdə keçmişdə də olmuşam. Bu gün bir neçə sinfə baxdım. O vaxt kompüter nə idi heç bilmirdilər, amma indi görün, bu gün uşaqlar kompüterlərin arxasında oturublar. İndi ayrı-ayrı ölkələrdən gətirilən kompüterlər, yaxud da başqa çox müasir tələblər səviyyəsində olan təhsil ləvazimatı bütün məktəblərə verilib və veriləcəkdir. Bunlar hamısı dövlət tərəfindən təhsilə göstərilən qayğıdır. Eyni zamanda bunlar hamısı təhsil sahəsində çalışan insanlara öz vəzifələrini daha da səylə yerinə yetirmək üçün əsasdır.

Mən bu gün məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycanda bütün məktəblərdə bütün sahələrə aid müəllimlər var. Ali məktəblərimizdə yüksək elmə malik olan professor-müəllim heyəti var. Ancaq orta məktəbdə, ali məktəbdə hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır.

Biz son illər müəllimlərin, təhsil işçilərinin maaşlarını artırmışıq və bundan sonra da artıracağıq. Bu onu göstərir ki, biz imkanımız daxilində bu sahəyə maksimum qayğı göstəririk. Əmin ola bilərsiniz ki, bundan sonra bu qayğı daha da artacaqdır. Azərbaycanın iqtisadi potensialı yüksəldikcə, Azərbaycan büdcəsinin imkanları genişləndikcə, məktəbə, təhsilə, müəllimə ayrılan vəsaitin miqdarı artacaq və onların böyük hissəsi də müəllimlərin, təhsil işçilərinin maaşlarının artırılmasına yönəldiləcəkdir.

Bilirəm ki, indi həyatın bu dövründə müəllimlərin aldıqları maaş onların yaşayışını biz istədiyimiz qədər təmin etmir. Amma siz də bilməlisiniz ki, biz nə mümkündür, onu edirik, bundan sonra da edəcəyik. Ancaq müəllim elə bir şəxsiyyətdir ki, o hansı şəraitdə olur-olsun birinci növbədə şərəfli müəllim adını yüksəkdə saxlamalıdır.

Çadır şəhərciyində bizim müəllim müəllimliyini edir – aydındır, orada nə ev var, nə yatmağa yer var, təkcə çadırdır – bunu kim görübsə bilir, görməyən də gedib görə bilər. Orada müəllim o cür çətin şəraitdə yaşayaraq uşaqlara qayğı göstərir, müəllimlik edir və elə savad verir ki, o uşaqlar gəlib burada yüksək ballarla ali məktəbə qəbul olunurlar. Demək, həmin müəllimlər müəllim adının şərəfini anlayırlar və bu adı uca tuturlar.

Mən inanıram ki, müəllimlərin əksəriyyəti bu yüksək mənəvi dəyərlərlə yaşayırlar. Kimsə əgər hələ bu səviyyəyə çatmayıbsa, arzu edərdim ki, onlar da öz vəzifələrini yerinə yetirərək bilsinlər ki, Azərbaycan xalqının yüksək mənəviyyatı hər şeydən ucadır, hər şeydən yüksəkdir. Bu həm xalq üçün, millət üçün, hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçündür.

6 saylı məktəb, dedim ki, mənim üçün yaxşı tanışdır. Çünki mənim iki övladım – qızım da, oğlum da birinci sinifdən onuncu sinfə qədər burada təhsil alıblar. Mən 10 il uşaqlarımla buradan o tərəfdə olan evdə yaşamışam. Doğrudur, o vaxt bizim problemimiz olmayıbdır ki, uşaqları məktəbə aparaq. Uşaq özü çıxıb gəlirdi. Anası da eyvandan onları müşayiət edirdi. Eyni zamanda əgər belə olmasaydı, heç başqa imkanımız da yox idi. Avtomobil, filan – bunlar yox idi. Ancaq biz o vaxtlar uşaqlarımızın məktəbə getməsi üçün şəhər nəqliyyatından istifadə etmədik. Məktəb ilə evimizin yaxınlığı bizim üçün çox asanlıq yaratdı.

Uşaqlar çox yaxşı təhsil aldılar. Mən bunu ona görə demirəm ki, təkcə mənim övladlarım burada yaxşı təhsil alıblar. Bilirsiniz ki, mən 1969-cu ildən 14 il Azərbaycanın rəhbəri olmuşam. O vaxtlar da mən bu təhsil işləri ilə çox ciddi məşğul olmuşam. Ona görə də bilirəm ki, Azərbaycanda, Bakıda çox nümunəvi məktəblər olub, indi də var. Onlar qazandıqları yerləri heç vaxt əldən verməyiblər. Təkcə Bakıda yox, Yevlax rayonunun Xaldan kəndində də bir nümunəvi məktəb var idi. Bilirsinizmi, kənd yeridir, amma nə qədər yüksək səviyyəli məktəb idi. Mən orada bir-iki dəfə olmuşdum və oranın direktoru Zahid Şöyübovla söhbətlər etmişdim. Həm də o vaxtlar çox şərəfli ad olan «SSRİ Xalq müəllimi» adını ilk dəfə Şöyübova verdik.

Məktəbin şəhərdə və kənddə, şəhərin mərkəzində və ya kənarında yerləşməsi onun təhsil səviyyəsinin dəyişilməsinə təsir göstərə bilməz. 6 saylı məktəb həmişə nümunəvi məktəb olub, onun böyük tarixi var. Çox məmnunam ki, o bu adı indiyə qədər, bütün çətin dövrü yaşayaraq qoruyub saxlayıb və ümidvaram ki, bundan sonra da şərəflə qoruyacaqdır.

Bu gün xatırlayıram ki, 1977-ci ildə mənim oğlum İlham məktəbi qurtararkən mən gəlib başqa valideynlərlə birlikdə buraxılışda iştirak etdim. Onların bir çoxları təəccüb edirdilər ki, necə ola bilər ki, ölkənin başçısı gəlib burada, məktəbdə bütün başqa valideynlərlə birlikdə mərasimdə iştirak edir. Mən hesab edirəm ki, o təəccüb edənlər səhv edirdilər. Çünki bizim özümüz də məktəbdən çıxmışıq. Bizim özümüz də məktəbin yetirmələri idik. Mənim oğlum 10 il burada təhsil almışdır. Əgər yaxşı təhsil alıbsa, təbiidir ki, mən onun buraxılış tədbirinə getməli idim, öz təşəkkürümü bildirməli idim. Keçmişi yada salaraq demək istəyirəm ki, İlhamın, Sevilin anası, mənim mərhum həyat yoldaşım Zərifə xanım valideynlərin bütün iclaslarına gedirdi və iştirak edirdi. Bu da hər bir valideynin borcudur. Valideynlər gərək məktəblə həmişə sıx əlaqə saxlasınlar. Gəlsinlər, uşağın dediyi ilə yox, müəllimlə haradasa görüşməklə yox, məktəbdə uşağının necə oxumasını, məktəbdə olan

şəraiti görsünlər. Beləliklə, onlar öz uşaqlarının yaxşı oxuması üçün yaxşı fəaliyyət göstərə bilərlər, eyni zamanda, məktəblə əlaqə insanı daha da cavan saxlayır. Bunun da böyük əhəmiyyəti var.

Mən bu məktəbə çox təşəkkür edirəm ki, iki övladımın orta təhsil almasında mənə bir valideyn kimi, böyük töhfələr veribdir. Təsadüfi deyil ki, bu məktəbdə aldıqları orta təhsil əsasında oğlum Moskvada ən mötəbər universitetlərdən birini bitirdi. Qızım buradakı universiteti – Bakı Dövlət Universitetini bitirdi. Sonra aspiranturanı Moskvada Şərqşünaslıq İnstitutunda oxudu. Oğlum sonra həmin o Beynəlxalq Əlaqələr İnstitutunda elmlər namizədi kimi, dərs verirdi. Bunların hamısının kökü, başlanğıcı məktəbdir. Təbiidir ki, hər bir uşaq eyni istedada malik ola bilməz. Amma eyni zamanda hər bir uşağın yüksək təhsil alması üçün göstərilən səylər, o istedad fərqini müəyyən qədər azaldır.

Sizə bir daha təşəkkür edirəm.

O vaxt bu məktəb rus dilində təhsil verirdi. İndi deyirlər ki, burada həm Azərbaycan sektoru var, həm rus sektoru var. Bu da tamamilə təbiidir. Ancaq o vaxt bizim Bakıda rus dilində olan məktəblər Azərbaycan dilində olan məktəblərdən çox idi. Bunda da heç kəsi günahlandırmaq olmaz. Çünki biz SSRİ kimi bir dövlətdə yaşayırdıq. Rus dili hakim dil idi. Rus dilini təmiz bilməyən adam Sovetlər İttifaqının başqa şəhərlərinə gedib təhsil ala bilməzdi. Yaxud da ki, dövlət orqanlarında da əsasən rus dili istifadə olunurdu. Ona görə də valideynlər öz övladlarını rusdilli məktəblərə verirdilər. Yəni mən o vaxt belə olmasını təbii hesab edirəm. Ancaq o vaxt bu məktəblərdə böyük bir qüsur var idi. Bu da ondan ibarət idi ki, birincisi, rus dilində təhsil verərək azərbaycanlı uşaqlara, balalara Azərbaycan dilini yaxşı öyrədə bilmirdilər. İkincisi, o vaxtın nöqsanlarını yada salmaq lazımdır ki, bu gün, sabah bu nöqsanlara yol verilməsin.

O vaxt rus dilində olan məktəblərdə bütün dərsliklər Moskvadan gəlirdi. Riyaziyyatın, kimyanın, fizikanın, biologiyanın – bunların hansı dildə olub-olmamasının fərqi yoxdur. Heyvanın adı rus dilində də, Azərbaycan dilində də var. Yaxud bitkinin də adı var. Riyaziyyatı hansı dildə oxuyursan oxu, əgər sən riyaziyyatı mənimsəmisənsə, bunun fərqi yoxdur. Amma həm millət üçün, həm xalq üçün bütün dilləri yaxşı bilməklə yanaşı, Azərbaycan dilini səlis, yaxşı bilmək əsas şərtlərdən biri idi. O vaxt da belə idi. Biz o vaxt da çalışırdıq ki, buna nail olaq. Amma təəssüf ki, o vaxt bu, mümkün deyildi.

Məsələn, o vaxt bu məktəbdə Azərbaycan dili başqa bir dil kimi tədris olunurdu. Çünki bütün dərslər rus dilində idi. İndi bu gün mən Emma xanımı burada gördüm. Emma xanım buradadır, yoxsa getdi, ola bilər gedibdir. O mənim xatirimə bir şey saldı, mənim yadımdan çıxıbdır.

Oğlumun buraxılışı vaxtı bu məktəbdə olarkən Emma xanıma demişəm ki, burada hər şey yaxşıdır, ancaq mənim oğluma Azərbaycan dilini yaxşı öyrədə bilməmisiniz. Bu heç kəsin qüsuru deyil. Çünki rus dili hakim dil olduğuna görə, Azərbaycan dilinə o qədər fikir vermirdilər. Müəllim çalışırdı, amma şagird fikir vermirdi. Məhz bunun nəticəsi idi. 10 ildir biz müstəqil dövlətik. Bizim Konstitusiyamızda yazılıbdır ki, dövlət dili Azərbaycan dilidir. Amma onun ətrafında işləyən adamlar var, Azərbaycan dilini yaxşı bilmirlər. Çünki rus dilində təhsil alıb, rus dilində işləyib, indi Azərbaycan dilini başdansovdu öyrənir, amma tamam yaxşı bilmir. Bu bizim keçmişimizin təbii qüsurlarıdır. Ancaq bundan nəticə çıxarmaq lazımdır.

Məsələn, o vaxt təkcə Azərbaycan dilinin yox, tarix dərslərinin öyrənilməsində də vəziyyət belə idi. Orta məktəblərdə «SSRİ tarixi» var idi. «SSRİ tarixi»nin də 90 faizi Rusiyanın tarixini əks etdirirdi. Yaxud ədəbiyyat rus ədəbiyyatı idi.

Emma xanım, – mənim oğluma dərs deyibdir – mən səni yada saldım, ona görə soruşdum. Emma xanım, bilirsən, oğlum indi Azərbaycan dilini necə yaxşı bilir! Sən yəqin onun çıxışlarını televiziyadan eşidirsən. O, Azərbaycan dilində rus dilindən yaxşı danışır. Bunda da sənin zəhmətin var.

«Azərbaycan tarixi» çox cüzi əks olunurdu. Moskvadan gələn dərsliklər hamısı rus ədəbiyyatı idi. Bəs Azərbaycan ədəbiyyatı? Bəzən həmin bu rus məktəblərində təhsil almış, Azərbaycan dilinə meyl göstərməmiş gənclərdən Nizaminin, Füzulinin, Nəsiminin, Vaqifin, yaxud da bizim müasirlərimiz olan şair və yazıçıların şeirlərini soruşanda görürdün ki, onlardan xəbərləri yoxdur. Onlar, məsələn, Nizaminin rus dilinə tərcümə olunmuş poemalarını, şeirlərini oxuyurdular. Amma sən onu nə qədər oxusan da, Nizami sənin qəlbinə yatmayacaq. Oxusalar da, bunlar Azərbaycan dilində olan şeirlər deyildi. Ona görə də rus dilində təhsil alan adamların, təəssüf ki, Azərbaycanın tarixi, onun zəngin mədəniyyəti, zəngin ədəbi irsi haqqında məlumatları çox az idi.

Xatırlayıram, 1970-ci illərin axırlarında mən işlədiyim yerdə – partiyanın Mərkəzi Komitəsində mənim yanımda işləyən yüksək vəzifəli şəxsə göstəriş verdim ki, get Azərbaycan Milli Teatrına, orada bir əsər var, təzə tamaşaya qoyublar, ona bax, gəl mənə o barədə danış. Çünki həmin əsər bir az mübahisəli idi. Gördüm, baxır mənə, dedim, sən əvvəllər Azərbaycan Dram Teatrında olmusan? Dedi ki, yox, olmamışam. Təsəvvür edin ki, rus dilində təhsil alıb, Rus Dram Teatrına gedib, amma bizim böyük tarixə malik olan Azərbaycan Dövlət Dram Teatrında bu, bir dəfə də olmayıbdır. Təbiidir ki, o, Azərbaycan dramaturqlarının, yazıçılarının,

şairlərinin əsərlərini bilməyəcək. Çünki nə oxuyub, nə də tamaşa edib. Əgər gedib teatrda tamaşa etsəydi, onda heç olmasa bilərdi. Bax, bu bizim yaxın keçmişimizin əziyyətləridir.

İndi biz müstəqil dövlətik. Bizim dövlət dilimiz, ana dilimiz Azərbaycan dilidir. Tədris hər yerdə Azərbaycan dilində getməlidir. Ancaq o yerlərdə ki, rus əhalisi üçün, yaxud bəzi rusdilli insanlar üçün tədris rus dilində gedir, orada mütləq Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı tədris edilməlidir. Ona görə də bizim nazirliyə bir neçə il bundan öncə göstərişlər verilibdir ki, bizim tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə aid olan fənlər üzrə rus dilində də kitablar, dərsliklər buraxılsın ki, həmin o rus sektorunda o təhsil alan gənclər onları rus dilində oxusunlar. Amma yenə də deyirəm, yaxşı olar ki, onlar Səməd Vurğunun şeirini Azərbaycan dilində oxusunlar. Çünki onun rus dilində tərcüməsi o dadı, o hissiyyatı vermir. Bax, bu, əsas məsələlərdən biridir.

Latın qrafikasının tətbiq olunması da əsas məsələlərdən biridir. İndi mən burada XI sinfin şagirdləri ilə tanış olarkən məktəb direktoru mənə bildirdi ki, bunlar artıq II sinifdən latın qrafikası ilə oxuyurlar. Demək, bunlar artıq bizim cəmiyyətdə hər şeyə hazırdırlar. Amma mən bu yaxınlarda fərman verəndə ki, avqust ayının 1-dən bütün nəşriyyat, qəzetlər, kitablar latın qrafikasına keçməlidir, bəziləri narazı oldular, etiraz etdilər ki, bu mümkün deyil. Nə üçün mümkün deyil? Mümkün oldu. İndi hər şey mümkündür. Bu da məktəbin əsas vəzifələrindən biridir.

Mən inanıram ki, 6 saylı məktəb özünün gözəl ənənələrini davam etdirəcək. Bugünkü tanışlığım məndə müsbət təəssürat yaratdı. Mən təsdiq edirəm ki, bu ənənələr davam edir, ümid edirəm ki, bundan sonra da davam edəcək. İnanıram ki, 6 saylı məktəb Azərbaycanın nümunəvi, milli məktəblərindən biri olacaqdır.

Məktəbin müəllimlərinə, bütün kollektivə, Azərbaycanın bütün təhsil işçilərinə, bütün müəllimlərinə, Azərbaycanın təhsil alan uşaqlarına, ali məktəblərdə təhsil alan gənclərə, hamıya bu yolda uğurlar arzulayıram. Sizin hamınıza cansağlığı, səadət arzulayıram. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ*

25 yanvar 2002-ci il

Azərbaycan prezidenti Heydər Əliyev Moskva Dövlət Universitetinə gəldi. Dövlətimizin başçısını universitetin rektoru Viktor Sadovniçi səmimiyyətlə qarşıladı.

Bu dünya şöhrətli ali məktəbin böyük iclas salonunda Rusiyanın ilk universitetinin – Moskva Dövlət Universitetinin əsasının qoyulması gününə və Azərbaycan prezidenti Heydər Əliyevə MDU-nun fəxri doktoru adı verilməsinə həsr edilmiş mərasim keçirildi.

MDU-nun rektoru mərasimi açaraq, həmin gün universitetin ikiqat bayramı olduğunu vurğuladı və Azərbaycan prezidenti Heydər Əliyevi səhnəyə dəvət etdi. Salona toplaşanlar respublikamızın rəhbərini hərarətlə qarşıladılar.

Viktor Sadovniçi mərasim iştirakçılarını və bu ali məktəbin məzunlarını – Dövlət Dumasının sədri Gennadi Seleznyovu, Rusiya hökuməti sədrinin müavini İlya Klebanovu, Moskvanın meri Yuri Lujkovu, Təhsil naziri Vladimir Filippovu, habelə xarici ölkələrin Moskvada akkreditə olunmuş səfirlərini, SSRİ Xalq artisti Lyudmila Zıkinanı və digər fəxri qonaqları səhnəyə dəvət etdi. Sonra MDU-nun rektoru universitetin yaradılması günü münasibətilə böyük nitq söylədi.

Rektor Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə universitetin fəxri doktoru adının verilməsi haqqında Elmi Şuranın qərarını oxuyaraq dedi:

Moskva Universiteti Elmi Şurasının hörmətli üzvləri, hörmətli tənənəli iclas iştirakçıları!

Bu gün mənə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyeviç Əliyevə Moskva Universitetinin fəxri professoru diplomunu təqdim etmək şərəfi nəsib olmuşdur.

Çox hörmətli Heydər Əliyeviç, Moskva Universitetinin Elmi Şurası Sizi bu ada layiq görməklə, xalqlarımız və ölkələrimiz arasında münasibətlərin, elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın inkişafına Sizin görkəmli töhfənizi qeyd etmişdir.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz yeddinci kitab. B., Azərnəşr,2011, s. 289-293

Çox hörmətli Prezident, Moskva Universiteti üçün bu əlamətdar gündə mən Sizin parlaq yaradıcılıq işinizin çox sahələrindən birini xüsusi vurğulamaq istərdim. Sizin bütün parlaq və səmərəli həyatınız və dövlət fəaliyyətiniz ölkəmizin tarixi ilə qırılmaz surətdə bağlıdır. Siz SSRİ-nin rəhbərlərindən biri olarkən, 1982-1987-ci illərdə Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən ölkəmizdə elmin və təhsilin inkişafı üçün çox işlər görmüsünüz. Siz Nazirlər Sovetinin xüsusi məsələlər üzrə bürosuna başçılıq edərkən Moskva Universitetinə dəfələrlə böyük kömək göstərmisiniz.

Bu, ölkəmizdə və dünyada Moskva Universitetinin əhəmiyyətini və rolunu qiymətləndirməyinizin təzahürü idi. Bu gün Sizi Moskva Universitetinin ali mükafatı ilə təltif etməklə yanaşı, biz əminik ki, Siz Azərbaycan Respublikasının prezidenti olaraq ölkənizdə təhsilə, elmə və universitetin fəaliyyətinə böyük yardım göstərəcəksiniz. Biz əminik ki, sizin Rusiya prezidenti Vladimir Vladimiroviç Putinlə mütəmadi və səmərəli görüşləriniz gələcəkdə həm elm və təhsil sahəsində ölkələrimizin daha da yaxınlaşmasına, həm də iqtisadi inteqrasiya işinə xidmət edəcəkdir.

Biz bu xeyirxah işdə Sizə böyük məmnuniyyətlə kömək edirik və bundan sonra da edəcəyik. Bildirmək istəyirəm ki, hazırda Moskva Universitetində Azərbaycandan gəlmiş 100-dən artıq tələbə və aspirant təhsil alır. Onların ən yaxşıları bu gün buradadır, Moskva Universitetinin bütün kollektivi ilə bir yerdə Sizin səfərinizi alqışlayırlar.

Çox hörmətli cənab Prezident, ənənəyə uyğun olaraq, icazə verin, bu salona toplaşanların önündə Sizə iki sual verim: Siz sülh ideallarını həmişə müdafiə etməyə və xalqlarımız arasında dostluğu möhkəmləndirməyə hazırsınızmı?

Heydər Əliyev: Hazıram.

Viktor Sadovniçi: Siz elmin və təhsilin çiçəklənməsinə həmişə xidmət etməyə hazırsınızmı?

Heydər Əliyev: Tamamilə hazıram.

Sonra Viktor Sadovniçi dövlətimizin başçısına Moskva Universitetinin fəxri professoru diplomunu və medalını təqdim edərək dedi: «Moskva Universitetinin fəxri professor diplomu. Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi Şurası öz yığıncağında qərara almışdır: Rusiya-Azərbaycan münasibətlərinin və elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın inkişafında böyük xidmətlərinə görə Əliyev Heydər Əliyeviçə Moskva Universitetinin fəxri professoru adı verilsin, bu ad ona

qanun və adətlə müəyyən olunmuş hüquqları, hörmət və imtiyazları təmin edir».

Heydər Əliyev: Hörmətli Viktor Antonoviç!

Xanımlar və cənablar!

Dostlar və əziz tələbələr!

Müqəddəs Tatyana günü – Moskva Dövlət Universitetinin yaranması günü və universitetinizin 247-ci ildönümü münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə təhsildə və həyatda yeni uğurlar arzulayıram!

Böyük elm və ali təhsil mərkəzi olan, dahi rus alimi Lomonosov tərəfindən əsası qoyulmuş, dünya elminə, mədəniyyətinə, bəşər sivilizasiyasına misilsiz töhfə vermiş Moskva Dövlət Universitetinin fəxri professoru olmaq mənim üçün böyük şərəfdir.

Keçmiş Sovet İttifaqı üçün, keçmiş müttəfiq respublikalar üçün bir çox ixtisaslar üzrə yüz minlərlə gözəl kadr, alim, mütəxəssis hazırlamış universitet, bu gün Rusiya Federasiyasının ali təhsilinə başçılıq edən universitet bizə dost olan Rusiyanın inkişafı işinə olduqca böyük töhfə verir. Viktor Antonoviç, mənə göstərdiyiniz yüksək şərəfə görə, mənə fəxri professor adı verdiyinizə görə, Sizin dediyiniz kimi, artıq malik olduğum və hələ tanış olacağım imtiyazlara görə Sizə, Elmi Şuranın bütün üzvlərinə təşəkkür edirəm.

Moskva Universiteti çoxlarına, o cümlədən də bizə – Azərbaycan xalqına, azərbaycanlılara əzizdir. Azərbaycanda demokratik mətbuatın banisi Həsən bəy Zərdabi hələ 1865-ci ildə Moskva Universitetini bitirmişdir. 1918-ci ildə – Azərbaycanın dövlət müstəqilliyi qazandığı ildə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə başçılıq etmiş Fətəli Xan Xoyski 1901-ci ildə Moskva Universitetində təhsilini başa çatdırmışdır. Sonrakı illərdə minlərlə, on minlərlə insan, o cümlədən azərbaycanlılar Moskva Universitetində təhsil almışlar. Biz Azərbaycan üçün, xalqımız üçün yüksək səviyyəli alimlər, təhsil, elm və mədəniyyət ocaqları üçün mütəxəssislər və xadimlər hazırlanmasına görə Moskva Dövlət Universitetinə minnətdarıq.

Bu gün də Azərbaycanın ali məktəbləri Moskva Universitetinə nümunə götürülməli olan elm, ali təhsil mərkəzi kimi baxırlar. Azərbaycan Universiteti, daha doğrusu, əsası 1919-cu ildə qoyulmuş Bakı Dövlət Universiteti Moskva Dövlət Universiteti ilə fəal əlaqələr saxlayır. Şübhəsiz, bu, Bakı Dövlət Universitetinə də, Azərbaycanın başqa ali məktəblərinə də böyük kömək göstərir.

Mən Moskva Dövlət Universitetinə minnətdaram ki, özünün bütün tarixi ərzində o, Azərbaycan üçün ali təhsilli çoxlu kadr hazırlamışdır. Nəzərə çatdırıram, sadəcə olaraq, ali təhsilli yox, özü də çox yüksək

səviyyədə təhsilə malik kadrlar hazırlamışdır. 1970-80-ci illərdə biz Azərbaycandan hər il Moskva Dövlət Universitetinə ali təhsil almaq üçün təyinatla 150 nəfər göndərirdik. Demək istəyirəm ki, bu universitet bütün Sovetlər İttifaqında bizim üçün nəinki ən nüfuzlu, həm də ən yaxşı universitet idi. Viktor Antonoviçin dediyi kimi, indi burada Azərbaycandan təxminən 100 nəfər təhsil alır. Ümidvarıq ki, onların sayı artacaqdır. Mən 1980-ci illəri Moskvada, Nazirlər Sovetində işləyərkən ali təhsillə, universitetlərlə, xüsusən Moskva Dövlət Universiteti ilə sıx ünsiyyətdə olduğum illəri böyük səmimiliklə xatırlayıram. Şadam ki, bu unudulmayıbdır. Viktor Antonoviç öz çıxışında bunu qeyd etdi.

Mənə göstərdiyiniz yüksək şərəfə görə dönə-dönə minnətdaram və sizin bayramınızda – müqəddəs Tatyana günündə, universitetin yaradılması günü münasibətilə bayramda iştirak etməyimə, fəxri professor diplomu almağıma, özü də belə gözəl bayram günündə – universitetin yaranması günündə almağıma xüsusilə şadam. Bu, ikiqat fəxrdir. Sizə təşəkkür edirəm, cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

Mən bizim rəssamın çəkdiyi əsəri – «Bakı şəhərinin bir guşəsi» əsərini Moskva Dövlət Universitetinə hədiyyə etmək istəyirəm. Düşünürəm ki, bu əsər sizin böyük universitetinizdə öz yerini tutacaqdır. Sağ olun.

ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANIN DİN, ELM VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞÜNDƏ[1] NİTQ*

Prezident sarayı
22 may 2002-ci il

Zati-Müqəddəsləri!

Sizi Azərbaycan dövləti adından səmimiyyətlə salamlayıram. Sizə xalqımızın ən xoş hisslərini çatdırıram. Sizin səfəriniz tarixi hadisədir, Azərbaycan dövlətinə olan hörmətinizin, bizim isə Avropa ilə bütünləşməyimizin təsdiqidir.

Siz Azərbaycana çox əlamətdar bir vaxtda gəlmisiniz. Sabah Vatikanın Azərbaycanın dövlət müstəqilliyini tanımasının 10 ili tamam olur. Belə bir günü məhz Azərbaycanda keçirmək niyyətiniz həqiqətən də nəcib diqqətlilik nümunəsidir.

Mən 1997-ci ilin sentyabrında İtaliya Respublikasına rəsmi səfərim çərçivəsində Vatikanı ziyarətimi və Sizinlə görüşümü böyük məmnunluq hissi ilə xatırlayıram. O zaman Sizinlə görüşüm və söhbətlərim mənə çox böyük təsir bağışlamışdı. Çox şadam ki, həmin görüşdə etdiyim dəvəti qəbul etmisiniz və Azərbaycana gəlmisiniz.

Siz müasir dünya tarixində mühüm rol oynayan şəxsiyyətsiniz, dini, irqi, milli sosial və siyasi fərqlərindən asılı olmayaraq, bütün insanlara xidməti özünün həyat idealına çevirmiş böyük humanistsiniz. Məhz buna görə Sizin yolunuz yalnız xristian katoliklərin yaşadığı ölkələrdən deyil, digər dinlərin, mədəniyyətlərin mövcud olduğu, insanların yaşadığı hər yerdən keçir. Bu gün həmin yol Sizi Azərbaycan torpağına gətirmişdir.

Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur. Azərbaycanlılar artıq 1300 ildən çoxdur ki, islam dininə etiqad edirlər. Onlar eyni zamanda, dini dözümlülükləri ilə seçilir, başqa xalqların dinlərinə və mədəniyyətlərinə ehtiramla yanaşırlar.

Digər dini icmalar kimi, katoliklər də Azərbaycanda hər zaman hörmət və etimad görmüşlər. Tarixçilərin verdiyi məlumatlara görə, Azərbaycanda ilk katolik icması XIX əsrin 30-cu illərində formalaşmağa başlamışdır.

1 Roma papası II İohann Pavel də görüşdə nitq söyləmişdir.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz səkkizinci kitab. B., Azərnəşr, 2011, s. 361-365

XIX əsrin sonu - XX əsrin əvvəllərində katolik icmasının nümayəndələri Bakının mədəni-ictimai həyatında mühüm rol oynamış, xüsusən də səhiyyə, mədəniyyət və memarlıq sahələrində bu gün də minnətdarlıqla xatırlanan izlər qoymuşlar. 1912-ci ildə yerli katolik icmasının təşəbbüsü və əhalinin ianəsi ilə Bakının mərkəzi hissəsində «Müqəddəs Məryəm» kilsəsi ucaldılmışdı. Təəssüf ki, stalinizm dövründə islam, xristianlıq və yəhudiliklə bağlı bir çox din ocaqları kimi, bu katolik məbədi də dağıdılmışdı. Din və etiqad sərbəstliyinin hökm sürdüyü Azərbaycanda indi digər dini icmalar kimi, katoliklər də bütün hüquq və azadlıqlara malikdirlər.

Zati-Müqəddəsləri!

Azərbaycan xalqı özünəməxsus və nadir bir mədəniyyət yaratmışdır. Bu mədəniyyətin əsasında müsəlman və xristian sivilizasiyalarının sintezi dayanır. Orta əsrlərdən etibarən Azərbaycan mədəniyyəti Şərq ilə Qərb, müsəlman və xristian dünyaları arasında bir körpü olmuşdur. Zəngin müsəlman sivilizasiyasının nailiyyətləri bir sıra hallarda Azərbaycan alimlərinin, fikir adamlarının səyi nəticəsində Qərbin və bütün insanlığın mənəvi sərvətinə çevrilmiş, Qərb dəyərləri isə islam dünyasında yayılmışdır.

Azərbaycan xalqı kökü Avropadan gələn yenilikçi ideyalara yiyələnmək baxımından həmişə öncül yerlərdən birini tutmuşdur. Bu özünü elm, təhsil, mədəniyyət sahəsində xüsusilə aydın göstərmişdir. Biz bu gün haqlı olaraq fəxr edirik ki, müsəlman Şərqində yeni tipli məktəblər, demokratik mətbuat, qadın təhsili, seçmək və seçilmək hüququ ilk dəfə Azərbaycanda reallığa çevrilmiş, 1918-ci ildə bütün islam dünyasında Avropa tipli ilk dövlət - Azərbaycan Xalq Cümhuriyyəti bizim ölkəmizdə qurulmuşdur.

Artıq 10 ildən çoxdur ki, biz müstəqil dövlətimizdə yaşayırıq. Bu on il ərzində ciddi dəyişikliklərə nail olmuşuq. Mühüm iqtisadi islahatlar həyata keçiririk. Keçmiş irsdən imtina edərək, demokratik islahatlar yolunu tutmuşuq. Yoxsulluğa qarşı mübarizə aparırıq.

Mənəvi dəyərlərimizi dirçəldirik. İnsan haqlarının qorunmasına, əsas hüquq və azadlıqların təmin edilməsinə çalışırıq.

Biz tarixi seçimimizi etmişik, yəni, öz ənənələrimizdən qopmadan, milli simamızı itirmədən Qərb dünyasına, onun humanist və çağdaş dəyərlərinə üz tutmuşuq.

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra biz böyük layihələr həyata keçiririk. Bu layihələr təkcə ticarət və iqtisadi mənfəət gətirmir, onlar həm də xalqları və mədəniyyətləri bir-birinə yaxınlaşdırır, inam və etimad mühiti yaradır, sivilizasiyalararası dialoqa xidmət edir.

Əlbəttə, regionumuzda ciddi problemlər, həllini tapmamış münaqişələr olmasaydı, uğurlarımız daha çox olardı. Bunu deyərkən, mən ilk növbədə Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsini nəzərdə tuturam. Bu region ən qədim zamanlardan bəri Azərbaycan torpağı kimi tanınmışdır. Burada yerli azərbaycanlılarla ermənilər sülh və dostluq şəraitində yaşamışlar. Ermənistanın bu bölgəyə haqsız iddiası və ölkəmizə hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilib, 20 min nəfərdən çox azərbaycanlı həlak olub, 50 min nəfər yaralanmışdır. Çoxsaylı tarix və mədəniyyət abidələri həmişəlik yer üzündən silinmişdir. İbadət yerləri və qəbiristanlıqlar dağıdılmışdır. Ən dəhşətlisi isə budur ki, artıq on ilə yaxın bir müddət ərzində bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın vəziyyətində yaşayır. Onların məskunlaşdıqları çadır şəhərcikləri erməni işğalı nəticəsində Azərbaycanın necə bir humanitar fəlakətlə üzləşdiyi haqqında aydın təsəvvür yaradır. Biz bütün dünyanın, ilk növbədə isə şəfqət və rəhmliliyi öz başlıca prinsipi hesab edən Vatikanın bu insanların vəziyyəti ilə daha yaxından maraqlanmalarını istərdik.

1994-cü ildə atəşkəs elan olunmuşdur. Artıq 8 ildir ki, ağır və çətin sülh danışıqları aparırıq. Biz münaqişənin dinc yolla nizamlanmasının tərəfdarıyıq. Regionda yenidən hərbi əməliyyatların başlanmasını, qan tökülməsini istəmirik. Lakin dinc yolla nizamlama beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalı, ədalətli və daimi sülhə zəmin yaratmalıdır. Yalnız belə olduqda qədim Qafqaz torpağında asayiş və tərəqqiyə qovuşmaq, nifaq və qarşıdurmanı aradan qaldırmaq olar. Yalnız belə olduqda minlərlə insana fəlakət gətirən terrorçuluğun, aqressiv separatçılığın, milli və dini ədavətlərin ağır nəticələrini dəf etmək mümkündür.

Zati-Müqəddəsləri!

Sizin Azərbaycana qısamüddətli, lakin zəngin səfər proqramınızda din, elm və incəsənət xadimləri ilə görüşə xüsusi yer ayırmağınız əlamətdar hadisədir. Bəşəriyyətin qədim kitablarından biri olan Bibliyada deyilir ki, insanı yaşadan təkcə çörək deyil, həm də ilahi dərgahdan gələn Sözdür. Din, elm, mədəniyyət və incəsənət xadimləri həmin ilahi Sözün insanlara çatdırılmasını təmin edirlər, onların əxlaqını gözəlləşdirir, mənəvi cəhətdən saflaşmalarına, təmizlənmələrinə yardım göstərirlər. Düşünürəm ki, bütün bu nəcib işləri görmək, böyük və müdrik Sözü demək Sizin də səfərinizin başlıca məqsədlərindən biridir. İki gün ərzində Sizinlə təmasda olan, ibrətli kəlamlarınızı dinləyən hər bir azərbaycanlı Sizin timsalınızda yer üzündə insan ömrünün necə yaşanmalı olduğu haqqında daha dərindən fikirləşəcəkdir.

Bu mühüm və məsuliyyətli anları minlərlə Azərbaycan vətəndaşına yaşatdığınız üçün Sizə minnətdarlığımı bildirirəm. Təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan prezidenti Heydər Əliyev ölkəmizin tanınmış elm, mədəniyyət, incəsənət, idman xadimlərini pontifikə təqdim etdi, II İohann Pavel onlara xatirə hədiyyələri təqdim etdi və ən yaxşı nemətlər dilədi.

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN 70 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ*

13 iyun 2002-ci il

Hörmətli müəllimlər, professorlar, alimlər, tələbələr! Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi! Mən sizi universitetin 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Sizə, universitetin bütün müəllim və tələbələrinə, hamınıza cansağlığı, işlərinizdə uğurlar, həyatınızda səadət arzulayıram.

İqtisad Universitetinin 70 illiyi münasibətilə dünən sizə təbrik məktubu göndərmişəm. Məktub bu gün mətbuatda dərc edilibdir. Güman edirəm, siz onunla tanış olmusunuz. Ancaq buna baxmayaraq, mən sizin dəvətinizi qəbul edib, bu yubiley mərasimində sizinlə bir yerdə olmağımı vacib bildim və sizin yanınıza gəldim.

Universitetin rektoru Əli Abbasov universitetin tarixi haqqında, keçdiyi yol, əldə etdiyi nailiyyətlər haqqında və xüsusən dövlət müstəqilliyi dövründə və onun son illərində əldə etdiyiniz nailiyyətlər haqqında məlumatlar verdi. Bu məlumatlar sevindiricidir. Biz bu gün Azərbaycanda keçən əsrin 20-ci illərindən başlayaraq ali təhsilin yaranması və inkişaf etməsinin, böyük vüsət almasının daha bir nümunəsini nümayiş etdiririk.

Bizim xalqımız XX əsrin 20-ci illərindən başlayaraq kütləvi surətdə təhsillənməyə başladı. Qısa bir zamanda böyük orta məktəb şəbəkəsi yarandı. Ali təhsil ocaqları yarandı. 1919-cu ildə Xalq Cümhuriyyəti tərəfindən yaradılmış ilk Azərbaycan universiteti ölkəmizdə ali təhsil sisteminin əsasını qoydu. Ancaq sonrakı illərdə ali təhsil sistemi görünməmiş sürətlə inkişaf etdi.

Əgər xatırlasaq ki, o illər Azərbaycan əhalisinin əksər hissəsi savadsız idi, Azərbaycanda ali təhsilli mütəxəssislər çox az idi, bizim milli kadrlarımız yox idi, deyə bilərik ki, ötən dövrdə Azərbaycanda ali təhsil sisteminin yaranmasında nə qədər böyük işlər görülübdür və bizim bugünkü ali təhsilin nə qədər möhkəm təməli qoyulubdur.

Bu ali təhsil ocaqlarından biri də Azərbaycan İqtisad İnstitutu idi, indi İqtisad Universitetidir. Bizim bəzi ali məktəblərimiz yaranandan çox

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz doqquzuncu kitab. B., Azərnəşr, 2012, s. 88-104.

uğurla, ardıcıl surətdə öz sahəsini əhatə edərək inkişaf etmişdir. Ancaq bunlardan fərqli olaraq, 1930-cu ildə İqtisad İnstitutu, yaxud Kooperasiya İnstitutu kimi yaranmış bu təhsil ocağı sonrakı dövrdə ağır tarixi bir dövr keçmişdir. O gah fəaliyyət göstərmişdir, gah fasilə vermişdir, bəzən adı dəyişilmişdir, bəzən profili dəyişilmişdir. Hər halda, bizim başqa ali məktəblərdən fərqli olaraq, bu ali məktəbimiz əvvəldən özünə lazımi istiqamət götürə bilməmişdir.

Mən indi burada oturarkən düşündüm ki, təbiidir, bunun həm obyektiv, həm də subyektiv səbəbləri var. Obyektiv səbəbləri ondan ibarətdir ki, başqa ali məktəblər keçən illərin, əsrlərin təcrübəsindən irəliyə gəlmiş və onların əsasında öz təhsil sistemini qurub inkişaf etdirmişdir.

Məsələn, əgər Bakı Dövlət Universitetini götürsək, bəli, universitet sistemi keçmişdə, çar Rusiyası vaxtında da mövcud olmuşdur. O universiteti yaradarkən yeni bir şey icad olunmamışdı. Sadəcə, Azərbaycanın o vaxtkı imkanları çərçivəsində müəyyən fakültələr yaranmış, həmin fakültələrin də istiqamətləri artıq əvvəlki dövrlərdən müəyyənləşmişdir. Yaxud Tibb Universitetini götürsək, heç bunu araşdırmağa ehtiyac yoxdur. Tibb qədim dövrdən tibdir, insanların müalicəsidir və tibb ali məktəbləri keçmişdə dünyanın müxtəlif ölkələrində, o cümlədən çar Rusiyasında mövcud olmuşdur. Demək, bu ənənə müəyyən qədər davam etdirilmişdir. Ancaq Azərbaycanda İqtisad İnstitutu yaradılır. Hansı İqtisad İnstitutu? Bəlkə bizim iqtisadçılar da, tarixçilər də məsələnin bu cəhətinə heç o qədər də diqqət yetirməyiblər.

Təsadüfi deyil ki, ilk dəfə Ticarət və Kooperasiya İnstitutu yaranıb, sonra İqtisad İnstitutu olubdur. Çünki sovet hakimiyyəti vaxtında keçmiş iqtisadiyyatdan, keçmiş iqtisadi sistemdən, quruluşdan imtina edilmişdi. Ona görə də təhsilin, elmin yaranması prosesi o vaxt, sovet hakimiyyəti vaxtında yaranan iqtisadi sistemi əks etdirməli idi. Bu iqtisadi sistemin özü hələ tam yaranmamışdı və onu yaratmaq da asan deyildi. Yaradırdılar. Bütün bunlara görə də hesab edirəm ki, bizim İqtisad İnstitutu bu baxımdan keçmişdə bir az başıbəlalı institut olubdur. Çünki onun kökü olmayıbdır.

Hansı iqtisad? Sonra, 1930-cu illərdə ona gəlib çıxdılar ki, bunun əsasını siyasi iqtisad təşkil edir. Sosialist iqtisadiyyatının, ya məlum olan siyasi iqtisadiyyatın əsas kökləri də artıq hamıya məlumdur. Hesab edirəm ki, bu, institutun belə ardıcıl surətdə lazımi səviyyədə inkişaf edə bilməməsinin obyektiv səbəblərindən biridir.

Subyektiv səbəbləri odur ki, təəssüflər olsun, bu institut tarixin müxtəlif mərhələlərində müxtəlif insanların o qədər də müsbət olmayan fəaliyyətləri nəticəsində inkişaf edə bilməmişdir. Xatirimdədir, İkinci

dünya müharibəsi qurtarandan sonra da bu institut elə də sanballı, ali məktəblər sırasında o qədər də böyük hörmətə malik olan bir institut deyildi.

Yadımdadır, o vaxtlar gənclər – düzdür, mənim instituta daxil olduğum dövr müharibədən qabaqkı illərə təsadüf edibdir – məsələn, 1945, 1946, 1947-ci illərdə məktəbi qurtaranlar daha çox dəqiq fənlərlə, neftlə əlaqədar olan sənaye institutuna, inşaatla əlaqədar olan fakültələrə gedirdilər. Yaxud o vaxt filologiya, tarix elmlərinə böyük meyl var idi. Amma iqtisad elmi o vaxt, həqiqətən hələ elm səviyyəsinə gəlib çatmamışdı. Qocaman iqtisadçılar məni bu sözlərimə görə bağışlasınlar. Amma bu həqiqətdir. Ona görə də bu instituta o qədər də maraq yox idi.

Mənim yadımdadır, Dövlət Universiteti, başqa institutlarla tanış olurdum. Bəzi yerlərə tələbələrin çox axını var idi. Amma İqtisad İnstitutuna gedib ərizə verən yox idi, yaxud az idi. Yaxud da deyirdilər ki, kim hara ərizə verə bilmirsə, daxil ola bilmirsə, gedin ora ərizə verin. Bu keçmişdir. Bizim dövrümüzdə də, yəni şəxsən mənim Azərbaycanda rəhbər olduğum dövrdə də biz çalışdıq ki, İqtisad İnstitutu başqa institutların səviyyəsinə gəlib çatsın. Mən etiraf etmək istəyirəm ki, biz buna nail ola bilmədik. Çünki burada bəlkə də öz ixtisasını bilməyən, müəllimlik vəzifəsindən öz şəxsi məqsədləri üçün istifadə etmək istəyən, yaxud başqa məqsədlər güdən ayrı-ayrı qüvvələr var idi, toqquşmalar, çəkişmələr, intriqalar var idi. Ancaq biz 1970-ci illərdən çalışdıq ki, bu institutu lazımi səviyyəyə qaldıraq və onu qaldıra da bildik. 1980-ci illərdə artıq bu institut yüksək səviyyəyə qalxmışdı. Ancaq sonra yenə həm institutun daxilində, həm də onun ətrafında bəzi mafiyoz qüvvələr öz şəxsi məqsədlərinə nail olmaq üçün intriqalar, çəkişmələr yaratdılar və Moskvaya dalbadal ərizələr, anonim məktublar, bir-birindən şikayətlər yazmağa, bir-birini günahlandırmağa başladılar – dəhşətli bir vəziyyət idi.

Mən o illər Moskvada işləyirdim. Amma bu sədalar mənə gəlirdi. Bu işi öz şəxsi mənafeləri üçün edənlər anlamırdılar ki, artıq Azərbaycana qarşı Dağlıq Qarabağ probleminin meydana çıxarılması üçün cürbəcür hərəkətlər başlanan vaxt, Azərbaycana qarşı təzyiqlər göstərilən vaxt onlar bu əməlləri ilə öz ölkələrinə, respublikalarına, xalqına, millətinə zərər gətirir, onu ləkələyirdilər. Təbiidir ki, nöqsanlar var idi, yazılan ərizələrdə müəyyən həqiqətlər də var idi. Amma iftiralar, yalanlar da çox idi. Ancaq bizim xalqımız, millətimiz, alimlərimiz, elm adamlarımız bu məsələləri öz aralarında araşdırıb qərar qəbul edə bilməzdilərmi? Moskvaya kisələrlə anonim məktublar göndərirdilər. Əli Abbasov burada dedi. Ancaq o hadisə Azərbaycan üçün çox dəhşətli bir hadisə oldu. Bura hansısa komis-

siya gəlmişdi, yoxlamışdılar və iş o yerə çatmışdı ki, Azərbaycanın bu institutunun məsələsinə Moskvada ən yüksək səviyyədə baxılırdı.

O vaxt Kommunist Partiyası Mərkəzi Komitəsinin nəzdində Partiya Nəzarət Komitəsi var idi, bütün belə işlərə baxırdı. O ancaq çox böyük dövlət və partiya əhəmiyyəti olan işlərə baxırdı. Bu məsələ gedib oraya çıxmışdı. Mən orda işləyərkən bu şeylərin bəzilərindən xəbərim olmamışdı. Yəni onlar bunu məndən gizlətmişdilər. Baxmayaraq ki, mən Siyasi Büronun üzvü kimi, yaxud SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi, SSRİ-nin bütün ali təhsil sisteminə, orta təhsil sisteminə və peşə təhsili sisteminə rəhbərlik edirdim. Amma bunu məndən gizlətmişdilər.

Günlərin birində bu məsələni Siyasi Büronun iclasına çıxardılar. Xırda bir məsələ, Siyasi Büroya yaraşmayan bir məsələ – Mərkəzi Komitənin təlimatçısı buna baxa bilərdi.

Bəli, təklif verildi ki, Azərbaycanda İqtisad İnstitutu bərbad vəziyyətdə olduğuna görə bağlansın. SSRİ-nin ali təhsil tarixində bu, ilk hadisə idi ki, belə bir qərar qəbul olunmuşdu. Başa düşdünüzmü, bu olubdur, 1987-ci ildə idi. Mən onda çox acıdım. Ancaq hər şey həll olunmuşdu. Bunu kim etdi? Bizim öz vətəndaşlarımız, azərbaycanlılar. Ermənilərin, başqalarının əlində oyuncaq olaraq bu işləri edənlər. Bu, Azərbaycanın ali təhsili üçün böyük ləkə oldu. Bu ləkəni də Azərbaycana yaxan burada həmin bu işlərlə məşğul olan insanlar oldular.

Mən bayram günü bəlkə də bunu deməməliydim. Ancaq mən həqiqəti sevən adamam. Mənim əlimdə başqa bir fürsət olmayacaq ki, sizinlə bir də görüşüm, bunu deyim. Mən bunu deyirəm və güman edirəm ki, Azərbaycan xalqına o cür xəyanət etmiş insanlar, heç olmasa indi xəcalət çəkməlidirlər. Onların bəziləri akademikdir, bəziləri professordur, bəziləri filandır, filandır. Qoy bilsinlər, heç olmasa özləri öz vicdanları ilə söhbət edib öz günahlarının bizim xalqımıza nə qədər zərər vurduğunu anlasınlar və hamı da bundan nəticə çıxarsın. Biz gərək millətimizi qoruyaq, xalqımızı qoruyaq. İndi bu sözlər daha da aktualdır. Çünki indi biz müstəqil ölkəyik, müstəqil dövlətik. Millətimiz inkişaf edir. Mən bu salona baxıram. Mən o illərdə də belə salonlar görmüşəm. Amma burada kimi görürəm, hamısı azərbaycanlı, hamısı bizim millət. Mən bununla fəxr edirəm. Bizim, o cümlədən mənim də fəxr etməyə çox əsasımız var. Ancaq bu gün mən sizinlə görüşərkən, bu salona baxarkən, sizə baxarkən fəxr edirəm. Fəxr edirəm ki, bizim milli ali təhsilimiz var. İndi bizim yetişən gənc milli kadrlarımız var. Azərbaycan elminə böyük töhfələr vermiş və xidmətlər göstərmiş qocaman professorlarımız var, alimlərimiz var. Mən bununla fəxr edirəm.

Bu, böyük nemətdir. Gəlin bundan sonra bu neməti əlimizdə möhkəm saxlayaq.

Dünya dəyişəndən sonra, yəni Sovet İttifaqı dağılandan sonra, sosialist sistemi dağılandan sonra çox şey dəyişir. Amma bəzi şeylər o qədər də dəyişmir.

Məsələn, riyaziyyat elmi dəyişmir, necə var, elə qalır. Fizika elmi dəyişmir. Ya sovet hakimiyyətində olsun, ya kapitalist hakimiyyətində olsun, ya keçmişdə olsun, ya da bizim müstəqil dövlətdə olsun – fizika elmi elə fizika elmidir. Amma ictimai elmlər çox dəyişir və dəyişməlidir, mütləq dəyişilməlidir. Bunlar hamısı indi bizim müstəqilliyimizin inkişafına xidmət etməlidir. Bizim milli müstəqilliyimizi əks etdirməlidir. Elmdə, təhsildə, kadrların hazırlanmasında bu dəyişikliklər gərək yeni Azərbaycanın yaranmasına xidmət etsin. O cümlədən də iqtisad elmi.

Bizim ölkədə keçmişdə olan iqtisad elmi özünü doğrultmadı. İndi sizin çoxlarınız yazdığınız əsərləri, təbiidir ki, kitab rəflərində saxlamalısınız. Onlar tarixi öyrənmək üçün qiymətlidir. Amma onların bu gün üçün əhəmiyyəti yoxdur. O əsərlər ki, siyasi iqtisad konsepsiyası əsasında yaranıb, onların heç birinin bu gün bizə xeyri yoxdur. Xeyri o ola bilər ki, sadəcə, indiki elmi konsepsiyaları onlarla müqayisə edəndə görək o vaxt nə var idi, indi nə var. Amma indi bizim iqtisadi konsepsiyamız, ümumiyyətlə, dövlətimizin siyasəti məlumdur.

Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlətdir. Azərbaycanda demokratik dəyərlər ardıcıl surətdə bərqərar olmaqdadır və inkişaf etməkdədir. Bu bizim ana yolumuzdur. Biz bu yol ilə daim gedəcəyik, başqa yol yoxdur. Biz demokratiya yolunu seçmişik. Demokratiyanın təmin edilməsi üçün onun iqtisadi əsası bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatının özünün qanunları var.

Ümumiyyətlə, bazar iqtisadiyyatını siz mütəxəssislər yəqin ki, məndən yaxşı bilirsiniz. Ancaq bazar iqtisadiyyatı ilə məşğul olan bir adam kimi, mən də az bilmirəm. Bazar iqtisadiyyatı özü-özünü tənzimləyir. Mən indi vaxt alıb burada sizə siyasi iqtisad elmi ilə bazar iqtisadiyyatını müqayisə edib nəyin nə olduğunu bildirmək istəmirəm. Ancaq bir şey aydındır ki, bazar iqtisadiyyatı özü-özünü tənzimləyən bir iqtisadiyyatdır. Bunun da kökü bazardır. Bazar varsa, iqtisadiyyat var. İqtisadiyyat bazar üçündür. Bizim elmimiz, təhsilimiz də dövlətimizin həm xarici, həm də daxili siyasətinin həyata keçirilməsini təmin etməlidir. Bazar iqtisadiyyatına keçid uzun prosesdir. Bizdə bəzi adamlar belə hesab edirlər ki, yox, elə bu gün axşam yatdın, səhər durdun, axşam başqa idi, səhər bazar iqtisadiyyatı oldu. Yaxud axşam yatdın, səhər durdun, demokratiyadır. Doğru deyil. Bunların hamısını tam təmin etmək üçün,

demokratiyanı, onun bütün prinsiplərini, bütün demokratik dəyərləri, insanların azadlığını, sərbəstliyini, söz azadlığını, mətbuat azadlığını tamamilə adamların beyninə yeritmək üçün və hər bir insanın şüurunda həkk etmək üçün ardıcıl iş aparılmalıdır, ağıllı iş aparılmalıdır və buna zaman lazımdır.

Eləcə də bazar iqtisadiyyatı. Xüsusən bizim kimi bir ölkədə. 70 il bizim xalqımızın şüurunda sosialist iqtisadiyyatının bütün prinsipləri əks olunubdur. Kimisində az, kimisində çox. Bunu bir gündə, bir ildə çıxarmaq mümkün deyildir. Amma eyni zamanda, bunu çıxarmaq, əvəzində bazar iqtisadiyyatı kimi çox qeyri-adi olan, yəni çox da sadə olmayan bir iqtisadi sistemi tətbiq etmək üçün çox işlər görmək lazımdır. Bilirsiniz ki, biz bunu görürük. Biz nə qədər qanunlar qəbul etmişik, məcəllələr qəbul etmişik. Sisteminizi nə qədər dəyişdiririk. Əgər son beş ili götürsəniz, bizim iqtisadi sistemin əsasını təşkil edən sənədlər, fərmanlar, qanunlar həddindən artıq çoxdur. Bunları yaratmaq bizim vəzifəmiz idi. Biz bunu etmişik və demək olar ki, vaxtında etmişik. Amma bunları tətbiq etmək, bu və ya digər qanunun, fərmanın müddəalarının cəmiyyət üçün, insanın özü üçün, onun fərdi biznesi üçün faydasını anlatmaq, insanların bunu dərk etməsi böyük bir prosesdir. Bu proses bizdə gedir və gedəcəkdir. Bilin, biz qətiyyən dayanmayacağıq. Çünki biz inanırıq ki, yalnız bu prosesi ardıcıl surətdə həyata keçirərək Azərbaycanın iqtisadiyyatını daha da çox inkişaf etdirə və xalqımızın rifah halını daha da yaxşılaşdıra bilərik. Bu bizim əməli işimizdir. Eyni zamanda bu, nəzəriyyə ilə bağlıdır, dünya təcrübəsi ilə bağlıdır. Dünya təcrübəsini siz – bizim mütəxəssislər, alimlər, bu sahənin müvafiq işçiləri toplamalısınız. Nəzəriyyəni – yeni nəzəriyyə icad etməyə ehtiyac yoxdur – ümumiləşdirmək, bizim iqtisadiyyatımıza uyğunlaşdırmaq sizin vəzifənizdir.

Bilirsiniz ki, biz 1995-1996-cı illərdən ardıcıl surətdə iqtisadi islahatlar həyata keçiririk. Görürsünüz, onların nə qədər gözəl nəticələri var. Məsələn, Azərbaycanda 1995-1996-cı illərdən başlanmış torpaq islahatı qətiyyətlə, demək olar ki, MDB ölkələri məkanında ən yüksək nəticələr vermiş və ən uğurla həyata keçirilmiş islahatlardan biridir. Biz bunun nəticələrini görürük. Kənd təsərrüfatı 98 faiz özəlləşdirilibdir. Kənd təsərrüfatı məhsulları əvvəlki illərə nisbətən xeyli artıbdır. Bu da əhalinin həmin məhsullara olan ehtiyacını təmin edir.

Ümumiyyətlə, özəlləşdirmə nə qədər gözəl nəticələr verir. Özəlləşdirmə bizim iqtisadiyyatımızın bütün sahələrinə aiddir. Həm sənayeyə, həm kənd təsərrüfatına, həm nəqliyyata, həm də inşaata. Bunların hamısının da nəticələrini görürük. O qədər faktlar var ki, onları siz bilirsiniz. Hesab edirəm, belə bir auditoriyada mən rəqəmlər, faktlar

gətirib sizi inandırmağa çalışmamalıyam. Çünki siz bu işi başqalarına nisbətən daha da yaxşı bilməlisiniz, yaxud bilirsiniz və bizim bu işimizi təbliğ etməlisiniz. Çünki siz iqtisadçısınız. Bizim bu islahatların əhəmiyyətini cəmiyyət hiss edir, nəticəsini görür. Amma iqtisadçılar gərək apardığımız islahatların hər birinin həm həyata keçirilmə prosesini, həm də nəticələrini təhlil etsinlər. Ola bilər, bundan yaxşı əsərlər də yaza bilərsiniz. Bu da sizin elmi əsərləriniz olacaqdır.

Amma mənim üçün daha çox maraqlıdır ki, iqtisadi siyasətimizi, islahatlarımızı geniş kütləyə izah etməkdə bizim fəal yardımçımız olasınız. Siz bilirsiniz, keçən il bizim ümumi daxili məhsulumuz 10 faiz artmışdır. Bu, MDB ölkələri içərisində ən yüksək göstəricidir. Sənaye istehsalı təxminən 5,5 faiz artmışdır. Kənd təsərrüfatı istehsalı təxminən 9 faiz artmışdır. Mən təxmini deyirəm, bir az o yan-bu yan ola bilər. İnflyasiya yoxdur. Keçmişdə, sovet vaxtı sizdən kimsə inflyasiya nə olduğunu bilirdimi? İnflyasiyanın nə olduğunu heç kəs bilmirdi.

Biz Moskvada Nazirlər Sovetinin iclasında hər il büdcəni təsdiq edəndə inflyasiya sözü bir dəfə səslənirdi. Onda da o inflyasiyanı sovet sistemi ilə elə düzəldirdilər ki, inflyasiya var, lakin inflyasiya yoxdur. Amma indi hünərin var, bir az o tərəfə, bir az bu tərəfə ehtiyatsız tərpən. Gördünüz Türkiyədə nə oldu? Yaxud ondan 2-3 il əvvəl Rusiyada nə oldu? Ondan əvvəl Uzaq Şərqdə nə oldu? Haralarda olmadı və böhranlardan niyə çıxa bilmirlər?! Amma bizdə 1993-1994-1995-ci illərdə inflyasiya 1600 faizə çatdığı halda, üç-dörd ilin içərisində onun qarşısını aldıq, onu cilovladıq. İndi hər il bizdə milli valyuta sabitdir və bunu maliyyəçilər yaxşı bilirlər, müəyyən maliyyə qanunlarına uyğun, 1-2 faiz inflyasiya var. Budur bizim göstəricilərimiz. Göstəricilərimiz çoxdur, nailiyyətlərimiz çoxdur. Ancaq bu bizim üçün hələ yetərli deyildir. Bizim çox böyük imkanlarımız var. O imkanlardan siz və biz bir yerdə istifadə etməliyik.

Mən bu gün sizin qarşınızda Azərbaycanın iqtisadiyyatının bugünkü vəziyyəti, əldə olunmuş nailiyyətlər, rəqəmlər haqqında söhbət açmaq fikrində deyiləm. Sadəcə, bu mövzulara toxunuram və bununla bağlı iqtisadçının vəzifəsi, iqtisad elminin vəzifəsi və İqtisad Universitetinin vəzifələri haqqında danışıram. Siz bunun detallarını yaxşı bilirsiniz. Bu mənim də işim deyildir. Onsuz da mənim dərdim çox, işim çox, problemim çoxdur. Ancaq əsas bu fikirlərimi sizə çatdıraraq bildirmək istəyirəm ki, siz hamınız – Azərbaycanın iqtisadçıları, yaşlıları da, gəncləri də yenidən doğulmusunuz. İqtisadi siyasəti həyata keçirənlər kimi, biz də yenidən doğulmuşuq. Amma birdən-birə, bir günün, iki günün içində doğulmamışıq. Biz ağır bir keçid prosesi yaşayırıq. Bax, bu keçid prosesini

sizinlə ardıcıl, dayanmadan, uğurla keçməliyik və Azərbaycanın iqtisadiyyatını daha da inkişaf etdirməliyik.

Azərbaycan iqtisadiyyatının böyük imkanları var. Bizim neft və qaz sərvətlərimiz sizə məlumdur. Həyata keçirdiyimiz layihələr və əldə etdiyimiz nəticələr də sizə məlumdur. Bunun da üstündə dayanmaq istəmirəm. Azərbaycanın sovet vaxtında yaranmış böyük sənaye potensialı sizə məlumdur. Azərbaycanın çox gözəl münbit torpaqları və böyük kənd təsərrüfatı – bunlar hamısı sizə məlumdur.

Bunları bizim daxili imkanlarımız, xarici sərmayə ilə birləşdirərək və dünya iqtisadiyyatına inteqrasiya olunaraq iqtisadiyyatımızı çox sürətlə inkişaf etdirə bilərik. Belə imkanlar mövcuddur və bizim böyük perspektivlərimiz var.

Bilirsiniz ki, təxminən 1994-cü ildən indiyə qədər Azərbaycanın iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulubdur. Düşünün, kiçik bir ölkə üçün bu çox böyük rəqəmdir. 5 milyard 3 milyon dollar neft sektoruna qoyulubdur. Təsəvvür edin, neft sektoruna qoyulan bu sərmayə xarici şirkətlərindir. Qarşıdan gələn 3-4 ildə Azərbaycanın neft sektoruna bir neçə milyard dollar sərmayə qoyulacaqdır. Bunlar hamısı öz nəticəsini verəcəkdir.

İndi biz neft müqavilələrindən mənfəət götürürük. Artıq biz Neft Fondu yaratmışıq. Neft Fondunda indi təxminən 580 milyon dollara qədər vəsaitimiz var. Bizim bir milyard 200 milyon dollar valyuta ehtiyatımız var. Amma 1993-cü ildə, 9 il bundan qabaq, iyunun 12-də mən burada, Bakıda ağır vəziyyətdə Azərbaycanın məsuliyyətini öz üzərimə götürmək təklifini düşünürdüm və müzakirə edirdim. Onda bizim heç 1 dollar da valyuta ehtiyatımız yox idi. Bunlar hamısı bizim əldə etdiyimiz ilkin nəticələrdir. Qarşıdakı illərdə gəlirlərimiz artacaq və xalqın rifah halı yaxşılaşacaq, maaşlar artacaqdır. İndi bizim büdcə yerinə yetirilir, problem yoxdur. İlin ikinci yarısında müəyyən sahələrdə maaşları artıracağıq.

Mən Milli Elmlər Akademiyasının prezidentinə bir neçə gün bundan öncə demişdim. Bu gün bir də demək istəyirəm ki, akademiya işçilərinin maaşlarını bu yaxın vaxtlarda artıracağam və bu barədə Baş nazirə, Maliyyə nazirinə göstəriş vermişəm. Onlar mənə təkliflər hazırlayırlar, bu günlərdə baxacağam. Narahat olmayın, artıracağam. Özü də siz bunu hiss edəcəksiniz. Maaşları başqa sahələrdə də artıracağıq.

Mən iki gün bundan əvvəl fərman verdim. Azərbaycanın 150 nəfər görkəmli incəsənət, ədəbiyyat xadimlərinə, başqa sahələrdə fəaliyyət göstərmiş insanların hərəsinə 1 milyon 500 min manat ömürlük təqaüd təyin etdim. Beş il bundan əvvəl belə bir imkanım yox idi. İstəyirdim, amma edə bilmirdim. Çünki imkanım, vəsait yox idi. İndi vəsait var,

görürsünüz, birdən-birə nə qədər səxavətli oldum, 150 nəfərə o qədər təqaüd təyin etdim. Onların hər biri Azərbaycanın ədəbiyyatının, incəsənətinin, mədəniyyətinin və bütün başqa sahələrinin tarixidir. Hər biri!

Tarix nədən yaranır? Tarixi insanlar yaradır. İnsanların şəxsiyyəti tarixi yaradır – əgər onlar şəxsiyyətdirlərsə. Bir də ki, bu şəxsiyyətlərin yaratdıqları əsərlər, qoyub getdiyi irs bu tarixi yaradır. Onlar bizim tariximizi yaradanlardır. Anar dedi ki, həmin 150 nəfərin içərisində təxminən 23 şair, yazıçı var.

Amma bəlkə bunu çoxları bilmir – orada təxminən 25-30 nəfər vaxtilə Sosialist Əməyi Qəhrəmanı adı almış insanlardır. Onları unutmaq olmaz. Hər dövrün öz hökmü var. Xatirinizdədir, o illərdə bizim ölkəmizdən ildə bir dəfə, iki dəfə beş-altı nəfərə Sosialist Əməyi Qəhrəmanı adı veriləndə nə qədər sevinirdik. Bu biz deyilikmi? Biz bunu niyə unutmuşuq, niyə bunu qaralayırıq? Nə üçün? Bizim çox görkəmli yazıçılarımız, bəstəkarlarımız, şairlərimiz o illərdə Sosialist Əməyi Qəhrəmanı adı alıblar. Bunun hər biri böyük hadisə idi.

Mənim xatirimdədir, gərək ki, 1975-ci ildə idi, rəhmətlik Süleyman Rəhimovun 70 yaşı tamam olurdu. Mən xahiş etdim ki, ona Sosialist Əməyi Qəhrəmanı adı versinlər. Bu hər dəfə asan keçmirdi. Ancaq, hər halda, mənim bu barədə xalqıma sədaqətim, xalqımın yolunda fədakarlığım həmişə nəticəsini verirdi. Bizim yazıçıların içərisində Süleyman Rəhimov ilk dəfə Sosialist Əməyi Qəhrəmanı adını aldı. Böyük bir hadisə idi, hamımız sevinirdik. Çünki traktorçu, sağıcı alırdı, kolxoz sədri alırdı, aqronom alırdı, neftçi alırdı. Amma intellekt adamları, hansının ki, əməyi minlərlə, on minlərlə başqa zəhmət adamının əməyindən üstündür, onlara bu adı vermirdilər. Biz bu ənənəni yaratdıq. Yəni biz yaratmadıq, artıq bu, Moskvada yaranmışdı. Amma Azərbaycanı bu səviyyəyə qaldıra bildik. Ondan sonrakı illər Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Rəşid Behbudov, memar Mikayıl Hüseynov, alim Mustafa Topçubaşov aldılar. Başqaları da ola bilər, unutmuşam.

Bilirsiniz, indi zaman keçib, bəzi şeyləri demək olar. Mən Rəşid Behbudovu Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə təqdim edəndə dedilər ki, SSRİ-də bu janrdan olan heç bir artist belə ad almayıbdır. Mən dedim, ola bilər, almayıb, amma Rəşid Behbudov onların hamısından üstündür. Demək, o, almalıdır. Dedilər ki, yox, siz niyə elə düşünürsünüz, Rusiyada da çox böyükləri var. Dedim, var, onlara verin, mən sizə mane olmuram. Ancaq Rəşid Behbudov almalıdır. İndi bunu da deyim ki, birinci dəfə keçmədi. Bir ildən sonra yenə də məsələni qaldırdım və buna nail oldum.

Gəlin açıq danışaq. Rəşid Behbudov dahi, təkrarolunmaz bir müğənni idi. Hamımız onu sevirdik. Mən də onu çox sevirdim. Ancaq

mən Azərbaycanın başçısı idim, min dənə dərdim, min dənə işim vardı. Əgər bir dəfə alınmadısa, alınmadı, Rəşid Behbudovdan ötrü özümü gedib orada öldürməliydim?! Amma etdim, özümü öldürdüm – yəni məcazi mənada deyirəm – ancaq nail oldum.

Bu sözləri ona görə deyirəm ki, bu adlar çox qiymətli adlardır. Onlar bu gün də qiymətlidir. İndi bu adamların içərisində sənayedən, kənd təsərrüfatından olanlar var, ağır maddi vəziyyətdədirlər. Onları niyə unudaq?! Mən onlara da belə təqaüd təyin etdim.

Yəni inkişaf edirik və inkişaf etdikcə zənginləşirik. Dövlət zənginləşir, millət zənginləşir, xalq zənginləşir, maaşlar artır və bundan sonra da artacaqdır. Arxayın olun.

Əziz dostlar, mən bu gün sizinlə bir növ açıq, sərbəst və sadə söhbət aparıram. Siz görürsünüz ki, mənim bu nitqimdə hansısa bir xüsusi siyasi ifadələr yoxdur. Amma Azərbaycanın prezidenti kimi, mənim işim odur ki, apardığımız xarici-daxili siyasəti hər bir insana imkan dairəsində izah edək, gördüyümüz işlər haqqında müəyyən məlumat verək.

Bizim bütün sahələrdə işlərimiz uğurla gedir. Bizi narahat edən və hələ nail olmadığımız bir problem Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Bununla əlaqədar ağır vəziyyətdə çadırlarda yaşayan soydaşlarımızdır. Bilin, təkcə siz yox, qoy bütün millət, xalq bilsin bu, mənim qarşımda, həyatımda bu gün də, sabah da ən əsas vəzifədir və işimin, yəni vaxtımın daha çox hissəsini alan bir işdir. Nə mümkündür etmişəm. Amma o şeyləri ki, biz etmişik, şəxsən mən etmişəm, onların çoxunu siz bilmirsiniz və bilməyə də ehtiyac yoxdur. Lakin nə mümkündür etmişəm və bundan sonra da edəcəyəm. Mən bu yoldan dönməyəcəm. Ümid edirəm ki, biz bu problemi də uğurla həll edəcəyik.

Nə qədər ki, münaqişə həll olmayıbdır, çalışıram çadırlarda yaşayan soydaşlarımızın vəziyyətini müəyyən qədər yaxşılaşdıraq. Doğrudur, onlar hamısı öz evlərinə qayıtmalıdır. İndi onların evləri dağıdılıbsa da, yerləri-yurdları var. Güman edirəm, Dünya Birliyi bizə yardım edəcəkdir. Bizə həm Avropa Birliyi, həm Amerika Birləşmiş Ştatları – hamısı söz veriblər ki, məsələ həll olunsa, o insanlar öz yerlərinə qayıtsalar, onların kəndlərini, qəsəbələrini, şəhərlərini yenidən qurmaq üçün lazım olan yardımları edəcəklər. O vaxta qədər bizim özümüzün də imkanlarımız çox olacaqdır. Bunları edəcəyik.

Ona görə də onlara haradasa ev tikmək, yerləşdirmək məqsədəuyğun deyildir.

Mən bir neçə dəfə Biləsuvardakı çadırlarda olmuşam. Ora şoran torpaqdır, başqa yerlərə nisbətən orada yaşamaq çox çətindir. Mən qərar qəbul etdim, onlara bir neçə müvəqqəti qəsəbə tikilməsi üçün Neft Fon-

dundan – 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» ilə əlaqədar apardığımız işdən əldə etdiyimiz neftin gəliri Neft Fondunda toplanıbdır – ilk dəfə 40 milyon dollar ayırdım. Bu ilin sonuna qədər həmin qəsəbələr hazır olacaqdır. Mən Biləsuvarda olan 5 çadır şəhərciyini tamamilə ləğv edəcəyəm, onları bu qəsəbələrdə yerləşdirəcəyəm.

1988-ci ildə Ermənistan-Azərbaycan münaqişəsi başlayanda azərbaycanlıları Ermənistandan zorla çıxardılar. O illərdə, ondan sonrakı illərdə Ermənistandan gələn azərbaycanlılar müxtəlif yerlərdə məskunlaşdılar, özlərinə yerlər tapdılar. Amma bir qismi indi də dəmir yolu vaqonlarında, ağır, çətin şəraitdə yaşayır.

Onların da məsələsini tamamilə həll etmək üçün – müvəqqəti yox – Goranboy rayonunda, Gülüstan tərəfdəki gözəl kəndlərdə hər birinə fərdi ev tikdiririk. İndi 150 ev hazırdır. Onlar yerləşiblər. Qalanları da hazır olacaqdır. Söz vermişəm, evlər hamısı hazır olub onlar orada yerləşəndə mən gedib bu insanlarla görüşəcəyəm.

Mən bu məqsədlər üçün Neft Fondundan cəmi 75 milyon dollar ayırmışam. Bu da Neft Fondundan ilk ayırmadır. Söhbət aparırdılar ki, Neft Fondu necə olacaq, vəsaiti necə xərcləyəcəklər, Neft Fondunu dağıdacaqlar. Bilin, Neft Fondu nəzarət altındadır, şəffafdır və ilk ayırma – 75 milyon dollar ancaq qaçqınlar, köçkünlər üçündür. Sağlıq olsun, belə tədbirləri davam etdirəcəyəm.

Əziz dostlar!

İqtisadiyyat haqqında danışdıq. Sizin vəzifələriniz haqqında danışdıq. Siyasəti, iqtisadiyyatı beyninizdən çıxarın. Keçmişdə yazdığınız kitablarınızın hamısını kənara qoyun. Onlar lazım deyildir. Sonra, istirahət vaxtı hərdən açıb vərəqləyərsiniz ki, belə zəhmətlər çəkmisiniz. O vaxtlar bunlar lazım idi. İndi yeni-yeni əsərlər yazın və ən əsası, bizim gəncləri, gənc nəsli müasir bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq, müasir dünya maliyyə sisteminin tələblərinə uyğun olaraq təhsilləndirin.

Rektor dedi ki, burada 14 min tələbə təhsil alır. Böyük rəqəmdir. Əgər keçmişdə tarix fakültəsi, filologiya fakültəsi, o biriləri daha hörmətli idilərsə, indi ən hörmətli ixtisas iqtisadçıdır. Çünki bünövrə iqtisadiyyatdır. İqtisadiyyatı irəliyə aparmaq üçün, dünyanın mürəkkəb maliyyə sisteminə, iqtisadi sisteminə qoşulmaq üçün bizə müasir, hazırlıqlı, xarici dilləri bilən, dünya təcrübəsini mənimsəmiş gənclər lazımdır. Bu isə sizin qarşınızda duran əsas vəzifədir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifəni şərəflə yerinə yetirəcəksiniz.

Sizə cansağlığı, işlərinizdə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

BİLKƏND UNİVERSİTETİNDƏ İHSAN DOĞRAMACININ ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ*

26 iyun 2002-ci il

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev xalqımızın yaxın dostu, Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun sədri, dünya şöhrətli alim İhsan Doğramacının heykəlinin açılışı mərasimində iştirak etmək üçün iyunun 26-da Bilkənd Universitetinə gəldi. Burada dövlətimizin başçısını universitetin yaradıcısı professor İhsan Doğramacı, Türkiyənin dövlət nazirləri Rəcəb Ünal, Şüayib Üşənməz, Bilkənd Universitetinin rektoru Əli Doğramacı və digər rəsmi şəxslər səmimiyyətlə, mehribanlıqla qarşıladılar. Ali təhsil ocağının qarşısındakı meydana toplaşmış millət vəkilləri, Türkiyə ictimaiyyətinin nümayəndələri, universitetin professor-müəllim heyəti, tələbələr Azərbaycan prezidenti Heydər Əliyevi hərarətlə, sürəkli alqışlarla salamladılar.

Hər iki ölkənin dövlət himnləri səsləndi.

Mərasimi ölkəmizin Türkiyədəki səfiri Məmməd Əliyev açdı, sonra Bilkənd Universitetinin rektoru Əli Doğramacıya söz verildi.

Daha sonra dünya şöhrətli alim, professor İhsan Doğramacı onun heykəlinin hazırlanması və yaradıcısı olduğu universitetin qarşısındakı meydanda ucaldılması üçün göstərdiyi köməyə, diqqət və qayğıya görə Azərbaycan prezidenti, görkəmli dövlət xadimi, türk dünyasının böyük oğlu, əziz dostu Heydər Əliyevə dərin minnətdarlığını, təşəkkürünü bildirdi.

Türkiyənin dövlət nazirləri Rəcəb Ünal və Şüayib Üşənməz öz çıxışlarında böyük alim İhsan Doğramacının Türkiyədə elmin, təhsilin inkişafındakı əvəzsiz xidmətlərindən danışdılar, prezident Heydər Əliyevin təşəbbüsünün bütün türk dünyasında rəğbətlə qarşılandığını vurğuladılar.

Azərbaycan prezidenti Heydər Əliyev heykəlin açılışını bildirən qırmızı lenti kəsdi, görkəmli heykəltəraş, Xalq rəssamı, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovun bu əsərini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Heydər Əliyev mərasimdə geniş nitq söylədi.

Heydər Əliyev: Əziz dostum, qardaşım İhsan Doğramacı!

Hörmətli nazirlər, millət vəkilləri, rektorlar, professorlar, tələbələr!

Xanımlar və cənablar!

---

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz doqquzuncu kitab. B., Azərnəşr, 2012, s.244-254

Mən sizi Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından səmimi-qəlbdən salamlayıram və sizə, sizin simanızda qardaş türk xalqına Azərbaycan xalqının ən dərin sevgisini və məhəbbətini çatdırıram.

Mən üçüncü gündür ki, Türkiyədəyəm və həm beynəlxalq xarakterli, həm də dövlətlərimizə aid olan bir çox məsələlərlə məşğul oluram. Biz dünən Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezərlə və digər ölkələrin prezidentləri ilə Qara Dəniz İşbirliyi Təşkilatının onuncu ildönümünü qeyd etdik və təşkilatımızın qarşısında duran gələcək vəzifələr haqqında danışdıq. Sonra 5 il davamlı olaraq İstanbulda keçirilən «Üç dənizin əfsanəsi» – Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi – konfransında iştirak etdik. Bir neçə ikitərəfli görüşlər keçirdik və axşam Ankaraya gəldim. Bu gün də Ankara proqramının birinci günü, birinci saatıdır. Bu saat da mənim üçün, Azərbaycan xalqı üçün və əmin ola bilərəm ki, bütün türk xalqı üçün, Türkiyə üçün çox əhəmiyyətli olan bir hadisəyə həsr edilmişdir. Bu hadisə də dünyada artıq məşhur olan bizim Bilkənd Universitetindəki bu gözəl görüşdür, gözəl mərasimdir.

Mən Bilkənd Universitetində keçmiş illərdə də olmuşam. Hər dəfə Bilkənd Universitetinə gələrkən, burada görüşlər keçirərkən bu universitetin böyük sürətlə inkişaf etdiyini, genişləndiyini görmüşəm. Bu gün yenə də buraları tanımıram. Tanıyıram, yəni inana bilmirəm ki, belə qısa bir zamanda burada bu qədər böyük işlər görülübdür və Bilkənd Universiteti böyük elm mərkəzi, böyük təhsil mərkəzi olaraq inkişaf edir. Mən görürəm ki, Bilkənd Universitetinin professorları, müəllimləri, tələbələri Türkiyənin çox dəyərli insanları ilə bərabər bu mərasimə toplaşıblar. Ona görə də mən Bilkənd Universitetinə, onun tələbələrinə, müəllimlərinə, burada çalışan bütün insanlara öz hörmət və ehtiramımı bildirirəm. İnanıram ki, Bilkənd Universiteti bundan sonra daha da sürətlə inkişaf edəcəkdir və İhsan Doğramacının burada, bu torpaqda saldığı toxumlar əsrlər boyu böyük çinarlar kimi yüksəlib səmaya qalxacaqlar.

Əziz dostum İhsan Doğramacı haqqında burada gözəl sözlər deyildi. Mən də onun haqqında az sözlər deməmişəm. Ancaq fərq ondadır ki, burada nitq söyləyənlərin hamısı İhsan Doğramacını on illərlə tanıyırlar, onunla bir yerdə çalışıblar, yaxud da ki, təhsil alıblar. Ancaq mən isə İhsan Doğramacı ilə ilk dəfə cəmi on il bundan öncə tanış olmuşam.

Azərbaycan hələ müstəqillik almamışdı. O dövrdə mən Moskvada bütün yüksək vəzifələrdən kənarlaşdırılandan sonra və çox böyük təzyiqlər altında olduğuma görə doğulduğum torpağa – vətənim Naxçıvana getdim. Orada yaşayırdım və oradan ilk dəfə mən Naxçıvan Özəl Cümhuriyyətinin, yəni Muxtar Cümhuriyyətinin rəhbəri kimi, Ankaraya gəldim və ilk dəfə İhsan Doğramacının universitetində – Bilkənddə də

oldum, ilk dəfə onu gördüm. Ancaq o məni elə qarşıladı – Azərbaycanın tarixi haqqında, xalqı haqqında, Naxçıvan haqqında, Azərbaycanın başqa bölgələri haqqında mənimlə elə söhbətlər etdi, elə dərin bilgilər nümayiş etdirdi ki, mən heyran oldum. Bilirsiniz ki, mən də çocuq deyiləm. Bizim yaşımızla İhsan Doğramacının yaşı arasında o qədər böyük fərq yoxdur. Mənim yaşım onunkundan bir qədər azdır. Ancaq ola bilər ki, həyatım onunkundan daha da gərgin olub, daha da qarışıqlı olubdur. Ona görə mən də dünyanı bilirəm, insanları tanıyıram, hər şeyi bilirəm. Azərbaycanda olan insanları tanıyıram. Digər yerlərdə Azərbaycanı tanıyan insanlarla da çox görüşlərim, söhbətlərim olmuşdur. Ancaq İhsan Doğramacının Azərbaycan haqqında bilgiləri məni heyran etdi. Əlbəttə, alimdə bilgi olur, buna görə də alimdir, onun vəzifəsi odur ki, öyrənsin, oxusun, kitablar yazsın. Ancaq məni heyran edən təkcə bu bilgi deyildi, onun qəlbində olan duyğulardı, qəlbində olan sevgi, məhəbbət idi. Özü də təkcə bir Azərbaycana yox, təkcə Azərbaycan xalqına yox, bütün türk dünyasına, bütün türkdilli xalqlara olan sevgi, məhəbbət idi. Mən gördüm ki, hər şeyi nə qədər gözəl bilir və keçmişdə burada nə qədər xidmətlər göstərib və indi də, artıq bizim ölkələrimiz müstəqillik əldə edəndən sonra da göstərmək istəyir.

Mən sizin vaxtınızı bəlkə bir az alıram, amma sizin üçün nə fərqi var, gözəl bir yerdə oturmusunuz. Gedib orada, kafedrada işləməkdənsə, burada oturub söhbət etmək yaxşıdır. Ondan sonra İhsan Doğramacı ilə mənim aramda belə qeyri-adi dostluq yarandı. Güman edirəm, heç onun da iradəsindən, mənim də iradəmdən asılı olmayan, ancaq içimizdən gələn hissiyyatlar göstərdi ki, biz sanki, yüz ildir dostuq, bir-birimizi tanıyırıq.

İhsan Doğramacının çox böyük xüsusiyyətləri var. Məsələn, Azərbaycanda ləhcələr var – Bakı ləhcəsi, Naxçıvan ləhcəsi, Gəncə ləhcəsi, Qarabağ ləhcəsi, başqa yerin ləhcəsi...

Bu ləhcələrin hamısını bilir. Bizim adamların çoxu bunu bilmir. Mən sizə deyim, mən dilçi deyiləm, linqvist deyiləm. Ancaq mən də, hər halda, bilgili adamam. Amma bunları mən də onun qədər bilmirəm.

Bizim dilimiz birdir axı, türk dili, Azərbaycan dili eyni dildir. Yəqin ki, siz məni tam anlayırsınız. Elədirmi? Azərbaycanda biz keçmişdə türk dilini çox sevdiyimizə görə, amma türklərlə bir təmasımız, yəni danışığımız olmadığına görə, insanlar hansısa bir türklə görüşəndə onunla bir neçə kəlmə türk dilində danışmaq istəyirlər. Məsələn, biz «gəlirəm» deyirik, türklər isə «gəliyorum», «gediyorum» deyirlər.

Biz Türkiyə ilə yenidən tanış olanda mən də bir-iki belə kəlmə işlətdim ki, hiss etsinlər, mən türk dilini də bilirəm. O mənə dedi ki, belə deyil,

bunu Naxçıvanda bu cür deyirlər, Bakıda belə deyirlər, Gəncədə belə deyirlər. Anadolu Türkiyəsində belə deyirlər, Türkiyənin doğusunda belə deyirlər, batıda – İstanbulda belə deyirlər. Dedim bəli, doğudakı dil çox aydındır, amma İstanbuldakı ləhcəni siz bir az korlamısınız, o qədər yaxşı deyil.

Mən bir dəfə söhbət edirdim. Dedim ki, məsələn, biz, mənim kimi yaşlı adamlar İhsan Doğramacı ilə, başqa yaşlı adamlarla danışanda bir-birimizi yüz faiz başa düşürük. Türk dilində, Azərbaycan dilində bu sözlər dəyişilməyibdir. Amma türk dilində bir-iki islahatlar keçirilibdir, ona görə də bəzi sözlər dəyişilibdir, daha çox Avropa sözləri götürülübdür. Məsələn, «siyasət» sözü var, onu «politika» etmisiniz. «Siyasət» yaxşı bir sözdür. Nə fərqi var, «siyasət» ərəb sözüdür, «politika» Avropa sözüdür. Bu öz işinizdir. Amma bir dəfə zarafat edəndə dedim ki, bilirsənmi nə üçün belə olubdur? Dedi ki, nə üçün? Dedim, çünki sizdə dil islahatı keçiriləndə islahatınızın qurum genel başqanı erməni olmuşdur – Akop Dilaçar. Onu tanıyırsınızmı? Görürəm tanımırsınız. Amma o tanıyır. Erməni Akop özünü türk kimi qələmə vermək üçün də deyibdir ki, Akop Dilaçar. O, islahat keçiribdir. Bu tarixdən çox danışmaq olar.

İhsan Doğramacını mən çox sevdim. Təkcə mən yox, Azərbaycana dəvət etdim, gəldi, bizim xalqımız, millətimiz onu sevdi. Təsadüfi deyildir ki, İhsan Doğramacının 80 illik yubileyini biz Azərbaycanın böyük bir teatrında – Opera və Balet Teatrı, 1911-ci ildə Bakıda Avropa üslubunda tikilmiş teatrdır – birlikdə, təntənəli şəkildə keçirdik. Mən onu «Şöhrət» ordeni ilə təltif etdim. Sonra, gələcək nədir? Bildirdim ki, 85 illik yubileyinizi Azərbaycanda qeyd edəcəyik, ondan sonra 90 illik yubileyinizi, daha sonra 100 illik yubileyinizi edəcəyik. Özü də yubileyi mən edəcəyəm. 85 illik yubileyini etdik. İndi 87 illiyində də heykəl açırıq, doxsana bir şey qalmayıb ki... Papağını fırladacaqsan, bir də görəcəksən ki, üç il keçdi, İhsan Doğramacının 90-cı ili də gəldi. Mən buna əminəm. Çünki deyə bilərəm ki, mən on il bundan əvvəl gördüyüm İhsan Doğramacı ilə indikinin heç bir fərqi yoxdur. Onun çox gözəl səhhəti var, özünü gözəl saxlayır.

Mən bir neçə kəlmə onun şəxsiyyəti haqqında demək istəyirəm. İhsan Doğramacı, hesab edirəm ki, türk dünyasının ən nadir şəxsiyyətlərindən biridir. Bəlkə də İhsan Doğramacı o qədər də siyasət adamı deyildir. Ancaq elm adamı kimi, insanlara təhsil vermək, məktəblər açmaq, universitet açmaq və xalqı inkişaf etdirmək – bu hər bir siyasətin əsas məqsədidir. Biz, siyasət adamlarının proqramı nədir?

İqtisadiyyatı inkişaf etdirmək ki, insanlar yaxşı yaşasın, bilik, təhsil alsınlar.

Türkiyə Cümhuriyyətinin tarixi bizə çox məlumdur. Bu gün biz Türkiyə Cümhuriyyətinin qurucusu, böyük öndər Mustafa Kamal Atatürkü mütləq dərin minnətdarlıq hissi ilə yad etməliyik. Çünki məlumdur ki, Osmanlı imperatorluğu dağıldığı zaman, ayrı-ayrı ölkələr Türkiyəni hər tərəfdən dağıtmağa çalışan zaman Mustafa Kamal Atatürk kimi bir şəxs meydana çıxdı və türk xalqını fəlakətlərdən xilas etdi. Bu, böyük fəaliyyət idi, böyük xidmət idi. Ancaq təkcə bu olsaydı, bəlkə də az olardı. Ondan sonra cümhuriyyətin qurulmasını, onun inkişaf etməsini təmin etdi. Osmanlı qanun-qaydasından sonra Türkiyədə dünyəvi, demokratik, Avropa tipli dövlət qurmaq – həddən ziyadə çətin bir iş idi. Amma böyük Mustafa Atatürk və onun silahdaşları, ona sadiq olan insanlar, sonra isə onun işinin davamçıları bunun öhdəsindən gəldilər. O vaxt Türkiyədə insanların tam əksəriyyəti savadsız idi. Məktəb, təhsil, bilik lazım idi. Düşünürəm ki, əgər səhv etmirəmsə, İstanbul Universitetindən savayı, Türkiyədə başqa universitet yox idi. Bilmirəm, doğru deyirəm, yoxsa yox? Təkcə İstanbul Universiteti idi, başqa universitet yox idi. Ancaq sonrakı dövr nəyə gətirib çıxardı? İndi Türkiyədə universitetlərin sayı nə qədərdir, bilmirəm. Amma iş onun sayında deyil, ondadır ki, hər bir universitetdə Türkiyə gəncləri, türk millətinin gələcəyi təhsil, bilik alır və ölkənin dünya ölkələri ilə ayaqlaşmasına, yəni, onlarla bərabər inkişaf etməsinə şərait yaratmaq üçün əsas yaranır. Buna görə də İhsan Doğramacının fəaliyyətini qiymətləndirəndə biz onun elm, təhsil, bilik, səhiyyə sahələrində xüsusi xidmətlərini qeyd etməliyik. Onun ictimai fəaliyyətini xüsusi qiymətləndirməliyik.

İhsan Doğramacı Türkiyədə hər yerdə tanınan, hər yerdə sevilən bir insandır. Bunun üçün gərək sənin gözəlliyin, yaxud da ki, başqa bir keyfiyyətin yox, gərək çox keyfiyyətlərin olsun ki, onlara görə xalq səni qəbul etsin. Ola bilər ki, dövlət qəbul etsin, ancaq xalq qəbul etməsin. İhsan Doğramacını xalq türk millətinin, türk dünyasının dəyərli bir insanı, nadir şəxsiyyəti kimi tanıyır, hörmət edir və bundan sonra da ona hörmət edəcəkdir.

Mən Bilkənd Universiteti ilə tanış olanda bir də nəyi gördüm? Universitet yeni yaranmışdı, amma gördüm ki, Azərbaycandan burada nə qədər professorlar, alimlər, sənətçilər var. Mən məəttəl qaldım. Təkcə Azərbaycandan deyil, digər xarici ölkələrdən də gələnlər vardı. Güman edirəm, etiraf edərsiniz ki, Azərbaycanda elm, təhsil çox inkişaf etmişdir. Bizim ali təhsilimiz çox yüksək olmuşdur, çox dəyərli professorlarımız, alimlərimiz var. Onların bir qismini İhsan Doğramacı buraya gətirdi. Onlar burada o qədər gözəl şərait, münasibət gördülər ki, artıq heç Azərbaycana dönmək istəmirdilər. Deyirdilər ki, biz sona qədər elə İhsan

Doğramacı ilə bir yerdə olacağıq. Yəni, o bilirdi, haradan nə götürmək, nə etmək lazımdır ki, Bilkənd Universiteti təkcə Türkiyənin içərisindən yox, beynəlxalq aləmdən, hər ölkədən faydalansın.

Gedirsən bağa, orada gözəl bir meyvə görürsən, dərib götürürsən, keçirsən o biri bağa, orada da çox meyvə var, amma ən gözəlini dərib götürürsən, o birisini dərib götürürsən, sonra görürsən ki, torban doludur, hamısı da gözəl meyvələrdir. İndi İhsan Doğramacının Bilkənd Universiteti də təxminən buna bənzəyir.

Məni bir şey təəccübləndirir. Vaxtilə biz Azərbaycanda böyük şairimiz – o, bütün türk millətinin şairidir – Məhəmməd Füzulinin 500 illik yubileyini keçirməyə hazırlaşırdıq. İhsan Doğramacı dedi ki, bunu Türkiyədə də etmək lazımdır. Dedim edək. Çünki bu bizim müştərək şairimizdir, özü də çox dəyərli şairimizdir. Azərbaycanda biz bunu etdik, ondan sonra İhsan Doğramacı bizi buraya dəvət etdi. Buraya gəldik. 9 ayın içərisində gözəl bir konsert salonu yaratdı. Mən ona baxdım, heyran oldum. Bilirsiniz ki, mən Sovetlər İttifaqında Siyasi Büronun üzvü, o vaxtkı Nazirlər Sovetində – siz buna baş bakanlıq deyirsiniz – sədrin birinci müavini olmuşam, yəni sizin dediyiniz kimi, SSRİ-nin yönəldicilərindən, rəhbərlərindən, 3-4 kişidən biri mən olmuşam. Mən Sovetlər Birliyi kimi ölkədə böyük inşaat işləri görmüşəm. Məsələn, sürətlə bir fabrik, başqa bir bina tikmək lazım olurdu. Ancaq İhsan Doğramacının belə imkanları ilə 9 ayın içərisində, Füzulinin yubileyini keçirmək üçün belə gözəl konsert salonu tikməsi bizi heyran etdi. Biz gəldik buraya, bizim sənətçilər gəldilər. Biz, Türkiyənin dəyərli insanları – 9-cu cümhur başqanı Süleyman Dəmirəl, bakanlar, başqaları. Burada böyük yubiley keçirdik. Çox belə misallar demək olar.

Bir də deyirəm, bir insanda bir çox keyfiyyətlər toplaşıbsa, o, adi insan deyildir. İhsan Doğramacı bir insan kimi, çox gözəl qəlbə malik, çox xeyirxah, adamlara yardım etmək istəyən, xalqını inkişaf etdirmək istəyən bir insandır. Bir alim kimi, böyük alimdir. İctimai xadim kimi, böyük ictimai xadimdir. Dünya miqyasında tanınır, beynəlxalq təşkilatlarda, uluslararası konfranslarda ən gözəl yerlərdə dayanır və ona hamı hörmət edir. Ona görə də mən deyə bilərəm ki, İhsan Doğramacı ilə biz – buraya Türkiyə də daxildir, Azərbaycan da daxildir, güman edirəm ki, türkdilli başqa dövlətlər də daxildir – hamımız daim qürur hissi keçirə bilərik.

İnsanların sağlığında, adətən, onların heykəlləri yaranmır. Düzdür, indi bəzi ölkələrdə cümhur başqanları var, hər küçədə özünə bir heykəl yaradır, bu o qədər də normal hal deyildir. Mən İhsan Doğramacıya dedim ki, Ömər Eldarov çox böyük sənətçidir, heykəltəraşdır. Siz inciməzsiniz, mən sizə deyim ki, Türkiyədə heykəltəraşlıq sənəti çox zəif olubdur. Sizdə

çox az heykəllər var. Bakıya gələrsiniz, hər küçədə bir heykəl var. Amma heykəllər bizim böyük adamlaradır – şairlərə, bəstəkarlara, sənətçilərə. Siyasi xadimlərə, siyasət adamlarına heykəl qoymurlar.

Amma görürsən ki, bir şair 5-6 kitab yazıbdır, onun heykəli var. Bu belədir, nə etmək olar?

İhsan Doğramacı istəmirdi ki, onun sağlığında belə bir heykəl olsun. Mən isə belə düşündüm ki, hər bir qanunda, qaydada istisna da var. İstisna o halda olur ki, o qərarı qəbul etmək üçün əsas olsun. Hesab edirəm ki, burada bu istisna halı var və belə bir qərarın qəbul edilməsi üçün əsas var. Mən şəxsən təcrübəli bir adam kimi və insanların sağlığında onlara heykəl qoyulmasının əleyhinə olan adam kimi, bu halda İhsan Doğramacının özünün yaratdığı Bilkənddə onun sağlığında heykəlinin qoyulmasını tamamilə əsaslı hesab etmişəm. Buna görə də mən bu qərara səs vermişəm və bu gün Ankarada mənim proqramımda birinci tədbir bu heykəlin açılışıdır. Ona görə də mən buraya gəlmişəm və sizin qarşımızda ürəyimdə olan sözləri deyirəm.

Əziz dostum İhsan Doğramacı! Bu gözəl heykəl yaşayacaq, əsrlər boyu yaşayacaq. Güman edirəm ki, sən də hələ çox yaşayacaqsan. Mən də sənin lə bir yerdə çox yaşayacağam. Biz bir-birimizə söz vermişik, gərək sözümüzə sadiq olaq. Ancaq gözəl heykəltəraş Ömər Eldarovun çox gözəl sənəti olan bu heykəl daim türk xalqlarının insanlıq, elm, mədəniyyət rəmzinə çevriləcəkdir. Əsrlər keçəcək, yeni nəsillər gələcək, Bilkənd Universiteti yaşayacaq, burada yeni-yeni insanlar həm çalışacaq, həm də təhsil alacaqlar. Amma hər kəs bu heykəlin yanından keçəndə baş əyəcək və İhsan Doğramacıya minnətdarlığını bildirəcək. Bu sözləri deyəndə mən əlavə edirəm ki, üç ildən sonra Bakıda – Azərbaycanda İhsan Doğramacının 90 illik yubileyini biz təntənə ilə bayram edəcəyik, ondan sonra 100 ilə qədər bir proqram yapacağıq. Mən bu hadisə münasibətilə bütün türk xalqını təbrik edirəm. Bilkənd Universitetinin bütün professor, müəllim və tələbələrini təbrik edirəm. Türkiyənin elm, bilik, təhsil adamlarını təbrik edirəm. Sizi təbrik edirəm və hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Bir də onu demək istəyirəm ki, bizim bugünkü görüşümüz, bu hadisə və burada dayanan bu heykəl Türkiyə və Azərbaycanın, bir millət, iki dövlətin əbədi, sarsılmaz dostluğunun yeni bir abidəsidir. Onun yeni bir rəmzidir. Sağ olun.

QARS ŞƏHƏRİNDƏ QAFQAZ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ[1] NİTQ*

28 iyun 2002-ci il

Azərbaycan prezidenti Heydər Əliyev parkın və bulvarın açılış mərasimindən sonra Qars şəhərindəki Qafqaz Universitetinə gəldi. Universitetin rektoru, professor Necati Qaya, bu ali təhsi ocağının professor-müəllim heyəti, tələbələr Azərbaycan dövlətinin başçısını səmimiyyətlə, mehribanlıqla qarşıladılar.

Burada dövlətimizin başçısı Heydər Əliyevə Qafqaz Universitetinin fəxri doktoru diplomunun təqdim edilməsinə həsr olunmuş mərasim keçirildi.

Mərasimdə universitetin rektoru, professor Necati Qaya, Qars şəhərinin valisi Nevzat Turhan çıxış etdilər. Sonra prezident Heydər Əliyevə universitetin fəxri doktoru diplomu, mantiya təqdim olundu. Azərbaycan prezidenti Heydər Əliyev mərasimdə nitq söylədi.

Heydər Əliyev: Hörmətli cənab rektor!

Hörmətli professorlar, müəllimlər, tələbələr!

Hörmətli xanımlar və cənablar!

Məni Qafqaz Universitetinin fəxri doktoru adına layiq gördüyünüzə, senatın qərarı ilə bu adı verdiyinizə görə və nəhayət, bu dəqiqələrdə fəxri doktorluq diplomunu, bütün sənədlərini və bu əbanı, mantiyanı mənə təqdim etdiyinizə görə sizə səmimi-qəlbdən təşəkkür edirəm.

Burada hava isti olduğuna görə, izin versəniz, mən bunu çıxardaram ki, sonra sizinlə rahat danışa bilim.

Əziz dostlar, insan cəmiyyətində hər bir iş, hər bir sənət qiymətlidir. Ancaq tarix boyu belə olub, indi də belədir və gələcəkdə də belə olacaqdır ki, müəllimlik sənətindən, yəni insanları təhsilləndirmək, sizin sözünüzlə desək, eyniləşdirmək sənətindən uca sənət yoxdur. Bizim Azərbaycanda artıq on illərlə belə bir adət var – insanlar insanlara müraciət

1 Mərasimdə universitetin fəxri doktoru diplomunun təqdim olunması münasibətilə Türkiyə Böyük Millət Məclisinin sədri Ömər İzginin. Baş nazir Bülənd Ecevitin, Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəlin, ölkənin bir çox nazirlərinin, nüfuzlu ali təhsil ocaqları rektorlarının Azərbaycan prezidentinə ünvanladıqları təbrik teleqramları oxundu.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz doqquzuncu kitab. B., Azərnəşr, 2012, s. 305-315

edəndə, hörmət əlaməti olaraq, müəllim deyirlər. Çünki müəllim, həqiqətən də böyük hörmətə layiqdir.

Cürbəcür adlar var. Siz burada çox yaxşı bir kəlmə işlədirsiniz: «sayın».

Deyirsiniz sayın Heydər Əliyev, bununla da işinizi bitirirsiniz. Bizim Azərbaycanda hakimiyyətdə olmuş adamlar bir vaxt icad etdilər ki, onlar bəydirlər. Onlar bir-birilərinə bəy deyirlər. Türkiyədə bəy sözü işlənir. Bu, Türkiyənin qədim dövrlərindən gəlir. Amma bilməlisiniz ki, Azərbaycanda xüsusi titul olubdur. Yəni hər adama bəy deyilə bilməzdi. Gərək o, bəy nəslindən olaydı. Məsələn, Sovetlər İttifaqı qurulmamışdan əvvəl çox məşhur ailələrdən, zadəgan ailələrindən çıxanlara bəy deyirdilər. Onların babası, babasının babası, onun da babası bəy olmuşdur, bəy ailəsindən olmuşdur. Onun böyük mülkü olmuşdur, böyük işləri olmuşdur. Ona görə də o vaxt cəmiyyətdə bəy ən yüksək titul hesab edilirdi. Ancaq indi bu sözü ucuzlaşdırmaq olmaz.

Burada rektor mənim tərcümeyi-halımı söyləyəndə dedi. Mən 1987-ci ildə Moskvada Siyasi Bürodan və hökumət başçılığından uzaqlaşdırıldım. Bunun da səbəbi o idi ki, mən o vaxt orada Qorbaçovun və onun tərəfdarlarının qarşısında, Qarabağ məsələsinin ermənilərin xeyrinə həll olunmasının qarşısında böyük bir qaya kimi durmuşdum. Mənim Siyasi Büroda olmağım ermənilərdə böyük bir dəhşət yaratmışdı. Çünki rus imperatorluğunun tarixində və sovet imperiyasının tarixində Moskvada müsəlman, türk, azərbaycanlı heç vaxt Siyasi Büroda olmamışdı. Tale məni o yüksək vəzifəyə apardı və mən də orada öz xalqımın – Azərbaycan xalqının, təkcə Azərbaycan xalqının yox, müsəlmanların və türk dünyasının mənafeyini imkanım çatan qədər müdafiə etməyə çalışırdım.

Ermənilər heç vaxt qəbul edə bilmirdilər ki, Siyasi Büroda türk var. Amma sovet hakimiyyəti qurulanda orada erməni olmuşdur. Hətta o vaxt mən Siyasi Büroda olarkən, mənim əleyhimə işlər gedəndə Ermənistanın böyük bir şairi yazmışdır ki, nə qədər ki, Siyasi Büroda erməni xalqının düşməni olan türk – Heydər Əliyev oturub, biz Qarabağ məsələsini həll edə bilməyəcəyik.

Buna görə də mən vəzifədən kənarlaşdırıldım. Amma sözüm onda deyil. Bunları sizə söyləməkdə məqsədim budur ki, mən məcbur olub Bakıya gəldim, orada da yaşamaq mümkün olmadı, gəldim Naxçıvana. Amma Naxçıvanda nə gördüm? Qarmaqarışıqlıq, pozulmuş iqtisadiyyat. Sabitlik yox, qanun-qayda yox, sovet hakimiyyəti yıxılıb, amma onun yerinə kim və nə gəlir, məlum deyildi. Küçələrdən çıxmış adamlar, Xalq Cəbhəsinin təşkil etdiyi insanlar orada artıq hakim idilər. Amma çoxusu

da savadsız adamlar idi, yəni hörmətsiz adamlar idi. Onlar bir-birilərinə bəy deyirdilər. Onlar bəy olanda, bəs əsl bəy kim olmalı idi? Amma təkcə bir-birilərinə demirdilər. Məsələn, küçədə gedir, biri orada alma satır, ona deyir ki, Əli bəy, bu almanın kiloqramı neçəyədir? Hər alma satan bəy olmaz axı! Elədirmi? Ümumiyyətlə, inanmıram ki, alma satan bəy olsun. Bəylər alma bağları yaradıblar. O bağları sonra dağıdıblar, bu bağlara xidmət edənlər də məhsulunu aparıb satıblar. Ona görə mən bu «bəy» sözünü qəbul etməmişəm və heç vaxt da qəbul etməyəcəyəm. Mən bəy olmamışam, bəy deyiləm və bəy də olmayacağam. Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksəyi müəllimdir. Ona görə Azərbaycanda biz bunu həmişə belə düşünmüşük. Mən də uzun illər, sovet dönəmində də Azərbaycanın başçısı olduğuma, indi 9 il də müstəqil Azərbaycanın prezidenti olduğuma görə, cəmiyyətimizin hansı təbəqəsinin nə qədər hörmətə malik olduğunu şəxsən belə düşünürəm. Bu gün müəllimlərin, tələbələrin iştirakı ilə sizdən aldığım bu fəxri ad da müəllimlərin mənə verdiyi mükafatdır.

Bilirsiniz, mən dövlətlərdən çox mükafatlar almışam. Həm sovet dövlətindən, həm digər dövlətlərdən mənim çox ordenlərim var. Əgər onların hamısını taxsam, döşümə yerləşməyəcək. Amma müəllimdən alman mükafat, müəllimdən alman qiymət hamısından üstündür.

Üzr istəyirəm, mən Naxçıvanda orta məktəbdə oxumağımı xatırlayıram. Çox yaxşı oxuyurdum – bu sözümə görə məni bağışlayın, özümü tərifləmirəm. Hər halda, bizim sinifdə oxuyanların içərisində hamıdan yaxşı oxuyurdum. O vaxt belə deyildi. İndi görürsən, uşağı məktəbə göndərirlər, onun atası arxasınca gedir, anası gedib baxır ki, uşağı necə oxuyur. Burada da belədir, elədirmi? Hər halda, bizdə belədir. Amma mənim nə atam, nə anam heç vaxt bilməmişdilər ki, məktəbdə hansı dərsi oxuyuram, hansı fəndən nə qiymət alıram.

Ancaq həmişə gecə-gündüz çalışmışam ki, yaxşı oxuyum. Özü də o vaxt Naxçıvanda elektrik işığı yox idi, bunu bilin. Neft lampası var idi. Yəqin ki, keçmişdə burada da olub, sizdə də həmişə elektrik işığı olmayıbdır.

Burada onu görənlər var, yoxsa yox? Biz ona neft lampası, çıraq deyirik. Amma bir var çilçıraq, o, dövlətlilərin çırağıdır. Bir də var ki, adi çıraq, içində bir az neft, başında da şüşə olur və şüşə də tez-tez sınırdı. Pulumuz yox idi ki, gedib ikinci şüşə alaq. Qəzet kağızı ilə şüşəni yamaqlayırdıq ki, ondan istifadə edə bilək. Mən belə oxumuşam. Ancaq mən müəllimlərimə minnətdar olmuşam, müəllimlərimi indiyə qədər xatırlayıram.

Bu günlərdə mən Naxçıvana getmişdim. Orada bir neçə gün keçirdim. Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq

tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını artıq dəyişibdir. Ancaq bir müəllimim yaşayır. Onun yüz yaşı var. Adı da Lətif Hüseynzadədir. O mənə Azərbaycan dili, ana dili dərsi deyirdi. Mən o vaxt bizim indi qəbul etdiyimiz latın əlifbası ilə Azərbaycan dilini, ana dilini öyrənirdim, Azərbaycan ədəbiyyatını öyrənirdim. Mən müəllimimi bu dəfə də gördüm, çox sevindim. O, tarixi də çox bilən adamdır. Xatırlayıram, hələ bir neçə il bundan öncə mən Naxçıvanda onunla görüşəndə mənə ilk dəfə dedi ki, – mən onsuz da bilirdim və bu gün meydanda da dedim – əgər 1918-ci ildə türk ordusu Naxçıvana gəlməsəydi, Kazım Qarabəkir Paşanın ordusu və özü Naxçıvana gəlməsəydi, ermənilər Naxçıvanda azərbaycanlıların çoxunu qıracaqdılar. Bu adam azərbaycanlılara qarşı soyqırımın şahididir, Kazım Qarabəkir Paşanı görmüş adamdır. Çox sevindim ki, müəllimim indi də sağlamdır. Yaxşı söhbət etdik, danışdıq. Mən dörd gün Naxçıvanda oldum, ancaq müəllimimlə görüşüm qədər ləzzət verən, məni sevindirən heç bir şey olmadı. Güman edirəm, hər biriniz bunu deyə bilərsiniz, çünki hər biriniz məktəbdə oxumusunuz, müəlliminiz olubdur. Bu sizin üçün yeni bir şey deyildir. Ancaq mən öz həyatımdan danışıram.

Bir halda ki, siz məni fəxri doktor etmisiniz, bunları sizə deyərək, bir daha sizə – Qars Qafqaz Universitetinin müəllimlərinə, professorlarına, burada gənc nəslin təhsil alması və inkişaf etməsi üçün xidmət göstərən insanların hamısına hörmət və ehtiramımı bildirirəm.

Qafqaz Universitetinin yaranması çox böyük hadisədir. On il bundan öncə burada universitet yox idi. Mən ilk dəfə 1992-ci ilin fevral ayında Naxçıvandan Ankaraya gedərkən burada Qarsda olmuşam. Sonra, 1993-cü ildə əziz dostum Süleyman Dəmirəllə bir dəfə də Qarsda olmuşam. Qarsın çoxlu problemləri vardı. İşsizlər vardı, sənaye az idi. Qarsda bu gün gördüyüm görünüş yox idi. Universitet də yox idi. Türkiyənin 9-cu cümhur başqanı, əziz dostum Süleyman Dəmirəl çox müdrik bir insandır. Xalqını sevən, xalqına sədaqətli insandır. Türk xalqının qarşısında onun böyük xidmətləri var, güman edirəm ki, bunları saymaqla qurtarmaq olmaz. Amma onun xidmətlərinin içərisində biri də odur ki, məhz burada, Qarsda Qafqaz Universitetinin yaranması haqqında qərar çıxarılmasının təşəbbüskarı olubdur.

Universitet yaranıb və on ildə bu qədər inkişaf edibdir. Mən sizin universitet şəhərciyinə baxdım, on il içərisində bu qədər binalar tikmisiniz, özünüz üçün belə gözəl şərait yaratmısınız. Sizin universitet indi, bəlkə də, başqa ölkələrdə 50 il tarixi olan universitetlərdən də üstün səviyyədədir. Amma Qafqaz Universitetinin Qarsda yaranmasının həm də böyük siyasi əhəmiyyəti var. Mən bilirəm ki, Türkiyənin bu doğu böl-

gəsindən – biz şərq deyirik, siz doğu deyirsiniz – insanlar daha çox Türkiyənin batı bölgəsinə gedirlər. Çünki orada yaşayış şəraiti yaxşıdır, pul qazanmaq buradan asandır, burada yaşayış çətindir. Təkcə burada deyil, ümumiyyətlə, bu bölgədə belədir. Vaxtilə belə olubdur ki, Türkiyə Cümhuriyyətinin doğu bölgəsi o qədər inkişaf etməyibdir. Ona görə də burada – Qarsda Qafqaz Universitetinin yaranması ilə bu bölgədə olan gənclərin daha İstanbula, İzmirə, yaxud başqa şəhərlərə gedib təhsil almasına ehtiyac qalmır. Onlar burada, yaşadıqları bölgədə universitet təhsili alır və bəlkə də, çoxu elə burada yaşayacaqdır.

Bilirsiniz ki, Qars xüsusi, tarixi bir şəhərdir. Mən bu gün parkın açılışında bu barədə çox danışdım, təkrar etmək istəmirəm. Məsələn, dünyada çox şəhərlər var ki, onların adlarını heç kəs tanımır. Amma Qarsı keçmiş Sovetlər Birliyi məkanında, demək olar ki, hamı tanıyır. Tək orada yox, bəlkə də bütün Şərq aləmində Qars tanınır. Nə üçün tanınır? Çünki Qars keçmiş müharibələrdə də, 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində, Birinci dünya müharibəsi qurtarandan sonrakı müharibədə də alovun-odun içində olubdur. Qars qaladır, yenilməz qaladır. Hamı Qarsı belə tanıyır.

Azərbaycanda Qars haqqında çox yüksək fikirlər var və bizim tarixçilərimiz, alimlərimiz Qars haqqında çox gözəl şeylər yazıblar. Bizim böyük yazıçılarımız, şairlərimiz, o cümlədən Azərbaycanın ən böyük şəxsiyyətlərindən biri Cəlil Məmmədquluzadə də vaxtilə bir müddət Qarsda yaşayıbdır. Qars 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra rusların əlinə keçəndə türkləri buradan çıxarıb erməniləri, yunanları buraya gətirib dolduraraq, əhalinin tərkibini dəyişdirməyə çalışırdılar. O vaxt rus imperatorluğu bu bölgədə rus dilini bilən adamlardan da istifadə etmək istəyirdi.

Bir tarixi anı da yadınıza salmaq istəyirəm ki, o vaxt çox böyük bir alim, Sankt-Peterburqda, Londonda təhsil almış bir insan, azərbaycanlı İsasultan Şahtaxtlı burada – doğrudur, rus imperatorluğunun idarəsində – çalışıbdır. Ancaq o – bu, tarix kitablarında var – burada öz qardaşlarına, öz millətinə, öz türk xalqına xidmət etməyə çalışıbmış. Yəni belə tarixi anlar çoxdur. Azərbaycan üçün Qars çox cəzbedici bir yer olmuşdur.

Böyük öndər Mustafa Kamal Atatürkün başçılığı ilə aparılan qurtuluş savaşının bir hissəsi olaraq Qars tamamilə azad edildikdən sonra Qars türk diyarı kimi bərpa olunmuş, türklər öz yerlərində yerləşmişlər. Düşünürəm və inanıram ki, bu torpaq, qədim əsrlərdən, min illərdən də çox türklərə məxsus olan bu yer bundan sonra daim türk torpağı olacaqdır.

Bunlara görə Qarsda Qafqaz Universitetinin açılmasının böyük siyasi əhəmiyyəti var.

On ildə siz çox iş görmüsünüz. Sizin gördüyünüz işləri mən yüksək qiymətləndirirəm. Azərbaycanın universitetləri ilə də əlaqələrimiz yaxşıdır. Naxçıvan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, Gəncə Dövlət Universiteti ilə əlaqələriniz – mən burada filmlərdən də gördüyüm – yaxşıdır. Amma bundan da yaxşı olmalıdır.

Biz daim bir-birimizlə əlaqədə olmalıyıq, bir-birimizlə təcrübə mübadiləsi aparmalıyıq, bir-birimizə yardım etməliyik. Burada sizin üçün yaxın yer Naxçıvan Muxtar Respublikasıdır. Mən demirəm ki, təkcə Naxçıvan Dövlət Universiteti ilə əlaqə saxlayın. Amma sizin Azərbaycana yaxın yolunuz Naxçıvandır.

Mən təkliflər eşitdim ki, Qarsda Azərbaycanın konsulluğu açılsın. Bunu mən Türkiyənin cümhur başqanı, hörmətli Əhməd Necdət Sezərlə müzakirə etdim, razılaşdıq və güman edirəm ki, biz diplomatik yollarla bu məsələni həll edəcəyik və burada Azərbaycanın konsulluğu olacaqdır. Mən Bakıya gələn kimi, hava yolunun açılması məsələsini də araşdıracağam, baxacağam, nə mümkündürsə edəcəyik ki, hava yolu açılsın. Bu, bölgə üçün də lazımdır, Azərbaycan üçün də lazımdır. Bunu mütləq edəcəyik. Əgər gələcəkdə başqa məsələlər də olsa, onları da həll edəcəyik.

Bəzən bu məsələlərin həll olunması bürokratik – bu sizdə də var – «bürokrasi» deyirsiniz – adamların əlində ləngiyir. Ancaq bizim də borcumuzdur ki, bürokratik əngəlləri aradan qaldıraq və məsələləri həll edək. Mən sizə söz verirəm ki, həll edəcəyik.

Burada – Qarsda olarkən bir tarixi hadisəni də xatırlamaq istəyirəm. 1920-ci ildə Qarsın qurtuluş savaşı oldu. Ancaq anlaşmalar lazım idi ki, torpaqlar, sərhədlər müəyyənləşdirilsin. O vaxt, 1921-ci ilin mart ayında Moskvada Türkiyə ilə Rusiya arasında bu bölgə haqqında Moskva anlaşması imzalanıbdır. Onun çox böyük əhəmiyyəti vardı. Orada sərhədlər müəyyən edilib. Türkiyənin indiki sərhədlərini müəyyən etdi – Rusiya bu anlaşmanı Türkiyə ilə imzalayıb, bu torpaqlara əvvəllər onlar iddia etmişdilər, əllərinə keçirmişdilər – deməli, bu məsələ çözüldü. Amma bir başqa məsələ də, Naxçıvan haqqında məsələ də çözüldü. Çünki Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Azərbaycan xalqının ən qədim tarixi, memarlıq abidələri Naxçıvandadır.

Naxçıvana gedənlər orada Mömünə xatın məqbərəsini görüblər. 800 il bundan öncə Atabəylər hökmdarlarından Cahan Pəhləvan həmin məqbərəni tikdiribdir.

Onun yaradıcısı məşhur Azərbaycan memarı, bütün Şərq aləmində, müsəlman aləmində məşhur olan Əcəmi Əbubəkr oğlu Naxçıvani idi. Amma təkcə bu deyil, orta əsrlərdə, ondan sonra da bir çox abidələr

yaranıbdır. Naxçıvan bir vaxt Azərbaycan Atabəylər dövlətinin paytaxtı olubdur.

Ancaq ermənilər bu torpaqlara iddia etdikləri kimi, Naxçıvana da iddia ediblər. Ona görə də 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində Naxçıvanın Azərbaycanın tərkibində olmasının təsdiq edilməsi böyük hadisədir. Bu müqavilədə Türkiyənin imzası var, Rusiyanın imzası var.

Amma ondan sonrakı bir hadisə də var. Bu məsələlərin tamamilə çözülməsi üçün 1921-ci ilin oktyabrında yeni bir müqavilə imzalanıbdır. Bu, Qarsda imzalanıbdır. Buna Qars anlaşması deyirlər. Bu anlaşmanı imzalayanlar Türkiyə, Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiyadır. Bu anlaşma ilə sərhədlər bir daha təsdiq olunubdur və yenə də Naxçıvan haqqında orada xüsusi müddəalar var: Naxçıvan Azərbaycanındır. Və Naxçıvanın statusunda heç bir dəyişiklik ola bilməz. Yəni, Naxçıvan özəl cümhuriyyətdir, o, başqa bir dövlətə verilə bilməz. Bu barədə Türkiyənin söz sahibliyi var. Ona görə də Türkiyə Naxçıvan üçün qarant rolu oynayıbdır. Çünki bilirsiniz ki, Naxçıvan vaxtilə, 1920-ci ildə sərhədlər bölünərkən Ermənistana verilmiş Azərbaycan torpağı vasitəsilə Azərbaycanın əsas ərazisindən ayrılıbdır. Bu indi bizə çox böyük problemlər yaradıbdır.

Mən buraya gələndə soruşdum ki, Qarsda anlaşma harada imzalanıbdır. O binanı mənə göstərdilər. Biz Türkiyə hökuməti ilə danışacağıq, orada bir lövhə asılmalıdır ki, 1921-ci ilin oktyabr ayında burada, Qarsda belə bir anlaşma imzalanıbdır. Bu, mütləq olmalıdır. Çünki Qars anlaşmasının bu bölgə üçün, Azərbaycan və Türkiyə üçün çox böyük əhəmiyyəti var.

Bunları deyərkən yenə də sözə qayıdıram ki, Qarsda Qafqaz Universitetinin yaranması həm də siyasi xarakter daşıyır.

Biz bu gün dostluq və qardaşlıqdan çox danışdıq. Nitqimi sona çatdıraraq onu demək istəyirəm ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı yaşayır və yaşayacaqdır. Mən beşinci gündür ki, Türkiyədəyəm. Xarici səfərlərə gedəndə mən bu qədər uzun müddət heç bir ölkədə olmuram. Amma Türkiyəyə gələndə ondan ayrılıb Azərbaycana qayıda bilmirəm.

Biz bu on ildə, Azərbaycanın müstəqilliyi dövründə Türkiyə-Azərbaycan dostluğunu yüksəklərə qaldırmışıq. Amma bu belə işdir ki, biz heç vaxt rahat olmamalıyıq, heç vaxt arxayın olmamalıyıq. Çünki bunu istəməyənlər var. İçəridə də – Azərbaycanda da, Türkiyədə də bəzi adamlar istəmir. Amma başqa dövlətlər də buna çox paxıllıqla, qısqanclıqla, bəzən də düşmənçiliklə baxırlar. Ona görə də bizim bu dostluğumuz, qardaşlığımız qorunmalıdır. Onun qorunması üçün də inkişaf

etməlidir, daim inkişafda olmalıdır, dayanmamalıdır. Əmin olun ki, Azərbaycan xalqı bu hisslərlə yaşayır, Azərbaycan prezidenti Heydər Əliyev indiyə qədər bu yolla gedib və bundan sonra da gedəcəkdir.

Yaşasın Türkiyə Cümhuriyyəti, Atatürk Türkiyə Cümhuriyyəti!

Türkiyə-Azərbaycan dostluğuna, qardaşlığına eşq olsun!

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNİN YARADILMASINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ*

Naxçıvan MP-nin Ali Məclisinin iclas salonu

12 avqust 2002-ci il

Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

Siz bilirsiniz ki, avqust ayının 7-də mən Azərbaycan Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılması haqqında sərəncam imzalamışam. Bu sərəncamda da bu bölmənin qarşısında duran vəzifələr haqqında qısa fikirlərimi bildirmişəm.

Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur.

Azərbaycan elə bir ölkədir ki, onun çox qədim tarixi var. Bizim tarixçilər XX əsrdə çox işlər görüblər. Ancaq mən cəsarətlə deyə bilərəm ki, hələ ki, Azərbaycanın, xalqın, ümumiyyətlə, bu torpağın, ölkənin tarixi lazımi səviyyədə öyrənilməyib, tədqiq olunmayıbdır. Bu sahədə çox böyük işlər görülməlidir. Bununla onu demək istəyirəm ki, Azərbaycan nadir bir ölkədir, nadir bir ərazidir, bəşər tarixində Azərbaycan bir ərazi kimi, bir ölkə kimi və Azərbaycan xalqı bir xalq kimi, böyük tarixi proseslərin iştirakçısı olubdur. Biz indi, müstəqil Azərbaycanda özümüz ölkəmizin, torpağımızın sahibi olduğumuz halda gərək bu qədim, çox zəngin tariximizi araşdırıb meydana çıxaraq və bu gün də, gələcəkdə də

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırxıncı kitab. B., Azərnəşr, 2012, s. 240-255

xalqımızın o dərin köklərini ümumi, bəlkə də bəzən çox gözəl ifadələrlə bəzənmiş sözlərlə yox, elmi sübutlarla, elmi əsaslarla həm öz xalqımıza çatdıraq, həm də dünyaya göstərək ki, Azərbaycan xalqının kökü haradandır, tarixi nədir və Azərbaycan bir ölkə kimi, bəşər tarixində hansı yeri tutur. Mən açıq deyə bilərəm ki, görkəmli yer tutur. Ancaq biz bunu indiyə qədər göstərə bilməmişik.

Azərbaycan haqqında fikirlərimi sizə çatdıraraq demək istəyirəm ki, bu baxımdan Naxçıvan xüsusi yer tutur. Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür. Bunları nəzərə alaraq, mən bu sərəncamı vermişəm.

Bir məsələ də nəzərə alınmalıdır ki, Naxçıvan Azərbaycanın tərkibində Muxtar Respublikadır. Təəssüflər olsun ki, vaxtilə, Sovet İttifaqı yarananda, müttəfiq respublikalar yarananda, onların arasında sərhədlər qoyulanda Azərbaycan torpaqlarının bir qismi Ermənistana verilibdir və bunun nəticəsində də Naxçıvan Muxtar Respublikası ərazicə Azərbaycanın əsas torpağından aralı düşübdür. Bunların hamısı Naxçıvanın çox ətraflı öyrənilməsini tələb edir.

Mən burada tarix haqqında çox danışıram. Tarix, mədəniyyət, tarixi abidələr, memarlıq abidələri... Məsələn, Naxçıvanın ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri var.

Azərbaycanın bir çox bölgələrində bunlara rast gəlmək olmur. Amma burada var. Onlar yüz illərlə durub, yaşayıbdır. Baxmayaraq ki, onlara yüz illərlə heç qayğı da göstərilməyibdir, hətta müxtəlif proseslər zamanı, bəzən müharibələrlə, yaxud da ki, başqa hadisələrlə əlaqədar onların uçurdulması, dağıdılması halları olubdur. Amma buna baxmayaraq, bu tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm də mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir. Mən indi desəm ki, Mömünə xatın türbəsi haqqında geniş təsvirli, müasir poliqrafiya səviyyəsində hazırlanmış albom, onun haqqında tarixi mənbələr və başqa şeylər toplusu varmı? Hesab edirəm ki, yoxdur, mən görməmişəm. Əgər olsaydı, mən görərdim. Ayrı-ayrı bukletlər var, broşürlər var. Ancaq elə bircə bu abidə böyük bir kitaba bərabərdir. Yəqin ki, kitab da bunun yanında heç bir şeydir. Amma o, kitabda əks etdirilməyibdir. Onun həm memarlıq xüsusiyyətləri, həm mühəndis işləri, inşaat işləri, tikinti materialları, abidənin yaranması tarixi və sair. Onun hər bir fraqmenti müasir poliqrafiya üsulundan istifadə

edilərək albomda əks olunsa, onun özü elə Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu göstərəcəkdir. Amma Naxçıvanda olan təkcə Mömünə xatın abidəsi deyil, nə qədər bu cür abidələr var. Nə qədər təbii abidələr var.

Mən keçən il, bu il çox ciddi göstərişlərlə nail olmağa çalışıram ki, Gəmiqaya obyektində lazımi ekspedisiya işləri aparılsın. Keçən il mən bunu gec bildim. Sərəncam verdim. Bizim arxeoloqlar gəldilər-getdilər, orada bir az iş gördülər. Artıq mövsüm qurtardı, iş görmək mümkün deyildi.

Bu il əvvəldən xəbərdarlıq etmişəm. Bilmirəm, indi orada işlər gedir, ya getmir, aparılır, ya aparılmır. Amma bu elə bir abidədir ki, gedib iki-üç gün onun yanında oturmaqla, yaxud çadır qurub yatmaqla onu heç kim öyrənə bilməz. Hər il ekspedisiya mövsümündə orada aylarla tədqiqat aparmaq lazımdır. Aylarla... Çünki orada payızın ilk vaxtlarından soyuqlar düşür, şaxta, qap olur. Oraya getmək mümkün deyildir. Bunun üçün ancaq yay fəslindən istifadə etmək lazımdır.

Bu, bildiyiniz kimi, həm təbiətin böyük bir abidəsidir, eyni zamanda, insan yaradıcılığının abidəsidir. Bu abidə Azərbaycanındır. Azərbaycanın tarixini əks etdirən abidədir. Amma onu öyrənməkdə biz passivik. Çox passivik. Keçmişdə, sovet dövründə passiv olmusunuz, bunları bağışlayıram. Müstəqilliyimiz haqqında hamı böyük iftixar hissi ilə danışır. Lakin deməkdən savayı, kim nə edir? Müstəqillik haqqında şüar demək, yaxud onun haqqında yaxşı bir şeir oxumaq – bu hələ müstəqilliyi möhkəmləndirmək demək deyildir. Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib əsərlər, illüstrativ materiallar, kino-telelentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır. Ancaq Naxçıvan bölməsinin fəaliyyəti təkcə bunlarla məhdudlaşmayacaqdır.

Azərbaycanın təbii sərvətləri – həm yeraltı, həm də yerüstü sərvətləri çox zəngindir. Mən indi bu barədə xırdalıqlara varmaq istəmirəm. Bunların hamısı məni məcbur etdi ki, nəhayət, qərar qəbul etdim, sərəncam verdim. Mən 300 nəfər ştat ayırmağa hazıram. Bu barədə də artıq sərəncam vermişəm. Bu işi təşkil etmək lazımdır. Amma belə böyük bir işi təşkil etmək üçün onun səviyyəsinə qalxmaq lazımdır. Mən çox narahatam ki, ola bilər, ştat da verək, bölmə də yaradaq, başqa işləri də görək, amma bütün işlər köhnə qayda ilə getsin. Köhnə qayda ilə gedəndə də – necə ki, on illərlə həmin qayda ilə gedib, lazımi nəticə əldə etməmişik – sabah da nəticə olmayacaqdır. Mən bununla razılaşa bilmərəm.

Desək ki, Naxçıvanda bu barədə lazımi tədbirlər görülməyib, bu, düzgün olmaz. Çünki vaxtilə, Azərbaycanda ilk dəfə, 1945-ci ildə Elmlər

Akademiyası təşkil ediləndə onun bir neçə bölgədə şöbələri, yaxud təşkilatları yaradılmışdı. Bildiyimə görə, ilk dəfə Akademiyanın Naxçıvan şöbəsinə bizim hörmətli, qocaman müəllimimiz Lətif Hüseynzadə başçılıq etmişdir. Elədirmi, Lətif müəllim? Bəli, o, başçılıq etmişdir. Görün həmin dövrdən nə qədər vaxt keçib, 55 il, ondan da çox vaxt keçibdir. Ondan sonra müxtəlif yerlərdə elmi mərkəzlər, orada-burada xüsusi konstruktor büroları yaradılıbdır. Hərə guya bir iş görmək istəyibdir. Amma bu işlər çox pərakəndə vəziyyətdə gedibdir. Belə bir şəraitdə, ola bilər ki, bunu indiki kimi, bir tərəfdən, anlamayıblar, ikinci tərəfdən də, imkan da olmayıbdır.

Xatirimdədir, mən Moskvada işləyəndə «Şərq qapısı» qəzetində Gəmiqaya haqqında məqalə çıxmışdı. Onu böyük bir problemə çevirdilər. Ermənilər qalxdılar ki, burada – Azərbaycanda millətçilik var. Xatirimdədir, bir dəfə biz – Siyasi Büronun üzvləri Moskvada Böyük Teatrda mövsümün açılışına getmişdik. Qorbaçov idi, Siyasi Büronun başqa üzvləri idi, mən idim, tənəffüs zamanı oturmuşduq, çay içirdik. Qorbaçov məndən soruşdu ki, Azərbaycanda millətçilik çoxdur, yoxsa azdır? Mən dedim ki, ümumiyyətlə, millətçilik müttəfiq respublikalarda var, Azərbaycan ən beynəlmiləl bir respublikadır və orada millətçilik başqa respublikalara nisbətən çox azdır.

Onda bizim yanımızda oturan Siyasi Büronun üzvlərindən biri qayıtdı ki, «yox, Heydər Əliyeviç, yəqin ki, Siz düz demirsiniz. Bax, görürsünüzmü, Naxçıvanda «Şərq qapısı» qəzetində məqalə dərc ediblər, millətçilik haqqında, filan haqqında...». Mən dedim ki, nə məqalədir? Düzü, mənim bundan heç xəbərim yox idi ki, nə məqalədir, nədir. Bunu şişirdərək elə bir vəziyyətə gətirib çıxarmışdılar ki, SSRİ-nin rəhbərliyi, Siyasi Büro səviyyəsində söhbət gedirdi. Mən dedim ki, bilmirəm. Sonra maraqlandım, həqiqətən, belə şey olmuşdur. Moskvadan buna çox ciddi reaksiya vermişdilər. Azərbaycan Kommunist Partiyasının rəhbərliyi – mən burada olanda eşitmişdim, bəlkə bu fikirlərim dəqiq olmasın – Naxçıvan Vilayət Partiya Komitəsinə göstəriş vermişdi ki, bu məsələ araşdırılsın. Həmin məsələ burada müzakirə olunmuşdu – Naxçıvanda keçmiş vaxtlardan işləyən işçilər var, yəqin ki, onlar bilirlər – kimlərisə cəzalandırmışdılar. Vasif, elədirmi yoxsa yox?

Vasif Talıbov: «Şərq qapısı» qəzetinin redaktorunu işdən çıxarmışdılar. Əvvəllər o qəzet «Sovet Naxçıvanı» adlanırdı. Redaktorun müavininə töhmət vermişdilər. Ondan sonra bu məsələ Mərkəzi Komitənin plenumunda da müzakirə olunmuşdu.

Heydər Əliyev: Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda?

Vasif Talıbov: Bəli.

Heydər Əliyev: Görürsünüzmü? Nə üçün? Çünki ermənilər deyirmişlər ki, bu abidə Azərbaycanın deyil, ermənilərindir. Amma həqiqətən də bu, Azərbaycanındır. Həmin abidənin Azərbaycana məxsus olması barədə bir söz deyəndə, görürsünüzmü, söhbət hansı səviyyəyə gedib çatmışdı və buna necə reaksiya verilmişdi. Mən onda dəhşətə gəldim, inanmırdım ki, belə şey var. Sonra, 1990-cı ildə mən buraya – Naxçıvana gəldim, burada yaşayarkən bununla maraqlandım. Bunları, Vasif Talıbovun dediklərini mənə çatdırdılar. Bu fakt nəyi göstərir? O tərəfin bu barədə çox təşəbbüskarlığını, gözüaçıqlığını, onlara mənsub olmayan şeyləri özlərinə çıxmaq, əllərinə keçirmək cəhdini, amma bizim tərəfin passivliyini və biri kiçik bir iş görəndə onun başından vurmasını. İndi mən fikirləşirəm, məgər o vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bunu araşdırıb Moskvaya, Mərkəzi Komitəyə bildirə bilməzdimi ki, burada bir şey yoxdur? Amma yox, canlarını qurtarmaq üçün deyiblər ki, müzakirə edin, yəni özümüz boynumuza alaq ki, bəli, burada biz millətçiliyə yol vermişik və beləliklə də, özümüzü göstərək ki, biz millətçi deyilik.

Mən bunu ona görə xatırlayıram ki, o vaxt bir tərəfdən, şərait münasib olmayıbdır, bir tərəfdən də, yenə də deyirəm, bizim insanlarda çox passivlik olubdur. Amma mən istəyirəm ki, daha bu passivlik olmasın. İndi heç kəs, heç nədən qorxmasın. Belə şeylərdən ötrü heç kəsi cəzalandırmaq mümkün deyildir. Heç kəs müstəqil Azərbaycanın işinə qarışa bilməz. Mən də Azərbaycan prezidenti kimi, sizə və bütün əhalimizə, bütün alimlərimizə, ziyalılarımıza bildirmək istəyirəm ki, Azərbaycanın, onun xalqının tarixini, mədəniyyətini, keçmişini dürüst, əsaslı şəkildə sübut edən hər bir əsər bəyəniləcəkdir. Bu barədə heç kəsə nə millətçi damğası vurulacaq, nə də kimsə günahlandırılacaqdır. Bununla bir daha bildirmək istəyirəm ki, indi, müstəqil dövlət şəraitində bizim alimlərimizin böyük imkanları var. Amma alimlərimiz gərək keçmiş sovet sistemində çalışdıqları iş üslubundan uzaqlaşsınlar.

Gərək o passivlikdən əl çəksinlər, bəziləri gərək «yuxudan ayılsınlar». Çünki əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənliyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir? Bax, bütün bu səbəblərdən mən Naxçıvan Muxtar Respublikasında Elmlər Akademiyasının bölməsinin yaradılması haqqında qərar qəbul etmişəm. Qərarı qəbul edəndən sonra özüm buraya gəlmişəm. İstəyirəm ki, bu qərarın həyata keçirilməsinin təşkilatı işində, onun başlanğıcında özüm iştirak edim və fikirlərimi bildirim. Çünki bəzən mən

çox vacib sərəncamlar verirəm, ancaq təəssüflər olsun ki, icraçılar o sərəncam ruhunun səviyyəsinə qalxa bilmirlər. Onun hərfi mənasını da düzgün anlaya bilmirlər. Görürsən ki, gözəl sərəncam, gözəl təşəbbüs bir müddətdən sonra batmağa məruz qalır. Bunun üçün də mən özüm, görürsünüz, buradayam, sizinlə birlikdəyəm və bu işin başlanğıcını sizinlə birlikdə müzakirə etmək istəyirəm.[1]

YEKUN NİTQİ

Hesab edirəm ki, Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimovun məlumatı, məruzəsi avqustun 7-də mənim verdiyim sərəncamın həyata keçirilməsi üçün görülən işlərin əsası kimi qəbul oluna bilər. Buna görə də mən Milli Elmlər Akademiyasına, onun prezidentinə, mənim aparatımın humanitar şöbəsinə və onun müdiri Abdullazadəyə tapşırıram ki, indi ilkin hazırlanmış layihə əsasında Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin həm strukturu, həm də yaranacaq institutların özünün struktur və vəzifələrinin hamısı müəyyən edilsin. Bunların hamısı Milli Elmlər Akademiyasının özü tərəfindən təşkil olunacaqdır.

Ancaq mən istərdim ki, onlar bunu müzakirə edib qəbul etməzdən öncə mən də buna baxım, tanış olum və öz fikirlərimi bildirim. Bunu tezliklə etmək lazımdır, gecikdirmək olmaz və işə başlamaq lazımdır.

Burada bildirildi ki, Naxçıvan Muxtar Respublikasında müxtəlif elmi mərkəzlər – həm Milli Akademiya ilə, həm başqa təşkilatlarla bağlı – fəaliyyət göstərir. Mahmud Kərimov dedi ki, orada təxminən 200-ə yaxın adam çalışır, belədirmi? Sən məruzəndə belə bir şey dedin.

Mahmud Kərimov: Bəli, 200-ə yaxın adam çalışır.

---

* Müşavirədə MR-in rəhbər işçiləri, Ali Məclisin deputatları, MEA-mn nümayəndə heyəti, tanınmış alimlər, ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Akademik Mahmud Kərimov MEA-nın Naxçıvan bölməsinin yaradılması ilə əlaqədar hazırlanmış təkliflər barədə ətraflı məlumat verdi.

Prezidentin fəxri təqaüdçüsü əməkdar müəllim, filologiya elmləri namizədi Lətif Hüseynzadə, Naxçıvan Dövlət Universitetinin rektoru, MEA-nın müxbir üzvü İsa Həbibbəyli, coğrafiya elmləri doktoru, professor, Naxçıvan Şəhər Ağsaqqallar Şurasının sədri Səfərəli Babayev, Naxçıvan Dövlət Universitetinin prorektoru, professor İsmayıl Hacıyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Vəli Əliyev, MEA-nın müxbir üzvü Məşədixanım Nemətova müşavirədə çıxış edərək, Azərbaycan elminin inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər.

Heydər Əliyev: 200-ə yaxın adam... Bu rəqəmi mən indi burada eşidərkən belə düşündüm, siz hesab etməyin ki, 200-ə yaxın işçi var və 100 də mən əlavə edəcəyəm, cəmisi 300 olacaqdır. Yeni institutlar ki, yaranacaq, onların yaranmasında buradakı ayrı-ayrı elmi mərkəzlərdir, təşkilatlardır, onlardan istifadə olunmalıdır. Onların say tərkibi ixtisar olunmayacaqdır. Onlar da yeni yaranan institutlara qatılacaqdır. Ona görə də siz indi hesablayın, sonra mənə deyərsiniz. Belə halda, ümumiyyətlə, əgər doğrudan da 200 nəfərin hamısı yararlı olsa, yəni insanlar yox, o ştatlar, təşkilatlar yararlı olsalar, onlar da indi yeni yaranan institutların tərkibinə daxil olsalar, onda burada Milli Elmlər Akademiyasının bölməsinin təxminən 500-ə qədər ştatı olacaqdır. Deməli, 500-ə qədər adam burada elmi-tədqiqat işi ilə və bizim bu indi qoyduğumuz müxtəlif vəzifələrin həyata keçirilməsi ilə məşğul olacaqdır. Ona görə də mən istədim ki, siz məsələni düz başa düşəsiniz və bu istiqamətdə düz hərəkət edəsiniz. Bunların hamısı toplanıb mənə bildirilməlidir. Güman edirəm ki, bu elmi mərkəzlər, müxtəlif təşkilatlar da yaradılacaq müvafiq institutların tərkibinə daxil olacaqdır. Onlar ya indiyə qədərki strukturları ilə daxil olacaqdır, yaxud da ki, müəyyən dəyişikliklər ediləcəkdir. Buna da baxmaq lazımdır. Bunların hamısı asan məsələ deyildir. Çünki burada illərlə müəyyən bir mərkəz fəaliyyət göstərir. Onun özünün indiyə qədər istiqaməti var. İndi gərək o, institutda öz yerini tapsın. Yerini də mövcud strukturla tapmır, institutun strukturu yaranır.

O mərkəzin üzərinə düşən vəzifələr institutun tərkibində olan müəyyən bölmələrə bölünür və beləliklə, onun içində əriyir. Yəni artıq burada paralel başqa elmi mərkəzlər olmamalıdır. Bunlar hamısı birləşməlidir və Milli Elmlər Akademiyasının bölməsi kimi fəaliyyət göstərməlidir. Bu çox da asan məsələ deyildir. Ona görə mən bir daha təkrar edirəm. Akademiyanın prezidenti Mahmud Kərimova və aparatımın şöbə müdiri Fatma Abdullazadəyə tapşırıram ki, bununla çox ciddi məşğul olasınız və mənə tezliklə təkliflərinizi təqdim edəsiniz.

Akademiyanın prezidenti belə fikir söylədi ki, burada işləyən adamların maaşı Bakıda olan institutlardakıların maaşından artıq olsun. Sən dedin, iki dəfə artıq, buna baxaram. Mən də düşünürəm ki, burada maaşlar artıq olmalıdır. İndi iki dəfə, ya nə qədər, ona baxaram. Hər halda, burada artıq olmalıdır. Bizim alimlərin hamısı Bakıda oturmağa öyrəniblər. Ona görə oradan qopub buraya gəlmək üçün, təbii ki, maddi stimul da olmalıdır. Biz bunu da təmin edəcəyik.

Ancaq bu institutların kadrlarının komplektləşdirilməsində birinci növbədə yerli kadrlardan istifadə etməlisiniz. Eyni zamanda, attestasiya da keçirməlisiniz. Baxın görün, yerli kadrlardan bəziləri ola bilər. Uzun

illər hansısa bir xırda təşkilatda oturub maaşını alır, faydalı bir iş görməyibdir, yaxud o işi görməyə, sadəcə, onun elmi potensialı çatmır. Onda təbiidir ki, o dəyişdirilməlidir. Yəni siz bilin, bu institutlarda strukturlar, ştatlar müəyyən ediləndən sonra kadrlarla təmin olunanda gərək buraya çox ciddi münasibət göstərəsiniz. Dedim, yerli kadrlardan, təcrübəli kadrlardan istifadə edəsiniz. Eyni zamanda, gənc kadrlardan, müasir səviyyədə hazırlığı olan kadrlardan, xarici dil bilən kadrlardan istifadə etmək lazımdır.

Burada yaşlı kadrlarla gənc kadrların vəhdətinin təmin olunması çox vacibdir. Çünki buradakı təcrübəli yaşlı kadrlar çox şey bilirlər, çox şeyi də ediblər. Belələri Bakıda da var, gəlib burada işləyə bilərlər. Ancaq eyni zamanda, biz düşünməliyik ki, elmi-tədqiqat institutları gənc, müasir tələblərə cavab verən, xarici dillər bilən kadrlarla da təmin olunmalıdır. Siz bunu da nəzərə almalısınız.

Buradakı çıxışlarda – həm akademiyanın prezidentinin, həm də başqa natiqlərin çıxışlarında, hesab edirəm ki, bizim görəcəyimiz işi, yəni akademiyanın burada bölməsinin yaranması haqqında sərəncamdan irəli gələn vəzifələri düzgün şərh edirlər. Eyni zamanda, indiyə qədər görülmüş işlər haqqında bu məlumatları verdilər. Mən qeyd etmək istəyirəm ki, indiyə qədər burada görülmüş işlər inkar olunmur. Biz onları qiymətləndiririk, indiyə qədər də qiymətləndirmişik. Buna görə də burada bəzi alimlər mükafatlanıblar, yüksək elmi dərəcələr alıblar. Mən bu gün bir də qeyd edirəm ki, biz bunu qiymətləndiririk. Doğrudan da bəzi sahələrdə çox işlər görülübdür.

Məsələn, mən Vəli Əliyevi tanıyıram. Ömrünün çoxunu elə burada keçiribdir. Orada arxeoloji axtarışlar aparır, burada torpaqları qazır. Yadımdadır, 1990-cı ildə Naxçıvana təzə gəlmişdim. Hələ heç bir işlə məşğul deyildim. Gəldi mənimlə görüşdü. Dedim, haraya gedirsən? Dedi ki, Kültəpədə qazıntı işləri aparırıq. Kültəpədə işlərinizi qurtardınızmı, yoxsa hələ davam edir?! Şərurda da qazıntı işləri aparırdınız. Bu işlər gedibdir, çox iş görüblər, nəticələr də əldə ediblər. Eyni zamanda, indi Vəli Əliyev deyir ki, Gəmiqaya haqqında keçən il və bu il biz ekspedisiya təşkil etdik, iş apardıq. Amma nə üçün tək keçən il və bu il?

Mən bu gün çıxışımda dedim, keçən il hələ ilin yarısı idi, mən bu məsələni qoydum. Onda sizi təcili səfərbər edib oraya göndərdik. Yadındadırmı, bu sizin təşəbbüsünüzlə olmayıbdır. Bunu bilməlisiniz. Ondan sonra mən dedim ki, keçən il görə bilmədiyiniz işlərə gələn il, yəni bu il əvvəlcədən hazırlaşın. Bu barədə Naxçıvanın başçısı Vasif Talıbov da həm keçən il, həm də bu il çox işlər görmüşdür – oraya həmin o yolun çəkilməsi, müəyyən şəraitlərin yaradılması. Mən ona tapşırdım ki, arxeoloji

ekspedisiyanın orada təminat məsələsi var. Onların hamısını Naxçıvan Muxtar Respublikasının rəhbəri Vasif Talıbov üzərinə götürdü. Bunların nəticəsində indi sən burada çox böyük sevinc hissi ilə deyirsən ki, artıq biz Gəmiqaya haqqında kitab verəcəyik. Çox gözəl, amma 3-4 il bundan qabaq heç oradan xəbərin yox idi. Xəbərin var idi, amma gedib oraya əlini vurmamışdın. Başa düşürsən!

Nəhayət, getdin, indi bu gün deyirsən ki, orada təkcə Gəmiqaya yazıları deyil, orada arxeoloji qazıntılar da aparmaq lazımdır. 2-3 il gedəndən sonra orada daha da çox şey görəcəksən. Amma mən demək istəyirəm ki, orada sizin işiniz bununla qurtarmır. Bilin, planınıza salın, hər il – özü də dövrü maksimum götürün – orada iş aparmalısınız. Ümidvaram ki, orada yeni-yeni çox şeylər, Azərbaycanın qədim tarixini təsdiq edən sübutlar tapacaqsınız.

Çıxışlarda çox məsələlər haqqında danışdılar, dedilər ki, bir çox mövzular öyrənilməyibdir. Hamısı düzdür. Amma mən bu sərəncamı hazırlayarkən, bunun haqqında düşünərkən, nəhayət, sərəncamı imzalayarkən, burada sizinlə görüşəndə giriş sözümdə də dedim – düşünürdüm ki, bütün bu işlər görülməlidir. Ancaq hamısı bərabər səviyyədə görülə bilməz. Yəni bərabər etmək olmaz.

Biz indi vəsait ayırmalıyıq. Burada doğru dedilər, biz vəsait ayırmalıyıq ki, binalar hazırlansın, müəyyən cihazlar, kompüterlər alınsın. Bunların hamısını biz edəcəyik. İnstitutlar yaranacaqdır. Amma bunların hamısını bərabərləşdirmək olmaz. Siz, akademiyanın prezidenti, akademiya bunu bilməlidir, bunu bərabərləşdirmək olmaz. Burada var əsas istiqamətlər, hansı ki, birinci növbədə edilməlidir, bir də ikinci, üçüncü dərəcəli istiqamətlər var.

Ümumiyyətlə, bizim böyük məqsədimiz Naxçıvanın tarixini bütün, hərtərəfli öyrənmək, tədqiq etmək, onları həm elmi kitablarda dərc etmək, həm populyar kitablarda dərc etmək, həm də təbliğat materiallarında istifadə etməkdir. Amma burada bir nömrəli məsələlər vardır. Həbibbəyli deyir ki, Məmməd Səid Ordubadinin əsərləri 35 ildir çap olunmur. Çap olunmalıdır. O bizim müasirimizdir.

Məmməd Səid Ordubadinin özünü mən də görmüşəm, «Dumanlı Təbriz», «Gizli Bakı», «Döyüşən şəhər» kitablarını da oxumuşam. Onun üç məşhur əsəri vardır. İndi də yadımdadır. Bir də «Qılınc və qələm» əsəri. Elədir, yoldaş Həbibbəyli? Sən ədəbiyyatçısan, mən isə ədəbiyyatçı deyiləm. Amma gördün, hamısını necə dəqiq dedim. Bunlar hamısı var, bizim xatirimizdədir. İmkan olanda bunları etmək lazımdır. Amma bu, müasir həyatdır. Müasir həyat onsuz da məlumdur.

Burada kimsə dedi, vaxtilə Naxçıvanda komsomol hərəkatının tarixi, nə bilim, kolxoz hərəkatının tarixi, Naxçıvanda kommunist partiyasının tarixi, həmkarlar ittifaqının tarixi, başqa tarix – işlərin çoxu buna gedibdir.

Amma indi Azərbaycanın qədim diyarı kimi, Naxçıvanın tarixini öyrənmək, Azərbaycan xalqının tarixini əks etdirmək üçün ondan materialların çıxarılmasını təmin etmək lazımdır. Təkcə yerin altında deyil, arxivlərdən, dünya kitabxanalarından çıxarmaq lazımdır. Fondlar var, əlyazmalar fondu.

Dünyanın bir çox məşhur kitabxanalarında gedib işləmək lazımdır. Mərhum Ziya Bünyadov Atabəylər haqqında kitabı nə cür yazdı? Mənə elə gəlir ki, deyəsən, İstanbulda işləmişdi, materialları oradan tapırdı. Bir dəfə gedib işləyib materialları toplamışdı və böyük bir kitab yazdı. İndi görün, əgər biz belə tədqiqatları bir dəfə yox, dəfələrlə aparsaq və paralel olaraq dünyanın məşhur kitabxana mərkəzlərində aparsaq, təkcə yerin altından deyil, onlardan da çox material toplayacağıq.

Məsələn, mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var. Bu xanlıq nə vaxt yaranıbdır, fəaliyyəti nədən ibarət olubdur? Axı Naxçıvanı idarə ediblər. İrəvan xanlığı var. Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-birilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox, orada ermənilər olubdur. Amma həqiqətən İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında Ermənistanda tapmadığınız materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, nələr var.

Mən bunu misal üçün deyirəm, sizə yeni mövzular vermək fikrində deyiləm. Yəni bununla sizi mənim istədiyim istiqamətə yönəltmək istəyirəm. İstəyirəm ki, siz gücünüzü səpələməyəsiniz, burada belə olsun, orada elə olsun, nə bilim, iki ştat buna verək, üç ştat ona verək. Yox. Əsas məsələlər, mövzular ətrafında cəmlənməlidir. Bəlkə də mövzu əvvəldən müəyyən olunmalıdır. Həmin mövzunun həyata keçirilməsi üçün bir kollektiv yaradılmalıdır. Onun üçün ayrıca vəsait verilməlidir. Bunlar da ola bilər.

Bir sözlə, istəyirəm ki, hamınız mənim bu təşəbbüsümü, sərəncamımı, bir də deyirəm, onun ruhunu dərindən dərk edəsiniz və onun ruhu əsasında işlərinizi qurasınız. Onda biz nəticələr əldə edəcəyik.

Maaşlar haqqında, kapital qoyuluşu haqqında, təchizat haqqında, yəni lazım olan materiallarla təchiz haqqında narahatlığınız olmasın. Çünki bir halda, biz bu işi təşkil edirik, demək, o sahələrə ki, əlavə vəsait ayırmaq lazımdır, əlavə işlər görmək lazımdır, bunları görəcəyik.

Bir sözlə, mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın Milli Elmlər Akademiyası bu sərəncamla çox böyük və vacib işə

başlayacaqdır. Bu, təkcə Naxçıvana aid olan iş deyildir. Bunun mənim üçün dərin mənası var, o mənada ki, bizim Azərbaycan xalqının tarixinə, ölkəmizin tarixinə aid olan bir məsələdir. Mən bu məsələni bundan ötrü qaldırmışam. Ümidvaram ki, siz bu vəzifələri yerinə yetirəcəksiniz. Sizin hamınıza işlərinizdə uğurlar, cansağlığı və səadət arzulayıram. Sağ olun.

FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORU TYERİ DÖ MONBRİAL İLƏ GÖRÜŞDƏ SÖHBƏT*

Prezident sarayı
4 sentyabr 2002-ci il

Heydər Əliyev: Bakıya xoş gəlmisiniz. Sizi səmimi-qəlbdən salamlayıram. Mən sizinlə 1995-ci ildə Parisdə görüşdüyümü xatırlayıram. O vaxt sizi Azərbaycana dəvət etmişdim. Nəhayət, yeddi ildən sonra mənim bu dəvətimi həyata keçirirsiniz. Mən 1995-ci ildən sonra sizin ölkədə bir neçə dəfə olmuşam. Amma siz vaxt tapıb Azərbaycana gələ bilməmisiniz. Mən sizi tənqid etmirəm. Bilirəm ki, öz planlarınız var. Hər halda, hesab edirəm ki, keçmişi yada salmaq pis olmur.

Tyeri dö Monbrial: Cənab Prezident, səmimi qəbula görə minnətdarlığımı bildirirəm və Sizinlə görüşdən böyük şərəf duyduğumu söyləyirəm.

Mən bilirdim ki, Sizin çox güclü, əfsanəvi yaddaşınız var. Bunu hamı bilir. Bundan əlavə, qeyd edim ki, Sizin həm də çox incə yumor hissiniz var və onu bu gün bir daha nümayiş etdirirsiniz. Sizinlə birinci dəfə 1995-ci ildə görüşmüşük. O zaman Siz mənim bir təklifimi qəbul etdiniz. Mən bu şərəfə nail oldum. O zaman mənim təklifimlə Siz şam yeməyi zamanı fikir mübadiləsinə razı oldunuz. Bunu yaxşı xatırlayıram.

Həmin görüşdən çox təsirləndim, Sizin şəxsiyyətiniz məni həddindən çox mütəəssir etdi.

İkinci dəfə isə 1997-ci ilin fevral ayı idi. Siz mənim institutumda mühazirə oxumağa razılıq verdiniz və Azərbaycanın xarici siyasəti və beynəlxalq vəziyyəti haqqında mühazirə oxudunuz. Bu da bütün dinləyicilərin çox böyük marağına səbəb oldu. Ümid edirəm ki, Siz yenə də tezliklə Fransaya, Parisə gələcəksiniz.

Heydər Əliyev: Həmin görüş 1997-ci ilin fevralında yox, yanvar ayında idi.

Tyeri dö Monbrial: Cənab Prezident, Sizin doğrudan da əfsanəvi yaddaşınız bir daha təsdiqini tapır.

Mən üç gündür Azərbaycandayam. Amma elə bir təsir içərisindəyəm ki, sanki çoxdandır buradayam. 1993-cü ildən bəri Azərbaycanda gördüyünüz işlərin hamısını çox böyük heyranlıqla təsdiq etməliyəm.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırxıncı kitab. B., Azərnəşr, 2012, s. 430-434

Sizin qarşınızda duran vəzifənin nəhəngliyini və mürəkkəbliyini çox gözəl dərk edirəm. Əlbəttə, çətinliklərin bir hissəsi də qarşılaşdığınız qaçqınlar problemindən əmələ gəlir. Amma məsuliyyətlə deməliyəm, burada olduğum müddətdə bir daha əmin oldum ki, Azərbaycanda bütün bu məsələləri həll etmək üçün çox yüksək peşəkarlığa malik insanlar var. Onlar qarşılarında duran vəzifələri həyata keçirmək üçün çalışırlar.

Cənab Prezident, məni qəbul etdiyinizə görə Sizə bir daha ürəkdən təşəkkürümü bildirirəm. Hətta düşünürəm, bəlkə burada bir qədər də qalım. Sizə söz verirəm ki, Azərbaycana bir də qayıdacağam.

Heydər Əliyev: İnşaallah. Sizin Azərbaycana gəlməyinizdən çox məmnunam. Mənə məlumat veriblər ki, siz burada bir neçə yerdə olmuş, görüşlər keçirmisiniz. Səfir Eleonora xanım da sizi daim müşayiət edir. Mən başa düşdüm ki, sizi o qədər sevir ki, müşayiət etməyi şəxsən öz üzərinə götürübdür.

Tyeri dö Monbrial: Cənab Prezident, Sizə deyim ki, əgər dünyanın bütün böyük ölkələrinə xanım Hüseynova kimi səfirlər təyin etsəniz, Azərbaycanın təbliğat məsələsi çox yüksək səviyyədə olacaqdır.

Heydər Əliyev: İş bundadır ki, ikinci beləsi yoxdur. Çox təşəkkür edirəm ki, bizim səfirimiz haqqında belə xoş sözlər deyirsiniz. Həqiqətən, bizim səfirimiz orada Azərbaycanı layiqincə təmsil edir.

Məni sevindirən odur ki, siz gəlib Azərbaycanı öz gözlərinizlə gördünüz. Doğrudur, bu qısa müddətdə hər şeyi görmək mümkün deyil. Ancaq gördükləriniz, habelə keçirdiyiniz görüşlər, güman edirəm, sizdə Azərbaycan haqqında düzgün təəssürat yaradıbdır. Bizim xarici siyasətimizdə əsas məqsədlərdən biri hər yerdə təkcə ölkənin rəhbərliyində yox, həm də müxtəlif təbəqələrində Azərbaycan haqqında doğru, düzgün, obyektiv, ədalətli təəssürat yaratmaqdır.

Fransa ilə Azərbaycanın əlaqələri çox yüksək dostluq münasibətləri xarakteri daşıyır. Sizə bildirmək istəyirəm ki, 1993-cü ildə Azərbaycana prezident seçiləndən iki ay sonra mənim xarici ölkəyə ilk səfərim Fransaya olubdur. Mən bunu prezidentlik bioqrafiyamda xüsusi qeyd edirəm. O vaxt sizin ölkənin prezidenti mərhum Mitteran idi. Cənab Mitteran ilə keçmişdə, mən Moskvada işlədiyim zaman bir neçə görüşümüz olmuşdu və yaxın tanışlığımız var idi. O mənim prezident seçilməyimə dərhal münasibət göstərmişdi və məni dəvət etmişdi. Mən 1993-cü ilin oktyabr ayında prezident seçildim, dekabr ayında artıq Fransada rəsmi səfərdə idim.

O vaxt prezident Mitteranla orada, Yelisey sarayında Azərbaycanla Fransa arasında ilk sənədləri imzaladıq. Ondan sonra da bu dostluq əlaqələri davam edibdir və inkişaf edibdir. Prezident Şirak ilə də bizim

dərhal çox yaxşı əlaqələrimiz yarandı. Mən onunla dostluq əlaqələrimi xüsusi qiymətləndirirəm, buna çox əhəmiyyət verirəm. Təkcə bu deyil, ümumiyyətlə, Fransa ilə Azərbaycan arasında ümumi maraqlar çoxdur. Buna görə də biz əməkdaşlıq edirik. Fransanın iri neft şirkətləri Azərbaycanda bizim müqavilələrdə böyük pay alıblar, burada işləyirlər, investisiya qoyurlar və beləliklə, bizim iqtisadi əlaqələrimiz də çox inkişaf edibdir.

Prezident Şirak Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmasında xüsusi səylər göstərir. Parisdə onun iştirakı ilə biz iki prezidentin – Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirildi. Doğrudur, biz hələ də münaqişənin aradan qaldırılmasına nail ola bilməmişik. Amma çalışırıq. Mən bu barədə Fransanın fəaliyyətini xüsusi qeyd edirəm.

Siz bizim elm adamları ilə, yaradıcı adamlarla tanış oldunuz. Bugünkü Azərbaycanın Avropa səviyyəsinə nə qədər yaxın olduğunu, güman edirəm, gördünüz. Bu da qeyri-adi bir haldır ki, Avropaya aid olan bir ölkə kimi, Azərbaycan bu qədər inkişaf edib, Avropaya yaxınlaşıbdır. Mən Avropa dəyərlərinin Azərbaycanda bərqərar olmasını deyirəm. Biz Fransa ilə münasibətlərimizə xüsusi əhəmiyyət veririk. Bu münasibətləri bundan sonra da inkişaf etdirəcəyik.

Sizin institutunuz bu barədə bizə çox yardım edə bilər. Siz mənim orada olan görüşümü dediniz. Mən Azərbaycan haqqında çox şeyləri bəyan edəndə bəziləri bunu təəccüblə qarşılayırdılar. Çünki bunu bilmirdilər. Biz bu işi davam etdirməliyik. Güman edirəm ki, siz buradakı təəssüratlarınız haqqında öz institutunuzda, elmi mərkəzinizdə geniş məlumat verəcəksiniz. Sizin verdiyiniz məlumatlar mənim orada dediklərimdən daha çox təsir bağışlaya bilər. Ümidvaram ki, siz bunu edəcəksiniz.

Tyeri dö Monbrial: Əlbəttə, mən bunu mütləq edəcəyəm. Yalnız öz əməkdaşlarım, institutum qarşısında yox, başqa yerlərdə də.

Burada çoxlarına demişəm ki, bundan sonra mənim ürəyimdə Azərbaycanın xüsusi yeri olacaqdır, özü də mən deyirəm, başımda yox, məhz ürəyimdə olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN (UNİVERSİTETİNİN) FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ*

24 sentyabr 2002-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna (Universitetinə) gəldi.

Dövlətimizin başçısını bu dünya şöhrətli ali məktəbdə Rusiyanın Xarici İşlər naziri İqor İvanov, MDBMİ(U)-nun rektoru Anatoli Torkunov səmimiyyətlə, mehribanlıqla qarşıladılar. Universitetdə təhsil alan azərbaycanlı tələbələr Azərbaycan prezidentinə gül-çiçək təqdim etdilər. Respublikamızın rəhbəri azərbaycanlı tələbələrlə mehribancasına söhbət etdi, onlara təhsildə uğurlar arzuladı.

Sonra Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) böyük salonunda Azərbaycan prezidentinə bu ali məktəbin fəxri doktoru diplomunun təqdim olunmasına həsr edilmiş təntənəli mərasim keçirildi. Universitetin professor-müəllim heyəti, Rusiyanın bir sıra ictimai-siyasi xadimləri, Moskvada yaşayan məşhur həmvətənlərimiz – Nikolay Baybakov, Kərim Kərimov və başqaları, tələbələr prezident Heydər Əliyevi hərarətlə, sürəkli alqışlarla qarşıladılar.

Mərasimi giriş sözü ilə MDBMİ(U)-nun rektoru Anatoli Torkunov açdı.

MDBMİ(U)-nun rektoru Anatoli Torkunovun çıxışı

Azərbaycan Respublikasının çox hörmətli prezidenti Heydər Əliyeviç Əliyev!

Çox hörmətli İqor Sergeyeviç!

Çox hörmətli azərbaycanlı dostlar, həmkarlar, Azərbaycan Respublikasının rəsmi nümayəndə heyətinin üzvləri!

Çox hörmətli professorlar, müəllimlər, tələbələr, əziz dostlar!

İcazə verin, bu gün universitetimizin qonağı olan Azərbaycan Respublikasının prezidenti Heydər Əliyeviç Əliyevə ən səmimi hörmət və

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırx birinci kitab. B., Azərnəşr, 2012, s. 302-322

ehtiram hisslərimizi ifadə edim. Cənab Prezident, Siz Azərbaycanın – Rusiyanı dostluq, əməkdaşlıq münasibətlərinin və ən müxtəlif sahələrdə əlaqələrin bütöv bir dövrünün birləşdirdiyi ölkənin rəhbərisiniz.

Onu xatırlamaq kifayətdir ki, uzun illər ölkələrimiz vahid dövlətin tərkibində olmuş, xalqlarımız isə ağır və çətin günlərdə, böyük və şərəfli qələbələrdə və nailiyyətlərdə bir yerdə olmuşlar. Bu dostluğun qorunub saxlanmasında, siyasi ab-havaya, son on-on beş ilin dramatik hadisələrinə məruz qalmamasında Azərbaycan xalqının tanınmış lideri və keçmiş vahid dövlətin – Sovet İttifaqının görkəmli dövlət xadimi kimi, Sizin böyük xidmətləriniz var.

Böhranlı dəyişikliklər dövründə, Azərbaycan üçün ən ağır zamanda Siz Naxçıvan Muxtar Respublikasının Məclisinə, sonra isə Azərbaycan Respublikasının Ali Sovetinə başçılıq etdiniz. 1993-cü ildə Azərbaycan xalqı öz lideri kimi, Sizə ən yüksək etimad göstərərək ölkə prezidenti seçdi.

Məhz Sizin siyasətçi, dövlət xadimi istedadınız, şəxsi keyfiyyətləriniz, iradəniz indiki nəslin qismətinə düşmüş sınaqlardan çıxmağa, Azərbaycan dövlətçiliyini möhkəmlətməyə, yüksək beynəlxalq nüfuz qazanmağa imkan verdi.

Rusiya ilə müstəqil Azərbaycan arasında diplomatik əlaqələr yarandığı vaxtdan bəri Siz bu gün inkişafda olan, ən müxtəlif sahələrdə qarşılıqlı fəaliyyət praktikası ilə zənginləşən hərtərəfli münasibətlərimizin inkişafına daim diqqət yetirirsiz. Ölkəmizin iqtisadiyyatına, elminə və mədəniyyətinə necə böyük və daimi qayğı ilə yanaşmağınız yaxşı məlumdur. Rus və Azərbaycan mədəniyyəti ilə bağlı məsələlər mənim qısa çıxışıma aid olmasa da, xüsusi qeyd etmək istəyirəm ki, Rusiya ali məktəblərinin, o cümlədən də bizim universitetin minlərlə məzunu Azərbaycanın həyatının müxtəlif sahələrində fəaliyyət göstərir. Onların çoxu dövlət xidmətində, iqtisadiyyat, ali təhsil sahələrində yüksək vəzifələr tutur.

Bizim üçün xoşdur ki, MDBMİ(U)-da bu gün də Azərbaycandan onlarca gənc təhsil alır, Azərbaycan səfirliyi və səfiri onlara diqqətlə, atalıq qayğısı ilə yanaşır. Əminəm ki, onlar yaxşı mütəxəssis olacaqlar.

Biz məmnuniyyətlə vurğulayırıq ki, Rusiyada və Azərbaycanda xalqlarımızın elmi nailiyyətlərinin və mədəniyyətinin, onların dilinin və ədəbiyyatının öyrənilməsinə olan qarşılıqlı maraq davam və inkişaf edir. Çox hörmətli Prezident, bunun özündə də Sizin şəxsi xidmətiniz vardır. Elmin və mədəniyyətin inkişafında, biliklərin yayılmasında Sizin rolunuz Şərqin belə bir müdrik kəlamına tamamilə cavab verir ki, insan qəlbini biliksiz və mədəniyyətsiz qoymaq – xəstəni müalicəsiz və həkimsiz qoymaq deməkdir.

Cənab Prezident, biz yaxşı bilirik ki, Siz Azərbaycanın Rusiya ilə siyasi, ticarət-iqtisadi və mədəni, elmi münasibətlərinin möhkəmlənməsinə və inkişafına tərəfdarsınız. Yüksək səviyyədə keçirilən görüşlər, 1993-cü ildən başlayaraq ölkəmizə səfərləriniz bizim münasibətlərimizə böyük təsir göstərir. Bu səfərlər, Rusiya prezidenti Vladimir Vladimiroviç Putinlə görüşləriniz nəticəsində bir sıra mühüm dövlətlərarası sazişlər imzalanmışdır. Dünən Rusiya prezidentinin və Sizin imzaladığınız Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında saziş də bu qəbildəndir.

Bu sazişin həm ikitərəfli münasibətlərin inkişafı üçün, həm də bütün Xəzər dənizi regionunun sabit, sülh şəraitində inkişafı üçün nə qədər vacib olduğunu hamımız gözəl başa düşürük. Ali məktəb işçiləri kimi, bizim üçün bu da az əhəmiyyətli deyildir ki, dünən iki Təhsil naziri Rusiya ilə Azərbaycan Respublikası arasında diplomların, elmi dərəcələrin və elmi adların qarşılıqlı tanınması haqqında saziş imzaladılar.

Sizin səfərləriniz və Rusiya rəhbərləri, bizim prezidentlə görüşləriniz mədəniyyət məsələlərinin əhatə olunması baxımından da vacibdir. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 10 illiyinin bayram edilməsi çərçivəsində Peterburqda Siz və prezident Putin Azərbaycan ədəbiyyatının klassiki Nizami Gəncəvinin abidəsini açdınız. Nizami Gəncəvi hələ XII əsrdə demişdir ki, həyatda hər kəsin məsləkdaşı olmalıdır, ona görə də sənlə dostluq etmək istəyənə meyl sal.

Bundan əvvəl, 2001-ci ilin yayında Bakıda Sizin iştirakınızla Aleksandr Sergeyeviç Puşkinin abidəsi açıldı. Məncə, bunun dərin rəmzi mənası var.

Çox hörmətli cənab Prezident! Universitetimizin nizamnaməsinə uyğun olaraq, MDBMİ(U)-nin fəxri doktoru adının verilməsinin dəqiq müəyyənləşdirilmiş qaydası mövcuddur. Statusa uyğun olaraq, bu ada beynəlxalq münasibətlərin inkişafına, müxtəlif ölkələr və xalqlar arasında sülhün möhkəmlənməsi və qarşılıqlı anlaşmanın dərinləşməsi işinə, mədəniyyət və təhsilin inkişafına böyük töhfə vermiş görkəmli dövlət xadimləri, siyasi, ictimai xadimlər, xarici ölkələrin alimləri layiq görülürlər.

Möhtərəm cənab Prezident, Sizə və bu salondakıların hamısına böyük məmnunluqla bildirirəm ki, universitetin Nizamnaməsini əsas tutaraq və öz səlahiyyətlərinə uyğun olaraq, 2001-ci il dekabrın 29-da Elmi Şura dünyada qarşılıqlı anlaşmanın möhkəmlənməsinə töhfənizə görə və ölkələrimiz arasında münasibətlərin inkişafına töhfənizə görə, təhsil və mədəniyyətin inkişafına töhfənizə görə Sizə MDBMİ(U)-nun fəxri doktoru adı verilməsi haqqında qərar qəbul etmişdir.

Şuranın sədri kimi, mən onun iradəsini yerinə yetirərək, fəxri doktor diplomunu, medalı və mantiyanı məmnuniyyətlə Sizə təqdim edirəm.

* * *

Sonra MDBMİ(U)-nun rektoru Anatoli Torkunov Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) fəxri doktorunun diplomunu, medalı və mantiyanı Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə təqdim etdi.

Universitetin fəxri doktoru, Azərbaycan prezidenti Heydər Əliyevin şərəfinə «Qaudemus İgitur» tələbə himni ifa olundu.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli İqor Sergeyeviç!

Hörmətli Anatoli Vasilyeviç!

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu Elmi Şurasının hörmətli üzvləri!

Hörmətli professorlar və müəllimlər, əziz tələbələr!

Xanımlar və cənablar!

Mənə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun fəxri doktoru kimi yüksək ad verdiyinə görə Beynəlxalq Münasibətlər İnstitutunun Elmi Şurasına, rektor Anatoli Vasilyeviç Torkunova səmimi minnətdarlığımı bildirirəm.

Mən Xarici İşlər naziri İqor Sergeyeviç İvanovu salamlayıram, bu institut onun sərəncamındadır. İqor Sergeyeviç, mən sizə təşəkkür edirəm ki, dünən axşam çox uzun və ağır xarici ezamiyyətdən qayıdaraq, bu gün buraya gəlmisiniz. Çox sağ olun.

Mənim fəxri doktor adına layiq görülməyimlə əlaqəsi olanların hamısına minnətdarlığımı bildirirəm. Mən bunu çox yüksək qiymətləndirirəm.

Mən çoxlu müxtəlif adlar, o cümlədən bir çox xarici universitetlərin fəxri doktoru adını almışam, lakin belə nüfuzlu, hörmətli və bütün dünyada məşhur olan institutun fəxri doktoru adına layiq görülməyimin mənim üçün xüsusi əhəmiyyəti vardır. Buna görə də mən minnətdarlığımı bildirir və sizi əmin edirəm ki, bu yüksək adı həmişə şərəflə daşıyacaq və sizin böyük etimadınıza layiq olmağa çalışacağam.

Mən sizin qarşınızda müxtəlif mövzularda çıxış edə bilərəm. Buna görə də mənim üçün çətindir, hər halda, mən siyasi xadiməm. Mənim fəaliyyətim cəmiyyətimizin, həyatın, dünyanın bir çox cəhətlərini əhatə edir. Ona görə də məhdud bir məsələ üzərində dayanıb bu barədə danış-

maq mənim üçün çox çətindir. Bununla belə, mən ilk növbədə Rusiya-Azərbaycan münasibətləri barədə danışacağam. Anatoli Vasilyeviç bu barədə dedi. Şadam ki, siz də bu fikirdəsiniz və Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişafı üçün göstərdiyimiz səyləri qiymətləndirirsiniz.

Deməliyəm ki, bu münasibətlər indi yüksək səviyyədədir. Dünən Rusiya prezidenti Vladimir Vladimiroviç Putinlə mənim çox əhəmiyyətli danışıqlarım oldu. Mühüm sənədlər imzalandı. Axşam mən onunla təkbətək görüşdüm, biz müxtəlif məsələlərə, Rusiya-Azərbaycan münasibətlərinə və əlbəttə, Qafqaz regionunda, MDB-də vəziyyətə, beynəlxalq terrorizmlə mübarizə məsələlərinə dair fikir mübadiləsi apardıq. Azərbaycan terrorizmlə mübarizəyə fəal surətdə qoşulmuşdur. Azərbaycan terrorizmdən, terrorçuluq aktlarından uzun müddət əziyyət çəkmişdir və elə indinin özündə də çəkir. Bizdə hətta bir neçə dəfə Azərbaycan prezidentinə qarşı terror cəhdi olmuşdur və şükürlər olsun ki, Allah məni qorumuşdur. Odur ki, biz terrorizmin nə olduğunu bilirik, özü də o belə beynəlxalq, azğın xarakter alanda.

İndi dünyada bu proses davam edir, Rusiya beynəlxalq terrorizmlə fəal mübarizə aparır. Özü də məsələni nə vaxt siyasi yolla, nə vaxt başqa cür həll etmək baxımından yaxşı nümunə göstərir.

Dünən biz Vladimir Vladimiroviç ilə bu məsələ barəsində də fikir mübadiləsi apardıq.

Rusiya-Azərbaycan münasibətləri bizim üçün öncül istiqamətdir. Bu, strateji tərəfdaşlıq, əməkdaşlıq münasibətləridir. Əgər Sovetlər İttifaqının süqutu və Azərbaycanın dövlət müstəqilliyi əldə etdiyi, təbii ki, Rusiyanın öz suverenliyini elan etdiyi, ölkələrimiz arasında diplomatik münasibətlər yaradıldıqdan sonrakı dövrdə Rusiya-Azərbaycan münasibətlərinin tarixinə nəzər salsaq, açıq deməliyəm – siz tarixi yaxşı bilməlisiniz – heç də hər şey hamar olmamışdır. Əvvəla ona görə ki, Ermənistanla Azərbaycan arasında müharibə gedirdi. Ermənistanın əzəli Azərbaycan torpaqlarının bir hissəsinə – Dağlıq Qarabağa iddia etməsi münaqişəyə, sonra isə geniş müharibəyə səbəb olmuşdu. Onu da deyim ki, bu münaqişə hələ Sovetlər İttifaqı dövründə – 1988-ci ildə başlamışdı və onun süqutu zamanı da davam edirdi. Təəssüf ki, Sovetlər İttifaqının rəhbərliyi o vaxt münaqişənin nizama salınması, aradan qaldırılması üçün tədbir görmədi. Üstəlik, bizdə konkret məlumatlar var ki, Siyasi Büronun bəzi üzvləri, o cümlədən Baş katib Qorbaçov Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana verilməsinə kömək edirdilər. Müharibə gedirdi, Azərbaycan müstəqillik əldə etdi. Rusiya ilə diplomatik münasibətlər quruldu.

İkinci tərəfdən, Azərbaycanda bir neçə il ərzində, ölkənin dövlət müstəqilliyi əldə etməsindən əvvəl çox ağır daxili siyasi vəziyyət yaranmışdı. Təəssüf ki, o zaman populizm, bir çox digər şeylər fonunda müxtəlif qüvvələr meydana çıxmışdı. Azərbaycanda belə qüvvələr çox idi. Azərbaycanda müharibə getdiyindən – ölkəmizin isə o zaman mütəşəkkil ordusu yox idi – ayrı-ayrı qüvvələr hakimiyyət uğrunda mübarizə aparmaq üçün silahlı dəstələr yaratmışdılar. Bax, belə bir mübarizə gedirdi. Bütün bunlar 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsinə, fəlakətə, mahiyyət etibarilə Azərbaycanın parçalanmasına gətirib çıxardı.

Bu şəraitdə və sonralar Rusiya ilə münasibətlər o qədər də hamar olmamışdır. 1992-ci ilin əvvəllərində hakimiyyətə gəlmiş Xalq Cəbhəsinin nümayəndələri Rusiya-Azərbaycan əlaqələrinə münasibətdə mənfi mövqe tutdular və hətta Azərbaycan MDB-yə, keçmiş Sovetlər İttifaqı respublikalarının yaratdığı Birliyə daxil olmaqdan imtina etmişdi.

1993-cü ildə biz böyük çətinliklə də olsa, bunları aradan qaldırmağa, vətəndaş müharibəsinin, bir neçə silahlı dövlət çevrilişi cəhdlərinin qarşısını almağa və Azərbaycanda sabitliyi bərpa etməyə nail ola bildik. Burada Anatoli Vasilyeviç mənim tərcümeyi-halımdan danışdı. Məni Bakıya dəvət edib parlamentin sədri seçən kimi, bu ağır şəraitdə prezident öz postunu ataraq, sözün əsl mənasında dağlara qaçıb, guya respublikanı oradan idarə etməyə başlayanda, Azərbaycan parlamenti prezidentin səlahiyyətlərinin mənə verilməsi barədə qərar qəbul etdi. Bax, respublikada vəziyyətin hələ normal olmadığı və hələ prezident hakimiyyətinə malik olmadığım həmin dövrdə mən Moskvaya gəldim, Rusiya prezidenti ilə və digər rəsmi şəxslərlə görüşdüm. Mən ilk növbədə Azərbaycanın MDB-yə daxil olması üçün parlamentin qərar qəbul etməsinə nail oldum.

Sonra da belə problemlər çox oldu, mən sizin vaxtınızı almaq istəmirəm. Buna görə də müxtəlif dövrlərdə münasibətlərimiz o qədər də hamar olmamışdır. Vladimir Vladimiroviç Putin prezident seçiləndən sonra biz münasibətlərin dəyişdiyini dərhal hiss etdik. O, 2001-ci ildə XXI əsrdə ilk xarici səfərini Azərbaycana etdi. Bütün ictimaiyyətimiz bunu çox yüksək qiymətləndirdi. Rusiya prezidenti Azərbaycanla şəxsən tanış ola və Rusiyaya münasibəti görə bildi. Həmin dövrdə bizdə daxili siyasi vəziyyət sabit idi, Rusiya ilə münasibətlərimiz də uğurla inkişaf edirdi.

Biz müstəqillik əldə etdikdən sonra münasibətlərimizin tarixi barədə danışsaq, deməliyik ki, prezident Putinin Azərbaycana səfəri münasibətlərimizin yeni mərhələsinin başlanğıcı oldu. Bundan sonra mən Rusiyaya dövlət səfəri etdim.

Biz Vladimir Vladimiroviç Putinlə dəfələrlə görüşmüşük, Xarici İşlər naziri İqor Sergeyeviçlə fəal əlaqə saxlamışıq, yeri gəlmişkən, o hələ nazir olmamışdan qabaq Azərbaycanın köhnə dostu idi. İqor Sergeyeviç Azərbaycanı yaxşı tanıyır. Təbiidir ki, digər idarələrlə də əlaqələrimiz var. Dünən biz söhbət edəndə, sənədləri imzalayanda mən şad oldum ki, Vladimir Vladimiroviç Putin öz çıxışında Rusiya-Azərbaycan münasibətlərinin inkişafı üçün görülmüş bütün işləri çox yüksək qiymətləndirdi.

Təkrar edirəm, biz buna böyük əhəmiyyət veririk və öz xarici siyasətimizdə həmin xətti davam etdirəcəyik, bu bizim üçün çox vacib yoldur.

Qafqaz dünyanın mürəkkəb regionudur. Buna görə də Qafqazda vəziyyət qonşu ölkələr üçün böyük əhəmiyyətə malikdir. Şimali Qafqaz Rusiyanın tərkibində olduğu üçün Qafqaz bizim – Rusiyanın, Gürcüstanın, Ermənistanın, Azərbaycanın – ümumi problemimizdir. Mən deməliyəm ki, Vladimir Vladimiroviç buna da böyük diqqət yetirir. Dörd prezidentin iştirakı ilə bizim bir neçə görüşümüz olmuşdur. Bütün bu görüşlər çox faydalı olub, düşünürəm ki, onlar davam edəcəkdir.

Lakin siz bilirsiniz ki, Qafqazda Ermənistanla Azərbaycan arasında münaqişə davam etməkdədir, Gürcüstanda daxili münaqişə vardır.

Rusiyanın cənubunda – Şimali Qafqazda, Çeçenistanda vəziyyətin necə mürəkkəb olduğunu hamımız bilirik. Lakin təkcə bunlar deyil, digər məsələlər də çoxdur. Ona görə də Qafqazda sülhü, təhlükəsizliyi, əmin-amanlığı təmin etməyə çalışırıq, çünki bu bizə, Qafqaz xalqlarına da, Rusiyaya da lazımdır. Təəssüf ki, bu istiqamətdə görülən tədbirlər hələlik bir nəticə vermir. Məsələn, mən sizə Ermənistan-Azərbaycan münaqişəsi barədə deyə bilərəm. 1994-cü ildə biz atəşkəs barədə razılığa gəldik, yəni artıq müharibə yoxdur, lakin sülh də yoxdur. Məsələni həll etmək üçün 8 ildir ki, sülh danışıqları gedir, lakin hələ də nəticəsi yoxdur.

Məsələ bundadır ki, bu münaqişə və müharibə nəticəsində Ermənistan silahlı qüvvələri bəzi hallardan, xaricdən köməkdən və Azərbaycanın daxilindəki qeyri-sabitlikdən istifadə edərək, iddiasında olduqları Dağlıq Qarabağı işğal edə bilmiş, onun ardınca isə Azərbaycanın daha 7 iri rayonunu zəbt etmişlər. Azərbaycan ərazisinin 20 faizini təşkil edən həmin torpaqlardan bir milyondan artıq azərbaycanlı qovulmuşdur və indi onlar çadırlarda, ağır şəraitdə yaşayırlar. Biz onları yerbəyer edə bilmirik, bir də ki, onlar öz doğma torpaqlarına qayıtmalıdırlar.

Bəs məsələ nədən ibarətdir? Siz – beynəlxalq münasibətlər sahəsində mütəxəssislər bilməlisiniz, heç bir sirr yoxdur. Ermənistan Dağlıq Qarabağı özünə birləşdirmək iddiasındadır. Biz bununla razılaşa bilmərik. Bura Azərbaycanın əzəli tarixi torpağıdır. Münaqişəyə qədər orada ermənilər də, azərbaycanlılar da yaşamışlar. Ermənilər çoxluq təşkil

edirdilər. Əhalinin sayı isə cəmi 150-160 min nəfər idi. Yəni bu, kiçik vilayət idi. Dağlıq Qarabağ Azərbaycanın tərkibində muxtar vilayət statusuna malik idi. Bu status vilayətə çox böyük üstünlüklər verirdi, biz mehriban yaşayırdıq, heç bir problem yox idi. Lakin Ermənistanda «Böyük Ermənistan» uğrunda mübarizə aparanlar bu münaqişəni törətmişlər.

İndi Ermənistan təkid edir ki, Dağlıq Qarabağı ona vermək lazımdır. Onlar bunun müqabilində ancaq azərbaycanlıların yaşamış olduqları rayonları azad etməyi, yəni öz silahlı qüvvələrini həmin ərazilərdən çıxarmağı vəd edirlər. Biz bununla razılaşa bilmərik. Onlar bu mövqedən geri çəkilmirlər. ATƏT-in Minsk qrupunun düzgün təklifi vardır. Siz bilirsiniz ki, hələ 1992-ci ildə ATƏT Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə nizamlamaq üçün xüsusi Minsk qrupu yaratmışdır və indi həmin qrupa Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başçılıq edirlər. Həmsədrlərin nümayəndələri bu problemlə məşğul olur, müxtəlif təkliflər hazırlayır, fəal tədbirlər görürlər.

1997-ci ildə, hesab edirəm ki, hər iki tərəf üçün məqbul olan təkliflər irəli sürüldü. Biz onları qəbul etdik, lakin Ermənistan qəbul etmədi. Bu təkliflərin mahiyyəti nədən ibarət idi? Onların mahiyyəti bundan ibarət idi ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın ancaq azərbaycanlıların yaşamış olduqları rayonlarını azad edir, oralardan çıxır, Dağlıq Qarabağa çəkilirlər, Dağlıq Qarabağın statusu məsələsi isə müzakirə olunacaqdır. Dağlıq Qarabağın statusu məsələsinə gəldikdə isə, hələ 1996-cı ildə ATƏT-in Lissabon zirvə toplantısında Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində ən yüksək status verilməsi haqqında qərar qəbul olunmuşdur. Bu, məqbul təklifdir. Biz bununla razıyıq. Onlar o zaman gərək ki, bu təklifi qəbul etmək istəyirdilər və müzakirə edirdilər. Ermənistanın o vaxtkı prezidenti Levon Ter-Petrosyan bu təklifi dəstəkləyiini açıq bəyan etdi. Lakin sonra Ermənistanın rəhbərliyində dəyişikliklər baş verdi və bu variantı, əslində, dəfn etdilər. Başqa məqbul variantlar təqdim olunmur. Mən 1999-cu ildən Ermənistan prezidenti Köçəryanla bilavasitə görüşürəm. Avqustun 14-də mən onunla Ermənistan-Azərbaycan sərhədində görüşdüm. Biz dörd saat çox gərgin söhbət etdik. Sanki müəyyən kompromislər, daha nəsə tapmaq mümkündür, lakin hələlik heç nə yoxdur. Buna görə də Qafqazdakı vəziyyət indiki halda bu ciddi problemlə səciyyələnir.

Digər ciddi problem Gürcüstandakı münaqişədir. Çeçenistan da ciddi problemdir. Bütün bunlar vəziyyətimizi mürəkkəbləşdirir. Təkrar edirəm, biz sülh mövqeyində durmuşuq, Ermənistanla sülh bağlamaq və mehriban qonşu kimi yaşamaq istəyirik. Bizim Gürcüstanla normal münasibətlərimiz

vardır və bu münasibətləri inkişaf etdirmək istəyirik. Rusiya ilə münasibətlərimiz, artıq dediyim kimi, yüksək səviyyədədir. Biz Rusiyanın müvafiq qüvvələrinin öz ərazisində – Rusiya ərazisində beynəlxalq terrorizmlə apardığı mübarizəni, əlbəttə, tam dəstəkləyirik. Bu məhz beynəlxalq terrorizmlə mübarizədir. Yeri gəlmişkən, beynəlxalq terrorizm bugünkü vəziyyətin yarandığı vaxtdan xeyli qabaq meydana çıxmışdır.

Qafqaz haqqında, respublikamız haqqında bunları deyə bilərəm.

İndi də bir neçə kəlmə yaşayışımız haqqında. Əlbəttə, Sovetlər İttifaqının süqutundan sonra hər yerdə, bütün respublikalarda mürəkkəb vəziyyət yaranmışdı. Azərbaycan ilk illər siyasi, iqtisadi və sosial böhran vəziyyətində idi. Biz bu böhrandan 1993-cü ildən etibarən çıxdıq, iqtisadiyyatımızı inkişaf etdirməyə başladıq. İndi iqtisadiyyatımız uğurla inkişaf edir. Ümumi daxili məhsulun, sənaye və kənd təsərrüfatı məhsulları istehsalının artım sürəti yüksəkdir. Bunlar hamısı, əvvəla, Azərbaycana iri sərmayəçilərin, xüsusilə də Xəzər dənizində neft sənayesi xətti ilə cəlb olunması sayəsində mümkün olmuşdur. İkincisi, biz iqtisadiyyatda, sosial sahədə, hüquq sahəsində müxtəlif islahatlar aparmışıq. Beləliklə də, iqtisadiyyatda, kənd təsərrüfatında, ticarətdə, sənayedə aparılan islahatlar vəziyyəti tamamilə dəyişdirmişdir.

Əvvəllər, Sovetlər İttifaqı dövründə Azərbaycan əti, yağı, digər məhsulları Rusiyadan, Ukraynadan, Belarusdan alırdı. İndi isə o qədər heyvandarlıq məhsulu istehsal olunur ki, bəziləri onları respublikadan kənara aparırlar. Biz özümüzü taxıl və bir çox digər məhsullarla tam təmin edirik. Sənayeyə gəldikdə isə, bildiyiniz kimi, Azərbaycan iri sənaye ölkəsidir. Bizim çoxlu maşınqayırma zavodlarımız, o cümlədən neft maşınqayırması zavodlarımız var idi. Lakin indi, təəssüf ki, onlardan tam istifadə edə bilmirik. Bir tərəfdən, biz əvvəllər bütün məhsulları Rusiyaya göndərirdik, indi isə bunlar Rusiyada istehsal olunur, digər tərəfdən, avadanlıq köhnəlmişdir, onu yeniləşdirmək lazımdır, bunun üçün isə vəsait gərəkdir.

Bu illər ərzində, təxminən 1994-cü ildən indiyədək Azərbaycana 9 milyard dollar sərmayə qoyulmuşdur, bunun da təqribən 4 milyardı neft sənayesinə aiddir. Bilirsiniz ki, biz 1994-cü ildə xarici ölkələrin iri neft şirkətləri, o cümlədən Rusiyanın «LUKoyl» şirkəti ilə «Azəri», «Çıraq», «Günəşli» neft yatarlarının işlənilməsinə dair müqavilə imzalamışıq. Bunlar çox zəngin yataqlardır. Bu və digər layihələrə – bizim belə birgə layihələrimiz çoxdur – 4 milyard dollar sərmayə qoyulmuşdur. Qalan sərmayə başqa daxili məsələlərə yönəldilmişdir. Bizim biznesmenlərimiz yaranmışdır. Düzdür, Rusiyadakı kimi biznesmenlərimiz yoxdur. Lakin biz özümüzün orta miqyaslı milli biznesmenlərimizin yetişməsi üçün

çalışırıq. Rusiyadakı miqyasa isə biz çata bilmərik, sadəcə olaraq, Azərbaycanda belə imkanlar yoxdur. Lakin biz bu yolla gedirik.

Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Biz bu bazar iqtisadiyyatını, islahatları, necə deyərlər, çox cəsarətlə, özü də bir çox il əvvəldən həyata keçirməyə başlamışıq. Bu da öz nəticəsini verir. Azərbaycan öz müstəqilliyini, demokratiya yolu ilə getdiyini elan edəndən biz bütün bu illər ərzində demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün çox iş görmüşük. Böyük uğurlar qazanmışıq. Bizdə söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı var, hər şey azaddır. 8 milyon əhalisi olan kiçik respublikamızda həddən çox qəzet çıxır. Əlbəttə, əksəriyyəti özəl qəzetlərdir və çoxu müxalifətə məxsusdur.

Biz demokratiya yolu ilə bundan sonra da gedəcəyik. Biz Avropa Şurasına qəbul olunmuşuq və deməliyəm ki, bu məsələdə Rusiyanın dəstəyini daim hiss etmişik. İndi Xəzər dənizində Rusiya ilə əməkdaşlığımız sahəsində çox yaxşı şərait yaranır. Bilirsiniz ki, neçə illərdir Xəzəryanı dövlətlər arasında dənizin dibinin beynəlxalq hüquq prinsiplərinə ciddi əməl olunmaqla sektorlara bölünməsinə dair danışıqlar gedir. Biz buna bir neçə il sərf etmişik və elə dünən prezident Putin ilə imzaladığımız ən mühüm sənəd Xəzər dənizinin Azərbaycan və Rusiya sektorlarının qəti bölgüsü haqqında Azərbaycan ilə Rusiya arasında sazişdir. Rusiya Qazaxıstanla da belə saziş imzalamışdır. Odur ki, biz, üç Xəzəryanı dövlət bu barədə artıq razılığa gəlmişik. Qalır İran və Türkmənistan. Ümidvaram ki, onlar da razılığa gələcəklər, başqa yol yoxdur, məsələnin başqa həlli yoxdur. Mən Azərbaycan gənclərinin Rusiyada təhsil almasına böyük əhəmiyyət verirəm. Yəqin bəzilərinizin xatirindədir, hələ sovet dövründə mən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olarkən hər il Rusiyanın müxtəlif təhsil müəssisələrində Azərbaycan üçün güzəştli əsaslarla 800 yer ayrılması barədə Sovetlər İttifaqı hökumətinin qərar çıxarmasına nail olmuşdum. Mən istəyirdim ki, gənclərimiz öz respublikamızda qapanıb qalmasınlar, yalnız öz milli universitetlərində təhsil almasınlar, Rusiya ali məktəblərində də oxusunlar. Çünki Rusiyanın bir çox ali məktəbləri bizimkilərlə müqayisədə onda da xeyli yüksəkdə idi, bu gün də yüksəkdədir. Mən istəyirdim ki, azərbaycanlılar keyfiyyətli təhsil alsınlar. İkincisi, mən buna yaxınlaşma, ünsiyyət vasitəsi kimi baxırdım. Məsələn, onda mən bilirdim və elə də oldu ki, Moskvada, Leninqradda, digər şəhərlərdə – məsələn Komsomolsk-Amur şəhərinin Politexnik İnstitutunda – təhsil alan azərbaycanlıların bəziləri evlənib Rusiyada qaldılar. Evlənməsələr də – mən demirəm ki, onlar axıra qədər subay qalırdılar – hər halda Rusiyada məskunlaşdılar.

Bax, o zaman biz belə xətt götürmüşdük. İndi, əlbəttə, belə böyük imkanlar yoxdur. Lakin mən burada təhsil alan azərbaycanlı tələbələri görəndə, Anatoli Vasilyeviçin bu barədə məlumatını eşidəndə çox şad oldum.

Sizə deyim ki, institutunuz Sovetlər İttifaqında bir nömrəli institut idi. Təkcə diplomatlar, beynəlxalq münasibətlər üzrə mütəxəssislər hazırladığına görə deyil, həm də ona görə ki, burada təhsil çox yaxşı təşkil olunmuşdu. İnstitut əla təhsil verirdi. Bu institutu bitirənlər müxtəlif sahələrdə çox uğurla işləyirdilər. Amma bu instituta daxil olmaq çox çətin idi. Məsələn, o zaman Azərbaycana cəmisi 4-5 yer ayrılırdı. Özü də namizədlərə komsomol xasiyyətnamə verməli idi, sonra sənədlərə Azərbaycan KP MK-nın beynəlxalq şöbəsində baxılırdı. Yalnız ondan sonra buraya göndərirdilər. İndi isə institutunuzda o vaxtkından xeyli çox azərbaycanlı təhsil alır.

İnstitutunuzun tarixi çox zəngindir, mən ona bələdəm. Lakin fürsətdən istifadə edərək demək istəyirəm ki, təəssüflər olsun, yenidənqurma illərində institutunuz çox böyük repressiyalara məruz qalırdı. Anatoli Vasilyeviç, yadınızdadırmı? Siz onda burada işləyirdiniz? Başqaları işləyirdi, yəqin onların da yadındadır. O zaman mən Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini idim, nə baş verdiyini görürdüm. Beynəlxalq Münasibətlər İnstitutunun üstünə düşürdülər. Özü də heç bir səbəb tapa bilmirdilər. Təkcə onu irad tuturdular ki, burada əsasən diplomatların, yüksək vəzifəli şəxslərin uşaqları oxuyur. Nə olsun? Yadımdadır, institutu yoxlayırdılar, buranın rektoru Lebedev idi, onu, necə deyərlər, döyürdülər. Sonra, siz bilirsiniz, qəribəsi o idi ki, bu məsələ bir neçə dəfə Siyasi Büroda müzakirə olundu. Komissiya yaradıldı, ona Partiya Nəzarəti Komitəsinin sədri Solomentsev başçılıq edirdi. İnstitutu əsla olmayan nə kimi işlərdə günahlandırmadılar? Buna baxmayaraq, həmin yoxlama dövründə Solomentsev öz qohumunu sizin instituta düzəltdi. Bax, belə!

Sizin institutunuz barədə hər şeyi bilirəm, çünki mənim oğlum İlham Əliyev 1977-1990-cı illər ərzində burada təhsil almış, aspiranturanı bitirmiş, beş il müəllimlik etmişdir. Mən çox şadam ki, oğlum burada oxumuşdur, çünki o çox yaxşı təhsil almışdır. Təhsildən əlavə, bunların hamısının onun bir gənc kimi formalaşmasına təsiri olmuşdur. Amma buradakılar yəqin ki, bilirlər, bəlkə də bilmirlər, 1990-cı ildə onu institutdan qovdular. O burada dərs deyirdi. Yeri gəlmişkən, o, İngiltərədə staj keçmişdi və aspiranturanı bitirdikdən sonra Londona dönməli idi. Orada onun yeri artıq müəyyənləşdirilmişdi. Elə bu zaman mən istefaya çıxdım, məni bütün vəzifələrdən kənarlaşdırdılar, təqib etməyə başladılar. Onun

da İngiltərəyə getməsinə yol vermədilər. Nə etməli? İnstitutda qalıb dərs deməkdən başqa çıxış yolu yox idi. Axı o başqa harada işləyə bilərdi? O burada dərs deyirdi. 1990-cı ildə onu qovdular. İzahat üçün müraciət etdikdə, ona dedilər ki, Siyasi Büronun keçmiş üzvü Əliyevin oğlu burada işləyə bilməz.

Əlbəttə, bu da institutunuzun məruz qaldığı repressiyanın bir əlamətidir. Amma mən şadam ki, siz bu repressiyaya davam gətirdiniz və indi bütün sahələrdə daha da qüvvətlənən və demokratiya yolu ilə gedən müasir demokratik Rusiya şəraitində institutunuza böyük diqqət yetirilir və o belə yüksək səviyyədədir. Mən şadam ki, hazırda burada sovet dövründəkindən daha çox azərbaycanlı təhsil alır və gələcəkdə onların sayı artsa, daha da sevinərəm.

Demək istəyirəm ki, o zaman Xarici İşlər Nazirliyi bu instituta, hər halda, kifayət qədər diqqət yetirmirdi. İqor Sergeyeviç, siz onda XİN-də işləyirdiniz, bunları məndən yaxşı bilirsiniz. O dövrdə Xarici İşlər nazirinin bu instituta gəldiyini, müəllimlər və tələbələrlə görüşdüyünü xatırlamıram. Görün indi buna nə qədər diqqət yetirilir. İşinin çoxluğuna baxmayaraq, İqor Sergeyeviç mənə və sizə diqqət əlaməti olaraq buraya gəlmişdir.

Əziz dostlar! Mən yəqin ki, sizi yordum. Nə qədər danışdığımı bilmirəm, saata baxmamışdım. Mənə göstərdiyiniz diqqətə görə, bu gün mənə institutunuzun fəxri doktoru adı verilməsi ilə əlaqədar bütün sənədləri təqdim etdiyinizə görə səmimi təşəkkürümü bildirirəm. Sizi bir daha əmin edirəm ki, mən bunu yüksək qiymətləndirirəm və institutunuzun layiqli fəxri doktoru olacağam. Müəllim və tələbələrə isə cansağlığı, xoşbəxtlik, firavanlıq və təhsildə böyük uğurlar arzulayıram.

Diqqətinizə görə çox sağ olun.

* * *

Azərbaycan prezidenti universitetə Bakının mənzərəsi təsvir olunmuş rəsm əsəri hədiyyə etdi.

Anatoli Torkunov: Hörmətli Heydər Əliyeviç, universitetin ünvanına dediyiniz səmimi sözlərə görə Sizə təşəkkürümü bildirirəm.

Hesab edirəm ki, Heydər Əliyeviçin olduqca maraqlı çıxışı bu gün Qafqazda baş verənlər, ölkələrimiz arasında münasibətlərin necə inkişaf etməsi barədə bilik və təsəvvürlərimizi zənginləşdirməklə yanaşı, tələbələrimiz, eləcə də bizim hamımız üçün müstəsna əhəmiyyətə malikdir. Çünki, Heydər Əliyeviç, Siz institutumuzun tarixini xatırladınız, onun hələ sovet dövründəki mövqeyindən danışdınız, bugünkü əhəmiyyətini vurğuladınız.

Beləliklə, tələbələr başa düşdülər ki, hər şey heç də həmişə belə asan olmayıbdır. Buna görə də mən Sizə ürəkdən minnətdaram, əziz dostlar,

onu da deməliyəm ki, vaxtilə, keçmiş illərdə, haqqında danışdığımız bütün bu hadisələrdən əvvəl mən əcnəbi tələbələrlə iş üzrə prorektor işləyərkən, məhz o vaxt Heydər Əliyeviç bizə çox kömək etdi, çünki mindən artıq tələbə var idi, kadrlar isə çatışmırdı. O, institutu kadrlarla gücləndirmək üçün hökumətin vasitəsilə bizə kömək etdi və biz bunu yaxşı xatırlayırıq. Çox sağ olun.

Rusiya Federasiyasının Xarici İşlər naziri İqor İvanovun çıxışı

Çox hörmətli Heydər Əliyeviç!

Mən bir-iki kəlmə demək istərdim. Beynəlxalq Münasibətlər İnstitutunun fəxri doktoru kimi yüksək ad almağınız münasibətilə Sizi Xarici İşlər Nazirliyi kollegiyasının tapşırığı ilə və öz adımdan ürəkdən təbrik etmək istərdim. Bu yaxınlarda institutun 60 yaşı tamam olacaq və bu bizi son dərəcə məmnun edir, sevindirir. Mənim üçün xoşdur ki, Siz bu institutun əvvəlki şöhrətini saxladığını, böyük nüfuza malik olduğunu, yeni demokratik Rusiya üçün müxtəlif sahələrdə gərəkli kadrlar hazırladığını qeyd etdiniz. Şadıq ki, bizim Xarici İşlər Nazirliyi bu institutun məzunları hesabına öz sıralarını artırır. Biz hər il bu institutun 100-120 məzununu qəbul edirik. Bu il 150 ali məktəb məzununu işə qəbul etmişik ki, onların da 50 faizi bu institutu bitirmişdir. İnstitutun 60 illik tarixi ərzində institutun məzunları arasından görkəmli diplomatların böyük bir nəsli yetişmişdir. Bizim üçün xoşdur ki, bu institutun məzunları həm Rusiyada, həm də MDB-nin bütün digər ölkələrində çalışırlar. Biz MDB dövlətlərinə diplomat kadrları hazırlamaq üçün bundan sonra da fəal əməkdaşlıq edəcək və bu təcrübəni inkişaf etdirəcəyik.

Bu zəruridir, çünki biz öz taleyimizi, öz gələcəyimizi birgə qurmalıyıq və vacibdir ki, gələcəkdə ölkələrimizin mənafelərinə xidmət edəcək münasibətlər artıq tələbəlik illərindən yaransın. İkitərəfli Rusiya-Azərbaycan münasibətlərinin qurulmasında Sizin göstərdiyiniz nümunəni, zənnimcə, biz hər gün görürük. Biz yaxşı başa düşürük ki, Rusiyada da, Azərbaycanda da xarici siyasəti ölkələrimizin prezidentləri müəyyənləşdirir, ona başçılıq edir, istiqamət verirlər.

Son illərdə biz keçmişdən miras qalmış mənfi meylləri nəzərə almaqla, münasibətlərimizdə çətin bir dövrü keçərək, Rusiya-Azərbaycan münasibətlərinin gələcəyinə inamla baxırıqsa, bu, əlbəttə, Rusiya prezidentinin və Azərbaycan prezidentinin xidmətidir.

Bu il Xarici İşlər Nazirliyi şanlı tarixi – 200 illiyini qeyd edir. Biz bu yubileyi bütün il ərzində müxtəlif tədbirlərlə, elmi konfranslar – o cümlədən bizim institutda – keçirməklə qeyd edirik.

Biz keçmiş tarixləri, 200 illik tarixi dövrün hadisələrini yada salırıq. Sizə yüksək fəxri doktor diplomu verilərkə dediniz ki, Siz çoxlu dərəcələrə və adlara layiq görülmüsünüz, lakin bu institutun fəxri doktoru adını almaq Sizin üçün xüsusilə xoşdur. Demək istəyirəm ki, Sizin müxtəlif vəzifələrdə çoxcəhətli fəaliyyətinizin dəfələrlə çoxlu yüksək dövlət və hökumət mükafatları ilə qeyd olunduğunu bilirəm. Mən Sizdən bizim Xarici İşlər Nazirliyinin bir nişanını da qəbul etməyi xahiş edərdim. Bu, Xarici İşlər Nazirliyinin 200 illiyi ilə əlaqədar təsis etdiyimiz yubiley nişanıdır və həmin nişanla biz xarici əlaqələrin inkişafına böyük töhfələr vermiş diplomatlarımızı, eləcə də ölkəmizlə münasibətlərin inkişafında xüsusi xidmətləri olan xarici ölkələrin siyasi xadimlərini təltif edirik.

Mən Rusiyanın məşhur diplomatlarına həsr olunmuş ikicildlik kitabı da Sizə hədiyyə etmək istərdim. Əminəm ki, nazirliyimizin 200 illik tarixində xalqlarımız arasında dostluğun tarixinə həsr olunmuş mühüm səhifələr az deyildir. Mən çox şadam ki, ən yeni tarix bu gün Heydər Əliyeviçin ikitərəfli münasibətlərimizin inkişafına toxunaraq, qeyd etdiyi nailiyyətlərlə əlamətdardır. Başlıcası isə, bir daha təkrar etmək istəyirəm ki, biz strateji xarakter daşıyan bu münasibətlərin gələcəyinə inamla baxırıq.

Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı

Çox hörmətli İqor Sergeyeviç!

Xarici İşlər Nazirliyinin 200 illiyi ilə əlaqədar məni bu nişanla təltif etdiyinizə görə sizə təşəkkür edirəm. İl ərzində keçirilən bu yubiley münasibətilə sizi ürəkdən təbrik edirəm və arzu edirəm ki, uzun onilliklər ərzində, rus diplomatiyasının iki əsri ərzində yaranmış bu zəngin ənənələr, Sizin bugünkü təcrübəniz və imkanlarınız Rusiya Federasiyasının xarici siyasət fəaliyyətinin gələcək inkişafına kömək etsin.

Sizə uğurlar arzulayıram. Mən Sizin Xarici İşlər naziri vəzifəsindəki fəaliyyətinizi yüksək qiymətləndirirəm. Doğrudur, mən başqa dövlətin prezidentiyəm, lakin biz bir-birimizlə sıx bağlıyıq, özü də Siz məhz Azərbaycan-Rusiya münasibətlərinin inkişafında çox böyük rol oynayırsınız. Sizə cansağlığı, uğurlar diləyir və ən xoş arzularımı bildirirəm.

MDBMİ(U)-nun rektoru Anatoli Torkunov mərasimi yekunlaşdıraraq dedi: Mən salondakılar adından Heydər Əliyeviçə bir daha cansağlığı, uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq və tərəqqi arzulayıram. Sağ olun.

* * *

Elə həmin gün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Rusiya Xarici İşlər naziri İqor İvanovla görüşü keçirildi. Görüşdə hər iki ölkəni maraqlandıran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

* * *

Sentyabrın 24-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Moskvaya işgüzar səfəri başa çatdı.

PREZİDENT HEYDƏR ƏLİYEV BAKIDA AZƏRBAYCAN ƏDƏBİYYATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, BÖYÜK ŞAİR VƏ DRAMATURQ HÜSEYN CAVİDİN EV – MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ*

24 oktyabr 2002-ci il

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun binasında, XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, şair və dramaturq Hüseyn Cavidin vaxtilə mənzili olmuş otaqlarda ədibin ev-muzeyinin açılmasına həsr edilmiş mərasim keçirilmişdir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mərasimdə iştirak etmişdir.

Muzeyin direktoru Turan Cavid dövlətimizin başçısını səmimiyyətlə qarşıladı, ona gül dəstəsi təqdim etdi.

Prezident Heydər Əliyev muzeyin açılışını bildirən qırmızı lenti kəsdi.

Turan Cavid atasının 120 illik yubileyinin qeyd olunması haqqında prezidentin sərəncamını yüksək qiymətləndirdi və dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi. Sonra o, muzeyin yerləşdiyi bina haqqında məlumat verərək dedi ki, sovet dövründə ilk vaxtlar burada müəllimlər seminariyası olmuşdur. Eyni zamanda, bu mərtəbədə müəllimlər də yaşayıblar. Burada birinci mənzil Hüseyn Cavidə, sonra isə seminariyanın direktoru Pənah Qasımova verilmişdir. Hacı Zeynalabdin Tağıyevin tikdirdiyi bu binada lap əvvəllər qız məktəbi yerləşirdi. Bu bina yüz ildir tikilibdir. Sonralar Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti, sovet dövründə isə Mərkəzi İcraiyyə Komitəsi, Ali Sovet burada yerləşirdi. 1920-ci ildən 1937-ci ilə qədər biz burada yaşamışıq. 1937-ci il sentyabrın 28-də bizi buradan çıxardılar. O vaxtdan 65 il keçibdir.

Prezident Heydər Əliyev ədibin həyat yoldaşı Mişginaz xanımın şəkillərinə, Hüseyn Cavidin uşaqlıq, gənclik illərini əks etdirən, müxtəlif illərdə Naxçıvanda, Tiflisdə, Türkiyədə çəkdirdiyi fotoşəkillərə baxaraq dedi:

Heydər Əliyev: Mən sizin ananızı görmüşəm. Bir vaxt mənim anam xəstə idi. İndi Cavadzadənin klinikası olan bina o vaxt xəstəxana idi, orada müalicə edilirdi. Deyəsən sənin anan da yanaşı otaqda müalicə olunurdu. Bu təxminən 1956-1957-ci illər idi. Mən anamın yanına gedib-gəlirdim.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırx ikinci kitab. B., Azərnəşr, 2012, s. 122-132

Anam mənə deyirdi ki, Hüseyn Cavidin həyat yoldaşı Mişginaz xanım da buradadır, söhbət edirik. Təbiidir, anam keçmişdə onunla tanış olmamışdı, xəstəxanada tanış olmuşdular, görüşmüşdülər. Mən də o vaxtlar anamın yanına gələndə onu anamın yanında görmüşdüm. Mişginaz xanım çox gözəl qadın olubdur. Mən o vaxt onu görəndə də gözəlliyini saxlamışdı.

Turan Cavid atasının muzeydə saxlanılan əlyazmaları, kitabları, Türkiyədən gətirdiyi əsərlər, sürgündən yazdığı məktublar barədə məlumat verdi, Hüseyn Cavidin oğlu Ərtoğrulun, qardaşı Şeyx Məhəmmədin fəaliyyəti haqqında danışdı, Hüseyn Cavidin cənazəsinin qalıqlarının Uzaq Sibirdən doğma vətənə gətirilməsinə və Naxçıvana aparılıb orada dəfn olunmasına, ədibin şərəfinə böyük məqbərə ucaldılmasına görə respublikamızın rəhbərinə təşəkkürünü bildirdi.

Prezident Heydər Əliyev Şeyx Məhəmmədin ona Azərbaycan dilindən dərs dediyini vurğuladı, Ərtoğrulu da həyatda gördüyünü bildirdi: Mən sənin qardaşını da görmüşəm. Deyəsən 1943-cü il idi, Naxçıvanda idim. Mənə dedilər ki, Hüseyn Cavidin oğlunu əsgərlik xidmətindən buraxıblar, gəlibdir. Ağır xəstə idi. O bir dəfə küçə ilə gedirdi. Onu mənə göstərdilər. Əsgər paltarında idi. Üz-gözü çox solğun, amma sifəti gözəl bir oğlan idi. Amma ondan sonra xəbərim olmadı. Nə vaxt vəfat etdiyi barədə xəbərim olmadı. Çünki mənim işlərim çox idi.

Turan Cavid: Cənab Prezident, onun dəfnində qohumlarından başqa, heç kim iştirak etmədi. Çünki qorxurdular. Amma indi Naxçıvanda gözəl məqbərə Cavidlərə qismət oldu. Bu, taleyin işi imiş.

Heydər Əliyev: Elədir. Hüseyn Cavid çox faciəli həyat keçiribdir. Ancaq onun yəqin bir xoşbəxtliyi də o imiş ki, sən varsan, yaşamısan. Gəl açıq danışaq, sən yaşamasaydın, bütün bu gördüklərimizi bir yerə yığmaq olmayacaqdı. Vəfalı övlad ata-ana üçün həmişə çox böyük nemətdir. Amma vəfasızlar da var. Yenə də deyirəm, sən varsan, deməli, bunlar yaranıbdır. Bunları səndən savayı heç kəs görə bilməzdi. Demək, Allah onlara əzab-əziyyət qismət edibdir, ancaq yaxşı ki, səni də onlara verib və Allah səni saxlayıbdır ki, bu irsi qoruyub yaşadasan.

Turan Cavid: Cənab Prezident, bu stolun da maraqlı bir tarixi var. Mənim arzumdur ki, Siz onun arxasında oturasınız. Bu həmin stoldur ki, vaxtilə evimizi yoxlayanda onun siyirtməsi olduğunu bilməmişdilər. Atamın bir çox əsərləri burada saxlanmışdır. İndi bizə nə qalıbsa, bunun sayəsində qalıbdır.

Bakı Şəhəri İcra Hakimiyyətinin təşəbbüsü ilə bu gün saat 5-də Hüseyn Cavidin heykəlinin qarşısında böyük konsert olacaqdır. Orada onun əsərlərindən parçalar da səslənəcəkdir.

Heydər Əliyev: İndi o heykəl çox gözəldir, ətrafındakı bağı da düzəltdik. Əvvəl ora çox pis vəziyyətdə idi. Mən həmişə oradan keçirəm,

hər dəfə fikirləşirdim, axı bu niyə belədir? Hacıbala bu vəzifəyə təyin olunandan sonra özü də təşəbbüs göstərdi, mən də ona dedim, oranı düzəldibdir. İndi mən oradan keçəndə görürəm ki, nə qədər adam istirahət edir, nə qədər gözəl bir bağdır. Orada iki fəvvarə də var. Biri Cavidin heykəlinin yanında, digəri onun ətrafındadır.

Turan Cavid: Çox gözəl bağdır. Fəvvarələr də gözəldir. Atamın özü də suyu xoşlayırdı. İstirahət yeri üçün çox əlverişlidir.

Heydər Əliyev: Orada çox adam yaşayır. Əvvəllər o bağ yaxşı vəziyyətdə deyildi, heç kəs oraya istirahətə getmirdi. İndi elə gözəl vəziyyətdədir ki, ətrafda yaşayan insanlar hər gün gəlib dincəlirlər.

Turan Cavid: Cənab Prezident, bu kitab «Peyğəmbər» əsəridir. Yuxarıda isə Şeyx Məhəmmədin şəklidir.

Heydər Əliyev: Mənə Azərbaycan dilini ilk dəfə öyrədən Şeyx Məhəmməd olmuşdur. Gözəl müəllim idi, amma çox da tələbkar idi.

Turan Cavid: Siz həmişə müəllimlərinizi xatırlayırsınız. Tələbkar müəllim olmaq çox yaxşıdır.

Heydər Əliyev: Bəli, müəllim tələbkar olmasa, şagird oxuya bilməz. Özü də o vaxtlar. Mənim kimi şagirdə qarşı o qədər də tələbkar olmaq lazım deyildi. Amma mənimlə birlikdə 25-30 nəfər oxuyurdu, müxtəlif səviyyədə idilər. O çox tələbkar müəllim idi. Özü də dərsi qanun-qayda ilə keçirdi. O mənə 5-ci sinfə qədər Azərbaycan dili dərsi deyibdir. Amma deyim ki, görünür o vaxtlar maddi çətinliklər içində yaşayıbdır. Mən özüm də kasıb bir ailədən idim. Ümumiyyətlə, o vaxtlar dövlətli adam yox idi, müəllim də kasıb idi, məktəbli də kasıb idi. Amma bizim bəzi müəllimlər, keçmişdən qalan müəllimlər var idi. Onların əyin-başı yaxşı idi. Amma bunun çox sadə paltarı vardı.

Turan Cavid: O, sadə insan idi. Birinci arvadından üç uşağı, o birisindən 5 uşağı var idi. Ona görə kasıb idi.

Heydər Əliyev: Görürdüm, çətinlik içində yaşayırdı. Təsəvvür edin, mənim o vaxtlar neçə yaşım var idi, üçüncü, dördüncü sinifdə oxuyurdum. Ortadan da aşağı səviyyədə yaşayırdı, amma çox tələbkar, intizamlı müəllim idi.

Turan Cavid: O, şeirlər də yazırdı, folklor materialları toplayırdı. Bir-ikisini oğlu mənə veribdir.

Heydər Əliyev: İndi onun uşaqlarından qalan varmı?

Turan Cavid: Bəli, iki qızı, iki oğlu durur. Oğlanları Moskvada yaşayırlar, qızların biri ədəbiyyat müəllimidir, biri isə bioloqdur, işləyirlər.

Heydər Əliyev: Turan xanım, Hüseyn Cavid bu qədər böyük əsərlər yazıbdır. Demək olar, hamısı tarixi mövzulu əsərlərdir. Elə bir əsər yazmayıb ki, məsələn, filankəs filankəsnən sevişdi, yaxud, sevişmədi, nə

bilim, nə təhər oldu. Onun əsərləri tarixi mövzudadır və bunlarda tarixi dəqiqlik var. O elə çox da yaşamayıbdır. Sən mənə de görüm, düzdür, sən o vaxtlar uşaq olmusan, amma indi sən yeganə adamsan ki, onu hamıdan yaxşı tanıyırsan. O bu qədər tarixi nə cür yazıbdır, bilibdir?

Turan Cavid: Cənab Prezident, onun mütaliəsi son dərəcə güclü olubdur. Gəncliyindən gözləri zəif idi. İstanbula gedəndə kitablar gətirirdi. O qədər də firavan dolanmayıb, amma pulunu kitablara verirdi. O, uzaqgörən idi. Müharibə başlayan zaman onun yanına gələnlər deyir ki, Cavid bizə söylədi ki, bu müharibə ya 4, ya da 5 il çəkəcək və Sovet İttifaqı qalib gələcəkdir. Hətta həbslər başlayan zaman deyirdi ki, məni niyə həbs edirsiniz, əsərlərim göz qabağındadır. O, son əsərlərinin birini də gizlədə bilmədi. Heç olmasa, evdən çıxara bilərdi.

Heydər Əliyev: Yəni onun tapılmayan əsərləri var?

Turan Cavid: Bəli, hamısını apardılar və heç birini qaytarmadılar.

Heydər Əliyev: Axı bərpa olunan əsərləri var?!

Turan Cavid: Yox, onlar çap olunanlardır. Onun yazıb bitirdiyi və çap olunmayan «Otello», «Çingiz», «İblisin intiqamı», «Şəhla», «Telli saz» pyeslərini, «Koroğlu»nun ssenarisini – hamısını apardılar. O, bəraət alan kimi, birinci məktubu təhlükəsizlik orqanlarına yazdım ki, atamın xəttini tanıyıram. Mən 4-cü sinifdə oxuyanda, yayda bağda olarkən ərəb əlifbasını mənə öyrətmişdi. Mənə dedilər ki, heç bir şey qalmayıbdır. «Telli saz» və «Şəhla» əsərləri evdən çıxarılıbdır. «Telli saz»ı aktyorlar tamaşaya qoymaq istəyiblər, nədənsə, yarımçıq qalıbdır. Yeganə olaraq «Xəyyam» əsərini Yerevanda bir aktyordan almışam.

Heydər Əliyev: Mən elə bilirdim «Xəyyam» qalıbdır.

Turan Cavid: «Xəyyam» yox idi, çap olunmamışdı. 1935-ci ildə, sovet hökumətinin qurulmasının 15-ci ildönümü münasibətilə müsabiqə elan ediblər. Cavid bu əsəri həmin müsabiqəyə verir və üçüncü mükafatı alır. Mükafat almış əsər kimi, «Xəyyam» tamaşaya qoyulmalı idi. Elə oldu ki, özü də getdi, əlyazma da getdi, əsər də itdi.

Heydər Əliyev: Demək, onun vaxtında «Xəyyam» tamaşaya qoyulmayıbdır.

Turan Cavid: Azərbaycan teatr tarixində yeganə əsərdir ki, yazılandan 35 il sonra tamaşaya qoyulmuşdur. 1935-ci ildə yazılmış, 1970-ci ildə tamaşaya qoyulmuşdur.

Heydər Əliyev: Onu tamaşaya Mehdi Məmmədov qoyubdur.

Turan Cavid: Bəli, o qoyubdur, gözəl tamaşa idi.

Heydər Əliyev: Mən o tamaşaya baxdım. Amma mən onda bunu bilmirdim. Elə bilirdim ki, «Xəyyam» o vaxtlar, Cavidin sağlığında tamaşaya qoyulubdur.

Turan Cavid: 35 ildən sonra Mehdi Məmmədov tamaşaya qoyubdur.

Heydər Əliyev: Demək, çap da olunmamışdı?

Turan Cavid: Bəli, çap olunmamışdı. Bir nəfər əsərin üzünü köçürübdür. Bu çox maraqlıdır, öz xətti deyil. Bu əsər mükafata layiq görüldüyünə görə, qəzetlərdə ondan parçalar çap olunmuşdu. Mən onları da götürdüm.

Heydər Əliyev: Yaxşı ki, saxlanılıbdır.

Turan Cavid: Bu əsəri əldə edəndə, elə bil dünyanı mənə verdilər. İndi ümid edirəm ki, bəlkə o biri əsərlər də tapıldı. Hər halda, insan ümidsiz yaşamır. Bəlkə hələ qapalı yerlər var ki, əsərləri vermirlər.

Heydər Əliyev: Yəni deyirsən, burada qapalı yerlər var? Mən bir də yoxladaram.

Turan Cavid: Cənab Prezident, yadımdadır, Siz bir dəfə çıxışınızda dediniz ki, işə təzə gələndə işçilərinizdən biri deyib ki, həyətdə Cavidin əsərlərini yandırıblar.

Heydər Əliyev: Bəli, mən Moskvadan təzə gəlmişdim. Burada işləyirdim. Xeltov adlı bir nəfər var idi. Bir-iki işçi o vaxtlar işləyən adamlar idi, danışırdılar ki, Hüseyn Cavidin əsərlərini və Salman Mümtazın – onun çox kitabları olubdur – kitablarını yeşiklərə doldurub həyətə tökmüşdülər, yandırırdılar. Özü də bunu edən, o işi aparan – indi Cavidin işinə baxmaq lazımdır, həmin Xeltov olub, yoxsa yox – bir qrup adam olubdur, onların içində ermənilər də olubdur. Xeltov yəhudi idi, erməni deyildi. Onların çoxu sonralar həbs edildi. Bəli, keçmiş binanın həyətində yeşiklərə doldurub yandırıblar. Bəzən də qızınmaq üçün yandırıblar. Yanacaq olmayanda kağız yandırırdılar. Mən müharibə vaxtı bunu görmüşəm. Yanacaq yox idi. Köhnə kağızları, kitabları yandırırdıq, əllərimizi qızdırırdıq.

İndi Allaha şükür, qalan əsərləri də çoxdur.

Turan Cavid: Mən Sizə təqdim edəcəyəm. «Bahar şəbnəmləri» adlı şeirlər kitabı təzə, Cavidin öz qələmindən çıxan tərzdə nəşr olunubdur. Çox gözəl çap edilibdir.

Dünən imzaladığınız sərəncama görə Sizə təşəkkür edirik. Görünür, Allah insanların hərəsini yer üzünə bir missiya üçün göndəribdir. Çox qəribədir, hərə bir iş görməlidir. Həqiqətən də, bu işi başlayan adam onu sona çatdırmalı idi. Bunu da Siz etdiniz. Adicə bu otaqların alınmasında deyirdilər ki, mümkün deyildir. Deyirdim ki, həyatda mümkün olmayan şey yoxdur. İnsan təkcə ölümün qarşısında acizdir, qalan hər şey insan iradəsindən asılıdır. Gərək hər işi ürəklə edəsən. Bu işləri gələcək nəsillər üçün etmisiniz.

Heydər Əliyev: Dünən sərəncam imzalayanda düşündüm ki, 20 il bundan öncə ilk dəfə mən Hüseyn Cavidin 100 illik yubileyi ilə əlaqədar fərman imzalamışam. Onun cənazəsinin qalıqlarının vətənə gətirilməsi dövrü yadıma düşdü. Sonra fikirləşdim ki, dünya qəribədir, 20 il bundan öncə başladığım işi yenə davam etdirirəm. Bu birincisi. İkincisi, mən onun 120 illik yubileyi haqqında sərəncam imzalamışam. Onun cənazəsinin qalıqlarının gətirilməsi, sonrakı dövr də qəribə dövr idi.

Bilirsiniz, Cavidin 1937-ci ildə repressiya zamanı həbs edilməsi, sürgün olunması və orada vəfat etməsi, bu özü bir dövrdür. Vəfat etdi, getdi torpağa, qurtardı. Amma ondan sonra, əgər loru dildə desək, onun dirildilməsi, yəni, mənəvi cəhətdən bəraəti məsələsi var idi. Biz bunu 20 il öncə etdik.

Turan Cavid: Mən həmişə deyirəm, onlar cismani bəraət aldılar.

Heydər Əliyev: Bəli, elədir. 1980-ci ildə onun cənazəsinin, nəşinin Sibirdən gətirilməsi mənim xatirimdədir. Nə qədər çətinliklər var idi. Birincisi, gedib onun gətirilməsi məsələsi nə qədər çətin idi. Bunu etdik. Mənə xəbər verdilər ki, onu gətirdilər. Xatirimdədir, burada böyük bir müşavirə topladım ki, nə edək? Hərə bir fikir deyirdi. Düzü, o vaxt çoxları, elə sənin özün də deyirdin ki, Cavid Fəxri xiyabanda dəfn olunsun. O vaxtlar bizim yazıçılar, alimlər toplaşdılar, amma mən yeganə adam idim ki, – indi özümü tərifləmək istəmirəm – dedim ki, Naxçıvanda dəfn olunsun.

Turan Cavid: Bunun özü uzaqgörənlik idi.

Heydər Əliyev: Amma nə üçün Naxçıvanda?! Mən Naxçıvanın qəbiristanlığını da tanıyıram, Naxçıvanda Fəxri xiyaban da, başqa bir şey də yoxdur. Amma mən Naxçıvan deyəndə, nəyi nəzərdə tuturdum? Mən Naxçıvan deyəndə, nəzərdə tuturdum ki, şəhərin mərkəzində, gözəl bir yerdə dəfn olunsun və qəbri üzərində məqbərə ucaldılsın. Mən bunu deyirdim. Mən bunu başa salandan sonra çoxları razı oldu, amma bəziləri yenə başladılar ki, Bakı paytaxtdır. Mən dedim, axı Naxçıvan onun doğulduğu yerdir. Bir də burada, Fəxri xiyabanda Azərbaycanın böyük insanlarının çoxu yan-yanadır. Təəssüflər olsun ki, orada layiq olmayanlar da var. Belədir, hər dövrdə kimsə, hansısa bir səhv buraxır. Onun nəticəsində belə şeylər olur. Amma mənim fikrim, düşüncələrim belə idi.

O vaxt göndərdim, Naxçıvanda yer seçdilər, çox da gözəl yerdir. Yaşadığı evin yanında. Hamısını mənə dedilər. Orada onu böyük təntənə ilə dəfn etdilər. Ancaq iki ildən sonra mən buradan getdim. Mən gedəndə də tapşırıqlar vermişdim, amma etmədilər. Sonra mənim özüm hər şeyi etdim. Mən bunu sizə demişəm. O vaxt Moskvada ağır vəziyyətdə, məhdudiyyətlər içində olanda çox şeylər düşündüm. Cavidin məzarını da düşünmüşdüm.

Naxçıvana gələn kimi, təxminən 80 minə qədər adam mənimlə görüşmək üçün böyük meydana toplaşmışdı. Mən oraya getdim. Meydan o qədər dolu idi ki, insanlar gəlib qəbrin yanına çatmışdılar. Getdim, dedim, əvvəlcə mənə qəbri göstərin. Göstərdilər, dəhşətə gəldim. Ondan sonra da əlacım yox idi. Çünki mən Naxçıvanda adi bir insan kimi yaşayırdım, heç bir səlahiyyətim, vəzifəm yox idi. Sonra məni orada deputat seçdilər, yenə də Naxçıvanın rəhbərliyinə dedim ki, belə bir iş görmüşük, gəlin axıra çatdıraq. Onlar mənə dedilər ki, gəlin edək. Amma vəziyyət çətin idi, o qədər də mümkün deyildi. Mən 1991-ci ildə Naxçıvana rəhbər seçildim və dərhal bir-iki layihə verdim. Naxçıvanın Mədəniyyət naziri Fəttah Heydərovu sənin yanına göndərdim. Dedim, Turan xanımın yanına get, onunla danış, gəlsin görək, hansı layihə ola bilər. Bir neçə layihəyə baxdım. Ancaq o vaxt istəklərimi yerinə yetirməyə mənim imkanım yox idi. Sonra o şeyi ki, mən etdim, bunun üçün başqa imkan lazım idi. Amma görünür ki, bu adamın taleyi ağır olubdur. Onun ağır taleyi var, amma gör sonu necədir. Kim bunu təsəvvür edə bilərdi ki, bu cür məqbərə ucaldılsın. Azərbaycanda ikinci şəxs yoxdur ki, onun sevimli həyat yoldaşı da, oğlu da onunla bərabər bir yerdə dəfn olunsun.

Turan Cavid: Mən həmişə bir şeyə inanıram ki, nə isə gecikirsə, bu, uğurlu səbəbə görə gecikir. Bunlar vaxtilə olsaydı, yəqin belə olmayacaqdı. Demək, bu, mütləq gecikməli idi. Azərbaycanda Sizdən başqa heç kəs onların üçünü də birləşdirə bilməzdi. Bu mənim üçün çox böyük ağrı idi. Ona görə mən və çoxları çox minnətdarıq və bunu yüksək qiymətləndiririk.

Heydər Əliyev: Allah Hüseyn Cavidə rəhmət eləsin. Mişginaz xanıma rəhmət eləsin, Ərtoğrula rəhmət eləsin. Biz onların xatirəsini əbədiləşdirmək üçün nə mümkündür etmişik, bundan sonra da edəcəyik.

Turan Cavid: Əminəm ki, onların ruhları bu evdədir. Burada 17 il çox xoş günlər keçirilibdir.

Heydər Əliyev: Bu gün də xoş söhbət gedir. Doğrudur, bu söhbət bir az məyusluq doğurur.

Turan xanım, mən təbrik edirəm ki, ev muzeyi açıldı. Buranın qapılarını insanlar üçün açın. Qoy gəlsinlər, baxsınlar, görsünlər ki, bunlar bizim xalqımızın, millətimizin tarixidir və insanlar bu tarixlə tanış olsunlar. Tariximizi daim insanlara, xüsusən gənc nəslə anlatmaq, bildirmək, öyrətmək lazımdır. Çünki tarixini bilməyən insan öz millətinə, xalqına sədaqətlə xidmət edə bilməz və həqiqi insan ola bilməz. Ona görə də biz Azərbaycanda muzeylər yaradarkən tariximizin ayrı-ayrı hissələrini bugünkü nəsillərə, gələcək nəsillərə göstərmək istəyirik. Bu da bunun gözəl bir nümunəsidir. Allah xeyirli eləsin.

Turan Cavid: Çox sağ olun. Allah Sizdən razı olsun.

* * *

Respublikamızın rəhbəri muzeydə toplanmış maraqlı və qiymətli sənədlərlə, eksponatlarla tanış oldu, Hüseyn Cavidin Xalq rəssamı Ömər Eldarov tərəfindən yaradılmış heykəlinə, Naxçıvanda ucaldılmış məqbərəsinin maketinə baxdı.

AZƏRBAYCAN ƏDƏBİYYATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, BÖYÜK ŞAİR VƏ DRAMATURQ HÜSEYN CAVİDİN EV-MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ*

24 oktyabr 2002-ci il

Hörmətli alimlər!

Xanımlar və cənablar, dostlar!

Mən bu gün uzun bir fasilədən sonra bu binaya ayaq qoydum. Keçmişdə, 1970-1980-ci illərdə mən Azərbaycanda işləyəndə bu binaya çox gəlmişəm, çünki onda burada Azərbaycanın Ali Soveti yerləşirdi. Gəlib burada iclaslarda iştirak edirdim və hər dəfə bu salonda Azərbaycanın görkəmli şəxsiyyətlərinə, mədəniyyət, elm nümayəndələrinə yüksək dövlət mükafatları təqdim edirdim. İndi onlardan çoxları yoxdur. Ancaq muzeylərdə şəkillərini görəndə həmişə bunu xatırlayıram. Biz sonra Azərbaycanın Ali Soveti üçün yeni bina tikdik. İndi həmin o binada müstəqil Azərbaycanın Milli Məclisi yerləşir.

Bu bina haqqında çox söz-söhbət gedirdi ki, onu kimə verək. Müştəriləri, yəni bu binanı istəyənlər də çox idi. Bu da təbiidir. Çünki bu, tarixi binadır və indiyə qədər çox yaxşı qalıbdır. Azərbaycanın tarixi memarlıq abidələrindən biridir. Ancaq mən belə fikirdəydim ki, biz belə binaları yalnız elm, mədəniyyət sahəsində istifadə etməliyik. Ayrı-ayrı nazirliklərə, yaxud inzibati orqanlara belə binaları vermək o qədər də məqsədəuyğun deyildir.

Bu, keçmişdə də olubdur. Amma mən o illərdə də belə fikirdəydim. Çünki belə binalar Azərbaycanın milli sərvətidir.

Hansısa bir nazirlik, hansısa bir inzibati təşkilat özü üçün bina ala bilər. Amma belə binaları memarlıq abidələri kimi, həm qoruyub saxlamaq lazımdır, həm də onlardan istifadə edərkən, uyğun təşkilatları orada yerləşdirmək, yaxud onların sərəncamına vermək lazımdır. Buna görə də çox mübahisələrdən sonra mən belə qərar qəbul etdim ki, bu bina Əlyazmalar Fonduna verilsin.

Bilirsiniz, indi burada iştirak edənlərin bəziləri xatırlayır, təəssüflər olsun ki, uzun illər, on illiklərlə bizim Əlyazmalar Fondu, yəni tarixi əlyazmaları, Azərbaycanın tarixini əks etdirən kitablar, sənədlər Elmlər

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırx ikinci kitab. B., Azərnəşr, 2012, s. 133-137

Akademiyası binasının birinci mərtəbəsində yerləşirdi. Onların da çoxu orada xarab olurdu. Ona görə belə bir qərar qəbul etdik və mən çox məmnunam ki, bu qərarın qəbul olunması indi özünü tam doğruldubdur.

İndi Əlyazmalar Fondu artıq elmi-tədqiqat institutuna çevrilibdir. Burada, dediyim kimi, Azərbaycanın tarixini əks etdirən çox nadir, çox qiymətli kitablar var. Onların da çoxu Azərbaycanın tarixi abidələridir. Burada indi kollektiv işləyir, elmi tədqiqatlar aparır. Ancaq eyni zamanda düşünürəm ki, Azərbaycanın elm sahəsi ilə məşğul olan adamları, insanları, yaxud ədəbiyyat və incəsənətlə, başqa sahələrlə məşğul olanlar bu əlyazmalardan istifadə edirlər və edəcəklər.

Sonra bir problem də yarandı. Bu da ondan ibarət idi ki, bu binada vaxtilə böyük şairimiz, dramaturq, filosof Hüseyn Cavid yaşamışdır. Hüseyn Cavidin yaşadığı otaqlarda onun ev-muzeyinin yaradılması məsələsi meydana çıxdı. Bu məsələ uzun illər gündəlikdə idi. Ancaq təəssüflər olsun ki, həll edilmirdi. Bunu da həll etdik. İndi bu binada Hüseyn Cavidin evmuzeyi yaradılıbdır. O bu binada yaşayıbdır. İndi mən orada oldum, muzeyi ziyarət etdim. 1920-ci ildən həbs olunana qədər o, ailəsi ilə bu binada yaşayıbdır. Biz burada muzey yaradılmasını təmin etdik. İndi Hüseyn Cavidin ev-muzeyi hazırdır.

Bu gün Hüseyn Cavidin anadan olmasının 120 ili tamam olur. Mən bu münasibətlə sərəncam vermişəm ki, respublikada təşkilatlar Hüseyn Cavidin 120 illik yubileyini keçirsinlər. Ona görə də mən məhz bu gün muzeyin açılışına gəldim.

Muzey çox maraqlıdır, olduqca maraqlıdır. Güman edirəm ki, Hüseyn Cavid yaradıcılığı ilə, onun həyatı ilə maraqlanan insanlar bu muzeydə maraqlı eksponatlar görə bilərlər. Həm də yaradıcılıqla, elmi işlə məşğul olanlar orada özləri üçün çox lazımlı məlumatlar toplaya bilərlər.

Biz repressiya qurbanlarının xatirəsini yad edirik. Onlar vaxtilə repressiyaya məruz qalıblar, həyatlarını itiriblər, ailələrində çox böyük çətinliklər, məhrumiyyətlər yaranıbdır. Bəli, təəssüflər olsun ki, bu böyük insanlara «sağ ol!» demək əvəzinə, onları repressiyalara məruz qoyublar. Biz Azərbaycanda repressiya qurbanlarının, demək olar ki, hamısının xidmətlərini bərpa etməyə çalışmışıq və çalışırıq. Çoxları haqqında kitablar yazılıb, abidələr yaradılıbdır və bu iş bundan sonra da gedəcəkdir.

Hüseyn Cavid də repressiya qurbanlarından biridir və özü də, ailəsi də çox məhrumiyyətlərə məruz qalmışdır. Ancaq repressiyaya təkcə ayrı-ayrı insanlar yox, təəssüflər olsun, bizim xalqımız da məruz qalmışdır. Repressiya təkcə ondan ibarət olmamışdır ki, ayrı-ayrı insanları həbs ediblər, əsərlərini qadağan ediblər, insanları güllələyiblər, öldürüblər, yaxud da sürgün ediblər, onlar həyatlarını orada itiriblər. Ümumiyyətlə,

bütün xalqımız repressiyaya məruz qalıbdır. Xalqımızın repressiyaya məruz qalması 1920-ci illərdən başlayaraq, mərhələlərlə, 1950-ci illərin sonlarına qədər davam etmişdir.

Amma bununla bərabər, tariximiz, mədəniyyətimiz də repressiyaya məruz qalmışdır, milliliyimiz də repressiyaya məruz qalmışdır. Çünki Sovetlər İttifaqı dövründə çalışmışdılar ki, bizim tariximizi də, keçmişimizi də, ənənələrimizi də yalnız kommunist ideologiyasına, sovet sosialist quruluşuna uyğunlaşdırsınlar. Təbiidir, belə bir proses gedən zaman həqiqi tariximiz, milli-mənəvi sərvətlərimiz ya məhv olmalı, ya itirilməli idi, yaxud da yaddan çıxarılmalı idi. Bu bizim tariximizdir. Biz bunu heç vaxt unutmamalıyıq. Bunlardan nəticə çıxarmalıyıq ki, xalqımız daha heç vaxt belə hallarla rastlaşmasın. Xüsusən, ona görə ki, indi bizim xalqımız azad olubdur. Biz müstəqillik əldə etmişik, 11 ildir müstəqil dövlətdə yaşayırıq.

Mən dəfələrlə demişəm və bu gün də bəyan edirəm ki, bizim müstəqilliyimizin sonu yoxdur. Belə də olacaqdır. Ancaq bu da bizdən asılıdır. Bugünkü, gələcək nəsillərdən asılıdır, hamımızdan asılıdır. Biz bu gün əlimizdən gələni edirik və etməliyik. Gələcək nəsillər üçün də biz nümunə yaratmalı, onlar üçün böyük irs qoyub getməliyik.

Repressiyaya məruz qalmış böyük tarixi, mənəvi dəyərlərimizdən, əsərlərimizdən biri də «Kitabi-Dədə Qorqud» dastanı olmuşdur.

Biz onun 1300 illik yubileyini keçirən zaman bu məsələni təhlil etdik, bu barədə danışdıq. Məqalələr, kitablar yazıldı ki, azərbaycanlıları «Kitabi-Dədə Qorqud»dan necə məhrum ediblər. İkinci dünya müharibəsindən sonra SSRİ-də gedən proseslər, o cümlədən Azərbaycanda gedən proseslər zamanı, 1950-ci ildə bizim bu tarixi abidəmizi tamamilə saxtalaşdırmağa, təhrif etməyə çalışdılar və buna da nail oldular. Amma biz «Kitabi-Dədə Qorqud»u xalqımıza qaytardıq. Onun 1300 illik yubileyini beynəlxalq miqyasda keçirdik və dünyaya göstərdik ki, bizim xalqımızın belə qədim tarixi var və belə bir tarixi abidəsi var.

O vaxt yubiley günlərində biz «Dədə Qorqud» eposunun, Azərbaycan dilində yazılmış eposun Drezden kitabxanasında saxlanılan nüsxəsinin surətini almaq istəyirdik. O indi gəlib çatıbdır. Mən onu sizə təqdim etmək istəyirəm. Hesab edirəm ki, Azərbaycanın bu günü və gələcəyi üçün ən böyük nailiyyətlərdən biridir ki, biz «Dədə Qorqud»u repressiyadan xilas etdik, xalqımıza qaytardıq. Nəhayət, onun əlyazmasının, indiyə qədər Drezden kitabxanasında qorunub saxlanılan əlyazmasının surətini biz Azərbaycana gətirmişik. Mən bunu Əlyazmalar İnstitutuna təqdim edirəm.

Sizinlə görüşməyimdən çox məmnunam. Sizin hamınıza bir daha cansağlığı və işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

* * *

Ağamusa Axundov *(Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər bölməsinin akademik – katibi):* Möhtərəm Prezident, Sizin Azərbaycan Milli Elmlər Akademiyasına göstərdiyiniz daimi qayğı və böyük diqqət hamının yadındadır və heç kim bu qayğını, diqqəti heç vaxt unutmayacaqdır. Azərbaycanın ulu abidəsi olan «Kitabi-Dədə Qorqud»un qədim əlyazmasının surətini Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutuna təqdim etməyiniz Sizin elmimizə göstərdiyiniz qayğının daha bir nümunəsidir.

Hörmətli Prezident, çox sağ olun. Akademiyanın bütün əməkdaşları adından Sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Xalqımızın, dilimizin, elmimizin inkişafı və gələcəyi naminə Sizə uzun ömür, cansağlığı və həmişə olduğu kimi, bütün işlərinizdə böyük uğurlar arzu edirəm. Çox sağ olun.

2. FƏRMANLAR. SƏRƏNCAMLAR

«İstiqlal» ordeni ilə təltif edilənlər*

1. B. M. Vahabzadənin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə Bəxtiyar Mahmud oğlu Vahabzadə «İstiqlal» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV.

Bakı şəhəri, 15 aprel 1995-ci il.
№ 319

2. C. Ə. Əliyevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan elminin inkişafında böyük xidmətlərinə görə Cəlal Əlirza oğlu Əliyev «İstiqlal» ordeni ilə təltif olunsun.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 29 iyun 1998-ci il
№ 736

3. M. N. Ələsgərovun «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda hüquq elminin və təhsilinin inkişafında böyük xidmətlərinə görə Murtuz Nəcəf oğlu Ələsgərov «İstiqlal» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

* http:/e-qanun.az

Bakı şəhəri, 19 sentyabr 1998-ci il
№ 769

4. A. X. Mirzəcanzadənin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan elminin inkişafındakı böyük xidmətlərinə görə Azad Xəlil oğlu Mirzəcanzadə «İstiqlal» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 29 sentyabr 1998-ci il
№ 775

5. Z. M. Bünyadovun «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan elminin inkişafındakı böyük xidmətlərinə görə Ziya Musa oğlu Bünyadov «İstiqlal» ordeni ilə təltif edilsin (ölümündən sonra).

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 18 dekabr 1998-ci il
№ 35

«Şöhrət» ordeni ilə təltif edilənlər

1.K. Ə. Kərimovun Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Elmi və hərbi vətənpərvərlik fəaliyyəti sahəsində böyük xidmətlərinə görə general-leytenant Kərim Əli oğlu Kərimov Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV.

Bakı şəhəri, 31 mart 1994-cü il.
№ 121

2. İ. D. Mustafayevin «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan elminin inkişafında böyük xidmətlərinə görə və anadan olmasının 85 illiyi münasibətilə akademik İmam Daşdəmir oğlu Mustafayev «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV.

Bakı şəhəri, 24 fevral 1995-ci il.
№ 285

3. C. B. Quliyevin «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan elminin inkişafında xidmətlərinə görə Cəmil Bahadur oğlu Quliyev «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 17 dekabr 1997-ci il
№ 654

4. K. A. Talıbzadənin «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan ədəbiyyatşünaslığının inkişafındakı xidmətlərinə görə Kamal Abdulla Şaiq oğlu Talıbzadə «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 13 avqust 1998-ci il
№ 746

5.İ. S. Səfərovun «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan elminin inkişafında göstərdiyi xidmətlərinə görə İbrahim Səfər oğlu Səfərov «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 27 avqust 1998-ci il
№ 762

6. B. A. Ağayevin «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda tibb elminin və səhiyyənin inkişafındakı xidmətlərinə görə Böyükkişi Ağa oğlu Ağayev «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 9 sentyabr 1998-ci il
№ 764

7. M. H. Abasovun «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda tarix elminin inkişafındakı xidmətlərinə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində fəal iştirakına görə Məzahir Həmid oğlu Abasov «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 15 dekabr 1998-ci il
№ 34

8. A. İ. Muxtarovun «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda elmin və təhsilin inkişafındakı xidmətlərinə görə Abdulla İbrahim oğlu Muxtarov «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

Bakı şəhəri, 23 dekabr 1998-ci il
№ 39

9. Y. M. Mahmudovun «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda tarix elminin inkişafındakı xidmətlərinə və respublikanın ictimai-siyasi həyatında fəal iştirakına görə Yaqub Mikayıl oğlu Mahmudov «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 13 fevral 1999-cu il
№ 100

10. İ. H. Əliyevin «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanda tarix elminin inkişafındakı xidmətlərinə görə İqrar Həbib oğlu Əliyev «Şöhrət» ordeni ilə təltif edilsin.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 13 mart 1999-cu il
№ 117

AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA*

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də bütün şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması əslində ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır.

1832-ci ildə «Tiflis əxbarı» qəzeti və 1845-ci ildə «Zaqafqazski vestnik» qəzetinə «Qafqazın bu tərəfinin xəbəri» adlı azərbaycanca buraxılan əlavə milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlar olmuşdur. Rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər sözün əsl mənasında hələ qəzet adlandırıla bilməzdi.

Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyulun 22-də «Əkinçi» qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bütün Qafqazda böyük əkssəda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olmuşdur. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər «Əkinçi» qəzeti səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Mütərəqqi ideyaların carçısı və tribunası olan «Əkinçi» elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan «Əkinçi» qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur. O, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. Qəzetdə təbiət elmləri və kənd təsərrüfatının inkişafı ilə bağlı elmi-kütləvi məqalələr verilirdi. «Əkinçi» Azərbaycandan kənarda da – Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi altıncı kitab. B., Azərnəşr, 2009, s. 87-93

Milli demokratik mətbuatın «Əkinçi» qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvü vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı.

1877-ci ildə «Əkinçi» qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən «Bakinski listok» olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet «Bakinskiye izvestiya» nəşrə başlamışdır. Rusdilli qəzetlər içərisində daha uzunömürlü olmuş «Kaspi»nin 1897-ci ildən etibarən naşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüş və təxminən həmin dövrdən onun redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əlibəy Hüseynzadə olmuşdur. Rus dilində nəşr edilən qəzetlər Azərbaycan səhifəsi yaratmaq təşəbbüsü göstərsələr də buna nail ola bilməmişlər.

1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə «Ziyayi-Qafqaziyyə» qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə o çapını dayandırmışdır. 1883-1891-ci illərdə Tiflisdə «Əkinçi» üslubunu davam etdirən «Kəşkül» qəzeti və jurnalı çıxırdı.

XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şahtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi «Şərqi-rus» qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. «Şərqi-rus» qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi. Qəzetin ən böyük xidmətlərindən biri də Cəlil Məmmədquluzadəni bir jurnalist kimi üzə çıxarması oldu. O, mətbuatda demokratik cərəyanın bərqərar edilməsində mühüm rol oynayan peşəkar bir redaktor kimi məhz bu qəzetdə yetişmişdir.

Artıq «Şərqi-rus» qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün

zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı – «Molla Nəsrəddin» işıq üzü gördü. 1918-ci ilədək Tiflisdə nəşr olunan jurnal 1921-ci ildə Təbrizdə, 1921-31-ci illərdə isə Bakıda çap olunmuşdur.

Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Kəskin və cəsarətli tənqidi çıxışlarına, acı həqiqətləri söylədiyinə görə daim hücum və təqiblərə məruz qalan jurnalın nəşri çap senzurası tərəfindən dəfələrlə dayandırılmış, bir sıra nömrələri müsadirə olunmuş, redaktoru bir neçə dəfə məhkəmə məsuliyyətinə cəlb edilmiş, cərimə edilmişdir. Lakin bütün təqib və təzyiqlərə baxmayaraq, «Molla Nəsrəddin»in haqq səsi çox keçmədən Qafqazın hüdudlarını aşıb Rusiyada, türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidildi. Jurnalın Mərkəzi Asiyada, Krımda, İrəvan, Kazan, Ufa, Həştərxan, Orenburq, Təbriz, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlküttə və sair şəhərlərdə çoxlu oxucusu var idi.

«Molla Nəsrəddin» dövrünün mühüm siyasi hadisələrinə səs verir, milli oyanış prosesinə xidmət edirdi. Jurnalın mövzu və təsir dairəsi çox geniş idi. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. Jurnalda Azərbaycanın görkəmli şair, yazıçı və jurnalistləri ilə yanaşı, Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi rəssamlar da fəaliyyət göstərərək Azərbaycanda yeni rəssamlıq məktəbinin təməlini qoydular. «Molla Nəsrəddin»in müasir ədəbiyyat, maarifləşmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalda əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq istiqamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də «mollanəsrəddinçilik» adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdı, Mollanəsrəddinçilər klassik Azərbaycan, şərq, rus və dünya bədii-publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək, milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoymuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar.

Bu dövr Azərbaycanda uşaq və valideynlər üçün «Dəbistan», «Rəhbər», «Məktəb» kimi jurnalların buraxılması ilə də əlamətdar idi. Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan «Həyat», «Füyuzat», «Təzə həyat», «Şəlalə», «Açıq söz», «Dirilik» kimi qəzet və jurnalların da

mətbuatımızın inkişafında böyük rolu olmuşdur.

Əsrin əvvəllərində Azərbaycanda çıxan dövri mətbuat orqanları sözsüz ki, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşdur.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir ruhda milli formalaşmasında, həm də, onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən «Azərbaycan» qəzetinin dahi Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir. Əslində cümhuriyyət dövrü mətbuatının fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının, «Əkinçi» prinsiplərinin həyata keçirilməsinin yeni və çox mühüm mərhələsi idi. Təəssüf ki, bu mərhələnin ömrü az oldu.

XX əsrin 70 ildən artıq dövrü sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf edir. Bu dövrün də xüsusi yeri vardır. Məhz bu illərdə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşmişdir. Jurnalistikanın çeşidli növləri meydana çıxmışdır. Mətbuat daha çox partiyalı, sinfi olsa da, vətənpərvər jurnalistlərimiz öz qələmlərini daim xalqın xidmətində işlətmiş və bu yolda bəzən təqiblərə də məruz qalmışdır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı idi. Respublikanın «Kommunist» (ilk nömrəsi 1919-cu ildə çıxmışdır), «Bakinski raboçi» (1906-cı ildən çıxır), «Vışka» (1928-ci ildən çıxır), «Azərbaycan gəncləri», «Molodyoj Azerbaycana» (ilk nömrələri 1919-cu ildə çıxmışdır), «Bakı», «Baku» (1958-ci ildən çıxır), «Ədəbiyyat və incəsənət» (1934-cü ildən çıxır) və sair tanınmış mətbuat orqanlarında kommunist ideologiyası ilə bağlı məsələlərlə yanaşı, respublikanın iqtisadi, elmi, mədəni inkişafı ilə əlaqədar problemlər də öz əksini tapırdı. Xalqın həyatının işıqlandırılmasında ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikrə də yer verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rolu olmuşdur. Bu qəzetlərin xalqımızın dil, ədəbiyyat və mədəniyyətinə həsr etdiyi, azərbaycançılıq ideyasına xidmət edən yazıları totalitar rejim şəraitində belə, Azərbaycan jurnalistikasının mövqeyini nümayiş etdirir. Sovet hakimiyyəti illərində

Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, o öz milli varlığını qoruyub saxlaya bilmiş, əldə etdiyi zəngin ənənələri davam etdirərək respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Məhz bu dövrdə publisistikanın tamamilə yeni bir növü – teleradio jurnalistikası təşəkkül tapdı. Mətbuatımızın coğrafiyası və ifadə vasitələri genişlənərək respublikanın ictimai-siyasi həyatının demək olar ki, bütün sahələrini əhatə etmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Hələ Azərbaycan xalq Cümhuriyyəti illərindən sonra rüşeym halında inkişafını dayandırmış proseslər yenidən dirçələrək demokratik mətbuatın inkişafına xidmət etdi.

Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Bu gün hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanda 650-dən çox müxtəlif kütləvi informasiya vasitəsi – qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri fəaliyyət göstərir. Bu da ölkəmizin mətbuatının inkişaf yolunda olmasına dəlalət edir.

Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.

Yarandığı 125 il ərzində Azərbaycan milli mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçmişdir. Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə malik olması, Şərq və Qərb sivilizasiyasının qovuşduğu məkanda formalaşmış mədəniyyəti demokratik milli mətbuatın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycan mətbuatının ictimai-siyasi və mədəni həyatımızın inkişafındakı mühüm rolunu, respublikanın həyatında böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram.

Azərbaycanda demokratik mətbuatın yaradılmasının 125 illiyi təntənəli surətdə qeyd olunsun.

Bakı şəhəri, 27 mart 2000-ci il

«KİTABİ-DƏDƏ QORQUD» EPOSUNUN ALMANİYANIN DREZDEN ŞƏHƏRİNİN KRAL KİTABXANASINDA SAXLANILAN ƏLYAZMASININ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ BAĞIŞLANMIŞ FAKSİMİLESİNİN AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNA VERİLMƏSİ HAQQINDA*

Xalqımızın möhtəşəm ədəbi abidəsi olan «Kitabi-Dədə Qorqud» eposunun 1815-ci ildə Almaniyanın Drezden Kral Kitabxanasında aşkara çıxarılmış ən mükəmməl nüsxəsi bu günədək orada saxlanılmaqdadır.

Azərbaycan Respublikası prezidentinin 21 fevral 1999-cu il tarixli 98 saylı sərəncamı ilə təsdiq edilmiş «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planının 25-ci bəndinə uyğun olaraq 1999-cu il oktyabrın 8-də Drezden şəhərində «Kitabi-Dədə Qorqud»a həsr edilmiş yubiley mərasimi keçirilərkən Almaniyanın Saksoniya əyalətinin Elm və İncəsənət üzrə Dövlət Nazirliyi və Kral Kitabxanası tərəfindən həmin əlyazmanın orijinala çox yaxşı şəkildə hazırlanmış faksimilesi Azərbaycan Respublikasının prezidentinə hədiyyə edilmək üçün Azərbaycan nümayəndə heyətinə təqdim olunmuşdur. Həmin faksimile Azərbaycan tətbiqi sənət ustaları tərəfindən məharətlə, Dədə Qorqud dövrünü əks etdirən milli ornamentlərdən istifadə olunmaqla cildlənmişdir.

Belə bir aksiyanın Almaniya Federativ Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlığın genişləndirilməsi istiqamətində atılmış addım kimi qiymətləndirərək «Kitabi-Dədə Qorqud» irsinin gələcək nəsillərə daha dolğun çatdırılmasını və onun tədqiqatçılarının mötəbər bir nüsxədən istifadəsini təmin etmək məqsədi ilə qərara alıram:

1. «Kitabi-Dədə Qorqud» eposunun Almaniyanın Drezden şəhərinin Kral Kitabxanasında saxlanılan əlyazmasının Azərbaycan Respublikasının prezidentinə bağışlanmış faksimilesi Azərbaycan Elmlər

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi altıncı kitab. B., Azərnəşr, 2009, s. 107-108

Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilsin.

2. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 aprel 2000-ci il

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında milli elmi potensialın qorunub saxlanılması və gücləndirilməsi, xalqımızın tarixi və mədəniyyət ilə bağlı araşdırmaların müasir standartlar səviyyəsində aparılmasının təmin edilməsi, fundamental elmi tədqiqatların əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, elmi fəaliyyətin keçirilməsi üçün daha əlverişli şəraitin yaradılması məqsədilə qərara alıram:

1. Azərbaycan Elmlər Akademiyası ali dövlət elmi təşkilatı olduğunu nəzərə almaqla Azərbaycan Milli Akademiyası adlandırılsın.

2. Azərbaycan Elmi Akademiyası bir ay müddətində Akademiyanın Nizamnaməsinin layihəsini, onun strukturu ilə, habelə elmi potensialından və tərkibindəki müəssisələrin maddi-texniki bazasından istifadə olunmasının effektivliyinin aparılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 may 2001-ci il
№ 484

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ BİR SIRA MÜƏSSİSƏLƏRİNİN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

(29 mart, 2001-ci il)

İqtisadiyyatın liberallaşdırılması, sahibkarlığın genişləndirilməsi və investisiyaların cəlb olunması yolu ilə iqtisadiyyatın daha sürətlə inkişafına nail olmaq və onun səmərəliliyinin artırılmasını təmin etmək məqsədi ilə və «Azərbaycan respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı»na uyğun olaraq qərara alıram:

1. Azərbaycan Respublikası Elmlər Akademiyasının aşağıdakı təsərrüfat hesablı müəssisələri özəlləşdirməyə açıq elan edilsinlər:

Riyaziyyat və Mexanika İnstitutunun nəzdində Xüsusi Konstruktor Bürosu;

«Selen» Elm İstehsalat Birliyi;

«Kristal» Xüsusi Konstruktor Texnoloji Metalşünaslıq Bürosu;

«Reagent» Xüsusi Konstruktor Texnoloji Bürosu;

«Aşqar» Xüsusi Texnoloji Bürosu;

Təcrübə Sənaye zavodu;

«Elm» redaksiya, nəşriyyat və poliqrafiya Mərkəsi;

Avtobaza;

Təmir-tikinti quraşdırma idarəsi;

Texniki-təchizat idarəsi;

2. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi bu Sərəncamın 1-ci bəndində göstərilən müəssisələrin qanunvericiliklə müəyyən olunmuş qaydada özəlləşdirilməsini təmin etsin.
3. Özəlləşdirməyə açıq elan edilmiş müəssisələrin rəhbərlərinə tapşırılsın ki, həmin müəssisələr qanunvericiliklə müəyyən olunmuş qaydada özəlləşdirilənədək onların idarə olunmasına və əmlakının qorunub saxlanılmasına şəxsən məsuliyyət daşıyırlar.
4. Azərbaycan respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜNÜN TƏSİS EDİLMƏSİ HAQQINDA*

Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsilə Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafik abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır. Tarixi faktlar sübut edir ki, bu qiymətli əsərləri yaradarkən Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir.

İslamın qəbuluna qədər olan dövrün yazıları ilə yaradılan bu qiymətli xəzinənin böyük bir qismi məhv edilmiş, zaman keçdikcə həmin abidələrin qələmə alındığı yazı şəkilləri unudulmuş və ya ərəb qrafikasına keçirilmişdir. İslamın yayıldığı dövrlərdən isə xalqımız ərəb əlifbasından istifadə yolu ilə min ildən artıq bir zaman ərzində tariximizin ən yeni mərhələsinədək zəngin mədəni irs yaratmışdır. Ərəb əlifbası yüz illər boyu geniş məkanda müsəlman Şərqi xalqlarının ümumi yazı sistemi kimi formalaşmışdır. Böyük Azərbaycan ədibləri, alimləri, mütəfəkkirləri islam mədəniyyətinin təşəkkül tapıb inkişaf etməsində mühüm rol oynayaraq bəşər sivilizasiyasını zənginləşdirmişlər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmaması XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundov başda olmaqla, dövrün mütərəqqi, maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdir. Bu, Azərbaycan xalqının həmin dövrdə yaşadığı tarixi şəraitdən doğan zərurət idi. Öz qaynağını Avropadan alan yeni dövrün maarifçilik hərəkatı Azərbaycan mədəniyyətinin inkişaf istiqamətini müəyyənləşdirmiş və bu da yeni mədəniyyət tipinə uyğun müasir əlifbaya olan ehtiyacı aktuallaşdırmışdır. XX əsrin əvvəllərində cərəyan edən ictimai-siyasi və mədəni proseslərin gedişatı mövcud əlifbanı daha münasibi ilə əvəz etmək ideyasını meydana atmışdır.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni əlifba komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab. B., Azərnəşr, 2011, s.340-342

qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım idi. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş birinci Ümumittifaq Türkoloji qurultayın tövsiyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Yarım əsrdən çox bir müddət ərzindəki kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Lakin kiril qrafikasının dilimizin səs quruluşuna uyğun gəlməməsi Azərbaycan ziyalılarını bu əlifbanın təkmilləşdirilməsi yolunda mütəmadi iş aparmağa sövq etdi. Təcrübə göstərdi ki, kiril qrafikasının dilimizin səs quruluşuna uyğunlaşdırılması yolunda nə qədər cəhd göstərilsə də, optimal variantın əldə edilməsi mümkün deyildir, bu da onun nə vaxtsa dəyişdiriləcəyi ehtimalını gücləndirdi.

Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanun qəbul olunması ilə nəticələndi.

On ilə yaxın bir müddətdə latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il avqust ayında bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq qərara alıram:

Hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilsin.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 avqust 2001-ci il

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİ

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi möhtərəm Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli sərəncamı ilə yaradılmışdır. Həmin sərəncamdan bir neçə gün sonra Prezident Heydər Əliyev Naxçıvana gəlmiş və Azərbaycan MEA-nın Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirə keçirmişdir. Həmin müşavirədə Naxçıvan Bölməsinin yaradılması zəruriliyindən və qarşıda duran vəzifələrdən bəhs edən ölkə başçısı cənab Heydər Əliyev demişdir: «Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var»

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNİN TƏSİS EDİLMƏSİ HAQQINDA

Azərbaycan Milli Elmlər Akademiyasının müraciətini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, mövcud elmi potensialdan istifadə olunmasının səmərəliliyinin artırılması, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şəraitin yaradılması məqsədilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi təsis edilsin. Müəyyən edilsin ki, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunu, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunu, Təbii Ehtiyatlar İnstitutunu,

Bioresurslar İnstitutunu, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanasını əhatə edir.

2. Müəyyən edilsin ki, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti statusuna malikdir.

3. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin maliyyələşdirilməsi hər il Azərbaycan Respublikasının dövlət büdcəsində ayrıca sətirlə göstərilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bir ay müddətində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin səmərəli fəaliyyəti üçün lazım olan binaların və digər maddi-texniki vəsaitin ayrılmasını təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 avqust 2002-ci il

HÜSEYN CAVİDİN 120 İLLİK YUBİLEYİ HAQQINDA

Azərbaycan Respublikası Prezidentinin sərəncamı*

2002-ci ilin oktyabr ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 120 illiyi tamam olur.

Hüseyn Cavid klassik milli ədəbiyyatın ənənələri ilə yeni dövrün bədii və fəlsəfi axtarışları arasında vəhdət yaradaraq XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynamış qüdrətli sənətkarlardandır. Dünya romantizm poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii-estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin tarixi qatlarından alır.

Azərbaycan poeziyasında yeni zirvə fəth edən filosof-şair Hüseyn Cavid romantik bədii düşüncənin, fəlsəfi lirikanın orijinal nümunələrini yaratmışdır. Onun həyatın mənası ilə bağlı axtarışlarının ifadəsi olan yaradıcılığı bədii növ, janr və forma cəhətdən də çox rəngarəng və zəngindir. Yüksək bədii sənətkarlığı, dərin emosionallığı ilə seçilən Hüseyn Cavid poeziyası milli ədəbiyyat tarixində yeni bir dövrün başlanğıcını qoymuşdur.

Zamanın ümumbəşəri problemlərinin qaldırıldığı dram əsərləri ilə Hüseyn Cavid romantizmin görkəmli nümayəndələrindən biri kimi, Azərbaycan dramaturgiyası tarixində yeni bir mərhələ yaratmışdır. Azərbaycan ədəbiyyatında mənzum faciə və tarixi dramların ilk nümunələrini yaradan sənətkar ədəbiyyatımızı həm mövzu baxımından, həm də parlaq xarakterlərlə zənginləşdirərək milli bədii fikir tariximizdə mühüm yer tutmuşdur. Özünün üslub, yazı tərzi və forma yeniliyi baxımından seçilən bu xarakterlər dramaturgiyası teatr mədəniyyətimizin inkişafına güclü təsir göstərmiş, milli teatr tarixində «Cavid teatrı» kimi səciyyələndirilmişdir.

Poeziyada və dramaturgiyada bənzərsiz sənət nümunələri olan əsərlər yaradan Hüseyn Cavid bir şəxsiyyət, mütəfəkkir və sənətkar kimi, ibrətli həyat və yaradıcılıq yolu keçmişdir. Böyük şair Hüseyn Cavidin əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuş-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırx ikinci kitab. B., Azərnəşr, 2012, s. 120-121

dur.

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan Hüseyn Cavidin 120 illik yubileyinin ölkəmizdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə Hüseyn Cavidin 120 illik yubileyinə həsr olunmuş tədbirlər hazırlayıb həyata keçirsin.

- Azərbaycan Milli Elmlər Akademiyası Hüseyn Cavidin əsərlərinin külliyyatının hazırlanıb nəşr olunmasını təmin etsin.

- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Hüseyn Cavidin həyat və yaradıcılığına həsr olunmuş sənədli filmin və onun «İblis» əsəri əsasında bədii filmin çəkilməsini təmin etsin.

- Azərbaycan Respublikasının Nazirlər Kabineti

1. Hüseyn Cavidin ev-muzeyinin ekspozisiyasının tamamlanması üçün lazımi vəsait ayırsın;

2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 oktyabr 2002-ci il

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NİZAMNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Milli Elmlər Akademiyası haqqında» 2001-ci 15 may il tarixli, 484 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi təsdiq edilsin (əlavə olunur).

2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 yanvar 2003-cü il
№ 837

Azərbaycan Respublikası Prezidentinin
2003-cü il 4 yanvar tarixli,
837 nömrəli fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

Azərbaycan Milli Elmlər Akademiyasının NİZAMNAMƏSİ

I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Milli Elmlər Akademiyası dövlətin təsis etdiyi ali elmi qurumdur. Azərbaycan Milli Elmlər Akademiyası (bundan sonra - Akademiya) Azərbaycan SSR Elmlər Akademiyasının varisidir.

2. Akademiya dövlətin təsis etdiyi ali elmi təşkilat olaraq Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edir, dövlətin elmi-texniki siyasətini həyata keçirir.

3. Akademiyanın fəaliyyəti elm sahələrinə müvafiq qurulur. Akademiyada Akademiyanın Rəyasət Heyəti (bundan sonra—Rəyasət Heyəti) və onun Mərkəzi Aparatı, elmi istiqamətlər üzrə yaradılan elmi bölmələr, elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələri fəaliyyət göstərir.

4. Akademiya özünüidarə əsasında fəaliyyət göstərən, dövlət statusuna malik olan qurumdur. Akademiyanın idarəetmə orqanları Akademiyanın Ümumi yığıncağı və Rəyasət Heyətidir. Akademiyaya onun prezidenti başçılıq edir. Akademiyanın prezidenti Akademiyanın Ümumi yığıncağında seçilir və Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

5. Akademiya onun tərkibinə seçilən Akademiya üzvlərini—həqiqi üzvləri, müxbir üzvləri, xarici üzvləri və fəxri doktorları, Akademiyanın elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələrində işləyən elmi işçiləri və mütəxəssisləri birləşdirir.

6. Akademiyanın həqiqi üzvlərinin, müxbir üzvlərinin, xarici üzvlərinin, fəxri doktorlarının və rəhbər orqanlarının seçkiləri bu Nizamnaməyə və «Azərbaycan Milli Elmlər Akademiyası üzvlərinin və rəhbər orqanlarının seçkiləri haqqında əsasnamə»yə uyğun aparılır.

7. Akademiya fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, digər qanunvericilik aktlarını və bu Nizamnaməni rəhbər tutur.

Nizamnamə Akademiyanın Ümumi yığıncağında qəbul olunur və Azərbaycan Respublikasının prezidenti tərəfindən təsdiq edilir.

8. Akademiya hər il elmi tədqiqatları, elmi və elmi-texniki nəticələri haqqında Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikası hökumətinə hesabat təqdim edir.

9. Akademiya əsas fəaliyyətini bilavasitə tabeliyində olan elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələrinin vasitəsi ilə həyata keçirir və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, habelə ictimai təşkilatlarla müvafiq qaydada əlaqələndirir.

10. Akademiyanın fəaliyyəti dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. Akademiya qanunvericiliklə qadağan olunmayan digər maliyyə mənbələrindən də istifadə edə bilər.

11. Akademiya Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı olan möhürə, müvafiq ştamplara və blanklara malikdir. Akademiyanın özünün əmlakı, müstəqil balansı, Azərbaycan Respublikasının və digər dövlətlərin banklarında hesabları (o cümlədən valyuta hesabı) var.

12. Akademiya Bakı şəhərində (İstiqlaliyyət küç., 10) yerləşir.

II. AKADEMİYANIN FƏALİYYƏTİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

13. Akademiyanın fəaliyyətinin əsas məqsədi təbiət, cəmiyyət və insan haqqında yeni biliklər əldə etməklə Azərbaycanın iqtisadi, sosial və mənəvi inkişafına xidmət göstərməkdir.

14. Akademiyanın əsas vəzifələri aşağıdakılardır:

Azərbaycanda elmi inkişaf etdirmək;

Azərbaycanda elmin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək;

elmi-texniki inkişafın strategiyasının və əsas istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək;

fundamental və tətbiqi elmi tədqiqatların təşkilini, əlaqələndirilməsini, inkişafını təmin etmək və onların iqtisadiyyatın sahələrinə tətbiqində iştirak etmək;

fundamental elmin nailiyyətlərin tətbiqi istiqamətində fəaliyyət göstərmək;

mühüm elmi, sosial-iqtisadi və mədəni inkişaf üzrə strateji əhəmiyyəti olan dövlət proqramlarının hazırlanmasında iştirak etmək və onların həyata keçirilməsi üçün təkliflər vermək;

Azərbaycan xalqının milli mənafeyinin, mədəniyyətinin, adət-ənənələrinin qorunmasına yönəlmiş elmi tədqiqatları təşkil etmək və həyata keçirmək;

Azərbaycanda elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək, iqtisadiyyatın gücləndirilməsində, xalqın mənəviyyatının və mədəniyyətinin zənginləşdirilməsində, əhalinin sağlamlığının qorunmasında bu potensialdan səmərəli istifadə etmək, mühüm sosial problemlərin həllində elmin və texnikanın rolunu yüksəltmək, dövlətin informasiya ehtiyatlarını artırmaq;

yüksək ixtisaslı elmi kadrlar hazırlamaq, elm və təhsilin əlaqələrini möhkəmləndirmək;

dövlətlərarası elmi və elmi-texniki əməkdaşlığın təşkilində və həyata keçirilməsində müəyyən edilmiş qaydada iştirak etmək;

intellektual mülkiyyətin qorunmasına və bu sahədə sahibkarlığın inkişafına yardım etmək;

elmin nailiyyətlərinə əsaslanan yüksək texnologiyalı istehsalat sahələrinin və müəssisələrinin yaradılmasına kömək etmək;

dünya elmin nailiyyətlərinin öyrənilməsinə və onlardan respublika həyatının müvafiq sahələrində geniş istifadə olunmasına yardım etmək;

elmin nüfuzunu artırmaq, elmi işçilərin sosial vəziyyətini yaxşılaşdırmaq;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə Akademiyaya həvalə olunmuş digər vəzifələri yerinə yetirmək.

III. AKADEMİYANIN FUNKSİYALARI

15. Akademiya bu Nizamnamə ilə müəyyən edilmiş məqsəd və vəzifələrinə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

Akademiyanın həqiqi üzvlərinin, müxbir üzvlərinin və xarici üzvlərinin seçkilərini keçirir;

Azərbaycan Respublikasında elmin inkişaf doktrinasının hazırlanmasında iştirak edir;

Azərbaycan Respublikasında fundamental və tətbiqi elmi tədqiqatların əlaqələndirilməsi məqsədi ilə Elmi Tədqiqat İşlərini Əlaqələndirmə Şurasını, müvafiq problem şuralarını, komitələri, komissiyaları yaradır;

dövlət əhəmiyyətli elmi, elmi-texniki, iqtisadi proqramların və innovasiya layihələrinin, xüsusilə təbii ehtiyatların mənimsənilməsi üzrə kontraktların dövlət ekspertizasında qanunvericilikdə nəzərdə tutulmuş qaydada iştirak edir;

elmi-texniki inkişaf məsələləri üzrə ümumdövlət məqsədlərinin həyata keçirilməsi üçün tövsiyələrin hazırlanmasında, səmərəli iqtisadi tənzimləyicilər sisteminin yaradılmasında nazirliklərin və digər idarəetmə orqanlarının işində iştirak edir;

elm tutumlu təsərrüfat sahələrinin yaradılmasına dair dövlət qarşısında vəsatət qaldırır;

elmdə inhisarçılıq imkanlarını istisna edən demokratik rəqabət və müsabiqə formalarından geniş istifadə edir, respublika alimlərinin yaradıcılıq potensialının tam aşkarlanması üçün şərait yaradır;

müəyyən edilmiş qaydada elm-təhsil mərkəzlərini və təhsil müəssisələrini yaradır və ya onların yaradılmasında iştirak edir;

ali təhsil müəssisələri, magistratura, dissertantlıq və doktorantura yolu ilə yüksək ixtisaslı kadrlar hazırlayır;

ictimai prosesləri, sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafı, habelə ekoloji vəziyyəti müstəqil qiymətləndirir və bu məsələlərə dair müvafiq təkliflər hazırlayır;

xarici ölkələrin elmi idarələri ilə elmi əlaqələr yaradır, bu əlaqələri inkişaf etdirir, beynəlxalq elmi konfrans, konqres, simpozium və qurultaylarda iştirak edir;

Azərbaycan Respublikasının elmi-texniki inkişafının kompleks proqnozlarını işləyib hazırlayır;

tətbiqi elmi tədqiqatların aparılması, dövlət elmi-texniki tapşırıqlarının yerinə yetirilməsi, yeni texnika nümunələrinin və yeni texnologiyaların yaradılması üzrə təcrübə-konstruktor , innovasiya siyasətini işlərini həyata keçirir;

mühüm elmi problemlərin müzakirəsinə və elmi tədqiqat işlərinin əlaqələndirilməsi məsələlərinə həsr edilmiş elmi sessiyalar, konfranslar, simpoziumlar, konqreslər və qurultaylar keçirir;

elmin nailiyyətlərini təbliğ etmək, onun nüfuzunu artırmaq, elmi işçilərin statusunu yüksəltmək və onların sosial vəziyyətini yaxşılaşdırmaq barədə müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırır;

Akademiyada və respublikanın digər elmi müəssisələrində aparılan tədqiqatların nəticələrini yaymaq və təbliğ etmək məqsədi ilə elmi əsərlər, jurnallar, toplular, ensiklopediyalar, Akademiyanın fəaliyyətini işıqlandıran qəzet və elmi-populyar jurnallar və s. nəşr edir;

elmi nailiyyətlərin tətbiqi yolu ilə məhsulların istehsalı, elmi-texniki xidmətlərin göstərilməsi və innovasiya fəaliyyətinin digər formalarının inkişafı üçün müəssisələrin yaradılmasına yardım edir;

elm sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktlara dair təkliflər hazırlayır;

idarəetmə proseslərində müasir telekommunikasiya və informasiya vasitələrindən geniş istifadə edilməsinə kömək edir;

elm sahəsində dövlət sirrini, məxfi məlumatları qoruyur, elm sahəsinə aid obyektlərin mülki müdafiəsi sahəsində müəyyən olunmuş işləri icra edir;

öz səlahiyyətləri çərçivəsində elm sahəsinə sərmayə qoyuluşu üçün əlverişli mühitin yaradılması məqsədi ilə müvafiq tədbirlər işləyib hazırlayır və həyata keçirir;

mərkəzi icra hakimiyyəti orqanlarına və dövlət təşkilatlarına onların sorğusuna əsasən müəyyən olunmuş qaydada zəruri sənədlər və materiallar təqdim edir;

Azərbaycan Respublikasının qanunvericiliyi ilə Akademiyaya həvalə olunmuş digər funksiyaları yerinə yetirir.

IV. AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVLƏRİ, MÜXBİR ÜZVLƏRİ VƏ XARİCİ ÜZVLƏRİ

16. Akademiyanın həqiqi üzvləri (akademikləri), bir qayda olaraq, Azərbaycan Respublikasının vətəndaşları olan, elmin müvafiq istiqamətlərində geniş tədqiqatlar aparan, onu yeni biliklərlə zənginləşdirən, tanınmış elmi məktəblər yaradan Akademiya müxbir üzvlərinin içərisindən seçilirlər.

17. Elmin inkişafında görkəmli xidmətləri olan, onu dəyərli tədqiqatları ilə zənginləşdirən Azərbaycan Respublikasının vətəndaşları Akademiyanın müxbir üzvləri seçilirlər.

18. Dünya elminə qiymətli töhfələr verən və Azərbaycan Respublikasında elmin inkişafında xüsusi xidmətləri olan əcnəbi alimlər Akademiyanın xarici üzvləri seçilə bilərlər.

19. Akademiyanın üzvləri ömürlük seçilirlər.

Akademiyanın həqiqi və müxbir üzvləri qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda, razılıqları əsasında Akademiyanın xarici üzvləri hesab edilirlər.

20. Akademiya üzvlərinin sayını Akademiyanın Ümumi yığıncağının qərarına əsasən Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

21. Akademiya üzvlərinin başlıca vəzifəsi şəxsən apardıqları tədqiqatlar və elmi tədqiqatlara rəhbərlik yolu ilə elmi yeni nailiyyətlərlə zənginləşdirməkdir.

Akademiyanın üzvləri Akademiyaya həvalə olunmuş vəzifələrin yerinə yetirilməsində fəal çalışmağa, onun Nizamnaməsinə ciddi əməl etməyə borcludurlar.

Akademiyanın üzvləri elmi nailiyyətlərin tətbiqinə və onlardan elmi-mədəni quruculuqda istifadə olunmasına fəal kömək etməli, elmi kadrlar hazırlamalı, Rəyasət Heyətinin və müvafiq bölmənin elmi-təşkilati tapşırıqlarını yerinə yetirməli, Akademiyanın və müvafiq bölmənin ümumi yığıncaqlarında iştirak etməlidirlər.

22. Akademiyanın üzvləri Rəyasət Heyətinin və müvafiq bölmənin qərarı ilə şəxsən apardıqları və ya rəhbərlik etdikləri elmi işləri yerinə yetirmək üçün onlara zəruri şərait yaradılmasını tələb etmək hüququna malikdirlər.

23. Akademiyanın üzvü Akademiya bölmələrindən birinə daxildir. Akademiyanın üzvü hər hansı başqa bölməyə daxil olan üzvlərin ən azı 2/3-nin gizli səsvermə nəticəsində ifadə olunan razılığı olduğu halda həmin bölmənin işində də iştirak edə bilər və bölmə üzvünün bütün hüquqlarından (seçkilərdə səsvermə hüququ istisna edilməklə) istifadə etmək hüququna malikdir.

24. Akademiyanın üzvləri Rəyasət Heyətinin və tərkibinə daxil olduqları bölmənin bürosunun müzakirəsinə elmi və elmi-təşkilati məsələlər təqdim etmək, belə məsələləri Rəyasət Heyəti və bölmələrin büroları vasitəsi ilə Akademiyanın və bölmənin ümumi yığıncaqlarının müzakirəsinə vermək hüququna malikdirlər.

25. Akademiyanın üzvü öz vəzifələrini yerinə yetirmədikdə Rəyasət Heyəti onun məsələsini fərdi qaydada müzakirə edir və Akademiyanın Ümumi yığıncağına təqdim edir.

V. AKADEMİYANIN STRUKTURU VƏ FƏALİYYƏTİNİN TƏŞKİLİ

26. Akademiyanın strukturu, onun tərkibinə daxil olan bölmələrin, elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələrinin fəaliyyəti və maliyyələşdirmə qaydaları Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnamə ilə müəyyən edilir.

27. Akademiyanın ali orqanı onun həqiqi üzvlərindən, müxbir üzvlərindən və xarici üzvlərindən ibarət olan Ümumi yığıncaqdır.

28. Akademiyanın Ümumi yığıncağı:

Akademiyanın Nizamnaməsini qəbul edir;

Akademiya üzvlərinin və rəhbər orqanlarının seçkiləri haqqında əsasnaməni təsdiq edir;

Akademiyanın strukturunu müəyyən edir:

ölkədə fundamental tədqiqatların əsas istiqamətlərini müəyyənləşdirir;

ölkədə əldə olunmuş elmi nəticələri və Akademiyanın Rəyasət Heyətinin elmi-təşkilati fəaliyyəti haqqında illik hesabatı müzakirə və təsdiq edir;

Akademiya üzvlərinin, bölmələrin və elmi müəssisələrin əldə etdiyi elmi nəticələrə və yeni elmi istiqamətlərə həsr olunmuş məruzələrini dinləyir;

ölkədə fundamental və tətbiqi tədqiqatların həyata keçirilməsinə dair əsas təşkilati məsələləri həll edir;

Akademiyanın həqiqi üzvlərini, müxbir üzvlərini (üç ildə bir dəfədən gec olmayaraq) və xarici üzvlərini seçir;

Rəyasət Heyəti üzvlərinin sayını və tərkibini müəyyən edir;

Akademiyanın prezidentini, birinci vitse-prezidentini, vitse-prezidentlərini, akademik-katibini, Rəyasət Heyətinin digər üzvlərini seçir və bölmələrin akademik-katiblərini Rəyasət Heyətinin üzvləri kimi təsdiq edir;

Akademiyanın elmi bölmələrini və elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələrini yaradır və ləğv edir;

Akademiyanın Nizamnaməsi üzrə komissiyanın sədrini təsdiq edir.

29. Akademiyanın Ümumi yığıncağı zəruri hallarda, ildə bir dəfədən az olmamaq şərti ilə çağırılır. Akademiyanın illik Ümumi yığıncağı hər il aprel ayında keçirilir;

30. Akademiyanın Ümumi yığıncağında müzakirə olunacaq məsələlərə dair təkliflər Akademiyanın üzvləri, bölmə büroları, elmi müəssisələrin elmi şuraları tərəfindən bir qayda olaraq bir ay qabaqcadan Rəyasət Heyətinə təqdim edilir. Ümumi yığıncağın gündəliyi, təqdim olunmuş təkliflər nəzərə alınmaqla, Rəyasət Heyəti tərəfindən tərtib olunur.

31. Akademiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə Ümumi yığıncaq qərar qəbul etmək səlahiyyətinə malikdir (Akademiya üzvlərinin seçkiləri istisna olunmaqla).

32. Akademiyanın Ümumi yığıncağında bu və ya digər şəxslə bağlı məsələlər gizli səsvermə yolu ilə həll edilir.

33. Akademiyanın vəzifələrini və funksiyalarını həyata keçirən idarəetmə orqanı Rəyasət Heyətidir.

34. Rəyasət Heyəti Akademiyanın prezidentindən, birinci vitse-prezidentindən, vitse-prezidentlərindən, akademik-katibindən, elmi bölmələrin akademik-katiblərindən və Akademiyanın digər həqiqi

üzvlərindən ibarətdir. Rəyasət Heyətinə Akademiyanın prezidenti başçılıq edir.

35. Rəyasət Heyətinin seçkiləri Akademiyanın Ümumi yığıncağında Akademiyanın prezidentinin seçilməsi ilə başlanır. Rəyasət Heyətinin tərkibinin formalaşdırılması Akademiyanın prezidentinin təqdimatı ilə həyata keçirilir.

36. Rəyasət Heyətinin bütün tərkibinin seçkiləri beş ildə bir dəfə keçirilir. Rəyasət Heyəti hər dəfə yenidən seçilərkən Akademiyanın Ümumi yığıncağına ötən beşillik dövrdəki fəaliyyəti haqqında hesabat verir.

37. Rəyasət Heyəti Akademiya Ümumi yığıncağının qərarını həyata keçirir və Ümumi yığıncağın sessiyaları arasındakı dövrdə Akademiyanın bütün fəaliyyətinə rəhbərlik edir. Rəyasət Heyəti hər il elmi tədqiqatların nəticələri və öz fəaliyyəti haqqında Akademiyanın Ümumi yığıncağına hesabat verir.

38. Akademiyanın Ümumi yığıncağı Rəyasət Heyətinin bütün tərkibini və ya ayrı-ayrı üzvlərini vaxtından əvvəl vəzifədən azad edə bilər, Rəyasət Heyətinin yeni tərkibi üzrə seçkilər keçirə bilər və ya müxtəlif səbəblərə görə Rəyasət Heyəti üzvləri sırasından çıxanların yerinə Rəyasət Heyətinin növbəti seçkilərinə qədər qalan müddət üçün yeni üzvlər seçə bilər.

39. Rəyasət Heyəti:

Akademiyanın Ümumi yığıncağının sessiyalarını çağırır və keçirir;

Akademiyanın əsas elmi istiqamətlərinə müvafiq aparılan uzunmüddətli elmi tədqiqat işlərinin planını təsdiq edir;

Akademiyanın elmi müəssisələrinin, sahə institutlarının, ali təhsil müəssisələrinin və başqa təşkilatların apardıqları fundamental və tətbiqi tədqiqatları əlaqələndirir və istiqamətləndirir;

Akademiyanın elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələrinin, regional elmi mərkəzlərinin fəaliyyətinin istiqamətlərini və ixtisaslaşmasını müəyyən edir:

fundamental və tətbiqi problemlər, habelə regional məsələlər üzrə elmi şuralar təşkil edir;

Akademiyanın fəxri doktoru haqqında əsasnaməni təsdiq edir və Akademiyanın fəxri doktoru adını verir;

Akademiyanın müşaviri haqqında əsasnaməni təsdiq edir və Akademiyanın müşavirini təyin edir;

Akademiyanın elmi bölməsi haqqında əsasnaməni təsdiq edir;

Akademiyanın elmi müəssisələri haqqında nümunəvi əsasnaməni təsdiq edir;

Akademiyanın Nizamnaməsi üzrə komissiyanın tərkibini təsdiq edir;

elmi sessiyaların, konfransların, simpoziumların və qurultayların keçirilməsi ilə bağlı məsələləri həll edir;

Akademiyanın nəşriyyat planlarını təsdiq edir və onların yerinə yetirilməsinə nəzarət edir;

Akademiyanın beynəlxalq elmi əlaqələrini formalaşdırır və onların həyata keçirilməsinə nəzarət edir;

müəyyən edilmiş qaydada elmi kadrların hazırlanmasını və Akademiya əməkdaşlarının əlavə təhsilini təşkil edir;

elmi tədqiqat işlərinin nəticələrinin tətbiqi, onların sosial-iqtisadi və mədəni quruculuqda istifadə olunması üçün təkliflər verir;

elmi-texniki siyasət üzrə normativ hüquqi aktların və normativ sənədlərin hazırlanmasında iştirak edir;

Akademiyanın fəaliyyəti haqqında illik hesabatları Akademiya Ümumi yığıncağının müzakirəsinə təqdim edir;

mühüm elmi əsərlərə, kəşflərə və ixtiralara görə alim və mütəxəssisləri təltif etmək məqsədi ilə medallar, mükafatlar, fəxri adlar təsis edir;

Akademiyanın prezidenti, birinci vitse-prezidenti, vitse-prezidentləri, akademik-katibi və Rəyasət Heyətinin başqa üzvləri arasında vəzifə bölgüsünü aparır;

Rəyasət Heyətinin səlahiyyətlərinə aid olan kadr məsələlərini həll edir;

Akademiyanın bütün üzvlərinin, vəzifəli şəxslərinin, elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələrinin Akademiyanın Nizamnaməsinə əməl etmələrinə nəzarət edir.

40. Rəyasət Heyətinin nəzdində elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələri, ensiklopediya, jurnal və digər elmi nəşrlərin redaksiyaları, elmi şuralar, komitələr, komissiyalar və cəmiyyətlər fəaliyyət göstərir.

41. Rəyasət Heyəti Akademiyanın maliyyə vəsaitlərinin baş sərəncamçısıdır. O, Akademiyanın illik büdcəsini təsdiq edir, büdcədən ayrılan və başqa mənbələrdən daxil olan vəsaiti elmi tədqiqat işləri planına uyğun olaraq Akademiyanın elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələri arasında bölüşdürür, həmin vəsaitin düzgün xərclənməsinə nəzarət edir.

42. Rəyasət Heyətinin Mərkəzi Aparatı Rəyasət Heyətinin təsdiq etdiyi əsasnaməyə uyğun fəaliyyət göstərir.

43. Akademiyanın prezidenti:

Akademiyaya rəhbərlik edir, Rəyasət Heyətinin fəaliyyətini təşkil edir və istiqamətləndirir, Akademiyanın vəzifələrinin və funksiyalarının həyata keçirilməsinə görə şəxsi məsuliyyət daşıyır. Azərbaycan Respublikasında və xarici ölkələrdə, dövlət hakimiyyəti orqanlarında Akademiyanı təmsil edir;

dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitinin Akademiyanın elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələri arasında Rəyasət Heyəti tərəfindən müəyyən edilmiş bölgüsünü təsdiq edir;

öz səlahiyyətləri daxilində Rəyasət Heyətinin Mərkəzi Aparatı, Akademiyanın elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələri üçün icrası məcburi olan əmrlər, sərəncamlar və göstərişlər verir;

öz səlahiyyətləri daxilində normativ aktları təsdiq edir və onların icrasına nəzarət edir;

xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri ilə danışıqlar aparır, Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə elmi və elmi-texniki məsələlərə aid beynəlxalq müqavilələr imzalayır;

Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

44. Akademiyanın elmi bölməsi elmin müvafiq sahəsi üzrə seçilmiş Akademiya üzvlərini və ona daxil olan elmi və elmi xidmət müəssisələrinin digər elmi işçilərini və mütəxəssislərini birləşdirən əsas elmi və elmi-təşkilati mərkəzdir.

45. Akademiyanın aşağıdakı səkkiz elmi bölməsi var:

Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi:

Kimya Elmləri Bölməsi;

Yer Elmləri Bölməsi;

Biologiya Elmləri Bölməsi;

Humanitar və İctimai Elmlər Bölməsi;

Naxçıvan bölməsi;

Aqrar elmlər bölməsi;

Tibb elmləri bölməsi.

46. Elmi bölmənin tərkibində elmi və elmi xidmət müəssisələri, problem şuraları, komissiyalar, komitələr, elmi cəmiyyətlər, bölmənin profilinə uyğun elmi nəşrlər var.

47. Elmi bölmə elmin müvafiq sahələrində fundamental və tətbiqi tədqiqatların istiqamətlərini müəyyənləşdirir, onların əlaqələndirilməsini təmin edir, respublika və dünya elminin vəziyyətini təhlil edir və proqnozlaşdırır, nəzdində olan problem şuralarının, komissiyaların, komitələrin, cəmiyyətlərin işinə rəhbərlik edir, müxtəlif müəssisələrin, o

cümlədən ali təhsil müəssisələrinin və alimlərin elmi əməkdaşlığını möhkəmləndirir, beynəlxalq elmi əlaqələri inkişaf etdirir, respublikanın sosial-iqtisadi və mənəvi inkişafına dair təkliflər hazırlayır.

48. Sahə elmi müəssisələrinin və ali təhsil müəssisələrinin vəsatəti ilə bölmə elmi fəaliyyətlə məşğul olan qurumlara elmi-metodik rəhbərliyi öz üzərinə götürə bilər. Akademiyaya daxil olmayan idarələrə elmi-metodik rəhbərlik haqqında qərar müvafiq bölmənin bürosunun təqdimatı ilə Rəyasət Heyəti tərəfindən qəbul edilir.

49. Elmi bölmənin ali orqanı Akademiyanın bu bölmədəki üzvlərindən ibarət olan Ümumi yığıncaqdır.

Bölmənin Ümumi yığıncağı Akademiyanın həmin bölmədəki üzvlərinin yarısından çoxu iştirak etdikdə qərar qəbul etməyə səlahiyyətli olur. Bütün məsələlər sadə səs çoxluğu ilə (Akademiya üzvlərinin seçkiləri istisna olunmaqla) həll edilir.

50. Akademiyanın üzvləri seçkilər zamanı həlledici səs hüququndan yalnız üzvü olduqları bölmədə istifadə edə bilərlər.

51. Bölmənin Ümumi yığıncağının sessiyaları arasındakı dövrdə onun işinə bölmənin akademik-katibinin başçılıq etdiyi bölmə bürosu rəhbərlik edir. Bölmənin akademik-katibi onun Ümumi yığıncağında Akademiyanın həqiqi üzvləri sırasından gizli səsvermə yolu ilə beş il müddətinə seçilir və Akademiyanın Ümumi yığıncağı tərəfindən təsdiq edilir.

Akademik-katibin müavinləri və büro üzvləri bölmənin Ümumi yığıncağında Akademiyanın həqiqi və müxbir üzvləri sırasından gizli səsvermə yolu ilə beş il müddətinə seçilir və Rəyasət Heyəti tərəfindən təsdiq olunur.

Bölmə bürosunun seçkiləri zamanı müntəzəm təzələnmə və varislik prinsipinə əməl olunur. Bölmə bürosunun işində bölmənin tərkibinə daxil olan elmi idarələrin Akademiyanın üzvü olmayan direktorları məşvərətçi səs hüququ ilə iştirak edirlər. Bölmənin bürosu yeni seçkilər ərəfəsində özünün beşillik fəaliyyəti haqqında bölmənin Ümumi yığıncağına hesabat verir.

52. Bölmənin akademik-katibi bölmənin fəaliyyətinə aid məsələlər barədə Rəyasət Heyətində məruzə edir, bölmənin Ümumi yığıncağına və Rəyasət Heyətinə hesabat verir.

53. Bölmənin Ümumi yığıncağının və bölmə bürosunun funksiyaları və səlahiyyətləri Rəyasət Heyətinin təsdiq etdiyi «Azərbaycan Milli Elmlər Akademiyasının bölməsi haqqında əsasnamə» ilə müəyyən olunur.

54. Akademiyanın institutları, elmi mərkəzləri, regional elmi mərkəzləri, rəsədxanaları, stansiyaları, nəbatat bağları, kitabxanaları, arxivləri, muzeyləri və s. Akademiyanın elmi müəssisələridir.

55. Akademiyanın elmi və elmi xidmət müəssisələri Akademiyanın müvafiq bölməsinin tərkibində və ya Rəyasət Heyətinin nəzdində olur.

56. Akademiyanın əsas struktur özəyi fundamental tədqiqatlar aparan institutlarıdır. Rəyasət Heyətinin qərarı ilə elmi və elmi-texniki fəaliyyət göstərən, tətbiqi elmi tədqiqatlar aparan, elmi kadrların hazırlığı ilə məşğul olan digər müəssisələrin statusu Akademiyanın institutlarına bərabər tutula bilər.

57. Akademiyanın nəşriyyatları, poliqrafiya, kitab satışı təşkilatları, konstruktor və layihə büroları, elmi cihazqayırma müəssisələri, nəqliyyat, təchizat, təmir və digər təşkilatları Akademiyanın elmi xidmət müəssisələridir.

58. Akademiya qanunvericiliklə müəyyən edilmiş qaydada sosial-xidmət müəssisələri (xəstəxanalar, poliklinikalar, sanatoriyalar və s.) yarada bilər.

59. Akademiyanın elmi müəssisəsinə onun direktoru başçılıq edir. Akademiya elmi müəssisəsinin direktoru, bir qayda olaraq, müvafiq bölmənin Ümumi yığıncağında gizli səsvermə yolu ilə beş il müddətinə seçilir və Rəyasət Heyəti tərəfindən təsdiq olunur.

Rəyasət Heyəti elmi müəssisə direktorunu müvafiq bölmənin təqdimatı ilə vaxtından əvvəl vəzifəsindən azad edə bilər.

60. Akademiyanın elmi müəssisələri Rəyasət Heyətinin təsdiq etdiyi «Azərbaycan Milli Elmlər Akademiyasının elmi müəssisəsinin təşkili və fəaliyyəti haqqında nümunəvi əsasnamə»yə və öz nizamnamələrinə uyğun fəaliyyət göstərirlər. Elmi müəssisənin nizamnaməsini müvafiq bölmənin təqdimatı ilə Rəyasət Heyəti təsdiq edir. Elmi müəssisə direktorunun funksiyaları və səlahiyyətləri, habelə elmi işçilərin hüquq və vəzifələri elmi müəssisənin nizamnaməsi ilə müəyyən olunur.

61. Akademiyanın regional elmi mərkəzləri Rəyasət Heyətinin nəzdindədir, onların səlahiyyətləri və funksiyaları Rəyasət Heyətinin təsdiq etdiyi əsasnaməyə uyğun olaraq müəyyən edilir.

62. Regional elmi mərkəzlərin əsas vəzifəsi Akademiyanın bölmələrinin elmi-metodik rəhbərliyi ilə müvafiq ərazilərin təbii sərvətlərini, tarixini, mədəniyyətini və sosial-iqtisadi inkişafının müxtəlif problemlərini öyrənməkdir.

63. Regional elmi mərkəzlərin başa çatdırdıqları tədqiqatların nəticələri müvafiq bölmələrdə müzakirə edilir və onlar hər il elmi-təşkilati fəaliyyətləri barədə Rəyasət Heyətinə hesabat verirlər.

VI. AKADEMİYANIN HÜQUQLARI

64. Akademiya öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

alimlərin, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin əlyazmalarını, tarixi əhəmiyyət kəsb edən digər materialları dövlət arxivlərinə təhvil vermədən Akademiyanın Mərkəzi Elmi Arxivində, elmi müəssisələrin arxivlərində, Akademiyanın Mərkəzi Elmi Kitabxanasında saxlamaq;

Akademiyanın səlahiyyətlərinə aid olan məsələlərin həll edilməsi üçün mərkəzi icra hakimiyyəti orqanlarından və dövlət təşkilatlarından zəruri sənədlər, statistik məlumatlar və digər materiallar almaq;

zəruri hallarda müvafiq orqanların rəhbərliyinin razılığı ilə işçi qrupların fəaliyyətində iştirak etmək üçün icra hakimiyyəti orqanlarından və dövlət təşkilatlarından Akademiyanın səlahiyyətlərinə aid məsələlərlə əlaqədar müstəqil ekspert, məsləhətçi və mütəxəssislər cəlb etmək;

ödənişli əsaslarla kadr hazırlamaq.

65. Akademiya aşağıdakı əlavə maliyyə mənbələrindən istifadə edə bilər:

Dövlət proqramlarına ayrılan büdcə vəsaiti, müvafiq nazirliklərin və komitələrin proqramlarının işlənməsinə ayrılan vəsait, habelə dövlət elmi tədqiqat fondlarının vəsaiti;

təsərrüfat hesablı elmi tədqiqat işlərinin yerinə yetirilməsindən əldə olunan vəsait;

ictimai və şəxsi, o cümlədən beynəlxalq fondların vəsaiti;

Azərbaycan Respublikasının və digər dövlətlərin hüquqi və fiziki şəxsləri ilə bağlanan müqavilə, saziş və kontraktlar hesabına alınan vəsait;

müxtəlif, o cümlədən xarici təşkilatlardan daxil olan yardım;

Akademiyanın Nizamnaməsində və onun elmi müəssisələrinin nizamnamələrində nəzərdə tutulan fəaliyyət növləri hesabına büdcə və büdcədənkənar mənbələrdən alınan vəsait.

66. Akademiya və onun müəssisələri üçün müəyyən edilmiş qaydada istifadə məqsədi ilə torpaq sahələri almaq.

67. Akademiya, onun elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələri, regional elmi mərkəzləri onların sərəncamında olan və müvəqqəti istifadə olunmayan əmlakı Azərbaycan Respublikasının qanunvericiliyinə və Rəyasət Heyətinin qərarlarına uyğun olaraq icarəyə verə bilər. İcarədən əldə edilən gəlir Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun istifadə olunur.

68. Akademiyanın razılığı olmadan onun elmi, elmi xidmət, təhsil və sosial xidmət müəssisələri özəlləşdirilə bilməz.

69. Akademiyanın Nizamnaməsi Akademiyanın Ümumi yığıncağında səsvermədə iştirak edən Akademiya üzvlərinin ⅔ səs çoxluğu ilə dəyişdirilə bilər.

3. MƏKTUBLAR. TƏBRİKLƏR

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN AKADEMİK AZAD MİRZƏCANZADƏYƏ TƏBRİK MƏKTUBU*

28 sentyabr 1993-cü il

Hörmətli Azad Xəlil oğlu!

Sizi 65 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm!

Sizi Azərbaycanın elm, təhsil və iqtisadiyyatının, xüsusən də neft sənayesinin inkişafında elmi istiqamətlərin əvəzsiz banilərindən biri kimi tanıyır və bu sahədə Azərbaycanın dünya şöhrəti qazanmasında misilsiz xidmətlərinizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, Azərbaycan elminin inkişafında xalqın rifahı naminə atdığınız addımlar bundan sonra da səmərəli və uğurlu olacaq və siz vətənimizin tərəqqisi yolunda istedadınızı, zəkanızı, bacarığınızı əsirgəməyəcəksiniz.

Ömrünüzün kamillik çağında sizə xoş diləklərimi bildirirəm.

* «Azərbaycan» qəzeti, 29 sentyabr 1993-cü il

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ VİTSE-PREZİDENTİ, AKADEMİK ZİYA BÜNYADOVA*

20 dekabr 1993-cü il

Hörmətli Ziya müəllim!

Anadan olmağınızın yetmiş illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm, müdriklik yaşınızda möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Siz uzun illər boyu tarix elmimizin inkişafı yolunda gərgin axtarışlar aparmağı ömrünüzün mənasına çevirmisiniz. Orta əsrlər Azərbaycanının açılmamış səhifələrinin araşdırılmasına, öyrənilməsinə həsr edilən onlarca kitabınızla, yüzlərcə məqalənizlə şərqşünaslıq və tarix elmimizə beynəlxalq nüfuz qazandırmağa çalışmısınız. Alim səbriniz və işgüzarlığınız sayəsində Şərq tarixinin əvəzsiz örnəkləri dilimizə tərcümə edilmişdir. Müqəddəs «Qurani-Kərim»i son yetmiş ildə yenidən tərcümə edənlərdən və nəşrə hazırlayanlardan biri kimi böyük savab iş görmüsünüz.

Azərbaycan Respublikası Elmlər Akademiyasının vitse-prezidenti, akademik kimi siz indi də elmi fəaliyyətinizi davam etdirərək xalqımızın tarixi sınağa çəkildiyi bir zamanda əlinizdən gələni əsirgəmirsiniz.

Ümidvaram ki, müstəqil Azərbaycanımız naminə bundan sonra da yorulmadan çalışacaq, bizi elm cəbhəsindəki uğurlarınızla sevindirəcəksiniz.

Hörmətlə, Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, s. 291

AKADEMİK ELDAR SALAYEVƏ*

24 dekabr 1993-cü il

Hörmətli Eldar Yunis oğlu!

Sizi - Azərbaycanın tanınmış alimi və görkəmli ictimai xadimini 60 illiyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Elmi ictimaiyyət Sizi mikrofotoelektronika sahəsinin Azərbaycan elmi məktəbinin yaradıcısı kimi tanıyır. Respublikamızda bu istiqamətlə bağlı elmi tutumlu yeni istehsal sahəsinin yaradılıb inkişaf etdirilməsində də xidmətləriniz böyükdür.

Sizin təşkilatçılıq fəaliyyətiniz respublika akademiyasının həyatında öz əksini tapmışdır. Elmi nailiyyətləriniz və təşkilatçılıq bacarığınızla yanaşı, qaynar ictimai fəaliyyətiniz də sizi xalqa daha yaxından tanıtmışdır.

İnanıram ki, rəhbərlik etdiyiniz Azərbaycan Elmlər Akademiyası öz əzəli şöhrətini qoruyub saxlayacaq, bu müqəddəs elm ocağının hər bir istedadlı və ləyaqətli əməkdaşı isə müstəqil Azərbaycanımız naminə yorulmadan çalışacaq və Azərbaycan elminə sədaqətlə xidmət edəcəkdir.

Sizi - ömrünün 60-cı baharı ilə qovuşan fədakar alimimizi bir daha təbrik edir, gələcək fəaliyyətinizdə Sizə möhkəm cansağlığı və yeni uğurlar diləyirəm.

Hörmətlə, Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, s. 300

MƏMMƏD ƏMİN RƏSULZADƏ adına BAKI DÖVLƏT UNİVERSİTETİNƏ*

Respublikamızın ilk ali təhsil ocağı – Bakı Dövlət Universitetinin 75 ili tamam olur. Əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə və maarifinə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar mədəni hadisədir.

Bakı Dövlət Universiteti qısa ömürlü Azərbaycan Demokratik Respublikasının qiymətli yadigarıdır. Bu müqəddəs təhsil və elm ocağının qoynundan pərvazlanmış dünya şöhrətli elm və zəka sahiblərinin, müəllim və pedaqoqların qaynar və mənalı ömürləri millətimizin fəxridir.

75 illik fəaliyyət dövründə xalqımıza sədaqətli xidmətin rəmzinə çevrilmiş bu möhtəşəm ali məktəbimiz neçə-neçə nəslin vətənpərvərlik, xalqına məhəbbət ruhunda tərbiyə edilməsində əvəzsiz rol oynamışdır. Torpağına, mənliyinə, varlığına təcavüz edilən Azərbaycanın bu ağır çağında onun suverenliyi və toxunulmazlığı keşiyində duran qeyrətli övladlarımız sırasında Bakı Dövlət Universitetinin məzunları və tələbələri də vardır. İnanıram ki, gənc Azərbaycan dövləti məhz bu saf əqidəli, dərin bilikli, geniş dünyagörüşü, mətin və dönməz gənclərimizin fəaliyyəti sayəsində öz müstəqilliyini əzmlə qoruyacaq, dünyanın ən qüdrətli dövlətlərindən birinə çevriləcəkdir.

Ömürlərini məşələ çevirib gənc nəslin təlim-tərbiyəsində qətrə-qətrə əridən professor və müəllim heyətini, Azərbaycanın sabahının etibarlı təminatçısı olan bugünkü tələbələri, qəlbində universitet sevgisini əbədi yaşadan məzunları, respublikamızın elm və maarif xadimlərini, ziyalılarını – belə bir əvəzsiz milli sərvətin sahibi olan bütün Azərbaycan xalqını bu gün Bakı Dövlət Universitetinin şanlı 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, işıqlı sabahlar naminə hamıya cansağlığı və uğurlar diləyirəm. Əsrin əvvəlində universitetin yaradılmasında misilsiz xidmətlər göstərmiş və onun beşiyi başında durmuş nurlu şəxsiyyətləri də bu yubiley günündə minnətdarlıqla yad etməyi özümə borc bilirəm.

Əminəm ki, Bakı Dövlət Universiteti öz zəngin ənənələrinə bundan sonra da sadiq qalacaq, elm və təhsil məbədi kimi sabaha uzanan yollara gur işıq salacaqdır. Ona bu yolda uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasını Prezidenti

25 noyabr 1994-cü il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İkinci kitab. B., Azərnəşr, 1997, s. 539

AKADEMİK İMAM MUSTAFAYEVƏ*

Hörmətli İmam Mustafayev!

Sizi 85 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan xalqı Sizi həyatını kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsinə sərf etmiş. görkəmli alim, tanınmış ictimai xadim, fəaliyyətini Vətəninə, xalqına xidmətə həsr etmiş böyük vətəndaş kimi tanıyır.

Siz 65 illik yorulmaz, məhsuldar fəaliyyətiniz sayəsində geniş xalq kütlələrinin məhəbbət və ehtiramını qazanmışsınız. İnanıram ki, Siz bundan sonra da elmi və ictimai fəaliyyətinizi davam etdirəcək, yeni-yeni nailiyyətlər əldə edəcəksiniz. Sizə bu şərəfli yolda uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

23 fevral 1995-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. B., Azərnəşr, 1997, s. 211

AZƏRBAYCANIN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ*

Əziz Bəxtiyar müəllim!

Sizi – xalqımızın böyük şairi, görkəmli alimi, tanınmış pedaqoqu və yorulmaz ictimai-siyasi xadimini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Xalqın düşüncə və arzuları, hiss və duyğuları, istək və amalları həmişə sizin zəngin yaradıcılığınızın, mübariz poeziyanızın cövhəri olmuşdur. Məslək və əqidənizin xidmətində sədaqətlə durmuş. qələminiz sizi şöhrət zirvəsinə ucaltmış, Azərbaycanın sevimli sənətkarı etmişdir.

Çoxillik elmi-pedaqoji fəaliyyətiniz, nurlu şer-sənət dünyanız illər boyu gənclərin tərbiyəsinə böyük təsir göstərmiş, haqq-ədalətin təntənəsi uğrunda mübarizədə qalib gəlməyə xalqı səfərbər etmişdir. Bu gün Vətən torpağının keşiyində duran mərd oğul və qızlarımız məhz doğma xalqın, müqəddəs torpağın azadlığı üçün yanmaq amalı ilə yaşayır, döyüşür və yaradır.

Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız. Hörmətli şair!

Sizi – həyatın mənasını xalqa sədaqətlə xidmətdə görən fədakar insanı ömrün müdrik çağında Azərbaycanın müstəqilliyi həqiqətən bəxtiyar etmişdir. Sizə möhkəm cansağlığı, uzun ömür və müstəqil Azərbaycan dövlətinin gələcəyi naminə fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

12 oktyabr 1995-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab. B., Azərnəşr, 1997, s. 350

ƏMƏKDAR ELM XADİMİ SARA XANIM AŞURBƏYLİYƏ*

Hörmətli Sara xanım!

Sizi – Azərbaycanın görkəmli tarixçi alimini, anadan olmağınızın 90 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Xalqımız sizi bütün həyatını Azərbaycanda tarix elminin inkişafına həsr etmiş fədakar alim kimi tanıyır. Uzun illər apardığınız gərgin elmi axtarışların məhsulu olan, Azərbaycanın orta əsrlər tarixinə həsr olunmuş sanballı əsərləriniz sizə şöhrət gətirmişdir. Sizin tarixi həqiqətlərə istinad edən fundamental elmi tədqiqatlarınız Azərbaycan elminə sədaqətlə xidmətin parlaq nümunəsidir.

Əminəm ki, siz özündə milli və ümumbəşəri dəyərləri cəmləşdirən əsl Azərbaycan ziyalısı kimi nadir istedad və qabiliyyətiniz, fədakarlıq və təvazökarlığınızla yeni nəsillərə həmişə örnək olacaqsınız.

Əziz Sara xanım!

Sizə möhkəm cansağlığı, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

26 yanvar 1996-cı il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. B., Azərnəşr, 1998, s. 301

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ MARK DALİNƏ*

Hörmətli Mark Aleksandroviç!

Sizi – Azərbaycanın qocaman alimini, əməkdar elm xadimini, neft-kimya sənayesinin banilərindən birini anadan olmağınızın 90 illiyi münasibətilə təbrik edirəm.

Siz bütün ömrünüzü Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən neft-kimya məhsullarının sənaye istehsalının elmi əsaslarının işlənməsinə sərf etmişsiniz. Çoxsaylı elmi əsərləriniz və ixtiralarınız Azərbaycan və dünya elminin inkişafına xidmət etmişdir.

Fitri istedad, yüksək təşkilatçılıq bacarığınız sayəsində Siz böyük nüfuzu olan alim, istehsalat rəhbəri və ictimai xadim kimi tanınmışsınız. Azərbaycan elmi kadrlarının yetişdirilməsində də Sizin zəhmətiniz əvəzsizdir. Bu gün Azərbaycanın neft-kimya sahəsində çalışan alim və mütəxəssislərin böyük qismi Sizin yetirmələrinizdir.

Əziz Mark Aleksandroviç, bir daha Sizi ürəkdən salamlayır, möhkəm cansağlığı, xoşbəxtlik arzulayır, bütün niyyətlərinizin gerçəkləşməsini diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

21 aprel 1996-cı il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. B., Azərnəşr, 1998, s. 139

DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ MÜNASİBƏTİLƏ DƏRBƏND ŞƏHƏRİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA*

15 iyul 1996-cı il

Möhtərəm konfrans iştirakçıları, əziz dostlar!

Sizi - dahi Azərbaycan şairi Məhəmməd Füzulinin möhtəşəm, ulu poeziyasının işığına yığışmış sənətsevərləri səmimi qəlbdən salamlayır, bu nəcib məramınızı ürəkdən alqışlayıram.

Beş yüz ildir ki, Füzuli sənəti ülvi insani duyğuların, bəşəri dəyərlərin poetik salnaməsi kimi ürəkləri fəth edir. Füzuli təkcə Azərbaycanın, Şərqin deyil, bütün bəşəriyyətin dahi mütəfəkkiridir.

Fitri istedad və yüksək sənətkarlıqla səciyyələnən Füzuli yaradıcılığı milli-coğrafi sərhəd tanımır, dünya mədəniyyətinin incisinə çevrilərək xalqlar arasında mənəvi-mədəni əlaqələrin möhkəmlənməsində, millətlərin bir-birinə yaxınlaşmasında əvəzsiz rol oynayır.

Azərbaycan, ərəb və fars dillərində ölməz sənət nümunələri yaradaraq zəngin ədəbi irs qoyub getmiş Füzulinin yaradıcılığı dünyanın bir çox görkəmli alimləri tərəfindən tədqiq edilmiş, onun həyatı və sənəti barədə dəyərli elmi əsərlər yazılmışdır. Qardaş Dağıstan alimləri öz xalqlarının Füzuli sənətinə olan böyük hörmət və məhəbbətini ifadə edərək dahi şairin yaradıcılığını dərindən öyrənir, sanballı elmi-tədqiqat işləri aparırlar. Dərbənd şəhərində keçirilən beynəlxalq elmi konfrans da Füzuli poeziyasının öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir.

Əminəm ki, bu, beynəlxalq elmi konfrans Azərbaycan və Dağıstan xalqlarının dostluq, qardaşlıq münasibətlərinin daha da zənginləşməsinə xidmət edəcəkdir.

Mən bir daha sizi - bütün Dağıstan sənətsevərlərini, füzulişünasları ürəkdən salamlayır, konfransınızın işinə uğurlar diləyirəm.

Hörmətlə, Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. B., Azərnəşr, 1998, s. 108

AZƏRBAYCAN ELMİ-TƏDQİQAT OFTALMOLOGİYA İNSTİTUTUNA*

Sizi, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun əməkdaşlarını, 50 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

İnstitutunuzun respublikada göz xəstəliklərinin müalicəsi və oftalmologiya elminin inkişafındakı xidmətləri yüksək qiymətə layiqdir. Əlli illik tarixiniz boyu əldə etdiyiniz nailiyyətlərin ən uğurlusu traxoma kimi təhlükəli xəstəliyin bütövlükdə respublikada ləğv edilməsi olmuşdur.

Azərbaycanda göz xəstəliklərinin diaqnostikası və müalicəsinin elmi əsaslarının işlənməsində, onların praktikada tətbiq olunmasında, oftalmologiya sahəsində kadrların hazırlanmasındakı nailiyyətləriniz respublikada səhiyyə sisteminin inkişafına böyük təsir göstərmişdir.

İnstitutda yetişmiş güclü oftalmoloqlar nəsli xalqımızın etimadını qazanmış, onların bir qismi öz elmi və praktiki işləri ilə ölkəmizin hüdudlarından kənarda tanınmışdır.

Əminəm ki, institutun gözəl ənənələrini davam etdirərək bundan sonra da müstəqil Azərbaycan Respublikasında oftalmologiya elminin inkişaf etdirilməsi, xalqımızın sağlamlığının qorunması yolunda daha böyük əzmlə çalışacaqsınız.

Sizə bu nəcib işinizdə uğurlar arzulayır, hər birinizə cansağlığı, səadət diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

11 oktyabr 1996-cı il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab. B., Azərnəşr, 1998, s. 397

YUSİF MƏMMƏDƏLİYEV ADINA NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNƏ*

Sizi - Azərbaycanın mötəbər təhsil ocağı olan Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətini və tələbələrini universitetinizin 30 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və nəcib fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafında Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri və böyük xidmətləri vardır. Zəngin maarifçilik ənənələrinin layiqli davamçısı olan bu universitet muxtar respublikanın ali təhsilli mütəxəssislərə olan ehtiyacını ödəyən müasir təhsil mərkəzidir. Fərəhli haldır ki, bu təhsil ocağının yetirmələri həm Naxçıvanın müxtəlif guşələrində, həm də onun hüdudlarından kənarda uğurla çalışırlar.

Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvanın dövlət müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsi uğrunda mübarizəsində universitetin göstərdiyi xidmətlər xüsusilə qeyd olunmalıdır. Bu ali məktəb qonşu ölkələrin elm və təhsil mərkəzləri ilə geniş əlaqələr yaratmaqla bir daha Naxçıvanın Şərqin qapısı olduğunu nümayiş etdirir.

Bugünkü iqtisadi sıxıntılara baxmayaraq, həyatını gənc nəslin yetişdirilməsinə həsr edən, ömrünün mənasını xalqına, Vətəninə layiqli vətəndaş tərbiyə etməkdə görən Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyətinin fədakar əməyindən məmnun olduğumu bildirirəm. Əminəm ki, universitet adını daşıdığı böyük vətənpərvər alim Yusif Məmmədəliyevin, xalqımızın görkəmli şəxsiyyətlərinin irsinə, bu qədim diyarın zəngin ənənələrinə layiq milli kadrlar yetişdirilməsi işində bundan sonra da var qüvvəsini sərf edəcəkdir.

Bu yubiley münasibətilə bütün təhsil işçilərini, bütün xalqımızı səmimi-qəlbdən təbrik edir, Azərbaycanımızın çiçəklənməsi və tərəqqisi naminə yeni nəslin tərbiyəsi işində Naxçıvan Dövlət Universitetinin kollektivinə böyük nailiyyətlər arzulayıram.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 oktyabr 1997-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On üçüncü kitab. B., Azərnəşr, 2004, s. 62-63

DÖVLƏT MÜKAFATLARI LAUREATI, GENERAL-LEYTENANT KƏRİM KƏRİMOVA *

Bakı şəhəri, 10 noyabr, 1997-ci il

Əziz Kərim Əliyeviç!

Anadan olmağımızın 80 illiyi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Kosmik elmin və texnologiyanın yaranmasına, kosmosun fəthi sahəsində bir çox layihələrin həyata keçirilməsinə Sizin verdiyiniz töhfəni yüksək qiymətləndirirəm. Sizin fədakar əməyiniz, təşkilatçılıq istedadınız və yüksək mənəvi keyfiyyətləriniz. Sizə layiqli nüfuz və ictimai hörmət qazandırmışdır.

Məmnuniyyətlə qeyd edirəm ki, Siz bütün bu illərdə doğma Azərbaycanla əlaqələri kəsməmisiniz, respublikamızda kosmik elmin texnologiyasının təşəkkülünə və inkişafına kömək etmisiniz. Xidmətlərinizi nəzərə alaraq, müstəqil Azərbaycan Respublikası Sizi «Şöhrət» ordeni ilə təltif etmişdir. Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, Sizə möhkəm cansağlığı və uzun ömür, ailənizə səadət və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,

Azərbaycan Respublikasının Prezidenti

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On üçüncü kitab. B., Azərnəşr, 2004, s176

HEYKƏLTƏRAŞ ÖMƏR ELDAROVA*

Hörmətli Ömər Eldarov!

Sizi, heykəltəraşlıq sənətinin görkəmli nümayəndəsini, Azərbaycanın xalq rəssamını 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamış, dərin məzmunlu monumental əsərləri ilə heykəltəraşlıq məktəbimizi zənginləşdirmiş böyük sənətkarlardansınız. Müxtəlif janrlarda yaratdığınız əsərlər öz bədii təsiri, mənəvi dəyəri, plastik kamilliyi və milli koloriti ilə fərqlənir. Gözəlliyə ülvi romantik münasibət Sizin sənətinizin əsas xüsusiyyətlərindəndir. Qədim və müasir mədəniyyətimizdə, tariximizdə, bugünkü həyatımızda gözəllik axtarışları sənət yolunuzun aparıcı qayəsi olmuşdur.

Siz Azərbaycanın dahi şəxsiyyətlərinin unudulmaz obrazlarını gözəl abidələrə çevirərək xalqımız üçün dəyərli əsərlər yaratmısınız. Ümumbəşəri mövzuları, böyük humanist idealları müdrikliklə əks etdirən əsərləriniz klassik sənət nümunələridir.

Dərin psixoloji xarakteristika, yeni plastik forma axtarışları ilə səciyyələnən yaradıcılığınız daşlarda həkk olunmuş musiqiyə bənzəyərək sənətsevərlərin ürəklərini öz kamilliyi ilə fəth edir.

Siz öz yaradıcılığınızla Azərbaycan təsviri sənətinə heykəltəraşlıqla memarlığın uğurlu sintezi nümunəsini bəxş etmisiniz. Mahir ustalıqla yaratdığınız əsərlər xeyirlə şərin qarşıdurması ilə, böyük tarixi sarsıntılarla səciyyələnən əsrimizin sanki canlı rəmzidir.

Şəhərimizin küçə, meydan və xiyabanlarını bəzəyən abidələriniz xalqımızın mədəni irsinə ehtiram və məhəbbət duyğuları oyadan canlı muzeydir. Bu əsərlərlə Siz müstəqil Azərbaycanımızın mədəniyyət tarixində, sənətsevərlərin ürəklərində özünüzə də həmişəyaşar bir abidə ucaltmısınız. Yaratdığınız heykəllər xarici ölkələrin şəhərlərində də özünə layiqli yer tapmış və Sizi daha da şöhrətləndirmişdir.

Siz böyük xidmətlərinizə görə dövlət mükafatı, müxtəlif medal və diplomlarla təltif olunmuş, keçmiş SSRİ Rəssamlar Akademiyasının həqiqi

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On üçüncü kitab. B., Azərnəşr, 2004, s. 401-402

üzvü adına layiq görülmüsünüz.

İnanıram ki, yaradıcılığınızın müdrik dövrünü yaşadığınız indiki mərhələ sənət yolunuzun həm də ən məhsuldar mərhələsi olacaqdır və Siz Azərbaycanın təsviri sənətinin qızıl fondunu zənginləşdirən yeni əsərlər yaradacaqsınız.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 dekabr 1997-ci il

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ PREZİDENTİ AKADEMİK FƏRAMƏZ MAQSUDOV CƏNABLARINA, AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVLƏRİNƏ*

Elmlər Akademiyasının hörmətli prezidenti!

Hörmətli akademiklər!

Dünən axşam mənə məlum olmuşdur ki, ümumi iclasınızda məni Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçmisiniz. Mənə göstərdiyiniz böyük diqqətə və fəaliyyətimə verdiyiniz yüksək qiymətə görə hamınıza təşəkkür edirəm.

Lakin mən heç vaxt Elmlər Akademiyasının üzvü olmaq arzusunda olmamışam, bu münasibətlə Elmlər Akademiyasına müraciət etməmişəm və dövlət işləri ilə məşğul olduğuma görə buna ehtiyac da duymamışam. Hesab edirəm ki, qərar qəbul etməkdən öncə siz mənim fikrimi öyrənməli və bunun üçün mənim razılığımı almalı idiniz. Bütün bunları nəzərə alaraq xahiş edirəm ki, mənim barəmdə qəbul etdiyiniz qərarı ləğv edəsiniz.

Azərbaycan Elmlər Akademiyasının müstəqil Azərbaycanın həyatındakı böyük roluna və onun üzvlərinin Azərbaycan elmi qarşısında göstərdikləri misilsiz xidmətlərinə görə bir daha sizə hörmət və ehtiramımı bildirirəm.

Səmimiyyətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 may 1998-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. B., Azərnəşr, 2004, s. 366

ZAQAFQAZİYA DÖVLƏTLƏRİ ONKOLOQLARININ BİRİNCİ KONQRESİNƏ*

Hörmətli konqres iştirakçıları!

Sizi ürəkdən salamlayır və əhalinin sağlamlığının qorunması sahəsində nəcib fəaliyyətinizdə sizə müvəffəqiyyətlər arzulayıram.

Zaqafqaziya respublikaları onkoloqlarının 1949-cu ildə Azərbaycanın paytaxtı Bakıda keçirilmiş birinci müşavirəsindən təqribən yarım əsr ötdükdən sonra siz yenidən bir yerə toplaşmısınız. Onuncu belə konfrans 10 il bundan əvvəl Bakıda keçirilməli idi, lakin məlum siyasi hadisələr onun keçirilməsinə imkan vermədi.

Dünyada bir çox politoloqlar regional münaqişələri, separatizmi və terrorizmi obrazlı şəkildə Dünya Birliyinin xərçəng şişi adlandırırlar. Təəssüf ki, bu gün Qafqazı məhz belə bir xəstəlik bürümüşdür. Biz siyasətçilər dinc Qafqaz ideyasını elan etməklə, bütün mövcud münaqişələrin aradan qaldırılması ilə məşğul olmaqla Qafqazın bütün xalqlarının dinc və xoşbəxt gələcəyinə nail olmaq istəyirik. Dünyada ən humanist peşənin nümayəndələrinin əməkdaşlığa hazır olması da bir daha göstərir ki, «Ümumqafqaz evi» konsepsiyasının tamamilə gerçəkləşdirilməsi üçün hər cür əsas vardır.

Müstəqil Azərbaycan Respublikası sosial yönümlü siyasət yeridərkən səhiyyəni öz xəttinin başlıca strateji istiqamətlərindən biri kimi qiymətləndirir. Respublikamızın onkoloqlarının şəksiz nailiyyətləri olsa da bütün dünyadakı həmkarları kimi, onlar da bu gün dünya elminin təsirli müalicə metodları təklif edə bilmədiyi adamların dərdini bəzən ancaq yüngülləşdirə bilirlər. Biz hamımız ümid edirik ki, dünya onkoloqlarının əlbir səyləri ilə sosial və ekoloji sarsıntılar əsri olan bizim əsrimizdə milyonlarla adamın ölümünə bais olan bu dəhşətli xəstəliyin müalicəsi üçün əsaslı vasitə tapılacaqdır.

Ümidvaram ki, konqres onkologiyanın aktual problemləri ilə bağlı məsələləri müzakirə edərək tibb elminin və səhiyyənin inkişafına yeni vüsət verəcəkdir.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 noyabr 1998-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab. B., Azərnəşr, 2006, s. 167-168

AZƏRBAYCAN DÖVLƏT NEFT SƏNAYESİ ELMİ TƏDQİQAT VƏ LAYİHƏ İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA*

Sizi – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunun əməkdaşlarını institutun yaradılmasının 70 illiyi münasibətilə səmim-qəlbdən təbrik edirəm.

Azərbaycan qədim neft diyarıdır və neft ölkəsi kimi məşhurdur. Dünyada ilk dəfə 1847-ci ildə məhz Azərbaycanda neft fontan vurmuş və sənaye üsulu ilə neft hasilatına başlanmışdır.

Əsrimizin əvvəllərində Azərbaycan dünyanın neft hasil edən ən böyük ölkəsi olmuşdur. İkinci dünya müharibəsi zamanı Sovetlər İttifaqının istifadə etdiyi neftin 75 faizi Azərbaycanda hasil olunmuşdur.

Azərbaycan XX əsrə bir neft ölkəsi kimi daxil olmuş və inkişaf etmişdir. 70 il bundan öncə məhz Azərbaycanda neft sənayesinin dövlət əhəmiyyətli Elmi Tədqiqat və Layihə İnstitutunun yaradılması zamanın tələbi idi.

Fəaliyyətinin ilk dövrlərindən başlayaraq, Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunda fundamental tədqiqatlar aparılmış və burada yerinə yetirilən bir sıra elmi işlər neft elminin ayrı-ayrı istiqamətlərinin nəzəri əsaslarını təşkil etmişdir. İnstitutun əməkdaşları keçmiş Sovet İttifaqının bir çox neft rayonlarında elmi tədqiqat mərkəzlərinin yaradılmasında bilavasitə iştirak etmişlər.

Ötən illərdə Azərbaycanın neft sənayesində yaranmış elmi-texniki potensial, istehsal və maddi-texniki baza, güclü infrastruktur müstəqil respublikamızın neft sənayesində yeni mərhələdə böyük işlər görülməsi üçün möhkəm zəmin yaratmışdır. İndi Azərbaycan dünyanın ən inkişaf etmiş dövlətlərinin iri və məşhur neft şirkətləri ilə əməkdaşlıq edir. Bu sahədə işlər uğurla davam etdirilir və əldə edilmiş nailiyyətlərə əsaslanaraq demək olar ki, Azərbaycan XXI əsrə yüksək elm və sənaye potensialına malik demokratik, hüquqi dövlət kimi daxil olacaqdır.

Əmin olduğumu bildirirəm ki, zəngin ənənələri, yüksək elmi, mühəndis və texniki kadrları olan Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutu bundan sonra da müstəqil Azərbaycan

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On doqquzuncu kitab. B., Azərnəşr, 2006, s. 215-216

dövlətinin neft sənayesi qarşısında duran böyük və şərəfli vəzifələri həyata keçirməyə qadir olan bir kollektiv kimi fəaliyyət göstərəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə institutun yaradıcı və əməksevər kollektivinə möhkəm cansağlığı və ölkəmizin tərəqqisi naminə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 mart 1999-cu il

GÖRKƏMLİ SƏYYAH VƏ ALİM TUR HEYERDALA*

Hörmətli Tur Heyerdal, sizi - dünya şöhrətli səyyahı və alimi, Azərbaycanın böyük dostunu anadan olmağınızın 85 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Tədqiqatlarınızı, Azərbaycanın qədim maddi mədəniyyət abidələrinin, Azərbaycan-Norveç tarixi əlaqələrinin araşdırılması və təbliği ilə bağlı fəaliyyətinizi yüksək qiymətləndirirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram. Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 oktyabr 1999-cu il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi ikinci kitab. B., Azərnəşr, 2007, s. 112

MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNƏ*

Hörmətli müəllimlər!

Əziz tələbələr!

Respublikamızın ilk ali təhsil ocağı – Bakı Dövlət Universitetinin 80 illik yubileyi münasibətilə sizi, ölkəmizin bütün təhsil işçilərini səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqının XX əsrin əvvəllərindən başlanmış kütləvi şəkildə maariflənməsi, savadlanması prosesində Bakı Dövlət Universitetinin açılması əlamətdar tarixi bir hadisə olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təşəbbüsü ilə Azərbaycanda ilk ali təhsil ocağının yaranması o dövrdə gedən tarixi proseslərdən doğan bir zərurət idi.

Bakı Dövlət Universiteti 80 illik fəaliyyəti dövründə Azərbaycanın həyatının bütün sahələrinə güclü təsir edərək xalqımız qarşısında əvəzsiz xidmətlər göstərmişdir. Əslində, universitetimizin tarixi Azərbaycan təhsilinin və mədəniyyətinin inkişafı tarixidir.

Respublikamızda ali təhsilin inkişafında universitet müstəsna rol oynamışdır. İndi ölkəmizdə onlarla ali məktəb mərkəzlərinin mövcud olması, Azərbaycan Respublikasının böyük ali təhsil potensialına malik olması məhz Bakı Dövlət Universitetinin fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Bakı Dövlət Universiteti Azərbaycan elminin inkişafına da olduqca güclü təsir göstərmişdir. O, yarandığı ilk dövrdən Azərbaycanda Elmi-Tədqiqat Mərkəzinə çevrilmişdir. Bu gün Azərbaycan Elmlər Akademiyasının tərkibində fəaliyyət göstərən institutların əksəriyyəti Bakı Dövlət Universiteti ilə bu və ya digər dərəcədə bağlıdır.

Azərbaycanın tərəqqisi, inkişafı və çiçəklənməsi uğrunda böyük əzmlə çalışan vətənpərvər ziyalıların çoxu bu milli təhsil ocağının yetirmələri olmuşdur. Universitet 80 illik tarixi ərzində respublikamızın elm, mədəniyyət və ədəbiyyat sahələrinə görkəmli simalar bəxş etmişdir. Diqqətəlayiqdir ki, Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi dördüncü kitab. B., Azərnəşr, 2008, s. 119-120

göstərmiş bir mərkəz rolunu oynamışdır. Bakı Dövlət Universitetinin əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların əməyini daim yüksək qiymətləndirərək onların xatirəsini böyük minnətdarlıq və ehtiram hissi ilə yad edirəm. Əminəm ki, siz ölkəmizin inkişafı və xalqımızın tərəqqisi üçün əllərindən gələni əsirgəməmiş həmin nəsillərin ənənələrini ləyaqətlə davam etdirəcək və Azərbaycan Respublikasının müstəqilliyinin, milli dövlətçiliyinin qorunub möhkəmləndirilməsi işinə sədaqətlə xidmət göstərəcək milli kadrların yetişdirilməsində var qüvvənizi sərf edəcəksiniz.

Bu əlamətdar günlərdə sizə – universitetin tələbə-müəllim heyətinə, bütün məzunlarına, respublikamızın təhsil işçilərinə böyük uğurlar diləyir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 1999-cu il

AZƏRBAYCAN ELMİ-TƏDQİQAT ƏKİNÇİLİK İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA*

Sizi institutunuzun 50 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda kənd təsərrüfatının tarlaçılıq sahəsinin elmi əsaslarla inkişaf etdirilməsində Elmi-Tədqiqat Əkinçilik İnstitutunun böyük xidmətləri olmuşdur. Bitkilərin məhsuldarlığının yüksəldilməsi və keyfiyyətinin yaxşılaşdırılması, torpağın becərilməsi, əkin dövriyyəsi, texnoloji proseslərlə bağlı institutda aparılan elmi araşdırmaların nəticələri ölkəmizdə qədim ənənələri olan əkinçiliyin bir çox sahələrinin sürətli inkişafına təkan vermişdir. İnstitutun alimlərinin gərgin əməyi sayəsində əldə olunmuş dənli və dənli-paxlalı bitkilərin bir çox yeni yüksək məhsuldar növü ölkəmizdə və onun hüdudlarından kənarda tətbiq edilərək ona əkinçilik məsələləri üzrə sanballı elmi-tədqiqat mərkəzi kimi böyük nüfuz qazandırmışdır.

Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutu öz yarıməsrlik fəaliyyəti dövründə kənd təsərrüfatının aktual məsələləri ilə məşğul olan mütəxəssis-alimlərin böyük bir nəslinin yetişməsində, yeni elmi-tədqiqat mərkəzlərinin yaranıb inkişaf etməsində mühüm rol oynamış güclü bazaya çevrilmişdir. Fərəhli haldır ki, institutun müxtəlif bölgələrdə yaradılmış yardımçı təcrübə təsərrüfatı, dayaq məntəqəsi və zona-təcrübə stansiyaları son dövrlərin ağır sınaqlarından ləyaqətlə çıxaraq bu gün də öz səmərəli fəaliyyətini davam etdirirlər.

Azərbaycan öz iqlimi və təbii şəraiti baxımından kənd təsərrüfatı üçün dünyanın olduqca əlverişli bölgələrindən biridir. Dövlət müstəqilliyini bərpa etdikdən sonra öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş Azərbaycan xalqı həyatın bir çox sahələrində olduğu kimi, kənd təsərrüfatında da köklü dəyişikliklər, dərin islahatlar həyata keçirir. Bu prosesin uğurla başa çatdırılmasında institutunuzun da üzərinə ciddi vəzifələr düşür. İnanıram ki, zəngin təcrübəyə malik olan bu elmi-tədqiqat mərkəzi öz fəaliyyətini yaşadığımız dövrün tələblərinə, təşəkkül tapmaqda olan müasir iqtisadi münasibətlərə uyğun quraraq yeni elmi nailiyyətləri ilə kəndli təsərrüfatlarına yaxından kömək edəcək, müstəqil respub-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi yeddinci kitab. B., Azərnəşr, 2009, s. 209-210

likamızda kənd təsərrüfatı məhsulları bolluğu yaradılması işinə öz layiqli töhfəsini verəcəkdir.

Sizə cansağlığı və xoşbəxtlik, ölkəmiz üçün gərəkli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 may 2000-ci il

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNƏ*

Hörmətli müəllimlər!
Əziz tələbələr!

Respublikamızın ilk ali tibb təhsili ocağı – Azərbaycan Tibb Universitetinin 70 illiyi münasibətilə sizi, ölkəmizin bütün səhiyyə işçilərini səmimi-qəlbdən təbrik edirəm.

Bakı Dövlət Universitetinin fakültəsi kimi fəaliyyətə başlayan və 1930-cu ildə müstəqil ali təhsil müəssisəsinə çevrilən Azərbaycan Tibb Universiteti ölkəmizdə tibb elminin və səhiyyənin inkişafında misilsiz xidmətlər göstərmişdir. Mübaliğəsiz demək olar ki, universitetin fəaliyyətinin 70 ili Azərbaycanda tibb elminin və səhiyyə sisteminin təşəkkül tapıb inkişaf etməsi yolunu əks etdirən mühüm bir dövrdür. Ölkəmizi yüksək ixtisaslı tibb kadrlan ilə təmin edən bu təhsil mərkəzi tarixi bir missiyanı uğurla yerinə yetirmiş və qısa müddət ərzində Azərbaycanda insan sağlamlığının keşiyində duran böyük həkimlər ordusu yaranmışdır. Yarandığı ilk illərdən respublikada tüğyan edən yoluxucu xəstəliklərin, epidemiyaların qarşısının alınmasında, əhali arasında sanitariya maarifi işinin gücləndirilməsində tibb universiteti əvəzsiz rol oynamışdır.

Azərbaycanda tibb elminin inkişafında universitetinizin xidmətləri yüksək qiymətə layiqdir. Milli tibb kadrlarının hazırlanması üçün əsas təhsil mərkəzi olmaqla yanaşı, universitet ciddi elmi nailiyyətləri ilə ölkəmizdə və onun hüdudlarından kənarda nüfuzlu elm mərkəzi kimi də yaxşı tanınır. Bu gün respublikamızın tibb profilli elmi-tədqiqat institutlarının əksəriyyətinin fəaliyyəti Azərbaycan Tibb Universiteti ilə sıx bağlıdır.

Təhsil, elm və təbabəti öz fəaliyyətində üzvi şəkildə birləşdirən universitetdə çalışanların əksəriyyəti müəllim, alim olmaqla yanaşı, həm də ölkə səhiyyəsinin müxtəlif sahələrində aparıcı qüvvə hesab olunurlar. Həkim andına sadiq, öz peşəsinə sıx bağlı olan bu vətənpərvər insanların səyləri nəticəsində ölkəmizdə səhiyyənin inkişafı yolunda böyük uğurlar əldə edilmişdir.

Azərbaycan Tibb Universitetinin dünyanın tanınmış tibb və səhiyyə mərkəzləri ilə əməkdaşlığı son illərdə xeyli genişlənmişdir. Universitetin

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi səkkizinci kitab. B., Azərnəşr, 2009, s. 171-172

müəllimləri Azərbaycanın dövlət müstəqilliyinin verdiyi geniş imkanlardan səmərəli istifadə edərək öz xarici həmkarları ilə müştərək tədqiqat işləri aparmaqla, tibbin və səhiyyənin aktual problemlərinə həsr olunmuş müxtəlif forumlarda fəal iştirak etməklə, beynəlxalq təşkilatların, assosiasiyaların rəhbər orqanlarına seçilməklə öz beynəlxalq əlaqələrini daha da möhkəmləndirirlər. Bununla da onlar ölkəmizin dünya elminə və mədəniyyətinə daha yaxından qovuşması işinə öz töhfələrini verirlər.

Bu yubiley günlərində Azərbaycanda ilk ali tibb təhsili ocağının bünövrəsini qoymuş, onun ərsəyə çatmasında, inkişaf etməsində mühüm rol oynamış görkəmli alim və pedaqoqların xidmətlərini yüksək qiymətləndirərək əmin olduğumu bildirirəm ki, siz universitetin adını həmişə uca tutacaq, müstəqil Azərbaycanın tərəqqisi naminə ölkəmizdə tibbin və səhiyyənin daha da inkişafı üçün əlinizdən gələni bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə – universitetin müəllim və tələbələrinə, məzunlarına, respublikamızın bütün səhiyyə işçilərinə böyük uğurlar diləyir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 iyun 2000-ci il

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ*

Hörmətli Bəxtiyar Vahabzadə!

Sizi – iyirminci əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən birini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Sizin yaradıcılığınız Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Dərin məzmunu, yüksək poetik məziyyətləri və ictimai-fəlsəfi siqləti ilə səciyyələnən əsərlərin müəllifi kimi adınız ədəbiyyat tariximizə əbədi həkk olunmuşdur. Əsrlərlə formalaşmış yüksək mənəvi dəyərlərimizi vəsf edən şeir və poemalarınız, səhnə əsərləriniz daim böyük rəğbət və ehtiramla qarşılanmışdır. Xalqımızın kəşməkeşli taleyi, yaşadığı faciəli və əzablı günlər vətənpərvər övlad kimi daim Sizi düşündürmüş, onun ağrı-acıları həssas qəlbinizi alovlandırdığı kimi, xoşbəxt günləri də Sizi sevindirmişdir. Qanlı Yanvar faciəsi günlərində tutduğunuz əsl vətəndaşlıq mövqeyi öz tarixi əhəmiyyətini heç vaxt itirməyəcəkdir.

Vətənlə, xalqla, ana dilimizlə qırılmaz tellərlə bağlı olan hər bir misranızdakı hikmət ölkəmizin müstəqilliyi uğrunda vətənpərvər mübarizlərin yetişməsində böyük rol oynamış və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində bir örnək olmuşdur. Siz yüksək ideallar tərənnüm edən poeziyanızla millətin birliyinə, ləyaqətinə ehtiram hissləri aşılamış və onların təntənəsi uğrunda səbrlə, yorulmadan, ardıcıl mübarizə aparmısınız. Bəşəriliklə milliliyin vəhdətindən qaynaqlanan əsərləriniz ölkəmizdə milli şüurun yüksəlməsinə güclü təkan vermişdir. Bədii sözə böyük inam və hörmət bəsləyən xalqımızın imperiyaya, totalitarizmə qarşı nifrətini, azadlığa, istiqlaliyyətə olan sevgisini ifadə etməkdə siz bir çox siyasətçinin görə bilmədiyi işi görmüsünüz.

Azərbaycan ziyalıları sizi təkcə bir şair deyil, həm də böyük tədqiqatçı alim, mahir pedaqoq və gözəl publisist kimi tanıyırlar. İdeyalarınızla pərvazlanaraq müstəqil həyata qədəm qoyan neçə-neçə tələbə nəsli bu gün nə vaxtsa sizi dinləməkdən, sizin tələbəniz olmaqdan sonsuz qürur və şərəf hissi duymaqdadır.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İyirmi doqquzuncu kitab. B., Azərnəşr, 2009, s.316-317

Sizin ictimai-siyasi xadim kimi də fəaliyyətiniz təqdirəlayiqdir. Yaradıcılığınıza və göstərdiyiniz böyük xidmətlərə görə siz bir çox mükafatlara, fəxri adlara layiq görülmüsünüz. Lakin onların heç biri qazandığınız xalq məhəbbəti qədər qiymətli və əziz ola bilməz.

Əminəm ki, sizin qələminizdən çıxan, xalqımızın arzu və istəklərini tərənnüm edən əsərləriniz Azərbaycan Respublikasının müstəqillik yolları ilə inkişafı uğrunda bundan sonra da ən uca, ən ülvi amalların gerçəkləşməsinə xidmət edəcəkdir.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 avqust 2000-ci il

QAFQAZIN ARXEOLOGİYA VƏ ETNOQRAFİYASINA HƏSR OLUNMUŞ BEYNƏLXALQ ELMİ KONFRANSA*

Hörmətli konfrans iştirakçıları!

Sizi – Qafqazşünas alimləri müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində səmimi-qəlbdən salamlayır və konfransınızın işinə müvəffəqiyyətlər diləyirəm.

Bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən olan Qafqaz dünyada nadir xüsusiyyətləri ilə seçilən bir regiondur. Təsadüfi deyildir ki, dünya arxeologiya və etnoqrafiya elminin nümayəndələrinin yekdil rəyinə görə, Qafqaz insan sivilizasiyasını araşdırmaq üçün ən zəngin və maraqlı bölgə hesab olunur. Uzun əsrlər boyu bütün Avrasiya məkanının birləşdirilməsində mühüm rol oynamış Qafqaz həm də müxtəlif dillərdə danışan, ayrı-ayrı dinlərə mənsub olan, özünəməxsus tarixi və mədəniyyəti ilə səciyyələnən onlarca böyük və kiçik xalqların ümumi evi olmuşdur.

Hal-hazırda Qafqaz xalqları öz tarixinin bəlkə də ən mürəkkəb dövrlərindən birini yaşayır. SSRİ-nin dağılması bir tərəfdən, regionun bəzi xalqlarının uzun illər həsrətində olduğu müstəqilliyə qovuşması ilə nəticələndisə də, digər tərəfdən, onların həyatında çoxsaylı problemlərin meydana çıxmasına səbəb oldu. Bu problemlərdən ən faciəlisi millətlərarası münaqişələrdir. Sovet rejiminin ideoloqları imperiyanın dağılmasının qarşısını almağa cəhd göstərərək millətlərarası münasibətləri gərginləşdirmək, Qafqaz xalqlarını bir-biri ilə toqquşdurmaq yoluna rəvac verdilər. Bu məqsədlə onlar nəcib bəşəri mərama xidmət edən arxeologiya və etnoqrafiya elminin nailiyyətlərinin də təftiş və təhrif olunması, kobud şəkildə saxtalaşdırılması kimi çirkin vasitəyə əl atdılar. Təəssüf ki, belə bir şəraitdə xalqlarımızı bu bəladan qorumaq mümkün olmadı və millətlərarası münaqişələr Qafqaz xalqlarının ümumi faciəsinə çevrildi.

Bu gün «Dinc Qafqaz» ideyası həmişəkindən daha aktual və mühümdür. XXI əsrdə Qafqaz xalqları üçün sülh və mehriban qonşuluq prinsiplərinin, dinc yanaşı yaşamanın alternativi yoxdur. Bütün Qafqaz xalqlarının dinc, parlaq, firavan gələcəyinə dərin inamımı bildirərək

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuzuncu kitab. B., Azərnəşr, 2010, s.90-91

hamınızı əmin etmək istəyirəm ki, Qafqazda bütün millətlərarası münaqişələrin, mübahisəli məsələlərin dinc yolla həll edilməsi üçün bütün səylərimi, siyasi təcrübəmi və nüfuzumu axıra qədər sərf edəcəyəm. Şübhə etmirəm ki, siyasətçilərlə birlikdə siz də bu prosesdə mühüm rol oynayacaqsınız. Alim sözü tarixən xalqlarımızın içərisində böyük təsir gücünə malik olmuşdur. Qafqaz xalqlarının öz tarixinin faciəli səhifələrini birdəfəlik çevirib bağlaması, bütün Qafqazda əzəli sülhün və əmin-amanlığın bərpa olunması sizin fəaliyyətinizdən də çox asılıdır.

Bu yoldakı nəcib işlərinizdə sizə uğurlar, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 sentyabr 2000-ci il

AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASINA*

Hörmətli müəllimlər!
Əziz tələbələr!

Respublikamızın ilk texniki ali təhsil ocağının – Azərbaycan Dövlət Neft Akademiyasının 80 illik yubileyi münasibətilə sizi, ölkəmizin bütün təhsil işçilərini səmimi-qəlbdən təbrik edirəm.

Respublikamızda ali təhsilin inkişafına sanballı töhfələr vermiş Azərbaycan Dövlət Neft Akademiyasının ölkə qarşısında böyük xidmətləri vardır. Onun fəaliyyəti Azərbaycanda iqtisadiyyatın, sənayenin inkişafına, elmi-texniki tərəqqinin sürətləndirilməsinə təkan vermiş güclü amillərdən biri olmuşdur. Dövlət Neft Akademiyası öz varlığının 80 illik dövrü ərzində böyük inkişaf yolu keçərək, yüksək ixtisaslı texniki kadrlar hazırlayan çoxprofilli ali tədris ocağına və nüfuzlu elmi mərkəzə çevrilmişdir. Akademiya respublikada xüsusilə neft, qaz, neft kimyası, neft-maşınqayırma və energetika sahələrini yüksək ixtisaslı mühəndis kadrlarla təmin edərək, ölkənin sənaye potensialının yüksəlməsində mühüm rol oynamışdır.

Azərbaycanda ali texniki təhsil ocaqlarının formalaşıb inkişaf etməsində Dövlət Neft Akademiyasının xidmətləri xüsusilə yüksək qiymətə layiqdir. Onun ayrı-ayrı fakültələri əsasında yaradılmış Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Mingəçevir Politexnik İnstitutu, Sumqayıt Dövlət Universiteti bu gün uğurla fəaliyyət göstərən ali təhsil müəssisələridir. Azərbaycanda mövcud olan onlarca elmi-tədqiqat və layihə institutlarının yaranıb inkişaf etməsində də Dövlət Neft Akademiyasının rolu danılmazdır.

Fərəhli haldır ki, akademiyanın yetirmələri arasında tanınmış dövlət xadimləri, dünya şöhrətli alim və mütəxəssislər, hətta kosmonavt vardır. Onun yüzlərlə məzunu keçmiş SSRİ-nin ən yüksək adlarına – Sovet İttifaqı Qəhrəmanı, Sosialist Əməyi Qəhrəmanı adlarına, ali dövlət mükafatlarına layiq görülmüşdür.

Dövlət Neft Akademiyası təkcə Azərbaycanın deyil, onlarca xarici ölkənin neft sənayesi üçün mühəndis və elmi kadrlar hazırlayan bir

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz birinci kitab. B., Azərnəşr, 2010, s.203-205

mərkəz kimi də dünyada böyük şöhrət qazanmışdır. Onun xarici vətəndaşlardan olan məzunları öz ölkələrində mühəndislikdən tutmuş ən yüksək vəzifələrdə uğurla çalışaraq, akademiyanın beynəlxalq nüfuzunu artırırlar.

Müntəzəm yaradıcılıq axtarışları aparmaq, zamanın tələbləri ilə daim ayaqlaşmaq, istehsalatla sıx əlaqələr yaratmaq, elmi tədqiqatların səmərəliliyini artırmaq akademiyanın fəaliyyətini səciyyələndirən mühüm cəhətlərdir. O məhz bu məziyyətləri sayəsində müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyasının hazırlanıb həyata keçirilməsində yaxından iştirak etməklə, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına uğurla xidmət edir.

Bu gün Azərbaycan Dövlət Neft Akademiyasının 80 illiyini qeyd edərkən onun yaradılmasında və səmərəli fəaliyyətində xidmətləri olanların – professorların, müəllimlərin, əməkdaşların bütün nəsillərini böyük minnətdarlıq hissi ilə yad edərək əmin olduğumu bildirirəm ki, akademiyanın uzun illər boyu təşəkkül tapmış zəngin ənənələri davam etdiriləcək və artırılacaq, akademiya ölkəmizin iqtisadi inkişafı, elmi-texniki tərəqqisi, xalqımızın firavan həyata qovuşması işinə öz payını bundan sonra da verəcəkdir.

Əziz dostlar! Sizi akademiyanın 80 illik yubileyi münasibətilə bir daha təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, işlərinizdə yeni uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 dekabr 2000-ci il

AZƏRBAYCAN ELMİ-TƏDQİQAT VƏ LAYİHƏ-KONSTRUKTOR NEFT MAŞINQAYIRMASI İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA*

Sizi – Azərbaycan Elmi-Tədqiqat və Layihə-Konstruktor Neft Maşınqayırması İnstitutunun əməkdaşlarını institutun yaradılmasının 70 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda neft maşınqayırması hələ XX əsrin əvvəllərində təşəkkül tapmağa başlamışdır. Neft-mədən avadanlığına olan tələbatı ödəmək üçün 1930-cu ilin dekabrında Azərbaycanda ilk dəfə keçmiş SSRİ üzrə dövlət əhəmiyyətli Elmi-Tədqiqat və Layihə-Konstruktor Neft Maşınqayırması İnstitutu yaradıldı.

Fəaliyyətinin ilk dövrlərindən başlayaraq institutda yeni növ neft-mədən avadanlığının yaradılması üzrə fundamental tədqiqatlar aparılmışdır. Burada yerinə yetirilən elmi işlər neft maşınqayırmasının bir çox istiqamətlərinin nəzəri əsaslarını təşkil etmiş, bir sıra elmi-tədqiqat və layihə təşkilatlarının təməlini qoymuşdur.

Azərbaycanın neft maşınqayırma kompleksinin inkişafı 70-80-ci illərdə xüsusilə iri sıçrayışlar etmişdir. Məhz bunun nəticəsi olaraq, o zamankı İttifaqda neft avadanlığının 70 faizi institutun layihələri əsasında hazırlanırdı. Bu layihələr üzrə onlarla müəssisə və bir çox zavodlarda neft-mədən avadanlığı istehsal edilirdi. O illərdə Azərbaycanın neft maşınqayırması sənayesində yaradılmış elmi-texniki baza və güclü infrastruktur müstəqillik qazandıqdan sonra respublikamızın neft sənayesinin yeni inkişaf mərhələsində böyük işlər görülməsi üçün möhkəm zəmin yaratmışdır.

Son illər Azərbaycan dünyanın bir çox ölkələrinin iri neft şirkətləri ilə əməkdaşlıq edərək böyük neft müqavilələri həyata keçirir. Bununla əlaqədar institutda müasir standartlara cavab verən rəqabət qabiliyyətli neft-mədən avadanlığının layihələşdirilməsi və istehsalın təşkili istiqamətində əhəmiyyətli işlər aparılır. Bu işlər gələcəkdə daha böyük nailiyyətlər və səmərə əldə edilməsinə imkan yaradacaqdır.

Əminəm ki, yüksək mühəndis, elmi-texniki kadrları olan Azərbaycan Elmi-Tədqiqat və Layihə-Konstruktor Neft Maşınqayırması İnstitu-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz birinci kitab. B., Azərnəşr, 2010, s. 232-233

tunun əməkdaşları bundan sonra da Azərbaycan dövlətinin sənaye və elmi qarşısında duran vəzifələri şərəflə həyata keçirəcəklər.

Bu əlamətdar yubiley münasibətilə institutun əməkdaşlarına möhkəm cansağlığı, ölkəmizin tərəqqisi naminə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 dekabr 2000-ci il

M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ AKADEMİKİ CƏNAB VİKTOR SADOVNİÇİYƏ*

Hörmətli Viktor Antonoviç!

Mənə «M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin fəxri professoru» adı verilməsi haqqında Moskva Dövlət Universiteti elmi şurasının qərarını dərin məmnunluq hissi ilə qarşıladım .

Təhsilin, elm və mədəniyyətin, xalqlarımız arasında dostluq münasibətlərinin inkişafı naminə fəaliyyətimi yüksək qiymətləndirdiyinizə görə sizə təşəkkür edirəm.

Rusiyanın qocaman ali məktəbi, dünya elm və təhsilinin mərkəzlərindən biri olan Moskva Dövlət Universitetinin Azərbaycan iqtisadiyyatının, təhsilinin, elm və mədəniyyətinin müxtəlif sahələrində uğurla çalışan yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına verdiyi töhfəni yüksək qiymətləndirirəm.

İnanıram ki, Moskva və Bakı universitetləri arasındakı çoxillik dostluq və əməkdaşlıq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə, Moskva Dövlət Universitetinin bütün professor-müəllim heyətinə və tələbələrinə səadət, firavanlıq və uğurlar arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 fevral 2001-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz ikinci kitab. B., Azərnəşr, 2010, s. 254

AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASINA*

Hörmətli müəllimlər!

Əziz tələbələr!

Respublikamızın mötəbər ali təhsil ocaqlarından biri olan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 70 illiyi münasibətilə sizi, ölkəmizin bədən tərbiyəsi işçilərini, bütün idman ictimaiyyətini səmimi-qəlbdən təbrik edirəm.

Bədən tərbiyəsi və idman kadrlarına olan ehtiyacı ödəmək məqsədi ilə Bakı şəhərində Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutunun yaradılması zamanın ehtiyaclarından doğan bir zərurət idi. 1936-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna, 1999-cu ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına çevrilmiş bu ali təhsil müəssisəsi ölkəmizdə idmanın inkişaf etdirilməsinə böyük xidmətlər göstərmişdir.

Keçən illər ərzində ölkəmizi ixtisaslı kadrlarla təmin edən bu təhsil mərkəzi öz vəzifəsini şərəflə yerinə yetirə bilmiş və gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi üçün peşəkar məşqçi-müəllimlər ordusu hazırlamışdır. Sevindirici haldır ki, ölkəmizin bütün təhsil müəssisələrində, idman məktəbi və təşkilatlarında çalışan yüksək ixtisaslı kadrlar – bədən tərbiyəsi müəllimləri və məşqçi-müəllimlər məhz sizin məzunlarınızdır. Bu təhsil ocağını bitirmiş 15 min nəfərlik mütəxəssislər ordusu ölkəmizdə bədən tərbiyəsinin geniş təbliğ olunmasında, əhalinin kütləvi şəkildə idmana cəlb edilməsində, yüksək səviyyəli idmançıların yetişdirilməsində var qüvvəsini sərf etmiş və bu yolda böyük uğurlar qazanmışdır.

Xalqımız öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan idmanının qarşısında da geniş imkanlar açılmışdır. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində idmançılarımız Avropa, dünya və olimpiya yarışlarında müstəqil Azərbaycanın bayrağını yüksəklərə qaldıraraq, onun beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə layiqli töhfələrini vermiş və öz uğurlarını artırmaqdadır. Bu nailiyyətlərin əldə edilməsində akademiyanın yetirmələrinin xidmətləri danılmazdır.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz üçüncü kitab. B., Azərnəşr, 2011, s.323-324

Yubiley günlərində nüfuzlu təhsil ocağımızın bünövrəsini qoymuş, onun yaradılmasında və inkişaf etməsində xidmətlər göstərmiş professor və müəllim heyətinin əməyini yüksək qiymətləndirirəm. Əmin olduğumu bildirirəm ki, siz akademiyanın 70 illik fəaliyyət dövrü ərzində yaranmış gözəl ənənələrə sadiq qalaraq onun adını həmişə uca tutacaq, müstəqil Azərbaycanın tərəqqisi naminə ölkəmizdə bədən tərbiyəsi və idmanın daha da inkişafı üçün milli peşəkar kadrların yetişdirilməsində əlinizdən gələni bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə – akademiyanın müəllim və tələbələrinə, məzunlarına, respublikamızın bütün bədən tərbiyəsi işçilərinə və idmançılarına böyük uğurlar diləyir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

6 aprel 2001-ci il

ZAQAFQAZİYA ÖLKƏLƏRİ ONKOLOQLARININ İKİNCİ KONQRESİNİN İŞTİRAKÇILARINA*

Sizi – Zaqafqaziya ölkələri onkoloqlarının Bakı şəhərində keçirilən ikinci konqresinin iştirakçılarını Azərbaycan torpağında ürəkdən salamlayıram.

Keçirdiyiniz elmi forum təcrübə mübadiləsi, yeni yaradıcılıq ideyalarının gerçəkləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir və əminəm ki, o, son nəticədə onkologiya elminin gələcək inkişafına öz layiqli töhfəsini verəcəkdir.

Keçid dövrünün iqtisadi problemləri, Qafqazda hələ həllini tapmamış münaqişələr, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və onun ağır nəticələri regionda illər boyu təşəkkül tapmış elmi və mədəni əməkdaşlıq ənənələrinə ciddi xələl gətirmiş və bu qəbildən olan forumların işində uzunmüddətli bir fasilə yaratmışdır. Təqdirəlayiq haldır ki, insanlarımızın sağlamlığı naminə Zaqafqaziya alimlərinin göstərdiyi əməkdaşlıq cəhdləri sayəsində onkoloqlar öz konqreslərini yenidən keçirməyə nail olmuşlar. Bu mötəbər elmi toplantının işində Müstəqil Dövlətlər Birliyinin digər respublikalarından olan həmkarlarınızın iştirak etməsi isə onun elmi sanbalını daha da artırır.

Onkologiyanın mürəkkəb problemlərinin həlli yollarına həsr olunmuş forumunuz bəşəriyyəti bu qorxulu bəladan qurtarmaq naminə səylərinizi birləşdirmək işinə xidmət edir. Sizin bu konqresinizin yeni yüzilliyin və yeni minilliyin ilk ilində keçirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu gün Yer kürəsinin müxtəlif guşələrində milyonlarla adam onkoloji xəstəliklərdən əziyyət çəkir. Məhz buna görə də təbabətin bu sahəsində qazanılmış hər hansı nailiyyəti insanlar səbirsizliklə gözləyirlər. İnanıram ki, XXI əsrdə onkologiya elminin inkişafı sayəsində əldə ediləcək müvəffəqiyyətlər onkoloji xəstəliklərin müalicəsində dönüş yaradacaq və bu bəlaya düçar olmuş insanların həyat ümidini artıracaqdır.

Hörmətli konqres iştirakçıları! Müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinə gəlişinizdən, onunla yaxından tanışlıq-

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz dördüncü kitab. B., Azərnəşr, 2011, s.118-119

dan da böyük məmnunluq duyacağınıza əminəm və sizə konqresin işində uğurlar diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 may 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN MİLLİ ONKOLOGİYA MƏRKƏZİNİN ƏMƏKDAŞLARINA*

Sizi – Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tanınmış elm və müalicə-profilaktika ocaqlarından biri olan Milli Onkologiya Mərkəzinin əməkdaşlarını 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Onkologiya üzrə xüsusi elmi mərkəzin yaradılması səhiyyəmizin tarixində əlamətdar bir hadisə olmuşdur. Onun təşəkkül tapması XX əsrin ən təhlükəli bəlalarından sayılan xərçəng xəstəlikləri ilə mütəşəkkil mübarizə ehtiyacından doğan zərurət idi. Bu gün minlərcə xəstəyə konkret praktiki yardım göstərməklə yanaşı, səmərəli elmi araşdırmalar aparan Milli Onkologiya Mərkəzi Azərbaycan tibb elminin inkişafına qiymətli töhfələr vermişdir. Sevindirici haldır ki, mərkəzin apardığı uğurlu elmi-tədqiqat işləri onun beynəlxalq elm aləmində nüfuzunu sürətlə artırmaqdadır.

Milli Onkologiya Mərkəzi ölkəmizdə bu sahədə ixtisaslaşmış yardımın koordinasiyası ilə məşğul olan əsas qurumdur. Onun bu illər ərzində hazırladığı yüksək ixtisaslı kadrlar respublikada onkoloji xidmətin inkişaf etmiş şəbəkəsinin yaradılmasına imkan vermişdir. Halhazırda respublikanın bir neçə bölgəsində onkoloji mərkəzlərin və əksər xəstəxanalarında müvafiq kabinetlərin uğurla fəaliyyət göstərməsi məhz sizin mərkəzin xidmətidir.

Xalqımızın sağlamlığı keşiyində dayanmaq bu gün müstəqil Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdəndir. Bu məqsədlə ölkəmizdə ekoloji problemlərin həlli, ətraf mühitin çirklənməsinin qarşısının alınması, qida məhsullarının keyfiyyətinə nəzarətin gücləndirilməsi istiqamətində məqsədyönlü iş aparılır. İnanıram ki, əhali arasında onkoloji xəstəliklərin ilkin diaqnostikası, profilaktikası və müalicəsinə yönəldilmiş fəaliyyətinizlə Azərbaycan dövlətinin sosial siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsi yolunda əlinizdən gələni əsirgəməyəcək, ölkəmizdə tibb elminin və səhiyyənin inkişafı naminə bundan sonra da öz layiqli payınızı verəcəksiniz.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz dördüncü kitab. B., Azərnəşr, 2011, s.120-121

İnsanlarımızı xəstəlikdən qorumaq kimi olduqca nəcib fəaliyyətinizdə sizə yeni-yeni uğurlar, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 may 2001-ci il

PROFESSOR FƏRMAN SALMANOVA*

Hörmətli Fərman Salmanov!

Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram.

Siz bütün həyatınızı neft və qaz yataqlarının işlənməsinə həsr etməklə, Tümenin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi, tarixə həmişəlik daxil olmusunuz. Yüzdən çox yatağın kəşf olunması ilə nəticələnmiş əməli fəaliyyətiniz əməyi bütün həyatının mənasına çevrilmiş nadir insanlardan olduğunuza dəlalət edir.

Azərbaycanda təhsilinizi başa vurduqdan sonra siz neft Bakısının ənənələrini Qərbi Sibirdə davam və inkişaf etdirərək, olduqca qısa müddət ərzində böyük nailiyyətlər əldə edə bilmisiniz. Məhz sizin kimi görkəmli şəxsiyyətlərin səyləri sayəsində Qərbi Sibir bütün dünya üçün ən iri neft və qaz mənbələrindən biri oldu, SSRİ isə 80-cı illərdə neft hasilatı və təbii qaz ixracı üzrə ən iri ölkəyə çevrildi.

Şəxsiyyətinizdə tədqiqatçı alim səriştəsi, peşəkar neftçi istedadı, dövlət və ictimai xadim təcrübəsinin birləşməsi sizə layiqli şöhrət qazandırmışdır. Sovet İttifaqının bir çox yüksək adlarına layiq görülməyiniz, müxtəlif orden və medallarla təltif edilməyiniz neft sənayesinin inkişafı işindəki xidmətlərinizə verilən qiymətin ifadəsidir. Elmi axtarışlarınızın nəticələri də yüksək dəyərləndirilmişdir.

Azərbaycanda fəaliyyətinizi daim maraq və rəğbətlə izləyirlər. Sizin uğurlarınız hər bir azərbaycanlının qəlbini həmişə iftixar hissi ilə doldurur.

Siz topladığınız zəngin təcrübə və elmi biliklərdən dolğun istifadə edərək, bu gün də əvvəlki enerji və həvəslə çalışmaqdasınız. İnanıram ki, öz səmərəli fəaliyyətinizlə bundan sonra da dünya yanacaq-enerji kompleksinin inkişafına xidmət edəcək, yeni elmi uğurlar qazanacaq və Azərbaycanla Rusiya arasındakı hərtərəfli əlaqələrin möhkəmləndirilməsi işinə hər cür kömək göstərəcəksiniz.

Sizə uzun ömür diləyirəm.

Dərin ehtiramla,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 iyul 2001-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab. B., Azərnəşr, 2011, s.275-276

PROFESSOR ƏZİZƏ XANIM CƏFƏRZADƏYƏ*

Hörmətli Əzizə xanım!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Xalqımızın yüzillər boyunca təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunub saxlanmasında sizin də yaradıcılığınız mühüm rol oynamışdır. Tariximizin ayrı-ayrı mərhələlərinin dərin məzmununu açan əsrləriniz gənc nəslin vənəpərvərlik ruhunda tərbiyə olunması işinə xidmət etmişdir.

60 ildən artıq bir dövrü əhatə edən və nəsrimizin inkişafına bir töhfə olan ədəbi yaradıcılığınız Azərbaycan dilinin saflığı və təmizliyinin qorunması yolunda mübarizənin də timsalı olmuşdur. Qəhrəmanlıq dolu keçmişə ehtiram aşılayan tarixi romanlarınız insanlarımızı əsrlərin sınağından çıxmış adət-ənənələrimizə sədaqət göstərməyə, milli varlığımızın ifadəsi olan bu müqəddəs sərvəti ulu əcdadlarımızın adına layiq bir şəkildə yaşatmağa çağırır.

Siz həm də milli mədəniyyətimizin böyük xəzinəsi olan zəngin şifahi ədəbi irsimizin yorulmaz tədqiqatçısısınız. Bu mənada sizin yazıçı kimi, zəngin yaradıcılığınız gərgin elmi fəaliyyətinizdən ayrılmazdır. Sizi Azərbaycan ziyalıları mahir pedaqoq kimi də tanıyırlar.

İnanıram ki, qələminizin məhsulu olan və xalqımızın ən ülvi istəklərini tərənnüm edən əsərləriniz müstəqillik yolları ilə inamla irəliləyən Azərbaycanın mədəni inkişafı işinə bundan sonra da layiqincə xidmət edəcəkdir.

Sizə cansağlığı və yaradıcılıq uğurları arzu edirəm!

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 2001-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz yeddinci kitab. B., Azərnəşr,2011, s. 198-199

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNƏ*

Hörmətli müəllimlər!

Əziz tələbələr!

Respublikamızın mötəbər ali təhsil ocaqlarından biri – Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyi münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda ali təhsilin inkişafına sanballı töhfələr vermiş Dövlət İqtisad Universitetinin ölkə qarşısında, onun sosial-iqtisadi problemlərinin həlli sahəsində mühüm xidmətləri vardır. Universitetin professor-müəllim heyətinin elmi-pedaqoji fəaliyyəti Azərbaycanda iqtisadiyyatın inkişafına daim xidmət etmişdir. Dövlət İqtisad Universiteti mövcud olduğu bütün bu dövr ərzində şərəfli yol keçmiş, öz elmi-pedaqoji potensialını qoruyub saxlayaraq ölkəmizin ən nüfuzlu ali məktəblərindən birinə çevrilmişdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra universitet dərin iqtisadi islahatlar həyata keçirərək iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirən ölkəmizin sənaye, kənd təsərrüfatı, idarəçilik, ticarət kimi mühüm sahələrinin yüksək ixtisaslı kadrlarla təmin olunmasına böyük əmək sərf etmişdir. Universitet ölkəmizin iqtisadi sisteminin yeni münasibətlər əsasında formalaşdırılması və onun hüquqi bazasının yaradılmasında yaxından iştirak edən tanınmış ali təhsil müəssisəsi, nüfuzlu elm mərkəzidir, iqtisadiyyatımızın dünya iqtisadi sisteminə inteqrasiyası sahəsində onun məzunlarının mühüm rolu vardır.

Azərbaycan Dövlət İqtisad Universiteti xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərinə yiyələnən gənclər tərbiyə etməklə yanaşı, son zamanlarda iqtisadi təhsil sahəsində apardığı islahatlar, ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında göstərdiyi fəallıq, yeni mütərəqqi tədris texnologiyalarının tətbiqi, beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində bir sıra dəyişikliklərlə nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarda da layiqli bir təhsil ocağı kimi tanınmışdır. Əmin olduğumu bildirirəm ki, universitet ölkəmizin iqtisadi inkişafına bundan sonra da öz töhfəsini verəcəkdir.

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz doqquzuncu kitab. B., Azərnəşr, 2012, s. 86-87

Əziz dostlar! Sizi universitetin 70 illik yubileyi münasibətilə bir daha təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik, işlərinizdə yeni uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 iyun 2002-ci il

QARA DƏNİZ HÖVZƏSİ ÖLKƏLƏRİNİN UNİVERSİTETLƏRİ ŞƏBƏKƏSİNİN II KONQRESİNƏ*

Hörmətli Konqres iştirakçıları!

Sizi – Qara Dəniz Hövzəsi Ölkələrinin Universitetləri Şəbəkəsinin II Konqresinin iştirakçılarını müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində səmimi-qəlbdən salamlayıram.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının nəzdində formalaşıb fəaliyyət göstərən Qara Dəniz Ölkələrinin Universitetləri Şəbəkəsi regionda elm və təhsil sahələrində əməkdaşlıq məsələlərinin gerçəkləşdirilməsində mühüm rol oynayan nüfuzlu beynəlxalq quruma çevrilməkdədir. Artıq on bir ölkənin bir çox ali tədris ocağını özündə birləşdirən Şəbəkə əməkdaşlığın gələcək inkişafı ilə bağlı öz məqsəd və vəzifələrini müəyyən edərək bu yolda konkret işlər həyata keçirməyə başlamışdır. Təhsili idarəetmə strukturları və ali məktəb rəhbərlərinin, elm və təhsil sahələrində çalışan görkəmli mütəxəssis və alimlərin iştirakı ilə keçirilən konqresiniz də bu istiqamətdə atılan ciddi addımdır.

Gənc Azərbaycan dövləti elm və təhsili öz inkişafının prioritet sahələrindən hesab edir. Ölkəmizdə son illər ərzində bu sahələrin müasir dünya standartlarına uyğunlaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, idarə edilməsinin təkmilləşdirilməsi üçün bir çox işlər görülmüşdür və indi də davam etdirilir. Məhz bu baxımdan Bakıda keçirilən forumunuz və ali təhsildə yüksək keyfiyyətin təminatı ilə bağlı orada müzakirə olunacaq məsələlər ölkəmizdə elm və təhsilin inkişaf etdirilməsi, eləcə də ali məktəblərimizin regionda və dünyada daha yaxşı tanınması işi üçün də əhəmiyyət kəsb edir. İnanıram ki, konqresiniz regionda elm və təhsilin inkişafına öz töhfəsini verməklə Qara dəniz hövzəsi ölkələri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və nəcib işlərinizdə uğurlar arzulayır, konqresinizə səmərəli iş diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 sentyabr 2002-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırx birinci kitab. B., Azərnəşr, 2012, s. 81-82

«QAFQAZIN ARXEOLOGİYA VƏ ETNOLOGİYASI» KONFRANSININ İŞTİRAKÇILARINA*

Hörmətli konfrans iştirakçıları!

«Qafqazın arxeologiya və etnologiyası» konfransının iştirakçılarını ürəkdən salamlayıram və sizin hamınıza işdə uğurlar, cansağlığı və firavanlıq arzulayıram.

Müasir dövrün mürəkkəb coğrafi-siyasi prosesləri Qafqazı dünyada nadir rol oynamağa qadir olan regiona çevirir. Hazırda burada həyata keçirilən Böyük İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi qlobal layihələr ölkələrimizin dünya iqtisadi sisteminə daxil olmasına kömək edir. Məhz buna görə Qafqaz xalqlarının tarix və mədəniyyətinin öyrənilməsi çox böyük elmi əhəmiyyətlə yanaşı, şübhəsiz, siyasi məna da kəsb edir. Yaxın keçmişdə tarixi faktlar və ümumi tariximizin hadisələri ideologiyanın sərt çərçivəsinə tabe olunmuşdu. İndi tarixi keçmiş də, xalq ənənələri də, mədəni irs də qərəzsiz, ciddi elmi təhlil mövzusuna çevrilməlidir. Ümidvaram ki, belə məsul tarixi vəzifəyə xidmət etməli olan konfransınız Qafqazın arxeologiya və etnologiyasının öyrənilməsinə öz sanballı töhfəsini verəcəkdir.

Sizə uğurlar diləyirəm.

Ən xoş arzularla,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 sentyabr 2002-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırx birinci kitab. B., Azərnəşr, 2012, s.376

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FƏXRİ ÜZVÜ, LENİN MÜKAFATI VƏ SSRİ DÖVLƏT MÜKAFATLARI LAUREATI KƏRİM KƏRİMOVA*

Hörmətli Kərim Kərimov!

Sizi, Azərbaycan xalqının görkəmli oğlunu 85 illik yubileyiniz münasibətilə təbrik edirəm və Sizə xoşbəxtlik, cansağlığı və firavanlıq arzulayıram.

Kosmik raket texnikasının inkişafı ilə qırılmaz surətdə bağlı olan bütün həyatınız XX əsrdə kosmosun öyrənilməsi tarixinin ayrılmaz hissəsinə çevrilmişdir. Siz 25 ildən artıq bir dövrdə kosmik uçuşlar üzrə Dövlət Komissiyasına başçılıq edərək, keçmiş SSRİ-də bir çox nadir elmi-texniki layihələrin həyata keçirilməsi üçün xeyli əmək sərf etmisiniz. Sizin əməyiniz istər dövlət tərəfindən, istərsə də kosmik elm və texnikanın görkəmli nümayəndələri tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycan alimləri ilə daim xoş münasibətlər saxlamağınızı biz yüksək qiymətləndirir və ümid edirik ki, Sizin topladığınız təcrübə və hərtərəfli biliklər ölkəmizdə kosmik tədqiqatların inkişafına, şübhəsiz, öz töhfəsini verəcəkdir.

Sizə uğurlar diləyirəm. Ən xoş arzularla,

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 noyabr 2002-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırx ikinci kitab. B., Azərnəşr, 2012, s. 349

«VOPROSI İSTORİİ» JURNALININ BAŞ REDAKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ MÜXBİR ÜZVÜ CƏNAB ƏHMƏD İSGƏNDƏROVA*

Hörmətli Əhməd Əhməd oğlu!

Sizi – tarix elminin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə xoşbəxtlik, cansağlığı və çoxşaxəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Şərqşünaslığın və ümumi tarixin müxtəlif problemlərinə dair apardığınız tədqiqatlar Sizə zəmanəmizin ən nüfuzlu alimlərindən biri kimi şöhrət qazandırmışdır. Yaşadığımız qlobal dəyişikliklər dövrü istər həyatımızda, istərsə də tarix elmində çox yeniliklər etmişdir. Sizin əsərlərinizdə tarix elminin elə aktual problemləri öz əksini tapmışdır ki, onlar həll edilməsəydi, postsovet məkanında tarixi prosesin mahiyyətinin yeni anlamının formalaşması mümkün olmazdı. Əlamətdardır ki, Siz XX əsrin ilk çağlarında baş vermiş taleyüklü hadisələrə yeni baxışla nəzər salmağa imkan yaratmış fundamental əsərinizi məhz təzə əsrin və təzə minilliyin əvvəllərində tamamlamağa müvəffəq oldunuz.

Şəxsi əlaqələrimizdən bilirəm ki, indi çox aktual olan mədəniyyət və sivilizasiyaların dialoqu problemləri həmişə Sizin diqqət mərkəzinizdə olmuşdur. Azərbaycanda biz Sizin nəinki bir alim kimi parlaq istedadınızı, həm də Ümumrusiya Azərbaycan Konqresi Mərkəzi Şurasının İdarə heyətindəki fəaliyyətinizi yüksək qiymətləndiririk.

Sizə ən xoş arzularımı bildirirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 noyabr 2002-ci il

* Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Qırx ikinci kitab. B., Azərnəşr, 2012, s. 367

TİBB ELMLƏRİ AKADEMİYASININ HƏQİQİ ÜZVÜ ARKADİ PAVLOVİÇ NESTEROVA*

Bakı şəhəri, 19 iyun 2003-cü il

Hörmətli Arkadi Pavloviç!

Sizi, tibb elminin və səhiyyənin görkəmli xadimlərindən birini 80 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

Siz öz elmi və əməli fəaliyyətinizlə müasir dövrdə oftalmologiyanın inkişafına sanballı töhfə vermisiniz. Sizin göz xəstəliklərinin aktual problemlərinə həsr olunmuş, SSRİ-nin və Rusiyanın Dövlət mükafatlarına layiq görülmüş fundamental əsərləriniz Rusiya elminin şöhrətini artıraraq, dünyada geniş nüfuz qazanmışdır.

Uzun müddətdir ki, Sizi respublikamızda tibb elminin görkəmli nümayəndələri ilə sıx dostluq və əməkdaşlıq telləri bağlayır. Ümidvaram ki, Siz Azərbaycan və Rusiya oftalmoloqları arasında əməkdaşlığın möhkəmlənməsinə və genişlənməsinə bundan sonra da kömək edəcəksiniz.

Sizə uzun ömür arzulayıram.

Dərin hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

* «Azərbaycan» qəzeti, 20 iyun 2003-cü il.



Prezident Heydər Əliyev akademik Ziya Bünyadovla görüşərkən



Prezident Heydər Əliyev akademik Cəlal Əliyevə «İstiqlal» ordenini təqdim edərkən



Prezident Heydər Əliyev səfər zamanı təyyarədə Sovet İttifaqı qəhrəmanları Ziya Bünyadov və Məlik Məhərrəmovla söhbət edərkən



Prezident Heydər Əliyev «Xəzərneftqaz» sərgisində yeni neft və qaz layihələri barəsində Xoşbəxt Yusifzadənin məlumatını dinləyərkən



Prezident Heydər Əliyev akademik Ömər Eldarova «İstiqlal» ordenini təqdim edərkən



Prezident Heydər Əliyevə Naxçıvan Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim olunarkən



Prezident Heydər Əliyev Naxçıvanda Hüseyn Cavid məqbərəsinin açılışı mərasimində



Prezident Heydər Əliyev Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edərkən (Moskva, 1996)



Prezident Heydər Əliyev tarixçi alim Sara Aşurbəylini anadan olmasının 90 illiyinə həsr olunmuş mərasimdə təbrik edərkən



Prezident Heydər Əliyev xalq şairi, akademik Bəxtiyar Vahabzadəyə
«İstiqlal» ordenini təqdim edərkən



Prezident Heydər Əliyev akademik Adilə Namazovanı
«Şöhrət» ordeni ilə təltif olunması münasibətilə təbrik edərkən



Prezident Heydər Əliyev akademik İqrar Əliyevə
«Şöhrət» ordenini təqdim edərkən



Prezident Heydər Əliyev tarix elmləri doktoru, professor
Yaqub Mahmudova «Şöhrət» ordenini təqdim edərkən



Prezident Heydər Əliyev orden və medallar təqdim olunduqdan sonra bir qrup ziyalı ilə xatirə şəkli çəkdirərkən



Prezident Heydər Əliyev alimlərlə görüşdən sonra xatirə şəkli çəkdirərkən



Prezident Heydər Əliyev akademik Budaq Budaqova «Şöhrət» ordenini təqdim edərkən



Prezident Heydər Əliyev Turan Cavidlə görüşərkən



Prezident Heydər Əliyev Şəkiyə səfər zamanı alimlərlə görüşərkən




Prezident Heydər Əliyev akademik Bəkir Nəbiyevə
«Şöhrət» ordenini təqdim edərkən



Prezident Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının
prezidenti akademik Mahmud Kərimovla görüşərkən



Prezident Heydər Əliyev dostu, dünya şöhrətli alim
İhsan Doğramacı ilə görüş zamanı



Prezident Heydər Əliyev akademik Yusif Məmmədəliyevin abidəsini ziyarət edərkən



Prezident Heydər Əliyev Turan Cavidlə birlikdə Hüseyn Cavidin məzarı başında



Prezident Heydər Əliyevə «**Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti**» kitabı təqdim olunarkən



Prezident Heydər Əliyev akademik Əhliman Əmiraslanova «Şöhrət» ordenini təqdim edərkən



Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu Prezident Heydər Əliyevə Universitetin fəxri doktoru diplomu təqdim olunarkən



Prezident Heydər Əliyev tarix elmləri doktoru, professor Abuzər Xələfova «Şöhrət» ordenini təqdim edərkən



Prezident Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin açılışı mərasimində (Tarix elmləri doktoru, professor İsmayıl Hacıyev çıxış edərkən)



Prezident Heydər Əliyev ona Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun «Fəxri Professoru» adının verilməsi mərasimində

MÜNDƏRİCAT

AZƏRBAYCAN TARİXİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ
«Heydər Əliyev. Azərbaycan elminin keşiyində» sənədlər və materiallar toplusunun II cildinə
ÖN SÖZ 3

I. ÇIXIŞLAR, NİTQLƏR, SÖHBƏTLƏR

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASINDA ZİYALILARLA GÖRÜŞDƏ ÇIXIŞ (21 sentyabr 1993-cü il) 19

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN RƏHBƏRLƏRİ, NEFTÇİ ALİM VƏ MÜTƏXƏSSİSLƏRİLƏ GÖRÜŞDƏ ÇIXIŞ (5 fevral 1994-cü il) 37

ANKARA HÖCƏTTƏPƏ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ (9 fevral 1994-cü il) 38

PEKİN İCTİMAİ ELMLƏR AKADEMİYASINDA ÇIXIŞ (9 mart 1994-cü il) 42

MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNİN 75 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ (26 noyabr 1994-cü il) 49

TƏHSİL İŞÇİLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ (12 fevral 1995-ci il) 58

GÖRKƏMLİ TÜRK ALİMİ İHSAN DOĞRAMACININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ ÇIXIŞ (25 aprel 1995-ci il) 72

1992-ci İLDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ İŞLƏYƏRKƏN HEYDƏR ƏLİYEVƏ «SƏS» QƏZETİ VASİTƏSİLƏ MÜRACİƏT ETMİŞ AZƏRBAYCAN ZİYALILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ (9 sentyabr 1995-ci il) 74

GÖRKƏMLİ ALİM VƏ CƏRRAH MUSTAFA BƏY TOPÇUBAŞOVUN ANADAN OLMASININ 100 İLLİYİ YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ ÇIXIŞ (14 oktyabr 1995-ci il) 99

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ FƏXRİ AKADEMİKİ ADINA LAYİQ GÖRÜLMƏSİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ (8 dekabr 1995-ci il) 104

TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ (9 mart 1996-cı il) 108

GÖRKƏMLİ ALİM VƏ DÖVLƏT XADİMİ VƏLİ YUSİF OĞLU AXUNDOVUN 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY YIĞINCAĞINDA NİTQ (21 iyun 1996-cı il) 113

AKADEMİK YUSİF MƏMMƏDƏLİYEVİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ NİTQ (10 sentyabr 1996-cı il) 126

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRK DÜNYASI YAZIÇILARININ III QURULTAYINDA NİTQİ (Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu, 6 noyabr, 1996-cı il) 134

M. QƏDİRLİ ADINA MƏRKƏZİ HÖVZƏ XƏSTƏXANASINDA MÜALİCƏ OLUNAN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ İLƏ GÖRÜŞDƏ SÖHBƏT (19 yanvar 1997-ci il) 142

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ RƏHBƏRLİYİ, HƏQİQİ VƏ MÜXBİR ÜZVLƏRİ, İNSTİTUT DİREKTORLARI VƏ APARICI ALİMLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ (31 yanvar 1997-ci il) 152

AKADEMİK ZİYA BÜNYADOVUN AİLƏSİNƏ BAŞSAĞLIĞI (21 fevral 1997-ci il) 172

GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM, AKADEMİK ZİYA BÜNYADOVLA VİDALAŞMA MƏRASİMİNDƏ NİTQ (23 fevral 1997-ci il) 173

XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ (7 mart 1997-ci il) 184

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ MOSKVA DÖVLƏT HÜQUQ AKADEMİYASININ FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ (29 mart 1997-ci il) 191

TİBB ELMLƏRİ DOKTORU, ƏMƏKDAR ELM XADİMİ, DÖVLƏT MÜKAFATI LAUREATI TAMERLAN ƏZİZ OĞLU ƏLİYEVİN MATƏM MƏRASİMİNDƏ ÇIXIŞ (7 aprel 1997-ci il) 199

MƏŞHUR HEYKƏLTƏRAŞ, XALQ RƏSSAMI ÖMƏR ELDAROVUN GÖRKƏMLİ OFTALMOLOQ, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR ETDİYİ «ELEGİYA» ƏSƏRİNİN – MƏRMƏR ABİDƏNİN VƏ BU ABİDƏDƏN BƏHS EDƏN ALBOMUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ (15 aprel 1997-ci il) 202

TÜRKİYƏNİN BİLKƏND UNİVERSİTETİNDƏ ÇIXIŞ (6 may 1997-ci il) 210

AZƏRBAYCAN PREZİDENTİNƏ «9 EYLÜL» UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ (7 may 1997-ci il) 213

AZƏRBAYCAN PREZİDENTİNƏ «FATİH» UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ (8 may 1997-ci il) 221

AZƏRBAYCAN PREZİDENTİNƏ ƏL-FƏRABİ ADINA QAZAX MİLLİ DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ (11 iyun 1997-ci il) 232

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ DAŞKƏND UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ (19 iyun 1997-ci il) 244

RUSİYA ELMLƏR AKADEMİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ (3 iyul 1997-ci il) 256

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN SOYDAŞIMIZ PROFESSOR İREN MƏLİKOVA İLƏ GÖRÜŞDƏ SÖHBƏTİNDƏN (Strasburq, «Sofitel» oteli, 11 oktyabr 1997-ci il) 267

«AZƏRELEKTROMAŞ» ELM-İSTEHSALAT BİRLİYİNİN NƏSRULLA NƏSRULLAYEV ADINA BAKI ELEKTRİK MAŞINQAYIRMA ZAVODUNUN 50 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ (16 oktyabr 1997-ci il) 269

GÖRKƏMLİ DÖVLƏT, İCTİMAİ VƏ ELM XADİMİ ƏZİZ ƏLİYEVİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ (16 may, 1998-ci il) 279

ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPUNA «İSTİQLAL» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİNDƏ NİTQ (26 may 1998-ci il) 288

AZƏRBAYCANIN ƏDƏBİYYAT, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, ELM, DİN VƏ İDMAN XADİMLƏRİNİN BÖYÜK BİR QRUPUNA «ŞÖHRƏT» ORDENLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ (21 avqust 1998-ci il) 290

BAKIDA AKADEMİK YUSİF MƏMƏMMƏDƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ (16 sentyabr 1998-ci il) 314

DÜNYA ŞÖHRƏTLİ KARDİOLOQ MAYKL DEBEYKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN (3 dekabr 1998-ci il) 318

AZƏRBAYCANIN GÖRKƏMLİ İCTİMAİ XADİMLƏRİNİN, ELM, ƏDƏBİYYAT, MƏDƏNİYYƏT XADİMLƏRİNİN VƏ İDMANÇILARIN BİR QRUPUNA «İSTİQLAL», «AZƏRBAYCAN BAYRAĞI», «ŞÖHRƏT» ORDENLƏRİ VƏ «TƏRƏQQİ» MEDALLARININ TƏQDİM OLUNMASI MƏRASİMİ (12 dekabr 1998-ci il) 320

AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNƏ, İCTİMAİ XADİMLƏRƏ AZƏRBAYCAN DÖVLƏTİNİN

YÜKSƏK MÜKAFATLARININ – ORDENLƏRİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ (7 mart 1999-cu i) 330

GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVAYA HƏSR EDİLMİŞ «ZƏRİFƏ XANIM ƏLİYEVA» KİTAB-ALBOMUNUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ (14 aprel 1999-cu il) 342

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN ELMİ TƏDQİQAT AĞ CİYƏR XƏSTƏLİKLƏRİ İNSTİTUTU BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ (26 iyun 1999-cu il) 344

AZƏRBAYCANIN TƏHSİL İŞÇİLƏRİ VƏ BU İL ALİ MƏKTƏBLƏRƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDƏ NİTQ (31 avqust 1999-cu il) 350

YUSİF MƏMMƏDƏLİYEV ADINA NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN YENİ TƏDRİS KORPUSUNUN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ (11 oktyabr 1999-cu il) 363

BİLKƏND UNİVERSİTETİNİN BANİSİ VƏ FƏXRİ REKTORU, DÜNYA ŞÖHRƏTLİ ALİM İHSAN DOĞRAMACI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN (27 noyabr 1999-cu il) 368

SÜLEYMAN DƏMİRƏL ADINA UNİVERSİTETİN FƏXRİ DOKTORU ADININ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ (28 noyabr 1999-cu il) 370

BAKI DÖVLƏT UNİVERSİTETİNİN 80 İLLİYİ MÜNASİBƏTİLƏ BDU-nun VƏ BİR SIRA XARİCİ ÖLKƏ UNİVERSİTETLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ (11 fevral 2000-ci il) 380

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ (19 iyun 2000-ci il) 396

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ PREZİDENTİ, MİLLİ MƏCLİSİN DEPUTATI, AKADEMİK FƏRAMƏZ QƏZƏNFƏR OĞLU MAQSUDOV İLƏ VİDALAŞMA MƏRASİMİNDƏ ÇIXIŞ (31 iyul 2000-ci il) 406

MƏŞHUR NORVEÇ SƏYYAHI TUR HEYERDAL VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT (2 sentyabr 2000-ci il) 409

RESPUBLİKAMIZIN ƏN BÖYÜK VƏ NÜFUZLU ALİ TƏHSİL OCAQLARINDAN OLAN AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASININ 80 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ (15 dekabr 2000-ci il) 418

AZƏRBAYCAN PREZİDENTİNƏ ANKARA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ (16 mart 2001-ci il) 428

GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ ƏDƏBİ-BƏDİİ GECƏDƏ ÇIXIŞ (28 aprel 2001-ci il).....436

AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT, TİBB, BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN XADİMLƏRİNİN BİR QRUPUNA MÜSTƏQİL DÖVLƏTİMİZİN ALİ MÜKAFATLARININ – «İSTİQLAL» VƏ «ŞÖHRƏT» ORDENLƏRİNİN TƏQDİMETMƏ MƏRASİMİNDƏ ÇIXIŞ (6 iyul 2001-ci il).....440

MÜSTƏQİL AZƏRBAYCANIN ALİ MÜKAFATLARININ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ NİTQ (6 iyul 2001-ci il) 444

BİLİK GÜNÜ VƏ YENİ DƏRS İLİNİN BAŞLANMASI MÜNASİBƏTİLƏ BAKININ SƏBAİL RAYONUNDAKI TOFİQ İSMAYILOV ADINA RİYAZİYYAT VƏ İNFORMATİKA TƏMAYÜLLÜ 6 SAYLI MƏKTƏB-LİSEYDƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ (1 sentyabr 2001-ci il) 448

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ (25 yanvar 2002-ci il) 456

ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANIN DİN, ELM VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞÜNDƏ NİTQ (22 may 2002-ci il) 460

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN 70 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ (13 iyun 2002-ci il) 464

BİLKƏND UNİVERSİTETİNDƏ İHSAN DOĞRAMACININ ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ (26 iyun 2002-ci il).....475
QARS ŞƏHƏRİNDƏ QAFQAZ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ (28 iyun 2002-ci il) 482

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNİN YARADILMASINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ (12 avqust 2002-ci il) 490

FRANSA BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNUN DİREKTORU TYERİ DÖ MONBRİAL İLƏ GÖRÜŞDƏ SÖHBƏT (4 sentyabr 2002-ci il) 501

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN (UNİVERSİTETİNİN) FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ (24 sentyabr 2002-ci il) 504

PREZİDENT HEYDƏR ƏLİYEV BAKIDA AZƏRBAYCAN ƏDƏBİYYATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, BÖYÜK ŞAİR VƏ DRAMATURQ HÜSEYN CAVİDİN EV – MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ (24 oktyabr 2002-ci il) 519

AZƏRBAYCAN ƏDƏBİYYATININ GÖRKƏMLİ NÜMAYƏNDƏSİ, BÖYÜK ŞAİR VƏ DRAMATURQ HÜSEYN CAVİDİN EV-MUZEYİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ (24 oktyabr 2002-ci il) 527

2. FƏRMANLAR. SƏRƏNCAMLAR

«İSTİQLAL» ORDENİ İLƏ TƏLTİF EDİLƏNLƏR 531

«ŞÖHRƏT» ORDENİ İLƏ TƏLTİF EDİLƏNLƏR 532

AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA 536

«KİTABİ-DƏDƏ QORQUD» EPOSUNUN ALMANİYANIN DREZDEN ŞƏHƏRİNİN KRAL KİTABXANASINDA SAXLANILAN ƏLYAZMASININ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ BAĞIŞLANMIŞ FAKSİMİLESİNİN AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNA VERİLMƏSİ HAQQINDA 541

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 543

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ BİR SIRA MÜƏSSİSƏLƏRİNİN ÖZƏLLƏŞDİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI (29 mart, 2001-ci il) 544

AZƏRBAYCAN ƏLİFBASI VƏ AZƏRBAYCAN DİLİ GÜNÜNÜN TƏSİS EDİLMƏSİ HAQQINDA.....545

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİ 547

HÜSEYN CAVİDİN 120 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTİNİN SƏRƏNCAMI 549

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NİZAMNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 551

AZƏRBAYCAN MILLI ELMLƏR AKADEMIYASININ NIZAMNAMƏSI 552

3. MƏKTUBLAR. TƏBRİKLƏR

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİ HƏYATA KEÇİRƏN AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN AKADEMİK AZAD MİRZƏCANZADƏYƏ TƏBRİK MƏKTUBU (28 sentyabr 1993-cü il).....566

AZƏRBAYCAN RESPUBLİKASI ELMLƏR AKADEMİYASININ VİTSE-PREZİDENTİ, AKADEMİK ZİYA BÜNYADOVA (20 dekabr 1993-cü il) 567

AKADEMİK ELDAR SALAYEVƏ (24 dekabr 1993-cü il) 568

MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNƏ (25 noyabr 1994-cü il) 569

AKADEMİK İMAM MUSTAFAYEVƏ (23 fevral 1995-ci il)....570

AZƏRBAYCANIN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ (12 oktyabr 1995-ci il)....571

ƏMƏKDAR ELM XADİMİ SARA XANIM AŞURBƏYLİYƏ (26 yanvar 1996-cı il)....572

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ MARK DALİNƏ (21 aprel 1996-cı il)....573

DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ MÜNASİBƏTİLƏ DƏRBƏND ŞƏHƏRİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA (15 iyul 1996-cı il) 574

AZƏRBAYCAN ELMİ-TƏDQİQAT OFTALMOLOGİYA İNSTİTUTUNA (11 oktyabr 1996-cı il) 575

YUSİF MƏMMƏDƏLİYEV ADINA NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNƏ (Bakı şəhəri, 29 oktyabr 1997-ci il) 576

DÖVLƏT MÜKAFATLARI LAUREATI, GENERAL - LEYTENANT KƏRİM KƏRİMOVA (Bakı şəhəri, 10 noyabr, 1997-ci il) 577

HEYKƏLTƏRAŞ ÖMƏR ELDAROVA (20 dekabr 1997-ci il) 578

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ PREZİDENTİ AKADEMİK FƏRAMƏZ MAQSUDOV CƏNABLARINA, AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVLƏRİNƏ (24 may 1998-ci il) 580

ZAQAFQAZİYA DÖVLƏTLƏRİ ONKOLOQLARININ BİRİNCİ KONQRESİNƏ (2 noyabr 1998-ci il) 581

AZƏRBAYCAN DÖVLƏT NEFT SƏNAYESİ ELMİ TƏDQİQAT VƏ LAYİHƏ İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA (2 mart 1999-cu il)....582

GÖRKƏMLİ SƏYYAH VƏ ALİM TUR HEYERDALA (4 oktyabr 1999-cu il) 584

MƏMMƏD ƏMİN RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNƏ (28 dekabr 1999-cu il) 585

AZƏRBAYCAN ELMİ-TƏDQİQAT ƏKİNÇİLİK İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA (18 may 2000-ci il)....587

AZƏRBAYCAN TİBB UNİVERSİTETİNƏ (17 iyun 2000-ci il) 589

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ (15 avqust 2000-ci il)....591

QAFQAZIN ARXEOLOGİYA VƏ ETNOQRAFİYASINA HƏSR OLUNMUŞ BEYNƏLXALQ ELMİ KONFRANSA (26 sentyabr 2000-ci il)....593

AZƏRBAYCAN DÖVLƏT NEFT AKADEMİYASINA (14 dekabr 2000-ci il) 595

AZƏRBAYCAN ELMİ-TƏDQİQAT VƏ LAYİHƏ-KONSTRUKTOR NEFT MAŞINQAYIRMASI İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA (19 dekabr 2000-ci il) 597

M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ AKADEMİKİ CƏNAB VİKTOR SADOVNİÇİYƏ (5 fevral 2001-ci il) 599

AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASINA (6 aprel 2001-ci il) 600

ZAQAFQAZİYA ÖLKƏLƏRİ ONKOLOQLARININ İKİNCİ KONQRESİNİN İŞTİRAKÇILARINA (17 may 2001-ci il) 602

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN MİLLİ ONKOLOGİYA MƏRKƏZİNİN ƏMƏKDAŞLARINA (17 may 2001-ci il)....604

PROFESSOR FƏRMAN SALMANOVA (26 iyul 2001-ci il) 606

PROFESSOR ƏZİZƏ XANIM CƏFƏRZADƏYƏ (28 dekabr 2001-ci il)....607

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNƏ (12 iyun 2002-ci il)....608

QARA DƏNİZ HÖVZƏSİ ÖLKƏLƏRİNİN UNİVERSİTETLƏRİ ŞƏBƏKƏSİNİN II KONQRESİNƏ (11 sentyabr 2002-ci il) 610

«QAFQAZIN ARXEOLOGİYA VƏ ETNOLOGİYASI» KONFRANSININ İŞTİRAKÇILARINA (30 sentyabr 2002-ci il)....611

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FƏXRİ ÜZVÜ, LENİN MÜKAFATI VƏ SSRİ DÖVLƏT MÜKAFATLARI LAUREATI KƏRİM KƏRİMOVA (14 noyabr 2002-ci il) 612

«VOPROSI İSTORİİ» JURNALININ BAŞ REDAKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ MÜXBİR ÜZVÜ CƏNAB ƏHMƏD İSGƏNDƏROVA (20 noyabr 2002-ci il)....613

TİBB ELMLƏRİ AKADEMİYASININ HƏQİQİ ÜZVÜ ARKADİ PAVLOVİÇ NESTEROVA (19 iyun 2003-cü il)....614

HEYDƏR ƏLİYEV

Azərbaycan elminin keşiyində

SƏNƏDLƏR VƏ MATERİALLAR

II cild

«Turxan» Nəşriyyat-Poliqrafiya Birliyi
"Çaşıoğlu" mətbəəsi.